AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN
HƏRBİ AKADEMİYASI

MEHMAN SÜLEYMANOV

# ŞAH İSMAYIL SƏFƏVİ

«Elm və təhsil»
Bakı – 2018

**Məsləhətçi** **Heydər Piriyev**
*Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi, general-leytenant*

**Elmi redaktorlar:** **Şahin Fazil (Şahin Fazil oğlu Fərzəliyev)**
*Tarix elmləri doktoru, professor*

**Səməd Bayramzadə**
*Tarix üzrə fəlsəfə doktoru*

Mehman Süleymanov. Şah İsmayıl Səfəvi.
Bakı, Elm və təhsil, 2018, 824 səh.

Kitab Azərbaycan xalqının dövlətçilik tarixində yeni bir səhifə açmış, Səfəvilər sülaləsinin əsasını qoymuş, görkəmli sərkərdə, məharətli döyüşçü, istetdadlı şair Şah İsmayıl Səfəvinin həyat və fəaliyyətinə həsr edilmişdir. İlkin mənbələrin araşdırılmasına geniş yer verilməklə kitabda Şah İsmayılın əcdadları, dini-siyasi baxışlarının məzmunu və mahiyyəti, şəxsiyyətinin xüsusiyyətləri əhatəli şəkildə araşdırılaraq oxucuların diqqətinə təqdim olunmuşdur.

**ISBN 978-9952-8176-9-0**

**© Mehman Süleyman 2018**

# GİRİŞ

Təqdim olunan hazırkı kitab Azərbaycan xalqının dövlətçilik tarixində, hərbi, dini, ədəbi həyatında dəyərli xidmətləri olan Şah İsmayıl Səfəvinin həyat və fəaliyyəti haqqındadır. Yaşadığı dövrdən 500 ildən artıq ötməsinə baxmayaraq bu böyük şəxsiyyətin həyat və fəaliyyətinə olan maraq bu gün də öz aktuallığını itirməyibdir və yəqin ki, heç zaman da itirməyəcəkdir. Çünki Şah İsmayıl bəşər tarixinin yetişdirdiyi tək-tək fenomen şəxsiyyətlərdən biridir və ona görə də elə anadan olduğu gündən də ən müxtəlif əsərlərin mövzu obyekti olaraq qalmaqdadır.

Doğrudur, Şah İsmayılın həyat yoluna işıq salmış əsərlərin heç də hamısında Azərbaycan xalqının yetişdirdiyi bu tarixi şəxsiyyətə eyni dərəcədə rəğbətli və səmimi münasibəti, obyektiv yanaşmanı görmək mümkün deyildir. Bununla belə, neçə əsrdir ki, Şah İsmayılın həyatının tarixi mənzərəsinin yaradılması istiqamətində davamlı tədqiqatlar aparılsa da, bu işin yekunlaşdığını söyləmək mümkün deyil. Çünki Şah İsmayıl özündən sonra elə bir sönməz irs qoyub gedib ki, hər yeni tədqiqat bu irs haqqında yeni-yeni elmi-tarixi qənaətlərin ortaya qoyulmasına imkan yarada bilər.

Şah İsmayılın həyat yolunun öyrənilməsi hər şeydən əvvəl Azərbaycan tarixinin Səfəvilər dövrünün öyrənilməsi baxımından əhəmiyyət kəsb edir. Səfəvilərin rəhbərliyi altında formalaşmış hərəkatın siyasi məzmun kəsb etdiyi XV əsr Azərbaycanın və eləcə də bölgənin tarixinin mühüm bir dövrü idi. Siyasi dağınıqlıq, hərbi proseslərin dinamikliyi, Teymurilər dövləti ilə, Osmanlı dövlətinin bölgənin hərbi-siyasi həyatına təsir gücünün artması kifayət qədər mürəkkəb və qeyri-sabit bir həyatın meydana çıxmasına yol açmışdı. Belə bir zamanda Səfəvi təriqət hərəkatının siyasi məzmun kəsb etməsinin, bu hərəkatın Şah İsmayılın (İsmayıl Mirzənin) rəhbərliyi altında öz inkişafını tapmasının hansı nəticələrə gətirib çıxarması, bölgə xalqlarının həyatında hansı rol oynaması sözsüz ki, obyektiv araşdırma və tədqiqatla üzə çıxarıla bilər. Şah İsmayılın tarixinin öyrənilməsi onun dövründə bölgədə cərəyan edən hərbi-siyasi proseslərin obyektiv mənzərəsinin yaradılmasına, bu proseslərin mahiyyətinin düzgün dəyərləndirilməsinə da yol açmış olardı.

Şah İsmayıl tarixinin öyrənilməsi Azərbaycanın dövlətçilik tarixinin və ənənələrinin, mərkəzləşdirilmiş Azərbaycan dövlətçiliyinin təcrübəsinin ortaya çıxarılması, konkret tarixi şəraitdə və eləcə də ötən tarix boyu bu təcrübənin Azərbaycan tarixindəki yerinin müəyyənləşdirilməsi və ümumiləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Şah İsmayıl tarixinin öyrənilməsi, ümumən, Səfəvi təriqət hərəkatının mahiyyətinin öyrənilməsinə, bu hərəkatın Azərbaycanın və bölgənin ictimai-siyasi və dini həyatında oynadığı rolu müyyənləşdirməyə imkan verərdi. Səfəvi təriqə-

tinin formalaşmasından Şah İsmayıl hərəkatının başlandığı vaxta qədər təxminən iki əsrlik bir fasilə vardır. Bu dövr ərzində Səfəvi təriqət hərəkatının zəifləməməsi, əksinə, onun coğrafiyasınnı daha da genişlənməsi və özünə daha çox tərəfdar qazanması özü maraqlı bir tarixi hadisədir. Şah İsmayıl hərəkatının mahiyyətinin düzgün dəyərləndirilməsi üçün Səfəvi təriqət hərəkatının tarixinin, məqsəd və vəzifələrinin öyrənilməsinə ehtiyac vardır. Bununla bir tərəfdən Səfəvi təriqət hərəkatı ilə Şah İsmayıl hərəkatı arasındakı qarşılılıqlı əlaqələrin mahiyyətinin və qarşılıqlı təsirlərinin mənzərəsi yaradılmış olar, digər tərəfdən də Səfəvi təriqət hərəkatının Azərbaycan xalqının ictimai-dini fikir tarixində yeri müəyyənləşdirilmiş olardı.

Şeyx Səfiəddindən başlayaraq Şah İsmayıla qədər Səfəvi təriqət hərəkatına rəhbərlik etmiş mürşidi-kamillərin hər birinin də ayrılıqda həm Azərbaycanın ictimai-dini fikir tarixində, həm də bu hərəkatın zirvəsi kimi Şah İsmayılın şəxsiyyətinin formalaşmasında hansı özünəməxsus rolun olması da aparılan tədqiqatla ortaya qoyula bilər. Eyni zamanda Azərbaycan türklərinin bu hərəkatın formalaşmasında və inkişafındakı yerinin müəyyənləşdirilməsi də Şah İsmayıl hərəkatının konkret məqamlarının öyrənilməsi üçün əhəmiyyət kəsb edir. Bununla, Səfəvi təriqət hərəkatının və Səfəvi dövlətinin mənşəyi ilə bağlı elmi-tarixi müzakirələrə çıxarılan bir sıra məsələlərə də aydınlıq gətirmək olar. Ümumən, Səfəvi dövlətinin Azərbaycan və eləcə də qonşu xalqların dövlətçilik tarixindəki yerinin və rolunun müəyyənləşdirilməsi də Şah İsmayılın tarixinin öyrənilməsini kifayət qədər aktuallaşdırmaqdadır. Şah İsmayıl bu dövlətin yaradıcısı idi və dövlətin əsasları da onun tərəfindən müəyyənləşdirilmişdi. Səfəvi dövlətinin uzunömürlüyünü, Şah İsmayıl dövründə onun daxili sabitliyini, nizamını, idarəçilik sistemini, idarəçilik təfəkkürünü qiymətləndirmək baxımından da Şah İsmayıl tarixinin öyrənilməsi aktual məsələdir.

Aparılan tədqiqatla Səfəvi təriqət hərəkatının nə üçün siyasi məzmun kəsb etməsinə də bir aydınlıq gətirmək mümkündür. Buna bir ehtiyac var idimi, Səfəvi təriqət hərəkatının siyasi məzmun kəsb etməsi insanların ictimai-siyasi ehtiyaclarına cavab verirdimi, bu hərəkatın ictimai bazası necə formalaşmışdı və hansı qüvvələr üzərində formalaşmışdı kimi suallara cavab tapılması elmi-tarixi aktuallıq kəsb etməkdədir.

Şah İsmayıl tarixinin öyrənilməsi hər şeydən əvvəl elə onun özünün fenomen bir şəxsiyyət kimi xarakterinin açılması baxımından zəruridir. Necə oldu ki, Şah İsmayıl Səfəvi təriqət hərəkatının canlı qalmasını təmin etdi, kiçik yaşlarında olmasına baxamayaraq Səfəvi müridlərinin onun ətrafında səfərbər olmasına müvəffəq oldu, ətrafındakı bir neçə nəfərlə bölgənin siyasi mənzərəsini dəyişə biləcək bir hərəkata başladı, bu hərəkatı uğurla başa çatdırdı, Səfəvi dövləti kimi böyük və qüdrətli bir dövlətin əsasını qoydu, onun yaşarlılığına zəmin yaratdı və s. kimi sullara yalnız düzgün və obyektiv tədqiqatla cavab vermək mümkündür. Bu dini-siyasi hərəkatın formalaşmasında, ona rəhbərlik edilməsində, bölgədə mövcud olan dövlətlərə meydan oxunmasında Şah İsmayılın hələ kiçik yaşlarında təsirli rolunun olması təəccüb və heyrət doğura

bilər. Aparılan əhatəli tədqiqatla bu suala da cavab tapmaq olar ki, həmin heyrət və təəccüb dorğuan tarixi hadisə təsadüf idi, qanunauyğun bir nəticə idi, yoxsa Şah İsmayılın adına çıxılmış bir hərəkat idi. Şah İsmayıl hərəkatının ictimai bazasının, onun hərəkətverici qüvvələrinin, Şah İsmayılın özünün bu hərəkatdakı rolunun müəyyənləşdirilməsi də tədqiqat qarşısında dayanan vəzifələrdəndir. Şah İsmayılın dünya tarixində fenomen şəxsiyyət kimi parlamasının səbəblərini müəyyələşdirmək üçün onun yeni dövlət qurulması sahəsindəki təşəbbüskarlığının, ardıcıllığının, qətiyyətinin, inanclarının, əqidəsinin, ictimai-siyasi dəyərlərinin araşdırılmasına ehtiyac vardır.

Şah İsmayılın fatehlik və cəngavərlik keyfiyyətlərinin açıqlanması üçün də ciddi tədqiqata ehtiyac vardır. Azərbaycan tarixində Şah İsmayıl yalnız böyük dövlət xadimi kimi yox, həm də böyük fateh, sərkərdə və cəngavər kimi yadda qalmışdır. Aparılan tədqiqatla Şah İsmayıl hərəkatının, onun hərbi-siyasi fəaliyyətinin, ümumən, Səfəvi dövlətinin hərb işinin Azərbaycanın hərb tarixində hansı yerə malik olmasını dəyərləndirmək mümkündür. Şah İsmayılın hərbi keyfiyyətlərini, hərbi idarəçilik bacarığını, hərbi duyumunu, sərkərdəlik qabiliyyətini, səfərbəretmə bacarığını araşdırmadan onun xarakterini tam şəkildə açmaq mümkün deyil. Başlanan böyük bir hərəkatın uğurla tamamlanmasında, bölgə dövlətlərinin çox böyük sayda qoşunlarına üstün gəlinməsində, səltənət sərhədlərinin sürətlə genişləndirilməsində və onların müdafiəsində əsas yeri sözsüz ki, Səfəvi qoşunlarının fəaliyyəti tuturdu. Bu qoşunların təşkilatlanmasında, qoşunların bütün gücünün hərbi vəzifələrin icrasına səfərbər edilməsində, bu qoşunların döyüş zamanı istiqamətləndirilməsində Şah İsmayılın rolunun aydınlaşdırılması da özünəməxsus əhəmiyyət və aktuallıq kəsb edir.

Aparılan tədqiqatla həm də Şah İsmayılın döyüşkənlik məharətinin və qabiliyyətinin hansı səviyyədə olmasına, Şah İsmayılın başqa sərkərdələrdən nə ilə fərqlənməsinə bir aydınlıq gətirmək olar. Çünki Şah İsmayıl özü yüksək döyüş məharətinə malik olmasaydı yəqin ki, qoşunlarını da öz ardınca apara bilməzdi.

Şah İsmayıl Azərbaycan tarixində həm də Azərbaycan dilinin və Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri olan bir şəxs kimi qalmışdır. Onun hakimiyyəti illərində Azərbaycan dili adi bir ünsiyyət vasitəsi olmaqdan əlavə, həm də siyasi əhəmiyyət kəsb edirdi. Azərbaycan türkcəsi Şah İsmayıla qədər də kifayət qədər ciddi bir inkişaf yolu keçmişdi. Şah İsmayılın dövründə isə bu dilin cəmiyyətin və dövlətin həyatında hansı rol oynaması, hansı statusa sahib olması, hansı inkişafa malik olması da Şah İsmayılın xarakterini müəyyənləşdirən məqamlardandır. Azərbaycan dilinin inkişaf və istifadə səviyyəsi həm də Səfəvi dövlətinin mənşəyinin müəyyənləşdirilməsi üçün əhəmiyyət kəsb edə bilər.

Şah İsmayılın eyni zamanda Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus rolu vardır. Bu rolun nədən ibarət olması, Şah İsmayılın şəxsində Azərbaycan ədəbiyyatının necə inkişaf etməsi, forma və məzmun rəngarəngliyinin aydınlaşdırılması, bu ədəbiyatın xalq həyatına və Azərbaycanın ədəbi ənənələrinə necə bağlı olması məsələlərinin aydınlaşdırılması da Şah İsmayıl tarixinin öyrənilməsinin maraqlı nəticələrindən biri ola bilər.

Şah İsmayıl tarixinin öyrənilməsi üçün istər Azərbaycan tarixşünaslığında, istər İran və Türkiyə tarixşünaslığında, istərsə də sovet və qərb tarixşünaslığında xeyli tədqiqatlar aparılmışdır. Yəni, Şah İsmayılın şəxsiyyətinə, onun fəaliyyətinin tarixiliyinə maraq hər zaman tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Sösüz ki, əhatə dairəsinə, elmi dərinliyinə görə bu tədqiqatların heç də hamısı eyni səviyyədə deyil. Əslində, bu tədqiqatların aparılması zamanı qarşıya qoyulan məqsəd də eyni deyildir. Obyektiv yanaşmanı, mənbə materiallarının tərəfsiz dəyərləndirilməsini, tarixi hadisələrin real mənzərəsini özündə əks etdirən çoxlu sayda araşdırmalarla bərabər, bir tərəfli, mübahisəli fikirlərlə zəngin olan, bəzən isə səthi araşdırmalara da rast gəlmək mümkündür. Şah İsmayılın şəxsiyyəti üzərinə kölgə salmaq üçün hətta bəzi hallarda faktların dəyərləndirilməsinə qərəzli yanaşılması ilə də rastlaşmaq mümkündür və hazırkı araşdırmada bununla bağlı konkret faktlar da göstərilmişdir. Elmi araşdırmada mövzu obyektinə açıq qərəzçilik nümayiş etdirməklə isə düzgün elmi qənaətlərə gəlmək mümkün deyildir. Şah İsmayıl tarixinin əhatəli şəkildə öyrənilməsi onun tarixi fəaliyyətini şübhə altına almaq meyllərinə düzgün münasibət ortaya qoyulması baxımından da elmi əhəmiyyət kəsb edir.

Amma Şah İsmayıl elə bir fenomenal tarixi şəxsiyyətdir ki, onun davamlı və özü də müxtəlif prizmalardan öyrənilməsinə ehtiyac vardır. Əgər obyektiv yanaşıldıqda belə hər bir tədqiqatçının ixtisaslaşma səviyyəsi, tədqiqatçılıq təcrübəsi, təfəkkür dərinliyi Şah İsmayıl şəxsiyyətinin və onun tarixi fəaliyyətinin yeni-yeni maraqlı məqamlarının üzə çıxarılmasına imkan verə bilər. Bununla belə, Şah İsmayıl tarixinin öyrənilməsi sahəsində bu günə qədər işıq üzü görmüş elmi-tədqiqat əsərlərinin müsbət və maraqlı tərəflərinin kənara qoyulması da doğru olmazdı.

Şah İsmayılın həyat və fəaliyyətinin öyrənilməsində akademik Ramiz Mehdiyevin, akademik Yaqub Mahmudovun, Milli Elmlər Akademiyasının mərhum müxbir üzvü Oqtay Əfəndiyevin, professor Şahin (Fərzəliyevin) Fazilin, tarix elmləri doktoru Tofiq Nəcəflinin, habelə Mirzə Abbaslının, Namiq Musalının, Zəfər Bayramlının və digərlərinin dəyərli xidmətləri vardır. Adları çəkilən müəlliflərin işıq üzü görmüş bir çox maraqlı əsərləri Şah İsmayıl tarixinin öyrənilməsi və üzə çıxarılması sahəsində böyük elmi-tarixi əhəmiyyətə malikdir.

Şah İsmayılın və bütünlükdə Səfəvilər dövlətinin tarixinin öyrənilməsi üçün zəngin mənbə də mövcuddur. Bu mövzu istər Şah İsmayılın hakimiyyəti dövründə, istər ondan qabaq və istərsə də ondan sonra həm bölgədə, həm də bölgədən kənarda meydana gəlmiş çoxlu sayda əsərlərdə öz əksini tapmışdır. Şah İsmayıl elə bir nəslin nümayəndəsi idi ki, bu nəslin fəaliyyəti bölgə xalqları üçün XIII əsrdən başlayaraq əhəmiyyət kəsb edirdii. Ona görə də bu fəaliyyət müxtəlif əsərlərin mövzu obyekti olmuşdu. Həmin mənbələrin xeyli hissəsi elmi-tarixi dövrüyyəyə gətirilmişdir. Amma şübhə yoxdur ki, Şah İsmayılın və Səfəvi dövlətinin tarixi ilə bağlı bütün mənbələrin heç də hamısı hələ bütünlüklə elmi dövriyyəyə gətirilməmişdir. Gələcək tədqiqatlar yəqin ki, bu tarixlə bağlı

yeni və maraqlı mənbələri də elmi dövriyyəyə gətirəcək və onlar da Şah İsamyıl tarixinin daha dərindən öyrənilməsinə zəmin yaradacaqlar.

Şah İsmayılın tarixi ilə bağlı elmi dövriyyədə olan bir çox mənbələrin materiallarına isə tənqidi yanaşılmasına ehtiyac vardır. Mənbələrdə biri digərinin təsdiqini tapmayan və ya konkret hadisələrə müxtəlif mənbələrdə müxtəlif yanaşma olan hallarla rast gəlmək mümkündür. Buna görə də Şah İsmayıl tarixinin düzgün öyrənilməsi üçün mənbələr üzərində müqayisəli işin aparılması, tarixi yanaşmanın tətbiq edilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Hazırkı araşdırma Şah İsmayıl tarixinin öyrənilməsi istiqamətində Azərbaycan tarixşünaslığında aparılmış dəyərli işlərin davamı kimi nəzərdə tutulmuşdur. Bu araşdırmada Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin öyrənilməsinə daha çox diqqət ayrılsa da, Şah İsmayıll tarixinin ümumiləşdirilməsinə də cəhd göstərilmişdir. Müəllif mənbələrin və ədəbiyyatın toplanmasında, habelə kitabın hazırlanmasında dəyərli kömək və məsləhətlərini əsirgəməyən professor Şahin Fazilə, tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadəyə, tarix üzrə fəlsəfə doktoru Namiq Musalıya, Azərbaycanın Türksoydakı nümayəndəsi Elçin Qafarova, Milli kitabxananın əməkdaşı İradə Qulamovaya, polkovnik Arif Həsənova, polkovnik Rəşad Tahirova öz səmimi minnətdarlığını bildirir. Ümid edilir ki, bu araşdırma Şah İsmayıl tarixini öyrənənlər tərəfindən maraqla qarşılanacaqdır.

# I FƏSİL

# ŞAH İSMAYILIN ƏCDADLARI

## 1. Şah İsmayılın ulu əcdadları

Səfəvi xanədanının Azərbaycan tarixində və bütünlükdə Şərqdə tanınması Şah İsmayıl Səfəvinin ulu babası, islam aləminin böyük mütəfəkkiri, elm və kəramət sahibi, Səfəvilər xanədanının banisi sayılan Şeyx İsaq Səfiəddin Ərdəbilinin adı ilə bağlıdır. Şah İsmayıl tərəfindən XVI əsrin əvvəlində əsası qoyulan Səfəvilər dövlətinin adı da Şeyx Səfiəddinin adından qaynaqlanır. Zəmanəsinin böyük zəka sahibi olan Şeyx Səfidəddin həm də Səfəvilər təriqətinin yaradıcısı idi və bu təriqət ətrafında formalaşan ictimai-dini fikirlər sonradan siyasi məzmun kəsb etməklə yeni dövlət qurulması uğrunda aparılan mübarizənin ideoloji istiqamətlərindən birinə çevrildi.

Şeyx Səfinin ölümündən sonra onun həyatı və fəaliyyəti haqqında İbn Bəzzazın yazdığı «Səfvətüs-səfa» əsərində bu böyük mürşüdün və ürfan sahibinin dünyaya gəlişi islam peyğəmbərinin müqəddəs hədislərindən biri ilə əlaqələndirilmişdir. Həmin hədisə görə, həzrət peyğəmbər bildirirmiş ki, hər yüz ilin əvvəlində islam dininin təbliğini və canlandırılmasını öz üzərinə götürəcək bir təriqət və mərifət sahibi meydana gələcək və insanlar arasında haqqa dəvət yolunu tutacaqdır. Həzrət peyğəmbərin bu hədisinin təsdiqi kimi, adı çəkilən əsərdə bildirilir ki, hicrətin birinci əsrində imam Cəfər, ikinci əsrində Əbülfeyz Misri, üçüncü əsrində Seyid Əbülqasım ibn Cüneyd, dördüncü əsrində Şeyx əbu Əli əl Dəqqaq, beşinci əsrində Şeyx Nəsr ibn İbrahim, altıncı əsrində Şeyx Şəhabəddin Ömər Sührəverdi və yeddinci əsrində Şeyx Səfiəddin düynana gəlmiş və islam dininin və elminin yaşadılması və canlandırılması sahəsində şeyxlik və zahidlik missiyasını həyata keçirmişdilər (1). Yəni, Şeyx Səfiəddin islam aləmində bütün dövrlər üçün son dərəcə böyük məqam kəsb edən bir zahid və ürfan əhli kimi tanınmış və tanınmaqdadır.

Şeyx Səfiəddinin əcdadlarının kökünün peyğəmbər nəslinə qədər uzandığı bildirilir və bununla bu xanədanın dərin etiqad sahibi olması mənbələrdə xüsusi olaraq qeyd edilir. Doğrudur, Şeyx Səfiəddinin nəsil şəcərəsinin peyğəmbər nəslinə bağlanması elmi-tarixi ədəbiyyatda birmənalı şəkildə qəbul edilmir. Bununla belə, mənbələrdə Şeyx Səfinin əcdadlarının nəsil şəcərəsi belə göstərilmişdir: Şeyx Səfidəddin ibn (oğlu) Şeyx Əminəddin Cəbrayıl ibn Qütbəddin ibn Səlahəddin ibn Məhəmməd əl-Hafiz ibn Əvəz ibn Firuzşah Zərrin Kolah ibn Məhəmməd ibn Şərəfşah ibn Məhəmməd ibn Həsən ibn Seyid Məhəmməd ibn İbrahim ibn Seyid Cəfər ibn Seyid Məhəmməd ibn Seyid İsmayıl ibn Seyid Məhəmməd ibn Seyid Əhməd Ərabi ibn Seyid Qasım ibn Seyid Əbülqasım

Həmzə ibn Musa əl-Kazım ibn Cəfər əs-Sadiq ibn Məhəmməd Bağır ibn Zeynalabdin ibn Hüseyn ibn Əli ibn Əbu Talib (2).

Göründüyü kimi, Şeyx Səfiəddinin nəsil şəcərəsi imam Musa əl-Kazıma bağlanılır və mənbələrdə göstərilir ki, imam övladlarından sonra bu nəslin ilk tanınmış üzvlərindən biri Firuzşah idi. Onun haqqında mənbələrdə müəyyən məlumatlara da rast gəlmək mümkündür. Həmin məlumatlara görə, Şeyx Səfi nəslinin Ərdəbildə məskunlaşması da Şeyx Səfinin beşinci babası Firuzşahın adı ilə bağlıdır və onun Ərdəbildə məskunlaşması təxminən VIII-IX əsrlərə aid edilir.

Mənbə məlumatlarına əsasən, VIII əsrdə yaşamış təriqət sultanlarından olan İbrahim Ədhəmin övladlarından biri Qafqazda, Azərbaycanda, Azərbaycanın Aran və Muğan bölgələrində islam dininin yayılması üçün cihada qalxmışdı. Bu bölgədə yaşayan əhali o zamanlar həm xristian dininə, həm atəşpərəstliyə sitayiş edirdilər. İslam dini bu ərazilərdə bərqərar edildikdən sonra İbrahim Ədhəmin cihada qalxmış övladı Firuzşahı Ərdəbilin və onun ətrafının əmiri (hakimi) təyin edir. Bildirilir ki, Firuzşah həm etiqad sahibi olduğu və həm də dünyəvi işlər sahəsində təcrübəyə malik olduğu üçün bu vəzifəyə məsləhət bilinmişdi. Firuzşah da bu əmirliyi bacarıqla yerinə yetirdi və nəticədə kifayət qədər imkanlı və sərvətli bir şəxsə çevrildi. Deyilənə görə, Firuzşahın var-dövləti artandan sonra Xəzər dənizinin cənubunu əhatə edən Gilan vilayətində məskunlaşdı və burada da həm dinin təbliği ilə, həm də xeyriyyəçilik işləri ilə məşğul oldu. Səfəvilər xanədanının tarixi ilə bağlı olan mənbələrdə Firuzşah xeyirxah və hörmətli bir insan kimi xatırlanmaqdadır (3).

Başqa bir mənbənin verdiyi məlumata görə, Sultan İbrahim Ədhəmin oğlu olan Sultan Ədhəm Ərdəbil ətrafında yaşayan Firuzşah haqqında əvvəldən məlumatlı olmuş və bölgəyə gələndə özü onun görüşünə yollanmışdı. Firuzşah haqqında hətta belə söz-söhbətlər də yayılırmış ki, guya o öz nüfuzundan və gücündən istifadə etməklə ölkədə hakimiyyəti ələ keçirməyə çalışır. Bu barədə Sultan Ədhəmə də yerli-yersiz məlumatlar çatdırılırmış. Sultan Ədhəmin sözlərinə görə, o heç zaman bu söhbətlərə inanmırmış. Nəhayət o özü Firuzşahla görüşmək qərarına gəlir və ona görə də Ərdəbilə doğru səfərə başlayır. Firuzşah öz müridləri və yaxınları ilə Sultan Ədhəmin qarşılanmasına çıxır və böyük ehtiramla onu qarşılayır. Sultan Ədhəm onun evində qonaq olur və Firuzşahın ürfan əhli olması, böyük hörmət və nüfuz qazanması haqqında eşitdiklərini söyləyir. Sultan Ədhəm sonradan bildirirdi ki, görüşləri zamanı onun hakimiyyət niyyətində olmasını heç də hiss etmədi. Əksinə, özü ona hakimiyyət təklif edir. Firuzşah da onun təklif etdiyi hakimiyyətdən imtina edir. Belə olanda Sultan Ədhəm ona and verir ki, heç olmasa Ərdəbili tiyul kimi qəbul etsin. Onda Firuzşah edilən xahişi rədd edə bilmir. Bu xahiş qəbul olunduqdan sonra öz papağını çıxarıb Firuzşahın başına qoyur və onu "Firuzşah zərrinkolah" (zərpapaqlı) adlandırır (4).

Firuzşah (Şeyx Səfiəddinin peyğəmbər nəslinə bağlılığı və Firuzşahın etnik mənsubiyyəti ilə bağlı elmi dövriyyəyə çıxarılmış bəzi məlumatlara sonrakı fəsillərdə münasibət bildiriləcəkdir) dünyasını dəyişəndən sonra oğlu Əvəzşah

onun işlərini və vəzifəsini davam etdirdi. Amma atasından fərqli olaraq Əvəzşah yenidən Ərdəbil ətrafında məskunlaşmağı qərara aldı. O, müridləri və qohum-əqrəbası ilə Ərdəbilin İsfərəncan kəndinə gəldi və bu kənddə yaşamağa başladı. Əvəzşah da mənbələrdə müdrik və xeyirxah bir insan kimi xatırlanır və bunun nəticəsi idi ki, onun ətrafına müridlər də toplaşmışdı. Onun da işlərini sonradan oğlu Məhəmməd əl-Hafiz davam etdirdi. Məhəmmədin də hələ kiçik yaşlarından islam elminə bağlılığı haqqında məlumatlar vardır. Hətta belə bir məlumat da var ki, yeddi yaşında ikən Məhəmməd evdən qeyb olur və nə qədər axtarırlarsa onu tapa bilmirlər. Harada olması barədə xəbər çıxmayanda onun dünyasını dəyişməsi güman edilir və hətta ona yas mərasimi də qurulur, ehsan verilir. Bir də yeddi ildən sonra Məhəmməd evinə qayıdır və ondan harada olmasını soruşanda cavab verir ki, xəlvətə çəkilərək islam elminin öyrənilməsi ilə məşğul olmuşdu. Mənbələrə görə, Məhəmmədin xəlvətə çəkilməsi əslində cinlərin onu özləri ilə aparmasına bağlı idi. Hər halda məlumata görə, xəlvətdə olduğu yeddi il ərzində Məhəmməd Quranı bütünlüklə əzbərləmiş və fəzilətlərə yiyələnmişdi. Məhəmmədin qayıdışı sözsüz ki, böyük sevinclə qarşılandı və o, ata-babasının işlərini davam etdirməyə başladı. Məhəmməd həm dünyəvi, həm də dini işlərdə rəhbərlik səlahiyyətlərinə malik idi və mənbələrdə o da ətrafında çoxlu müridləri olan mürşid kimi xatırlanmaqdadır. Onun həm də mömin və ədalətli bir insan olduğu bildirilir (5).

Bəzi mənbələrdə Məhəmmədin itməsi rəvayət kimi təsvir edilmişdir. Məsələn, bildirilir ki, bir gün Əvəz evinin həyətində şagirdlərinə dərs verirmiş və oğlu Məhəmməd də bu dərsdə imiş. Bu vaxt evinin bir tərəfindən güclü ağlaşma səsi eşidir. Amma bu ağlaşmanın kimlər tərəfindən edildiyi görünmür. Həmin anda Məhəmmədin səsi eşidilir ki, ay ata, məni apardılar. Bununla Məhəmməd qeyb olur və nə edirlərsə onu tapa bilmirlər. Təəccüb və anlaşılmazlıq içərisində qalan Əvəz və onun müridləri bu itkiyə pərişan olub göz yaşı töksələr də bir nəticə hasil olmur. Onda, Əvəz deyir ki, mən övladımı Allaha tapşırdım və ümid edirəm ki, onunla bir də görüşə biləm. Beləcə 7 il ötür və bir gün Əvəz öz hücrəsində Allaha müraciətlə iltimas edir ki, oğlunu ona yetirsin. Bu zaman Əvəz əvvəlcə gülüş səsləri eşidir. Mənbələrdə bu gülüş səsinin cinlərə məxsus olduğu bildirilirdi. Sonra da oğlu onun qarşısında zühur edir. Məhəmmədin başında zərli papaq, belində zərli bir kəmər, boynunda həmayil var imiş. Atası üz-gözündən öpərək harada olmasını, qeyb olduğu zaman eşidilən ağlaşma səslərinin, zühur edərkən gülüş səslərinin sirrini ondan soruşur. Məhəmməd də ona bildirir ki, itməsinin səbəbi cinlər tərəfindən oğurlanması olmuşdu. Onun sözlərinə görə, cinlər padşahının 7 yaşında bir oğlu itkin düşübmüş. Cinlər padşahı öz cinlərindən tələb edir ki, onu tapsınlar. Bu axtarış zamanı cinlər Məhəmmədlə rastlaşırlar. Məhəmməd cinlər padşahının övladına oxşadığı üçün onun aparılması qərara alınır. Cinlər padşahı bildirir ki, Məhəmmədi yanında saxlayacaq. Əgər övladı tapılarsa, Məhəmməd geri qaytarılacaq. Əks təqdirdə Məhəmməd birdəfəlik onun yanında qalmalı idi. Cinlərin yanında olduğu müddətdə ona təlim verilir və Quran oxumaq öyrədilir. Əvəz Allaha üz tutaraq övladının

qayıtmasını iltimas edəndə cinlər padşahı onun səsini eşidir və Məhəmmədin geri qaytarılmasına razı olur. Beləliklə, Məhəmməd də öz ailəsinə qovuşur (6).

Məhəmmədin işlərini davam etdirən Səlahəddin Rəşid də əcdadlarına xas olan keyfiyyətlərə malik bir insan idi. O da həm idarəçilikdə, həm fəzilətdə, həm də xeyirxahlıqda ədalətli, bilikli və səxavətli bir şəxs kimi xarakterizə olunur. Mövcud məlumatlara görə, Səlahəddin halal zəhmətə üstünlük verər və özü də əkinçiliklə məşğul olarmış. Hətta müridlərinin gətirdiyi nəzir və niyazlardan uzaq qaçar və çalışarmış ki, öz zəhməti ilə özünü və ailəsini dolandırsın. Bu mənada o, həm zahid və həm də pəhrizkar bir fəzilət sahibi kimi tanınırdı. Səlahəddin Rəşid sonradan ailəsi və müridləri ilə Ərdəbilin yaxınlığındakı Kəlxuran kəndinə köçdü. Səfəvilər xanədanının sonrakı bir neçə təmsilçisi bu kənddə yaşadılar və yuxarıda qeyd edildiyi kimi, Şeyx Səfiəddin də bu kənddə anadan olmuşdu (7).

Səlahəddəin Rəşidin işlərini onun oğlu Seyid Qütbəddin davam etdirdi. Seyid Qütbəddin də ürfan sahibi olmaqla çoxlu sayda olan müridləri və yaxınları arasında islam elminin öyrədilməsi və təbliği ilə məşğul idi. Onun çoxlu sayda müridi olması mənbələrdə də qeyd olunur (8). Bildirilir ki, Seyid Qütbəddin müqəddəs və mütəşəkkil dəstənin başçısı və rəhbəri oldu. Bu da onu deməyə əsas verir ki, Seyid Qütbəddinin zamanında bu ürfan sahibinin ətrafında kifayət qədər təşkilatlanmış bir məktəb mövcud idi və Seyid Qütbəddin də onları öz mərhəmət və məhəbbət qanadının altına alaraq haqq yolu ilə aparırdı. Mənbələrdə xüsusi olaraq bildirilir ki, bu zaman Seyid Qütbəddin öz əcdadlarının yolunu davam etdirir, bu yolu təlim edir və onun müridləri də bu yolda olmağı özlərinə şərəf bilirdilər.

Seyid Qütbəddinin həyatı XIII əsrin əvvəllərinə təsadüf edir və həmin vaxt Azərbaycan əraziləri gürcü qoşunlarının basqınlarına məruz qalmışdı. Gürcü qoşunları öz talançı yürüşləri ilə Ərdəbilə qədər gəlib çıxmışdılar. 1210-1211-ci illərdə baş verən bu hücum zamanı bölgə əhalisi çox böyük dağıntı və qırğınlarla qarşılaşmalı oldu. Gürcü qoşunları Təbrizdən keçməklə Ərdəbilə doğru irəlilədilər. Bu şəhərin 12 min nəfər əhalisi gürcülər tərəfindən məhv edildi, şəhər əhalisi çox böyük talanlara məruz qaldı və hüdudsuz məhrumiyyətlərlə qarşılaşdı (9).

Mənbələrdə bildirilir ki, 12 min nəfərlik gürcü qoşunlarının Kəlxuran kəndi istiqamətində yürüşü haqqında məlumat alınanda Seyid Qütbəddin qadınların və uşaqların müdafiəsi üçün onları Ərdəbilə köçürdü və özü də müridləri ilə birlikdə bu şəhərə üz tutdu. Gürcülər şəhərdə talanlarla məşğul olduğu zaman Seyid Qütbəddin pənah apardığı yerdən kənara çıxan kimi hücuma məruz qaldı və qılınc zərbəsi aldı. Gürcülər onun bu zərbədən sonra dünyasını dəyişməsini güman edərək oradan uzaqlaşdılar. Amma müridləri onu taparaq müalicəsinə başladılar və o da tezliklə şəfa tapıb öz mürşidliyini davam etdirdi. "O əhvalatdan sonra bərəkətli və səxavətli nəsihət və rəhbərlik taxtı bəzənib, xalqın mürəkkəb və çətin işləri onun dürr tökən dilinin bəyanatından aşkar olurdu. O, özünün gözəl təbiətli, mübarək nəsəbli nəvəsi Səfi əl-həq vəl-həqiqə vəd-din İshaqın

səadətli təvəllüdü zamanında sağ və həyatda olub, bir neçə il o əzizi görməklə gözünü işıqlandırmışdır" (10).

"Aləmara-yi Şah İsmayıl" isə bu hadisəni belə təsvir edir: Baqrat xan Gürcüstanın çarı olduqdan sonra bölgəyə hücum etdi. O, peyğəmbər dinini öyrədən Seyid Qütbəddinin və onun müridlərinin öldürülməsi üçün 12 min nəfərik qoşunla Kəlxuran kəndi üzərinə yürüşə başladı. Seyid Qütbəddin bu xəbəri eşidəndə ailə üzvlərini, qadınları, müridlərini, ümumən 10 min nəfəri toplayıb Ərdəbilə sığındı. O, Ərdəbildə öz müridlərini yerli əhalinin evlərində gizlətdi. Baqrat xan bir aydan sonra Kəlxurana yetişdi və kəndin boşaldıldığını gördü. Seyid Qütbəddin haqqında soruşduqda isə ona bildirdilər ki, Ərdəbilə yollanıbdır. Bu xəbəri alınca Baqrat da qoşunu ilə Ərdəbilə yollandı. Gürcü qoşunları 3 gün şəhərdə qətl və qarətlə məşğul oldular. Dördüncü gün gürcü qoşunları şəhər kənarına çəkildikdə Seyid Qütbəddin də pənah apardığı evdən bayıra çıxdı ki, müridlərinin vəziyyətindən bir xəbər tutsun. Bu zaman təsadüfən şəhər küçələrində olan bir gürcü silahlısı onu gördü və əlindəki nizə ilə ona zərbə vurdu. Mənbədə xəbər verilir ki, bu zaman yaxınlıqdakı evin damından bir xanım bu mənzərəni seyr edirmiş. Seyid Qütbəddini tanıyan bu xanım onun yaralanmasından çox müətəəssir olur və elə evin damından əlinə keçən bir kərpici gürcü döyüşçüsünün başına çırpır. Bundan sonra xanım Seyid Qütbəddinin yaralanması haqqında evin kişisinə xəbər verir və onlar Seyidi evə gətirirlər. Eyni zamanda onun müridlərinə də bu barədə xəbər göndərlər. Müridlər yetişib onun yarasının müalicəsinə başlayırlar. Amma bu müalicə ciddi nəticə vermir və üç gündən sonra Seyid Qütbəddin dünyasını dəyişir. Dünyasını dəyişməzdən əvvəl isə Seyid Qütbəddin oğlu Seyid Cəbraylı yanına çağırıb öz məqamını ona həvalə edir, ona vəsiyyətini və nəsihətlərini çatdırır (11).

Bu mənbədə Seyid Qütbəddinin gürcü qoşunlarının hücumundan dərhal sonra dünyasını dəyişməsi faktı müəyyən şübhə doğurur. Çünki elə mənbələrdən məlumdur ki, Şeyx Səfiəddinin dünyaya gəlməsi Seyid Qütbəddinin sağlığında olmuşdur. Şeyx Səfinin dünyaya gəlişi isə yuxarıda qeyd edildiyi kimi, XIII əsrin ortalarına təsadüf edir. Ona görə məntiqən Seyid Qttbəddinin vəfatı da XIII əsrin ikinci yarısına təsadüf etməlidir.

Qeyd etmək laızmdır ki, «Səfvətüs-səfa» əsərində gürcü qoşunlarının Ərdəbilə yürüşü fərqli şəkildə təsvir edilmişdir. Hətta Seyid Qütbəddinin nizə ilə deyil, qılıncla yaralanması da bu mənbədə öz əksini tapmışdır.

Bununla belə, Seyid Qütbəddin dünyasını dəyişdikdən sonra onun oğlu Seyid Əminəddin Cəbrayıl atasının mürşüdlük yolunu davam etdirdi. "Xülasə, o tərifəlayiq xasiyyətli əmirin ölüm vaxtı çatdıqda böyük atalarından miras qalmış və öz mübarək ailəsinin xəzinəsində saxladığı irşad və irfan çiçəklərini və cavahirlərini öz sevimli oğlu Seyid Salehə tapşırıb, [bu] etibarsız aləmlə vidalaşdı, onun pak ruhunun quşu ülvi aləmin zirvəsinə uçdu. Seyid Saleh müqəddəslik və mürşidlik dənizindəki sədəflərdən [çıxan] bir inci idi və düzlük, yaxşılıq və rəhbərlik bürcündəki dürlərdən idi. Gözəl adının mənası onun zahiri görünüşündə öz əksini tapırdı və səadət şüaları onun açıq alnından aydın və aşkar idi. O,

ehtiyacı olanların qeydinə öz atalarından daha çox qalırdı, xalqın ona olan hüsn-rəğbəti gündən-günə artırdı. Həmişə füqəra və möhtaclar onun [evinin] səadətli qapısına gəlib-gedirdilər; qətiyyən ona olan müraciətlərin çoxluğundan usanmazdı. O, axirət səfərinə hazırlığa başlayıb, şərəfli ruhu təmiz və vəfalı [adamların] ruhları ilə birləşdi və onun həyat bağının cavan ağacı (oğlu) Seyid Cəbrayıl o həzrəti Kəlxuran darülimanında dəfn etdi" (12).

"Aləmara-yi Şah İsmayıl"ın verdiyi məlumata görə, Seyid Qütbəddinin sağlığında onun oğlu Seyid Əminəddin Cəbrayıl Şiraza səfər etdi. Bu zaman 30 yaşlarında olan Seyid Əminəddəin Cəbrayıl elm və ürfan sahibi idi və Şiraz əhli onu dərviş libasında fəzilət sahibi olduğuna şübhə etmədilər. Bu türk dərvişinin kəramətli ailədən çıxmasını eşidincə yerli fazil insanlar ona Şirazda qalmağı, oradakı elm və ürfan əhlinin mürşidi olmasını təklif etdilər. Seyid Cəbrayıl bu təkliflə razılaşır və hətta orada ailə də qurur. Şirazda onun Seyid Saleh adlı bir övladı da dünyaya gəlir. İki il (bəzi məlumata görə isə daha çox) Şirazda qalandan sonra atasından məktub alır ki, Ərdəbilə qayıtsın. Seyid Cəbrayıl da bu məktubu alandan sonra Ərdəbilə qayıtmalı olur. Ərdəbilə döndükdən sonra Seyid Qütbəddin onu öz yerində görmək istədiyini bildirir. Atasının və anasının təkidlərindən sonra Seyid Cəbrayıl Ərdəbildə qalmağa razı olur. Bundan sonra Seyid Cəbrayıl yeni bir nikah kəsdirməyi də mümkün sayır və bu nikahı anasının seçimi ilə edir. Yaşadıqları kənddə anası Xədicə və Dövlət (bəzi mənbələrdə Dövləti) adlı iki gənc xanım üzərində seçim aparır və Allaha iltimas edir ki, seçimin daha düzgün edilməsi üçün ona bir işarə verilsin. Anası Dövlət üzərində seçim edilməsi ilə bağlı gecə yuxu görür və bununla da ailənin qərarı qətiləşir. Seyid Cəbrayıl elə həmin günlərdə Dövlət xanımla nikah kəsdirir və zamanı yetişəndə Şeyx Səfiəddin dünyaya gəlir. Şeyx Səfiəddin 6 yaşında olarkən atası dünyasını dəyişir və haqq dünyasına qovuşmazdan əvvəl bütün müridlərinə oğlunun mürşidliyini qəbul etməyi vəsiyyət edir (13).

### 2. Şeyx Səfiəddin

Səfəvilər xanədanının əcdadı kimi qəbul edilən Səfiəddin 1252-ci ildə Ərdəbil yaxınlığındakı Kəlxuran kəndində anadan olmuşdu və buna görə o, həm də Şeyx Səfiəddin Ərdəbili Kəlxurani kimi də tanınmışdır. Şeyx Səfiəddinlə Şah İsmayılı 6 nəsil ayırır. Yəni Şah İsmayılın atası Şeyx Heydər, onun atası, Şah Cüneyd, onun atası Şeyx İbrahim, onun atası Xacə Əli, onun atası Şeyx Sədrəddin və onun da atası Şeyx Səfiəddin (mənbələrdə həm də Şeyx Səfi kimi xatırlanır) idi. Məlumdur ki, Səfəvilər xanədanı Şah İsmayıldan sonra da davam etmişdir və Şeyx Səfidəddindən başlayaraq Səfəvilər dövlətinin sonuncu hakiminə qədər bu xanədanın hər bir nümayəndəsi dövrünün elm və ürfan sahibi olmuş, dövlətçilik tarixində böyük izlər buraxmışdılar.

Şeyx Səfinin gələcək həyat yolunun müəyyənləşdirilməsində, onun tərəfindən etiqad və elm yolunun seçilməsində ailəsinin təsiri böyük olmuşdu. Belə ki, atası Seyid Cəbrayıl Əminəddin dövrünün tanınmış alimi və mü-

təfəkkiri, sufi şeyxi və alimi Xacə Kəmaləddin Ərəbşah Ərdəbilinin müridi olmuşdu. Anası Dövləti xatun isə dövrünün tanınmış mütəfəkkiri və fazil insanı olan Camaləddin Baruqinin ailəsində tərbiyə almışdı. Əminəddinin erkən vəfatından sonra ailənin saxlanması ilə bərabər, ailədəki övladların övladların tərbiyəsinin əsas ağırlığı da Səfiəddinin üzərinə düşmüşdü. Baxmayaraq ki, Səfiəddin ilahiyyat üzrə dərslərini fars və ərəb dillərində alırdı, Azərbaycan ailəsində böyümüş bir insan kimi Azərbaycan dilinin sirlərinə də dərindən bələd idi və məlum olduğu kimi, Azərbaycan dilində şerlər də yazmışdı. Dövrünün tanınmış ilahiyyatçıları onu hətta türk (Azərbaycan) piri də adlandırırdılar.

Beləliklə, Şeyx Səfiəddin İshaqın dünyaya gəlişi onun mənsub olduğu xanədanın tarixində tamamilə yeni bir səhifə açır. Onun dövründə mənsub olduğu xanədanın ətrafında toplaşan müridlərin və ürfan əhlinin daha da təşkilatlanması, genişlənməsi və ayrıca bir təriqət şəklində meydana çıxması baş verdi. Sonradan isə məlumdur ki, Şeyx Səfiəddin tərəfindən əsası qoyulmuş təriqətin tərəfdarlarının siyasiləşməsi Səfəvilər dövləti kimi böyük bir imperiyanın yaranmasına yol açmışdı.

Şeyx Səfiəddin ailəsinin beşinci uşağı idi. Ondan əvvəl Məhəmməd, Səlahəddin və İsmayıl adlı qardaşları və bir bacısı anadan olmuşdu. Özündən sonra isə onun daha iki qardaşı, Yaqub və Fəxrəddin Yusif dünyaya göz açmışdı (14).

Mənbələrdə bildirilir ki, Şeyx Səfiəddin anadan olanda dövrünün böyük ürfan və fəzilət sahibi olan Şeyx Şəmsəddin Təbrizinin vəfatından beş il, Şeyx Məhyəddin ibn əl-Ərəbinin vəfatından 12 il, Şeyx Nəcməddinin vəfatından 32 il ötmüşdü. Cəlaləddin Rumi dünyasını dəyişəndə Şeyx Səfiəddin 22 yaşında, Sədi Şirazının vəfatı zamanı 42 yaşında, Hülaki xanın vəfatı zamanı isə 41 yaşında idi (15).

Şeyx Səfiəddin ilk təlim-tərbiyəsini doğulduğu yurdunda almışdı. Hələ uşaq yaşlarından da onda elmə və biliyə güclü bir meyl özünü göstərirdi. Bundan başqa, o həm də kəramət sahibi kimi ad çıxarmışdı. İlahiyyat elmlərini öyrənməklə kifayətlənmirdi və bu elmi biliklərini təkmilləşdirmək üçün fəzilət və ürfan sahiblərinin sorağında idi. Bunun üçün cavanlıq yaşına çatanda Şeyx Səfiəddin evini tərk etmək və onun bütün maraqlarına cavab verə biləcək mürşid axtarmaq qərarına gəldi. Anası isə onu öz yanından buraxmaq istəmirdi. Çünki bir müddət əvvəl Səfiəddinin böyük qardaşı ticarət işləri ilə məşğul olan Məhəmməd Şiraz-Hörmüz bölgəsinə səfərindən geri qayıdarkən dünyasını dəyişmişdi. Səfiəddinin digər bir qardaşı Səlahəddin isə Şiraza yollanaraq orada özünə ailə qurmuş və evdən uzaqlaşmışdı. Ona görə anası Səfiəddinin də evdən uzaq düşməsinə razılıq vermək istəmirdi. Səfiəddin isə tanıdıqları insanlarla söhbətlərində Şirazda Şeyx Nəcibəddin adlı bir fazil insanın yaşadığını və onun ilahiyyat elmlərinə dərindən bələd olduğunu eşitmişdi. Bu xəbərdən sonra Səfiəddin evi tərk edərək Şeyx Nəcibəddinin yanına yollanmağı və onun yanında təhsilini davam etdirməyi qətiləşdirdi. Anasının icazəsini və razılığını almaq üçün isə Səfiəddin qardaşı Səlahəddinin görüşünə getmək istədiyini bildirdi (16).

"Tarix-i aləmara-yi Abbasi"əsərində Səfiəddinin elm öyrənmək üçün Şiraza yolanması aşağıdakı kimi təsvir olunmuşdur: "Yüksək mərtəbəli atasının vəfatından sonra möhtərəm anası o ilahi feyzlə bəslənmişin tərbiyəsi ilə məşğul oldu. Uşaqlıqdan Allahın kəramət nuru onun üzərinə düşmüşdü. Onun mübarək alnından qeybi sirləri açmaq nuru işıldayır və parlayırdı. Həmişə qəbirlərin sirrindən, ölülərin əhvalından və buna bənzər məsələlərdən xəbər vermək kimi qəribə işlər görürdü və anasına nəql edirdi. Anası [isə] ona yüksək mərtəbələrə və ali dərəcələrə çatmaq müjdəsi verirdi. Bir müddət biliyə və zahiri kamilliyə yiyələnməklə məşğul oldu. [Sonra] o, gəzib səyahət etmək və mənəvi aləmin çətinliklərini dərk etmək həvəsinə düşüb, zahidlik və çalışma çölünə qədəm qoydu. Bilirdi ki, kamillik sahibi olan bir mürşidin rəhbərliyi olmadan kamal dərəcələrinə çatmaq mümkün deyil. Buna görə də, bəzən ərdəbilli Şeyx Fərəcin, bəzən Şeyx Əbu-Səidin - bu uluların hər ikisi şeyxüt-tayifə Şeyx Cüneyd Bağdadinin müridlərindəndirlər - məzarı kənarında ibadətlə məşğul olurdu, bəzən də vaxtını ilahiyyat alimi şeyx Şihabəddin Mahmud Əhərinin məzarı yanında keçirirdi. O, kamil bir mürşid axtarırdı. O, Şeyx Nəcibəddin Bozquş Şirazinin fəzilət dərəcəsinin yüksəkliyini və gözəl halını öyrənəndə arzu dalınca qaçmaq həvəsi onu Şiraza tərəf yollandırdı. Onun Şirazda çoxlu var-dövlət və nüfuz sahibi olan Səlahəddin adlı özündən böyük qardaşı vardı ki, o da orada əsilzadə qızlarından bir iffətlisi ilə evlənib, bu qohumluq vasitəsilə Şirazda yaşayırdı. Şeyx qardaşı ilə görüşmək bəhanəsi ilə mehriban anasından səfər etmək icazəsi alıb, məqsədə tərəf yola düşdü. Yolda hər yerdə Allah adamlarına, dərvişlərə və möminlərə çatdıqda onlarla söhbət etməyə can atır, hər kəsdən bir şey öyrənirdi. O, Şiraza yetişən zaman Şeyx Nəcibəddin Bozquş artıq dünya evindən getmişdi. O, həmin vilayətin şeyxləri ilə görüşdü, lakin istədiyi feyz qapısı onun üzünə açılmadı. Bu arada böyük alimlərdən Mövlana Rəziəddinin yanına gəlib, «İza zəlzələ» surəsinə qədər onun yanında təfsir müzakirəsində iştirak etdi və təfsir dərsi vermək icazəsi aldı. Onun Şeyx Müslihəddin Sədi Şirazi ilə də söhbəti oldu, [lakin] onunla görüş əziz xatirinə xoş gəlmədi. O vilayətin dərvişləri və səadət məzhəbli irşad sahibləri o həzrətin rütbəsini sufilik vadisinin yolunda özlərindən yüksək gördükdə onu seyidlər zümrəsindən və dini rəhbərlərdən olan Əmir Abdullanın yanına apardılar. Onun yanına çatdıqda, həqiqətən, bir adam gördü ki, bütün yaxşı sifətlərə və kamilliklərə malikdir və elə bir ayna müşahidə etdi ki, [Allahın] camal və calalının nuru onda əks olunur. Həzrət Şeyx Səfiəddin öz əhvalatını ona söylədi. [Əmir Abdulla] bir az fikrə getdikdən sonra başını qaldırdı və dedi:

- Ey gənc türk! Mücahidlik, zahidlik və yüksək əhvali-ruhiyyə sayəsində sənin üçün hasil olan [şeylər] mənim bəsirət gözümə çatmayıb. Sənin qarşında böyük bir alış-veriş durur. Lakin bu bazarda belə bir alış-veriş mümkün deyildir.

Bu gün sənin gözündən pərdəni götürüb, səni məqsədə tərəf yönəldə biləcək ilahiyyət elmlərini bilən Şeyx Zahid Gilanidən başqa bir kəs yoxdur. Onun Gilanda, sizin vilayətinizin yaxınlığında, dəniz kənarında xəlvət yeri var" (17).




*Şeyx Səfi*

"Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, Səfiəddin qardaşı Seyid Səlahiddinlə görüşündə Şirazda fəzilət sahiblərinin olması ilə maraqlandı və Səlahəddin də şair Sədi Şirazının adını çəkdi. Bundan sonra Səfiəddin Sədi Şirazinin hüzuruna yollandı. Bu mənbənin məlumatına görə, Səfiəddin şair Sədi Şirazi ilə görüşəndən sonra iki saat onun yanında qaldı. Amma onların söhbəti alınmadı. Ona görə Səfiəddin oranı tərk edib Şirazda başqa fazil insanların olub-olmaması ilə maraqlandı və ona mövlana Əmir Abdulla haqqında məlumat verdilər. Səfiəddin böyük məmnunluqla onun hüzuruna yollandı, onun müridi olmağa gəldiyini bildirdi. Onda Əmir Abdulla ona bildirdi ki, Səfiəddin öz biliyi ilə çox yüksək məqama yetişib və ona daha yüksək fəzilət sahibləri mürşidlik etməlidirlər. Belə bir fəzilət sahibi kimi isə o, Şeyx Zahid Gilanini məsləhət bildi (18).

«Səfvətüs-səfa» əsərində dəfələrlə Səfiəddinə "ey türk piri" deyə müraciət edilir. Bu ifadə həm onun etnik mənsubiyyətinə, həm də ilahiyyat elminə vaqif olmasına bir işarədir. Şirazın tanınmış ilahiyyatçısı Əmir Abdulla təkidlə ona bildirir ki, şərqdən qərbə var olan hər şeydən xəbəri olan şəxs məhz Şeyx Zahid Gilanidir və Səfiəddin malik olduğu elmini təkmilləşdirmək istəyirsə, onda Zahid Gilaninin yanına getməlidir. Səfiəddin bu xəbəri çox böyük məmnunluqla qarşıladı və sevindi ki, onun marağında olduğu bilikləri almaq üçün müdrik və fazil bir insan mövcuddur. Ona görə də, daha Şirazda qalmağı lazım bilməyib səfər hazırlığına başladı. Geri qayıtmazdan əvvəl Səfiəddin əvvəlcə Sədi Şirazi ilə görüşdü. Sədi Şirazi eşidəndə ki, Səfiəddin geri qayıtmağa hazırlaşır onun üçün çoxlu hədiyyə və sövqat hazırlatdırdı. Səfiəddin bu hədiyyələrin heç birini qəbul etmədi və onların hamısını öz sahiblərinə qaytardı. Belə olanda Sədi Şirazi də ona "pir" deyə müraciət edərək öz əli ilə yazdığı divanını hədiyyə kimi qəbul etməyi xahiş etdi. "Səffətül Səfanın" məlumatına görə, Səfiəddin dövrünün böyük şair-filosofu Sədi Şiraziyə belə cavab verdi: "Tanrının divanından könlüm ol qədər doludur ki, özgənin divanı anda sığmaz və sənin divanun ilən Tanrıya yetmək olmaz" (19).

Bununla, Səfiəddinin özünə mürşid axtarışı ilə Şiraza səfəri başa çatır və yenidən Ərdəbilə geri dönür. Özlüyündə qərara gəlir ki, elmini və biliyini təkmilləşdirmək üçün Gilana yollansın və dövrünün tanışmış ilahiyyatçısı və kəramət sahibi Şeyx Zahid Gilaninin yanında öz təhsilini davam etdirməklə onun müridliyini qazansın. Mənbələrin verdiyi məlumata görə, Səfiəddinin Gilana yollanmaq istədiyi günlərdə Şeyx Zahid Gilaninin ətrafında və ətraf bölgələrə səpələnmiş 100 min nəfər müridi var idi. Yalnız onun ətrafında olan müridlərin sayının 10 min nəfər olduğu bildirilir ki, onlardan da 400 nəfəri xəlifə məqamına yetişmişdi. Bu müridlərdən Gilanda, o cümlədən Azərbaycanda yaşayanlar da var idi və onlar Şeyx Zahiddən dərs almaqla bərabər, həm də onun baxışlarının davamçıları idilər. Şeyx Zahidin monqol xanları və konkret olaraq Qazan xanla yaxşı münasibətləri var idi və ona görə Şeyx Zahid yerli əhalinin monqol qoşunlarına müqavimət göstərməsini istəmirdi. Şeyx Zahid həm də kəramət sahibi kimi tanınmışdı və mənbələrdə də bu barədə ətraflı məlumatlar mövcuddur (20).

Nəhayət, Səfiəddin lazımi hazırlıqları gördükdən və Şeyx Zahid Gilani haqqında lazımi məlumatları topladıqdan sonra onun yanına yollanır və ramazan ayının ilk günlərində Şeyx Zahid Gilaninin xanəgahına yetişir. "Səffətül Səfa"-dakı məlumatlardan belə bir qənaət hasil olur ki, Səfiəddin Şirazdan döndükdən sonra 4 il Ərdəbildə olmuş və bu illər ərzində Şeyx Zahid Gilaninin yanına yollanmaq barədə fikirləşmişdi. Yenə elə bu mənbədəki məlumata görə, Şeyx Zahid Gilaniyə verilmiş kəramət əsasında o, Səfiəddinin gəlib yetişməsini hiss etmişdi (21). Səfiəddin bu məkana yetişəndən sonra əvvəlcə namaz qılıb ibadət etdi və bu ibadət əsnasında Şeyx Zahid Gilani öz müridlərindən birinə tapşırdı ki, zaviyədə ibadətlə məşğul olan şəxsi onun xəlvətinə gətirsin. Adəti üzrə ramazan ayı başladıqdan sonra Şeyx Zahid öz xəlvətinə çəkilər və ramazan ayı boyu kimsə ilə görüşməzdi. Amma Səfiəddinlə bağlı o öz adətini dəyişməli oldu və müridinə belə bir tapşırıq verdi:

"- Bu gün dünyanın haqq axtaranlarından biri [buraya] qonaq gəlib, ibadətgahda namaz qılır. [Namazı] qurtarandan sonra onu mənim yanıma gətir. Xidmətçi o haqq yolu ilə gedəni gətirdi və o, Şeyx [Zahidlə] görüşmək səadətinə çatdı. Şeyx [Zahid] onu Səfiəddin deyə çağırdı, onun ali rütbələrə və yüksək dərəcələrə çatacağı haqqında xoş xəbər verdi. Şeyx Səfiəddin Şeyx Zahidin bütün xüsusiyyətlərini onun haqqında eşitdiklərinə uyğun görərək, kömək əli ilə onun ətəyindən yapışdı və layiq xidmətlər göstərməklə [onun] ən yaxın adamlarından oldu. Həzrət Şeyx Səfiəddinin pəhrizkarlığı və zahidliyi o yerə çatmışdı ki, hər həftədə bir dəfə iftar xörəyi yeyərdi. Şeyx Zahidin nəsihətləri nəticəsində o, üç gündə bir dəfə [yeməyi] qərara aldı. Nəhayət, Şeyx [Səfiəddin] o adəti də əziz xasiyyətindən tərk edib, gündə bir dəfə iftar yeməyə başladı. Ancaq bir tikə quru düyüyə qənaət edib, ət və yağdan çəkinərdi, heyvani qidanı qətiyyən yeməzdi" (22).

Başqa bir mənbədəki məlumata görə, Səfiəddin Gilana, Şeyx Zahidin xanəgahına yetişəndən sonra Şeyx Zahid böyük oğlu Şeyx Cəmaləddini yanına çağırdı və bildirdi ki, zaviyədə namaz qılmaqla məşğul olan bu görkəmdə və bu nişanədə olan cavan türkü onun yanına gətirsin. Şeyx Cəmaləddin əvvəlcə buna etiraz etdi ki, kənar adamın onun hücrəsinə gətirilməsi düzgün deyildir. Belə olanda Şeyx Zahid öz sözünə təkid edir və onda onun oğlu Səfiəddinin namaz qıldığı zaviyəyə gedir və namaz bitdikdən sonra Səfiəddini atasının yanına dəvət edir. Məlumata görə, Səfiəddin hücrəyə yollanır və Şeyx Zahidlə görüşü çox böyük məmnunluqla qarşılayır. Elə ilk görüşdə də Səfiəddin onu maraqlandıran məsələlər haqqında Şeyx Zahidə 80 sual verir. Bu suallardan sonra Şeyx Zahid nə məqsədlə gəlməsi ilə maraqlananda, Səfiəddin cavab verir ki, onun mürşidliyini qəbul etmək üçün gəlmişdir. Şeyx Zahid böyük məmnunluqla onu qəbul edir və elə özünün hücrəsində ona yer verir. Bir ay onlar çilləxanada qalmaqla ramazan ayını başa vururlar. Mənbələrin verdiyi məlumata görə, ramazan bayramı günü Şeyx Zahid çilləxanadan Səfiəddinlə birlikdə bayramlaşmağa çıxdı. Səfiəddinin belə bir hörmət və nüfuz qazanması Şeyx Zahidin bəzi müridlərinin qısqanclığına səbəb oldu. Şeyx Zahid bu məsələni hiss edəndə ətrafındakılara

bildirdi ki, bu gənc türk haqqında şəkk gətirməyin. Çünki Şeyx Zahid onun gələcəkdə hansı məqama yetişə biləcəyini hiss edirdi (23).

Səfiəddin Gilana gələndə 25 yaşında idi. Onun Şeyx Zahidin yanında 25 il müridlik etdiyi bildirilir. Yəni, Səfiəddin kifayət qədər uzun bir zaman ərzində Şeyx Zahidə müridlik etmiş və öz biliklərində yüksək səviyyəyə qalxmışdı. Şeyx Zahid onun istedadına və kəramətinə şübhə etmirdi və onu özünün davamçısı kimi görürdü. Şeyx Zahid hətta Səfiəddinə olan məhəbbətinin və hörmətinin nəticəsi idi ki, qızı Fatimənin onun nikahına verilməsinə də etiraz etmədi.

"Səffətül Səfa"nın məlumatına görə, Şeyx Səfiəddinin ürfan və kəramət sahibi olması haqqında xəbərlər Şirvanşah Əxsitana da gedib çatmış və o da öz qızını ona nikah etdirmək qərarına gəlmişdi. Əxsitan vəd etmişdi ki, qızına cehiz kimi 14 min qızıl ağca və düyü yetişdirilməsi ilə məşğul olan bir kənd versin. Bu xəbəri Şeyx Zahid Şeyx Səfiəddinə çatdıranda o cavab verdi ki, mənim hakimim şeyxdir, onun qərarı necə olarsa, mən də həmin hərəkəti edərəm. Əxsitanla bağlı isə dedi ki, o padşahdır, mən də bir dərviş. Mənim onunla bir işim yoxdur. Bu söhbətdən sonra Şeyx Zahid bildirdi ki, qızı Fatiməni ona vermək istəyir və onu da əlavə etdi ki, Fatimədən dünyaya gələcək oğlun həm sənin işlərinin, həm də mənim işlərimin davamçısı olacaqdır (24).

Şeyx Zahid hələ sağlığında ikən özünün mürşidlik məqamının Şeyx Səfiəddinə verilməsini istəyirdi. Həm Şeyx Səfiəddin buna razılıq vermirdi, həm də Şeyx Zahidin ətrafındakılar bu haqqın Şeyx Zahidin oğluna keçməli olduğunu bildirirdilər. Şeyx Zahid özü iki il müddətində mürşidliyə daha çox haqlı olmasını Şeyx Səfiəddinə təlqin etdi. Dünyanın tərk etməsindən əvvəl Şeyx Zahid müridlərini toplayıb bir daha öz məqamının Şeyx Səfiəddinə vəsiyyət etdiyini bildirdi. Ətrafındakı müridlər bir daha etiraz edərək bu məqamın Şeyx Cəmaləddinə keçməli olduğunu söylədilər, bu məqamın kənar adama deyil, ailənin böyük övladına keçməsinin daha doğru olduğunu bəyan etdilər. Şeyx Zahid isə öz qərarından dönmədi və qərarının həm də yaradanın iradəsi ilə bağlı olduğunu söylədi. Şeyx Zahid onu da bildirdi ki, onun övladlarının da, müridlərinin də gələcəyi Şeyx Səfiəddinlə bağlıdır və ona görə onun seçiminə hörmətlə yanaşılmasını lazım bildi (25).

Öz seçimində necə haqlı olmasını isə Şeyx Zahid əyani şəkildə müridlərinə nümayiş etdirdi və bu barədə mənbələrdə aşağıdakı qeydlər vardır: "Şeyx Zahid həyatda olarkən ona (Səfiəddinə) mürşidlik və dini rəhbərlik icazəsi verirdisə də, o, qəbul etmirdi. Nəhayət, [Şeyx Zahid] öz vəfatı zamanı hidayət və övliyalıq tacını o həzrətə verdi və onun qabiliyyətli qamətini bu əziz paltarla bəzədi. Bədxah adamlar Həzrət Şeyx Zahidə etiraz etdilər ki, o həzrətin sadiq oğlu və doğma övladı, kamillik sahibi Şeyxzadə Cəmaləddin Əli durduğu halda, nə üçün onu [işlərə] icazə vermək və rəhbərlik etmək səadətinə layiq görmür və bu kürsüyə Şeyx Səfiəddini oturdur? Şeyx [Zahid] şübhəni aradan qaldırmaq və müridləri sakit edib təsəlli vermək məqsədi ilə [onların] hər ikisini sınaqdan keçirmək qərarına gəldi. Soruşdu: «Oğlumun xəlvətxanası haradadır?» Dedilər: «Xanəgahın yanında». Soruşdu: «Səfinin xəlvətxanası haradadır?» Dedilər:

«Şeyxin xəlvətxanasından oraya qədər yarım fərsəxdir». Dedi: «Hər ikisini çağıracağam ki, hər birinin rütbə və dərəcəsi sizə məlum olsun». O üç dəfə oğlunu çağırsa da, oğlu cavab vermədi. Səfini səsləyəndə cavab gəldi: «Gəldim, yetişdim, ya şeyxim və mürşidim!» Və [Səfiəddin] addımını otağa qoydu. Şeyx [Zahid] buyurdu: «Səfi, harada idin?» Dedi: «Öz xəlvətxanamda idim ki, şeyxin şövq artıran səsini eşidib, yanınıza gəldim». Şeyx [Zahid] üzünü camaata çevirib dedi: «şanlı və uca Allah mənim nəzərimdə tutduğumu Cəmaləddinə deyil, Səfiyə vermişdir. Mən isə Allahın əmanətinə xəyanət etməyib, onu sahibinə çatdıdım» (26).

Bundan sonra müridlər Şeyx Səfiəddinin mürşidliyini qəbul etdilər. Şeyx Zahid təxminən 1301-ci ildə dünyasını dəyişdi. O dünyasını dəyişməzdən əvvəl Şeyx Səfiddinin ilk övladları dünyaya göz açmışdılar. Bütünlükdə, Şeyx Səfiəddinin Fatimədən üç oğlu olmuşdu. Bu oğlanların böyüyü olan Məhyəddin vaxtsız dünyasını dəyişmişdi. Fatimədən olan digər iki oğlan uşaqları isə Şeyx Sədrəddin və Şeyx Əbu Səid idilər. Kəlxuranda nikah etdirdiyi başqa bir xanımdan da Şeyx Səfiəddinin daha iki oğlu var idi - Şeyx Əlaəddin və Şeyx Şərafəttin. Bunlardan başqa, Səfiəddinin bir qızı da var idi (27). Bu qız Şeyx Səfiəddinin ikinci xanımından doğulmuşdu və onu sonralar Şeyx Zahidin oğlu Şeyx Şəmsəddinin nikahına vermişdi.

Şeyx Səfiəddin Gilanda olarkən Şeyx Zahidin yanında ilahiyyat elmini və eləcə də Şeyx Zahidin rəhbərlik etdiyi təriqətin sirlərinə kifayət qədər sahib oldu. Bu sahədə əldə etdiyi biliklər Şeyx Səfiəddinin kamil bir mömin kimi yetişməsinə şübhə yeri qoymurdu və ona görə Şeyx Zahid öz sağlığında onun da müridlərin təlim-tərbiyəsi ilə məşğul olmasına təkid edirdi. Şeyx Səfiəddin isə Şeyx Zahidin mürşidliyinə hörmət əlaməti olaraq bu təklifdən boyun qaçırırdı. Mövcud məlumatlara görə, bir dəfə Marağa nümayəndələri Şeyx Zahidin yanına gələrək həmin bölgədə ürfana maraq göstərənlərin təlim-tərbiyəsini öz üzərinə götürməyi xahiş etdilər. Bu xahişə əsasən Şeyx Zahid Marağaya yollanmalı idi. Şeyx Zahid isə həmin işi Şeyx Səfiəddinə tapşırmağı qərara aldı. Şeyx Səfiəddin bu dəfə də irşad işlərini, mürşidliyin ustadına məxsus olduğunu bildirdi və bu təklifdən yenə də boyun qaçırmağa çalışdı. Amma Şeyx Zahid təkidlə onun mürşidlik etməyə hazır olduğunu bildirməklə bu işi ona tapşırdı. Bundan sonra Şeyx Səfiəddin Marağaya yollanaraq orada arzusunda olan insanlara ilahiyyat elminin, Şeyx Zahid təriqətinin öyrədilməsinə başladı. Bildirilir ki, Şeyx Səfiəddinin Marağada olması zamanı yerli əhali ona çoxlu sayda hədiyyə, nəzir-niyaz vermişdi ki, o da toplanan bütün bu malları gətirib Şeyx Zahidin xadimlərinə təqdim etdi (28). Yəni, Şeyx Səfiəddin dünya malına qarşı hərislik nümayiş etdirmədi və onları bütünlüklə təhvil verdi. Mənbələrdə Şeyx Səfiəddinin Marağada ilahiyyat elminin öyrədilməsinə diqqət yetirilməsindən belə bir qənaət hasil olur ki, onun mürşidliyi də ilk olaraq burada başlamışdı.

Bəzi məlumatlara görə, Şeyx Səfiəddin təriqət rəhbəri elan edildikdən sonra Ərdəbilə qayıtdı. Bununla belə, o, Şeyx Zahidlə əlaqəsini kəsmirdi və vaxtaşırı Gilana yollanırdı. Şeyx Zahidin də Şeyx Səfiəddinlə görüşmək üçün Ərdəbilə yollanması haqqında məlumat vardır. Yəni, bu iki ürfan sahibi arasında

mürşidlik və müridlikdən başqa həm də səmimi bir insani münasibət mövcud idi. Şeyx Zahid bütün işlərində bir qayda olaraq onunla məsləhətləşər və onun fikirlərinə qulaq asarmış (29).

Şeyx Zahid Gilani dünyasını dəyişməzdən bir neçə gün əvvəl Şeyx Səfiəddini və müridlərini yanına topladı, Şeyx Səfiəddini səccadənin yuxarısında otuzdurdu, libasını ona geyindirdi, kəmərini onun belinə bağladı və sonra da ona son öyüdlərini verdi. Deyilənə görə, ömrünün son günlərində Şeyx Zahidin harada dəfn olunması barəsində müridlər arasında müxtəlif fikirlər var imiş. Şeyx Zahid özü də bu məsələyə biganə deyildi və harada dəfn olunması ilə bağlı o, Şeyx Səfiəddinlə də məsləhətləşdi. Şeyx Səfiəddin isə ona öz yurdunda dəfn olunmağı məsləhət gördü və doğrudan da Şeyx Zahid dünyasını dəyişəndən sonra Şeyx Səfiəddinin məsləhət bildiyi məkanda dəfn edildi. Hazırda onun məqbərəsi Gilanda, LahicandanLəngruda aparan yolun üzərindəki Şixanəvər kəndindədir. Şeyx Zahidinin qəbrinin üzərində məqbərənin də Şeyx Səfiəddin tərəfindən tikildiyi bildirilir. Sonradan Şeyx Səfiəddinin törəmələri tərəfindən bu məqbərə dəfələrlə təkmilləşdirilmişdi (30).

Şeyx Zahidin dünyasını dəyişməsindən sonra Şeyx Səfiəddin Ərdəbilə döndü və burada mürşidliyini davam etdirdi. Şeyx Zahidin sağlığında qeyd edildiyi kimi, Şeyx Səfiəddin mürşidlik etməyi öz üzərinə götürmək istəmirdi. Buna görə, Şeyx Zahidin sağlığında onun müridlərinin sayı elə də çox deyildi. Amma Şeyx Zahidin dünyasını dəyişməsi və təriqət rəhbəri kimi Şeyx Səfiəddinin elan edilməsi ilə təriqətin mürşidliyi də onun üzərinə düşdü və buna görə onun müridlərinin sayı xeyli artdı. Şeyx Səfiəddin hələ Gilanda ikən "şeyx" məqamına sahib olmuşdu. Səfəvi xanədanı arasında Səfiəddin ilk şəxs idi ki, bu məqama layiq görülmüşdü və sonradan onun övladları da "şeyx" adlandırıldılar. Onun müridlərinin və tələbələrinin sayı isə qısa müddət ərzində xeyli artdı və Şeyx Səfiəddin Ərdəbildə özü üçün bir xanəgah yaratmalı oldu. Şahidlərdən birinin verdiyi məlumata görə, qısa müddət ərzində təkcə Təbriz və Marağadan 13 min nəfər Şeyx Səfiəddinin xanəgahına gələrək onun tələbəsi və müridi olmuşdular. Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddin isə deyirdi ki, dərvişlərin xəlvətlərdə qərarlaşdığı zaman hər bir xəlvətə bir çörək verirdilər və bir gündə xəlvətlərə çəkilmiş dərvişlərə 3 min ədəd çörək paylanırdı (31).

Şeyx Zahid Gilaninin vəfatından sonra Şeyx Səfiəddin onun elmini və təriqətini daha yüksək səviyyəyə qaldırdı və özünün yolunu müəyyənləşdirdi. Bununla Zahidi təriqətinin bazasında Səfəviyyə təriqəti formalaşdı və çox böyük sürətlə də bölgəyə yayıldı. Şeyx Səfiəddinin Ərdəbilə qayıtması ilə əslində bu şəhər həm də bölgənin elm-ürfan mərkəzinə çevrildi. Şeyx Səfiəddinin müdrikliyi, dərin etiqadı və əməlləri ilə kamilləşən Səfəviyyə təriqəti islam dininin əsaslarına dayaqlanmaqla bu əsasların qorunmasını, düzgün dini baxışların dirçəldilməsini və canlandırılmasını, təriqətin şəriətlə qovuşmasını, mövcud təriqətlər arasında ədavətin aradan qaldırılmasını təbliğ edirdi. Ona görə də, Səfəviyyə təriqəti hətta onun yaradıcısının dünyasını dəyişməsindən sonra insanlar tərəfindən hörmət və ehtiramla qarşılanırdı və onun sıraları da ildən-ilə,

aydan-aya genişlənirdi. Bu baxımdan Səfəviyyə təriqəti kütləviliyi, rövnəqliyi ilə seçilirdi. İnsanlar bu təriqətdə axtarışında olduqları sirləri, həqiqətləri tapa bilirdilər və ona görə idi ki, onun davamçıları arasında zəmanəsinin hakimləri də az deyildilər. Bu hakimlərlə Səfəvi xanəgahının rəhbərləri arasında xüsusi münasibətlər formalaşmışdı.

Səfəviyyə təriqətinin rəhbəri "pir" adlanırdı. Bu təriqətin müridi olmaq istəyən insanlar bölgənin çox yerlərində var idi və sözsüz ki, onların hamısının Şeyx Səfi xanəgahına toplaşması mümkün deyildi. Təriqətin yetirmələri olan xəlifələr yerlərdə təriqətin müridlərinə mürşidlik edirdilər. Beləliklə, bu təriqətdə özünəməxsus bir üçbucaq yaranmışdı - pir-xəlifə-mürid. Xəlifələr mömün, etiqadlı və etibarlı şəxslər kimi tayfaların rəhbərləri idilər və onlar pir ilə müridlər arasında əlaqələndirici bir bənd kimi qəbul edilirdilər. Bu təriqətin saflığı, paklığı onun ətrafında birləşənlərin sayını xeyli artırmışdı. Şeyx Səfiəddinin həyatının sonlarına yaxın onun yaradıcısı olduğu təriqətin çoxlu sayda xəlifəsi Yaxın Şərq və eləcə də Afrikanın şimalına yayılaraq təriqətin əsaslarının təbliğinə başladılar və bunun nəticəsində bölgə ölkələrində Səfəviyyə təriqətinin davamçıları və müridləri daha da artmağa başladı. Bildirilir ki, bu müridlərin arasında bölgə ölkələrində hakimlik edən şəxslər də var idi. Şeyx Səfiəddinin xanəgahının söz-söhbəti o qədər geniş yayılmış və insanlar arasında hörmət qazanmışdı ki, zəmanəsinin böyük şairi Hafiz Şirazi də öz şerlərinin birində buna işarə etmişdi. Beytlərinin birində Şərqin bu böyük şairi bildirirdi ki, ey səba əgər Araz sahillərindən keçməli olsan, bu vadinin torpağını öp ki, nəfəsin də təravətlənsin (32).

Səfəviyyə təriqətini seçmiş olan hər müsəlman hər şeydən əvvəl günahlarının bağışlanması üçün tövbə etməli və vəd etməli idi ki, gələcəkdə şəriətin ikrah buyurduğu əməlləri etməsin. Yəni, bir daha günah qazanmasın. Bu təriqətin davamçıları dövrün bəzi təriqətlərinə mənsub olan dərvişlərdən fərqli olaraq ehsan toplamaqdan imtina etməli və dolanışığını öz işi və zəhməti ilə qurmalı idi. Təriqət davamçıları vaxtlı-vaxtında namazını qılmalı, ibadətini etməli və imkan daxilində savab işlərin icrası ilə məşğul olmalı idilər. Təriqət üzvləri təmizliyə riayət etməli, təmiz paltarlar geyməli, dırnaqlarını vaxtında tutmalı, başını qırxdırmalı və sonra çilləyə oturmalı idilər. Qırx gün davam edən çillə ərzində təriqət üzvləri oruc tutmalı, gecələr ibadətlə məşğul olmalı, dua və zikrlər etməli idilər. Ruhi çətinliklərlə qarşılaşdıqda təriqət üzvü dərdini və narahatçılığını şeyxlə, mürşidlə və ya onlar tərəfindən təyin olunmuş xəlifə ilə bölüşməli və onların məsləhətlərini almalı idi. Bu yolla mürşid də mürid və ya təriqət üzvünə vücudun sirləri, mənəviyyatın gizlinlərini çatdırmalı və onun kamilləşməsinə çalışmalı idi. Təriqət üzvləri bəzən birdən-birə çilləyə otura və onun çətinliklərinə dözə bilmirdilər. Belə olanda müridlər çilləyə oturmağı bir və ya bir neçə dəfə təkrar etməli olurdular. Şeyx və ya xəlifə görəndə ki, çilləyə oturmuş mürid dünyanın maddiyatından uzaqlaşa bilmir, onda həqiqətlərin üzə çıxarılması və kamilləşməsi üçün ona son ürfani dərslər təlim edilir və sonra da müstəqil fəaliyyətə buraxılırdı. Mürid kimi öz təlim-tərbiyəsini tamamlayanlar

sonradan ya yaşadıqları bölgədə, ya da göndərildikləri bölgədə artıq müstəqil şəkildə təriqəti təmsil edir və həmin bölgələrdə müridlər toplanması və öyrədilməsi ilə məşğul olurdu (33).

Mənbələrin verdiyi məlumata görə, Səfəviyyə təriqətinin müridləri çox sadə həyat keçirirdilər. Səhərdən-axşama kimi onlar ünsiyyətdən uzaq olmağa çalışmaqla gün ərzində ən azı bir saat zikr edirdilər. Axşamçağı bu zikr yenidən təkrarlanardı. Axşam namazından sonra müridlər Quran oxumaqla məşğul olurdular. Onlar çox az miqdarda yemək yeyər və çox vaxt da oruc olardılar. Çilləyə isə adətən qışın əvvəlində oturardılar (34).

Bu hesabla Səfəviyyə təriqətinin müridlərinin sayı xeyli çoxalmışdı. Səfəviyyə təriqətinin belə nüfuz qazanması bir tərəfdən də dövrün islam təriqətlərinin islamın əsaslarından uzaqlaşması ilə bağlı idi. Belə təriqətlərdən bəziləri islamın zahiri tərəflərinə fikir verir və şəriət məsələlərinin müəyyən tələblərinin ciddi icrasına loyallıqla yanaşırdılar. Səfəviyyə təriqətinin islamın əsaslarına sədaqəti ona olan bağlılığı artırırdı və ona görə islamın böyük müctəhidləri də bu təriqətin əleyhinə çıxmırdılar. Digər tərəfdən Səfəviyyə təriqəti yalnız dini-ürfani təbliğatla məşğul olurdu və dünyəvi işlərə qarşımırdı. Buna görə, təriqət həm də dövrün hakimləri tərəfindən dəstəklənirdi. Bunlar isə təriqətin tərəfdarlarının sayını artırırdı. Mövcud məlumata görə, dövrün hakimi olan Əmir Çoban Sulduz bir dəfə Şeyx Səfiəddindən soruşubmuş ki, əmir qoşunlarının sayı çox olar, yoxsa Səfəvi müridlərinin sayı. Şeyx Səfiəddin bu sualın cavabında ona bildirmişdi ki, əmirin qoşununun hər bir döyüşçüsünə qarşı 100 min nəfər təriqət müridi çıxarıla bilər (35). Yəni, hələ Şeyx Səfiəddinin sağlığında onun müridlərinin sayı bu qədər çox idi.

Ümumən, çoxlu zikr edilməsi Səfəviyyə təriqətinin əsas şərtlərindən biri idi. Zikrdən sonra müridlərdə daxili coşqunluq yarananda xüsusi qəvvallar sufiliklə bağlı olan şerləri xoş avazla oxuyar və bununla müridləri daha da vəcdə gətirərdilər. Şeyx Səfidəddin də zikrdən sonra sufi şerlərinin oxunması (qulaqasma) mərasimlərində bir çox hallarda iştirak edir və bununla müridlərin vəcdə gəlməsini daha da təşviqləndirərdi (36).

Şeyx Səfiəddin haqq yolunda göstərdiyi xidməti, ibadəti, mərifəti ilə Allah dərgahında uca məqama yüksəlmiş, Allahın kəramətini qazanmış bir müqəddəs kimi tanınmışdı. Hələ sağlığında ikən onun vasitəçiliyi ilə Allaha pənah aparanlar şəfa tapar və niyyət etdikləri işləri uğurla başa çatdırardılar. Əslində, Şeyx Səfiəddinin saf niyyətli olması, haqq qarşısında təmənnasız xidmətdə olması, əsil müctəhid həyatı sürməsi, imkansızlara kömək göstərilməsini insani və ruhani vəzifəsi sayması, doğrunun və ədalətin keşiyində dayanması, islamın doğru yolunu insanlara təlqin etməyə çalışması Səfəviyyə təriqətinin kütləviləşməsinə yol açırdı. Onun təriqətinin əsaslarına yiyələnən müridləri və tərəfdarları da bu yolu davam etdirirdilər və bütün bunların nəticəsidir ki, Şeyx Səfiəddin yalnız dövrünün deyil, bütün dövrlərin böyük ürfan və ilahiyyat sahibi kimi tanınır.

Baxmayaraq ki, Şeyx Səfiəddinin təmənnasızlığı, maddiyata qarşı meylli olmaması hamıya məlum idi, bununla belə, dövrünün hakimləri, imkanları adamları ona çoxlu hədiyyələr göndərirdilər. Məlumdur ki, Şeyx Səfiəddin təriqət başçısı məqamına yetişəndə kasıb həyat sürürdü. Onun kiçik torpaq sahəsi və bir cüt də öküzü var idi və bununla o öz dolanışığını qururdu. Sonradan bu əmlak xeyli genişləndi. Məsələn, vəfatı ərəfəsində ona bağışlanan kəndlərin sayı 20-yə çatmışdı. Amma Şeyx Səfiəddin bir sufi şeyxi kimi ona bağışlanan bütün bu hədiyyələri və mülkləri xanəgah vəqfinə çevirdi və onları imkansız adamların ehtiyaclarının ödənməsinə və xanəgahın xərclərinin qarşılanmasına istiqamətləndirdi (37).

Şeyx Səfiəddin 85 yaşında ikən Ərdəbildə dünyasını dəyişmişdir. Məlumdur ki, o, prostat xəstəliyindən əziyyət çəkirdi və bu xəstəliyə dözümlü yanaşırdı. Çünki bütün sufilər kimi o da mübtəla olduğu bəlanı yaradanın sınağı kimi qəbul edirdi və ona görə xəstəliyindən də gileylənməzdi. Ağrıları çoxalanda isə onun evdən bayıra çıxarılmasını, hazırda onun Ərdəbildəki məqbərəsinin qərar tutduğu yerdə dinlənməsini istəyərdi. Dəfələrlə deyərdi ki, məni əsil evimə aparın, orada dincəlim. Əsil evim deyəndə Şeyx Səfiəddin hazırkı məqbərəsinin yerləşdiyi məkanı nəzərdə tutardı (38). Həmin məkana Şeyx Səfiəddinin nə üçün üstünlük verməsini söyləmək çətindir. Amma onun bu məkana bağlılığı nəzərə alındığı üçün idi ki, vəfatından sonra orada da dəfn edildi.

Şeyx Səfiəddin 1334-cü il sentyabr ayının 12-də vəfat etmişdir. Vəfatından qabaq övladlarını və müridlərini başına toplayaraq onlara öz vəsiyyətini çatdırdı. "[Şeyx Səfiəddin] Həzrət Şeyx Sədrəddin Musa haqqında da buyurdu: «Mənim evimdə namaz qılmağı və bəndələri doğru yola çəkməyi oğlum Sədrəddinin öhdəsinə verirəm». Sonra isə nəsihət və öyüdə başladı. O vaxta qədər ki, Şeyx Səfinin qeybdən ilham alan, möcüzə yaradan dili danışmaq qabiliyyətini itirdi, onun son sözü bununla bitdi: «Ona (Məhəmməd peyğəmbərə) salavat göndərin və onu layiqincə salamlayın» (39).

Şeyx Səfiəddin həm də yaradıcı bir insan idi. O özündən sonra bir neçə risalə və xeyli sayda ədəbi əsər nümunələri miras qoymuşdu. Bu ədəbi nümunələr içərisində Azərbaycan türkcəsində yazılmış şer parçaları da vardır. XIII-XIV əsrdə yazılmasına baxmayaraq Şeyx Səfiəddinin Azərbaycan türkcəsindəkiı şerləri kifayət qədər aydın və anlaşıqlıdır. Bunu aşağıdakı nümunələrdən də görmək mümkündür:

### SEVİŞMƏKLƏR

Göyərçin yolladım, yazdım sənə səndən şikayətlər,
Qolunda ol qanadlardır başı bağlı kitabətlər.
Unudma aşiqi, namehriban olma, mənim canım,
İşıqsız sərvə oxşarlar vəfasız sərvqamətlər.
Səni tanrı, necə səndən şikayət etməyim axır,
Hanı ol nazlı baxmaqlar, hanı gizlin işarətlər.

Hanı zalim, hanı gözüm, hanı kafir, hanı canım?
Sevişməklər, barışmaqlar, təpişməklər, qucuşmaqlar!

## NEY LƏR

Olan həqq yadı birlə qayğısız divanə, kəs neylər,
Qılınc əlin dəmə'ni çağıran ər, dadrəs neylər.
Sınıq könlüm nəva dutmazsa, əskim fövcü kəsilməz,
Böylə ağır qaralı karvan sövti -cərəs neylər.
Çəkən köksün şikafından mənim bidərd könlümni,
Bu qanlı bəhr qarşısında zəngi var, səs neylər.
Dəniz mudrar olmaz it su içmağından, ey arif,
Həqiqət anlıyanları könüllərdə həvəs neylər.

## BENGALƏLƏNMİŞ

Tutur könlümdən atəş laləlınmiş,
Başımdan dud qalxar haləlınmiş,
Keyik kimi çürümüş kükrən naz,
Baxış durna kimi donbal ələnmiş.
Tökülmüş zülfi yağıtək qucağə,
İçib hinduləri bengaləlınmiş.

## MÖVZUN -MÖVZUN

Qoydu üz könlü məqəm ləşkəri hamun-hamun,
Qara baydağlı ələmlər ucu gülgun -gülgun,
Çağırırdım qatı avaz ilə: - Leyli, Leyli!
Dağ səs verdi cavabında ki: - Məcnun, Məcnun.
Gözlərimdən yana od tutladı duzəx-duzəx,
Cigərimdən yana qan qaynadı Ceyhun -Ceyhun,
Bu nə viranə könüldür, Səfi, ey vay, ey vay!
Sərvlər var idi bu bağidə mövzun-mövzun.

## QANLI PİYALƏ

Göy güldü, bulud ağladı, ey şanlı piyalə,
Saldı məni mey şövqünə bu qanlı piyalə.
Ol dəm ki dilim dutmaya, saqi, kərəm eylə,
Allahı sevərsən, mənə bir canlı piyalə.

## VALLAHİ, BİLLAHİ

Demin kim dərdimi bilməz, bilir vallahi, billahi,
Desə bilməm, inanmayın, aldadır vallahi, billahi.
Dedin hərgiz mənim könlüm səninlə mehriban olmaz,
Demə zalim, demə kafir, olur vallahi, billahi.
Qıya bax gəc, təbəssüm nazik etgəc iltifat eylə,
Məni axır bu zalim öldürür vallahi, billahi.
Deyin Məcnun gəlibdir şəhrə, evdən çıx tamaşa qıl,
Uşaqdır nazəninim, aldanır vallahi, billahi.
Səfini qoyma yalqız, getmə, getmə, getmə, gəl, gəl, gəl,
Yazıqdır, başına dönüm, ölür vallahi, billahi.

### 3. Şeyx Sədrəddin

Şeyx Səfiəddin vəfat edərkən onun böyük oğlu və ruhani varisi Şeyx Sədrəddin Soltaniyyədə səfərdə idi. Şeyx Səfiəddini digər ailə üzvləri və müridləri onun özünün seçdiyi məkanda dəfn etdilər. Şeyx Sədrəddin isə sonradan onun qəbri üzərində böyük məqbərə tikdirdi. Məlumata görə, hazırda "Allah, Allah" künbəzi kimi tanınan bu məqbərənin tikintisi 10 il davam etdi (40). Qeyd edilməlidir ki, sonradan Şeyx Sədrəddin özü də həmin məqbərədə dəfn edildi.

Şeyx Sədrəddin Musa təriqət başçılığını öz üzərinə götürəndə 31 yaşında idi və 59 il təriqətə rəhbərlik etməklə 1392-ci ildə 90 yaşında ikən dünyasını dəyişdi. Onun həyatı illərində Səfəvi təriqətinin nüfuzu daha da gücləndi, müridlərin və tərəfdarların sayı daha da artdı. Şeyx Sədrəddin sadəcə təriqət başçısı deyildi və bu məqama yalnız Şeyx Səfiəddinin oğlu olduğu üçün yiyələnməmişdi. O həm də kamil elm və ürfan sahibi idi, ilahiyyat və təriqətdə atasından aldığı biliklərlə kamilliyə yetişmişdi, zahiri və batini dünyası ilə təriqətə rəhbərlik etmək haqqını da qazanmışdı. Bu mənada o da dövrünün böyük ilahiyyat və ürfan sahibi idi. O yalnız savad və biliyi ilə deyil, həm də əməli-saleh işləri ilə, məsləhətləri ilə müridləri və insanlar arasında böyük hörmət qazanmışdı. "Tarixi aləmarayi Abbasi" əsərinin müəllifi Şeyx Sədrəddini belə vəsf edirdi: "Uşaqlıq və yeniyetməlik zamanından pəhrizkarlıq nuru mübarək alnından parlayır və irşad, yaxşılıq əlamətləri [onun] zahirindən görünürdü. Övliyalıq və irşad bağında o, başı uca bir sərv ağacı idi. Əslinin aliliyi və nəslinin hörməti baxımından böyüklər və izzətlilər arasında tək və mümtaz (seçilmiş) idi. Çünki o, hörmətli atası tərəfdən nəsilbənəsil seyidlik və kəramət bürcünün ulduzu, xoşbəxt anası tərəfdən isə irşad sədəfinin dürrü idi və onun özündən əvvəlki yeddi əcdadı dini rəhbərlik, zahidlik və ədalət taxtında oturmuşdular" (41).

Yəni, mənbələr də Şeyx Sədrəddini kamil bir mürşid və Səfəvi xanədanının layiqli bir davamçısı kimi təqdim edirdilər. Şeyx Sədrəddin Şeyx Səfiəddinin oğlu olmaqla bərabər, həm də Şeyx Zahid Gilaninin qız nəvəsi idi və əslində iki böyük şəriət və təriqət sahibinin davamçısı idi və onların dəyərli cəhətlərini

özündə birləşdirmişdi. Şeyx Sədrəddin ana babası Şeyx Zahid Gilaninin vəfatından 4 il sonra dünyaya gəlmişdi. Amma deyilənə görə, Şeyx Zahid Gilani hələ qızı Fatiməni Şeyx Səfiəddinə nikah etdirəndə Şeyx Sədrəddin kimi bir şəriət və təriqət adamının dünyaya gələcəyini duymuşdu. Bununla bağlı mənbələrdə maraqlı bir məlumat da mövcuddur. "Şeyx Zahidin möhtərəm qızı ilə övliyalar sultanı olan həzrət (Səfiəddin) arasında kəbin kəsilən günü Şeyx Zahid kəbin məclisində ayağa qalxdı, məclisdə olmayan məchul bir şəxsin qarşısında hörmətlə baş əydi. Məclisdə olanlar bunun səbəbini soruşdular. Şeyx [Zahid] buyurdu: «Mənim nəvələrimdən olan Şeyx Səfinin övladlarını mənə nişan verdilər. Onların arasında mənim yerimdə oturacaq pəhrizkar bir səadət sahibi gözümə çarpdı və mən onun məqam və dərəcəsinin böyüklüyünü başa düşüb, ona baş əydim». O yüksək rütbəli şəxsin (Sədrəddinin) aya bənzər üzü təvəllüd üfüqündən parlayıb dünyanı işıqlandıranda övliyalar sultanı olan həzrət (Səfiəddin) iradət sahiblərinə və müridlərə xəbər verdi: «Bu əziz cavahir, Şeyx Zahidin kəbin məclisində baş əydiyi həmin səadətli övladdır». O həzrət (Sədrəddin) neçə il böyük atasının yanında elm öyrəndi və [yaxşı] xasiyyətlər kəsb etdi, zahir və batin elmlərində kamala çatdı və onun dini rəhbərlik şöhrəti bütün dünyanı bürüdü.... Nəhayət, o həzrət (Sədrəddin) hörmətli atasının vəfatından sonra irşad sərvətinin xəzinədarı olub, səadət nişanlı atasının [vəfat] hadisəsindən sonra Sultaniyyə səfərindən qayıtdı. O elm silsiləsinin müridləri onun dünyanı bəzəyən camalını görəndə matəm libasını çıxarıb, yasdan əl çəkdilər. Aydın yolla gedənlər və dindar tayfalar təmiz ürək və doğru niyyətlə həzrət şeyxin vəsiyyətinə görə, o həzrəti irşad taxtına oturtdular, onun istək halqəsini [öz] qulaqlarına asdılar və ona itaət örtüyünü çiyinlərinə saldılar" (42).

Şeyx Sədrəddinin dövründə Səfəvi təriqətinin müridlərinin və tərəfdarlarının sayı daha da artdı. Bir tərəfdən bunun üçün hətta ətraf ölkələrin əhalisi arasında təbliğ və izah işləri aparılırdı. Digər tərəfdən də Səfəvi xanəgahının şöhrəti yayıldıqca ona meyl göstərənlərin sayı da artırdı. Şeyx Sədrəddin tərəfindən təriqətin mahiyyətinin çatdırılması üçün Səfəvi xəlifələri Ərdəbildən xeyli uzaqlara, Anadoluya, Şama, Diyarbəkrə və digər bölgələrə göndərilmişdi. Həmin bölgələrdə Səfəvi xəlifələrinin apardığı işlər də bu təriqətin sıralarının xeyli genişlənməsinə yol açırdı. Şeyx Sədrəddin eyni zamanda dövrün hakimləri, tanınmış ürfan əhli arasında da böyük hörmət və nüfuza malik idi. Mənbələrdə olan məlumata görə, bölgədəki sonuncu monqol hakimlərindən olan Sultan Əbu-Səid xan da şöhrəti və nüfuzu çox-çox ətrafa yayılmış olan Şeyx Sədrəddinə böyük hörmətlə yanaşırdı və Səfəvi xanəgahına çoxlu sayda hədiyyələr bağışlamışdı (43).

Baxmayaraq ki, Şeyx Sədrəddinin dövründə də Səfəvi təriqəti dünyəvi işlərə qarışmırdı və öz tərəfdarları arasında yalnız ürfani və ilahiyyat təbliğatı aparırdı, bununla belə onun sıralarının artması, təriqətin daha da güclənməsi dövrün hakimlərinin nigarançılığı ilə qarşılaşırdı. Belə hakimlərdən biri də Məlik Əşrəf Müzəfərəddin Musa Çobani idi. O öz qardaşı Şeyx Həsəndən sonra



*Şeyx Səfi türbəsi*

Azərbaycanın da hakimliyinə yiyələnə bilmişdi. Məlik Əşrəf heç də həmişə Səfəvi təriqətinə qarşı müxalif mövqedə olmamışdı. Bu şəxs Şeyx Sədrəddinə böyük hörmətlə yanaşmışdı. Lakin Səfəvi təriqətinin sıralarının genişlənməsini Məlik Əşrəf öz hakimiyyətinə təhlükə kimi qiymətləndirirdi və ona görə də bu təriqətin nüfuzunun genişlənməsinin qarşısını almağa cəhd göstərirdi. Məlik Əşrəf görüşmək bəhanəsi ilə Şeyx Sədrəddini Təbrizə dəvət etdi. Zahirən, Şeyx Sədrəddin hörmət və izzətlə qarşılandı, ona ehtiram göstərildi. Əslində isə, Məlik Əşrəf onun hətta öldürülməsinə belə razı olmuşdu. Bunun üçün Şeyx Sədrəddinin yeməyinə zəhər qatıldı. Təsadüfən, Şeyx Sədrəddin zəhər qatılmış yeməyi yeməkdən imtina etdi. Mənbələrdəki məlumata görə, Şeyx Sədrəddin kəramət sahibi olduğu üçün yeməyinə zəhər qatılması ona əyan olmuşdu. Bununla belə, Şeyx Sədrəddin azad edilmədi və müəyyən bəhanələr irəli sürməklə onun Təbrizi tərk etməsinə icazə verilmədi. Səfəvi şeyxi 3 ay Təbrizdə saxlanıldı və bəzi məlumatlara görə, Şeyx Sədrəddinin Təbrizə dəvət edilməsindən 3 ay sonra Məlik Əşrəf yuxusunda Şeyx Səfiəddini gördü və onun qəzəbi ilə rastlaşdı. Məlumata görə, Şeyx Səfiəddin tələb etdi ki, Məlik Əşrəf onun oğlu Şeyx Sədrdəddini azad etsin və Ərdəbilə qayıtmasına icazə versin. Bu yuxudan sonra Məlik Əşrəf qorxuya düşdü, Şeyx Sədrəddini yanına çağırıb onunla söhbət etdi və sonra da Şeyx Sədrəddinin Ərdəbilə qayıtmasına razı oldu. Şeyx Sədrəddin də Ərdəbilə qayıdaraq yenidən öz ruhani və ürfani fəaliyyətini davam etdirdi, təriqət əhlinə rəhbərliyi öz üzərinə götürdü (44).

Amma bu, çox da uzun çəkmədi və Şeyx Sədrəddinin və onun rəhbərlik etdiyi təriqətin sıralarının günü-gündən artması Məlik Əşrəfin yenidən ciddi narahatçılığına səbəb oldu və o, yenidən Şeyx Sədrəddinin həbsi barəsində qərar verdi. Ümumən, Məlik Əşrəf yalnız Şeyx Sədrəddinə qarşı deyil, dövrünün tanınmış şəxslərinə, ruhanilərinə, hörmətli adamlarına qarşı təqibi gücləndirməyə başladı ki, bu da çoxlu sayda tanınmış şəxslərin öz yurdlarını tərk etməsinə gətirib çıxardı. Şeyx Sədrəddinin həbs edilməsi üçün Məlik Əşrəf Ərdəbilə hərbi qüvvə də göndərdi. Şeyx Sədrəddin bundan vaxtında xəbər tuta bildi və ona görə də Ərdəbili tərk edərək Gilana yollandı. Bu xəbəri eşidəndə Məlik Əşrəf öz adamlarını Şeyx Sədrəddinin ardınca göndərdi, müxtəlif bəhanələrlə onu geri qaytarmağa çalışdı. Lakin Şeyx Sədrəddin onun vədlərini və sözlərini qəbul etmədi və Gilanda məskunlaşaraq mürşidlik fəaliyyətini orada davam etdirdi (45).

Qeyd edildiyi kimi, Məlik Əşrəfin təqiblərindən nicat tapmaq üçün hörmət və nüfuz sahibləri müxtəlif yerlərə pənah aparmışdılar. Bu təqiblərdən qaçanlardan bəziləri hətta Dərbənd divarlarından aşaraq qıpçaq çöllərinə gedib çıxmış və onların vasitəsilə Məlik Əşrəfin yarıtmaz əməlləri qıpçaq hakiminə də çatmışdı. Verilən məlumata görə, bura pənah gətirmiş şəxslərdən biri camaat qarşısındakı moizələrdən birində Azərbaycanda baş verən haqsızlıqlardan geniş söhbət açdı və bu söhbəti eşidən qıpçaq hakimi Canıbəy xan Azərbaycana qoşun çıxarmağa, Məlik Əşrəfin hakimiyyətinə son qoymağa söz verdi. Bunun nəticəsi idi ki, bir müddətdən sonra Canıbəy xan böyük sayda qoşun toplayaraq Dərbənd divarlarını aşdı və Şirvana üz tutdu. 1357-ci ildə baş vermiş həmin yürüş zamanı

Azərbaycan nəzarət altına götürüldü, Məlik Əşrəf isə həbs edilərək qətlə yetirildi. Bundan sonra Canıbəy xan (bəzi ədəbiyyatda isə sadəcə Canı bəy adlandırılır) Şeyx Sədrəddinə vətənə dönməsi barəsində xəbər göndərdi. Şeyx Sədrəddin də bu dəvəti qəbul etdi və Ərdəbilə doğru hərəkətə başladı. Mövcud məlumatlara görə, Ucan yaxınlığındakı Bostanabad kəndində Şeyx Sədrəddinlə Canıbəy xanın görüşü oldu. Bu görüş zamanı Canıbəy xan Səfəvi şeyxinə böyük hörmət və ehtiram nümayiş etdirdi və bu görüşdən sonra Ərdəbilə dönən Şeyx Sədrəddin xeyli vaxtdan bəri nəzarətsiz qalmış xanəgahın işlərinin yenidən təşkilatlandırılmasına başladı (46).

Mənbələrdəki məlumata görə, Canıbəy xan bu görüş zamanı Şeyx Sədrəddinlə ayrıca söhbət etdi, ondan hal-əhval tutdu. Ona bəyan etdi ki, vətənini məcburiyyət üzündən tərk etməsindən xəbəri var və bu da Ərdəbil xanəgahının başsız qalmasına səbəb olmuşdur. Canıbəy xan sonra şeyxə məsləhət bildi ki, yenidən Ərdəbilə dönsün, Ərdəbil xanəgahının işlərini yenidən nizamlasın, onun yolunu gözləyən fəqirlərin dadına çatsın, Canıbəy xan bölgədə uzun zaman qalmayacağını söyləyərək şeyxə məsləhət gördü ki, xanəgaha, təriqət müridlərinə və tərəfdarlarına mənsub olan bütün mülkləri və əmlakı sahmana salaraq ona təqdim etsinlər və o da həmin əmlakı xanəgahın sürqatı kimi rəsmiləşdirsin. Şeyx Sədrəddin də bununla bağlı öz müridlərinə göstəriş verdi ki, Ərdəbil ətrafında, Muğanda Səfəvi xanəgahına mənsub olan əmlakın sənədlərini toplasınlar. Bəzi mənbələr Canıbəy xanın bölgəni tərk etməsi ilə əlaqədar Səfəvi xanəgahının əmlakının sürqat kimi rəsmiləşdirilməsinə nail olunmadığı bildirdiyi halda (47), bəzi mənbələrdə isə həmin əmlakın sürqat kimi rəsmiləşdirilərək Səfəvi xanəgahının ixtiyarına verildiyi bildirilir (48).

"Silsilət-ül nəsəb-e Səfəviye" əsərində Şeyx Sədrəddinin adı ilə maraqlı bir hadisə də bağlanılır. Doğrudur, tədqiqatçılar bu hadisəyə elə də yer vermirlər və onun təsdiqi ilə bağlı ciddi faktlar da ortaya qoyulmur. Bununla belə, özözlüyündə bu hadisə maraq kəsb etməyə qabildir. Əsərdə bildirilir ki, hicri tarixi ilə 600-cü ildə (miladi ilə XIII əsrin ilk illərinə təsadüf edir) gürcü qoşunları bölgəyə hücum edəndə Ərdəbilin cami məscidinin darvazalarını da söküb özləri ilə Gürcüstana aparmışdılar (yuxarıda qeyd edildiyi kimi, gürcü qoşunları hicri tarixi ilə 607-ci ildə, miladi tarixi ilə 1210-cu ildə Ərdəbilə qədər gəlib çıxmış və Ərdəbildə kütləvi talanlar həyata keçirmişdilər. Ola bilər ki, haqqında danışılan hadisə həmin illərə aiddir). Bildirilir ki, gürcülər həmin darvazaları öz kilsələrində istifadə edirdilər. Bu hadisə uzun illər idi ki, Ərdəbil əhlinin yadından çıxmamışdı və xüsusilə etiqad əhli, sufilər və dərvişlər vaxtaşırı bu məsələni ortaya atırdılar. Şeyx Sədrəddin də bu hadisədən xəbərdar idi və günlərin birində o, Gürcüstana yollanaraq həmin darvazaları qaytarmaq qərarına gəlir. Şeyx Sədrəddin özü ilə iki nəfər də götürüb piyada Gürcüstana yollanır və axtarıb darvazalar saxlanılan kilsəni tapır. Gürcü keşişləri Səfəvi şeyxinin və onun yanındakıların gəlməsindən xəbər tutandan sonra yerli hakimə xəbər göndərirlər. Uzun söz-söhbətdən sonra darvazaların geri qaytarılması qərara alınır. Amma gürcülər bu darvazaları aparmaq üçün at-araba verməkdən boyun qaçırır-

lar. Belə olanda şeyx yanındakı adamlara tapşırır ki, darvaza taylarını üst-üstə qoysunlar və onların hərəsi darvazanın bir tərəfindən yapışaraq yola düşsünlər. Şeyxi müşayiət edənlər belə də edirlər və bu yolla oğurlanmış darvazaları oradan çıxararaq Ərdəbilə çatdırmağa müvəffəq olurlar (49).

Şeyx Sədrəddin öz dövrünün kamil ilahiyyatçısı idi. İstər Quranın və istərsə də peyğəmbər hədislərinin təfsirində o, sonsuz biliyi və müdrikliyi ilə seçilirdi və bu biliklərini də ömrü boyu öz müridlərinə öyrədərdi. Bir sıra mənbələrdə Şeyx Sədrəddin tərəfindən Quran ayələrinin və peyğəmbər hədislərinin necə təfsir edilməsi haqqında çoxlu sayda nümunələr mövcuddur. Elə bu nümunələr də Şeyx Sədrəddinin elm və biliyinin dərinliyini nümayiş etdirirdi. Şeyx Sədrəddin "Qüddəs sərruh" kimi xatırlanır. Şeyx Səfi məqbərə kompleksinin əsası onun tərəfindən qoyulmuşdu. Şeyx Səfiəddin haqqında İbn Bəzzaz tərəfindən bioqrafiya məzmunlu «Səfvətüs-səfa» əsərinin yazılması da Şeyx Sədrəddinin təklifi ilə həyata keçmişdi. İndinin özündə də həmin əsər Səfəvi xanədanı haqqında qiymətli mənbələrdən biri olaraq qalmaqdadır.

Ömrünün sonlarına yaxın Şeyx Sədrəddin Məkkə ziyarətinə yollandı. Mənbələrdə bu səfər Şeyx Sədrəddinin kəramətinin göstəricisi kimi təsvir edilmişdir. Bildirilir ki, Şeyx Sədrəddin Mədinədə olarkən həzrət peyğəmbər onun məqbərəsinin xadimlərinin birisinin yuxusuna girmiş və demişdi ki, övladım, Sədrəddin Ərdəbili bizim ziyarətimizə gəlib, ona lazımi səviyyədə xidmət və ehtiram göstərilsin. Peyğəmbər məqbərəsinin xadimləri də Şeyx Sədrəddini böyük hörmət və ehtiramla qarşılamış və onun xidmətində dayanmışdılar. Ziyarətini tamamlayandan sonra Şeyx Sədrəddinə bir bayraq verilmiş və həmin bayraq peyğəmbər bayrağı kimi uzun zaman Şeyx Səfi məqbərəsi üzərində dalğalanmışdı (50).

Şeyx Sədrəddinin üç oğlu var idi və Məkkə ziyarətindən geri döndükdən sonra böyük oğlu Xacə Əlini özünün varisi kimi təriqət rəhbəri elan etdi. O, 1392-ci ildə dünyasını dəyişdi və atasının yanında, Şeyx Səfi məqbərəsində dəfn edildi.

### 4. Xacə Əli

Beləliklə, 1392-ci ildən etibarən Səfəvi xanədanına, xanəgahına və təriqətinə rəhbərlik Xacə Əlinin üzərinə düşdü və düz 36 il bu məqamın məsuliyyətini öz üzərinə götürdü. Onun dövründə Səfəvi xanədanının və təriqətinin nüfuzu heç də azalmadı, əksinə, daha da rövnəq tapdı. Çünki bir tərəfdən Xacə Əli öz atası yanında ilahiyyat elminə çox dərindən bələd olmuş və şəriət bilikləri ilə əcdadlarının ənənəsini davam etdirərək dövrünün ən kamil ürfan əhlinə çevrilmişdi. O həm də böyük kəramət sahibi kimi tanınırdı və mənbələrdə olan məlumatlara görə, hər zaman insanların xeyrinə öz kəramətini nümayiş etdirə bilirdi. Səfəvi xanədanı həm də dövrün hakimləri tərəfindən hörmət və ehtiramla qarşılanırdı və bu da insanların etiqadlarının formalaşmasında Səfəvi xanədanına üz tutmasına daha geniş yol açırdı.

"Aləmara-ye Abbasi" əsərində Xacə Əli haqqında aşağıdakı sətirlər vardır: "Allahı aramaq və şəriəti yaymaq yolunda o müqəddəs nişanəli [Sədrəddinin] ömrü bitəndə onun şərəfli oğlu Xoca Əli o gözəl xasiyyətlinin yerinə oturdu. O öz əziz atasının yanında elm və kamal kəsb etmiş və yaxşılıq zinəti ilə bəzənmişdi. «Mənim yerimdə oturanlar mənim bayrağım altında olmalıdırlar» kəlamında deyildiyi kimi, [Xoca Əli] atasının mübarək cəsədini övliyalar sultanı olan Həzrət [Şeyx Səfiəddinin] ərşə bərabər olan günbəzinin altında dəfn edib, o hörmətli məkanın şərəfini artırdı.

«Azad oğul əziz ataların yolu ilə gedər» [sözündə deyildiyi kimi], Sultan Xoca Əli çalışmaqda və zahidlikdə, batini və nəfsi təmizləməkdə böyük atalarının yolu və hörmətli şeyxlərin sınanmış üsulu ilə hərəkət edərək, Allahın işarələrini öyrənib, asimandan gəlmiş kəlamın incəliklərini kəşf etmişdi. Gözəl xasiyyətli atasının [vəfatı] hadisəsindən sonra o, öz mübarək vücudu ilə irşad və dini rəhbərlik taxtını bəzədi. Müqəddəs Səfəviyyə sülaləsinin pak ürəkli sufiləri o təmiz qəlblidən (Xoca Əlidən) feyz və mübarəklik ruhu alırdılar və o həzrətdən çoxlu qəribəliklər görürdülər" (51).

Bəzi məlumatlara görə, dövrün çətinlikləri, qətl və qarətlərin rəvac tapması da əhalinin müəyyən dairələrini Səfəvi xanədanına sığınmağa, rastlaşdıqları çətinliklərlə bağlı bu təriqətdə mənəvi təskinlik tapmağa sövq edirdi. Xacə Əlinin dövründə də Səfəvilər xanədanının və təriqətinin dini məzmunu dəyişmədi, hərbi-siyasi fəaliyyətdən kənar qalmaqla təriqət islam dininin əsaslarının təbliğ edilməsi, öyrədilməsi və yayılması sahəsindəki fəaliyyətini davam etdirdi. Xacə Əil də əcdadları kimi, həyatını ibadətdə, elm və bilik öyrənilməsində keçirir, etiqadın və ibadətin maddiyata üstün tutulmasını düzgün sayırdı. Mənbələrdə onun haqqında da çox geniş məlumata rast gəlmək mümkün deyildir. Çünki Xacə Əli də dünya işlərindən xəlvətə çəkilərək ömrünü ilahiyyata, ibadətə, dini maarifçiliyə həsr etmişdi. İnsanlar və müridləri arasında artan nüfuzuna görə Xacə Əli həm də "Sultan Xacə Əli" kimi tanınırdı. Ona mənbələrdə və tarixi ədəbiyyatda həm də Sultan Əli Siyahpuş (qarageyimli) kimi də müraciət edilmişdir. Bu da ondan irəli gəlir ki, Xacə Əli çox zaman qara rəngli əba geyinərmiş. Xacə Əli eyni zamanda mənbələrdə sultanül-arifin (ariflər sultanı), bürhanül-salehin (salehlər bürhanı) və böyük şeyx kimi də təqdim olunmuşdur (52). Xacə Əli həm də Əli təxəllüsü ilə şerlər yazmışdır.

Mənbələrdə və tarixi ədəbiyyatda olan bəzi məlumatlara görə, Xacə Əlinin təriqət rəhbəri olduğu zamanlarda bu təriqətin şiəliyə meyllənməsi başlamışdı. Bəzi ədəbiyyatda Səfəvi xanədanının hələ əvvəldən şiəliyə bağlılığı iddia olunsa da, əsas fikirlərə və baxışlara görə, Səfəvi xanədanı əvvəllər sünni məzhəbinə mənsub olmuşdu. Konkret olaraq Səfəvi xanədanın sünniliyin Şafiə qoluna bağlı olduğu bildirilirdi.

Sultan Xacə Əlinin xatırlandığı mənbələrin demək olar ki, hamısında onun şiəliyin təbliği və Əmir Teymurla görüşləri haqqında rəvayət xarakterli məlumatlar mövcuddur. Xacə Əli məlumdur ki, Əmir Teymurun müasiri idi və Əmir Teymur Azərbaycandan keçməklə Osmanlı dövləti üzərinə yürüş etmişdi. Ona

görə onların görüşməsi şübhə doğurmaya bilər. Bundan başqa Əmir Teymur özü də etiqad əhli olaraq ilahiyyatın öyrənilməsinə xüsusi diqqət yetirirdi. Bu mənada Əmir Teymurun Səfəvi xanəgahına üz tutması, Səfəvi təriqətinin rəhbərləri ilə görüşməsi təbii görünə bilər.

Xacə Əlinin şiəliyə meyllənməsi və şiəliyin təbliğinə başlaması 9-cu imam Məhəmməd Tağınınadı ilə bağlanılır. Mənbə məlumatlarına görə, Xacə Əli bir dəfə yuxuda imam Məhəmməd Tağını görür və Məhəmməd Tağı ona tapşırır ki, düz yolunu azmış Dizful əhalisini doğru yola istiqamətləndirsin. Yuxuda belə bir tapşırıq alandan sonra Xacə Əli Dizfula yollanır və əhali arasında şiəliyin əsaslarının şərhinə başlayır. Amma Dizful əhalisi onun sözlərini və tövsiyələrini qəbul etmirlər. Onda Xacə Əli öz kəramətini göstərmək məcburiyyətində qalır və Dizful çayının istiqamətini dəyişməyə müvəffəq olur. Mənbə məlumatına görə, Dizful əhalisi Xacə Əlinin sözlərini qəbul etməyəndə imam Məhəmməd Tağı yenidən onun yuxusuna girdi və bundan sonra Allahın iradəsi və dərvişlərin duaları ilə iki qaya arasından axan Dizful çayının qarşısını saxlaya bildi. On bir gün ərzində Dizful çayının məcrası dəyişdirildi və Xacə Əlinin bu kəraməti görəndən sonra əhali Həzrət Əlinin vilayət və xilafətini qəbul etdi (53).

Güman edilir ki, Xacə Əlinin Dizfula yollanması və orada insanları şəriət yoluna dəvət etməsi Səfəvi xanədanı tərəfindən şiəliyin təbliği yolunda atılan ilk addım idi. Hətta Xacə Əlinin şiə imamlarına yas saxlanılması məqsədilə qara əbada gəzməsini iddia edən məlumatlar da vardır. Amma mütəxəssislər bu fikirlərlə razılaşmırlar. Bildirilir ki, Xacə Əli də əcdadları kimi sünni məzhəbinin davamçısı idi və Qüds xəlifəsi Şəmsəddin Məhəmməd ibn Əhməd də Xacə Əlininin məşhur Hənəfi fəqihi olmasını söyləmişdi (54). Xacə Əlinin ömrünün sonlarında Qüdsə yollanması və oradakı şeyxlərlə və ilahiyyatçıları ilə görüşməsi də onun qəti şəkildə şiəliyə bağlanmasını müəyyən şübhə altına ala bilər .

Əmir Teymurla görüşləri haqqında olan məlumatlar da daha çox Xacə Əlinin kəramətinin təsdiqinə xidmət edən məlumatlardır. Bu məlumatlar da rəvayət xarakterlidir. Bununla belə, Səfəvi xanədanın tarixi ilə bağlı olan mənbələrdə bir qayda olaraq bu məlumatlarla rastlaşmaq mümkündür. Əmir Teymurun Xacə Əli ilə ilk görüşünün onun Xorasana yürüşü zamanı baş verdiyi bildirilir. Verilən məlumata görə, Əmir Teymur qoşunları Ceyhun (Amu-Dərya) çayı üzərindən adlayarkən əlindəki qamçısı suya düşür. Əmir Teymur bunu pis bir əlamət kimi qəbul edir və ona görə də irəliyə doğru hərəkətini dayandırır. Ətrafındakılar ona hərəkət etməyi məsləhət bilsələr də, Əmir Teymur qamçını tapmadan irəli hərəkət etməyin yaxşı nəticəyə gətirməyəcəyini güman edir. Mənbə məlumatlarına görə, Əmir Teymur bir saata qədər bu barədə fikirləşməli olur. Məhz bu zaman qiblə istiqamətindən Xacə Əli dərviş libasında zühur edir və qamçını sudan çıxararaq Əmir Teymura verir (55).

"Alәmara-ye Abbasi" əsərində Xacə Əli ilə Əmir Teymurun həm bu görüşü, həm də digər görüşləri aşağıdakı kimi təsvir edilmişdir: "Deyirlər ki, Xoca Əli üç dəfə, hər dəfə də başqa cür tərzdə böyük əmir və sahibqıran Əmir Teymur Kürəkanla görüşmüşdür. Birinci dəfə Əmir Teymur Xorasana yürüş etmək

məqsədilə Ceyhundan keçdiyi zaman qamçısı suya düşdü. Əmir Teymurun gözünə bir cındır paltar geymiş dərviş göründü ki, [Teymurun] qamçısını sudan çıxarıb əlinə verdi. Əmir Teymur bu hadisəni yaxşı əlamət hesab edib, (dərvişin) şərəfli əhvalını xəbər aldı. O dərviş dedi: «Vətənim Ərdəbildir, zühur etdiyim yer Dizful, dəfn olunacağım yer isə Qüdsi-Xəlil olacaq». O [dərviş] sanki mənəvi aləmdən zühur etmiş bir surət idi. Əmir Teymurun Bağdaddan Xuzistana qoşun çəkdiyi ildə Dizful çayı körpüsünün başında onun nəzərinə çiyninə qara xirqə salmış bir dərviş çarpdı. [O] dedi: «Mən Ceyhun kənarında sənin əlinə qamçı verən dərvişəm. Başqa bir dəfə də görüşümüz Ərdəbildə olacaq».

Bir neçə ildən sonra Əmir Teymur Rum səfərindən qayıdarkən özü ilə bərabər böyük bir dəstə Rum əsiri gətirərək, darülirşad Ərdəbilə çatdı. O, Şeyx Səfiəddinin böyüklüyü, onun yüksək məqam və dərəcə sahibi olması haqqında eşitmişdi. [O], [Şeyx Səfinin] mübarək qəbrinin ziyarətinə gedib, ziyarət qaydasına əməl etdikdən sonra o hörmətli məkanın dini rəhbərləri haqqında xəbər aldı. Xoca Əlinin əhvalından ona xəbər verdilər. [Əmir Teymur] onunla görüşmək məqsədi ilə Şeyxin hücrəsinə tərəf yönəldi. Şeyx ibadət səccadəsi üzərində oturmuş, Allahın gözəl keyfiyyətlərini zikr etməklə məşğul idi. Hərçənd xidmətçilər padşahın gəlməsini ona (Xoca Əliyə) xəbər versələr də, amma o, buna etina etmədən, [Əmir Teymura] oturmağı təklif etdi. [Xoca Əli] öyüd və nəsihət xəzinələrinin qapısını açıb, onun şüur qulağını o parlaq dürlər vasitəsilə, gözəl xasiyyətli olmaq və Allahın bəndələri ilə yola getmək inciləri ilə ağırlaşdırdı. Əmir Teymur nəzərində üç şey tutmuşdu ki, əgər ürəyində tutduğu kimi zahir olarsa, öz iradət əli ilə o həzrətin irşad ətəyindən möhkəm tutsun. Hər üçü könlü istədiyi kimi zühur etdi.

Ona görə də şeyx həzrətlərinə istək əli verib xahiş etdi ki, [Şeyx] ondan bir şey istəsin. [Lakin] yoxsulluq və mənəviyyat aləminin padşahlarının zahiri aləmin padşahlarına nə ehtiyacı ola bilər və dünyanın xırda saxsı parçalarının Allahı tanımaq [kimi] bahalı cavahir bazarında nə satışı ola bilər?! [Xoca Əlinin] işıqlı qəlbi dünyəvi işlərlə məşğul olmadığından və gözəl təbiəti zahiri dünya şeylərinə fikir vermədiyindən mübarək dodaqlarını heç bir xahişi dilə gətirməkdən ötrü açmadı. Padşahın təkrar xahişi və təkidindən sonra Allahın razılığını almaq üçün rumlu qadın və kişi əsirlərin azad edilməsini istədi. Əmir Teymur qəbul barmağını gözü üzərinə qoyaraq, bütün əsirlərin azad edilməsi hökmünü verdi. Ərdəbil vilayətində və o hüdudda öz halal pulu ilə rəğbətli kəndlər və əkinlər satın alıb, mübarək məqbərəyə vəqf etdi və o hörmətli məkanı bəst və pənahgah elan edib, o vilayətin xəracını o ali xanədana təslim etməyi tapşırdı" (56).

Digər mənbələrdə Əmir Teymurla Xacə Əlinin Dizful çayı üzərində olan körpüdəki görüşləri haqqında fərqli məlumatlar da vardır. Bu məlumatlar da rəvayət xarakterlidir və inandırıcı görünməsə də, hər halda Əmir Teymurla Xacə Əli arasındakı münasibətlərdən danışılanda həmin görüşün təfərrüatına da toxunulur. Bu məlumata əsasən, Əmir Teymur qoşunları ilə Dizful çayı üzərindəki körpüdən adlamaq istəyəndə bu körpünün mal-qara tərəfindən bağlandığını

görürlər. Ona görə burada ləngimək lazım gəlir. Bu zaman Əmir Teymurun gözü yaxınlıqdakı qara paltarlı dərvişə sataşır. Bu dərviş Xacə Əli imiş və Əmir Teymur onu tanımır. Xacə Əli yerdən bir daş parçası götürüb Əmir Teymura tərəf atır. Əmir Teymur dərvişin bu əməlində bir hikmət gördüyü üçün ona bir söz demir və atılan daş onun sinəsinə dəyir. Dərviş tərəfindən atılan ikinci daş onun bir çiyninə, üçüncü daş isə digər bir çiyninə dəyir. Bundan sonra Əmir Teymur ondan bu hərəkətinin dayandırılmasını xahiş edir. Dərviş də bu xahişdən sonra dördüncü daşı atmır. Əmir Teymur bu hərəkətin mənasını soruşanda Xacə Əli bildirir ki, üç daşın sənə dəyməsi dünyanın üç hissəsinin sənin nəzarətin altına gələcəyi deməkdir. Dördüncü daş isə dünyanın dördüncü hissəsi demək idi ki, ondan imtina etdin. Guya bundan sonra Əmir Teymur dördüncü daşın vurulmasını xahiş etsə də Xacə Əli artıq bunun gec olduğunu bildirir (57).

Bu məlumatların doğruluğu qəbul edilərsə, onda demək mümkündür ki, Əmir Teymurla görüşlərdən sonra həm Ərdəbil xanəgahına məxsus olan ərazilər daha da genişləndi, həm də Ərdəbil xanəgahının toxunulmazlığı rəsmiləşdirildi. Bunlar da öz növbəsində Səfəvi xanəgahının insanlar arasında nüfuzunu və təsir sahəsini xeyli genişləndirdi. Ərdəbil ətrafındakı torpaqların, kəndlərin vəqf torpaqları kimi və ya digər formada Ərdəbil xanəgahına bağışlanması o demək idi ki, o ərazilərdə yaşayan insanların artıq dünyəvi idarəçiliyi də bu xanəgaha tapşırılırdı. Bu isə Səfəvilər xanəgahının inzibati idarəçiliyinin genişlənməsinə və Ərdəbil ətrafında müstəqil idarəçiliyin təşkilatlanmasına münasib zəmin yaradırdı. Bəzi tarixi ədəbiyyatda olan məlumata görə, Əmir Teymur Ərdəbil ətrafındakı torpaqlardan əlavə, Qızıl Üzən, İsfahan və Həmədan ətrafında da xeyli torpaq sahələri alaraq Xacə Əlinin kişi övladlarına vəqf etdi. Bundan başqa bildirilir ki, Əmir Teymurun Xacə Əlinin xahişi ilə azad etdiyi əsirlərin böyük hissəsi türk tayfalarından idilər və onlar əsirlikdən azad olduqdan sonra Ərdəbildə qalaraq Səfəvi xanəgahının xadimlərinə çevrildilər. Məlumata görə, həmin türklər və onların sonrakı nəsli Səfəvi xanədanının gələcək hərbi qüvvələrinin müəyyən hissəsini təşkil etdilər (58). Bəzi tarixi ədəbiyyatda hətta Səfəvi dövlətinin əsasını təşkil edən Təkalu, Ustaclı, Şamlı, Qacar, Rumlu, Zülqədər tayfalarının məhz həmin əsirlərin bazasında Səfəvi xanədanı ətrafında toplanmasına işarə edilir.

Bir məlumata görə, Əmir Teymurla görüşəndə Xacə Əli ona dedi ki, əsirlər də sənin kimi mənim müridlərimdir. Onların əsirlikdə saxlanması Allaha xoş getməz. Onda Əmir Teymur soruşdu ki, bu əsirlərin sənin müridlərin olmasını necə ayırd etmək olar? Xacə Əli kiçik bir qırmızı parça çıxarıb dedi ki, müridlərin hər birinin papağında buna oxşar qırmızı parça olmalıdır. Bununla müridləri müəyyənləşdirmək olar. O da qeyd edilirdi ki, papaqlarına belə qırmızı parça tikmiş müridlər özlərini qızılbaşlar adlandırırdılar (59).

Ehtimal edilir ki, Xacə Əlinin xahişi əsasında Əmir Teymurun əsirlikdən azad etdiyi türk tayfa üzvlərinin sayı 30 min nəfərdən artıq idi. Əmir Teymur Səfəvi xanədanına olan ehtiramının göstəricisi kimi, işğal etdiyi ərazilərin

hakimlərinə əmr göndərmişdi ki, türklərin və eləcə də digərlərinin Səfəvi xanəgahına mürid edilməsinə maneçilik yaratmasınlar (60).

Əmir Teymurun oğlu Şahruxun da Səfəvi xanəgahına yaxşı münasibəti var idi. Onun hakimiyyəti Xacə Əlinin təriqət başçılığı dövrünə təsadüf edirdi. 1420-ci ildə Qaraqoyunlu Qara Yusiflə müharibə aparmaq üçün Şahrux qoşunları ilə Azərbaycana yollandı. Amma Şahrux Azərbaycana yetişənə qədər Qara Yusif dünyasını dəyişdi və belə olanda onunla müharibə aparılmasına da ehtiyac qalmadı. Amma Şahrux Ərdəbilə yetişəndə haqqında eşitdiyi Səfəvi şeyxlərinin ziyarətinə getdi və Səfəvi xanəgahında oldu. Mənbələrdə onun Xacə Əli ilə görüşməsi haqqında məlumat mövcudur. Həmin görüşün 1420-ci il dekabr ayının 4-də baş tutması ehtimal edilir (61)

Xacə Əlinin üç oğlan övladı var idi. Birincisi Şeyx (Sədrəddin) İbrahim idi. Xacə Əli həyatının sonlarına yaxın Məkkə ziyarətinə yola düşməzdən əvvəl Şeyx İbrahimi özünün dini varisi elan etdi və təriqətin gələcək rəhbərliyini ona tapşırdı. Xacə Əlinin ikinci övladı Şeyx Cəfər idi. Şeyx Cəfər də əcdadları kimi öz həyatını ilahiyyat elminin öyrənilməsinə həsr etmişdi və bu sahədə kamil bir alim kimi yetişmişdi. Mənbələrin verdiyi məlumatlara görə, Şeyx Cəfərin elmi kamilliyi o dərəcəyə çatmışdı ki, hətta mənsub olduğu xanədanın bütün üzvləri arasında seçilirdi. Şeyx Cəfərin yeddi oğlan övladı var idi və onları Şeyx Cəfərilər adlandırırdılar. Xacə Əlinin üçüncü oğlu isə Əbdülrəhman adlanırdı. O da Səfəvi təriqətinin davamçısı kimi əcdadlarının irsinin zənginləşdirilməsi ilə məşğul idi. Əbdülrəhman da hörmət və nüfuz sahibi idi və onun övladları isə mir ibrahimilər adı ilə tanınmışdı.

Həyatının sonuna yaxın Xacə Əli Məkkə ziyarətinə yollandı. Həcc ziyarətinə yola düşməzdən əvvəl Xacə Əli övladlarını və müridlərini yanına toplayıb onlarla söhbət etdi, onlara tövsiyələrini verdi, təriqətə rəhbərliyi Şeyx İbrahimə tapşırdı və sonra da Ərdəbili tərk etdi. Bu səfər zamanı Səfəvi xəlifələrinin və müridlərinin bir dəstəsi Xacə Əlini müşayiət edirdi. Amma Xacə Əli Ərdəbili tərk edəndən sonra oğlu Şeyx İbrahim atasını Məkkə ziyarətində müşayiət etməməsindən nigaran qaldı və bir neçə gündən sonra o da atasının arxasınca yola düşdü. Şeyx İbrahim qərara aldı ki, atası ilə birlikdə özü də Məkkə ziyarətində olsun, sonra da onunla birlikdə geri qayıtsın. "). Tarix-i Aləmarayi Abbasi» " bu məsələni belə şərh edir: "Allahı axtarma yollarında irəliləyən [Xoca Əli] şəriət qaydalarının möhkəmliyi sayəsində məqsəd Kəbəsinə çatmaq şövqü ilə hərəkətə gəldi. [Xoca Əli] irşad kürsüsünü və cənnət təbiətli müqəddəs bağın xidmətini seyidlik və övliyalıq ağacının meyvəsi olan Sultan Şeyx İbrahimə tapşırdı və həqiqət əhli və inam sahiblərinin bir dəstəsi ilə birlikdə, «hər kim Allahın qoyduğu qaydaları yüksək tutarsa» [ayəsinə] görə Allahın evinin ziyarətinə tərəf yola düşdü və «gəldim, Allah, gəldim» deyə, sədaqət yolu ilə irəliləyərək, bu əmin-amanlıq vadisinə ayaq qoydu. [Xoca Əlinin] xoşbəxt oğlu gözəl xasiyyətli atasının ayrılığına dözə bilmədiyinə və bundan əlavə, Kəbəni ziyarət etmək şövqünə düşdüyünə görə, atasının ardınca xeyir nişanəli Hicaz səfərinə getdi və çalışmaq addımı ilə tələb vadisinə ayaq qoydu. Mənzillər,

mərhələlər keçib, arzu etdiyi Kəbənin ziyarətinə, yəni məlaikə təbiətli atasının ayağını öpmək şərəfinə çatdı. Oğul ilə ata birlikdə Həcc işlərini yerinə yetirib, oradan Qüdsi-Xəlilə getdilər və mələklərin hörmət etdiyi o yerdə peyğəmbərlərin ruhunu və Əqsa məscidini ziyarət etdilər" (62).

Xacə Əlinin Məkkə ziyarətini başa vurduqdan sonra Qüds şəhərinə yollanması heç də təsadüfi deyildi. Burada həm müqəddəs yerlər var idi, həm də bu şəhər islam dünyasının ən kamil ilahiyyat alimlərinin, şeyxlərinin, ariflərinin toplaşdığı bir mərkəz kimi tanınırdı (63). Xacə Əli bu şəhərdə məskunlaşmış alimlərlə, arif insanlarla da görüşmək istəyirdi. Mövcud məlumatlara görə, Qüds şəhərində olarkən Fələstin və Suriyada olan Səfəvi təriqət üzvlərindən çoxlu sayda müridlər Xacə Əlinin görüşünə gəldilər, onun məsləhət və tövsiyələrini aldılar və həmin tövsiyələr nəticəsində Səfəvi təriqətinin əsaslarının təbliğini daha da gücləndirdilər.

Qüds şəhərində olarkən Xacə Əlinin səhhəti pisləşməyə başladı. İsti yaz günlərində oruc tutmaqda davam etməsi, gecələr uzun zaman ibadət və zikrlə məşğul olması da onun səhhətinin zəifləməsinə təkan verdi və bir müddətdən sonra dünyasını dəyişdi. Bu hadisə 1427-ci il may ayının 15-də baş verdi. Oğlu Şeyx İbrahim və müridləri onu Qüds şəhərində dəfn etdilər. Onun qəbrinin üzərində sonradan məqbərə tikildi və bu məqbərə Şeyx Əli Əcəmi məqbərəsi kimi tanınmışdı. Atasının dəfnini və əzadarlığını başa çatdırandan sonra Şeyx İbrahim Səfəvi müridləri və xəlifələri ilə birlikdə Ərdəbilə qayıtdı və təriqət rəhbərliyini həyata keçirməyə başladı.

### 5.Şeyx İbrahim

Şeyx İbrahim atasının və əcdadlarının yolunu davam etdirərək təriqət ətrafında toplaşanların irşadı və istiqamətləndirilməsi ilə məşğul oldu. Mənbələrdə onun həyatı və fəaliyyəti haqqında elə də geniş bir məlumat yoxdur. Məlum olan odur ki, Şeyx İbrahim də həyatını birmənalı şəkildə dini elmlərin öyrənilməsinə, təriqət ətrafına toplaşan müridlərin mənəvi dəyələr əsasında istiqamətləndirilməsinə, əcdadlarından miras qalan biliklərin, Səfəvi təriqət dəyərlərinin təbliğinə həsr etmişdir. Onun dövründə də Səfəvi xanəgahı imkansızların ümidgahı idi, fəqirlərin dayaq yeri idi. Şeyx İbrahimin səyləri nəticəsində Səfəvi xanəgahı daha da rövnəqləndi, genişləndi, ona qoşulanların sayı daha da artdı. Bundan əlavə, Şeyx İbrahim özü ətraf bölgələrə və ölkələrə müridlər və xəlifələr göndərdi ki, təriqət dəyərlərini yaysınlar. Nəticədə Səfəvi təriqət daha da təşkilatlandı, onun bölgələrdə və digər ölkələrdəki ardıcılları ilə əlaqələri gücləndi. Bu ardıcıllar dəstə-dəstə Ərdəbilə gələrək Səfəvi şeyxləri və təriqət rəhbərləri ilə görüşməyə çalışardılar. Şeyx İbrahimin dövründə Ərdəbilə ziyarətə gələnlərin sayı o qədər çox olardı ki, hətta onların hamısı ilə görüşməyə vaxt və imkan da tapılmazdı (64).

“Tarix-i Aləmarayi Abbasi " Şeyx İbrahim haqqında müxtəsər olaraq aşağıdakı məlumatı verirdi: "[Şeyx İbrahim] ətrafa xəlifələr və əyanlar göndərdi və



*Şeyx Səfiəddinin, (yuxarıda), Şeyx Sədrəddinin (ortada) və Şeyx İbrahimin qəbirləri*

tez bir zamanda onun uca dərgahı böyüklərin və kiçiklərin müraciət etdiyi yer oldu. Xalq [Şeyx İbrahimin] yüksək rütbəli astanasının torpağını mərifət gözünün sürməsi hesab edirdi. İradət sahiblərinin çoxluğundan, onun hörmətli evini ziyarət edənlərə onun müqəddəs hüzurunda durmağa macal yox idi. Onun yüksək şan-şöhrəti gündən-günə artırdı. O vilayətin adamlarından bir nəfər belə [onun] itaəti vacib olan hökmündən boyun qaçıra bilmirdi. Onun səxavət və kəramət nemətlərindən yoxsullar və möhtaclar, bəlkə də, əhalinin hamısı faydalanırdı. Onun abad mətbəxi qızıl və gümüş qablarla dolu idi, o [özü] isə bağışlama və ehsan [işlərində] ata-babalarından yüksəkdə dururdu. Onun şahanə gözəl xasiyyətləri vardı, bəyənilmiş görkəmi padşaha layiq idi" (65).

Xacə Əlinin, xüsusən də Şeyx İbrahimin təriqət rəhbəri kimi fəaliyyəti illərində Səfəvi təriqətinin daha da ictimailəşməsi və kütləviləşməsi baş verdi. Ətraf bölgələrdə kütləvi sayda çoxalmış olan Səfəvi müridləri və ardıcılları öz həyatlarını dini dəyələr üzərində qurmağa çalışdıqları üçün təriqət normaları onların həyatının qurulmasına da müəyyən təsir göstərirdi. Bu insanların təriqət rəhbərlərinin fikirlərinə, əməllərinə biganə qalmamaları dünyəvi fəaliyyətə də təsirsiz ötüşmürdü. Nəticədə təriqət ətrafında toplaşanlar arasında yalnız əqidə birliyi deyil, həm də fəaliyyət birliyinin formalaşması meyli güclənirdi. Bundan başqa, Səfəvi təriqətinə məxsus vəqf ərazilərinin genişlənməsi, Səfəvi xanəgahının toplanan hədiyyələr əsasında maddi imkanlarının çox böyük dərəcədə genişlənməsi bu xanəgahın dünyəvi imkanlarını və təsirlərini də artırırdı. Baxmayaraq ki, Şeyx İbrahimin təriqət rəhbərliyi dövründə dini maarifçilik, insanların daxilən təmizlənməsi və haqq yolunun izlənməsi təriqət fəaliyyətinin mahiyyətini təşkil edirdi, lakin mənəvi-dini dəyərlər ətrafında toplaşan çox böyük sayda insanların dünyəvi işlərə müdaxilə etməsi barədə dövrün hakimlərində müəyyən nigarançılıqlar yaranmağa başlamışdı.

Şeyx İbrahim xalq və müridləri arasında qazandığı hörmət və ehtirama görə həm də "Şeyx Şah" kimi tanınırdı. O, 19 il təriqət rəhbəri oldu və ömrünün sonlarına yaxın qəfildən xəstəliyə tutuldu. Onun bu xəstəliyini müalicə etmək mümkün olmadı və nəticədə 1447-ci ildə dünyasını dəyişdi (66). "Tarix-i aləmarayi Abbasi" bu barədə belə yazırdı: "Fələyin alçaq gərdişi ucbatından onun mübarək vücudu müxtəlif xəstəliklərə tutuldu. Zəmanə o xanədandan şənlik büsatını yığdı, xəstəlik uzun müddət davam etdi, onun ömür günəşi zavala uğradı. Bu mənanın qığılcımı onun ürəyinə işıq saldı, həyatın və ölümün zərər və mənfəətinə göz örtərək, nəhayət, «O səndən, sən də Ondan razı olaraq Rəbbinə dön!» [ayəsinin] malını can qiymətinə alıb, bu asiman kimi uca astanaya malik xanədanının mənsublarını və ixlas sahiblərini yığıb, varlını və yoxsulu, gənci və qocanı təşvişə gətirən bu çarəsiz hadisədən onları xəbərdar edərək, gözəl nəsihətlər verib vəsiyyət etdikdən sonra onları öz misilsiz oğlu Sultan Cüneydə itaət etməyə çağırdı, [onu] öz vəliəhdi və canişini təyin etdi, onunla əlaqədar çoxlu sifariş verdi. «Bu, bizim sizin öhdənizə qoyduğumuz və hər iki dünyada sizin öhdənizdə olan [şeydir]». Vəsiyyət etdikdən sonra [Şeyx İbrahimin] şərəfli ruhu

Allahın dərgahına getdi və Həzrət Sultan Cüneyd onu kəfənə salıb, böyük ata-babasının yanında basdırdı" (67).

Şeyx İbrahimin altı oğlan övladı var idi - Əbu Səid, Seyid Əməd, Şeyx Bəyazid, Xacə Canmirzə, Şeyx İbrahim Xacəgi və Şeyx Cüneyd (68). Göründüyü kimi, Şeyx Cüneyd ailənin ən kiçik övladı idi və Səfəvi xanədanı tarixində ilk dəfə idi ki, təriqət rəhbərliyi atadan böyük oğula deyil, kiçik oğula keçirdi. Doğrudur, Şeyx Səfiəddinin də varisi onun böyük oğlu deyil, ikinci oğlu - Şeyx Sədrəddin təyin edilmişdi. Amma, Şeyx Səfiəddinin böyük oğlu Məhyəddin hələ cavan yaşlarında dünyasını dəyişmişdi. İstər yuxarıdakı cümlələrdən, istərsə də digər mənbələrdə olan məlumatlardan görünür ki, Şeyx İbrahim yalnız ölüm ayağında olarkən müridlərini və övladlarını ətrafına toplayıb vəsiyyətini etdi, övladlarını və müridlərini Şeyx Cüneydin təriqət rəhbərliyini tanımağa çağırdı (69).

### 6. Şeyx Cüneyd

1447-ci ildə dünyasını dəyişən Şeyx İbrahimin öz varisi kimi kiçik oğlu Şeyx Cüneydi elan etməsi təsadüf deyildi. Çox güman ki, Şeyx İbrahim təriqətin yaxın gələcəkdə dünyəvi çətinliklərlə qarşılaşacağını hiss edirdi və ehtimal edirdi ki, təriqəti bu çətinliklərdən Şeyx Cüneyd çıxara bilər. Çünki Şeyx Cüneyd bir ilahiyyatçı, sufi kimi yetişməkdən əlavə, həm də cəsarətli bir cavan kimi formalaşmışdı. Şeyx İbrahim öz vəsiyyətlərində xahiş etdi ki, övladları və müridləri Şeyx Cüneydi özlərinin hidayətçisi (yol göstərəni) kimi qəbul etsinlər. Onun fikrincə, Şeyx Cüneydin rəhbərliyi altında onlar zəlalət sərgəştəliyindən nicat tapacaq və özlərini mənzil başına yetirə biləcəkdilər (70).

Cavan olmasına baxmayaraq, Şeyx Cüneydin təriqət rəhbəri seçilməsi bu təriqətin davamlı inkişafına yeni imkanlar açdı. Təriqətin davamçılarının sayı daha da artdı, təsir dairəsi daha da genişləndi. Elə onun dövründə də təriqət yeni bir məzmun kəsb etməyə başladı və təriqət rəhbərlərinin dünyəvi işlərə meyli xeyli gücləndi. Mənbələrdə sonradan "Sultan" ləqəbini üzərinə götürmüş Cüneydin təriqət rəhbəri kimi fəaliyyətə başlaması haqqında belə bir təsvir mövcuddur: " ...yüksək uçan bir şahin, fələyə qalxan bir şah, irşad və kişilik səmasında parlayan on dörd gecəlik bir ay, zahiri və batini xilafət səmasında zühur etmiş bir günəş idi. O, başçılıq və dinpərvərlik kürsüsünə oturduqda irşad və din elmi ilə şahlıq və səltənət iddiasında olduğunu xalqa xəbər verdi. İradət sahibləri hər tərəfdən onun mübarək astanasına üz qoydular. [Cüneydin] dini rəhbərliyinin əsas qayəsi iradət sahiblərini azğın kafirlərlə dini müharibələr və cihad etməyə ruhlandırmaq idi. [Sultan Cüneydin] gündən-günə calalı artırdı, onun tərəfdarlarının və müridlərinin sayı çoxalırdı" (71).

Bəzi mənbə və tarixi ədəbiyyatda Sultan Cüneydlə əmisi Şeyx Cəfər arasında müəyyən ixtilafın olması haqqında tam olmayan məlumatlar vardır. Bəzi tarixçilər hətta bu ixtilafı ifratlaşdırmağa da çalışmışlar (72). Bu ixtilafın guya düşmənçilik səviyyəsinə çatması haqqında təsəvvür yaradılmasına cəhd gös-

tərilsə də, əslində bunu sübut edəcək ciddi faktlar ortaya qoyulmur. Bununla belə, məlumdur ki, Sultan Cüneydlə əmisi Şeyx Cəfər arasında müəyyən fikir ayrılığı var idi (73). Mövcud olan kəsad məlumatların təhlili onu deməyə əsas verir ki, onlar arasında mövcud olan fikir ayrılığı daha çox bu şəxslərin xarakterindən, bölgədə cərəyan edən hərbi-siyasi proseslərə və o cümlədən də təriqət ənənələrinə münasibətindən irəli gəlirdi. Yuxarıda qeyd edildiyi kimi, Şeyx Cəfər istər Səfəvi xanədanının, istərsə də dövrünün kamil fəzilət sahiblərindən biri idi və onda Səfəvi təriqətinin ənənəvi dəyərlərinə bağlılıq daha güclü idi. Sultan Cüneyddə isə dövrünün hərbi-siyasi proseslərinə daha fəal münasibət özünü göstərməkdə idi və Şeyx Cəfər şübhə etmirdi ki, Sultan Cüneydin dünyəvi məsələlərə fəal münasibəti Səfəvi xanəgahının fəaliyyətinə təsirsiz ötüşməyə bilər. "Tarix-i Aləmara-yi Abbasi" də qeyd edirdi ki, Sultan Cüneyd özünün təriqət rəhbəri kimi əsas vəzifələrindən birini yolunu azmış kafirlərə qarşı dini müharibələr və cihad aparmaqda görür və tərəfdarlarını da buna ruhlandırırdı. Bu da onun dünyəvi işlərə meylini nümayiş etdirirdi. Mənbədə kafirlərin kim olması konkret şəkildə açıqlanmasa da, hər halda bu məsələnin ortaya çıxması artıq Səfəvi təriqəti tərəfdarları arasında fərqli bir dünyagörüşünün yaranmasından xəbər verirdi.

Dövrün hakimləri də Səfəvi xanəgahının dünyəvi işlərdən kənar qalmasında maraqlı idilər. Çünki Səfəvi təriqətinin saysız-hesabsız müridlərinin, tərəfdarlarının mövcudluğu onların dünyəvi sıralarının kütləviləşməsinə yol aça bilərdi ki, bu da dövrün hakimlərini narahat etməyə bilməzdi. Elə buna görə də, Sultan Cüneydin təriqət rəhbərliyi dövründə Qaraqoyunlu şahı Cahanşahın təriqət ənənələrinin qorunmasına meylli olan Şeyx Cəfərlə daha yaxşı münasibətləri formalaşmışdı və o, qızını da Şeyx Cəfərin ikinci oğlu Şeyx Qasıma nikah etdirmişdi.

### a) Sultan Cüneydlə Qaraqoyunlu Cahanşah arasındakı münasibətlər

Sultan Cüneydin təriqət başçısı elan edildiyi il (1447) Qaraqoyunlu hakimi Cahanşahın kifayət qədər güclü olduğu dövrə təsadüf edirdi. Əmir Teymurun ölümündən sonra bölgənin hərbi-siyasi vəziyyətinin kifayət qədər dəyişkən olduğu bir vaxtda Cahanşah Azərbaycanda öz hakimiyyətini möhkəmləndirməyə müvəffəq olmuşdu. Onun və qardaşının arasında Azərbaycan hakimliyi uğrunda kəskin mübarizə getdiyi bir vaxtda Əmir Teymurun oğlu Şahrux öz qoşunları ilə 1436-cı ildə Təbrizə daxil oldu. Şahruxla yaxşı münasibətlərdə olan Cahanşah Azərbaycan hakimi elan edildi və bu da ona gətirdi ki, Cahanşahın qardaşı İsgəndər hakimiyyətdən uzaqlaşaraq Azərbaycan ərazisini tərk etsin. 1447-ci ildə Şahruxun ölümündən sonra isə Cahanşah özünü tamamilə müstəqil elan etdi və onun rəhbərliyi altında Azərbaycan Qaraqoyunlu dövlətinin sərhədləri xeyli genişləndi (74).

Əmir Teymurun oğlu Şahruxun vəfatı ilə Qarayoyunlu Cahanşahın müstəqilləşməsi Sultan Cüneydin Səfəvi təriqətinin rəhbəri təyin edilməsi ilinə

təsadüf edir. Müstəqilliyini yenicə elan etdiyi bir vaxtda Cahanşahın Səfəvi təriqətinin artan nüfuzu ilə və onun gənc rəhbərinin kifayət qədər enerjili fəaliyyəti ilə qarşılaşması bu təriqət haqqında daha ciddi qərarlar qəbul edilməsi qənaətini yaratdı.

Sultan Cüneydi dünyəvi işlərə meyllənməyə sövq edən amillər içərisində dövrün mürəkkəb hərbi-siyasi şəraitinin təriqət tərəfdarlarına gətirdiyi çətinliklərin olmasını da istisna etmək olmaz. Bəzi mənbələrdə də bildirilir ki, Sultan Cüneyd hər zaman insanlara üz verən zülmün kökünün kəsilməsi və islam əhlinin nura çıxarılması haqqında fikirləşirdi. O da bildirilir ki, çox tezliklə Sultan Cüneydin cahangirlik keyfiyyətləri də özünü göstərməyə başladı və buna görə də onun ətrafında birləşənlərin sayı da xeyli dərəcədə artdı (75).

Bəzi mənbələrdə deyilir ki, Qaraqoyunlu Cahanşah yaxşı münasibətlərdə olduğu Şeyx Cəfərin vasitəsilə Sultan Cüneydi Ərdəbildən qovdura bildi. "Əhsənüt təvarix" əsərində olan məlumata əsasən belə bir qənaətə gəlmək mümkündür ki, Sultan Cüneydlə bağlı söhbətlər genişlənən vaxt artıq Cahanşahla Şeyx Cəfərin qohumluq əlaqələri yaranmışdı və bu qohumluq əlaqələrinə istinad edərək Qaraqoyunlu hakimi Şeyx Cəfərdən Sultan Cüneydin Ərdəbildən kənarlaşdırılması xahişini etdi. "Rövzətüs Səfəviyyə" əsərində də Sultan Cüneydin Ərdəbildən uzaqlaşdırlması üçün Cahanşahın Şeyx Cəfərə müraciət etməsi haqqında məlumat vardır. (76). Bəzi tarixi ədəbiyyatda isə Şeyx İbrahimin vəfatından sonra təriqət rəhbərliyi üstündə Şeyx Cəfərlə Sultan Cüneyd arasında ciddi ixtilaf baş verməsi və guya Sultan Cüneydin Şeyx Cəfərə məğlub olaraq Ərdəbildən Anadoluya qaçması haqqında məlumat vardır (77). Amma bir daha qeyd edilməlidir ki, Şeyx Cəfər təriqətin fəaliyyət və dünyagörüşü ilə bağlı fərqli mövqeyə malik olsa da, onun təriqət rəhbərliyinə iddia irəli sürməsi, Sultan Cüneydin Ərdəbili tərk etməsindən sonra Şeyx Cəfərin özünü təriqət rəhbəri elan etməsi və ya Sultan Cüneydin təriqət rəhbəri olmasına qarşı hər hansı mübarizə aparması barədə ciddi məlumatlar mənbələrdə öz əksini tapmamışdır.

Qaraqoyunlu Cahanşahın sözsüz ki, Səfəvi xanəgahı haqqında hələ əvvəldən məlumatları var idi. Hətta onun atası Qaraqoyunlu Qara Yusifin Səfəvi xanəgahına hörmətlə yanaşması da məlumdur. Amma çox güman ki, Səfəvi xanəgahının Azərbaycanda və eləcə də ətraf bölgələrdə nüfuzu və təsir imkanları Qaraqoyunlu hakimini narahat edəcək bir səviyyəyə qalxmışdı. Buna görə o da Sultan Cüneyd barəsində ciddi qərar qəbul etməli oldu. "Tarix-i aləmara-yi Abbasi" bu məsələni müxtəsər olaraq belə təsvir edir: "O zamanın padşahı, İraqeyn və Azərbaycan hökmdarı olan Mirzə Cahanşah Türkman, Sultan Cüneydin müridlərinin çoxalmasından, onun var-dövlət və cah-calalının artmasından xəbər tutaraq, o həzrət barədə pis fikrə düşdü və öz mülkünün və dövlətinin dağılacağından qorxdu. Lakin buna baxmayaraq, [Cahanşah] mənfi şöhrət qazanmaqdan ehtiyat edərək, o həzrətlə müharibə etməyi münasib görmürdü. [Cahanşah] o həzrətin yanına dəfələrlə adam göndərdi, üstüörtülü və açıq şəkildə ona anlatdı ki, dövlət mərkəzindən hər hansı tərəfə getməyə şərəfli meyili varsa, oraya səfər etsin" (78).

"Aləmara-yi Şah İsmayıl" əsərində bu məsələ ilə bağlı müəyyən fərqli məqamlarla qarşılaşmaq mümkündür. Həmin əsərin məlumatından belə aydın olur ki, Cahanşah konkret olaraq Sultan Cüneydin artan nüfuzundan yox, Səfəvi xanəgahının nüfuzunun günü-gündən artmasından narahat olmuşdu. Ona görə də Cahanşah münəccimləri yanına çağıraraq onlardan Şeyx Səfi övladlarının ulduzlarını seyr etməyi tapşırdı. Cahanşah öz narahatçılığını belə ifadə etdi: "Eşidirəm ki, Sultan Cüneydin yanına çoxlu adamlar gedib-gəlir. Mən qorxuram ki, Şeyx Səfi övladlarından biri qalxar və hakimiyyət bizim sülaləmizdən qırılaraq Şeyx Səfi xanədanına keçər. Əgər bu övladlardan mənim sülaləmə bir ziyan gələcəksə, deyin, mən də bu adamları dəf edim" (79).

Bu tapşırıqdan sonra münəccimlər ulduzları seyr etdilər və müşahidələrini də Cahanşaha çatdırdılar. Münəccimlər onun narahatçılığını təsdiq etdilər və bəyan etdilər ki, yaxın zamanlarda Şeyx Səfi övladlarından biri ayağa qalxaraq bütün vilayəti, hətta Hindistan və Türküstanın bir hissəsini ələ keçirməklə insanların məzhəbini də dəyişəcək, öz iti qılıncının zərbəsi ilə bütün vilayəti bir-birinə vuracaq və bu vilayəti öz hakimiyyəti altına gətirəcəkdir. Münəccimlər sonra əlavə etdilər ki, bu hakimiyyət günü-gündən inkişaf edəcək və bu dövlət yıxılmayacaqdır. Eşitdiyi xəbərlər Cahanşahın narahatçılığını daha da artırdı. Onda qərara gəldi ki, Səfəvi xanəgahının artan nüfuzunun qarşısını almaq üçün bu xanəgahın rəhbərinə xəbərdarlıq etsin, onu hakimiyyət iddialarından çəkindirsin. Azərbaycanın və Fars körfəzinə kimi uzanan ərazilərin hakimi kimi Qaraqoyunlu Cahanşahın Sultan Cüneydə qarşı daha sərt tədbirlər həyata keçirmək imkanı da var idi. Amma o, Ərdəbil xanəgahı üzərinə qoşun dəstəsi göndərməkdən, Sultan Cüneydi həbsə almaqdan ehtiyat etdi. Güman edilir ki, Cahanşah etiqad mərkəzi kimi qəbul edilən Ərdəbil xanəgahına qarşı zor tətbiq edilməsinin etiqat əhli arasında böyük narahatçılığa səbəb ola biləcəyindən ehtiyatlanaraq silaha əl atmadı. O, əvvəlcə məsələni dinc yolla həll etməyə çalışdı və Sultan Cüneydə məktub yazdı. Həmin məktunbunda ondan narahatçılıq yaratmamağı, tərəfdarları arasında apardığı təbliğata bir hədd qoymağı xahiş etdi. Cahanşhın Sultan Cüneydə göndərdiyi məktubda deyilirdi:

"Mənim məktubum sənə çatdıqda gərəkdir ki, xalqı özündən və öz söhbətlərindən uzaq edəsən, yanında olan müridləri pərakəndə edəsən və sakit dolanasan ki, mən sənin sufilərindən xatircəm deyiləm. Məbada ki, qalmaqallı cahillərə uyub qiyamətdən dəm vurasan, ürəyində səltənət arzusu yer tapsın, asan gedən işlər müşkülə düşsün və hər iki tərəfdən neçə min nəfərin qanı axmış olsun. Əgər mənim sözümü eşitməsən və bu hədyanlarına son qoymasan yəqin ki, sənin və müridlərinin dəf edilməsi bizim üçün fərz olacaqdır" (80).

Qaraqoyunlu Cahanşah bu məktubda Sultan Cüneydə müəyyən hədələyici sözlər yazsa da, ondan heç də Ərdəbilin tərk edilməsini tələb etmədi. Bu məsələ onların ilk yazışmalarında müzakirə mövzusu deyildi. Bununla belə, heç şübhəsiz ki, Cahanşahın məktubu Ərdəbil xanəgahında müəyyən narahatlıqla qarşılandı və həmin məktubun məzmunu təriqət müridlərinə də çatdırıldı. Sultan Cüneyd məktuba cavab verilməsi üçün müridlərdən məsləhət istədi. Müridlər

isə öz mürşidlərinə məsləhət verməkdən çəkindilər və cavabın hansı məzmunda olması mürşidin ixtiyarına buraxıldı.

Sultan Cüneyd tərəfindən hazırlanan cavab məktubunun məzmunu belə idi: "Zahirən Siz Şeyx Səfi övladları sarıdan narahatçılıq keçirirsiniz. Siz bu vəsvəsəni ürəyinizdən çıxarın, şeytan səni aldatmasın. Çünki mən bir kənara çəkilmişəm və ceddimin astanasında müridlərlə böyük Allaha ibadətlə məşğuluq. Heç vaxt mənim başımda qiyam etmək və ölkəni ələ keçirmək iddiası olmamışdır və yoxdur. Əgər sənə xoş gəlməyə çalışan münəccimlərin sənə qorxudublarsa ki, Şeyx Səfi övladları arasında qiyam qaldıran olacaq, o qiyam sahibi mən deyiləm. Ola bilsin ki, bu, mənim övladlarımdan və ya onların vərəsələrindən biri olsun. Əgər Allahın qədəri belə olsa ki, Şeyx Səfi övladlarından kimsə qiyam qaldırsın, onda bütün aləm də istəsə bu Allah qədərinin qarşısını almağa müyəssər olmayacaqdır. Ona görə rahat ol və bizi də öz halımıza burax. Çünki mənim səninlə heç bir düşmənçiliyim yoxdur və mən sarıdan xatirin cəm olsun. Pərvərdigarın qədəri haqqında fikirləş və sonrasını özün bilərsən" (81).

Bu cavabdan sonra Qaraqoyunlu Cahanşahda bir rahatlıq yarandı və Sultan Cüneydin, bütünlükdə Səfəvi xanəgahının onun hakimiyyətinə bir təhlükə yaratmadığı qənaətinə gəldi. Hətta saray əyanları ilə aparılan müzakirələrdən sonra da belə bir fikrə gəlindi ki, Sultan Cüneyd doğru deyir və hələlik onun hakimiyyətlə bağlı hər hansı bir iddiası yoxdur. Səfəvi xanəgahı yenə də əvvəlki kimi öz fəaliyyətini davam etdirdi və təriqətin təbliği və təriqət sıralarının genişləndirilməsi ilə bağlı səmərəli işlər görüldü. Bu məqamın özü bir daha Şeyx İbrahimin vəfatından sonra onun öz varisi elan etdiyi Sultan Cüneydlə Şeyx İbrahimin qardaşı Şeyx Cəfər arasında təriqət rəhbərliyi üzərində rəqabət olması iddialarını təkzib edir.

Bununla belə, Sultan Cüneydin rəhbərliyi altında Səfəvi xanəgahının daha da genişlənməsi və rövnəq tapması bu xanəgaha qarşı müəyyən qısqanclıq və narahatçılıq hisslərini də artırmaqda idi. Təxminən iki ildən sonra Səfəvi xanəgahının Qaraqoyunlu hakimiyyətinə təhlükə yaratması ehtimalı barəsində yenidən Cahanşah qarşısında məsələ qaldırıldı. Onun nəzərinə çatdırıldı ki, məğribdən (qərbdən) başlamış Bəlx və Buxaraya qədər Şeyx Səfi övladlarının müridləri ilə doludur və əgər bu xanəgah üsyan qaldırmaq istəsə dərhal Ərdəbildə 20 min atlı toplana bilər (82).

20 min atlı deyəndə sözsüz ki, bu sayda toplana biləcək silahlıdan söhbət gedirdi. Təriqət üzvləri arasında silahlı müqavimət göstərilməsi üçün hər hansı bir hazırlıq işləri getməsi haqqında ciddi fikir söyləmək mümkün deyil. Amma Sultan Cüneydin fəaliyyətinin sonrakı dövrlərinə əsasən belə nəticə çıxarmaq olar ki, bu istiqamətdə də təriqət daxilində müəyyən işlərin görülməsi istisna deyildi.

Bəzi tədqiqat əsərlərində isə Səfəvi təriqətinin üzvləri tərəfindən Ərdəbilin bir hərbi qərargaha çevrilməsi, 10-20 min nəfər Səfəvi müridinin hərbi qüvvə kimi təşkilatlandırılması haqqında deyilənlərin ciddi qəbul edilməsi çətindir (83). Çünki bu Səfəvi təriqət üzvlərinin bu istiqamətdə ciddi iş aparması haqqında ətraflı məlumat mövcud deyil.

Qaraqoyunlu Cahanşah aldığı məlumatdan bir daha əndişələndi və yenidən Sultan Cüneyddən onun hakimiyyətinə ehtimal edilən təhlükənin aradan qaldırılması üçün dinc vasitəyə əl atdı. Bu dəfə də o, Sultan Cüneydə məktub göndərdi. Amma bu məktub daha kəskin bir məktub idi. Onun Sultan Cüneydə göndərdiyi məktubda deyilirdi: "Hərçənd ki, sənə qadağan etdik, sən qəbul etmədin. Elə bil ki, sənin ürəyində böyük bir arzu yer tutmuşdur. Nəhayət ki, qalx və bizim torpaqlarımızı tərk et. Yoxsa gələrəm və Ərdəbili xaraba qoyaram, hətta qətliam da edərəm" (84).

Cahanşah Səfəvi xanəgahının qarşısında konkret tələb qoydu və bu tələbi yerinə yetirməyəcəyi təqdirdə Ərdəbilə qoşun çəkməyə və orada qırğınlar törətməyə hazır olduğunu belə bildirdi. Onun bu təhdidlərinin ilk növbədə Səfəvi müridlərinə qarşı yönəldiyi şübhə doğurmurdu və Sultan Cüneyd də tərəfdarlarının kütləvi qırılmasının qarşısını almaq üçün Cahanşahın tələbini qəbul etməyi lazım bildi. O təriqət üzvlərini toplayaraq onlarla yenidən məsləhətləşmə apardı və yaranmış şəraitdə Ərdəbilin tərk edilməsi zərurətini onların nəzərinə çatdırdı. Eyni zamanda müridlərin nəzərinə onu da çatdırdı ki, ruh aləmində cəddi Şeyx Səfi də ona Ərdəbili tərk etməyi və Diyarbəkr istiqamətində hərəkət etməyi məsləhət görmüşdür. Şeyx Səfi onu da məsləhət bilibmiş ki, əgər Ərdəbili tərk etməsə Cahanşah həqiqətən də bu şəhərə qoşun çəkəcək və şəhəri xarabaya çevirəcəkdir. Ona görə, Sultan Cüneyd də Ərdəbili tərk etməyi lazım bilir və sufilərə bəyan edir ki, onlar Ərdəbili tərk etmək seçimində azaddırlar və istədikləri halda şəhərdə qala da bilərlər. Sufilər isə hamılıqla bildirdilər ki, öz mürşidləri ilə birlikdə getməyə hazırdırlar. Beləliklə, onlar lazımi hazırlıq gördükdən sonra Ərdəbili tərk etdilər və Diyarbəkr istiqamətində hərəkətə başladılar (85).

### a) Sultan Cüneydin Diyarbəkrə səfəri

"Tarix-i aləmara-yi Abbasi" əsərində Sultan Cüneydin Ərdəbili tərk etmək məcburiyyətində qalması aşağıdakı kimi təsvir edilmişdir: "O həzrət (Cüneyd) o vaxt Diyarbəkrə getməyi məsləhət bilib, o tərəfə yönəldi. Səfəviyyə sülaləsinin tərəfdarlarından və səmimi sufilərdən böyük bir dəstə onunla bərabər gedərək, onun xoşbəxtlik doğuran bayrağı altında toplandılar. Nəticədə, [Cüneyd] sonsuz calal və təntənə ilə Həsən-keyfə çatdı. O zaman Diyarbəkrin yarısının hökmdarı (valisi) böyük əmir, qalibiyyət sahibi («əbunnəsr») Həsən bəy Ağqoyunlu idi. O, Mirzə Cahanşaha itaət etmirdi. Onların arasında düşmənçilik və tərslik qapıları açılmış və gediş-gəliş yolları bağlanmışdı. [Həsən bəy] Sultan Cüneydin səadətli məiyyətinin varid olmasından sonsuz razılıq və şənlik nümayiş etdirərək, çox hörmət və izzətlə o həzrəti qarşıladı, sufilərin əmir və əyanlarının hər birinə münasib vəzifə müəyyən etdi, onun mübarək gəlişini dövlət və səadət nişanəsi hesab etdi. Onların arasında tam ünsiyyət və birlik yarandı. Axırda bu yaxınlıq və dostluq qohumluğa çevrildi. [Həsən bəy] öz doğma bacısı Xədicə

bəyimi o həzrətə (Cüneydə) verdi və bu qohumluqla öz dövlət təbilinin səsini yüksəltdi" (86).

Tədqiqata cəlb edilmiş farsdilli mənbələrdə Sultan Cüneydin Ərdəbili tərk etdikdən sonra Diyarbəkrə yollanması haqqında məlumat verilir. Amma alman alimi Valter Hints öz əsərində Sultan Cüneydin Diyarbəkrə yetişməzdən əvvəl Osmanlı ərazisində olması, Osmanlı sultanından sığınacaq istəməsi haqqında məlumatlar vermişdir ki, həmin məlumatlar da bir çox tədqiqatçılar tərəfindən hətta müəyyən əlavələr edilməklə təkrarlanmışdır. Məsələn, tədqiqatçılrdan biri bildirir ki, Sultan Cüneyd təxminən 5 min nəfərlik fədayi ilə Osmanlı və Suriya ərazisində dolaşmağa başladı (87). Başqa bir tədqiqatçı isə yazır ki, Sultan Cüneyd çox az sayda sədaqətli tərəfdarları ilə birlikdə Ərdəbili tərk edərək Anadoluya tərəf istiqamət götürdü (88). Başqa bir tədqiqatçı isə bildirir ki, Sultan Cüneyd vaxtilə Əmir Teymurun Anadoludan gətirib Ərdəbil xanəgahına bağışladığı əsirlərin bir hissəsi ilə şəhərdən qaçdı. Tədqiqatçı Əmir Teymur tərəfindən Ərdəbildə azad edilmiş əsirləri isə tatar kimi təqdim edir (89).

Alman alimi Valter Hintsin yazdığına görə, Sultan Cüneyd öz müridləri ilə birlikdə Osmanlı ərazisinə yetişən kimi, Osmanlı sultanı II Murada hədiyyələr göndərdi. Cüneydin müridləri tərəfindən çatdırılan həmin hədiyyələrə bir Quran kitabı, bir səccadə və bir düzüm də təsbih daxil idi. Bu hədiyyələr göndərilməklə, Sultan Cüneyd guya Osmanlı torpağında ona və müridlərinə sığınacaq verilməsi xahişini də etdi. Sultan Cüneydin hədiyyələri və xahişi Osmanlı vəziri Xəlil paşa vasitəsilə II Murada çatdırılmışdı. II Murad da Sultan Cüneydə sığınacaq verilməsi məsələsini Xəlil Paşa ilə müzakirə etdi. Amma onlar belə qərara gəldilər ki, Sultan Cüneydə Osmanlı ərazisində sığınacaq verilməsin. Aldığı hədiyyənin əvəzində II Murad da Sultan Cüneydə və onun müridlərinə hədiyyələr göndərdi və eyni zamanda Osmanlı ərazisində onlara sığınacaq verilməsinin mümkün olmadığını da bəyan etdi (90).

Belə olanda Sultan Cüneyd məcburiyyət qarşısında Osmanlı ərazisini də tərk etməli oldu və onun müşayiət edən müridləri ilə birlikdə Qaramana doğru istiqamət götürdü. XV əsrin ortalarında Qaraman Osmanlıdan cənub-qərbdə yerləşirdi və hələlik Osmanlı hakimiyyəti altına gətirilməmişdi. Valter Hintsin yazdıqlarına görə, Sultan Cüneydi Qaramana üz tutmağa sövq edən səbəb orada Səfəvi təkyəgahının olması və əhalisi arasında da şiəliyə meylin güclü olması idi. Qaramanın paytaxtı olan Konyada hələ XIII əsrdə təsis edilmiş Səfəvi təkyəgahı Sultan Cüneyd və onun müridlərinin sığınacaq yeri oldu. Sultan Cüneyd bir neçə ili Qaramanda keçirdi və sonra mövcud ehtimala görə Konya təkyəgahının sünni rəhbəri Şeyx Əbdüllətiflə Sultan Cüneyd arasında yaranan ixtilafa görə, oranı da tərk etmək zərurəti meydana çıxdı. Ehtimal olunur ki, bu ixtilaf məzhəb baxışları ilə bağlı idi. Valter Hintsin türkdilli Osmanlı mənbələrinə əsasən verdiyi məlumata görə, Şeyx Əbdüllətif ənənəvi məzhəbdən uzaqlaşmaqda olan Sultan Cüneydin baxışlarını birmənalı şəkildə qəbul etmədi və onu mülhəd adlandırmaqla bəyan etdi ki, bu etiqadınla sən kafirsən və hər kəs ki, sənə qoşulacaq o da kafirdir (91).

Belə olanda Sultan Cüneyd qərara gəldi ki, Kilikiyaya yollansın və orada olan Varsaq türk tayfaları arasında özünə məskən salsın. Bildirilir ki, bu tayfanın sakinləri Səfəvi xanəgahına meyli ilə seçilirdilər və bu xanəgaha hörmətlə yanaşırdılar. Bu da Sultan Cüneydin həmin tayfa arasında rahat yaşamasına imkan verə bilərdi. Amma onun bu istəyi də baş tutmadı. Qaramanlı Şeyx Əbdüllətif Sultan Cüneydin baxışlarına görə ona barışmaz münasibətini saxlamaqda idi və Kilikiyadakı türk tayfalarının dini inanclarına təsir göstərilməsini də istəmirdi. Ona görə də Şeyx Əbdüllətif həmin bölgənin hakimi olan İbrahim bəy Qaramanoğluna xəbər göndərdi ki, Sultan Cüneyd artıq sufilikdən uzaqlaşmaqdadır, Allah və peyğəmbər ayinlərini təhrif edir və yalnız dünyəvi hakimiyyətə çatmaq haqqında düşünür. Şeyx Əbdüllətif bu cəhətlərinə görə, Sultan Cüneydi yanından uzqlaşdırdığını da İbrahim bəyin nəzərinə çatdırdı. Bu xəbəri alandan sonra İbrahim bəy də Sultan Cüneydin Kilikiyaya buraxılmasını qeyri-mümkün saydı və hətta onun həbs edilməsinə qərar verdi (92).

Çox güman ki, Sultan Cüneyd qarşılaşacağı təhlükə barəsində vaxtında xəbər tuta bilmişdi. Ona görə də o, Kilikiyaya deyil Suriyaya doğru irəliləməyi qərara aldı. Mənbələrdə və tarixi ədəbiyyatda Sultan Cüneydin Suriya ərazisinə öz müridləri ilə birlikdə getdiyi bildirilir. Amma bu uzun səfərlər zamanı onu nə qədər mürid müşayiət etməsi barəsində məlumatlar verilmir. Sultan Cüneyd burada Misir Məmluk sultanlarından olan Sultan Çaxmağın icazəsi ilə İsgəndərun körfəzi hövzəsindəki Ursuz dağında səlib yürüşləri dövründən qalmış köhnə bir qalada yerləşdi və bu qalanı öz təkyəgahına çevirdi. Güman edilir ki, həmin qala 1129-cu ildə viran edilmiş Sarepta qalası idi (93).

Sultan Cüneyd bir müddət burada aram yaşamaq imkanı əldə etdi və bu imkanından Səfəviyyə təriqətinin təbliği və yeni tərəfdarlarının toplanması üçün istifadə etdi. Mövcud məlumatlara görə, Sultan Cüneydin bu bölgədə apardığı təbliğat kifayət qədər səmərəli oldu və bu da onun tərəfdarlarının sayının artmasına gətirib çıxardı. Çox güman ki, Sultan Cüneyd xəlifələrini və müridlərini ətraf bölgələrə də göndərirdi. Çünki aparılan təbliğatlardan sonra Suriyadan, Rumdan və İraqdan çoxlu sayda tərəfdar onun təriqəti sıralarına qoşuldu. Bəzi məlumatlara görə, Suriya ərazisində olarkən Sultan Cüneyd bölgədə qərarlaşmış Zülqədər türk tayfası üzvləri arasında da şiə təbliğatını genişləndirdi və bu tayfa arasında da xeyli tərəfdar tapa bildi. Ümumiyyətlə, verilən məlumatlara görə, Osmanlı və Suriya ərazisində Sultan Cüneyd artıq şiəliyin təbliği ilə məşğul olurdu (94).

Qeyd edilməlidir ki, Sultan Cüneyd və onun tərəfdarları kifayət qədər təsirli və inandırıcı bir təbliğat aparırdılar. Onlar öz qarşılarına çox aydın və konkret vəzifələr qoymuşdular və onların həlli üçün də səmərəli yollar tapmağa çalışırdılar. Yalnız məskunlaşdıqları bölgədən deyil, ətraf bölgələrdən çoxlu sayda tərəfdarın meydana gəlməsi və təriqət sıralarına qoşulması bunun göstəricisi idi. Suriya ərazisində bir sıra tanınmış şəxslərin bu təriqət sırasına qoşulması da Sultan Cüneyd tərəfindən bölgədə səmərəli və davamlı təbliğatın aparılmasının nəticəsi idi. Vaxtilə şəriət yolunu azmaqda ittihamlandırılaraq

Osmanlı sultanı I Sultan Mehmet tərəfindən qətlə yetirilən Şeyx Bədrəddinin tərəfdarlarının bir çoxu da Səfəvi təriqətinə qoşuldular. Şeyx Bədrəddin XIV əsrin sonları və XV əsrin əvvəllərində Rumelidə böyük bir hərəkat formalaşdıra bilmişdi. Bu hərəkat dərvişlər ordusunu özündə birləşdirın bir hərəkat idi və onun mövcudluğu yerli hakimlər tərəfindən ciddi narahatçılıqla qarşılandı. Ona görə də bu hərəkat şəriətə zidd bir hərəkat kimi qiymətləndirilidi və bu hərəkatın rəhbəri Şeyx Bədrəddin islam xəttindən kənara çıxmaqda günahlandırılaraq 1422-ci ildə dar ağacından asıldı. Onun tərəfdarlarının da bir çoxu qılıncdan keçirildi (95).

Şeyx Bədrəddin hərəkatının yerli hakimlərinin təqiblərindən yaxa qurtara bilməyən bir çox üzvü Sultan Cüneyd tərəfdarlarının təbliğatını qəbul etdilər və Səfəvi təriqətinin sıralarına qoşuldular. Onların sayının nə qədər olması barəsində konkret fikir söyləmək çətindir. Amma mənbə müəlliflərinin bu məsələyə diqqət yetirməsinə görə güman etmək olar ki, onların say heç də az olmamışdır.

Görünür, Sultan Cüneyd Suriya ərazisində doğrudan da şiəliyin fəal təbliğatı ilə məşğul imiş. Çünki bölgənin tanınmış sufi mürşidləri Sultan Cüneydin bölgədə apardığı təbliğatın məzmunundan narazı idilər və həmin təbliğat sufi mürşidlərinin inancları ilə üst-üstə düşmürdü. Bu təbliğat həm də Misirin Məmluk sultanlığının da baxışları ilə eynilik təşkil etmirdi. Ona görə Suriya sufi mürşidləri Məmluk sultanı Çaxmağa məktub göndərdilər, Sultan Cüneydin tərəfdarlarının bölgədə şəriətə zidd təbliğat aparması haqqında ona məlumat göndərdilər. Məmluk sultanı onun hakimiyyəti altında olan ərazilərdə şiəliyin təbliğini qəbul etmədi və bu baxışları təbliğ edənlərin təqibinə qərar verdi. Məmluk sultanı Hələb naibinə əmr göndərdi ki, öz qüvvələri ilə Sultan Cüneydi həbs etsin. Hələb naibi də bu əmrin icrasını öz vəkilinə tapşırdı və onun rəhbərliyi altında Sultan Cüneydin həbs edilməsi üçün hərbi qüvvə göndərildi. Amma bu qüvvə Sultan Cüneydi həbs edə bilmədi. Çünki Sultan Cüneydin tərəfdarları silahlı müqavimət göstərdilər və nəticədə hətta Sultan Cüneydin tərəfdarlarından da 70 nəfər həlak oldu (96).

Mənbələrdə və tarixi ədəbiyyatda Hələb naibinin qoşun dəstəsi ilə Sultan Cüneyd tərəfdarlarının arasında baş verən döyüşün təfərrüatları barəsində məlumat yoxdur. Bu döyüş mənbələrdə olan məlumatlara əsasən, Səfəvi təriqət üzvlərinin silaha açıq şəkildə əl atdığı və ondan istifadə etdiyi ilk döyüş idi. Verilən məlumatın doğruluğu belə bir qənaətə gəlməyə əsas verir ki, Sultan Cüneyd yalnız təriqət təbliğatı aparmaqla məşğul olmurdu, eyni zamanda öz baxışlarının və planlarının silahlı yolla müdafiəsinə və ya silahlı yolla həyata keçirilməsinə də hazırlıq aparmışdı. Nəticəsi də o idi ki, Sultan Cüneydin tərəfdarları Hələb hakiminin qüvvələrinə silahlı müqavimət göstərə bilmişdilər. Bu isə Səfəvi təriqətinin tarixində yeni bir səhifənin açılması demək idi. Sultan Cüneydin ətrafında nə qədər hərbi qüvvə var idi, bu qüvvə hansı prinsiplə toplanır və formalaşdırılırdı, onları necə silahlandırılırdı, təriqət baxışlarının müdafiəsinə və ya həyata keçirilməsinə onlar necə səfərbər edilirdi kimi suallara cavab tapılması isə məlumatların qıtlığı üzündən mümkün deyil. Hər halda şübhə yeri

yoxdur ki, silahlı mübarizə üsulunun da təriqət üzvləri arasında yer tapması şüurlu bir seçim idi. Sultan Cüneydin həyatının sonrakı dövrləri də bunu nümayiş etdirir.

Sultan Cüneyd, beləliklə, Suriya ərazisini də tərk etmək məcburiyyətində qaldı və Qara dəniz istiqamtində hərəkətə başladı. Hələ Suriya ərazisində ikən Sultan Cüneyd və onun müşayiət edən dəstə türkmən və kürd tayfalarının hücumuna məruz qaldı. Bu hücumun da nə ilə bağlı olduğunu söyləmək çətindir. Hər halda Sultan Cüneydin dəstəsi bu hücumlardan da ziyan görməli oldu. Mövcud olan məlumatlarda bildirilir ki, Sultan Cüneydin ətrafındakı dəstə bu hücumlardan sonra pərən-pərən olub dağıldı. Amma Sultan Cüneyd salamat qalaraq müridlərsiz Qara dəniz istiqamətində hərəkətini davam etdirə bildi və bir müddətdən sonra Qara dəniz sahillərində Caniq bölgəsinə yetişdi. Caniq hakimi Məhəmməd bəy ona sığınacaq verdi və fəaliyyəti üçün də münasib şərait yaratdı. Bu bölgə artıq 1422-ci ildən etibarən Osmanlı hakimiyyəti altında idi və məlum deyil ki, bölgə hakiminin Osmanlı sultanlarının Səfəviyyə təriqətinə qarşı olan ehtiyatlı münasibətindən xəbəri var idi ya yox? Hər halda Sultan Cüneyd Caniqdə yenidən öz təriqət təbliğatını aparmaq üçün əlverişli imkan əldə etdi. Bunun nəticəsi idi ki, Sultan Cüneyd burada da səmərəli təbliğat işləri apara bildi və ətrafına yenidən xeyli sayda tərəfdar toplaya bildi. O cümlədən bildirilir ki, Ustaclı türkman tayfası arasında Səfəvi təriqətinə bağlanan çoxlu tərəfdar toplandı. Hətta Sultan Cüneydin Ustaclı tayfa üzvlərindən ibarət hərbi qüvvə fomalaşdırması haqqında da məlumat mövcuddur. Bütünlükdə, Sultan Cüneydin Qara dəniz sahillərində təşkilatlandıra bildiyi hərbi qüvvələrin sayının minlərlə olduğu bildirilir. Sultan Cüneyd təxminən üç il müddətində Qara dəniz hövzəsində fəaliyyətini davam etdirdi və yenidən sıralarının kütləviliyinə nail ola bildi. Tezliklə, Sultan Cüneyd ətrafına toplaya bildiyi silahlıların istifadəsi üçün də imkan əldə etdi və Trabzon şəhəri üzərinə hücum təşkil etdi. Bölgənin böyük şəhərlərindən biri olan Trabzon bu zaman hələ Osmanlı hakimiyyəti altına düşməmişdi və bu şəhər yunanların hakimiyyəti altında idi. Caniq hakimi Məhəmməd bəy də bu hücumun həyata keçirilməsi əleyhinə deyildi. Digər tərəfdən, Trabzon xristian hakimiyyəti altında olduğu üçün bu şəhər üzərinə hücuma "cihad yürüşü" görüntüsü verildi ki, bu da həm yerli əhali, həm də Səfəvi müridləri tərəfindən rəğbətlə qarşılandı (97).

Sultan Cüneydin Trabzona hücum etməsi 1456-cı ilə təsadüf edir. Bu zaman Trabzon hakimi Komenni yunan sülaləsindən olan Kalo İoannes idi. O, mənbələrdə və tarixi ədəbiyyatda kifayət qədər zəif bir hakim (kral) kimi xarakterizə olunur. Məlumatlara görə, Kalo İoannes hətta atasının vaxtında mövcud olan müdafiə sistemini da tamamilə zəiflətdi və Trabzonun güclü hücumlara qarşı müdafiə imkanları aradan qalxdı. Sultan Cüneyd də şəhərin müdafiəsinin zəifədilməsindən xəbərdar idi və o da bu məqamdan bəhrələnməyi qərara aldı.

Sultan Cüneydin hansı sayda qüvvə ilə Trabzon üzərinə hücum etməsi, bu hücuma kimin rəhbərlik etməsi haqqında da kifayət qədər məlumat mövcud deyil. Dövrün tarixi təcrübəsini nəzərə almaqla belə güman etmək olar ki,

hücuma Sultan Cüneyd özü rəhbərlik edirdi. Əlverişli döyüş mövqelərinin ələ keçirilməsi məqsədilə, Sultan Cüneyd əməliyyat meydanında olan Kapanyun keçidini ələ keçirdi və orada müəyyən sayda qüvvə yerləşdirdi. Sultan Cüneydin hücum xəbərini alanda Kalo İoannes də döyüş hazırlığına başladı. Əvvəlcə, sərkərdələrin birinin rəhbərliyi altında irəliyə bir dəstə göndərildi. Sonra isə dəniz və quru qüvvələri döyüş üçün hərəkətə gətirildi və dəniz qüvvələrinə rəhbərliyi Kalo İoannes öz üzərinə götürdü. Yunan mənbələrinə istinadən verilən məlumatlara görə, Trabzon hakiminin heç də bütün sərkərdələri Sultan Cüneydin hücumunun qarşısının alınması üçün lazımi fəallıq nümayiş etdirmədilər. Yalnız Aleksandr adlı bir sərkərdə Trabzon hakiminin köməyinə tələsdi. Aleksandr birləşmiş quru qoşunları üzərində komandanlıq edirdi. Aleksandr ilk güclü zərbəsini Sultan Cüneydin ələ keçirdiyi dar keçidin açılmasına istiqamətləndirdi. Nəzərdə tutulmuşdu ki, dənizə aparan bu keçidin açılması üçün Aleksandrın rəhbərliyi altında təşkil edilən quru qüvvələrinin hücumu Trabzon hakiminin rəhbərliyi altında olan hərbi gəmilər tərəfindən dəstəklənməli idi. Amma bu vaxt dənizdə tufan qalxması Kalo İoannesin hərbi gəmilərinin sahilə yan almasını qeyri-mümkün etdi və belə olanda Aleksandrın rəhbərliyi altında olan quru qüvvələri köməksiz qaldılar. Sultan Cüneyd də bundan məharətlə istifadə etdi və Aleksandrın dəstəsinə güclü zərbə endirdi. Bu döyüş zamanı Trabzon sərkərdəsi Aleksandr və onun oğlu öldürüldülər, qoşun dəstəsi isə məğlubiyyətə uğrayaraq geri çəkildi (98).

Bu döyüşdə sərkərdə və onun oğlundan başqa daha 30 döyüşçü öldürüldü və çoxlu sayda yunan döyüşçüsü isə əsir götürüldü. Yunan mənbələrinə istinadən verilən məlumatda deyilir ki, Sultan Cüneyd ələ keçirilmiş əsirlərin çoxunu qətlə yetirdi. Trabzon qalasının əhalisinin və müdafiəçilərinin gözünün qorxudulması və qala sakinlərinin müqavimət göstərməsinin qarşısının alınması üçün isə göstəriş verdi ki, səltənət (kral) arabasının sürücüsü olan Maurokostas adlı birisi Trabzon divarları qarşısında dar ağacından asılsın. İstər bu hadisə, istərsə də Sultan Cüneydin Trabzon divarları ətrafına çıxması şəhər əhalisi arasında ciddi təşvişə səbəb oldu. Gecə ikən şəhər daxilindəki evlərdə təsadüfən baş verən yanğın isə əhalidə təhlükənin çox yaxında olması gümanını yaratdı və ona görə də şəhərdən qaçmaq imkanı olanlar şəhəri tərk etdilər. Şəhər əhalisinin bir hissəsi quru yolla, bir hissəsi isə gəmilər vasitəsilə Gürcüstana yollandılar. Trabzon hakimi Kalo İoannesin ətrafında isə çox az sayda adam qaldı və bildirilir ki, o, təxminən 50 nəfərlik bir dəstə ilə şəhərin müdafiəsini təşkil etməyə cəhd göstərdi. Amma bu az sayda olan dəstə şəhərin müdafiəsini təşkil etməyi bacardı. Şəhər kənarında baş verən döyüşü uğurla başa çatdırandan sonra Sultan Cüneyd öz qüvvələrini Trabzon şəhəri üzərinə istiqamətləndirdi. Şəhərin ətrafında güclü müdafiə divarları çəkilmişdi. Şəhər daxilindəki dəstə də məhz bu divarlara sığınmaqla müdafiə olunurdular. Sultan Cüneydin qüvvələri dayanmadan şəhərin işğal edilməsinə çalışdılar. Amma bir nəticə hasil olmadı. Belə olanda Sultan Cüneyd Trabzonun mühasirəsindən əl çəkdi və qoşun dəstəsini də oradan uzaqlaşdırdı (99).

Sultan Cüneydin Tranzon ətrafından geri çəkilməsi həm də Osmanlı sultanının bu şəhəri ələ keçirmək planının icrasına başlaması ilə bağlanılır. Osmanlı sultanı II Mehmet bu şəhərin ələ keçirilməsi üçün Amasiyada sərhəd xəttinin qorunması vəzifəsini öz üzərinə götürmüş Xızır bəyə elə həmin günlərdə göstəriş verdi ki, Caniqdən keçməklə Trabzon üzərinə hücum etsin və bu şəhəri də Osmanlı sərhədləri daxilinə qatsın. Xızır bəy də çoxlu sayda qoşun toplayaraq Trabzon üzərinə hücum çəkdi. Sultan Cüneyd onsuz da ixtiyarında olan qüvvə Trabzonun alınmasına çətinlik çəkirdi, Osmanlı qüvvələrinin hücum xəbəri isə onun planlarının icrasını qeyri-mümkün etdi. Çünki hətta Trabzonu ələ keçirmiş olsaydı belə, onun üçün Osmanlı qüvvələrindən qorumaq elə də asan olmazdı. Ona görə də Sultan Cüneyd Trabzon ətrafından geri çəkildi. Onun mühasirəsindən daha da zəifləmiş Trabzon hakimi isə Osmanlı qüvvələri qarşısında davam gətirməyərək Osmanlı vassallığın qəbul etdi (100).

Belə olanda Sultan Cüneyd cənuba, Diyarbəkrə doğru geri çəkilməyi qərara aldı. Bu zaman Diyarbəkr Ağqoyunlu hakimi Uzun Həsən tərəfdən idarə olunurdu. XV əsrin ortaları və ikinci yarısı Ağqoyunlu tayfaları bazasında Ağqoyunlu dövlətinin formalaşma dövrü idi. Ona görə, Sultan Cüneyd Diyarbəkrə gələndə Uzun Həsənin hakimiyyəti hələlik Diyarbəkrdəki ərazilərlə məhdudlanırdı.

Sultan Cüneydin Diyarbəkrə geri çəkilməsi əldə edilmiş razılaşmaya əsaslanırdı, ya yox, bu barədə də kifayət qədər məlumat yoxdur. Amma sözsüz ki, Sultan Cüneyd Uzun Həsənin onun düşmənləri ilə düşmən münasibtdə olmasından xəbdar olduğu kimi, Uzun Həsənin də bölgənin nüfuzlu təriqəti olan Səfəvi təriqətinin tarixindən və taleyindən xəbəri var idi. "Aləmara-yi Şah İsmayıl"da olan məlumata görə isə Uzun Həsən Səfəvi təriqətinə bağlı bir insan olmaqla Xacə Əlinin müridlərindən biri idi və ona görə də Sultan Cüneyd onun yanına yollanmağı qərara almışdı (101).

### c) Sultan Cüneyd və Uzun Həsən münasibətləri

Bəzi Osmanlı mənbələrinə görə, Sultan Cüneyd Ağqoyunlu ərazilərinə daxil olanda Uzun Həsən tərəfindən həbs edilmişdi. Guya yalnız sonradan onlar arasında gələcək fəaliyyət imkanları müəyyənləşdirildikdən sonra Sultan Cüneyd azad olunmuşdu. Sultan Cüneyd görüşləri zamanı Uzun Həsənə bildirmişdi ki, onun Cahanşah kimi bir düşməni var və Sultan Cüneyd sərəncamında olan 20 min nəfərlik qüvvə ilə Cahanşaha qarşı mübarizədə Uzun Həsənə kömək edə bilər. Lakin bu məlumat tədqiqatçılar tərəfindən ciddi qəbul edilmir (102). Amma bütünlükdə, Ağqoyunlu Həsən bəy (Uzun Həsən) öz hakimiyyətini genişləndirmək, eləcə də onunla ixtilafda olan Qaraqoyunlu dövlətinə qarşı mübarizə aparmaq üçün əlavə köməyə ehtiyac duyurdu və bu baxımdan Sultan Cüneydlə daha yaxşı münasibətlər bərqərar edilməsinə rəğbətlə yanaşırdı. Çünki Səfəvi təriqəti bir tərəfdən kifayət qədər təşkilatlanmış bir təşkilat idi və onun üzvləri öz mürşidlərinin baxışlarının həyata keçirilməsi üçün ciddi

çətinliklərə və sınaqlara belə qatlaşmağa hazır idilər. Belə bir qüvvədən məharətlə istifadə etmək mümkün idi. Digər tərəfdən də müştərək düşmən onların fəaliyyət birliyinə yol aça bilərdi.

Beləliklə, Trabzondan geri çəkilən Sultan Cüneyd 5 min nəfərlik müridinin müşayiəti ilə 1456-cı ilin sonlarında Kürdüstan ərazisindəki Həsən Keyf məntəqəsinə gəldi. Onun bu məntəqəyə gəlməsi haqqında xəbər alanda Uzun Həsən (mənbələrdə Həsən padşah, Həsən bəy kimi də təqdim olunur) ona məktub yazdı, hörmət və ehtiramını bildirməklə onu yanına dəvət etdi (103). Sultan Cüneyd də bu dəvəti məmnunluqla qəbul etdi və onun görüşünə yollandı.

Sultan Cüneydin qarşılanması üçün Uzun Həsən tərəfindən xüsusi bir mərasim təşkil edildi. Uzun Həsən əmr etdi ki, tayfanın ağsaqqalları, hörmətli adamları atlanıb Sultan Cüneydin qarşılanmasına yollansınlar. Bəzi məlumatlara görə, Uzun Həsənin göndərdiyi nümayəndə heyəti mənzil başına yetişməyə üç günlük məsafədə, bəzi məlumatlara görə isə iki günlük məsafədə Sultan Cüneydi qarşıladılar. Uzun Həsən özü isə bir mənzillik məsafədə onu qarşıladı, Sultan Cüneydi görəndə atdan yerə enib onunla qucaqlaşdı (104).

Səfəvi tarixi haqqında mötəbər mənbələrdən olan "Aləmara-yi Şah İsmayıl", "Tarix-i aləmara-yi Şah Abbas" və digərləri Sultan Cüneydin Ərdəbili tərk etməsindən sonra Diyarbəkrə yollanması haqqında məlumat verirlər. Bu əsərlərdə Sultan Cüneydin Ərdəbildən sonra Diyarbəkrə qədərki həyatı haqqında məlumatlar yoxdur. Amma Sultan Cüneydin istər adları çəkilən əsərlərdə Diyarbəkr səfəri haqqında olan məlumatlardan, istərsə də digər məlumatlardan belə bir qənaət hasil olur ki, bu iki tarixi şəxsi birləşdirən yalnız etiqad məsələsi deyil, həm də siyasi maraqlar idi. Etiqad və məzhəb baxışları baxımından Sultan Cüneydlə Qaraqoyunlu Cahanşah arasında oxşar maraqlar daha güclü olacağı halda, onlar bir-birinə qarşı barışmaz mövqe tutmuşdular. Çünki Qaraqoyunlu Cahanşahın şiə meyyli olduğu halda, Uzun Həsən isə sünni idi. İlk baxışdan Sultan Cüneyd təriqət sahibi kimi bu məsələyə daha diqqətli ola bilərdi. Amma siyasi baxışlar və dünyəvi meyllərin güclənməsi Sultan Cüneydlə Uzun Həsən arasında birgə fəaliyyət imkanlarını artırırdı. Mövcud məlumata görə, Diyarbəkr yaxınlığındakı Ağziyarətdə ilk görüşləri zamanı Sultan Cüneyd onu hörmətlə qarşılayan Uzun Həsənə Cahanşahla mübarizədə səmərəli kömək göstərəcəyini vəd etdi ki, bu da Uzun Həsən tərəfindən məmnunluqla qarşılandı (105).

Uzun Həsən yalnız Sultan Cüneydə yox, onun müridlərinə və ətrafındakılara böyük hörmət göstərdi, onları məqamlarına uyğun vəzifələrə təyin etdi, onlara səmimi münasibət göstərdi. Eyni zamanda Sultan Cüneydə rəhbəri olduğu təriqətin baxışlarının təbliği və yayılması üçün münasib imkan yaratdı. Sultan Cüneyd isə yenidən yalnız Diyarbəkrdə deyil, ətraf bölgələrdə də təriqət təbliğatı apardı, özünə yeni-yeni tərəfdarlar qazana bildi. Xüsusilə, Ağqoyunlu türk tayfaları olan Əfşar, Mosullu, Dogər, Xarbəndəli, İnallı, Qaramanlı tayfaları arasında aparılan təriqət təbliğatından sonra özünə çoxlu sayda tərəfdar tapa bildi. Diyarbəkrdə olduğu müddətdə Sultan Cüneydlə Uzun Həsən arasındakı münasibətlər də daha işgüzar xarakter aldı. Mənəblərdə bildirilir ki, Uzun Həsən

Diyarkəkrdə olduğu müddətdə Sultan Cüneydi yaxından müşahidə etdi, onun xarakterinə və qabiliyyətinə bələd oldu və ondan sonra bacısı Xədicə bəyimin Sultan Cüneydə nikah edilməsinə razı oldu (106).

Bəzi məlumatlara görə, Sultan Cüneydlə Uzun Həsən arasındakı münasibətlər daha da yaxşılaşandan sonra Sultan Cüneyd Xədicə bəyimlə evlənmək barəsində təşəbbüs qaldırdı və bu təşəbbüs də Uzun Həsən tərəfindən qəbul edildi. Sultan Cüneydlə Xədicə bəyim 1458-ci ildə ailə qurdular. Məlumata görə, həmin vaxt Sultan Cüneydin bir çərkəz kənizindən Xacə Məhəmməd adlı oğlu var idi (107). Bununla, Səfəvi xanədanı ilə Ağqoyunlular sülaləsi arasında qohumluq əlaqələri yaradıldı və bu qohumluq əlaqələri hər iki sülalənin siyasi tarixində xüsusi izlər buraxdı. Əslində, həmin nikahla bu iki sülalə arasında bir müttəfiqlik bağlantısı da yaradıldı.

Sültan Cüneyd Uzun Həsənin yanında olarkən yalnız təriqət təbliğat aparıb ailə qayğılarını həll etmədi. O həm də təriqət üzvlərinin hərbiləşdirilməsinə də ciddi diqqət yetirdi. Mənbələrdə mövcud olan məlumatlar bunu deməyə əsas verir. Həmin məlumatlara görə, Sultan Cüneyd Diyarbəkrdə olarkən 10 min nəfərlik hərbi dəstə formalaşdırdı ki, bu dəstə üzvlərinin hər biri zirehli geyimə malik olmaqla nizə ilə də silahlanmışdılar. Mənbə məlumatlarına əsaslanmaqla bəzi tədqiqatçılar iddia edirlər ki, bu dövrdən etibarən Səfəvi təriqət tərəfdarlarının fəaliyyətində yeni bir dövrün əsası qoyulmaqda, təriqətin hərbilşdirilməsinin genişləndirilməsinə başlanmaqda idi. Bu isə Səfəvi təriqət tərəfdarları üçün "sufi" sözünün mənasına yeni bir məzmun verirdi. Həmin yeni məzmun siyasi məzmun idi. Hərbiləşdirilmənin gücləndirilməsi ilə Səfəvi təriqət tərəfdarları üçün "sufi" sözünün əvvəlki məzmunu, yəni sufiyanə həyat sürmək baxışlarını islam yolunda müqəddəs müharibə anlayışı üstələməkdə idi. Təriqət tərəfdarlarının sürətlə hərbiləşdirilməsi də bunun əməli nümayişi idi (108).

Heç şübhəsiz ki, Uzun Həsən da Səfəvi təriqət tərəfdarlarının silahlandırılmasına müəyyən kömək göstərirdi. Ən azı Uzun Həsən hakimiyyəti altında olan ərazilərdə belə çoxsaylı hərbi qüvvələrin təşkilatlandırılmasına münasib şərait yartmışdı. Bundan başqa Uzun Həsən tərəfindən Səfəvi təriqət tərəfdarlarının silahlandırılmasına və təchizinə kömək göstərməsi də mümkündür. Yəqin ki, Səfəvi xanədanı üçün toplanan hədiyyələrin, nəzir-niyazların bir hissəsi də bu məqsəd üçün xərclənirdi. Qarşılaşdığı bütün sınaqlara baxmayaraq, Səfəvi xanəgahı özünün nüfuzunu qoruyub saxlaya bilmişdi və bu xanəgahın ziyarətçiləri də kifayət qədər qalmaqda idi.

Üç il Diyarbəkrdə qaldıqdan sonra Sultan Cüneyd nəhayət ki, yenidən Ərdəbilə qayıtmaq qərarına gəldi. Bu qərarın nə üçün üç ildən sonra qəbul edilməsi haqqında mənbələrdə yetərli məlumatla rastlaşmaq mümkün deyil. Mövcud olan məlumatlar bu qayıdışı Sultan Cüneydin Ərdəbil həsrəti ilə bağlayırlar. Amma tarixi şəraitin təhlili müəyyən sualları ortaya çıxara bilər və mövcud məlumatlar da bu suallara nəinki cavab vermirlər, əksinə müəyyən qarışıqlıq da yaradırlar. Ona görə məlum deyil ki, Sultan Cüneydin Ərdəbilə qayıtması onun Uzun Həsənla olan ittifaqına bir aidiyyatı var idimi və nə üçün

Diyarbəkrdə 10 min nəfərlik qoşuna malik olduğu halda Sultan Cüneyd Ərdəbilə tək, hərbi qüvvələrsiz qayıtmışdı. Qaraqoyunlu Cahanşahla münasibətlərin gərgun olduğu bir vaxtda Sultan Cüneydin böyük bir qoşun dəstəsi ilə Qaraqoyunlu daxilinə gəlməsi yəqin ki, mümkün deyildi. Dövrün tarixinə aid mənbələrin verdiyi  məlumatlar da onu deməyə əsas verir ki, Ərdəbilə qayıdanda Sultan Cüneydin yanında hərbi qüvvə yox idi və CüneydƏrdəbilə yetişəndən sonra çağırış edərək ətrafına yeni hərbi qüvvə toplaya bilmişdi. Sultan Cüneydlə Cahanşahın münasibətlərinin kifayət qədər mürəkkəb olduğu bir vaxtda onun nəyə arxayın olaraq Ərdəbilə yollanması haqqında da ciddi məlumat hələlik dövriyyədə yoxdur.

Bəzi məlumatlara görə, Sultan Cüneyd Ərdəbildə olmadığı vaxt Cahanşah onun əmisi Şeyx Cəfəri Şeyx Səfi xanəgahının rəhbəri təyin etdi və bu xanəgaha rəhbərliyi ona tapşırdı (109). Qeyd etmək lazımdır ki, tədqiqata cəlb edilmiş mənbələrdə bu barədə məlumata rast gəlmək mümkün deyildir. Ona görə Şeyx Cəfərin Şeyx Səfi xanəgahının rəhbəri təyin edilməsi haqqında da mötəbər məlumatlar yetərincə deyil. Bir məlumatda isə bildirilirdi ki, Sultan Cüneydin Ərdəbilə qayıtmasına qarşı çıxan şəxslərdən biri də onun əmisi Şeyx Cəfər idi. Bildirilir ki, Şeyx Cəfər yaxşı münasibətlərdə olduğu Qaraqoyunlu Cahanşahın köməyi ilə Sultan Cüneydin Ərdəbilə qayıtmasına imkan vermədi və Sultan Cüneyd də 4-5 min nəfərlik qoşun dəstəsi ilə kafirlərlə vuruşmağa yollandı (110).

Başqa bir məlumata görə isə, Sultan Cüneyd Ərdəbilə gəlib və sonra bu şəhəri yenidən tərk etmək məcburiyyətində qalanda Ərdəbil xanəgahının idarəsini əmisinə tapşırdı (111). Bu məlumat doğru olacağı təqdirdə onu deməyə əsas verir ki, Sultan Cüneydlə Şeyx Cəfər arasında hər hansı bir münaqişə yox idi və Sultan Cüneyd əmisi tərəfindən şəhərə dönüşündə yaxşı qarşılanmışdı.

"Tarix-e aləmara-yi Abbasi" əsərində Sultan Cüneydin Ərdəbilə qayıtması aşağıdakı kimi təsvir olunmuşdur: "Sultan Cüneyd bir müddət o diyarda qaldıqdan sonra «vətən sevgisi imandandır» [hədisi] onun ürəyində alovlandı. [Sultan Cüneyd] Əmir Həsən bəydən [Ərdəbilə getmək üçün] icazə aldı. Qısa müddətdən sonra darülirşad Ərdəbil onun mübarək gəlişi sayəsində «sütunlar sahibi olan və şəhərlər içərisində misli olmayan İrəm şəhərinin» həsrət çəkdiyi yerə çevrildi və tamaşa edənlərin gözü onun dünyanı bəzəyən camalını görməkdən nurlandı. Mirzə Cahanşahın ürəyindəki paxıllıq və kin odu bir daha alovlandı və onda olan vahimə [Cüneydin] Əmir Həsən bəylə qohumluq və bağlılıq etməsinə görə daha da artdı. [O], Sultan Cüneydin işinə aid bitib-tükənməyən fikirlər edirdi. Nəhayət, o həzrət (Cüneyd) onun (Cahanşahın) hiylə və kinindən xəbərdar olub, iradət sahiblərini çağırmaq üçün səba küləyi kimi [tez] gedən qasidlər göndərdi, səltənət xəyalı ilə dövlət bayrağını qaldırdı və dini müharibə və cihad etmək savabına çatmaq istəyərək, sufi qazilərindən on min nəfərlə çərkəz[lərə qarşı] hərb [etmək] məqsədilə Şirvan tərəfə yollandı. «Fütuhat-i Əmini» kitabında yazılmışdır ki, [Cüneyd] Şirvanşahla müharibə etmək və Şirvan mülkünü zəbt etmək məqsədi ilə o tərəfə yola düşmüşdü" (112).

### ç) Sultan Cüneydin Şirvana hücumu

Sultan Cüneydin hansı marşrutla Ərdəbilə qayıtması da maraq doğuracaq suallardan biri ola bilər. Çünki bu marşrutun Qaraqoyunlu dövləti ərazisindən keçəcəyi halda Sultan Cüneyd və onun müşayiət edən dəstə təhlükə ilə rastlaşa bilərdi. Bu təhlükə Qaraqoyunlu hakimi Cahanşahın ona qarşı barışmaz münasibətindən doğa bilərdi. Sultan Cüneyd Ərdəbilə yetişdikdən sonra Cahanşahın barışmaz münasibəti bir daha özünü nümayiş etdirdi. Cahanşah onun Ərdəbilə qayıtmasından heç də razı deyildi. Əvvəla, onlar arasında əvvəldən mövcud olan gərginlik hələ aradan qalxmamışdı. Digər tərəfdən isə, Sultan Cüneydin Cahanşahın düşməni olan Uzun Həsən tərəfindən dəstəklənməsi və onunla qohumluq əlaqəsinə girməsi Qaraqoyunlu dövlətinin maraqlarına təhlükə yarada bilərdi. Ona görə də Cahanşah yenidən Sultan Cüneydin Ərdəbildən uzaqlaşdırılması üçün tədbirlər görməyə başladı.

Cahanşah hətta Ərdəbil üzərinə qoşun çəkərək Səfəvi xanəgahına qarşı müharibə də başlamaq istəyirdi. O bu xanəgahı elə bir vəziyyətə salmaq istəyirdi ki, daha ondan Qaraqoyunlu dövləti üçün hər hansı bir təhlükə yaranmasın. Bunun üçün Cahanşah hətta qoşunlara da hazırlıq əmri verdi. Amma Cahanşahın ətrafındakılar Ərdəbil xanəgahı üzərinə qətiyyətli hücuma keçməyin tərəfdarı deyildilər. Onlar insanlar arasında Səfəvi təriqətinin, bu təriqətin banisi olan Şeyx Səfiəddinin və onun varislərinin necə böyük ehtirama malik olduğunu yaxşı bilirdilər. Ona görə də, Səfəvi xanəgahına qarşı zorakılıq insanlar arasında Qaraqoyunlu dövlətinə qarşı narazılıqları genişləndirə bilərdi. Belə olanda onlar təzyiqlər yolu ilə yenidən Sultan Cüneydin Ərdəbildən uzaqlaşdırılmasını təklif etdilər (113). Cahanşah bu təkliflə razılaşdı, amma Cüneydin Ərdəbili tərk etməyəcəyi təqdirdə ona qarşı daha kəskin qərar qəbul etmək planından da üz döndərmədi.

Sultan Cüneyd də öz növbəsində Cahanşahın ona qarşı ciddi tədbirlər həyata keçirmək planından xəbər tutdu. Onun Cahanşaha müqavimət göstərmək gücü yox idi. Ağqoyunlu Uzun Həsənlə Cahanşaha qarşı birgə müqavimət göstərilməsi yollarının axtarılması haqqında isə mənbələrdə hər hansı bir məlumat yoxdur. Ona görə Sultan Cüneyd yenidən Ərdəbili tərk etmək qərarına gəldi. Bu qərar həm də onun müridlərinin və tərəfdarlarının qərarı idi. Ətrafındakılar ona belə bir məsləhət də verdilər ki, qoşun toplayıb kafirlərə qarşı cihada başlasın. Bu təklif Sultan Cüneyd tərəfindən müsbət qarşılandı və müqəddəs müharibənin aparılması üçün qoşun toplanmasına göstəriş verdi.

Bir daha qeyd edilməlidir ki, Sultan Cüneyd yeni qoşun toplanması haqqında göstəriş verdi. Onun Diyarbəkrdə topladığı qoşunun Ərdəbilə gəlib-gəlməməsi haqqında mənbələrdə aydın məlumat yoxdur. "Rövzətüs Səfəviyyə" əsərində aydın şəkildə bildirilir ki, Sultan Cüneyd ona verilən təklifin icrası məqsədi ilə sözçülərini və səfirlərini (nümayəndələrini) Azərbaycan məmləkətinin ətrafına göndərdi və qısa zaman ərzində Səfəvi sülaləsinə sədaqətli olan 10 min nəfər mükəmməl və müsəlləh atlı və piyada toplandı (114). Yuxarıda

"Tarix-i aləmara-yi Abbasi" əsərindən gətirilmiş sitatda Ərdəbildə sufi qazilərindən ibarət 10 min nəfərlik qoşunun toplanması göstərilmişdir. Bu rəqəm digər mənbələrdə də təsdiqlənmişdir (115). Amma başqa rəqəm də mövcuddur. Məsələn, "Aləmara-yi Şah İsmayıl" əsərində Sultan Cüneyd tərəfindən Ədəbildə 20 minlik sufi dəstəsi toplandığı və Şirvanın tutulmasına yollandığı bildirilir (116).

Mənbələrdə birmənalı şəkildə bildirilir ki, Sultan Cüneyd çox qısa müddət ərzində böyük qoşun dəstəsi toplaya bildi və özü də bu qoşun dəstəsi Azərbaycandan və ona qonşu olan bölgələrdən toplandı. Bu da belə bir qənaətə gəlməyə imkan verir ki, Sultan Cüneyd 1459-cu ildə Ərdəbilə dönəndə yalnız onun ətrafında deyil, bütün Azərbaycanda və bölgələrdə silahlı mübarizəyə hazır olan təşkilatlanma aparılmışdı və ona görə də qısa müddət ərzində nəinki qoşun toplandı, hətta bu qoşunu mükəmməl surətdə silahlandırmaq və təchiz etmək mümkün oldu. Yuxarıdakı məlumatlarda bu qoşunların bir hissəsinin atlılardan ibarət olduğu göstərilir. Dövrün hərbi təcrübəsinə və toplanan qoşunun əsas bazasının türk tayfaları olmasına görə belə ehtimal etmək olar ki, atlılar toplanan qüvvələrin böyük hissəsini təşkil edə bilərdilər. Bu isə qoşun təşkilatlandırılması üçün xüsusi hazırlıq görülməsini tələb edirdi.

Sultan Cüneydin ikinci dəfə Ərdəbilin tərk edilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər onun rəhbərlik etdiyi təriqətin yeni bir dövrə qədəm qoymasına yol açdı. Bu yeni dövr təriqətin hərbiləşməsi və kifayət qədər siyasiləşməsi dövrü idi. Səfəvi xanədanı ilk növbədə təriqət tərəfdarlarına və türk tayfalarına dayaqlanmaqla Azərbaycanın dini-siyasi hakimiyyət altına gətirilməsi uğrunda mübarizə dövrünə qədəm qoydu. Məlumatlara görə, Sultan Cüneydin adının qarşısına "Sultan" sözünün əlavə edilməsi də məhz bu dövrdən başlayır (117). Ərdəbil ətrafında qoşun topladığı günlərdə Sultan Cüneyd həm də qoşun rəhbərliyinin bütün məsuliyyətini öz üzərinə götürdü və onların təşkilinə, habelə döyüşə rəhbərlik etdi.

"Tarix-i aləmara-yi Abbasi"nin yazdığına görə, Sultan Cüneydin ətrafına toplaşmış olan sufi silahlıları ona son dərəcə sədaqətli idilər. "Bu tərəfdən mürşidi kamil [Cüneydin] yolunda canlarından keçməyi sədaqətin ən aşağı pilləsi hesab edən sufi qaziləri mübarək ordu sıralarında döyüşə hazırlaşdılar. Hər iki tərəfdən döyüş odu alovlandı, Yəmən («yəməni») qılıncları işə düşüb, sürətlə uçan qartallar (hərbçilər) bir-birinin canına qəsd etmək üçün uçuşmağa başladılar. Öz canlarından keçən qazilər həqiqətən din [yolundan] azmışların yaramazlığını dəf etməyi lazım bilib, bacardıqları qədər çalışırdılar" (118). Yəni, sufi döyüşçülərində öz mürşidlərinə qarşı fanatik bir sədaqət var idi və bu əhval-ruhiyyə Sultan Cüneyd qoşunlarının xarakterik tərəfi idi.

Göstərilən sayda qoşun dəstəsi toplanandan sonra Sultan Cüneyd Şirvan üzərinə hücum etməyi qərara aldı. Onun belə bir qərara gəlməsi və Azərbaycanın hakimiyyət altına gətirilməsi uğrunda mübarizəyə Ərdəbildə deyil, Şirvanda başlaması heç şübhəsiz ki, Qaraqoyunlu dövlətinin kifayət qədər güclü olması və bu dövlətin qoşunlarının müqavimətinin qırılmasının qeyri-mümkün olması ilə bağlı idi. Şirvanı ələ keçirəndən sonra orada həm möhkəmlənmək,

həm də güclənmək və sonra da Səfəvi xanədanının hakimiyyətini Ərdəbilə də yaymaq mümkün ola bilərdi. Şirvan hakiminin daha zəif və azsaylı qoşunlara malik olması isə Sultan Cüneydin Azərbaycan ərazisindəki ilk hərbi yürüşünün uğuruna yol aça bilərdi. Amma Sultan Cüneyd hərbi yürüş planlarını açıqlığı ilə ortaya qoymadı və belə bir bəyanat verildi ki, qoşun toplanmasında məqsəd Şirvan ərazisindən keçməklə Şimali Qafqaza yollanmaq və orada islam dinini qəbul etməmiş çərkəslərə qarşı cihad həyata keçirməkdir (119). Belə bir bəyanatın verilməsi çox güman ki, həm də sufi döyüşçülərinin bütünlüklə yürüşə səfərbər edilməsi istəyi ilə bağlı ola bilərdi.

Bəzi məlumatlara görə, Şirvan istiqamətinə hərəkətə başlamazdan əvvəl Sultan Cüneyd məktubla Şirvanşah Xəlilullaha müraciət etdi, ona çərkəslər üzərinə yürüş edəcəyini və buna görə onun qoşun dəstəsinə Şirvan ərazisindən keçməklə Şimali Qafqaza doğru irəliləməsinə maneçilik göstərilməməsini xahiş etdi. Şirvanşah Xəlilullah isə cavab məktubunda onu hərbi yürüşdən çəkindirməyə çalışdı və bildirdi ki, təriqət məsələləri ilə məşğul olması daha yaxşı olardı. Şirvan hakimi öz məktubunda Sultan Cüneydə məsləhət gördü ki, nəfsə qarşı cihad mübarizəsi aparsın, insan nəfsini məhv etməyə və insanların kamilləşməsinə çalışsın. Xəlilullah məktubunda onu da yazdı ki, kafirlərlə mübarizə aparmaq dərvişlərin işi deyil. Ona görə bu işdən çəkinsin və insanların mənəvi irşadı ilə məşğul olsun. Xəlilullahın sözlərinə görə, hər bir xalqın öz qisməti var və bu qismət ona yaradan tərəfindən müəyyənləşdirilib. Nəhayət Xəlilullah öz təəccübünü gizlətmirdi ki, ibadət səccadəsinin yəhər örtüyünə, pərhizkarlığın qan axıdılmasına və mömün əsasının nizəyə çevrilməsinə nə ehtiyac vardır? Sultan Cüneydin nəzərinə o da çatdırıldı ki, hücum etməyi planlaşdırdığı çərkəslər onun dövlətinin təbəələridir və onun xəzinəsinə vergi verirlər (120). Amma Sultan Cüneyd öz planından əl çəkmədi və yürüşdə qəti olduğunu bildirdi.

Şirvanşah Xəlilullah öz ərazisindən yad qoşunların buraxılmasına heç də rəğbətlə yanaşmırdı. O şübhə etmirdi ki, Sultan Cüneydin qoşunları onun ərazisindən keçməklə çərkəslər üzərinə hücum etsə və bu hücum uğurla başa çatsa Şirvan dövlətinə qarşı real təhlükə yarana bilər. Çünki uğurla geri qayıdan qoşunların sonradan Şirvan ərazisini də nəzarət altına almağa çalışacağı heç də istisna deyildi (121).

Osmanlı mənbələrinə görə, Şirvanşah Xəliliullah hətta Sultan Cüneydin yanına elçilər göndərdi, ona hədiyyələrini çatdırdı və onu hərbi yürüşdən çəkindirməyə çalışdı. Amma bu da Sultan Cüneydi öz planından əl çəkməyə məcbur edə bilmədi. Həmin mənbələrə görə, Sultan Cüneydlə münaqişədə olan əmisi Şeyx Cəfər isə Şirvanşah Xəlilullaha məktub göndərərək ondan Sultan Cüneydə qarşı müqavimət göstərilməsini istədi. Guya Şeyx Cəfər bu məktubda bildirmişdi ki, Sultan Cüneydin siyasətə qarışmağa haqqı yoxdur, o artıq dini rəhbər deyil və ona görə o, dinə qarşı çıxan birisi kimi öldürülməlidir (122).

Bəzi mənbələrdə və tarixi ədəbiyyatda Şirvan istiqamətində hərbi yürüş etməzdən əvvəl Sultan Cüneydin yenidən Diyarbəkrə yollandığı, Trabzonda islam düşmənlərinə qarşı vuruşduğu və bu döyüşdən sonra qoşunla Şirvana

gəldiyi haqqında da məlumat vardır (123). Bu məlumatın həqiqətə uyğunluğu şübhə doğurur. Əvvəla, nəzərə alınmalıdır ki, Uzun Həsənlə Trabzon hakimləri arasında müəyyən ittifaq münasibətləri yaranmağa başlamışdı və Sultan Cüneyd də bu ittifaqa qarşı yəqin ki, çıxış etməzdi. Digər tərəfdən qısa müddət ərzində Səfəvi qoşun dəstəsinin Trabzona yürüş etməsi, orada döyüş keçirməsi və sonra yürüşlə Şirvana qayıtması inandırıcı görünmür.

Şirvanşah Xəlilullah yaxınlaşmaqda olan real təhlükədən nicat tapmaq üçün yollar aramağa başladı. Onun fikrincə, malik olduğu hərbi qüvvələr Sultan Cüneydin qüvvələrinə müqavimət göstərmək gücündə deyildi. Ona görə Xəlilullah həm Qaraqoyunlu Cahanşahla, həm də Təbərsəran hakimi Əbülməsum xanla birgə müqavimət göstərilməsinin təşkili üçün danışıqlara başladı. Hər iki hakim Xəlilullahla birlikdə Sultan Cüneydə qarşı birgə müqavimət göstərilməsi məsələsi ilə razılaşdılar. Çünki hər ikisinin marağı bunu tələb edirdi. Sultan Cüneyd Şimali Qafqaza adlaya biləcəyi təqdirdə Təbərsəran hakiminin vəziyyəti mürəkkəbləşə bilərdi. Sultan Cüneydin Qafqaz yürüşü zamanı uğur qazanıb Şirvanda möhkəmlənməsi isə Qaraqoyunlu dövlətinə gələcəkdə təhlükə yarada bilərdi. Ona görə hər iki hakim Xəlilullahın sərəncamına qoşun dəstəsi göndərdilər. Mənbələrə görə, hər iki hakim ayrı-ayrılıqda Xəlilullahın köməyinə 5 min nəfərlik qoşun dəstəsi göndərdilər və bu qüvvələrlə birlikdə Xəlilullahın sərəncamında olan qüvvələrin sayı 30 min nəfərə çatdı. Eyni zamanda o da bildirilir ki, Xəlilullahın rəhbərliyi altında olan qüvvələr Araz çayı yaxınlığında Səfəvi qüvvələri ilə qarşılaşdılar və Səfəvi qüvvələrini məğlub etdilər (124).

Mənbələrdə və tarixi ədəbiyyatda Xəlilullah qoşunları ilə Səfəvi qoşunlarının qarşılaşmasının yalnız yeri haqqında deyil, həm də tarixi haqqında fərqli məlumatlar mövcuddur. Tədqiqatçılar bu qüvvələr arasındakı döyüşün 1460-cı il mart 4-də Şirvanın şimalında, Samur çayı yaxınlığında baş verməsi üzərində dayanırlar (125). Bu isə o deməkdir ki, Səfəvi qoşunları Ərdəbildən Samur çayına qədər irəliləyə bilmişdilər. Döyüş meydanı kimi nə üçün Təbərsəranın (Qafqaz sıra dağlarının qərbi) seçilməsi barəsində məlumat mövcud deyildir. Bu, müdafiə üçün həmin ərazinin coğrafi imkanları ilə də bağlı ola bilər, Cahanşahın göndərdiyi qoşun dəstəsinin yalnız orada Xəlilillah qoşunlarına birləşməsi ilə də bağlı ola bilərdi. Eyni zamanda bu döyüşün necə qurulması haqqında mənbələrdə konkret məlumat yoxdur. Mənbələrdəki məlumat tərəflər arasında döyüşün baş verməsi və Sultan Cüneydin bu döyüşdə şəhid olması ilə məhdudlanmışdır. Qüvvələrin sayı haqqında verilən məlumat doğru olduğu halda bu döyüşdə 40 min nəfər iştirak edirdi. Şübhəsiz ki, bu qüvvələr hansısa şəkildə qruplaşdırılmış və döyüşə cəlb edilmişdi. Bu barədə də mənbələrdən zəruri məlumatı əldə etmək mümkün deyildir.

Tədqiqata cəlb edilən mənbələr arasında "Fotuhat-e şahi" əsərində döyüşün gərginliyini ifadə edən ümumi təsvirlər mövcuddur. Həmin təsvirlərə görə, Sultan Cüneydin qoşun dəstəsini görəndə Şirvanşah döyüşçüləri cübbə və cövşən geyərək alay-alay meydana atıldılar, qorxu və həyacanı bir kənara qoydular və s. Həmin təsvirlərdən məlum olur ki, döyüşçülərin əsas silahı qılınc,

xəncər, nizə, ox-kaman idi. Bu mənbənin məlumatına görə, Sultan Cüneyd at belində döyüşü diqqətlə izləyir, lazım olan istiqamətə yeni qüvvələr göndərir və döyüşçüləri ruhlandırırdı. Qarşı tərəfin qoşun başçıları Sultan Cüneydin bu fəallığını görəndə onu mühasirəyə alaraq qətlə yetirməyi qərarlaşdırdılar və tezliklə bu planın icrasına da nail oldular (126).

"Tarix-i aləmara-yi Abbasi" Şirvanşah qoşunları ilə Səfəvi qoşunları arasındakı döyüşün gedişini və Sultan Cüneydin şəhid olmasını belə təsvir edirdi: "Sultan Cüneyd bu mərəkədə şəxsən döyüşə girdi. ... O həzrətin (Cüneydin) şəhid olması qəzavü-qədər lövhəsində yazıldığına görə Şirvanşah qoşunları o həzrəti on dörd gecəlik ay kimi ortalığa alaraq, onun dünyanı gəzən atını yerə yıxdılar. O həzrət (Cüneyd) döyüşün qızğın vaxtında hadisə saqisi əlindən şəhidlik şərbəti içdi. O həzrətin adamlarından bir hissəsi döyüşə davam edib, şəhidlik qanı ilə üzlərini qızartdılar, bəzisi isə «taqət gətirmədiyin şeydən qaçmaq lazımdır» [hədisinə] müvafiq surətdə qaçmaq yoluna düşdülər. «Fütuhat-i Əmini»də yazılmışdır ki, Səfəviyyə xanədanının sufiləri o həzrətin (Cüneydin) hörmətli cəsədini darülirşad Ərdəbilə gətirib, müqəddəs bağçada (rövzədə) dəfn etdilər. Bu həqirə (İsgəndər bəy Münşiyə) məlum olduğuna görə isə, həmişə bu ali sülalənin tərəfdarı olan Təbərsəran əhalisindən bir kəslər o həzrətin mübarək cəsədini hərb meydanından çıxararaq, Quba Qülhan mahalına aid olan Quryan kəndində münasib bir yerdə dəfn etmişdilər. İndi isə o şərəfli məkan feyz və rəhmət nurunun məskən tutduğu yerdir və o vilayətin xalqının ziyarətgahıdır" (127).

Beləliklə, Sultan Cüneydin dini hakimiyyətinin siyasi hakimiyyətə çevrilməsinə başlanması üçün göstərdiyi ilk ciddi cəhd uğursuzluqla nəticələndi. Bir daha qeyd edilməlidir ki, məlumatların azlığı bu döyüşün uğursuzluğuna yol açan səsəblərin üzə çıxarılmasına imkan vermir. Amma məlumdur ki, Şirvanşah qoşunları üçqat say üstünlüyünə malik idilər. Həm də Şirvanşah qoşunları artıq döyüş təcrübəsinə malik olan qoşunlar idi. Səfəvi qoşunları isə bir çağırışa toplanmış və döyüş təcrübəsi olmayan qoşunlar idi. Bu isə təsirsiz ötüşmədi. Sultan Cüneydin şəhid olmasından sonra onun müridləri tərəfindən Ərdəbilə gətirilərək Şeyx Səfi məqbərəsində dəfn edilməsi haqqında da məlumatlar vardır. Lakin bu məlumatlar doğru deyildir. O, Azərbaycanın şimalında dəfn edildi və onun qəbri hazırda Qusar rayonunun Həzrə kəndində yerləşir. Sonradan Şah Təhmasib bu qəbir üzərində türbə tikdirdi və onun qəbrini abadlaşdırdı.

Sultan Cüneyd böyük planların həyata keçirilməsi yolunda rastlaşdığı ilk sınaqda şəhid olsa da, müridləri və tərəfdarları üçün xidmət və mübarizə istiqamətini konkretləşdirmiş oldu. Onun şəhidliyi, dünyasını dəyişməsi heç də rəhbəri olduğu təriqətin zəifləməsinə, parçalanmasına yol açmadı. Çünki Sultan Cüneyd əcdadlarından təhvil aldığı təriqət sıralarını elə möhkəmləndirə bilmişdi ki, müridləri və tərəfdarları arasında ona fanatik bir inam və bağlılıq var idi. Bunu hətta Sultan Cüneydə rəğbəti olmayan mənbə müəllifləri də etiraf etməli olmuşdular. Məsələn, "Aləmara-yi Əmini" müəllifi yazırdı ki, müridləri və tərəfdarları Sultan Cüneydə elə inanırdılar ki, onu canlı Allah kimi görürdülər. Kimsə hətta Sultan Cüneydin nə vaxtsa dünyasını dəyişməsini dilinə gətirsəydi, həmin

adamın özünün sağ qalıb-qalmaması sual altında qala bilərdi. Sultan Cüneydi canlı Allah kimi qəbul edən müridləri onun oğlu Sultan Heydəri də Allahın övladı kimi təsəvvür edirdilər (128). Ona görə də, Sultan Cüneydin şəhidliyindən sonra Səfəvi təriqəti nəinki dağılmadı, əksinə sıraları daha da möhkəmləndi və Sultan Cüneyd tərəfindən başlanan mübarizə Sultan Heydərin rəhbərliyi altında davam etdirildi.

Sultan Cüneydə olan bağlılıq sadəcə onun şəxsiyyətinə olan hörmət və ehtiramdam irəli gəlmirdi. Bu bağlılıq həm də Sultan Cüneydin yaydığı baxışların canlılığından, böyük sayda insan kütlələrinin mənəvi ehtiyaclarına cavab verməsindən irəli gəlirdi. Sultan Cüneydin fəaliyyəti illərində Səfəvi təriqət ideyalarında müəyyən dəyişikliklər baş versə də, təriqət müridlərinin və tərəfdarlarının sayı və onların təriqətə olan inamı heç də zəifləmədi. Əksinə, təriqət daha da rövnəq tapdı, təriqət tərəfdarları mürşidlərinə olan sədaqəti öz həyatları ilə sübut etdilər. Belə bir nəticəyə nail olunması Sultan Cüneydin mürşidlik, rəhbərlik və təşkilatçılıq qabiliyyəti ilə birbaşa bağlı idi. Onun şəhid olmasından oğlu Sultan Heydərin fomalaşmasına və təriqət rəhbərliyinin məsuliyyətini öz üzərinə götürməsinə qədər uzun bir vaxt keçməli oldu. Amma bu zaman ərzində də təriqət nəinki zəifləmədi, əksinə Sultan Cüneydin təriqətə gətirdiyi yeni baxışların reallaşdırılması üçün daha da təşkilatlandı.

### 7) Sultan Heydər

Sultan Cüneydin şəhidliyindən sonra təriqət rəhbəri onun oğlu Sultan Heydər oldu. Sultan Heydərin doğum tarixi haqqında mənbələrdə və tarixi ədəbiyyatda fərqli məlumatlarla rastlaşmaq mümkündür. Amma onun 1460-cı ildə anadan olması fikrinə daha çox istinad olunur. Bəzi məlumatlarda onun Sultan Cüneydin şəhidliyindən bir neçə ay sonra anadan olduğu bildirilir (129). Sultan Heydərin hələ atasının sağlığında anadan olması haqqında da məlumatlar mövcuddur.

Sultan Heydər Diyarbəkrdə anadan olmuşdu. Sultan Cüneyd Ərdəbilə dönərkən yəqin ki, ciddi sınaqlarla qarşılaşacağını hiss edirdi və ona görə də ailəsini özü ilə Ərdəbilə aparmamışdı. Onun həyat yoldaşı Xədicə bəyim qardaşı Uzun Həsənin yanında qaldı və onun qayğısı ilə əhatə olundu. Sultan Heydər özü də anadan olduqdan sonra Uzun Həsənin qayğısı ilə əhatə olundu və onun ilkin təlim-tərbiyəsi də məhz Uzun Həsənin rəhbərliyi və nəzarəti altında aparıldı. Sultan Heydər bir tərəfdən Uzun Həsənin bacısı oğlu idisə, digər tərəfdən də Sultan Heydər bölgənin ən nüfuzlu təriqətinin gələcək rəhbəri idi və ona görə də Uzun Həsən çalışırdı ki, bacısı oğlu Səfəvi xanədanına rəhbərlik edə biləcək bir şəxs kimi formalaşsın.

Qeyd etmək lazımdır ki, Sultan Cüneydin şəhidliyi ərəfəsi və onun şəhidliyindən sonrakı illər Uzun Həsənin və onun hakimi olduğu Ağqoyunlu dövlətinin gücləndiyi və genişləndiyi bir dövr idi. Uzun Həsən məharəti, bacarığı ilə öz hakimiyyətini kifayət qədər genişləndirməyə və nəhayət öz

hakimiyyətini bütün Azərbaycan, İraq, Fars üzərində bərqərar etməyə müvəffəq oldu. Uzun Həsən 1458, 1463, 1466-cı illərdə Gürcüstan üzərinə uğurlu yürüşlər həyata keçirdi, Misik Məmluk hakimiyyəti ilə əlaqələr yaratdı, hakimiyyətinin genişləndirilməsi üçün qoşunlarının sıralarını genişləndirməyə çalışdı. Onun bölgədə qarşılaşdığı başlıca qüvvə şərqdə Qaraqoyunlu dövləti, qərbdə isə Osmanlı dövləti idi. Uzun Həsən Tarbzon yunan hakimi ilə ittifaq əlaqələri qurmuşdu. Yuxarıda qeyd edildiyi kimi, Sultan Cüneydin Trabzon üzərinə yürüşündən sonra Osmanlı sultanı qoşunları Trabzon üzərinə hücum etmiş və Trabzonun yunan hakimini məcbur etmişdi ki, ildə üç min qızıl sikkə vəsait ödəməklə Osmanlı vassallığın qəbul etsin. Trabzon hakimi Kalo İoannes çarəsiz vəziyyətə düşərək bu tələbi qəbul etməli olmuşdu. Amma o şübhə etmirdi ki, Osmanlı sultanı Trabzonu bütünlüklə öz hakimiyyəti altına gətirmək istəyindən əl çəkməyəcəkdir. Ona görə də Kalo İoanns çalışırdı ki, Uzun Həsənlə ittifaq münasibətləri yaratsın və onun köməyi ilə Osmanlı təhlükəsizndən sığortalansın. Bununla bağlı, 1457-ci ildə Trabzon hakimi öz nümayəndələrini Diyarbəkrə, Uzun Həsənin sarayına göndərdi. Uzun Həsən Trabzonla müttəfiqlik əlaqələri qurmağa müsbət yanaşdı. Çünki onun özünün də Osmanlı sarayı ilə gərgin münasibətləri var idi. Amma qurulacaq ittifaq münasibətlərinin əvəzində Uzun Həsən Trabzon hakiminin Kira Katrina adlı qızının onun nikahına verilməsini istədi. Bu şərtin qəbul olunacağı təqdirdə Uzun Həsən da söz verdi ki, Trabzonun müstəqilliyini qorumaq üçün mümkün olan hər tədbiri həyata keçirsin. Trabzon hakimi bu təklifin üzərində xeyli fikirləşməli olsa da, sonda onu qəbul etdi. Eyni zamanda bu məsələ ilə bağlı öz təklifini də irəli sürdü ki, Kira Katrina öz məzhəbini dəyişməsin və öz dini mərasimlərini həyata keçirə bilmək üçün onunla birlikdə bir neçə keşiş və rahib də Diyarbəkrə yollansın. Şahidlərin verdiyi məlumata görə, Katrina kifayət qədər etiqad sahibi idi və dinə bağlılığını da davam etdirmək istəyirdi (130).

Uzun Həsən bu şərtlə razılaşdı və bunun nəticəsi kimi, 1458-ci ildə Kalo İoannes ilə Uzun Həsən arasında müttəfilqik razılaşması imzalandı. Uzun Həsənin Katrina ilə ailəlik həyatından isə 3 qız övladı dünyaya gəldi və bu qızlardan biri sonralar Sultan Heydərin nikahına verildi ki, onların da nikahından Şah İsmayıl Səfəvi dünyaya gəldi.

1467-ci ildə Ağqoyunlu qoşunlarının Qaraqoyunlu qoşunlarına güclü zərbə vurması Ağqoyunlu dövlətinin qüdrətini daha da artırdı. Bu iki dövlətin qoşunları arasında 1467-ci ilin payızında baş verən döyüşlər Qaraqoyunlu hakimi Cahanşahın təşəbbüsü ilə başlasa da, Uzun Həsənin tədbirliliyi, məharəti ilə Ağqoyunlu qoşunlarının qətiyyətli qələbəsi ilə başa çatdı və Qararoqulu hakimi Cahanşah da bu döyüşdə qətlə yetirildi. Bu uğurun əldə edilməsi ilə Uzun Həsənin bölgədəki mövqeləri və nüfuzu daha da möhkəmləndi. Bəzi mənbə və ədəbiyyatda bildirilir ki, Qaraqoyunlu Cahanşaha ağır zərbə vurulması həm də Uzun Həsənin Sultan Cüneydin öldürülməsi qisasının alınması istəyi ilə bağlı idi. Amma sözsüz ki, Uzun Həsəni böyük qələbələr əldə etməyə sövq edən yalnız qisasçılıq deyildi. O, malik olduğu məharəti və bacarığı ilə özünün böyük

dövlətini yaratmaq planlarını həyata keçirirdi və Qaraqoyunlu qoşunlarına vurulan güclü zərbə onun bu planın icrasını xeyli yaxınlaşdıra bildi.

Cahanşah üzərində qələbə əldə etməsi Uzun Həsənin məharətinin, düzgün planlaşdırmasının və təşkilatçılığının nəticəsi idi. Cahanşahın bu döyüşün gedişində sayıqlığını itirməsindən bacarıqla istifadə edən Uzun Həsən Qaraqoyunlu qoşunlarına heç bir şans vermədi və qətiyyətli hücumu ilə öz məqsədinə nail oldu. Döyüşün gedişində həlak olmuş Cahanşahın başı kəsilərək Herata, Qaraqayunlu dövlətinin müttəfiqi sultan Əbu Səidə, Cahanşahın oğlu Məhəmmədin başı isə İstanbula, Cahanşahın digər müttəfiqi Sultan II Mehmetə göndərildi və bununla bir növ onlara da güclü olmağını nümayiş etdirdi (131).

Cahanşahın ölümündən sonra onun iki oğlu hakimiyyətə iddia irəli sürdü. Birinci oğlu Hüseynəli dərviş olmaqla qoşunlar arasında lazımi nüfuza malik deyildi və tezliklə öldürülməsi hakimiyyətin qardaşı Həsənəlinin əlində toplanmasına imkan verdi. Həsənəli Qaraqoyunlu qoşunlarını bir yerə toplayaraq dövlətin süqut etməsinin qarşısını almağa cəhd göstərdi. Hakimiyyətin qorunması üçün Həsənəlinin hətta Təbriz əhalisinə pul paylaması haqında da məlumatlar mövcuddur. Amma Uzun Həsənin artan qüdrəti qarşısında Qaraqoyunlu dövlətini xilas etmək mümkün olmadı. 1468-ci ilin avqust ayında Mərənd yaxınlığında Qaraqoyunlu qoşunlarına növbəti və sonuncu zərbə vuruldu. Qaraqoyunlu qoşunları ağır məğlubiyyətə düçar oldu və Uzun Həsən qarşısında süquta uğradı. Uzun Həsən bu qələbədən sonra Təbrizə daxil oldu və bu şəhəri Ağqoyunlu dövlətinin paytaxtı elan etdi (132).

Bölgədə baş verən hərbi-siyasi proseslər, Azərbaycan Ağqoyunlu dövlətinin bərqərar olması və möhkəmlənməsi Sultan Heydərin həyatında da silinməz izlər buraxırdı. Əvvəla, bu dövlətin bərqərar olması və möhkəmlənməsi dayısının, hamisinin və sonradan isə qayınatası olmuş Uzun Həsənin mökəmlənməsi və bununla Səfəvi təriqətin fəaliyyəti üçün yeni bir səhifənin açılması ilə müşayiət olunurdu. Digər tərəfdən isə həmin proseslər Sultan Heydərin gözləri qarşısında cərəyan edirdi və bu proseslər onun formalaşmasına təsir edirdi. Sultan Heydər həm Səfəvi təriqətinin rəhbəri kimi, ilahiyyat elminə yiyələnir və kamilləşirdisə, digər tərəfdən zəka ilə gücün vəhdətini özündə təcəssüm etdirməyə çalışırdı. Mənbələr də bildirirlər ki, Sultan Heydər hələ Diyarbəkrdə yaşadığı zaman atasının müridləri dəstə-dəstə onun yanına gələrək sədaqətlərini nümayiş etdirdilər. Bundan başqa ətraf bölgələrin əhalisi arasından da xeyli sayda adam onun rəhbərliyi altında olan təriqətin sıralarına qoşuldular. Bu insanlara mürşidlik etmək kamilliyinə çatmağı bir an belə unutmasa da, Sultan Heydər qılınc və kamanı da kənara qoymadı, bu silahların sirlərinə yiyələnməyi başlıca vəzifələrindən biri kimi qəbul etdi (133). Sultan Heydərin istər mənəvi, istərsə də fiziki təlim-tərbiyəsində sözsüz ki, Uzun Həsən da iştirak edir və bunun üçün lazımi işlər görürdü.

Təbriz şəhəri Ağqoyunlu dövlətinin paytaxtına çevrildikdən sonra Uzun Həsən Sultan Heydəri Ərdəbilə, Səfəvi xanəgahına yolladı. Bu zaman onun 9 yaşı var idi və Sultan Heydər bu yaşında Səfəvi xanəgahına rəhbərliyə başladı.

Bəzi məlumatlara görə isə, Sultan Heydər Ərdəbilə Teymurilər hakimiyyətinin davamçısı və Qaraqoyunlu Cahanşahın müttəfiqi Əbu-Səidin Ağqoyunlu üzərinə hücumundan sonra gəlmişdi. Bu hücum da 1468-ci ildə baş vermişdi. Müttəfiqi Cahanşahın məğlub edilməsindən sonra Qaraqoyunlu dövlətinin qorunması məqsədilə Əbu-Səid Azərbaycan üzərinə böyük sayda qoşun çəkmək qərarına gəldi. Bu barədə əldə edilən məlumat Uzun Həsəndə müəyyən təşviş və narahatçılıq yaratdı və gözlənilən təhlükənin neytrallaşdırılması üçün Uzun Həsən anası Sara xatunun rəhbərliyi altında elçilər göndərdi. Nəzərdə tutulmuşdu ki, Sara xatunun rəhbərliyi altında aparılan danışıqlarla Əbu-Səidin Azərbaycan üzərinə hücumunun qarşısı alınsın (134).

Lakin Sara xanımın diplomatik missiyası gözlənilən nəticəni vermədi və Əbu-Səid Azərbaycan üzərinə hücum etmək planından əl çəkmədi. Amma istər Sara xatunla aparılan müzakirələrdən düzgün nəticə çıxarılmaması, istərsə də Azərbaycanda formalaşmış olan hərbi-siyasi şəraitin düzgün qiymətləndirilməməsi Əbu-Səidin planlarının uğursuzluğuna yol açdı və o öz məqsədinə nail ola bilmədi. Əslində, Uzun Həsənin özünün həyata keçirdiyi tədbirlər Əbu-Səidin Azərbaycana qoşun çəkməsini mənasız etdi. Onun qoşunları Azərbaycana yetişənə qədər Qaraqoyunlu qoşunlarının qalıqlarına da ağır zərbə vuruldu və bütünlükdə Qaraqoyunlu dövlətinin mövcudluğuna son qoyuldu.

Mövcud olan məlumata görə, Əbu-Səid öz qoşunları ilə 1468-ci il iyul ayının sonlarında Xorasandan Azərbaycana doğru hərəkətə başladı və Xəzər dənizinin cənub hövzəsindən keçməklə həmin ilin payızında Sultaniyyəyə çatdı. Bəzi məlumatlara görə, bu zaman Təbriz şəhəri hələ Uzun Həsənin hakimiyyəti altında deyildi və Əbu-Səidin qoşunlarının bölgəyə gəlməsi xəbərini alanda Uzun Həsən Təbrizə girmədən şimala doğru hərəkət etdi və Arazın şimalında özünə düşərgə saldı. Bu bölgədə düşərgə salınması yaxınlaşmaqda olan qışın daha yaxşı şəraitdə keçirilməsi istəyi ilə bağlı idi. Qarabağın qışı mülayim olmaqla bərabər, burada ərzaq və yem tapmaq da çətin deyildi. Halbuki, Əbu-Səidin qoşunlarını Sultaniyyədə daha sərt qış gözləyə bilərdi. Mövcud olan məlumata görə, Əbu-Səid qoşunları ilə Sultaniyyəyə yetişəndə Qaraqoyunlu Cahanşahın varisi Həsənəli Ərdəbildə idi və Əbu-Səidin bölgəyə gəlməsi xəbərini alan kimi Sultan Cüneydin əmisi Şeyx Cəfərlə birlikdə onun görüşünə yollandı. Sultaniyyədə onlar arasında görüş oldu. Xüsusilə, Əbu-Səidin Səfəvi şeyxi ilə uzun bir görüşü oldu və sözsüz ki, bu görüşdə yalnız təriqət məsələləri deyil, həm də bölgədə yaranmış vəziyyət müzakirə olundu (135).

Ağqoyunlu qoşunlarına qarşı necə mübarizə aparılması ilə bağlı Sultaniyyədə xüsusi bir məşvərət iclası keçirildi. Bu müşavirədə başlıca müzakirə obyekti o oldu ki, qoşunların bölgədə qalması uzun çəkəcəksə, onda onlar üçün münasib qışlaq tapılmalıdır. Müzakirələrdən sonra belə qərara alındı ki, qoşunlar üçün münasib olan qışlaq yeri, Arazın cənubunda, Qarabağdadır. Amma bunun üçün oradan Ağqoyunlu qoşunları uzaqlaşdırılmalı idi. Bu qərardan sonra qoşunların Qarabağa doğru irəliləməsi üçün göstəriş verildi. Bir neçə gündən sonra Əbu-Səid və onun ətrafındakılar Ərdəbilə gəldilər və burada sonrakı

fəaliyyət üçün müəyyən hazırlıqlar gördülər. Arazın cənubuna adlamaq və orada qışlamaq üçün Əbu-Səid həm də Xəlilullahdan sonra Şirvan hakimi olmuş Fərrux Yasarın da köməyinə bel bağlayırdı. Çünki Şirvan hakimlərinin teymurilərlə köhnə dostluq əlaqələri hələ də qalmaqda idi. Güman edilirdi ki, Şirvanşah Fərux Yasar ərzaq və yem baxımından Əbu-Səidin qoşunlarına yardım edəcəkdir. Lakin Fərrux Yasar bu dostluq əlaqələrindən üz çevirməli oldu. Uzun Həsənin göndərdiyi məktub onu bu addımı atmağa məcbur etdi. Uzun Həsən Fərrux Yasarı əməkdaşlığa dəvət etdi. Onun nəzərinə çatdırdı ki, Əbu-Səid nə vaxtsa bölgəni tərk etməli olacaqdır və o zaman Fərrux Yasarın köməyinə çatan tapılmayacaqdır. Fərrux Yasar da Uzun Həsənin təklifini təhlil etdikdən sonra onun fikirlərinin düzgünlüyü qənaətinə gəldi və ona görə də Əbu-Səidin qoşunlarına yardım göstərilməsindən imtina etdi. Uzun Həsənin təklifi ilə Fərrux Yasar körpüləri dağıtmaqla Əbu-Səid qoşunlarının hərəkətini çətinləşdirdi. Məlumatlara görə, Şirvanşah qoşunlarından əlavə, həm də Səfəvi təriqətinin tərəfdarları Uzun Həsənin qoşunlarının tərkibinə qatıldılar. Hətta onlarla birlikdə Sultan Heydər də Uzun Həsənin düşərgəsinə gəldi (136). Nəticədə, Uzun Həsən həm düzgün əməliyyat meydanı seçdi, həm də Əbu-Səid qoşunlarına qarşı güclü bir koalisiya formalaşdıra bildi ki, bu da hərbi qarşıdurmanın taleyini həll etdi.

Uzun Həsənin rəhbərliyi altında Əbu-Səidin qoşunları sərt mühasirəyə alındı və onların ərzaq əldə etmək imkanları xeyli məhdudlaşdırıldı. Mürəkkəb hava şəraitində bu mühasirə Əbu-Səid qoşunlarını çıxılmaz vəziyyətə saldı və qoşunlar daxilində itkilərlə birlikdə hərc-mərcliyin də artmasına başlandı. Real təhlükədən yaxa qurtarmaq üçün Əbu-Səid döyüşçüləri arasında Uzun Həsən qoşunlarına əsir düşənlərin də sayı xeyli çoxaldı. Vəziyyətin çıxılmaz olduğu şübhə doğurmayanda Əbu-Səid sülh danışıqlarının aparılmasına cəhd göstərdi. Bununla bağlı təklifə Uzun Həsən tərəfindən müsbət cavab verilsə də, əslində ona ciddi yanaşılmadı. Çünki Uzun Həsən öz üstünlüyünə şübhə etmirdi və qələbəsinin yaxında olmasına da əmin idi. Sülh danışıqlarında iştirak edən Sultan Heydər də düşmən düşərgəsində gördüklərindən sonra Uzun Həsənə tələsməməyi məsləhət gördü. Artıq məlum idi ki, ötən hər gün Əbu-Səid qoşunlarının vəziyyətini daha da çətinləşdirir və bu qoşunlara güclü zərbə vurmaqla bölgədə Ağqoyunlu dövlətini qətiyyətlə bərqərar etmək olar. Bu niyyətin həyata keçirilməsi üçün 1469-cu il yanvar ayının sonlarında Uzun Həsənin rəhbərliyi altında olan qoşunlar Mahmudabad məntəqəsi yaxınlığında Əbu-Səid qoşunları üzərinə hücuma keçdilər və bu hücum zamanı Əbu-Səidə nicat tapmaq üçün heç bir şans verilmədi. Böyük sürət və qətiyyətlə həyata keçirilən bu hücum zamanı Əbu-Səid qüvvələrinə ağır zərbə vuruldu. Vəziyyətin çıxılmaz hal aldığını görəndə Əbu-Səidin bəzi sərkərdələri Uzun Həsənin tərəfinə keçdilər. Əbu-Səidin özü isə əsir götürüldü (137).

Uzun Həsən əvvəlcə Əbu-Səidin həyatına son qoyulmasına razı olmadı və müəyyən şərtlər çərçivəsində onun azad edilməsinə etiraz etmədi. Lakin onun rəhbərliyi altında keçirilən məşvərət toplantısında onun bu ideyası dəstəklənmədi. Uzun Həsənin bir sıra əmirləri və onun müttəfiqi kimi çıxış edən Şirvan-

şahlar dövlətinin qazisi bildirdilər ki, Əbu-Səid düşmən kimi təhlükə mənbəyi olaraq qalmaqdadır və sağ qalarsa yenidən qoşun toplayıb Azərbaycan üzərinə hücuma keçə bilər. Xüsusilə, Şirvanşahların qazısı bu təklif üzərində təkid etdi. Çünki qarşılaşdıqları zaman Əbu-Səid Şirvanşah qazisinə bildirmişdi ki, bu məğlubiyyətin baş verməsinə əsas səbəb Şirvanşah Fərrux Yasarın öz müttəfiqlik vədlərinə əməl etməməsidir. Ona görə qazi də şübhə etmirdi ki, Əbu-Səid sağ qalacağı halda gələcəkdə qoşun toplayıb Fərrux Yasardan öz qisasını almağa çalşacaqdır. Bunu isə Şirvanşah qazisi istəmirdi. Uzun Həsən bu təkliflərlə qismən razılaşdı və Əbu-Səidi qətlə yetirməyərək onu Teymurilər sülaləsinin nümayəndəsi, Teymurilər hakimiyyətinə iddialı olan Əmir Teymurun oğlu Şahruxun nəvəsi Yadigar Məhəmmədə təhvil verdi. Yadigar Məhəmməd də aralarında olan münaqişəyə görə Əbu-Səiddən qisas aldı və onu 1469-cu ilin fevralında qətlə yetirdi (138).

Əbu-Səid qoşunları üzərində qələbə Ağqoyunlular dövlətinin qüdrətini daha da möhkəmləndirdi. Bu dövlətin Şirvanşahla və Ərdəbil xanəgahı ilə olan müttəfiqlik münasibətləri isə bütün Azərbaycan ərazisində milli hakimiyyətin bərqərar olmasına yol açdı. Bu uğurdan sonra eyni zamanda Səfəvi xanəgahının və təriqətinin nüfuzu da xeyli möhkəmləndi, Sultan Heydər isə Ərdəbilə qayıdaraq Səfəvi xanəgahının rəhbərliyini və təşkilatçılığını öz üzərinə götürdü. Onun Əbu-Səidə qarşı döyüşdə iştirak etməsi və əməliyyat meydanında yaranmış şəraiti dəqiqliklə dəyərləndirə bilməsi həm də Sultan Heydərin hərbi duyumundan xəbər verirdi. Onda hərbə marağın olmasını mənbə məlumatları da təsdiq edirlər. Heç şübhəsiz ki, istər atasının izlədiyi yol, istərsə də bölgədə cərəyan edən proseslər Sultan Heydəri də zəka ilə gücün birləşdirilməsinə sövq edirdi. Onun üçün məlum idi ki, hətta Ərdəbil xanəgahının qorunması və müridlərin burada irşadına münasib şərait yaradılması üçün müdafiəyə hazır olmaq lazımdır.

Sözsüz ki, Sultan Heydər də ilk növbədə təriqət rəhbəri idi və Səfəvi təriqətinin kamilliyinin müridlərə çatdırılması onun diqqətindən kənarda deyildi. Səfəvi təriqətinin gücü də bunda idi və Sultan Heydərin dövründə də Səfəvi təriqətinin əzəməti məhz onun müridlərinin sayının çoxluğunda, həmin müridlərin təriqət baxışlarına inamında və bu inam işığında təriqət mürşidinə sonsuz sədaqətində idi. Sultan Heydərin "ürəyi həqiqət nurundan işıqlanmış, üzündə isə təriqət izləri zahir olmuşdu və o, həzrət Sultan Cüneydin böyük övladı və Əmir Həsən bəyin bacısı oğlu olmaqla imamət və dindarlıq səccadəsinə, səltənət və şəhriyarlıq məqamına layiq idi." (139).

"Tarix-i aləmara-yi Abbasi" isə onu belə təsvir edirdi: "Sultan Heydər - «vilayət» bürcündən parlamış bir günəş, səltənət dənizi sədəfindən çıxmış bir dürr idi. Onun gözəl davranışının [məqsədi] ata-babalarının ənənələrini davam etdirmək və möhtərəm ürəyinin istədiyi şəhərlərə və məxluqa hökmdarlıq etmək idi. ... O həzrət (Heydər) gündəngünə dövlət və rəislik dərəcələrinə yüksəldi, [onun] mübarək astanası say-seçmə adamların və sadə camaatın yığıncaq yeri oldu"(140).

Səfəvi xanəgahının, Səfəvi övladlarının gücü ilk növbədə onların etiqadında idi və bu etiqadı yaradan baxışlar minlərlə insanın əqidəsinə çevrilmişdi. Sultan Heydərə bağlılığın və sədaqətin nəticəsi idi ki, qısa zaman ərzində Azərbaycandan başqa ətraf bölgələrdən onun tərəfdarlarının sayı xeyli artmışdı, bu insanlar onu öz rəhbərləri kimi qəbul edirdilər. Sultan Heydər onlara şəriət həqiqətlərini öyrətməklə bərabər, Xürrəmiliyin gizlinlərini də anladırdı. (141). Bu təriqətin dünyəviliyə meyli də məhz etiqad üzərində qurulmuşdu və Sultan Cüneyddən başlayaraq qabarıq istiqamət kimi formalaşan dünyəvilik məzhəblə dünyəviliyin vəhdəti kimi görülürdü. O cümlədən Sultan Heydər dövründə Səfəvi təriqət tərəfdarlarının mübarizəsinin əsas obyektini təşkil edən hakimiyyətin məzmunu da məzhəblə dünyəviliyin ifadəsi kimi qəbul edilirdi və ona görə də Səfəvi təriqət tərəfdarlarının özü mürşidlərinin rəhbərliyi altında apardıqları müharibələrdə də dini müharibə görüntüsü daha güclü idi.

Dini müharibələrin aparılması isə heç də müharibəyə hazırlığı istisna etmirdi. Bu istiqamətdə Uzun Həsəndən aldığı ilk vərdişlərin ardınca Sultan Heydər Ərdəbil xanəgahında özü bu vərdişləri təkmilləşdirməyi davam etdirdi. Mənbələrdə də deyilirdi ki, onun Ərdəbildəki çilləgahında kamandan başqa heç nə yox idi, hücrəsində də qılıncdan başqa heç nə yox idi. Gündüzlər vaxtının xeyli hissəsini də sipər hazırlamaqla, ox yonmaqla keçirərdi. Bu işlərdə o elə bir vərdiş və təcrübə əldə etmişdi ki, ətrafındfakılar onu öz məbudu hesab edərdilər. Mənbələr də Sultan Heydəri mərd və cəsur bir cavan kimi xarakterizə edirdilər. Məsələn, bildirilirdi ki, o, qılınc döyüşündə, ox atmaqda, nizə tutmaqda, kəmənd işlətməkdə çox böyük məharətə malik idi. Onun hərb sahəsindəki məharəti və cəsarəti əfsanəvi qəhrəmanlar olan İsfəndiyarla, Rüstəm-Zalla, Əfrasiyabla və digər qəhrəmanlarla müqayisə edilərdi. Atasının qisasını Şirvanşahlardan alınması fikri də onu heç vaxt rahat buraxmazdı (142).

"Xülasə, o həzrətin (Heydərin) cah-calalı gündən-günə artırdı, fələyə bərabər olan dərgahına iradət sahiblərinin axını daima güclənir və bütün camaat onun fəzilət süfrəsindən get-gedə daha artıq faydalanırdı. Nəhayət, [Heydər] zahiri və mənəvi səltənəti birləşdirərək, batində Allaha itaət edənlərin və şeyxlərin göstərişi ilə gedib, zahirdə isə sultanlar kimi ağalıq taxtında otururdu. Böyük əmir Uzun Həsən hər sahədə Heydərin səadət astanasının xidmətçiləri ilə sonsuz dərəcədə dostluq və mehribanlıqla rəftar edirdi, öz bacı oğlu və kürəkəninin könlünün meyl etmədiyi heç bir işə razı olmurdu. [Heydər] bir müddət könlü istədiyi kimi dövlət və səadətlə yaşadı və onun bəxt ağacı tuba ağacı kimi kamal dərəcəsinə çatdı" (143).

Ağqoyunlu hakimi Uzun Həsən həyatının sonuna yaxın Sultan Heydərlə olan qohumluq əlaqələrini daha da möhkəmləndirdi və qızı Aləmşah bəyimi ona nikah etdirdi. Aləmşah bəyim Trabzon hakiminin qızı Katrinadan doğulmuşdu və anası onu Marta adlandırmışdı. Amma Marta yerli əhali arasında daha çox Həlimə Bəgi kimi tanınmışdı. Mənbə və tarixi ədəbiyyatda onun eyni zamanda Həlimə Bəgi ağa, Həlimə bəyim, Aləmşah bəyim kimi təqdim olunmasına da rast gəlmək mümkündür. Əslində, bu nikahın doğru tarixi haqqında məlumat

mövcud deyil. Uzun Həsənin dünyadan köçdüyü zaman Sultan Heydərin 18 yaşı var idi. Güman edilir ki, onun evlənməsi də təxminən elə həmin yaşda və ya ondan bir qədər tez ola bilərdi. Bu nikahdan Sultan Heydərin üç oğlan övladı dünyaya gəldi - Sultan Əli, İsmayıl və İbrahim (144).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Sultan Heydərin evlənməsi belə təsvir olunur: "Taleyin gücü ilə Mirzə Cahanşahı məhv etmiş və hökmranlıq taxtında oturmuş mərhum hökmdar Uzun Həsən bu sülalə ilə bağlılığını yenidən möhkəmləndirmək istədi, Aləmşah bəyim adıyla məşhur olan öz əziz qızı Həlimə bəyim ağanı ona (Heydərə) verdi və o namus bürcünün Zöhrəsini səadət səmasının Müştərisi ilə yaxın etdi"(145)

Sultan Heydərin 1487-ci ilin iyulunda anadan olan kiçik oğlu İsmayıl atasının və əcdadlarının yolunu davam etdirməklə sonradan böyük Səfəvilər imperiyasının yaradıcısı oldu və Azərbaycanın həm siyasi tarixində, həm də hərb tarixində yeni bir dövrün başlanğıcını qoydu.

Sultan Heydərin təriqət əhlini hərbə hazırlaşdırmaq yolunda gördüyü işlərdən biri də onların zahiri formasının dəyişdirilməsi, xüsusilə yeni baş geyimlərinin istifadəyə qəbul edilməsi idi. Tədqiqatçılar bu məsələni daha çox ideoloji məzmunla, mənbələr isə Səfəvi təriqət tərəfdarlarının baş geyiminin dəyişməsini ilahi məqamlarla bağlamağa çalışırlar. Məsələn, "Tarix-i aləmara-yi Abbasi" əsərində bu barədə belə yazılmışdır: "[Sultan Heydər] bir gecə yuxuda (röyada) gördü ki, qeyb aləminin xəbərçiləri ona əmr etdilər ki, qıpqırmızı [parçadan] on iki imama inanma əlaməti olan on iki yarıqlı bir tac düzəldib, özünə tabe olanların başlarını o tacla bəzəsin. Sultan bu yuxunu görəndə başına şənlik papağı qoyub, o zamankı adət üzrə işlənən türkman taqiyəsini şadlıq gətirən on iki yarıqlı Heydəri tacı ilə əvəz etdi. [Onun] yaxın adamları o həzrətin etdiyini təkrar etdilər. Bu xanədana bağlı olan bütün [adamlar] bu şərəfli tac vasitəsilə başqa camaatdan seçildilər. Buna görə də o yüksək şanlı təbəqə «qızılbaş» adı ilə məşhur oldu" (146).

"Aləmara-yi Şah İsmayıl"da isə Sultan Heydərin yuxusuna İmam Əlinin girməsi və qızılbaş papağının da məhz onun tərəfindən məsləhət bilinməsi iddia edilir. Bu mənbənin məlumatına görə, Həzrət Əli ona bildirdi ki, yaxınlarda sənin övladın dünyaya gələcək və qiyam edərək dünyanı küfrdən təmizləyəcəkdir. Həzrət Əli eyni zamanda təriqət əhli üçün məsləhət bildiyi papağın formasını və hazırlanma qaydasını ona göstərdi. Sultan Heydər də yuxudan ayılandan sonra yaxınlarını başına toplayıb yuxusunu onlara danışdı və sonra da yuxuda ona tövsiyə edilən papaqların hazırlanmasına göstəriş verdi. Bu papaqlar qırmızı rəngli keçədən olmaqla yuxarısı dairəvi və ensiz şiş ucluqla tamamlanırdı. Onun üstünə isə ağ və bəzən də yaşıl parça əmmamə kimi dolandırılırdı. Papağın aşağısından yuxarısına qırmızı rəngdə 12 dilim olmalı idi ki, bu dilimlər şiə imamlarının simvolik rəmzi idi. Bu zolaqlar bir barmaq qalınlığında qırmızı rəngdə olduqları üçün həmin rənglərə görə də papağa ad vermişdilər. Bu papaqdan istifadə edənlər sonradan "qızılbaş" adlandırıldı (147). İlk vaxtlar bu papaqdan istifadə edənlər "qızılbaş" adlandırıldılarsa da, sonradan "qızılbaş"

sözü hərbi mənasınından daha geniş anlamda işləndə və bütün Səfəvi tərəfdarları qızılbaşlar adlandırılmağa başlandı.

12 qırmızı zolaqlı papaq ənənəvi əmmamələrdən fərqlənən bir papaq idi və ona görə də onun tətbiqinə başlanması müəyyən maraq doğururdu. Doğrudur, Səfəvi təriqətinin tərəfdarları bu papaqların istifadəsinə başlanmasına etiraz etmədilər. Çünki mürşid göstərişi onlar tərəfindən qeyd-şərtsiz qəbul olunurdu. Azərbaycanın hakimi olan Uzun Həsən üçün isə Sultan Heydər tərəfindən yeni bir papaq hazırlanması və istifadəsi müəyyən maraq doğurdu və dərhal da öz elçilərini onun yanına göndərdi ki, həmin papağın nümunəsini ona gətirsinlər. Uzun Həsən bu papağı çox bəyəndi və hətta ailə üzvlərinə də göstəriş verdi ki, qızılbaş papaqlarından istifadə etsinlər. Ailə üzvləri bu göstərişə əməl etdilər. Yalnız Yaqub adlı oğlu qızılbaş papağını qoymadı. Mənbələrdəki məlumata görə, Yaqub, Sultan Heydərə bəslədiyi qısqanclıq üzündən bu papağı qoymadı. Uzun Həsənin vəfatından sonra Ağqoyunlu hökmdarı olanda isə Yaqubun Sultan Heydərə olan qısqanclığı düşmənçiliyə çevrildi (148).

Heç şübhəsiz ki, qızılbaş papaqları güclü ideoloji məzmuna malik idi. Əvvəla, bu papaqların ilkin dövrlərdə istifadəsi Səfəvi təriqəti tərəfdarlarının birliyinin və vəhdətinin nişanəsi idi. Bu papağı o insanlar qoyurdular ki, onlar mürşidlərinin fikir və baxışlarına etiqad bəsləyirdilər. Digər tərəfdən isə bu papaq onun sahibinin qoşulduğu mübarizənin dini etiqadla bağlı olmasının nümayişi idi. Bu papaqlar qızılbaşlara hər zaman islam müqəddəslərini xatırlatmaqla onların dini dəyərlər ətrafında mübarizəyə səfərbər olmasına sövq edirdi.

Bəzi məlumatlara görə, Sultan Heydərin şəhid olmasından sonra qızılbaş papaqlarının istifadəsinə diqqət bir qədər azaldı. Amma İsmayıl Səfəvi yeni dövlət qurulması istiqamətində öz hərəkatını başlayanda yenidən bu papaqlara diqqət artdı və ondan istifadə bir qədər də kütləviləşdi.

Ağqoyunlu hakimi Uzun Həsən 1478-ci ilin ilk günlərində 54 yaşında ikən dünyasını dəyişdi. Sultan Heydərin hərbi planlarını həyata keçirmək sahəsindəki fəaliyyəti Uzun Həsənin vəfatından sonrakı dövrə təsadüf edir. Sultan Heydər öz tərəfdarlarının dini və müqəddəs müharibələrə hazırlaşdırılması ilə məşğul olarkən atasının qisasının alınmasına istiqamətlənmiş döyüşlərin keçirilməsini özünün vəzifələrindən biri hesab edirdi. Amma çox güman ki, dayısının, qayınatasının və nəhayət hamisi Uzun Həsənin Şirvanşahlarla müəyyən münasibətlərə malik olması Sultan Heydəri Şirvana qoşun çəkməkdən çəkindirirdi. Amma Uzun Həsənin vəfatından sonra Ağqoyunlu dövlətinin yeni hakimi Sultan Yaqubla onun arasındakı münasibətlər xeyli gərginləşdi. Çox güman ki, Ağqoyunlu hakimləri ilə siyasi münasibətlərin gərginləşməsi Sultan Heydərə imkan verdi ki, daha çəkinmədən öz hərbi fəaliyyətinə başlasın.

Qeyd edildiyi kimi, Uzun Həsənin vəfatından sonra oğlu Sultan Xəlil Ağqoyunlu hakimi elan edildi. Lakin onun hakimiyyəti uzun sürmədi. Uzun Həsənin çoxsaylı oğlanları arasında hakimiyyət uğrunda başlayan didişmələr qısa müddətdən sonra Sultan Yaqubun hakimiyyətə gəlməsi ilə nəticələndi. Atasının vəfatından təxminən yarım il sonra, 1478-ci ilin iyul ayında Sultan

Yaqubun hakimiyyətə gəlməsi nəticəsində Ağqoyunlu sarayı ilə Səfəvi xanəgahı arasındakı münasibətlər gərginləşməyə başladı. Sultan Heydər Ağqoyunlu dövlətinin yeni hakimi olan Sultan Xəlilin bibisi oğlu və bacısının həyat yoldaşı olsa da Səfəvi xanəgahına qarşı atasının sağlığında olan münasibət tamamilə dəyişdi. Görünür elə buna görə də,1483-cü ildə Maku ətrafında Ağqoyunlu dövlətinə qarşı üsyan qalxanda Sultan Heydər və tərəfdarları Sultan Yaquba qarşı istiqamətlənmiş bu üsyanı dəstəklədilər. Bəzi məlumatlara görə, Sultan Heydər hətta öz nümayəndəsini üsyançıların yanına göndərərək onlarla iş birliyi qurmağa çalışdı. Bu isə sözsüz ki, Sultan Yaqubu heç də razı salmadı. Onun tələbi əsasında Təbrizə gələn Sultan Heydər bir daha belə mövqedə durmayacağı haqqında vəd verdikdən sonra sərbəst buraxıldı və o, yenidən Ərdəbilə döndü (149).

Sultan Yaqub və onun ətrafındakılar Sultan Heydərin hakimiyyət uğrunda mübarizəyə başlaya biləcəyindən çox narahat idilər. Əslində, bu narahatçılıq üçün onların əlində bir əsas da var idi. Çünki bir tərəfdən Sultan Heydər təriqət ətrafında çox böyük sayda insan toplaşmışdı. Yəni, o, çox böyük sayda insanın dini, mənəvi rəhbəri idi və bu insanlar öz mənəvi rəhbərlərinin göstərişlərini hər zaman həyata keçirməyə qabil olan bir qüvvə idi. Digər tərəfdən Sultan Heydər ana tərəfdən Ağqoyunlular sülaləsinə bağlanmaqla hakimiyyətə irsi iddiası olan zümrəyə mənsub idi və onun hakimiyyət iddiası müəyyən mənada haqlı görünə bilərdi.

**a) Sultan Heydərin Şirvana hücumu**

1483-cü ildə Sultan Heydər nəhayət ki, din uğrunda hərbi yürüşə başlamaq qərarı verdi və Şimali Qafqazdakı çərkəslərə qarşı vuruşmaq üçün Sultan Heydər Ağqoyunlu hakimindən icazə istədi. Sultan Heydərin bu icazəsi, əslində, Şirvandan keçib getməsinə yol verilməsi ilə bağlı idi. O istəyirdi ki, Sultan Yaqub məktubla Şirvanşah Fərrux Yasara müraciət etsin və ondan xahiş etsin ki, Səfəvi qoşunlarının Dərbənddən keçərək şimala adlamasına mane olmasın. Mənbə məlumatlarına görə, Fərrux Yasar Səfəvi qoşunlarının Dərbənddən keçərək şimala yollanmasına qarşı idi. Çünki Fərrux Yasar yaxşı bilirdi ki, bu yürüş uzun çəkə bilər və Şirvan əhalisinə zərərsiz ötüşməz. Bununla belə, Fərux Yasar Ağqoyunlu hakiminin verdiyi qərardan çıxa bilmədi və Sultan Heydərin qoşunları ilə Dərbənddən şimala adlamasına icazə verdi. "Aləmara-ye Əmini"yə görə, Sultan Heydər Dərbənddən keçmək icazəsini alan kimi dərhal qoşun toplanmasına başladı və 10 min nəfərlik bir dəstə hazırladı. Sonra da o bu qoşun dəstəsi ilə Dərbənddən keçməklə çərkəslər üzərinə hücum etdi (150).

"Tarix-i aləmara-yi Abbasi"də Sultan Heydərin din yolunda ilk müharibəyə başlaması belə təsvir olunur: "Əmir Həsən bəy səltənət taxtına vida etdi. [Əvvəlcə] oğlu Sultan Xəlil, ondan sonra isə Sultan Yaqub hökmdarlıq taxtına oturdular. Sultan Heydərin təbiətində dini müharibələr edərək savab qazanmaq meyli üstün olduğuna görə, öz xalası oğlu olan Sultan Yaqubun rəftarı o həz-

rətin könlünə yatmırdı. [Buna görə də] o, sufilərin əmirləri və Səfəviyyə sülasinin tərəfdarları ilə məsləhətləşərək, özünün dünyanı bəzəyən rəyi əsasında, sakinləri imandan xaric olan, cahillik və azğınlıq yolu ilə gedən Dağıstan tərəfə yürüş etmək və çərkəz kafirləri ilə dini müharibə etmək qərarına gəldi və saf sufilərin və təmiz etiqadlı mülazimlərin toplanması üçün ay kimi gəzən qasidlər göndərdi. Səmimi mücahidlər dəstə-dəstə onun calal və izzət cadırı ətrafında toplanaraq, böyük bir dəstə silah və yaraqla hazır oldu" (151).

Qeyd edildiyi kimi, Sultan Heydərin Şimali Qafqaza ilk yürüşü 1483-cü ilə təsadüf edir. Mənbələrdən məlum olan odur ki, Sultan Heydər bu yürüşə 10 min nəfərlik qoşunla yollandı və bu yürüş onun uğuru ilə başa çatdı. Nəticədə Sultan Heydər çoxlu sayda qənimət və əsirlər ələ keçirərək geri qayıtdı. Amma bu yürüşün necə həyata keçirilməsi, hücumun necə təşkil edilməsi barəsində mənbələrdə məlumat yoxdur. Böyük sayda Səfəvi qoşunlarının Şirvanşahlar ərazisində hansı marşrutla irəliləməsi haqqında da konkret fikir söyləmək çətindir. Görünür ki, Sultan Heydər çərkəslər qarşısında böyük qüvvə üstünlüyünə malik idi. Çünki çərkəslər Səfəvi qoşunlarının yaxınlaşmasını eşidəndə qaçıb dağıldılar və nicat tapmaq üçün yollar aradılar. Əlində silah müdafiə olunmağa çalışanlar isə təriqət döyüşçülərinin güclü zərbəsi ilə qarşılaşdılar və böyük itkilərə məruz qaldılar. Bu uğurdan ilhamlanan Sultan Heydər geri qayıdarkən Şirvanşah Fərrux Yasar üzərinə hücum edib atasının qisasını ondan almaq istədi. Amma Sultan Heydərin ətrafındakılar buna razı olmadılar. Bildirdilər ki, təriqət qoşunları həm yorulublar, həm də Şirvanşah qoşunları daha yaxşı silahlanıblar və onlara üstün gəlmək çox çətin ola bilər. Sultan Heydər də bununla razılaşıb Fərrux Yasarla döyüşə girmədən Ərdəbilə qayıtdı (152).

Sultan Heydər Ərdəbilə qayıdandan sonra yenidən şimal istiqamətində yürüşə çıxmaq fikrindən dönmədi. Onun atasının qisasını almaq planı hələ də həyata keçməmiş qalırdı. Bundan başqa din yolunda mübarizə onun müridlərinin vahid ideya ətrafında daha sıx birləşməsinə də təkan verirdi.

Sultan Heydərin şimala doğru daha bir dəfə də yürüş etməsi haqqında məlumatlar vardır. Amma bu yürüşün tarixi haqqında mənbələrdə və tarixi ədəbiyyatda müxtəlif məlumatlar mövcuddur. Məsələn, "Aləmara-ye Əmini" Sultan heydərin şərkəslər üzərinə ilk hücümündan (1483-cü ildə) danışandan sonra yazırdı ki, sonrakı il də Sultan Heydər həmin minvalla hərəkət etdi (153). Yəni, belə bir qənaət hasil olunur ki, Sultan Heydərin çərkəslər üzərinə növbəti hücumu 1484-cü ildə baş vermişdir. Bəzi tarixi ədəbiyyatda da Sultan Heydərin çərkəslər üzərinə ikinci hücumunun məhz 1484-cü ildə baş verdiyi qeyd edilir. Amma bəzi tarixi ədəbiyyatda isə bu hücumun 1486-cı ildə, 1487-ci ildə baş verməsi haqqında məlumatlar vardır (154). Səfəvilər tarixi haqqında mötəbər mənbələrdən sayıla biləcək "Tarix-i aləmara-yi Abbasi", "Aləmara-yi Şah İsmayıl" kimi əsərlərdə Sultan Heydərin çərkəslər üzərinə birinci və ikinci hücumu haqqında ümumiyyətlə ayrı-ayrılıqda məlumat verilmir. Bu mənbələr Sultan Heydərin çərkəslər üzərinə bir hücumu haqqında məlumat verirlər və bu məlumat da onun çərkəslər üzərinə ikinci hücumuna aiddir.

Bununla belə, məlumdur ki, Sultan Heydərin çərkəslər üzərinə ikinci hücumu da uğurla başa çatdı və bu hücumun təfərrüatı barəsində də mənbələrdə və eləcə də tarixi ədəbiyyatda məlumata rast gəlmək mümkün deyildir. Məlum olan odur ki, bu yürüşdə təriqət qoşunları 6 min nəfər əsir, çoxlu sayda qənimət ələ keçirdilər. "Aləmara-ye Əmini"nin yazdığına görə, bu yürüşdən sonra Sultan Heydərin nüfuzu iki qat artdı və ətraf bölgələrin hakimləri də bu uğurdan qorxuya düşdülər. Bu mənbədə o da bildirilirdi ki, Sultan Heydərin hakimiyyət uğrunda mübarizəyə başlamaq niyyətləri artıq heç kəsə gizli deyildi və məlum idi ki, gec-tez bu hadisə baş verəcəkdir (155).

Sultan Heydər çərkəslər üzərinə yürüş zamanı əldə etdiyi qənimətləri Ərdəbil əhalisi arasında bölüşdürdü. Hətta əsirlərin və kənizlərin bölüşdürülməsi haqqında da məlumatlar vardır. Amma qənimət əldə edən əhaliyə tapşırıldı ki, bu qənimətlər daha çox silahların hazırlanmasına sərf edilsin. Heç şübhəsiz ki, əldə edilmiş qənimətlərin əhali arasında bölüşdürülməsi onların təriqət ətrafında daha sıx birləşdirilməsi niyyətindən irəli gəlirdi.

Sultan Heydərin çərkəslər üzərinə ikinci hərbi yürüşünün də uğurla başa çatması Ağqoyunlu sarayında da təşvişlə qarşılandı. Bu yürüş barəsində ortaya çıxan fikir və mülahizələr Sultan Yaquba da çatdırıldı və o da əslində bu fikirlərə və təşvişlərə şərik çıxdı. Saray əyanlarının iştirakı ilə aparılan toplantılardan birində Sultan Heydərin hərbi yürüşlərə meyl göstərməsi və əldə etdiyi uğurlardan sonra nüfuzunun daha da artması məsələsi müzakirə olundu və qərara alındı ki, o, dərhal Təbrizə gəlsin və əməlləri ilə bağlı cavab versin. Sultan Heydər bu tələbi icra etmək məcburiyyətində qaldı. Çünki o hələ Ağqoyunlu hakiminə qarşı çıxmaq iqtidarında deyildi. Ona görə, bəzi məlumatlara görə əyninə nimdaş paltar geyinərək Təbrizə yollandı (156)

Sultan Yaqub öz qardaşı Sultan Xəlilin üzərində qələbə çalmaqla hakimiyyətə gəlmişdi və ona görə Sultan Heydərə qarşı da onun münasibəti heç də qohumluq əlaqələrinə görə deyil, Sultan Heydərin artan gücünə görə formalaşırdı. Gizli deyildi ki, Sultan Heydərin ətrafında çox böyük bir qüvvə formalaşıb və bu qüvvə Sultan Yaqubun hakimiyyəti üçün təhlükə törədə bilər. Ona görə də Sultan Yaqub Səfəvi təriqətinin rəhbərinə ehtiyatla yanaşırdı. Buna baxmayaraq, Sultan Yaqub Səfəvi şeyxinə qarşı sərt tədbirlərin həyata keçirilməsinə razı deyildi. Baxmayaraq ki, saray əyanlarının bir çoxu gələcək təhlükələrin qarşısının alınması üçün Sultan Heydərin, ümumiyyətlə, Ərdəbildən uzaqlaşdırılmasını, ətraf bölgələrdəki təriqət əhli ilə onun əlaqələrinin kəsilməsini, bu təriqət əhlinin Ərdəbil ilə əlaqələrinin qarşısının alınmasını və bununla təriqətin zəiflədilməsini istəyirdilər. Bu insanların fikrincə, Sultan Heydər, ümumiyyətlə, qoşun toplamaq, onları silahlandırmaq, hərbi yürüşlərə çıxmaq kimi hərəkətlərdən əl çəkməli və yalnız ilahiyyat işləri ilə məşğul olmalı idi (157).

Sultan Heydər bir neçə müridinin müşayiəti ilə Təbrizə gələrək Elxani hakimi Hüseyn Cəlayir şah tərəfindən tikdirilmiş təkyəgahda yerləşdi. Ağqoyunlu sarayının bir çox nüfuzlu əyanları onun ziyarətinə gələrək xeyir-duasını aldılar. Hətta Sultan Yaqub da Sultan Heydərə ehtiram əlaməti olaraq təkyəgaha

gəldi və onunla görüşdü. Səhəri gün isə onların arasında ciddi söhbət baş verdi və həmin söhbət zamanı təşvişə və narahatçılığa səbəb olan məsələlər müzakirə edildi. Qeyd edilməlidir ki, Ağqoyunlu saray tarixçisi Fəzlullah ibn Ruzbeh Xoncinin qələmə aldığı "Aləmara-ye Əmini" əsərində Sultan Yaqubun bu görüş zamanı Sultan Heydərə qarşı kifayət qədər təmkinlə yanaşdığını təsvir etmişdir. Onun yazdıqlarına görə, Sultan Heydərin cəzalandırılmasını və təcrid edilməsini tələb edən əyanlara onun cavabı belə oldu ki, bir şeyxin qoşun çəkməsi nəyə gətirə bilər, bir dərvişin əlindən nə gələ bilər ki? Sultan Yaqubun fikrincə, Sultan Heydər heç zaman əlini müsəlman qanına bulamamışdısa ona qarşı belə münasibətə ehtiyac yox idi. Sultan Yaqub sonra əyanlarına təklif etdi ki, əgər Sultan Heydərdən şübhələnirlərsə, ona and içdirin və o, itaət yolunu azmasın, heç vaxt müxalif yollar aramasın. Əks təqdirdə, əgər verdiyi sözdən baş qaçırarsa, bu söz onun başını saraya geri qaytarar (158). Yəni, onun başı vurularaq saraya gətirilər.

Tədqiqatçıların fikrincə, 1486-87-ci ildə baş verən bu görüşdə əyanlarının təkidinə baxmayaraq, Sultan Yaqub Sultan Heydərlə çox sərt davranmadı, məsləhətlə onu dövlətin maraqlarına aid olmayan işlərdən, hərbi yürüşlərdən uzaqlaşdırmağa çalışdı. Aparılan məsləhətləşmələr zamanı Sultan Heydərə hər hansı sərt cəza verilməsi məsələsi də Sultan Yaqub tərəfindən qəbul edilmədi. Sultan Heydər ilk baxışdan deyilənlərlə razılaşdı və hərb işindən çəkinərək dərvişliyi ilə məşğul olacağını bildirdi. Bu vədin icra olunacağına əminlik əldə etmək və Ağqoyunlu sarayının narahatçılığına son qoymaq üçün Sultan Heydər Qurana and içdirildi. Mövcud məlumata görə, andiçmə mərasimini qazı Səfiəddin İsa apardı. Bundan sonra Sultan Heydər mürəxxəs edildi və o, Ərdəbilə döndü. Verilən məlumata görə, Sultan Heydərin SultanYaqubla görüşündən sonra Təbrizdən Ərdəbilə dönüşü oğlu İsmayılın dünyaya gəlməsi günlərinə təsadüf edirdi (159). Başqa sözlə, bununla bir daha tarixi ədəbiyyatda Təbriz görüşlərinin 1487-ci ilə təsadüf etdiyi bildirilirdi.

"Alamara-ye Əmini" əsərinin müəllifinin yazdığına görə, Sultan Heydər dünyəvi işlərdən çəkinmək barədə and qəbul edəndən sonra böyük sevinclə Ərdəbilə qayıtdı. Müəllifin mülahizələrindən belə bir qənaətə gəlmək mümkündür ki, Sultan Heydər sağ-salamat geri qayıtdığı üçün belə sevinirdi. Çünki onun qəbul etdiyi anda sadiq qalacağı haqda heç onun özündə də əminlik yox idi. Mənbədə o da göstərilir ki, Sultan Heydər əhdə sadiq qalmağa meylli deyildi və buna görə bildirilirdi ki, o, din padşahı kimi, yəni dünyəvi işlərdən kənar qalmaq istəmirdi. "Tarix-i aləmara-yi Abbasi" isə bunu Sultan Heydərlə Sultan Yaqub arasında münasibətlərin yaxşı olmaması ilə əlaqələndirirdi. Mənbənin qeyd etdiyi kimi, Sultan Yaqub onun dini müharibələr aparması ilə razı deyildi ki, Sultan Heydər də bunu qəbul etmirdi (160). Ona görə də, gözlənildiyini əksinə olaraq Sultan Heydər Ərdəbilə döndükdən sonra hərbə meylini heç də tərk etmədi və əksinə, hərbə hazırlıqlarını davam etdirdi. Bu hazırlıq həm Ərdəbil daxilində, təriqət əhli arasında aparılırdı, həm də Ərdəbildən kənar olan təriqət əhli arasında aparılırdı. Bununla bağlı, Sultan Heydər Ərdəbilə qayıtdıqdan

sonra öz müridlərini və xəlifələrini kənar bölgələrə yolladı ki, həmin bölgənin təriqət əhli arasında iş aparılsın və onlar hərbə cəlb edilsinlər. Görülən işlərin nəticəsində, Sultan Heydərə sədaqətli olan insanlar dəstə-dəstə Ərdəbilə axışmağa başladılar və qısa müddət ərzində Ərdəbildə böyük bir qüvvə toplandı. Bundan sonra Sultan Heydər Dağıstan istiqamətinə hücum haqqında konkret tədbirlər görməyə başladı. Səfəvi mürşidi tərəfindən yenidən kafirlərlə müqəddəs müharibə aparılması ideyası bəyan edilsə də, onun, əslində, Şirvanşahlar dövləti üzərinə hücum planları da var idi ( 161).

### b) Sultan Heydəri n Şirvanşah Fərrux Yasarla döyüşü

Şirvan və Dağıstan istiqamətlərində hərbi yürüş üçün lazımi hazırlıqları görəndən sonra Sultan Heydər özbaşına yürüşə başlamaqdan çəkindi. Çünki Ağqoyunlu dövlətinin çoxsaylı və güclü qoşunlara malik olması, habelə Ağqoyunlu ilə Şirvanşahlar arasında müttəfiqlik və qohumluq əlaqələrinin olması onu kimsə ilə hesablaşmadan yenidən yürüşə başlamaqdan ehtiyatlandırdı. O, şübhə etmirdi ki, Ağqoyunlu Sultan Yaqub onun bu yürüşünə icazə verməyəcəkdir. Qəbul etdiyi andın saymazcasına pozulması isə Sultan Heydərə fayda gətirməzdi. Ona görə Sultan Heydər bir daha Dağıstan kafirləri ilə mübarizə adı altında şimala hərbi yürüş həyata keçirilməsinə icazə almaq qərarına gəldi. Amma bunun üçün özü birbaşa Sultan Yaqubla əlaqə yaratmaqdan ehtiyat etdi və bu işi anası Xədicə bəyimə həvalə etdi. Sultan Heydər ehtimal edirdi ki, Sultan Yaqub bibisinin sözündən çıxmaz və qızılbaş qoşunlarının Dağıstan istiqamətində irəliləməsinə etiraz etməz. Bu məqsədlə Xədicə bəyim məqamı yetişəndə, yəni 1488-ci ilin əvvəllərində Sultan Yaqubun görüşünə yollandı və onu Qumda tapdı (162).

Sultan Yaqub Təbrizə Sultan Heydərlə görüşəndən sonra yolunu yay düşərgəsinin yerləşdiyi Səhəndə saldı. Bir müddət burada qaldıqdan sonra Ucandan keçməklə Təbrizə qayıtmaq istədi. Amma elə burada Təbrizə taun xəstəliyinin yayılması xəbərini aldı. Belə olanda Sultan Yaqub dövlətinin paytaxtına dönmədi və Sərabla Ərdəbilə üz tutdu. Onun Ərdəbildə olduğu zaman Səfəvi təkyəgahında olub-olmaması, Sultan Heydərlə görüşüb-görüşməməsi haqqında mənbələrdə hər hansı bir məlumat yoxdur. Çox güman ki, Sultan Yaqub Ərdəbildə yalnız yolüstü olmuşdu. Sonra Ağqoyunlu hakimi Quma yollandı. Bir müddət vaxtını bu şəhərdə keçirəndən sonra o, İsfahana gəldi və 1488-ci ilin sonlarında yenidən Quma qayıtdı. Sultan Heydərin anası Xədicə bəyimin Sultan Yaqubla görüşü də burada baş verdi (163).

Görünür, Sultan Heydər anası vasitəsilə Sultan Yaqubu onun şimala hərbi yürüşünün yalnız dini məqsəd daşımasına, kafirlərin dinə gətirilməsi üçün hərbi yürüşün əhəmiyyətinə inandıra bilmişdi. Çox güman ki, Sultan Yaqubu bu yürüşə razılıq verməsinə sövq edən başqa səbəblər də var idi. Məsələn, müttəfiqi və qayınatası Fərrux Yasarın hakimi olduğu Şirvanşahların şimal sərhədlərinin təhlükəsizliyinin daha yaxşı təmin edilməsi istəyi. Hər halda Xədicə bəyimlə

görüşündən sonra Sultan Yaqub həm Sultan Heydərin şimala yürüşünə icazə verdi, həm də Şirvanşah Fərrux Yasara məktub yazaraq onu təriqət qoşunlarının Dərbənddən şimala adlamasına izacə verməyə çağırdı. Sultan Heydər şimala hərbi yürüş üçün Sultan Yaqubun razılığının alınmasından çox razı qaldı və dərhal da hərbi yürüşə hazırlığını tamamlamağa başladı. Sonra da ətrafındakı müridləri ilə birlikdə şimala doğru hərəkətə başladı. Onun ardınca ətraf bölgələrdə toplanan qoşun dəstələri də Şirvana toplaşmağa başladılar (164).

"Aləmara-ye Əmini" bildirir ki, su kənarına çatanda onun bayrağı altında artıq qoşun dənizi var idi. Müəllif konkret açıqlamasa da, çox güman ki, burada Kür çayına işarə edilirdi. Çünki başqa mənbələrdə təriqət qoşunlarının Kür çayını adlamasına işarə olunmuşdur. Sonra da bu qoşun dənizinin kimlərdən təşkil olunmasına işarə edilirdi və deyilirdi ki, saysız-hesabsız talış göypaltarlıları, Siyahkuh qarabəxtliləri, Şamlı qaragünlüləri bu bayraq altında toplaşmış və qənimətlər ələ keçirmək üçün yola düşmüşdülər. "Aləmara-ye Əmini"yə görə, qoşunlar Bərdəyə məxsus olan Çiləbörd vilayətinə yetişəndə qarət və talanlarla məşğul olmağa başladılar (165).

Məlumdur ki, məhz bu yürüş zamanı Sultan Yaqubla Sultan Heydərin münasibətləri barışmaz düşmənçilik xarakteri aldı və son nəhayətdə Sultan Heydər də dünyasını dəyişməli oldu. Ona görə mümkündür ki, təriqət qoşunlarını talanla məşğul olmasını qabartmaqla "Aləmara-ye Əmini" müəllifi mənsub olduğu Ağqoyunlu sarayının təriqət qüvvələrinə qarşı mövqeyindən çıxış edirdi və bununla da Sultan Heydərə qarşı sərt mövqe tutulmasına haqq qazandırmaq istəyirdi.

"Əhsənüt təxarix" əsərində olan məlumat görə, Sultan Heydərin Şirvan üzərinə hücum etməsinə icazə verilməsi həm də Sufi Xəlil adlı Ağqoyunlu əmirinin Gürcüstan üzərinə hücumunun uğursuzluğa düçar olması ilə bağlı idi. Bildirilir ki, Sultan Yaqub bu uğursuzluqdan xəbər tutanda Sultan Heydərdən ona kömək göstərməsini istədi. Sultan Heydər Şirvana doğru yürüşü zamanı Kür çayı yaxınlığında iki ay düşərgə saldı və müxtəlif bölgələrdən təriqət dəstələrinin gəlib yetişməsini gözlədi. Bildirilir ki, sufi bayrağı altına 6 min nəfərlik qoşun dəstəsi toplandı və sonra bu qoşun dəstəsi Kür çayını adlayaraq Mahmudabad məntəqəsi ətrafına toplaşdı. Təriqət qoşunları burada yerli əhalinin müqaviməti ilə rastlaşdılar və belə olanda həmin əhaliyə qarşı güc işlədilməsinə qərar verildi. Nəticədə çoxlu sayda insan qətlə yetirilməklə, çoxlu sayda qənimət də ələ keçirildi. "Əhsənüt təvarix"ə görə, Mahmudabad ətrafında baş verən qarşıdurmadan sonra Şirvanşah Fərrux Yasar təriqət qoşunlarının bu əməllərinə öz münasibətini nümayiş etdirdi. Dərhal öz elçisini Sultan Yaqubun yanına göndərdi və ona çatdırdı ki, Sultan Heydərin Şirvana qoşun çıxarmaqda əsas məqsədi bu ölkəni tutmaqdır. Sonra onu da çatdırdı ki, əgər Sultan Yaqub Şirvanı tutsa, onda Azərbaycanın tutulması da istisna deyildir. Ona görə Şirvanşah Fərrux Yasar Ağqoyunlu hakimindən hərbi yardım istədi ki, bu yardımın köməyi ilə Sultan Heydərin qarşısını ala bilsin: "Bu il (1488-ci il nəzərdə tutulur – M.S.) Sultan Heydər Səfəvi Şirvan tərəfə qoşun çəkdi. Çünki cihad etmək

üçün Gürcüstana getmiş Sufi Xəlil məğlubiyyətə uğramış, çadırını və alaçığını ataraq Şirvan tərəfə getmişdi. Bu xəbər Yaqub padşaha çatdıqda, o həzrətin yanına qasidlər göndərib xahiş etdi ki, Sufi Xəlilə kömək etsin. Ona görə də Sultan Heydər bəla kimi bir ordu ilə o diyara hərəkət etdi və Sufi Xəlilin ordugahının yaxınlığında cah-calalla yerləşdi. Sufi Xəlilin ürəyini tamamilə qorxu bürüdü və onunla görüşməyi məsləhət görmədi. Buna görə də o həzrət Şirvana yola düşdü və Kür çayı kənarında məskən saldı. Təqribən iki ay həmin yerdə qaldı və altı min nəfər səf yaran sufi onun qələbə ayətli bayraqlarının kölgəsində toplandı. O mənzildən köç edib, çaydan keçərək Şirvan tərəfə tələsdi. Mahmudabadın ətrafı qələbə şüarlı əsgərlərin dayanacaq yerinə çevrildikdə, o diyarın camaatı müxaliflik etməyə başladılar. Qəhredici qəhrəman o diyarın camaatının qətlinə fərman verdi. Qısa zaman ərzində Ceyhun çayı kimi qan arxı axmağa başladı. Əcəl dəllalı kiçiyi və böyüyü, cavanı və qocanı bir qiymətə satırdı. Qəzəb atəşində kişi və qadın, varlı və yoxsul təfavütsüz yanırdı. Xülasə, o diyarda sakin qalmadı "(166).

Başqa bir məlumata görə isə, təriqət qoşunları Kür çayını adladıqdan sonra Sultan Heydər elçisini Şirvanşahın yanına göndərdi. Bu elçi ona çatdırmalı idi ki, təriqət qoşunları çərkəslərlə cihad aparmaq üçün şimala doğru irəliləyir və Sultan Yaqubun fərmanına əsasən Fərrux Yasar Dərbənd qapılarını onun üzünə açmalıdır. Güman edilir ki, bu elçini göndərməklə Sultan Heydər həm də Şirvanın vəziyyəti, bu dövlətin hərbi gücü haqqında məlumat toplamaq istəyirdi. Amma bu zaman bölgədə əmin-amanlıq olduğu üçün Şirvanşah tərəfindən qoşunlar evlərinə buraxılmışdı və ona görə Şirvanşahın sarayı ətrafında çox az sayda silahlı qalmışdı. Bunlar da qoşun başçları, əmirlər və digər əyanlar idi. Sultan Heydərin elçisi Şamaxıya yetişən zaman Fərrux Yasar övladlarından bəzilərinə toy çaldırırdı və ona görə şəhərdə də yüksək əhval-ruhiyyə mövcud idi. Fərrux Yasar da belə bir xoş əhval-ruhiyyə içərisində idi və ona görə sufi elçisini yaxşı qarşıladı, ona at, silah və digər hədiyyələr bağışladı və sonra da öz elçilərinin müşayiəti ilə onu hörmətlə yola saldı. Bu elçinin verdiyi məlumatlardan Sultan Heydər belə bir qənaətə gəldi ki, Şirvanı ələ keçirmək üçün münasib şərait yaranmışdır və bu fürsətin əldən verilməsi düzgün deyildir. Sultan Heydər göndərdiyi elçi ilə birlikdə onun yanına gəlmiş Fərrux Yasarın elçisini kobudluqla qarşıladı, onu acıladı və onun yanında Fərrux Yasar haqqında da təhqiredici sözlər işlətdi. Sultan Heydər bəyan etdi ki, atasının intiqamını almaq üçün Şirvana qoşun çəkibdir və bildirdi ki, neçə gündən sonra öz qoşunları ilə artıq Şamaxıda olacaqdır (167).

Elçisi vasitəsilə aldığı xəbər Fərrux Yasarı çox təşvişə saldı və bildirilir ki, onun qısa zaman ərzində qoşun toplamaq imkanı olmadığı üçün müdafiənin təşkili üzərində düşünməyə başladı. Ailəsini və yaxınlarını yaxınlaşmaqda olan təhlükədən xilas etmək üçün Fərrux Yasar onları Gülüstan qalasına köçürdü. Bundan sonra Şamaxının da qala divarlarının möhkəmləndirilməsi üçün mümkün tədbirlər görüldü. Ancaq lazımi müdafiə tədbirlərinin görülməsi başa çatmamış sufi qoşunları Şamaxı divarları ətəklərinə yetişdilər. Mənbələrdə bil-

dirilirdi ki, sufi döyüşçüləri abi rəngdə olan xirqələrinin üstündən zireh geymiş və başlarına da ağ-qırmızı rəngi əks etdirən papaq qoymuşdular. Məlumata görə, sufi qoşunları Şamaxı ətrafında sanki dəniz kimi dalğalanırdı. "Aləmara-ye Əmini"nin yazdığına görə, Şamaxı ətrafında son dərəcə gərgin bir döyüş keçdi. Mənbədəki məlumata görə, bu döyüş zamanı elə bir toz-duman qalxdı ki, hətta günəşi belə görmək mümkün deyildi, döyüş meydanını qılıncların tiyələrinin parıltısı işıqlandırırdı. Bu mənbədə Sultan Heydər tərəfindən Şamaxı əhalisinə qarşı xeyli amansızlıq törədildiyi bildirilir və qeyd olunurdu ki, Şamaxı şəhəri qan kasasına çevrilmişdi, Şamaxı şəhərində qətliam törədildi və bu şəhərdə öldürülən insanların qanı Kür və Araz çayı kimi axırdı. Hətta o da bildirilir ki, sufi qoşunları insan qanının çay kimi axmasına qane olmayaraq bütün şəhərə od vurdular.(168). Qeyd edilməlidir ki, bu mənbədə sufi qoşunlarının amansızlığı xüsusi olaraq qabardılmışdır və digər mənbələrdə sufi qoşunlarının belə amansızlığı haqqında təəccüb yaradacaq məlumatla qarşılaşmaq çətindir.

"Aləmara-ye Əmini"də sufi qoşunlarının təchizatı ilə bağlı maraqlı məlumat mövcuddur. Mənbədə qeyd edilir ki, Şamaxı şəhəri ələ keçiriləndən sonra sufi qoşunları Gülüstan qalasını mühasirəyə aldılar və qalanın mühasirəsində toplardan və mancanaqlardan istifadə etdilər (169). Əgər verilən məlumat doğru olarsa, deməli sufi qoşunlarının ixtiyarında toplar da var idi. Bu isə ondan xəbər verir ki, əvvəla sufi qoşunları kifayət qədər ciddi təchizata malik idi. Digər tərəfdən bu topları və eləcə də mancanaqları işlədəcək mütəxəssislər də sufi qoşunlarında mövcud idi.

"Tarix-i aləmara-yi Abbasi" əsərində Sultan Heydərin Şirvana qoşun çəkməsi belə təsvir olunmuşdur: "O həzrət (Heydər) məqsədə doğru irəliləmə bayrağını qaldırdı. Dəstələrin izdihamı və cəsur qoşunun keçiş səs-küyü Sultan Xəlilin oğlu olan Şirvanşahın səltənət bünövrəsini silkələdi. [Şirvanşah] fikirləşdi ki, Sultan Heydər atasının qanını almaq və Şirvanı tutmaq istəyəcəkdir. O, «dostluq irsən keçir, kin də irsən keçir» kəlamında deyildiyi kimi, o həzrətə (Heydərə) qarşı kin və düşmənçilik göstərdi. Lakin [Heydərin] qaniçən qoşununun qarşısında müqavimət göstərmək Şirvanşahın qüvvət və qüdrət dərəcəsinin xaricində olduğuna görə o, öz kürəkəni olan Sultan Yaqubun yanına bir-birinin ardınca səba [küləyi kimi] gedən qasidlər göndərdi və xəbər verdi ki, «Sultan Heydərin zahirən çərkəzlərə qarşı qəzavata getdiyinə baxmayaraq, mümkündür ki, Dərbənd və Təbərsəran hüduduna çatdıqda atının cilovunu Şirvan tərəfə çevirib, bu ölkəni almaq [üçün] bayrağını qaldırsın. İndi ki heç bir məmləkət [Sultan Heydərin] ixtiyarında olmadığı halda, o, müharibəyə can atan bir qoşun toplayıbdır, həmin vilayət (Şirvan) onun calal və şəninə tab gətirə bilməz. Əgər [Sultan Heydər] belə bir ölkəyə sahib olarsa, belə kiçik bir sahəyə qane olmayacaqdır və ölkə zəbt etmək qapıları onun arzusuna daha açıq olacaqdır». Sultan Yaqub o sərvərlik səmasının günəşinə (Heydərə) qarşı kin və ədavət bəslədiyindən, qohumluq tellərini qırmağı mümkün və münasib bilərək, öz kinli ürəyində dünyada bədnam olmaq və axirətdə köməksiz qalmaq toxumu əkdi" (170).

Tarixi ədəbiyyatda olan məlumata görə, Fərrux Yasar Gülüstan qalasına sığındığı vaxt onun bəzi əmirləri qoşun dəstələri ilə bilikdə qaladan kənarda qalmışdılar. Bu əmirlər qızılbaş qoşunlarına qarşı Gülüstan qalasının daxilində və xaricində qalan qoşunların eyni vaxtda hücumunu təşkil etmək üçün Fərrux Yasarın yanına məktub vasitəsilə çapar göndərdilər. Amma bu çapar qızılbaşlar tərəfindən ələ keçirildi və Şirvanşah əmirlərinin planı qızılbaşlara bəlli oldu. Bu planın icrasına yol verməmək üçün qızılbaşlar Gülüstan qalasından kənarda qalan əmirlərin qoşun dəstəsi üzərinə hücum etdilər. Bu dəstəyə güclü zərbə vuruldu. Fərrux Yasar isə qızılbaş qoşunlarının Gülüstan qalasından uzaqlaşmasını onları geri çəkilməsi kimi qiymətləndirdi və qoşun dəstəsi ilə qalanı tərk etdi. Amma qaladan bir qədər uzaqlaşdıqdan sonra qızılbaş qoşunları ilə qarşılaşdı və Gülüstan qalasına qayıtmaq mümkün olmadığı üçün "Sülut" qalasına sığındı. Bildirilir ki, bundan sonra qızılbaş qoşunları Şamaxı ətrafını tərk edərək Dərbəndə doğru istiqamət götürdü (171).

Mənbələrdən bəlli olur ki, Şamaxı ətrafında döyüşlər gedərkən Fərrux Yasar bir-birinin ardınca bir neçə çaparı Sultan Yaqubun yanına göndərərək ondan kömək istədi. Çünki bu təhlükədən qurtarmağın yeganə yolu yalnız əlavə köməyə bağlana bilərdi. Fərruz Yasar öz məktubunda bildirdi ki, Sultan Heydər böyük sayda qoşun toplayaraq Dərbəndə yollanmaq adı ilə bizim tərəfə üz tutmuşdur. Onun sözlərinə görə, əgər o bu əraziləri tutsa, onda onun başqa ərazilərə sahib olmaq niyyəti də istisna olmayacaqdır. Bununla, həm də Ağqoyunlu dövlətini gözləyən təhlükəyə işarə edilirdi (172).

"Əhsənüt təvarix" əsərinin müəllifi Həsən bəy Rumluya görə, Şirvanşah Fərrux Ağqoyunlu hakiminə göndərdiyi məktubunda yazırdı ki, Sultan Heydər ölkə tutmaq adı altında çoxlu qoşun toplayaraq Şirvana gəlmişdir. Onun fikrincə, əgər sufi şeyxi Şirvanı tutsaydı, sonradan Azərbaycanı ələ keçirmək həvəsinə də düşə bilərdi. Ona görə də Fərrux Yasar xahiş edirdi ki, imkan varsa onun köməyinə qoşun dəstəsi göndərsin və həmin qoşunun köməyi ilə qızılbaş qoşunlarına müqavimət göstərilsin. Bu məktub Sultaniyyə yaxınlığındakı Gözəldərə yaylağında Sultan Yaquba çatdırıldı. Sultan Yaqub da bu xəbərdən ciddi təşvişə düşdü və dərhal da müvafiq tədbirlərin görülməsinə başladı: “O zaman şirvanşah olan Fərrux Yəsar ibn Xəlilulla bu hadisədən qorxuya düşüb, Yaqub padşahın yanına adam göndərərək bildirdi ki, “Sultan Heydər ölkə tutmaq bayraqlarını qaldırıb, zəfər əlamətli qızılbaş qoşunu ilə Şirvana gəlmişdir. Əgər o, bu məmləkəti ələ keçirsə, Azərbaycanın [digər] məmləkətlərinə də [yiyələnməyə] həvəs göstərəcəkdir. Münasib odur ki, səltənət yuvası olan astananın igidlərindən [ibarət] bir dəstəni bu dövlətsevərin köməyinə göndərəsiniz ki, mən bəndə o camaatla birlikdə qızılbaşların qarşısına çıxaraq, can alan nizə və ağır gürz işlətməklə onların qoşununun damarını qoparım”. Yaqub padşah bu xəbəri eşitdikdən sonra ordusunun sərdarlarından olan Süleyman bəy Bicəni dörd min nəfər döyüşkən süvari ilə Şirvanşaha köməyə göndərdi və adı çəkilən şəxsə (Fərrux Yəsara) Sultan Heydərlə müharibəyə icazə verən cəlbedici bir məktub (istimalətnamə) göndərdi” (173).

"Alamara-ye Əmini"yə görə, Sultan Yaqub bu xəbəri eşidəndən sonra fiqh sahibləri ilə məsləhətləşdi və sufi şeyxinə qarşı qoşun göndərilməsinin şəriətə uyğun olub-olmamasını araşdırdı. Heç şübhəsiz ki, Sultan Heydər sufi təriqət rəhbəri kimi, bölgədə böyük nüfuz sahibi idi və ona görə ona qarşı qoşun çıxarmazdan əvvəl Sultan Yaqub bu əməlin nə nəticə verə biləcəyinə ehtiyatla yanaşdı. Fəqihlər müzakirə və məsləhətləşmələrdən sonra belə qərara gəldilər ki, Sultan Heydər Şirvana doğru hərəkət etməklə öz vədinə xilaf çıxıb, Çiləbörd ətrafında əhalinin talan edilməsinə razılıq verməsi ilə şəriətə zidd hərəkət edib və bu hərəkətə görə ona cəza verilməsi şəriət normalarına uyğundur.

Səfəvi tarixi araşdırmaçılarının işıq üzü görmüş əsərlərində Sultan Heydərin Şirvana sonuncu səfəri haqqında yekdil bir mənzərə mövcud deyildir. Bu da heç şübhəsiz ki, mənbələrdə olan məlumatların müxtəlifliyindən irəli gəlir. Məsələn, "Aləmara-yi Şah İsmayıl" əsərində Sultan Heydərin Şirvan yürüşü, bu yürüş zamanı Şirvanşahla Ağqoyunlu hakimi arasındakı fəaliyyət birliyi haqqında məlumat digər mənbələrə nisbətən xeyli fərqlidir. Bu mənbənin məlumatına görə, Sultan Yaqubla Sultan Heydər arasında əvvəldən düşmənçilik mövcud idi və Sultan Heydər də atasının qisasını almaq üçün Şirvana yürüş etmişdi. Bu əsərdə sufi şeyxinin Şirvandan keçməklə şimala doğru irəliləməsi və bunun üçün Sultan Yaqubun razılığının alınması haqqında heç bir məlumat yoxdur. Əksinə, bildirilir ki, qızılbaş qoşunlarının Şirvana hücum etməsi haqqında məlumat alan kimi, Sultan Yaqub öz çaparını Şirvanşahın yanına göndərdi və onu qızılbaş qoşunlarının hücumu ilə bağlı xəbərdar etdi. Bu mənbəyə görə, Sultan Yaqubun məktubunda deyilirdi ki, Sultan Heydər səninlə müharibəyə gəlir, ona qarşı elə bir tədbir gör ki, onun müridlərini qırasan. Hətta Sultan Yaqub onu da vəd edirdi ki, əgər bu işi görə bilsən, sənin qızınla evlənərəm və səninlə qohum olaram (174).

Qeyd edilməlidir ki, qızılbaş qoşunlarının Şirvana yürüşü zamanı Sultan Yaqıb artıq Şirvanşah Fərrux Yasarın qızı Gövhər sultanla evlənmişdi və bu evlilikdən sonradan Ağqoyunlu hakimləri olmuş iki oğlu - Baysunqur və Murad dünyaya gəlmişdilər (175).

Qzılbaş qoşunlarının hücum xəbərini alandan sonra Fərrux Yasar da ("Aləmara-yi Şah İsmayıl"da səhv olaraq Xəlilullah göstərilmişdir) Sultan Yaqubdan kömək istədi. Ona çatdırdı ki, sonradan Sultan Heydərin qanının qisasının tələb edilməməsi üçün Sultan Yaqub da Şirvana qoşun dəstəsi göndərsin. Yəni, onlar qızılbaş qoşunlarına qarşı birgə müqavimət göstərsinlər. Bununla, Şirvanşah gələcəkdə Sultan Heydərə görə ona qarşı irad tutulmayacağına arxayın olmaq istəyirdi. Sultan Yaqub da bu təkliflə razılaşdı və Şirvanşahın yardımına özünün qoşun dəstəsini göndərdi (176).

Sultan Yaqub yaxınları ilə məsləhətləşərək Şirvanşahın köməyinə qoşun dəstəsi göndərmək qərarına gəldikdən sonra qoşunlara hazırlıq əmri verdi. Əvvəlcə, eşikağası Vəli ağanın rəhbərliyi altında 60 nəfərlik avanqard dəstəsi Gözəldərə yaylağından Ərdəbil istiqamətinə hərəkətə başladı. Bu dəstəyə Ağqoyunlu qoşunlarının seçmə döyüşçüləri daxil edilmişdilər. Avanqard dəstənin

ardınca Sultan Yaqub da Gözəldərədən Ərdəbilə doğru hərəkətə başladı və 1488-ci il iyun ayının 7-də Ərdəbil ətrafına yetişdi. Sultan Yaqub Ərdəbil xanəgahında yerləşdilər. Bu zaman onun bibisi Xədicə bəyim və bacısı Aləmşah bəyim Sultan Heydərin övladları olan Əli, İsmayıl və İbrahimlə həmin xanəgahda qalmışdılar. Sultan Yaqub bir həftə burada qaldı və Ərdəbildə ikən Şirvana qoşun göndərilməsinin hazırlıqlarını davam etdirdi. Ola bilsin ki, Sultan Heydər Ərdəbil əhalisinin ona qarşı narahatlıqlar yaşamasından ehtiyat edirdi. Ona görə göstəriş verdi ki, qoşun hazırlıqları zamanı əhaliyə dəyən ziyanlar bütünlüklə xəzinə hesabına ödənilsin. Qoşun hazırlıqları aparıldığı zaman Vəli ağanın rəhbərliyi altında olan avanqard dəstə Cavada qədər irəlilədi və orada düşərgə saldı. Bundan sonra Sultan Yaqub özü də Ərdəbili tərk etdi və Şirvan istiqamətində Ərdəbildən bir günlük məsafəyə gələrək orada düşərgə saldı. Burada Şamaxı ətrafında gedən döyüşlər haqqında daha geniş məlumat əldə etdikdən sonra Sultan Yaqub göstəriş verdi ki, Süleyman Bicənoğlunun və Sultan Yaqubun oğlu İbrahimin rəhbərliyi altında Ağqoyunlu qoşunu Şirvana doğru hərəkətə başlasın(177).

Şirvanşah Fərrux Yasarın köməyinə göndərilən Ağqoyunlu qoşun dəstəsinin sayı barəsində mənbələrdə və tarixi ədəbiyyatda müxtəlif məlumatlar vardır. Mənbələrdə daha çox bu qoşun dəstəsinin 4 min nəfərdən ibarət olması xatırlanır (178). "Aləmara-yi Şah İsmayıl" əsərində isə bu qoşun dəstəsinin sayının 10 min nəfər olduğu göstərilir. Həmin mənbədə bildirilir ki, Şirvanşah eyni zamanda Təbərsəran hakiminə müraciət edərək ondan da hərbi kömək istədi və o da Fərrux Yasarın sərəncamına 5 min nəfərlik qoşun dəstəsi göndərdi. Nəticədə Şirvanda qızılbaş qoşunlarına qarşı vuruşmaq üçün 40 min nəfərlik müttəfiq qoşunları toplandı (179).

Həmin qoşunların Şamaxıya doğru irəliləməsi xəbəri Sultan Heydərə çatdırılanda o öz planlarında dəyişiklik etdi və Şamaxıdan uzaqlaşmağı qərara aldı. Çünki onun birləşmiş qoşunlara lazımi müqavimət göstərməyə qadir olan qüvvəsi yox idi. Bəzi mənbələrə görə, Sultan Heydər Şəki yolundan keçməklə Dərbəndə doğru hərəkət etdi. "Tarix-i aləmara-yi Abbasi" əsərində müttəfiq qoşunlarının Şirvan daxilindəki hərəkəti və bu qoşunların qızılbaş qoşunları ilə qarşılaşması aşağıdakı kimi təsvir olunmuşdur: "[Sultan Yaqub] Süleyman Bicənoğlunu dörd min atlıdan ibarət qaniçən türkman qoşunu ilə Şirvanşahın köməyinə göndərdi. Şirvanşah, Sultan Yaqubun köməyinə arxalandığına görə Şamaxı ətrafında türkman və Şirvan əsgərlərindən böyük bir qoşun toplandı. Amma Sultan Heydər cəsarətli dini müharibələr edən qazilərlə Şirvanın şimal tərəfində olan Şəki yolu ilə o ərazilərə gəldi. Müzəffər qoşun keçərək, Dərbənd qalasının yanına çatdı. O (Dərbənd), dünyanın abad şəhərlərindən biridir. Babüləbvab adıyla məşhurdur. Onun qalası İsgəndər səddi kimi asimana çatan, öz möhkəmliyi ilə məşhur olan divardır. Dillərdə, ağızlarda deyilir ki, onun hər bürcü fələyin bürclərinə bərabər, gözətçisi isə yüksək səmada oturanlarla dilbir və baş-başadır. Oranın əhalisi inadkarlıqla rəftar edərək, [qızılbaş] qoşununa qarşı təcavüz əli uzatdılar. O iqbal sahibinin (Heydərin) öhdəsinə o azmış

camaatı cəzalandırmaq vəzifəsi düşdü. [O], qazilərə şəhəri və qalanı almağı əmr etdi. Rəşadət sahibləri qalanı almağa çalışaraq, o möhkəm qalanın bünövrəsini sarsıtdılar. Az qalmışdı onu ələ keçirsinlər ki, Heydəri sülaləsinin tərəfdarlarından biri Qara Piri Qacar arxadan gəlib xəbər gətirdi ki, türkman ordusundan bir dəstə sudan keçib, Şirvanşah da Şirvan əsgərləri ilə onlara qoşulub, qalib qoşunlarla hərb etmək niyyətindədirlər. O kinli dəstənin yaxınlaşması xəbəri bir-birinin ardınca yetişdi. Dinpərvər sultan (Heydər) qalanın mühasirəsindən əl çəkib, o çirkin camaatla döyüşə hazırlaşdı. Sözün qısası, Təbərsəran hüdudunda o iki qaniçən qoşun bir-birilərinə yetişdilər, qoşun hazırlığına başlayaraq, vuruşma üçün səf çəkdilər. Müharibə odu elə alovlandı ki, dost və düşməndən bir çoxunun həyat xırmanını yandırdı" (180).

Bəzi məlumatlara görə, Ağqoyunlu və Şirvan qoşunlarının birgə hərəkəti xəbərinin almazdan qabaq Sultan Heydər artıq Dərbənd ətrafında idi və bu qalanın alınması üçün döyüş aparırdı. Yuxarıda qeyd edildiyi kimi, qızılbaş qoşunlarının ixtiyarında mancanaqlar da var idi və bu mancanaqlar qala divarlarının ələ keçirilməsini asanlaşdırmalı idilər. Qızılbaş qoşunlarının döyüşkənliyi nəticəsində Dərbənd qalasının güclü bürclərindən birini ələ keçirmək də mümkün olmuşdu. Divarların və şəhərin də bir hissəsinin ələ keçirilməsi haqqında məlumat vardır. Bir sözlə, Dərbənd qalası üzərinə hücum zamanı döyüş təşəbbüsü qızılbaş qoşunlarının əlinə keçmişdi. Elə bu əsnada Sultan Heydərə birləşmiş qoşunların onun üzərinə hərəkət etməsi barəsində xəbər verildi və Sultan Heydər də görünür, Dərbənd ətrafını birləşmiş qoşunlara qarşı döyüş üçün münasib meydan saymadığı üçün Samur çayına doğru geri çəkilməyi qərar aldı (181).

Süleyman Bicənoğlunun qoşun dəstəsi Şirvanşahın qoşun dəstəsi ilə Şirvanın şimal-şərqində, Samur çayı yaxınlığında görüşdülər. Bu qüvvələr görüşdükləri məkanda bir gün qalaraq istirahət etdilər. Süleyman Bicənoğlunun fikrincə, Şirvan qoşunları qızılbaş qoşunları ilə döyüşlərdə yorğun düşdükləri üçün onların döyüş qabağı istirahətə ehtiyacı var idi. Məlumata görə, istirahətə dayandıqları günü birəşmiş qoşunlar həm də yaxınlaşmaqda olan döyüşün uğurlu keçməsi üçün dua və ibadət mərasimləri keçirildi. Bir günsonra isə bu qoşunlar Samur çayını adlayaraq qızılbaş qoşunları ilə qarşılaşmağa yollandılar (182).

Tərəflərin qoşunları Təbərsəranda qarşı-qarşıya gəldilər. Mənbələrdə olan məlumatlara görə, qızılbaş qoşunları ilə Ağqoyunlu-Şirvanşah qoşunlarının qarşılaşdıqları ərazi Sultan Cüneydin şəhid olduğu ərazidən çox da uzaq deyildi. Sultan Heydər bu döyüşə ciddi hazırlıq görməyə çalışırdı. Onun üçün aydın idi ki, qarşıdakı döyüş həlledici döyüşdür. Bu döyüşdə onun həyatına son qoyula bilərdi. Ya da uğur qazanacağı halda Şirvan və Ağqoyunlu dövlətinə güclü zərbə vurula bilərdi. Sultan Heydərin Şirvana üçüncü yürüşü haqqında mənbələrdə mövcud olan məlumatlar onun bir sıra hərbi keyfiyyətlərə malik olmasını da təsdiq edirlər. Əvvəla, qızılbaş qoşunlarının təchizi üçün ciddi işlər görülmüşdü, digər tərəfdən qızılbaş qoşunları döyüşlərdə müəyyən taktiki elementlər də tətbiq edirdilər ki, onlar da Sultan Heydərin rəhbərliyi altında həyata

keçirdi. Təbərsəran bölgəsində baş verən döyüşün mövcud detalları da Sultan Heydər tərəfindən döyüş taktikasına əhəmiyyət verilməsini nümayiş etdirir.

1488-ci il iyul aynın 9-da baş verən döyüşün aparılması üçün də Sultan Heydər münasib taktikanın tətbiqinə çalışdı. Hər şeydən əvvəl Sultan Heydər döyüş meydanının seçilməsinə diqqət yetirdi. Dərbənddən geri çəkildikdən sonra Qafqaz dağlarının düzənliyə açılan ətəklərində elə bir döyüş mövqeyi seçdi ki, qoşunların arxası Qafqaz dağlarına söykənsin. Əminlik yarandı ki, arxadan qoşunlar üçün hər hansı bir təhlükə yarana bilməz.

Döyüş başlamazdan əvvəl qarşı tərəfin qüvvələrinin müşahidəsi həyata keçirildi. Bu qüvvələrin sayı o qədər idi ki, Sultan Heydərdə təbii bir təşviş yarandı. Çünki qarşı tərəf açıq say üstünlüyünə malik idi. Döyüşün uğurlu aparılması üçün qızılbaş qoşunlarının döyüşqabağı düzülüşü müəyyənləşdirildi və qoşunlarının mərkəzində Sultan Heydər özü qərar tutdu. Sağ cinah Qara Piri Ustaclıya, sol cinah isə Şamlı Hüseyn bəyə həvalə olundu. Bu sərkərdələrə tapşırılmış olan qoşunların kimlərdən və nə qədər olması barəsində mənbələr məlumat vermirlər. Şübhə yoxdur ki, bu qoşunlarını əsasını atlılar təşkil edirdilər. Qarşı tərəf də döyüşə girməzdən əvvəl öz qüvvələrini qruplaşdırdı. Şirvanşahın rəhbərliyi altında olan Şirvan qoşunları cəbhənin sağ cinahında, Əbulməsum xanın rəhbərliyi altında olan Təbərsəran qoşunları cəbhənin mərkəzində və Süleyman Bicənoğlunun rəhbərliyi altında olan Ağqoyunlu qüvvələri isə cəbhənin sol cinahında qərar tutdular (183).

Bəzi mənbələrdə Ağqoyunlu-Şirvanşah qoşunlarının başqa şəkildə qruplaşdırılmasına da rast gəlmək mümkündür. "Aləmara-yi Şah İsmayıl"da bu döyüşün başlanğıcının bəzi səhnələrinin təsviri verilmişdir. Bu təsvirə görə, döyüş başlamazdan əvvəl Süleyman Bicənoğlu qızılbaş qoşunlarının sərkərdələrindən birini təkbətək döyüşə çağırdı. Sultan Heydər bu çağırışa cavab verdi və onun qarşısına çıxdı. İlk cəhddə də Sultan Heydər nizəsi ilə Süleyman Bicənoğlunu vurub atdan yerə saldı. Amma onu öldürmədi. Müridləri soruşanda bildirdi ki, qədər bu adamı mənim qatilim edəcəkdir, ona görə də onu öldürmədim (184).

Bəzi başqa mənbələrdə isə bu qarılaşma başqa şəkildə təsvir edilmişdir. Məsələn, "Tarix-i aləmara-yi Abbasi"də bu qarşılaşma və bütünlükdə tərəflər arasında gedən döyüş aşağıdakı kimi təsvir edilmişdir: "Bu tərəfdən isə sufilər təbəqəsi şirin canından əl çəkib, qılınc və nizə alovundan üz çevirmirdi. Bir sözlə, elə bir döyüş baş verdi ki, keçmişdə onun bərabəri az olmuşdur. Vuruşmanın qızğın dəmində Süleyman Bicənoğlu hərb meydanı döyüşçülərindən bir neçəsi ilə birlikdə o şərəfli sultanla (Heydərlə) vuruşmağa atılaraq, o sərvərə hücum etdi. Sultan Heydər öz mübarək vücudu ilə o pis taleli şəxslə döyüşə girib, nizəsinin ucu ilə o murdar xislətlini atın üstündən salaraq, qara torpaqla bərabər etdi. [Lakin] onu tanıdıqdan sonra bununla kifayətlənib, onun qətlindən vaz keçdi. O, (yəni Süleyman) təzədən ata mindi [Heydərin] müqəddəs üzəngisinin yanında olan mülazimlər bu mehribanlığın və can bağışlamağın səbəbini soruşdular. [O] buyurdu: - Hələ onun əcəli çatmamışdır. Mənim isə ömrümün günəşi batmaq üzrədir və bu döyüşdə mən şəhidlik şərbəti içəcəyəm.

Əcəl gününün qismətinə və Allahın təqdirinə çarə yoxdur. Sözün qısası, bu sülalənin dövlət günəşinin parlamasına [Allahdan] müəyyən bir zaman ayrıldığına görə müharibə və döyüş vaxtında can alan bir ox qəzavü-qədər barmağından çıxaraq, hərb meydanında ən qüdrətli süvari [olan Heydərin] vücuduna dəyib, onu öldürdü. Bu hadisə nəticəsində iş qazilərin əlindən çıxdı və qazilərin əli işdən üzüldü. O təbəqənin sonsuz yüksəkliyə qalxmış dövlət bayrağı yerə endi. Bu ali rütbəli sülalənin candan keçən sufilərinin bir çoxu o dinpərvərlik səmasının on dörd gecəlik ayı ətrafında əcəl saqisinin əlindən xoşagəlməz ölüm badəsi içdilər və ixtiyarsız halda torpağa yatdılar" (185).

Bəzi mənbələrdə isə Sultan Heydərlə Süleyman Bicənoğlunun qarşılaşması adi bir döyüş səhnəsi kimi təsvir olunmuşdur. Qılızbaş qoşunları həm döyüş meydanını düzgün seçmələrinə, həm qüvvələrin qruplaşmasını real apardıqlarına görə döyüşə uğurla başladılar. Nəticədə, Ağqoyunlu-Şirvan qüvvələrinin təxminən üçdə biri məhv edildi və döyüşün gedişində Ağqoyunlu dövlətinin tanınmış sərkərdələrindən olan Süleyman Bicənoğlu da Sultan Heydərin nizə zərbəsinə davam gətirməyərək atdan yerə sərildi. Onun çarəsiz vəziyyətə düşməsinə baxmayaraq, Sultan Heydər onu qətlə yetirmədi və döyüşə davam etdi. Yaralanan Süleyman Bicənoğlu isə döyüş meydanından çıxarıldı. Mövcud olan məlumatlar hətta qızılbaş qoşunlarının qələbəyə yaxın olduğunu bildirirlər. Sultan Heydər bu döyüşün ən qaynar nöqtələrində olmaqdan çəkinməyərək qızılbaş döyüşçülərini də öz arxasınca aparırdı. Döyüşün qızılbaşlar üçün uğurla davam etdiyi bir vaxtda qarşı tərəfdən ünvansız atılmış bir ox Sultan Heydərin boğazından keçdi və onu yerə sərdi. Bu hadisə döyüşün ümumi gedişinə təsir göstərsə də. qızılbaşlar öz mürşidlərinin həlak olmasından sonra heç də qaçıb dağılmadılar və öz döyüşlərini davam etdirdilər. Maraqlıdır ki, qızılbaşlara qarşı rəğbətli münasibəti olmayan mənbə müəllifləri də Sultan Heydərin qətlindən sonra onun müridlərinin böyük bir şücaətlə döyüşü davam etdirmələrini təəccüb doğuracaq bir hal kimi qələmə almışdılar. Həmin təəccübə səbəb o idi ki, müridlər öz mürşidlərinin ölümündən sonra sıralarını heç də pozmadılar və döyüşlərini əvvəlki gərginliklə davam etdirdilər. Görünür, qızılbaşların başlarının döyüşə qatışdığı üçün idi ki, Ağqoyunlu Əliağa Qapıçı fürsət tapıb Sultan Heydərə yaxınlaşmış və onun başını kəsərək uzaqlaşa bilmişdi (186).

Ağqoyunulu sarayına təəssübkeşliklə yanaşan Fəzlullah ibn Ruzbehan Xonci "Aləmara-ye Əmini" əsrində ədəbi ifadələrlə bu döyüşün təsvirinə və bu döyüşdə qızılbaş qoşunlarının və onların sərkərdəsinin fəaliyyətinə xeyli yer ayırmışdır. Onun təsvirində bildirilir ki, kərənay səsi eşidilən kimi Ağqoyunlu döyüşçüləri döyüşkən şirlər kimi sufilərin qanına susadılar, ac qurdlar kimi özlərini sufilərin sıralarına vurdular. Sonra isə qızılbaşların təsvirinə yer ayrılır. Qeyd olunur ki, sufi fədailəri qollarının gücü ilə çoxlu mərdliklər etdilər, döyüşə qoşuldular. Sultan Heydərin döyüşü isə bu mənbədə Rüstəm-Zalın döyüşü ilə müqayisə olunurdu. Hətta onun döyüşü Rüstəm-Zalın və İsfəndiyarın döyüşlərindən üstün tutulurdu. Mənbənin təsvirinə görə, Sultan Heydər hansı tərəfə üz çevirdisə, orada bir qəhrəmanlıq nümayiş etdirdi, hansı tərəfdə qılınc vurdusa,

orada əcəl kimi çoxlu sayda adlı-sanlı pəhləvanların həyatına son qoydu. Sonra bildirilir ki, döyüşün gedişində Sultan Heydərin cinahı Süleyman Bicənoğlunun cinahı ilə rastlaşdı. Burada da qızılbaşlar öz əzmkarlıqlarını nümayiş etdirdilər. Sultan Heydərin yanında olan Həsən ağa Ustaclı bu döyüş zamanı Süleyman Bicənoğlunu tanıdı və onu Sultan Heydərə nişan verdi. Sultan Heydər də üzünü ona tərəf çevirdi və nizəsinin zərbəsi ilə onu yerə saldı. Bundan sonra Sultan Heydər öz cinahına geri dönüb döyüşü davam etdirdi. Bu arada Sultan Heydərin öz dəstəsi ilə bir dərəyə tərəf geri çəkilməsi və ərazinin coğrafi imkanlarından faydalanması haqqında da mənbədə məlumat vardır. Mövcud məlumata görə, havanın çox isti olması döyüşün gərginliyinə ciddi təsir göstərirdi. Bu isti hər iki tərəfin döyüşçülərinə əlavə çətinliklər yaradırdı. Bildirilir ki, Sultan Heydər yaralandıqdan sonra onu döyüş meydanının mərkəzindən geri çəkdilər, onun üzərində kölgəlik yaratdılar ki, bir qədər istirahət edə bilsin. Sultan Heydərin döyüş meydanının mərkəzindən geri çəkilməsi bu istiqamətdə olan qızılbaşların müəyyən hissəsinin də geri çəkilməsi ilə nəticələndi. Bundan Ağqoyunlu qoşunları dərhal istifadə etdilər. Vəliəhd İbrahim bəy Cahangirin rəhbərliyi altında olan Ağqoyunlu dəstəsi mərkəzdə hücumu genişləndirdi, qızılbaş döyüşçülərinə güclü zərbə vurdu və bu istiqamətdə döyüş təşəbbüsünü ələ aldı. Buna baxmayaraq, qızılbaş qoşunları çox böyük fədakarlıqla döyüşdülər və onların bu fədakarlığı mənbədə çox böyük səxavətlə təsvir olunmuşdur (187).

Əhməd bəy Rumlu da özünün "Əhsənüt təvarix" əsərində Sultan Heydərin və qızılbaşların çox böyük fədakarlıqla döyüşdüklərini xəbər verir. O da bildirirdi ki, bu fədakarlıq nəticəsində Şirvanşah Fərrux Yasarın və Ağqoyunlu Süleyman Bicənoğlunun rəhbərlik etdiyi qoşunların ağır vəziyyətə düşdüyü bir vaxtda Sultan Heydər ölümcül yara aldı və bu da ümumən, döyüçün nəticəsini həll etdi. Müəllifə görə, Sultan Heydəri ölümcül yaralayan ox onun öz döyüşçüləri tərəfindən atılmış ox idi ki, təsadüfdən sufi mürşidinə tən gəldi. Həsən bəy Rumluya görə, Sultan Heydərin başını bədənindən ayıran isə Süleyman Bicənoğlunun özü idi: “Sonra yenidən düşmənləri pərən-pərən salıb özünü onların səfinə vurdu və o napak qövmdən bir çoxlarını həlak torpağı üzərinə sərdi. Az qaldı ki, atəş saçan qılıncın şimşəyindən şirvanşahın və Süleyman Türkmanın qoşununun əmin-amanlıq xırmanı yansın. Elə bu əsnada bir ox atılıb o həzrətin həyat kökünün qırılmasına səbəb oldu və o, yüksək şəhidlik dərəcəsinə ucaldı. Məxfi qalmadı ki, ona dəymiş ox müxaliflər tərəfindən deyil, bəlkə də, Sultan Heydərin öz qoşunu tərəfdən yanlışlıqla atılmışdı. O savaşda iştirak edən bütün adamlar bəyan etmişlər ki, [həmin ox] o həzrətin əmirlərindən olan Şahsüvar Lənkəraninin atası tərəfindən atılmışdı. Pak təbiətli qazilər qüssə ilə dolu olan bu hadisənin baş verməsi üzündən qaçış yolunu tutdular. Süleyman Bicən o həzrətin mübarək başını kəsib Yaqub padşahın yanına göndərdi” (188).

Beləliklə, ünvansız atılan bir oxun yaratdığı fəsadlar Sultan Heydərin həyatına son qoydu və onun başı bədənindən ayrılaraq Təbrizə aparıldı. Mənbələrdə Sultan Heydərin başının bədənindən hansı şəraitdə kəsilməsi barəsində məlumat yoxdur. Mənbə məlumatlarından həm Sultan Heydərin ölümündən

sonra qızılbaşların öz mürşidləri yolunda fədakarlıqlar göstərməsi, həm də Sultan Heydər yaralandıqdan sonra qızılbaşların əhatəsində döyüş meydanından çıxarılması və onun dincəlməsinə şərait yaradılması aydın olur. Sultan Heydərə fanatik inamın olduğu halda onun mühafizəsiz buraxılması inandırıcı görünmür. Ona görə də sevimli müridləri arasında onun başının necə kəsilməsi və qızılbaşların diqqətindən onun yayındırılması qaranlıq olaraq qalmaqdadır.

"Aləmara-yi Şah İsmayıl"da bu məsələyə aydınlıq gətirə biləcək bəzi məlumatlar vardır. Baxmayaraq ki, bu məllumatlarda da ziddiyyətli məqamlar mövcuddur. Mənbənin təsvirinə görə, Süleyman Bicənoğlu döyüşün əvvəlində Sultan Heydər tərəfindən yenilsə də sonradan öz dəstəsi ilə qızılbaş qoşunlarının arxasına keçməyə müvəffəq oldu. Qarşı tərəfdən isə Əbulməsumun rəhbərliyi altında olan Təbərsəran dəstəsi döyüşə qoşuldu. Mənbənin məlumatına görə, belə ağır şəraitdə Sultan Heydər qarşı tərəfdən 300-dək döyüşçünü qətlə yetirdi. Bu zaman Süleyman Bicənoğlu arxadan özünü şeyxə yetirərək nizə ilə onun böyrünə zərbə vurdu və bu zərbə ölümcül oldu. Sonra da Təbərsəran döyüşçüləri onun əhatəyə alaraq atdan yerə saldılar və qətlə yetirdilər. Mənbənin məlumatına görə, Sultan Heydərin şəhid olması xəbərini eşidəndə qızılbaşlar özlərini onun tərəfə atdılar. Bu zaman onlar 300-400 nəfər itki versələr də Sultan Heydərin cəsədini döyüş meydanından çıxarıb Ərdəbilə tərəf üz tutdular (189).

Amma məlumdur ki, Sultan Heydərin cəsədi müridləi tərəfindən elə döyüş meydanında dəfn edilmişdi. Bəzi məlumatlara görə, Sultan Heydər Təbərsəranda, Əlfəndiyar kəndində dəfn edilmişdi. Onun qəbri həmin yerdə 1509-cu ilə qədər mövcud olmuşdu. Həmin ildə sonradan Səfəvilər hakimiyyətinin əsasını qoymuş Şah İsmayıl Səfəvi Şirvana ikinci dəfə yürüş etmiş və atasının qəbrini Təbərsərandan Ərdəbilə gətirərək Şeyx Səfi məqbərəsində dəfn etmişdi. Sultan Heydərin kəsilmiş başına gəlincə isə, əvvəlcə bu barədə Sultan Yaquba xəbər göndərildi, sonra isə onun başı 1488-ci il iyulun 16-a Sultan Yaqubun düşərgəsinə gətirildi. Sultan Yaqub düşərgəsi ilə birlikdə Təbrizə döndükdən sonra göstəriş verdi ki, Sultan Heydərin kəsilmiş başını şəhər küçələrində gəzdirsinlər və sonra da onu itlərin qarşısına atsınlar. Belə də edildi və Sultan Heydərin başını küçələrdə gəzdirdikdən sonra bürclərin birində asdılar. Sonradan sufi müridlərindən biri bu kəlləni oğurlayaraq özündə saxladı və bir də Şah İsmayıl hakimiyyətə gələndən sonra aparıb ona təhvil verdi (190).

Sultan Heydərin rəhbərliyi altında olan qızılbaş qoşunlarının məğlub edilməsi Sultan Yaqubun böyük sevincinə səbəb oldu. Çünki, Sultan Heydərin aradan götürülməsi ilə onun hakimiyyətinə olan ciddi bir təhlükə məhv edilmiş oldu. Bununla bağlı Sultan Yaqub elə bir sevinc keçirdi ki, Osmanlı sultanı Bəyazidə məktub göndərdi və qızılbaşların nəzarət altına götürldüyünü ona çatdırdı. Həmin məktubunda Sultan Yaqub qızılbaşların öz yollarından çıxması, onların ölkələrin işğalına başlaması, insanlara zülm etmələri, Şirvan üzərinə qoşun çəkmələri haqqında məlumat verdi. Görünür, Səfəvi təriqətinin güclənməsi və qızılbaşların sıralarının genişlənməsi Sultan Bayazidi də narahat edirmiş. Çünki Sultan Yaquba yazdığı cavab məktubunda Sultan Bəyazid qızıl-

başların əzilməsi xəbərinə sevincini gizlətməmiş və bu qələbədən sonra Anadolu türklərinin Səfəvi təriqətinə qoşulanların sayının azalacağı ümidi edilmişdi. Sultan Bəyazid açıq şəkildə yazırdı ki, Sultan Heydərin ölüm xəbəri onun sevincini xeyli artırmışdır (191).

Sultan Heydər mənsub olduğu xanədanın dini hakimiyyətdən dünyəvi hakimiyyətə doğru irəliləmsi yolunda yeni və daha təkmil bir səhifəni təşkil edir. Onun dövründə təriqət heç də zəifləmədi, əksinə daha da gücləndi, təriqətin məzmununda müəyyən dəyişikliklər baş verdi, təriqət tərəfdarları arasında dünyəvilik uğrunda mübarizəyə meyllilik daha da artdı. Yəni, Sultan Heydər sufi mürşidi kimi əcdadlarından gələn nüfuzu hifz etməklə onu daha da gücləndirdi və müridlərini qarşıya qoyulan məqsəd uğrunda daha geniş şəkildə səfərbər edə bildi. Amma Sultan Heydər eyni zamanda dünyəvi rəhbər kimi də öz xanədanının tarixinə yeni bir səhifə yazdı. Onun dövründə təriqət əhlinin hərbiləşməsi, qızılbaşların hərbi baxımdan təşkilatlanması daha dərin bir məzmun aldı. Sultan Heydər öz müridlərini, təriqət əhlini daxilən dəyişdirə bildiyi kimi, onları xaricən də dəyişdirə bildi, qızılbaş papaqlarını istifadəyə gətirməklə yeni bir toplumun formalaşmasına xarici bir zəmin yaratdı. Sultan Heydərin rəhbərliyi altında qızılbaşların hərbi baxımdan təşkilatlanması, bölgədə ciddi bir qüvvəyə çevrilməsi də real xarakter aldı. Onun rəhbərliyi altında həbi təlimlərin aparılmasına başlandı, nəinki ənənəvi silahların, hətta top və mancanaq kimi mürəkkəb silahların öyrədilməsi qızılbaşların hərbi potensialını daha da artırdı. Sultan Heydər özü də bir sərkərdə kimi formalaşdı, onun qoşunlarının əmirləri və sərkərdələri formalaşdı. Təchizat baxımından isə qızılbaşlar Ağqoyunlu və Şirvanşahlar qoşunlarından heç də geri qalmırdılar. Qızılbaş qoşunları hərb məharəti baxımından da bu adları çəkilən dövlətlərin qoşunlarından heç də geri qalmırdılar. Şirvanşahlar dövləti qızılbaş qoşunları qarşısında aclz qaldılar. Hətta Ağqoyunlu və Şirvanşahların müştərək hərbi qüvvələri də qızılbaş qoşunları qarşısında ciddi bir məharət nümayiş etdirə bilmədilər. Sultan Heydərin rəhbərliyi altında qızılbaş qoşunları bu döyüşdə hərbi təşəbbüsü ələ almışdılar və təsadüf nəticəsində Sultan Heydər dünyasını dəyişməsəydi Təbərsəranda aparılan döyüş qızılbaşların uğuru ilə nəticələnə və Şirvanşahlar dövləti də qızılbaşların hakimiyyəti altına düşə bilərdi.

### 8. Sultan Əli

Səfəvi təriqət tərəfdarları arasında elə bir təşkilatlanma və ideya birliyi var idi ki, Sultan Heydər şəhid olandan sonra da bu təriqət parçalanmadı və öz sıralarını qoruyub saxlaya bildi. Sultan Heydər dəfn edildikdən son onun müridləri Ərdəbilə toplaşdılar və onun böyük oğlu Siltan Əli Mirzə təriqət rəhbəri elan edildi. Əslində, Sultan Heydər Şirvan yürüşünə yollanmamışdan əvvəl böyük oğlu Sultan Əli Mirzəni öz varisi elan etmiş və müridlərinə vəsiyyətində də ona sədaqətli olmağı tövsiyə etmişdi. Sufilər arasında Sultan Əli Mirzə həm də Sultan Əli padşah kimi də tanınmışdır. Bildirilir ki, Səfəvi müridlərinin köməyi ilə

Sultan Əli Mirzə Ərdəbil xanəgahının əvvəlki nüfunuzu özünə qaytarmağa çalışdı. Təriqətin tərəfdarları Sultan Əli Mirzəni təriqət rəhbəri kimi tanıdıqlarını bəyan etdilər və bu da təriqətin təşkilatlanmasını daha da gücləndirdi. Ərdəbil xanəgahının fəaliyyətinin canlanması yenidən yaxın və uzaqdan bura zəvvarların, təriqət tərəfdarlarının axışmasına yol açdı və bu isə eyni zamanda Sultan Əli Mirzənin nüfuzunun artmasına zəmin yaratdı. Bu da Ağqoyunlu hakimi Sultan Yaqubun yenidən təşviş və narahatçılığına səbəb oldu. Sultan Yaqub yaxşı bilirdi ki, Səfəvi təriqəti bölgədə ciddi şəkildə kök salıbdır və zərurət yarandığı halda bu təriqətin tərəfdarları yenidən qısa müddət ərzində toplaşaraq hakimiyyət üçün təhlükə yarada bilərlər. Mənbə məlumatlarına görə, hətta Səfəvi müridləri Ərdəbilə toplaşaraq silahlanmağa başladılar. Onarın sıraları elə artdı ki, bu barədə SultanYaquba məlumat göndərildi. Bəzi məlumatlara görə, Sultan Əli hətta öz tərəfdarlarını toplayaraq atasının qisasını almaq üçün Sultan Yaqubla müharibəyə başlamaq da istəyirdi (192).

Sultan Yaqub şübhə etmirdi ki, Sultan Əli Mirzə güclənsə atasının qisasını almaq fikrinə düşə bilər. Bu isə Sultan Yaqubun həyatı üçün yeni bir təhlükə ola bilərdi. Bu təhlükənin aradan qaldırılması üçün Sultan Əli Mirzənin öldürülməsi də mümkün idi. Amma mövcud məlumatlara görə, Sultan Yaqub bacısına, yəni Sultan Əli Mirzənin anası Həlimə bəyimə olan ehtiram üzündən onu öldürmək fikrindən daşındı. Amma qərara gəldi ki, Sultan Heydərin Ərdəbildə qalmış bütün ailəsini sürgünə göndərsin. Bununla bağlı öz əmirlərindən birinə göstəriş verdi ki, qoşun dəstəsi ilə Ərdəbilə yollansın və Sultan Heydərin xanımı və övladlarını həbs edərək Fars vilayətinə (Şiraza) aparsın, o vilayətin hakimi Mənsur bəy Pornaka tapşırsın. Mənsur bəy də bu ailəni İstəxr qalasında həbsdə saxlamalı idi (193).

"Tarix-i aləmara-yi Abbasi" əsərində bu məsələ belə təsvir edilmişdir: "Bu xanədanın sədaqət və səmimiyyət mülkünün fatehləri olan səadət nişanlı sufiləri o dinpərvər və ədalətli sultanın ali nəsilli övladlarının həyatda qalıb ömür sürməsini eşitdikdə səmimi addımlarla arzu-dilək yolunda irəliləyərək, uğurlu bəxtin köməyi ilə gündən-günə Ərdəbil vilayətinə toplanıb, yaşı etibarilə irşad və səltənət taxtına [çıxmaq] ləyaqətinə çatmış Sultan Əli padşah həzrətlərinə tabe olaraq, ona sədaqət izhar etdilər. Onlar müharibə və qoşun çəkmək üçün hazırlaşmağa başladılar. İşarə və xəbərçilik edənlər Sultan Yaquba xəbər verdilər ki, Sultan Heydərin böyük oğlu səadət meyvəsi vermiş atasının yerində oturmuşdur və tezliklə onun dövlət bayrağı çox yuxarı qalxacaqdır. Sultan Yaqub haqq yolunu, aradakı qohumluğu və abır-həyanı nəzərə alıb, yüksək rütbəli şahzadələrin hörmətli anası olan və Aləmşah bəyim adlanan böyük bacısı Həlimə bəyimdən utanaraq, Sultan Heydərin oğullarını öldürmədi. Lakin o, cahcalallı əmirlərdən birini türkmanların böyük bir dəstəsi ilə Ərdəbilə göndərdi ki, o səadət dənizinin dürlərini ələ keçirərək, Fars vilayətindəki İstəxr qalasına aparsın, o diyarın hakimi Mənsur bəy Pornaka tapşırsın ki, o qalada ömür keçirsinlər. Belə ki, bundan sonra iradət sahiblərinin və hörmətli sufiyyə təbəqəsinin əli onların dövlət atının yəhər bağına çatmasın. Sözün qısası, o tayfa Ərdəbilə

çatdıqdan sonra Sultan Əli padşah vaxtın məsləhətini onda gördü ki, bir müddət ayağını salamatlıq ətəyinə çəksin və zəmanə ilə uyğunlaşsın. Nəhayət, o, böyüklü-kiçikli hər şeyi yaradana təvəkkül edərək, [Sultan Yaqubun göndərdiyi] həmin çoxsaylı dəstənin müşayiəti ilə, hörmətli anası və əziz qardaşları ilə birlikdə İstəxrə tərəf yola düşdü, Siddiq (Yusif peyğəmbər) kimi qorxulu zindanda sakit oturdu və zəmanənin cəfa və möhnətinə qatlaşdı. Sözün qısası, Mənsur bəy Pornak fərmanı icra edərək, o xilafət xanədanının övladlarını qalada saxladı, lakin əqidə və sədaqət yolu ilə hərəkət edərək, o yüksək məqamlı rəhbərin balalarına xidmət etməyi özünə vacib bilib, hər bir işdə onların şərəfli könüllərinin razılığını əldə edirdi. Ali nəsəbli şahzadələr parlaq dürlər kimi qala sədəfinin içərisində gizlənərək, dövrandan və zamandan təcrübə götürür və böyüyürdülər "(194).

Mənbələrdə və tarixi ədəbiyyatda olan məlumatlara görə, fars hakimi Mənsur bəy Ağqoyunlu hakimlərinə itaət etsə də, daxilən Səfəviyyə təriqətinə bağlı birisi idi və ona görə də Sultan Heydərin ailəsinə böyük hörmət və ehtiram nümayiş etdirdi. O, Səfəvi xanədanının nümayəndələrinin hər hansı bir çətinliklə qarşılaşmasına imkan vermədi və bu ailənin bütün qayğılarını ödəməyə çalışdı. Ona görə də Sultan Heydərin ailəsi sürgündə olsa belə sürgünlüyün məşəqqətləri ilə qarşılaşmadılar.

Qızılbaş qoşunları üzərində qələbə əldə edilməsi Ağqoyunlu dövlətini elə də möhkəmləndirmədi. Sultan Heydərin ailəsinin həbsindən iki il sonra, 1490-cı il dekabr ayının sonlarında Ağqoyunlau hakimi Sultan Yaqub Qarabağda ikən 30 yaşında dünyasını dəyişdi və bundan sonra Ağqoyunlular daxilində hakimiyyət uğrunda çəkişmələr başladı. Sultan Yaqubun ölüm səbəbi Qarabağda tapdığı xəstəliklə bağlanılır və bəzi məlumatlara görə o, Qarabağda yolxucu xəstəliyə tutuldu və həkimlərin səylərinə baxmayaraq dekabr ayının 24-də dünyasını dəyişdi. Sultan Yaqub dünyasını dəyişəndə onun üç oğlan övladı qalmışdı – Baysunqur, Həsən və Murad. Hakimiyyət davasında ağqoyunlular iki cəbhəyə bölündülər. Bu cəbhələrdən birində birləşmiş Ağqoyunlu əmirləri Sufi Xəlilin ətrafında birləşərək Sultan Yaqubun kiçik yaşlı oğlu Baysunquru Ağqoyunlu hakimi elan etdilər. Əslində isə real hakimiyyət Sufi Xəlilin əlində toplaşmışdı. Ağqoyunlu əmirlərinin başqa bir dəstəsi isə Sultan Yaqubun qardaşı Məsih Mirzənin hakimiyyətə gətirilməsi üçün mübarizəyə başladılar. İş o yerə çatdı ki, bu dəstələri müdafiə edən hərbi qüvvələr arasında döyüş də baş verdi. Bu döyüşdə Məsih Mirzə həlak oldu. Onunla birlikdə bir sıra digər əmirlər də həlak oldu və onun dəstəkləyən bir neçə şəxs isə həbs edildi. Məsih Mirzəni dəstəkləyənlərdən biri də Uzun Həsənin başqa bir nəvəsi Rüstəm Mirzə idi. O da Baysunqurun adamları tərəfindən həbs edildi və Əlincə qalasına göndərildi. Amma bununla hakimiyyət uğrundakı savaşlar heç də sovuşmadı. Ağqoyunlu qoşunlarının tanınmış sərkərdələrindən olan Aybə sultan Baysunqurun hakimiyyətindən incik düşdüyü üçün Rüstəm Mirzəni dəstəkləməsi hakimiyyət uğrunda mübarizəyə yeni bir istiqamət verdi. Aybə sultanın dəstəyi ilə Rüstəm Mirzə həbsdən azad oldu və Aybə sultanla Rüstəm Mirzəni dəstəkləyən qoşun dəstəsi

ilə Baysunquru müdafiə edən qoşun dəstəsi arasında Mərənd yaxınlığında döyüş baş verdi. Baysunqur bu döyüşü uduzdu və məcbur oldu ki, Şirvana qaçsın və babası Şirvanşah Fərrux Yasara sığınsın. Rüstəm Mirzə də bunun ardınca Təbrizə daxil olaraq hakimiyyəti əlinə aldı. Lakin bu da ölkəni daxili çəkişmələrdən xilas edə bilmədi. Baysunqur məğlub olub Şirvana qaçsa da hakimiyyət iddiasından heç də əl çəkməmişdi. Ona qarşı mübarizənin səmərəli şəkildə aparılması üçün Rüstəm Mirzə həbsdə olan Səfəvi xanədanı nümayəndələri ilə əməkdaşlıq yaratmaq fikrinə düşdü (195).

Bu hadisələri "Tarix-i aləmara-yi Abbasi" belə təsvir edir: "Bir müddət sonra Sultan Yaqubun həyat ağacı bu hörmətsizlik üzündən əcəl küləyi vasitəsilə yıxıldı və o, Qarabağın Sultanbudunda varlıq paltarını axirət mənzilinə apardı. Tarix kitablarında yazıldığı kimi, Türkman əmirləri iki dəstəyə ayrıldılar. Bəziləri onun qardaşı Məsih Mirzənin, digərləri onun oğlu Baysunqurun padşahlığını istədilər. Məsələ iki dəstə arasında müharibə ilə nəticələndi. Baysunqur səltənət taxtına oturdu. [Məsih Mirzənin] qətlindən sonra mərhum padşah Əmir Həsən bəyin oğlu Maqsud Mirzənin oğlu Rüstəm Mirzəni əmisi [Məsih Mirzənin] tərəfdarları ilə əməkdaşlıq etdiyinə və Məsih Mirzəyə tərəf çıxanlara qoşulduğuna görə tutaraq, Əlincəq qalasına göndərib, qalanın kutvalı Seydi Əlinin dəstəsinə tapşırdılar. Baysunqurun hakimiyyətindən bir müddət keçdikdən sonra Aybə sultan Əlincəq qalasının kənarına gedərək, Seydinin dəstəsini incə hiylələrlə aldadıb, öz tərəfinə çəkdi. [Onlar] Rüstəm Mirzəni [qaladan] çıxarıb, özlərinə padşah etdilər. Qarabağdakı vuruşmada məğlub olanların bir çoxları və sadə camaat onların başına yığışıb, Təbrizə getmək və Baysunqurla müharibə etmək qərarı aldılar və Arazın sahilinə gələrək [burada] durdular. Mirzə Baysunqur, Mirzə Rüstəmin fitnəsini dəf etməkdən ötrü Təbrizdən çıxdı. Mərəndə yetişdikdə onun qaravulluğa göndərdiyi hər kəs bivəfalıq yolu ilə gedərək, Mirzə Rüstəmə qoşuldu. Təfriqəçilik getdikcə qoşunun hamısına yayıldı və Mirzə Baysunqurun ordusu elə bir hala gəldi ki, artıq onu saxlamağa qadir olmadı. Buna görə də [Baysunqur] çarəsizlikdən padşahlıq əşyalarını və ləvazimatını yerindəcə qoyaraq, xidmətçilərindən bir neçəsi ilə fərarilik vadisinə üz qoydu. [O], Qaradağın Əhər yolu ilə Şirvana gedərək, dayısı Şirvanşaha qoşuldu. Mirzə Rüstəm isə arzuladığı dövlətə çataraq, müzəffər və qalib şəkildə Təbrizə gəldi və səltənət taxtına oturdu. Türkman əmirləri çiyinlərinə itaət örtüyü saldılar. O, (yəni Mirzə Rüstəm) layiqincə qoşun və rəiyyət saxlamağa başladı. Lakin Şirvanşah bacısı oğlu olan kürəkəninə yardım və kömək etmək üçün çalışqanlıq kəmərini bağlayaraq, Mirzə Baysunquru səltənətə gətirməyə çalışırdı. Mirzə Rüstəm də Mirzə Baysunqurun işini [bitirməyin] fikrinə düşərək, onu rədd edib aradan qaldırmaqdan ötrü Bayanduri dövlətinin əmirləri və böyükləri ilə məşvərət etdi. Nəhayət, xeyirxah adamların məsləhəti ilə belə qərara gəldi ki, xilafət səmasının parlaq ulduzlarını (Şeyx Heydərin oğullarını) İstəxr qalasından çıxararaq, rəhbərlik və sərdarlığa layiq olan Sultan Əli Mirzənin əzəmətli bayrağını şaha layiq tərbiyə yolu ilə qaldırsın və Baysunqurun fitnəsini dəf etmək, ata və babasının qanını almaqdan ötrü onu Şirvan tərəfinə

göndərsin. Əgər qalib gələrsə və yaxud məğlub olarsa, hər iki halda [Mirzə Rüstəmin] zahiri və batini istəyi gerçəkləşər. Bu niyyətlə o, zahirən qohum-əqrəbalığı və möhtərəm bibisinin razılığını qazanmağı bəhanə edərək, şahzadələri hazır etməyi əmr etdi. Sultan Əli padşah 898-ci ildə (23.10.1492 - 11.10.1493), İstəxr qalasında dörd il yarım qaldıqdan sonra yola düşərək, hörmət və izzətlə Təbrizə çatdı. Rüstəm Mirzə o həzrəti mehribanlıqla qucaqlayaraq, onun hörmət və şənini yüksəltməyə çalışdı. Bu müqəddəs sülalənin tərəfdarları və ona sadiq olanlar gizləndikləri qaranlıq və nakamlıq künclərindən çıxaraq, mələklərin pənahı olan astanaya üz qoydular. Gündən-günə o əqidə sahibi olan camaatın sıraları artmağa başladı" (196).

Şirvanşah Fərrux Yasarın ona sığınmış Baysunqura fəal kömək hazırlıqları Rüstəm Mirzənin məcbur etdi ki, çox tez bir zamanda hakimiyyətinin müdafiəsi üçün Səfəvi xanədanı nümayəndələri ilə əlaqələri bərqərar etsin. Rüstəm Mirzənin vəziyyəti də bunu tələb edirdi. Çünki yaranmış şəraitdə onun Şirvanşah dövlətinə və ya onun dəstəklədiyi Baysunqura qarşı ciddi müqavimət göstərmək imkanları məhdud idi. Şirvanşah Fərrux Yasar isə yalnız qohumluq əlaqələrinə görə Baysunqura kömək göstərmirdi. Baysunqurun yenidən Ağqoyunlu hakmiyyətinə gətirilməsi ilə Fərrux Yasar həm də bu dövləti, yəni Dərbənddən başlayaraq Fars körfəzinə qədər olan əraziləri öz nəzarəti altına ala bilərdi.

Rüstəm Mirzə isə Səfəvi xanədanı ilə əlaqə yaradaraq Səfəvi təriqəti tərəfdarlarının xidmətindən istifadə etməyə çalışması ilə əslində ikibaşlı bir hədəf izələyirdi. Mənbə məlumatlarında deyildiyi kimi, qızılbaş qoşunları vasitəsilə Baysunqur üzərində qələbə əldə edilməsi həm Baysunqurun, həm də Şirvanşahar dövlətinin vəziyyətini xeyli zəiflədər və bununla Baysunqurun hakimiyyət iddialarına son qoyula da bilərdi. Əgər qızılbaş Baysunqur qarşılaşmasında Baysunqur üstün gəlsəydi, istənilən halda bu qarşılaşma Baysunqurun qüvvələrini zəiflədə və eyni zamanda qızılbaşlar kimi bir iddialı qüvvəni də aradan qaldıra bilərdi. Rüstəm Mirzə qızılbaşlarla Baysunquru bir-birinin üstünə salmaqla həmin tərəflərin hər ikisini müəyyən dərəcədə zəiflədə bilər və bununla o, qismən də olsa öz məqsədinə çata bilərdi.

Mövcud olan təhlükənin sovuşdurulması üçün Rüstəm Mirzə Ağqoyunlu əyanlarının xüsusi bir toplantısını keçirdi və onlarla məsləhətləşmələr apardı. Ağqoyunlu əyanları da ona bildirirdilər ki, Baysunqurun məsələsini həll etmək üçün Sultan Əli Mirzənin ətrafında toplaşa biləcək 30 min nəfərlik qızılbaş qoşununa hakimiyyətə sadiq olan 20 minlik qoşunu əlavə etmək olar və bu qoşunlarla məqsədə nail olmaq olar. Əyanların sözlərinə görə, Sultan Əli Mirzə gənc və enerjili bir gənc idi və ona ümid bağlamaq olardı. Güman edilirdi ki, Sultan Əli Mirzə ona tapşırılan vəzifəni icra etdikdən sonra onun özünün aradan qaldırılması üçün də əlac tapmaq olar (197).

Bundan sonra Rüstəm Mirzə xüsusi bir dəstəni Sultan Heydərin övladlarının ardınca göndərdi. Qoşunlarının böyük bir hissəsi ölkə daxilində baş verən üsyanların yatırılmasına vəzifələndirildiyi bir zamanda qızılbaş qüvvələrinin xidmətinə böyük ümidlər bəsləyən Rüstəm Mirzə 1493-cü ilin yazında

(tarixi ədəbiyyatda Sultan Əli Mirzənin 1492-ci ildə Təbrizə daxil olması da bildirilir) Təbrizə yetişən Sultan Əli Mirzəni çox böyük təntənə ilə qarşıladı. Rüstəm Mirzə ona belə dedi: "Sənə qarşı etdiyim arxada qalsın, inşaallah ki, onları düzəltməyə çalışacağam. Sən mənim qardaşımsan, məndən sonra padşahlıq sənə məxsusdur" (198).

"Aləmara-yi Şah İsmayıl" əsərində isə Rüstəm Mirzə onu oğlum deyə adlandırdı və sonra da ona çoxlu hədiyyələr bağışladı. Bu hədiyyəlrə arasında tac, ciqqə, gürz, xəncər, daş-qaşla bəzədilmiş qılınc, zərli yəhəri olan cins at bağışladı və Sultan Əli Mirzəni "Sultan Əli padşah" adlandırdı. Rüstəm Mirzə bildirdi ki, ona daha "Mirzə" yox, "padşah" deyə müraciət etmək istəyir (199).

Sultan Əlinin həbsdən geri qayıtması və onun Ağqoyunlu hakimi tərəfindən xüsusi bir mərasimlə qarşılanması xəbəri tezliklə Səfəvi təriqət üzvləri arasında da yayıldı və onların arasında böyük bir canlanmaya səbəb oldu. Təriqət rəhbərinin həbsindən sonra dağınıq vəziyyətdə olan sufilər yenidən toplaşmağa və Sultan Əli ətrafında səfərbər olmağa başladılar. Mənbə məlumatlarına görə, altı ay ərzində 15 min sufi Sultan Əlinin ətrafına toplaşdılar (200). Dəqiq məlumat verilməsə də, çox güman ki, sufilər öz silahları ilə Sultan Əlinin ətrafına toplaşırdılar. Bir müddətdən sonra sufilərin müharibəyə yollanmasından da belə ehtimal etmək olar ki, onlar öz mürşidləri ətrafında hazırlıqlı şəkildə cəmləşirdilər.

Sultan Əli ətrafında sufi müridlərinin toplaşdığı bir vaxtda Baysunqurun Ağqoyunlu üzərinə hücumu barəsində məlumat alındı. Bu məlumat alınan kimi Rüstəm Mirzə də müharibəyə hazırlıq əmri verdi. Rüstəm Mirzə ilə Baysunqur arasında hakimiyyət uğrunda növbəti qarşıdurma Baysunqurun təşəbbüsü ilə başlandı. Rüstəm Mirzə tərəfindən həm hakimiyyətə sədaqətli olan qüvvələrə, həm də Sultan Əliyə bu qarşıdurmaya hazırlaşmaq haqqında göstəriş verildi. Bəzi tarixi ədəbiyyatda Baysunqura qarşı göndərilən hərbi qüvvələrin baş komandanı kimi Sultan Əlininin təyin edildiyi bildirilir (201). Amma bu xəbər mənbələrdə təsdiqlənmir. Rüstəm Mirzə qoşunların baş komandanı vəzifəsinə özünün tanınmış sərkərdəsi Aybə sultanı təyin etdi və Sultan Əlini də onun tabeliyinə verdi. Aybə sultanın sərəncamında 20 min nəfərlik qoşun dəstəsi var idi (202). Bütün qoşun dəstəsinin 30 min nəfər olduğu üçün, çox güman ki, bu qoşundan 10 min nəfəri sufi müridləri idilər və Sultan Əlinin rəhbərliyi altında döyüşə qoşulmuşdular. Səfər hazırlıqları başa çatandan sonra Ağqoyunlu qoşunları ilə Səfəvi qüvvələri Təbrizdən Qarabağa doğru hərəkətə başladılar. Rüstəm Mirzə iki gün ərzində qoşunları müşayiət etdi və sonra geri döndü. Qoşunlar isə öz yolunu Ərdəbildən saldılar. Sultan Əli Ərdəbil xanəgahına gələrək burada öz yaxınları və müridləri ilə görüşdü və sonra Baysunqurla döyüşə yola düşdü (203).

Tərəflərin qüvvələri Araz çayı sahillərində bir-biri ilə rastlaşdılar. Amma bu qüvvələr Araz çayını keçməyə cəsarət etmədilər. Tərəflər Araz çayının müvafiq sahilində düşərgə salaraq bir neçə gün bir-birini müşahidə etdilər və sonra da döyüşə başlamayaraq geri çəkilməyi üstün tutdular (204).

Tərəflər aralarındakı münasibətlərin aydınlaşdırılmasına böyük əhəmiyyət verdikləri halda döyüşə girmədən onların geri çəkilməsinin səbəbləri haqqında məlumatla rastlaşmaq mümkün deyil. Çox güman ki, qüvvələrin nisbəti təxminən bir-birinə yaxın olduğu üçün döyüşün başlanmasına risq edilmədi. "Tarix-i aləmara-yi Abbasi" yə görə "Mirzə Baysunqurun Şirvan ordusu ilə Azərbaycana daxil olduğu xəbərini alan Əmirzadə Rüstəm, Sultan Əli padşahı Aybə sultan və bir dəstə türkman əsgərləri ilə Baysunqur və şirvanlıları dəf etməyə göndərdi. Onlar Araz çayının sağ sahilinə çatdıqda çadırlar qurdular. Hər iki tərəfdə suyun kənarında bərə körpü vardı, aralarındakı get-gəl yolu bir ox məsafəsindən artıq deyildi. İki tərəfdən heç birinin qələbə çalmaq imkanı görünmürdü. Tərəflər [belə] durmağın uzandığından təngə gəldilər. Baysunqur Şirvana döndü. Sultan Əli padşah və Aybə sultan isə Təbrizə gəldilər" (205).

Bəzi məlumatlara görə, Baysunqur Mirzənin rəhbərliyi altında olan qoşunların hərəkət xəbəri alınanda Sultan Əli bu fürsətdən yararlanmağı və atasının da qisasının alınması üçün yürüşə hazır oldu. Bildirilir ki, tərəflərin qoşunları Araz çayı sahillərində düşərgə saldıqdan sonra onların arasında müəyyən mövqe döyüşləri baş verdi. Lakin bu döyüşlər heç bir tərəf üçün ciddi bir nəticə vermədi. Belə olanda qoşunlar geri çəkilməyi qərara aldılar (206).

Tərəflər arasında münasibətlərə yeni bir aydınlıq gətirilməsə də bu heç də o demək deyildi ki, hakimiyyət uğrunda mübarizəyə son qoyulmuş və mövcud vəziyyətlə barışmaq məcburiyyəti yaranmışdı. Çox texliklə müharibənin alovlanması üçün yeni bir səbəb ortaya çıxdı. İsfahan hakimi olan Kosa Hacı Bayandur 1493-cü ilin avqust ayında Ağqoyunlu dövlətinə qarşı üsyan qaldırdı və Rüstəm Mirzəyə tabe olmaqdan imtina edərək Baysunquru ölkə hakimi kimi tanıdığını bildirdi. Bununla bağlı onun adına xütbə də oxutdu. Bu xəbəri eşidəndə Baysunqur Mirzə yenidən cənuba doğru qoşun şəkmək və Təbriz səltənətini ələ keçirmək qərarına gəldi. O, yenidən qoşun toplayaraq cənuba doğru hərəkətə başladı. Yaranmış mürəkkəb vəziyyətdən qalib çıxmaq üçün Rüstəm Mirzə yenidən Sultan Əliyə üz tutaraq onun müridlərinin Baysunqura qarşı mübarizəyə qalxmasını xahiş etdi. Sultan Əli bu xahişi qəbul etdi və yenidən öz müridlərinə hərbi yürüşə hazırlıq göstərişi verdi. Sultan Əli əsas qüvvələri ilə Baysunqura və Şirvanşah qüvvələrinə qarşı döyüşdə iştirak etməli idi. Sufilərdən təşkil olunmuş bir qoşun dəstəsi isə Qarapiri bəy Qacarın rəhbərliyi altında Kosa Hacı Bayandurun üsyanının yatırılmasına göndərildi. Qarapiri bəyin rəhbərliyi altında olan bu sufi dəstəsi verilən tapşırığı bütünlüklə yerinə yetirdi və Rüstəm Mirzə əleyhinə üsyan qaldırmış Kosa Hacı Bayandur məğlub edildi. Onun özü isə öldürüldü ( 207).

Ağqoyunlu və Səfəvi qoşunlarının yürüş hazırlıqları barəsində məlumat alandan sonra Şirvanşah Fərrux Yasar da döyüş hazırlığına başladı. Əvvəlcə Baysunqur Mirzənin rəhbərliyi altında 16 min nəfərlik qoşun dəstəsi Kür çayından adladıldı və cənuba doğru yola salındı. Bu dəstənin Qarabağda düşərgə saldığı bildirilir. Səhəri gün isə Fərrux Yasar qoşunların əsas hissəsi ilə döyüş meydanına yollandı. Mənbələrdə və tarixi ədəbiyyatda Ağqoyunlu qoşunları ilə

Şirvanşah qoşunlarının həm Qarabağda (Bərdə yaxınlığında), həm də Meşkin və Əhər yaxınlığında baş verməsi haqqında məlumatlar mövcuddur. Döyüş meydanına yetişdikdən sonra hər iki tərəf öz qüvvələrini qruplaşdırdı və taktiki vəzifələri müəyyənləşdirdi. Şirvanşah Fərrux Yasar özü də bu döyüşdə iştirak edirdi. O, qüvvələrin mərkəzində qərar tutdu. Şirvanşah qoşunlarının sağ cinah Baysunqur Mirzəyə, sol cinahı isə Şirvanşahların sipəhsaları Kiya Bəhmənə tapşırıldı. Onun oğlu Kiya Məlikə isə çərxçi vəzifəsi həvalə olundu və onun sərəncamına 5 min nəfərlik dəstə verilərək döyüş meydanına göndərildi. Ağqoyunlu-qızılbaş qoşunlarında da döyüşqabağı qruplaşdırılma aparıldı. Sultan Əli qüvvələrin mərkəzinin rəhbərliyini öz üzərinə götürdü. Bu qüvvələrin sağ cinahını Sultan Əli öz lələsi Hüseyn bəy Şamlıya, sol cinahını isə Dədə bəy Talışa həvalə etdi. Aybə sultana isə qoşunların çərxçisi vəzifəsi həvalə olundu (208).

Bu məlumatdan belə bir qənaətə gəlmək olar ki, Ağqoyunlu-qızılbaş qoşunlarının rəhbərliyi Sultan Əliyə tapşırılmışdı. Döyüşü hər iki tərəfdən çərxçilər başladılar. Şirvanşahlar tərəfindən Kiya Məlikin rəhbərliyi altında olan çərxçi dəstəsi, Ağqoyunlular tərəfindən isə Aybə sultanın rəhbərliyi altında olan çərxçi dəstəsi ilkin olaraq döyüş meydanına yeridilər. Şirvanşah çərxçiləri döyüşə çox fəal şəkildə başladılar və qısa zaman ərzində Ağqoyunlu döyüşçülərini xeyli itki yetirdilər. Şirvanşah çərçilərinin rəhbəri Məliyin fəallığı mənbələrdə xüsusi olaraq qeyd edilir. Onun rəhbərliyi altında olan dəstənin yetirə biləcəyi itkilərin qarşısının alınması üçün Aybə sultan da özünü döyüş meydanına atdı. O, Şirvanşah çərxçilərinin rəhbərini nişan alıb ona güclü zərbə endirdi. Bu zərbə hədəfə yetməklə Məliyin qətlinə yol açdı. Öz başçılarını itirmiş Şirvanşah çərxçiləri döyüş meydanını tərk etməyi üstün tutdular (209).

Bundan sonra Şirvanşah çərxçiləri döyüş meydanından çıxarıldılar və sipəhsalar Bəhmənin rəhbərliyi altında olan qüvvələr Ağqoyunlu qoşunları üzərinə atıldılar. Sipəhsalar Bəhmənin rəhbərliyi altında olan sol cinahın hücumu Baysunqurun rəhbərliyi altında mərkəzdə dayanan qüvvələr tərəfindən daha da gücləndirildi. Nəticədə Şirvanşah qüvvələrinin təzyiqi artmağa başladı. Bu təzyiqin nəticəsində öndə olan Ağqoyunlu-qızılbaş qüvvələri geri çəkilmək məcburiyətində qaldı. Ağır vəziyyətdə Aybə sultan da yara aldı. Belə olanda Sultan Əli döyüş meydanına yeni qüvvələr daxil etdi və Şirvanşah qoşunlarının təzyiqinin qarşısını saxlaya bildi. Bu zaman onun nümayiş etdirdiyi əzmkarlıq, qətiyyət döyüş təşəbbüsünün hətta Ağqoyunlu-qızılbaş qüvvələrinin əlinə keçməsinə yol açdı. Mənbələrin verdiyi məlumata görə, Sultan Əli döyüşün gedişində Baysunqurun döyüş bayrağının harada yerləşməsini müşahidə etdi və özü həmin bayrağın ələ keçirilməsi üçün irəli atıldı. Ətrafındakılar onu bu hərəkətdən çəkindirməyə çalışsalar da, Sultan Əli niyyətindən dönmədi və döyüşə-döyüşə özünü Baysunqurun döyüş bayrağına yetirdi. Sultan Əli həm Baysunquru qətlə yetirə bildi, həm də onun döyüş bayrağını ələ keçirdi. Döyüş meydanının mərkəzinin əldən getməsi Şirvanşahların vəziyyətini xeyli ağırlaşdırdı. Belə olanda Şirvanşah Fərrux Yasarın geri çəkilməkdən başqa digər bir seçimi qalmadı. Şirvanşah qoşunları elə bir mürəkkəb vəziyyətə düşdülər ki, düşərgələrini, döyüş

əmlakını döyüş meydanında buraxaraq yalnız geri çəkilmək barəsində düşündülər. Nəticədə Sultan Əli rəhbərliyi altında olan qüvvələrlə Rüstəm Mirzənin ehtiyat etdiyi əsas təhlükəni aradan qaldıra bildi və o, qalib sifətində Təbrizə qayıtdı (210).

Ağqoyunlu hakimiyyətinə ciddi təhlükə olan Baysunqurun və Şirvanşah qoşunlarının yenilməsi xəbəri tezliklə Rüstəm Mirzəyə də yetişdi və o bu xəbəri çox böyük məmnunluqla qəbul etdi. Sultan Əlinin rəhbərliyi və təşkilatçılığı ilə Rüstəm Mirzə əslində iki real təhlükədən nicat tapdı. Bu təhlükənin biri ölkə daxilində, İsfahanda ona qarşı qaldırılmış üsyan idi ki, qızılbaş dəstəsinin vasitəsilə bu üsyan tezliklə yatrıldı. Digər real təhlükə isə Baysunqur təhlükəsiz idi ki, Sultan Əli onu da birdəfəlik aradan qaldırdı. Ona görə də xilaskarı hesab etdiyi Sultan Əli yenidən böyük təntənə ilə qarşılandı. Rüstəm Mirzə özü də onun qarşılanması mərasimində iştirak etdi və bununla bağlı şəhər kənarına çıxdı. Sultan Əli yaxınlaşdıqda Rüstəm Mirzə atdan enərək onu qucaqladı, ona təşəkkürlərini çatdırdı. Bundan sonra onların hər ikisi yenidən atlanaraq şəhərə daxil oldular. Həm Sultan Əli, həm də qızılbaş döyüşçüləri əldə edilmiş qələbə münasibətilə qiymətli hədiyyələrlə mükafatlandırıldılar (211).

"Tarix-i aləmara-yi Abbasi" də Sultan Əlinin əldə etdiyi uğurdan sonra Rüstəm Mirzə tərəfindən yüksək səviyyədə qarşılanması və aralarında yaranmış etimadın nişanəsi kimi, Sultan Əliyə, onun qardaşlarına və anasına Ərdəbilə dönmək icazəsi verildiyini bildirdi. "Sultan Əli Mirzə müzəffər və qalib şəkildə, son dərəcə əzəmətlə və iqtidarla Təbrizə gəldi. Əmirzadə Rüstəm dostanə təşəkkür və minnətdarlıq edərək, o həzrəti sonsuz ehtiram və izzətlə Ərdəbilə tərəf yola saldı. O dinpərvərlik səmasının on dörd gecəlik ayı bu cənnətəbənzər vilayətdə ata-babalarının qaydası ilə hidayət və irşad taxtına oturdu. Əqidə və sədaqət sahibləri fələklə bərabər olan hörmətli astanaya gəlib-getməyə başladılar" (212).

"Aləmara-yi Şah İsmayıl" əsərində isə Ağqoyunlu sarayında qısqanclıq və düşmənçiliyin artmasına görə Sultan Əlinin Təbrizi tərk edərək Ərdəbilə sığınması məcburiyyəti yarandığı qeyd edilmişdir. Bu mənbədəki məlumata görə, Şirvanşah qoşunları üzərində qələbədən altı ay sonra saray əyanlarının Sultan Əliyə qarşı ədavəti gücləndi və onlar Rüstəm Mirzəni də Sultan Əliyə qarşı mövqe tutmağa sövq edə bildilər. Saray əyanlarının fikrincə, Sultan Əli artmış nüfuzundan istifadə etməklə istədiyini edə bilərdi. Ona görə qərara alındı ki, Sultan Əli aradan götürülsün. Bunun üçün plan da quruldu. Həmin plana əsasən, sarayda məclis qurulmalı, Sultan Əli qardaşları və ətrafındakı sufilərlə birlikdə bu məclisə dəvət edilməli və onlar orada həbs edilərək qətlə yetirilməli idilər. Bundan sonra isə ölkə daxilində sufilərə qarşı kütləvi qətllər həyata keçirilməli idi. Ağqoyunlu sarayı daxilində sufi meylli əyanlardan biri gecə ikən hazırlanmış qəsd planı barəsində Sultan Əliyə xəbər çatdırdı və onu duyuq saldı. Sultan Əli də bu xəbəri eşidəndə qardaşlarını və ətrafındakı sufiləri toplayaraq Rüstəm Mirzənin hazırladığı qəsd planı haqqında onları da xəbərdar etdi. Sultan Əlinin yaxın sufilərindən olan Lələ Hüseyn bəy, Dədə bəy Talış, Ustaclı Qarapiri və İlyas bəy vaxt itirmədən Ərdəbilə yollanmağı təklif etdilər. Onların fikrincə, Ərdəbilə toplanmış sufilər arasında onlar təhlükəsiz olacaqdılar.

Rüstəm Mirzənin düşmənçiliiynin davam edəcəyi təqdirdə ona qarşı vuruşmaq, əks təqdirdə dinc yaşayışı davam etdirmək də irəli sürülən təkliflər arasında idi. Sultan Əli bu təklifi qəbul etdi və göstərş verdi ki, tərəfdarları gecə ikən Təbrizi tərk etməyə hazır olsunlar. Bunun üçün onlar həm atlarını səfərə hazırlamalı, həm də papaqlarını dəyişməli idilər ki, tanınmasınlar. Gecə ikən Sultan Əli 400 nəfərlik sufi tərəfdarı ilə Təbrizi tərk edərək Ərdəbilə doğru istiqamət götürdülər. Adı çəkilən mənbədə Sultan Əli ilə birlikdə 400 nəfər sufinin və həm də onun bütün qoşununun Ərdəbili tərk etdiyi bildirilimişdir (213).

Digər mənbələrdə də isə bu məsələ ilə bağlı fərqli bir məlumat vardır. Həmin məlumat tarixi ədəbiyyatda da təkrar olunmuşdur. Mövcud məlumatlara görə, Baysunqur üzərində uğur əldə edildikdən sonra Sultan Əlinin Ərdəbilə köçməsinə icazə verilmiş, amma sonradan yenidən qardaşları ilə birlikdə Təbrizə gətirilmişdi. Səbəb də Ərdəbildə onun ətrafına çoxlu sayda sufilərin toplaşmağa başlaması idi. Bir şübhə yarandı ki, Sultan Əli Ərdəbildə onun ətrafına cəmləşən sufilərlə hakimiyyəti ələ keçirə bilər. Ona görə də qərara alındı ki, o, Təbrizə gətirilsin və burada nəzarət altıda saxlansın (214).

Mənbələrdə o da bildirilir ki, Ərdəbilə dönüş həm Sultan Əlinin özü tərəfindən, həm də onun müridləri tərəfindən böyük sevinclə qarşılandı. Sultan Əli nəhayət ki, asudə şəkildə öz əcdadlarından qalma xanəgahda yerləşdi, əcdadlarından qalma ənənələrin davamına başladı, Ərdəbildə şəriət və təriqət həqiqətlərinin irşadına girişdi. Bununla Ərdəbil xanəgahı yenidən rövnəq tapdı, fəaliyyəti xeyli genişləndi. Təriqət tərəfdarları və təriqətə meylli insanlar arasında Sultan Əlinin Ərdəbilə dönüşü Ərdəbilə olan axını daha da genişləndirdi. Mürşidin ziyarətinə gələnlərin, ona sədaqətini bildirənlərin sayı durmadan artdı və Səfəvi təriqəti yenidən kütləviləşdi və canlandı. Sözsüz ki, Sultan Əlinin belə fəaliyyəti və nüfuzu, onun ətrafında çoxlu sayda sufinin toplaşması və onların öz mürşidləri yolunda fədakarlıqlara hazır olması Rüstəm Mirzənin təşvişlərini artırmağa başladı. Ona görə də Sultan Əli və onun qardaşları, o cümlədən İsmayıl Mirzə (Şah İsmayıl) yenidən Təbrizə gətirildilər (215).

Sultan Əlinin və onun qardaşlarının və tərəfdarlarının qətlə yetirilməsi planı da onların yenidən Təbrizə gətirilməsindən sonra hazırlanmağa başlamışdı. Sonrakı hadisələrin təsvirində isə tədqiqata cəlb olunmuş mənbələrin məlumatları arasında bir oxşarlıq və yaxınlıq vardır. Rüstəm Mirzə tərəfindən elə bir görüntü yaradılmasına cəhd göstərilirdi ki, guya Sultan Əli həbs olunmayıb, sadəcə olaraq yenidən Təbrziə dəvət olunub. Amma həqiqətdə burada o bütünlüklə nəzarət altında idi və güman edirid ki, bu nəzarətin həyata keçirilməsi ilə sufi müridlərinin Sultan Əli ilə əlaqələrinin kəsilməsinə nail olunacaqdır. Əslində isə belə olmadı və vəziyyətin mürəkkəbləşməsinə baxmayaraq, müridlər öz mürşidlərinin ziyarətindən əl çəkmədilər. Təriqət tərəfdarları müxtəlif yollarla Təbrizə gəlir, gizli olaraq Sultan Əli ilə görüşür, ona sədaqətlərini ifadə edir və nəzir-niyazlarını da ona çatdırırdılar. Yəni, Uzun Həsənin varisləri tərəfindən göstərilən bütün təzyiqlərə baxmayaraq Səfəvi təriqətinin nüfuzunu və kütləviliyini zəiflətmək mümkün olmamışdı. Onun çox böyük əhatə dairəsinə malik olması Rüstəm

Mirzənin təşviş narahatçılığını artırmaqda idi. Bu həm də onun göstəricisi idi ki, Sultan Əli əcdadlarının təriqət ənənələrini davam etdirməklə bu ənənənin layiqli davamçısı idi və mürşidliyi yeni bir səviyyəyə qaldıra bilmişdi.

Tarixi ədəbiyyatda olan bir məlumata görə, Sultan Əli və onun qardaşları Ərdəbildən gətirildikdən sonra Təbriz kənarında bir düşərgəyə yerləşdilər. Rüstəm Mirzə də bu düşərgəni nəzarət altına aldı. Sultan Əli nəzarət altına alındıqlarını biləndə Rüstəm Mirzənin görüşünə getdi və ondan nəzarət altına alınmalarının səbəbini soruşdu. Eyni zamanda ona çatdırdı ki, nə etmək lazımdırsa ona bildirsinlər və həmin göstərişləri yerinə yetirməyə çalışacaqdır. Rüstəm Mirzə də ona çatdırdı ki, sufi müridlərinin onun yanına gəkib-getməsindən razı deyildir. Ona görə bir müddət onların gəlib-getməsinə son qoyulsa Sultan Əli haqqında qərəzçiliyə də son qoyula bilər. Sultan Əli bununla razılaşdı və müridlərinin onun yanına gəlib-getməsini azaltmağa çalışdı. Amma bir müddətdən sonra onun və qardaşlarının qətli planının hazırlanması haqqında məlumat aldı (216).

Beləliklə, Sultan Əlinin qardaşları ilə birlikdə Təbrizi tərk etməsi xəbəri alınan kimi, Rüstəm Mirzə onun ardınca qoşun dəstəsi göndərdi. Bu qoşun dəstəsinə rəhbərlik Aybə sultana tapşırldı. Bəzi mənbələrin məlumatına görə, Aybə sultanın tabeliyinə 4-5 min nəfərlik atlı dəstəsi verilmişdi (217). Bu dəstə böyük sürətlə Səfəvi şeyxlərinin və müridlərinin ardınca hərəkət etdi və Ərdəbil yaxınlığında Sultan Əlinin dəstəsini yaxalamaq mümkün oldu. Rüstəm Mirzə tərəfindən belə bir tapşırıq verilmişdi ki, Sultan Əli Ərdəbilə daxil olmamış ələ keçirilsin. Əks təqdirdə, onun Ərdəbil daxilində ələ keçirilməsi çoxlu sayda adamın qırılması ilə başa gələ bilərdi. (Mənbələrdə və tarixi ədəbiyyatda Sultan Əlinin dəstəsinin Ərdəbil yaxınlığındakı Şəmasi və ya Şəmasbi kəndi həndəvərində haqlandığı bildirlir. Əslində isə bu kəndin adı Şam əsbidir).

Yuxarıda qeyd edildiyi kimi, bəzi mənbələr Sultan Əli ilə birlikdə onun qoşun dəstəsinin də hərəkət etdiyini bildirirdi. Bir mənbə isə Sultan Əlinin ətrafında 700 nəfərlik bir dəstənin olduğunu yazırdı (218). Bu məlumatın doğru olacağı təqdirdə, Sultan Əlinin Aybə sultana müqavimət göstərə bilməyəcəyi aydın idi. Təəssüf ki, mənbələrdə Sultan Əlinin Şirvanşah qoşunlarına qarşı uğurlarının icraçısı olan qızılbaş qoşunlarının harada olması haqqında yetərli məlumat yoxdur.

Rüstəm Mirzə tərəfindən göndərilən qoşun dəstəsinə müqavimət göstərilməsi aydın olanda Sultan Əli qardaşı İsmayıl Mirzəni (Şah İsmayılı) yanına çağırdı, təriqət mürşidliyini ona tapşırdı, Heydər tacını onun başına qoydu, kəmərini onun belinə bağladı və sonra da vəsiyyətini etdi. O, İsmayıl Mirzəyə çatdırdı ki, bu son döyüşdə həyatını itirəcəkdir. Ona görə vəsiyyət etdi ki, İsmayıl Mirzə gələcəkdə həm onun, həm də əcdadlarının qisasını Uzun Həsənin övladlarından alsın. Sultan Əli bildirdi ki, bu məsuliyyətli vəzifə onun üzərinə düşübdür və məsləhət bildi ki, Gilana yollansın və orada öz hərəkatına başlasın. Bundan sonra Sultan Əli ətrafındakılardan 7 nəfər etibar qazanmış sərkərdələrin, o cümlədən Lələ Hüseyn bəyin, Qarapiri Ustaclının, Dədə bəy Talışın və

digərlərinin müşayiəti ilə Gilana yollanmalarını, orada Lahican hakiminə sığınmalarını və sonra da oradan hərəkata başlamalarını tövsiyə etdi. Mənbə məlumatına görə, Sultan Əlinin qardaşları onunla qalmağa və onunla birlikdə canlarını qurban etməyə hazır olduqlarını bildirdilər. Amma Sultan Əli bunu qəbul etmədi və bildirdi ki, əgər onlar sağ qalmasalar, onda Səfəvi ocağı da sönər. Lələ Hüseyn bəy də Sultan Əlinin yanında qalmağı təkid etdi. Sultan Əli yenə qəbul etmədi və ona tapşırdı ki, qardaşlarının lələsi olsun. Onda Hüseyn bəy onun ayaqlarından öpdü və sonra da Sultan Əlinin qardaşlarını götürüb Ərdəbilə yollandı (219).

"Tarix-i aləmara-yi Abbasi" əsəri Sultan Əlinin Təbrizi tərk edərək Ərdəbilə çəkilməsini və Ərdəbil ətrafındakı döyüşdə şəhid olmasını belə təsvir etmişdir: "Sufi dəstələrinin cəmlənməsi və iradət sahiblərinin izdihamı (çoxluğu) Mirzə Rüstəmin ürəyində düşmənçilik və paxıllıq atəşini alovlandırdı. [Mirzə Rüstəm] o həzrəti qardaşları ilə bərabər Təbrizə gətirdi. Zahirən hörmət etdiyinə baxmayaraq, sufilərin onun (Sultan Əlinin) yanına gəlib getmələrindən xəbər tutub, mane olmaqdan ötrü gözətçilər qoymuşdu. [Lakin] sufilər və iradət sahibləri o ulu astanaya gələrək, gizlicə nəzirlərini verirdilər, [bununla da] bu astanaya öz bağlılıqlarını imtahan sınağından keçirirdilər. Əmirzadə Rüstəm bu işdən xəbərdar olduqda Sultan Heydərin əhvalatını xatırladı. Nəticədə, xətalı fikrə gələrək, o həzrəti (Sultan Əlini) aradan götürməyə qərar verdi. Məclisdə olanlardan biri o həzrəti padşahın bu hiylə və xəyanətindən agah etdi. Bu hiylənin işığı [Sultan Əlinin] parlaq ürəyinə düşdükdə, «qabağında dayanılmayan şeylərdən qaçmaq peyğəmbərin ənənəsidir» [kəlamında] deyildiyinə uyğun olaraq, gecə gizlincə [ata] minib, Təbrizdən Ərdəbilə tərəf yola çıxdı. Əmir Rüstəm mirzə Aybə sultanı dörd min süvari ilə o ali rütbəli sultanın ardınca göndərdi. [Onlar] Ərdəbil kəndlərindən biri olan Şəmasidə o həzrətə çatdılar. Deyilənə görə, Sultan Əli mirzə ilə birlikdə olanların sayı yeddi yüzdən çox deyilmiş. [Buna baxmayaraq] o, bu az adamla həmin çoxsaylı qoşuna qarşı döyüşə hazırlaşdı. Xeyirxah adamların bir qismi o həzrəti döyüşdən çəkindirmək və [başqa bir] çarə axtarmaq fikrinə düşdülər. O həzrət övliyalıq nuru ilə özünün şəhid olacağı şəklini tale səhifəsi üzərində gördüyünə görə sufiləri və Səfəvi sülaləsinin tərəfdarlarını yığıb, o vuruşmada şəhid olacağını onlara xəbər verdi. [Sultan Əli mirzə] xoşbəxt qardaşı, yəni hökmdarlıq nuru mübarək alnından parıldayan Süleyman şanlı xaqanı (İsmayıl Mirzə - Şah İsmayıl nəzərdə tutulur - M.S.) öz yerinə vəliəhd və qaimməqam təyin etdi. [Eyni zamanda], bu xanədanın mürşidlərinin irşad vaxtı işlətdikləri rəmz və sirləri hörmətli atası və şöhrətli babalarından irsən aldığı kimi [İsmayılın] ali qəlbinə əmanət tapşırdı, öz mübarək tacını o həzrətin başına qoyaraq, onu inandığı adamlara həvalə etdi və ona çoxlu sifarişlər verdi. [Sultan Əli] ilhamverici dili ilə bəyan etdi ki, Mürtəza [Əli] xanədanının çırağı onun (İsmayılın) vücudundan parlayacaq, onun göylərə yüksələn bayrağının ayparası böyük əzəmətə çatacaq və onun ədalətinin işığı aləmdə yaşayanların üzərinə nur sacacaqdır. [Sultan Əli mirzə] vəsiyyətini bitirdikdən sonra döyüş meydanına qədəm basdı. Doğru

danışan dili ilə dediyi kimi, düşmənlər qələbə çaldılar, o həzrət (Sultan Əli) isə şəhidlik şərbətini içdi (öldürüldü). Bu canyandıran hadisədən sonra əqidə sahiblərinin arasına təfriqə düşdü, hər kəs bir tərəfə dağıldı. Hüseyn bəy Lələ, o vaxt Xadim bəy adı ilə tanınan Xəlifətül-xüləfa və Dədə bəy o həzrətin mübarək cəsədini darülirşad [Ərdəbilə] gətirərək, Səfəviyyənin mübarək, nurlu məqbərəsində dəfn etdilər. Allah ona rəhmət eləsin!" (220).

Bir məlumata görə isə, ətrafındakılar Sultan Əliyə qardaşları ilə birlikdə Ağqoyunlu qoşunları ilə qarşılaşdıqları məntəqədən uzaqlaşmağı məsləhət gördülər. Məlumata görə, Aybə sultanın tabeliyində olan qoşun dəstəsinin əksəriyyətini gürcülər, emənilər və çərkəslər, yəni qeyri-müsəlmanlar təşkil edirdilər. Bildirilir ki, müridləri şeyx övladlarının salamat geri çəkilmələri üçün özləri Aybə sultanın dəstəsi ilə vuruşmaq niyyətində idilər. Amma Sultan Əli bu təklifi qəbul etmədi və müridlərinə də bildirdi ki, haqq dünyasından Sultan Cüneyd və Sultan Heydərdən sonra onun da şəhid olacağından xəbərdar olmuşdur. Sultan Əli bəyan etdi ki, əgər belə bir qədər varsa, onun şəhidliyi ilə qardaşı İsmayılın zühuruna yol açılacaqdır. Sonra da yuxarıda adları xatırlanan xəlifələri yanına çağıraraq İsmayıl Mirzəni onlar tapşırdı və bildirdi ki, çox tez zamanda onun günəşi parlayacaqdır (221).

Sultan Əli malik olduğu hərbi keyfiyyətlərini bu qarşılaşma zamanı da nümayiş etdirdi. Baxmayaraq ki, onun ətrafında az sayda müridləri var idi və onlar Aybə sultanın dəstəsi tərəfindən mühasirə olunmuşdular, bununla belə sufi müridləri ağır döyüşü böyük rəşadətlə qarşıladılar. Sultan Əli də bu döyüş zamanı düşmən silahının qurbanı olmadı, adi bir təsadüf nəticəsində həyatını dəyişməli oldu. Yəni, qızılbaş döyüşçüləri çoxsaylı Ağqoyunlu döyüşçüləri qarşısında aciz qalmadılar. Əksinə, sayca az olmalarına baxmayaraq hərbi baxımdan onlardan üstün olmalarını sübut etdilər. Doğrudur, mənbələrdə bu qarşılaşma haqqında geniş məlumat yoxdur və Ərdəbil həndəvərində Sultan Əlinin dünyasını dəyişməsi ilə nəticələnən döyüşün necə getməsi haqqında əhatəli təsəvvür əldə etmək mümkün deyildir. Mövcud olan məlumatlarda da rəvayət məzmunu güclü hiss olunmaqdadır.

Mövcud məlumata görə, döyüşün başlanğıcında Ağqoyunlu döyüşçüləri Sultan Əlinin dəstəsini mühasirəyə aldılar. Amma qızılbaşlar elə bir hünər göstərdilər ki, az bir zaman içərisində Ağqoyunluların min nəfərlik döyüşçüsünü qətlə yetirdilər. Bu döyüşdə Aybə sultanla Sultan Əlinin də qarşılaşması baş verdi. Əvvəlcə Aybə sultan onun üstünə atılaraq onu qətl yetirməyə çalışdı. Onun fikrincə, Sultan Əlinin qətlə yetirilməsi ilə onun dəstəsi də müqaviməti dayandıracaqdı. Amma ona yaxınlaşanda özünü itirdi, canına bir vəlvələ düşdü, hətta geri çəkilmək də istədi. Bunu Sultan Əli görəndə onun ardınca düşdü. Aybə sultan qalxanla mühafizə olunsa da Sultan Əlinin güclü qılınc zərbəsi onu iki yerə böldü. Ağqoyunlular dəstə rəhbərinin öldürülməsi xəbərindən sonra döyüşü dayandırmaq istədilər. Lakin Sultan Əlini döyüş meydanında görəndə onun üstünə atıldılar və onu şəhid etdilər. Qızılbaş döyüşçüləri o vaxt özlərini mürşidlərinə çatdıra bildilər ki, o artıq həyatını itirmişdi. Onda döyüş təhlükəsinə

baxmayaraq onun nəşini oradan götürərək Ərdəbilə çatdırdılar. “Əhsənüt təvarix əsərində Sultan Əlinin və onun rəhbərlik etdiyi qoşun dəstəsinin bu döyüş zamanı göstərdiyi hünər aşağıdakı kimi təsvir olunmuşdu: “Sultan Əli padşahın qaçmasından və kinli qazilərin toplanmasından xəbər tutan Rüstəm bəy cəhalət və nadanlıq üzündən Hüseyn bəy Əlixanlı adlı dayısı oğlunu Aybə sultanla ittifaqda güclü bir qoşunla Sultan Əli padşaha qəsd etmək üçün Ərdəbilə göndərdi. Mərhum şahzadə Sultan Əli padşah övliyalıq nuru ilə bildi ki, düşmənlərin əlindən şəhidlik şərbətini içəcəkdir. [Buna görə də] tacını başından götürüb, İsgəndər şanlı xaqanın başına qoyaraq onu Ərdəbilə göndərdi. Bu əsnada düşmən əsgərləri göründülər. Aybə sultan bir dəstəni pusquda qoyub, özü döyüş və vuruş meydanına yönəldi. Sultan Əli padşah düşmənlərin qarşısında səf qurdu. Gözü onların bayrağına sataşdıqda, qəzəbli aslan kimi heç nədən qorxub çəkinməyərək onlara həmlə etdi, çoxsaylı səfləri bir-birinə vurdu və elə döyüşdü ki, Rüstəm və İsfəndiyar dastanını kölgədə qoydu. O həzrət gah misri qılıncla boyunların üzərindəki başları bədəndən ayırır, gah da nizə ilə ayrı-ayrı dilavərləri bir-birinə bitişdirir, sivri ox tikanı ilə vücud köynəyində səbanın gül qönçəsini açdığı kimi yaralar açır, qan tökən nizənin ucu ilə ömür qəbasını sərsər küləyi kimi zay edərək onu deşib lalə rənginə döndərir, ömür budağından həyat çiçəyini külək kimi yoxluq torpağı üzərinə tökür, iti poladla daşa və zindana bənzər ürəklərdə atəş yandırır və od saçan yaranın küləyi ilə düşmənin qanını su kimi torpağın səthinə axıdırdı. Aybə sultan və Hüseyn bəy Əlixanlı ona tab gətirməyib idbar üzlərini fərar vadisinə çevirdilər. Qızılbaş qoşunu və dərbədər qazilər qənimət toplamaqla məşğul oldular. Aybə sultanın qoşunlarının pusquda duran dəstəsi xilaf qılıncını qılafdan çıxarıb, qarətlə məşğul olan adamları iti qılınca yem etdilər. Həmin an Sultan Əli padşahla birlikdə olan təxminən üç yüz nəfərlik dəstə düşmənlərə həmlə etdi. Onun at çapdığı yolun üzərində bir nəhr vardı. O həzrət oraya düşdü və onun boynu qırıldı. Düşmənlər onun mübarək başını bədənindən ayırdılar və Rüstəm bəyə göndərdilər” (222).

Bəzi mənbələrdə, Aybə sultanın Sultan Əli ilə döyüşdə deyil sonradan öldürüldüyü bildirilir (223).

Amma həm bəzi mənbələrdə, həm də bəzi tarixi ədbiyyatda Sultan Əlinin döyüş meydanından qaçan bir dəstə Ağqoyunlu döyüşçüsünün təqib edilməsi zamanı at belində çaya yıxılması, boynunda aldığı zədə üzündən sudan çıxa bilməməsi və suda boğulması haqqında məlumatlar mövcuddur (224).

Yuxarıda qeyd edildiyi kimi, Sultan Əlinin nəşi sonradan Ərdəbilə gətirildi və əcdadlarına məxsus olan Şeyx Səfi türbəsində dəfn edildi. Anası Aləmşah bəyim Sultan Əlinin şəhid olmasından çox qəmgin oldu. O, Uzun Həsənin övladlarına lənətlər yağıraraq Allaha dua etdi ki, şeyx övladlarının nahaq axıdılmış qanı yerdə qalmasın. Sultan Əlinin öldürülməsi isə Rüstəm Mirzənin təşvişlərinə heç də son qoymadı. O Səfəviyyə təriqətinin necə böyük nüfuza və gücə malik olduğunu yaxşı bilirdi və şübhə etmirdi ki, Sultan Heydərin sağ qalmış övladları bu təriqəti yenidən canlandırmaqla Ağqoyunlau hakimiyyətinə real təhlükə yarada bilər. Dərhal da bu təhlükənin birdəfəlik aradan qaldırılması

üçün tədbirlər görməyə başladı və onun göstərişi əsasında İsmayıl Mirzə ilə İbrahim Mirzənin axtarışına başlandı.

"Xolde bərin"də Sultan Əlinin şəhidliyi ilə bağlı olan məlumatlar bir qədər də konkretləşdirilmişdir. Bu əsərdə bildirilir ki, Aybə sultanın və Hüseyn bəy Əlixaninin rəhbərliyi altında olan qoşun dəstəsi yaxınlaşanda Sultan Əli öz dəstəsi ilə döyüş qabağı mövqe tutdu, onları təşkilatlandırdı və qəzəbli şir kimi özünü meydana atdı. Bu əsərdə də döyüşün qızılbaşların üstünlüyü şəraitində keçməsi və Ağqoyunluların geri çəkilmək məcburiyyətində qalması təsdiq olunur. Amma o da bildirilir ki, sonsuz mübarizlik göstərərək çoxsaylı Ağqoyunlu dəstəsini geri çəkilməyə məcbur edən qızılbaşlar Ağqoyunlu dəstəsinin sahibsiz qalmış əmlakını, əşyalarını gördükdə başları onların talanmasına və ələ keçirilməsinə qarışdı. Ağqoyunlular da bundan dərhal istifadə etdilər və qızılbaşlara yenidən zərbə vurdular. Sultan Əli bu dəfə öz döyüşçülərini toplayıb nizamlaya bilmədi və sağ qalmış 300 nəfərlik dəstə ilə o da geri çəkilmək yolunu tutdu. Ağqoyunlular tərəfindən təqib olunan zaman onun atı qarşıya çıxan çayı keçərkən yıxılmalı olur. Sultan Əli də bu zaman boynundan zədə alır və hərəkəti ləngidiyi üçün Ağqoyunluların əlinə keçir. Ağqoyunlu döyüşçüləri onu qətlə yetirirlər və başını bədənindən ayıraraq Rüstəm Mirzəyə hədiyyə aparırlar (225).

Sultan Əlinin şəhid olması tarixi ilə bağlı həm mənbələrdə, həm də tarixi ədəbiyyatda müxtəlif rəqəmlər göstərilir. Müəlliflər onun şəhidlik tarixinin 1494-1495-ci il olmasına daha çox üstünlük verirlər.

Sultan Əlinin şəhid olması ilə Səfəvilər tarixinin mühüm bir dövrü başa çatdı. Bu dövr Sultan Cüneyddən başlanan və Sultan Heydər tərəfindən davam etdirilən təriqət dünyəviləşməsinin daha da genişlənməsi və inkişaf dövrü idi. Sultan Əli bir tərəfdən əcdadlarından irs qalmış təriqəti möhkəmləndirdi, onun tərəfdarlarının sıralarını genişləndirdi, təriqət təbliğatında kifayət qədər nüfuz qazandı. Eyni zamanda Sultan Əli təriqət tərəfdarlarının təşkilatlanmasını, hərbiləşməsini daha da gücləndirdi. O, həm təriqət istiqamətini, həm də dünyəviləşmə istiqamətini inkişaf etdirdi, həm də onların sıx vəhdətini təmin etdi və öz fəaliyyəti ilə Səfəvi təriqət bayrağı altında hakimiyyət uğrunda real mübarizə aparılmasına zəmin yaratdı. Sultan Əli təriqət hərəkatında dini və dünyəvi hədəflərə elə bir canlı məzmun gətirdi ki, onun şəhidliyindən sonra da bu hərəkat zəifləmədi, əksinə İsmayıl Mirzə (Şah İsmayıl) açıq fəaliyyət səhnəsinə çıxanda bu təriqət böyük gücü ilə ona öz sədaqətini nümayiş etdirdi.

## 9. İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Ərdəbili, İbn Bəzzaz. Səffətül-Səfa. Təbriz, 1373, s. 57-58
2. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 10-11
3. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.48
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.37. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.
4. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 5-6
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 1-2
5. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.37-38
6. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 3-4
7. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 12
8. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 5
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.38
9. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 2007, s. 117
10. Tarix-i aləmara-yi Abbasi, s.38
11. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.5-6
12. Tarix-i aləmara-yi Abbasi, s.38-39
13. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.6-7
14. Tarix-i aləmara-yi Abbasi, s.53
15. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1374, s.26
16. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.63
17. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s., s.40-41
18. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.8
19. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.73
20. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 15
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.8
Əmir Hüseyn Xonci. Tarix-e Şah İsmayıl Səfəvi. www.aqeedeh.com
21. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.79
22. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.42
23. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 16
24. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.133
25. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.12
26. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 13
27. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s.36
28. Əmir Sədrəddin İbrahim Əmini. Fütuhati şahi. Tehran, 1383, s. 21
29. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 118
30. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 13
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 37
31. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 38

32. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 102
33. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 120
34. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.11
35. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 121
36. Yenə orada, s. 120
37. Yenə orada, s. 121
38. Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 20
39. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s. 44
40.Təşkil-e şahənşahi-ye Səfəvi. Tehran, 1346, s. 61-62.
41. Tarix-i aləmara-yi Abbasi, s.44-45
42. Yenə orada, s. 45
43. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.40
44. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 41
Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 42
45. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.42
46. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s.126
47. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 43
48. Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 22
49. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 44
50. Yenə orada, s. 50
51. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.46
52. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 45
53. Yenə orada, s.46
54. Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 101
55. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.14-15
Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 24-25
56. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.46-47
57. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 16-17
58. Təşkil-e şahənşahi-ye Səfəvi. Tehran, 1346, s. 65
59. Məhəmməd Rza Səfakiş. Səfəviyan dər qozərqah-e tarix. Tehran, 1390, s. 45
60. Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 99
61. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s.130
62. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.48-49
63. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 105
64. Məhəmməd Rza Səfakiş. Səfəviyan dər qozərqah-e tarix. Tehran, 1390, s.46

65. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.50
66. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.30
67. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 50
68. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 65-66
69. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.36
70. Yenə orada
71. Tarix-i aləmara-yi Abbasi, s.50-51
72. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 132
73. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s. 18; Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul? 2007, s. 104-105
74. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s. 146-147
75. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.37
    Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.47
76. Həsən bəy Rumlu. Əhsən ət-təvarix. Tehran, 1349, s.407
    Mirzə bəy Xonabadi. "Rövzətüs Səfəviyyə", Tehran, 1378, s.93
77. Əmir Hüseyn Xəncəni. Tarix-e Şah İsmayıl Səfəvi, s.22 (elektron variant)
78. Tarix-i aləmara-yi Abbasi, s. 51
79. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 22
80. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 23
    Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aəlara-yi Şah İsmayıl" əsəri əsa sında). Bakı, 2011, s.98
81. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 22-23
    Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsa sında). Bakı, 2011, s.99
82. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 24
83. Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s.105
84. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.24
85. Yenə orada
86. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.51
87. Əhməd Kamranifər. Təkapuha-ye nizami-ye səfəviyan dər rah-e rəsidən be qodrət (Cüneyd, Heydər, İsmayıl).
88. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s.133
89. Əmir Hüseyn Xəncəni. Tarix-e Şah İsmayıl Səfəvi, s.31 (elektron variant)
90. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s. 20
91. Yenə orada, s.22
92. Yenə orada

93. Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 110
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.23
94. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.23
Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.264
95. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.23
Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 110
96. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.24
Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.264
97. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.24
Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.264
Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 111
98. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s. 27
99. Yenə orada, s. 28
100. Yenə orada
101. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.24
102. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.36
Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.265
103. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Tehran, 1349, s.408
104. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.24
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.36
105. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.265
106. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.38
Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.266
107. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.38
108. Əhməd Kamranifər. Təkapuha-ye nizami-ye səfəviyan dər rah-e rəsidən be qodrət (Cüneyd, Heydər, İsmayıl).
109. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 31
110. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.266
111. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.51
112. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.52
113. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 108
114. Mirzə bəy Xonabadi. "Rövzətüs Səfəviyyə", Tehran, 1378, s.94
115. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s.39
116. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 25
117. Əbülqasım Tahiri. Tarix-e siyasi və ictimai-ye İran. Əz mərg-e Teymur ta mərg Şah Abbas. Tehran, 1383, s.163
118. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 52
119. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.51

120. Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 116-117
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 139
121. Mirzə bəy Xonabadi. "Rövzətüs Səfəviyyə", Tehran, 1378, s. 94
122. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.266
123. Mirzə bəy Xonabadi. "Rövzətüs Səfəviyyə", Tehran, 1378, s.94
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.31
124. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 25
125. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.53
Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 117
126. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.41-42
127. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 53
128. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 240
http://ghbook.ir/index.php?option=com_mtree&task=viewlink&link_id=11550
129. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.54
Rəsul Cəfərian. Nəqş-i xanədan-e Kərəki dər təsis və tədavüm-e dövlət-e Səfəvi. Tehran, 1387, s.72
130. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.41-42
131. Петрушевский И.П. Государства Азербайджана в XV веке, с. 168/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.153-213
132. Yenə orada, s. 169
133. Fəzlullah ibn Ruzbeh Xoncii İsfahani. Aləmara-yi Əmini, s. 240
134. Петрушевский И.П. Государства Азербайджана в XV веке, с. 169
135. Петрушевский И.П. Государства Азербайджана в XV веке, с. 169
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.67
136. Петрушевский И.П. Государства Азербайджана в XV веке, с. 169
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.68-69
137. Петрушевский И.П. Государства Азербайджана в XV веке, с. 170
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.69
138. 136. Петрушевский И.П. Государства Азербайджана в XV веке, с. 170-171
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.69
139. Qiyasəddin ibn Hüməməddin Hüseyni Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, 1380, s. 426 (http://ghbook.ir/index.php?option=com_mtree&task=viewlink&link_id=11672)
140. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 54
141. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 267
142. Fəzlullah ibn Ruzbeh Xoncii İsfahani. Aləmara-yi Əmini, s. 268
143. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 54-55

144. Mirzə bəy Xonabadi. "Rövzətüs Səfəviyyə", Tehran, 1378, s.97
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.88
145. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 54
146. Yenə orada, s. 54-55
147. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 26
148. Yenə orada, s.27
149. Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul. 2007, s. 122
150. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 269
151. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 55
152. Həsən bəy Rumlu. Əhsən ət-təvarix. Tehran, 1349, s.609-610
153. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 269
154. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.269
155. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 269
156. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.100
157. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 244
158. Yenə orada
159. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 244
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.100
160. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 244
Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 55
161. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.54
162. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.101
163. Yenə orada, s. 102
164. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 245
165.Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 246
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.103
166. Həsən bəy Rumlu. Əhsən ət-təvarix. Tehran, 1349, s.616
Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonu, 2017, s.325-326
Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.
dokupdf.com/download/hsn-by-rumlu-hsnt-tvarix-oqtay-fndiyev-namiq-musal- _5a3ce927d64ab2a614f64162_pdf
167. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 247
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.103-104
168. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 248
169. Yenə orada, s. 249
170. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.55
171. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 153
172. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.52
173. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Tehran, 1349, s.617
Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 325
Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.272

174. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 27
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.104
175. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.104
176. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 27
177. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 253
178. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.53
Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 27
Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.56
179. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.27
180. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.56
181. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.107
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 153
182. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 257
183. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 45
184. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.28
185. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.56
186. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.109
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 154
187. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 259-260
188. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Tehran, 1349, s.618
Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 326
189. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 28
190. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.109-110
191. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.274
192. Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 28
Abbas Ramazani. Cəngha-ye tarix-e İran də əsr-e Səfəviyan. Tehran, 1391, s.17
193. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1374, s.35
194. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.59-60
195. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.116
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 214
196. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.60-61
197. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 51-52
198. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 30
199. Yenə orada, s.30
200. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 30
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah

İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.107
201. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 116
202. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 30
203. Yenə orada
204. Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 29
205. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.62
206. Cahanbəxş Səvaqib. Səfəvi şeyxləri ilə Şirvanşahlar arasında siyasi-hərbi münasibətlərin araşdırılması və təhlili (fars dilində) s. 24/ Pejuheşha-ye tarixi, N-1, 1392, s.1-34
207. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.36
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 220
208. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 30
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.108
209. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 31
210. Yenə orada
211. Yenə orada, s.31
212. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.62
213. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 32
214. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.67
Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.62
Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 28
215. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.67
216. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 116
217. Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 30
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 32
218. Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 30
219. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 33
220. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.62-63
221. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 117-118
222. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.34
Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 342
223. Qiyasəddin ibn Hüməməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər. S. 2280

224. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 58
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s. 120
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 221
Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.278
225. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.64

# II FƏSİL

## SƏFƏVİ DÖVLƏTİNİN YARADILMASI

### 1.İsmayıl Mirzənin anadan olması və sürgünlük həyatı

Sultan Əli tərəfindən Səfəvi təriqətinin rəhbəri və mürşidi elan edilmiş İsmayıl Mirzə hicri tarixi ilə 892-ci il rəcəb ayının 25-də, çərşənbə axşamı, miladi tarixlə 1487-ci il iyul ayının 17-də Ərdəbildə dünyaya gəlmişdir. İsmayıl Mirzə ata xətti ilə Səfəvi xanədanının nəsil xəttini davam etdirməklə, ana tərəfdən Ağqoyunlu dövlətinin ən tanınmış hakimlərindən olan Uzun Həsənə bağlanılırdı. Yuxarıda qeyd edildiyi kimi, İsmayıl Mirzənin anası Aləmşah bəyim (Marta) Uzun Həsənin Katrinadan olan qızı idi. İsmayıl Mirzə ailəsinin kiçik oğlu idi. Mənbələrdəki məlumatlara görə, atası Sultan Heydər böyük oğullarını müşahidə etdikcə hakimiyyət nişanəsini onların üzündə hiss etmirdi və ona görə də Allaha çoxlu-çoxlu dua edirdi ki, onun varisi ola biləcək bir övladı olsun. İsmayıl Mirzə dünyaya gələndən sonra dövrünün münəccimləri atasının intizarında olduğu övladın dünyaya gəldiyini və İsmayıl Mirzənin taleyinin də ilk imam Əmir əl-mömünin Həzrət Əlinin taleyinə oxşar olduğunu bəyan etdilər. Münəccimlər eyni zamanda dünyaya gəldiyi anda İsmayıl Mirzənin ovcunda qan damlasının olmasını da onun həm cəsurluq rəmzi, həm də həyatının mübarizələrdə keçəcəyinin əlaməti kimi dəyərləndirdilər. Mənbələrdə olan məlumata görə, Sultan Heydər yeni oğlunun olması xəbərini eşidəndən sonra Quranın İbrahim surəsinin 39-cu ayəsini dilə gətirdi. Həmin ayədə həzrət İbrahimin dilindən Allaha şükr edilirdi ki, yaşlı vaxtında ona İsmayılı bəxş etdi. Bu ayədə Həzrət İsmayılın adı çəkildiyi üçün Sultan Heydər də oğlunu İsmayıl adlandırdı. (1).

"Tarix-i aləmara-yi Abbasi" əsərində İsmayıl Mirzənin dünyaya gəlişi belə təsvir edilmişdir: "...o həzrətin doğumu Uzun Həsənin ölümündən on il keçdikdən sonra, 892-ci il rəcəb ayının 25-də, seşənbə günündə (17.07.1487) baş vermişdi. [Əbcəd hesabı ilə] bu hadisənin tarixi bu cürdür: «Be taleyi əqrəb ruy dad tülu-yi neyr-i şah İsmail» («şah İsmayıl günəşinin doğması əqrəb bürcündə üz verdi»). Amma azyaşlı olsa da, fəhm və fərasətdə, ağıl və bilikdə elə təəccüblü bir əlaməti vardı ki, ilk baxışda dünyanı idarə etmək bacarığı onun mübarək çöhrəsindən görünür, işıqlı alnından ilahi nur saçılırdı. Bu məqamda iki müdrik nöqtə xatirimə gəldi. Biri odur ki, Səfəvilərin müqəddəslik nişanlı sufiləri olan qızdbaş təbəqəsinin dövlət sahibi olması Allahın istəyində qərar tutduğu üçün «qızılbaş» və «dövlət» sözləri [əbcəd hesabı ilə] ədədlərin cəmi baxımından bərabərdirlər. Digəri isə odur ki, Qızılbaş dövlətinin ibtidası və bu tayfanın yüksəlişinin başlanğıcı Süleyman şanlı xaqan həzrətlərinin səxsiyyəti ilə əlaqədar olduğu üçün «Qızılbaş dövlətinin başlanğıcı» («Bədv-i doulət-i Qezel-

baş») sözləri [əbcəd hesabı ilə] ədədlərin cəmi baxımından o həzrətin doğum tarixinə bərabərdir. Ali məiyyətin mülazimləri xilafət çəməninin bəzəyi olan o yeniyetməni gözəl etiqad zülalı ilə bəsləyirdilər, qeybdən ilham alaraq, onu yüksək şahlıq ünvanı ilə adlandırırdılar və azyaşlı olmasına baxmayaraq, mətin əqidə və iradə ilə onu mürşidi-kamil və şah [deyə] çağırırdılar" (2).

Həmin mənbədə İsmayıl Mirzənin vəsfi bu cümlələrdə öz ifadəsini tapmışdır: "Ürəyaçma məclisinin nəğməçiləri və söz meydanının döyüşçüləri gözəl rəftarlı, bəyənilmiş xasiyyətli, fatehlik döyüşünün sıralarını bəzəyən, [Allahı] axtarma düzənliyini ötüb keçən, səadət məclisini zinətləndirən, cah-calal səmasının dünyanı işıqlandıran günəşi, Heydəri dövlətinin dünyanı əks etdirən camı, on iki imamın («isna-əşəri») haqq məzhəbinin güzgüsü, sultanların [barmaqla] göstərdiyi sultan, ölkələrin şahlıq taxtını ələ keçirən, yəni Süleyman şanlı xaqanın zühur etməsini bu tərənə ilə tərənnüm etmişlər və o Mürtəza [Əli] xasiyyətli, ali nəslə mənsub şahın ölkələri tutma, dünyanı fəth etmə xəbərlərini, onun igidlik, döyüşçülük əlamətlərini rəvayət etmə məclisində bu cür şərh etmişlər ki, gözəl təbiətli qardaşının şəhid olması, xəyanət və kin sahiblərinin ağalığı ələ keçirməsindən sonra pak etiqadlı sufilər şöhrətli qardaşının vəliəhdi olan o «vilayət» bürcünün dürrü..." (3).

İsmayıl Mirzə dünyaya gələndə onun xanədanı artıq qovğalı bir həyat sürürdü və bölgədə çoxlu sayda tərəfdarlara malik olan bir təriqətin mürşidliyini öz üzərinə götürmüşdü. Məlum olduğu kimi, bu təriqətə qarşı dövrün hakimləri tərəfindən təzyiqlər və təqiblər başlamışdı. Buna görə də İsmayıl Mirzə əslində elə anadan olduğu gündən ailəsi ilə birlikdə dövrünün sərt və çətin sınaqları ilə qarşılaşmalı olmuşdu. Sultan Heydərin həyat yoldaşı və bütün övladları Şiraz yaxınlığındakı İstəxr qalasına həbsə göndəriləndə İsmayıl Mirzənin cəmi bir yaşı var idi. Atasının şəhid düşməsindən sonra Ağqoyunlu hakimiyyətinin daha təhlükəli təqibləri ilə qarşılaşanda isə İsmayıl Mirzənin cəmi 7 yaşı var idi.

Sultan Əlinin şəhid olması onun qardaşları, ailəsi və təriqət tərəfdarları üzərindəki təhlükəni heç də sovuşdurmadı. Rüstəm Mirzə Səfəviyyə təriqətinə qarşı başladığı təqibi sona çatdırmaq və bu təriqətin yarada biləcəyi təhlükəni birdəfəlik aradan qaldırmaq üçün Sultan Əlinin qardaşlarının tapılması və məhv edilməsi barəsində göstəriş verdi. Onun əmri əsasında Sultan Əlixan Ərdəbil hakimi təyin edildi və ona tapşırıldı ki, Sultan Heydərin övladları tapılsın və məhv edilsin (4).

Sultan Əlinin şəhid olmasından sonra İsmayıl Mirzə ilə İbrahim Mirzə Səfəvi qızılbaş əmirlərinin müşayiəti ilə Ərdəbilə gəldilər. Anaları Aləmşah bəyim ilk gün onları Şeyx Səfi türbəsində gizlətdi, özü isə Sultan Əlinin dəfn işləri ilə məşğul oldu. Mövcud məlumatlara görə, bir gün sonra Aybə sultanın rəhbərliyi altında olan qoşun dəstəsi Ərdəbilə daxil oldu və Sultan Heydərin övladlarının tapılması üçün onlar bütün şəhəri ələk-fələk etməyə başladılar. Yaranmış fürsətdən istifadə edən Ağqoyunlu silahlıları Ərdəbildə çox böyük talan və qarətlərlə məşğul oldular və şəhərə çox böyük dağıntılar yetirildi. Bu axtarışlar zamanı İsmayıl Mirzə ilə İbrahim Mirzə tapılmasa da, şəhərə və şəhər

əhalisinə böyük ziyanlar vuruldu. Bəzi məlumatlara görə, isə Rüstəm Mirzə tərəfindən Ərdəbil hakimi təyin edilən Sultan Əlixan Sultan Heydərin övladlarının tapılması məqsədilə şəhərdə axtarışlar həyata keçirməklə, sonsuz talan və qarətlərə də əl atdı (5).

Şəhərdə aparılan axtarışların Şeyx Səfi türbəsinə çatacağı qızılbaş əmirlərində və müridlərində şübhə doğurmadığı üçün İsmayıl Mirzə və qardaşı oradan çıxarıldı və onlar qazı Əhməd Kakulinin evində yerləşdirildilər. Şeyx övladları Əhməd Kakulinin evində üç gün qaldılar. Bəzi mənbələrin məlumatına görə, qazı Əhməd Kakulinin evi insanların gediş-gəlişi çox olan yolun üzərində idi. İsmayıl Mirzənin və qardaşının bu zaman nəzərə çarpması ehtimalı var idi. Ona görə aparılan axtarışlardan daha etibarlı şəkildə mühafizə olunmaq üçün İsmayıl Mirzənin qardaşı ilə birlikdə yerinin dəyişdirilməsi lazım bilindi və onlar Xəncan adlı bir xanımın evinə aparıldı. Bu zaman İsmayıl Mirzənin 7 yaşı var idi və o düz bir ay Xəncan xanımın evində gizlində qaldı. Həmin müddət ərzində Xəncan xanım şeyx övladlarını hər tərəfli qayğı ilə əhatə etdi, onların xidmətində dayandı. İsmayıl Mirzənin Xəncan xanımın evində olması barəsində bibisi Paşa xatundan başqa kimsənin xəbəri yox idi. Hətta anası Aləmşah bəyimin də İsmayıl Mirzənin harada olmasından xəbəri yox idi. İsmayıl Mirzənin hamiləri Ağqoyunlu silahlılarının Aləmşah bəyimə təzyiq edəcəcklərini bilirdilər. Ona görə, ona övladlarının harada olması barəsində məlumat verilməmişdi. Doğrudan da, Aybə sultanın silahlıları tərəfindən Aləmşah bəyimə təzyiqlər göstərildi. Aləmşah bəyim isə özü xəbərsiz olduğundan göstərilən təzyiqlər bir nəticə vermədi. "Əhsənüt təvarix" əsərinin müəllifi yazır: "O həzrət üç gün Qazı Əhməd Kakulinin evində qaldı. Adı çəkilən qazının evi nurlu və ətirli astananın (Şeyx Səfi məqbərəsinin) yaxınlığında idi. Ora düşmənlərin gəliş-gediş və camaatın keçiş yolu üzərində yerləşdiyindən, narahat bir yer idi. Bir şəxs "O uşağa baxacaq, həm də ona yaxşı davranacaq bir ailəni sizə nişan verimmi?" [Qurani-Kərimin "Qəsəs" surəsinin 12-ci ayəsinə] vasitə olub, onu (İsmayılı) Xancan adlı bir arvadın mənzilinə apardı. [İsmayıl] təxminən bir ay onun mənzilində oldu və həyat (dirilik) çeşməsi kimi düşmənlərin nəzərindən gizli qaldı. Ondan sonra Şah Paşa xatunun məsləhəti ilə onu zülqədər qəbiləsindən olan Aba adlı qadına tapşırdılar. Bu qadın alinəsəb şahzadənin südəmərlik əyyamında ona xidmət etmişdi. O, İsgəndər şanlı xaqanı sözügedən Xancanın evindən götürüb, Ərdəbil məhəllərindən olan Rumilər məhəlləsindəki öz mənzilinə apararaq bir neçə gün saxladı və oradan onu Ərdəbilin cümə məscidinin civarındakı Allahvermiş ağa məqbərəsinin günbəzinə aparıb on gün ona baxdı. O həzrətin anası Aləmşah bəyimin o "vilayət" sədəfinin incisinin uğurlu halından qətiyyən xəbəri yox idi. Günbəgün möhtərəm oğlunun hicranından onun sinəsinin ortasında qəm və qüssə atəşi alovlanırdı. Aba, Aləmşah bəyimin halının pərişanlığından xəbər tutduqda, "Qorxma və kədərlənmə! Biz onu sənə qaytaracağıq" [Qurani-Kərimin "Qəsəs" surəsinin 7-ci ayəsi] müjdəsi ilə sevindirdi. Amma Aybə sultanın adamları yoxlama və axtarışlarını günbəgün artırırdılar. Rüstəm padşah tərəfindən də dəfələrlə fərman verilmişdi ki, hansı

yolla olursa olsun, mürşidi-kamilin (Şeyx Heydərin) həm oğul, həm də qız övladları ələ keçirilərək onların həyat xırmanı cəza qılıncının qığılcımı ilə yandırılsın. Axırda ali rütbəli şahzadənin anasına işgəncə verməyi düşündülər. [Lakin] "Heç bir ana uşağına görə zərər çəkməsin!" [Qurani-Kərimin "Bəqərə" surəsinin 223-cü ayəsinin] aydın mənası [onlara] mane oldu və o düşüncəni tərk etdilər. Aba da qorxub vahimələnərək, [İsmayılı] başqa bir yerə köçürməyə qərar verdi" (6).

İsmayıl Mirzə təxminən bir ay Xəncan xanımın evində qaldıqdan sonra bibisi Paşa xatun onun yerini dəyişdirmək qərarına gəldi. Bu dəfə o, Zülqədər tayfasından olan Ubanın evində yerləşdirildi. Amma İsmayıl Mirzə burada da əmin-amanlıq içərisində qalmadı. Tezliklə Uba xanımın evinin yerləşdiyi məhəllə də Ağqoyunlu dəstəsləinin axtarışlarına məruz qaldı. Həmin axtarışların təhlükəsindən yaxa qurtarmaq üçün Uba xanım İsmayıl Mizəni və qardaşını Ərdəbilin cami məscidinə gətirdi, orada yerləşdirdi. Uba xanım eyni zamanda İsmayıl Mirzənin anasına xəbər göndərdi və övladlarının salamat olması haqqında ona məlumat çatdırdı. Həmin məsciddə təsadüfən həm də döyüşdə yaralanmış sufi müridlərindən biri gizlənirmiş. Həmin mürid İsmayıl Mirzə ilə görüşləri zamanı ona məlumat verdi ki, Ağqoyunlularla döyüşdə salamat qalmış 80 nəfər qızılbaş döyüşçüsü Ərdəbil yaxınlığındakı Bəğrov dağında məskən salmışlar. Bu döyüşçülər yenidən döyüş bayrağı qaldırmaq üçün öz mürşidlərindən müvafiq işarə gözləyirlər. Uba xanım bu qızılbaş döyüşçüsü ilə söhbət etdi və onu razı sala bildi ki, məscidi tərk etsin, qızılbaş döyüşçüləri ilə görüşsün və vəziyyyətin nə yerdə olmasını onlara çatdırsın. Qızılbaş döyüşçüsü də bu təkliflə razılaşaraq məscidi tərk etdi və öz həmfikirlərini taparaq təriqət mürşidinin salamat olması və harada olması haqqında onlara xəbər verdi. Bu məlumatdan sonra bölgədəki səfəvilərə rəhbərlik vəzifəsi həvalə edilmiş Rüstəm bəy Qaramanlı bir gün gecə yarısı Ərdəbil məscidinə gəldi və İsmayıl Mirzəni oradan çıxararaq Bəğrov dağındakı Kərgan kəndinə apardı. İsmayıl Mirzə həmin kənddə Fərruxzad adlı bir vaizin evində yerləşdirildi (7).

Çox güman ki, Fərruxzad, Səfəvi təriqətinə meylli bir şəxs idi. Çünki, o, İsmayıl Mirzənin çox böyük sevinclə qaşıladı, onu evində yerləşdirdi və orada qaldığı müddət ərzində ona hörmət və ehtiram nümayiş etdirdi. Amma Ərdəbil ətrafındakı Kərgan kəndində də İsmayıl Mirzə və qardaşı üçün təhlükə heç də ötüşmədi və Ağqoyunlu silahlılarının bu kəndə də gələ biləcəyi üçün şeyx övladlarının daha təhlükəsiz məkana aparılması məsələsi ortaya çıxdı. Ona görə də qızılbaş əmirlərindən olan Mənsur bəy Qıpçaq, Hüseyn bəy Lələ, Çulban bəy, Xədim bəy Xəlifə, Göyəli bəy, Qazax Seyidəli və digərləri İsmayıl Mirzənin daha təhlükəsiz yerdə saxlanması barəsində məşvərət apardılar. Onlar belə bir qərara gəldilər ki, İsmayıl Mirzənin bibisi olan Paşa xatunun əri Məhəmməd bəyin və onun qardaşı Əhmədi bəyin Rəşt hakimi Əmirə İshaqla yaxşı münasibətləri olduğundan şeyx övladlarının Rəştdə gizlənməsi daha yaxşı olar. Dərhal da Gilana doğru səfər hazırlığına başlandı. Çünki məlum olmuşdu ki,

Aybə sultan İsmayıl Mirzənin harada olmasından artıq xəbər tutubdur və hər an onun Kərgan kəndinə gəlməsini gösləmək olardı (8).

Məlumata görə, Kərganda da cəmi üç gün qaldıqdan sonra İsmayıl Mirzə qızılbaş əmirlərinin müşayiəti ilə Gilan vilayətinə yola düşdü. Həmin səfər zamanı İsmayıl Mirzəni tanınmış qızılbaş əmirləri olan Lələ Həsən bəy Şamlı, Sultan Cüneydin və Sultan Heydərin xüsusi xəlifəsi olmuş Xadim bəy, qızılbaş döyüşçülərinin rəhbəri olan Qarapiri Qacar, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, Əbdal Əli bəy Dədə, İlyas bəy müşayiət edirdilər (9).

İsmayıl Mirzə və onun böyük qardaşı ilə birlikdə təxminən 200 nəfərlik bir dəstə Gilana yola düşdü. Həmin dövrdə Gilan vilayəti formal olaraq Ağqoyunluların hakimiyyətini qəbul etmişdilər. Amma bu bölgənin hakimləri arasında müstəqilləşmə meylləri də güclü idi və qızılbaş əmirlərinin və müridlərinin bu vilayətə üz tutmasının əsas səbəblərindən bir heç şübhəsiz ki, bu məqam idi. İsmayıl Mirzəni müşayiət edən dəstə əvvəlcə Tul (Tulunad) hakimi Əmir Müzəffərin yanına apardılar. Əmir Müzəffər İsmayıl Mirzəni və onu müşayiət edən dəstəni qonaqpərvərliklə qarşıladı və bir müddət bu dəstəni yanında saxladı. Bu dəstənin Tulda olması çox tezliklə Ağqoyunlu sərkərdələrindən olan Aybə sultana məlum oldu və o da dərhal Əmir Müzəffərə xəbər göndərdi ki, İsmayıl Mirzənin həbs edib təhvil versin. Belə bir tələbi Xalxal hakimi Çakir bəy Pornak da irəli sürdü. Əmir Müzəffərə göndərilən məktublarda deyilirdi ki, o, böyük cəsarət göstərərək Sultan Heydərin övladlarına yer verib, onlara qonaqpərvərlik göstərib və diqqət yetirmir ki, bu qonaqpərvərlik onun xanimanını tüstüyə çevirə bilər. Əmir Müzəffərdən tələb olunurdu ki, bu qərarına görə peşimançılığını ortaya qoysun, İsmayıl Mirzəni və onu müşayiət edən bütün dəstəni həbs edərək Rüstəm Mirzənin hüzuruna göndərsin və Sultan Heydər övladlarına yer verdiyi üçün bağışlanmasını xahiş etsin. Bildirilirdi ki, yalnız bundan sonra onun günahlarının bağışlanması mümkündür (10).

Tul həmin zaman Xalxalın tabeliyində olduğu üçün Əmir Müzəffər çətin vəziyyətdə qalmalı oldu. Sərt tələblərə baxmayaraq, Əmir Müzəffər öz qonaqlarını həbs etmədi və əksinə, onlar üçün daha təhlükəsiz yer aramağa başladı. Ona görə də İsmayıl Mirzə və onun müşayiət edən dəstədən xahiş etdi ki, Tulu tərk edib Kəsgər bölgəsindəki Dinaçar kəndinə yollansınlar. Kəsgər hakimi Əmir Siyavuş da onları çox böyük qonaqpərvərliklə qarşıladı və üç gün müddətində onları öz yanında saxladı. Sufi mürşid və müridlərinin Kəsgərdə qalmasının da təhlükəli olduğu aydınlaşanda İsmayıl Mirzənin ətrafında olan əmirlər bu məntəqənin də tərk edilməsini lazım bildilər. Üç gündən sonra İsmayıl Mirzə və onun ətrafındakılar Gilanın mərkəzi Rəşt şəhərinə tərəf hərəkətə başladılar. “Əhsənüt təvarix” əsərində bu barədə belə yazılmışdır: “Əmirə Səyavuş Kəsgər hakimi idi. Kəsgər mahalındakı Dünyaçar [adlı] mövqedə Əmirə Səyavuşun Ənuş adlı mülazimi vardı. Əmirə Müzəffər onu çağırıb İsgəndər şanlı xaqanı yoldaşları ilə birlikdə ona qoşdu ki, [onları] Əmirə Səyavuşun yanına aparsın. Məhəmməd bəy və Əhmədi bəy Tuldan geri qayıtdılar. Onlar İsgəndər şanlı xaqana, sufilərinə və yoldaşlarına köməklik göstərməsi barədə Rəşt valisi Əmirə

İshaqa məktub yazdılar. Onların çıxıb getməsi zəmanə xaqanının (İsmayılın) ürəyincə deyildi və bu üzdən çox qəm-qüssəyə qapıldı. Lakin onlar geri dönməyə məcbur idilər. Amma şahın Kəsgərə doğru yolda olduğu [haqqında xəbər] Əmirə Səyavuşa çatdıqda, görüş qədəmi ilə [onu] qarşılamağa çıxıb təzim və ehtiram mərasimini yerinə yetirdi və xidmət göstərməkdə heç bir əskikliyə yol vermədi. Üç gün onun evində qaldılar. Daha sonra [Əmirə Səyavuş] yoldaşlıq kəmərini belinə bağlayaraq İsgəndər şanlı xaqanı Rəştə çatdırdı. Əmirə İshaqın bu ali sülaləyə olan bağlılığı, etiqadı, sevgisi və həmrəyliyi o qədər çox idi ki, şərh etməklə qurtaran deyil. Üç gün ərzində o, elə bir qonaqpərvərlik və ev sahibliyi nümayiş etdirdi ki, tale süfrəçisi (xansaları) dəyirmi ayı və günəşi yuxarı aləm sakinlərinin qidalanması üçün fələk tabaqlarına qoyduğu vaxtdan etibarən o cür bir ziyafət və o tərz və o sayaq bir məclis görülməmişdi. Bəzi inanılmış adamlar deyirilər ki, həmin xeyirli səfərdə İsgəndər şanlı xaqanın qardaşları olan xilafət inciləri və "vilayət" ağacının meyvələri – Seyid Həsən mirzə, Seyid Süleyman mirzə, Seyid Davud mirzə və Seyid Mahmud mirzə [onunla] birlikdə idilər. Bəziləri isə deyirlər ki, onlar Rəştdə İsgəndər şanlı xaqana qoşulmuşlar. Bir sıra şəxslər isə deyirlər ki, İsgəndər şanlı xaqan qardaşları ilə birlikdə Çiçəklü kimi tanınan Ağdağ yolu ilə Məsuləyə getdilər və oradan Rəştə yönəldilər. Amma onu həmin yolda müşayiət etmiş bir kəs tapılmadı ki, onun sözünə etimad etmək olsun. Doğrusu odur ki, İsgəndər şanlı xaqan qardaşları ilə birlikdə Rəştə cah-calalla nazil oldu və Rəştdə yerləşən, Ağ məscid ("Məscidi-Sefid") adlanan və indi də əvvəlki kimi abad olan bir məsciddə sakin oldu" (11).

Həsən bəy Rumlunun əsərindən alınmış bu istinadda diqqət çəkən bir məqam vardır. Bu da İsmayıl Mirzənin Seyid Həsən mirzə, Seyid Süleyman mirzə, Seyid Davud mirzə və Seyid Mahmud adlı qardaşlarının olması haqqında verilən məlumatdır. Digər mənbələrdə bu məlumatlarla rastlaşmaq çətindir. Hətta adı çəkilən əsərin başqa bir yerində Sultan Heydərin yalnız üç oğlan övladının – Sultan Əlinin, İsmayıl Mirzənin və Seyid Həsənin olması haqqında məlumat verilmişdir. Mütəxəssislər isə Seyid Həsənin başqa mənbələrdə adı tez-tez xatırlanan İbrahim Mirzə olmasını ehtimal edilrlər (12). Seyid Süleyman Mirzənin adına mənbələrdə təsadüf edilsə də (bu barədə aşağıda danışıqlacaqdır), digər qardaşların adına rast gəlmək mümkün deyildir.

### 2.İsmayıl Mirzənin Lahican həyatı

İsmayıl Mirzə onu müşayiət edən adamlarla birlikdə Rəştə çatdıqdan sonra şəhərdəki "Ağ məscid" adlı məsciddə məskunlaşdılar. Bu məscidin quruluşu və ətrafın havası İsmayıl Mirzənin çox xoşuna gəldi və o, daha Rəşt hakimi Əmirə İshaqın evinə yollanmağı da lazım bilmədi. Məscidin yaxınlığında yerləşən bir zərgər dükanının sahibi Əmirə Nəcim (elmi-tarixi ədəbiyyatda Əmir Nəcim və Əmir Nəcmi kimi də xatırlanmışdır) adlı birisi isə İsmayıl Mirzənin həm xidmətində dayandı, həm də onun mühafizəsi ilə məşğul oldu. (13).

İsmayıl Mirzə ilə Əmirə Nəcim arasında səmimi münasibətlər formalaşmışdı. Əvvəla, Əmirə Nəcim dərhal İsmayıl Mirzənin müdirlərindən birinə çevrildi və daxilən həm də Səfəvi təriqətinə bağlandı. Sonra isə Əmirə Nəcim onun qayğısını çəkməklə bərabər, həm də onunla maraqlı söhbətdaşa çevrildi. Əmirə Nəcim xatirə əlaməti olaraq xüsusi bir üzük hazırlayıb İsmayıl Mirzəyə bağışladı. İsmayıl Mirzə isə Əmirə Nəcimin həm hörmtəni, həm də onun yaxşılıqlarını unutmadı, hakimiyyəti illərində ona etimad etdi, onu yaxınlarından birinə çevirdi. Məlumdur ki, Şah İsmayıl onu səltənət vəkili təyin etdi, 1508-1509-cu ildə Bağdad üzərinə qoşun çəkəndə onu qoşun başçısı etdi. Sonrakı illərdə isə Əmirə Nəcim Şah İsmayıln ən yaxın adamlarından biri oldu və onun nüfuzu hətta qızılbaş əyan və əmirlərinin nüfuzunu da üstələdi. Əmirə Nəcim də sədaqəti və etibarlı xidməti ilə bu münasibəti doğrultmağa çalışırdı. Ona olan yüksək hörmətin nəticəsi idi ki, vəfatından sonra onun yerinə təyin edilmiş Yarəhməd Hüzani İsfahanini də Nəcmi sani (ikinci Nəcim) adlandırırdı (14).

İsmayıl Mirzə Rəştdə qalmaq istəsə də təhlükəsizlik məsələləri üzündən tezliklə bu şəhəri də tərk etməli oldu. Çünki Ağqoyunlu əmirlərinin bu şəhərə müdaxilə edə bilməsi də istisna deyildi. Ona görə İsmayıl Mirzənin ətrafındakılar Lahicana yola düşməyi məsləhət bildilər. Gilanın şərqində yerləşən Lahicanın hakimi Kargiya (əmir) Mirzə Əli bu bölgədəki hakimlər içərisində ən nüfuzlu hakimlərdən biri sayılırdı. Mənbələrdə bildirilir ki, Kargiya Mirzə Əli Lahicanda Şeyx Zahid və Şeyx Səfiəddin ənənələrini qoruyub saxlamağa çalışan təriqət meylli bir şəxs idi və özünün də şiə məzhəbinə mənsubluğu üzündən İsmayıl Mirzənin və onu müşayiət edən dəstənin yanına gəlməsindən çox xoşhal oldu. Mirzə Əli tərəfindən İsmayıl Mirzənin dəstəsi üçün Lahicanda Keyəfridun mədrəsəsi qarşısında yerləşən bir binada yer ayrıldı, bu dəstə hər cürə qayğı ilə əhatə olundu. İsmayıl Mirzə öz dəstəsi ilə burada təhlükəsiz şəraitdə yaşamaqla bərabər, həm də savad və təhsil almağa başladı. Kargiya Mirzə Əlinin tapşırığı əsasında Lahicanın tanınmış alimlərindən olan ustad Şəmsəddin onun dini təhsili ilə məşğul oldu. Onun rəhbərliyi altında İsmayıl Mirzə yazmağı və quran oxumağı öyrəndi (15).

Mənbə məlumatlarına görə, İsmayıl Mirzənin Lahicanda olması xəbərini alan çoxlu sayda müridlər Rumdan, Qaracadağdan, Meşkindən və digər yerlərdən axışıb onun ziyarətinə gəldilər (16). Yəni, bəzi elmi-tarixi ədəbiyyatda yazılanlardan fərqli olaraq İsmayıl Mirzənin ətrafına toplananlar yalnız Rumdan, Osmanlı dövləti ərazisindən gələnlər yox, həm də Azərbaycan ərazisindən gələnlər idilər və Şah İsmayıl hərəkatının ictimai bazasının formalaşmasında onların da fəal iştirakı var idi.

"Əhsənüt təvarix" əsərində İsmayıl Mirzənin Lahicanda olduğu zaman ağır xəstəliyə tutulması, həm də Ərdəbil üçün qəribsəməsi haqqında bəzi məlumatlar vardır: "Uca məqamlı padşah, Mövlana Şəmsəddin Lahicaninin yanında "Qurani-Məcid" oxuyurdu. Rəştdə şahın yanında olan Əmir Nəcm Zərgər, Karkiya mirzə Əlinin qardaşları Sultan Həsən və Əmir Haşımla birlikdə tez-tez o həzrətin hüzuruna gəlirdilər. Şah onlarla həmsöhbət və həmməclis olmağa

tamamilə alışmışdı və bu, o həzrətin sevincinə və ürəyinin açılmasına səbəb olurdu. Elə bir məqam gəlib çatdı ki, [İsmayılın] mübarək səhhəti pozuldu və o, qəflətən xəstələndi. Mövlana Nemətulla o xəstəliyə əlac tapmaq üçün çox çalışdı. Buna baxmayaraq, həmin xəstəlik bir ilə qədər davam etdi. Daha sonra "Xəstələndiyim zaman mənə yalnız O şəfa verir" [Qurani-Kərimin Şüəra surəsinin 80-ci ayəsi] darüşşəfasının həkimi (Allah) şəfa kərəm etdi, xəstəlik bütünlüklə yox oldu, ali səhhət düzəlməyə doğru üz qoydu və ruzigarın dili bu beytlərin məzmunu ilə [bu hadisəni] tərənnüm etməyə başladı: Ondan sonra ali məqamlı şah buyurdu ki, o həzrətin bibisi olan Şah Paşa xatun darülirşad Ərdəbildə bəzi nemətlər, xüsusən də şahın meylinin çox çəkdiyi və sözlə ifadə edilməsi mümkün olmayan dərəcədə rəğbət bəslədiyi narın (xırda) çörək ("nanirize") hazırlatdırıb Lahicana göndərsin. Şah Paşa xatun itaəti vacib olan əmrə uyğun olaraq, hədiyyə və töhfələri tərtib edib bir sıra qohumları və yaxınları ilə Gilana göndərdi. Onun göndərdikləri Rəştə yetişəndə və onların gəlişi xəbəri alinəsəb şahın qulağına çatanda onları qarşılamaq və ulu dərgaha gətirmək üçün Gög Əlini göndərdi. Mir Nəcm Zərgər və Əmirə İshaqın vəkilləri olan Mir Musanın oğlu Mir Həsənlə Əmir Cahangir Rəşti onlara yoldaş olub Lahicana yollandılar. Ali məqamlı şah, Karkiyaya və onun qardaşlarına o hədiyyələrdən göndərdi və Əxi Mehmandara əmr etdi ki, o camaata (qonaqlara) hörmət və diqqət göstərsin, qonaqpərvərliyin və ev sahibliyinin şərtləri nədirsə, yerinə yetirsin. O camaat üç gün ərzində Lahicanda qaldı. Ondan sonra ayrılmaq izni alıb geri döndülər" (17).

Ağqoyunlu hakimi Rüstəm Mirzə isə Sultan Heydərin övladlarının tapılması fikrindən dönmürdü. Yalnız Ərdəbil və onun ətrafında deyil, aldığı məlumatlar əsasında Gilanda da onların axtarışı aparılırdı. Ətrafa göndərdiyi adamları vasitəsi ilə əldə etdiyi məlumatlar əsasında Sultan Heydər övladlarının Lahicanda olması xəbəri alınanda dərhal Kargiya Mirzə Əlinin yanına 300 nəfərlik silahlı dəstə göndərildi. İsmayıl Mirzənin və onun qardaşı İbrahim Mirzəni yaxınlaşmaqda olan real təhlükədən xilas etmək üçün Kargiya Mirzə Əli fənd işlətməyi qərar aldı. O, böyük bir səbət hazırlatdıraraq Ağqoyunlu silahlıları yaxınlaşanda İsmayıl Mirzə ilə İbrahim Mirzəni həmin səbətə (zənbilə) yerləşdirdi və sonra da onları gizli yerdə bir ağacın kəlləsinə qaldırdılar. Mirzə Əli əmin olandan sonra ki, İsmayıl Mirzə və İbrahim Mirzə ağacların birindən havada asılmış vəziyyətdədirlər, Ağqoyunlu əmirləri qarşısında and içdi ki, hazırda Sultan Heydərin övladlarının ayaqları Lahican torpağında deyildir. Mənbələrdəki məlumata görə, Rüstəm Mirzənin adamları bu sözə inandılar və geri qayıtdılar (18).

"Aləmara-yi Şah İsmayıl" əsərində Ağqoyunlu hakimi Rüstəm Mirzə tərəfindən İsmayıl Mirzənin Lahicanda axtarılması ilə bağlı daha geniş məlumatlar vardır. Həmin məlumatlardan görünür ki, Lahican hakimi Mirzə Əlinin himayəsində olarkən Ağqoyunlu hakiminin adamları bir neçə dəfə onun tutulması üçün gəlmişdilər. Əvvəlcə, Ağqoyunlu casusları bölgədə axtarışlar apardılar. Adı çəkilən mənbədə bildirilir ki, İsmayıl Mirzənin Lahicana sığınmasından

dörd il sonra Ərdəbil hakimi Sultan Əlixanın casuslarından biri Səfəvi təriqətinin müridi adı altında bu bölgəyə gəldi. O, rastlaşdığı insanlar arasında danışırdı ki, çoxdandır təriqət müridir və çox arzulayır ki, mürşidini ziyarət etsin və onun ayaqlarından öpsün. Rastlaşdıqları adamlardan biri onun sözlərinə inanaraq Sultan Heydər övladlarının Əmir Mirzə Əlinin evində olduğunu və orada Səfəvi mürşidinin ziyarət edilməsi imkanının olduğunu bildirdi. Həmin casus da bu xəbəri eşidən kimi, birbaş Ərdəbilə üz tutdu və Sultan Heydər övladlarının Lahicanda, Kargiya Mirzə Əlinin yanında olmasını Ərdəbil hakiminə çatdırdı. O isə öz növbəsində xəbəri dərhal Ağqoyunlu hakimi Rüstəm Mirzəyə yetirdi. Rüstəm Mirzə də Sultan Heydər övladlarının sakit və səssiz ələ keçirilməsi üçün tədbirlər tökməyə başladı. Bununla bağlı, o öz əmirlərini və əyanlarını topladı, onlarla məsləhətləşmə apardı ki, Sultan Heydər övladları necə ələ keçirilsin. Məşvərət zamanı bildirildi ki, əgər Lahican hakimi Ağqoyunlu hakiminin dostu olsaydı və ya ondan çəkinsəydi Sultan Heydər övladlarının əl-qolunu bağlayıb Ağqoyunlu sarayına göndərərdi və ya da xəbər göndərərdi ki, adamlar gəlsin və onları aparsın. Əgər Mirzə Əli onları gizlədirsə, deməli onlarla həmfikirdir və onları təhvil vermək istəmir. Ona görə də məsləhət görüldü ki, Mirzə Əliyə məktub göndərilsin və bu məktubda Sultan Heydər övladlarına qohum kimi hörmətlə yanaşıldığı və onların qayğı altına alınması istəyi ifadə olunsun. Yəni, bununla, Mirzə Əlinin diqqəti Rüstəm Mirzənin əsas məqsədindən yayındırılmalı idi. Bu məsləhətin nəticəsi kimi, Rüstəm Mirzə Lahican hakiminə belə məzmunda bir məktub göndərdi: "Təəssüf ki, mən bəzi adamların sözünə inanıb öz qohumum və sipəhsalarım olan bu cavanı aradan götürdüm. Lakin indi ki, Sultan Əli Mirzənin taleyi bu cür oldu mənim ondan sonra elə bir adamım yoxdur ki, ona etibar edim. Buna görə də istəyirəm mənim övladlarım yerində olan qardaşlarını bir ata kimi tərbiyə edim ki, mənə arxa və dayaq olsunlar. Axır vaxtlarda eşitmişəm ki, onlar sənin yanına gəliblər və sən bizim xatirimizə onlara izzət göstərmişsən, yaxşılıqlar etmişsən. Biz səndən məmnun qalmışıq. Lakin gərək bu məktubum sənə çatdıqda onları tezliklə mənim hüzuruma yollayasan ki, mən o oğulların və onların xidmətində dayananların didarını görmək üçün həsrət çəkirəm. Əsla onların xatirinə bir pis xəyal gəlməsin. Onları burada şahanə şəfqətimizin gözlədiyi haqqında ümidlər edib yollayın. İnşaallah, hüzuruma gəldikləri vaxt onlara əvvəlkindən daha çox mehribanlıq göstərəcəyəm. Vəssəlam" (19)

Rüsrəm Mirzə məktubunu bir qorçu vasitəsilə Lahicana göndərdi. Mirzə Əli qorçunu hörmətlə qarşıladı, ona qarşı qonaqpərvərlik nümayiş etdirdi və şübhələndirməmək üçün onu qayğı ilə əhatə etdi. Qorçuya onun ilk cavabı belə oldu ki, Sultan Heydər övladlarının Gilanda olmasından onun xəbəri yoxdur, ona görə də gərək onları axtarsın. Qorçunun istirahətini təşkil etdikdən sonra Mirzə Əli əvvəlcə İsmayıl Mirzəni müşayiət edən qızılbaş əmirlərini yanına topladı və Rüstəm Mirzədən aldığı məktubu onlara göstərdi. Mirzə Əlidə belə bir güman var idi ki, Rüstəm Mirzə doğrudan da Sultan Heydər övladlarına hörmətlə yanaşır və onlara qayğı göstərmək istəyir. Bu gümanını o, qızılbaş əmirlərinə də açıqladı. Qızılbaş əmirləri isə qətiyyətlə Rüstəm Mirzənin Sultan

Heydər övladlarına hörmət bəsləməsini rədd etdilər. Onlar bildirdilər ki, məktubda ifadə olunmuş fikirlər Rüstəm Mirzənin məkrləridir və Lahican hakimini aldatmaq üçün bu vasitəyə əl atıbdır. Ona görə qızılbaş əmirləri məsləhət gördülər ki, Rüstəm Mizəyə məktub göndərilsin və ona çatdırılsın ki, Sultan Heydər övladları Gilanda yoxdur. Lahican hakimi də bu məsləhətləşmədən sonra Rüstəm Mirzəyə cavab məktubu yazdı və həmin məktubda Rüstəm Mirzənin başına and içərək bildirdi ki, Sultan Heydər övladları onun yanında deyildirlər. Məktubda sonra əlavə olunmuşdu ki, Mirzə Əlinin Sultan Heydər övladlarının heç Gilanda olmasından da xəbəri yoxdur və o, Rüstəm Mirzəni əmin etdi ki, onun razılığı olmadan dostlarını və düşmənlərini yanında saxlamaz. Ağqoyunlu hökmdarının şübhəsinin oyadılmaması üçün məktub elə bir ruhda yazılmışdı ki, guya Mirzə Əli doğrudan da Sultan Heydər övladlarına Rüstəm Mirzə tərəfindən hörmətlə yanaşıldığına inanırdı (20).

Qorçu vasitəsilə bu məktub Rüstəm Mirzəyə çatdırıldı. Rüstəm Mirzə də məktubda yazılanları doğru qəbul etdi və bir müddət İsmayıl Mirzənin Gilanda axtarılmasına son qoyuldu.

Mənbə məlumatlarına görə, Sultan Heydər övladları Lahicanda dörd il qaldıqdan sonra İsmayıl Mirzənin böyük qardaşı İbrahim Mirzə vətən və anası üçün darıxdığını bildirdi və Ərdəbilə qayıtmaq üçün İsmayıl Mirzədən və ətrafındakılardan icazə istədi. İsmayıl Mirzə əvvəlcə bu xahişlə razılaşmadı. Çünki Ərdəbilə qayıdacağı təqdirdə onun şəhər hakimi Əlixan tərəfindən həbs ediləcəyindən qorxurdu. Şübhə edilmirdi ki, İbrahim Mirzə həbs edilən kimi Ağqoyunlu hakimi Rüstəm Mirzənin sərəncamına göndərəcək və o da İbrahim Mirzə ilə çox sərt şəkildə davranacaqdır. Ona görə, İsmayıl Mirzə təkidlə xahiş etdi ki, İbrahim Mirzə Ərdəbilə qayıtmaq fikrindən daşınsın və onu gözləyən təhlükə ilə anasının iztirablarını daha da artırmasın. İbrahim Mirzə dediyinin üstündə dayandı və fikrindən dönmədi. O bildirdi ki, tanınmaması və ələ keçməməsi üçün Heydəri (qızılbaş) papağını türkman papağına dəyişəcək və şəhərə daxil olacaq. İsmayıl Mirzə bundan sonra Kargiya Mirzə Əli ilə məsləhətləşdi. Mirzə Əli də dedi ki, istixarə açılsın və əgər istixarə xeyir əlamətlə nəticələnsə, onda onun getməsinə maneçilik edilməsin. Sultan Heydər övladlarına müəllimlik edən rəştli molla Zeynalabdin adlı birisi Allah kəlamına müraciət edib istixarə açdı və bu istixarə yaxşı əlamətlə sonuclandı. Onda İbrahim Mirzə yerli adamların birinin müşayiəti ilə Ərdəbilə qayıtdı, anası ilə görüşdü və onun yanında qaldı (21).

Qeyd etmək lazımdır ki, İbrahim Mirzənin Ərdəbilə qayıtması, Səfəvi təriqətinin bir çox tərəfdarlarından fərqli olaraq sakit həyata can atması tarixçilər arasında bəzi ehtimallara yol açmışdır. Belə fikirlər irəli sürülür ki, İbrahim Mirzə etiqadın siyasiləçməsinə meylli olmamış, dərviş həyatına üstünlük vermiş və xarakterində də dərvişlik ruhu daha güclü olmuşdu. Bəzi məlumatlara görə, o, Ərdəbildə öz əcəli ilə dünyasını dəyişmişdir. Guya, İbrahim Mirzə siyasi mübarizədən kənarda qalmışdı və dərvişliklə kifayətlənmişdi. Güman edilir ki, onun belə xarakterə malik olması böyük qardaşı Sultan Əli tərəfindən də

müşahidə olunmuşdu və ona görə də şəhid olmazdan əvvəl təriqət rəhbərliyinə İbrahim Mirzəni deyil, ondan kiçik olan İsmayıl Mirzəni təklif etmişdi (22).

Amma məlumdur ki, İbrahim Mirzə həm Səfəvi dövlətinin qurulmasında, həm də onun sərhədlərinin genişlənməsində qardaşı Şah İsmayıla arxa və dayaq olmuşdu (bu barədə aşağıda danışılacaqdır).

İsmayıl Mirzə altı il yarım Gilan vilayətində sığınacaq tapdı (23). Bu müddət ərzində İsmayıl Mirzə həm təriqət rəhbəri kimi, həm də qoşun rəhbəri kimi təcrübə qazandı və təkmilləşdi. Lahicanda yaşadığı illərdə İsmayıl Mirzə vaxtının xeyli hissəsini ovda keçirər, at minməyi, ox atmağı öyrənər və bu vərdişlərini daha da gücləndirərdi. Eyni zamanda fatehlik planları ətrafında fikirləşər və özünün gələcək planlarının həyata keçirilməsi barədə hər zaman düşünərdi (24). Bununla, mənbələr göstərmək istəyirdilər ki, İsmayıl Mirzə həm təriqət rəhbəri kimi, həm də gələcək fateh kimi Lahicanda formalaşma dövrü keçirirdi və bu formalaşma dövrü başa çatandan sonra İsmayıl Mirzə hərb bayrağını qaldırdı.

Eyni zamanda məlumdur ki, Lahicanda olduğu vaxt İsmayıl Mirzənin yanına ətraf bölgələrdən Səfəvi müridləri axışıb gələr, onu ziyarət edər və ona öz sədaqətlərini bildirərdilər. "O həzrətin [Gilanda] qaldığı vaxt onun kəramətli dərgahı sufilərin və müridlərin gəliş-gedişindən boş qalmırdı. Yeniyetməliyin ilk vaxtında bəzən ov əyləncəsi ilə məşğul olub, Simamı, Əşkuru və o vilayətin mənzərəli yerlərini gəzərdi. Həmişə dünyanı idarə etmək arzusu onun ürəyində yaşayır, öz himmətinin yüksəklərdə uçan şahinini məmləkət quzğununu şikar etmək məqsədi ilə uçururdu" (25).

Bir müddətdən sonra Ağqoyunlu hakimi Rüstəm Mirzə yenidən Sultan Heydər övladlarını Lahicanda axtarmaq qərarına gəldi. Mənbələrdə olan məlumatlara görə, İsmayıl Mirzənin Lahicanda olması barədə ona xəbər çatdırmışdılar. Rüstəm Mirzə də bu xəbəri alan kimi, yenidən Lahican hakimi Mirzə Əliyə məktub yazdı. Bu məktub onun əvvəlki məktubundan daha kəskin idi. Rüstəm Mirzə həmin məktubda hədə-qorxu gəlməklə İsmayıl Mirzənin həbs edilərək onun sarayına göndərilməsinə bir də cəhd göstərdi: "Nə üçün keçmiş münasibətlərin üstündən xətt çəkirsən və mənim düşmənlərimi öz evində saxlayırsan. Əgər bu dəfə onları bizim yanımıza göndərsən, onda bizim üçün sən elə həmin köhnə dost olaraq qalacaqsan. Yox, əgər buna əməl etməsən, saysız qoşun göndərəcəyəm ki, gəlib Lahicanın bütün ağaclarını yandırsınlar və Gilanın hamısını qətliam etsinlər. Əlbətdə mənim məktubumu alan kimi ya şeyxzadələri öldür, ya da əgər onların qanına şərik olmaq istəmirsənsə, onda onları diri-diri mənim yanıma göndər ki, intizar gözüm yoldadır" (26).

Bu məktub Mirzə Əli tərəfindən böyük təşvişlə qarşılandı və dərhal da öz ətrafını topladı, onlarla məsləhətləşmə apardı. Mirzə Əli bildirdi ki, Rüstəm Mirzə yenə də Sultan Heydər övladlarını tələb edir və əgər onları verməsək bütün Gilan əhlini qətliam edəcəyinə and içib. Mirzə Əlinin ətrafı da bu təşvişi bölüşdü və ora toplaşanların fikri belə oldu ki, Ağqoyunlu dövləti ilə üz-üzə gəlmək mümkün deyil və ona görə də Sultan Heydər övladları gərək Rüstəm

Mirzənin adamlarına təhvil verilsin. Mirzə Əli bu toplantıda bir qərar verməsə də nə edəcəyini də bilmədi. Mənbələrdə olan məlumata görə, Mirzə Əli bu fikirlər burulğanında qaldığı bir vaxtda onu yuxu apardı və yuxuda İmam Əlini gördü. Əmir əl-mömünün ona çatdırdı ki, sən nə fikrə düşmüsən və nə üçün mənim övladımı düşmənə vermək istəyirsən, mənim övladlarımla belə ədəbsizlik etmə. Qiyamət günündə həzrət peyğəmbərin və mənim yanımda xəcalətli qalarsan (27).

"Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, Mirzə Əli bu yuxusundan sonra İsmayıl Mirzə ilə də görüşdü, onunla da məsləhətləşdi. Ümumən isə, Mirzə Əli bu dəfə də İsmayıl Mirzəni və onun ətrafındakıları Rüstəm Mirzəyə təhvil verməkdən imtina etdi. Amma bununla bağlı Rüstəm Mirzəyə qarşı açıq-açığına çıxmağa da ehtiyat etdi. Mirzə Əli öz qərarını Rüstəm Mirzənin elçisinə ehtiyatla çatdırdı və çalışdı ki, Ağqoyunlu hakimində heç bir şübhə yaratmasın. Mirzə Əli onun yanına gəlmiş Ağqoyunlu elçisinə çatdırdı ki, Rüstəm Mirzəyə çatdırılan məlumat doğru deyildir. O söylədi ki, Uzun Həsənin ocağından ona heç bir ziyan dəyməmişdir və ona görə də bu ocağın düşmənlərini heç vaxt evində saxlamaz. Mirzə Əli sonra onu da əlavə etdi ki, əgər yüz il sonra belə Sultan Heydər övladları barəsində xəbərim olsa sizin dərgahınız qarşısında günahkar olaram. Ağqoyunlu elçisi də bu xəbərləri Rüstəm Mirzəyə çatdırdı və Rüstəm Mirzə bu dəfə də eşitdikləri ilə razılaşdı (28).

İsmayıl Mirzənin və onun ətrafındakıların Lahicanda olması ilə bağlı Rüstəm Mirzənin təşvişinə bununla da son qoyulmadı. Bir müddətdən sonra Mirzə Əlinin öz yaxınlarından biri İsmayıl Mirzənin Lahicanda olması ilə bağlı Rüstəm Mirzəyə məlumat çatdırdı. Rüstəm Mirzə də Qasım bəy adlı əmirinin rəhbərliyi altında Lahicana 300 nəfərlik bir dəstə göndərdi və İsmayıl Mirzəni tələb etdi. Mirzə Əlinin Sultan Heydər övladlarını böyük səbətə (zənbilə) qoyması hadisəsi də Qasım bəyin bu gəlişi ilə bağlıdır. "Aləmara-yi Şah İsmayıl"da bu hadisə daha geniş və daha təfərrüatlı şəkildə verilmişdir. Rüstəm Mirzə bu dəfə də Qasım bəylə Mirzə Əliyə məktub göndərdi və həmin məktubda öz tələblərini belə çatdırdı: "Bundan sonra artıq dərəcədə bizi özündən incik salma. Sultan Heydərin uşaqlarını dərhal Qasım bəyə ver ki, bizim xidmətimizə gətirsin. Yoxsa özüm gələrəm, bütün Gilanı çapıb-talayaram və qətliam törədərəm" (29).

Rüstəm Mirzənin göndərdiyi 300 nəfərlik dəstənin qarşısında Mirzə Əli çarəsiz vəziyyətə düşdü, bir daha nə edəcəyini bilmədi. Hətta İsmayıl Mirzənin lələsi Hüseyn bəy də Rüstəm Mirzənin silahlı dəstəsinin gəlməsi xəbərini eşidəndən sonra çıxış yolu göstərməkdə çətinlik çəkdi. Amma Mirzə Əli öz narahatçılığını Qasım bəyə çatdırmadı və onu da, onun dəstəsini də qonaqpərvərliklə qarşıladı. Adı çəkilən mənbənin məlumatına görə, bu dəfə də vəziyyətdən çıxış yolunu yuxuda ikən Mirzə Əliyə həzrət Əli aydınlatdı. Onun aydınlatdığına görə, Mirzə Əli 10 gündən sonra Qasım bəyi yanına çağırmalı və ona deməli idi ki, bütün kəndlərə adam göndərmişəm və Sultan Heydər övladlarının heç bir kənddə olmadığı məlum olmuşdur. Sözlərinin doğruluğuna əminlik yaratmaq üçün Mirzə Əli iki böyük ağacın arasında kəndirlər çəkməli, bu kəndirlər

üzərinə zənbil qoymalı və Sultan Heydər övladlarını həmin zənbillərə yerləşdirməli idi. Bundan sonra Quran kitabını gətirməli və Qasım bəyin qarşısında quran kitabına and içməli idi ki, hazırda Sultan Heydər övladları Gilan torpağı üzərində deyildir. Mirzə Əli də belə etdi və bununla növbəti dəfə İsmayıl Mirzənin həbs edilməsi təhlükəsi aradan qaldırıldı (30).

Qeyd etmək lazımdır ki, Rüstəm Mirzənin adamlarının 2-ci və 3-cü dəfə Lahicana gəlməsi "Aləmara-yi Şah İsmayıl"da İbrahim Mirzənin Ərdəbilə geri dönməsindən sonra nəql edilmişdir. Amma hər üç halda Sultan Heydərin övladlarının həbs edilməsi ilə bağlı söhbət açılmışdır. Tarixlər göstərilmədiyi üçün bu hadisələrin dəqiq vaxtını müəyyənləşdirmək çətindir və bilmək olmur ki, İbrahim Mirzə doğrudanmı birinci hadisədən sonra Lahicanı tərk etmişdi, yoxsa 3-cü hadisədən sonra.

İsmayıl Mirzənin Lahicanı tərk edərək cahangirlik yürüşlərinə başlaması Ağqoyunlu hakimi Rüstəm Mirzənin öldürülməsindən sonraya təsadüf edir. Rüstəm Mirzə 1497-ci ildə dünyasını dəyişmişdi. XV əsrin sonuncu illəri Ağqoyunlu dövləti daxilində hakimiyyət uğrunda mübarizənin kəskinləşməsi ilə xarakterizə olunur. Öz maraqlarının təmin edilməsini daha çox düşünən Ağqoyunlu əmirlərinin bu və ya digər hakimi müdafiə etməsi mərkəzi hakimiyyəti kifayət qədər zəiflədir və ölkə ərazisində tez-tez daxili müharibələr alovlanırdı. Belə müharibələrin biri də 1497-ci ilin may ayında baş verdi və Aybə sultan və tanınmış əmirlər tərəfindən müdafiə olunan Sultan Əhməd bu müharibədə Rüstəm Mirzəyə üstün gəldi. Rüstəm Mirzə məğlub olaraq Gürcüstana qaçdı, Sultan Əhməd isə Təbrizə daxil olaraq Ağqoyunlu hakimiyyətini ələ keçirdi. Lakin bununla daxili müharibələrə heç də son qoyulmadı. Həmin ilin iyul ayında Rüstəm Mirzə Azərbaycanın şimalında ətrafına topladığı yeni qüvvələrlə hakimiyyəti geri qaytarmağa cəhd göstərdi. Lakin həmin ayın 2-də qətlə yetirildi və Əhmədin hakimiyyəti bir qədər möhkəmlənmiş oldu. Lakin o da Ağqoyunlu əmirlərinin hakimiyyətdən narazılıqlarının qarşısını ala bilmədi və mərkəzləşdirilmiş hakimiyyəti möhkəmləndirmək ona müyəssər olmadı. 1497-ci il dekabrın 13-də Sultan Əhməd də öldürüldü. Onun ölümündən sonra kifayət qədər gücə və nüfuza malik olan Aybə sultan hakimiyyəti öz nəzarəti altında saxlamaq üçün Sultan Yaqubun oğlu Muradı padşah elan etdirdi. Lakin tezliklə onlar arasında mübahisələr yarandı və ona görə də Aybə sultan Muradı həbs etdirdi. Bundan sonra Aybə sultan Uzun Həsənin oğlu Yusif Mirzənin oğlu Əlvənd Mirzəni dövlətin padşahı kimi tanıdı. Lakin bununla da hakimiyyət daxilində sabitlik təmin edilmədi. 1498-ci ildə Ağqoyunlu əmirlərindən bir dəstəsi Əlvənd Mirzənin doğma qardaşı Məhəmməd bəyi padşah elan etdi. İki qardaş arasında alovlanan mübarizə Məhəmməd bəyin qələbəsi ilə başa çatdı. Onun tərəfində olan qoşun hissələri 1499-cu ildə Əlvənd Mirzənin qoşunlarına üstün gələrək Təbrizə daxil oldu və hakimiyyəti ələ keçirdi. Bu vəziyyətdən razı olmayan əmirlər Aybə sultan tərəfindən həbs edilmiş Muradı həbsdən azad edib Sultan Məhəmmədə qarşı qoydular. Onlar arasındakı hakimiyyət çəkişməsi də döyüşə gətirib çıxardı. 1499-du ilin sonlarında İsfahan yaxınlığında Muradla Məhəmmədin

qoşunları arasında döyüş baş verdi. Bu döyüşdə Murad üstün gəldi. Bu döyüşdən sonra ərəb İraqı, Fars İraqı, Fars Muradın (Sultan Muradın) hakimiyyəti altına düşdü. Azərbaycan əraziləri isə taxtdan salınsa da hakimiyyətə iddialı olan Əlvənd Mirzənin hakimiyyəti altında qaldı. 1500-cü ildə Əlvəndlə Murad arasında razılaşma əldə edildi və həmin razılaşmaya əsasən Ağqoyunlu dövlətinin ərazisi iki yerə bölünmüş oldu (31).

### 3. İsmayıl Mirzənin öz hərəkatına başlaması

XV əsrin sonlarında Ağqoyunlu dövləti ərazisində baş verən daxili çəkişmələri xarakterizə edən mənbələrdən biri yazırdı ki, Əcəm İraqında və Azərbaycan məmləkətində elə bir hərc-mərclik baş verirdi ki, iki gündən bir yeni padşah gəlirdi (32). Belə bir dövrdə İsmayıl Mirzə cahangirlik yürüşlərinə başlamağı qərara aldı. Mənbələrdə və bəzi tarixi ədəbiyyatda İsmayıl Mirzənin 13 yaşına çatması, ölkədə hakimiyyət uğrunda çəkişmələrin güclənməsi, Səfəvi təriqət tərəfdarlarının etiqad yolunda mübarizəyə hazır olması və belə bir zamanda İsmayıl Mirzə tərəfindən cahangirlik yürüşlərinə başlanması arasında bir əlaqə tapılmasına cəhd göstərilir. Belə güman edilir ki, təriqət tərəfdarlarının İsmayıl Mirzənin bayrağı altında mübarizəyə kütləvi şəkildə hazır olması həm də ilahi bir qədərlə bağlıdır. Buna görə də təriqət tərəfdarları vaxt yetişəndə hamılıqla mübarizəyə hazır oldular.

Amma məlumdur ki, İsmayıl Mirzənin hələ uşaq yaşlarından Səfəvi təriqət tərəfdarları arasında təşkilatlanma qalmaqda idi. Müxtəlif bölgələrdə yerləşən təriqət tərəfdarları ilə təriqət mürşidi arasında əlaqələr mövcud idi və bu əlaqələr vaxt ötdükcə daha da güclənirdi. Mürşid tərəfindən müxtəlif bölgələrə xəlifələr təyin edilməsi və mürşid tövsiyələrinin çox tez bir zamanda yerlərə, təriqət tərəfdarlarına çatdırılmasının işlək bir mexanizmi qurulmuşdu. Dövrün imkanlarına görə, Səfəvi təriqət tərəfdarları arasında əlaqələri kifayət qədər çevik şəkildə qurmaq mümkün idi və bununla təriqət tərəfdarlarına lazımi göstərişlər çatdırılmaqla, həm də onların fəaliyyətini nəzarət altında saxlamaq olurdu. İsmayıl yaşa dolduqca təriqət tərəfdarları onun ətrafında daha sıx səfərbər olurdular və həm də onların İsmayıl Mirzə ilə əlaqələri daha işgüzar xarakter alırdı. Dövrün hərbi-siyasi çəkişmələri isə daha sabit və ədalətli bir hakimiyyətin təriqət rəhbərliyi altında qurula biləcəyi qənaətini daha da gücləndirirdi.

Cahangirlik yürüşlərinə başlanması həm də İsmayıl Mirzənin münasib yaşa çatması ilə bağlı idi. Mübarizə meydanına atılanda İsmayılın 13 yaşı var idi. Bu yaşa qədər İsmayıl həm mənəvi baxımdan, həm də fiziki baxımdan böyük vəzifələrin həyata keçirilməsi üçün kifayət qədər hazır idi. Mövcud olan bəzi məlumatlara görə, İsmayıl öz hərəkatına başlamazdan bir müddət əvvəl Lahican hakimi Mirzə Əliyə müraciət etdi, yaxınlarından birini onun yanına göndərdi və hərəkata başlamaq üçün ondan icazə istədi. Mirzə Əli bu dəfə İsmayıl Mirzəyə icazə vermədi və bildirdi ki, həm yaşı azdır, həm də ətrafına kifayət qədər tərəfdar toplanmayıb. Məsləhət bildi ki, o, bir müddət də gözləsin və hazırlıqlarını

tamamlasın. Amma İsmayıl Mirzə öz qərarından dönmədi və o özündə bu hərəkata başlamaq üçün bir qüvvə hiss etdiyi üçün bir daha Mirzə Əliyə müraciət etdi. Bu dəfə şəxsən o özü Mirzə Əlinin yanına getdi, hərəkata başlamaq üçün ondan icazə istədi. Qeyd edilməlidir ki, İsmayıl Mirzənin hərəkata başlamaq istəyi həm də onun ətrafında cəm olmuş qızılbaş əmirlərinin onun rəhbərliyi altında mübarizəyə hazır olmaları ilə bağlı idi. Kiçik yaşlarında olmasına baxmayaraq, İsmayıl Mirzənin rəhbərlik istedadı, şücaəti, fiziki keyfiyyətləri, təşkilatçılığı, mürşidlik bacarığı hərəkatın başlanması vaxtının çatdığı barədə onun ətrfında toplananlarda heç bir şübhə yeri qoymurdu.

Kargiya Mirzə Əli bu dəfə də onun kiçik yaşda olmasına görə hərəkatın təxirə salınması təklifini irəli sürdü. İsmayıl Mirzə bu təklifə öz münasibətini belə bildirdi ki, hərəkata başlaması üçün göylərdən buyuruq alıbdır və ona görə, Mirzə Əlinin hüzurundan getməyə məcburdur. Belə olanda Mirzə Əli də daha etiraz etmədi və İsmayıl Mirzə 1499-cu ilin avqustunda Lahicanı tərk edərək hərəkatını başladı (33).

"Tarix-i aləmara-yi Abbasi"də İsmayıl Mirzənin Lahicanı tərk edərək öz hərəkatına başlaması aşağıdakı kimi təsvir edilmişdir: "Türkman Ağqoyunlu sultanlarının dövlətində çaxnaşma və ara toqquşmaları xəbəri Süleyman şanlı xaqanın qulağına çatdıqda onun cahanı bəzəyən rəyi Gilandan çıxmaq qərarına gəldi. Karkiya Mirzə Əli qonaqpərəstliyə layiq təvazökarlıqla və dövlətsevərliklə, ehtiyatı nəzərə alıb, buna mane olaraq dedi: - Hələ dövlət gülşəninin qönçəsinin açılmaq vaxtı yetişməmişdir. Yəni yaşının azlığı, düşmənlərin çoxluğu, tərəfdar və köməkçilərin çatışmazlığı üzündən zati-alilərinin (İsmayılın) zühur və çıxış etmə məqamı [hələ] çatmayıbdır. Bir az da gözləmək lazımdır ki, bu ali məqsəd üçün Allahın köməyi ilə şərait hazırlanmış olsun.

O həzrət Karkiyanın xətrinə daha bir müddət [Gilanda] qaldı. Nəhayət, 906- cı ilin aylarında (28.07.1500 - 16.07.1501) Uzun Həsənin nəvələri olan, Sultan Yaqubun oğlu Sultan Muradla Yusif mirzənin oğlu Mirzə Əlvəndin arasındakı çəkişmələrdən sonra sülh bağlandı. İran məmləkətləri iki əmioğlu arasında bölündüyü zaman Süleyman şanlı xaqanın Gilanda qalmaq müddəti altı il yarıma çatdı. Daha artıq səbir etməyə hövsələsi yox idi. Qeybdən ilham alaraq, o vilayətdən çıxmaq qərarı aldı. O, Karkiya ilə vidalaşıb, zəmanənin qürur mənbəyinə çevrilmiş bir saatda xidmətçilərindən və canından keçən əqidəli tərəfdarlarından ibarət məhdud bir dəstə ilə məqsədinə tərəf yollandı. Karkiya Mirzə Əli var-dövlətinin imkan verdiyi qədər peşkəşlər təqdim edərək, layiqincə xidmət göstərdi və bir neçə fərsəx onu müşayiət edərək, [İsmayılın] qulluğunda olan qüdrətli dövlət ağsaqqallarına lazımi məsləhətlər verdikdən sonra onları Allah amanında mətləbə tərəf yönəltdi. Elə ki Taroma çatdılar, Rum və Şam sufilərindən təqribən min beş yüz nəfəri sədaqət qapısından keçərək, [İsmayılın] fələk kimi uca dərgahında cəmləşdilər. Oradan Xalxala təşrif gətirdilər. Xalxaldan Ərdəbilə getdilər. Ərdəbil hakimi Sultan Əli bəy Cagirlü onlara mane olmaq və qarşı çıxmaq mövqeyində durdu. Buna görə də Süleyman şanlı xaqan o vaxt qoşununun azlığı üzündən döyüşə girməyi sərfəli bilməyib, oradan Talış

tərəfə getdi. O il şiddətli soyuq və şaxta olduğundan [İsmayıl və tərəfdarları] Astara vilayətinin Ərcüvan kəndində qışlağa qaldılar" (34).

Mənbələrdə olan məlumata görə, Lahican tərk edilməzdən əvvəl münəccimlərin vasitəsilə ulduzlar seyr edildi və başlanan hərəkatın aqibəti ilə bağlı ulduzlardan xəbər tutuldu. Alınan xəbərlər də ümidverici oldu və bu xəbər də İsmayıl Mirzənin hərəkata başlamasına əlavə bir ümid verdi. Ulduzların seyrinə əsasən, hərəkət üçün münasib gün yetişəndə İsmayıl Mirzə və onu müşayiət edənlər Lahicandan yola düşdülər. Lahican hakimi Mirzə Əli də onları müəyyən məsafəyə qədər müşayiət etdi (35).

İsmayıl Mirzə Lahicanı onunla birlikdə Gilana gəlmiş 7 qızılbaş və sufi əmiri ilə birlikdə tərk etdi. Yəni, İsmayıl Mirzə cahangirlik hərəkatına 7 nəfərlə başladı. Bu fakt İsmayıl Mirzənin qətiyyətindən, onun başladığı hərəkatın uğuruna olan inamından irəli gəlirdi. Bu məsələ özü də İsmayıl Mirzənin şəxsiyyətini xarakterizə edə biləcək bir cəhətdir. Onun böyük əminliklə hərəkata başlamasının səbəbi ilahi məqamlarla bağlansa da burada başqa səbəblərin olması da şübhəsizdir. Amma istənilən halda İsmayıl Mirzə öz gücünə arxalanaraq, mürşidi olduğu təriqətin gücünə arxalanaraq cahangirlik hərəkatına başladı. Mövcud olan faktlar onu da göstərir ki, İsmayıl Mirzə öz hərəkatına başlayanda təriqət tərəfdarları və müridləri arasında da bu hərəkata bir hazırlıq var idi. Mövcud olan əlaqə şəbəkəsi ilə təriqət əhli öz mürşidinin rəhbərliyi altında müqəddəs hərəkata başlamağa müəyyən hazırlıq görmüşdü. Bu hazırlıq ilk növbədə mənəvi-əqidə hazırlığı idi. Səfəvi müridləri davamlı şəkildə İsmayıl Mirzə ilə əlaqə saxlayaraq təriqətə sadiq olduqlarını bəyan edir və bu sədaqəti əməldə nümayiş etdirməyə hazır olduqlarını bildirirdilər. Səfəvi təriqət əhlinin böyük hərəkata hazırlığı heç şübhəsiz ki, onların hərbi-fiziki hazırlıqlarını da istisna etmirdi. Çünki hərbi hazırlıqlar həyata keçirilmədən dövrün hakimlərinin çoxsaylı qoşunlarına qarşı müqavimət göstərmək də mümkünsüz olardı. Buna görə, İsmayıl Mirzənin hərəkata başlaması ərəfəsində təriqət əhli arasında təşkilatlanmanın çox güclü olduğu şübhə doğurmamalıdır. Təəssüf ki, bu məqamın təfərrüatları barəsində mənbələrdə yetərli məlumatla rastlaşmaq çətindir.

Dövrün mürəkkəb hərbi-siyasi şəraiti də cahangirlik hərəkatına başlanması üçün münasib bir zəmin təşkil edirdi. Davamlı şəkildə özünü göstərən daxili çəkişmələr, hakimiyyət uğrunda toqquşmalar sadə əhaliyə böyük talan və qırğınlar gətirirdi. Sabit bir həyatın qurulması, müharibələrə son qoyulması baxımından əhalinin müqəddəs dini dəyərlərin qorunacağı bir cəmiyyətin qurulmasına olan güclü ümidləri İsmayıl Mirzə hərəkatına ictimai bir dəstək kimi də qəbul edilə bilərdi.

Bəzi məlumatlara görə, İsmayıl Mirzə Lahicanı tərk etməzdən əvvəl ətrafındakı əmirlərlə Ərdəbilə doğru hansı marşrutla hərəkət etmək barəsində məsləhətləşmə apardı. Belə qərara gəlindi ki, İsmayıl Mirzə Deyləm-Tarom marşrutu ilə Astaraya doğru hərəkət etsin (36). Çox güman ki, həmin marşruta üstünlük verilməsinin səbəbi adları çəkilən məntəqələrdə təriqət tərəfdarlarından

ibarət dəstələrin toplanması və bu dəstələrin İsmayıl Mirzəyə qoşulmağa hazır olmaları idi

Deyildiyi kimi, Lahican hakimi Mirzə Əli müəyyən məsafəyə qədər İsmayıl Mirzəni müşayiət etdi. Bəzi məlumatlara görə, Mirzə Əli bu zaman Deyləm istiqamətində olan Saman adlanan məntəqəyə qədər onu yola saldı və sonra salamatlaşaraq geri qayıtdı (37). İsmayıl Mirzə isə Deyləm və Tarom istiqamətində hərəkətini davam etdirdi. Baxmayaraq ki, Mirzə Əli təkidlə İsmayıl Mirzəni müdafiə edirdi və təhlükələrlə rastlaşmasına baxmayaraq, İsmayıl Mirzəni müdafiə etmişdi Lahicandan İsmayıl Mirzənin dəstəsinə kimsənin qoşulması haqqında mənbələrdə və tarixi ədəbiyyatda bir məlumat yoxdur. Doğrudur, bəzi mənbələrdə İsmayıl Mirzənin Lahicanı 7 nəfərlə deyil, nisbətən daha böyük sayda (17 nəfərlə) tərk etməsi haqqında məlumat mövcuddur (38). Amma mənbələrdə və tarixi ədəbiyyatda əsasən 7 nəfərə istinad edilir.

Ola bilər ki, İsmayıl Mirzə Lahicanı tərk etməsindən sonra Mirzə Əlinin əlavə təhlükələrlə rastlaşmasına razı olmadığı üçün oradan özünə silahdaş götürməyi lazım bilməmişdi. Başqa səbəb də ola bilərdi. Bölgədə isə onun tərəfdarları çox idi. Çünki bir tərəfdən Lahican və bütünlükdə Gilan İsmayıl Mirzənin ulu əcdadı Şeyx Səfiəddinin sufi kimi formalaşdığı bir məkan idi. Digər tərəfdən, İsmayıl Mirzə Lahicanda olduğu müddətdə yerli əhali ilə olan ünsiyyətlərində təriqət mürşidi kimi yaxşı tanınırdı və sözsüz ki, yerli əhalinin səmimi münasibəti onun mühafizəsini şərtləndirən mühüm amillərdən biri idi.

Bölgədə onun çoxlu sayda müridinin və təriqət tərəfdarının olmasının nəticəsi idi ki, hələ Taroma çatmamış İsmayıl Mirzəyə bu məntəqədə toplanmış 70 nəfərlik bir dəstə qoşuldu. İsmayıl Mirzə Lahicanı tərk etməzdən əvvəl ətraf məntəqələrdə toplanan təriqət tərəfdarlarını hərəkətə hazır olmaları barəsində xəbər göndərmişdi.

Göründüyü kimi, Taromda artıq İsmayıl Mirzənin dəstəsinin formalaşmasına başlandı. Bu xəbərin ətrafa yayılması Tarom hakimi Hüseyn Sultanın da ciddi təşviş və narahatçılığına səbəb oldu. Məntəqədə Ağqoyunlu dövlətinə düşmən olan bir qüvvənin toplaşmasının qarşısını almaq üçün Hüseyn Sultan əməli addımlar atmağa başladı. Hüseyn Sultan 700 nəfərlik bir dəstə ilə Taromun 4 fərsəxliyinə çıxdı ki, İsmayıl Mirzənin dəstəsinə zərbə vursun. Bu zaman İsmayıl Mirzə ətrafındakı bir neçə nəfərlə ovda imiş. Hüseyn Sultanın dəstəsinin yaxınlaşmasını görəndə İsmayıl Mirzənin lələsi Hüseyn bəy Şamlı döyüşə girmədən oradan uzaqlaşmağı məsləhət bildi. Çünki İsmayıl Mirzə onun ətrafına toplanmış dəstədən xeyli uzaqda idi. İsmayıl Mirzə isə bu təklifi qəbul etmədi və bildirdi ki, o artıq öz hərəkatına başlamışdır və yaxınlaşan təhlükədən üz çevirməsi yaxşı qarşılanmaz. Sonra da əlavə etdi ki, gərək müqavimət göstərək və Allah bizimlə olduğu halda qələbə də yaxında olacaqdır (Quranın Səf surəsinin 13-cü ayəsinə işarədir). Beləliklə, İsmayıl Mirzə onunla ova gəlmiş bir neçə sufi ilə Hüseyn Sultanın qoşun dəstəsinə qarşı vuruşmağa başladı. Döyüş başlamazdan əvvəl Hüseyn Sultan adamlarından birini İsmayıl Mirzənin yanına göndərdi, onun və onun ətrafındakıların kim olması ilə maraqlandı. İsmayıl Mirzə də ona xəbər göndərdi ki,

qarşıdakı böyük hərəkata başlamış İsmayıl Mirzədir. Bizə qoşulsan böyük mərtəbələrə çata bilərsən, yox əgər döyüşmək istəyirsənsə ixtiyar özünündür. Hüseyn Sultan xəbəri eşidəndə İsmayıl Mirzəyə qoşulmaqdan imtina etdi. Əksinə, sevindi ki, İsmayıl Mirzəni ələ keçirmək ona qismət ola bilər. Ona görə də döyüşə başlamaq işarəsi verdi. Hüseyn Sultanın qardaşı irəli çıxaraq İsmayıl Mirzə ilə döyüşə başlamaq istədi. İsmayıl Mirzənin razılığı ilə onun qarşısına Hüseyn bəy Lələ çıxdı. Hüseyn bəy əvvəlcə onu fikrindən çəkindirməyə çalışdı. Görünür, Hüseyn Sultanın qardaşı İsmayıl Mirzənin asanlıqla ələ keçiriləcəyini güman etdiyindən heç bir təklifi qəbul etmədi. Belə olanda Hüseyn bəy Lələ qılınca əl atdı və Hüseyn Sultanın qardaşını qətlə yetirdi. Hüseyn Sultan bunu görüncə İsmayıl Mirzənin dərhal ələ keçirilməsinə işarə verdi. O bildirdi ki, əgər İsmayıl Mirzənin dəstəsi bu döyüşdən xəbər tutub köməyə gəlsə həmin dəstənin qarşısını saxlamaq mümkün olmayacaq. Ona görə də Hüseyn sultanın 700 nəfərlik dəstəsi İsmayıl Mirzəni və onun ətrafındakıları mühasirəyə aldılar. Belə olanda İsmayıl Mirzə və onun ətrafındakılar da silaha əl atdılar. Mənbədə olan məlumata görə, İsmayıl Mirzənin Heydəri zərbəsi qarşısına çıxanlara aman vermədi. Nəhayət o, tezliklə Hüseyn Sultana da çatdı, ona bir daha bu döyüşdən əl çəkməyi təklif etdi. Hüseyn Sultan yenə bu təklifləri qəbul etməyəndə İsmayıl Mirzənin qılıncının zərbəsindən öz həyatı ilə vidalaşmalı oldu. Elə bu vaxt İsmayıl Mirzənin dəstəsi məsələdən xəbər tutaraq özünü döyüş meydanına yetirdi. Hüseyn Sultanın dəstəsindən 400 nəfər qətlə yetirildi. İlk döyüşdə uğur qazanan İsmayıl Mirzənin dəstəsi qələbə sevinci ilə yenidən Taroma qayıtdı (39).

Taromda isə İsmayıl Mirzənin dəstəsinin sayı daha da artdı. Bir məlumata görə, burada onun dəstəsinə daha 120 nəfər qoşuldu (40). Bir məlumata görə isə, İsmayıl Mirzə Taroma çatanda onu artıq bura Rumdan və Şamdan toplaşmış olan 1500 nəfərlik sufi dəstəsi gözləyirdi və bu dəstə də İsmayıl Mirzənin dəstəsinə qatıldı (41). Bu məlumatın doğru olacağı təqdirdə belə güman etmək olar ki, İsmayıl Mirzənin hərəkata başlamasının bir səbəbi də Rum və Şamdan olan sufi dəstələrinin Taroma yetişməsi xəbəri ola bilərdi.

"Aləmara-yi Şah İsmayıl"da daha sonra bildirilir ki, Hüseyn Sultanın öldürülməsindən sonra Tarom nəzarət altına keçdikdən sonra İsmayıl Mirzə dəstəsi ilə Xalxala doğru hərəkətə başladı. Xalxal hakimi də ona müqavimət göstərmək istədi. Təfərrüatları barəsində geniş məlumat olmasa da, İsmayıl Mirzənin dəstəsi Xalxal hakiminin də müqavimətini qırdı və bu məntəqəni də nəzarət altına götürdü. Sonradan o, təxminən bir ay Xalxalda qalaraq dəstəsinin sıralarının genişləndirilməsi ilə məşğul oldu. Əvvəlcə o, Şamlı tayfasının məskunlaşdığı kəndə yollandı və bu tayfanın üzvləri arasında işlər apardı. Bu məntəqədə İsmayıl Mirzənin xoşladığı yemişlər yetişirmiş. İsmayıl Mirzə məntəqəyə gəlişini yemişə olan marağı ilə əlaqələndirsə də, əslində onun orada olduğu vaxtda şamlılar arasından tərəfdar toplanması da aparıldı. O bir neçə gün bu məntəqədə yemiş tarlalarının sahibi olan Şeyx Qasım adlı birisinin evində qonaq qaldı. Sonra isə İsmayıl Mirzə ətrafdakı kəndlərə yollandı və bu kəndlərdə də bir xeyli vaxt keçirdi. Həmin müddət ərzində bu kəndlərdən toplanan tərəfdarların sayı da artdı (42).

"Aləmara-yi Şah İsmayıl"dakı məlumata görə, Xalxal ətrafında bir müddət qaldıqdan sonra İsmayıl Mirzənin dəstəsinin sayı 1500 nəfərə çatdı. Bu mənbə müəllifi İsmayıl Mirzənin dəstəsinə toplaşanların Rum və Şamdan gələnlər hesabına artması haqqında məlumat verməmişdir (43). Çox güman ki, bu, təsadüf deyildi və İsmayıl Mirzənin dəstəsinin sıralarını genişləndirənlər Şamdan gələnlər yox, Xalxal ətrafında məskunlaşmış Şamlı tayfasının üzvləri idilər. Çünki Ağqoyunlularla Səfəvi xanədanı arasında düşmənçilik mövcud olduğu bir vaxtda Şamda toplanan sufi müridlərinin Ağqoyunlu ərazisində uzun məsafəni təhlükəsiz şəkildə keçmələri və eləcə də Xalxalda və ya Taromda onların məskunlaşması və orada İsmayıl Mirzəni gözləməsi real görünmür. Çünki adları çəkilən məntəqələr Ağqoyunluların hakimiyyəti altında idi və yuxarıdakı faktlar da göstərir ki, adları çəkilən məntəqələrin hakimlərinin də Səfəvi təriqətinə qarşı rəğbətli münasibəti yox idi. Ona görə onlar imkan verməzdilər ki, belə böyük sayda sufi müridləri onların hakim olduqları ərazidə silahlanmış halda İsmayıl Mirzənin intizarında olsunlar.

### 4. İsmayıl Mirzənin Ərdəbilə dönüşü

Xalxaldan sonra İsmayıl Mirzə Ərdəbilə yollanmaq, orada həm əcdadlarının qəbrini ziyarət etmək, həm də Ərdəbildə qalmış anası ilə görüşmək istəyirdi. Bəzi mənbələr onun Ərdəbilə yetişdiyini, lakin orada qalmaq təhlükəli olduğu üçün şəhəri tərk etməli olduğunu və Astaranın Ərcivan kəndinə çəkildiyini, bəzi mənbələr isə İsmayıl Mirzənin Ərdəbilə daxil ola bilməyərək Ərcivan kəndində məskunlaşmalı olduğunu yazırlar. "Aləmara-yi Şah İsmayıl" əsərindəki məlumata görə, İsmayıl Mirzə Ərdəbilə yollanmaq qəsdində olanda bu barədə Ərdəbil hakimi Sultan Əlixana xəbər çatdırıldı. İsmayıl Mirzənin Ərdəbilə daxil olmasını istəməyən Sultan Əlixan öz ətrafını yanına toplayıb İsmayıl Mirzənin planlarının qarşısının necə alınması barəsində onlarla məsləhətləşmə apardı. Sultan Əlixanın fikrincə, əgər şəhər əhli İsmayıl Mirzənin böyük hərəkata başlaması haqqında məlumat alsaydı onu müdafiə edəcəkdilər və bu da Sultan Əlixanın hakimiyyətinin itirilməsi ilə nəticələnə bilərdi. Bu təhlükənin qarşısının alınması üçün o təklif etdi ki, gecə ikən Ərdəbil sakinlərinin çoxu ov bəhanəsi ilə şəhərdən kənara çıxarılsın. Belə olan təqdirdə şəhərdən kənara çıxarılmış sakinlər İsmayıl Mirzənin planlarından xəbər tutmazdılar. Bundan başqa, belə qərar çıxarıldı ki, Qaradərə adlanan yerdə yerləşən İsmayıl Mirzənin dəstəsinin Ərdəbilə irəliləmək yolu kəsilsin. Həmin gün şəhərdə həm ov tədarükünə başlandı, həm də bir dəstə Gilandan gələn yolun kəsilməsinə göndərildi. Sultan Əlixanın Səfəvi təriqətinə rəğbətli olan xidmətçilərindən biri bütün bu işlərin nə üçün edildiyindən xəbər tutdu və gecə ikən özünü Sultan Heydərin evinə çatdırdı, onun xanımı, İsmayıl Mirzənin anası Aləmşah bəyimi həm İsmayıl Mirzənin Ərdəbilə gəlmək ərəfəsində olması, həm də Ərdəbil hakimi tərəfindən onun gəlişi ilə bağlı hansı hazırlıqlar görülməsi haqqında xəbərdar etdi. Aləmşah bəyim eşitdiyi xəbərdən narahat oldu və İsmayıl Mirzənin

gözlənilən təhlükədən xilas etmək üçün onun yanına qasid göndərdi. Aləmşah bəyim ona çatdırdı ki, hazırda sufi müridləri yaylaqlardadır və ona görə şəhərdə heç kim yoxdur. Aləmşah bəyim təklif etdi ki, İsmayıl Mirzə bir də altı aydan sonra Ərdəbilə üz tutsun. Həmin vaxt sufi müridlərinin şəhərdə olması İsmayıl Mirzənin Ərdəbilə gəlişini asanlaşdıra bilərdi. Qasid də özünü İsmayıl Mirzənin düşərgəsinə yetirir və Aləmşah bəyimin xəbərlərini ona çatdırır. İsmayıl Mirzə qızılbaş əmirləri ilə məsləhətləşəndən sonra belə bir qərar qəbul edilir ki, hazırkı vəziyyətdə doğrudan da Ərdəbilə daxil olmaq düzgün deyildir. Mənbə məlumatına görə, İsmayıl Mirzə Astaraya deyil, yenidən Taroma qayıtmaq və qışı orada keçirmək barədə qərar verdi (44).

Adı çəkilən mənbənin verdiyi məlumata görə, Azərbaycan ərazilərinin hakimi olan Ağqoyunlu Əlvənd Mirzə Ağqoyunlu dövlətinin parçalanmasına ona görə razı olmuşdu ki, taxt-tac uğrunda ailə daxili mübarizə hakimiyyəti zəiflətməsin və taxt-tac Səfəvi xanədanının əlinə keçməsin. Ona görə də o, Ərdəbil ətrafına qoşun çəkmiş İsmayıl Mirzənin geri çəkilməsindən xoşhal oldu və bunu Ərdəbil hakimi Sultan Əlixanın fəaliyyəti ilə əlaqələndirərək ona qiymətli hədiyyələr göndərdi. Bununla belə, İsmayıl Mirzənin rəhbərliyi altında Səfəvi təriqəti davamçılarının hərbi yürüşə başlaması xəbəri Əlvənd Mirzənin böyük təşvişinə və narahatçılığına səbəb oldu və İsmayıl Mirzənin yarada biləcəyi təhlükənin qarşısının alınması üçün qoşunların Təbrizdə toplanması barəsində göstəriş verdi (45).

Bəzi mənbələrdə İsmayıl Mirzənin Gilandan birbaşa Astaranın Ərcivan kəndinə yollandığını bildirilir və bu qərar havaların soyuması və qış havası daha münasib olan Ərcivanda keçirilməsi istəyi ilə əlaqələndirirdi (46). "Xolde bərin" əsərində isə İsmayıl Mirzənin başına toplaşmış dəstə ilə Ərdəbilə daxil olduğu, lakin Ərdəbil hakiminin təzyiqindən sonra şəhəri tərk etməli olduğu bildirilir. Bu əsərdə göstərilir ki, İsmayıl Mirzə və onu müşayiət edən dəstə heç bir maniə olmadan Ərdəbil şəhərinə daxil ola bildi. Konkret tarix göstərilməsə də hadisələrin təsviri onu deməyə əsas verir ki, İsmayıl Mirzənin Ərdəbilə daxil olması ilə bağlı verilən məlumatlar və eləcə də onun Ərcivana çəkilməsi 1499-cu ilin payızına təsadüf edir. Çünki İsmayıl Mirzə Ərcivanı qışlaq düşərgəsi kimi seçmişdi. Əgər doğrudan da İsmayıl Mirzə Ərdəbilə daxil olmuşdusa, heç şübhəsiz ki, onun ciddi niyyətləri var idi və bu şəhəri öz nəzarəti altına almaq istəyirdi. Mənbə məlumatlarından belə bir qənaət də hasil olur ki, İsmayıl Mirzənin Ərdəbilə daxil olmasından bu şəhərin hakimi Sultan Əlixanın (bəzi ədəbiyyatda Soltanəli bəy Çakərli kimi də təqdim olunur) xəbəri yoxmuş və yalnız sonradan bu hadisədən xəbər tutubmuş. İsmayıl Mirzə Ərdəbilə daxil olandan sonra ilk növbədə əcdadlarının qəbirlərinin ziyarətinə yollandı. Sonra isə İsmayıl Mirzə ata evinə yollandı və anası ilə görüşdü. Sultan Əlixan bu məsələdən xəbər tutanda İsmayıl Mirzənin yanına adam göndərdi. Görünür, Sultan Əlixanın hərbi qüvvəsi İsmayıl Mirzə ilə qarşılaşmaq üçün yetərli deyildi. Yoxsa, çox güman ki, onun ələ keçirilməsi üçün bir cəhd göstərilərdi. Ona görə də Sultan Əlixan siyasətlə onun şəhərdən uzaqlaşdırılmasına çalışdı.

Sultan Əlixan xəbər göndərdi ki, bir diyarda iki sərdarın, bir ölkədə iki sərvərin, bir qında iki qılıncın olması mümkün deyildir. Ona görə yaxşı olar ki, bu diyarı tərk etsin. Əks təqdirdə isə döyüşə hazır olsun. Sultan Əlixan sonra onu da bildirdi ki, Əlvənd Mirzə bu diyarın hakimliyini İsmayıl Mirzəyə həvalə etməyəcəkdir. Ona görə buranı tərk etməsi daha yaxşı olar. Mənbə məlumatına görə, İsmayıl Mirzə bu xəbərdarlıqdan xoşlanmasa da, mövcud vəziyyətdə Ərdəbilin tərk edilməsini daha düzgün saydı və ona görə də Ərdəbilin tərk edilməsinə qərar verildi. İsmayıl Mirzə onu müşayiət edənlərlə birlikdə Ərdəbili tərk edib Mərəni kəndində düşərgə saldı və sonra da öz adamlarından birini Talış hakimi Mirzə Məhəmməd Talışın yanına göndərdi. Talış hakimi Səfəvi təriqətinə meylli şəxslərdən biri sayılırdı və ona görə ondan Talış ərazisində düşərgə salınmasına razılıq istəndi. Mirzə Məhəmməd Talış ona edilən xahişdən çox sevindi və dərhal özü İsmayıl Mirzənin düşərgəsinə yollandı. Məsləhət bilindi ki, İsmayıl Mirzə qışı Ərcivan kəndi ətrafında keçirsin və məlumata görə, Talış hakimi İsmayıl Mirzəni Ərcivanda olduğu zaman hərtərəfli qayğı ilə əhatə etdi və onun xidmətində dayandı (47).

Ərcivanda olduğu vaxt İsmayıl Mirzə balıq tutmağı çox xoşlarmış. Vaxtın çoxluğu bu məşğuliyyətə olan marağı onda artırmaqda idi. Ona görə də gün ərzində vaxtının müəyyən hissəsini dəniz kənarında keçirərmiş. İsmayıl Mirzənin düşməni olan Ərdəbil hakimi Sultan Əlixan da bundan öz məqsədləri üçün yararlanmağa cəhd göstərdi. Mənbə məlumatlarına görə, İsmayıl Mirzə Ərdəbildən geri çəkilsə də Sultan Əlixan heç də özlüyündə rahatlıq tapmadı və o şübhə etmirdi ki, İsmayıl Mirzə yenidən Ərdəbilə qayıdacaqdır. Ona görə öz adamları vasitəsilə o, İsmayıl Mirzəni izləyir və təqib edirdi. Eşidəndə ki, İsmayıl Mirzə vaxtının müəyyən hissəsini dəniz kənarında keçirir Ərcivana adam yolladı ki, İsmayıl Mirzənin dənizdə batırılmasını təşkil etsin. Bununla da İsmayıl Mirzə ilə bağlı olan bütün narahatçılıqlara son qoyulsun. Sultan Əlixanın Ərcivana göndərdiyi adam Talış hakiminin anası ilə dil tapmağa müvəffəq oldu. Onun vasitəsilə Ərdəbildən göndərilmiş casus Talış hakiminin yaxınlarından olan Həmzə Talış adlı birisi ilə tanışlıq əldə etdi və onlar ikilikdə İsmayıl Mirzənin dənizdə batırılması planı üzərində düşünməyə başladılar. Təsadüfən Talış hakimi Mirzə Məhəmməd anasından İsmayıl Mirzəyə qarşı qəsd hazırlanması planından xəbər tutur. Ona görə dərhal həmin adamları yanına çağırır və sərt şəkildə onlardan İsmayıl Mirzəyə qarşı lazımsız hərəkətlərdən çəkinməyi tələb edir. Bununla, əslində, İsmayıl Mirzəyə qarşı planlaşdırılan qəsdin qarşısı alınır. Amma sonradan bu qəsd planı haqında söz-sözbətlər İsmayıl Mirzənin ətrafındakı əmirlərə və onların vasitəsilə də İsmayıl Mirzənin özünə çatır. Belə olanda Mirzə Məhəmməd məsələnin mahiyyətini açıb İsmayıl Mirzəyə danışır və onun inandıra bilir ki, planlaşdırılan bu qəsddən xəbəri olmamış, əksinə xəbərdar olanda onun qarşısını almışdı. "Əhsənüt təvarix" əsərində İsmayıl Mirzənin Ərcivan həyatı ilə bağlı aşağıdakı qeydləri vardır: "İsgəndər şanlı xaqanın əhvalının necəliyindən agah olan kimi Mirzə Məhəmməd ulu dərgaha tələsərək ali əşrəfə ərz etdi ki, ürəyinizin səhifələrində əks olunduğu şəkildə

istirahət ləvazimatı hazırlanacaqdır. Ona görə də İsgəndər şanlı xaqan Ərcüvanda qışlaq etdi və Mirzə Məhəmməd ali əşrəfin könlünü razı salmaq və dövlət böyüklərinə xidmətkarlıq göstərmək üçün elə çalışdı ki, iki dilli qələm onları sadalamaqla qurtara bilməz. Ali məqamlı xaqan əksər vaxtını balıq ovlamaqla keçirirdi. O əsnada Sultanəli bəy Cagirlü, Mirzə Məhəmmədin anasının yanına adam göndərdi və ona sonsuz vədlər verərək xahiş etdi ki, İsgəndər şanlı xaqan dəniz kənarında balıq tutmaqla məşğul olan zaman onu bacardığı tərzdə dənizə atsın. Mirzə Məhəmmədin iş icraçısı olan Həmzə Talış, Mirzə Məhəmmədin anası və Sultanəli bəy Cagirlü ilə müttəfiq olub fürsət gözləməkdə idilər. Əvvəlcə Mirzə Məhəmmədin bu işdən xəbəri yox idi. Amma anasının hərəkət və davranışlarından bu niyyəti anladı. Anasını danladı və ona [bu işdən] çəkinməyi buyurdu. Həmzə Talışı da çox təhqir edib azarladı və həmişə bu işin gizli qalmasına çalışdı. Əmirə Ağa Gilani bu hadisədən xəbərdar olmuşdu. Bir gün o, bu əhvalatı Lələ bəylə Xadim bəyə dedi və onlar da kama çatmış əlahəzrətə (İsmayıla) yetirdilər. Bu hadisənin ali əşrəfə məruzə edildiyini öyrənən Mirzə Məhəmməd aləmin pənahı olan dərgaha tələsib İsgəndər şanlı xaqanın hüzurunda and içdi ki, mənim bu niyyətdən qətiyyən xəbərim olmayıb və xəbər tutan kimi anama mane olmuşam və onu danlamışam. Mirzə Məhəmmədin andının məzmunu həqiqətə uyğun gəldiyi üçün onun qəbulu ali əşrəfin dünyanı göstərən rəyinə və qüdrətli dövlət ərkanının könlünə şəfəq saçdı (onun andı qəbul edildi).

...Bəziləri bu hekayəni belə nəql edirlər ki, o zaman Əhmədi bəyin qardaşı Məhəmməd bəy, Mirzə Məhəmməd bəyin mülazimi idi. Əlvənd bəy, Mirzə Məhəmmədlə Məhəmməd bəyin yanına bir adam göndərib onlara Ərdəbil və Xalxal əyalətini vəd etdi. Şərti bu idi ki, İsgəndər şanlı xaqanı tutub onun yanına göndərsinlər. Mirzə Məhəmməd bu məsələ barədə çox götür-qoy etdi və fikirləşdi. Məhəmməd bəy ona dedi:

- Fani dünya hakimiyyəti uğrunda özünü belə bir pis işə bulaşdırmaq, talışın qeyrətinə yaraşmaz.

...Mirzə Məhəmməd onun sözü ilə bu işi görməkdən daşındı. Məhəmməd bəy bu xəbəri xəlvətcə İsgəndər şanlı xaqana çatdırdı. O həzrət bu səbəbdən xoşhal oldu ki, əgər [bu məsələdən] xəbərsiz qalsaydı, tamam qüsurun baş verməsi mümkün olardı" (48).

Mənbə məlumatlarından aydın olur ki, İsmayıl Mirzənin Ərcivanda qışlağa dayanması Ağqoyunlu hakimi Əlvənd Mirzəyə də bəlli olmuşdu və o da İsmayıl Mirzənin zərərsizləşdirilməsi üçün müəyyən addımlar atmağa cəhd göstərdi. Bu məsələdə o, daha çox vəd etdiyi var-dövlət qarşısında İsmayıl Mirzənin Talışda həbs edilərək Təbrizə göndəriləcəyinə ümid edirdi. Amma Talış hakimi birmənalı şəkildə İsmayıl Mirzənin həbsinə qarşı çıxdı və belə bir əməlin Talış torpaqlarına yaraşmadığını bildirdi (49).

Bir məlumata görə, Şirvanşah hakimi Fərrux Yasar da İsmayıl Mirzənin həbs olunmasına çalışırdı və bunun üçün Talış hakimi Mirzə Məhəmmədə 1000 tümən göndərmişdi. Amma Talış hakimi bu pulu almaqdan və İsmayıl Mirzəni

həbs etməkdən imtina etdi və ona xətər toxunmasına imkan vermədi: "Ondan sonra Şirvan padşahı Fərrux Yəsar, Mirzə Məhəmmədin yanına adam yolladı ki, İsgəndər şanlı xaqanı qardaşları ilə birlikdə mənim yanıma göndərməyin üçün sənə min tümən nağd [pul] göndərirəm. Bu xəbər ali məqamlı xaqana çatdıqda, bu üzdən ehtiyatlılıq yolunun yolçusu oldu (ehtiyatlı davranmağa başladı). O əsnada izzət və calal sahibinin (İsmayılın) qulağına çatdı ki, Mirzə Məhəmməd fələyə bənzər dərgaha gəlməkdədir. Qüdrətli dövlətin Hüseyn bəy Lələ, Abdal bəy Dədə, Xadim bəy və Bayram bəy Qaramanlu kimi əmirləri belə məsləhət bildilər ki, Mirzə Məhəmməd müzəffər düşərgəyə çatdığı vaxt nicat tapmış sufi firqəsi ("firqeyi-naciyyeyi-sufiyyə") silahlarını paltarlarının altında gizlətsinlər və əgər Mirzə Məhəmmədlə adamları düşməncəsinə davransalar, onlar da talışların üstünə tökülüb rəqibləri məhv etsinlər. Mələklərin təvaf etdikləri dərgaha ziyarət arzusu ilə gəlmiş bəzi Rum və Şam sufiləri silahlandılar və hazır vəziyyətdə dayandılar. Elə ki Mirzə Məhəmməd çoxlu adamla birlikdə zəfər şüarlı əsgərlərin yaxınlığına çatdı, İsgəndər şanlı xaqan Xadim bəyi, Lələ bəyi və Dədə bəyi onu qarşılamağa göndərdi ki, onun əhvalını öyrənsinlər və onun ürəyinin içindəki sikkələri imtahanın məhək daşına vurub bu yoxlamanın nəticəsi haqqında rəylərini ərzin zirvəsizə (İsmayıla) çatdırsınlar. Mirzə Məhəmməd qüdrətli dövlətin ərkanını uzaqdan görüncə, xilaf atından piyada olub onlarla əl-ələ görüşdü və yenidən öz səmimiyyət və sədaqətinin səhifələrini şahın dövlət ərkanının mütaliəsi üçün çevirməyə başlayıb sadiq və fədakar olduğunu iddia etdi. Dərgah əmirləri hadisəni olduğu kimi ali mövqeli xaqana ərz etdilər. Ondan sonra böyük əmirlər onu fələk məqamlı xaqana səcdə etməyə apardılar. Mirzə Məhəmməd bu səadətin şərəfinə nail olduqdan sonra şirvanşahın məktubunu çıxarıb əşrəfin nəzərinə çatdırdı vəonun nə xahiş etdiyini dilə gətirdi. [Mirzə Məhəmməd] behişt ayinli məclisdə "Qurani-Məcid" istəyərək, yenidən and içib dedi:

- Mənim fikrimdə bəndəlikdən və fədakarlıqdan başqa heç nə yoxdur. Bu şayiələr mənim sədaqətimin binasına heç bir xələl gətirməyib. Bu işin ali əşrəfin ərzinə çatdığını və mənim barəmdə xəyanət və vəfasızlıq gümanına düşdüyünü bildiyim üçün o təlaşı aradan qaldırmaq məqsədi ilə özümü hörmətli dərgaha yetirdim. Ümidvaram ki, mənim səmimiyyət və fədakarlığımın sikkələri dəfələrlə imtahan məhəkinə vurulub xalis və tam əyarlı çıxdığı üçün daha mənim barəmdə bu cür söz-söhbətləri qəbul etməzlər" (50).

İsmayıl Mirzə bütün bu planlardan xəbərdar idi və onların həyata keçməməsində Talış hakimi Məhəmməd Mirzənin ona olan sədaqətini yüksək qiymətləndirirdi. Məlumdur ki, İsmayıl Mirzə (Şah İsmayıl) səltənətə yiyələnəndən sonra Talış hakimi Məhəmməd Mirzə onun sərkərdələrindən birinə çevrilmişdi. Səfəvi qoşunlarının Mərv üzərinə yürüşündə Məhəmməd Mirzə qoşun sərkərdələrindən biri kimi bu yürüşdə iştirak etmişdi (51).

"Əhsənüt təvarix"in məlumatına görə, həmin il Ərcivanda son dərəcə sərt bir qış keçdi. Bununla belə, İsmayıl Mirzə bu şəraitdə də ətrafına toplaşmış müridlərin döyüş hazırlığına diqqət yetirməyi lazım bildi: "Səmada uçan quşlar

soyuqdan qar üstünə düşüb, qaçmağa və uçmağa macal tapmırdılar və insanlar o quşların hər cürəsindən tutub ali əşrəfin nəzərləri qarşısına gətirirdilər. İsgəndər şanlı xaqan o haldan təəccüb etmişdi. Çünki heç zaman bu cür şiddətli soyuq olmamışdı. Ondan sonra o həzrət buyurdu ki, qalibiyyətli əsgərlər və xanədanın müridləri qardan qala tərtib etsinlər. Qazilər elə bir qala düzəltdilər ki, hündürlükdə fələklər fələyi ilə bərabərlik iddiasında idi və onun üç tərəfindən qapı açdılar. İsgəndər şanlı xaqan qalanın aşağısında idi. O, bir dəstəyə əmr etdi ki, qalanın içində olsunlar və digər bir dəstəyə də buyurdu ki, iki tərəfdən [qalaya] hücum etsinlər. Özü də şəxsən səadətlə başqa bir qapıdan yürüş edib qalanı ələ keçirdi" (52).

1499-1500-cü ilin qışını Ərcivanda başa vurandan sonra İsmayıl Mirzə cahangirlik hərəkatının daha qətiyyətlə həyata keçirilməsinə başladı. Mənbələrdə və tarixi ədəbiyyatda bu məsələ şərh edilərkən İsmayıl Mirzənin yenidən Ərdəbilə baş vurmasına toxunurlar. " Aləmara-yi Şah İsmayıl"a görə, İsmayıl Mirzənin Ərdəbilə bu gəlişi ilk gəliş idi və o, qışı Taromda keçirəndən sonra Ərdəbilə yollanmaq, əcdadlarının qəbrini və anasını ziyarət etmək, Ərdəbili Ağqoyunulu nəzarətindən azad etmək planını ortaya qoydu. Bu mənbənin məlumatına görə, 1500-cü ilin novruzunda İsmayıl Mirzə Ərdəbilə daxil oldu. Hüseyni Astrabadinin əsərində də İsmayıl Mirzənin 1500-cü ilin novruzunda Taromdan Ərdəbilə yollandığı, orada əcdadlarının qəbrini ziyarət etməsi və ailə üzvləri ilə görüşməsi bildirilir (53). Amma "Aləmara-yi Şah İsmayıl"da bu səfər daha təfərrüatlı şəkildə təsvir edilmişdir. Bu mənbənin məlumatına görə, İsmayıl Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsi Ağqoyunlu türkmanlarını qəfil şəkildə haqlayaraq onlara zərbə endirdi. Nəticədə türkmanlar arasında böyük itki baş verdi. Şəhər sakinləri də qızılbaşların Ərdəbilə daxil olması xəbərini eşidəndə silahlanaraq Ağqoyunlulara qarşı üsyan qaldırdılar. Məlumatdan belə bir qənaət hasil olur ki, üsyan qaldıran şəhər əhalisinin sayı çox idi. Çünki onlar və qızılbaşlar şəhər hakimi Sultan Əlixanı və 10 min nəfərlik türkman qoşununu mühasirəyə aldılar və onlara tərpənməyə imkan vermədilər. Üsyana qoşulmuş olan Ərdəbil sufiləri Sultan Əlixanın evinə daxil olaraq onu həbs etdilər və qolları bağlı İsmayıl Mirzənin yanına gətirdilər. İsmayıl Mirzə ona qızılbaşlara qoşulmağı təklif etdi və söz verdi ki, onun qızılbaş qoşunlarının sipəhsaları vəzifəsinə təyin edəcəkdir. Amma bir şərtlə ki, şiəliyi qəbul etsin. Bu mənbənin təsvirinə görə, Sultan Əlixan şiəliyi qəbul etmədi və belə olanda həm Sultan Əlixan, həm də şiəliyi qəbul etməyən Ərdəbil sakinləri qətlə yetirildilər. Məlumata görə, bu hadisələrdən sonra İsmayıl Mirzə anasını və qardaşını tapdı, onlarla görüşdü. Sonra isə o, 7 min nəfərlik dəstə ilə Diyarbəkr tərəf yollandı və 7 min nəfərlik dəstəni isə Ərdəbildə saxladı. (54).

"Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, 1500-cü ilin Novruzunda Ərdəbildə olarkən İsmayıl Mirzənin sərəncamında ən azı 14 min nəfərlik qoşun dəstəsi var idi. Amma bu qədər sayda qoşun dəstəsinin haradan, nə zaman toplandığı, onların necə təchiz edildiyi barəsində mənbədə məlumat verilmir. Məlumatlardan görünən odur ki, bu qoşunların əsasını türk tayfaları təşkil edirdilər. Qısa müddət ərzində bu qədər sayda qoşunun toplanmasının təriqət

tərəfdarları və eləcə də daha sakit həyat arzusunda olan əhalinin İsmayıl Mirzənin başladığı hərəkata bağlanılan ümidlərdən qaynaqlanması ehtimal edilə bilər. Hər halda 1500-cü ilin novruzunda şimala doğru hərəkəti zamanı İsmayıl Mirzənin sərəncamında böyük sayda qoşun dəstəsi var idi və onun mövcudluğu da reallıq idi. Mənbə məlumatlarına əsaslanan bəzi tədqiqat əsərlərində İsmayıl Mirzənin qoşunlarının sayının tez bir şəkildə artması onun hərəkata başlamasından sonra Azərbaycan ərazilərindən təriqət tərəfdarlarının ona qoşulması ilə əlaqələndirlir. İsmayıl Mirzə hələ Azərbaycan hüdudlarını tərk etməzədən əvvəl onun qoşunları tərkibində şamlı, rumlu, ərəşli, zülqədər tayfalarının, habelə Qaradağ, Əhər və Talış sufilərinin olması haqqında məlumatlar mövcuddur. Lahicandan hərəkətə başlayandan sonra yol boyu, o cümlədən Ərcivanda qışlağa dayanarkən onun qoşunlarına xeyli sayda tərəfdarın qoşulduğu da ehtimal edilir (55). Qeyd etmək lazımdır ki, məzmun baxımından "Aləmara-yi Şah İsmayıl" əsərinə çox yaxın olan və hətta çoxlu sayda məqamları təkrarlanan "Cahanqoşa-ye xaqan" əsərində İsmayıl Mirzənin Ərdəbil səfəri ilə bağlı məlumatları "Xold-e bərin" əsərindəki məlumatlara daha yaxındır. Yəni, bu əsərdə də İsmayıl Mirzənin şəhərə daxil olması və sonra Sultan Əlixanın təkid və təzyiqi ilə oranı tərk edərək Ərcivana çəkilməsi təsvir olunmuşdur (56).

"Tarix-i aləmara-yi Abbasi" əsərində İsmayıl Mirzənin Ərcivan qışlağından sonra Ərdəbilə girməsi və sonra Arazın şimalına yollanması aşağıdakı kimi təsvir olunmuşdur: "Baharın əvvəlində zəmanə Səfəvi sülaləsi tərəfdarlarının ümid bağçaları kimi ilahi lütf buludlarının damcılarından təravətə və sevincə qovuşduqda [İsmayıl] qışlaq yurdundan hərəkət edib, yenə də darülirşad Ərdəbilə gəldi. Əvvəlcə o, övliyalar sultanı olan həzrətin (Şeyx Səfiəddinin) müqəddəs məqbərəsini və məskəni cənnət olan ulu əcdadlarının mübarək qəbirlərini ziyarət etmək şərəfinə nail olub, duaların qəbul olunduğu və uca [ilahi] aləmin hüsn-rəğbətinin qonduğu yer olan o hörmətli məkanda özünün haqsevən batinindəki ali məqsədlərə çatmasını Allahdan istəyərək, ziyarət qaydalarını yerinə yetirdikdən və dualarının qəbul edilməsinin əlamətlərini gördükdən sonra möhtərəm anası və qardaşı ilə görüşmək sevincinə çatdı. O ilahi dərgahdan kömək alanın (İsmayılın) dövlətinin və fatehliyinin başlanğıcında və onun səltənət və hökmranlıq əyyamında üz vermiş hadisələrin təfsilatını bəyan etmək və onun səadətli əhvalatlarını və şiddətli müharibələrini şərh etmək, onun üzünə Allahın köməyi ilə açılan qələbələrin qapılarını sözlə təsvir etmək, diliqısa qələmlərin qüdrəti xaricində və məharətli tarixçilərin yazı bacarığının fövqündədir. ...O cahangirin əhvalatını müfəssəl yazmaq bu müxtəsər kitabda mümkün olmadığına görə uzunçuluqdan əl çəkərək, o barədə xülasə verməklə kifayətlənirik. Çünki bu əsərin yazılmasında əsas məqsəd - Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyəti dövründə cərəyan edən hadisələri bəyan etməkdən ibarətdir. Sözün qısası, [İsmayıl] əzəmətli əcdadlarının və kəramətli şeyxlərin ruhlarından xeyir-dua diləyib, darülirşad Ərdəbildən Qarabağa yola düşdü. Hər gün iradət sahibləri Keyhan calallı orduya qoşulurdular. ...Göyçə-dənizə təşrif apardı və daha sonra Ərzincana getdi. Orada Şamdan, Diyarbəkrdən, Sivasdan, Bayburddan və o hüduddan

üç-dörd min nəfərədək sufi və əqidə sahibləri ali taxtın ətəyinə gəldilər. O cümlədən Əbdi bəy Şamlu 300 nəfərlə və Xan Məhəmməd Ustaclu böyük dəstə ilə aləmin pənahı olan dərgahın qulluğuna hazır olub, xidmət göstərmək səadətinə nail oldular və [İsmayılın] razılığını qazandılar. Ərzincanda məşvərətdən və «kəngaş»dan (hərbi müşavirə -M.S.) sonra Şirvana tərəf getmək və şirvanlılardan intiqam almaq [qərarı] onun nurlu ürəyində möhkəmləndi. O, sədaqətli sufilərdən səkkiz min nəfərlə Şirvan tərəfə hərəkət etdi" (57).

Mənbələrdə fərqli məlumatlara rast gəlinsə də bir məsələdə şübhə yoxdur ki, İsmayıl Mirzə əvvəlcə doğma şəhəri və Səfəvi təriqətinin mərkəzi olan Ərdəbili öz nəzarəti altına aldıqdan sonra cahangirlik yürüşlərinə başladı. "Tarix-i aləmara-yi Abbasi"də deyildiyi kimi, İsmayıl Mirzənin cahangirliyinin başlanğıcından əldə etdiyi uğurların təsvir edilməsi ən qüdrətli qələm sahiblərinin də məharəti fövqündədir. Yəni, 13 yaşlı bir gəncin böyük sayda qüvvələri öz ətrafında səfərbər edərək bütün bölgəni lərzəyə gətirən cahangirlik hərəkatının uğurla həyata keçirilməsinin mexanizminə varılması kifayət qədər böyük və əhatəli tədqiqat aparılmasını tələb edir. Heç şübhəsiz ki, İsmayıl Mirzənin hərəkatının uğurları heç də qarşı tərəfin, ona düşmən kəsilən qüvvələrin zəifliyi, gücsüzlüyü ilə bağlı deyildi. Bu uğurlar onun başladığı hərəkatın qarşısıalınmaz qüvvəyə çevrilməsi ilə bağlı idi. Belə bir hərəkatın əzəmət tapmasında İsmayıl Mirzənin silahdaşlarının, onun ətrafında birləşənlərin, onun hərəkatına sədaqət nümayiş etdirənlərin rolu da sözsüz ki, istisna edilməməlidir. Bununla belə, bu hərəkatın lideri, təşkilatçısı, ilhamverici qüvvəsi, istiqamətləndiricisi İsmayıl Mirzə idi və o öz məharəti və istedadı ilə əcdadlarının adı ilə adlanan böyük bir imperiyanın əsasını qoydu.

"Rövzətüs Səfəviyyə" əsərində olan məlumat da digər mənbələrdə olan məlumatlardan fərqlənir. Bu əsərdə də İsmayıl Mirzənin Ərcivan qışlağından sonra Ərdəbilə yollanması, bu şəhərə daxil olması, əcdadlarının qəbirlərini ziyarət etməsi və sonra da ailəsi ilə görüşməsi haqqında məlumatlar vardır. Bu mənbədə bildirilir ki, həmin vaxt Ərdəbil hakimi Sultan Əlixanın kifayət qədər gücü var idi və ona görə də İsmayıl Mirzə Ərdəbildə qalmağa ehtiyat edirdi. İsmayıl Mirzə bu vəziyyətdə necə hərəkət etməyi müəyyənləşdirmək üçün özünün ən yaxınlarının Lələ Hüseyn bəyin, Əbdi bəy Şamlının və digərlərinin iştirakı ilə məşvərət keçirir və vəziyyəti onların nəzərinə çatdırmaqla nə etmək lazım gəldiyini onlardan soruşur. Qızılbaş əmirləri də ona bildirirlər ki, İsmayıl Mirzə necə məsləhət bilsə və necə qərar qəbul etsə onlar da bu qərarla razılaşacaqlar. İsmayıl Mirzə də bir xeyli fikirləşdikdən sonra təklif edir ki, əvvəlcə Gürcüstan üzərinə hərəkət edilsin, oradakı kafirlərə qarşı mübarizə aparılsın. Qızılbaş əmirləri isə İsmayıl Mirzənin ətrafında olan hərbi qüvvələrin azlığını nəzərə alaraq belə təklif edirlər ki, əvvəlcə Sultan Heydər kimi yürüşdən qabaq ətraf bölgələrə müraciət edilsin, təriqət tərəfdarları mübarizəyə çağırılsın və onlar da mürşid ətrafında toplandıqdan sonra zalimlər üzərinə yürüş təşkil edilsin. İsmayıl Mirzə bu təkliflə razılaşdı və bundan sonra Azərbaycana və İraqa çaparlar göndərildi ki, təriqət tərəfdarları İsmayıl Mirzənin bayrağı altında mübarizəyə hazır olsunlar. Beləliklə, mənbənin məlumatına görə münasib an

yetişəndə İsmayıl Mirzə ətrafına toplanmış dəstə ilə birlikdə Qaradağ və Göyçə istiqamətində yürüşə başladı (58).

İstinad olunan əvvəlki mənbədə olduğu kimi, "Rövzətüs Səfəviyyə" əsərində də böyük cahangirlik yürüşünə başlamazdan əvvəl müxtəlif bölgələrdən təriqət tərəfdarlarının dəstə-dəstə İsmayıl Mirzəyə qoşulması təsdiq olunur. Amma son mənbədə də müəyyən sual doğuracaq məqamlar vardır. Bu məqamlardan biri İsmayıl Mirzənin Ərdəbili nəzarət altına alıb-almaması ilə bağlıdır. Məlumatdan belə məlum olur ki, Ərdəbil hakimi güclü olaraq qalmaqda idi və İsmayıl Mirzə də bu şəhərə sahiblənmədən böyük cahangirlik yürüşünə başladı. Digər tərəfdən isə bildirilir ki, Ərdəbildə olanda İsmayıl Mirzənin ətrafında yalnız 300 nəfərlik bir dəstə var idi (59). Əgər Ərdəbil hakimi doğrudan da hələ çox güclü idisə, onda İsmayıl Mirzə yəqin ki, 300 nəfərlik bir dəstə ilə şəhərə daxil olmazdı. Eyni zamanda məlum olmur ki, İsmayıl Mirzənin Taromda, Xalxalda ətrafına toplaşmış 1500 nəfərlik dəstə mövcud idi, ya yox. Hər halda bu məlumat müəyyən şübhə doğurur və mövcud olan digər məlumatların təhlili onu deməyə əsas verir ki, 1500-cü ilin yazında İsmayıl Mirzənin ətrafındakı hərbi qüvvənin sayı 300 nəfərdən çox olmalı idi. Bəzi mənbələrdə İsmayıl Mirzənin Ərdəbilə yollanarkən əvvəlcə Lənkəranda Şahsuvar bəy adlı birisinin evində qonaq qalması, sonra da Manian kəndində Muğanat hakimi Nuşir bəy Talışın evində qonaq olması haqqında məlumatlar vardır (60)

### 5. İsmayıl Mirzənin Çuxursəəd yürüşü

İsmayıl Mirzə qərara almışdı ki, Arazın şimalına adlamaqla Göyçə gölünün yanından Ərzincana tərəf istiqamət götürsün. Bu marşrutun seçilməsində məqsəd o idi ki, Anadoluda və ətrafında toplaşmış olan təriqət və sufi dəstələrinin İsmayıl Mirzəyə birləşməsi daha da asanlaşdırılsın. Elə buna görə də 1500-cü ilin yayına doğru İsmayıl Mirzə Arazın şimalına adlamaq üçün hərəkətə başladı. Əvvəlcə Muğana yetişdi və bu bölgənin hakimi Nuşirəvan bəy Talış onu qarşılayaraq bir müddət yanında qonaq saxladı. Sonra isə İsmayıl Mirzə aran Qarabağdan keçməklə Göyçə gölü ətrafına gəldi və orada düşərgə saldı. Göyçə ətrafında olarkən İsmayıl Mirzə xəbər tutdu ki, Qaraqoyunlu hökmdarı Cahanşahın törəmələrindən biri olmuş Sultan Hüseyn xan Barani 20 min nəfərlik qoşun dəstəsi ilə bölgədə düşərgə salmışdır. Sultan Hüseyn xan Barani ətrafına topladığı qoşun dəstəsi ilə Ağqoyunlu hakimiyyətini qəbul etmirdi və Qaraqoyunlu hakimiyyətinin bərpası ümidi ilə münasib zaman gözləyirdi. Ağqoyunlu sarayı tərəfindən isə onun dəstəsinin ləğv edilməsi istiqamətində ciddi bir addım atılmırdı.Ətrafında müəyyən qüvvə toplanmasından istifadə edən Sultan Hüseyn Barani Göyçə gölü həndəvərindəki məntəqələrə hücumlar edib əhalini var-yoxdan çıxarır və özünü bölgənin hakimi hesab edirdi. Bu iki qüvvənin bir bölgədə üz-üzə gəlməsi hər iki tərəfdən ehtiyatla qarşılandı. İsmayıl Mirzə bu dəstəyə qarşı necə münasibət göstərilməsi ilə bağlı öz yaxınları ilə məsləhətləşmələr apardı (61).

Sultan Hüseyn Barani Azərbaycan üzərində hakimiyyəti özünün haqqı sayırdı. Amma bu haqqın rəsmiləşdirilməsi üçün onun qüvvələri yetərincə deyildi və sərəncamında olan qüvvələrlə Əlvənd Mirzənin üzərinə qoşun çəkməyə cəsarət etmirdi. Ona görə Sultan Hüseyn Barani bölgədə talanlarla məşğul olmaqla yanaşı özünə müttəfiq də axtarırdı ki, qüvvələrini böyüdərək Əlvənd Mirzə üzərinə qoşun çəksin. İsmayıl Mirzənin ətrafında olan qüvvə bu baxımdan onun üçün maraq doğururdu və İsmayıl Mirzənin müttəfiqliyə çəkilməsinə də cəhd göstərdi.

"Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, İsmayıl Mirzənin yürüş xəbərini alanda Sultan Hüseyn Barani də hərəkətə gəldi və qoşun dəstəsi ilə Araz çayı yaxınlığına yollandı. Burada öz elinin ağsaqqallarını toplayaraq onlarla məşvərət keçirdi. Sultan Hüseyn bəyan etdi ki, o da qoşunları ayağa qaldırmaq istəyir. Amma İsmayıl Mirzənin bölgəyə gəlməsi ilə bağlı nə etmək lazım gəlməsi barəsində ağsaqqallardan məsləhət istədi. Ağsaqqallar da belə məsləhət verdilər ki, İsmayıl Mirzəni qarşılamaqla ona böyük mehribanlıq göstərilsin və sonra onu aldatmaqla ziyafətə qonaq çağırılsın. Təklif edilirdi ki bu ziyafət zamanı zəhər verməklə onun həyatına son qoyulsun və sonra da onun qoşunlarına rəhbərlik ələ keçirilsin. Güman edilirdi ki, qızılbaş qoşunlarına nəzarət ələ keçirilsə qarşıya qoyulan məqsədə də çatmaq mümkün olacaqdır. Adı çəkilən mənbənin məlumatına görə, Sultan Hüseyn Barani bu təklifləri qəbul etdi və göstəriş verdi ki, bütün qoşun İsmayıl Mirzənin dəstəsinin qarşılanmasına yollansın. O özü də İsmayıl Mirzənin qarşılanmasına yollandı və bu mənbənin məlumatına görə, ona qarşı qonaqpərvərlik nümayiş etdirdi. Sultan Hüseyn Barani bəyan etdi ki, İsmayıl Mirzənin nə zaman hərəkata başlayacağının intizarında idi və onun bölgəyə gəlməsindən çox məmnundur. Sultan Hüseyn onu da bildirdi ki, sərəncamında olan 12 min nəfərlik qoşun dəstəsi ilə İsmayıl Mirzəyə qoşulmağa, onunla birlikdə Əlvənd Mirzəyə qarşı mübarizəyə başlamağa, ona üstün gəlməklə hakimiyyətin İsmayıl Mirzəyə verilməsinə hazırdır. Guya bundan sonra da Sultan Hüseyn sədaqətlə İsmayıl Mirzəyə xidmət etməyə hazır idi. Sultan Hüseyn sonda İsmayıl Mirzəni düşərgəsinə qonaq dəvət etdi. Bu dəvət İsmayıl Mirzə tərəfindən məmnunluqla qarşılandı və yorğun olduğu üçün dəvətin və qonaqlığın o biri günə saxlanmasını xahiş etdi (62). Bəzi mənbələrə görə isə, Sultan Hüseyn Barani özü İsmayıl Mirzənin qarşılanmasına getmədi, ona məktub göndərdi. Həmin məktubun məzmunu belə idi: "Əgər Allahın kölgəsi olan şahın dövlətinin səadətli hümay quşu müxlislərin başına uğur kölgəsini salarsa, itaət və tabeçilik yəhərini çiynimizə salarıq, cah-calal bayraqları hər hansı tərəfə hərəkət etsələr, kölgə kimi onları müşayiət edərik, xidmətkarlığın şərtləri, sadiqliyin və fədakarlığın zərurəti nədirsə, ona əməl edərik. Müzəffər cənabınıza olan sədaqət və etiqadın məstliyi bu acizin (məktubun müəllifinin) damarlarında elə bir keyfiyyətlə axmaqdadır ki, digərlərinin naxışını ürək lövhəsindən yuyub aparmışdır və sevgi ilə bağlılıq cazibəsi könül məcralarında elə bir heysiyyətlə yayılmaqdadır ki, yaxınlıq birliyə çevrilmişdir. Hər halda, belə bir söhbət dəyişkənlik xələlindən xali və dəyişiklik əməlindən uzaq olacaqdır". Mövcud məlumatlara görə, bu məktub İsmayıl Mirzəyə Sultan Hüseynin qoşun dəstəsi ilə bağlı İsmayıl Mirzənin öz əmirləri ilə məşvərət apardığı zaman çatmışdı. Bildirlir ki, İsmayıl Mirzə bu



*Şah İsmayıl ov mərasimində*

dəvəti qəbul etdi və 1500 nəfərlik bir dəstəsi ilə bir müddət Sultan Hüseynin düşərgəsində qonaq qaldı.

Amma müşahidələr Sultan Hüseynin məkrli planlarından xəbər verdiyi üçün onlar geri qayıtdılar (63).

İsmayıl Mirzə ilə Sultan Hüseyn Barani arasında baş verən hadisə də müxtəlif mənbələrdə fərqli şəkildə təsvir olunur. Hər halda mövcud olan təsvirlərin heç də hamısı İsmayıl Mirzənin Sultan Hüseynin dəvətini qəbul etməsini təsdiqləmir. Mövcud olan variantlardan biri də belədir ki, İsmayıl Mirzənin qoşun dəstəsi ilə Sultan Hüseynin qoşun dəstəsi bir-birinə yaxın məsafədə düşərgə salmışdılar və Sultan Hüseynin qoşun dəstəsi say üstünlüyünə malik idi. Bundan başqa, Sultan Hüseyn bölgənin nəzarətini öz əlində saxladığı üçün özünü ev sahibi kimi aparırdı. Bir müddət bu qoşun dəstələri bir-birinə yaxın məsafədə qaldıqdan sonra İsmayıl Mirzə və onun əmirləri bu qonşuluğun xeyirlə başa çatmayacağı qənaətinə gəldilər və öz hərəkətlərinə davam etmək qərarı verdilər. Hərəkət hazırlığı veriləndən sonra Sultan Hüseyn də İsmayıl Mirzənin niyyətindən xəbər tutdu və bu planın qarşısının alınması üçün əvvəlcə onun əmirlərindən bəzilərini yanına dəvət etdi. Sultan Hüseyn əmirlərlə söhbəti zamanı İsmayıl Mirzənin bölgəni tərk etməsinin tərəfdarı olmadığını bildirdi və bir daha bəyan etdi ki, onun mənəvi rəhbərliyi altında asilərin kökünün kəsilməsi və bölgədə sabitliyin təmin edilməsi üçün birgə fəaliyyətə hazırdır. Bunun üçün Sultan Hüseyn Barani hətta and qəbul etməyə hazır olduğunu da bildirdi. Lakin onun nəzərinə çatdırıldı ki, İsmayıl Mirzənin daha bölgədə qalması mümkün deyildir və o öz dəstəsi ilə bölgəni tərk etmək qərarına gəlmişdir. Sultan Hüseyn Barani əmin olanda ki, İsmayıl Mirzənin bölgəni tərk etməsinin qarşısını almaq mümkün deyildir, onda son xahiş kimi, İsmayıl Mirzəni, onun əmirlərini qonaqlığa dəvət etdi. Bu qonaqlıq xudahafizləşmə mərasimi kimi təqdim edilirdi. Həmin qonaqlıq bir gün sonraya təyin edildi. İsmayıl Mirzə yenə bu qonaqlığa getməyi məqsədəuyğun saymadı. Yaxın əmirlərindən olan Hüseyn bəy Lələni, Əbdi bəy Şamlını, Xadim bəyi və digər bir neçə nəfəri Sultan Hüseynin qonaqlığına göndərdi. Adları çəkilən əmirlər İsmayıl Mirzənin xəstələndiyi üçün qonaqlığa gələ bilmədiyini çatdırdılar. Sufi əmirləri bu qonaqlıqdan geri qayıdan kimi İsmayıl Mirzədən dərhal hərəkət edilməsinə hazırlıq üçün icazə istədilər. Görünür, onlar Sultan Hüseynin pis niyyətdə olmasına bir daha əmin olmuşdular. Həmin gecə İsmayıl Mirzə öz dəstəsi ilə bölgəni tərk etdi. Hərəkətə başlamazdan əvvəl isə çoxlu sayda şam yandırılaraq düşərgədə yerləşdirildi, yemək qazanları üçün tonqallar yandırıldı ki, dəstənin hərəkəti Sultan Hüseyn Baraniyə dərhal bəlli olmasın (64).

İsmayıl Mirzənin öz dəstəsi ilə bölgəni tərk etməsi və Çuxursəəd istiqamətində hərəkət etməsi xəbərinin Sultan Hüseyn Barani tərəfindən necə qarşılanması haqqında da mənbələrdə fərqli məlumatlar mövcuddur. "Aləmarayi Şah İsmayıl"a görə, Sultan Hüseyn Barani bu məsələdən xəbər tutanda 8 min nəfərlik qoşun dəstəsi ilə qızılbaşların təqibinə başladı. Mənbə məlumatına görə, Sultan Hüseyn Baraninin qoşun çəkməsi xəbərini İsmayıl Mirzə Araz çayı

sahillərində istirahət üçün düşərgə saldığı bir vaxtda aldı. Xəbəri eşidən kimi, İsmayıl Mirzə atlandı və dəstəsinə də hazırlıq əmri verdi. Tərəflər arasında alovlanan döyüş İsmayıl Mirzənin dəstəsinin üstünlüyü şəraitində keçdi. Fürsət yaranan kimi İsmayıl Mirzə özü Sultan Hüseyn üzərinə hücum çəkdi. Sultan Hüseyn qorxuya düşüb qaçmağa çalışsa da, İsmayıl Mirzə onu izlədi, yaxınlaşraq onu nizə zərbəsi ilə atdan yerə saldı və başını bədənindən ayırdı. Mənbədə Sultan Hüseynin dəstəsindən 4 min nəfərin qətlə yetirildiyi, qalanların isə şiə məzhəbini qəbul etdikləri üçün azad edildikləri bildirilir (65).

"Xolde bərin" əsərinə görə, İsmayıl Mirzənin dəstəsi ilə bölgəni tərk etməsi xəbərini alanda Sultan Hüseyn qoşun dəstəsi ilə onun təqibinə başladı. Ancaq yaxınlaşanda İsmayıl Mirzənin dəstəsi ilə döyüşə girməyə cəsarət etmədi və qoşuna geri qayıtmaq barəsində göstəriş verdi (66).

"Rövzətüs Səfəviyyə" əsərinə görə isə, Sultan Hüseyn Barani səhəri gün İsmayıl Mirzənin dəstəsinin bölgəni tərk etməsi xəbərini alanda daha bu dəstəni təqib etməyə lüzum görmədi (67).

Qeyd edildiyi kimi, İsmayıl Mirzə hərəkətini davam etdirərək Çuxursəədə gəldi və burada Doqquz Ulan adlı məntəqədə düşərgə saldı. Çuxursəəddə olduğu vaxt ətraf bölgələrdən çoxlu sayda təriqət tərəfdarı gələrək onun dəstəsinə qoşuldular. Mənbələrdə də həmin vaxt çoxlu sayda qızılbaşın dəstə-dəstə İsmayıl Mirzəyə qoşulması, qızılbaş hərəkatının ciddi şəkildə kütləviləşdiyini bildirirlər. Bu dəstələr də İsmayıl Mirzənin hərəkatının gücünü qat-qat artırdı və İsmayıl Mirzənin hərəkatında yeni bir səhifə açdı. Mənbələrin birində hətta bildirilir ki, 6 cəhətdən, 7 iqlim bölgəsindən, dünyanın 4 guşəsindən İsmayıl Mirzə hərəkatına qoşulmaq üçün böyük axın oldu. Belə dəstələrdən biri də Bayburdlu Qaraca İlyasın rəhbərliyi altında olan dəstə idi. Rum sufilərindən təşkil edilmiş bu dəstə İsmayıl Mirzənin hərəkatının başlanması xəbərini eşidən kimi yola çıxmış və Şuragöldə düşərgə salmışdı. Bu dəstənin üzvləri İsmayıl Mirzəyə qoşulmaq ümidi ilə istirahətə dayanmışdılar. Şuragöldə yerləşən qalalardan birinin sahibi olan Məntəş adlı birisi talan və qarətlə həyatını sürürmüş. O, ətrafına da özü kimi oğru-qulduru toplayaraq onun-bunun var-yoxunu talamaqla məşğul olurmuş. Qaraca İlyas bölgədə düşərgə salanda Məntəş onun dəstəsinin talanması qərarına gəldi. Bu niyyətini həyata keçirmək üçün əvvəlcə Qaraca İlyasa qonaqpərvərlik göstərdi, onlar üçün yeyib-içmək təşkil etdirdi. Dəstə üzvlərini öz adamlarının evində yerləşdirir və zamanı yetişəndə sufilərin üzərinə hücum təşkil etdirdi. Qaraca İlyasın dəstəsi bütünlüklə məhv olmaqdan böyük çətinliklə yaxa qurtara bildi. Bu vəziyyətdən nicat tapan Qaraca İlyas tezliklə İsmayıl Mirzənin dəstəsinə qoşuldu. İsmayıl Mirzə isə Qaraca İlyasın rastlaşdığı vəziyyətdən xəbər tutan kimi, Məntəşin qalasının üzərinə hücum çəkdi və buradakı dəstəyə güclü zərbə vurdu. Məntəş bu qarşılaşmadan sağ çıxacağına şübhə etdiyi üçün qalanı tərk edib qaçmağı üstün tutdu. Onun ardınca getməyən quldurlar sufi döyüşçülərinin qılıncı ilə üzləşdi. İsmayıl Mirzə göstəriş verdi ki, insanlara əzab və əziyyət verən bu dəstə məhv edilsin. Bunun

nəticəsi idi ki, dəstənin üzvlərinin çoxu qətlə yetirildi. Sağ qalanlar isə qaçıb dağılmalı oldular (68).

Bundan sonra İsmayıl Mirzə hərəkətini davam etdirdi və Kağızmandan keçməklə Tərcana, sonra isə onun cənubunda yerləşən Sarıqaya yaylağına gəldi. Burada olarkən İsmayıl Mirzə qızılbaş qoşunlarının sıralarının genişləndirilməsini davam etdirdi. O, Həmzə bəy Fətoğlu Ustaclını mənsub olduğu oymağın ağsaqqallarının yanına göndərdi. Bu oymağın böyüklərindən olan Xan Məhəmməd xan oymağın ağsaqqalları ilə birlikdə İsmayıl Mirzə hərəkatına qoşulmağa razı oldu. (69).

İsmayıl Mirzə iki ay Sarıqaya yaylağında qaldı və sonra Ərzincana yola düşdü. O, bir müddət də burada qalmalı oldu və həmin zaman ərzində onun qoşununun sıraları xeyli genişləndi. Mənbələrdə göstərilir ki, ətraf bölgələrdən, dəstə-dəstə, qoşun-qoşun sufilər gələrək İsmayıl Mirzəyə qoşuldular. Bölgənin əhalisi İsmayıl Mirzəni bir xilaskar sifətində görürdülər və ona görə də böyük bir istəklə onun qoşunları sırasına qoşulurdular. Ona qoşulanlar arasında xeyli sayda Şamlı, Ustaclı, Rumlu, Təkalu, Zülqədər, Əfşar, Qacar tayfalarının üzvləri, habelə Varsağ, Qaracadağ sufiləri var idilər. Yeni qoşunlanlardan sonra İsmayıl Mirzənin qoşunun sayı 7 min nəfərə çatdı (70).

Heç şübhəsiz ki, bu qədər qüvvə öz təchizatı ilə toplaşmışdı və onların mövcudluğu imkan verdi ki, cahangirlik hərəkatının həyata keçirilməsinə başlansın. Bununla bağlı, İsmayıl Mirzə özünün sınanmış və təcrübəli əmirlərinin müşavirəsini keçirdi. Bu əmirlərin arasında Əbdi bəy Təvaçi, Dədə bəy, Bayram bəy Qaramanlı və digərləri də var idi. Bu müşavirədə sufi qoşunlarının ilkin olaraq hansı istiqamətdə yürüş etməsi məsələsi müzakirə olundu. Müzakirə iştirakçıları istəyirdilər elə bir istiqamət seçsinlər ki, həmin istiqamətdə onların yürüşü uğurla nəticələnsin. Bəziləri belə bir fikirdə idilər ki, sufi qoşunları hələ yetərli sayda deyildir və bu qüvvələrlə ətraf hakimlərin qüvvələrinə üstün gəlmək mümkün olmaz. Ona görə təklif olunurdu ki, qoşunlar Ərzincanda qışlağa dayansınlar və sıralarını genişləndirdikdən sonra növbəti ildə cahangirlik yürüşlərini Azərbaycandan başlasınlar. Bəzi əmirlər isə təklif etdilər ki, Gürcüstan üzərinə yürüş edilsin. Belə bir təklif də irəli sürüldü ki, Çuxursəəd üzərinə hücum edilsin və qış da orada keçirilsin. Əmirlərdən bəziləri də Diyarbəkr istiqamətində yürüş edilməsinə üstünlük verdilər (71).

Bununla, Sufi əmirlərini fikrilərində bir parçalanma yarandı və vahid bir mövqe formalaşdırmaq mümkün olmadı. Həmin müzakirələr İsmayıl Mirzənin iştirakı olmadan aparıldı və səslənən təkliflər Lələ Hüseyn bəy və Dədə bəy tərəfindən İsmayıl Mirzəyə çatdırıldı. İsmayıl Mirzə bu təkliflərin heç birini qəbul etmədi və bildirdi ki, imamların dərgahına üz tutacaq və onlardan iltimas edəcək ki, hansı istiqamətdə getməyin məsləhət olması gecə ona əyan edilsin. Mənbədəki məlumatlara görə, İsmayıl Mirzə gecə yuxuda ikən Şirvan istiqamətində yürüş həyata keçirilməsi haqqında işarə aldı və səhər də bu xəbəri bütün əmirlərə çatdırdı. Əmirlər bu qərarla razılaşdılar (72).

### 6. Qızılbaş qoşunlarının Gürcüstan yürüşü

İsmayıl Mirzə və onun əmirləri Şirvan üzərinə hücum etmək barəsində qərara gəlsələr də, əslində hərbi yürüşlər Gürcüstan üzərinə hücumdan başladı. Gürcüstan üzərinə yürüş etmək təklifi də sufi əmirlərinin müşavirəsində səslənmişdi. Amma mənbələr İsmayıl Mirzənin cahangirlik yürüşlərinin Şirvandan başlanması üzərinə dayanırlar. Mütəxəssislər belə bir seçim edilməsini yalnız ilahi bəyanlarla deyil, həm də məntiqi səbəblərlə əlaqələndirməyə çalışırlar. Belə bir qənaət ortaya qoyulur ki, Şirvanşah dövləti Əlvənd Mirzənin və Murad Mirzənin hakimiyyəti altında olan Ağqoyunlu dövlətlərindən daha zəif idi və ona görə də İsmayıl Mirzə bu dövlət üzərinə hücum etməklə öz cahangirlik hərəkatının uğurlu başlanğıcını qoymaq istəyirdi. Şirvanşahlar üzərində qələbə onun gücünü artırmaqla, həm də mənəvi baxımdan özünə inamın artmasına gətirib çıxara bilərdi. Digər tərəfdən İsmayıl Mirzəni Şirvanşahlar üzərinə yürüşə sövq edən ciddi bir səbəb də var idi ki, bu da atasının və babasının qisasının alınması idi (73). Yəqin ki, burada bir psixoloji məqam da var idi. İstər Sultan Cüneydin, istər Sultan Heydərin başladığı hərəkat Şirvan torpaqlarında uğursuzluğa düçar olub dayanmışdı. İsmayıl Mirzə çox güman ki, bu düyünü aşmaqla öz hərəkatının zəfərinə təminat yaratmaq istəyirdi.

Cahangirlik yürüşlərinin Şirvandan başlanması strateji baxımdan da daha düzgün qərar idi. Çünki əgər şimaldan hərəkatın təhlükəsizliyi təmin edilməsəydi gələcəkdə Şirvanşah Fərrux Yasarla Ağqoyunlu Əlvənd Mirzənin qarşılıqlı zərbəsi arasında qala bilərdi. Əlvənd Mirzə ilə Fərrux Yasar arasında münasibətlər müəyyən qədər gərgin olsa da İsmayıl Mirzə təhlükəsiz qarşısında onlar birləşə bilərdilər ki, bu da sufi qüvvələrinin fəaliyyətini xeyli məhdudlaşdıra bilərdi.

Beləliklə, İsmayıl Mirzənin cahangirlik hərəkatının başlanması mənbələrdə Şirvan üzərinə hücumla başlansa da, bu yürüşdən əvvəl sufi qoşunlarının zərbə obyekti Gürcüstan və Məntəş qalası oldu. İsmayıl Mirzənin göstərişi əsasında onun sınanmış əmirlərindən biri olan Xadim bəy Xüləfanın rəhbərliyi altında olan bir dəstə Gürcüstan istiqamətinə göndərildi. Formal səbəb kimi mənbələrdə bu yürüşün kafirlərə zərbə vurulması zərurətindən danışılır. Amma məlumatların təhlili onu deməyə əsas verir ki, bu yürüşün təşkilində əsas məqsədlərdən biri də qoşunlar üçün ərzaq və digər ehtiyatlar toplayıb gətirmək idi. Artıq 7 minə çatmış olan qoşunun ərzaqla təmin edilməsi ciddi bir vəzifə kimi qoşun rəhbərliyinin qarşısında dayanırdı.

İsmayıl Mirzə onu müşayiət edən qoşun dəstəsi ilə Şirvana doğru hərəkət edərkən Pasin adlı bir məntəqədə düşərgə saldı və Xadim bəy də bu məntəqədən Gürcüstana yola salındı. Bu hadisə 1500-cü ilin payızının əvvəlinə təsadüf edir. Xadim bəy Xülafənin rəhbərliyi altında olan dəstənin (fövcün) Gürcüstana yürüşü mənbələrdə cihad kimi təsvir olunmuşdur. Həmin yürüşün təfərrüatı haqqında məlumat olmasa da, mənbələr yazırlar ki, qızılbaş qoşunlarının yürüşü uğurlu keçdi, sufi döyüşçüləri çoxlu sayda kafiri qətlə yetirə bildilər. Sonra da

çoxlu sayda qənimət toplayaraq qızılbaş qoşunlarının düşərgəsinə qayıtdılar. Belə böyük miqdarda qənimətin ələ keçirilməsi qızılbaş düşərgəsində sevinclə qarşılandı. İsmayıl Mirzənin göstərişi əsasında həmin qənimət qızılbaş döyüşçüləri arasında bölüşdürüldü (74).

Bundan başqa Şirvan üzərinə hərəkətə başlamazdan əvvəl İsmayıl Mirzə bir dəstəni də İlyas bəy Uyğuroğlunun rəhbərliyi altında Məntəşin qalasına göndərdi. Yuxarıda qeyd edildiyi kimi, İsmayıl Mirzə Ərzincana yollanarkən həmin qalada olmuş və onun talan və qarətlə məşğul olan sakinlərinə zərbə vurmuşdu. Qalanın sahibi Məntəş qaçaraq canını qurtara bilmişdi. Amma görünür ki, sonradan o geri qayıtmış və yenidən əvvəlki əməllərinə qurşanmışdı. Bir tərəfdən çox güman ki, Məntəşin əməllərinə son qoyulması, digər tərəfdən də bölgədə qızılbaşlara tabe olmayan silahlı dəstənin mövcudluğunun aradan qaldırılması məqsədilə İsmayıl Mirzə Məntəşin qalasına yenə də dəstə göndərdi. İlyas bəyin dəstəsi qarşısında Məntəş və onun silahlıları davam gətirə bilmədilər. İlyas bəy asanlıqla qalanı ələ keçirdi və oradakıları İsmayıl Mirzənin sərəncamına göndərdi. İsmayıl Mirzə onları bağışladı və onların yenidən Məntəş qalasına icazə verdi. Sonra isə İsmayıl Mirzə hərəkətini davam etdirdi və Həsənabad adlı məntəqəyə çatanda Məntəş də onun yanına gəldi, ondan bağışlanmasını xahiş etdi. İsmayıl Mirzə onun nəinki bağışladı, ona qiymətli hədiyyə, xələt, bəzədilmiş qılınc, cins at hədiyyə etdi. Məntəş öz sədaqətini ifadə edəndən sonra İsmayıl Mirzə ona da yenidən öz qalasına qayıtmağa və orada yaşamağa icazə verdi (75).

### 7. İsmayıl Mirzənin Şirvan yürüşü

Gürcüstan və Məntəş qalası üzərinə yürüşü başa çatdırandan sonra İsmayıl Mirzə Şirvan üzərinə hərəkət etmək barəsində göstəriş verdi. "Elə ki Süleyman şanlı xaqan Şirvana getməyi qərara alıb Kür çayı sahillərinə çatdı, Bayram bəy Qaramanlunu [çayı] keçməyə yer təyin etmək üçün irəli göndərdi. Orada [İsmayıla] belə bir xəbər çatdırıldı ki, Şirvanşah o həzrətin gəlişindən agah olub demişdir:

- Əgər o, Şirvana gəlsə, atasının başına gələn [hadisə] onun da başına gələcəkdir.

[İsmayıl] bu söhbəti eşitdikdə onun dünyanı yandırıb-yaxan qəzəb atəşi alovlandı" (76).

Çox güman ki, Şirvanşah Fərrux Yasarın İsmayıl Mirzənin bölgədə artıq cahangirlik yürüşlərinə başlamasından xəbəri var idi və bu təhlükənin qarşısının alınması üçün də müəyyən tədbirlər görürdü. Yuxarıda onun ifadə etdiyi sözlər də bundan xəbər verirdi. Lakin tədqiqata cəlb edilmiş mənbələrə görə, həmin tədbirlərin təfərrüatının nədən ibarət olmasını söyləmək çətindir. "Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, Fərrux Yasarın əl atdığı tədbirlərdən biri Kür çayı üzərindəki keçidlərin mühafizəsi oldu. İsmayıl Mirzə Şirvan üzərinə elə bir vaxtda yürüş edirdi ki, həm Kür çayında, həm də Araz çayında suyun səviyyəsi

yuxarı idi. Bu məqam qızılbaş qoşunlarının bu çayları adlamasını çətinləşdirə bilərdi. Fərrux Yasar da əlavə olaraq keçidlərin mövcud olduğu yerə özünün 3 min nəfərlik mühafizə dəstəsini göndərdi. Adı çəkilən mənbənin məlumatına görə, Fərrux Yasar tərəfindən belə bir addımın atılacağı qızılbaşlar düşərgəsində gözlənilən sayılırdı. Həm Fərrux Yasarın bu hərəkətinin qarşısının alınması və həm də Kür çayından keçidin yaradılması üçün İsmayıl Mirzənin göstərişi əsasında Qarapiri bəy Qacar bir dəstə ilə Kür çayı sahillərinə yollandı. Adı çəkilən mənbədə Qarapiri bəyin 12 min nəfərlik dəstə ilə Kür sahilinə yollanması göstərilmişdir (77).

"Aləmara-yi Şah İsmayıl"ın tədqiqatı ilə məşğul olmuş mütəxəssislərdən bəziləri öz araşdırmasında Qarapiri bəyin ixtiyarında 2 min nəfərlik bir dəstə olduğunu göstərmişdir (78). Görünür, tədqiqatçılar Ərzincanda İsmayıl Mirzə ətrafına 7 min nəfərlik türk döyüşçülərinin toplanması haqqındakı məlumata görə, Qarapiri bəyin sərəncamında 12 min nəfərlik qoşun dəstəsi olmasını real hesab etməmişlər. Təəssüf ki, bu məsələnin aydınlaşdırılması üçün digər mənbələrdə müvafiq məlumata rast gəlmək çətindir. Amma bu məlumatın qeyri-real bir məlumat kimi kənara atılmasını da birmənalı şəkildə qəbul etmək doğru olmazdı. Çünki elə Şirvanşah qoşunlarının sayı haqqında elmi araşdırmalarda istinad edilmiş rəqəmlər də buna müəyyən əsas verir. "Tarix-e həbib üs-siyər" əsərində Şirvanşah qoşunlarının sayının 20 min süvaridən və 6-7 min piyadadan ibarət olması göstərilmişdir (79). Başqa mənbələdə isə müəyyən fərqli rəqəmlər də vardır. Amma bu rəqəmlərə görə Şirvanşah qoşunları 30 mini aşmırdı, qızılbaş qoşunları isə 7 min nəfər ətrafında idi. "Xolde bərin" də isə Şirvanşah qoşunlarının sayı haqqında xeyli fərqlənən rəqəm göstərilmişdir. Bu mənbənin məlumatına görə, Şirvanşahın 8 min atlı və 6 min piyada qoşunu var idi (80). Əgər bu rəqəmin doğruluğu qəbul olunarsa, onda qızılbaşların da göstərilən sayda olması qəbul edilə bilər. Amma qeyd edilməlidir ki, "Xolde bərin"in bu məlumatı digər mənbələrdə təkrar olunmur.

İlk baxışdan bu rəqəmlərdə bir uyğunsuzluq var. İsmayıl Mirzənin cəsurluğu, döyüşü təşkil etmək və idarə etmək məharəti üzərinə kölgə salmadan onun qoşunlarının sayının az olması haqqında rəqəm daha çox şübhə doğura bilər. Çünki böyük cahangirlik hərəkatının uğurla başlanması və davam etdirilməsi üçün İsmayıl Mirzənin daha böyük sayda qoşuna ehtiyacı ola bilərdi. Əcdadlarının acı təcrübəsi də İsmayılı Fərrux Yasar üzərində qələbənin ələ edilməsi üçün yetərli sayda qüvvənin toplanmasına sövq edə biləri. Bunun üçün onun imkanı da var idi. Diqqət yetirilərsə bəzi mənbələrdə Ərzincanda yalnız türk tayfalarından 7 min nəfərin toplandığını görmək mümkündür. Mənbələrin birində isə deyilirdi ki, İsmayıl Mirzə Şamaxıya doğru hüdudsuz sayda qoşunla hərəkət edirdi (81). Bu məlumatın özü də müəyyən qənaətlərə gəlməyə əsas verə bilər ki, Ərzincandan Şirvana doğru hərəkətə başlayanda İsmayıl Mirzənin qoşunlarının sayı yalnız 7 min nəfərdən ibarət deyildi. İsmayıl Mirzənin qoşunları o sayda idi ki, müdafiədə dayanmış təxminən 30 min nəfərlik Şirvanşah qoşununu məğlub etməyə yetərli idi.

Ona görə İsmayıl Mirzə tərəfindən Kür keçidinin təmin edilməsi üçün 12 min nəfərlik qoşun dəstəsi göndərməsi mümkün ola bilərdi. Hər halda məntiqə uyğun olaraq İsmayıl Mirzə Kür çayı sahilinə elə bir sayda qoşun dəstəsi göndərməli idi ki, bu qoşun dəstəsi həm keçidlərin mühafizəsini təmin etsin, həm Kür çayını adladıqdan sonra Şirvanşah qoşunlarının çaya yaxınlaşmasına imkan verməsin. Yəni, çay kənarında qoşunların toplanması üçün təhlükəsiz bir meydan yaradılsın və bundan sonra da İsmayıl Mirzənin qoşunları və qoşun təchizatı təhlükəsiz şəkildə çaydan keçirilsin

"Aləmara-yi Şah İsmayıl"dan yuxarıda istinad edilmiş cümlələrdəki bir məlumat da digər mənbələrdəki məlumatla səsləşmir. Bu da Kür çayı sahilinə İsmayıl Mirzə tərəfindən göndərilmiş dəstəyə rəhbərliyin Qarapiri bəy tərəfindən edilməsidir. Digər mənbələrdə bu dəstəyə rəhbərliyin Bayram bəy Qaramanlıya tapşırıldığı bildirilir (82). Bayram bəy Qaramanlının adı mənbələrdə daha çox çəkilməkdədir. Ona görə həmin dəstəyə Bayram bəy tərəfindən rəhbərlik edildiyi qənaətinə gəlmək daha məntiqli olardı. Bayram bəyin dəstəsi, əslində, avanqard dəstəni təşkil etməli idi. Bu dəstə Kür çayı sahilinə çatandan sonra qoşunların çayı adlaması üçün daha münasib yeri müəyyənləşdirməli və zərurət yarandığı halda Kür çayı üzərindən keçid düzəltməli idi. Eyni zamanda həmin keçidlərin təhlükəsizliyi təmin edilməli idi. Bayram bəy göstəriş alan kimi dərhal onun icrasına yollandı və çay kənarında mürəkkəb vəziyyətlə qarşılaşdı.

"Tarix-e həbib üs-siyər" əsərinə görə, Bayram bəy Qaramanlı Kürlə Araz çaylarını qovşağında iki keçidin münasibliyini yoxlamalı idi. Onlardan biri Qövmün ölümü, digəri isə Dəğnanc (bu adlar tarixi ədəbiyyatda başqa cür də verilmişdir. Çox güman ki, bu adlar mənbələrdə ərəb hərfləri ilə düzgün yazılmamışdır və ona görə də oxunuşda fərqlər meydana gələ bilər). Bayram bəy həmin keçidlərə yetişdikdən sonra onların vəziyyətini yoxladı və belə bir qənaətə gəldi ki, bu keçidlərdən qoşunu keçirmək mümkün deyildir. Belə olanda Bayram bəy öz dəstəsini iki yerə böldü və hər bir dəstəyə də tapşırdı ki, çay üzərindən keçid təşkil etmək üçün sal və gəmilər hazırlasınlar. Bu hazırlıq işləri aparılan zaman İsmayıl Mirzə də qoşunların əsas hissəsi ilə ora yetişdi və vəziyyətlə tanış olduqdan sonra keçid hazırlanmasına ehtiyac görmədi. İsmayıl Mirzə atını çay axarının yuxarısına yönəltdi və bir qədər irəlilədikdən sonra atın üzünü suya çevirdi. İsmayıl Mirzənin mindiyi at heç nədən ehtiyatlanmayaraq çayı adladı. Bütün qoşun da heç bir keçidə ehtiyac olmadan İsmayıl Mirzənin ardınca düzüldü və heç bir itkisiz keçid baş tutdu. Bu hadisə İsmayıl Mirzənin qoşunlar daxilindəki nüfuzunu daha da artırdı. Döyüşçülər güman etdilər ki, ilahi qüvvə İsmayıl Mirzəni bu keçidə yönəltdi və onun qoşununun sağ-salamat keçidini təmin etdi. Çayı adladıqdan sonra İsmayıl Mirzə qoşunlara istirahət verdi (83).

Bir günlük istirahətdən sonra qoşunlar Şamaxıya doğru hərəkəti davam etdirdilər. Bildirilir ki, bu hərəkət zamanı da qızılbaş qoşunları bir neçə enli və dərin çaydan keçməli oldu. Həmin keçidlər də qoşunlar tərəfindən uğurla dəf olundu (84).

Qızılbaş qoşunlarının Kür çayının sol sahilinə adlaması 1500-cü ilin dekabr ayına təsadüf edirdi (85). Belə bir soyuq havada böyük qoşun dəstəsi ilə böyük çaydan keçilməsi özü də bir məharət tələb edirdi.

"Aləmara-yi Şah İsmayıl"da qızılbaş qoşunlarının Kür çayını adlaması ilə bağlı fərqli məqamlar vardır. Bu mənbənin məlumatına görə, qızılbaş qoşunlarının Kür çayı üzərində keçid təşkil edə bilməməsinə səbəb Şirvanşah qoşun dəstəsinin çayın kənarında olması idi. Çox güman ki, keçidin böyük itki ilə üzləşə biləcəyi üçün Qarapiri bəy ("Aləmara-yi Şah İsmayıl"a görə) çay üzərində keçid qurulmasını lazım bilmədi. Bu məlumat İsmayıl Mirzənin nəzərinə çatdırıldı. İsmayıl Mirzə də yaradana pənah apararaq atının istiqamətini çaya tərəf çevirdi və bütün qoşunu da ardınca apardı. Sonra qızılbaş qoşunları ilə Kür çayı sahilinə göndərilmiş Şirvanşahın qoşun dəstəsi arasında döyüş baş verdi. Qızılbaş qoşunları bu döyüşdə üstün gəldilər və Şirvanşah dəstəsini bütünlüklə məhv etdilər (86).

Bəzi mənbələrdəki məlumata görə, Kür çayını adladıqdan sonra qızılbaşlara Şəki hakiminin silahlı dəstəsi müqavimət göstərdi. Belə bir hadisənin baş verməsi istisna deyil. Ola bilsin ki, Fərrux Yasar qızılbaş qoşunlarının yaxınlaşması xəbərini eşidincə ondan asılı vəziyyətdə olan Şəki hakimindən öz qoşun dəstəsini göndərməyi tələb etmişdi. Bəzi məlumatlara görə isə, Fərrux Yasarın qızılbaş qoşunlarının Şamaxıya doğru irəliləməsindən xəbərsiz idi və ona görə də hər hansı bir hazırlıq da aparmırdı. Qızılbaş qoşunları yalnız Kür çayını adladıqdan və Şamaxıya doğru hərəkət etdikləri zaman Fərrux Yasar məsələdən xəbər tutdu. Bu xəbərdən çox təəccüblənən və hirslənən Fərrux Yasar da qoşunlarını götürüb qızılbaşları qarşılamağa yollandı (87).

" Rövzətüs Səfəviyyə" isə əksinə, İsmayıl Mirzə hələ Ərzincandan Şirvana yürüş etmək qərarı verəndə Fərrux Yasarın bundan xəbəri olduğunu yazırdı. Fərrux Yasar bu xəbərə səbirlə yanaşdı və nə etmək lazım gəldiyi üzərində fikirləşərkən qızılbaş qoşunlarının yaxınlaşması xəbərini aldı. Bu xəbəri eşidəndən sonra Fərrux Yasar Buğurd dərəsi ilə Gülüstan qalası arasındakı meşədən köç edərək Gülüstan qalasına yollandı. Bu mənbənin məlumatına görə, Fərrux Yasar qızılbaş qoşunlarına cavab verilməsinin zəruriliyini yaxşı bilirdi və ona görə də qoşun toplanmasına başladı. Mövcud məlumatdan belə qənaətə gəlmək olar ki, Fərrux Yasar qızılbaş qoşunlarına müqavimət göstərmək üçün Şirvan ərazisindən qoşun topladı və onun təşkilatlandırılması ilə məşğul odu (88).

"Tarix-i aləmara-yi Abbasi" əsərində İsmayıl Mirzənin Fərrux Yasarla qarşılaşması belə təsvir olunmuşdur: "Elə ki Şamaxıya çatdılar, Şirvan valisi Fərrux Yəsar Cəbani yaylağına yollandı. İyirmi min süvarisi və neçə min piyadası olan Şirvan valisi Fərrux Yəsarla Gülüstan qalası yanında döyüş oldu və [İsmayılın] zəfər və qələbəsi ilə nəticələndi. Şirvanın əyanlarından və o diyarın piyada və atlı qoşunlarından çoxu Fərrux Yəsarla bərabər, şir ovlayan qazilərin intiqam qılıncı ilə cəhənnəmə getdi. O həzrətin (İsmayılın) səltənət və hökmdarlıq təbilinin səsi o diyarda yüksəklərə qalxdı. O qışı [İsmayıl] Şirvanın Mahmudabad [şəhərində] keçirdi. Şirvanşahın Şeyxşah ləqəbli böyük oğlu gəmiyə

minib, dəniz yolu ilə Gilana getdi. O vilayətin adamlarının əksəriyyəti ona (İsmayıla) itaət etdilər. Şirvan padşahlarının o ölkədə olan bütün xəzinə və dəfinələri Süleyman şanlı xaqanın əlinə keçdi" (89).

"Aləmara-yi Şah İsmayıl" əsərində də buna oxşar bir mənzərə təsvir edilmişdir. Burada daha açıq şəkildə bildirilir ki, Şirvan şəhərindən 6 fərsəx məsafədə tərəflər arasında baş verən döyüş qızılbaş qoşunlarının qələbəsi ilə bağa çatdı. Döyüşün gedişində İsmayıl Mirzə özünü Fərrux Yasara yetirdi və qılınc zərbəsi ilə onu qətlə yetirdi. Fərrux Yasarın qətli onun qoşunu arasında hərc-mərclik yaratdı və qoşunlar Şamaxıya tərəf geri çəkilməyə başladılar. İsmayıl Mirzə isə Şirvan şəhərinə daxil olmaqla bu şəhər üzərində nəzarəti öz əlinə keçirdi. Fərrux Yasarın oğu Şeyxşah atasının öldürülməsindən xəbər tutanda ailəsinin xəzinəsini toplayıb Gülüstan qalasına göndərdi. Özü isə yaxınları ilə birlikdə Qafqaz dağlarına tərəf şimala geri çəkildi. İsmayıl Mirzə bu məsələdən xəbər tutanda Qarapiri bəyin rəhbərliyi altında 4 min nəfərlik qoşun dəstəsini Gülüstan qalasının mühasirəsinə göndərdi. Qarapiri bəy Gülüstan qalasına yaxınlaşanda onun ələ keçirilməsinin xeyli çətin olduğunu gördü. Ona görə də bu barədə məktub yazaraq İsmayıl Mirzəyə göndərdi və ondan məsləhət istədi. Bu məktubu alandan sonra İsmayıl Mirzə özü Gülüstan qalasının ətəyinə gəldi. O, vəziyyəti araşdırdıqdan sonra qalanın komendantı olan Xosrova məktub yazdı. İsmayıl Mirzə bu məktubunda qala komendantına çatdırdı ki, biz bu qalanı almağa gəlmişik, artıq zəhmət çəkməyəsən və qalanı təhvil versən dövlətdə səni yüksəldəcəyəm. Qala komendantı bu məktubda irəli sürülən təklifi qəbul etmədi. Əksinə, məktubu gətirmiş elçini də acı sözlərlə acıladı. İsmayıl Mirzənin elçisi mövcud vəziyyəti ona anlatmağa çalışdı və bildirdi ki, təklifi qəbul etməsən əli-qolu bağlı İsmayıl Mirzənin hüzuruna gətiriləcəksən. Onda aman istəmək imkanı olmayacaq. Qala komendantı bu sözlərdən daha da hirsləndi və onun əmrinə əsasən elçini o qədər döydülər ki, o da həyatını əldən verdi. Hətta onun meyitini qaladan asdırdı. Sözsüz ki, qala komendantının belə bir cavabı İsmayıl Mirzənin qane etmədi. Göstəriş verdi ki, qala hər tərəfdən mühasirəyə alınsın, qalaya su və ərzaq gətirilməsinin yolu kəsilsin. Bu da öz nəticəsini verdi. Tezliklə qala ələ keçirildi, qalanın komendantı ciddi şəkildə cəzalandırıldı və orada gizlədilmiş xəzinə və mal-dövlət ələ keçirilərək qızılbaş döyüşçüləri arasında paylanıldı. Sonra da qızılbaş qoşunları Şamaxıya doğru hərəkətlərini davam etdirdilər (90).

"Tarix-e həbib üs-siyər" əsərində İsmayıl Mirzənin Fərrux Yasarla qarşılaşması müəyyən fərqli məqamları ilə təsvir edilmişdir. Bu əsərdə bildirilir ki, İsmayıl Mirzə öz qoşunları ilə Şirvan şəhərinə yaxınlaşmaq ərəfəsində olanda Şamaxı sakinlərindən onun yanına gələnlər oldu və ona çatdırdılar ki, qızılbaş qoşunlarının gəlməsi xəbərini eşidəndən sonra Fərrux Yasar şəhəri tərk edibdir. İsmayıl Mirzə bu xəbəri eşidəndə Cuş Mirzə kimi tanınan Qulu bəy adlı xidmətçilərindən birini Şamaxıya göndərdi və onun vasitəsilə şəhər əhalisinə çatdırdı ki, qızılbaş qoşunlarından qorxmasınlar, onların həyatına təhlükə olmayacaqdır. Bununla belə, İsmayıl Mirzə Şamaxıya daxil olanda onu tərk edilmiş

halda gördü. Şəhər sakinləri qızılbaş qoşunlarının qorxusundan evlərini tərk edərək meşəliklərə çəkilmişdirlər. Qızılbaş qoşunları bir neçə gün şəhərdə qaldılar. Həmin günlərdə xəbər alındı ki, Şirvanşah Fərrux Yasar şəhəri tərk etdikdən sonra Gülüstan qalası ilə Buğurt qalası arasındakı meşəlik ərazidə düşərgə salıb və qızılbaş qoşunlarından qorunmaq üçün burada özünə müdafiə səngərləri və istehkamları düzəldibdir (91).

Bu xəbəri eşidəndən sonra İsmayıl Mirzə qoşunla həmin istiqamətə yollandı. Şirvanşah isə İsmayıl Mirzənin yaxınlaşması xəbərini alan kimi dərhal həmin mövqeni tərk etdi və Gülüstan qalasına doğru hərəkət etdi. Amma o, Gülüstan qalasına çata bilmədi və Cəbani adlanan yerdə tərəflər arasında döyüş baş verdi. Mənbə bu döyüşün təfərrüatları və taktikası haqqında məlumat verməsə də, onun son dərəcə gərgin keçməsindən xəbər verir. Bildirilir ki, bu döyüş o səviyyədə gərgin keçdi ki, axan qanlar Amu Dərya çayını təşkil edə bilərdi. Döyüşdə Şirvanşah qoşunlarından çoxlu sayda qırılanlar oldu. Şirvanşah Fərrux Yasar da öz döyüşçüləri arasında idi və onlarla birlikdə vuruşurdu. Çoxlu sayda qırılanların arasında onun da olduğu məlum oldu. Döyüşün gedişində onun şah olması bilinmədən qətlə yetirilmişdi. Döyüş qızılbaşların qələbəsi ilə başa çatandan sonra Şamaxı əhalisi İsmayıl Mirzəyə sədaqətli olacaqlarını bəyan etdilər. Bildirilir ki, İsmayıl Mirzə yerli əhalinin nümayəndələrini hörmətlə qarşıladı və onların bir hissəsinə hətta hədiyyələr də verdi. Eyni zamanda döyüşdə fərqlənənlər də mükafatlandırıldılar (92).

"Xolde bərin" əsərinə görə, İsmayıl Mirzə Kür çayının adladıqdan sonra Şamaxıya doğru hərəkətini davam etdirdi və Cəbani adlanan bir məntəqəyə yetişdi. Fərrux Yasar bu barədə xəbər alan kimi əmlakını Gülüstan qalasına göndərdi. Özü isə qoşununu götürərək Cəbani məntəqəsinə gəldi. Burada Fərrux Yasar münasib döyüşqabağı mövqe tutdu, dəstəsini yaxınlıqdakı yüksəkliyin üzərində yerləşdirdi. Sonra isə qoşunların qruplaşdırılmasına başladı. Qarşı tərəf də eyni ilə döyüşdən qabaq qoşunları qruplaşdırdı. Musiqi alətlərinin səsləndirilməsindən sonra tərəflərin qoşun dəstələri öz bayraqları ilə döyüş meydanına daxil oldular. Məlumata görə, bu bayraqlar o qədər çox idilər ki, döyüş meydanı Gülüstana oxşayırdı. Mənbədə müxtəlif ifadələrlə bu döyüşün son dərəcə gərgin keçməsi təsvir edilmişdir. Buradakı məlumatlara görə, İsmayıl Mirzə əvvəlcə əsas diqqəti Şirvanşah qoşunlarının yerləşdikləri yüksəklikdən çıxarılması təşkil edirdi. Bir müddətdən sonra qızılbaşlar buna nail oldular və Şirvanşah qoşunları yüksəklikdən enişə çıxarıldılar. Amma bununla Şirvanşah qoşunları heç də uğursuzluqla barışmaq istəmirdilər. Onların hərbi təşəbbüsü əllərinə almaq üçün oxatanları fəal surətdə döyüşə qoşması nəticəsində qızılbaşlar üzərinə ox yağışı yağmağa başladı. Bunun ardınca isə Fərrux Yasarın rəhbərliyi altında Şirvanşah atlıları qızılbaşlar üzərinə hücum çəkdilər. Mənbənin məlumatına görə, bu hücum lazımi şəkildə nizamlanmamışdı və ona görə yaranan qarışıqlıq zamanı hətta Şirvanşah piyadaları atların ayaqları altında qaldı. Bu həmlə döyüşün yenidən qızışması ilə bərabər, həm də itkilərin çoxalmasına yol açdı. Bildirilir ki, İsmayıl Mirzə heç də bu döyüşdən kənarda qalmadı və ətrafında olan dəstə

ilə o da Şirvanşah qoşunları üzərinə hücuma keçdi. Mənbədə İsmayıl Mirzənin gənc yaşlarında olmasına baxmayaraq son dərəcə cəsarətlə vuruşması haqqında geniş təsvir mövcuddur. Qızılbaşları fədakarcasına vuruşması Şirvanşah qoşunlarının müqavimətini tamamilə qırdı və onların sağ qalanları, o cümlədən Fərrux Yasar döyüş meydanını tərk edib qaçmağa üz qoydu. Bir dəstə qızılbaş onları təqib etməyə başladı və Buğurt qalası yaxınlığında geri qaçmağa çalışan Şirvanşah döyüşçülərinin bir hissəsi, o cümlədən də Fərrux Yasar qılıncdan keçirildi. Yalnız sonrası gün atına və yarağına görə, Fərrux Yasarın da öldürüldüyü məlum oldu və sonra axtarıb onun nəşini də tapdılar (93).

Bəzi mənbələrdə və tarixi ədəbiyyatda olan məlumatlara görə, qoşunların döyüşqabağı düzülüşü haqqında daha geniş məlumat almaq mümkündür. Şirvanşah qoşunları haqqında bu məlumat çox kəsaddır. Məsələn, bildirilir ki, Şirvanşah qoşunları döyüş meydanına yetişdikdən sonra onlar əmirlərin, ulus və oymaq sərdarlarının rəhbərliyi altında qruplaşdırıldılar (94).

İsmayıl Mirzə də öz qüvvələrinin döyüşqabağı düzülüşünü apardı. Qeyd etmək lazımdır ki, Kür çayını adlayandan sonra İsmayıl Mirzə tərəfindən Şirvanşahın və onun qoşunlarının davamlı kəşfiyyatı təşkil edildi. Bunun üçün xüsusi adamlar ayrıldı. Ona görə də Şirvanşahın və onun qoşunlarının harada olması və onların vəziyyəti haqqında İsmayıl Mirzədə ətraflı məlumat mövcud idi. İsmayıl Mirzə öz qoşunlarını iki yerə böldü. Qoşunun bir dəstəsi əsas qüvvə kimi döyüşə başlamalı idi. Mənbədə bu qoşunun dəstələrinə rəhbərlik edən əmirlərin adları da çəkilmişdir. Onların arasında Abidin bəy Təvaçi, Xüləfa bəy, Hüseyn bəy Lələ, Xan Məhəmməd Ustaclı, Bayram bəy Qaramanlı, Əvəz sultan, Qaraxan, Qaraca İlyas, İlyas bəy Uyğuroğlu, Sultan bəy Əfşar və digərləri var idi. İsmayıl Mirzə qoşunlarının əsas dəstəsini bu əmirlərin rəhbərliyi altında cinahlara və mərkəzə yerləşdirdi. Ehtiyatda saxlanılan qoşun dəstəsinə isə bu əmirlər rəhbərlik edirdilər: Çülpa bəy, Qılınc bəy Qaramanlı, Allahməhəmməd Təkalu, Cüş Mirzə, Bəkir bəy Çakərli, Əli bəy Çakərli, Piri bəy Qacar, Süleyman bəy Xazan Zülqədərli, Piri bəy Pərvanəçi Əfşar, Əhməd bəy Sufioğlu Ustaclı (95). Bu faktın özü də qızılbaş qoşunlarının 7 min olması iddiasını şübhə altına qoyur.

Şirvanşah piyadalarının bir hissəsinin Şirvanşah atlılarının ayaqları altında qalması "Fotuhat-e şahi" əsərində də təsdiq olunmuşdur. Amma bu əsərdə onun səbəbi də açıqlanmışdır. Bu əsərdəki məlumatdan aydın olur ki, döyüşün gedişində İsmayıl Mirzə vəziyyəti qiymətləndirdikdən sonra hücumu bir qədər səngitməyi lazım bildi ki, bununla qarşı tərəfin diqqətini yayındırsın. Fərrux Yasar və onun əmirləri isə qızılbaşların döyüşünün səngiməsini onların zəifliyi kimi başa düşdülər və bu imkandan dərhal bəhrələnmək üçün atlıların sürətlə irəliləməsinə göstəriş verildi. Həmin hücumda yaranan qarışıqlıq zamanı Şirvanşah piyadalarının bir hissəsi öz atlılarının ayaqları altında qaldı. Ona görə, Şirvanşah qoşunlarının bu hücumu bir nəticə vermədi. Əksinə, qızılbaşların növbəti zərbəsi onların müqavimətinin qırılması ilə nəticələndi və Şirvanşah qoşunları böyük sürətlə geri çəkilməyə başladılar (96).

Bu, isə məlum olduğu kimi, Şirvanşah Fərrux Yasarın həyatının sona çatması ilə nəticələndi. Bəzi müəlliflər onun İsmayıl Mirzə tərəfindən qətlə yetirildiyi bildirilsə də, digər mənbələr tərəfindən bu fakt təsdiqlənmir. Fərrux Yasar öz döyüşçüləri ilə birlikdə geri çəkilərkən qızılbaşların güclü zərbəsi ilə rastlaşdı və öz döyüşçüləri ilə birlikdə şah olduğu bilinmədən döyüş meydanında qətlə yetirildi. Yəni, onun öldürülməsi təsadüf nəticəsində, dğyüşün gedişində baş vermişdi. Fərrux Yasarın öldürülməsi ilə Şamaxı üzərinə yürüş uğurla başa çatdı. İsmayıl Mirzə qoşunlara üç günlük istirahət verdi və sonra Şamaxıya daxil oldu. Bu istirahət günləri sevinclə, şadyanalıqla keçdi və qızılbaşlar özlərinin ilk böyük qələbəsini təntənə ilə qeyd etdilər. İsmayıl Mirzə həmin günlər ərəfəsində döyüşdə məharət göstərmiş bütün əmirlərini və döyüşçülərini qiymətli hədiyyələrlə qiymətləndirdi və onların fədakar xidmətinə dəyər verdiyini bildirdi.

"Fotuhat-e şahi" əsərində Fərruz Yasarın oğlu Şeyxşahın Şamaxıdan qaçması da nisbətən daha geniş şəkildə verilmişdir. Şeyxşah baş vermiş müharibədə Şirvanşah qoşunlarının məğlubiyyəti xəbərini alan kimi Şamaxıdan qaçmaq məcburiyyətində qaldı. Mənbənin məlumatına görə, o, Şəhrinou şəhərinə qaçdı. Bildirilir ki, Şeyxşahın hələ qızılbaşlarla müharibə başlamazdan əvvəl Fərrux Yasarla mübahisəsi yaranmışdı. Şeyxşah istəyirdi ki, onu Şirvanşah qoşunlarının baş komandanı təyin etsinlər, Şirvanşah özü isə qoşunların hazırlanması və təchizi ilə məşğul olsun. Fərrux Yasar isə bununla razı olmadı. Ona görə Şeyxşah incik düşərək özünü kənara çəkdi və qoşunlar məğlubiyyətə uğrayandan sonra Şəhrinouya çəkildi. Mənbədəki məlumata görə, bu şəhər bir adada yerləşirdi. Şeyxşah əvvəlcə bu şəhərdə möhkəmlənmək istəyirdi. Şeyxşaha imkan verildiyi halda o bu şəhərdə möhkəmlənməklə ətrafına yenidən qoşun toplaya və qızılbaşlara qarşı müqavimət göstərə bilərdi. Buna yol verməmək üçün İsmayıl Mirzə Xəlifə bəyin rəhbərliyi altında ona qarşı bir dəstə göndərdi. Mənbədəki məlumatdan belə bir qənaət hasil olunur ki, bu dəstə kifayət qədər güclü və seçilmiş bir dəstə idi. Xəlifə bəy də göstəriş alan kimi dərhal Şəhrinouya tərəf hərəkətə başladı. Şeyxşah qızılbaş dəstəsinin onun ardınca gəlməsi xəbərini eşidən kimi dərhal Şəhrinounu tərk etdi və Gilana yollandı. Xəlifə bəy qızılbaş dəstəsi ilə şəhərin kənarına yetişəndən sonra şəhər sakinlərinin nümayəndələri onun yanına gəldilər. Şəhər sakinlərinin nümayəndələri ilə bərabər, Şirvanşah tərəfindən təyin edilmiş hakim Xəlifə bəyə öz itaətlərini və sədaqətlərini bəyan etdilər. Xəlifə bəy onların itaətini və sədaqətini qəbul etdi və bu münasibətlərinə görə onları hətta mükafatlandırdı da. Xəlifə bəy (Xadim bəy Xəlifə) tərəfindən şəhərin idarəçiliyi əvvəlki hakimə tapşırıldı və sonra da qoşun dəstəsi ilə birlikdə Mahmudabada qayıtdı (97). İsmayıl Mirzə qoşunlarını Şamaxıdan Muğanda yerləşən Mahmudabada çəkdi ki, qışı orada keçirsin. Ona görə Xəlifə bəy qoşun dəstəsi ilə Mahmudabada yollandı. Mövcud məlumatlara görə bu şəhər Kür çayının mənsəbində yerləşirdi. Bəzi məlumatlara görə, Şəhrinou alındıqdan sonra İsmayıl Mirzə də həmin şəhərə gəldi və bir neçə gün orada qaldıqdan sonra qoşunla Mahmudabada yola düşdü (98).

### 8. İsmayıl Mirzənin Bakı üzərinə hücumu

İsmayıl Mirzə cahangirlik hərəkatının ilk böyük qələbəsini əldə etdi. Bu qələbə onun hərəkatının uğurlu başlanğıcını qoydu və onun Şamaxıdan başlanan uğurlu hərəkatı çox az zamandan sonra böyük bir dövlətin əsasının qoyulması ilə nəticələndi. Şamaxı döyüşü həm də İsmayıl Mirzənin özünün ilk ciddi döyüşü idi. O bir tərəfdən taktiki keyfiyyətlərini bu döyüşdə nümayiş etdirdi. Yuxarıdakı məlumatlardan göründüyü kimi, İsmayıl həm Şirvanşahlar qoşunlarının daimi kəşfiyyatını apardı, həm qoşunları düzgün qruplaşdırdı, cinahlara və cəbhənin mərkəzinə təcrübəli əmirlərin rəhbərliyi altında döyüşkən dəstələri yerləşdirdi, ehtiyatda qüvvə saxlamağı lazım bildi. Digər tərəfdən İsmayıl Mirzə bir döyüşçü kimi Şamaxı döyüşündə iştirak etdi, yaşının az olmasına baxmayaraq həm cəsurluq, həm də fiziki keyfiyyətlər nümayiş etdirdi, bütün qoşunları da öz ardınca aparmağı bacardı. Bir sözlə, özünü bir sərkərdə kimi təsdiq edə bildi.

Mahmudabad havasının mülayimliyi ilə seçilirdi və qışın bu şəhərdə keçirilməsi daha məqsədəuyğun sayılırdı. Havanın münasibliyindən əlavə bu bölgədə ərzaq tədarükü və heyvanlar üçün yem tapılması da daha asan idi. Mahmudabadda dayandığı zaman İsmayıl Mirzə öz hərəkatının möhkəmləndirilməsi və gələcək uğurları üçün bir sıra ciddi addımlar atdı. Məsələn, məlumdur ki, burada olduğu zaman İsmayıl Mirzə uzun müddət Qaraqoyunlu və Ağqoyunlu saraylarında vəzir olmuş Əmir Şəmsəddin Zəkəryanı özünün vəziri təyin etdi. Əmir Şəmsəddin Zəkəriyya bir tərəfdən böyük dövlətçilik və idarəçilik təcrübəsinə malik idi, digər tərəfdən isə Azərbaycandakı (Cənubi Azərbaycan nəzərdə tutulur) vəziyyətlə yaxından tanış idi və Azərbaycanın necə ələ keçirilməsində və idarə edilməsində Əmir Zəkəriyya böyük xidmətlər göstərə bilərdi. İsmayıl Mirzə bu keyfiyyətlərinə görə Əmir Şəmsəddin Zəkəriyyanı Azərbaycanın açarı adlandırırdı. Bundan başqa, Mahmudabadda olarkən İsmayıl Mirzə sınanmış əmirlərindən olan Lələ Hüseyn bəyi, Əbdal bəyi və Dədə bəyi əmirül-üməra və ixtiyar sahibləri təyin etdi (99).

Mahmudabadda olarkən İsmayıl Mirzə həm də qoşunların hərbi təchizatı məsələlərinin həlli ilə məşğul oldu. Bu məqsədlə İsmayıl Mirzə yaxınlarından saydığı Əmir Musa Xəlifəni Təbrizə göndərdi. Mənbələrdə olan məlumatlara görə, həmin günlərdə Ağqoyunlu hakimi Əlvənd Mirzənin qardaşı Məhəmmədi vəfat edibmiş. Əmir Musa Xəlifə Təbrizə yollanmaqla həm Əlvənd Mirzəyə qardaşının vəfatı ilə bağlı başsağlığı verməli, həm Əlvənd Mirzənin bacısını İsmayıl Mirzəyə istəməli idi, həm də Təbrizdə istehsal olunan silah və partladıcı maddələrin ehtiyatlarını yaradaraq qızılbaş qoşunlarına göndərməli idi. Elçilik vəzifəsini həyata keçirmək üçün Əmir Musa Xəlifə özü ilə böyük sayda qiymətli hədiyyələr də apardı. Bu elçilik missiyasının nə ilə başa çatması haqqında mənbədə məlumat olmasa da, bildirilir ki, Əmir Musa Xəlifə bir neçə dəfə qızılbaş qoşunlarına silah və sursat göndərə bildi (100).

Mahmudabadda olarkən İsmayıl Mirzə Bakı şəhərinin tutulması üçün də müəyyən tədbirlər həyata keçirdi. Mənbələrdən birinin məlumatına görə, İsmayıl Mirzə Mahmudabadda olarkən Bakı hakimlərindən kimsə onun yanına gəlib öz itaətini bildirmədi. İsmayıl Mirzə tərəfindən bu münasibət Bakı hakimlərinin itaətsizliyi kimi dəyərləndirildi və bu şəhərin itaət altına gətirilməsi üçün ora qoşun dəstəsi göndərildi (101).

Başqa mənbə məlumatlarına görə isə, Bakı əhalisi və hakimləri İsmayıl Mirzəyə tabe olmaq və vergi vermək istəmədilər. Bu isə İsmayıl Mirzə tərəfindən Baka əhalisinin itaətsizliyi kimi dəyərləndirildi və bu şəhərin itaət altına gətirilməsi üçün qoşun dəstəsi göndərildi. Qeyd edilməlidir ki, Bakı şəhəri bu zaman Şirvanşahlar dövlətinin mühüm şəhərlərindən biri olmaqla kifayət qədər inkişaf etmişdi. Xüsusilə, dəniz ticarətinin inkişafı bu şəhərin rövnəq tapmasına və əhəmiyyətinin artmasına zəmin yaradırdı. Bakı həm də kifayət qədər möhkəmləndirilmiş bir qala şəhəri idi. Qərar tutduğu coğrafi mövqe də şəhərin müdafiə imkanlarını xeyli artırırdı. Şəhər bir tərəfdən su ilə əhatə olunmuşdu. Bundan başqa şəhərin ətrafına üçqat müdafiə divarları çəkilmişdi. Qurudan şəhərin müdafiəsini möhkəmləndirmək üçün müdafiə divarları boyunca dərin xəndəklər də qazılmışdı. Şəhərin sakinləri də bu müdafiə imkanlarına arxalanaraq qızılbaş qoşunlarına müqavimət göstərmək istəyirdilər (102).

"Tarix-i aləmara-yi Abbasi" əsəri Bakı şəhərinin qızılbaşlar tərəfindən ələ keçirilməsini belə təsvir edirdi: "Bəzi qalaların, xüsusən Badikubə (Bakı) qalasının camaatı müqavimət göstərdilər. Badikubə qalası üç tərəfdən su ilə əhatə olunmuşdur. Heç bir əzəmət sahibinin əli onun xəndəklərinin kənarındakı torpağın ətəyinə çatmır. Qalanın quruya çıxan tərəfində aqillərin ölçüyəsığmaz düşüncələri qədər dərin və geniş bir xəndək qazılmışdır. Oranın əhalisi bir qədər itaətsizlik edib qalanı saxladılar, lakin axırda ora zavalsız dövlətin gücü ilə fəth olundu" (103).

İsmayıl Mirzə bu xəbəri alan kimi Bakı şəhərinin itaət altına gətirilməsi üçün həmin şəhərə Ustaclı döyüşçülərindən ibarət bir dəstə göndərdi. Məhəmməd bəy Ustacll ilə İlyas bəy Ustaclı bu dəstənin rəhbərləri təyin edildilər. Bakının itaət altına alınması İsmayıl Mirzə üçün böyük əhəmiyyət kəsb edirdi. Çünki bu şəhəri ələ keçirmədən Şirvanşahlar dövlətinin bütünlüklə ələ keçirilməsindən söhbət gedə bilməzdi. Digər tərəfdən Bakı şəhərini ələ keçirməklə Xəzər dənizindəki gəmiçiliyi nəzarət altına almaq mümkün olardı. Çox güman ki, Bakı şəhərinin müdafiə imkanları haqqında İsmayıl Mirzənin müəyyən məlumatı var idi və ona görə də bu şəhərin itaət altına gətirilməsi iki təcrübəli əmirə tapşırılmışdı. Amma bu əmirlər Bakı ətrafında gözləmədikləri bir vəziyyətlə qarşılaşdılar. Bu şəhərin müdafiə imkanları qızılbaşların böyük təəccübünə səbəb oldu. Görünür, qızılbaşlar Bakının belə müdafiə imkanlarına malik olmasını təsəvvür etmirdilər. Hətta mənbələrdə də şəhərin müdafiə imkanları haqqında çox maraqlı məlumatlar mövcuddur. Bu əsərlərdə Bakının divarları İsgəndər səddi ilə müqayisə olunur, bu divarların hündürlüyü, eni, keçilməzliyi barəsində qorxunc təsvirlər ortaya qoyulurdu. Bildirilir ki, şəhərin dörd qapısı

var idi, onlardan üçü dənizə, yalnız biri quruya açılırdı. Mənbələrdə şəhərin müdafiəçilərinin cəsurluğu, döyüşkənliyi də səxavətlə təsvir olunmuşdur. Şəhər çoxlu sayda ərzaq ehtiyatının toplanması isə bu şəhərin müdafiəsini daha da möhkəmləndirirdi. Şəhər divarları ətrafında qazılmış xəndəyin su ilə doldurulması haqqında tədqiqata cəlb edilmiş mənbələrdə məlumat yoxdur. Amma bildirilir ki, bu xəndək həm xeyli geniş, həm də xeyli dərin idi və bu da qala divarlarına yaxınlaşmağı xeyli çətinləşdirirdi (104).

Məhəmməd bəylə İlyas bəy şəhərə yaxınlaşan kimi onu mühasirəyə aldılar və imkanlarından istifadə etməklə onun ələ keçirilməsinə çalışdılar. Qızılbaşların şəhər ətrafındakı döyüşünün təfərrüatı haqqında ətraflı məlumat vermək çətindir. Amma məlumdur ki, şəhər müdafiəçiləri qala divarları üzərindən qızılbaşlar üzərinə ox və daş atmaqla onlara itki yetirməyə çalışırdılar. Qızılbaşlar isə şəhərin özünü ələ keçirə bilməyəndə şəhər ətrafındakı məntəqələrə hücum etdilər və onları ələ keçirdilər (105).

Göstərilən bütün cəhdlərə baxmayaraq, Bakı şəhərini ələ keçirmək mümkün olmadı. Bu barədə İsmayıl Mirzəyə məlumat çatdırıldı. Onda İsmayıl Mirzə qərara aldı ki, qoşunların əsas hissəsi ilə Mahmudabaddan Bakı ətrafına hərəkət etsin. 1501-ci il yazın əvvəlində İsmayıl Mirzə qızılbaş qoşunları ilə Bakı ətrafına gəldi və şəhərin ələ keçirilməsi işini öz üzərinə götürdü.

Yuxarıda qeyd edildiyi kimi, İsmayıl Mirzənin qala döyüşü ilə bağlı artıq müəyyən təcrübəsi var idi. Ərzincana səfəri zamanı Məntəş qalasını ələ keçirməsi İsmayıl Mirzənin ilk döyüş təcrübələrindən idi. Amma Bakı şəhərinin müdafiə imkanları Məntəş qalasının imkanlarından xeyli fərqlənirdi. Bakı qalası, ümumiyyətlə, bölgənin ən güclü qala-şəhərlərindən biri idi və onun ələ keçirilməsi xüsusi bir məharət tələb edirdi. Qalanın müdafiə imkanları ilə tanışlıqdan sonra İsmayıl Mirzədə də belə bir qənaət hasil oldu.

İsmayıl Mirzə Bakı ətrafına yetişəndən sonra bütün mövqeləri özü yoxladı, şəhər divarlarını, divarlar ətraflında çəkilmiş xəndəyi müşahidə etdi, qalanın ələ keçirilməsi imkanlarını mülahizə etdi. Onun göstərişi əsasında qala divarları ətəklərinə nəqəbçilər dəstəsi gətirildi və qala divarları altına lağım atılması haqqında onlara göstəriş verildi. Eyni zamanda oxatanlar dəstəsi qala divarları yaxınlığında yerləşdirildi ki, onlar qala müdafiəçilərini hədəf götürsünlər və onların azad hərəkətinə imkan verməsinlər (106).

Bəzi mənbələrdə qızılbaş qoşunlarının Bakı üzərinə hücumu zamanı şəhərin müdafiəsinə Bakı hakimi Qazı bəyin xanımının rəhbərlik etdiyi bildirilir. Fərrux Yasarın oğlu olan Qazı bəyin xanımının Bakı qalasının müdafiəsinə rəhbərlik etməsi çox az sayda olan mənbələrdə toxunulur və onun adı İsmayıl Mirzənin elçisini öldürməsi ilə bağlı olaraq xatırlanır. Mənbə məlumatına görə, İsmayıl Mirzə şəhər üzərinə hücum təşkil etməzdən əvvəl onun dinc şəkildə təslim edilməsi üçün şəhərə elçi göndərdi. Qazı bəyin xanımı da elçinin gətirdiyi təklifi qəbul etməyərək onun qətli üçün göstəriş verdi. Bildirilir ki, sonradan şəhərin darğası Əbülfət bəy (bəzi mənbələrə görə isə Əbülfəttah bəy) də qalanın səfəvilərə təslim edilməsinin məqsədəuyğunluğunu bəyan etdi. Mənbə məlumatına görə, Əbülfət bəy

hələ Qazı bəydən əvvəl də şəhərin darğası olmuşdu. O, şəhər ətrafında vəziyyəti təhlil etdikdən sonra yeganə çıxış yolu kimi, şəhərin təhvil verilməsini görürdü. Məlumata görə, şəhər əhalisi arasında da bu fikri bölüşənlər çox idi və onlar da yersiz itkilərin qarşısının alınması üçün qalanın təslim edilməsini məqsədəuyğun sayırdılar. Amma Qazı bəyin xanımı onun da qətlinə fərman verdi (107).

İsmayıl Mirzə bundan xəbər tutandan sonra anladı ki, şəhərin alınması üçün yeganə yol uğurlu hücumun həyata keçirilməsidir. Onun göstərişi ilə qala divarları altından lağım atılmasına bir alay (fövc) qüvvə ayrıldı və bu alay bütün gücü ilə tapşırılan vəzifənin icrasına başladı. Qoşunların şəhərə yeridilməsi üçün divar altından yol açılması daha etibarlı yol kimi qəbul edilirdi. Nəhayət ki, bu istiqamətdə görülən işlər öz nəticəsini verdi və atılmış lağım nəticəsində qalanın bürclərinin birinin altından yol açmaq mümkün oldu. Amma şəhər müdafiəçiləri tezliklə bu boşluğu alaçıq keçəsi və ona oxşar materiallarla tutdular və daha üç gün müdafiəni davam etdirdilər. Qala müdafiəçiləri eyni zamanda qala divarları üzərindən müqaviməti gücləndirdilər. Qala divarları altından şəhərə daxil olmaq mümkün olmayanda İsmayıl Mirzənin əmri ilə qızılbaş döyüşçüləri şəhər ətrafından daş toplayaraq qala divarları ətrafındakı xəndəyi doldurdular. Sonra isə bu daşlardan qala divarları yanında bir təpə düzəldildi və bu təpə o səviyyəyə qaldırıldı ki, onun üzərindən şəhərə daxil olmaq mümkün olsun (108).

Bir başqa məlumata görə, İsmayıl Mirzə Bakı qalası ətrafındakı xəndəyə yaxınlaşanda atdan düşdü və yerdən bir daş götürərək o dərin xəndəyin içinə atdı. Sonra da döyüşçülərinə göstəriş verdi ki, hər kəs gücü miqdarında daş tapıb həmin xəndəyə atsın. Qızılbaş döyüşçüləri də böyük həvəslə öz mürşidlərinin göstərişini yerinə yetirdilər və qısa zamandan sonra İsmayıl Mirzənin daş atdığı yerdə böyük bir təpə yarandı. Bu hündür təpə ona imkan verdi ki, qala üzərinə uğurlu hücum başlansın (109).

Beləliklə, qala divarları yanında düzəldilmiş təpə üzərindən aşmaqla şəhərə daxil olmaq mümkün oldu. Şəhər daxilində müqaviməti hələ də dayandırmamış silahlılarla gərgin döyüşlər aparıldı və çox az müddətdən sonra şəhər əhlinə bəlli oldu ki, nicat tapmağın yeganə yolu təslim olmaqdır. Ona görə şəhərin nümayəndələri, ağsaqqalları, bütünlükdə 70 nəfər toplaşaraq sülh xahişi ilə İsmayıl Mirzənin yanına yollandılar. Mənbə məlumatlarında deyilir ki, şəhər nümayəndələri əllərində Quran kitabını tutmaqla həm də qan bahası kimi 1000 tümən vəsait toplayıb İsmayıl Mirzənin yanına apardılar. İsmayıl Mirzə də şəhər nümayəndələrinin xahişini qəbul etdi və onları bağışladı. Bundan sonra Xadim bəy Xüləfaya göstəriş verildi ki, şəhərə daxil olsun və Şirvanşahların Bakı daxilində olan xəzinəsini ələ keçirərək İsmayıl Mirzənin düşərgəsinə gətirsin. Xadim bəy də Şirvanşahlar sarayında Şirvanşahlara məxsus olan böyük bir xəzinəni ələ keçirdi və onu İsmayıl Mirzənin düşərgəsinə gətirdi. Mənbə məlumatlarına görə, Şirvanşahlar sarayında olarkən Xadim bəy Xüləfa Fərrux Yasarın atası Əmir Xəlilullahın qəbrini açdı və Sultan Cüneydin ölümünə bais olduğu üçün onun sümüklərini yandırdı. Amma sonrakı faktlar göstərir ki, Xadim bəy Xüləfa bu niyyətini heç də həyata keçirməmişdi və Əmir Xə-

lilullahın qəbri salamat qalmışdı. Tədqiqatçıların fikrincə, ola bilsin ki, qızılbaş əmirləri yalnız qəbrin uçurulması ilə kifayətlənmiş, amma Xəlilullahın sümüklərinə toxunulmamışdı (110).

İsmayıl Mirzə Bakıda Şirvanşahlar tərəfindən illər boyu toplanmış olan xəzinəni ələ keçirdi. Bu xəzinənin çox böyük olması mənbələrdə də öz əksini tapmışdı. Amma o da bildirilir ki, İsmayıl Mirzə bütün xəzinəni döyüşçüləri arasında bölüşdürdü. Hətta məzhəb baxımından ona çatmalı olan xümsü də İsmayıl Mirzə öz döyüşçüləri arasında bölüşdürdü və bu yolla onların döyüş xidmətləri lazımınca mükafatlandırıldı. Bununla, Bakı şəhərinin ələ keçirilməsi də başa çatdırıldı.

### 9. İsmayıl Mirzə ilə Ağqoyunlu Əlvənd Mirzə arasında Şərur döyüşü

Bakı şəhəri ələ keçirilsə də Şirvan ərazisində başqa bir müqavimət ocağı da qalmaqda idi. Bu da qızılbaş qoşunlarına qarşı silahı yerə qoymayan Şirvanşah qoşunları döyüşçülərinin toplaşmış olduğu Gülüstan qalası idi. Hələ Bakı ətrafında olarkən İsmayıl Mirzəyə məlumat çatdırıldı ki, Gülüstan qalası müqaviməti davam etdirməkdədir. Gülüstan qalası həm dağlıq ərazidə yerləşməsinə görə, həm divarlarının möhkəmliyinə görə kifayət qədər müdafiə qabiliyyətli bir qala idi. Qızılbaş hücumundan uzun müddət müdafiə olunmaq üçün qalanın daxilinə böyük həcmdə ərzaq ehtiyatları da toplanmışdı. Bu məqam özü də qalanın müdafiə imkanlarını daha da artırırdı. Ona görə bu qalaya sığınanlar qızılbaş qoşunlarına müqavimət göstərə biləcəklərinə ümid edirdilər. Yəni, əslində Şirvan ərazisində qızılbaşlara qarşı doğrudan da ciddi bir müqavimət ocağı formalaşmaqda idi. Bu qala alınmadan qızılbaşların başqa istiqamətə hərəkət etməsi sonradan Şirvanın yenidən müstəqilləşməsinə yol aça bilərdi. Ona görə də İsmayıl Mirzə Bakının ələ keçirilməsini başa çatdırandan sonra qoşun dəstəsi ilə Gülüstan qalasına doğru istiqamət götürdü. Amma bu səfər heç də İsmayıl Mirzənin ümidində olduğu nəticə ilə başa çatmadı. "Tarix-i aləmara-yi Abbasi" müxtəsər olaraq bu məsələni belə təsvir etmişdir: "Şirvan əhlinin bir hissəsi Gülüstan qalasında olduğundan [İsmayıl] oradan [bu] qalanın yanına gəlib, o vilayətin məşhur qalalarından olan o uca qalanı mühasirə etdi. Mühasirə əsnasında qeyb aləmindən gələn səs o həzrətə Azərbaycanın səltənət və padşahlıq taxtının müjdəsini verdi. Röya aləmində [İsmayıla] işarə etmişdilər ki, səadət səmasında uçan şahinə kiçik sərçə ovlamaq layiq deyil. O həzrət (İsmayıl) böyük əmirləri yanına çağırıb dedi: «Sizə Gülüstan qalası lazımdır, yoxsa Azərbaycan taxtı?». Müqəddəs Səfəvi xanədanının etiqad sahibləri səmimiyyət və müridlik aləmində [İsmayılın] ilham söyləyən dilindən nə söz çıxırdısa, məhz onu həqiqət bilərək, ondan heç kənara çıxmadıqlarına görə Azərbaycan taxtı müjdəsinin şənlik sədasını Keyvan eyvanına çatdırdılar" (111).

Doğrudur, Gülüstan qalası qeyd edildiyi kimi, möhkəm qala idi. Amma qalanın ələ keçirilməməsi yalnız bununla bağlı deyildi. Qoşun dəstəsi ilə qala ətrafına yetişdikdən sonra İsmayıl Mirzə ilk növbədə özü onun ətrafına gəzdi,

divarlarını müşahidə etdi, qoşunları qala ətrafında yerləşdirdi, qala divarlarına qızılbaş əmirlərindən cavabdeh şəxslər təyin etdi. Bu cavabdeh şəxslərin hər birinin öz sahəsi var idi və onlar həmin sahənin ələ keçirilməsinə məsuliyyət daşıyırdılar. Amma bir neçə günlük mühasirə öz nəticəsini vermədi (112). İsmayıl Mirzə qalanın dincliklə ələ keçirilməsinə nail olunması üçün əmirlərindən birini elçi kimi Gülüstan qalası daxilinə göndərdi ki, qala daxilindəkilərlə danışıqlar aparsın, onları qalanı təhvil verməyə sövq etsin. Bunun üçün onlara müəyyən güzəştlər təklif olundu. Lakin qala daxilindəkilər eşitdikləri təklif qarşısında öz şərtlərini irəli sürdülər. Onlar bildirdilər ki, əgər Qazi bəyin nəzarəti altında olan Sərxab və Buğurd qalaları təslim olarlarsa, onda Gülüstan qalası da müqavimətsiz təslim olacaqdır (113). Bununla, Gülüstan qalası sakinləri bildirirdilər ki, qızılbaşlara qarşı müqavimət göstərən yalnız onlar deyil, həm də Sərxab və Buğurt qalalarıdır.

Gülüstan qalasndan alınan bu cavab onun ələ keçirilməsini bir qədər də uzatdı. İsmayıl Mirzə isə Sərxab və Buğurt qalasına diqqət ayırmadan Gülüstan qalasının mühasirəsini davam etdirdi. Mənbələrdə olan məlumatlara görə, bir gün İsmayıl Mirzə ağac kölgəsində oturaraq qalanın ələ keçirilməsi planı üzərində fikirləşirdi. Bu zaman qala divarları üzərində yerli sakinlərdən biri göründü və özündə acizlik görüntüsü yaradaraq İsmayıl Mirzədən xahiş etdi ki, hələlik öz fatehlik yürüşünü başqa bir əraziyə istiqamətləndirsin və Gülüstan sakinlərinə möhlət verilsin. Bəzi mənbələrdə bildirilir ki, qalanın ələ keçirilməsi yaxınlaşmaqda idi və ona görə qala sakinləri İsmayıl Mirzədən möhlət istədilər (114). Bu məqam mənbələrin çoxunda təkrarlanır və onların hamısında İsmayıl Mirzənin bu xahişə hörmətlə yanaşdığı və Gülüstan qalasının mühasirəsinin başa çatdırılmasına qərar verdiyi bildirilir.

Tədqiqata cəlb edilmiş bir çox mənbələrdə İsmayıl Mirzənin Gülüstan qalasının mühasirəsini dayandırmağa sövq edən başqa bir hadisə haqqında da məlumatlar mövcuddur. Bildirilir ki, qalanın mühasirəsi davam etdiyi günlərdə İsmayıl Mirzənin etibar etdiyi yaxınlarından biri öz röyasında Gülüstan sakinlərinin ağlayaraq mərhəmət istəməsini gördü. Həmin sakin dedi ki, İsmayıl Mirzə Ərzincandan Şirvana doğru hərəkət edərkən Kür keçidində vəd etmişdi ki, əgər Şirvanı ələ keçirərsə Gülüstan qalasının sakinlərinə lütfkarlıq göstərəcəkdir. İsmayıl Mirzənin etibarını qazanmış həmin şəxs səhər açılan kimi, İsmayıl Mirzənin yanına getdi və yuxuda gördüklərini ona danışdı. İsmayıl Mirzə danışılanı eşidincə bildirdi ki, bu yuxu sadiqə yuxusudur və həqiqəti əks etdirir. O sonra bildirdi ki, doğrudan da, Kür və Araz çaylarından adlayanda nəzir edibmiş ki, əgər Şirvan asanlıqla ələ keçirilərsə Gülüstan qalasının sakinlərinə iltifat göstəriləcəkdir. Mənbə məlumatlarına görə, bu hadisə də İsmayıl Mirzənin Gülüstan qalasının mühasirəsindən əl çəkmək qərarını daha da gücləndirdi (115).

Mövcud olan məlumatlara görə, İsmayıl Mirzə heç də dərhal Gülüstan qalası ətrafından çəkilmək qərarına gəlmədi. Yuxarıda təsvir olunan hadisələrdən sonra İsmayıl Mirzə öz əmirlərini yanına toplayıb onlarla söhbət apardı

və nə etmək barədə onlarla məsləhətləşdi. Hətta bundan sonra da İsmayıl Mirzədə qalanın mühasirəsini dayandırmaq barəsində qəti fikir yaranmadı. Bəzi mənbələrin yazdığına görə, fikirlər məngənəsində qaldığı bir vaxtda İsmayıl Mirzəyə də yuxuda Gülüstanın mühasirəsinin dayandırılması tövsiyə edildi. Yuxuda ona deyildi ki, Gülüstan qalasının mühasirəsini dayandırsın və üzünü Azərbaycana tərəf çevirsin. Səhər yuxudan ayılan kimi İsmayıl Mirzə öz əyanlarını və əmirlərini topladı və onlara öz fikirlərini çatdırdı. Bu toplantıya Hüseyn bəy Lələ, Abdal bəy Dədə, Məhəmməd bəy Ustaclı, Əbdi bəy Şamlı, Xadim bəy və digər nüfuzlu əmirlər qatıldılar. İsmayıl Mirzə toplantıya qatılan əmirlərindən soruşdu: - Siz Azərbaycanı istəyirsiniz, yoxsa Gülüstanı? Əmirlərdə birmənalı şəkildə bildirdilər ki, Azərbaycanı istəyirlər. İsmayıl Mirzə sonra onlara yuxuda gördüyünü danışdı. Bildirdi ki, gecə din imamlarından və haqq yolunun hidayətçilərindən ona Azərbaycan taxtına yiyələnmək üçün Gülüstan qalasını tərk etmək və Azərbaycan istiqamətində hərəkətə başlamaq haqqında işarə gəlmişdir. Məlumata görə, toplantıya qatılanlar bu qərarı böyük sevinclə qarşıladılar və hətta Azərbaycanın fəthinin çox da uzaqda olmadığına görə bir-birini təbrik etməyə başladılar. İsmayıl Mirzə də bu qərara sevindiyini gizlətmədi və tezliklə Gülüstan qalası ətrafından cənuba doğru hərəkət başlandı (116).

Bəzi məlumatlara görə isə, sonradan Gülüstan qalası daxilindəki ağsaqqallar da İsmayıl Mirzəyə xəbər göndərdilər və ondan xahiş etdilər ki, qala sakinlərinə inayət göstərsin və onlara möhlət versin. Onlar bəyan etdilər ki, İsmayıl Mirzə əgər Azərbaycanın paytaxtı olan Təbriz şəhərini ələ keçirərsə Gülüstan qalasının əhalisi şövq və səfa ilə ona tabe olacaqlar. Bundan sonra İsmayıl Mirzə Gülüstan ətrafını tərk etdi və Qaradağ istiqamətində hərəkətə başladı. Bildirilir ki, qızılbaşlar Gülüstan qalasından bir mənzillik məsafə aralanandan sonra Xəlifə Şeyx Məhəmmədin göndərdiyi qasid İsmayıl Mirzənin yanına yetişdi (117).

Mənbələrdə İsmayıl Mirzənin yanına qasid göndərən şəxsin kimliyi barəsində fərqli məlumatlar vardır. Bu şəxs mənbələrdə həm Xəlifə Şeyx Məhəmməd, həm də Xəlifə Şeyx Əli kimi təqdim olunmuşdur. Eyni zamanda o da bildirilir ki, həmin şəxs İsmayıl Mirzə tərəfindən Qaradağa (bəzi mənbələrdə Qarabağa) göndərilmişdi ki, Əlvənd Mirzənin hərəkətləri barəsində məlumat toplayıb ona çatdırsın (118).

"Fotuhat-e şahi" əsərində isə söhbət Xəlifə Əmir Musadan gedir. Yuxarıda qeyd edildiyi kimi, Əmir Musa xüsusi tapşırıqlarla İsmayıl Mirzə tərəfindən Təbrizə göndərilmişdi. Həmin tapşırıqların icrası istiqamətində Əmir Musa bir neçə dəfə silah və sursat toplayaraq qızılbaş qoşunlarına göndərmişdi. Adı çəkilən mənbənin məlumatına görə, Gülüstan qalasınının mühasirəsinin dayandırılması əsnasında əvvəlcə məhz Əmir Musanın qasidi İsmayıl Mirzənin yanına gəldi və Əlvənd Mirzənin qoşunlarının hərəkətə gəlməsi barədə ona məlumat çatdırdı. Həmin məlumata görə, Ağqoyunlu qoşunları çox böyük sayda Aladağ istiqamətində irəliləməyə başlamışdılar. Əlvənd Mirzənin məqsədi Şirvan ərazisinə keçərək qızılbaş qoşunları ilə döyüşlərdən sonra parçalanıb dağılmış olan

Şirvanşah qoşunlarını da özünə birləşdirmək və sonra da qızılbaşlara qarşı müharibə başlamaq idi. İsmayıl Mirzə bu məlumatı alan kimi yenə öz əmirlərinin toplantısını çağırdı və hansı qərar qəbul edilməsini onlarla məsləhətləşdi. Mənbə məlumatına görə, bu məsələ geniş müzakirə obyekti oldu və toplantıya qatılanlar hamısı öz fikirlərini ortaya qoydular. Bütün fikirlərə qulaq asandan sonra İsmayıl Mirzə belə bir qərara gəldi ki, Cuş Mirzənin rəhbərliyi altında bir qoşun dəstəsi Cavad yaxınlığında Kür və Araz çayları üzərindəki keçidə göndərilsin. Cuş Mirzə burada dayanmaqla müşahidə aparmalı və Ağqoyunlu qoşunları yaxınlaşanda dərhal xəbər verməli idi. Bundan sonra qızılbaş qoşunları da hərəkətə gətirilməli və lazımi addımlar atılmalı idi. Cuş Mirzə də verilən tapşırığı yerinə yetirdi və dəstəsi ilə Cavad yaxınlığında mövqe tutdu. O həm də çay üzərindən keçid təşkil etməli idi. Mənbələrdə bildirilir ki, bunun üçün lazımi materiallar əlinin altında olmadığı üçün bölgədə istehsal olunan ipəkdən çoxlu istifadə etməli oldu (119).

"Fotuhat-e şahi"yə görə, bundan sonra Xəlifə Məhəmmədden də məlumatlar alındı. Bildirilir ki, Xəlifə Məhəmməd hələ Sultan Heydərin dövründən Səfəvi xanəgahının tanınmış xəlifələrindən biri idi və o, Qaracadağ istiqamətinə göndərilmişdi ki, Əlvənd Mirzənin fəaliyyəti barəsində məlumatlar toplayıb göndərsin. Onun göndərdiyi məlumata görə isə Əlvənd Mirzə artıq qoşunlarının Qarabağa doğru hərəkəti barəsində göstəriş vermişdi. Həmin göstərişə əsasən, Həsən bəy Şüküroğlunun rəhbərliyi altında olan Ağqoyunlu dəstəsi Muğana doğru irəliləməli idi. Məhəmməd bəyin rəhbərliyi altında olan başqa bir Ağqoyunlu dəstəsi isə Kür çayı üzərindəki keçiddən keçməklə Gəncə istiqamətində hərəkət etməli idi (120).

Xəlifə Məhəmmədin məlumatlarına əsasən, Əlvənd Mirzənin qoşunlarının Qarabağa doğru hərəkətə başlaması haqqında olan xəbərlər müəyyən fərqli məqamlarla artıq digər mənbələrdə də xatırlanır. Bildirilir ki, Əlvənd Mirzə qızılbaş qoşunları ilə qarşı-qarşıya gəlmək üçün qoşunları ilə Təbrizdən hərəkət edərək Naxçıvana gəldi. Burada o, Mahmud Qaracanın rəhbərliyi altında olan bir qoşun dəstəsini Gəncə istiqamətinə göndərdi. Bu dəstə Kür çayı üzərindəki keçidi adlamaqla Gəncəyə doğru istiqamət götürməli idi. Həsən bəy Şüküroğlunun rəhbərliyi altında olan başqa bir dəstəyə isə göstəriş verildi ki, Qaracadağın Gərmrudunda qətl və qarətə başlasın (121). Çox güman ki, bu qətl və qarətlər qızılbaşlara rəğbətli olan əhalinin cəzalandırılması məqsədilə edilirdi.

Əlvənd Mirzənin qızılbaşlar üzərinə hücuma keçməsi sözsüz ki, İsmayıl Mirzə üçün ciddi bir xəbər idi və bununla bağlı ciddi bir qərarın qəbul edilməsinə də ehtiyac var idi. Gülüstan qalasının mühasirəsinin dayandırılması da yəqin ki, bu hadisə ilə bağlı idi. Çünki Əlvənd Mirzə qızılbaşlar üçün Şirvanşahlardan daha böyük təhlükə idi və onunla qarşılaşma, əslində, İsmayıl Mirzənin cahangirlik hərəkatının taleyini müəyyənləşdirə bilərdi. Əlvənd Mirzəyə qarşı uğurlu döyüşün keçirilməsi eyni zamanda Ağqoyunlu dövlətinə zərbə vurulması və Azəbaycanın hakimiyyət altına gətirilməsi ilə nəticələnə bilərdi. Ona görə də Gülüstan qalasının mühasirəsinin uzadılmasına ehtiyac qalmırdı və bununla

bağlı müvafiq qərar qəbul edildikdən sonra Ağqoyunlu qoşunlarının qarşılanması üçün konkret tədbirlərin həyata keçirilməsinə başlandı.

"Tarix-i aləmara-yi Abbasi" əsərində Gülüstan qalasınını mühasirəsinin dayandırılması və Əlvənd Mirzəyə qarşı müharibəyə başlanması qısaca olaraq belə təsvir edilmişdir: "Bu əsnada xəbər yetişdi ki, Naxçıvanda olan Əmirzadə Əlvənd türkman qoşunlarının bir hissəsinə iki tərəfdən Şirvana gedərək Süleyman şanlı xaqanla döyüşə girişməyi əmr etmişdir. O həzrətin nurlu qəlbində qeyrət şöləsi alovlandı, birdən, Gülüstan qalasını almaqdan əl çəkərək, qeyb aləminin xəbərçilərindən alınmış işarə ilə qalanı tərk edib, Azərbaycana (Cənubi Azərbaycan nəzərdə tutulur - red.) tərəf yönəldi" (122) .

Beləliklə, İsmayıl Mirzənin Şirvan ərazisində apardığı döyüşlər Şirvanşalar dövlətinə ciddi zərbə vurdu. Lakin bu dövlət bütünlüklə süqut etmədi. Amma öz əvvəlki gücünü və nüfuzunu da saxlaya bilmədi və məlumdur ki, sonralar bu dövlət bütünlüklə Səfəvilər dövlətinin tərkibinə qatıldı.

Qeyd edilməlidir ki, İsmayıl Mirzənin Şirvan ərazisində uğurlu döyüşlər aparması Ağqoyunlu Əlvənd Mirzə tərəfindən təşviş və narahatçılıqla izlənilirdi. Qızılbaşların sürətlə güclənməsi və öz nüfuzlarını ətrafa yaymaları Ağqoyunlu dövləti üçün də real təhlükəni təşkil edirdi. Bu təhlikənin önlənməsi və qızılbaşlara güclü zərbə vurulması məqsədilə Əlvənd Mirzə 30 min nəfərlik qoşun toplayaraq 1501-ci ilin yazında Qarabağ və Şirvana doğru irəliləmək haqqında göstəriş verdi. Yuxarıda qeyd edildiyi kimi, Ağqoyunlu qoşunları Naxçıvan ərazisində olanda İsmayıl Mirzə bu barədə məlumat əldə etdi.

İsmayıl Mirzə müəyyən edilmiş yerdə Kür çayını adlamaqla Naxçıvana doğru irəliləməyə başladı. Bütün qoşunun ciddi təhlükə ilə üzləşməməsi üçün İsmayıl Mirzə irəli avanqard dəstə göndərməyi məqsədəuyğun saydı. Onda belə bir məlumat var idi ki, Əlvənd Mirzə də qızılbaş qoşunlarına qarşı 10 min nəfərlik avanqard dəstə göndərmişdi. Həmin dəstəyə Osman sultan adlı birisi rəhbərlik edirdi. İsmayıl Mirzənin təşkil etdiyi avanqard dəstə 5 min nəfərdən ibarət oldu. Bu dəstəyə kimin rəhbər təyin edilməsi məsələsi ortaya çıxanda yaşı yetmişi haqlamış Qarapiri Qacar ona icazə verilməsini xahiş etdi. İsmayıl Mirzə əvvəlcə onun yaşını nəzərə alaraq avanqard dəstəyə rəhbər olmasını istəmədi. Lakin Qarapiri Qacarın təkidindən sonra onun avanqard dəstənin rəhbəri təyin edilməsinə razı oldu. Amma nisbətən daha cavan olan İlyas bəy Halvaçıoğlu da ona köməkçi verildi (123).

Osman sultan fənd işlədərək qızılbaş dəstəsini ağır vəziyyətə salmaq istədi. Bunun üçün o, oğlu Məhəmməd sultanın rəhbərliyi altında olan 3 min nəfərlik bir dəstənin qızılbaşların arxasına keçməsini qərarlaşdırdı. Məhəmməd sultan bu qərarın icrası üçün müvafiq mövqe tutmalı və döyüş başlanandan sonra qızılbaşlara arxadan zərbə vurmalı idi. Qarapiri Qacar qarşı tərəfin belə bir plan işlədə biləcəyini hiss etdiyi üçün o da daha səmərəli taktikanı müəyyənləşdirməyə çalışdı. O, İlyas bəy Havaçıoğlunu mərkəzdə saxlayaraq özü döyüşün başlanması məsuliyyətini üzərinə götürdü. Qarapiri bəy Qacar döyüş başlanan kimi Ağqoyunlulu dəstəsinin əsas hissəsi üzərinə hücum çəkdi və onun

dəstəsi ilə Osman sultanın dəstəsi arasında döyüş qızışdığı bir vaxtda Məhəmməd sultanın dəstəsi arxadan İlyas bəyin mövqeyi üzərinə hücuma keçdi. İlyas bəy bu hücumu vaxtında müşahidə etdiyi üçün Məhəmməd sultanın bütün cəhdlərinin qarşısı alındı, Ağqoyunlu dəstəsinə güclü zərbə vuruldu. Bu qarşıdurmanın gedişi haqqında mövcud olan müxtəsər məlumatdan aydın olur ki, qısa zaman ərzində Ağqoyunlu dəstəsindən 2 min nəfər qətlə yetirildi. Məhəmməd sultan qarşıya qoyulan məqsədə nail olmadığı üçün döyüş meydanından qaçmaq məcburiyyətində qaldı. İlyas bəy də onu haqlayaraq qətlə yetirmək istəyirdi. Mənbə məlumatına görə, İlyas bəyin Qarapiri bəylə üz-üzə gəlməsi və onların öz döyüş planlarını dəqiqləşdirməyə vaxt ayırmaları Məhəmməd sultanın gözdən itməsinə gətirib çıxardı. Amma Məhəmməd sultan mövqe seçərək qızılbaş əmirlərinə zərbə vurulması üçün münasib an gözləyirmiş. Fürsət yaranan kimi Məhəmməd sultan nizə ilə Qarapiri bəyi ağır yaraladı. Osman sultan isə qılıncla onun başını bədənindən ayırmaq istəyəndə qızılbaş döyüşçüləri buna mane oldular (124).

Doğrudur, Qarapiri bəy Qacarın ağır yaralanması qızılbaş döyüşçülərində ağır təəssürat yaratdı. Lakin onlar öz döyüşlərini heç də səngitmədilər. İlyas bəy Halvaçıoğlu ağır yaralanmış Qarapiri bəyin qısasını almaq üçün özünü əvvəlcə Məhəmməd sultana yetirdi və onun həyatına son qoydu. Sonra isə Osman sultan qətlə yetirildi. Məlumata görə bu döyüşün gedişində 5 minə qədər Ağqoyunlu döyüşçüsü öz həyatı ilə vidalaşmalı oldu. Eyni zamanda Qarapiri bəy Qacar da bu döyüşdə şəhid oldu. Bununla belə, qızılbaşlar tam qələbə əldə edərək geri döndülər.

Bəzi digər mənbələrdə olan məlumatlara görə isə, Osman sultan döyüşün gedişində qətlə yetirilmədi. Qızılbaşlar onu əsir götürə bildilər və İsmayıl Mirzənin yanına apardılar. Osman sultanın əsir düşməsi isə onun dəstəsi daxilində qaraşıqlıq yaratdı və Ağqoyunlu döyüşçüləri rəhbərlərinin əsir götürüldüyünü görüncə qaçıb dağılmağa başladılar. Amma Osman sultan sonradan qətlə yetirildi (125).

"Aləmara-yi Şah İsmayıl"da bildirilir ki, Qarapiri bəy Qacarın şəhid olması xəbərini İsmayıl Mirzə böyük hüznlə qarşıladı. Onun nəşi qızılbaşların düşərgəsində xüsusi ehtiramla qarşılandı və cənazənin daşınmasında İsmayıl Mirzə özü də iştirak etdi. Sonra da göstəriş verdi ki, Qarapiri bəyin nəşini Ərdəbilə aparıb Şeyx Səfi türbəsində dəfn etsinlər (126).

Qarapiri bəy Qacarın Osman sultanla döyüşdə şəhid olması digər mənbələrdə təsdiq olunmur. Hətta bildirilir ki, Osman sultan döyüşün uduzulduğunu gördükdə qaçmağa cəhd göstərəndə Qarapiri bəy buna imkan vermədi, Osman sultan əsir götürüldü və o, Ağqoyunlu düşərgəsindən ələ keçirilmiş çoxlu sayda qənimətlə birlikdə qızılbaş düşərgəsinə gətirildi. Qarapiri bəy Qacarın hətta sonrakı illərdə döyüşlərdə iştirak etməsi haqqında da mənbələrdə məlumat mövcuddur (127).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Qarapiri Qacarla Osman sultanın qarşılaşması barəsində belə yazılmışdır: "Mirzə Əlvənd Naxçıvanda Süleyman şanlı xaqanın Azərbaycan tərəfə hərəkət etdiyini eşidib, Əmir Osman Mosullunu

Ağqoyunlu qoşununun bir dəstəsi ilə o həzrətin üzərinə yolladı. Süleyman şanlı xaqan da Piri bəy Qacarı və Halvaçıoğlu Mirşikarı canını qurban edən qazilərdən bir dəstə ilə onları dəf etməyə göndərdi. Tərəflər arasında çox gərgin bir döyüş oldu. Səadətli [qızılbaş] qoşunları zəfər və qələbə qazandılar. Əmir Osman bir sıra türkman başçılan ilə birlikdə əsir düşüb, Süleyman şanlı xaqanın hökmü ilə öldürüldü" (128).

Bəzi məlumatlara görə isə Qarapiri bəy Qacar əvvəlcə Qaracadağın Gərmrud məntəqəsinə doğru hərəkət etdi ki, oradakı Ağqoyunlu dəstəsini uzaqlaşdıra bilsin. Yuxarıda qeyd edildiyi kimi, Əlvənd Mirzə Naxçıvana doğru hərəkət zamanı Həsən bəy Şüküroğlunun rəhbərliyi altında olan bir dəstəni adı çəkilən məntəqəyə göndərmişdi. Həsən bəy bu məntəqəni talan etməklə məşğul olmalı və sonra şimala doğru hərəkət etməli idi. Çox güman ki, Qaracadağda Səfəvi təriqət təsiri xeyli güclənmişdi və Əlvənd Mirzə də təriqət tərəfdarlarının nüfuzunun zəiflədilməsi üçün bu bölgəyə qoşun dəstəsi çıxarmağı qərara almışdı. Mövcud məlumatlarda deyilir ki, İsmayıl Mirzə Kür çayının cənubuna adlayandan sonra Qarapiri bəyi Gərmrud istiqamətinə göndərdi. Ağqoyunlu əmiri Həsən bəy Şüküroğlu qızılbaş dəstəsinin gəlməsi xəbərini alan kimi döyüşə girmədən həmin məntəqədən uzaqlaşdı və Əlvənd Mirzənin Naxçıvanda düşərgə salan əsas qüvvələrinə birləşdi. Amma Ağqoyunlu dəstəsi bütünlüklə bölgəni çevik şəkildə tərk edə bilmədiyi üçün onun bir hissəsi qızılbaşların zərbəsinə məruz qaldı. Qızılbaşlar Ağqoyunluların döyüşçülərinin bir hissəsini, həmçinin onların düşərgəsində olan əşyaların bir hissəsini qənimət götürərək geri qayıda bildilər. Mənbələrdə Qarapiri bəyin şücaəti böyük səxavətlə təsvir olunur və o, göstərdiyi şücaətlərinə görə "Tozqoparan" kimi təqdim olunur (129).

Ağqoyunlu dəstələrinin uğursuzluğa düçar olaraq geri qayıtması Əlvənd Mirzənin təşvişini daha da artırdı və o anladı ki, kifayət qədər böyük bir təhlükə ilə üzləşmişdir. Sayca az olduğu güman edilən qızılbaşlara qarşı kəşfiyyat döyüşlərinin gözlənilən nəticəni verməməsi bölgədəki hərbi-siyasi şəraitin Ağqoyunluların xeyrinə olmadığını nümayiş etdirdi və bu vəziyyətin düzəldilməsi üçün böyük döyüşə qərara verilməsinə artıq şübhə yeri qoymurdu. Qızılbaş düşərgəsində isə kəşfiyyat döyüşlərinin uğurla başa çatması böyük sevinclə qarşılandı və Ağqoyunlu qoşunlarına əsaslı zərbə vurulması üçün hazırlıqlara başlandı.

Əlvənd Mirzə güclənməkdə olan təhlükədən dinc yolla sovuşmaq üçün əvvəlcə İsmayıl Mirzəni dilə gətirməyə çalışdı, ona məktub göndərdi. Həmin məktuba İsmayıl Mirzə tərəfindən də cavab göndərildi və öz qətiyyətini bir daha ortaya qoydu. Bu məktublaşma İsmayıl Mirzənin xarakterinin, başladığı hərəkatın uğuruna olan inamının ifadəsi kimi əhəmiyyətli bir maraq kəsb etməkdədir. Məktubda İsmayıl Mirzənin Uzun Həsən nəslinə qohumluğu yada salınır və bu qohumluğun olduğu halda nifaqın və düşmənçiliyin ortaya düşməsi anlaşılmazlıq kimi dəyərləndirilirdi. Əlvənd Mirzənin İsmayıl Mirzəyə göndərdiyi məktubda deyilirdi: "... nə üçün biz sənə kömək etməyək və sənin etdiyin bu hərəkət qohumluq hərəkəti deyil. Qohumluq əlaqələrinə görə biz səninlə müharibə etmək istəmirik. Fərrux Yasar şahı qəddarlıqla qətl etdiyin və Şirvan

vilayətini qəsb etdiyin üçün biz də Ərdəbil vilayətini sənə bağışladıq. Başqa vilayətlər çoxdur və hansı tərəfə istəsəniz gedə bilərsiniz. Əgər sizin işlərinizə ziyan yetsə xəbər edin, köməyinizə yollanaq. Bu sözləri bizim zəifliyimiz və gücsüzlüyümüz hesab etməyin. Mən sülhü müharibədən daha yaxşı bilirəm. Əgər sizin qürurunuz sülh yolunu tutmağa imkan verməsə, sizin istəyinizcə olsun. Biz də 20 min nəfəri hazırlamışıq. Allah-taala tərəfindən nə gələrsə razı olarıq və şükür edərik"(130).

İsmayıl Mirzə bu məktuba kifayət qədər sərt cavab verdi və Əlvənd Mirzənin təklifini qəbul etmədi. Onun fikrincə, cahangirlik bayrağı qaldırmaqda məqsədi yalnız hakimiyyət əldə etmək deyil, əksinə əcdadlarının izlədiyi təriqəti yaymaqdır. Məktubunun sonunda İsmayıl Mirzə çəkinmədən Əlvənd Mirzəni döyüş meydanına səslədi. İsmayıl Mirzə öz məktubunda yazırdı: "Uzun Həsənin övladlarından Şeyx Səfi övladlarına səbəbsiz yerə çoxlu ədəbsizlik, hörmətsizlik və mürüvvətsizlik yetmişdir. Bununla belə, yetişmiş bütün bu əziyyətlərə baxmayaraq biz atamızın və onun atasının qanından keçdik. Mənim səltənət və padşahlıq iddiam yoxdur. İstəyirəm ki, həzrət məsumin əcdadlarının dinini yayım və nə qədər ki, bədənimdə can vardır Allah, onun rəsulu və müqəddəs din yolunda qılınc çalacağam, ta ki, haqq öz yerini tutsun. Doğru sədaqət və etiqadla həzrət imamın ətəklərinə əl uzatmaqla dildə "Əliyən vəli-ullah" kəlməsi səsləndirib hər iki dünyanın səadətini kəsb etməklə padşahlar arasında səadət məkanına yol tapasan. [Bundan sonra] hər vilayəti fəth etsəm sənin adına sikkə vurulacaq, adına xütbə oxunacaq və səni böyük qardaşım hesab edəcəyəm. Əgər bunun səadətsizliyini anlamasan, onda istəyincə olsun, meydana gəl ki, günahsız qardaşımın qanını səndən alacağam. Sonrasını özün bilərsən. Hansına razısansa bizə məlum et. Vəssəlam" (131).

Yəni, İsmayıl Mirzə təklif etdi ki, Əlvənd Mirzə ya şiəliyi qəbul etsin və bununla məzhəb rəhbərliyi altına düşsün, ya da döyüşə hazır olsun və qarşılıqlı münasibətlər döyüş meydanında aydınlaşdırılsın. Əlvənd Mirzə də öz məzhəbini dəyişdirməyi mümkünsüz hesab etdi və ona görə döyüş qərarını verdi. Sonra da həmin qərar qarşı tərəfə çatdırıldı.

Mənbələrə istinad etmiş tarixi ədəbiyyatda bu məktubların fərqli nüsxələri də mövcuddur. Məsələn, Əlvənd Mirzənin yazmış olduğu məktubun belə bir fərqli variantı da mövcuddur: "Xudavənd-taala sənə cahangilrik missiyası həvalə etmişdir. Mən də sənin əməllərindən xeli məmnunam və səninlə müxalifətçilik yox, sənə itaət etməyə hazıram. Bu şərtlə ki, sən özünü mənim ailəmin üzvü hesab edəsən (Uzun Həsənlə qohumluq əlaqələrinə görə). Mən heç cürə razı deyiləm ki, sən öz ailə üzvlərinin müxaliflərindən intiqam alırsan. Şirvanın işğalına qarşı deyiləm və buna müxalif olmuram. Lakin səndən istəyirəm ki, mənim ölkəmdə gözün olmasın və geri dönəsən. Əgər ölkənin asayişində və nizamında sənin üçün bir çətinlik yaransa bizdən olduğun üçün heç bir köməkdən imtina etməyəcəyik. Əgər mənim xahişimi hökumətimin zəifliyi kimi qəbul etsən, bil ki, 30 mindən çox olan qoşunla səni əzmək üçün gəlirəm. Mən açıq ürəklə nə baş versə onu qəbul edəcəyəm" (132).

İsmayıl Mirzənin cavab məktubunun müvafiq variantı isə belə idi: "Bil ki, uzun müddətdən bəri Səfəvi xanədanının övladları Uzun Həsən xanədanının müxalifətçilyindən və zülmündən əziyyət çəkir. Buna baxmayaraq, mən keçmişdəkiləri unuduram. Amma qarşımda bir vəzifə var ki, onu həyata keçirməliyəm. Bu vəzifə əcdadlarımın məzhəbinin bərqərar edilməsidir. Bunun üçün canımı qurban verəcəyəm. Əgər sən öz taxt və tacını saxlamaq istəyirsənsə gərək sədaqətlə şiə məzhəbinə bağlanasan. Əgər qəbul etsən, sənin bayrağın altında müharibəyə yollanacağam və səni öz qələbələrimə şərik edəcəyəm. Yoxsa atamın qanını səndən alacağam. Öz seçimini etməkdə azadsan" (133).

Əlvənd Mirzə qızılbaş təhlükəsindən sovuşmaq üçün müəyyən güzəştləri qəbul edirdi. O başlıca olaraq Şirvanın qızılbaşların nəzarəti altına düşməsini və İsmayıl Mirzənin burada öz hakimiyyətini qurmasını mümkün sayırdı. Dövlətçilik işlərində bir sıra köməklər də vəd olunurdu. Amma bir şərtlə ki, İsmayıl Mirzə Ağqoyunlu hüdudlarına qoşun çıxarmasın. İsmayıl Mirzə isə bu təkliflər razılaşmadı və bununla da Ağqoyunlu və qızılbaş qoşunları arasında müharibə qaçılmaz oldu.

Tərəflərin qoşunları arasında həlledici döyüş 1501-ci ilin ortalarında Şərur düzündə baş verdi. Bu ərazinin döyüş meydanı kimi seçilməsi Əlvənd Mirzənin təşəbbüsü idi. Qeyd edildiyi kimi, Təbrizdən hərəkətə başlayandan sonra Ağqoyunlu qoşunları Naxçıvanda düşərgə salmışdı. Əlvənd Mizənin ilkin fikri də döyüşün məhz Naxçıvan ətrafında aparılması ilə bağlı idi. Lakin sonrakı təhlil göstərdi ki, Naxçıvan ətrafında böyük sayda qoşunların fəaliyyəti üçün ərazi münasib deyil. Bir tərəfdən Araz çayı, digər tərəfdən dağlıq ərazi böyük sayda qoşunların daha azad fəaliyyətini məhdudlaşdıra bilərdi. Ona görə də Əlvənd Mirzə Çuxursəəd istiqamətində qoşunlarını hərəkətə gətirdi. Amma Şərur düzünün gələcək döyüş üçün münasib ərazi kimi qəbul etdiyindən orada düşərgə salmağı qərara aldı və döyüş hazırlıqlarına başladı.

İsmayıl Mirzə isə qızılbaş qoşunları ilə Naxçıvan istiqamətində hərəkətə başladı. O, Naxçıvana çatanda Ağqoyunlu qoşunlarının orada olmadığını gördü və sonra o da qoşunlarla Çuxursəəd istiqamətində hərəkətini davam etdirdi. Ağqoyunlu qoşunlarının Naxçıvandan geri çəkilməsi xəbərini alanda qızılbaş döyüşçüləri və əmirləri bunu Ağqoyunlu qoşunlarının qorxaraq geri çəkilməsi kimi qiymətləndirdilər. Bu da qızılbaş döyüşçüləri arasında əhval-ruhiyyənin daha da qalxmasına zəmin yaratdı. İsmayıl Mirzə qızılbaşlar arasındakı bu əhval-ruhiyyənin qorunması üçün dərhal Ağqoyunlu qoşunlarının ardınca hərəkət etmək əmri verdi və elə həmin gün də qızılbaşlar Ağqoyunlu qoşunları düşərgəsi yaxınlığına yetişərək özlərinə orada düşərgə saldılar. Dərhal da qoşunların təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirildi. Eyni tədbirlər qarşı tərəfdən də məqsədəuyğun sayıldı (134).

Şərur düzündə qoşunların qruplaşdırılması da aparıldı, sağ və sol cinahlar, mərkəz müəyyənləşdirildi, bu mövqelərə sınanmış və təcrübəli əmirlər təyin edildilər. Mənbələrdə bildirilir ki, İsmayıl Mirzə döyüşdən əvvəl at belində qoşunları yoxladı və qoşun dəstələrinə ən yaxşı əmirlərini rəhbər təyin etdi.

Onların arasında Hüseyn bəy Lələ, Abdal bəy Dədə, Xadim bəy Xüləfa, Məhəmməd bəy Ustaclı, Bayram bəy Qaramanlı, Əbdi bəy Şamlı, Qaraca İlyas bəy Bayburdlu, Qarapiri bəy Qacar, Sarı Əli bəy Təkalu və başqaları var idi. "Rövzətüs Səfəviyyə" əsərində isə konkret olaraq Hüseyn bəy Lələ ilə Xadim bəy Xüləfanın qızılbaş qoşunlarının cinahlarında yerləşdirilməsi göstərilmişdir. İsmayıl Mirzə özü isə qoşunların mərkəzində qərar tutdu (135).

Əlvənd Mirzə də döyüşdən qabaq öz qüvvələrinin qruplaşmasını apardı, qoşun dəstələrini lazım olan mövelərdə yerləşdirdi, onların rəhbərlərini müəyyənləşdirdi. Amma hələ döyüş başlamazdan əvvəl Əlvənd Mirzə uğursuzluğa düçar olmaq ehtimalını hiss edirdi. Bu uğursuzluğun qarşısının alınması və bütün qoşunlarının döyüşə səfərbər olunması üçün Əlvənd Mirzə döyüşçülərinin geri qaçmaq yolunu bağlamağa çalışdı. Bunun üçün onun göstərişi ilə qoşunlarında olan bütün dəvələri qoşunların arxasında uzun zəncir boyu bir-birinə bağladı. Əlvənd Mirzə güman edirdi ki, geri qaçmaq istəyən döyüşçüsü bu maniə ilə rastlaşdıqdan sonra yenidən döyüşə qatılmalı olacaqdı. Bir məlumata görə isə Əlvənd Mirzə öz qoşunları daxilində Səfəvi təriqətinə meylli olan qrupların mövcudluğundan ehtiyat edirdi və narahat idi ki, döyüşün gedişində bu qruplar meydanı tərk edib geri çəkilə bilərlər. Bu isə bütünlükdə qoşunlar daxilində bir dağınıqlığın yaranmasına gətirib çıxara bilərdi (136).

Tərəflərin qoşunlarının sayı haqqında mənbələrdə elə bir fikir ixtilafı yoxdur. Doğrudur, yuxarıda Əlvənd Mirzənin qoşunlarının sayının 20 min və 30 min olması haqqında məlumat xatırlandı. Amma mənbələrdə və tarixi ədəbiyyatda Əlvənd Mirzənin qoşunlarının 30 min nəfər olması, qızılbaş qoşunlarının isə 7 min nəfər olması daha çox xatırlanır. Qızılbaş qoşunlarının şücaətlə vuruşması şübhə altına alınmadan onların sayı haqqında olan bu rəqəm müəyyən şübhə yarada bilər. Sanki mənbələrdə qızılbaşları Şamaxı üzərinə hücumu zamanı malik olduğu qoşunların sayı haqqında olan rəqəm təkrar edilmişdir. Ola bilsin ki, qızılbaşların qəhrəmanlığının xüsusi olaraq qabardılması üçün onların sayı az göstərilmişdir.

"Tarix-i aləmara-yi Abbasi" əsərində Ağqoyunlu qoşunları ilə qızılbaş qoşunları arasında Şərur düzündə baş verən döyüş müxtəsər olaraq belə təsvir edilmişdir: "Əmirzadə Əlvənd [göndərdiyi] qoşunun məğlubiyyəti və Əmir Osmanın əsir düşməsi xəbərini eşitdikdə Süleyman şanlı xaqana qarşı müharibə kəmərinə qurşanıb, intiqam almaq və o həzrətin hücumunu dəf etmək naminə öz yanında olan otuz min türkman döyüşçüsü ilə o həzrətin qarşısına çıxmağa tələsdi. Amma Süleyman şanlı xaqanın son dərəcə şücaətli və cəsur olması, özlərini pərvanə kimi atəşə atmağı əbədi həyat bilən qızılbaşların fədakarlığı onların ürəyində dəhşət və vahimə doğurmuşdu. 907-ci il aylarında (17.07.1501 - 06.07.1502) Naxçıvanın Şərur [düzündə] iki tərəf arasında döyüş oldu. Sayca yeddi min nəfər olan qızılbaş ordusunun dilavərləri fədakarcasına döyüşə atılıb, qəhrəmanlıq göstərdilər. O tərəfdən də türkman qoşunları var gücləri ilə çalışırdılar. Amma Allahın köməyi ilə üstünlük və qələbə müzəffər ordunun tərəfində oldu. Əmirzadə Əlvənd məğlub edildi. Türkmanların əyan və əmirlə-

rinin böyüklərindən bir çoxu və saysız-hesabsız döyüşçüləri bu vuruşmada həlak oldular. Müzəffər ordunun əlinə çoxlu qənimət keçdi" (137).

İsmayıl Mirzə bu döyüşdə Halvaçı oğlunu çərxçi təyin etdi və döyüşün başlanması ona həvalə olundu. O da müvafiq işarə verilən kimi rəhbərlik etdiyi dəstə ilə döyüş meydanına atıldı. "Aləmara-yi Şah İsmayıl" qeyd edir ki, döyüşün bütün təfərrüarlarının təsvir edilməsi çox uzun çəkə bilərdi və bununla mənbədə bu döyüşün çox gərgin bir şəkildə keçməsinə işarə olunmuşdur. Bildirilir ki, qızılbaşlar döyüşün başlanğıc hissəsində onun taleyini həll etməyə çalışdılar və Əlvənd Mirzə qoşunlarına güclü zərbə vuruldu. Hətta qısa müddət ərzində Ağqoyunlu qoşunlarından 17 min nəfərin öldürüldüyü göstərilir. İsmayıl Mirzənin döyüş fəaliyyəti də bu çox qısa təsvir olunmuşdur. Qeyd olunur ki, meydanın mərkəzində döyüşən İsmayıl Mirzə döyüşə-döyüşə özünü Ağqoyunluların bayrağına yetirdi və onu ələ keçirdi. Əlvənd Mirzə isə öz döyüş bayrağını buraxıb qaçmağa məcbur oldu (138).

Mənbələrin birində qızılbaş döyüşçülərinin yüksək əhval-ruhiyyəsinə və onların öz mürşidlərinə son dərəcə sədaqətli olmalarına işarə edilmişdir. Bildirilir ki, qızılbaşlar döyüşə İsmayıl Mirzəyə müraciətlə "qurban olduğum, sədəqə olduğum, pirim, mürşüdüm" deyərək atılırdılar (139).

Qızılbaşların gözlənilən sürətli hücumunun qarşısını almaq üçün Əlvənd Mirzə qumbara atanları və zənburəkçiləri ayrıca olaraq bir yüksəkliyin ətəyində yerləşdirmişdi. Ox və kamanla silahlanan döyüşçülər isə ön sırada mövqe tutmuşdular. Qızılbaşlara ilk itkilərin də onlar tərəfindən yetirilməsi nəzərdə tutulmuşdu. Onlar döyüşə qoşulanda oxlar yağış kimi qızılbaşların üstünə tökülməyə başladılar. Onların ardınca da zənburək və qumbara atışları başladı. Ağqoyunluların bu zərbəsinin qarşısının alınması üçün qızılbaş döyüşçülərinin bir dəstəsinə Ağqoyunlu mövqeyini əhatə etmək tapşırıldı. Bu tapşırıq dərhal yerinə yetirildi. Qızılbaşlar göstərilən mövqeni əhatə etdilər, arxadan Ağqoyunlu döyüşçülərinə zərbə vurdular. Nəticədə, Ağqoyunlu zənburəkçilərinin və qumbara atanlarının bir hissəsi öldürüldü, bir hissəsi də əsir götürüldü. Bununla Ağqoyunluların atəş zərbəsinin qarşısı alındı. Əlvənd Mirzə bundan xəbər tutanda sağ cinahda yerləşən dəstənin rəhbərinə göstəriş verdi ki, həmin atəş mövqeyinə tərəf irəliləsin və itirilmiş mövqeyi bərpa etsin. Ağqoyunlu qoşunlarının sağ cinahındakı qüvvələrin bir hissəsinin atəş mövqeyinə tərəf geri çəkilməsi qızılbaşlar tərəfindən, ümumiyyətlə, onların geri çəkilməsi kimi qəbul edildi. Onlar "Allah, Allah" qışqıraraq böyük sürətlə Ağqoyunlular üzərinə atıldılar. Qızılbaşların bu sürətli hücumu və qışqırıqları Əlvənd Mirzənin qoşunlarının sol cinahında və mərkəzində bir vahimə yaratdı və onların müqaviməti xeyli zəiflədi. Bildirilir ki, bu zaman İsmayıl Mirzə də şəxsən Ağqoyunlu qüvvələrinin mərkəzinə hücum etdi və onun ardınca da qızılbaşların sağ cinahı İsmayıl Mirzənin ardınca mərkəzdə hücumu daha da genişləndirdi. Ağqoyunlu qoşunlarının tanınmış və təcrübəli əmirləri döyüş meydanının mərkəzində qızılbaşların hücumunun qarşısını almağa çalışsalar da, onların bir neçəsi öz həyatlarını itirməli oldular. Mövcud məlumata görə, İsmayıl Mirzənin qılıncının zərbindən ölən Ağqoyunlu əmirləri

içərisində Lətif bəy, Seydi qazi, Musa bəy Qərçəğay bəy və digərləri var idi. Bu tanınmış əmirlərin qətlə yetirilməsi, bütünlükdə, Ağqoyunlu qoşunlarına pozucu təsir göstərdi və qoşunlar da döyüş meydanından qaçmağa başladılar. Eyni aqibəti Əlvənd Mirzə də yaşadı. Əlvənd Mirzə də göstərdiyi bütün cəhdlərə baxmayaraq qızılbaşların hücumunun qarşısını saxlaya bilmədi və qaçmaqla həyatını xilas edə bildi (140).

Ağqoyunlu qoşunlarının böyük itki verməsinin bir səbəbi də Əlvənd Mirzənin göstərişi ilə qoşunların arxasında çoxlu sayda dəvələrin bir-birinə zəncirlənməsi idi. Bu zəncirlə rastlaşan Ağqoyunlu döyüşçüləri geri dönmək məcburiyyətində qalırdı ki, bu zaman da onlar qızılbaşların zərbəsi altına düşürdülər. Bununla belə, bəzi mənbələrdə Ağqoyunluların itkisi 8 min nəfər göstərilmişdir (141).

Beləliklə, Şərur düzündə alovlanan döyüş qızılbaşların qələbəsi ilə başa çatdı. Ağqoyunlu qoşunlarından canlarını salamat qurtaranlar geriyə üz tutdular. Amma qoşunların böyük sayda təchizatı, əşyaları, atları, bir-birinə zəncirlənmiş dəvələri qızılbaşların əlinə keçdi. Əlvənd Mirzə isə mənbə məlumatlarına görə, Diyarbəkrə qaçmaqla həyatını real təhlükədən xilas edə bildi. İsmayıl Mirzə əldə etdiyi böyük qələbəni sevinclə qarşılayaraq döyüşçülərinə bir neçə günlük istirahət verdi. Bu qələbənin əldə edilməsi ilə bağlı dua mərasimi təşkil etdi. Eyni zamanda döyüş meydanında ələ keçirilmiş olan böyük sayda qəniməti döyüşçülər arasında bölüşdürdü. Mənbə məlumatlarına görə, İsmayıl Mirzə bu döyüşün iştirakçılarının hər birinin xidmətini xüsusi olaraq qeyd etdi, döyüşçüləri və əmirləri yüksək səviyyədə mükafatlandırdı, bütün döyüşçülər xidmətlərinə layiq mükafat aldılar.

## 10. İsmayıl Mirzənin Təbrizə daxil olması və Səfəvi dövlətinin təsis edilməsi

Şərur düzündə əldə edilən qələbə Səfəvi düşərgəsində böyük sevinclə qeyd edildi və səhəri gün də daha böyük bir təntənə ilə İsmayıl Mirzə və qızılbaş qoşunları Təbrizə doğru istiqamət götürdülər (142). Bu qələbə həm İsmayıl Mirzənin həyatında, həm də Səfəvilər xanədanının tarixində xüsusi əhəmiyyəti olan bir qələbə idi. Çünki bu qələbə Səfəvi xanədanına Azərbaycana hakimliyi bəxş etdi və İsmayıl Mirzə tərəfindən Azərbaycanın Səfəvi dövlətinin əsası qoyuldu.

"Aləmara-yi Şah İsmayıl" əsərində uğursuzluğa düçar olduqdan sonra Əlvənd Mirzənin əvvəlcə Gəncəyə qaçması və yalnız sonradan Qaraəhməd və Diyarbəkr istiqamətində geri çəkilməsi qeyd edilmişdir (143). Əgər bu məlumatın doğruluğu qəbul olunarsa, çox güman ki, söhbət heç də Azərbaycanın Gəncə şəhərindən getmir. Çünki Ağqoyunlu dəstəsinin Şərurdan geri çəkilərkən Gəncəyə gəlməsi və sonra da oradan Anadoluya istiqamət götürməsi heç də real görünmür. Ola bilsin ki, müəllif ya Əlvənd Mirzənin geri çəkildiyi məntəqənin adında bir qarşıqlığa yol vermiş, ya da həmin bölgədə Gəncə adında hansısa digər bir məntəqə olmuşdur. Bu mənbə hətta onu da bildirir ki, səhəri gün

İsmayıl Mirzə özü də Gəncəyə daxil oldu. Amma bu məntəqəni qızılbaşlara tapşıraraq özü bir neçə nəfərlə Təbrizə doğru istiqamət götürdü.

İsmayıl Mirzənin Təbrizə daxil olması üçün Gəncədən keçən bir marşrutu seçməsi real olmadığı kimi, onun Təbrizə bir neçə nəfərlə yollanması da real deyildir. Təbrizə doğru hərəkət edərkən İsmayıl Mirzənin qızılbaş qoşunları müşayiət edirdilər. Bəzi tarixi ədəbiyyatda Təbrizə doğru hərəkət edərkən İsmayıl Mirzənin ətrafında 7-12 min nəfərlik qoşun dəstəsinin olduğunu bildirirlər (144).

Təbriz ətrafında İsmayıl Mirzənin və qızılbaşların xüsusi bir şəkildə qarşılanması keçirildi. Təbrizin əyanları və şəhər əhalisinin böyük bir hissəsi şəhər kənarında İsmayıl Mirzəni fateh kimi qarşıladılar. İsmayıl Mirzə də bu təntənə ilə şəhərə daxil olaraq Həşt bihişt bağındakı sarayda qərarlaşdı. "Həzrət şahın bayraqları Təbrizə çatdıqda Təbriz sakinləri şahı qarşıladılar, o həzrəti pişvaz etdilər və bir neçə qədəmində başına tabaqlarla qızıl tökdülər. O Həzrəti Uzun Həsənin evinə apardılar, Uzun Həsənin kürsüsünü gətirdilər və o şəhriyar xoşbəxtlik saatında qızıl taxtda qərar tutdu" (145).

Mövcud olan məlumatlara görə, İsmayıl Mirzə dərhal özünü şah elan etmədi. Təsdiq olunmamaış məlumatlara görə, Gilan və Azərbaycandan olan münəccimlər ulduzları seyr etdilər və apardıqları müşahidəyə əsasən İsmayıl Mirzənin taxta çıxmaq gününü müəyyənləşdirdilər (146). Müəyyən edilmiş anda İsmayıl Mirzə mənbələrin yazdığı kimi, Azərbaycan səltənətinin taxt-tacına oturdu (147) və özünü Əbumüzəffər Şah İsmayıl əl-Hadi əl-Vali adlandırdı. Tədqiqatçıların fikrincə, İsmayıl Mirzə 1501-ci il iyul ayının 31-də Azərbaycan səltənətinin taxt-tacına əyləşdi (148). Bununla, o, Azərbaycan hüdudlarında öz hakimiyyətini bərqərar etdi və Səfəvi dövlətinin təşkilatlandırılamsına başladı.

Şah İsmayıl yeni bir dövlətin təməlini qoyandan sonra onun qarşısında bu dövlətin əsaslarının möhkəmləndirilməsi kimi bir vəzifə dayanırdı. O, dərhal dövlət aparatını təşkil etdi, öz silahdaşlarını mühüm dövlət vəzifələrinə gətirdi və dövlətin işləməsinə bir zəmin yaratdı. Tanınmış əmirlərdən olan Hüseyn bəy Lələ vəkil vəzifəsinə, Əmir Zəkəriyyə şahın vəziri vəzifəsinə, vaxtilə İsmayıl Mirzənin müəllimi olmuş Şəmsəddin Lahicani dini işlərin rəhbəri vəzifəsinə, Əbdi bəy Təvaçi dövlətin sipəhsaları vəzifəsinə layiq görüldü. Bundan başqa Divəli Rumlu elan edilmiş qərara əsasən İmarət rütbəsi aldı, Bayram bəy Şamlı isə Tuğ sahibi olmaqla Şah İsmayılın bacısı ilə evləndi (149). Digər dövlət vəzifələrinə də müvafiq şəxslər təyin edildilər.

Təbriz şəhəri nəzarət altına alındıqdan sonra Ağqoyunluların xəzinəsi Şah İsmayılın əlinə keçdi. Bu xəzinə kifayət qədər zəngin bir xəzinə idi. Mövcud məlumatlara görə, Şah İsmayılın əmrinə əsasən bu xəzinə də qızılbaşlar arasında bölüşdürüldü.

Şah İsmayılın göstərişinə əsasən onun adına sikkə vurulmasına başlandı. Bu da hakimiyyət mənsubluğunun əlamətlərindən biri idi. Sikkənin bir üzündə Kəlmeyi-şəhadətin şiə məzhəbinə məxsus variantı, yəni – “La ilahə illəllah, Məhəmməd Rəsul Allah, Əli Vəliullah” ifadəsi həkk olunmuşdu. Sikkənin digər

üzündə Şah İsmayılın adı və titulu yazılmışdı - Əl-Soltan əl-Kamil əl-Hadi əl-Vali Əbu Müzəffər Şah İsmayıl Bahadurxan əl-Səfəviyyə Xəld-Ullah təali mülkə və soltanə. Sikkənin kənarlarına isə imamların adı yazılmışdı (150).

"Əhsənüt təvarix" əsərinə görə, İsmayıl Mirzə Təbriz şəhərinin seyidləri və böyükləri tərəfindən çox böyük ehtiramla qarşılandı, onun şərəfinə qurbanlar kəsildi: "İsgəndər şanlı xaqan düşmənlər tərəfdən xatircəm olduqdan sonra o mənzildə (məkanda) qalıb ertəsi gün hərəkət bayrağını darüssəltənə Təbrizə doğru yüksəltdi. O şəhərin seyidləri və böyükləri onu səadət və uğur [nişanəsi] kimi qarşılayıb onun feyz verən barmaqlarını öpmək şərəfi ilə iftixarlı və başı uca oldular, niyaz (dua) etmək və qurban kəsmək mərasimini yerinə yetirdilər. O həzrət səltənət taxtının yerləşdiyi məkan və yüksək şanlı padşahların xilafət dairəsinin mərkəzi olan darüssəltənə Təbrizdə son dərəcə əzəmətlə qərar tutdu. O, ədalət və mərhəmət günəşinin şüaları ilə o vilayətin sakinlərini zülm zülmətindən azad etdi və rəiyyətin hamisi olub, başsız qalmış türkmanların kamanına ruzigarın qoyduğu hadisələr oxunun bəlasından biçarə rəiyyətə nicat verdi" (151)

Şah İsmayıl 1501-ci ili Təbrizdə keçirdi. Şah elan edilməsindən sonra dövlətin təşkilatlandırılmasına bir neçə ay sərf etməsi və sonra da havaların soyuması onu məcbur etdi ki, həmin müddət ərzində əsas diqqəti hakimiyyətin möhkəmləndirilməsinə yönəltsin. Bu mənada onun qarşısında dayanan başlıca vəzifələrindən biri səltənət daxilində və konkret olaraq Təbrizdə şiəliyin hamılıqla qəbul etdirilməsi idi. Bu məsələ Şah İsmayıl üçün yalnız etiqad məsələsi deyildi. Şiəlik Səfəvi dövlətinin ictimai və ideoloji bazası kimi qəbul edilirdi və ona görə onun yayılması dövlətçiliyin mühüm istiqamətlərindən biri kimi dəyərləndirilirdi. Dini və dünyəvi hakimiyyətin vəhdətinin yaradılması üçün dini, siyasi və ideoloji baza rolunu öz üzərinə götürə biləcək şiəliyin yayılması əslində yeni hakimiyyətin həm möhkəmlənməsinə, həm də qüdrətinin artmasına yol aça bilərdi.

Lakin bu məsələnin həlli istiqamətində təbii çətinliklər mövcud idi. Bu da istər Təbrizin, istərsə də Azərbaycanın digər bölgələrinin əhalisinin dini etiqadında sünniliyin üstünlük təşkil etməsi idi. Mənbələrdə isə Şah İsmayılın Təbrizə daxil olduğu vaxt bu şəhərin əhalisinin üçdə ikisinin sünni məzhəbinə mənsub olduğu bildirilir. Ona görə hətta Şah İsmayılın adına xütbə oxunmasının Təbriz əhalisi tərəfindən birmənalı şəkildə qarşılanmayacağı da məlum idi. Bununla bağlı mənbələrdə də müəyyən məlumatlar mövcuddur. Şəhər əhalisinin böyük bir hissəsi məscidlərdə xütbə oxunmasına qarşı çıxdılar və onlar bildirdilər ki, islam peyğəmbərinin zamanından başlayaraq kimsə Təbriz məscidlərində xütbə oxutmamışdır. Ona görə xütbə oxunmasının şəhər sakinləri tərəfindən narazılıqla qarşılanacağı haqda qızılbaş əmirləri arasında bir narahatçılıq mövcud idi. Bu barədə məlumat Şah İsmayıla çatdırıldıqda o, çox qətiyyətli bir mövqe ortaya qoydu və tələb etdi ki, silah gücünə olsa belə onun dediyi icra olunmalıdır. Şah İsmayıl bəyan etdi ki, kimsədən qorxusu yoxdur və onun iradəsinə qarşı çıxan qılıncla qarşılaşacaqdır.



*Təbrizdə xütbə mərasimi*

Sonra da bildirdi ki, cümə günü yetişəndə o özü də minbərə gedəcək və xütbə oxuyacaqdır. Mənbədə sonra bildirilir ki, Şah İsmayıl həmin günün gecəsi yuxuda Əmir əl-mömünin həzrət Əlini gördü və onun tərəfindən Şah İsmayıla çatdırıldı ki, cümə günü onun bütün qızılbaşları silahlansınlar və məscidə toplanmış Təbriz sakinlərinin hər iki nəfərinin arasında bir silahlı qızılbaş dayansın. Bundan sonra xütbə oxunsun və bu zaman kimsə etiraz etməyə cəhd göstərsə onda qızılbaşların iradəsi ilə qarşılaşsın. Səhər yuxudan ayılandan sonra Şah İsmayıl sınanmış əmirlərindən olan Hüseyn bəy Ləlıni və Halvaçı oğlunu digər nüfuzlu əmirlərlə birlikdə yanına çağırdı. Sonra Şah İsmayıl yuxuda gördüyünü onlara əyan etdi və onların da məsləhətini istədi. Əmirlər də yaranmış vəziyyətdə başqa yolun mümkünlüyünü görmədilər və Şah İsmayılın dediyinin icrasını düzgün saydılar (152).

Cümə günü yetişəndə 15 yaşında olan Şah İsmayıl da Təbriz məscidinə yollandı. O, mövlana Əhməd Ərdəbiliyə göstəriş verdi ki, minbərə qalxaraq xütbə oxusun. Mənbə məlumatına görə, Şah İsmayıl özü də minbərə qalxdı və qılıncını çıxararaq əlində tutdu. Xütbə oxunanda məsciddəki şiə məzhəblər bunu şükranlıqla qəbul etdilər. Sünni məzhəbinə mənsub olan sakinlər arasında isə səs-küy yüksəlməyə başladı. Şah İsmayılın işarəsi ilə qızılbaş silahlıları onların etiraz səsinin yüksəlməsinin qarşısını aldılar və silah gücünə onlara Kəlməyi-şəhadətin yeni variantı qəbul etdirdilər. Bundan sonra Şah İsmayılın göstərişi əsasında səltənətin vilayət hakimlərinə məktublar göndərildi və şiəliyin qəbulu tələb edildi. Vilayətlərin əhalisinin müəyyən hissəsi şiəlik məzhəbini qəbul etmək məcburiyyətində qaldı. Amma bu məzhəbi qəbul etməyənlər də var idi ki, onlar hakimiyyətin qorxusundan öz yurdlarını tərk etmək məcburiyyətində qaldılar. Şiəliyi qəbul etməyənlərin bir hissəsi Əlvənd Mirzəyə, bir hissəsi isə Murad Mirzəyə (bəzi mənbələrdə və ədəbiyyatda həm də Sultan Murad kimi göstərilmişdir) qoşuldular (153).

Mənbələrdə Şah İsmayılın 1501-1502-ci ilin qışında Təbrizdə olması həm də qızılbaşların qışlaq dövrü kimi xarakterizə olunur. Bu zaman qoşunların ehtiyatlarının təkmilləşdirilməsinə, onların silah və sursatlarının, ərzaq və iaşələrinin, səfər təchizatlarının toplanmasına böyük diqqət yetirilirdi. Yəni, Şah İsmayıl Təbrizə daxil olandan sonra yalnız dövlətçilik işləri ilə deyil, həm də qoşunların möhkəmləndirilməsi, onların yeni yürüşlərə hazırlanması ilə məşğul oldu. Çünki özünü Ağqoyunlu dövlətinin təbii varisi hesab edən Şah İsmayıl bu dövlətin hüdudlarına daxil olan bütün əraziləri öz hakimiyyəti altına gətirməyə hazırlaşırdı. Bunun üçün isə onun güclü qoşuna ehtiyacı var idi.

### 11. Şah İsmayıl ilə Əlvənd Mirzənin növbəti qarşılaşması

Qeyd edilməlidir ki, Şərur düzündə qızılbaşlardan güclü zərbə almış Əlvənd Mirzə də hələ hakimiyyət iddialarından əl çəkməmişdi. O, Şah İsmayılın hakimiyyətinin dayanıqlığına inanmırdı və ona görə qüvvə toplamaqla hakimiyyəti yenidən geri qaytarmağa çalışırdı. Mövcud məlumata görə, Diyarbəkrdə

sığınacaq tapmış Əlvənd Mirzənin sərəncamında 10 min nəfərlik qoşun dəstəsi var idi. O, Məraş və Əlbistan hakimi Əlaüddövlə Zülqədərlə ittifaqa girərək 20 min nəfərlik qoşun dəstəsi də ondan aldı (154). Qış dövrünü Əlvənd Mirzə də hərb hazırlıqlarında keçirdi və 1502-ci ilin yazında artıq Səfəvi qoşunları üzərinə hücum etmək üçün fəallaşmağa başladı.

Şah İsmayıl bu hazırlıqlardan xəbərdar idi və ətrafda nə baş verdiyini öz nəzarəti altında saxlayırdı. Təbriz şəhərinə daxil olduqdan sonra Ağqoyunlu dövlətinin yalnız xəzinəsi deyil, həm də bu dövlətin hərbi ehtiyatları Şah İsmayılın əlinə keçmişdi və bu ehtiyatlar da qızılbaş qüvvələrinin təchizin və gücləndirilməsinə istiqamətləndi. Məlumdur ki, Təbriz həm də silah və sursat istehsalı mərkəzlərindən biri idi. Bu da imkan verdi ki, qızılbaş qoşunlarının təchizatı daha da yaxşılaşsın. Tarixi ədəbiyyatda olan məlumata görə, görülən hazırlıqlardan sonra İsmayıl Mirzə 1502-ci ilin yazına 12 min nəfərlik qoşun dəstəsi hazırlaya bilmişdi (155).

1502-ci ilin yazında Əlvənd Mirzə qüvvələrinin zərərsizləşdirilməsi üçün Şah İsmayıl əməli tədbirlər görməyə başladı. Amma mənbə məlumatına görə, Ağ qoyunlu dövlətinin cənub ərazilərinə sahib olmuş Murad Mirzənin hakimiyyət altına gətirilməsi üçün Şah İsmayıl Diyabəkr istiqamətinə yollanmazdan əvvəl ona məktub göndərdi. Şah İsmayıl qiymətli hədiyyələr yollamaqla və onun qarşısında bir sıra tələblər qoydu. Bu tələblərə əsasən, Murad Mirzə hakimi olduğu ərazidə Şah İsmayılın adına sikkə vurdurmalı və onun adına xütbə oxutmalı idi. Başqa sözlə, Şah İsmayılın hakimliyini qəbul etməli idi. Bu tələbin qəbul olunacağı təqdirdə Murad Mirzə yenə hakim kimi öz vəzifəsinin icrasını davam etdirə bilərdi. Mənbədəki məlumata görə, Murad Mirzə bu tələbləri qəbul etdi, Şah İsmayılın adını sikkə vurdurmaqla xütbə oxutdu (156). Amma digər mənbələrdə olan məlumatların təhlili "Aləmara-yi Şah İsmayıl"ın bu məlumatının doğruluğuna şübhə yaradır (bu barədə aşağıda danışılacaqdır).

Şah İsmayıl eşidəndə ki, Əlvənd Mirzə 30 minlik qoşun toplayıb və onun üstünə hücum niyyətindədir, onda qoşunlarına hazırlıq əmri verdi. Məlumat alınmışdı ki, Əlvənd Mirzə qoşunları ilə Damğan yolu ilə irəliləməkdədir. Şah İsmayıl hərəkətə başlamazdan əvvəl öz qoşunlarına sıra baxışı keçirdi və onların səfər hazırlığı vəziyyətini yoxladı. Sonra da Əlvənd Mirzənin qoşunlarının qarşılanması üçün yola düşdü. Əlvənd Mirzə qoşunlarının say üstünlüyünə baxmayaraq, Şah İsmayılın qoşunları ilə üzbəüz gəlməyə ehtiyat etdi və əvvəlki marşrutunu dəyişməli oldu. O, çalışdı ki, başqa yolla Təbrizə daxil olsun və Şah İsmayılın yoxluğundan istifadə edərək Təbrizi ələ keçirsin (157). Çox güman ki, Əlvənd Mirzə Təbriz əhalisi tərəfindən müdafiə olunacağını güman edirdi və ona görə də qızılbaş qoşunlarından ehtiyatlanmayaraq Təbrizə girməyi planlaşdırırdı.

Mənbələrdə bildirilir ki, Şah İsmayıl kifayət qədər təchiz edilmiş qoşunları ilə Ərzincana doğru hərəkətə başladı və Aladağ yaylağı yolundan keçməklə Tərcan bölgəsindəki Ləkzi çəməninə gəlib çıxdı. Bu çəməndə ov etmək imkanları olduğu üçün Şah İsmayıl bu fürsəti əldən buraxmaq istəmədi və bir neçə gün

burada ovla məşğul oldu. Lakin tezliklə Əlvənd Mirzənin yolunu dəyişdirməklə Təbrizə yaxınlaşması xəbərini aldı. Bu xəbəri eşidən kimi Şah İsmayıl Ləkzi çəmənini tərk edərək Qoçəhməd yurduna tərəf istiqamət götürdü (158).

"Tarix-i aləmara-yi Abbasi" Əlvənd Mirzənin Təbrizə hücumunu və onun sonrakı taleyini aşağıdakı kimi təsvir etmişdir: "Mirzə Əlvənd bir dəstə toplayıb, ümidsiz bir hərəkətə əl ataraq, Ərzincandan Azərbaycana yönəldi. 908-ci ilin aylarında (07.07.1502-25.06.1503) şahın zəfər nişanlı bayraqları Tərcan yolu ilə Ərzincana yönəldiyi zaman [Mirzə Əlvənd] darüssəltənə Təbrizə gəlib, rəiyyətlərə və zənginlərə qarşı zülm əlini uzatdı, oradan da Ucana tələsdi. Lakin [Şah İsmayılın] dünyanı fəth edən məiyyətinin yaxınlaşdığım eşitdikdə [orada] dayana bilməyib, Ucandan Həmədana getdi, oradan da Bağdada yönəldi. Bəxt ondan üzünü çevirdiyindən, Qasım bəy Pornak ona müxalif çıxdığına görə orada da qala bilmədi və Diyarbəkrə getdi. Mardində onunla Uzun Həsənin qardaşı Cahangir mirzənin oğlu Qasım bəy arasında müharibə baş verdi. Qalib gəlməsinə baxmayaraq, səadət o sülalədən üz döndərdiyi üçün tez bir zamanda, 910-cu il aylarında (14.06.1504-03.06.1505) o vilayətdə öz mövcudluq yükünü axirət sarayına çəkib apardı (öldü)" (159).

"Rövzətüs Səfəviyyə" əsəri bu məsələni bir qədər fərqli şəkildə təsvir etmişdir. Bu əsərdəki məlumatdan belə aydın olur ki, Əlaüddövlə Zülqədər qoşun toplayaraq özünü müstəqil elan etmək istəyirdi və Şah İsmayıl da onun bu niyyətinin qarşısını almaq üçün yuxarıda xatırlanan marşrut üzrə hərəkətə başlamışdı. Əlvənd Mirzə isə Şah İsmayılın öz qoşunu ilə Təbrizi tərk etməsindən sevinərək bu şəhəri yenidən hakimiyyəti altına gətirmək fikrinə düşmüş və dağılıb səpələnmiş qoşunlarını, habelə Zülqədər tayfası silahlılarını toplayaraq Təbriz üzərinə hücuma başlamışdı. Bu əsər də Əlvənd Mirzənin Təbrizə daxil ola bilməsindən, qızılbaşlardan narazı qalan insanların ona kömək etməsindən xəbər verir. Amma Təbrizi əlində saxlamaq üçün Əlvənd Mirzənin sərəncamında kifayət qədər qüvvə yox idi və ona görə də tezliklə bu şəhəri tərk etmək məcburiyyətində qaldı.

Amma mənbələrin və tarixi ədəbiyyatın çoxunda bu qarşılaşma Şah İsmayılla Əlvənd Mirzə qarşılaşması kimi təsvir olunmuşdur. Əlvənd Mirzə itirmiş olduğu hakimiyyətini geri qaytarmaq istəyirdi və buna ümid bağlayırdı. Ona görə də qoşun dəstəsi ilə Şah İsmayılın Təbrizdə olmadığı bir vaxtda bu şəhərə daxil oldu. Şah İsmayıl Ərzincan istiqamətinə hərəkətə başlamazdan əvvəl Təbriz şəhərinin təhlükəsizliyinin təmin edilməsi üçün müəyyən tədbirlər qəbul etmişdi. O cümlədən, onun göstərişinə əsasən Halvaçı oğlunun rəhbərliyi altında bir dəstə saxlamşdı. Bundan başqa Şah İsmayıl şəhərin müdafiəsi üçün şəhər əhalisinin fəallığına da ümid edirdi və o bu ümidində heç də səhv etməmişdi. Bununla belə, Halvaçı oğlunun qüvvəsi Ağqoyunlu qoşunlarının qarşısını almağa yetərli deyildi. Əlvənd Mirzənin qoşun dəstəsi səhər erkən Təbriz şəhərinə daxil ola bildi. "Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, Əlvənd Mirzə Təbrizə daxil olan kimi, şiə məzhəbini qəbul etmiş şəhər əhalisinin

qətlinə başladı və bildirilir ki, elə ilk cəhddə Təbriz əhalisindən 7 min nəfər qətlə yetirildi (160).

Bütün cəhdlərinə baxmayaraq, Əlvənd Mirzə öz niyyətinə nail ola bilmədi. Çünki bir tərəfdən qızılbaş dəstəsi fədakarlıqla döyüşdü və Əlvənd Mirzənin qoşunlarına ciddi müqavimət göstərdi. Digər tərəfdən isə şəhər əhalisi Əlvənd Mirzəni qəbul etmədi və şəhər əhalisi tərəfindən də Əlvənd Mirzəyə qarşı böyük müqavimət nümayiş etdirildi. Qızılbaş qorçuları şəhər evlərinin damlarında mövqe tutaraq oxlarla və tüfəng atəşləri ilə müqavimət göstərirdilərsə, şəhər əhalisi də küçələrdə barrikadalar quraraq Ağqoyunluların şəhərin daxilində irəliləməsinə mane olmağa çalışırdılar. Mənbə məlumatına görə, Əlvənd Mirzə şəhərin sünni əhalisinə ümid bağlaya bilərdi ki, bu da alınmadı. Çünki sünnilər artıq Əlvənd Mirzənin gücünə və gələcəyinə inanmırdılar. Ona görə də Əlvənd Mirzə Təbrizdə möhkəmlənə bilmədi. Qızılbaşlar tərəfindən bir gün və bir gecə Əlvənd Mirzə qoşunlarına müqavimət göstərildi. Yuxarıda adı çəkilən mənbədəki məlumata görə, Şah İsmayıl Tərcan ətrafındakı düşərgəsində gecə yuxu gördü ki, Halvaçı oğlu Təbrizdə çətin vəziyyətlə qarşılaşıb və düşmənlərlə döyüşlərə qatlaşıb. Səhər yuxudan ayılan kimi, Şah İsmayıl əmirlərini toplayıb bəyan etdi ki, Əlvənd Mirzənin başqa yolla Təbrizə getməsi ehtimal olunur. Bundan sonra Şah İsmayıl göstəriş verdi ki, qoşun Təbrizə doğru hərəkətə başlasın. Dörd gündən sonra Şah İsmayıl Təbrizə yetişdi. Əlvənd Mirzə qızılbaşların hücumunun qarşısını ala bilməyəcəyi üçün şəhəri tərk etmək məcburiyyətində qaldı (161).

Şah İsmayıl şəhərə yetişən kimi, Əlvənd Mirzənin qoşunu üzərinə hücum çəkdi. Bu dəfə də Şah İsmayıl özünü döyüşün mərkəzinə atdı və Təbriz üzərinə gəlmiş Ağqoyunlulara güclü zərbə vurdu. Əlvənd Mirzənin dəstəsinin silahlılarından neçəsi məhz Şah İsmayılın zərbəsi ilə dünyaya vida dedi. Bu döyüşdən sağ çıxa bilməyəcəyini görəndə Əlvənd Mirzə dəstəsini tərk edərək qaçmağa üz tutdu və bu dəfə də Diyarbəkrə doğru istiqamət götürdü. Onun dəstəsinin döyüşçüləri sonradan biləndə ki, rəhbərsiz qalıblar, onda müqaviməti dayandırdılar və Şah İsmayıldan aman dilədilər. Şah İsmayılın da şərti belə oldu ki, şiə məzhəbini qəbul edənlərə aman verilə bilər. Döyüşçülərin müəyyən hissəsi bu şərtlə razılaşmalı oldu. Mənbədə bildirilir ki, Əlvənd Mirzənin dəstəsindən 1 min nəfəri şiə məzhəbini qəbul etdi və həyatlarını real təhlükədən qurtara bildi, 3 min nəfər qaçıb dağıldı, 3 min nəfər Diyarbəkrə tərəf qaçdı. Yəni, Əlvənd Mirzə bu dəfə də Şah İsmayıl ilə döyüşdən məğlub çıxdı (162).

Bəzi mənbələrdə isə Şah İsmayıl ilə Əlvənd Mirzə arasında gərgin döyüş baş verməsi istisna edilir. Bildirilir ki, Əlvənd Mirzə Təbrizdə möhkəmlənə bilməyəcəyini görəndə şəhəri tərk etmək məcburiyyətində qaldı və Təbrizlə Miyanə arasında yerləşən Ucan məntəqəsinə yollandı. Şah İsmayıl qoşunlarının yaxınlaşması xəbərini eşidəndə isə Əlvənd Mirzə orada da dayanmayaraq Həmədana çəkildi və sonra da Bağdada yollandı. İsmayıl Mirzə bir neçə gün qoşunlara Ucanda istirahət verdikdən sonra Təbrizə döndü və 1502-ci ilin qışını da orada keçirdi (163).

Bununla, Şah İsmayıl ilə Əlvənd Mirzə arasındakı qarşıdurmaya son qoyuldu və Şah İsmayıl Azərbaycan daxilində kifayət qədər möhkəmləndi. Məlumdur ki, Əlvənd Mirzə Bağdadda da çox qala bilməyib oradan Diyarbəkrə çəkildi və 1504-cü ildə dünyasını dəyişdi. 1502-ci ildə Şah İsmayıl Əlvənd Mirzə ilə çox da ciddi olmayan hərbi qarşıdurmadan sonra hər hansı bir döyüşdə iştirak etmədi. Qeyd edildiyi kimi, mənbələr onun Təbrizdə qışlağa dayanmasının bildirirlər. Bu isə o demək idi ki, Şah İsmayıl qış mövsümünün fürsətindən istifadə edərək qoşunların təkmilləşdirilməsi, təchizi ilə məşğul olmuşdu. Çox güman ki, Şah İsmayıl növbəti ildə çox ciddi vəzifələri həll etməli olduğunu bilirdi və buna görə də lazımi hərbi hazırlıqlar aparırdı. Mövcud məlumatlara görə, ona qış vaxtı hətta Sultan Muradın 70 min nəfərlik qoşun toplayaraq Həmədana doğru irəliləməsi haqqında xəbərlər də çatmışdı. Ağqoyunlu dövlətinin cənub hissəsini öz hakimiyyəti altına gətirmiş Sultan Murad (Murad Mirzə) Əcəm İraqını, Farsı və Kermanı öz nəzarəti altında saxlayırdı və qızılbaş qoşunlarına qarşı çıxmaq üçün bu bölgələrdən çoxlu sayda qoşun toplamışdı. Əlvənd Mirzə ilə qarşılıqlı razılaşmaya əsasən Sultan Murad onun hakimiyyətinə qarşı çıxmasa da, Azərbaycanın qızılbaşların hakimiyyəti altına düşməsi ilə Sultan Murad üçün də bir şans yaranmışdı. Ağqoyunlu dövlətinin bütün hüdudlarına sahib olmaq istəyən Sultan Murad yeni vəziyyətdə Şah İsmayıla qarşı çıxmaq və öz ərazilərini genişləndirmək planlarını ortaya qoydu və bunun üçün əməli addımların da atılmasına başladı.

"Aləmara-yi Şah İsmayıl" əsərinə istinadən yuxarıda Sultan Muradın Şah İsmayılın hakimiyyətini qəbul etməsi haqqında xəbər verilmişdi. Əslində isə Sultan Murad belə bir mövqedən çox uzaq idi və zamanı yetişən kimi Şah İsmayıl üzərinə qoşun çəkmək fürsətini əldən buraxmadı.

## 12. Şah İsmayıl ilə Ağqoyunlu Sultan Murad arasında döyüş

1503-cü ildə Şah İsmayıl ilə Sultan Murad arasında böyük bir döyüş baş verdi. "Rövzətüs Səfəviyyə"dəki məlumatların qənaətinə görə, əslində bu qarşıdurma hər iki tərəfin istəyi ilə alovlandı və hər iki tərəfin də bununla bağlı öz mövqeyi var idi. Sultan Murad özünü, ümumən, Ağqoyunlu dövlətinin qanuni varisi hesab edirdi və ona görə Əlvənd Mirzənin yoxluğu zamanı Azərbaycanı ələ keçirməyi özünün haqqı bilirdi. Şah İsmayılın da bundan xəbəri var idi və şübhə etmirdi ki, hakimiyyətini möhkəmlətmək və onu daha da genişləndirmək üçün Sultan Muradla qarşılaşmalı olacaqdır. Ona görə də Şah İsmayıl öz əmirlərini və əyanlarını toplayaraq onlarla məsləhətləşdi və onlara bildirdi ki, qızılbaşların hakimiyyətinin möhkəmləndirilməsi Sultan Murad ibn Yaqubun hakimiyyətinin məhv edilməsini tələb edir. Şah İsmayıl onu da bilirdi ki, Əlvənd Mirzənin hakimiyyətinin və qoşunlarının qalıqları da Sultan Murada qoşulmuşdur və onun kifayət qədər gücü var idi. Bu isə ona qarşı mübarizə aparılmasını müəyyən qədər çətinləşdirirdi. Bununla belə, Şah İsmayılın əmirləri və

əyanları onun niyyətini dəstəklədilər və bəyan etdilər ki, Şah İsmayılın fikirləri onların da məqsədini təşkil edir (164).

Şah İsmayıl əmirlərinin və əyanlarının razılığını aldıqdan sonra Sultan Muradla müharibəyə daha fəal şəkildə hazırlaşmağa başladı. O, Şamlı, Ustaclı tayfalarına, Gəncə, Şirvan və Qarabağ hakimlərinə xəbər yolladı ki, qoşun dəstələri toplayıb onun sərəncamına göndərsinlər. Bu tapşırıq çox tez bir zamanda öz həllini tapdı və adları çəkilən tayfalardan və bölgələrdən 15 min nəfərlik qoşun dəstəsi toplandı və Şah İsmayılın sərəncamına gəldi. Bundan sonra Şah İsmayıl istədi ki, bir nəfər Sultan Muradın düşərgəsinə yollansın və onun işləri barəsində məlumat toplasın. O öz adamları vasitəsilə Sultan Murada çatdırmaq istəyirdi ki, nə qədər qüvvə toplamasından asılı olmayaraq ondan çəkinmir. Ona görə də Şah İsmayıl deyirdi ki, əgər Sultan Muradın qardaşı 120 min nəfərlik qoşun toplasa belə qızılbaş döyüşçülərinin ürəyi həzrət əmir əl-mömünün işığından güc alır. Şah İsmayılın fikrincə, Sultan Murada indiyə qədər toxunmamasının səbəbi Uzun Həsənin övladlarına son qoyulmaması istəyi ilə bağlı idi. İndi isə vəziyyət dəyişirdi və ona görə də Şah İsmayıl ona xəbər göndərmək istəyirdi ki, artıq istədiyini edə bilərsən (165).

"Aləmara-yi Şah İsmayıl" əsərindəki məlumata görə, Əlvənd Mirzə Təbriz ətrafından geri çəkildikdən sonra Osmanlı hakimləri ilə dil tapmış və onlar da Şah İsmayıla qarşı çıxmaq üçün onun sərəncamına çox böyük sayda qoşun dəstəsi verməyə razı olmuşdular. Bu barədə xəbər Şah İsmayıla da gəlib çatmışdı.

Bu fikirlərini Şah İsmayıl bir məktubda ifadə etdi və onu Sultan Murada çatdıra biləcək bir şəxsin tapılmasını istədi. Görünür, Şah İsmayılın əyanları böyük sürətlə müharibə hazırlıqları aparan Sultan Muradın yanına gedərək onu bu işdən çəkindirməyin çox təhlükəli olduğunu ehtimal edirdilər. Ona görə də Şah İsmayılın məktubunu Sultan Murada çatdırmaq üçün 70 yaşında olan Lələ Qənbər ağa adlı birisi hazır olduğunu bildirdi. Lələ Qənbər ağa bu işi könüllü olaraq öz üzərinə götürmək istəməsini Sultan Muradın qərar tutduğu vəziyyətlə əlaqələndirdi. Onun fikrincə, Sultan Muradın ətrafındakılar da onun özü kimi Şah İsmayıla qarşı müharibə tərəfdarları idilər. Bu adamlar ümid edirdilər ki, əgər Sultan Murad bu müharibədə üstün gəlsə, bəlkə onların hər birinə bir vilayətin hakimliyini bağışlayar və bununla onlar da istədikləri kimi yaşayarlar. Bir sıra əyanlar və əmirlər isə Sultan Murada Şah İsmayılın fikirlərini çatdırmağa cəsarət etməzdilər. Onların gümanınca Sultan Murad bundan şübhələnər və belə fikirləşə bilərdi ki, onların Şeyx Səfi xanədanı ilə yaxınlığı vardır. Digər tərəfdən məzhəb təfriqəsi olduğu üçün kimsə sünni olan Sultan Muradı şiə bayrağını qaldırmış Şah İsmayıl ilə yola getməyə səsləməyə cəsarət etməzdi. Yəni, Lələ Qənbər ağa bununla bildirmək istəyirdi ki, indi Sultan Murad elə bir haldadır ki, kimsə Şah İsmayıl sözünü də ona çatdırmağa özündə hünər tapa bilməz. Ona görə də Qəmbər ağa bu çətin vəzifəni öz üzərinə götürməyə razı oldu. Şah İsmayıl əvvəlcə lələsi olan Qəmbər ağanı Sultan Muradın yanına buraxmaq istəmədi. Amma Qəmbər ağanın təkidindən sonra buna razı

oldu. Qəmbər ağa onu inandıra bildi ki, Sultan Murad şah elçisinə toxunmaya da bilər (166).

"Aləmara-yi Şah İsmayıl" əsərində Lələ Qəmbərin elçilik missiyası haqqında geniş məlumat verilmişdir. Bu missiyanın təsviri Sultan Muradla Şah İsmayıl arasındakı münasibətlərin nə dərəcədə gərginləşməsindən xəbər verirdi. Bu təsvirdən müəyyən fikirlər ortaya çıxsa da, əslində Sultan Murad çox ciddi seçim qarşısında olduğunu anlayırdı. Əlvənd Mirzənin aradan götürülməsindən sonra Sultan Muradla Şah İsmayıl münasibətləri "ölüm-dirim" xarakteri almışdı və bu qarşıdurmadan çıxmağın yolu müharibəni xeyli dərəcədə reallaşdırmışdı.

Adı çəkilən mənbədəki məlumata görə, Sultan Murad onun sarayına gəlmiş Qənbər ağa heyətini ehtiramla qarşıladı. Qənbər ağanı 40 nəfərlik bir heyət müşayiət edirdi. Bu heyət Sultan Murad sarayına çatan kimi onlara yemək-içmək verildi, Şah İsmayılın məktubunun üzərinə hörmət əlaməti olaraq zər səpildi və sonra da bu heyət Sultan Murad tərəfindən qəbul edildi. Sultan Murad məktubu oxuyandan sonra Şah İsmayıl haqqında düşündüklərini bir daha dilinə gətirdi. O şübhə etmirdi ki, Şah İsmayıl onu aradan götürmək və bununla öz dövlətinin hüdudlarını genişləndirmək istəyir. Amma Şah İsmayılın başı Əlvənd Mirzə ilə mübarizəyə qarışmışdı və Sultan Murad da bilirdi ki, Şah İsmayılın Əlvənd Mirzə ilə döyüşləri davam etdiyi zaman ərzində onun üstünə qoşun çəkməyəcəkdir. Sultan Muradın sözlərinə görə həmin vaxt o da Şah İsmayıla qarşı qoşun çəkmədi və bunu lazım bilmədi. Amma meydana gəlmiş yeni şəraitdə Sultan Murad hərəkətsiz dayanmağı düzgün saymırdı və bunu o, Qənbər ağaya da çatdırdı. Onun fikrincə, qardaşı Osmanlı hakimlərindən aldığı böyük sayda qoşunla Şah İsmayılın üzərinə gəldiyi vaxt ("Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə) Sultan Murad da qoşunlarını toplayıb öz maraqlarını həyata keçirmək istəyirdi və bu işdə özünü haqlı sayırdı. Yəni, o da qızılbaşlara qarşı çıxmaqla onlara zərbə vurmaq və öz hakimiyyətini daha da möhkəmləndirmək istəyirdi. Qənbər ağa onun fikriləri ilə razılaşmadı və bildirdi ki, Şah İsmayıl ona hər zaman qardaş münasibəti bəsləyibdir və əgər istəsəydi çoxdan Sultan Muradın axırına çıxa bilərdi. Amma Uzun Həsənin xanədanına olan bağlılığı üzündən belə bir addım atmadı. Qənbər ağa onu da bildirdi ki, Sultan Muradın yanına gəlməkdə məqsəd heç də ondan Şah İsmayıla kömək istəmək deyil. Məqsəd yalnız qarşılıqlı səmimi münasibətləri qorumaqdır (167).

Sultan Muradla Qəmbər ağa danışıqlarında qarşılıqlı anlaşma alınmadı. Bu danışığın bir nəticə verməyəcəyini görəndə Sultan Murad açıq şəkildə bəyan etdi ki, o, Şah İsmayıl ilə düşməndir və kimsə də öz düşməninin sağ olmasını istəməz. Hətta hədələyici şəkildə bildirdi ki, bir tərəfdən onun qoşunlarının, digər tərəfdən isə qardaşının qoşunlarının hücum etməsi Şah İsmayılın mövcudluğuna son qoyacaqdır. Bundan sonra isə qızılbaş ailələrinin və uşaqlarının başına istənilən oyun açılacaqdır. Qənbər ağa da bu fikirlərin qarşısında özünün sərt fikirlərini açıqladı, Sultan Muradı Şah İsmayılın qarşısında qolu bağlı dayanmaqdan və düşünülməmiş addımlardan çəkindirməyə çalışdı. Onun bu sözləri Sultan Muradın xoşuna gəlmədi və onun qətlinə fərman verdi. Qənbər

ağa qoşunların ayaqları altına atıldı və o, ayaq zərbələrindən dünyasını dəyişdi. Qənbər ağanı müşayiət edən heyət üzvləri də qətlə yetirildi. Onlardan yalnız 5-6 nəfər canlarını qurtararaq geri qayıda bildilər. Bu xəbərdən Şah İsmayıl çox pərişan oldu və söz verdi ki, Qənbər ağanın qisasını mütləq Sultan Muraddan alacaqdır.

"Tarix Elçi-ye Nizam şah" əsərinin məlumatına görə, 1503-cü ilin yazında və yayında Fars vilayətində mürəkkəb bir vəziyyət yaranmışdı. Bir tərəfdən əhali arasında yoxsulluq və fəqirlik yüksək həddə çatmışdı, yağmursuzluq, ərzaq çatışmazlığı insanların yaşayış həddini son dərəcə çətinləşdirdiyi bir vaxtda yolxucu xəstəliklərin yayılması da əhalini çox ciddi bir sınaq qarşısında qoymuşdu. Belə bir vəziyyətdə vilayət daxilindəki hərc-mərclik də yüksək səviyyəyə çatmışdı. Yerli hakimlərin hər birinin müstəqilləşməyə cəhd göstərməsi Sultan Muradın hakimiyyətini kifayət qədər zəiflədirdi. Məhz belə bir vaxtda Şah İsmayıl öz elçisini Sultan Muradın yanına göndərdi və onu itaət etməyə çağırdı. Bu mənbənin məlumatına görə, Sultan Murad öz əmirlərinin toplantısını keçirdi və Şah İsmayılın məktubu həmin toplantıda müzakirə olundu. Bu müzakirə zamanı Sultan Muradın əmirləri və əyanları arasında fikir ayrılığı yarandı. Onların bir dəstəsi sülhün qorunmasına tərəfdar çıxdılar. Əyanların başqa bir dəstəsi isə Şah İsmayılın tələblərini qəbul etmədilər. Sultan Murad da onlarla əlbir oldu və müharibə qərarını verdi. Bu mənbənin məlumatına görə, Şah İsmayılın elçisi sağ-salamat geri qayıtdı (168).

Sultan Murad sözsüz ki, qarşıda onu çox ciddi sınağın gözlədiyini bilirdi və ona görə də Şah İsmayıl ilə yaxınlaşmaqda olan qarşıdurmaya ciddi hazırlaşırdı. O öz qoşunlarını toplamaqdan və təchiz etməkdən əlavə ətraf dövlətlərdən və hakimlərdən də hərbi yardım almağa çalışırdı. Tarixi ədəbiyyatda olan məlumatlara görə, Sultan Murad belə bir yardımı Osmanlı sultanından ala bilmişdi və onların qarşılıqlı razılaşmasına əsasən xeyli sayda yeniçəri və topçu yüzlərlə topla birlikdə Sultan Muradın qoşunlarına qatılmışdı. O cümlədən, Mustafa paşa, Yaqub paşa, Dilavər paşa və digərlərinin rəhbərliyi altında olan qoşun dəstələri də Sultan Muradın qoşunlarının tərkibində Şah İsmayıla qarşı mövqe tutmalı idilər. Bundan başqa Sultan Muradın adamları ətraf bölgələrdə qızılbaşların əleyhinə təbliğat aparırdılar. Bu təbliğatın mahiyyəti ondan ibarət idi ki, Sultan Murad çox böyük sayda qoşunla Şah İsmayıla qarşı müharibəyə başlayır və Sultan Murad bu müharibədə qalib gəlməklə şiəliyin də kökünü kəsəcəkdir. Güman edilirdi ki, bununla şiəliyə cəlb edilmiş əhaliyə təsir göstəriləcək və bu da qızılbaşlara ictimai dəstəyinin zəifləməsinə yol açacaqdır .

Sultan Murad eyni zamanda Qum hakimi Əsləməs (İslamış) bəylə ittifaq yarada bildi. Bunun üçün o öz anası, Şirvanşahın qızı Gövhər Sultan xanımı 5 min nəfərlik qoşun dəstəsinin müşayiəti ilə Quma göndərdi. Gövhər Sultan xanım Qum hakimi ilə görüşündə bölgədə yaranmış vəziyyəti bir daha onun nəzərinə çatdırdı, Şah İsmayılın planları ilə bağlı qorxunc bir mənzərə yaratdı. Gövhər Sultan xanım bəyan etdi ki, qızılbaş qoşunları yaramaz insanlardan təşkil edilmişdir, onların köməyi ilə Şah İsmayıl artıq Şirvanşahı və bir çox

hakimləri hakimlik taxtından taxta tabuta göndərmişdir. Onun fikrincə, çox tezliklə Şah İsmayıl Quma da çata bilərdi və bu zaman Qum hakimi öz ailə və uşaqlarından əl üzməli idi. Eşitdikləri Əsləməs bəyə doğrudan da təsir etdi və Sultan Muradla birlikdə Şah İsmayıla qarşı müharibə aparmağa razı oldu. Ona görə də öz qoşunlarını toplayıb Sultan Muradın Delicandakı düşərgəsinə yollandı. Mənbələr bu qoşunlar gələndən sonra Sultan Muradın qoşunlarının 70 min nəfərə çatdığını bildirirlər. Bütün qoşunların toplanmasından sonra isə Sultan Murad Delicandakı düşərgəsindən Həmədan ətrafına yola düşdü. Çünkin o, Şah İsmayılı məhz burada qarşılamaq istəyirdi (169).

Qeyd edilməlidir ki, Sultan Muradın bütün fəaliyyəti Şah İsmayıl tərəfindən izlənilirdi. Sultan Murad qoşunlarının Həmədana tərəf hərəkətə başlaması xəbərini alanda Şah İsmayıl da öz qoşunları ilə Təbrizdən hərəkətə gəldi və Həmədana doğru istiqamət götürdü. Hər iki tərəfin qoşunları Həmədan yaxınlığındakı Almabulağı adlanan düzdə toplaşdılar və dərhal da qoşunların qruplaşdırılmasına, döyüşqabağı hazırlığa başladılar. Məlumatlara görə, qoşunlar birbirindən təxminən 2 fərsənglik məsafədə dayandılar və səhəri gün 1503-cü il iyun ayının 21-də onlar arasında böyük bir döyüş baş verdi.

"Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, Sultan Muradın qoşunlarının hərəkəti də Şah İsmayılın kəşfiyyatı tərəfindən izlənilirdi. Sultan Murad qoşunlarının əsas hissəsinin hərəkətindən əvvəl topçu dəstəsinin hərəkətinə göstəriş vermişdi. Çox güman ki, belə bir qərar topçu dəstəsinin çox yavaş hərəkət etməsi ilə bağlı idi. Qeyd edildiyi kimi, topçular arasında Osmanlı qoşunlarının nümayəndələri də var idi və sözsüz ki, onların fəaliyyəti qızılbaş qoşunlarını müəyyən sınaqlar qarşısında qoya bilərdi. Ona görə Şah İsmayıl hələ döyüş başlamazdan əvvəl Sultan Muradın toplarının sıradan çıxarılmasını lazım bildi və bunun üçün İsfahan istiqamətinə xüsusi bir dəstə göndərdi. Həmin dəstəyə İlyas bəy rəhbərlik edirdi. Bu dəstənin tərkibində 1500 nəfərlik döyüşçü var idi və onlar da Şah İsmayılın qardaşı Sultan İbrahimin (İbrahim Mirzə mənbədə Sultan İbrahim kimi təqdim olunmuşdur) rəhbərliyi altında idi. Sultan İbrahim bəy döyüşdə iştirak etmək arzusunu bildirdi və Şah İsmayıl da buna etiraz etmədi (170).

"Aləmara-yi Səfəvi" əsərində bu məsələnin təsviri daha geniş verilmişdir. Bu təsvirdən aydın olur ki, ilkin olaraq Sultan İbrahim topların ələ keçirilməsinə hazır olduğunu bildirdi. Şah İsmayıl bundan çox sevindi və bildirdi ki, əslində ondan bu cavabı eşitmək istəyirdi. Mənbədəki məlumata görə, Şah İsmayıl bu cavabı eşidəndən sonra belə bir ifadə işlətdi ki, belimin ağrısına öz əlim və dırnağımdan başqa kim yetə bilər? Yəni, Şah İsmayıl ən yaxınlarını özünə simsar və arxa görmək istəyirdi və Sultan İbrahimin belə birisi olmasından məmnunluq hissi keçrirdi. Sonra da Şah İsmayıl ondan soruşdu ki, bu işin icrası üçün özünlə nə qədər adam aparmaq istəyirsən? Sultan İbrahim də cavab verdi ki, 500 nəfər. Şah İsmayıl bununla razılaşmadı və ona özü ilə hətta 1500 nəfər aparmağı icazə verdi. Halvaçıoğluna da göstəriş verildi ki, onun dəstəsindən 1000 nəfər Sultan İbrahim üçün ayrılsın. Sultan İbrahim deyilən sayda qoşunu

götürərək Halvaçıoğlu ilə birlikdə topların ələ keçirilməsinə yola düşdü. Hadisələrin sonrakı təsvirindən belə məlum olur ki, Sultan İbarahim tapşırılan vəzifənin icrasını bütünlüklə öz üzərinə götürmüş və Halvaçıoğluna da tapşırmışdı ki, zərurət olmadığı halda döyüşə qarışmasın (171).

"Aləmara-yi Şah İsmayıl"a görə, Şah İsmayılın göstərişi ilə bu dəstə hərəkətə başlayanda Sultan Muradın topçuları artıq Cərfədqan adlanan məntəqəyə yetişmişdi. Bu toplar Cərfədqanda olanda oranın hakimi Sultan Muradın topçular dəstəsinin rəhbəri İsfəndiyar bəyi ziyafətə dəvət etdi. İsfəndiyar bəy bu dəvəti qəbul etdi, amma topları öz hərəkətindən saxlamadı. Topları müşayiət edən dəstədən 1000 nəfəri özü ilə saxladı, qalanları isə toplarla birlikdə yola saldı. O belə fikirləşirdi ki, toplar öz hərəkətini dayandırmasın, özü isə arxadan onlara çata bilərdi. İsfəndiyar bəy topçular dəstəsinə qarşı hər hansı bir təhlükə gözləmirdi. Çünki bu dəstə Sultan Muradın hakimiyyəti altında olan ərazi ilə hərəkət edirdi (172).

Səhəri gün İsfəndiyar bəy topların ardınca yola düşdü və yalnız dörd gündən sonra toplara yaxın olan bir məsafəyə yetişə bildi. Amma ondan fərqli olaraq topların ələ keçirilməsi üçün bölgəyə gələn İlyas bəy topçular dəstəsinə yetişə bildi. Topların mühafizə dəstəsi müqavimət göstərməyə çalışsa da bir nəticəyə hasil ola bilmədi. Mühafizəçilərin çoxu qətlə yetirildi, toplar və onların təchizatı İlyas bəyin əlinə keçdi. Topları müşayiət edən dəstədən bir neçə nəfər canlarını salamat qurtararaq həmin ərazidən dörd fərsəx məsafədə olan İsfəndiyar bəyə məlumat çatdırdı. İsfəndiyar bəy bunu eşitcək yanındakı min nəfərlik dəstə ilə İlyas bəyin yolunu kəsməyə çalışdı. O, güman edirdi ki, topları xilas edə biləcəkdir. Lakin o da bir nəticəyə nail ola bilmədi. Mənbələr bu döyüşdə İlyas bəyi müşayiət edən Sultan İbrahimin (İbrahim MİrzənIn) igidliyini xüsusi ilə qabardırlar. Sultan İbrahim bu döyüşdə fəal iştirak etdi və meydanın mərkəzində nizəsi ilə İsfəndiyar bəyi vuraraq yerə saldı. Onun göstərişinə əsasən İsfəndiyar bəyin əlqolunu bağlayaraq top arabası içinə atdılar. İsfəndiyar bəyin dəstəsi də çoxlu itki verərək döyüş meydanını tərk etdi (173).

Məlumata görə, Sultan İbrahimlə İlyas bəy Halvaçıoğlu bu döyüş zamanı 20 ədəd top ələ keçirə bildilər və Dərcəzin adlı məntəqəyə çatandan sonra bu barədə Şah İsmayıla xəbər göndərdilər. Şah İsmayıl həm Sultan Muradın qoşun dəstələrindən birinə ağır zərbə endirilərək onun 20 ədəd topunun ələ keçirilməsinə, həm də qardaşı İbrahim Mirzənin bu döyüşdə şücaət göstərməsinə çox sevindi. Ona görə İbrahim Mirzəyə bir baş cins at, zərlə bəzədilmiş yəhər, qiymətli tac və digər hədiyyələr göndərdi. İlyas bəy də qiymətli hədiyyələrlə mükafatlandırıldı. Onlara xəbər göndərildi ki, Həmədan istiqamətinə irəliləsinlər və orada Şah İsmayılın əsas qüvvələrinə birləşsinlər (174).

"Aləmara-yi Səfəvi"də isə bu döyüşün təsvirində fərqli məqamlar vardır. Bu əsərdə bildirilir ki, Sultan Muradın topçular dəstəsi qızılbaş qoşunlarından üç mənzillik məsafədə idi. Sultan İbrahim və onun dəstəsi topçulara o zaman yetişdilər ki, onlar düzən ərazi ilə sakitcə irəliləməkdə idilər. Sultan İbrahim göstəriş verdi ki, 200 atlı topçular dəstəsinin arxasını tutsun, 200 nəfər bu

dəstənin qarşısını alsın. Özü isə 300 nəfər atlı ilə dəstənin mərkəzinə zərbə endirdi. Qızılbaşlar çox böyük sürətlə Sultan Muradın qoşun dəstəsi üzərinə şığıdılar. Adı çəkilən mənbənin məlumatına görə, Sultan İbrahimin 1000 nəfərlik dəstəsinin hücumu 10 min nəfərlik bir qoşun dəstəsinin hücumunu xatırlatdı. Ona görə Sultan Muradın topçular dəstəsi çaş-baş vəziyyətə düşdü. Bu mənbədəki məlumata görə, dəstənin rəhbəri olan İsfəndiyar bəy heç də dəstədən geri qalmamışdı. Əksinə, min nəfərlik bir dəstə ilə topçu dəstəsindən bir fərsəng irəlidə hərəkət edirdi və onun topçu dəstəsi üzərinə olan hücumdan xəbəri yox idi. Onun özü ilə min nəfərlik dəstəni irəli aparması isə topçu dəstəsinin müfahizəsini xeyli zəiflətmişdi. Bu da qızılbaşların uğurlu hücumuna əlavə imkan yaradırdı. İlk hücumdan sonra topçu dəstəsindən 500 nəfər qətlə yetirildi. Qızılbaşların ikinci cəhdi daha 500 nəfərin qətlə yetirilməsi ilə nəticələndi. Bütünlükdə, topların ələ keçirilməsi zamanı 1500 topçu və mühafizəçinin qətlə yetirildiyi bildirilir (175).

Sultan Muradın topçular dəstəsindən qaçmağa fürsət tapmış döyüşçülər İsfəndiyar bəyə yetişərək qızılbaşların hücumu haqqında ona məlumat çatdırdılar. O da yanındakı min nəfərlik dəstə ilə dərhal geri döndü və o vaxt qızılbaşlara yetişə bildi ki, onlar artıq bütün topları ələ keçirərək hərəkət marşrutundan bir fərsəng aralana bilmişdilər. Topları mühafizə edən dəstədən kimsə qalmamışdı. Öldürülən öldürülmüş, qalanları da qaçıb-dağılmışdılar. Hələ qızılbaşlar dəstəsinə çatmamış İsfəndiyar bəy bir nəfər əsir götürülmüş qızılbaş döyüşçüsü ilə və bir neçə nəfər öz döyüşçüsü ilə görüşüb onlardan məlumat ala bildi. Eşidəndə ki, qızılbaşlar cəmi min nəfər olmuşdur, onra qızılbaşlara üstün gəlmək ümidi yarandı. Sultan İbrahim uzaqdan İsfəndiyar bəyin dəstəsinin yaxınlaşmasını müşahidə edəndə göstəriş verdi ki, toplar dayanmadan öz hərəkətini etdirsinlər. Özü isə qızılbaş döyüşçüləri ilə birlikdə döyüş mövqeyi tutdu. Halvaçıoğlu ona yaxınlaşaraq döyüşə qoşulmasına icazə istədi. Sultan İbrahim isə bildirdi ki, bu döyüşə də özü rəhbərlik etmək və onu özü başa çatdırmaq istəyir. Ona görə Halvaçıoğlu bu qarşıdurmada da elə bir fəallıq göstərmədi və təsvirdən belə məlum olur ki, buna heç ehtiyac da olmadı. Sultan İbrahimin bu dəfə də böyük sürət və qətiyyət nümayiş etdirməsi nəticəsində İsfəndiyarın dəstəsinə heç bir şans verilmədi. Qısa müddətdən sonra onun 300 döyüşçüsü qətlə yetirildi və özü isə əsir götürüldü. İsfəndiyar Mirzə fəallıq göstərərək atdığı nizə ilə Sultan İbrahimi atdan yerə salmağa cəhd göstərdi. Amma Sultan İbrahim öz siperi ilə onun zərbəsinin qarşısını aldı və sonra da kəməndlə onu atdan yerə salaraq əsir götürdü. Bu döyüşdə İsfəndiyar bəylə birlikdə daha 70 nəfər əsir götürülərək Şah İsmayılın düşərgəsinə gətirildi. Məlum olduğu kimi, Şah İsmayıl bu xəbəri çox böyük məmnunluqla qarşıladı və xüsusilə, Sultan İbrahimin hünər göstərməsi və Səfəvi hərəkatına sədaqətli olması onu çox sevindirdi. Məlumata görə, görüşdükləri zaman Şah İsmayıl onun alnından öpdü və dedi ki, ey qardaş, sən doğrudan da mənim qardaşımsan, sənə görə xatircəm oldum və şükür olsun ki, heç kimin belə bir qardaşı yoxdur. Sonra da İsfəndiyar

bəyə təklif olundu ki, şiə məzhəbini qəbul etsin. İsfəndiyar bəy imtina etdikdə qətlə yetirildi (176).

Sultan Muradın topları düşərgəyə çatdırıldıqdan sonra Şah İsmayıl Həmədana doğru irəliləmək barəsində göstəriş verdi.

"Tarix-i aləmara-yi Abbasi" əsərində qızılbaş qoşunlarının Sultan Muradla döyüşə yollanması belə təsvir edilmişdir: "Xaqan həzrətlərinin (Şah İsmayılın) «Namurad» dediyi Yaqub padşahın oğlu Sultan Murad Fars, İraq, Kirman və Xuzistan məmləkətlərinin hökmdarı idi. O, haqqında bəhs etdiyimiz əhvalatlardan və xaqan həzrətlərinin istilalarından agah olduqda öz məmləkətlərinin qoşunlarını cəmləyib, istiqlaliyyət xəyalı ilə hərəkətə keçdi. Sultan Muradın gəlişi xəbəri Heydər soylu padşahın qulağına çatdıqda əvvəlcə o, Sultan Heydərin etibarlı qulamlarından olmuş, zəka və ağrılı bir kişi olan Qənbər ağa adlı yaxşı nitqə malik elçisini onun yanına göndərib, onu dostluğa, itaətə və tabeçiliyə dəvət etdi. Bunun cavabında Sultan Murad nalayiq sözlər dilə gətirdi və o həzrətlə (Şah İsmayılla) döyüşmək məqsədi ilə Delican qəsəbəsindən Həmədan yaxınlığına gəldi. O, özü ilə yetmiş min nəfərə qədər türkman qoşunu, üç yüz araba («ərradə») ilə toplar, zərbzənlər və [digər] yaraqlar gətirmişdi. Bu tərəfdən Süleyman şanlı xaqan səadətli əsgərlərlə Allahın mərhəmətinə, pak və günahsızların müqəddəs ruhlarının köməyinə arxalanaraq, şöhrətli qızılbaş tayfalarından müqəddəs üzənginin həndəvərində olan on iki min nəfərlə birlikdə düşmənlərin qarşısına yönəldi " (177).

Mənbələrdə olan məlumatlara görə, qoşunlar döyüşün başlamasından bir gün əvvəl Almabulağı ("Xolde bərin"də Almaqulağı kimi göstərilmişdir, s.128) adlanan məntəqəyə çatmışdılar. Başqa sözlə, qoşunlar 1503-cü il iyun ayının 20-də döyüş meydanına çatmışdılar. Şah İsmayıl Səfəvinin həyatının araşdırılmasına həsr edilmiş tədqiqat əsərlərində döyüşdən bir gün əvvəl qızılbaş qoşunlarının rastlaşmalı olduğu bir çətinlik haqqında maraqlı məlumatlar vardır. Bildirilir ki, Şah İsmayıl döyüşün planlaşdırıldığı bölgəyə yetişəndə qoşunlara bir günlük istirahət verilməsi qərarına gəldi. Bu qərar havanın çox isti olması ilə bağlı idi. Qoşunların düşərgə saldığı ərazidə su mənbəyinin olması döyüşçülər üçün təbii bir çətinliyi ortaya çıxarırdı. Aparılmış kəşfiyyat müşahidələri də onun göstərirdi ki, yaxın bölgədə su tapmaq qeyri-mümkündür. Suzunluğun yaratdığı gərginlik bəzi qızılbaş əmirlərində qarşıdakı döyüşün keçirilməsinin məqsədəuyğunluğuna müəyyən şübhələr yaratdı. Ona görə bəzi əmirlər belə fikirlər irəli sürdülər ki, qoşunlar susuz məkandan geri çəkilsin, qoşunların ağır vəziyyətə düşməsinin qarşısı alınsın. Onlar düşünürdülər ki, suyun olmaması qoşunları məğlubiyyətə düçar edə bilər. Əslində, susuzluğun yaratdığı çətinlik doğrudan da təşviş yaradacaq bir çətinlik idi. Amma kimsə cəsarət edib həm mövcud çətinliyi, həm də qızılba. əmirlərinin narahatçılığını Şah İsmayıla çatdırmaq istəmirdi. Bildirilir ki, qızılbaş qoşunları daxilində Sultan Murada meylli olan şəxslər də var idi və onlar müəyyən söhbətlərlə hətta qızılbaşları təxribata çəkməyə çalışırdılar. Bunun nəticəsi idi ki, mürid-mürşid münasibətlərindən lazımi qədər baş çıxarmayan qızılbaşlar Şah İsmayılın çadırı yaxınlığında

toplaşaraq hay-küy qaldırmağa çalışdılar. Vəziyyət bu səviyyəyə çatanda Abdal bəy Dədə nəhayət ki, Şah İsmayılın çadırına daxil oldu, bölgədə su olmadığı, bunun nəticəsində atların, yük daşıyan digər heyvanların, o cümlədən də döyüşçülərin əziyyət çəkdikləri haqda ona məlumat verdi. Şah İsmayıl məsələdən hali olduqdan sonra bildirdi ki, xudavənd bu quru biyabanda da öz sufilərini çeşmə suyu ilə doydurmağa qadirdir və sonra da başını dizləri üstünə aldı. Abdal bəy çadırı tərk edərək döyüşçüləri sakit olmağa və mövcud çətinliyin həll ediləcəyinə inandırmağa çalışdı. Bəziləri bu xahişi qəbul etdilər, bəziləri isə qəbul etmədilər və Abdal bəyin sözlərini sufiliyə yaraşmayan sözlər kimi qiymətləndirdilər. Bu zaman Şah İsmayıl əlində təbərzin çadırdan bayıra çıxdı və bütün qızılbaşlara göstəriş verdi ki, çadırlarının qarşısında bir gəz dərinliyində quyu qazsınlar və həmin quyudan çıxacaq sudan içməklə Allahın rəhmətinin şahidi olsunlar. Şah İsmayılın mürşidliyinə bağlı olan sufilər, ona sədaqətli olan insanlar deyilən kimi quyu qazmağa başladılar və doğrudan da həmin quyulardan su fışqırmağa başladı. Sufi əmirləri və qızılbaş döyüşçüləri bu nemətdən gen-bol bəhrələnməklə onu həm də Şah İsmayılın kəraməti kimi qəbul etdilər və Şah İsmayılın çadırı qarşısına toplaşaraq ona bir daha öz sədaqətlərini bəyan etdilər. Qızılbaş döyüşçüləri şübhə etmədilər ki, Allahın belə kəramətinə sahib olan Şah İsmayılın rəhbərliyi altında Sultan Muradla gözlənilən döyüş qələbə ilə başa çatacaqdır (178).

Bir məlumata görə, qızılbaş qoşunlarının düşərgə saldığı Almabulağı məntəqəsi Sultan Muradın qoşunlarından 10 fərsəng məsafədə idi. Qoşunların qruplaşdırılmasına başlamazdan əvvəl bütün döyüşçülər silahlandırıldılar və döyüşə hazır vəziyyətə gətirildilər. Bu məlumatda bildirilir ki, qoşunlar düşərgə salandan sonra cəbbəxana istifadəyə alındı, silahlanmalı olan hər bir gəncə silah paylandı, bəzilərinə ox, kaman, sipər, nizə verildi, bəzi müridlər atla təmin edildi və bu yolla 12 min nəfərlik qoşun dəstəsinin təchizatı təkmilləşdirildi. Bundan sonra qızılbaş qoşunları daha dörd fərsəng irəliləyərək Sultan Muradın qoşunlarının altı fərsəngliyinə yetişdilər (179).

Döyüşdən öncəki gecəni hər iki tərəf qoşunların qruplaşdırılması, döyüş tapşırıqlarının dəqiqləşdirilməsi, təchizat, təminat, idarəetmə məsələləri ilə məşğul oldu. "Xolde bərin"ə görə, Şah İsmayıl öz qüvvələrinin qruplaşmasını aşağıdakı kimi apardı: Xəlifə bəylə Mənsur bəy Qıpçağ çərxçi təyin edildilər. Döyüşün başlanması vəzifəsi onlara həvalə olundu. Döyüş meydanının mərkəzində Şah İsmayıl özü qərar tutdu. Piri bəy Qacarın rəhbərliyi altında olan 1500 nəfərlik nizəçilər dəstəsi də Şah İsmayılın olduğu mövqeyə çıxarıldı. Abdal bəy Dədə, Lələ Hüseyn bəy, Məhəmməd bəy Ustaclı, Bayram bəy Qaramanlı, Əbdi bəy Şamlı, Yeqan bəy Təkalu, Sarıəli Möhrdar və digər əmirlərin rəhbərliyi altında olan dəstələr isə cinahlarda yerləşdirildi. Bir daha qeyd edilməlidir ki, Şah İsmayılın qoşunlarının 12 min nəfərdən ibarət olduğu bildirilirdi (180).

"Aləmara-yi Səfəvi"yə görə, qızılbaş qoşunları Sultan Murad qoşunlarının dörd fərsəngliyində düşərgə salanda Şah İsmayıl əmirlərini yanına topladı və gözlənilən döyüşlə bağlı bəzi niyyətlərini açıqladı. O əmirlərə müraciətlə dedi

ki, indi avanqard dəstəni (pişxana) Sultan Murad qoşunlarının iki fərsəngliyinə qədər qabağa aparmağı bacaracaq bir kişinin irəli çıxmasını istəyir. Bu zaman Halvaçıoğlu irəli çıxaraq bu tapşırığın icrasını öz üzərinə götürməyə hazır olduğunu bildirdi. Halvaçıoğlu bəyan etdi ki, o, qızılbaş qoşunlarının çərxçisidir və buna görə də pişxananin ona həvalə olunmasını arzu edir. Şah İsmayıl bununla razı olmadı və bildirdi ki, onun 2 min nəfərlik Qacar dəstəsi ilə çərxçi olması məsləhətdir. Onda Şah İsmayılın qardaşı Sultan İbrahim (İbrahimMizə) bu tapşırığın icrasını öz üzərinə götürməyə hazır olduğunu bildirdi. Sultan İbrahim söylədi ki, Sultan Muradın qoşunları artıq onun zərbəsinə bələddirlər və ona görə də bu vəzifə ona həvalə olunsa yaxşıdır. Şah İsmayıl bu təkliflə də razı olmadı və qeyd etdi ki, bir halda ki, Sultan İbrahim qarşı tərəfin toplarını ələ keçirib elə döyüşdə də həmin dəstəyə rəhbərlik etməsi yaxşı olar. Sultan İbrahimin öhdəsinə 2 min nəfərlik dəstə verilməli idi. Nəhayət, Şah İsmayıl qoşunların pişxanasini (avanqard dəstəsini) Abdal bəy Dədəyə həvalə etdi. Bütünlükdə isə, qızlbaş qoşunlarının döyüş düzülüşü belə qurulmuşdu: hələ döyüş meydanına doğru irəliləyərkən Şah İsmayıl avanqard dəstə kimi Abdal bəy Dədənin dəstəsini önə çıxarmışdı. Pişxana adlandırılan bu dəstənin ardınca İlyas bəy Halvaçıoğlunun rəhbərliyi altında 2 min nəfərlik Qacar dəstəsi, bu dəstənin ardınca Sultan İbrahimin rəhbərliyi altında top dəstəsi, sonra qoşunların əsas hissəsi və qoşunların sonunda da Şah İsmayıl özü hərəkət edirdi. Döyüş meydanında isə, yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıl mərkəzdə mövqe tutdu. Özünün sağ cinahına Abdal bəy Dədə və Əbdi bəy Şamlının rəhbərliyi altında olan dəstələri, sol cinahına isə Məhəmməd xan Ustaclı ilə Qaraxan Ustaclının rəhbərliyi altında olan dəstələri yerləşdirdi. Çərxçilər dəstəsi İlyas bəy Halvaçı oğlunun rəhbərliyi altına verildi. Bu döyüşdə də Şah İsmayıl ehtiyat qüvvə saxlanmasına xüsusi diqqət ayırdı və bu qüvvələri qardaşı İbrahim Mirzəyə tapşırdı (181).

Sultan Murad da bu məsuliyyətli döyüş qarşısında öz qoşunlarını müəyyən edilmiş vəzifələrə uyğun olaraq qruplaşdırdı. O da mərkəzdə dayanan qoşun dəstələrinə rəhbərliyi öz üzərinə götürdü. Bu istiqamətdə qoşunların əsas hissəsi yerləşmişdi və əsas zərbənin də mərkəzdən vurulacağı gözlənilirdi. Sonra o, Əli bəy Türkman adlı sərkərdəsini sağ cinaha, Murad bəyi isə sol cinaha təyin etdi. Mənbələrdə Sultan Muradın qoşunlarının sayı 70 min nəfər göstərilmişdir. Bu məsələdə mənbələrin məlumatlarında elə bir fərqlilik yoxdur. Bu qoşunlarının əksəriyyətinin atlılar olduğu bildirilirdi. Sultan Muradın qoşunlarında 300 ədəd top və zərbzən var idi. Onların əksəriyyəti Osmanlı dövlətindən alınmışdı. Bu toplar və zərbzənlər qoşunların ön sırasında yerləşdirilmişdi. Bəzi mənbə və tarixi ədəbiyyatda qeyd edilmişdir ki, Sultan Murad döyüş ərəfəsində qoşunların ətrafına arabaları düzdürmüş, onları zəncirlərlə birləşdirmiş, düşərgə ətrafında çəpərlər çəkmiş və taxtalardan istehkamlar yaratmışdı (182). Bununla bildirilir ki, Sultan Murad kifayət qədər təhlükəsizlik tədbirləri həyata keçirmişdi. Bu tədbirlər həm də qoşunların geri çəkilməsi yollarının kəsilməsi üçün edilmişdi. Sultan Murad yəqin qoşunlarının geri çəkilmək ehtimalını istisna etmirdi və

güman edilirdi ki, arxada bir-birinə birləşdirilmiş arabalar, habelə çəpərlər qoşunları geri çəkilməsinin qarşısını ala bilər.

Məlumatın obyektivliyi müəyyən şübhə doğura bilər. Çünki çox böyük əraziyə səpələnmiş 70 min nəfərlik bir qoşunun geri çəkilmə yolunu məhdudlaşdırmaq texniki baxımdan elə də asan olmazdı. Güman etmək olar ki, burada söhbət yalnız Sultan Muradın qoşunlarının əmlakının və təchizatının saxlandığı düşərgənin mühafizəsindən gedirdi. Dövrün döyüş ənənələrinə əsasən, hər bir döyüşçü özü ilə həm xidmətçi, həm də silah, sursat, təchizat, yaşayış ləvazimatı, yəni bir döyüşçünün yaşayışı və döyüşü üçün zəruri olan əşyaları aparırdı və onlar düşərgədə toplanırdı. Bu düşərgənin mühafizəsinə isə xüsusi qüvvə ayrılırdı.

Yuxarıda qeyd edildiyi kimi, Sultan Muradın qoşunlarının sayı məsələsində tarixi mənbələrdə elə bir fərqlilik yoxdur. Amma qızılbaş qoşunlarının sayı haqqında müəyyən fərqli rəqəmlər mövcuddur. Mənbələrin çoxunda onların sayı 12 min nəfər göstərilsə də, bəzi mənbələrdə bu say 30 min nəfərə bərabərdir. Səfəvilər tarixinin ciddi tədqiqatçılarından bir olan Səfəvi Rəhimzadə bu fərqliliyi səhv saymır. Onun fikrincə, qızılbaş qoşunlarının sayı çox idi. Mənbələrdə göstərilən 12 min rəqəmi yalnız qızılbaş atlılarına aiddir. Yerdə qalanlar, yəni digər 18 min nəfər isə qızılbaş piyadalarının sayının göstəricisidir (183).

Başqa bir tarixi ədəbiyyatda isə Şah İsmayılın ehtiyatda 15 min nəfər saxladığı bildirilir (184). Müəllif bu məlumatı mənbələrə istinadən vermişdir. Bu məlumatın doğruluğu qəbul olunsa onda qızılbaş qoşunlarının 12 mindən çox olmasını təxmin etmək olar. Əslində, 70 minlik Sultan Murad qoşunlarının qarşısına çıxmış qızılbaş qoşunlarının 30 min hüdudunda göstərilən sayı daha real görünür.

Tədqiqata cəlb edilmiş mənbələrdə Şah İsmayılın Almağulağı çölündə Sultan Muradla qarşılaşması kifayət qədər müxtəsər şəkildə təsvir edilmişdir və onlar bir-birinin oxşarıdır. Məsələn, "Tarix-i aləmara-yi Abbasi"də bu döyüşün təsviri belə verilmişdir: "908-ci ilin zilhiccə ayının 24-də, şənbə günü (21 iyun 1503) Həmədanın Almaqulağı [çölündə] iki tərəf arasında böyük bir döyüş baş verdi. Xaqan, Heydəri qolunun gücü ilə və on iki imamın («isna-əşəri») dövlət günəşinin parlamasının şəfəqi ilə o saysız orduya qələbə çaldı. O dəhşətli vuruşmada türkman qoşunları darmadağın edildi. Süleyman şanlı xaqan həmişə ilham deyən dili ilə Sultan Muradı «Namurad» («muradına çatmayan») adlandırdığı kimi, Sultan Murad sərsəri və namurad halda qaçıb, Şiraza getdi. Bu döyüşdə saysız qənimət, səba [küləyi kimi] gedən ərəb atları və hər diyardan saysız-hesabsız müxtəlif mallar zəfər çalmış əsgərlərin əlinə keçdi" (185).

Mənbələrdə Qum hakimi Əsləməs bəyin qızılbaş qoşunları üzərinə hücum cəhdi öz əksini tapmışdır. Bildirilir ki, Əsləməs bəy əvvəlcə qızılbaşların çərxçilərinin üzərinə hücum çəkdi və çəxrçilərə müəyyən itkilər yetirəndən sonra özünü Şah İsmayılın qərar tutduğu mərkəzə yetirdi. Görünür ilk uğurdan ilhamlanan Əsləməs bəy bir başa qızılbaş qoşunlarının mərkəzinə zərbə vurmaq qərarına gəlmişdi. Məlum idi ki, onun bu istiqamətdə uğuru döyüşün ümumi gedişinə həlledici təsir göstərə bilər. Ancaq o istəyinə nail ola bilmədi. Qarapiri

bəy Qacarın rəhbərliyi altında olan dəstə Əsləməs bəyin hücumunun qarşısını aldı və mənbədə olan məlumata görə, Qarapiri bəy qızılbaşlara qarşı fəallıq göstərən Əsləməs bəyə və onun döyüşçülərinə qiyamət gününü göstərdilər. Əsləməs bəyə və onun dəstəsinə elə bir zərbə vuruldu ki, Sultan Muradın qoşunları dağılmağa üz tutdular. Bu döyüşün gedişində Əsləməs bəy də, Sultan Muradın digər tanınmış sərkərdəsi Əli bəy də ciddi zədə aldılar və həmin zədədən həyatlarını itirdilər. Göstərilir ki, Sultan Murad çox az sayda döyüşçüsü ilə özünü xilas edərək Şiraza doğru geri çəkildi: "İslamış bəy (Əsləməs bəy nəzərdə tutulur) bir dəstə türkman igidi ilə ardıcıl həmlələr edib, qızılbaş çərx-çilərini yerlərindən dəbərdərək mərkəzə sıxışdırdı. Bu zaman döyüş dənizinin nəhəngi Piri bəy Qacar qələbə şüarlı qazilərdən [ibarət] bir dəstə ilə İslamış bəyin üstünə basqın edib onu adamları ilə birlikdə yəhərin üzərindən yerə saldı. O əsnada İsgəndər şanlı xaqanın əzmkarlıq ildırımı igidlik buludundan parlamağa başladı. O, gurlayan şimşək kimi öz qoşununun mərkəzindən müxaliflərin mərkəzinə həmlə edib qiyamət gününün əlamətlərini zühura gətirdi. O cəsurluq və mərdlik meşəsinin aslanları, qoçaqlıq və misilsizlik dənizinin nəhəngləri həmin döyüş meydanında imkanları yetdiyi qədər vuruşdular və qan tökdülər. Sultan Muradın adamları da ayaqlarını möhkəm dirəyib, cəsurluq əlini pəhləvanlıq qolçağından çıxararaq elə hərb etdilər ki, onun dəhşətindən səbir və dözüm yüyəni beşinci hasarın kutvalının iqtidar əlindən çıxdı. Atəş saçan nizənin parıltıları həyat xırmanını şimşək kimi yandırırdı və qan içən oxların ucu bədənin içini ildırım kimi can odlayan şölə ilə alışdırırdı. Axırda türkman ordusunun əhvalında acızlik və zəiflik əlaməti görünməyə başladı. Namurad başa düşdü ki, iş başqa cürdür və fəthlə qələbə qəzavü-qədər sahibinin yardımına bağlıdır. O, əmirləri ilə birlikdə idbar yüyənini fərar səmtinə çevirdi. Xaqanın müzəffər qoşunları ilahi kömək sayəsində zəfər və qələbə bayraqlarını yüksəldib düşmənləri təqib etdilər, onlardan on min nəfər qətlə yetirdilər. İslamışı və Əli bəyi can odlayan nizə zərbəsi ilə həlak torpağı üzərinə saldılar. Namurad əcəli bir az təxirə düşmüş olan məhdud bir dəstə ilə Şiraz tərəfə qaçdı" (186).

Çox güman ki, Sultan Muradın 70 min nəfərlik qoşun dəstəsinə qarşı döyüş yalnız bundan ibarət deyildi. Amma təəssüf ki, mənbələrdə bu barədə ətraflı məlumatla rastlaşmaq mümkün deyil. Mənbələrdə yalnız döyüşün çox gərgin keçməsi, Sultan Muradın tanınmış əmirlərinin bir çoxunun əsir düşməsi haqqında məlumat vardır. O da məlumdur ki, Sultan Murad böyük sayda itki verdi və güclü zərbə aldı. Onun Şah İsmayıla qarşı çıxmaq üçün bütün cəhdləri uğursuzluğa düçar oldu və dövlətini süqut etmək ərəfəsinə çatdırdı.

"Aləmara-yi Şah İsmayıl" və "Aləmara-yi Səfəvi" əsərlərində müəyyən fərqli məlumatlar var ki, onları bu döyüşün təşkili və gedişi haqqında əlavə təsəvvür əldə etməyə imkan verir. Həmin mənbələrdəki məlumatlara görə, Almabulağı çölündəki döyüşdə Əlvənd Mirzə də qızılbaş qoşunlarına qarşı döyüşdə iştirak edirdi. Amma bu məlumatın obyektivliyi şübhə doğurur. Bu məlumat digər mənbələrdə də öz əksini tapmamışdır.



*Şah İsmayılın Sultan Muradla döyüşü (Şəkil M.Abbaslının "Şah İsmayıl ömrü miniatürlərdə" kitabından götürülmüşdür)*

Bu mənbələrdəki məlumata görə, Şah İsmayıl öz qüvvələrini qruplaşdırdıqdan, dəstələrin yerini və vəzifələrini müəyyənləşdirdikdən sonra avanqard dəstə (pişxana), çərxçilər və onların da ardınca Sultan İbrahimin rəhbərliyi altında olan topçu dəstəsi irəli hərəkətə başladı və Sultan Murad qoşunlarının iki fərsəngliyyində ("Aləm Ara-ye Şah İsmayıl" əsərinə görə isə Sultan Murad qoşunlarından üç fərsənglik məsafədə) dayandılar. Bu xəbər Əlvənd Mirzəyə çatanda uğur qzanmaq üçün əlinə bir fürsət düşdüyünü güman etdi. O belə bir qərara gəldi ki, böyük bir dəstə götürüb Sultan İbrahimin (İbrahim MİrzənIn) beş min nəfərlik dəstəsinin üzərinə hücum çəksin və onu qətlə yetirsin. Əlvənd Mirzəyə görə Sultan İbrahimin qətlə yetirilməsi Şah İsmayıla ağır psixoloji təsir göstərər və bununla da döyüşü qazanmaq olardı. Əlvənd Mirzə bu niyyətlə Sultan Muradın yanına yollandı və öz niyyətini həyata keçirmək üçün ondan icazə istədi. Əlvənd Mirzə elə təsəvvür edirdi ki, Sultan İbrahimin dəstəsi 2 fərsəng aralıda yerləşməklə yalnız sabahkı döyüşün fikrində idi. Ona görə onlar istirahətə dayanmış, silahlarını bir kənara qoymaqla atlarını da asudə etmişlər. Əlvənd Mirzə şübhə etmirdi ki, qəfil hücumla Sultan İbrahimin dəstəsini məhv etmək mümkün olacaqdır (187).

Sultan Murad belə bir planın icrası ehtimalına ümidlə yanaşdı. Amma onu da istisna etmədi ki, qızılbaşlar öz dəstələrini belə asanlıqla itkiyə verməzlər. Bununla belə, Sultan Murad 10 min nəfərli bir qoşun dəstəsini onun ixtiyarına verdi. 10 minlik qoşun dəstəsini isə Osmanlı paşaları ona verdilər. "Aləmara-yi Şah İsmayıl"a görə, Mustafa paşa tələsməməyi və sabahı gün bütün qoşunla birlikdə qızılbaşların üzərinə hücum etməyi məsləhət bildi. Onun fikrincə, Sultan Muradın sərəncamında o qədər qoşun var idi ki, qızılbaşlar bu qoşunun qarşısında duruş gətirə bilməyəcəkdilər. Bununla belə, Əlvənd Mirzə razılaşmadı. O, Mustafa paşanın nəzərinə çatdırdı ki, 10 min nəfərlik qoşun dəstəsini Sultan Muraddan alıb və on minlik qoşun dəstəsini də Mustafa paşadan istədi. Mustafa paşa da bu xahişi qəbul etdi və Əlvənd Mirzəyə 10 min nəfərlik yeniçəri qoşun dəstəsi verdi (188).

Bu məlumat tədqiqata cəlb edilmiş digər mənbələrdə və tarixi ədəbiyyatda təkrarlanmadığı üçün onun doğruluğuna tənqidi yanaşıla bilər. Sultan Muradın qoşunlarında bu qədər yeniçərinin olması da şühbəli görünə bilər. Həm də mənbədəki məlumatdan belə bir təsəvvür əldə etmək olar ki, 10 minlik yeniçəri dəstəsi heç də yeniçərilərin hamısı deyildir. Bunların təsdiqlənməsi üçün isə ciddi məlumatlar ortada yoxdur.

Adları çəkilən mənbələrin məlumatına görə, Sultan İbrahim heç də Əlvənd Mirzənin təsəvvür etdiyi kimi, öz huşyarlığını və ehtiyatını əldən verməmişdi. Belə ki, topların ətrafına mühafizəçilər qoyulmuş və ətrafın müşahidəsi gücləndirilmişdi. İlyas bəy Halvaçıoğlu öz döyüşçülərinə göstəriş vermişdi ki, qarşı tərəfin hücumu baş verdiyi halda topçular hamılıqla hücumun qarşısının alınmasına səfərbər olunmalıdır. Kəşfiyyat müşahidəçiləri tezliklə Əlvənd Mirzənin rəhbərliyi altında 20 min nəfərlik qoşun dəstəsinin yaxınlaşmasını xəbər verdi. Bunu eşidən kimi dəstənin bütün döyüşçüləri öz mövqelərini tutdular. Mən-

bələrin məlumatına görə, hətta Əlvənd Mirzə də yaxınlaşanda qızılbaşların hamısını döyüşə hazır vəziyyətdə gördü. Ona görə döyüşə gəlməyindən peşman olsa da geri də qayıtmadı. Qoşun dəstəsinə əmr verdi ki, hamılıqla qızılbaşların üzərinə hücuma keçsin. Böyük sayda qoşun dəstəsinin qarşısını almaq üçün qızılbaşlar da hamılıqla döyüşə qatıldılar. Hətta topçular və topları mühafizə etməli olanlar da döyüşə atıldılar və topların mühafizəsiz qalması görüntüsü yarandı. Əlvənd Mirzə bundan bəhrələnməyə cəhd göstərdi. Onun döyüşçüləri meydanın mərkəzini tutmağa çalışanda qızılbaşların ixtiyarında olan topların hamısı birdən atəş açdı və mənbə məlumatına görə bu atəşdən sonra təxminən 7 min nəfər türkman və rum döyüşçüsü həyatla vidalaşmalı oldu (189).

Buna baxmayaraq Əlvənd Mirzənin dəstəsi döyüşün uğurla başa çatdırılması üçün yeni cəhdlər göstərdilər. Baxmayaraq ki, həm Sultan İbrahim, həm də İlyas bəy Halvaçıoğlu döyüşün gedişində xüsusi fədakarlıqlar göstərirdi, amma qarşı tərəfin say üstünlüyü özünü göstərməkdə idi. Adları çəkilən mənbələrdə Sultan İbrahimlə İlyas bəyin fərdi igidlikləri haqqında da məlumatlar mövcuddur. Qızılbaşların müqavimətinin bütünlüklə kəsilməsi üçün qərara alındı ki, onların arxasına böyük bir dəstə göndərilsin və bununla da onların mühasirəsinə başlansın. Məlumata görə, Cəfər paşa bu planın icrasına vəzifələndirildi. Cəfər paşa da bu planın icrasına başladı və bununla qızılbaşların vəziyyəti doğrudan da xeyli mürəkkəbləşdi. Yalnız Şah İsmayılın arxadan qoşunla yetişməsi Sultan İbrahimi və onun sağ qalan döyüşçülərini ciddi təhlükədən xilas edə bildi (190).

"Aləmara-yi Şah İsmayıl"a görə, Şah İsmayıl öz hissiyatı əsasında Sultan İbrahimin dəstəsinin mürəkkəb vəziyyətə düşə bilməsini ehtimal etdi və ona görə də qoşunu hərəkətə gətirdi. "Aləmara-yi Səfəvi" əsərində Şah İsmayılın qoşunu hərəkətə gətirməsinin səbəbi barəsində hər hansı bir ehtimal yoxdur. Çox güman ki, Sultan İbrahimin (İbrahim Mirzənin) dəstəsinin üzvlərindən kimsə bu dəstənin ağır vəziyyətə düşməsi barəsində Şah İsmayıla xəbər çatdırdı və ona görə də Şah İsmayıl qoşunu hərəkətə gətirdi. Hava qaralana yaxın Şah İsmayıl döyüş meydanına yetişdi və dərhal da özünü bu döyüşün ən gərgin nöqtəsinə atdı. Həm Şah İsmayılın, həm də onun əmirlərinin rəhbərliyi altında olan qoşun dəstələrinin döyüşə qatılması Əlvənd Mirzənin rəhbərliyi altında olan dəstənin müqavimətini tamamilə qırdı və bu dəstə böyük itkilərdən sonra qaçıb dağıldı. Adları çəkilən hər iki mənbədə Əlvənd Mirzənin Şah İsmayıl tərəfindən döyüşdə qətlə yetirildiyi, hətta onun nəşinin dəfn üçün Şah İsmayıl tərəfindən Təbrizə göndərildiyi bildirilir.

Amma məlumdur ki, Əlvənd Mirzə Ərzincan ətrafında məğlubiyyətə düçar olduqdan sonra Bağdada, oradan da Diyarbəkrə qaçdı. O, Diyarbəkrdə hakimiyyəti ələ keçirdi və 1504-cü ildə orada dünyasını dəyişdi (191).

İstənilən halda Sultan İbrahimin dəstəsinin üzərinə göndərilmiş olan Sultan Muradın dəstəsi ağır zərbə aldı və geri çəkilməli oldu. Bu qələbə qızılbaş qoşunlarına psixoloji üstünlük gətirdi və gözlənilən ağır döyüş ərəfəsində onların əhval-ruhiyyəsinə müsbət təsir göstərdi. Sultan Murad qoşunları isə əksinə bu uğursuzluqdan sonra ağır təəssüratla qarşılaşmalı oldu.

Ağır döyüş ərəfəsində qızılbaş qoşunlarının yorğunluğunun aradan qaldırılması üçün onlara istirahət verildi. "Aləmara-yi Səfəvi"yə görə isə Şah İsmayıl gecəni ibadətdə keçirdi, yaxınlaşmaqda olan döyüşdə uğur qazanmaq üçün yaradana dualar etdi. Bildirilir ki, səhərə yaxın Şah İsmayılın gözünü yuxu tutdu və yuxuda müqəddəslər ona qarşıda gözlənilən döyüşdən uğurla çıxacağı haqqında xəbər verdi. Bu müjdəni məmnunluqla qarşılayan Şah İsmayıl da səhər açılarkən sevincli xəbəri əmirlərə çatdırdı və onlarda da qələbəyə bir əminlik yarandı (192).

Sultan Muradda da qızılbaşlara qarşı döyüşdə uğur əldə ediləcəyinə böyük bir inam var idi. Bu inam bir tərəfdən qüvvələrin say üstünlüyü, digər tərəfdən də onun qoşunlarında topların sayının çox olması ilə bağlı idi. Sultan Murad bildirirdi ki, qızılbaşların 12 min nəfərlik qoşun dəstəsi poladdan yaranmış dağ olsa belə, topların atəşləri onu yandıracaqdır (193).

"Aləmara-yi Səfəvi"yə görə, Sultan Murad döyüş meydanının mərkəzində qərar tutdu. "Aləmara-yi Şah İsmayıl"a görə isə, Sultan Murad qoşunlarının qruplaşmasına Mustafa paşa rəhbərlik edirdi və döyüş düzülüşünün mərkəzində də o qərar tutdu. Bu mənbənin məlumatına görə, Mustafa paşa bütün qoşunları beş briqadaya (tip) böldü. Sultan Murad bu briqadalardan sonuncusunun rəhbərliyini öz üzərinə götürdü. Bildirilir ki, Şah İsmayıl qarşı tərəfin qüvvələrini müşahidə etdikdən sonra topların fəal içtirakına ehtiyac olmadığını bildirdi. Onun göstərişi ilə çərxçilər irəli atılandan sonra bütün qoşun döyüşə qatıldı. Qarşı tərəfdən isə yeniçəri dəstəsi irəli çıxarıldı. Yeniçərilərin döyüşə atılması döyüş meydanını kifayət qədər qızışdırdı. Onların fəal döyüşünün qarşısının alınması üçün Şah İsmayıl da irəli atıldı və yeniçəri dəstəsinin hücumunu dayandıra bildi. Bundan sonra Şah İsmayıl qarşı tərəfin ikinci briqadası üzərinə hücum çəkdi və bu dəstəyə də ağır zərbə vurdu. Şah İsmayılın rəhbərliyi altında olan dəstənin fədakarcasına vuruşması ikinci briqadanın mərkəzini ağır vəziyyətə saldı. Bu da briqadanın taleyinin həll olunmasına yol açdı. Bundan sonra Şah İsmayıl qarşı tərəfin üçüncü briqadasını hədəf seçdi. Bu briqada güclü briqadalardan biri idi. Çünki qarşı tərəfin topları bu briqadnın sərəncamında idi. Şah İsmayıl öz dəstəsinin qüvvələrini bölüşdürərək həmin briqadanı mühasirəyə almağa cəhd göstərdi və gərgin keçən döyüşdən sonra öz məqsədinə nail oldu. Mühasirə olunmaqdan qurtarmaq üçün yeniçərilərin rəhbəri topların işə salınması haqqında göstəriş verdi. Bu göstərişdən sonra bütün toplardan Şah İsmayılın dəstəsi üzərinə top atəşi açıldı. Mənbənin məlumatına görə, qızılbaşlar özlərini yerə atmaqla top atəşlərindən qoruna bildilər. Top atəşlərinin ardınca Şah İsmayıl və onun qızılbaşları yenidən qarşı tərəfin üzərinə şığıdılar və onlara ağır zərbə vurdular. Bu zaman qızılbaşların arasında qarşı tərəfin tüfəng atəşlərinə tuş gələnlərin olması da mənbədə öz əksini tapmışdı. Şah İsmayıl bundan çox qəmgin olsa da döyüşü davam etdirdi və çox çəkmədi ki, qarşı tərəfin müqaviməti tamamilə qırıldı. "Aləmara-yi Şah İsmayıl" bu döyüşdə bütün qızılbaşların xüsusi hünər göstərdiyini yazırdı. Bu əsərdə çərxçilərlə, Şah İsmayılın ətrafındakılarla bərabər, kamandarların, ox atanların, nizəçilərin səmərəli fəaliyyəti ayrıca olaraq qeyd edilmişdir (194).

"Aləmara-yi Səfəvi"yə görə, Sultan Muradın sərəncamında olan toplar qoşunların cinahlarında yerləşdirilmişdilər. Qızılbaşların çərxçiləri də hər iki cinahdan qarşı tərəfə güclü zərbə endirdilər və hətta Xosrov paşanın rəhbərliyi altında olan dəstəni sıradan çıxara bildi. Çərxçilərin ardınca Şah İsmayıl başda olmaqla qızılbaş qoşunları hücuma keçdilər. Onların güclü zərbəsi Sultan Murad qoşunlarının birinci xətdə olan qüvvələrini çaş-baş saldı, ikinci xətdə olan qüvvələrə ağır zərbə vuruldu və hətta üçüncü xətdə dayanan qüvvələr də qızılbaşların zərbəsinə davam gətirə bilmədilər. Bununla, qızılbaş qoşunları döyüş meydanının mərkəzinə pərçimlənərək irəliləməyə müvəffəq oldular. Qızılbaş qoşunları dördüncü xətdə dayanan qüvvələrin də məhv edilməsi üçün sürətlə irəli atıldılar. Bunu görəndə Sultan Murad bu döyüşdə uğur əldə edə bilməyəcəyinə əmin oldu və döyüş meydanını tərk etməyi qərara aldı. Döyüşün rəhbərlərindən biri olan Mustafa paşa da onun ardınca geri çəkilməyi üstün tutdu. Amma Şah İsmayıl və onu müşayiət edən dəstə Mustafa paşanın təqibinə başladılar. Bütün cəhdlərinə baxmayaraq, Mustafa paşa bu təqibdən yaxa qurtara bilmədi. O hətta əlindəki tüfəngin atəşi ilə Şah İsmayılı qətlə yetirməyə çalışsa da, güllə onun tacına dəydi. Amma Şah İsmayıl ona yetişərək nizə ilə onu atdan yerə saldı, Durmuş xan isə dərhal onun başını bədənindən ayıra bildi (195). Bununla, Almabulağı düzündəki döyüşün taleyi də həll olundu və Şah İsmayılın rəhbərliyi altında olan qızılbaş qoşunları böyük uğur əldə etdilər.

Bir məlumata görə isə, Ağqoyunlu qoşunları döyüşün düzgün tənzimlənməməsi üzündən öz toplarının atəşinə məruz qaldılar. Bildirilir ki, Sultan Muradın qoşunlarında olan İraq və Fars atlıları topların atəş imkanları barəsində kifayət qədər məlumata malik deyildilər. Ona görə də toplar atəşə başlamazdan əvvəl həmin atlılar özlərini qızılbaşların üstünə atdılar və bu zaman öz toplarının atəşi altına düşdülər. Bu da Ağqoyunlu qoşunları daxilinə bir hərc-mərclik gətirdi. Şah İsmayıl da bundan bəhrələnməyə çalışdı. O göstəriş verdi ki, qızılbaş atlıları qarşı tərəfin top atəşlərinin altına düşməsinlər, amma çaşqınlıq içərisində olan Ağqoyunulu atlılarını zərbə ilə qarşılasınlar. Məlumata görə, əsas zərbə Sutan Muradın yerləşdiyi mövqeyə yönəldildi. məqsəd ondan ibarət idi ki, Sultan Muradın ələ keçirilməsi və ya onun zərərsizləşdirilməsi ilə döyüşün taleyinə bir aydınlıq gətirilsin. Şübhə edilmirdi ki, Sultan Muradın itirilməsi ilə qoşunlar da qaçıb dağıla bilərdilər. Qızılbaşlar bu gümanında heç də səhv etməmişdilər. Onlar Sultan Muradın bayrağının dalğalandığı mövqeyə yaxınlaşanda Sultan Murad döyüş meydanını tərk etmək qərarına gəldi. Onun geri çəkilməsini Ağqoyunlu əmirləri və döyüşçüləri qaçış kimi qiymətləndirdilər və Sultanın duruş gətirmədiyi döyüşdə onlar da duruş gətirməyi mənasız saydılar. Qızılbaşlar isə ağqoyunluların sıralarını yarmaqla özlərini hətta qoşunların arxasında biri-birinə bağlanmış arabalara çatdırdılar və onlarn mühafizəçilərinə də ağır zərbə vurdular. Müxtəlif mənbələr bu döyüşdə Ağqoyunluların 10 min nəfər itki verdiyi bildirilir (196).

Bu qələbənin əhəmiyyəti hər şeydən əvvəl çox böyük sayda olan və texniki baxımdan daha yaxşı təchiz olunmuş olan Ağqoyunlu qoşunlarına qarşı

döyüşdə əldə edilməsi idi. Sultan Murad bu döyüşün qələbə ilə başa çatdırılması üçün özünə hətta müttəfiqlər tapsa da, Şah İsmayılın savaş məharəti qarşısında duruş gətirə bilmədi və böyük sayda qoşununu tələf edərək geri çəkilmək məcburiyyətində qaldı. Onun qoşunlarına böyük itki verildi. Bu itki eyni zamanda Sultan Muradın köməyinə gəlmiş Osmanlı qüvvələrinə də yetirildi. Çoxlu sayda əsir və qənimət ələ keçirildi. Həmin qənimət o qədər çox idi ki, onun bölüşdürülməsi ilə qızılbaş döyüşçüləri böyük sayda var-dövlət ələ keçirdilər. Bu məsələdə Şah İsmayıl öz döyüşçülərinin xidmətini lazımınca qiymətləndirdi və onları ələ keçirilmiş qənimətlər hesabına səxavətlə mükafatlandırdı. Qənimət kimi, çoxlu sayda top, silahlar, digər hərbi təchizat, habelə çoxlu sayda at, dəvə ələ keçirildi. Bunlar isə qızılbaş qoşunlarının təchizatının yaxşılaşdırılmasına istiqamətləndirildi. Bu uğurla Şah İsmayıl, onun əmirləri və döyüşçüləri həm də yeni bir döyüş təcrübəsi əldə etdilər.

Bu döyüş qızılbaşlar üçün uğurla başa çatandan sonra Şah İsmayıl namaz üstündə yaradana şükranlığını bildirdi və belə bir böyük qələbəni yaradanın ona iltifatı kimi dəyərləndirdi. Bundan sonra qoşunlarla Əlvənd dağına tərəf irəlilədi və Əlvənd dağının ətəklərində düşərgə salaraq qoşunlara istirahət verdi. İstirahət günlərində Şah İsmayıl həm də Sultan Muradın harada olması haqqında məlumat topladı. Əldə edilən məlumatlara görə, Sultan Murad Şiraza yollandı və orada qoşun toplayaraq yenidən öz itirilmiş hakimiyyətini bərpa etmək istəyirdi. Bildirilirdi ki, Sultan Murad qızılbaş qoşunlarına üstün gəlmək üçün hətta İraq ərəblərindən kömək istəmiş və Osmanlı sarayına da öz nümayəndələrini göndərmişdi. Bundan başqa, onun Diyarbəkr hakimi Əlaüddövlə Zülqədərdən də kömək istəməsi haqqında məlumat vardır. Şah İsmayıl bu məlumatı alanda dərhal uyğun addımların atılmasını məqsədəuyğun bildi. Onun fikrincə, Sultan Murad ətrafına qüvvə toplayıb möhkəmlənməmiş ona növbəti ciddi zərbə vurulmalı idi. Çünki Sultan Murad ətrafına böyük qüvvə toplayacağı halda onun zərərsizləşdirilməsi xeyli çətin ola bilərdi. Ona görə də istirahət üçün dayandığı düşərgədən Şiraza doğru hərəkətə başlamaq haqqında göstəriş verdi (197).

### 13. İsfahan və Şirazın ələ keçirilməsi

Baxmayaraq ki, hava xeyli isti idi və cənuba doğru irəlilədikcə havanın istilik dərəcəsi daha da yuxarı qalxırdı Şah İsmayıl Şiraza doğru irəliləməyi lazım bildi. Amma bu hərəkət zamanı Qum yaxınlığında Şah İsmayıl məlumat aldı ki, Rüstəmdar vilayətinin hakimi Əmir Hüseyn itaətsizlik göstərərək qiyam qaldırmışdır. Bu vilayət Dəmavənd dağı ilə şimal-qərbə uzanan dağlar arasındakı ərazi idi və Firuzkuh bu vilayətin mərkəzi sayılırdı. Əmir Hüseyn Çilavi bu vilayətin hakimi olmaqla əvvəllər öz itaətini bildirsə də, 1503-cü ilin ortalarında qızılbaşlara qarşı bayraq qaldırmışdı. Əmir Hüseyn Çilavinin qızılbaş qoşunlarına qarşı çıxmaq gücü yox idi. Ağqoyunlu dövlətinin varislərinin və əmirlərinin ümidverici vədləri, habelə Osmanlı dövlətindən alınan köməklər Əmir Hüseyni arxayın vəziyyətə gətirmişdi. O güman edirdi ki, ona vəd edilən köməklə nəinki

öz müstəqilliyini təmin edəcək, hətta qızılbaşların iddiasında olduğu ətraf bölgələrə də yiyələnə biləcəkdir (198).

Rüstəmdar hakimi Əmir Hüseyn öz qiyamına başlamazdan əvvəl Osmanlı sarayı ilə də əlaqə yarada bilmişdi. Məlumatlara görə, Osmanlı nümayəndələri hətta Krımdan Həştərxana keçməklə, oradan da gəmilər vasitəsilə Mazandarana gəlir və Əmir Hüseynin yanına yollanırdılar. Mənbələrdə Osmanlı sultanının Əmir Hüseynə məktubları da saxlanmaqdadır. Çox güman ki, Osmanlı sultanı Əmir Hüseynin müəyyən gücə malik olduğunu və göstərilən yardımlarla onun bölgənin güc mərkəzlərindən birini təşkil edə biləcəyini güman edirdi. Şah İsmayıl bu barədə məlumat alan kimi, İlyas bəy Xunuslunun rəhbərliyi altında bir dəstəni Əmir Hüseynin qiyamının yatırılmasına vəzifələndirdi. Özü isə Şiraz istiqamətində hərəkətini davam etdirdi (199).

Mənbələrin birində Şah İsmayılın iki ay İsfahanda qaldığı və sonradan Şiraza doğru irəlilədiyi bildirilir (200). Amma bu məlumat digər mənbələrdə təkrar olunmur. Bildirilir ki, Şah İsmayıl öz qoşunları ilə İsfahan yolundan keçməklə Şiraza doğru yolunu davam etdirdi. Sultan Murad eşidəndə ki, Şah İsmayıl öz qoşunları ilə yaxınlaşmaqdadır ona müqavimət göstərmək imkanında olmadığı üçün Şirazı tərk edib Şüştərə qaçdı. Orada da dayanmağın qorxulu olduğunu görüb Bağdada yollandı. Ona görə də Şah İsmayıl daha Sultan Muradın qoşunları tərəfindən hər hansı bir müqavimətlə rastlaşmayaraq 1503-cü il sentyabr ayının 24-də Şiraza daxil oldu. Bununla, bütün Fars vilayəti də onun hakimiyyəti altına düşdü. Fars vilayətindən olduğu müddət ərzində Şah İsmayıl ətraf vilayətlərin hakimiyyət altına gətirilməsi ilə məşğul oldu. Bu vilayətlərdən bəzilərinin hakimləri könüllü şəkildə öz itaətlərini bildirdilər və həmin hakimlər öz vəzifələrində saxlandılar. Belə könüllü itaət bildirən hakimlərin bir çoxu hətta qiymətli hədiyyələrə də layiq görüldülər. Məsələn, Lar, Bəsrə hakimləri belələrindən idilər. Onlar Şah İsmayılın qərarı ilə öz vəzifələrində saxlandılar. Yəzd hakimi də könüllü olaraq vilayəti təhvil verdi. Şah İsmayıl bu vilayətin hakimliyini Hüseyn bəyLələyə tapşırdı. Hüseyn bəy Lələ isə Şah İsmayılın yaxın ətrafına daxil olduğu üçün o da bu vilayətin hakimliyini öz yaxınlarından olan Şöüb ağaya həvalə etdi. Kerman vilayətini isə Məhəmməd bəy Ustaclının rəhbərliyi altında göndərilmiş qoşun dəstəsi Şah İsmayılın hakimiyyəti altına gətirdi. Bu vilayətə Məhəmməd bəy Pornak adlı birisi hakimlik edirdi və o, Sultan Murad tərəfindən bu vəzifəyə təyin edilmişdi. Məhəmməd bəy Pornak eşidəndə ki, Məhəmməd bəy Ustaclının rəhbərliyi altında qızılbaş qoşun dəstəsi Kermana doğru irəliləməkdədir, onda qohum-qardaşını toplayıb Xorasana qaçdı. Şirazın hakimliyinə isə İlyas bəy Zülqədər gətirildi (201).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Almabulağı çölündə Şah İsmayılın qələbəsindən sonra qızılbaş qoşunlarının Şiraza doğru irəliləməsi və Sultan Muradın canını xilas etmək üçün müxtəlif bölgələrə sığınması aşağıdakı kimi təsvir olunmuşdur: "Süleyman şanlı xaqan hər tərəfə fəthnamələr göndərdi. Ətraf hökmdarlar və məmləkətlərin əyanları türkman sultanlarının fəlakətə uğradıqlarını və talesizliyə düçar olduqlarını yəqin etdilər və şahın gündən-günə

möhkəmlənən şərəfli dövlətinə ümid bəsləyərək, aləmin pənahı olan dərgaha meyil etdilər. [Onlar] hər tərəfdən xilafət taxtının ətəyinə elçilər göndərərək, dünya sultanlarının fəthlərinə bərabər olan bu parlaq qələbə münasibətilə təbrik dedilər və saysız peşkəşlər və bəxşişlər təqdim etdilər. O baharda zəfər nişanlı bayraqlar Əlvənd dağının ətəyinə təşrif gətirərək, baharın mübarək günlərini o cənnətə bənzər çəməndə eyş-işrətlə, şənliklə, söz-söhbətlə və əyləncələrlə keçirdilər. Bu arada xəbərçilər məlumat verdilər ki, Sultan Murad darülmülk Şirazda yerləşərək, Fars məmləkətində hakimiyyəti ələ alıb məğlubiyyətinin əvəzini çıxmaq istəyir. Süleyman şanlı xaqan Süleyman taxtı (Şiraz) tərəfə hərəkət edib, gözəl bəxtli ordu və qalib əsgərlərlə darülmülk İsfahana getdi. Buradan qəflətən Şiraz tərəfə yürüş etdi. Sultan Murad, şahın mübarək məiyyətinin gəlməsi xəbərindən tam sarsılaraq, mübarək dövlətin hücumu qarşısında dayana bilməyəcəyini anlayıb, Şüştər tərəfə qaçdı. Müzəffər bayraqlar tam calal və səadətlə Süleyman taxtının (Şirazın) üzərinə qədəm qoydu. Şiraz o başlıca şahın məskəni oldu. Farsın əhalisi və əyanları ali taxtın ətəyinə gəlib, layiqli peşkəşlər gətirdilər. Fars sakinlərinin hamısı Mürtəza xasiyyətli padşahın ədalət bayraqlarının kölgəsinə sığınaraq, dövranın hadisələrindən asudəlik tapdılar. Amma namurad Sultan Murad müzəffər qazilərin qılıncının və oxunun qorxusundan Şüştərdə dayana bilmədi, oradan Bağdada getdi. Orada da Barik Pornakın ağalığı ucbatından vəziyyətin ürəyincə olmadığını müşahidə etdi. Xaqanın səadətli bayraqlarının cah-calalla yaxınlaşması xəbəri o diyarda yayıldıqda orada qala bilməyib, adı çəkilən Bariklə birlikdə Hələbə getdi" (202).

Şiraz və ətrafı bütünlüklə qızılbaşların hakimiyyəti altına gətirildikdən sonra Şah İsmayıl İraqa yollanmaq fikrinə düşmüşdü. Amma bu planın icrasından əvvəl yolunu Kaşana saldı. Kaşanın əhalisinin böyük bir hissəsi şiə məzhəbinə mənsub idi və ona görə də Şah İsmayılın gəlişi vilayət əhalisi tərəfindən böyük sevinclə qarşılandı. Bundan məmnun qalan Şah İsmayıl göstəriş verdi ki, həmin günlərdə şəhərdə təntənəli bayram təşkil edilsin və vilayət əhalisi öz sevincini bu bayram təntənəsində bölüşsün. Burada qarşılaşdığı münasibətdən Şah İsmayıl çox razı qaldı və bu vilayətin hakimlərindən biri olan qazı Məhəmməd Kaşini öz sarayına dəvət etdi və onu da qazı Şəmsəddin Lahicani ilə birlikdə dövlətinin dini işlərinə rəhbər təyin etdi. Sonra da Şah İsmayıl qışın yaxınlaşması ilə əlaqədar olaraq yolunu Quma saldı və orada qışlaq saldı. Qumda da əhalinin xeyli hissəsi şiə məzhəbinə mənsub idi və ona görə Şah İsmayılın Qumda da qarşılanması böyük təntənə ilə keçdi (203).

"Aləmara-yi Şah İsmayıl" və "Aləmara-yi Səfəvi" əsərlərində Almabulağı çölündəki döyüşdən sonra Şah İsmayıl tərəfindən Sultan Muradın izlənməsi və Şah İsmayılın cənuba doğru irəliləməsi daha geniş və həm də digər mənbələrə nisbətən daha fərqli şəkildə təsvir edilmişdir. Bu mənbələrdəki məlumatlardan aydın olur ki, Sultan Murad uğursuzluğa düçar olandan sonra əvvəlcə Cərfədqan adlı məntəqəyə çəkildi. Amma orada çox dayana bilmədi. Eşidəndə ki, qızılbaş qoşunları onu izləyirlər, onda Sultan Murad İsfahana yollandı. Bu şəhərin müdafiə imkanları Sultan Muradın daha etibarlı şəkildə müdafiəsinə imkan verə bilərdi. Sultan Murad hərəmxanasını İsfahanda saxlayaraq özü Təbərrük kən-

dindəki qalaya sığındı. Şah İsmayıl da onun ardınca İsfahana doğru hərəkətini davam etdirdi. Onun əmirləri və əyanları bir daha məsləhət bildilər ki, Sultan Muradın yanına elçi göndərilsin və ona müqaviməti dayandırmaq təklif edilsin. Amma Sultan Muradın yanına göndərilmiş Qənbər ağa elçiliyinin acı təcrübəsi Şah İsmayılı bu təkliflərdən daşındırdı (204).

Şah İsmayıl qoşunları ilə İsfahan qalasının Həsənabad darvazalarına yaxınlaşdı və qala üzərinə hücuma başlamamış dinc şəkildə qalaya daxil olmağın yollarını aramağa başladı. Sultan Murad İsfahandan çəkilsə də bu şəhərin də təslim olmasını istəmirdi və ona görə şəhər darvazalarının açarlarını bu şəhərin darğası olan və Əhməd Bayanduri kimi tanınan Hacı Kövsəcə tapşırmışdı. Sultan Muradın yaxınlarından sayılan Hacı Kövsəc də şəhər darvazalarını qızılbaşların üzünə açmaq istəmirdi. Onda Şah İsmayıl İsfahanın əyanlarına məktub göndərdi ("Aləmara-yi Səfəvi"yə görə isə şəhər əyanları Şah İsmayıla gizli məktub göndərdilər) və onları Ağqoyunlu qoşunlarına qarşı birgə mübarizəyə dəvət etdi. Şəhər əyanları da bəyan etdilər ki, Şah İsmayılı böyük sevinclə qarşılamağa hazırdırlar. Amma Hacı Kövsəcin qorxusundan bir hərəkət edə bilmirlər. Bundan başqa Sultan Murad İsfahan ətrafındakı məntəqələrə də qadağan etmişdi ki, kimsə qızılbaş qoşunlarına ərzaq yardımı etməsin. Ona görə vaxt ötdükcə qızılbaş qoşunlarının ərzaq təminatında da çətinliklər ortaya çıxırdı (205).

Bu məlumatın doğruluğu onu deməyə əsas verir ki, qızılbaş qoşunlarında sərt intizam və mürşidi-kamilə güclü itaət var idi. Çünki aclığın özünü göstərdiyi günlərdə qızılbaş qoşunları ərzaq toplanması üçün ətraf məntəqələrə hücum etmirdilər. Şah İsmayıl bu məsələnin qarşılıqlı razılıq əsasında həllinə üstünlük verirdi. Elə ona görə idi ki, Şah İsmayıl rəis Yusif adlı birisini yanına çağırtdırdı və ondan ərzaq yardımı göstərilməsini istədi. Rəis Yusifin vəzifəsi mənbədə göstərilməsə də onun vilayətin ağsaqqallarından biri olduğu güman edilir. Şah İsmayıl onunla da çox mehribanlıqla danışdı və ona hətta "ey ata" deyə müraciət etdi. Rəis Yusif də bildirdi ki, ətraf məntəqələrdən ərzaq gətiriləcəyinə ümid edir. Amma bu baş vermədi. Onda Rəis Yusif öz imkanları daxilində olan qədər buğda və arpa gətirib qızılbaşlara təhvil verdi. Şah İsmayıl ətraf məntəqələrin əhalisinin qızılbaşlara ərzaq verməməsinin səbəbi ilə maraqlandı. Rəis Yusif bildirdi ki, bu, Sultan Muradın tapşırığıdır. Sonra onu da əlavə etdi ki, ətraf məntəqələrin kəndxudaları Sultan Muradın taleyinin sönməkdə olmağını hiss etmirlər və ona görə də hələ də onun təsirindən çıxmağa qorxurlar. Bundan sonra Rəis Yusif öz nümayəndələrini ətraf kəndlərin kəndxudalarının yanına göndərdi, onları qəflətə uymamağa, Şah İsmayıla sədaqət göstərməyə, onun xidmətinə gəlməyə çağırdı. Onların nəzərinə çatdırıldı ki, İsfahan şəhəri Şah İsmayıl tərəfindən fəth edildikdən sonra daha onların üzrxahlıq etməyə haqları olmayacaqdır. Ətraf kəndlərin kəndxudaları və böyükləri bu deyilənləri qəbul etdilər və Şah İsmayılın düşərgəsinə gələrək ona öz sədaqətini nümayiş etdirdilər. Bununla qızılbaş qoşunlarının ərzaq məsələsi də həll olundu (206).

Amma İsfahanın mühasirəsi uzun sürdü və dörd aya qədər uzandı. Bu isə şəhərin daxilində də ərzaq qıtlığına yol açdı və şəhər əhalisi arasında ərzaq

qıtlığına narazılıqlar genişlənməyə başladı. Həmin narazılıqlar o səviyyəyə qalxdı ki, Sultan Murad özü bu məsələyə müdaxilə etməli oldu. İnsanların etirazlarının qarşısını almaq üçün göstəriş verdi ki, ərzağı çox olanlar onun bir hissəsini şəhər əhalisi ilə bölüşsünlər. Lakin bu tədbir də şəhər əhalisinin ehtiyaclarının ödənməsinə yetərli olmadı və ərzaq qıtlığı özünü daha təsirli şəkildə göstərməyə başladı. Belə olanda şəhər əyanları və ağsaqqalları yaranmış vəziyyətdən çıxış yolunu qızılbaş qoşunlarının şəhərə buraxılmasında və Şah İsmayılın bu problemin həllinə müdaxilə etməsində gördülər. Vəziyyətin bu istiqamətdə inkişaf etdiyini Sultan Murad da görürdü. Ona görə o, şəhər darğasından tələb etdi ki, İsfahanın müdafiəsini daha da gücləndirsin və qızılbaşların şəhərə daxil olmasına yol verilməsin. Sultan Murad şəhərin Seyid Əhmədxan darvazasının da yaxşıca möhkəmləndirilməsini Hacı Kövsəcə tapşırdı. Hətta tələb olundu ki, hər gecə hər evdən bir nümayəndə şəhərin mühafizəsini çəkən döyüşçülərə qoşulsunlar. Hacı Kövsəc də şəhərin müdafiəsinin gücləndirilməsi üçün bəzi əlavə tədbirlər həyata keçirdi. Bu isə, əslində, Sultan Murada qarşı olan narazılıqları daha da artırdı. Bundan başqa, Sultan Murad ehtimal edirdi ki, tezliklə Fars vilayətində əlavə qoşun toplaya biləcək və nəticədə İsfahan şəhəri ətrafında olan qızılbaş qoşunlarına güclü zərbə endirə biləcəkdir (207).

Şəhər daxilində Sultan Murada qarşı müxalifət təşkil edənlər zahirən onun tapşırığını yerinə yetirib mühafizəçilərə əlavə könüllülər versələr də, fürsət yaranan kimi Hacı Kövsəcı həbs etdilər. Bundan sonra həm qızılbaşlara şəhər daxilindəki vəziyyətlə bağlı xəbər çatdırdılar, həm də qızılbaşların şəhərə daxil olması barəsində şəhərin mühafizəsini öz üzərinə götürmüş keşikçilər arasında şayiə yaydılar. Keçikçilər arasında qarışıqlıq yarananda Sultan Murada müxalifət təşkil edən qüvvələr onların çoxunu qətlə yetirdilər. Bu da imkan verdi ki, şəhər darvazaları açılsın və Şah İsmayıl şəhərə daxil olsun. Mühasirə əziyyətlərindən canını qurtarmış olan şəhər əhalisi Şah İsmayılı böyük sevinc və təntənə ilə qarşıladı. Şəhərin bəzi əyanları qızılbaş qoşunlarının ərzaq ehtiyaclarının aradan qaldırılması üçün böyük miqdarda buğda toplayaraq qoşunların ixtiyarına verdilər. Sultan Murad qızılbaşların İsfahana daxil olmasını Təbərrük qalasında eşitdi və yanında 5 min nəfərlik qoşun dəstəsi olmasına baxmayaraq, vəziyyətinin heç də yaxşı olmadığının fərqinə vardı. Sultan Murad hələ də belə bir gümanda idi ki, ətraf bölgələrdən qoşun toplasa qızılbaşlara qarşı müqavimət göstərə bilər. Amma İsfahanın bütün məntəqələrinin əhalisinin də Şah İsmayıla itaəti qəbul etməsi Sultan Muradın planlarının icrasını qeyri-mümkün etməklə bərabər, özünün həyatını təhlükə qarşısına qoydu. Hətta Sultan Murad bir növ özü mühasirəyə düşdü. Çünki ətraf aləm artıq onunla deyil, Şah İsmayıl ilə birgə idi (208).

Yaranmış təhlükəli vəziyyətdən canını sağ-salamat qurtarmaq üçün Sultan Murad bibisi, həm də Şah İsmayılın xalası olan Məryəm bəyimin xidmətinə əl atdı. Məryəm bəyim Sultan Muradın vəziyyətinin çıxılmaz olduğunu görəndə ona Şeyxoğlunun (Şah İsmayılın) yanına gedəcəyinə və onun bağışlanmasını xahiş edəcəyinə söz verdi. Sultan Murad bibisinin Şah İsmayıl qarşısındakı

iltimasının bir nəticə verəcəyinə heç də inanmırdı. O yaxşı anlayırdı ki, qızılbaş elçisi Qənbər ağanı günahsız yerə qətlə yetirməklə Şah İsmayılın böyük qəzəbinə səbəb olmuşdur və Şah İsmayıl asanlıqla onunla anlaşmaya gəlməyəcəkdir. Sultan Muradın keçirdiyi təşvişlərə baxmayaraq, bibisi Məryəm bəyim Şah İsmayılın yanına yollanmağı qərara aldı. Şah İsmayıl onu hörmət və ehtiramla qarşıladı və öz aralarındakı söhbətdən sonra soruşdu ki, onu görməyə gəlmişdir, yoxsa Sultan Murad haqqında iltimas etməyə. Məryəm bəyim də gəlməyinin məqsədini ona çatdırdı. O, Sultan Muradın hərəkətlərindən narazı olduğunu özü də etiraf edirdi. Amma bununla bərabər, onun bağışlanmasını da Şah İsmayıldan xahiş etdi. Məryəm xanım xahişinin qəbul olunması üçün həm Uzun Həsənın, həm də Şeyx Səfinin cəddinə and verdirdi və həmin insanların ruhu xətrinə Sultan Muradın bağışlanmasını iltimas etdi. Şah İsmayıl xalası Məryəm xanıma Sultan Muradın düşünülməmiş hərəkətlərini, onun elçisini haqsız yerə qətl etdirməsini və barış üçün yer qoymadığını xatırlatdı. Məryəm bəyim onun dediklərini qəbul etməklə bir daha Uzun Həsənin nəslinin kəsilməsinə razı olmamasını istədi. Şah İsmayıl xalasının təkidli xahişindən sonra bəyan etdi ki, Sultan Murad onun yanına gəlib şiə məzhəbini qəbul etsə, onun adına xütbə oxutdurub sikkə vurdursa nəinki günahını bağışlayar, hətta Qızıl Üzən çayından başlamış Bəndər-Abbasa qədər olan ərazilərə onu hakim təyin edər (209). Başqa sözlə, Şah İsmayıl vəd etdi ki, Sultan Muradı təxminən hakimi olduğu ərazilərdə hakim kimi qalmasına qərar verər.

Sultan Murad bibisi Məryəm xanıma Şah İsmayılın şərtlərini qəbul etdiyini və Şah İsmayılın hüzuruna yollanmaq üçün bəxşiş və hədiyyələr hazırlanmasına 3-4 gün vaxt lazım olduğunu bildirsə də, vədinə əməl etmədi. Əksinə, elə yenə Məryəm bəyim vasitəsilə Şah İsmayıla onun şərtlərini qəbul etdiyini çatdırmaqla onun diqqətini yayındıra bildi və öz ətrafını səfərbər etməklə bir neçə gündən sonra gecə ikən gizlicə Təbərrük qalasının divarlarını yararaq Şiraza doğru istiqamət götürdü. Onun bu hərəkəti Şah İsmayılı yenidən qəzəbə gətirdi və Məryəm bəyimi də bu hadisəyə görə məzəmmət etdi. Onun sözlərinə görə, Sultan Muradın ələ keçirilməsi artıq xeyli insanın ölümü bahasına başa gələ bilərdi (210).

"Aləmara-yi Səfəvi"yə görə, Şah İsmayıl İsfahana daxil olduqdan sonra Təbərrük qalasının böyüyünə məktub göndərdi və qalanın təhvil verilməsi üçün əməkdaşlığa dəvət etdi. Təbərrük qalasının böyüyü bunu qəbul etdi və gecələrin birində qızılbaşların qalaya daxil olmasını təmin etdi. Qalanın mühafizəsini təşkil edən Sultan Murad döyüşçülərinin böyük bir hissəsi qətlə yetirildi. Şah İsmayıl bu qalaya daxil oldu və orada artıq ixtiyar yaşında olan xalası Məryəm bəyimlə görüşdü. Məryəm bəyin də Sultan Muradın bağışlanmasını ondan xahiş etdi. Bu zaman Sultan Murad hələ Təbərrük qalasında idi. Şah İsmayıl da onun bağışlanması üçün yuxarıda qeyd olunmuş şərtlərini irəli sürdü. Onun göstərişi əsasında Sultan Murada məktub göndərildi və Şah İsmayılın şərtləri ona çatdırıldı. Sultan Murad da bu məktubla tanış olandan sonra cavab yazdı və 3 gün möhlət istədi. Amma elə həmin gecə Təbərrük qalasını tərk etdi və 2 min

nəfərlik dəstənin müşayiəti ilə Yəzd istiqamətində hərəkətə başladı. Sərəncamında olan 3 min nəfərlik dəstəni isə Şiraza yolladı. Üç günlük möhlət başa çatandan sonra məlum oldu ki, Sultan Murad Yəzdə qaçıbdır. Şah İsmayıl da onun ardınca qoşunlarla Yəzdə doğru istiqamət götürdü. Lakin qızılbaş qoşunlarının yaxınlaşmasından qorxuya düşən Sultan Murad orada da dayana bilməyib Əbərqu istiqamətində geri çəkildi (211).

Sultan Murad həmin istiqamətdə hərəkət edərkən Ərjən səhrasında Yaqub xan və Şeyx Həsən bəy Bayanduri ilə rastlaşdı. Onun göstərişi ilə adları çəkilən şəxslər Fars vilayətinin hakiminə qarşı qoşun çıxararaq onu məğlub etmiş və vilayətə nəzarəti ələ keçirə bilmişdilər. Sultan Muradın gəlməsi xəbərini eşidəndə Yaqub xanla Şeyx Həsən bəy onun qarşısına çıxdılar və gördükləri iş barəsində ona məlumat verdilər. Sultan Murad Fars vilayətinin nəzarət altına alınması xəbərinə yetərincə sevinə bilməmiş Şah İsmayılın onun ardınca gəlməsi haqqında məlumat əldə etdi. Onda Sultan Murad ona hələ də sədaqətli qalmış Əbərqu hakimi Məhəmməd Kərim Kərrənin yanına yollandı. Mənbələrdə bildirilir ki, Məhəmməd Kərim Kərrə 10 min ailəlik kərəhi camaatının başçısı idi. Bu da ona imkan verirdi ki, böyük sayda qoşun dəstəsi toplaya bilsin. Sultan Murad onun yanına gələndən sonra Məhəmməd Kərim Kərrə qoşun dəstəsinin toplanmasına başladı. Bildirilir ki, Məhəmməd Kərrə 10 min nəfəri silah başına cəmlədi və onları qızılbaşlara müqavimət göstərməyə hazırlaşdırdı. Sultan Muradın Əbərquya çatmasından 10 gün sonra qızılbaş qoşunları da Əbərqu ətrafında görünməyə başladılar. Məhəmməd Kərrə qızılbaş qoşunlarını müşahidə etdikdə onların yerdən göyə qədər olduğunu gördü və bundan sonra Sultan Murada sədaqətli qalıb-qalmamaq barəsində götür-qoy etməli oldu (212).

"Aləmara-yi Səfəvi"nin məlumatına görə, Məhəmməd Kərrə əvvəlcə 10 gün ərzində qızılbaş qoşunlarına müqavimət göstərdi. Həmin günlərdə Məhəmməd Kərrə başa düşdü ki, Şah İsmayıla müqavimət göstərmək onun imkanları daxilində deyil. Ona görə də, Əbərqunun təslim edilməsi qərarına gəldi. "Aləmara-yi Şah İsmayıl" əsərində isə Məhəmməd Kərrənin qala daxilində qızılbaşlara hansısa müddətdə müqavimət göstərməsi öz əksini tapmamışdır. Bu əsərdəki təsvirdən də aydın olur ki, Əbərqu hakimi Məhəmməd Kərim Kərrə əvvəlcə Sultan Murada sədaqətli olacağını bildirsə də, qızılbaş qoşunlarının sayını görəndə verdiyi vədin icrasının çətin olacağını anladı. Ona görə Məhəmməd Kərrə ətrafındakılarla məsləhətləşdi və belə bir qərar qəbul olundu ki, Sultan Murad həbs olunsun və Şah İsmayıla təhvil verilsin. Sultan Muradın ətrafında qoşun dəstəsi olduğundan onun həbsi də müəyyən çətinlik təşkil edirdi. Məhəmməd Kərrə onun dəstəsinin üzərinə hücum etməyi planlaşdırdı və nəhayət ki, Sultan Muradın ətrafındakı qoşun dəstəsinin bir hissəsini qətlə yetirməklə onu həbs etdi. Sultan Muradın ətrafındakı adamların bir hissəsi qaçmaqla canını qurtara bildi. Məhəmməd Kərrə də böyük bir sevinclə qala darvazalarını açaraq Şah İsmayılın yanına yollandı və Sultan Muradı ona təhvil verdi (213).

Şah İsmayıl bu xəbərdən xoşhal oldu və Sultan Muradın mühafizəsini Süleyman ağa Rumluya tapşırdı. Süleyman ağa Rumlu qızılbaş qoşunlarının qorçularından idi və görünür o həm də tanınmış döyüşçülərdən biri idi. Mənbə məlumatlarına görə, Süleyman ağa Rumlu bir gecə Sultan Muradın mühafizəsini təmin etməli və səhəri gün Sultan Muradın taleyi müəyyənləşdirilməli idi. "Aləmara-yi Səfəvi"yə görə, Sultan Murad dustaq kimi gətiriləndə Şah İsmayıl onu qəbul etdi və bildirdi ki, onu qoşunların ayağı altında xırd-xəşil etmək niyyətindədir. Amma Sultan Muradın bibisi və özünün də xalasının xahişinə əsasən günahından keçdiyini və saxlanması üçün Dərbəndin Ələmut qalasına göndərəcəyini bildirdi (214).

Sultan Murad isə mühafizəsinin tapşırıldığı Süleyman ağa Rumlunu qiymətli hədiyyələrlə ələ ala bildi. O vəd etdi ki, Süleyman Rumlunun nəslinin 70 arxadönəninə kifayət edəcək qədər pul verməyə hazırdır ki, onu azad etsin. Sözünün təsdiqi kimi Sultan Murad qolundakı bazubəndi açaraq Süleyman ağaya verdi. Həmin bazubənd Əmir Teymurdan Uzun Həsənə çatmış bazubənd idi və 15 min tümən dəyərində qiymətə malik idi. Mənbədə Süleyman ağa acgöz və tamahkar bir insan kimi təsvir olunmuşdur. Bildirilir ki, qiymətli hədiyyə söhbətini eşidən kimi Süleyman ağa Sultan Muradın ayağına vurulmuş zəncirləri açdı, öz atını ona verdi və sonra da onu Şiraz istiqamətində yola saldı. Gecə yarı olandan sonra Süleyman ağa fəryad qoparmağa başladı ki, Sultan Murad qaçmağa müvəffəq olubdur. Sonra da özünü Lələ Hüseyn bəyin və Nəcmi Rəştinin yanına ataraq bu hadisənin onun xəbəri olmadan baş verməsini sübut etməyə çalışdı. Səhəri gün Sultan Muradın qaçması xəbəri Şah İsmayıla çatdırıldı. Şah İsmayıl bu xəbərdən qəzəblənməklə Süleyman ağanın bəhanələrinə də inanmadı. Axtarışlar zamanı Süleyman ağadan qiymətli bazubənd tapılmışdı və bu da Şah İsmayılın onun haqqında olan gümanlarını daha da qətiləşdirdi. "Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, təkidlə günahsızlığını sübut etməyə çalışanda Şah İsmayıl onun sözlərinin yalan olduğunu, Sultan Muraddan bazubənd aldıqdan sonra onu azad etdiyini bildirdi. Süleyman ağa bu dəfə də günahsız olduğunu iddia edəndə, Şah İsmayıl onun qolunda olan bazubənbdləri açmağı göstəriş verdi. Ətrafdakılar Süleyman ağanın qolunda doğrudan da bazubənd olduğunu gördükdə Şah İsmayılın bundan xəbərdar olmasını kəramət əlaməti kimi qəbul etdilər və Şah İsmayılın imam övladı olmasına öz yəqinliklərini gizlətmədilər. Süleyman ağanın taleyinə gəlincə isə Şah İsmayıl onun qətlinə fərman verdi (215).

Şah İsmayıl şübhə etmirdi ki, Sultan Murad Şiraza yetişdikdən sonra yenidən qoşun toplamağa cəhd göstərəcəkdir. Bu isə onun həbsini yenidən çətinləşdirə bilərdi. Ona görə də qoşunla Şiraza doğru irəliləmək barəsində göstəriş verdi. Amma hələ yolda olarkən Şirazdakı Ağqoyunlu əmirlərindən olan Mənsur bəy Pornak özünü Şah İsmayıla yetirdi və ona sədaqətini bəyan etdi. Mənsur bəy Pornak qızılbaş qoşunlarının yaxınlaşması və Sultan Muradın həbsi barədə məlumat alandan sonra Şah İsmayıla sədaqətini bildirməyə gəlmişdi. Onun sözlərinə görə, öz ailəsinin taleyindən qorxduğu üçün əvvəlcə-

dən Şah İsmayılın xidmətinə yetişə bilməmişdi. Mənsur bəy eşidəndə ki, Sultan Murad əsirlikdən qaçıb və Şiraza yollanıb ciddi təşvişə düşdü və Şah İsmayıla da bildirdi ki, Şirazda olan ailəsinə görə çox narahatdır. O şübhə etmirdi ki, Sultan Murad Şiraza yetişəndən sonra ailə üzvlərinə divan tuta bilər. Şah İsmayıl bu narahatçılığa son qoyulması üçün İlyas bəy Halvaçıoğlunun rəhbərliyi altında Mənsur bəy Pornakla birlikdə 3 min nəfərlik bir dəstə göndərdi. İlyas bəy dərhal yola düşərək Şirazı ələ keçirməli və Şah İsmayıl da aramla hərəkətini davam etdirərək sonradan Şiraza yetişməli idi (216).

İlyas bəy Halvaçıoğlunun qızılbaş dəstəsi ilə Şiraza göndərilməsi "Aləmara-yi Səfəvi"də fərqli şəkildə təsvir edilmişdir. Bu əsərdə olan məlumata görə, Şah İsmayıl Şiraz istiqamətində hərəkətdə ikən qızılbaş qoşunlarına qarşı 3 min nəfərlik bir qoşun dəstəsinin gəlməsini gördü. Həmin qoşun dəstəsi yaxınlaşanda məlum oldu ki, ona Zöhrab bəy adlı birisi rəhbərlik edir. Vaxtilə Rüstəm Mirzə Ağqoyunlu tərəfindən Şah İsmayıl (İsmayıl Mirzə) ailəsi ilə birlikdə həbs edilərkən onların mühafizəsi Zöhrab bəyə tapşırılmışdı. Zöhrab bəy də həmin zaman Şah İsmayıla, onun anasına və qardaşlarına mümkün olan qayğını göstərmişdi. Şah İsmayıl atlı dəstəsi ilə yaxınlaşan Zöhrab bəyi görəndə tanıdı və onunla görüşməkdən məmnun oldu. Hətta onunla daha əvvəl rastlaşmaq istədiyini söylədi. Zöhrab bəy də xeyli əvvəldən onun xidmətinə qatılmaq istədiyini, lakin Sultan Muradın qorxusundan bunu edə bilmədiyini bəyan etdi. Şah İsmayılın yanında Sultan Muradın Şiraza qayıtması xəbərini eşidəndə o da böyük təşviş keçirdi, Sultan Muradın xəzinəsini Şah İsmayıla gətirdiyi üçün qorxurdu ki, Sultan Muradın onun ailə üzvlərindən qisas alsın. Onda Şah İsmayıl göstəriş verdi ki, İlyas bəy Halvaçıoğlu qızılbaş dəstəsi ilə Şiraza yollansın, Sultan Muraddan daha tez bu şəhərə çatmağa çalışsın və Zöhrab bəyin ailəsini öz nəzarəti altına alsın. Zöhrab bəy də onunla Şiraza yola düşdü (217).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Mənsur bəy Pornakla Zöhrab bəyin adı ilə bağlanılan sonrakı təsvirlərdə bir oxşarlıq vardır. Bildirilir ki, Sultan Murad Şiraza yetişdikdən sonra Ağqoyunlu əmirlərini ətrafına topladı. Onlara həm başına gələnləri danışdı, həm də şəhərdə baş verənlər haqqında onlardan məlumat aldı. Sultan Murada çatdırıldı ki, Zöhrab bəy öz qoşun dəstəsini və Zülqədər elinin ağsaqqallarını hərəkətə gətirərək Şah İsmayıln qarşılanmasına yollanmışdır. Sultan Murad da bu xəbərdən xeyli qəzəbləndi və ondan qisas alınması üçün ailə üzvlərinin əsir götürülməsini, habelə onun evinin talan edilməsini tapşırdı. Lakin bu xəbər Pornak camaatı tərəfindən birmənalı şəkildə qarşılanmadı. Əvvəla, Sultan Muradın və onun qoşun dəstəsinin Mənsur bəyə qarşı qisasçılığı və soyğunçuluğu bu insanların xoşuna gəlmədi, digər tərəfdən də onlar Şah İsmayılın qoşunları ilə yaxınlaşmaqda olması xəbərini eşitdiklərindən Sultan Murada qarşı müqavimət göstərməyi qərarlaşdırdılar. Pornak elinin ağsaqqalları və 70-80 nəfərlik əyanları toplaşıb Mənsur bəyin evinə gəldilər. Onlar Mənsur bəyin ailəsinə həm azuqə gətirdilər, həm də evin müdafiəsini möhkəmləndirdilər. Təsvirdən belə məlum olur ki, Mənsur bəyin hündür həyət divarları olmuşdu və bu da evin dairəvi müdafiəsinin təşkil edil-

məsini asanlaşdırmışdı. Sultan Muradın silahlı türkmanları Mənsur bəyin evini mühasirəyə alıb onu tutmağa çalışsalar da bir nəticəyə hasil ola bilmədilər. Çünki divarlar üzərində mövqe tutmuş tüfəngçilər türkmanların yaxınlaşmasına imkan vermədilər (218).

Sultan Murad bu xəbərdən də çox qəzəbləndi. Çox güman ki, Sultan Murad daha böyük qoşun dəstəsinin bu işə cəlb edilməsindən ehtiyat edirdi. Ona görə car çəkdirdi ki, şəhər əhli Mənsur bəyin evinə hücum etsin və nəyi ələ keçirə bilsə özü ilə aparsın. Bununla Mənsur bəyin evi talan edilsin. Bu göstəriş Şiraz əhli tərəfindən rəğbətlə qarşılanmadı. Şəhərin məhəllələrinin böyükləri və kətxudaları Sultan Murada öz etirazlarını bildirdilər və onu öz göstərişindən çəkinməyə çağırdılar. Sultan Murad isə bu tələblə razılaşmadı. Niyyətinə çatmaq üçün Sultan Murad özü Mənsur bəyin evinin həndəvərinə gəlmək və orada Pornak camaatını da cəzalandırmaq istədi. Belə olanda şəhər ağsaqqalları ona xəbər göndərdilər ki, niyyətlərindən əl çəkməsə Məhəmməd Kərrə kimi onlar da Sultan Muradı həbs edib Şah İsmayıla təhvil verəcəklər. Bu tələbdən sonra Sultan Murad ehtiyatlanmağa başladı. Şah İsmayılın qoşunları ilə yaxınlaşmaqda olduğu bir vaxtda şəhər ağsaqqallarının təhdidi kifayət qədər real təhdid idi. Həmin təhdidlə üzbəüz qalmamaq üçün Sultan Murad göstəriş verdi ki, Mənsur bəyin evinin ətrafında olan türkman silahlıları geri qayıtsınlar. Elə bu zaman ona məlumat çatdırıldı ki, İlyas bəy Halvaçıoğlu 3 min nəfərlik qızılbaş qoşun dəstəsi ilə yaxınlaşmaqdadır. Sultan Murad Şiraza gələndə ümid edirdi ki, bu vilayətin farslardan, zülqədər və əfşar tayfalarından ibarət təxminən 300 min nəfərlik əhalisini öz ətrafında səfərbər etməyə müvəffəq olaraq qızılbaşlara qarşı daha ciddi mübarizəni təşkil edə biləcəkdir. Lakin Mənsur bəyin evinin ətrafında cərəyan edən hadisələr onu göstərdi ki, Şirazda dayanmaq artıq Sultan Murad üçün real təhlükədir və ona görə də ətrafını toplayaraq Səlasil qalası ("Aləmara-yi Səfəvi"yə görə isə Şulistan yolu ilə) istiqamətində hərəkətə başladı. Onu 5 min nəfərlik qoşun dəstəsi müşayiət edirdi (219).

Sultan Murad Şirazı tərk edən günün səhəri İlyas bəy Halvaçıoğlu və Mənsur bəy ("Aləmara-yi Səfəvi"yə görə Zöhrab bəy) Şiraz yaxınlığındakı Allah-Əkbər keçidinə çatdılar. Mənsur bəy ailəsinin sağ-salamat qalacağına ümid bağlamırdı. Ona görə tezliklə ailəsindən bir xəbər tutmağa çalışırdı. O özlüyündə belə bir fikrə gəldi ki, əgər onun ailəsi Sultan Muradın qəzəbindən xilas ola bilibsə, bu möcüzə Şeyx Səfi ocağının kəramətindəndir. Çox tezliklə öz ailəsinin ətrafında baş verənlərdən və ailəsinin sağ-salamat qalmasından xəbər tutandan sonra Şeyx Səfi ocağının kəramətinə artıq bir daha şübhə etmədiyini bildirdi. Mənsur bəy bəyan etdi ki, ümidini Şeyx Səfi ocağına bağlayanlar heç vaxt peşman olmazlar (220).

İlyas bəy Halvaçıoğlu ilə Mənsur bəy Şiraza daxil olanda Sultan Murad artıq bu şəhərdən xeyli uzaqlaşmışdı. Şəhər əhalisi adı çəkilən şəxsləri böyük sevinclə qarşıladılar. Çünki şəhərin qızılbaşların nəzarəti altına keçməsi burada baş verən özbaşınalıqlara son qoya bilər və şəhərin daha aram həyatını təmin edə bilərdi. Üç gündən sonra isə Şah İsmayıl qoşunlarla Şiraza yetişdi. Bütün

şəhər əhalisi onun qarşılanmasına çıxdı. Şah tərəfindən şəhər əhlinə mərhəmət göstərildi və bir müddət Sultan Muradın sarayında qaldı. Elə həmin günlərdə Şah İsmayıl həm də Sultan Muradın taleyi ilə maraqlandı. Ona məlumat verildi ki, Sultan Murad Şirazı tərk etdikdən sonra Bağdada yollanmışdır. "Aləmara-yi Səfəvi"yə görə isə, Şah İsmayıl Şirazda olarkən Sultan Muradın şəhərdən qaçaraq Sefid qalası istiqamətində hərəkət etməsi haqqında məlumat aldı. O, üç gün Şirazda qaldıqdan sonra yenidən Sultan Muradın ələ keçirilməsi niyyəti ilə Şirazı tərk etdi. Sultan Murad isə Sefid qalasında dayanmayıb Şüştərə üz tutdu. Burada onu Şüştər qalasının hakimi Abdulla Şüştəri qarşıladı və Sultan Muradın istəkləri ilə maraqlandı. Sultan Murad da bildirdi ki, özünə möhkəmlənmək üçün münasib bir yer axtarır və istəyir ki, orada ətrafına çoxlu sayda qüvvə toplasın, qızılbaş qoşunlarına qarşı yenidən müharibəyə qatılsın. Mənbənin məlumatına görə, Sultan Murad hələ Şüştər qalasına daxil olmamış Şah İsmayıl onun niyyətindən xəbər tutdu və Abdulla Şüştəriyə məktub göndərdi. Ona tövsiyə etdi ki, Sultan Muradı qalaya buraxmasın. Çünki bu, Abdullanın özü üçün yaxşılıqla qurtarmazdı. Şah İsmayıl məktubunda onu da açıqladı ki, imkanı varsa Sultan Muradı tutub saxlasın və ona təhvil versin. Görünür ki, Abdullanın sərəncamında Sultan Muradı həbs etmək üçün yetərli olacaq qədər qüvvə yox idi. Ona görə də çalışdı ki, siyasətlə Sultan Muradın Şüştər qalasından uzaqlaşmasına nail olsun. Abdulla Şüştəri bunun üçün Sultan Murada çatdırdı ki, onun qalasında həm azuqə ehtiyatı, həm də barıt ehtiyatı çox azdır. Bu ehtiyatlarla uzun müddət davam gətirmək mümkün olmaz. O, Sultan Murada məsləhət gördü ki, Diyabəkr tərəfə yollansın və Əlaüddövləyə sığınsın. Şah İsmayıl təhlükəsinin yaxınlaşmaqda olduğu üçün Sultan Murad bu təkliflə razılaşdı və 7 min nəfərlik dəstənin müşayiəti ilə Diyarbəkrə yola düşdü. Bu məlumat Şah İsmayılı sevindirdi. Çünki artıq Sultan Murad narahatçılığından rahat olmaq olardı. Sultan Murada öz qalasında yer vermədiyi üçün Şah İsmayıl Abdulla Şüştəriyə qiymətli hədiyyələr göndərdi və özü isə geriyə, İsfahana doğru istiqamət götürdü (221).

Bununla, Fars vilayəti bütünlüklə Şah İsmayılın hakimiyyəti altına düşdü və 1503-cü ilin hərbi kampaniyası da başa çatmış oldu. Mənbələrdəki məlumata görə, Şah İsmayıl Quma qayıtmağı və Qumda qışlağa dayanmağı qərara aldı və Qum ətrafına yola düşdü. Bildirilir ki, qışlaq dövründə Şah İsmayıl qoşunlara da, qoşun əmirlərinə də istirahət verdi. Şah İsmayıl, onun əyanları və əmirləri də bu qışlaq dövründə vaxtlarını qayğısız keçirməyə çalışırdılar. Qumun həm havası münasib idi, həm də görünür ərzaq və azuqə baxımından burada hər hansı bir çətinlik mövcud deyildi. Qumda olarkən Şah İsmayıl dövlət aparatının möhkəmləndiriıməsi ilə bağlı da bəzi qərarlar qəbul etdi, kadr dəyişiklikləri apardı. Onun göstərişinə əsasən, Xacə Şərafəddin Mahmudcan Deyləmi Qəzvini dövlətin ikinci vəziri təyin edildi və ona Əmir Zəkəriyyə ilə birlikdə dövlətin idarə edilməsi səlahiyyətləri verildi. Amma hələ qışlaq dövrü başa çatmamış Şah İsmayıla ətraf bölgələrdən müəyyən təşviş doğurucu məlumatlar çatmağa başladı (222).

## 14. Dəmavənd-Rüstəmdar istiqamətində hərbi yürüş

Yuxarıda qeyd edildiyi kimi, Rüstəmdar hakimi Əmir Hüseyn Çəlavi Şah İsmayıla itaət yolundan qaçaraq bölgədə öz bayrağını qaldırmışdı. Onun həmin bölgədə möhkəmlənməsi və sonradan öz hakimiyyətinin hüdudlarının genişləndirilməsi üçün Əmir Hüseyn hətta kənarlardan da kömək alırdı. Sultan Muradın qoşunlarından və ətrafından qızılbaşların hakimiyyətini qəbul etmək istəməyən qüvvələr axışıb Rüstəmdara gəldikcə Əmir Hüseynin iddiaları da güclənirdi. Sultan Muradla ilk qarşılaşmadan sonra onun Murad Cahanşahi adlı sərkərdəsi də 2 min nəfərlik qoşun dəstəsi ilə Dəmavəndə gələrək Əmir Hüseynə qoşulmuşdu. Murad Cahanşahi Uzun Həsənin qardaşı oğlu olan Cahangir Mirzənin oğlu idi. Ağqoyunlu qoşunlarının başqa bir dəstəsi isə Firuzkuhda yerləşdirilmişdi. Hələ Şah İsmayılın İsfahan və Şiraza doğru hərəkəti zamanı bu qüvvələr fəallaşmağa başladılar. Bu qüvvələrdə belə bir güman var idi ki, Şah İsmayıl öz qoşunları ilə cənuba doğru irəliləməkdədir və onun əsas qüvvələri bölgədən uzaqdadırsa onda bölgədəki hüdudlarını daha da genişləndirə bilərlər. Əmir Hüseyn Çilaviyə onun əmirləri məsləhət gördülər ki, Şah İsmayılın uzaqda olduğuna görə, Vəramin və Tehran istiqamətində məskunlaşmış 300 ailəlik qızılbaşlara hücum edilsin, bu ailələr talan edilsin, onların üzvləri əsir götürülsün. Əmir Hüseyn də bu məsləhəti qəbul etdi və böyük bir qoşun dəstəsi ilə Vəramin istiqamətində olan qızılbaşların üstünə hücum çəkdilər. Bu hücum zamanı çoxlu sayda adam qətlə yetirildi, çoxları isə əsir götürüldü (223).

Belə bir məlumatı alandan sonra Şah İsmayıl qərara aldı ki, İlyas bəy Xınıslını bir dəstə qızılbaşla Dəmavənd-Rüstəmdar istiqamətinə göndərsin. İlyas bəy Xınıslı da qızılbaş qoşunlarının yetişəcəyi ana qədər bölgədə asayişi təmin etməli və Əmir Hüseyni itaət altına gətirməli idi. Əmir Hüseyn isə bölgə hakimliyinə iddialı olduğu üçün İlyas bəyin dəstəsinin gəlişini heç də razılıqla qarşılamadı. Mənbə məlumatlarına görə, Əmir Hüseyn öz qüvvələrini toparlayaraq Rey yaxınlığında qəfil şəkildə İlyas bəyin dəstəsinin üstünə hücum etdi. İlyas bəy də bu hücumu qarşıladı və Əmir Hüseynin sürətli hücumunun qarşısını aldı. Lakin Əmir Hüseynin qüvvələrinin qarşısında müqavimət göstərilməsinin mümkün olmayacağı bəlli olduğu üçün İlyas bəy dəstəsini Vəramin qalasına çəkdi. İlyas bəy bu qalada qoşun dəstəsinin etibarlı müdafiəsini təmin edə bildi. Əmir Hüseyn isə bu dəstəni məhv etmək və bölgəni qızılbaş təsirindən təmizləmək planından əl çəkmədi. Amma Vəramin qalasına daxil olmaq Əmir Hüseynin qüvvələrinə müyəssər olmadı. Onda Əmir Hüseyn fitnə və məkrlərə əl atdı, İlyas bəylə barışıq yoluna döndüyünü bəyan etdi və onunla qarşılıqlı münasibətlər qurmaq əzmində olduğunu çatdırdı. Bununla bağlı Əmir Hüseyn bir neçə qasidini İlyas bəyin yanına göndərdi. Nəhayət, İlyas bəy onun sözlərinə inandı və Vəramin qalasını tərk etdi. Bu məqamı gözləyən Əmir Hüseyn dərhal onu həbs etdirdi və qətlə yetirdi (224).

"Tarix-i aləmara-yi Abbasi" əsərində İlyas bəy Xınıslının şəhid düşməsi belə təsvir olunmuşdur: "Əmir Hüseyn Kiya Çəlavi bütün Rüstəmdarı, Firuzkuh

dağlarını, Dəmavəndi, Həbəlrudu və o tərəfləri öz əlinə keçirmişdi. [Onun] on iki min süvari və saysız-hesabsız piyadası vardı. [O], qalaların möhkəmliyinə və dağların yüksəkliyinə güvənərək, müxalifət və itaətsizlik fikrinə düşdü və üsyana qalxaraq, İraq məmləkətinin ətrafına əl uzatdı. İraqda vəziyyətlərindən narazı olan Bayanduri türkmanlarının bir qismi Murad bəy Cahanşahlunun sərkərdəliyi ilə Rüstəmdar dağlarını və Əmir Hüseyn Kiyanın dərgahını sığınacaq bilərək, onun başına yığışmışdılar. Buna görə də o, (yəni Əmir Hüseyn) əvvəlkindən daha çox qürur və lovğalığa qapılaraq, padşahın sidrə nişanlı astanasının mülazimləri ilə ədəbsiz davranırdı. [Şah İsmayıl] səmalara yüksələn bayraqlarla Fars məmləkətinə getdiyi zaman İlyas bəy Ayğutoğlunu bir dəstə ilə onun şərini dəf etməyə göndərdi. Əmir Hüseyn Kiya bu xəbəri eşidən kimi, qızılbaş qoşunu toplanmadan öncə İlyas bəyin üzərinə hücum etdi. Sözügedən [İlyas bəy] Vəramin qalasına çəkildi. Cəlavilər qalanın ətəyinə gəlib, bir müddət onu mühasirədə saxladılar. Axırda əhdü-peyman əsasında onunla görüşüb, məkr, hiylə və xəyanətlə o sadə qəlbli türkü onun bir dəstə mülazimləri ilə birlikdə Rey [mahalının] Kəbud-Günbəd [adlı yerində] şəhid etdilər" (225).

Mənbələrdə buna oxşar təsvirlər vardır. Amma bu məlumatlardan fərqli olan məlumatlarla da rastlaşmaq mümkündür. Bildirilir ki, İlyas bəy Xınıslı 300 nəfərlik bir dəstə ilə bölgəyə gələndə Əmir Hüseyn ətraf məntəqələrin əhalisini talan etmiş, əldə etdiyi var-dövləti Murad bəyə təhvil vermiş və özü isə Rüstəmdara tərəf dönmüşdü. Murad bəy əhalinin talan edilmiş var-dövləti ilə bölgədən hələ uzaqlaşmamışdı. İlyas bəy qərara aldı ki, Murad bəy Cahanşahinin üzərinə hücuma keçsin. Bu yolla İlyas bəy onun qarət etdiyi var-dövləti əlindən alaraq Vəramin qalasına tərəf çəkildi. Murad bəy ona ciddi bir müqavimət göstərə bilmədi və yalnız onu edə bildi ki, başına gələnlər haqqında Əmir Hüseynə məlumat göndərsin. Əmir Hüseyn də qızılbaş qoşun dəstəsinin gəlməsi xəbərini eşidəndə Mazandaran və Rüstəmdar dəstələrini hərəkətə gətirərək Vəramin qalasına yaxınlaşdı. Bu qala Əmir Hüseynin qüvvələri tərəfindən mühasirə edildi. "Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, İlyas bəy bu mühasirədən heç də çəkinmədi və qarşı tərəfin qüvvələrinə qarşı hücumlar planlaşdırmağa başladı. O, qalaya daxil olanda orada 400 nəfərlik qoşun dəstəsi var idi. Həmin dəstəni də özünə birləşdirən İlyas bəy Əmir Hüseynin qoşunları üzərinə sürətli hücum təşkil etdi. Elə ilk hücumda ona çox ağır zərbə vuruldu. Yəni, Əmir Hüseyn elə bir ağır zərbə aldı ki, yalnız Murad Cahanşahinin rəhbərliyi altında olan qoşun dəstəsinin yetişməsindən sonra qalanı yenidən mühasirəyə almaq mümkün oldu. Bundan sonra da İlyas bəy hücumunu dayandırmadı. O sərəncamında olan dəstənin 200 nəfərini qala daxilində saxladı və 500 nəfərlik dəstə ilə Murad bəyin qüvvələri üzərinə hücum etdi. Bu dəfə də qarşı tərəfə müəyyən itkilər vuruldu. Bununla belə, çoxsaylı qoşun qarşısında 500 nəfərlə döyüşməyin çətin olduğunu görəndə İlyas bəy qalaya sığınmağı qərara aldı. Adı çəkilən mənbə Murad bəyin dəstəsinin 20 min nəfərdən ibarət olduğunu bildirirdi (226).

Bundan sonra Vəramin qalasının gücləndirilmiş mühasirəsi başladı. Hər hansı bir tədbirin görülməyəcəyi təqdirdə İlyas bəy uzun müddət Vəramin qala-

sında müdafiə oluna bilərdi. Əmir Hüseyn isə bununla barışmaq istəmirdi. O şübhə etmirdi ki, İlyas bəyi ələ keçirməsə yerli əhalinin qınağı ilə qarşılaşacaqdır. Çünki bölgəyə hakimlik etmək iddiasında olan Əmir Hüseyn kimi bir şəxs çox böyük qoşun dəstəsi ilə bir neçə yüz nəfərlik qoşun dəstəsinə malik olan İlyas bəyin öhdəsindən gələ bilmirdi. Ona görə Əmir Hüseyn nə etməyin lazım olduğunu düşündüyü günlərdə İlyas bəy qala xaricinə çıxaraq yenidən yerli qoşunların üzərinə hücum çəkdi. Belə qəfil və sürətli hücum sonradan da təkrarlandı və onların nəticəsində yerli qoşunlardan xeyli sayda ölən və yaralanan oldu. Mənbədəki məlumata görə, İlyas bəyin bu hücumları elə qəfil və sürətlə baş verirdi ki, Əmir Hüseynin döyüşçüləri duyuq düşüb atlanana qədər qızılbaşlar başqa yolla qalaya daxil ola bilirdilər. Hətta ilk vaxtlar Əmir Hüseyn bu gücə hücumlarının İlyas bəy tərəfindən hyata keçirilməsini heç təsəvvürünə belə gətirə bilmirdi. Ona görə ətrafa öz atlılarını göndərmişdi ki, axtarıb müşahidə etsinlər və döyüşçülər onların üzərinə kim tərəfindən hücum edildiyini müəyyənləşdirsinlər. Məlum olanda ki, bu hücumlar İlyas bəy tərəfindən həyata keçirilib, Əmir Hüseyn bir daha başa düşdü ki, açıq döyüşdə onunla bacara bilməyəcəkdir. Nə edilməsi barəsində əmirləri ilə məsləhətləşdikdə Murad bəy Cahanşahi təklif etdi ki, yalnız sülh, danışıq, dostluq görüntüsü yaratmaq yolu ilə İlyas bəyi tələyə salmaq olar. Əmir Hüseyn də bu işi Murad bəyə həvalə etdi. Qərara alındı İlyas bəyi tələyə salmaq üçün ona məktub göndərilsin (227).

Bu qərar ortaya çıxanda Şah İsmayıl artıq Qumda idi. Əmir Hüseyn də təşviş içində idi ki, Şah İsmayıldan istənilən vaxt İlyas Xınıslıya kömək gələ bilər və belə olardısa onda Dəmavənd-Rüstəmdar bölgəsinin hakimliyini əldə saxlamaq onun üçün daha da çətin olacaqdı. İlyas bəyin dəstəsinin məhv edilməsini Əmir Hüseyn özünün üstünlüyü kimi dəyərləndirirdi. Ona görə də fəndə əl atıldı və Əmir Hüseyn qızılbaş əmirinə məktub göndərməyə razı oldu. Əmir Hüseynə görə bu məktub elə bir məzmunda olmalı idi ki, İlyas bəy orada yazılanlara inansın və qaladan bayıra çıxsın. Bunun üçün də xeyli düşünmık lazım gəldi.

Əmir Hüseyn tərəfindən İlyas bəyə göndərilən məktubda deyilirdi ki, Şah İsmayıl bizdən incik düşmüş və ona görə and içmişdir ki, Mazandaran və Rüstəmdara gələrək bu vilayətin hətta ağaclarını da yerindən çıxarsın. Əmir Hüseyn bildirirdi ki, qızılbaş qoşunlarına qarşı müqavimət göstəmək üçün onların yetərli gücü yoxdur. Ona görə İlyas bəydən xahiş olunurdu ki, Əmir Hüseynlə Şah İsmayıl arasında dostluğun və barışın yaranması üçün vasitəçilik etsin. Əmir Hüseyn bu məqsədlə İlyas bəylə görüşməyə ehtiyac duyduğunu da bəyan etdi. Sonra bu məktub elə bir adamla qala daxilinə göndərildi ki, həmin adam da öz sözləri ilə məktubda yazılanların doğruluğunu çatdıra bilsin. İlyas bəy məktubda yazılanları diqqətlə oxudu və öz sadəlövhlüyü üzündən Əmir Hüseynin sözlərinə inandı. O, Əmir Hüseynin dəvətini qəbul edərək onun düşərgəsinə yollandı və ona qonaq oldu. Yemək vaxtı Əmir Hüseynin adamları tökülüşərək İlyas bəyi və onu müşayiət edən şəxsləri öldürdülər. Bundan sonra Əmir Hüseyn Rüstəmdara, Murad bəy isə Firuzkuha yollandı (228).

Həmin günlərdə Şah İsmayıl Semnanda da onun tərəfdarlarına Əmir Hüseyn tərəfindən zərbə vurulması və Semnanın nəzarət altına alınması xəbəri çatdırıldı. Mənbəlrədə olan məlumata görə, Astrabad hakimi olmuş Hüseyn Mirzə bölgədə Şah İsmayıl hakimiyyətinin möhkəmləndirilməsi üçün Semnan qalası üzərinə hücum etmiş və bu qalanı nəzarət altına almışdı. Bu qalada Rüstəmdar hakimi Əmir Hüseynin nəslindən olan Əfrasiyab Çilavı şəhər ərkinə və narınqalasına sığındı və sonra da düşdüyü vəziyyət haqqında Əmir Hüseyn Çilaviyə xəbər göndərdi. Əfrasiyab Çilavi istəyirdi ki, ona kömk göndərilsin və o da qərar tutduğu ağır vəziyyətdən canını xilas etsin. Əmir Hüseyn də bu barədə məlumat alan kimi dərhal Murad bəy Cahanşahi və bir sıra əmirlərlə onun köməyinə yollandı və Semnanı oradakı qızılbaşlardan təmizlədi. Bununla bağl, xəbər də Şah İsmayıla Qumda olarkən çatdırıldı. Şah İsmayıl da yaranmış vəziyyətə uyğun olaraq qərar qəbul etdi və Əmur Hüseyn Çilaviynin itaətsizliyinin qarşısını almaq üçün ciddi tədbirlər həyata keçirilməsinə qərar verdi (229).

Xüsusilə, İlyas bəy Xınıslının bir təcrübəli əmirin şəhid olması Şah İsmayılı son dərəcə qəzəbləndirdi və kədərləndirdi. Şah İsmayıl özlüyündə and içdi ki, İlyas bəy Xınıslının həyatına son qoymaqla onun ürəyini yandırmış Əmir Hüseyn Çilavini yandırmasa ondan əl çəkən deyil. Ona görə də, Şah İsmayıl həmin kədərləndirici xəbəri alan kimi dərhal qoşunlarına hərəkət əmir verdi. Bu zaman hələ qışlaq mövsümü də başa çatmamışdı və 1504-cü ilin fevralında qızılbaş qoşunları Qum ətrafından Vəramin-Firuzkuh istiqamətində irəliləməyə başladılar. Şah İsmayılın qərarı ilə bu zaman qızılbaş qoşunlarının bir dəstəsi Bayram bəy Qaramanlının, Musa bəy Xəlifənin və Çülpa bəyin rəhbərliyi altında Qumda saxlanıldı ki, bölgənin təhlükəsizliyini təmin etsin. Qızılbaş qoşunları həmin il mart ayının 17-də Gülxəndan qalası ətəklərinə gəlib yetişdi. Bildirilir ki, Şah İsmayıl qoşunları ilə Gülxəndan qalası ətrafına ramazan bayramı günlərində gəlib çatdı (230).

Mənbə məlumatlarına görə, Şah İsmayıl öz yolunu Tehran ətrafından saldı. Burada olarkən Əmir Hüseynin harada olması haqqında müəyyən məlumatlar əldə edə bildi. Ona çatdırıldı ki, Əmir Hüseyn hətta Tehran həndəvərinə qədər gəlib çıxmışdır. Amma sonradan geri çəkilmək məcburiyyətində qaldı. Verilən məlumata görə, Əmir Hüseyn əvvəlcə Vəramin qalasına yollandı. O, orada öz qohmlarından birini 5 min nəfərlik qoşun dəstəsi ilə Vəraminin mühafizəsinə vəzifələndirdi və özü isə Gülxəndan qalasına yollandı. Bu qala bölgənin möhkəm qalalarından biri hesab edilirdi. Qala sərt qayalıqlar üzərində tikilimiş və dərin dərələrlə əhatə olunmuşdu. Ona görə bu qalanın fəth edilməsi xeyli çətin sayılırdı. Əmir Hüseyn bir dəstə qoşunu da bu qalada yerləşərək əmisi Əmir Əşrəfi qalanın mühafizəsinə məsul təyin etdi. Özü isə Firuzkuha tərəf yola düşdü. Şah İsmayıl bu məlumatı alandan sonra yolunu Vəramindən saldı və Vəramin qalasını tutmaq onun üçün elə bir çətinlik törətmədi. Vəramin qalasının ələ keçirilməsindən sonra qızılbaş qoşunları Gülxəndan qalasına doğru irəliləməyə başladılar (231).

"Aləmara-yi Şah İsmayıl" əsərində isə Gülxəndan qalasının hakiminin Əmir Hüseynin qardaşı oğlu Əmir Söhrab olduğu bildirilir. Şah İsmayıl qalanın mühasirəsini başlamazdan əvvəl qala hakiminə məktub göndərdi və ona qalanı təhvil verməyi təklif etdi. Amma qala hakimi Şah İsmayılın elçisini qətlə yetirdi və qalanı təslim etməkdən imtina etdi. Belə olanda qalanın mühasirəsinə qərar verildi (232). Gülxəndan qalasının hakiminin qəddar hərəkəti Şah İsmayılı o dərəcədə qəzəbləndirdi ki, qala tutulandan sonra öz elçisinin qisasının qala hakimindən və müdafiəçilərindən alınmasına göstəriş verdi.

Gülxəndan qalasının təbii müdafiə imkanları onun ələ keçirilməsini xeyli çətinləşdirirdi. Bu çətinliyi aradan qaldırmaq üçün Gülxəndan qalası ətrafına xüsusi texnika gətirildi, neftəndaz və atəşxanadan geniş istifadə olundu. Neftəndazlar neftə batırılmış əşyaları yandıraraq qala daxilinə atır və bununla qala daxilində yanğın törətməyə çalışırdılar. Atəşxananın döyüşçüləri isə daş doldurulmuş qabları qala daxilinə atırdılar. Bu atəşlər şəhər daxilində dağıntıların yaradılması üçün nəzərdə tutulmuşdu. Qala ətrafına qala divarları vuran alətlər də gətirilmişdi. Mühasirənin ikinci günü bu texnikadan istifadə edilməyə başlandı. Lakin həmin günlərdə güclü yağışın yağması silah və texnikadan istifadə edilməsini əhəmiyyətsiz edirdi. Ona görə bütün ağırlıq döyüşçülərin üzərinə düşdü. Onlar texnikanın və silahların köməyinə arxalanmadan qalaya daxil olmaq göstərişi aldılar. Bir tərəfdən qala divarlarının hündürlüyü, qala divarlarının tikildiyi ərazinin namünasibliyi, digər tərəfdən də qala daxilindəkilərinin müqaviməti onun ələ keçirilməsini xeyli çətinləşdirirdi. Qala daxilindəki döyüşçülərdən başqa orada yaşayan əhali də qala divarları üstünə gələrək qızılbaşların üzərinə ox, nizə, güllə, daş yağdırırdılar. Qala müdafiəçilərinin sərəncamında zənburək və qumbara atanlar da var idi. Yəni, qala daxilindəkilər bütün gücü ilə qalanı müdafiə etməyə çalışırdılar. Bu isə qızılbaşların işini çətinləşdirməklə yanaşı həm də onlara xeyli itki yetirirdi. Bütün bunlara baxmayaraq, qızılbaş döyüşçüləri qalanın ələ keçirilməsi üçün mübariz iradə nümayiş etdirdilər. Baş verən itkilər onları qorxutmadı və öz mürşidi-kamillərindən aldıqları tapşırığın yerinə yetirilməsinə xüsusi məharət göstərdilər (233).

Ümumən, Gülxəndan qalasının alınması Şah İsmayılın hərb məharətinin yeni bir göstəricisi idi. Böyük müdafiə imkanlarının olmasına baxmayaraq Şah İsmayılın müstəsna iradə nümayiş etdirməsi və qızılbaş döyüşçülərini də bir daha son dərəcə ağır bir vəzifənin icrasına səfərbər edə bilməsi son nəhayətdə öz nəticəsini verdi. Gülxəndan qalası Şah İsmayılın cahangirlik yolunda alınmaz bir qala idi və bu hərəkatı davam etdirmək üçün həmin qalanın fəth edilməsi zəruri idi. Məlumdur ki, qala daxilindəkilər qızılbaşlara ciddi müqavimət göstərirdilər. Onlar əmin idilər ki, qalanın imkanlarından istifadə etməklə qızılbaş qoşunlarının qarşısını saxlaya biləcəklər. Çox güman ki, Əmir Hüseyn də Gülxəndan qalasının alınmazlığına əmin olduğu üçün oranı tərk etmiş və digər qalaların gücləndirilməsinə yollanmışdı. Amma bütün bunlara baxmayaraq, qızılbaşların hücumunun qarşısını almaq mümkün olmadı. Mövcud olan məlumata görə, bu hücum zamanı dünyasını dəyişən qızılbaş döyüşçüsünün yerini

dərhal digəri tuturdu. Ona görə çox çətinliklə qala divarlarının üstünə dırmaşmaq mümkün oldu və dərhal da nərdivanlar quruldu ki, arxadakı döyüşçülər daha asanlıqla qalaya dırmaşa bilsinlər. Qızılbaşların qala divarlarını aşmağa müvəffəq olması əslində döyüşün taleyini həll etdi. Onlar tədricən həm qala daxilində ələ keçirdikləri ərazini genişləndirdilər, həm də müəyyən müddətdən sonra qala darvazalarını qala xaricində olan qızılbaşların üzünə açа bildilər. Çox güman ki, hətta qızılbaşlar qalaya daxil olandan sonra da qala sakinlərinin müqaviməti davam etmişdi. Bu da qala daxilindəkilərin böyük itki verməsinə gətirib çıxardı. Qızılbaşlar da inadla müqavimət göstərənləri cəzasız buraxmadılar. Səfəvi tarixinin tədqiqatçıları da göstərirdilər ki, bu döyüşün gedişində, əzəmətli məramların həyata keçirilməsinin başlanğıcında ölkənin birləşdirərək gücləndirilməsinə qarşı yol verilən xəyanətlərin səbəkarlarının cəzasız qalmaması, xüsusilə hakimiyyət əldə edilməsi üçün xarici qüvvələrlə əlaqə quranların cəzalandırılması üçün qızılbaşlar tərəfindən qətiyyət nümayiş etdirildi. Şah İsmayıl bununla da kifayətlənmədi və Gülxəndan qalasının yerlə-yeksan edilməsi barəsində göstəriş verdi (234).

Gülxəndan qalası alınandan sonra Şah İsmayıl qoşunlarla birlikdə Firuzkuh qalasına tərəf yola düşdü. Bu qala öz müdafiə imkanlarına görə hətta Gülxəndan qalasından da möhkəm idi. Həm qalanın coğrafi şəraiti, həm qala divarlarının quruluşu və planlaşdırılması və qalanın divarlarının mühəndis xüsusiyyətləri onun fəthini qeyri-mümkün edirdi. Qalanın ərazisinin böyüklüyü isə onun daxilində həm çox insanın, həm də daha çox ərzaq ehtiyatlarının yerləşdirilməsinə şərait yaradırdı. Müdafiənin təşkili üçün qala daxilində kifayət qədər silah və texnika ehtiyatları da toplanmışdı. Mənbələrin verdiyi məlumata görə, bu qalanın divarları o qədər hündür və möhkəm idilər ki, onun fəth edilməsi dövrün hakimlərinin heç birinə müyəssər olmamışdı. Əmir Hüseyn bu qalanın hakimliyini öz qardaşı Əmir Əliyə tapşırmışdı (235).

Əmir Əli də qalanın möhkəmliyinə arxalanmaqla qızılbaş qoşunlarına qarşı əlavə müdafiə tədbirləri də həyata keçirmişdi. Şah İsmayıl bu qalanın mühasirəyə alınmasından əvvəl də qala hakiminə məktub göndərdi və onu dinc yolla qalanı təhvil verməyə çağırdı. Şah elçisi qalada ehtiramla qarşılandı və ona bildirildi ki, Şah İsmayılın məktubuna cavab 3 gündən sonra veriləcəkdir. Məktubla tanışlıqdan dərhal sonra Əmir Əli qalanın ağsaqqallarını və əyanlarını toplayaraq onlarla məsləhətləşmə apardı. Əmir Əli toplaşanlara Şah İsmayılın qüdrətini və hərbi gücünü xatırlatdı və onun gücü qarşısında duruş gətirməyin asan olmayacağını açıqladı. Qala hakimi şübhə etmirdi ki, hazırda onun qarşısına çıxa biləcək bir qüvvə yoxdur və ona görə də qalanın təslim edilməsinə bir meyllilik nümayiş etdirdi. Toplantı iştirakçıları isə onun bu fikrini bölüşmədilər. Onlar dedilər ki, Şah İsmayıl hər yeri tutmaqla insanları da ayağa qaldırmışdır. Ondan narazı olanların sayı çoxalır və Şah İsmayıl bir aydan artıq bu ölkədə duruş gətirə bilməyəcəkdir. Toplantı iştirakçılarının fikrinə görə, kimsə zorla Firuzkuh qalasını ələ keçirə bilməz və ona görə Şah İsmayıl da bir müddət qala ətrafında dayandıqdan sonra çəkilib Azərbaycana gedəcəkdir. Başqa sözlə

toplantı iştirakçıları Firuzkuh qalasının təslim edilməsinə razı olmadılar və bu barədə qala hakiminin qərarı Şah İsmayıla çatdırıldı. Bu cavabı alandan sonra Şah İsmayıl da öz əmirlərinin və əyanlarının toplantısını çağırdı və iki gün ərzində bu qalanın necə alınmasının yolları barəsində onların fikrini öyrənməyə çalışdı. Lakin qalanın ələ keçirilməsi üçün söylənilənlər onu qane etmədi. Mənbə məlumatına görə, Firuzkuh qalasının necə fəth edilməsi Şah İsmayıla yuxuda əyan edildi. Bildirilir ki, Şah İsmayıl həmin günlərdə Əmir əl-mömünin həzrət Əlini yuxuda gördü və ondan əyan oldu ki, Firuzkuh qalasının arxasından dağlar arasına çıxmaq üçün gizli yol mövcuddur. Bu yol çətin anlarda qala sakinlərinin gizli şəkildə çıxarılması üçün nəzərdə tutulmuşdur. Şah İsmayıla çatdırıldı ki, həmin yolu tapıb tutmadan qalanı fəth etmək çətin olacaqdır (236).

Şah İsmayıl bu əyan olunanları çıxış yolu kimi qəbul etdi və səhər açılan kimi Abdal bəy qorçubaşını yanına çağırıb Firuzkuh qalasının gizli yolunun tutulmasını ona tapşırdı. Abdal bəy də 1500 nəfərlik bir dəstə ilə qalanın gizli yolunun tapılmasına yollandı. Müxtəlif dərələrin, təpələrin arasından keçəndən sonra Abdal bəy qalanın gizli yolunu tapa bildi və sonra da tapşırılan mövqeyə çıxması haqqında məlumatı alovlandırdığı tonqal vasitəsilə Şah İsmayıla çatdırdı. Bu işarəni alandan sonra Şah İsmayıl da Firuzkuh qalasının mühasirəsinə başlanmasına göstəriş verdi (237).

"Aləmara-yi Şah İsmayıl"da olan məlumata görə, Firuzkuh qalasının divarlarının hündürlüyünü görəndən sonra qızılbaş əmirləri və döyüşçüləri onun fəth edilməsi mümkünlüyünə şübhə ilə yanaşmağa başladılar. Şah İsmayıl isə bəyan etdi ki, İlys bəyinin qisasının alınması üçün qalanın heç bir sakini salamat qalmamalıdır. Yalnız şiəliyi qəbul edənlərə aman verilə bilərdi. Qoşun əmirlərinin təklifi ilə Şah İsmayıl əvvəlcə Əmir Əliyə məktub göndərdi. Şah İsmayıl bu məktubda bildirdi ki, qızılbaşların Əmir Əli ilə heç bir davası yoxdur. Qızılbaşların davası İlyas bəy Xınıslının qisasının alınması üçün Əmir Hüseynlədir. Şah İsmayıl məsləhət bildi ki, onun təklifini qəbul etsin, özünə və ətrafındakılara rəhmi gəlsin. Yoxsa, bir yürüşlə bu qalanı yerlə-yeksan edəcəkdir. Məlumdur ki, Şah İsmayıl öz məktubuna müsbət cavab ala bilmədi. Onda o, qoşunlara hücum əmri verdi. Amma eyni zamanda qala divarlarını bir daha müşahidə etdikdən sonra ona da bəlli oldu ki, qızılbaşlar qala müdafiəçiləri qarşısında böyük itkilərlə qarşılaşacaqlar. Belə olanda Şah İsmayıl qoşunların geri çəkilməsini əmr etdi (238).

Şah İsmayılın yuxusunda qalanı necə almağın yolunun əyan olması və qalanın gizli yolunu tutdurması adı çəkilən mənbədə də yuxarıdakı kimi təsvir olunmuşdur. Bildirilir ki, qalanın gizli yolunun tutulmasına qədər Şah İsmayıl üç gün qalanın mühasirəsini dayandırdı. Qalanın gizli yolu bağlanandan sonra Şah İsmayıl yenidən hücum əmri verdi. Onun fərmanı ilə hücuma başlamazdan əvvəl minlərlə kərənayın, təbilin, şeypurun çalınmasına başlandı. Bu muqisi alətlərinin qorxunc sədaları qala müdafiəçilərinin əhval-ruhiyyəsinə öldürücü təsir göstərdi. Mövcud məlumata görə, bir gün sonra isə qala ətrafında döyüşlər alovlandı. Qalada dağıntılar yaratmaq üçün neftlə dolu olan şüşə qablar və ağır

daş parçaları qalanın daxilinə atıldı. 15 gün ərzində qızılbaşlar öz hücumlarını davam etdirdilər, qala daxilindəkilər isə müdafiə olundular. Bəzi məlumatlara görə isə qala daxilindəkilərinin müqaviməti daha az davam etdi. 15 gündən sonra Əmir Əli müqavimət göstərməyin mənasız olduğunu hesab etdi və əfv olunması üçün Şah İsmayılın hüzuruna yollandı. Şah İsmayıl da onun əfvini qəbul etdi, qala daxilində müqavimət göstərən Ağqoyunlu döyüşçülərindən başqa yerli sakinləri əfv etdi. Bununla, Firuzkuh qalası da qızılbaşların əlinə keçdi və Əmir Hüseynin daha bir müqavimət ocağına son qoyuldu (239).

Mənbələrdə Firuzkuh qalasının ələ keçirilməsinin son dərəcə gərgin keçməsi təsavir olunmuşdur. Çünki qalanın hündür divarları üzərindən atılan tüfəng atəşləri, oradan qızılbaşların üzərinə daş-alov yağdırılması sözsüz ki, hücumun gərginliyini daha da artırırdı. Yaralanan və ya şəhid olan qızılbaşın yerini dərhal digəri tuturdu. Mənbələrdə bildirilirdi ki, qızılbaş dilavərləri "canlarını əllərinə alıb mürşidi-kamilin ayaqları altında nisar edirdilər və sufilik aləmində bunu əbədi həyat hesab edirdilər". Belə gərginliklə keçən döyüşün ağır anlarında qızılbaş əmiri Mahmud bəy Qacarın rəhbərliyi altında olan qızılbaş dəstəsi qala bürclərindən birini ələ keçirməyə müvəffəq oldu. Bu uğurun genişləndirilməsi nəticəsində qalanın birinci təbəqəsini bütünlüklə nəzarət altına almaq mümkün oldu. Bundan sonra qala hakimi Əmir Əli müqavimət göstərməyin mənasız olması qənaətinə gəldi. O, qızılbaş əmirlərindən olan Nəcm bəyin vasitəçiliyi ilə Şah İsmayıl qarşısında bağışlanmasını xahiş etdi. Şah İsmayıl da onu əfv etdi. Amma qala daxilindəki silahlıların heç də hamısı qızılbaşlara itaəti qəbul etmədi. Ona görə müqaviməti davam etdirməyə çalışan silahlıların hamısı qətlə yetirildilər. Qalanın özü isə Gülxəndan qalası kimi dağıdılaraq yerlə-yeksan edildi (240).

Firuzkuh qalasının gizli yolunun tutulmasını xəbər verən mənbələr sonradan bu yolun tutulmasının qala üzərinə hücumun gedişinə hansı təsir göstərməsi barəsində məlumat verməmişlər. Çox güman ki qala üzərinə 15 günlük (bəzi mənbələrdə isə 10 günlük (241) hücumdan sonra gizli yolun da tutulması haqqnda xəbər alınmış və ona görə də qala daxilində müqavimət dayandırılmışdı. Bir məlumata görə, Əmir Əli qala camaatını başına toplayaraq yeganə çıxış yolunun Şah İsmayıldan aman istəməsində gördü. Qala camaatı da bu qənaətlə razı oldu və bundan sonra qala camaatı "aman" deyə qışqırmağa başladı. Bu səs Şah İsmayıla çatandan sonra qala üzərinə hücumun dayandırılması haqqında göstəriş verdi. Əmir Əli qılıncnı boynuna asaraq Şah İsmayılın hüzuruna gəldi və bağışlanmasını xahiş etdi. Şah İsmayıl onu da, onun sərkərdələrini də əfv etdi. Sonra da ona qızılbaşlarla qalıb-qalmaması haqqında seçim haqqı verdi. Əmir Əli də qızılbaşlar tərəfinə keçməyi üstün tutdu. Şah İsmayıl bəyan etdi ki, İlyas bəy Xınıslının qisasını Əmir Hüseyndən alan kimi Əmir Əlini onun yerinə bölgənin hakimi təyin edəcəkdir. Əmir Əli də bu təkliflə razılaşdı və qızılbaşlarla birlikdə qalmağa üstünlük verdi (242). Firuzkuh qalasının 1504-cü il aprel ayının 10-da ələ keçirildiyi bildirilir.

Gülxəndan və Firuzkuh qalaları kimi möhkəm qalaların qızılbaşlar tərəfindən ələ keçirilməsi Əmir Hüseyn Çilavinin hərəkatına mənfi təsir göstərsə də, o öz iddialarından heç də əl çəkmədi. Onun hələ kifayət qədər qoşunu, silah və sursatı var idi. Ona görə hələ də Şah İsmayıla qarşı müqavimət göstərməkdən əl çəkmədi. Həttа adı çəkilən qalaların süqutundan sonra da Əmir Hüseyn özünü güclü sayırdı. Belə güman edirdi ki, igidlikdə və şücaətdə ona tay-bərabər ola biləcək bir sərkərdə mövcud deyil. Mənbə məlumatlarına görə, Əmir Hüseyn özünü hətta əfsanəvi şərq qəhrəmanları olan Rüstəm və İsfəndiyardan da güclü hesab edirdi. Bu işdə Ağqoyunlu əmirlərindən olan Murad bəy Cahanşahi də ona həmkarlıq edirdi (243). Görünür, Əmir Hüseyn qızılbaşların son uğurlarını da təsadüfi sayırdı və ona görə də böyük bir arxayınçılıqla Şah İsmayıla qarşı döyüşlərini davam etdirmək əzmində idi.

Möcud məlumata görə, Əmir Hüseyn əvvəlcə açıq meydanda qızılbaş qoşunları üzərinə hücum təşkil etməyi qərar aldı. Bölgənin dağlıq ərazisi və onun coğrafi xüsusiyyətlərindən istifadə etməklə Əmir Hüseyn qızılbaş qoşunlarına qəfil zərbə vurmaq və bununla da öz niyyətlərinə yetmək fikrində idi. Əgər bölgədə aparılmış əvvəlki döyüşlərdə Əmir Hüseyn özü iştirak etməmişdisə, gözlənilən döyüşdə şəxsən iştirak etmək niyyətində idi. Əmir Hüseyn həm də sərəncamında olan 12 min nəfərlik qoşun dəstəsinin nəyə qadir olduğunu yoxlamaq istəyirdi. Bir sözlə, qızılbaş qoşunlarına həlledici zərbənin vurulması və bununla böyük hakimiyyət iddialarının həyata keçməsinə real zəmin yaradılması üçün Əmir Hüseyn gecə hücümü təşkil etmək qərarına gəldi. Bunun üçün o, qoşunlarına irəliləmək əmri verdi və çətin dağ şəraitində elə bir hərəkət marşrutu seçdi ki, qızılbaş qoşunlarının sağ cinahının arxasına çıxmaq mümkün olsun. Bildirilir ki, Şah İsmayıl sağ cinahının təhlükəsizliyinin daha həssas olduğunu bildiyi üçün bu cinahın gücləndirilməsi və mühafizəsi barədə lazımi tədbirlər həyata keçirdi. Görünür, qoşunların sağ cinahı Əmir Hüseynin qoşunlarının yerləşdiyi istiqamətə daha yaxın idi və ona görə də bu cinahın zərbəyə məruz qalması daha çox gözlənilən idi. Bundan başqa sözsüz ki, qızılbaş qüvvələri tərəfindən ətrafın müşahidəsi də aparılırdı. Ona görə də Əmir Hüseyn qızılbaş qoşunlarına yaxınlaşanda bu qoşunları döyüşə hazır vəziyyətdə gördü. Baxmayaraq ki, Əmir Hüseyn qızılbaşlar üzərinə hücum etdi, amma bir saatdan sonra bu döyüşün ona bir uğur gətirməyəcəyi aydın oldu. Onda Əmir Hüseyn qoşunlarına geri çəkilmək əmri verdi və Usta qalasına yollanaraq orada özünə sığınacaq tapdı (244).

Digər mənbələrdə olan məlumatlar belə bir qənaətə gəlməyə imkan verir ki, Əmir Hüseynin açıq meydanda qızılbaş qoşunları üzərinə hücumu Firuzkuh dağ keçidində baş vermişdi. Usta qalası Əmir Hüseynin son ümid yeri idi və bu qalaya yetişmək üçün Firuzkuh dağ keçidindən keçmək lazım idi. Bu keçid həm xeyli hündürlükdə yerləşirdi, həm də xeyli dar bir keçid idi. Həmin keçiddəki hakim yüksəkliklərə sahib olmaqla çox böyük sayda bir qoşunun irəliləməsinin qarşısını almaq mümkün idi. Ona görə Əmir Hüseyn göstəriş verdi ki, qoşunlar bu keçidi tutsunlar. "Əhsənüt təvarix" əsərinə görə, Şah İsmayıl bu keçidin

açılması üçün irəliyə qoşun dəstəsi göndərsə də, mürəkkəb coğrafi şəraitdə həmin dəstə tapşırılan vəzifəni icra edə bilmədi. Onda Şah İsmayıl ətrafındakı azsaylı dəstə ilə özü həmin keçidə doğru irəlilədi və oranı ələ keçirdi: "Adlısanlı əmirlərdən Əbdi bəy Təvaçı öz qoşununda olan bir dəstə şamlı ilə, divan əmiri (əmiri-divan) Bayram bəylə və Bəhram [kimi] intiqamçı olan digər dilavərlərlə birlikdə hərb və qırğın qılıncını kin qınından sıyırıb mərdlik və igidlik nümayiş etdirdilər. Dava zamanı Əbdi bəy ox yarası aldı. O dar yer qaniçən qılıncları işə salmaq üçün münasib meydan deyildi. Ona görə də dilavərlər məqsədlərinə nail ola bilmədilər və o mövqeyi azğınlar zümrəsindən azad etməyi bacarmadılar. Şahın qeyrətinin və padşahın şərəfinin kamalı qala əhlinin gümanına gəlməyən başqa bir yerdən qalanın ətəyinə cah-calalla nazil olmağı qərara aldı. O zaman zəfərin mənsub olduğu üzənginin ətrafında iki yüz nəfərdən artıq mülazim yox idi. Halbuki qala ətəyində səf bağlamış düşmən qoşununun sayı üç mindən çox idi. Onlar müzəffər ordunun azlığını görüncə, döyüşmək üçün irəli atılmaq istədilər. Xaqan həzrətləri İlahi yardım ilə onlara həmlə etdi. O güruh şövkətli qoşunun igidliyinin cüzi bir qismini müşahidə etdikdə və dadını aldıqda bildi ki, zəhmətləri əbəs və mücadilələri bihudədir. Fərar yolunu tutdular və qalaya qaçdılar. Sözügedən keçiddə adlı-sanlı əmirlərə müqavimət göstərməkdə olan camaat bu xəbəri eşitdikdə Binatün-nəş kimi pərən-pərən düşdülər. Fələk vüqarlı əmirlər özlərini izzət və calal bayraqlarına yetirdilər" (245).

Başqa mənbələrə görə, Şah İsmayıl eşidəndə ki, Firuzkuh keçidi tutulub onda ora qoşun dəstəsi göndərməyi qərara aldı. Onun fərmanına əsasən, Bayram xan Qaramanlı 3 min nəfərlik bir qoşun dəstəsi ilə yollanaraq keçidin təhlükəsizliyini təmin etməli idi. Əmir Hüseynin qardaşı Əmir Əli bu barədə eşidəndə Şah İsmayıla öz təkliflərini verdi. O bildirdi ki, Firuzkuh keçidi elə bir yerdir ki, əgər 10 nəfər tüfəngçi bu keçidin yüksəkliklərinə mövqe tutsa böyük bir qoşunun qarşısını saxlaya bilər. Bu mürəkkəb vəziyyətdən çıxmaq üçün Əmir Əli öz köməyini təklif etdi. Əmir Əli təklif etdi ki, Bayram xan Qaramanlı öz dəstəsi ilə hərəkət edərək adı çəkilən keçid yaxınlığında gizli bir yerdə dayansın və işarə verilən anda hərəkətə başlasın. Keçidin açılması məsuliyyətini isə Əmir Əli öz boynuna götürürdü. Bunun üçün Əmir Əli öz dəstəsi ilə Firuzkuh dağına yollanmalı, qızılbaşların həbsindən qaçmasına Əmir Hüseyni inandırmalı və ona qoşulmalı idi. Bu məlumatın Əmir Hüseyn tərəfindən etibarlı bir məlumat kimi qarşılanması üçün Əmir Əli təklif etdi ki, guya onun qızılbaş düşərgəsindən qaçması görüntüsü yaradılsın. O şübhə etmirdi ki, bu barədə Əmir Hüseynə də xəbər yetişə bilər və Əmir Əli bəhanə ilə Firuzkuh keçidinə gəldikdə Əmir Hüseyn ona inanardı. Sonra isə nəzərdə tutulurdu ki, Əmir Əli dağ keçidinin mühafizəsini öz üzərinə götürsün. Əmir Hüseyn bu keçidin mühafizəsini ona tapşırıb oradan aralanmaq istəyəndə isə Əmir Əlinin dəstəsi ilə Bayram xanın dəstəsi birləşərək arxadan Əmir Hüseynin dəstəsinə zərbə endirməli idi. Şah İsmayıl bu təkliflə razılaşdı və Əmir Əlinin Firuzkuh keçidinə yollanmasına icazə verdi. Amma yola düşməzdən əvvəl Əmir Əliyə şiəlik qəbul etdirildi (246).

Əmir Əli təklif etdiyi planın icrasına göndərildi. Bayram xan Qaramanlı isə öz dəstəsi ilə onun ardınca hərəkət edərək Firuzkuh keçidinin yarım fərsəngliyində gizləndi. Mənbələrdə Əmir Əli ilə Əmir Hüseynin görüşməsi haqqında geniş təfərrüatlar mövcuddur. Mühüm olan odur ki, Əmir Əli öz qardaşını aldada və onun etibarını qazana bildi. Əmir Hüseyn adı çəkilən keçidin mühafizəsini Əmir Əliyə tapşırıb geri qayıtmaq istəyəndə arxadan şeypur və təbil səslərini eşitməyə başladı. O dərhal anladı ki, qardaşı onu aldadıb. Qızılbaş döyüşçüləri böyük sürətlə Əmir Hüseynin dəstəsi üstünə şığıyıb hər tərəfdən bu dəstə üzərinə zərbə endirdilər. Bu dəstənin xeyli hissəsi qətlə yetirildi, müəyyən hissəsi, o cümlədən də Əmir Hüseyn qaçmaqla ölümdən öz canını xilas edə bildi. Bu uğursuzluqdan sonra Əmir Hüseyn özünü Usta qalasına yetirdi və orada müdafiə olunmağı qərara aldı. Bu qala da kifayət qədər möhkəm bir qala idi. O da dağ hündürlüklərinin üzərində tikilməklə möhkəm və qalın divarlara malik idi. Onun yaxınlığından axan Həblərud çayı qalanın yuxarısında iki yerə şaxələndirilmişdi və onlar qalanı əhatə etməklə axıb gedirdilər. Həmin şaxələrin birindən qalaya gizli su xətti çəkilmişdi. Bununla, qala sakinlərinin suya olan ehtiyacını aradan qaldırmaq mümkün olmuşdu. Amma bu su xəttinin haradan başlanmasını müəyyənləşdirmək çox çətin idi. Qalanın daxilində isə böyük miqdarda ərzaq ehtiyatları yığılmış, silah və sursat toplanmışdı. Mənbə məlumatlarına görə, Şah İsmayıl bu qalanın divarları yanına gəldikdə daxilində bir ümidsizlik baş qaldırdı. Çünki Qalanın xarici görünüşü onun fəthini şübhə altına qoyurdu (247).

Şah İsmayıl qala həndəvərinə yetişdikdən sonra Əmir Əli təklif etdi ki, hücumdan əvvəl Əmir Hüseynə məktub göndərilsin. Güman edilirdi ki, Şah İsmayılın bölgədə əldə etdiyi uğulardan sonra Əmir Hüseyn ona itaət etməyi qəbul edə bilər. Şah İsmayılın göstərişi ilə belə bir məktub hazırlandı və Əmir Hüseynin bacısı oğlu vasitəsilə qala daxilinə göndərildi. Əmir Hüseyn bu məktubla tanış olub Şah İsmayıla itaət etməkdən imtina etdi. O, qalanın müdafiə imkanlarına arxalanaraq Şah İsmayılın bu qalanı ələ keçirə biləcəyinə şübhə edirdi. Digər tərəfdən isə Əmir Hüseyn təslim olacağı təqdirdə sağ qalacağına inanmırdı. Ona görə də qalanı təhvil verməkdən imtina etdi. Belə olanda, Şah İsmayıl qalanın ələ keçirilməsinin təsirli yollarının axtarılmasına başladı. İlkin tədbir kimi, o, qalaya gedən suyun qarşısını kəsməyi qərarlaşdırdı. Onun tapşırığı əsasında qızılbaş döyüşçüləri Həblərud çayına yeni yataq qazdılar və çayı həmin yatağa yönəltdilər. Sonradan müəyyən edildi ki, yeni yataqdan müyyən miqdarda su köhnə yatağa axır və qala daxilindəkilər də bundan bəhrələnə bilirlər. Şah İsmayılım əmri ilə bunun da qarşısı alındı və bundan sonra suya möhtac qalan qalanın müqaviməti çox da uzun sürmədi. Əmir Hüseyn qalanın müdafiəsinin davam etdirilməsini mənasız sayıb Murad bəy Cahanşahini də yanına alaraq qızılbaşlar düşərgəsinə yollandı (248). Beləliklə, 1504-cü il may ayının 13-də Usta qalası fəth edildi.

"Tarix-i aləmara-yi Abbasi" əsərində Əmir Hüseynin Usta qalasında necə müdafiə olunması və əsri alınması belə təsvir olunmuşdur: "Əmir Hüseyn Kiya

on iki min atlı və çoxlu piyada ilə müzəffər əsgərlərin yolunu kəsərək, məkr və hiylə işlədib, hücum etmək üçün pusquda oturmuşdu. O, bu iki möhtəşəm qalanın alınması və mühasirədə qalanların qətliamından son dərəcə vahiməyə düşərək, qəflət yuxusundan ayıldı, yanlış əməllərindən peşman oldu. O, yanındakı bir dəstə adamla bu vilayətin ən əzəmətli qalası sayılan və möhkəm divarlara malik olan Usta qalasına sığındı. Tayı-bərabəri olmayan padşahın mübarək məiyyəti qalanın yanına gələrək, qalanın alınması üçün lazımi işlərə başladı. Tərəflər arasında hərdən bir ox, tüfəng atışması baş verirdi. Qalanın yanından geniş çay axırdı. Qaladakı adamlar daşları dələrək, [oradan] qalaya su aparırdılar. Bu cəhət [Şah İsmayılın] dünyanı bəzəyən fikrinə işıq saçdı. [Şah İsmayıl] dəniz kimi [geniş] idrakı ilə çalışdı ki, çayın suyunun məcrasını dəyişib, başqa tərəfə yönəltsin. Hərçənd suyun çoxluğu və çayın daşması [təhlükəsi] bu fikri ağıla sığışdırmasa da, o cəsarət dəryası (Şah İsmayıl) bu işə başlayaraq, bir neçə gün ərzində başqa istiqamətdə arx qazdırıb, çayın suyunu oraya yönəltdi. Çəlavilər sudan uzaq düşmüş balıqlar kimi iki-üç gün çapaladılar. Axırda onlar susuzluqdan aman fəryadı qaldırdılar. O möhkəmlikdə, o mətanətdə olan qala igid kişilər [tərəfindən müdafiə] olduğuna baxmayaraq, otuz üç gün içində qüdrətli dövlətin sərkərdələrinin əlinə keçdi. Qalada mühasirədəkilərin yaşı da, qurusu da yağıları yandıran dostpərvər padşahın qəzəb atəşinə düşdü. O kinli və qantökən tayfa iti qılıncdan keçirildi. Bir dəstə qələm əhlindən savayı, o tayfadan heç kəs xilas olmadı. Murad bəy Cahanşahi qəzəb odunda yandırıldı; intiqam alan döyüşçülər onun ətini yedilər (sonrakı fəsillərdə bu məsələyə münasibət bildiriləcəkdir- M.S.) Əmir Hüseyn bayquş kimi dəmir qəfəs xarabalığında həbsə atıldı. Lakin o, gözətçilərin gözündən yayınaraq, özünü yaraladı. Bir neçə gündən sonra Reyin Kəbud-Günbəd yurdunda onun ruhunun quşu bədən qəfəsindən uçdu. Qəribə hadisələrdən biri odur ki, Əmir Hüseyn Kiya, İlyas bəy Ayğutoğlunu və onunla birlikdə olan qızılbaşları qətlə yetirdiyi yerdə öz əməlinin mükafatına çatdı və həmin yerdə axirət sarayına köçdü" (249).

"Aləmara-yi Şah İsmayıl"a görə, Usta qalasına gedən suyun kəsilməsindən sonra qala əhli və qarnizonu Əmir Heseynin ətrafına toplaşaraq tədbir görülməsini tələb etdilər. Əmir Hüseyn çarəsiz vəziyyətdə qalanda qala əhli və qarnizonu onun həbs edərək Şah İsmayıla təhvil verdilər. Yuxarıda qeyd edildiyi kimi, Əmir Hüseyn dəmir qəfəsə salındı və o dəmir qəfəs içində özünə qəsd etməyə çalışdı. Lakin bu zaman salamat qalsa da sonradan qətlə yetirildi. Murad Cahanşahi isə bu əsərdə olan məlumata görə, salamat qaldı və fürsət taparaq Xorasana tərəf qaça bildi (250). Başqa sözlə, Muradın ətinin bişirilib yeyilməsi məsələsi bu əsərdə təsdiq olunmur. "Aləmara-yi Səfəvi" və "Fotuhat-e şahi", “Əhsənüt təvarix” əsərlərində Sultan Muradın ətinin kabab edilməsi məsələsi isə ümumiyyətlə xatırlanmır.

Usta qalası alınandan sonra Firuzkuh-Rüstəmdar bölgəsi bütünlüklə qızılbaşların nəzarəti altına düşdü. Şah İsmayıl bölgənin hakimliyini Əmir Hüseynin qardaşı Əmir Əliyə həvalə etdi. Özü isə qoşunlarla əvvlcə Xərqan, sonra isə Savucbulaq yaylağına üz tutdu. Savucbulaqda olrkən Şah İsmayıl Məhəmməd

Kərrənin Yəzddə qiyam qaldırması və itaətsizlik göstərməsi barəsində məlumat aldı. Yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıl Şiraz ətrafında olarkən Yəzdin hakimliyini Hüseyn bəy Lələyə vermişdi. Amma yuxarıda qeyd edildiyi kimi, Hüseyn bəy Lələnin şah sarayında işləri çox olduu üçün o da bu vəzifəni Şöüb bəyə həvalə etmişdi. Şah İsmayıl qoşunları ilə bölgədən uzqlaşandan sonra Yəzdin əvvəlki hakimi olmuş Sultan Əhməd ətrafına dəstə toplayaraq Şöüb bəyin üstünə hücum çəkmiş və onu qətlə yetirmişdi. Bununla, Sultan Əhməd yenidən Yəzdin hakimliyini öz əlinə almışdı. Lakin onun bu vilayətdəki hakimliyi uzun sürmədi. Bir müddətdən sonra Əbərqu hakimi Məhəmməd Kərrə öz dəstəsi ilə Yəzdə hücum etmiş və Sultan Əhmədi qətlə yetirərək oranın hakimliyini öz əlinə almışdı. Məhəmməd Kərrə hələ Ağqoyunlular dövründən Əbərqu hakimi idi. Şah İsmayıl Şiraz şəhərini ələ keçirəndə Məhəmməd Kərrə onun hüzuruna gələrək itaət etdiyini bəyan etmiş və Şah ismayıl da onu Əbrqu hakimliyində saxlamışdı. O isə bu etibarın əvəzində öz məkrli planlarının həyata keçirilməsi ilə məşğul olmuş və Şah İsmayılın uzaqda olmasından istifadə edərək ətrafına topladığı dəstə ilə Yəzd üzərinə hücum etmişdi. Məhəmməd Kərrə qızılbaşlara itaətdən üz döndərdi və Sultan Əhmədi qətlə yetirməklə Yəzddə özünün müstəqil hakimliyini elan etdi (251).

Bu məlumat Şah İsmayıl tərəfindən narahatçılıqla qarşılandı. Çünki Mazandaranda bir itaətsizliyi aradan qaldırmağa müvəffəq olan kimi, səltənətinin başqa bir ərazisində ona qarşı itaətsizlik göstərildi. Ona görə Şah İsmayıl qətiyyət nümayiş etdirərək bu itaətsizliyin qarşısının alınması haqqında hazırlıq işarəsi verdi.

"Aləmara-yi Səfəvi" əsəri Yəzdin Məhəmməd Kərrə tərəfindən tutulması xəbərinin Şah İsmayıla Yəzddə yaşayan Nemətulla şah tərəfindən çatdırıldığı bildirilir. Tədqiqatçıların fikrincə, Nemətulla şah adlandırılan şəxs Nemətulla təriqətinin Yəzddə yaşayan şeyxi Əbülbaqi idi. Məhəmməd Kərrə Yəzdi ələ keçirib yerini möhkəmləndirdikdən sonra Nemətulla şahın (əsərdə belə adlandırılıb) qızını özünə tələb etdi. Nemətulla şah qızının Məhəmməd Kərrəyə nikah edilməsinə razı deyildi. Ona görə bu evliliyə razılıq sözünü uzatmaqla bərabər, həm də Şah İsmayıla məktub göndərdi və Məhəmməd Kərrənin tələblərini ona çatdırdı. Məhəmməd Kərrə həmin məktubunda Şah İsmayıldan kömək istədi. Şah İsmayılın köməyi bir neçə gün ləngidiyindən Nemətulla şah ailəsini də götürüb Meybod adlanan məntəqəyə yollandı və orada Xacə Əbülqasım adlı birisinin evinə sığındı. Səhəri gün bu barədə xəbər alında Məhəmməd Kərrə 3 min nəfərlik dəstə ilə Meyboda yollandı və Xacə Əbülqasımın evini mühasirəyə aldı. O, əvvəlcə danışıqlar yolu ilə məqsədinə çatmaq istədi. Lakin bir nəticə hasil olmayanda silah tətbiqinə başladı. Nemətulla şahın qulamları və xidmətçiləri məskunlaşdıqları evin divarları və damı üzərinə çıxaraq Məhəmməd Kərrəyə müqavimət göstərməyə başladılar. Birinci gün Məhəmməd Kərrə istəyinə nail olmadı. İkinci gün Nemətulla şaha qarşı yenidən təzyiqlər başlayanda Yəzddən xəbər gəldi ki, Şah İsmayıl qoşunları ilə Yəzdə doğru irəliləməkdədir. Bu xəbəri eşidən kimi, Məhəmməd Kərrə dərhal Yəzdə qayıtdı və Yəzdin möh-

kəmləndirilməsi ilə məşğul oldu. Adı çəkilən mənbədə verilən məlumata görə, bir gün sonra Şah İsmayıl Meyboda yetişdi. Meybod sakinləri və Nemətulla şah onu çox böyük sevinclə qarşıladılar. Şah İsmayıl öz qoşunları ilə bir gün Meybodda dayandıqdan sonra səhəri gün Yəzd kənarına yetişdi (252).

Dərhal da Yəzd qalası bütünlüklə mühasirəyə alındı və qızılbaş döyüşçüləri qalanın fəth edilməsi üçün lazımi mövqeləri tutdular. Məlumatlara görə, Yəzdin həm hündür qala divarları var idi, həm də qala divarları ətrafında dərin xəndəklər qazılmışdı. Ona görə Yəzdin ələ keçirilməsi xeyli uzanmalı oldu. Digər tərəfdən Məhəmməd Kərrə çıxış yolunun olmadığını yaxşı bilirdi və canını salamat qurtarmaq üçün qızılbaş qoşunlarına çox ciddi şəkildə müqavimət göstərirdi. Bunun nəticəsində Məhəmməd Kərrə qala divarları ətrafında olan qızılbaş qoşunlarına ciddi itkilər yetirməyə də müvəffəq olmuşdu. Amma Şah İsmayıl mühasirəni heç də zəiflətmədi və qalanın fəthi üçün mümkün yolların aranmasına başlandı. Qala divarları ətrafındakı xəndəklər dolduruldu, qala divarları ətrafına qalavuran dəzgahlar gətirldi. Vəziyyətin mürəkkəbləşdiyini hiss edən Məhəmməd Kərrə qalanı tərk edib qaçmaq fikrinə düşdü. Lakin qala ətrafındakı qızılbaş mühasirəsini nəzərdən keçirdikdən sonra bunun mümkün olmadığını anladı. Yenidən qalanın müdafiəsini gücləndirməyə çalışsa da, son nəhayətdə məğlubiyyətlə barışmalı oldu. Bir aylıq mühasirədən sonra Yəzd qalası ələ keçirildi və Məhəmməd Kərrə həbs edildi. Mənbə məlumatlarına görə, Məhəmməd Kərrə göstərdiyi itətsizlik əvəzində işgəncə verilməklə qətlə yetirildi. Onu dəmir qəfəs içinə alaraq gün altında saxlayır və bədəninə bal sürtülürdü ki, arılar onun üstünə yığışsınlar və onu sancsınlar. Sonradan isə Məhəmməd Kərrə İsfahanın mərkəzi meydanında yandırılaraq qətlə yetirildi (253).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Məhəmməd Kərrənin itaətsizlik göstərməsi məsələsi aşağıdakı kimi təsvir olunmuşdur: "Bu arada türkman sultanzadələrinin dövləti dövründə Əbərquhun daruğası olmuş Məhəmməd Kərrənin itaətsizlik və üsyan xəbəri Rüstəmdarı almaqla məşğul olan şahın qulağına çatdı. Süleyman şanlı xaqan Əbərquh əyalətini ona bağışlamışdı. Lakin [Məhəmməd Kərrə] Yəzdə basqın etmiş, qəflətən şəhərə girərək, oranın hakimini qətlə yetirmiş, üsyan və özbaşınalıq bayrağını qaldırmışdı. O qorxusuz qiyamçını cəzalandırmaq üçün hökmdar (Şah İsmayıl) darülibadə Yəzdə tərəf yürüş etdi və iki aya qədər şəhəri və qalanı mühasirədə saxladı. Axırda o bədbəxt mənfur [Məhəmməd Kərrə] şəhəri müdafiə etməkdən və döyüşməkdən aciz qalaraq, ərkdə (şəhərin iç qalasında) möhkəmləndi. Lakin müzəffər əsgərlər [iç] qalanı da alıb, ərkin nağaraxanası yerləşən hündür bürcdə Məhəmməd Kərrəni tutub, dəmir qəfəsdə həbs etdilər. Qalanları da cəzalandılar. Sonunda Süleyman şanlı xaqanın qiyamət oduna bənzər qəzəbinin şöləsi İsfahanın Nəqşi-cahan meydanında alışaraq, onun (Məhəmməd Kərrənin) cəsədini də «sələf»i Əmir Hüseyn Kiya Çəlavi kimi həmin qəfəsdə qəzəb atəşində yandırdı. Bu yürüşdə ilahi qüdrətin gücü ilə İraq mülkündəki digər üsyançılar da cəzalandırıldı. O vilayətin [sahəsi] müxalif və üsyançıların zir-zibilindən təmizləndi" (254).

"Aləmara-yi Səfəvi"nin məlumatına görə, Yəzdin mühasirəsi uzun çəkdikdə Nemətulla şah Yəzd əhlinə məktub göndərdi və onları Məhəmməd Kərrənin məkrlərinə uymamağa və qala darvazalarını qızılbaşların üzünə açmağa çağırdı. Bildirilir ki, bundan sonra şəhər əhalisi fürsət tapıb qala darvazalarını açdılar və Durmuş xanın rəhbərliyi altında olan qızılbaş dəstəsi qalaya daxil olaraq onu nəzarət altına götürdülər. Məhəmməd Kərrə isə bundan sonra qala 7 nəfər silahdaşı ilə birlikdə qala bürclərinin birinə çəkilib orada səngərləndi. Adı çəkilən mənbədəki məlumata görə, Şah İsmayıl şəxsən özü onun həbs edilməsinə yollandı. Baxmayaraq ki, əmirlər və əyanlar Şah İsmayılın özünü təhlükəyə atmasının əleyhinə idilər, bununla belə o, iradəsindən dönmədi və Məhəmməd Kərrə ilə həmin 7 nəfəri ələ keçirdi. Bununla, Yəzd qiyamı yatırılmış oldu. Bir müddətdən sonra Şah İsmayıl oradan İsfahana döndü. Dəmir qəfəsə salınmış Məhəmməd Kərrə və onun yanındakılar da qəfəsdə İsfahana gətirilərək orada atşə atıldı (255).

Məhəmməd Kərrə Əbərqudan gəlib Yəzdi ələ keçirəndən sonra Qeybi adlı əmisi oğlunu da Əbərqu hakimi təyin etmişdi. O da Məhəmməd Kərrəni öz hakimi sayaraq Şah İsmayıla itaətdən çıxmışdı. Yəzd şəhəri itaət altına gətirildikdən sonra Şah İsmayıl Əbdi bəy Şamlının rəhbərliyi altında Əbərquya da bir dəstə göndərdi ki, orada qızılbaş hakimiyyətini bərqərar etsin. Əbdi bəy də dərhal Əbərquya yollanaraq ona tapşırılan vəzifəni icra etdi (256).

Şah İsmayıl hələ Yəzd ətrafında mühasirəni davam etdirərkən Xorasan hakimi Sultan Hüseyn Mirzə Bayqara elçi kimi onun yanına Kəmaləddin Hüseyn Əbivərdi adlı əyanını göndərdi. Əmir Kəmaləddin özü ilə Sultan Hüseyn Mirzənin Şah İsmayıla məktubunu və hədiyyələtini gətirmişdi. Bu məktubu göndərməkdə Sultan Hüseynin məqsədi Şah İsmayılı son qələbələri münasibətilə təbrik etmək idi. Çox güman ki, Sultan Hüseyn Mirzə qızılbaşların genişlənən uğurlarından təşvişə düşmüşdü və hakimi olduğu ərazilərin sərhədində qızılbaşların möhkəmlənməsindən özünü sığortalamaq istəyirdi. Şah İsmayıl ilə dostluq münasibətlərinin qurulması onun hakimiyyətinin daha da möhkəmlənməsinə təminat verə bilərdi. Amma Sultan Hüseyn Mirzənin göndərdiyi məktubundakı müraciət tərzi və hədiyyələrin dəyəri onun razı salmadı. Məktubda Xorasan hakimi Şah İsmayıla Mirzə kimi müraciət etmişdi. Şah İsmayılın bu ifadədən xoşu gəlmədi və öz fikrini də elçiyə bildirdi ki, Xorasan hakimi bizi şah kimi görmək istəmir və ona görə də bizə "Mirzə" deyə müraciət etmişdir. Əmir Kəmaləddin bu məsələyə cavabında bildirdi ki, Cığatay dilində "mirzə" "şah" deməkdir və məktubda da bu məzmun nəzərdə tutulmuşdur. Amma Şah İsmayıl bu izahı qəbul etmədi. Qoşuna Təbəs şəhəri istiqamətində hərəkət əmri verdi. Qoşunlar bir neçə gündən sonra Təbəs şəhərinə yetişdilər və dərhal da şəhər üzərinə həmlə etdilər. Bu hücum zamanı xeyli sayda şəhər döyüşçüləri və müdafiəçiləri qətlə yetirildilər. Amma Şah İsmayıl Təbəs qalasını tutmağı məqsədəuyğun saymadı. Fars vilayətində və İraqda itaətsizlik və qiyam halları qalmaqda olduğu üçün Şah İsmayıl Xorasanda çox vaxt itirməyi məqsədəuyğun saymadı. Ona görə də çox tezliklə qoşunla yenidən Yəzdə qayıtdı (257).

"Ələmara-yi Şah İsmayıl"ın məlumatına görə, Şah İsmayıl Təbəsdə olarkən Murad bəy Cahanşahinin taleyi ilə maraqlandı. Yuxarıda qeyd ediliyi kimi, Usta qalasının fəthindən sonra Murad bəyin Xorasana qaçması haqqında da məlumat var idi. Hüzuruna gətirilmiş təbəslilərdən Murad bəy haqqınfa məlumat arayanda, Şah İsmayıla bildirildi ki, keçmiş Ağqoyunlu hakimi doğrudan xa Xorasanda olmuşdu. Lakin Xorasan hakimi Sultan Hüseyn Mirzə biləndə ki, Şah İsmayıl ilə Murad bəy arasındakı münasibətlər yaxşı deyildir, ona vilayəti tərk etməyi təklif etmişdi. Murad bəy də bu təklifi qəbul etmək məcburiyyətində qalaraq Quriyan qalasında məskunlaşmışdı. Şah İsmayılın Təbəsə gəlməsindən üç ay əvvəl Murad bəy Təbəsi tərk etməli olmuşdu. Şah İsmayıl bu məlumatdan sonra Murad bəyin salamat olmasına inandı və qoşunu ilə Quriyan qalasının ətrafına yollandı. Qızılbaş qoşunları Quriyan qalasına yetişəndə Murad bəy bu qaladan bir fərsəx aralıda düşərgə salmışdı. Qızılbaş qoşunları fürsəti əldən buraxmayaraq dərhal bu düşərgəni əhatəyə aldılar və burada baş verən döyüşdə Murad bəy qətlə yetirildi (258).

Bundan sonra Şah İsmayıl bölgəni tərk etmədi. O qərara aldı ki, bir müddət gözləsin və Xorasan hakiminin ona olan münasibətini aydınlaşdırsın. Xorasan hakimi Sultan Hüseyn Mirzə isə həm Təbəsin, həm Quriyan qalasının ələ keçməsindən çox ciddi təşvişə düşdü. Eşidəndə ki, Şah İsmayılın Herata doğru irəliləmək məqsədi var, Sultan Hüseyn Mirzə bütün bu baş verənlərə görə, onun adından yazılan məktubu düzgün tərtib etməyənləri ittihamlandırdı. Vilayət əhalisinin də qızılbaş qoşunlarının yaxında olmasından böyük narahatlıq keçirdiyini görən Sultan Hüseyn Mirzə öz əmir və əyanlarını toplayıb onlarla nə edilməsinin lazım olduğu barədə məsləhətləşmə apardı. Belə qərara gəlindi ki, ilkin olaraq Şah İsmayıla yeni bir məktub göndərilsin və əvvəlki məktubda yol verilmiş xəta aradan qaldırılsın. Belə də edildi və Şah İsmayla yeni bir məktub hazlrlandı. Məktub Şah İsmayılın şahlığının təsdiqinə, onun əcdadlarının xidmətlərinin dəyərləndirilməsinə həsr edilmişdi. Şeyx Səfidən başlayaraq Şah İsmayılın bütün əcdadlarının adları bu məktubda sadalanmış və Şah İsmayılın adına çoxlu sayda tərifli ləqəblər qoşulmuşdu. Sultan Hüseyn Mirzə bu məktubda vilayət əhalisinə mərhəmət göstərilməsini xahiş edir və bildirirdi ki, övladı olmadığı üçün dünyasının dəyişəndən sonra Xorasan hakimliyinə Şah İsmayılın lazım bildiyi adam gətirilə bilərdi (259).

Bu məktub Xacə Nizamülmülkə tapşırıldı ki, onu Şah İsmayıla çatdırsın. Xacə Nizamülmülk özü ilə bir miqdar qıymətli hədiyyə də aparmalı idi. Şah İsmayıla layiq olacaq hədiyyələrin əsas hissəsi isə onun ardınca göndərilməli idi. Xacə Nizamülmülk 50 nəfərin müşayiəti ilə yola düşdü və bir neçə gündən sonra Şah İsmayılın düşərgəsinə yetişdi. Onu əvvəlcə Şah İsmayılın yaxınlarından olan Hüseyn bəy Lələ və Əbdi bəy Şamlı qəbul etdilər. Xacə Nizamülmülk yetişəndə Şah İsmayıl və onun qoşunları istirahətlə məşğul idilər və ona görə Şah İsmayıl üçün təmtərqalı bir düşərgə təşkil edilmişdi. Məktubun çatdırılmasından əvvəl Xacə Nizamülmülk Şah İsmayılın ziyafətində iştirak etdi. Bu ziyafət də o dərəcə təmtəraqlı və rəngarəng təşkil edilmişdi ki, Xacə Nizamül-

mülkün heyrətinə səbəb oldu. O inana bilmirdi ki, bir neçə il əvvəl cəmi 7 nəfərlə Gilandan cahangrilik hərəkatına başlayan Şah İsmayıl artıq belə bir əzəmət sahibinə çevrilmişdir. Yemək mərasimindən sonra Xacə Nizamülmülk gətirdiyi məktubu Şah İsmayıla təqdim etdi. Mənbələrdə bildirlir ki, Şah İsmayıl öz yerindən üç addım irəli gedərək Sultan Hüseyn Mirzənin məktubunu qəbul etdi və göstəriş verdi ki, Sultanm Hüseyn Mirzəyə ehtiram əlaməti olaraq onun məktubunun üstünə çoxlu zər tökülsün. Məktubu oxuyandan sonra Şah İsmayılın duyğulandığı bildirilir. Şah İsmayıl əvvəlcə onu bildirdi ki, bura gəlməkdə məqsədi əslində Sultan Hüseyn Mirzə ilə düşmənçilik yox, onun özünün keçmiş düşməni Sultan Muradı tapıb cəzalandırmaq idi. Sonra da əlavə etdi ki, nə qədər ki, bu vilayətdə Sultan Hüseyn Mirzə hakimdir və ya onun övladları hakim olacaqlar hər zaman onların köməyinə yetməyə hazırdır. Şah İsmayıl sonra onu da əlavə etdi ki, Sultan Hüseyn Mirzə onun atası yerindədir və əgər onu oğulluğa qəbul etsə Şah İsmayıl üçün şərəf olardı. Ondan sonra Şah İsmayıl göstəriş verdi ki, Sultan Hüseyn Mirzəyə cavab məktubu yazılsın. Şah İsmayılın adından yazılan bu məktub da hörmət və səmimiyyətlə yazılmış bir məktub idi. Məktubda bildirlirdi ki, Şah İsmaylın bölgəyə gəlməkdə məqsədi Sultan Muradın cəzalandırılması idi. Bu məqsədə nail olunduğu üçün Şah İsmayıl qoşunların tezliklə bölgəni tərk edəcəyini və geri qayıdacağını bəyan edirdi. Şah İsmayıl məktubunda onu da əlavə edirdi ki, Xorasanın hörmətli hakimi xatircəm ola bilər ki, bu vilayət onun və onun övladlarının sərəncamında qalacaqdır. Eyni zamanda vəd olunurdu ki, hər zaman zərurət yaranarsa Xorasan hakiminə yördım göndərməyə hazırdır. Məktub hazır olandan sonra xüsusi qiymətli hədiyyələrlə birlikdə onu Mənsur bəy Qıpçaq o zamanlar Xorasanın paytaxtı olan Herata apardı. Xacə Nizamülmülk isə bir müddət Şah İsmayıl düşərgəsində qaldı ki, Sultan Hüseyn Mirzə tərəfindən göndəriləcək hədiyyələri qarşılasın və Şah İsmayıla təqdim etsin (260).

Sonra Şah İsmayıl İsfahana qayıtdı və bir müddət orada qaldı. Şah İsmayıl İsfahana qayıdanda Sultan Hüseyn Mirzənin ilk elçisi olan Əmir Kəmaləddin hələ də orada idi. Şah İsmayıl onu yenidən qəbul etdi, Sultan Hüseyn Mirzə ilə aralarında baş verənlərlə bağlı onu da xəbərdar etdi və onun göstərişi ilə Sultan Hüseynin Şah İsmayıla yazdığı məktub Əmir Kəmaləddinə göstərildi. Əmir Kəmaləddin bir daha Şah İsmayıla öz hörmət və ehtiuramını bildirdi və bir neçə gündən sonra o da Şah İsmayılın icazəsi ilə Herata döndü (261).

İsfahanda olarkən Şah İsmayılın qəbuluna Osmanlı sultanı Sultan Bəyazidin elçisi Məhəmməd Çavuşi Balaban gəldi və Şah İsmayıla çoxlu qiymətli hədiyyələr təqdim etdi. Sultan Bəyazid öz elçisini son zamanlar əldə edilmiş qələbələrə görə təbrikini çatdırmaq üçün Şah İsmayılın yanına göndərmişdi. Mənbələrdə bildirlir ki, Şah İsmayıl da öz hədiyyələri ilə sultan elçisini geri qaytardı. Amma elçi geri qayıtmazdan əvvəl ölüm hökmünə məhkum edilmiş Əmir Hüseyn Kiya və Məhəmməd Kərrə onun gözləri qarşısında atəşdə yandırıldı. Bildirilir ki, guya bununla Şah İsmayıl dövlətinin gücünü və qüdrətini sultan elçisi qarşısında nümayiş etdirmək istəyirmiş (262).

Mənbələrdə Şah İsmayılın İsfahanda olduğu vaxt şəhərdə ərzaq çatışmazlığının özünü göstərməsi haqqında məlumat vardır. Ərzaq qəhətliyi həm qoşunların, həm də kasıb əhalinin dolanışığına çətinliklər yaradırdı. İnsanlar bu qıtlıqdan kifayət qədər əziyyət çəkidirlər. Amma aparılan müşahidələr göstərirdi ki, şəhərin bir çox imkanlı adamlarında kifayət qədər taxıl ehtiyatları və həmin adamlar yaranmış vəziyyətdən sui-istifadə etməklə malik olduqları ehtiyatlardan varlanmaq üçün möhtəkirlik edirlər. Ərzaq qıtlığının yaratdığı gərginlik elə bir səviyyəyə qalxdı ki, axırda Şah İsmayıl özü bu məsələyə müdaxilə etməli oldu. Əslində, bu məsələ bəzi adamların təxribatı kimi dəyərləndirildi. Çünki məlumat alınmışdı ki, ərzaq qıtlığı yaradan adamlardan bəziləri, o cümlədən Mir Qiyasəddin Məhəmməd və Şah Təqiəddin Məhəmməd qızılbaşlara qarşı qiyam qaldırmış Məhəmməd Kərrə ilə davamlı əlaqədə olmuşdular. Ona görə də güman edilirdi ki, bu adamlar qızılbaşlardan narazılıq yaratmaq üçün ərzaq qıtlığı da yaratmaq istəyirlər. Şah İsmayıl Mir Qiyasəddin Məhəmmədi hüzuruna çağırtdırdı və ondan tələb etdi ki, malik olduqları əlavə taxıl ehtiyatlarını bazara çıxarsın və şəhər əhalisinin ixtiyarına versin. Mir Qiyasıddin əvvəlcə taxıl ehtiyatlarına malik olmasını etiraf etmədi. Onda Şah İsmayılın sərəncamı ilə onun mülkündə və anbarlarında axtarışlar aparıldı və onun ailə ehtiyatclarından çox-çox artıq olan taxıl ehtiyatları aşkar edildi. Mövcud çətinliyin aradan qaldırılması və taxıl sahiblərinin təxribatlarına son qoyulması üçün Şah İsmayıl çox ciddi qərar qəbul etməli oldu və onun fərmanı ilə adları çəkilın adamlar qətlə yetirildilər. Bu qətiyyətli tədbir İsfahanda taxıl qıtlığı ilə bağlı çətinliklərin aradan qaldırılmasına zəmin yaratdı (263).

Çox güman ki, Şah İsmayılın çıx qısa zamanda müzəffər cahangirlik hərəkatı, öz ətrafında böyük sayda insanların səfərbər edilməsi bir çoxlarına, xüsusilə hakimlik iddiaları ilə yaşayan insanlara təsadüfi hal kimi görünürdü. Yəqin ona görə idi ki, 1504-1505-ci illərdə yerlərdə itaətsizlik, Şah İsmayıla üstün gəlmək halları özünü göstərməyə başladı. Bunun məzhəb ixtilafı olması da güman edilə bilər. İstənilən halda bir çoxları öz güclərini hesablamayaraq yetərli olmayan qüvvələrlə hakimiyyət iddiasına düşürdülər. Bu isə Şah İsmayıldan əlavə diqqət tələb etsə də hər halda barışmazlıqla qarşılanırdı.

Şah İsmayıl hələ İsfahanda olarkən Kürdüstan hakimi Şir Saromun hətta Təbriz üstünə qoşun çəkmək əzmində olduğu barədə məlumat aldı. Şiraz istiqamətində yürüşə başlayarkən Şah İsmayıl qardaşı Sultan İbrahimi (İbrahim Mirzəni) Təbrizdə saxlamışdı. Şir Saroma görə, onun üçün münasib bir an yetişmişdi. Şah İsmayılın öz qoşunları ilə Fars və Mazandaran vilayətlərində hərbi yürüşdə olması Təbrizin müdafiəsini zəiflətmişdi ki, Şir Sarom da bundan istifadə etmək və Azərbaycana yiyələnmək niyyətində idi. Bu məqsədlə o, ətrafına 40 min nəfərlik qoşun dəstəsi toplamışdı. Şir Saromun Təbriz üzərinə yürüş xəbəri alınan kimi Sultan İbrahim məktub yazıb Şah İsmayıla göndərdi və ondan bu hücumun qarşısının alınması üçün kömək istədi. Şah İsmayıl Təbirz üzərinə hücum etmiş Şir Saromun kimliyini araşdırarkən məlum oldu ki, onun yaşı artıq yüzü adlayıb, 70 övlada malikdir. Bununla belə, o, kifayət qədər

qıvraq olmaqla hakimiyyətə iddia da irəli sürməyə cəsarət edirdi. Şir Saroun hücum xəbəri alınanda o artıq Urmiyaya qədər irəliləmiş və Urmiya qalası ətrafında ilişib qalmışdı. Şah İsmayıl bu xəbəri alandan sonra Sarı Əli bəy Möhrdara tapşırıq verildi ki, 3 min nəfərlik qoşun dəstəsi ilə Təbrizə yollansın. Sarı Əli bəy həm də Sultan İbrahimin lələsi təyin edildi. O, Təbrizdə qalmaqla idarəçilik işlərində Sultan İbrahimə kömək etməli idi. Sarı Əli bəy dərhal müəyəyn edilmiş dəstə ilə yola çıxdı və 12 gündən sonra Təbrizə yetişdi. Vəziyyətlə maraqlananda ona məlumat verildi ki, Şir Sarom artıq bir aydır ki, Urmiya qalası ətrafındadır və qala hakimi Qaragünə sultan hələ də ona müqavimət göstərir. Amma o da məlum idi ki, Qaragünə sultanın qüvvəsi tükənmək üzrə idi və ona görə qaladan sağ-salamat çıxmaq üçün Şir Saromun yanına adam göndərmişdi. Şir Sarom da ona vəd etdi ki, qalanı təhvil verirsə sağ-salamat Təbrizə getməsinə imkan yaradılacaqdır. Sarı Əlinin Təbrizə gəlməsi ərəfəsində Qaragünə sultan qala qapılarını açaraq Təbrizə doğru üz tutdu. Lakin Şir Sarom vədinə əməl etmədi və onun döyüşçüləri Qaragünə sultanı və onun ailə üzvlərini və ətrafındakıları tutaraq qətlə yetirdilər. Şübhə yox idi ki, Şir Sarom Urmiyanı alandan sonra Təbriz üzərinə hücum çəkəcəkdi. Sarı Əli bəy Təbrizə yetişəndən sonra qərar alındı ki, Şir Saromun qüvvələri Təbrizdən kənarda qarşılansın. Yoxsa Təbrizə böyük ziyan dəyə bilər. Çünki Təbrizin ətrafında qala divarları yox idi. Bu məqsədlə Sarı Əlinin sərəncamında olan 3 min nəfərlik dəstə, Sultan İbrahimin sərəncamında olan 4 min nəfərlik dəstə döyüşə hazır vəziyyətə gətirildi. Bundan başqa Sarı Əli ilə Sultan İbrahimin qərarına əsasən 3 min nəfərlik başqa bir qoşun dəstəsi də Təbriz sakinlərindən toplandı. Bütünlükdə, 10 min nəfərlik qoşun dəstəsi Təbrizi tərk edərək Səlmasa istiqamət götürdü və orada Şir Saromun qoşun dəstəsi ilə qarşılaşdı (264).

Mənbə məlumatlarına görə, bu döyüş hər iki tərəfin cəsur döyüşçülərinin əlbəyaxa qarşılaşması ilə başladı. Kürd qoşunları tərəfindən meydana Şir Saromun övladları çıxdılar və onlar qızılbaşların igidləri ilə qarşılaşdılar.Bu qarşılaşmada Sultan İbrahimin özünün də xüsusi şücaət göstərdiyi və Şir Saromun iki övladının məhz onun tərəfindən qətlə yetirildiyi bildirilir. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində müəyyən fərqli məqamları olmaqla bu qarşılaşmann geniş təsviri verilmişdir. Təsvirdən məlum olan odur ki, bu qarşılaşma həm kürd qoşunlarına, həm də qızılbaş qoşunlarına xeyli itki gətirdi və nəhayətdə kürd qoşunları geri çəkilmək məcburiyyətində qaldı. Sultan İbrahim bu döyüşdə də özünün döyüşçü keyfiyyətlərini nümayiş etdirə bildi. "Tarix-i aləmara-yi Abbasi" əsərində isə Kürdüstan qoşunlarının Təbriz üzərinə yürüşü müxtəsər olaraq aşağıdakı kimi təsvir edilmişdir: "O biri ilin baharında [Şah İsmayıl] Həmədan yaylağına getdi. Qışı Xoy və Səlmasda keçirdi. Urumi vilayətinə gəlmiş və məmləkətin kənarlarına əl uzatmış kürd Şər Saromun fitnəsi Bayram bəy Qaramanlunun və Xəlifətülxüləfa adı ilə məşhur olan Xadim bəyin səyləri ilə aradan qalxdı. [Onlar Saromun] iki qardaşını, oğlunu və sərdarlarının çoxusunu ələ keçirib, ağır əzablarla cəzalandırdılar, onun bütün eli-ülusu

hadisələrin taracına getdi. Durmuş xanın atası Əbdi bəy Şamlu və Sarı Əli Möhürdar Təkəlü bu səfərdə həlak oldular" (265).

Bir neçə mənbədə Şir Saromun döyüş meydanını tərk edərək qaçması təsvir olunmuşdur. "Aləmara-yi Səfəvi" əsərində isə Şir Saromun öldürüldüyü bildirilir. İstənilən halda Şir Saromun rəhbərliyi altında qoşun dəstəsi kifayət qədər güclü bir dəstə idi və onun məğlub edilməsi Şah İsmayılın özünün köməyə yetməsindən sonra baş verdi. Şir Saromun qoşun dəstəsi ilə aparılan döyüş Şah İsmayıl tərəfindən izlənilirdi və Səlmas ətrafında nə baş verməsindən onun xəbəri var idi. Burada qızılbaş qoşunlarının mürəkkəb vəziyyətlə qarşılaşdığını bildiyindən Şah İsmayıl sonradan Əbdi bəy Şamlının rəhbərliyi altında 6 min nəfərlik bir qoşun dəstəsini də Sultan İbrahimin köməyinə yolladı. Səlmas ətrafında vəziyyətin mürəkkəb olaraq qalmasına görə, Şah İsmayıl böyük narahatçılıq içərisində Təbrizə doğru hərəkətə başladı. Qəzvinə çatanda Şah İsmayıl məlumat aldı ki, Gilanda da qarışıqlıq yaranmışdır. Məhz bu vaxt Şah İsmayıl qərara aldı ki, hələlik Sultan İbrahimin köməyinə Əbdi bəy Şamlının rəhbərliyi altında 6 min nəfərlik dəstə göndərsin, özü isə Gilana yollansın və orada vəziyyəti sabitləşdirsin. Şah İsmayılın əmirləri ona əvvəlcə Təbrizə getməyi orada vəziyyəti sabitləşdirməyi və sonra digər bölgələrə diqqət ayırmağı məsləhət bildilər. Şah İsmayıl bu təkliflə razı idi. Amma elə bu zaman Gilandan başqa bir məlumat gətirildi ki, Ağqoyunlu Əlvənd Mirzənin tərəfdarları bölgəyə gələrək vəziyyəti mürəkkəbləşdirməyə çalışırlar. Ona görə də Şah İsmayıl əvvəlcə Gilana yollanmağa üstünlük verdi. Təbrizə isə Əbdi bəylə onun oğlu Durmuş xanı göndərdi (266).

Mənbələrdəki məlumatlara görə, Əbdi bəy oğlu Durmuş xanla Təbriz müdafiəçilərinin çətin anlarında onların köməyinə yetdilər. Bu o vaxt idi ki, Sultan İbrahim artıq yaralanmışdı və o döyüş meydanından çıxarılaraq Təbrizə aparılırdı. Şir Sarom özü də yaralı olmasına baxmayaraq qoşunları ilə qızılbaş dəstəsini Təbrizə doğru təqib edirdi. Qoşunlarının çoxsaylı olması üzündən Şir Sarom qızılbaşlara əlavə köməyin gəlməsindən elə də narahatçılıq keçirmədi və döyüşün alovlandırılması üçün səhərin açılmasını gözlədi. Çünki əmin idi ki, qoşunların say üstünlüyü hələ də onun tərəfindədir. Səhəri gün də tərəflər arasında son dərəcə gərgin bir döyüş baş verdi. Qızılbaşlar saylarının az olmasına baxmayaraq fədakarlıqla döyüşür və kürd dəstələrinin Təbrizə yol almasının qarşısını kəsməyə çalışırdılar. Hər iki tərəfdən çoxlu sayda itki baş verdi və döyüşün gedişində Şir Saromun oğlu Hüseyn bəyin atdığı ox Əbdi bəyi ağır yaraladı və onu atdan yerə saldı. Bunu görəndə Durmuş xan atasının köməyinə tələsdi və Hüseyn bəyi yaxında gördükdə qılıncının zərbəsi ilə onu qətlə yetirdi. Şir Sarom da oğlunun öldürüldüyünü gördükdə özünü Durmuş xanın üstünə atdı, bütün qəzəbini toplayaraq qılıncının zərbəsini Durmuş xanın üstünə yönəltdi. Bu zərbə o qədər ağır idi ki, Durmuş xanın müdafiə olunmağa çalışdığı qalxanı parçalayaraq onu yaraladı. Bununla belə, Durmuş xan döyüş meydanını tərk etmədi və bütün qızılbaşları da döyüşə ruhlandırmaq üçün yarasını sarıtdırıb özünü yenidən meydana atdı. Onun bu hərəkəti qızılbaşları daha da ruhlandırdı

və döyüşçülərin bir qrupu Durmuş xanı dövrəyə alaraq onun daha mürəkkəb vəziyyətlə qarşılaşmasına imkan vermədilər. Amma qızılbaşlar kürd qoşunlarının üstünlüyünün qarşısını ala bilmədilər. Şir Sarom və onun döyüşçüləri qızılbaşları sıxışdırmağa müvəffəq olaraq xeyli irəliləyə bildilər. Şir Sarom hətta qızılbaşların döyüş bayrağına xeyli yaxınlaşmağa müvəffəq oldu. Mənbə məlumatlarına görə, qızılbaşlar üçün vəziyyət elə bir böhranla hal aldı ki, əgər bu zaman Şah İsmayıl qoşun dəstəsi ilə gəlib yetişməsəydi uğursuzluğun qarşısını almaq mümkün olmayacaqdı (267).

Şah İsmayılın qoşun dəstəsinin yetişməsi döyüş meydanındakı vəziyyəti tamamilə dəyişdi və hərbi təşəbbüs qızılbaşların əlinə keçdi. Sürətli hücum, qətiyyət və mübarizlik qızılbaşların uğuruna yol açdı. Şah İsmayıl da şəxsən əlində qılınc döyüş meydanına atıldı və Şir Saromun döyüş bayrağının dalğalandığı yeri müəyyənləşdirdikdən sonra həmin mövqeyə doğru istiqamət götürdü. Şir Sarom döyüş meydanında baş verənlərin onun xeyrinə olmadığını görəndə bayrağını da götürüb qaçmağa üz qoydu. Bu elə bir şəraitdə baş verdi ki, Şir Sarom və onun döyüşçüləri düşərgələrini də yığışdırmağa özləri ilə aparmağa fürsət tapmadılar. Şah İsmayıl geri qaçan kürd döyüşçülərini təqib etməyi lazım bilmədi. Amma öz döyüşçülərinə icazə verdi ki, kürd qoşunlarının düşərgəsini talan etsinlər. Sonradan Şir Sarom təhlükəsinə son qoyulması üçün qızılbaş qoşunları kürdlərin məskunlaşdığı vilayətə göndərildi. Bu yürüş zamanı Şir Saromun sığındığı Cəbəl qalası və onun döyüşçülərinin yaşadığı məntəqələr dağıdılıb viran hala salındı ki, oranın əhalisi bir də qızılbaşlar üzərinə hücum etməyə cürət etməsinlər (268).

Yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıl Təbrizə yollanmazdan əvvəl Rəşt istiqamətində hərəkət etməli olmuşdu. Çünki Rəşt və ətrafında da Şah İsmayıla qarşı itaətsizlik halları baş verməkdə idi. Gilanın Əmir Hüsaməddin hakimi olduğu bölgəsində Ağqoyunlu tərəfdarlarının çoxalması müşahidə olunmuşdu. Əmir Hüsaməddin hələ vaxtilə Şirvanşah Fərux Yasarın oğlu Şeyxşaha sığınacaq vermiş, sonra da Şah İsmayılın Əlvənd Mirzə ilə döyüşündən sonra məğlub olmuş ağqoyunluların bölgədə toplanmasına etiraz etməmişdi. Yəni, Əmir Hüsaməddən bütün fəaliyyəti ilə qızılbaşlara qarşı mövqe tutmuşdu. Əmir Hüsaməddin Ağqoyunlu döyüşçülərinin xidmətindən istifadə etməklə hətta Qəzvinə doğru hərəkətə başlamaq və böyük ərazilərə sahib çıxmaq planlarına da malik idi. Əmir Hüsaməddinin qızılbaşlara qarşı qiyamı təhlkəli xarakter aldığı üçün Şah İsmayıl Qəzvin yaxınlığındakı düşərgsindən Təbrizə, qardaşı Sultan İbrahimin köməyinə yox, məhz Rəştə Əmir Hüsaməddin qiyamının yatırılmasına yollandı. Şah İsmayıl qoşun dəstəsi ilə Rəştə gələndə Əmir Hüsaməddin ona qarşı müqavimət göstərməyin mümkün olmadığını anladı və günahının bağışlanması üçün Şah İsmayılın məzhəb müəllimi olmuş Mirzə Zeynalabdinin yanına yollandı. Ondan xahiş etdi ki, Şah İsmayılın yanına getsin və Şah İsmayıl qarşısında onun vasitəçiliyini etsin. Mirzə Zeynalabdin bu xahişi yerinə yetirdi və Şah İsmayılın düşərgəsinə yollandı. Şah İsmayıl ustadı olmuş Mirzə Zeynalabdinə böyük hörmətlə yanaşırdı və onun gəldiyini bilincə ayağa qalxın

pişvazına çıxdı, ona taxtının yanında yer verdi. Mirzə Zeynalabdin bildirdi ki, haqq kəlamını (Quran kitabını) əlinə alaraq Əmir Hüsaməddinin bağışlanmsı üçün onun yanına gəlmişdir. Şah İsmayıl da bildiri ki, Əmir Hüsaməddinin günahından keçir. Bir şərtlə ki, onu yoldan çıxarmış olan insanları həbs edərək onun düşərgəsinə gətirsin. Əmir Hüsaməddin bu tələbi qəbul etməli oldu və onu qiyam qaldırmağa təşviq və təhrik edən insanları həbs edərək Şah İsmayılın yanına gətirdi. Bölgədə qarışıqlıq və itaətsizlik yaratmaqda günahkar bilinən bu insanlar Şah İsmayıl tərəfindən ciddi cəzalandırıldı. Əmir Hüsaməddin isə bağışlanaraq yenidən öz vəzifəsində saxlanıldı. Bundan sonra Şah İsmayıl Rəşt ətrafından hərəkətə başlayaraq Təbrizin köməyinə yollandı (269).

Eyni vaxtda Lahicanda da qarışıqlıqlar baş verdi. Burada da hakimiyyət uğrunda parçalanma və ixtilaflar özünü göstərməyə başladı. Lahicanda uzun müddət idi ki, Mirzə Əli Lahicani hakimlik edirdi. Amma bir müddətdən sonra onun qardaşı Mirzə Həsən də hakimiyyət iddiasını irəli sürdü. Onların hər birinin özlərinin kifayət qədər tərəfdarı var idi və bu tərəfdarların da hərəkətə gəlməsi faciə ilə başa çatdı. Əvvəlcə Mirzə Əlinin tərəfdarları hərəkətə gəldilər və Mirzə Həsənin üstünə hücum çəkərək onu qətlə yetirdilər. Bundan sonra Mirzə Həsənin tərəfdarları toplaşaraq Mirzə Əlinin üstünə hücum çəkdilər və onu qətlə yetirdilər. Bu da Lahicanda bir hakimiyyətsizlik və qarışıqlıq yaratdı. Mirzə Əli Lahican hakimliyində Şah İsmayıl tərəfindən müdafiə olunurdu. Amma baş vermiş qarışıqlıqların aradan qaldırlması üçün bölgəyə Mirzə Həsənin oğlu Sultan Əhmədi hakim təyin etdi. Sultan Əhməd o zaman Şah İsmayıln yanında xidmət edirdi və onun hörmətini qazanmağa müvəffəq olmuşdu. Şah İsmayıl onu bir qoşun dəstəsinin müşayiəti ilə bölgəyə göndərdi və vəziyyətin sabitləşdirilməsini ona tapşırdı. Sultan Əhməd də bölgəyə gələn kimi asayişin bərqərar edilməsi üçün qətiyyətli addımlar atdı, qarışıqlıq yaratmağa çalışanları, o cümlədən əmisi Mirzə Əlinin qətlində günahkar olanları ciddi şəkildə cəzalandırdı (270 ). Bununla, Lahicanda vəziyyəti sabitləşdirmək mümkün oldu.

## 15. İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Mirzə bəy Xonabdi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.99
   Məhəmməd Kərim Yusif Cəmali. Zendeqani-ye Şah İsmayıl Əvvəl. Tehran, 1376, s. 47-48;
   Nizaməddin Mücir Şeybani. Təşkil-e Şahənşahi-ye Səfəviyye. Tehran, 1345, s. 74
2. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.64-65. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxsusdur
3. Yenə orada, s.63-64
4. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.34
5. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 221
   Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s. 121

6. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.66
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 40
Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.279
Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s.343. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxsusdur.
7. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 61
8. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.69
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.37
9. Əmir Hüseyn Xonci. Qızılbaşan dər İran. s.68
Əbülqasim Tahiri. Tarix-e ictimai və siyasi-ye İran. Tehran, 1383, s. 177
10. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.66
11. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s.344
12. Yenə orada, s. 327
13. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 63
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s. 123
14. Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 138-139
15. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 241
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.38
16. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s.345
17. Yenə orada, s. 345-346
18. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 61
19. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.36
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.113-114
20. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.37
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsa sında). Bakı, 2011, s.114
21. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.37
22. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 243, 266
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.115
23. Mirzə Məhəmmədtahir Vahid Qəzvini. Tarix-e cahanara-ye Abbasi. Tehran, 1383, s.27
24. Mirzə bəy Xonabdi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.116
25. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.65-66
26. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.38
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsa sında). Bakı, 2011, s.116
27. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.38
28. Yenə orada, s. 39
29. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.40

Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.117
30. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.40-41
31. Петрушевский И.П. Государства Азербайджана в XV веке, с. 178-179/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.153-213
Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012, s.214-215
32. Budaq Münşi Qəzvini. Cəvahir əl-əxbar. Tehran, 1387, s. 112
33. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.81
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 251-252
Nizaməddin Mücir Şeybani. Təşkil-e Şahənşahi-ye Səfəviyye. Tehran, 1345, s. 76
34. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.66-67
35. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.82
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.116
36. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 89
37. Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 110
38 Budaq Münşi Qəzvini. Cəvahir əl-əxbar. Tehran, 1387, s. 112
39. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.44-45
40. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.44
41. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s.90
42. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.79
43. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.45
44. Yenə orada, s.45-46
45. Yenə orada, s.49
46. Mirzə bəy Conabedi Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.117
Budaq Münşi Qəzvini. Cəvahir əl-əxbar. Tehran, 1387, s. 112
47. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.80-81
48. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.82
Həsən bəy Rumlu. Əhsənüt-təxarix". Kastamonı, 2017, s. 356
49. Yenə orada, s. 83
50. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 43
Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 356-357
51. Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 149.
52. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 358
53. Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 34
54. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.48-49
55. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.39
56. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 91-92
57. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.67-68

58. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.118
59. Yenə orada
60. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 358
61. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.79
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.119
62. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.50
63. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 358-359
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 44
64. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.122-123
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.90-91
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 128
65. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.52
66. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.91
67. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.123
68. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.92-93
69. Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadi. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358, s. 34
70. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.126
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.40
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 256
71. Mirzə bəy Conabedi Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.128
72. Yenə orada
73. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 257
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.128
74. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, s. 454
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.8
75. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, s. 45
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.9
76. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.68
77. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.53
78. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.131
79. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, s. 457
80. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.131
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.103
81. Mirzə bəy Conabedi Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.126
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.7
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.119

82. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, s. 455
Mirzə bəy Xonabdi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.126
83. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, s. 455-456
84. Mirzə bəy Xonabdi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.132
85. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.46
86. Aləm Ara-ye Şah İsmayıl. Tehran, 1384, s.53
87. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.130
88. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.10
89. Mirzə bəy Conabedi Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.134
90. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.68-69
91. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.54
92. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, s. 457
93. Yenə orada, s.458
94. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.131
95. Yenə orada, s. 131-132
96. Yenə orada
97. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.142
98. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.41
Babək Cavanşir. İrandakı türk boyları və boy mənsubu kişiler. Doktora tezi. İstanbul, 2007, s. 156
99. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.13
100. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.146
101. Yenə orada
102. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.107
Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı, 2006, s.99
103. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.69
104. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.13
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.147
105. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.148
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.139
106. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 141
107. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.109
Петрушевский И.П. Азербайджана в XVI-XVII веках, с. 231/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.42
108. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.110
109. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 141
110. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.110
Петрушевский И.П. Азербайджана в XVI-XVII веках, с. 232

111. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.69
112. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, s. 462
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.156
113. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.111
114. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, s. 462
Mirzə bəy Conabedi Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.143
115. Mirzə bəy Conabedi Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.144
116. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.113-114
117. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 142
118. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.144
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.114
119. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.157
120. Yenə orada, s.158
121. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.114
122. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.69
123. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.55
124. Yenə orada, s. 56
125. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.163
126. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.57
127. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.146
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.163
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.133
128. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.69
129. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.146
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.115
130. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 58
131. Yenə orada
132. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s.86
133. Yenə orada, s. 87
134. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.15
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.146
135. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.148
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.117-118
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.45
136. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.148
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.147
137. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.70
138. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 59
139. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s.138
140. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 147

141. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 151
142. Yenə orada
143. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 59
144. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 149
145. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.136
146. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 149
147. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.122
148. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.136
149. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.155
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.17
150. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 89
151. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 375
152. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 60
153. Yenə orada, s. 61
154. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.139
155. Yenə orada
156. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 61
157. Yenə orada, s. 64
158. Yenə orada
159. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.70-71
160. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 64
161. Yenə orada, s.64-65
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.140
162. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 56
163. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, s. 469
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.125
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 161
164. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 162
165. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 67
166. Yenə orada, s.67
167. Yenə orada, s. 68-69
168. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.18
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.145
169. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.126-127
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.18
170. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 71
171. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 75

172. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.. 72
173. Yenə orada
174. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.. 72
175. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 75
176. Yenə orada, s. 76-77
177. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.71
178. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 156
179. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 78
180. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.128
181. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 78
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.145
182 Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.164
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.54
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.157
183. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.157
184.Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.54
185. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 71
186. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 129-130
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, 21
Həsən bəy Rumlu. Əhsənüt-təxarix. Kastamonı, 2017, s.379-380
187. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.72
Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 78
188. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.73
189. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 79
190. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.74
Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 79
191. Savory R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 74
192. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 80
193. Yenə orada, s. 81
194. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.76-77
195. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.82
196. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.158
197. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 168
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s. 203
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.159
198. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.159
199. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.131
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.161
200. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s. 204
201. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 168
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 290

202. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.72
203. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 171-172
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 290
204. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.96
Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 83
205. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.97
206.Yenə orada, s. 98
207. Yenə orada, s.99-100
208. Yenə orada, s.101
209. Yenə orada, s. 103
210. Yenə orada
211. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 85
212. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 85
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.105
213. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 85
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.105
214. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 86
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.106
215. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.107
216. Yenə orada, s.107
217. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.87
218. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 88
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.107
219. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 89
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.109
220. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.109
221. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 90
222. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.217
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 133
223. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.91
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.152
224. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 173-174
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.218
225. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.73
226. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.112
227. Yenə orada, s.113
228. Yenə orada, s.114
229. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.135
230. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.93
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.219
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 58
231. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.93

Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.168
232. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.115
Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 93
Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 196
233. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 168
234. Yenə orada, s. 168-169
235. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 175-176
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 137
236. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 94
Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s.199
237. Yenə orada, s. 95
238. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.118
239. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.169
240. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s.202-203
241. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.222
242. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.95
243. Mirzə bəy Xonabdi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 176
244. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.170
245. Həsən bəy Rumlu. Əhsənüt təvarix. Kastamonı, 2017, s. 386
246. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 96
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.122
247. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.98
248. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 170
249. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.74
250. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.131
251. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.145
252. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.102
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.158
253. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.29-30
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s. 239
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 147
254. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 75
255. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 103
256. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 61
257. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 184
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.140
258. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 142
259. Yenə orada, s.144
260. Yenə orada, s. 144-148
261. Yenə orada, s. 150
262. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.149

Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 185
Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s.104
263. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.150
264. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 85
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.105
265. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.76
266. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 156
267. Yenə orada, s. 158-159
268. Yenə orada, s. 159
269. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 156
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsa sında). Bakı, 2011, s.159-160
270. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.231

# III FƏSİL

# ŞAH İSMAYILIN SƏLTƏNƏT HÜDUDLARININ GENİŞLƏNDİRİLMƏSİ SAHƏSİNDƏKİ FƏALİYYƏTİ

## 1.Şah İsmayılın qərbə doğru hərbi yürüşləri

Yəzd, Gilan və Mazandaran vilayətlərində baş qaldıran itaətsizlik hallarına son qoyulduqdan və kürd qoşunlarının Təbriz üzərinə hücumunun qarşısı alındıqdan sonra səltənət daxilində müəyyən sakitlik bərqərar olundu. 1506-cı ildə qızılbaşlar fəal hərbi kampaniyalarda iştirak etmədilər. Çox güman ki, həmin il Şah İsmayıl daha çox dövlətin möhkəmləndirilməsinə diqqət yetirdi. 1507-ci ildən Şah İsmayıl yenidən fəal hərbi yürüşlərə başladı. Özü də bu yürüşlər əsasən səltənət xaricində formalaşmaqda olan təhlükəyə qarşı istiqamətlənmişdi. Bu təhlükə daha çox keçmiş Ağqoyunlu hakimi Sultan Muradın qərb sərhədləri boyunca Şah İsmayıla qarşı hərbi qüvvələr təşkilatlandırmaq planı ilə bağlı idi.

Yuxarıda deyildiyi kimi, Sultan Murad Ağqoyunlu Səfəvi qoşunları tərəfindən məğlubiyyətə uğradıldıqdan sonra əvvəlcə Bağdada qaçdı və Bağdad hakimi Barik bəy Pornaka sığınmaq istədi. Sonra isə orada da qərar tutmayaraq Hələbə yollandı və bu şəhəri öz hakimiyyəti altına almış Misir məmlükünə pənah apardı. Sultan Murad orada da çox dayanmadı və Əlaüddövlə Zülqədərin yanına üz tutdu. Zülqədərlər xanədanı bu zaman Anadolunun şərqində, Fərat çayının yuxarı hissəsində, Mərəş, Əlbistan və Xarput vilayətlərində məskunlaşmışdılar. Əlaüddövlənin hakimi olduğu ərazilər Osmanlı sultanlığı ilə Misir məmlük dövləti arasında qərar tutmuşdu. Sonradan Əlaüddövlə yaranmış tarixi şəraitdən bəhrələnərək Diyarbəkri də ələ keçirə bildi. Sultan Muradın bu dövlətin ərazisinə gəlməsi Əlaüddövlə tərəfindən müəyyən maraqla qarşılandı. Çünki Sultan Muradın varlığı Əlaüddövlə dövlətinə bir dəstək ola bilərdi. Əslində, Əlaüddövlə də Sultan Muraddan belə bir kömək almaq ümidində idi. Çünki Əlaüddövlə xanədanına mənsub olan dövlət iki güclü sultanlığın, Osmanlı sultanlığı ilə Misir sultanlığının arasında yerləşmişdi. Əlaüddövlə bu sultanlıqların heç birinə qarşı müqavimət göstərmək imkanına malik deyildi və ona görə də çalışırdı ki, onların hər ikisi ilə normal münasibətlərə malik olsun. Sultan Muradın gəlməsi və onun tərəfdarlarının səfərbər olması Əlaüddövlə dövlətinin də güclənməsinə müsbət təsir göstərə bilərdi. Qarşılıqlı münasibətlərin daha da gücləndirilməsi üçün Əlaüddövlə hətta öz qızını da Sultan Murada nikah etdirdi (1).

"Aləmara-yi Səfəvi" əsərindəki məlumata görə, Əlaüddövlənin üç oğlu Sultan Muradın qarşılanmasına çıxmışdı. Bu qarşılanma Sultan Muradı razı saldı və o da öz növbəsində Əlaüddövləni gördükdə onun qarşısında təzim etdi, ona ehtiramını bildirdi. Əlaüddövləuə də vaxtilə Ağqoyunlu hökmdarı olmuş

Sultan Muradın onun qarşısında təzim etməsi xoş gəldi. Qarşılıqlı söhbət zamanı Sultan Murad, Şeyxoğlunun (Şah İsmayılın) Ağqoyunlu dövlətinin başına gətirdiyi oyunlardan söz açdı. Əlaüddövlə də onu arxayın edərək bildirdi ki, Sultan Muradın planlarının həyata keçməsinə kömək göstərəcəkdir. Əlaüddövlə vaxtilə Uzun Həsənin onun əcdadlarına yaxşılıq etməsini və hətta buna görə qızını Sultan Muradın qardaşına vermək istədiyini açıqladı. Sonra da əlavə etdi ki, qardaşı dünyasını dəyişdiyi üçün qızını elə onun özünə verməyə hazırdır. Bu görüşdən dərhal sonra Şah İsmayıla qarşı mübarizə aparılması üçün qoşun toplanmasına başlandı. Yuxarıda adı çəkilən mənbənin məlumatına görə, Zülqədər tayfasından 80 min nəfər sayında qoşun toplandı və bu qoşunlara sıra baxışı keçirildi. Bundan başqa türkmanlardan da 30 min nəfərlik qoşun dəstəsi toplandı (2).

Səltənətin qərb sərhədləri boyunca bu qədər sayda qoşun toplanması Şah İsmayıl üçün sərhədlər xaricində güclü bir təhlükə mənbəyini ortaya çıxardı. Bu təhlükənin aradan qaldırılması üçün 1507-ci ilin novruz bayramı şənlikləri başa çatandan sonra Şah İsmayıl qoşun hazırlığı barəsində göstəriş verdi. İlk baxışdan bu qoşun hazırlığını qərb sərhədləri boyunca mövcud olan təhlükənin aradan qaldırılması üçün qabaqlayıcı tədbir kimi də dəyərləndirmək mümkündür. Amma səltənətin qərb sərhədləri boyunca hərbi yürüşə başlamaqla Şah İsmayıl eyni zamanda özünün cahangirlik planlarını həyat keçirmək fikirlərindən də uzaq deyildi. Bəzi mənbələrdə olan fikirlər də bundan xəbər verirlər. Məsələn, "Aləmara-yi Şah İsmayıl" əsərində bildirilirdi ki, Təbriz ətrafında baş verən döyüşdən bir müddət sonra Şah İsmayıl röyasında onun müqəddəslər tərəfindən Bağdadın fəthinə təşviq edilməsini gördü. Ətrafındakılara bu röyasnı danışanda onun əmirləri və əyanları da Bağdadın fəthi fikrindən çox məmnun oldular və dərhal da bu niyyətin həyata keçirilməsi üçün əməli addımlar atılmasına başladılar. Belə ki, Şah İsmayılın sərəncamı ilə Durmuş xan qoşunların pişxanası kimi bir qızılbaş dəstəsi ilə Bağdad istiqamətində hərəkətə başladı. Bir müddətdən sonra Durmuş xan öz dəstəsi ilə Bağdad yaxınlığına çataraq Mahidəşt adlanan yerdə düşərgə saldı (3).

Bir mənbədə bildirilir ki, Şah İsmayıl bütün Azərbaycanı, Fars vilayətini, Kermanı, Əcəm İraqını fəth etdikdən sonra Ərəb İraqını da fəth etmək fikrinə düşdü və bununla bağlı hazırlıqlar görülməsinə başladı (4).

Bir sözlə, qərbə doğru üz çevirməklə Şah İsmayıl həm təhlükəsizlik məsələlərinin həllinə, həm də səltənətin hüdudlarının genişləndirilməsinə çalışırdı. 1507-ci ilin qışını Şah İsmayıl Xoy ətrafında keçirdi və sonra da bütün əyanlar və ətrafındakılarla birlikdə Novruz bayramını böyük təntənə ilə bayram etdi. Elə həmin vaxtlarda Diyarbəkrdən Şah İsmayılın yanına bir elçi gəldi və bildirdi ki, Əlaüddövlə Diyarbəkrə gələrək bu bölgəni ələ keçirmək və sonra da digər istiqamətdə irəliləmək istəyir (5). Bildirilir ki, bu xəbəri alandan sonra Şah İsmayıl Ərzincana doğru yürüşə hazırlaşmaq barəsində göstəriş verdi və bununla, səltənətin qərb hüdudlarına doğru hərbi yürüş üçün ciddi hazırlıqlara başlandı.

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şah İsmayılın öz qoşunları ilə Ərzincana yürüş etməsi və Əlaüddövlə qoşunları ilə vuruşması belə təsvir olunmuşdur: "O biri il hökmdarın qulağına çatdı ki, Sultan Murad, Məraş və Əlbistan hakimi Əlaüddövlə Zülqədərin yanına gəlmiş, Əlaüddövlə isə onu özünə kürəkən etmişdir. [Sultan Murad] Zülqədər qoşununu, Mosulun və o hüdudun türkmanlarını öz başına yığaraq, Diyarbəkr vilayətini və ətraf qalaları almaqla məşğul olub, o vilayətdə istibdad və istiqlaldan dəm vurur. Süleyman şanlı xaqanın yüksək məqsədli qeyrəti tələb etdi ki, cahangir bayraqları o tərəfə qaldıraraq, [öz] mübarək könlünü ölkədə fitnəkarlıq salanların [əlindən] tamamilə asudə etsin. Ay kimi gəzən qorucular məmləkətlərin qoşunlarını hazır etməyə məmur olundu. 913-cü il aylarında (13.05.1507 - 01.05.1508) [Şah İsmayılın] qələbə rəmzli bayrağı Ərzincan tərəfə qaldırıldı. Cahanı gəzib-dolanan məiyyət öz gəlişinin kölgəsini o ölkəyə saldıqda Əlaüddövlə qızılbaşların gəlib yaxınlaşması xəbərini alıb, döyüşkən qoşunla Əlbistan tərəfə getdi və Durna dağı adlanan uca dağdakı qalaya arxalanaraq, döyüşmək və vuruşmaq intizarında dayandı. ... Süleyman şanlı xaqanın mübarək məiyyəti Əlbistan tərəfə hərəkət etdi. İki ordu yaxınlaşdıqdan sonra tərəflər səflər çəkdilər. Döyüş elə alovlandı ki, qılınc və nizə parıltısından səmada Ülkər ulduzu yanırdı. Öldürülənlərin qanının çoxluğundan Bədəxşan Əlbistan torpağına həsəd aparırdı. O qorxunc və təhlükəli mərəkədə zülqədər tayfası möhkəm dayanmışdı. İki gün səhərdən axşamadək toqquşma və vuruşma davam etdi. Vaxt hər iki ordunun arasına zülmət pərdəsi salanda tərəflər öz düşərgələrinə qayıdaraq, səhər açılanadək keşik çəkir və kəşfiyyat aparırdılar. Üçüncü gün Süleyman şanlı xaqan misilsiz bədəninə zirehli - geyim və xəftan geyərək, qızılbaş ordusunun dilavərlərini düşmənləri dəf etməyə cəsarətləndirib, düşmənləri darmadağın etmək üçün böyük səy qoyaraq, döyüş meydanına qədəm basdı. O tərəfdən zülqədər [tayfasından olan] azğın düşmənlər şahın səadətli məiyyətinin qarşısına çıxdılar. Son dərəcə ağır bir döyüş baş verdi. Mənfur zülqədərlər öz vəziyyətlərində acizlik və zəiflik əlamətlərini müşahidə edib, qaçmağı dayanmaqdan üstün bildilər. Qələbə və uğur küləyi fələyi bürüyən bayrağa təkan verdi. Qızılbaş ordusunun dilavərləri o tayfanı darmadağın etdilər. [Onlar] zülqədərlərin əlindəki Diyarbəkr [vilayətinin] qalalarını güc və qələbə nəticəsində aldılar. Həmin ildə [Diyarbəkr] vilayətinin hakimliyi Xan Məhəmməd Ustacluya verildi. Həmin günlərdə Gülabi bəy Mosullu Türkmanın oğlu Əmir xan Diyarbəkr və Mosul hüdudundan aləmin pənahı olan dərgaha gələrək, [Şah tərəfindən] mehribanlıqla qəbul edildi. Süleyman şanlı xaqan o vilayəti nizama salıb, geri döndü"(6).

Əlaüddövlə və Sultan Murad qızılbaşlara qarşı yeni döyüş üçün 110 min nəfərlik bir qoşun dəstəsi toplamışdılarsa, Şah İsmayıl Ərzincan istiqamətinə cəmi 12 min nəfərlik qoşun dəstəsi ilə hərəkət etdi (7). Qoşunları sayı arasındakı bu rəqəm fərqi qeyri-real görünə bilər. "Rövzətüs Səfəviyyə" əsərində göstərilir ki, Əlaüddövlənin Diyarbəkr istiqamətində hərəkəti xəbəri alınan kimi, Şah İsmayıl İraqdan, Farsdan, Kermandan, Azərbaycandan, Şirvandan, Təbəristandan, Arandan, Muğandan və Kürdüstandan hüdudsuz sayda qoşun topladı. Bəzi mən-

bələr isə qızılbaş qoşunlarının sayının 60-70 min civarında olduğunu yazırdılar (8). Çox güman ki, belə idi. Çünki 12 min nəfərlik qoşun toplanması qeyri-real görünür. Şah İsmayıl uzaq və məsuliyyətli hərbi yürüşə yəqin ki, belə azsaylı qoşun dəstəsi ilə getməzdi. Əgər nəzərə alınsa ki, Şah İsmayılın bu yürüşü başlamaqla böyük planları vardı, onda sözsüz ki, bu böyük planların həyata keçirilməsi üçün tələb olunan hazırlığı da görməli idi.

Bu böyük yürüşə başlamazdan əvvəl Şah İsmayıl qərara gəldi ki, Əlaüddövlənin yanına öz qasidini göndərsin, öz yürüşü barəsində xəbər çatdırmaqla onu da tutduğu yoldan çəkindirməyə çalışsın. Oğlanümmət Çavuşlu adlı birisi qasid təyin edildi və Əlaüddövlənin yanına göndərildi. Əlaüddövlə onu qəzəblə qarşıladı. Xüsusən, Şah İsmayılın qoşun dəstəsi ilə hərbi yürüşə başlaması xəbəri onun yuxusunu da ərşə çəkdi. Əlaüddövlə o dərəcədə qəzəbləndi ki, hətta qasidi qətl etdirmək fikrinə də düşdü. Lakin sonra Şah İsmayılın qorxusundan qasidi qətl etdirmədi və onu Korgölü adlı məntəqədə olan qalaya atdırdı. Bu qala bir gölün kənarında yerləşirmiş. Qaladan qaçmaq yollarını arayanda Oğlanümmət fürsət tapıb özünü gölə atır və mənbə məlumatlarına görə, bir gün və bir gecə suda üzməli olur. Sonra da ayaqyalın, paltarları tökülmüş vəziyyətdə özünü Şah İsmayılın hüzuruna yetirirərək vəziyyəti ona danışır. Göstərdiyi şücaətə görə, qasid Şah İsmayılın səxavətli mükafatlarına və hədiyyələrinə layiq görüldü (9).

Əlaüddövlənin və onun kürəkəni Sultan Muradın qızılbaşlara qarşı yürüş etmək əzmindən dönmədiyini görəndə Şah İsmayıl da Ərzincana doğru istiqamət götürmək əmri verdi. Mənbə məlumatlarına görə, bu zaman Zülqədər tayfası 90 min evdən ibarət idi və hər bir evdə də ən azı bir baş at saxlanılırdı. Bundan başqa, Zülqədər ailələrinin hər birində mütləq şəkildə nizə və digər silahlar da saxlanılırdı. Bununla, mənbələrdə Zülqədər tayfasının hərbi imkanlarına işarə edilirdi. Hətta o da bidirilirdi ki, Zülqədər tayfasının döyüşkənliyi Osmanlı hakimlərini də ehtiyatlandırırdı və ona görə Zülqədər tayfası ilə münasibətlər ehtiyatlı şəkildə qurulurdu. Belə böyük imkanlara malik olan Əlaüddövlə qızılbaşlara qarşı döyüşə də müəyyən arxayınçılıqla hazırlaşırdı və Şah İsmayılın hərəkət xəbərini alanda Əlaüddövlə qoşunları ilə Drunak (bəzi mənbələrdə Durna) adlı dağın ətəklərinə qədər hərəkət etdi və su ehtiyatları olan bir ərazidə düşərgə saldı (10).

Şah İsmayıl 1507-ci ilin yayında Əlbistan istiqamətində hərəkətə başladı. Əlaüddövlə və Sultan Murad qoşunlarının qəfil şəkildə haqlanmasına nail olunması üçün Şah İsmayıl öz yolunu Osmanlı sultanlığı ərazisindən salmalı oldu. Başqa sözlə, o, icazəsiz olaraq Osmanlı dövlətinin hüdudlarına daxil oldu. Bu qərarın Osmanlı sultanı tərəfindən təcavüz və ya saymazlıq kimi qiymətləndirilməməsi üçün Şah İsmayıl bir tərəfdən Osmanlı sultanına məktub göndərdi, digər tərəfdən də qoşunlara göstəriş verdi ki, Osmanlı ərazisi ilə hərəkət edərkən yerli əhaliyə hər hansı bir əziyyət yetirməsinlər. Hətta qızılbaşların yürüşündən qorxaraq öz kəndlərini tərk edən əhaliyə Şah İsmayıl xəbər göndərirdi ki, qorxmadan geri qayıtsınlar və əmin olsunlar ki, onlara heç bir xətər yetməyəcəkdir. Bundan başqa, Osmanlı ərazisində yerli kəndlilərə xəbər çatdırıldı ki, satacaq

əşyaları varsa heç bir narahatçılıq olmadan qızılbaş döyüşçülərinə satsınlar. Mövcud məlumata görə, Şah İsmayıl özü də Osmanlı kəndliləri ilə bazarlıq etdi və bu bazarlığın pulunu artıqlaması ilə ödədi. Bununla, o öz döyüşçülərinə də nümunə göstərdi. Bu məsələdə sui-istifadəyə yol verməmək üçün Şah İsmayıl əmr etdi ki, kimsə yerli əhali ilə bazarlıq edib pulunu ödəməsə qətlə yetiriləcəkdir. Bunun nəticəsi idi ki, rastlaşdıqları bütün məntəqələrdə qızılbaşlar haqq və ədalət nümayiş etdirdilər (11).

Şah İsmayıl eyni zamanda Osmanlı sultanına məktub göndərdi, ona hörmət və ehtiramını bildirdi, onun adına təmtəraqlı sözlər qoşdu. Səfəvi şahı Osmanlı sultanına çatdırdı ki, 1507-ci il avqust ayının 21-də qızılbaş qoşunları Nəxərburnu məntəqəsində Osmanlı ərazisinə daxil olaraq düşmənlərinə doğru hərəkət edir. Şah İsmayıl Osmanlı sultanına olan hörmət və ehtiramını bir daha xatırlatmaqla Osmanlı ərazisində kimsəyə əziyyət yetirilməyəcəyini də onun nəzərinə çatdırdı. Sultan Bəyazid də onun bu məktubuna ehtiramla yanaşdı, yazdığı cavab məktubunda onu "böyük şəhriyar, zamanın Cəmşidi, dünyanın Keyxosrovu" və s. kimi xoş sözlərlə andı. Bir sözlə qüdrətinin yüksəlişdə olduğu bir zamanda Sultan Bəyazid qızılbaşların Osmanlı ərazisindən icazəsiz keçməsinə heç bur maneçilik törətmədi, əksinə, buna mane olunmaması üçün müvafiq göstəriş verdi (12).

Şah İsmayıl Diyarbəkrə daxil olanda Əlaüddövlə onun qarşısında müqavimət göstərə bilməyəcəyini anlayıb Əlbistana geri çəkildi və bu zaman Diyarbəkr ərazisində əvvəllər ələ keçirmiş olduğu qalaların mühafizəsini öz əmirlərinə tapşırdı (13). Bu məlumatın özü də Əlaüddövlənin sərəncamında 110 min nəfərlik (bəzi mənbələrdə hətta 120 min) qoşun olması haqqında yuxarıda xatırlanmış məlumatın doğruluğunu şübhə altına alır. Bununla belə, Əlaüddövlə Əlbistana yollanaraq orada müdafiə olunmağı qərar aldı.

"Aləmara-yi Səfəvi" əsərində bildirilir ki, qızılbaş qoşunları Mərəcuk qalasına yetişəndə Şah İsmayıl hələ Əlvənd Mirzə tərəfindən bu qalaya hakim təyin olunmuş Sultan Abdala məktub göndərdi və onu qalanı təhvil verməyə çağırdı. Şah İsmayıl məktubunda yazdı ki, Sultan Abdal qalasının divarlarına arxalanmasın, gəlsin və qalanı təhvil versin. Ona məsləhət gördü ki, kiminsə sözlərinə aldanmasın və əgər qalanı təhvil verərsə onun bu xidməti layiqincə qiymətləndiriləcəkdir. Bu məktubu alandan sonra Sultan Abdal öz əmirlərini və əyanlarını topladı, Şah İsmayılın təklifini onlarla müzakirə etdi. Qərara alındı ki, Şah İsmayıla itaət göstərilsin. Həmin qərarın nəticəsi kimi, Şah İsmayılın elçisi qiymətli hədiyyələrlə geri göndərildi və onun vasitəsilə Şah İsmayıla çatdırıldı ki, bir gündən sonra Sultan Abdal özü də onun hüzuruna yetişərək itaətini bəyan edəcəkdir. Sabahı gün Sultan Abdal boynundan qılınc asaraq çoxlu hədiyyələrlə Şah İsmayılın hüzuruna gəldi və itaətini bildirdi. Şah İsmayıl da ona hədiyyələr verərək həmin qalanın hakimliyində saxladığını çatdırdı. Sultan Abdal isə bildirdi ki, Şah İsmayılın yanında olmaq istəyir və qala hakimliyindən imtina edir. Şah İsmayıl onun bu xahişi ilə razılaşdı və onu da özü ilə birlikdə götürüb Diyarbəkrin işğalına yollandı. Məlum olduğu kimi, qızılbaş qoşunlarının yaxın-

laşması xəbərini eşidəndə Əlaüddövlə Diyarbəkri tərk etdi. Şah İsmayıl öz əmirlərindən biri olan Məhəmmədi xan Ustaclını Diyarbəkrin və ətrafının bəylərbəyi təyin etdi və özü isə yoluna davam etdi (14).

Əlaüddövlənin geri çəkilməsi xəbərini eşidəndə Şah İsmayıl da onu təqib etmək barəsində göstəriş verdi. Bəzi məlumatlara görə, Əlaüddövlə ətrafındakıları Osmanlı və Şam ərazilərinə göndərdikdən sonra özü Durna dağına pənah apardı. Əlaüddövlə burada döyüş mövqeləri seçdi və Şah İsmayıl ilə döyüşə hazırlıq göstərişi verdi. Şah İsmayıl da bir neçə gündən sonra öz qoşunları ilə həmin məntəqəyə yetişdi və tərəflər arasında ağır bir döyüş baş verdi. Bəzi mənbələr bu döyüşün üç gün davam etdiyini və nəhayətdə qızılbaş qoşunlarının qələbəsi ilə başa çatdığını bildirirlər (15).

Bəzi mənbələrdə isə Şah İsmayıl ilə Əlaüddövlə arasında baş verən qarşılaşma fərqli şəkildə təsvir edilmişdir. Məsələn, bildirilir ki, qızılbaş qoşunları Diyarbəkri adladıqdan sonra Əlaüddövlə qoşunlarına yaxınlaşdılar və həmin qoşunlardan iki mənzilik məsafədə dayandılar. Əlaüddövlə döyüşə başlamazdan əvvəl Şah İsmayıla məktub yazdı və onları maraqlandıran məsələlərin sülh yolu ilə həllinə cəhd göstərdi. Daha doğrusu, Əlaüddövlə əvvəlki iddialarının həyata keçməsinin dinc yollarını aramağa çalışdı. Əlaüddövləyə görə, Şah İsmayıl cahangirlik hərəkatına başlayaraq bütün İranı Uzun Həsənin varislərinin əlindən almışdı. Bunu o, insafsızlıq kimi qiymətləndirirdi. Ona görə, Əlaüddövlə təklif edirdi ki, fəth etdiyi əraziləri Sultan Muradla iki yerə bölsünlər və hər biri də bu ərazilərdən birinin hakimi olsun. Onun sözlərinə görə, aralarında yaxşı münasibətlər qurulacağı halda daha kimsənin onlara gücü çatmayacaqdı. Əlaüddövlə vəd edirdi ki, Şah İsmayıl ilə Sultan Murad razılığa gəldikləri təqdirdə o da hakimi olduğu 80 min ailəlik Zülqədər tayfası ilə onlara himayədarlıq edəcəkdir. Qoşuna ehtiyac duyulan vaxtlar isə Əlaüddövlə onlara qoşunla köməklik göstərməyi də öz üzərinə götürürdü (16).

Bu məktub hazır olandan sonra Əlaüddövlə onun necə çatdırılması haqqında düşünəndə böyük oğlu Sarıaslan (Sarı Qaplan) adlanan Qasım bəyi bu işi öz üzərinə götürməyə razı olduğunu bildirdi. Əlaüddövlənin böyük oğlu olan Qasım bəy bu vəzifəni öz üzərinə götürməklə bəzi məkrli planlarını həyata keçirə biləcəyinə ümid edirdi. Mənbə məlumatlarına görə, Qasım bəy düşünürdü ki, bu elçilik zamanı Şah İsmayılın özünün aradan qaldırılmasına fürsət yarana bilər. Belə bir fürsətin yarandığı halda Şah İsmayılın aradan götürülməsinə və sonra da qızılbaşların düşərgəsindən sağ-salamat qayıtmasına onu müşayiət edəcək 12 min nəfərlik qoşun dəstəsi kömək etməli idi. Əlaüddövlə bu təkliflə razılaşdı və Qasım bəyin 12 min nəfərlik qoşun dəstəsi ilə qızılbaş düşərgəsinə getməsinə etiraz etmədi. Bildirilir ki, Əlaüddövlə kifayət qədər yaşlanmışdı və Qasım bəyin 12 min nəfərlik qoşun dəstəsi ilə qızılbaşlar düşərgəsinə getməsinin təhlükəsinin fərqinə varmadı. Qasım bəyin 12 min nəfərlik qoşun dəstəsi ilə qasidlik etməsi qızılbaşlar düşərgəsində ehtiyatla qarşılandı. Şah İsmayıl göstəriş verdi ki, qızılbaşlar atlarını yəhərləsinlər və özləri də çadırlar daxilində silahlı vəziyyətdə olsunlar. Bununla, zərurət yaranan anda qızılbaş döyüşçülərini

qısa zaman ərzində döyüşə səfərbər etmək olardı. Qasım bəy qızılbaşlar düşərgəsinə yetişəndə burada təsəvvür etmədiyi bir vəziyyətlə qarşılaşdı və bildi ki, əgər istəsə belə qızılbaşları qəfil şəkildə haqlamaq və özünün məkrli planını həyata keçirmək mümkün deyil. Qoşun dəstəsinə atdan düşməyə icazə verməyərək yalnız 30-40 nəfərlə Şah İsmayılın çadırına daxil ola bildi və Əlaüddövlənin məktubunu ona təqdim etdi. Şah İsmayıl məktubla tanış olduqdan sonra bəyan etdi ki, indi hakimiyyət Uzun Həsən xanədanına deyil, onun qız övladına məxsusdur. O qətiyyətlə bəyan etdi ki, irəli sürülən təkliflə razı deyildir. Əksinə, o, Əlaüddövləyə təklif etdi ki, qızılbaşlara qoşulsun, onlara yardım etsin. Əlaüddövlənin nəzərinə çatdırıldı ki, qızılbaşlarla əməkdaşlıq edənlər öz mətləblərinə yetişirlər. Şah İsmayıl bəyan etdi ki, onun bütün fəaliyyəti yaradanın rizası ilədir və məqsəd də yer üzünün zülm və zalimlərdən təmizlənməsidir. Sultan Murada gəlincə isə Şah İsmayıl öz təklifini irəli sürdü. O dedi ki, əgər Sultan Murad şiəliyi qəbul etsə bu dövlətdə və bu hərəkatda onu özünə şərik edəcək və hansı ölkəni də fəth etsə həmin ölkəni onunla bölüşəcəkdir. Qasım bəy Şah İsmayılın qətiyyətini gördükdən sonra başqa fikirlərə düşmədən geri qayıtdı və atasına da Şah İsmayıla qarşı döyüşə başlamaqdan çəkinməyi məsləhət bildi. Amma Əlaüddövlə bu məsləhəti qəbul etmədi və qızılbaşlar üzərinə hücumun başlanması barəsində göstəriş verdi (17).

Şah İsmayılın qoşunları ilə Əlaüddövlə qoşunlarının qarşılaşması haqqında mənbələrdə və tarixi ədəbiyyatda iki fikir mövcuddur. Birinci fikrə görə, bu qoşunlar arasında döyüş baş verdi və bu döyüş kifayət qədər gərgin keçdi. İkinci fikrə görə isə onların arasında döyüş baş vermədi.

Mövcud məlumatlara görə, qızılbaş qoşunları Əlbistan çayı kənarına çatanda düşərgə saldılar. Şah İsmayılın göstərişi ilə Hüseyn bəy Lələnin rəhbərliyi altında avanqard dəstə təşkil edildi və bu dəstəyə tapşırıldı ki, Əlbistan çayını adlamaq üçün çay üzərindən keçid hazırlasın. Hüseyn bəy Lələ də çay üzərindən keçid düzəldərək o biri sahilə adladı və orada düşərgə saldı. Bundan sonra döyüşçülərə imkan verildi ki, atlar üçün yem ehtiyatı yaratsınlar. Bu məqsədlə döyüşçülər ətrafa səpələndilər. Elə bu vaxt Əlaüddövlənin böyük oğlu Qasım bəy (Sarı Qaplan) öz dəstəsi ilə Hüseyn bəy Lələnin dəstəsinin üzərinə qəfil hücum təşkil etdi. Hücumun gözlənilməz olması və qızılbaşların da dağınıq olması döyüşün gedişinə təsir göstərdi. Hüseyn bəy Lələnin göstərdiyi bütün cəhdlərə baxmayaraq, bu hücumun qarşısını almaq mümkün olmadı və qızılbaş dəstəsinə ağır zərbə vuruldu. Hətta Hüseyn bəy Lələ ağır vəziyyətlə qarşılaşdı və onu vurub atdan yerə saldılar. Onu təhlükədən xilas etmək üçün qızılbaşlardan biri atını ona verdi və Hüseyn bəy Lələ bu atı minərək özünü çaya vurdu və o biri sahilə adladı. Bütünlükdə isə qızılbaş dəstəsi ağır itki verdi və onlardan 300 nəfəri qətlə yetirildi (18).

"Aləmara-yi Səfəvi"əsərində bu hadisənin əsas döyüşdən 20 gün sonra baş verdiyi qeyd edilmiş və bir qədər də fərqli şəkildə təsvir edilmişdir.

«Tarix-e həbib üs-siyər» əsərində Hüseyn bəy Lələnin rəhbərliyi altında olan dəstənin Qasım bəyin dəstəsinin hücumuna məruz qalması haqqında

məlumat olmasa da, qızılbaşlarla Əlaüdövlə qoşunları arasında üç gün döyüş baş verməsi təsvir edilmişdir. "Aləmara-yi Səfəvi" əsərində də Şah İsmayılın üç günlük döyüş aparması haqqında məlumat vardır. Amma bu əsərdə döyüşün başlanması ərəfəsində Şah İsmayılın qarşılaşdığı maraqlı bir hadisə də qələmə alınmışdır. Bildirilir ki, döyüşün başlanması ərəfəsində gecə vaxtı Şah İsmayıl yaxın əyanlarından olan Hüseyn bəy Lələni də yanına alıb düşərgəni gəzməyə başladı ki, döyüşqabağı əhval-ruhiyyədən xəbər tutsun. Şah İsmayıl eyni zamanda bilmək istəyirdi ki, kiminsə nəyə isə bir ehtiyacı var, ya yox. Beləcə onlar düşərgəni gəzərək bir-bir çadırları nəzərdən keçirirdilər. Təcrübəli döyüşçülər öz silah və əsləhəsini hazırlamaqla məşğul olduqları halda, bəzi cahil döyüşçülər isə vaxtlarını əyləncə ilə keçirirdilər. Müşahidələrin nəticəsi kimi, Şah İsmayıl üçün aydın oldu ki, döyüşçülərin silah və sursat baxımından heç nəyə ehtiyacı yoxdur. Şah İsmayıl düşərgəni tərk edib öz çadırına dönərkən çadırların birində şərabdan məst olmuş sultanların səs-küyü ilə rastlaşdı. O, qoşunlar daxilində şərab içilməsinə qəzəbini bildirsə də, bu insanları cəzalandırmaqdan daşındı. Hüseyn bəy Lələ də bu insanları cahil adlandıraraq döyüşdən qabaq şərab içməyi özlərinə qənimət bildiklərinə işarə etdi. Bununla belə, Şah İsmayıl bu insanların danışıqlarına da qulaq asdı. Onlardan bəzisi Əlaüddövləni şəxsən öldürmək istəməsini, bəzisi Şah İsmayılın özünün buna qadir olduğunu, bəzisi isə onları etdiyi qəhrəmanlığın Şah İsmayılın adına yazıldığını dilə gətirdilər. Qızılbaşlardan birinin etdikləri qəhrəmanlığın Şah İsmayılın adına yazılması fikri digər qızılbaşlar tərəfindən dəstəklənmədi və onlar Şah İsmayılın qılıncının kəsərindən və işləməsindən söz açdılar. Şah İsmayıl da bu sözdən qəzəbləndi və hətta istədi ki, həmin fikri söyləyən qızılbaşı cəzalandırsın. Hüseyn bəy Lələ ona məsləhət bildi ki, bu fikrindən daşınsın. Çünki şərabın təsiri bu sözləri söyləməyə vadar edir (19).

"Aləmara-yi Səfəvi" əsərinə görə, səhər açılan kimi tərəflərin qoşunları qarşı-qarşıya gəldilər. Əlaüddövlə Sultan Muradla birlikdə öz qoşunlarının mərkəzində yer tutdu. Əlaüddövlənin üç övladı isə qoşunların cinahlarında yer aldılar. Qızılbaş qoşunların döyüşqabağı düzülüşündə Şah İsmayıl da mərkəzdə mövqe tutdu və üzərinə əjdəha təsviri olan döyüş bayrağını dalğalandırmağa başladı. Qoşunların sağ cinahı Abdal bəyə, sol cinahı isə Dədə bəyə həvalə olundu. İlyas bəy Halvaçıoğlunun oğlu isə qoşunların çərxçisi təyin edildi. Döyüşün başlanmasından əvvəl Şah İsmayıl qoşunların qarşısına çıxıb ötən gecə eşitdiyini onlara çatdırdı və bildirdi ki, kim istəyirsə bu meydanda bu qılıncla öz məharətini göstərsin. Qızılbaşlar bu sözləri təəccüblə, həmin söhbətin iştirakçıları isə başlarını aşağı salmaqla qarşıladılar. Amma onlardan kimsə irəli çıxmayanda çərxçi Həsən bəy irəli çıxaraq döyüşə başlamağa icazə istədi və beləliklə, iki böyük qoşun dəstəsi arasında gərgin bir döyüş başladı. Adı çəkilən mənbədə bildirilir ki, qoşunlar üç gün döyüşdülər və tərəflərin heç biri bu döyüşdə üstün gələ bilmədi. Belə olanda üçüncü gün Şah İsmayıl qoşunların qarşısına çıxıb dedi ki, döyüşlərin uğurla başa çatması üçün əsas ağırlığı öz üzərinə götürür. Hər hansı bir nəticə əldə edilməməsinə işarə edərək Şah İsmayıl

bildirdi ki, üç gündür ki, qoşunlar döyüş meydanındadır. Amma işlər irəli getmir. Şah İsmayıl qələbənin əldə edilməsində onun zəhmətini qəbul etmək istəməyənləri qınadı və iki gün ərzində bir nəticə əldə edilməyən döyüş meydanının indi onun və qardaşının ixtiyarında olduğunu söylədi. Sonra da qardaşı Sultan İbrahimə (İbrahim Mirzəyə) göstəriş verdi ki, onun arxasınca döyüş meydanına daxil olsun. Mənbə məlumatına görə, Şah İsmayıl qızılbaşlardan kiminsə onun arxasınca döyüşə girməsini qadağan etdi və özü Əlaüddövlə qoşunlarının üzərinə yeridi. Əvvəlcə qarşı tərəfin çərxçilərini aradan götürdükdən sonra Şah İsmayıl özünü Əlaüddövlə qoşunlarının birinci xəttinə vurdu, sonra ikinci xətt üzərinə hücum çəkdi. Əlaüddövlə və onun yanında olan Sultan Murad bu vəziyyəti görüb döyüş meydanını tərk etdilər. Şah İsmayıl isə özünü hətta Əlaüddövlənin bayrağına yetirə bildi. Əlaüddövlə özü olmasa da onun bayrağını vurub yerə saldı. Bundan sonra qızılbaşlar döyüş meydanına atıldılar və Zülqədər qoşunlarından salamat qalanları da qırıb-çapdılar. Əlaüddövlə isə canını salamat qurtarması üçün Durna qalasına sığınmalı oldu (20).

"Tarix-e həbib üs-siyər" və ona istinad edən tarixi araşdırmalarda döyüşlərin gedişi haqqında təsvir kifayət qədər müxtəsərdir. Lakin həmin təsvirlər daha real səhnələrin təsviridir. Bu təsvirlərə görə, birinci gün hər iki tərəfin qoşunları kifayət qədər güc sərf etməklə döyüşə qatıldılar. Bu döyüş nə qədər gərgin keçsə də tərəflərin heç biri üçün uğur gətirmədi. Havanın qaralması ilə döyüşə son qoyuldu. Qızılbaş döyüşçüləri belə güman edirdilər ki, Zülqədər qoşunları döyüşün gərginliyinə tab gətirməyərək gecə ikən geri çəkiləcəklər. Amma belə olmadı. Əlaüddövlə və onun əmirləri qoşunları ciddi döyüşə səfərbər edə bildilər və səhəri gün döyüş yenidən qızışdı. İkinci gün də tərəflər arasında çox gərgin bir döyüş keçdi. Yəni, Zülqədər qoşunları və Əlaüddövlə bu döyüşə kifayət qədər ciddi hazırlaşmışdı və ona görə də qızılbaş qoşunlarına xeyli müqavimət göstərildi. Məlumatların azlığı bu döyüşün təfərrüatlarını təsəvvür etməyə imkan vermir. Bununla belə, gərgin keçən döyüşün ikinci günü də bir nəticə vermədi və havaların qaralması ilə qoşunlar öz düşərgələrinə çəkildilər. Üçüncü gün isə qızılbaşlar bütün güclərini səfərbər etdilər və Zülqədər qoşunlarına güclü zərbə endirməklə hərbi təşəbbüsü ələ ala bildilər. Günortadan sonra artıq hərbi təşəbbüs bütünlüklə qızılbaşların əlinə keçdi və Əlaüddövlə qoşunlarının geri çəkilməkdən başqa çıxış yolu qalmadı. Qızılbaşlar geri qaçan Əlaüddövlə qoşunlarının təqibinə girişdilər və bu zaman da onlara ağır itkilər yetirdilər. Beləliklə, Əlaüddövlə qoşunlarına ağır zərbə vuruldu, amma Əlaüddövlə bu döyüşdən canını salamat qurtara bildi (21).

Mövcud olan faktların təhlili qızılbaş qoşunları ilə Zülqədər qoşunları arasında gərgin döyüşün olmasını ehtimal etməyə əsas verir. Çünki Əlaüddövlə özünün böyük iddialarını həyat keçirmək üçün gec-tez qızılbaş qoşunları ilə üzbəüz gəlməli idi. Həm də çoxlu sayda qoşun topladıqdan sonra öz ərazilərində qızılbaşların qarşısından qaçmaq üçün elə bir ciddi əsas da yox idi. Amma qeyd edildiyi kimi, bu döyüşün baş verməməsini iddia edən mənbələr də vardır. "Tarix-i aləmara-yi Abbasi" əsərinin müəllifi də bu döyüşün baş vermədiyini

iddia edir. Amma sonra bu iddiasını təsdiq edə bilməyəcəyini də əlavə edirdi. Bu mənbədə haqqında danışılan hadisələr belə təsvir edilmişdir: "Amma tarixçi Həsən bəy «Əhsənüt təvarix»də qeyd edib ki, Süleyman şanlı xaqanla [Əlaüddövlə Zülqədərin] arasında toqquşma olmayıb. O, belə yazır ki, Süleyman şanlı xaqan Əlbistana gəldikdə Əlaüddövlə müqavimət göstərməyə tab gətirməyib, möhkəm və yüksək bir yer olan Durna dağına qaçdı. Uca məkanlı xaqan, Hüseyn bəy Ləhni müzəffər qoşunların bir dəstəsi ilə göndərdi ki, oradan axan böyük çaydan keçid yeri müəyyən etsin. [Hüseyn bəy Lələ] çayın o biri sahilinə keçib, düşərgə qurdu. Əksər qazilər arpa və saman axtarmağa getdilər. Bundan istifadə edən Əlaüddövlənin oğlu Sarı Qaplan onun (Hüseyn bəy Lələnin) üstünə gəldi. Onunla Lələ bəy arasında böyük bir döyüş baş verdi. Lələ bəyi atdan aşırdılar. Lakin onun Xəlil ağa adlı mülazimi öz atını çəkib, Lələ bəyi mindirdi və ağası uğrunda öz canını qurban verdi. Lələ bəy salamatlıqda oradan çıxdı. Əlaüddövlənin o möhkəm və yüksək dağa fərar etməsi [xəbəri] müzəffər hökmdarın qulağına çatdıqda onun ölkəsini və vilayətini talan və qarət edərək, geri qayıtdı. Tarixçi Həsən bəy «Həbib üs-siyər»in müəllifinə etiraz edir ki, özü həmin zaman yaşadığına baxmayaraq, olan [hadisənin] əksinə yazmışdır. Bu kiçik zərrə (İsgəndər bəy Münşi) hər iki fikri bəyan etdi. Bu iki rəvayət arasında ortaq məxrəc bundan ibarət ola bilər ki, dünya hökmdarının Əlbistanda olduğu günlərdə Əlaüddövlənin Sarı Qaplanı Lələ bəyin və [qızılbaş qoşununun] öncül dəstələrinin üzərinə göndərdiyi vaxt onların arasında vuruşma olmuş, ta üç gün boyunca qızılbaşlar və zülqədərlər arasında o hüdudda, dağların ətəklərində və kənarlarında ayrı-ayrı toqquşmalar baş vermişdir. Nəhayət, ola bilsin ki, üçüncü gün Süleyman şanlı xaqan o itaətsizlərin işini bitirmək üçün hərəkət etmiş, qalibiyyətli ordunun gəlişini görən Əlaüddövlə o hüduddan uzaqlaşıb Durna dağına getmiş və Süleyman şanlı xaqan da bundan sonra geri dönmüşdü. Həqiqəti Allah bilir" (22).

Yuxarıda qeyd edildiyi kimi, Əlaüddövlənin oğlu Sarı Qaplanla (Sarıaslan) Hüseyn bəy Lələnin qarşılaşması "Aləmara-yi Səfəvi" əsərində əsas döyüşdən sonra təsvir edilmişdir. Bu əsərdəki təsvirdə bir maraqlı məqam var ki, o da Şah İsmayıl ilə bağlıdır. Həmin təsvirin məzmunu ondan ibarətdir ki, Əlaüddövlə qoşunları üzərində qələbə əldə edildikdən sonra Diyarbəkrin hakimiliyi Şah İsmayıl tərəfindən Məhəmməd xan Ustaclıya həvalə edildi. Əlaüddövlə ilə Sultan Muradın təqib edilməsindən isə əl çəkildi. Qızılbaş qoşunları Durna çayına tərəf hərəkət etdilər və çay kənarında düşərgə saldılar. Burada Şah İsmayıl çay üzərinə keçid yaradılması ilə bağlı Hüseyn bəy Lələyə göstəriş verdi, Hüseyn bəy 4 min nəfərlik qoşun dəstəsi ilə bu işi görməli idi. Əlaüddövlə də bu xəbəri eşidəndə oğlu Sarı Qaplanı 10 min nəfərlik dəstə ilə Durna çayı kənarına göndərdi. Mənbə məlumatına görə, Sarı Qaplan 10 min nəfərlik dəstəsi ilə 20 gün çay kənarında gözlədi və sonra çayın o biri tərəfinə adlayaraq Hüseyn bəy Lələnin dəstəsinə zərbə vurmaq qərarına gəldi. Sarı Qaplan gizli və gözlənilməz şəkildə çayı adladığından Hüseyn bəy bundan vaxtında xəbər tuta bilmədi və qızılbaşlar ağır zərbəyə düçar oldular. Döyüş hətta səhəri gün də davam etməli

oldu. Məlumdur ki, bu döyüşdə qızılbaşlar uğursuzluğa düçar oldular və Hüseyn bəy Lələ də ağır vəziyyətlə qarşılaşmalı oldu. Nəhayət, bu barədə Şah İsmayıla da xəbər çatdı. Şah İsmayıl dərhal bir dəstə ilə Hüseyn bəyin köməyinə yollandı və Durmuş xana da göstəriş verdi ki, o da öz dəstəsi ilə onun arxasınca hərəkətə başlasın. Şah İsmayıl o zaman döyüş meydanına çatdı ki, qızılbaşların artıq çıxış yolu qalmamışdı. Döyüş yenidən qızışdı. Şah İsmayıl və onun ətrafında olan qızılbaşlar Sapıqaplanın dəstəsinə aman vermədilər. Sarı Qaplan özü bu zaman hiylə işlədərək arxadan Şah İsmayıla yaxınlaşmaq və onu qətlə yetirmək istədi. Amma Şah İsmayıl bundan xəbər tutanda Sarı Qaplanın geri çəkilmək imkanı qalmadı və Şah İsmayılın zərbəsindən dünyasını dəyişməli oldu.

Qeyd edilməlidir ki, hazırkı tədqiqata cəlb edilmiş mənbələrdə bu hadisə öz əksini tapmamışdır. Əkisnə, «Tarix-e həbib üs-siyər», "Fotuhat-e şahi", "Tarix-e aləmara-yi Abbasi", "Xolde bərin", "Rövzətüs Səfəviyyə" əsərlərində Əlaüddövlənin oğlu Sarı Qaplanın qətlə yetirilməsi Diyarbəkr hakimi təyin edilmiş Məhəmməd xan Ustaclının adı ilə bağlanmışdır. Əlaüddövlə ilə Şah İsmayıl arasında əsas döyüşün olmadığını bəyan edən mənbələrdə bildirilir ki, Əlaüddövlə döyüşü başlamadan Durna dağına çəkiləndə Şah İsmayıl onu "ala dana" adlandırdı və daha onu təqib etməyi lazım bilmədi (23).

"Aləmara-yi Səfəvi" əsərində Sarı Qaplanın ölümündən sonra Əlaüddövlə ilə Şah İsmayılın arasında barışıq yaranması haqqında məlumat öz əksini tapmışdır. Bu mənbədə bildirilir ki, Sarı Qaplanın ölümü xəbəri Əlaüddövləni çox qəzəbləndirsə də, əmir və əyanlarını toplayıb onların məsləhəti ilə hərəkət etməyi qərarlaşdırdı. Əyan və əmirlər də fərqli məsləhətlər ortaya qoydular. Onlar arasında hərb yoluna üstünlük verənlər də oldu, barışıq yolunu üstün tutanlar da. Əlaüddövlə özü də barışıq yoluna üstünlük verdi. O açıq şəkildə bildirdi ki, Şah İsmayılın qoşunları üzərində qələbə əldə etmək mümkün deyil. Onun fikrincə, növbəti döyüş həm qoşunların qırılmasına yol açacaqdı, həm də yaşayış məntəqələrinin məhvinə səbəb olacaqdı. Ona görə də Əlaüddövlə öz xəzinəsindən çoxlu sayda və çox böyük qiymətdə hədiyyələr seçdi və onları Şah İsmayıla göndərdi. Bu hədiyyələr Əlaüddövlənin məktubu ilə birlikdə hörmətli adamların müşayiəti ilə qızılbaş düşərgəsinə göndərildi. Əlaüddövlənin nümayəndə heyəti Şah İsmayıl tərəfindən böyük hörmətlə qarşılandı və qonaqlara layiqli ehtiram nümayiş etdirildi. Əlaüddövlənin məktubu Şah İsmayıla müraciətlə başlayırdı. Şah İsmayıl bu məktubda dövrün nəzakət qaydalarının tələb etdiyi ləqəblərlə, müraciət formaları ilə xatırlanırdı. Məktubda Ağqoyunlu hakimi Uzun Həsən xatırlanır və bildirilirdi ki, onun övladları kömək istədikləri üçün onlara kömək əli uzadılıb. Nəticədə isə onun dörd övladı həyatlarını itirməli olmuşdular. Əlaüddövlə onu da bildirirdi ki, Zülqədər ocağı ilə Şeyx Səfi ocağı arasında heç zaman düşmənçilik olmamışdır. Əvvəlki münasibətlərin saxlanması üçün Əlaüddövlə təklif edirdi ki, Diyarbəkr Şah İsmayıl tərəfindən fəth olunduğu üçün onun hakimiyyəti altında qalsın. Pəricuk çayınn kənarına qədər olan ərazilərin isə özünün hakimiyyəti altında qalmasını təklif etdi. Şah İsmayıl bu təkliflə razılaşdı və bununla tərəflər arasında sülhə qərar verildi (24).

Şah İsmayıl ilə Əlaüddövlə arasında böyük döyüş olmasını xatırlatmayan mənbələr bildirirlər ki, Əlaüddövlə döyüş meydanını tərk edəndən sonra Şah İsmayıl geriyə, Diyarbəkrə qayıtmağa sərəncam verdi. Qızılbaş qoşunları öz yolunu Şamdan saldılar və Şamın həm hakimləri, həm də əhalisi Şah İsmayılı böyük təntənə ilə qarşıladılar və ona qiymətli hədiyyələr bağışlandı. Diyarbəkrə çatanda Şah İsmayıl məlumat əldə etdi ki, Əlaüddövlə qoşunlarının bir hissəsi Xərput (Harput) qalasına toplaşaraq itaət etmək istəmir. Mənbələrdə bu qala çox möhkəm bir qala kimi təsvir olunmuşdur. Şah İsmayıl dərhal bu qalaya öz dəstəsini göndərdi. Qızılbaş dəstəsi bu qalaya yetişib onu mühasirəyə aldı. Qalanın müdafiə imkanları böyük olduğu üçün qala daxilindəkilər qızılbaşlara qarşı ciddi müqavimət göstərə bildilər. Qala divarları üzərindən həm ox, tüfəng gülləsi, həm neftə batırılmış əşyalar, həm də daş parçaları atırdılar. Bunun nəticəsi idi ki, qala müdafiəçiləri mühasirənin birinci günü onu əllərində saxlaya bildilər. Lakin mühasirənin ikinci günü qızılbaşların qumbaraları və zənburək gülləəri Xərput qalasının divarlarını zədələdilər. Şah İsmayıl özü də bu mühasirənin yarılmasında iştirak edirdi. Qala divarlarına zədə yetişən kimi Şah İsmayılın əmri ilə qətiyyətli hücum təşkil edildi. Şah İsmayıl bu hücumdan əvvəl bütün döyüşçülərinə göstəriş verdi ki, silahlılardan başqa qala sakinlərinə əziyyət verilməsin. Qızılbaşlar qala daxilinə yol tapan kimi isə oradakılar aman istədilər və dəstə-dəstə qala xaricinə çıxaraq itaətlərini bildirdilər. Xərput qalasının alınması və bu zaman onu sakinlərinə xətər yetirilməməsi haqqında xəbər Diyarbəkr daxilindəki digər qalalara çatanda yhəmin qalaların hakimləri və sakinləri öz itaətlərini bildirdilər və qalaların hücuma məruz qalmasına yol vermədilər (25).

Xərput qalası və digər qalaları itaət altına gətirdikdən sonra Şah İsmayıl, Məhəmməd bəy Ustaclını Diyarbəkr bəylərbəyi təyin edib Van gölü sahillərində yerləşən İxlat şəhərinə tərəf istiqamət götürdü. Məhəmməd bəy bu diyarın bəylərbəyi təyin ediləndən sonra xan məqamına yüksəldildi. Bu şəhər və onun ətrafı həm yaşıl, həm də səfalı bir məkan idi və ona görə də Şah İsmayıl öz yolunu həmin bölgədən saldı. Həmin istiqamətdə hərəkətdə ikən mərkəzi şəhəri Bitlis olan Kürdüstan vilayətinin hakimi Şərəfəddin bəy onun qarşısına çıxdı və ona öz itaətini bəyan etdi. Şah İsmayıl özü də, onun qoşunları da bir neçə gün İxlatda qalaraq istirahət etdilər. Oradan isə qızılbaş qoşunları Xoya doğru istiqamət götürdülər. Şah İsmayıl qışı orada keçirmək istəyirdi (26).

Qeyd edildiyi kimi, Şah İsmayıl ilə Əlaüddövlə arasında böyük döyüş baş verməsini xatırlamayan bəzi mənbələr Əlaüddövlənin oğlu Qasım bəyin (Qara Qaplan) qarşılaşmasını və Qasım bəyin öldürülməsini Məhəmməd xan Ustaclının Diyarbəkr bəylərbəyi olmasından sonrakı dövrdə onlar arasında baş verən qarşıdurmaya aid edirlər.

Şah İsmayıl öz qoşunları ilə Xoya yollandıqdan sonra Diyarbəkrin yerli hakimləri və onların tərəfdarları özlərini daha arxayın hesab edərək yenidən qızılbaşlara itaətsizlik yolunu tutdular. Bu qüvvələrin başında vaxtilə Mosul hakimi olmuş Əmir bəyin qardaşı Qayıtmış bəy dayanırdı. Qayıtmış bəy ətrafına

topladığı dəstə ilə Diyarbəkrin Hamid adlanan mərkəzi hissəsini ələ keçirdi və qızılbaşlar hakimiyyətinə tabe olmadığını bildirdi. Qayıtmış bəyin belə bir əmələ əl atması bölgənin kürd silahlı dəstələrini də həvəsə və hərəkətə gətirdi və onlar da Məhəmməd xan Ustaclıya qarşı silah qaldırdılar. Məhəmməd xan da nəhayətdə qoşun dəstəsi ilə qayıtmış bəyin üstünə hücum çəkdi və tərəflər arasında ciddi bir döyüş baş verdi. Bu qarşıdurma "Tarix-i aləmara-yi Abbasi" əsərində daha geniş təsvir edilmişdir. Həmin əsərdən aşağıdakılar məlum olur: "...Xan Məhəmməd Diyarbəkrə gəldi. Gülabi bəy Mosullunun oğlu Qayıtmış bəy Həmid şəhərində idi. [O], düşmənçilik edərək, qalanı bağlayıb, [oraya] daxil olmağa mane oldu. Xan Məhəmməd çarəsizlikdən bayırda qaldı. O ətrafdakı kürdlər qızılbaş ordusuna qarşı çoxlu basqınlar etdilər. Xan Məhəmməd kürdlərin üstünə getdi. Onların arasında böyük bir vuruşma oldu. Kürdlərdən yeddi min nəfər öldürüldü. Xan Məhəmməd kürdlərlə hərbdən qalib və müzəffərcəsinə qayıtdı. Qayıtmış bəy ona müqavimət göstərə bilməyib, öz adamını Əlaüddövlə Zülqədərin yanına göndərdi və ondan kömək istədi, [əvəzində] şəhəri ona verəcəyinə söz verdi. Əlaüddövlənin vəziyyətində məğlubiyyət aşkar olduğuna baxmayaraq, Qayıtmış bəyin xahişi əsasında Həmid şəhərini almaq həvəsi ilə o qışda bir daha döyüşkən qoşun yığaraq, öz oğulları Sarı Qaplan [adı] ilə məşhur olan Qasım bəyin və Ərdüvanə bəyin başçılığı ilə on min nəfəri Diyarbəkrə, Xan Məhəmmədə qarşı göndərdi. Xan Məhəmməd Ustaclu ordusunun sayca az olmasına baxmayaraq, şahın zavalsız bəxtinə arxalanıb, ustaclu tayfası ilə birlikdə o ulduz kimi [saysız] qoşunun qarşısında döyüş nizamı tutdu. [Xan Məhəmməd] qüdrətli dövlətin uğurlu bəxtinin gücü ilə müvəffəqiyyət və zəfər qazandı. İgidliklə və qorxmazlıqla Əlaüddövlənin başqa övladlarından seçilən Sarı Qaplan və qardaşı Ərdüvanə bəy bir çox adamla tutulub qətl edildilər. Xan Məhəmməd qələbə və zəfər çalaraq, böyük təntənə və şöhrətlə Qayıtmış bəy Türkmanın üzərinə yürüdü. O isə şəhərin darvazalarını bağlayıb qalanı saxlamaq istədi, amma buna nail olmadı. Həmid şəhərinin əhalisi ondan üz çevirərək, qaziləri şəhərə buraxdılar. Qayıtmış bəy tutulub qətl edildi. Xan Məhəmməd Diyarbəkrdə müstəqil hakimiyyət sürməyə başladı. Onun şan-şöhrəti o ətrafda yayıldı.

Əlaüddövlə öz oğullarının başına gələn hadisədən sarsılıb, dağınıq qoşununu bir daha toplayaraq, oğulları Kor Şahrux və Əhməd bəyi on beş minə qədər süvari ilə qardaşlarının qanını almaq üçün Xan Məhəmmədin üzərinə göndərdi. Xan Məhəmməd də mərdanə müdafiəyə qalxaraq, şəhərdən çıxdı və zülqədər qoşunu ilə döyüşə girdi. Xan Məhəmmədin üç min adamı vardı. Belə [rəvayət] yayılmışdır ki, sıralar düzüldükdən sonra zülqədər qoşununun tazı və tulaları irəli sıçrayaraq, ustaclu ordusunun itləri ilə boğuşmağa girdilər. Xan Məhəmməd bu itlərin döyüşünü fal hesab etdi.Təsadüfən, ustaclu itləri üstün gəlib, zülqədər itlərini qaçmağa [məcbur] etdilər. Bunu müşahidə edən Xan Məhəmmədin ürəyi toxtaqlıq qazandı, zəfər və qələbə müjdəsini qazilərə verdi. Tərəflər arasında böyük vuruşma oldu. Bu dəfə də Xan Məhəmməd şahın zavalsız bəxtinin köməyi ilə o [sayca] böyük qoşuna qalib gəldi. Əlaüddövlənin

övladları Kor Şahrux və Əhməd bəy tutulub, çoxlu qohum-əqrəbaları və əmirləri ilə birgə o mərəkədə öldürüldülər" (27).

Diyarbəkr döyüşündən sonra Məhəmməd xan öz elçisini Əlaüddövlənin övladlarının kəsilmiş başları ilə birlikdə Şah İsmayıla göndərdi. Şah İsmayıl bu zaman Xoyda qışlaq keçirirdi və Məhəmməd xanın əldə etdiyi qələbəyə görə çox sevindi. Həm bu xəbəri gətirmiş olan elçilər, həm də Məhəmməd xan Şah İsmayılın səxavətli hədiyyələri ilə mükafatlandırıldılar. Məhəmməd xan isə Şah İsmayıl tərəfindən xüsusi olaraq qeyd edildi və əmirləri içərisində ona verilən dəyər daha da artdı. Əlaüddövlə isə bu xəbəri eşidəndən sonra son dərəcə kədərləndi və qəzəbləndi. İki sevimli oğlunun döyüşdə qətlə yetirilməsi onun halını xeyli dərəcədə pisləşdirdi və ona görə də onların qisasını almağa cəhd göstərdi. Əlaüddövlə yenidən böyük bir qoşun dəstəsi topladı. Bu dəstənin tərkibi 15 min nəfər atlıdan (bəzi mənbələrə görə isə 11 min nəfərdən) ibarət idi. Əlaüddövlə bu dəfə də Məhəmməd xan üstünə göndərilən dəstənin rəhbərliyini Kor Şahrux və Əhməd bəy adlı övladlarına tapşırdı. Zülqədər qoşunları Diyarbəkrə yetişəndə Məhəmməd xan istirahət üçün Mardin yaylağına çəkilmişdi. Vilayət işlərinə rəhbərliyi isə o, qardaşı Qara bəyə tapşırmışdı. Zülqədər qoşunlarının hücum xəbərini eşidəndə Məhəmməd xan dərhal Diyarbəkrə, Həmid (Amid) qalasına döndü. Məlumatlara görə, Məhəmməd xanın isə cəmi 3 min nəfər atlısı var idi və o, Həmid qalasına yetişən kimi dərhal Zülqədər qoşunlarının üstünə hücum etdi. Məhəmməd xan özünün az saylı lakin daha təcrübəli döyüşçüləri ilə Zülqədər qoşunlarına güclü zərbə endirdi və onlara hər hansı bir şans vermədi. Fədakar döyüş nəticəsində Məhəmməd xan və onun dəstəsi qəfil hücum etmiş Zülqədər dəstəsinə kifayət qədər itki yetirdi. Döyüşün gedişində Əlaüddövlənin oğulları - Kor Şahruxla Əhməd bəy də qətlə yetirildilər. Mahmudxan onların da başlarını bədənindən ayırıb elçilər vasitəsilə Şah İsmayılın hüzuruna göndərdi. Bu elçilər yetişəndə Şah İsmayıl qoşun dəstəsi ilə artıq Həmədan ətrafında idi. Şah İsmayıl ərəb İraqına hücum etmək üçün hərəkətə başlamışdı. Amma Məhəmməd xanın bu dəfəki qələbəsi də onun böyük sevincinə səbəb oldu. Bu dəfə də Şah İsmayıl həm elçiləri, həm də Məhəmməd xanı qiymətli hədiyyələrlə mükafatlandırdı (28).

Daha iki övladının öldürülməsi yenidən Əlaüddövlənin dərin kədərinə səbəb oldu. Amma bu dəfə qızılbaşlar üzərinə daha hücum etmədi. O əyninə keçədən qara paltar geydi. Əlaüddövlənin sonrakı taleyi isə belə oldu: "Rum padşahı, Əlaüddövlənin dalbadal məğlubiyyəti, övladlarının öldürülməsi, əmirlərinin və ordusunun darmadağın edilməsi xəbərini alandan sonra ona qarşı keçmişdən ürəyində kin olduğuna görə fürsəti qənimət bilib, üzərinə qoşun çəkdi. İki tərəf arasında müharibə baş verdi. Əlaüddövlə rumilərlə döyüşdə öldürüldü və o sülalənin dövləti sona çatdı. Zülqədər tayfasının bəzisi xəndgarın mülazimi oldu, bəzisi də Süleyman şanlı xaqanın xidmətinə keçdi. Xülasə, zülqədərlərlə müharibə meydanında, Əlaüddövlənin kürəkəni olmuş Sultan Murad rumilərin əlinə düşdü. Rum padşahı Sultan Səlim onu himayə edib, bir

müddət yanında saxladı. [Sultan Səlim] Süleyman şanlı xaqanın üzərinə gedən illərdə onu özü ilə götürməyi münasib bilmədi" (29).

Əlaüddövlənin zərərsizləşdirilməsi Şərqi Anadoluda qızılbaş mövqelərinin möhkəmlənməsinə qarşı mövcud olan ciddi təhlükələrdən birini aradan qaldırdı və bununla Şah İsmayılın səltənət hüdudlarından kənarda apardığı ilk fatehlik yürüşü uğurla başa çatdı.

### 2.Bağdadın ələ keçirilməsi

Mənbə məlumatlarından aydın olur ki, Şah İsmayıl 1507-1508-ci ilin qışını Xoyda keçirərkən Ərəb İraqını, o cümlədən Bağdadı fəth etməyi planlaşdırırdı və ona görə də 1508-ci ildə havaların qızmağa başlamasından sonra Şah İsmayıl Həmədan istiqamətində hərəkətə başladı. Məqsəd isə buradan keçməklə Bağdada doğru irəliləmək idi. Bağdad şəhəri Ağqoyunlulara məxsus idi və Şah İsmayıl Ağqoyunluları süquta uğratdığı üçün bu şəhərə də haqqı olduğunu ortaya qoyurdu. Bağdad şəhəri Ağqoyunluların əlində qalmış sonuncu böyük şəhər idi. Bu şəhərin fəth edilməsi həm Ağqoyunlu mövcudluğuna son qoymaqla yanaşı, həm də qızılbaşlar səltənətinin hüdudlarının genişlənməsinə və Şərqin böyük şəhərinin nəzarət altına alınmasına yol aça bilərdi. Bağdadın fəth edilməsi həm də şiə imamlarının bölgədə yerləşən ziyarətgahlarının nəzarət altına alınmasını asanlaşdıra bilərdi.

Sultan Murad məlum olduğu kimi, Şah İsmayıla məğlub olub Bağdada qaçsa da, orada da duruş gətirə bilmədi və bu şəhərin hakimliyini Barik Pornak adlı birisinə tapşıraraq özü Əlaüddövlənin yanına yollandı. Barik Pornak isə özünü buranın hakimi hiss edərək müstəqilləşməyə meyllilik nümayiş etdirdi. Amma o, qızılbaş qoşunlarına müqavimət göstərmək qüdrətində deyildi. Ona görə də, Şah İsmayıl əvvəlcə dinc şəkildə onu itaət altına gətirməyə çalışdı. "O vilayətin fəth edilməsinin gerçəyi budur ki, İraqi-Ərəb məmləkətinin əyanları Sultan Muradın halının sarsılmasından xəbər alandan sonra türkman əmirlərindən Barik adlı birisi o ölkəni ələ keçirdi və onu [əlində] saxlamağa çalışdı. Şahın nurlu ürəyində o vilayəti almaq istəyi möhkəmləndi. Öncə Barikə zərlə toxunmuş [qızılbaş] tacı, xüsusi kəmər və xələt göndərərək, onu itaətə və sədaqətə dəvət etdi. Barik işin əvvəlində şahın xələtini qəbul edib, türkman taqiyəsini başından götürdü, şahın tac və xələtini geyməklə fəxr edib öyündü, sidrəyə bərabər [ali] sarayın xadimlərinə layiq peşkəşlər göndərdi və xahiş etdi ki, o ölkənin valiliyi ona verilsin. Amma şah bunu qəbul etmək fikrində deyildi. O, Barikə xəbər göndərdi ki, «Ətabati-aliyatı ziyarət etmək niyyəti qəlbimizdə qətiləşibdir, onu ləğv etmək olmaz. Əgər onun (Barikin) sözlərindən sadaqət və səmimiyyət qoxusu gəlirsə, durmadan aləmin pənahı olan dərgaha gəlsin, başqa əmirlərin sırasına girsin, yoxsa, məkr və hiylə ilə bu dərgaha yol tapmaq olmaz». Barik bir neçə gün [şahın] dövlətinə tərəfdar olduğunu nümayiş etdirdi. Lakin şahın o tərəfə gələcəyi aydın olduqda qalaya azuqə və döyüş sursatı

yığmağa başladı, açıq-aydın müqavimət təbili döyərək, [şahın ona göndərdiyi] zərli tacı başından atdı. Buna görə də şahın o tərəfə getməsi qərara alındı" (30).

Yəni, Şah İsmayıl bildirdi ki, onun Bağdadı fəth etmək niyyəti kifayət qədər ciddidir və bunun üçün artıq əməli addımların da atılmasına başladı. Şah İsmayıl qoşunları ilə hərəkətə gələrək Bağdad istiqamətində irəliləməyə başladı. Şəhərin üç mənzilliyində Şah İsmayıl düşərgə saldı və Hüseyn bəy Ləlәni avan-qard dəstə kimi irəli göndərdi. Şah İsmayıl ona tapşırdı ki, əgər Barik bəy Pornak itaətsizlik göstərib döyüşə girmək istəsə onun cavabı verilsin. Yox, əgər itaət göstərsə, ona qarşı iltifat edilsin və ona çatdırılsın ki, bu itaətin qarşısında şah tərəfindən səxavətlə mükafatlandırılacaqdır və onun bütün istəkləri də yerinə yetiriləcəkdir. Hüseyn bəy Lələ də 5 min nəfərlik (bəzi mənbələrdə 6 min nəfərlik) qoşun dəstəsi ilə Bağdada yollandı. Şəhər ətrafına çatanda Barik bəy tərəfindən qarşılanmamasından Hüseyn bəy Lələ vəziyyətin nə yerdə olduğunu anladı və bildi ki, Barik bəy verdiyi vədin əksinə olaraq itaətsizlik yolu tutubdur. Onda Hüseyn bəy Lələ onun yanına öz adamlarını göndərdi və ona çatdırdı ki, qarşılanmasına kimsənin çıxmaması doğru deyildir. Hüseyn bəy Lələ onu da çatdırdı ki, əgər Şah İsmayıla itaətini davam etdirsə onun bütün ərəb İraqına hakim təyin edilmək şansı vardır. Əks təqdirdə isə Barik bəy müharibəyə hazır olmalı idi. Barik bəy Pornak bu xəbəri qəzəblə qarşıladı və ona edilən təkliflə razı olmadı. Fikri də bu oldu ki, Şah İsmayıl bütün İranı ələ keçirib, Uzun Həsənin övladlarının əlində bir Bağdad qalıb onu da ələ keçirmək istəyir. Ona görə də Barik bəy Hüseyn bəy Lələyə müharibə cavabını göndərdi (31).

Amma Barik bəyin ətrafının heç də hamısı bu fikri bəyənmədi. Xüsusilə, şiəliyə rəğbətlə yanaşan Seyid Məhəmməd Kəmunə ona məsləhət bildi ki, Bağdad əhalisinin qırğına verilməməsi üçün Şah İsmayıla müxalifət təşkil etmək lazım deyil. Barik bəy təklifi qəbul etmədi və hətta bəyan etdi ki, qızılbaşlara unudulmayacaq bir dərs verəcəkdir. Seyid Məhəmməd Kəmunəni qızılbaşlarla yarana biləcək əlaqələrinin qarşısının alınması üçün isə o, Barik bəyin əmri ilə həbs edilib zindana atıldı. Sonra əmirləri Barik bəyə məsləhət bildilər ki, Şah İsmayıl öz dəstəsi ilə gəlib çatmamış Hüseyn bəy Lələnin dəstəsi üzərinə hücum etsin, bu dəstəni məhv etməklə öz mövqeyini də möhkəmləndirsin. Barik bəy bu təkliflə razılaşdı və qaladan bayıra çıxaraq qızılbaş dəstəsi üzərinə hücum çəkdi. Bu iki dəstə arasında döyüş gedən zaman uzaqdan bir qoşun dəstəsinin yaxınlaşması müşahidə edildi. Bu dəstə yaxınlaşanda Şah İsmayılın ələmi aydın şəkildə görünməyə başladı. Həm Hüseyn bəy Lələnin döyüşçüləri, həm də Bağdad divarları üzərindən baş verənləri izləyənlər anladılar ki, yaxınlaşan Şah İsmayılın dəstəsidir. Belə olanda Barik bəyi dəstəkləməyən insanlar Seyid Məhəmməd Kəmunənin dustaq olduğu məhbəsə hücum çəkdilər və onu azad etdilər. Mənbə məlumatlarından belə aydın olur ki, Barik bəyin başı Hüseyn bəyin dəstəsi ilə döyüşə qarışdığından Şah İsmayılın öz dəstəsi ilə necə yaxınlaşmasından xəbər tuta bilməmişdi. Yalnız qızılbaş qoşunlarının kərənayının səsi eşidiləndə Barik bəy vəziyyətin nə yerdə olduğunu anladı və dəstəsinə qala daxilinə çəkilmək əmri verdi. Amma qala darvazalarına yetişəndə Seyid Mə-

həmməd Kəmunəni şəhər divarları üzərində gördü və onun tapşırığına əsasən qala daxilinə buraxılmadı. Barik bəyin xahişinə baxmayaraq ona heç ailəsi ilə görüşmək imkanı verilmədi və onda o, canını salamat qurtarmaq üçün Mosula doğru üz tutdu (32).

"Tarix-i aləmara-yi Abbasi" əsərində hələ Şah İsmayıl yetişməmişdən Bağdadın Hüseyn bəy Lələ tərəfindən ələ keçirildiyi bildirilir. Bu barədə məlumat Şah İsmayıla çatdırılandan sonra o da qoşun dəstəsi ilə Bağdada gəldi və yerli əhalinin böyük sevinci ilə qarşılandı. "[Şah İsmayıl] Hüseyn bəy Lələni mənqəlay [təyin] edərək, onu qabaqca yola saldı. Hüseyn bəy Bağdadın iki mənzilliyinə çatdıqda Barik özünü itirdi və o vilayətin əyanlarının əksəriyyətinin şah sarayının xadimlərinə itaət etmək meyilini göröndə özündə müqavimət və qalanı saxlamaq qüvvəti olmadığını bildi. Bir gecə o, Dəcləni gizli keçərək, sərsəm halda, Sultan Muradla bərabər, sonsuz əziyyətlə Hələb tərəfə qaçdı, oradan da, yuxarıda yazıldığı kimi, zülqədər [tayfasının] arasına getdi. Ertəsi gün şəhərin əhalisi və əyanları Nəcəf seyidlərinin böyüklərindən və o vilayətin ixtiyar sahiblərindən olan və şahın şərəfli dövlətinə tərəfdar olması şübhəsi ilə Barik tərəfindən tutulub qaranlıq quyuda həbs edilən Seyid [Məhəmməd] bəy Kəmunəni quyudan çıxarıb, öz şahısevənliklərini izhar etdirdilər. Seyid Məhəmməd Kəmunə cümə günü came məscidinə gedib, şahın ləqəbləri ilə on iki imam («isna-əşəri») xütbəsini oxudu. Hüseyn bəy [Lələni] qarşılayaraq, Mirzə Pirbudaq bağında yerbəyer etdilər. Hüseyn bəy Bağdadın fəth edilməsi həqiqətini xilafət məkanlı taxtın kölgəsinə çatdırdı. [Şahın] cahangir məiyyəti ov edə-edə, yavaş-yavaş yol gedərək, müzəffər və xoşbəxt bir şəkildə darüssəlam [Bağdada] yetişdi. Camaat böyük sevinc və şadlıqla [şahı] qarşılayaraq, [ona] xeyir-dua verdi. Süleyman şanlı xaqan darüssəlam [Bağdadın] fəthi münasibətilə Allaha şükür edərək, 914-cü ilin cəmadiüs-sani ayının 20-də (16 oktyabr 1508) darüssəlam [Bağdada] gəldi. Seyid Məhəmməd, şahın hörmət və izzətinə layiq görüldü. O vilayətin valiliyi Xadim bəyə verildi və orada o, Əbülmənsur («qaliblik sahibi») və Xəlifətül-xüləfa («xəlifələr xəlifəsi») ləqəbini aldı. [Şah] oradan məhəbbət və səmimiyyətlə Kərbəlanın pak torpağına gedərək, Əbi-Abdulla əl-Hüseynin və Kərbəla çölü şəhidlərinin nurlu məzarlarının ziyarəti şərəfinə nail oldu. [Şah İsmayıl] behişt ehtiramına layiq olan o rövzənin bəzəkləndirilməsinə və zinətləndirilməsinə, onun xidmətçilərinin mükafatlandırılmasına sonsuz diqqət göstərdi. Oradan [şah] «sizin dostunuz ancaq Allahdır» [ayəsinin] nurunun zahir olduğu yer olan vilayətpənah şahın (Həzrət Əlinin) cənnətə bərabər rövzəsini ziyarət etmək məqsədi ilə Hillədən Nəcəfi-Əşrəfə getdi. O böyük səadətə çatdıqda [Şah İsmayıl] o sidrə nişanlı [ulu] astananın xidmətçilərinə ehsan vermək üçün dərya kimi səxavətli əlini açdı. Nəcəfi-Əşrəfin valiliyi İraqi-Ərəbin bəzi mahalları ilə birlikdə Seyid Məhəmməd Kəmunəyə bağışlandı. [O], bu işlə məşğul oldu. [Şah İsmayıl] darüssəlam [Bağdada] qayıdaraq, ali nəsəbli imamlar Əbi-İbrahim Musa əl-Kazimin və Məhəmməd Təqi əl-Cavadın - hər ikisinə salam olsun - mübarək qəbirlərini ziyarət et-

mək şərəfinə çatdı. Oradan Samirəyə gedib, həmin müqəddəs yerlərdə dua [oxuyub] ziyarət edərək, ehsan və ənam verdilər" (33).

Bir sıra mənbələr Şah İsmayılın müqəddəs məkanların ziyarətindən sonra şir ovunda olması haqqında məlumat verirlər. Bu məlumat da hələ gənc yaşlarında Şah İsmayılın böyük fiziki gücə və iradəyə malik olmasını nümayiş etdirir. "Aləmara-yi Səfəvi"nin məlumatına görə, Şah İsmayıl Samirəyə doğru gedəndə döyüşçülərindən iki nəfərinin at belində sürətlə ona tərəf gəldiyini görür. Şah İsmayıl nə baş verdiyini soruşanda onlar bildirirlər ki, üç nəfər şir ovuna getmişdilər və istəyirdilər ki, şiri diri-diri tutub şaha hədiyyə gətirsinlər. Amma onların qarşılarına çıxan çox böyük və güclü bir şir olur və hətta döyüşçülərdən birini parçalayıb öldürür. Şah İsmayıl bu xəbəri eşidəndən sonra şirin güman edildiyi yerə yollanır. Yaxınlaşanda üstündə olduğu at irəli hərəkətini dayandırır və bu zaman böyük bir şir onların üstünə atılır. Şah İsmayıl qılıncının zərbi ilə bu şiri parça-parça edir (34).

### 3.Xuzistan və Luristan üzərinə hücum

Şah İsmayıl Bağdaddan Xuzistan istiqamətində hərəkətə başladı. Məqsəd mərkəzi Xürrəmabad olan Luristan əmirliyini və paytaxtı Həvizə olan Xuzistandakı Məşəşə əmirliyini fəth edərək Səfəvi hakimiyyəti altına gətirmək idi. Amma hərəkətə başlamazdan əvvəl Şah İsmayıl Bağdad hakimi təyin etdiyi Xadim bəyə xüsusi imtiyazlar verdi. Belə imtiyazlar Şah İsmayıl tərəfindən seçmə əmirlərə təqdim olunurdu və həmin imtiyazları alan adamlar şah sarayında xüsusi yerə və nüfuza malik olurdular. Bu imtiyaza aşağıdakılar daxil idi: a) zərli tac və xüsusi xələt; b) cins at və onun zərli yəhəri; c) kəmər və qılınc ilgəyi; d)sini və qızıl piyalə. Adi halda bu əşyaları kimsə istifadə edə bilməzdi. Onlardan istifadə hüququ yalnız şah tərəfindən verilə bilərdi (35).

Luristana yetişdikdən sonra Şah İsmayıl qoşunlarını iki yerə böldü. On min nəfərdən ibarət olan bir dəstə Hüseyn bəy Lələnin, Əmir Nəcm Gilaninin və Bayram bəy Qaramanlının rəhbərliyi altında Luristan hakimi Məlik Rüstəmin üzərinə göndərdi. Şah İsmayıl özü isə qoşunların digər dəstəsi ilə Həvizəyə doğru hərəkətə başladı. Adları çəkilən əmirliklərin heç biri Səfəvi hakimiyyətini tanımaq istəmirdi. Bundan başqa məlumat alınmışdı ki, Məlik Rüstəm özbaşınalıq etməklə, insanlara qarşı da qeyri-insani münasibət nümayiş etdirirdi və ona görə də onların qılınc gücünə hakimiyyət altına gətirilməsi qərara alındı.

Adları çəkilən əmirlər 10 min nəfərlik qoşun dəstəsi ilə Luristana yollandılar. Qoşun dəstəsi yolda ikən Əmir Nəcm Gilani Şah İsmayıl tərəfindən geri çağırıldı və Məlik Rüstəmin itaət altına gətirilməsi Hüseyn bəy Lələ ilə Bayram bəy Qaramanlının üzərində qaldı. Məlik Rüstəm isə qızılbaş dəstəsinin yaxınlaşması xəbərini eşidəndə çaş-baş olub qaldı. O anladı ki, qızılbaş dəstəsinə ciddi müqavimət göstərə bilməyəcək və ona görə də əvvəlcə qaçaraq dağlara sığındı və sonra da öz əyanlarını adları çəkilən əmirlərin yanına göndərərək Səfəvi hakimiyyətinə itaətini bəyan etdi: "Luristana getmiş böyük əmirlər Məlik

Rüstəmi özləri ilə bərabər uca taxtın ayağına gətirdilər. Bu hadisə belə olmuşdu ki, əvvəlcə Məlik Rüstəm onların qabağından qaçaraq, çətin yolları olan bir dağa sığınmışdı. Bəhram kimi intiqamçı əsgərlər o dağın ətrafını tutaraq, onu sıxışdırmış, o isə aman və əhdüpeyman [istəyərək], əmirlərin yanına gəlmişdi. [Məlik Rüstəm, şahın] hüzurunda lur dilində şirin sözlər danışıb, rəğbət qazandı. Onun uzun saqqallı olduğundan Süleyman şanlı xaqan onun saqqalını inci və ləl ilə bəzətdirmişdi. Bir müddət həmin halda şahın ordusunda qaldı, [sonra] Luristan hakimi təyin edilib, istədiyi kimi öz diyarına getdi" (36).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Luristan hakiminin itaət altına gətirilməsi bir qədər fərqli şəkildə təsvir olunmuşdur. Bu mənbədə hər şeydən əvvəl bildirilir ki, Məlik şah Rüstəmin mənsub olduğu Lur tayfası hələ İmam Əlinin zamanından şiəliyi qəbul etmişdilər və bu tayfa üzvləri özlərini həzrət Abbasın nəslindən sayırdılar. Ona görə də onları həm də Lur-abbasi adlandırırdılar. Lurlar Qaraqoyunlu və Ağqoyunlu hakimiyyətlərini tanımamışdılar və kimsədən qorxub-hürkmədən bölgədən keçən karvanları talan edirdilər. Bu əmirliyin böyük müdafiə imkanları da yox idi və ona görə onun ciddi bir çətinlik olmadan fəth ediləcəyi də gizli deyildi. Şiə olmasına baxmayaraq, Məlik Rüstəmin Səfəvi hakimiyyətini tanımaması qızılbaşlar tərəfindən də təəccüblə qarşılanırdı və ona görə də bölgədə belə bir əmirliyin mövcudluğu qəbuledilməz sayıldı. Buna görə də qərar alındı ki, əvvəlcə Məlik Rüstəmə məktub göndərilsin və silah işlətmədən onun itaət altına gətirilməsi imkanı nəzərdən keçirilsin. Şah İsmayılın bu məktubunda Məlik Rüstəmin də şiə olması xatırlanır və şiə tərəfləri arasında müharibə baş verməsinin düzgün olmadığı bildirilirdi. Əvvəlki sünni hakimiyyətlərini tanımadığına görə Şah İsmayıl ona haqq qazandırsa da, yeni şəraitdə bunu məqbul hesab etmirdi. O bəyan edirdi ki, indi artıq şiə məzhəbi rəvac tapıb və ona görə də Məlik Rüstəm də təşrif gətirərək şiə hakimiyyətini tanısın. Şah İsmayıl vəd edirdi ki, itaət göstərəcəyi halda Məlik Rüstəm öz məqamında saxlanılacaqdır (37).

Qeyd edilməlidir ki, Səfəvilər dövrünə aid olan bir sıra mənbələrə görə, Şah İsmayıl Luristan istiqamətinə hərəkət etməmişdi və Məlik Rüstəm yuxarıda adları çəkilən Hüseyn bəylə Lələ bəy tərəfindən itaət altına gətirilmişdi. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərinə görə isə, Şah İsmayıl özü Məlik Rüstəmin itaət altına gətirilməsi ilə məşğul olmuşdu. Məlik Rüstəm onun təklifini nəinki qəbul etmədi, əksinə Məlik Mənsur adlı birisinin rəhbərliyi altında olan 20 min nəfərlik qoşun dəstəsinə ("Aləmara-yi Şah İsmayıl" əsərinə görə isə, Məlik Möhsünün rəhbərliyi altında 15 min nəfərlik qoşun dəstəsinə) göstəriş verdi ki, qızılbaş qoşunlarının hərəkət marşrutu üzərində olan dərəni tutsun və qızılbaş qoşunlarının yaxınlaşmasına imkan verməsin. Məlik Mənsur da verilən tapşırığı icra etdi. Şah İsmayıl bu barədə məlumat alanda Hüseyn bəy Halvaçıoğluna göstəriş verdi ki, 5 min nəfərlik dəstə ilə pişxana (avanqard-qarovul) olsun və irəli hərəkətə başlasın. Onun ardınca isə Şah İsmayıl və bütün qoşunlar hərəkət etməli idi. Hüseyn bəyin dəstəsi Məlik Mənsurun tutduğu keçidə çatanda orada dayananlar onların kim olduğunu

əvvəlcə bilmədilər. Hüseyn bəyin yanına adamlar göndərildi və onun gəlişinin məqsədi soruşuldu. Ona çatdırıldı ki, gəlməkdə məqsədləri döyüşə girməkdirsə onda bunu açıqlasın.

Hüseyn bəyin dəstəsinin keçid ətrafına gəlməsinin səbəbi bəlli olanda tərəflər arasında gərgin bir döyüş başladı. Çünki lur qoşunları həm hakim yüksəkliklərdə mövqe tutmuşdular, həm də onların sayı xeyli çox idi. Bu da imkan verdi ki, qızılbaşların bütün səylərinə baxmayaraq, lurlar təşəbbüsü ələ alsınlar. Hüseyn bəy və onun dəstəsi fədakarlıqla döyüşsə də ciddi müqavimətlə rastlaşdı. Belə olanda qızılbaş döyüşçüləri fənd işlətməyi, bir qədər geri çəkilməklə lurları öz ardınca aparıb daha əlverişli mövqelərə çıxmağı təklif etdilər. Bu təklif bəyənildi və döyüşün gərgin anında qızılbaşlar geri çəkilməyə başladılar. Lur silahlıları bunu qızılbaşların məğlubiyyəti və döyüş meydanından qaçmaları kimi qiymətləndirdilər. Amma qızılbaşlar nəzərdə tutulan mövqelərə qədər geri çəkildikdən sonra dayanıb yenidən döyüşə başladılar. Lurlar belə bir fəndlə qarşılaşacaqlarını güman etmirdilər və hətta çoxları piyada şəkildə qızılbaşların arxasınca qaçırdılar. Qızılbaşlar qəfil şəkildə dayanaraq öz sıralarını nizamladılar və yeni bir qüvvə ilə döyüşə atıldılar. Bu, onların həm də çıxış yolu idi və çoxsaylı lur qoşunlarına yalnız xüsusi məharət işlətməklə qalib gəlmək olardı. Lurlar yaranmış vəziyyətdə idarəolunmaz bir hala gəldilər. Qəfil və güclü zərbə onların sıralarını pozdu və onlar çoxlu sayda itki ilə qarşılaşdılar. Məlik Mənsur da bu döyüşdə qolundan nizə yarası aldı və çətinliklə qaçıb canını salamat qurtara bildi. Lurların geri qaçmaq anında Məlik Rüstəm on min nəfərlik qoşun dəstəsi ilə döyüş meydanına yetişdi. Döyüşə qatılmaq istəyəndə uzaqdan Şah İsmayılın döyüş ələminin yaxınlaşmasını müşahidə etdi və onda qızılbaş qoşunlarına qarşı döyüşə girməyin mənasızlığını anladı. Məlik Rüstəm qoşun dəstəsi ilə geri çəkildi. Şah İsmayıl çətin vəziyyətdə xüsusi məharət göstərərək lur qoşun dəstəsinə üstün gəlmiş qızılbaş döyüşçülərini təqdir etdi və həmin gecəni lurların qorumağa çalışdığı dağ keçidi ətrafında keçirməyi qərara aldı (38).

"Aləmara-yi Şah İsmayıl" əsərinə görə, Şah İsmayıl dağ keçidinə gəlib çatmazdan əvvəl lur qoşunlarının taleyi artıq həll olunmuşdu. Bildirilir ki qızılbaşların işlətdiyi fənddən sonra ağır zərbə alan lurlar qaçıb dağıldılar. Hətta Məlik Mənsur özü də qaçmaqla canını qurtardı. Amma keçid ətrafındakı döyüşün əvvəlində, lurlar müəyyən üstünlüyə malik olanda Məlik Mənsur ("Aləmara-yi Şah İsmayıl"da Məlik Möhsün) Məlik Rüstəmə xəbər göndərdi ki, qızılbaşların işi bitmək üzrədir. Məlik Rüstəm də bu xəbərdən çox məmnun olaraq Məlik Mənsura qiymətli hədiyyə göndərdi. Amma sonradan lurların məğlubiyyətə düçar olması xəbərini alanda Məlik Rüstəm çarəsiz hala düşdü. Amma Mirzə Məhəmməd Talışın rəhbərliyi altında iki min nəfərlik qorçu dəstəsinin döyüş meydanına yetişməsi ilə qızılbaşlara müqavimət göstərilməsinin çətin olacağı anlaşıldı (39).

Bununla belə, lurlar şah İsmayıla itaət edilməsini və müqavimətin dayandırılmasını qəbul etmədilər. Onlar belə bir plan qurdular ki, gecə ikən onların 500 nəfər döyüşçüsü qızılbaş düşərgəsinə daxil olsun, qızılbaşların atlarını düşərgədən qovsunlar və qızılbaşları piyada vəziyyətə salaraq onları geri qayıt-

mağa məcbur etsinlər. Bu xəbər Şah İsmayıla çatdırıldı və o da göstəriş verdi ki, gecə vaxtı qızılbaşlar döyüşə hazır vəziyyətdə olsunlar, çadırlar bir-birinin yanında qurulmaqla lurların düşərgəyə daxil olmasına maneçilik törədilsin. Belə də edildi. Qızılbaş döyüşçüləri gecə vaxtı da döyüşə hazır vəziyyətdə olduqlarından lurlar öz məqsədlərinə nail ola bilmədilər. Onlar qızılbaşların düşərgəsi ətrafına nə qədər dolansalar da onun daxilinə yol tapa bilmədilər. Belə olanda tərəflər arasında yeni bir döyüş baş verdi. Əvvəlcə çərxçilər bir-biri ilə qarşı-qarşıya gəldilər. Sonra isə Şah İsmayıl özünü döyüş meydanına atdı. Mənbədəki məlumatdan aydın olmasa da çox güman ki, Şah İsmayılın yenidən döyüş meydanına atılması səhərin açılmasından sonra baş vermişdi. Şah İsmayılın ardınca da onun təcrübəli və tanınmış əmirləri özlərini lur qoşunları üzərinə atdılar. Bu əmirlərin adları da mənbədə sadalanmışdır - Durmuş xan, Hüseyn bəy Halvaçıoğlu, Məntəş bəy, Div Sultan, Mirzə Məhəmməd Talış, Mənsur bəy Qıpçaq, Hüseyn bəy Lələ, Abdin bəy Şamlı, Dədə bəy Qorçubaşı, Köpək Sultan, Sultan İbrahim Mirzə, Badencan Sultan. Mənbələr bu əmirlərin xüsusi şücaət göstərdiklərini qeyd edirdilər. Həmin əmirlərin ardınca qızılbaş cavanlarının, qorçularının döyüşə atılması lur qoşunlarının bütün müqavimətini qırdı. Məlik Rüstəm bu əmirlərin məharəti qarşısında duruş gətirə bilməyərək geri qaçmağı qərara aldı (40).

Məlik Rüstən bu uğursuzluqdan sonra da itaət yolunu tutmadı və xəbər gətirildi ki, o, döyüş meydanından qaçdıqdan sonra Sədmərə dağına çəkilmişdir. Bu dağ həm kifayət qədər hündür bir dağ idi, həm də onun ətəklərində həyat üçün zəruri olan su və ərzaq mənbələri bol idi. Ona görə Məlik Rüstəm bu dağa sığınmaqla qızılbaşlara qarşı müqavimətini davam etdirmək istəyirdi. Şah İsmayıl da onun ardınca Sədmərə dağının ətəklərinə gəldi. Bu dağı müşahidə etdikdən sonra Şah İsmayıl belə bir qənaətə gəldi ki, burada lurlara qarşı döyüş aparmaq çoxlu sayda qızılbaşın məhvinə gətirib çıxara bilər. Çünki itki vermədən bu dağlara dırmaşmaq mümkün deyildi və lurlar da bu dağın belə müdafiə imkanlarından istifadə etməyə çalışırdılar. Amma Məlik Rüstəmin itaət altına gətirilməsi Sədmərə dağının çətin maniələrinin dəf edilməsini tələb edirdi. Bu da tərəflər arasında daha bir gərgin döyüşün başlamasına yol açdı. Lur döyüşçüləri sıldırım qayalıqların üzərində dayanmaqla yuxarıdan ağır daş parçalarını qızılbaşların üzərinə yağdırırdılar. Nəticədə qızılbaşlar müəyyən itkilərlə rastlaşmalı oldular. Amma kimsə geriyə ayaq basmadı. Hətta yürüşün uğurla davam etdirilməsi üçün bəzi anlarda şəhid olanların üzərinə ayaq basaraq hərəkətlərini davam etdirməkdən belə çəkinmirdilər. Məlik Rüstəm də qayalar üzərində özünə yararlı bir mövqe seçərək yuxarıdan qızılbaşlar üzərinə oxlar yağdırırdı. Bildirilir ki, Məlik Rüstəm hətta Şah İsmayılı da hədəf alaraq ona da bir neçə ox atdı. Lakin onlar hədəfə dəymədilər. Şah İsmayıl isə döyüşə-döyüşə yuxarı dırmanaraq axırda Məlik Rüstəmin özünü əsir götürə bildi. Onu silkələyib başı üzərinə qaldıranda Məlik Rüstəm nəhayət ki, bağışlanmasını xahiş etdi. Şah İsmayıl da onu bağışladı və hətta Məlik Rüstəmin ona qonaq olmaq təklifini də qəbul etdi (41).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində olan məlumata görə, Şah İsmayıl günahlarını bağışladığı Məlik Rüstəmlə söhbətindən sonra Həvizəyə doğru hərəkət etmək qərarını verdi. Bildirilir ki, Məlik Rüstəm Məşəşə tayfası haqqında, bu tayfanın hakimi Məlik şah Fəyaz haqqında məlumat verdikdən sonra belə bir qərara gəldi. Xüsusilə, Məlik Fəyazın allahlıq iddiasında olması və tayfa üzvlərinin də ona pərəstiş etməsi Şah İsmayılı daha çox qəzəbləndirdi və o, Həvizəyə doğru irəliləmək əmrini verdi (42).

Həvizə ətrafında yaşayan ərəblərin İmam Əlini yaradan kimi tanımaları digər mənbələrdə də təsdiq olunur. Amma sonradan bu ərəblər öz inanclarını müəyyən qədər dəyişməli olmuşdular. Belə ki, onlar artıq Məşəşə xanədanının başçısını yaradan kimi qəbul edir və ona pərəstiş edirdilər. Şah İsmayıl Bağdad üzərinə hücum edəndə Məşəşə xanədanının rəhbəri Sultan Möhsün adlı birisi idi. Amma elə həmin günlərdə o dünyasını dəyişmiş və onun yerini oğlu Sultan Fəyaz tutmuşdu. Onun dövründə də Məşəşə tayfasının adamları Sultan Fəyazı yaradan kimi qəbul edir və ona pərəstiş edirdilər. Mənbələrdə verilən məlumatlara görə, bu tayfanın adamları özlərinə məxsus şəkildə ibadət edirdilər və onlar ibadət edəndə ox və qılınc zərbələri onlara təsir etmirdi. Hətta onu da bildirirdilər ki, bu tayfanın adamları çılpaq şəkildə iti bir qılıncın üzərinə uzansaydılar, həmin qılınc ya əyilərdi, ya sınardı, amma həmin çılpaq adama təsir etməzdi. Bəzi mənbələrə görə, Şah İsmayıl hələ Bağdad ətrafında olarkən Məşəşə adamlarının məzhəb yolunu azmaları haqqında məlumatlar almış və bundan sonra həmin tayfa üzərinə hücum etməyə qərar vermişdi (43).

Şah İsmayıl bir neçə gün Luristanda qaldıqdan sonra qoşunları ilə Həvizəyə doğru istiqamət götürdü. Luristan hakimi Məlik Rüstəm də onunla birlikdə Həvizə yürüşündə iştirak edirdi. Mənbə məlumatlarına görə, bu yürüşdə 12 min nəfərlik qızılbaş qoşunları və 30 min nəfərlik lur qoşunları iştirak edirdilər. Qızılbaş qoşunlarının hərəkət marşrutu mürəkkəb dağ yollarından keçməli oldu. Böyük bir çətinliklə bu dağ yolları adlandıqdan sonra qızılbaş qoşunları Həvizəyə xeyli yaxınlaşdılar. Şah İsmayılın göstərişi əsasında Məlik Rüstəm ön dəstənin rəhbəri təyin edildi və bu dəstə irəli göndərildi. Lur qoşunları bütünlüklə bu ön dəstənin tərkibinə daxil edilmişdi. Yəni, Məlik Rüstəm öz tayfasından toplanmış 30 min nəfərlik qoşun dəstəsi ilə Məlik Fəyazın üstünə hərəkət etdi. Bu dəstə Həvizənin üç mənzilliyində olanda Məlik Fəyaz bundan xəbər tutdu. Yaxınlaşmaqda olan təhlükənin aradan qaldırılması üçün Məlik Fəyaz ərəblərdən ibarət 70 min nəfərlik qoşun topladı və onları qruplaşdıraraq hər bir dəstəyə müvafiq vəzifə tapşırdı. Sonra da Həvizədən bir mənzillik məsafəyə yollanaraq orada düşərgə saldı. O, Sultan Məni adlı qardaşını qoşunların sipəhsaları təyin etdi və onu 30 min nəfərlik qoşun dəstəsi ilə irəli çıxardı. Məlik Fəyaz özü isə 40 min nəfərlik qoşun dəstəsi ilə düşərgədə qızılbaş qoşunlarını gözləməyə başladı (44).

İlkin olaraq tərəflərin önə çıxarılmış dəstələri qarşılaşdılar. Qızılbaş qoşunlarında bu dəstəyə yuxarıda qeyd edildiyi kimi, Məlik Rüstəm, Məşəşə qoşunlarında isə Sultan Məni rəhbərlik edirdi. Şah İsmayıl tərəfindən Hüseyn

bəy Lələnin rəhbərliyi altında beş minlik başqa bir dəstə də Məlik Rüstəmin dəstəsinə əlavə edilmişdi. Bu dəstələr arasında gərgin bir döyüş başladı hər iki tərəfdən çoxlu sayda itkilər baş verdi. Mənbə məlumatlarına görə, irəliyə çıxarılmış ön dəstələrin hər ikisi döyüş meydanında təpər göstərdilər və təşəbbüsü ələ almaq üçün bütün imkanlarını ortaya qoydular. Belə bir vaxtda Məlik Fəyazın qoşun dəstəsi döyüş meydanına yetişdi və onun gəlişi ilə qızılbaşların vəziyyəti xeyli mürəkkəbləşdi. Bu zaman uzaqdan Şah İsmayılın əsas qoşun dəstəsi göründü. Önə çıxarılmış dəstənin vəziyyətinin xeyli mürəkkəb olduğunu görəndə Şah İsmayıl özünü döyüş meydanına atdı. Şah İsmayıl döyüşdə olan qoşun dəstəsini bu mürəkkəb vəziyyətdən çıxarmaqla qarşı tərəfə də böyük itkilər yetirdi. Mənbələrdə Şah İsmayılın şəxsi döyüşünün bir çox nümunələri təsvir olunmuşdur. Bildirilir ki, ərəblərin arasında Pəhlivan Möhsün adlı məşhur bir döyüşçü var idi. Şah İsmayıl döyüşün gedişində onunla üz-üzə gəldi və özünün çevik bir hərəkəti ilə Möhsünü atdan yerə salıb onu qızılbaş döyüşçülərindən birinə tapşırdı. Qızılbaş qoşunlarının fədakar döyüşünü görəndə Məlik Fəyaz geri qaçmaq yolunu tutdu və bununla canını real təhlükədən qurtara bildi. Mənbələrdə eyni zamanda Məşəşə tayfasının yetişdirdiyi atların daha böyük sürətlə qaçdığına işarə olunur. Məlik Fəyaz da malik olduğu atın sürətinə arxalanaraq qızılbaş təqiblərindən yaxa qurtara bildi. Şah İsmayıl onun təqibinə qatılsa da Məlik Fəyazı tutmaq mümkün olmadı. Amma səhəri gün Şah İsmayıl qoşun dəstəsi ilə birlikdə Məlik Fəyazın arxasınca Həvizəyə qədər hərəkət etdi. Məlik Fəyaz qızılbaş təhlükəsindən canını qurtarmaq üçün şəhərdən kənarda gizlənməyə cəhd göstərdi. Amma bu cəhd də bir nəticə vermədi. Şah İsmayıl əvvəlcə Məlik Rüstəmin və Hüseyn bəy Lələnin rəhbərliyi altında onun üstünə dəstələr göndərdi. Sonra isə özü qoşun dəstəsi ilə onlara qoşuldu və Məlik Fəyaza qarşı yeni bir döyüş ortaya qoyuldu və onun Şah İsmayıl ilə qarşılaşması bu döyüşün də taleyini həll etdi. "Aləmara-yi Şah İsmayıl"a görə, Məlik Fəyaz döyüş meydanında Şah İsmayılı tanımadı. Amma görəndə ki, gənc bir qızılbaş çox böyük fədakarlıqla döyüşür, özünü onun üstünə atdı və nizəsi ilə onu vurub yerə salmaq istədi. Şah İsmayıl isə böyük məharətlə onun nizəsini kənara yayındırmaqla öz nizəsi ilə onu vurub atdan yerə saldı. Məlik Fəyazın aldığı yara ölümcül oldu və bu yaradan o, dünyasını dəyişməli oldu (45).

"Aləmara-yi Səfəvi" əsərinə görə isə, Şah İsmayıl Məlik Fəyazla qılınc davasına çıxmışdı. Şah İsmayıl qılıncını onun başından elə bir zərblə endirə bildi ki, Məlik Fəyazın bədəni başından kəmər yerinə kimi ikiyə bölündü (46). Yəni, Şah İsmayıl mövcud müqavimətə baxmayaraq həm Luristan əmirliyini, həm də Məşəşə əmirliyini itaət altına gətirib Səfəvilər səltənətinin hüdudlarına daxil etdi. Adları çəkilən əmirliklərin qoşunlarının yerli ərazinin coğrafi xüsusiyyətlərindən istifadə etməklə döyüş aparmaları qızılbaş qoşunlarını yeni bir sınağa çəksə də, Şah İsmayılın şəxsi şücaəti və hərbi məharəti mürəkkəb şəraitdə belə qələbəni əldə etməyə imkan verdi.

"[Şah İsmayıl] Müşəşə [tayfasını] fəth etdikdən sonra Hüveyzə hakimliyini böyük əmirlərindən birinə verib, Şüştər və Dizfula doğru yönəldi. Oranın

hakimi itaət yolu ilə gedərək, uca taxtın ayağına gəldi, şəhər və qalanın açarlarını [şaha] təqdim etdi. O məmləkət Səlasil qalası ilə birlikdə dərya [kimi geniş] qəlbli şahın əlinə keçdi. Süleyman şanlı xaqan o asimana ucalan qalanı etibarlı adamlarından birinə tapşırdı. Daha sonra müzəffər bayraqlar Fars vilayətinə öz kölgəsini saldı. [Şah İsmayıl] ov edə-edə darülmülk Şiraza yönəlib, daha bir dəfə Müzəffərilər [sülaləsinin] darülmülkündə xoşbəxtlik və rəiyyətpərvərlik taxtına qədəm qoydu. Lar və Hörmüz valilərinin elçiləri xilafət məkanlı taxtın ayağına gəlib, layiqli peşkəşlər gətirdilər. O ölkələrdə şahın adı və ləqəbi ilə xütbə və sikkələri bəzədilər. [Şah İsmayıl] qışı Şirazda şənliklə keçirdi, baharda isə Həmədan yaylağında oldu. Bir müddət Əlvənd dağının ətəyində qaldı" (47).

Luristan və Xuzistan vilayətlərinə uğurlu yürüşünü başa vurduqdan sonra Şah İsmayıl qoşunları ilə Şiraza çəkildi və 1508-1509-cu ilin qışını Şirazda keçirdi. Burada olduğu vaxt Şah İsmayıl dövlət işlərinə də geniş vaxt ayıra bildi və bir sıra dövlət vəzifələrinə yeni adamlar təyin etdi. 1509-cu ilin yayının başlanğıcında Şah İsmayıl İsfahana yollandı və bir müddət də burada qaldı. Mənbələrin məlumatına görə, İsfahanda olduğu vaxtlar Şah İsmayıl at yarışlarında, çovkan oyunlarında iştirak etdi (48).

### 4.Şirvan üzərinə növbəti hücum

İsfahandan sonra Şah İsmayıl Həmədana yollandı və 1509-cu ilin yayının bir hissəsini orada keçirdi. Sonra isə Şah İsmayıl Təbrizə doğru hərəkətə başladı. Hələ Təbrizə yetişməmiş Xamne kəndində Şah İsmayılın istəkli və sədaqətli tərəfdarlarından biri olan Əmir Nəcm (Nəcməddin) Rəşti xəstəliyə tutularaq dünyasını dəyişdi. Hələ cahangirlik hərəkatına başlamazdan əvvəl zərgər Nəcm Rəşti İsmayıl Mirzənin (Şah İsmayılın) və onun ailə üzvlərinin həm Ağqoyunlu təqiblərindən qorunmasında, həm də qayğı ilə əhatə olunmasında səmimi bir fədakarlıq göstərmişdi. Ona görə də Şah İsmayıl ona böyük hörmət və ehtiramla yanaşırdı. Bu ehtramın nəticəsi idi ki, Əmir Nəcmin nəşini dəfn üçün Nəcəfə göndərdi. Onun tutduğu yüksək vəzifəyə isə Əmir Yarməhəmməd Xuzani İsfahani təyin edildi. Əmir Yarməhəmməd Xuzani öz sələfi Əmir Nəcmin xatirəsinə Səfəvi sarayında "Nəcm-e sani" (İkinci Nəcm) kimi çağırılıdrı (49).

1510-cu ilin əvvəllərində Şah İsmayıl yenidən Şirvana hərbi yürüş etmək haqqında qərar verdi. Mövcud məlumatlara görə, Şirvanşah Şeyx Zahirəddin İbrahim (Şeyxşah) Osmanlı sarayının təhriki və dəstəyi ilə Səfəvilər hakimiyyətinə vergi verməkdən imtina etmişdi. Şeyxşah bununla yenidən müstəqil olmaq iddialarının həyata keçirilməsinə nail olmaq istəyirdi. Çox güman ki, Şeyxşah bu iddalarının həyata keçirilməsinə hələ bir qədər də əvvəldən başlamışdı. Çünki onun itaətsizlik meylləri aydın olandan sonra Şah İsmayıl sarayının elçiləri bir neçə dəfə onun yanında olmuş və onu itaətə dəvət etmişdilər. Bu danışıqlar isə bir nəticə verməmişdi. Şirvanşah Şeyxşahın Səfəvilər

hakimiyyətinə itaətdən boyun qaçırması Şah İsmayılın böyük qəzəbi ilə qarşılaşdı və ona görə də baxmayaraq ki, havalar hələ istiləşməmişdi, 1510-cu ilin əvvəllərində, havaların çox soyuq və yağmurlu olduğu bir vaxtda Şirvan üzərinə hücum etmək göstərişi verdi (50).

"Tarix-i aləmara-yi Abbasi" də yazırdı ki, "şahın qiyamət atəşinə bənzər qəzəb odunu alovlandırdı. Şiddətli qışda və şaxtada [Şah İsmayıl] Şirvana tərəf yola düşdü" (51). Heç şübhəsiz ki, Şah İsmayılın belə sərt qəzəbinə səbəb yalnız Şeyxşahın itaətsizliyi yox, həm də onun Osmanlı sarayı tərəfindən dəstəklənməsi və təhrik edilməsi idi. Yəqin elə bunun üçün idi ki, hətta qışın çıxmasını belə gözləmədən Şirvana doğru yürüş əmrini verdi. Amma Şah İsmayıl qoşunları ilə hərəkətə başlamazdan əvvəl əmirlərindən birini bir qoşun dəstəsi ilə Cavada göndərdi ki, Kür və Araz çaylarının üzərindən keçmək üçün keçid hazırlasın. Şah İsmayıl yetişənə kimi Kür çayı üzərindən keçid hazırlandı və qoşunlar vaxt itirmədən Şirvan ərazisinə daxil oldular. Kür çayını adlayandan sonra Şah İsmayıl qoşunlarını iki dəstəyə böldü. Bir dəstə qızılbaş əmirlərinin rəhbərliyi altında Şamaxı istiqamətinə göndərildi. Digər qoşun dəstəsi ilə isə Şah İsmayıl özü Bakıya doğru istiqamət götürdü (52).

Şeyxşah Şirvanşahın qızılbaş qoşunlarının qarşısında müqavimət göstərmək imkanları yox idi və ona görə də bu qoşunların hələ Kür çayını adlaması xəbərini eşidəndə Şamaxı şəhərini tərk etdi. Canını salamat qurtarmaq üçün o, Buğurt qalasına sığındı. Şeyxşahın Şamaxıya yaxınlaşan qızılbaş qoşunlarına hər hansı bir müqavimət göstərməsi haqqında tədqiqata cəlb edilmiş mənbələrdə məlumat yoxdur. Çox güman ki, Şah İsmayılın qoşun dəstəsi hər hansı bir müqavimətə rast gəlmədən Şamaxını tutmuşdular. Qızılbaşların Buğurt qalası ətrafına getməsi haqqında da bir məlumat söyləmək çətindir. Yəqin ki, Şah İsmayıl da Şamaxı ətrafında güclü müqavimətlə rastlaşacağına inanmırdı və ona görə də qoşunların bir dəstəsini Bakıya doğru hərəkətə gətirmişdi.

Bakı ətrafında da Şah İsmayıl hər hansı bir müqavimətlə rastlaşmadı. Bakı hakimi qızılbaşların şəhərə yaxınlaşması xəbərini alanda Şah İsmayılı qarşılamağa çıxdı, ona itaətini bildirməklə bağışlanmasını da xahiş etdi. Şah İsmayıl da onun günahlarını bağışladı və bununla, Bakı yenidən Səfəvi hakimiyyətinin nəzarəti altına düşdü. Sonra Şah İsmayıl şimala doğru hərəkət etdi və Şabran qalasına yaxınlaşdı. Şabran qalasının hakimi də vəziyyəti reallıqla qiymətləndirdi və o da Bakı hakimi kimi qoşunlar hələ qala divarları ətəklərinə yetişməmiş Şah İsmayılın pişvazına çıxdı, ona itaətini bəyan etdi. Bu qala da müqavimətsiz Səfəvi hakimiyyətinin nəzarəti altına gəldi. Sonra da Bərmək qalası eyni şəkildə yenidən Səfəvi hakimiyyətinə itaəti bərpa etdi. Şah İsmayıl burada dayanmayıb Dərbəndə doğru irəlilədi. Dərbənd hakimi isə qala divarlarının möhkəmliyinə arxayın olaraq müdafiə olunmaq qərarına gəldi. Şah İsmayıl Dərbənd qalası ətəklərinə yetişəndən sonra bir daha onun fəth edilməsinin çətinliyini müşahidə etdi. Bununla belə, Şah İsmayıl öz əmirlərinə qala divarlarının fəth edilməsi tapşırığını verdi. Amma bütün göstərilən cəhdlər nəticəsiz qaldı. Onda Şah İsmayıl qala divarları altından lağım atılması haqqında göstəriş verdi və nəqəbçilər dəstəsi bu işə cəlb edildi. Beş gün

ərzində nəqəbçilər qala divarlarının müxtəlif yerlərində 12 lağım ata bildilər. Dərbəndin hakimləri olan Əhməd ağa ilə Məhəmməd bəy əvvəlcə müqavimət yolunu tutsalar da, nəqəbçilərin fəaliyyətini gördükdən sonra şəhərin çox tezliklə ələ keçiriləcəyinə şübhə etmədilır. Ona görə onların hər ikisi Şah İsmayıldan bağışlanmasını xahiş etdilər və onlar da Səfəvi hakimiyyətinə itaəti qəbul etdilər. Şah İsmayıl onları da əfv etdi və onları öz yanında xidmətə qəbul etdi. Dərbəndin hakimliyini isə Mənsur bəyə həvalə etdi. Bütün Şirvanın hakimi vəzifəsinə isə Hüseyn bəy Lələ təyin edildi. Hüseyn bəy Lələ Səfəvi sarayındakı Əmir ül-ümərə vəsifəsindən azad edildi və həmin vəzifəyə Məhəmməd bəy Ustaclı təyin edildi. Bundan başqa Şah İsmayıl 22 il əvvəl şəhid olmuş və gizli şəkildə Təbərsəranda dəfn edilmiş atası Sultan Heydərin qalıqlarını çıxararaq Ərdəbilə göndərdi ki, onu Şeyx Səfi türbəsində dəfn etsinlər. Sonra Şah İsmayıl qoşunları ilə Qarabağa gəldi və havalar qızana qədər qışlağı orada keçirdi. Havalar istiləşəndə isə Şah İsmayıl Təbrizə döndü (53).

**5.Xorasanın fəthi**

1504-cü ildə Mazandaranda qiyam qaldırmış Məhəmməd Kərrənin itaət altına gətirilməsi üçün Şah İsmayıl öz qoşunları ilə Xorasan ərazisinə daxil olaraq Təbəs şəhərinə qədər irəliləmişdi. Yuxarıda qeyd edildiyi kimi, həmin günlərdə Şah İsmayıl ilə Xorasan hakimi Sultan Hüseyn Mirzə Bayqara arasında baş tutmuş məktublaşma əsasında Şah İsmayıl Xorasan ərazisini tərk etmiş və Sultan Hüseyn Mirzənin hakimiyyətdə olduğu zaman ərzində ona hörmətlə yanaşacağını vəd etmişdi. Şah İsmayıl bu vədinə əməl edərək Sultan Hüseyn Mirzəyə öz ehtiramını saxlamış və onun sağlığı dövründə Xorasan hüdudlarına qoşun çıxarmamışdı. 1506-cı ildə Sultan Hüseyn Mirzə dünyasını dəyişdi və bundan sonra Xorasan hakimliyi uğrunda onun varisləri arasında daxili mübarizə başladı. Varislik iddiasında olanlar arasındakı hakimiyyət davası Xorasanı xeyli zəiflətdi və bu vəziyyətdən məharətlə istifadə edən Məhəmməd xan Özbək (Şahi bəy xan, Şeybək xan kimi də tanınmaqdadır) ətrafına topladığı qoşun dəstəsi ilə Xorasan qoşunlarına üstün gəldi və 1508-ci ildə Herat şəhərinə daxil oldu. Bununla, Xorasandakı Teymurilər hakimiyyəti süqut etdi və hakimiyyət Şeybək xanın əlinə keçdi.

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şeybək xanın nəsli və hakimiyyətə gəlişi barəsində belə yazılmışdır: "Nəslinin mənşəyi Şeyban ibn Cuci ibn Çingiz xana gedib çatan Məhəmməd xan Şeybani ibn Budaq sultan ibn Əbülxeyr xan ibn Dövlətşeyxoğlan, Mavəraünnəhr valisi Sultan Əhməd mirzə ibn Sultan Əbu-Səid Kürəkanın nökərliyi rütbəsindən yüksək hökmdarlıq səviyyəsinə [qədər] ucalmış və bu məmləkətlərdə qüdrətli padşaha çevrilmişdi. [O], Teymuri sülaləsi şahzadələrinin əhvalının pərişanlığı və onların bir-biri ilə yola getmədikləri barədə eşitdikdə Xorasan mülkünə tamah etdi və müzəffər xaqanın (Sultan Hüseyn Bayqaranın) övladlarını məhv etmək fikrinə düşdü. [Məhəmməd xan Şeybani] 913-cü il aylarında (13.05.1507-01.05.1508) Xorasana qoşun çəkdi, o tədbirsiz şahzadələrlə

müharibə edib, onlara qalib gəldi və onların həyatla əlaqələrini kəsdi. Xülasə, tarixlərdə yazıldığı kimi, o, Bayqara xanədanına od vurdu və onların məmləkətini özbəklərin əlinə və ixtiyarına verdi. Xalq arasında Şahibəy xan [adı] ilə məşhur olan Məhəmməd xan Şeybani uzaq Türküstandan İraqadək [torpaqları] ələ keçirib, dövlət, əzəmət və iqtidar bayraqlarını göyə çatdırıb, elə lovğa və təkəbbürlü olmuşdu ki, heç bir əzəmətli və qüdrətli padşahı belə saymırdı, [O], şahın fələyə bərabər sarayının xadimləri ilə düşmənçiliyə başladı. [Şah İsmayılın] ölkələr fəth edən bayrağı ikinci dəfə Şirvana getdiyi ildə o, öz ordusunun bir qismini biyaban [çöl] yolu ilə Kirmana göndərib, o vilayətdə çoxlu dağıntılara, qətl və qarətə səbəb oldu" (54).

1507-ci ildə Şeybək xan Xorasanın mərkəzi sayılan Heratı ələ keçirdikdən sonra qoşunları ətraf bölgələrə göndərdi, Xorasan istiqamətində Damğan və Semnan xəttinə, cənubda isə Qəndəhar vilayətinin sərhədlərinə qədər olan əraziləri öz hakimiyyəti altına aldı. Bundan başqa, ətraf hakimlərə, eyni zamanda Şah İsmayıla fəthnamə göndərdi. Həmin fəthnamədə deyilirdi ki, hər kəs bizi görməyə və bizə səcdə etməyə gəlsə, bizim yanımızda yüksək mərtəbəyə layiq görüləcəkdir. Kim isə gəlməsə peşiman olacaqdır (55). Mövcud məlumatlara görə, Şah İsmayıl bu fəthnamənin məzmunundan razı qalmasa da, Şeybək xana cavab göndərdi. O bu məktubunda imamları mədh etməklə Zülqədər Əlaüddövlə üzərindəki qələbəsi haqqında Şeybək xana məlumat da verdi. Bu məktubda Şeybək xanın əldə etdiyi qələbələrə görə qürrələnməməsinə işarə edilmişdi. Məktubda Şeybək xanın diqqətinə çatdırılırdı ki, Şah İsmayıl Novruzda qoşunları ilə Məşhədə yollanmaq və İmam Rzanın məqbərəsini ziyarət etmək niyyətindədir. Şah İsmayıl məktubunda yazırdı: "...İmdada yet, ya Əli! Bu müqəddimə ilə demək istəyirəm ki, Nizaməddin Dədə bəy və Şücaəddin Lələ bəy kimi etibar etdiyim bəzi əmirləri əzəmətli qoşun və çoxlu döyüşçü ilə Əlaüddövlə Zülaqədəri dəf etmək üçün Qarabağdan Diyarbəkrə göndərmişdim. Həmin Əlaüddövlə onları qəfil haqlamış, hücum edərək pərən-pərən salmışdı. Təqribən 300 min döyüşçü ilə Fəratı keçmişdir. Xəbər bizə çatan kimi taleyin ondan üz döndərdiyini düşündük. Əli övladlarına qarşı çıxan məğlub olar. Belə ki, Allahın köməyi ilə çərşənbə günü sübh çağı 14 min adlı-sanlı nizə atanla qələbə miniyinə mindik. ...Bizimlə düşmən arasında 40 fərsəng məsafə var idi. "İmdada yet, ya Əli" dedik. Ertəsi gün cümə axşamı hələ nurlu günəş zülmət pəncərəsindən çölə çıxmamış Fərat çayını keçdik. Yolda ikən həmin namərdlərlə qarşılaşdıq. On iki imam eşqinə 12 min döyüşçü ayırdıq və 12 istiqamətdən hücum etdik. ...Dünya günəşi mavi səmada görünəndən sonra düşmən ordusundan 150 min namərdi qətlə yetirdik. 150 min namərd isə suda qərq oldu. Bir nəfər də qalmadı. Bəxtiqara Əlaüddövlə 35 min namərdlə nəhayət ki, qaçmağa üz qoydu. ...Qarabağdan izzət və qələbə ilə qayıtdıqdan sonra səmanın himayəsində olan xaqan Məhəmməd Şeybaninin sarayından rəğbətlə qarşıladığımız bir məktub aldıq. Məzmunu budur ki, Herat şəhərini ələ keçirdim, mərhum sultan və rəhmətlik xaqanın övladlarını qətlə yetirdim. ...Habelə, bu tərəfə gəlmək əzmində olduğunuzu bildirmişdiniz. Narahatlığa əsas yoxdur. Sultani Novruzdan sonra Allahın yardımı ilə cin və insanların

sultanı, rəhbərlərin xaqanı, mömünlük nümunəsi, haqq olan imam həzrət Əli ibn Musa Rzanın - salam olsun ona - hərəminə doğru gələcəyik. Müqəddəs qəbrin ətrafına qoymaq üçün 70 batman cavahiratla bəzədilmiş bir zərih hazırlamışıq. Biz müqəddəs Məşhəddə qələbə və fəth bayraqları qaldırmaqla təntənə ilə düşərgə salacağıq və Allah necə istəyirsə elə də olacaqır" (56).

Amma Şeybək xan bu cavabdan heç də xoşlanmadı. Onun yalnız istilaçılıq planları deyil, həm də məzhəb fərqi Şah İsmayıla qarşı düşmən münasibəti daha da gücləndirirdi. Ona görə Şeybək xan Şah İsmayıla yeni bir məktub göndərdi. Təhqiramiz məzmunda yazılmış bu məktubda Şah İsmayıla öyüd-nəsihət də verilir və ona şiəlik yolundan əl çəkməsi tövsiyə olunurdu. Şeybək xanın Məktubunda deyilirdi ki, eşitdiyimizə görə İran şahı şiə məzhəbini yaymaqdadır. Onun fikrincə, bu yol nəfsin və şeytan vasvasasının açdığı yol idi və bu yolla getməklə bir nəticəyə nail olmaq mümkün deyildi. Ona görə də Şah İsmayıla tövsiyə olunurdu ki, bu yolu tərk etsin asilərin yolunun yolçusu olmasın. Sonra o da məsləhət bilinirdi ki, Şah İsmayıl şəriətin müstəqim yolu olan və insanların riayət etdiyi sünnilik yoluna itaət etsin. Bu məsləhətə əməl edilməyəcəyi təqdirdə Şeybək xan öz təhdidlərini də dilə gətirirdi və bildirirdi ki, malik olduğumuz gücümüzlə İsfahanın divarlarını yerlə yeksan edəcək və İraq əhlinə elə bir qulaqburması verəcəyik ki, qiyamət surunun sədası heç vaxt yaddan çıxmasın (57).

Çox güman ki, bu məktublaşma ilə Şeybək xan həm də gələcək istilaçılıq müharibələri üçün bir ideoloji əsas hazırlayırdı. Xorasan vilayətini ələ keçirməklə Şeybək xan öz sərhədlərini Səfəvi sərhədlərinə çatdırdı və bununla bu iki dövlət həmsərhəd oldu. Bəzi məlumatlara görə, Şah İsmayıl hələ Şirvanda olarkən Qazı Nurulla Anisi adlı elçisini Şeybək xanın yanına göndərdi. Qazı Nurulla bu səfər zamanı qiymətli hədiyyələrlə bərabər Şah İsmayılın məktubunu da Şeybək xana çatdırmalı idi. Şah İsmayıl hələlik Şeybək xanla müharibə başlanmasını istəmirdi və ona görə də onunla xoş münasibətlər qurulmasına tərəfdar idi. Görünür elə buna görə idi ki, 1510-cu ilin əvvəllərində Şah İsmayıl daha bir elçiliyi Şeybək xanın yanına göndərdi. Şeybək xan Səfəvi elçisinə dağılmış karvan yollarının bərpasına tərəfdar olduğunu bildirsə də, görüşləri zamanı şiə məzhəbinə müansibət əsas müzakirə obyektlərindən biri oldu. Şeyx Məhyəddin Lahicani şiə məzhəbinə qarşı irəli sürülən iddalarla razılaşmadı və Şeybək xanın özünün də mənsub olduğu Çingiz xan xanədanından bir sıra adamların şiə məzhəbinə məxsusluğunu bildirdi. Bu danışıqlar zaman qarşılıqlı bir razılaşma və anlaşma əldə edilməsə də Şeybək xan yenidən Şah İsmayıla məktub yazdı və həmin məktubun çatdırılmasını Kamaləddin Hüseyn Əbivərdiyə həvalə etdi (58).

Bu məktub da Şeybək xanın Şah İsmayıla qarşı qaba və kobud münasibətinin yeni bir təsdiqi idi. Həmin məktubdan da görünürdü ki, Şeybək xan böyük iddialarla yaşayır. O, yalnız ətraf bölgələri deyil, hətta İraqa qədər olan əraziləri işğal etmək, özünə böyük bir imperiya yaratmaq istəyirdi. Şeybək xan Səfəvilər hakimiyyəti ilə hesablaşmaq istəmir və bu hakimiyyətə qarşı istehza

nümayiş etdirirdi. Sultan Hüseyn Bayqaranın ölümündən sonra yaranmış vəziyyətə görə Xorasanı asanlıqla ələ keçirməsi onda elə bir iştaha yaratmışdı ki, reallıq hisslərini də itirmişdi. Bütün Xorasan vilayəti üzərində hakimiyyəti ələ keçirəndən sonra Şeybək xan qərara aldı ki, Şeyxoğlunun (Şah İsmayılın) yanına öz elçisini göndərsin və hakimiyyət davasını apardığı günlərdə Xorasanı tərk etmək məcburiyyətində qalaraq Səfəvilərə sığınan adamların həbs edilərək geri göndərilməsi Şah İsmayıldan tələb edilsin. "Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, Şeybək xan öz elçisi vasitəsilə tələb etmək istəyirdi ki, Səfəvilər daxilində onun adına xütbə oxunsun və sikkə vurulsun. Əks təqdirdə, Şeybək xan Səfəvilər hüdudlarına daxil olaraq bu səltənəti viran günə qoyduqdan sonra Məkkəyə yollanacağını bildirirdi. Bu tələbləri Şah İsmayıla çatdıracaq elçi müəyyənləşdirilib Təbrizə yola salındı. "Aləmara-yi Səfəvi" əsərinə görə, həmin məktubun məzmunu aşağıdakı kimi idi: "İsmayıl Mirzəyə məlum olsun ki, biz Məkkəyə səfər etmək əzmindəyik. Əgər İraqda keçəcəyimiz yol üstündə xarab körpülər varsa onları təmir etdirin. Çünki,

Xaraba İraq deyildir məqsədim
Gərək Məkkə, Mədinəni zəbt edim

Bizim nəzərlərimiz Misir, Şam və Hələb mülkinə dikilmişdir. Yoxsa, İraq və Azərbaycan nədir ki, biz bu cür dərya təlatümlü ordu ilə xaraba İraq mülkü və susuz Ərəbistan üçün əzm etmiş olaq?". Məktub Şah İsmayıl tərəfindən dərhal cavablandırıldı və Şeybək xanın nəzminə qarşı Səfəvi şahı belə bir cavab yazdı:

Hər kəs ürəkdən Əbu Turab şahın (İmam Əli nəzərdə tutulur - M.S.) qulamı deyilsə.

Yüz Məkkə və Mədinəni tutsa da xeyri yoxdur (59).

Bundan sonra Şeybək xan öz əmirlərinə tapşırdı ki, on min nəfərlik qoşun dəstəsi hazırlasınlar, həmin dəstə ilə Kerman və Yəzd vilayətlərini tar-mar etsinlər. Guya bununla Şeybək xan Səfəvi şahını qəflət yuxusundan ayıltmalı və ona bir növ öz gücünü göstərməli idi. Bu göstərişdən sonra Şeybək xanın Canvəfa Mirzə və Bəyqu Bahadır adlı əmirləri on min nəfərlik qoşun dəstəsini götürərək Təbəs istiqamətindən Kerman vilayəti ərazisinə daxil oldular. Bu zaman Kermanda Məhəmməd xan Əfşar hakim idi və onun sərəncamında cəmi 500 döyüşçü var idi. Göstərilən bütün cəhdlərə baxmayaraq, Məhəmməd xan Əfşar bu kiçik dəstə ilə özbəklərin qarşısını ala bilmədi. Həmin dəstə ilə birlikdə şəhər əhalisinin böyük bir hissəsi qətlə yetirildi. Məhəmməd xan Əfşar özü də bu döyüşdə dünyasını dəyişməli oldu (60).

Bu vilayət talan edildikdən sonra özbək əmiri Canvəfa Mirzə 6 min nəfərlik qoşun dəstəsi ilə Yəzdə yollandı. Onun məlumatına görə, Yəzd də az saylı qızılbaş dəstəsi ilə qorunurdu və ona görə bu vilayəti də tezliklə ələ keçirmək və talan etmək olardı. Amma Yəzd əhalisi özbəklərin hücumundan vaxtında xəbər tutaraq şəhəri tərk edə bilmişdilər. Özbək dəstəsi əlləri çatan evləri, habelə onların yolu üzərində olan yaşayış məntəqələrini talan etdilər, rast gəldikləri insanları qılıncdan keçirdilər. Özbəklər Yəzddən çəkilib Kermana yollanan-

dan sonra Yəzd hakimləri baş verən hücum barəsində Şah İsmayıla xəbər göndərdilər. Həmin vaxt Şah İsmayıl Sultaniyyə çəmənində düşərgə salmışdı. Şah İsmayıl eşitdiyi məlumatdan qəzəblənərək dərhal özbəklərə ciddi cavab verilməsi qərarına gəldi. Səfəvi şahı ilk növbədə Kerman vilayətində toplaşmış olan özbək qoşun dəstəsinə zərbə vurulması üçün göstəriş verildi. Şah İsmayılın qardaşı Sultan İbrahim Mirzə bu məqsədlə göndəriləcək dəstənin rəhbəri olmağa hazır olduğunu bildirdi. Şah İsmayıl da onun bu təklifini qəbul etdi və Həsən bəy Halvçıolu ilə birlikdə beş min nəfərlik qoşun dəstəsini də onun tabeliyinə verdi. Onlara verilən tapşırıq belə idi ki, Kermana yollanaraq ora hücum etmiş özbək dəstəsini məhv etsinlər və yerli əhalidən talan olunmuş əmlak və əşyaları geri alaraq öz sahiblərinə qaytarsınlar. Mənzil başına tezliklə çatmaq üçün Kermana yollanan qızılbaş döyüşçülərinin hər biri özü ilə əlavə bir at da götürməli idi (61).

Bu dəstənin gəlib yetişməsi həm Kerman, həm də Yəzd əhalisini bütünlüklə qətliam edilmək təhlükəsindən xilas etdi. Sultan İbrahim Mirzənin dəstəsi özbək döyüşçülərinə yetişəndə bütün gücləri ilə onların üstünə atıldılar və onlara ağır bir dərs verdilər. Mənbələrdə mövcud olan təsvirə görə, qızılbaş dəstəsində olan bir qacar döyüşçüsü Canvəfa Mirzənin üstünə atıldı, nizəsi ilə onu vurub atdan yerə saldı, sonra isə sinəsi üstünə şığıyıb başını bədənindən ayırmaq istədi. Canvəfa Mirzə kim olduğunu ona anlatdı və yalvararaq ona toxunmamasını xahiş etdi. Qacar döyüşçüsü də onun dəstə başçısı olduğunu biləndə öldürməkdən daşındı və əl-qolunu bağlayaraq düşərgəyə apardı. Sultan İbrahim isə onu Yəzd hakiminə təhvil verdi ki, Yəzd əhalisindən talanan əmlakı və əsir götürülən insanları ondan tələb etsin. Sonra isə Sultan İbrahim Kermana çəkilməkdə olan özbək dəstəsinin təqibinə başladı. Bu vilayətə daxil olanda qızılbaşlar hər yerdə özbəklərin talanları və soyğunçuluqları ilə rastladılar. Əhalinin hər şeyi bu talanlara məruz qalmışdı. Özbək döyüşçüləri yerli əhalidən o qədər yük, sərvət, mal-qara toplamışdılar ki, sayını və hesabını belə müəyyənləşdirmək çətin idi. Özbək döyüşçüləri hələ bununla da kifayətlənməmişdilər və onlar öz talanlarını davam etdirirdilər. Belə bir vaxtda Sultan İbrahimlə Həsən bəy Halvaçıoğlu qızılbaş dəstəsi ilə özlərini yetirdilər. Qızılbaş dəstəsi ilə özbək dəstəsi arasında qanlı döyüşə meydan verildi. Elə ilk həmlədə özbək dəstəsinə ağır zərbə vuruldu, bu dəstəyə ciddi itki yetirildi. Qızılbaşların öldürücü zərbəsinin qarşısının alınmasının mümkün olmayacağını görəndə özbək əmirləri yalnız qaçmaq barəsində düşünməyə başladılar. Amma bu qaçmaq da onları qızılbaşların əlindən qurtara bilmədi. Təqib edilən özbəklərə də xeyli itki yetirildi və onların çox azı qaçaraq canlarını qurtara bildilər. Neçə müddət ərzində talanıb-toplanan mülk və əşyalar isə Kermanda qaldı və onları aparmaq özbək dəstəsinə qismət olmadı. Sultan İbrahim Mirzə əhalidən toplanan var-dövlətin hamısını sahiblərinə geri qaytardı. Sonra da Yəzdə yollandı və orada toplanan mal-mülkü də sahiblərinə təhvil verdi. Bundan sonra isə Sultan İbrahim Mirzə özbək əmiri Canvəfa Mirzəni də götürüb Şah İsmayılın düşərgəsinə yollandı, yetişdikdən sonra vəziyyət barəsində ona məlumat verdi (62).

Özbək dəstəsinə qarşı göstərdiyi şücaətlərinə görə Şah İsmayıl həm Sultan İbrahimə (İbrahim Mirzəyə), həm də Həsən bəy Halvaçıoğluna təşəkkürünü çatdırmaqla, onlara qiymətli hədiyyələr verdi. Canvəfa Mirzəyə gəlincə isə, Şah İsmayılın əmri ilə onun əl-qolundakı zənciri açdılar və ona qonaq ehtiramı göstərdilər. Özbək dəstəsinin qılıncdan keçirilməsi Şeybək xan tərəfindən qəzəblə qarşılandı və salamat qalmış əmirlərinə də dedi ki, bu döyüşlərdə həyatınızı itirsəydiniz daha şərəfli olardı. Xüsusilə, Canvəfa Mirzənin qızılbaşlara əsir düşməsi onu halından çıxardı. Tələb etdi ki, Şah İsmayıla yeni bir təhqiredici məktub göndərilsin. Mənbələrdə olan məlumata görə, həmin məktubun məzmunu belə idi: "İraq mülkünün darğası olan İsmayıl Mirzə hökumətinə məlum olsun ki, necənci dəfədir bizim tərəfimizdən sizə elan edilmişdir ki, İraqın dağılmış körpülərini və yollarnı təmir edəsiniz, bizim dərya kimi dalğalanan qoşunumuzun ehtiyac və tələbatını hər mənzil başında hazır edəsiniz və öz xidmətinizi nümayiş etdirəsiniz. Sizin hökumətinizdən isə heç bir xəbər bizim cəlalımıza çatmamışdır. İstənilən halda bizim əmrimizlə müəyyən olunanlara əməl edin, bizim adımıza sikkə vurdurun və xütbə oxutdurun. Sizin xidmətləriniz bizi razı salarsa İraqın hakimliyini sizə tapşırarıq. Yoxsa sizin üçün müxtəlif cəzalar təyin edərik" (63).

Bu məktubu alandan sonra Şah İsmayıl qərara aldı ki, Şeybək xanın yanına yeni bir elçilik göndərsin. Həmin elçiliyə Şeyxzadə ləqəbi ilə məşhur olan Şeyx Məhyəddin Əhməd Lahicani rəhbərlik edirdi. Bu elçi Şah İsmayıla uşaqlıq illərində müəllimlik etmiş Şeyx Məhəmməd Şəmsəddin Lahicaninin oğlu idi və o da atası kimi dövrünün böyük arif insanlarından biri idi. Şah İsmayıl onların hər ikisinə böyük ehtiramla yanaşırdı və bu ehtiramın nəticəsi idi ki, Şeybək xanla danışıqlar aparmaq məsuliyyəti məhz Şeyx Məhyəddin Lahicaniyə həvalə edilmişdi. Şeyx Məhyəddin Lahicanı Səfəvi şahının məktubundan əlavə, "Aləmara-yi Şah İsmayıl"ın məlumtına əsasən əsir götürülmüş Canvəfa Mirzəni də özü ilə aparmalı idi. Şah İsmayıl məktubunda Şeybək xana dövrünün nəzakət normaları çərçivəsində müraciət edərək onu böyük xan, dövrünün sultanı və Çingiz xan sülaləsinin xələfi adlandırmışdı. Onun nəzərinə çatdırırdı ki, körpülərin və yolların təmiri haqqında yazmış olduğu məktubu almış, onları təmir etdirmiş, Şeybək xanın Məkkə və Mədinəyə doğru hərəkəti zəruri olacaq ütün ehtiyaclarının ehtiyatı yaradılmışdır. Bütün bu ehtiyatlar Şeybək xanın ixtiyarındadır. Məktubda Şah İsmayıl sonra Şeybək xanın istəklərinin həyat keçirilməsinə baxmayaraq, Kerman və Yəzd vilayətlərinin özbək qoşunlarının talançı yürüşlərinə məruz qaldığını bildirirdi. Onun yazdığına görə, müsəlmanların talan edilməsi və öldürülməsi həzrət peyğəmərin şəriətinə uyğun deyildi. Şah İsmayılın fikrincə, Şeybək xan öz adamlarına qadağan etməli və imkan verməməli idi ki, müsəlmanların qanı nahaq yerə axıdılsın. Şah İsmayıl ümid etdiyini bildirdi ki, onlar arasında gələcəkdə dostluq münasibətləri daha da möhkəmlənəcəkdir (64).

Şah İsmayıl qızılbaşlara əsir düşmüş Canvəfa Mirzənin və digər 20 nəfər özbək döyüşçüsünü ikitərəfli münasibətlərin yaxşılaşdırılması xətrinə qətlə yetirmədi və onların hamısını geri döndərdi. Mənbə məlumatlarından belə bir qənaətə gəlmək olar ki, Şah İsmayıl elçi kimi Şeyx Məhyəddin Lahicaninin

göndərilməsi barəsində dərhal seçim etməmişdi. Amma sonradan belə bir qərara gəlmişdi ki, Şeybək xanın sarayında çoxlu sayda islam müctəhidləri vardır və onların suallarının cavablandırılması üçün Herata elə Şeyx Məhyəddin Lahicani kimi şiə arifinin göndərilməsi daha yaxşı olar. Bir müddətdən sonra Şeyx Məhyəddin Lahicani nəhayət ki, Şeybək xanın Heratdakı sarayına yetişdi. Əyanları Şeybək xana Canvəfa Mirzənin də gətirildiyini xəbər verəndə Şeybək xan bunu Şah İsmayılın ondan qorxub-çəkinməsi kimi qiymətləndirdi. Onun fikrincə, Şah İsmayılın qüdrəti yox idi ki, Şeybək xanının qohumunu və əmirini qətlə yetirsin. Canvəfa Mirzə isə Şeybək xanın qarşısında Şah İsmayılın elçisini təqdim etdi və onun böyük alim olduğunu bildirdi. Şeybək xan Şeyx Məhyəddinə qarşı nə şah elçisinə, nə də alimliyinə layiq ehtiram göstərdi və heç onun əhvalını da soruşmadı. Yemək mərasimindən sonra Şeyx Məhyəddin, Səfəvi şahının məktubunu Şeybək xana təqdim etdi. Mənbələrdə bildirilir ki, Şeybək xan bu məktubu bir əli ilə alıb mirzəyə uzatdı. Şah məktubunu almaq üçün Şeybək xanın iki əlini deyil, bir əlini irəli uzatması məktub sahibinə bir hörmətsizlik kimi mənbədə öz əksini tapmışdır. Şeybək xanın əmrinə əsasən, onun mirzəsi Şah İsmayılın məktubunu hündür səslə oxudu. Məktub oxunandan sonra Şeybək xan gülməyini saxlaya bilmədi və ətrafındakılara müraciət edib dedi ki, bir baxın görün, biz nə xəyaldayıq, Şeyxoğlu nə xəyaldadır. Şeybək xan qəzəbləndi ki, iki dəfə məktub yazmasına və Məkkəyə yollanması üçün bütün yolların və körpülərin Şah İsmayıl tərəfindən təmir olunmasını tələb etməsinə baxmayaraq, Şah İsmayıl nə üçün belə bir cavab göndərmişdir. O belə bir qənaətdə idi ki, tələblərini Şah İsmayıl yerinə yetirməmişdir. Sonra Şeybək xan Səfəvi elçisindən tələb etdi ki, onun istəklərini Şah İsmayıla çatdırsın. Şeybək xanın istəkləri isə belə idi ki, Şah İsmayıl onun hakimiyyətini tanısın, xarab olmuş yolları və körpüləri təmir etsin, yol boyu Şeybək xanın qoşunlarının ehtiyaclarını ödəyəcək qədər azuqə ehtiyatları toplansın və s. (65).

Şeyx Məhyəddin bu tələbləri Şah İsmayıla çatdırmaq cəsarətində olmadığını bildirdi və Şeybək xana məsləhət gördü ki, istəklərini məktub halına salsın və onu özünün bir nümayəndəsi ilə Şah İsmayıla göndərsin. Şeybək xan da bu təklifi qəbul etdi, məktub hazırladaraq onu Taclı Bahadır adlı birisi ilə Şah İsmayıla göndərdi. Şeyx Məhyəddinlə birlikdə gələn Taclı bahadırın təqdim etdiyi məktub Şah İsmayılın böyük qəzəbinə səbəb oldu. Nəzakət dolu məktublarının əvəzində təhdid dolu məktubun alınması Şah İsmayılın böyük təəccübü ilə qarşılandı. Şeybək xan bu məktubunda açıq şəkildə bildirirdi ki, tələblərimizə əməl olunmasa, onda qoşunlarımızı üstünə göndərəcəyik. "...Əgər bizim, - Allah onun nüfuzunu məşriq və məğribdə daha da artırsın (burada Şeybək xan özünə işarə edirdi -M.S.) - əmrimizdən çıxıb imtina etsən Buxara, Səmərqənd, Nekudəri, Həzarə, Qövr, Ğarcistan sərhədində bir dəstə əmir və qoşunla [əmrə müntəzir qalan] əziz, bəxtəvər, hörmətli, səltənət və şahlıq sahibi, qüdrət və zəfər üçün mübarizə aparan, ağıllı və kamallı övladım ...Əbülmübariz İmadəddin Bahadır xanı - Allah-təala onu qorusun - məğlub etmək üçün üstünüzə göndərəcəyik. Əgər qələbə çala bilməsə onu əvəz edəcək digər gənci; Qunduz,

Baqlan, Həsar, Şadman, Bədəxşan və Türküstanın digər ərazilərinin sərhədində bir dəstə əmir və qoşunla [əmrə müntəzir qalan] dövrün səltənətinin pənahı, əmin-aman ölkələrin qoruyucusu, küfr və zülmü aradan qaldıran, göndərilən hər yerdən fəth və qələbə ilə qayıdan ... Əbülfəvaris Teymur Bahadır xanı, - Allah ömrünü uzun etsin, - qələbə çalmaq üçün həmin vilayətə göndərəcəyik. Əgər növbəti dəfə məğlubiyyət olarsa ki, bundan Allaha pənah aparıram, müzəffər ordunu sənə tərəf göndərəcəyəm. İlk öncə əziz-girami, arzu gülümün qönçəsi, canıma təskinlik verən, ciyərimin və ürəyimin qüvvəti, qəhrəmanlığı ilə hər bir yerdə şan-şöhrət qazanan, döyüş meydanının aslanı olan oğlum ...Əbunəsr Kəmaləddin Suncək Bahadır xanı, - Allah onun ömrünü uzun etsin, - əmir və [səltənətə] yaxın olanlarla təyin edəcəyik. Zəmanənin şücaəti, tacın mirvarisi, meydanda [düşmənlərinin] qatili, Ceyhun [çayının] timsahı [olan] övladım Həmzə Bahadır xan sağ cinahda, bu dünyada mülkün dayağı olan şücaətli övladım Səliməddin Mehdi Bahadır xan sol cinahda, Əndican, Şahruxiyyə, Qəndbadam, Daşkənd, Şəhri-səbz, Otrar, Seyran, Urgənc, Xarəzm, Ceyhun və Kaşqadan tutmuş Qıpçaq, Qəlmaq və digər [ərazilərdən] olan dindar ordu, igid əsgərlər və əmirlər ilə birlikdə müqavimət göstərəcək və müxaliflərlə döyüşəcəklər. Dövlət əyanlarının həmin döyüşdə iştirak etməsi ətrafdakıların şücaətli və qorxusuz olmasına səbəb olar. Allahın köməyi ilə "Allah sənə yenilməz qələbə verəcəkdir" xəzinəsindən yardım alacağıq. Hansı məkan və zamanda müqavimət göstərəcəyinizi elan edin" (66).

Göründüyü kimi, Şeybək xan artıq özünü Şah İsmayıl ilə müharibəyə hazır bilirdi və hətta tərəflər arasında döyüşün harada baş verə biləcəyi ilə də maraqlanırdı.

İki tərəf arasında dərinləşməkdə olan gərginliyin sovuşdurulması üçün Şah İsmayıl yeni bir məktub yazıb Şeybək xana göndərməyi lazım bildi. Şah İsmayıl, xüsusilə, yolların və körpülərin xarab vəziyyətdə olması haqqındakı sözlərin hər məktubda təkrarlanmasını məntiqdən kənar sayırdı. Ona görə də Şeybək xan üçün hazırlanan yeni məktubda Şah İsmayıl öz təəccübünü belə ifadə etdi: "Buyurmuşdunuz ki, yolları və körpüləri təmir edib iqamətlər hazırlayaq. Xeyli müddətdir ki, buyurduqlarınız hazır edilib. Təşrif gətirməməyinizin səbəbi nədir? Hər halda sizə elan edirəm ki, mən də cah-cəlalla görüşə gəlirəm" (66).

"Tarix-i aləmara-yi Abbasi" bu məktublaşma haqqında belə yazırdı: "Süleyman şanlı xaqan iki-üç dəfə yaxşı danışan səfirləri, o cümlədən dövranın məşhur, istedadlı adamlarından olan Şeyxzadə Lahicini elçiliyə göndərib, [Şeybani xanı] fitnə-fəsaddan əl çəkməyə çağırdı. [Lakin Şeybani xan] öz qarabəxtliyi ucbatından [şahın] cavabında kobud sözlər yazıb, mənasız kəlmələr işlədib qeyd etmişdi ki, islam həccinə getmək arzusundadır, görəsən, onun [Şah İsmayılla] görüş yeri İraq və Azərbaycanın harasında olacaqdır? Süleyman şanlı xaqan da gözəl ibarələrlə cavab məktubunda yazmışdı ki, biz də cinlərin və insanların imamının mübarək məzarını ziyarət etmək fikrindəyik, inşallah, görüş yeri müqəddəs və ulu Məşhəddə olacaqdır" (67).

Ümumiyyətlə, Şeybək xanın göndərdiyi məktublarında Şah İsmayılın təhqir edilməsi, onun əcdadlarının aşağılanması qabarıq şəkildə özünü göstərirdi. Məsələn, məktublarının birində Şeybək xan bildirirdi ki, padşahlıq atadan oğula miras qalmalıdır. Yəni, Şah İsmayılın əcdadları padşah nəslinə mənsub olmadığı üçün onun da cahangirlik iddiasına düşməsi düzgün deyildir. Ona görə də Şeybək xan tələb edirdi ki, Şah İsmayıl taxtdan geri çəkilməlidir. Məktublarının birində Şeybək xan Səfəvi şahının anasının Uzun Həsənin qızı olmasını yazır və sonra da bildirirdi ki, taxt-tac ana xətti ilə övlada keçmir. Başqa sözlə, Şah İsmayılın taxt-tac ələ keçirməsi üçün Uzun Həsənə varislik iddiası da irəli sürə bilməzdi. Məktubdan əlavə Şeybək xan Şah İsmayıla bir kəşkül və bir dənə də əsa göndərmiş və bununla onun dərvişlik əcdadına işarə etmişdi (68).

Şeybək xanın iddialı davranışı ətraf bölgələrin bir çox hakimlərində onun məğlubedilməzliyi haqqında təsəvvür yaratmışdı. Ona görə də onların Səfəvi hakimiyyətinə münasibətində də dəyişikliklər baş verməyə başlayırdı. Məsələn, Mazandaran hakimi Ağa Rüstəm artıq bölgədə söz sahibi Şeybək xanı hesab edirdi və ona görə də Səfəvi xəzinəsinə illik bac-xəracı verməkdən imtina etmişdi. O hətta Səfəvi əyanlarına çatdırırdı ki, mənim əlim Məhəmməd xan Şeybaninin ətəyində olduqca Şah İsmayıldan heç bir qorxum yoxdur (69).

Beləliklə, Taclı Bahadır tərəfindən gətirilən məktuba da Şah İsmayıl cavab yazdırıb onu Xəlil ağa adlı birisinə verdi və onu da Taclı Bahadırla bilikdə Herata yola saldı. Şah İsmayıl bu məktubu göndərsə də, özbəklərlə müharibənin qaçılmaz olduğunu görürdü və ona görə də müharibəyə hazırlaşmaq üçün Təbrizə yola düşdü. Xəlil ağa isə Taclı Bahadırla yolunu davam etdirərkən Polkörpü adlı məntəqədə bir dəstə silahlı özbəklə qarşılaşdı. Onların kim olduğunu öyrənməyə çalışanda Taclı Bahadır bildirdi ki, bu dəstə onların müşayiət edilməsi üçün gələ bilər. Polkörpü məntəqəsi Səfəvi səltənəti ilə Xorasan vilayətinin sərhədində yerləşirdi və ona görə sərhəd-keçid məntəqəsinə özbək qoşun dəstəsinin yerləşdirilməsi Xəlil ağanın haqlı marağına səbəb oldu. Gecə ikən o, özbək silahlılarından birini gizli şəkildə haqlayaraq ondan qoşun dəstəsinin sərhəd nöqtəsinə yerləşdirilməsinin məqsədini öyrənə bildi. Bu döyüşçünün verdiyi məlumatdan aydın oldu ki, Səfəvilərə qarşı müharibə başlamazdan əvvəl Şeybək xan 40 min nəfərlik qoşun dəstəsi ilə Qövr və Ğərcistana hücum etsə də bu yürüşdə ağır məğlubiyyət uğramış və 40 min nəfərlik qoşun dəstəsindən cəmi 14 min nəfər sağ qalmışdı. Kor-peşman Herata qayıdan Şeybək xan istəmirdi ki, onun məğlub olması və ağır itkilərə məruz qalması xəbəri Şah İsmayıla çatsın. Ona görə də qoşun dəstəsini sərhəd məntəqəsində yerləşdirmişdi ki, kimsəni Xorasan vilayətindən Səfəvi səltənətinə keçməsinə icazə verilməsin. Bu yolla Şeybək xan məğlubiyyəti haqqında xəbərlərin yayılmasının qarşısını almağa çalışırdı (70).

Əfqanıstanın Qövr və Ğərcistan məntəqəsində şiə mənsəbinə mənsub olan hezarə camaatı yaşayırdı. Bu camaatın şiə məzhəb olması Şeybək xanı çox narahat edirdi və güman edirdi ki, Səfəvi qoşunlarına qarşı müharibəyə başlasa hezarələr toplaşıb ona arxadan güclü zərbə vura bilələr. Hezarələrin kifayət

qədər güclü qüvvələri var idi. Ona görə Şeybək xan qoşun dəstəsi ilə hezarələrə güclü zərbə vurmaq istədi. Lakin məqsədinə nail ola bilmədi və dağlıq şəraitdə daha yaxşı döyüşməyə adət etmiş hezarələr özbək qoşunlarına ağır zərbələr vurdular (71).

Xəlil ağa Polkörpü məntəqəsində Şeybək xanın həzarələrə məğlubiyyəti və onun düşdüyü vəziyyət haqqında məlumatı kağız üzərinə köçürərək çapar vasitəsilə Şah İsmayıla göndərdi. Həmin çapar gizli şəkildə yola düşdü və Şah İsmayıl Qəzvində olarkən çapar onun hüzuruna yetişdi. Şah İsmayıl Xorasana doğru hərbi yürüşə başlamazdan əvvəl Şeybək xanın düşmüş olduğu vəziyyət haqqında qiymətli məlumatlar əldə etmiş oldu. Sonra Şah İsmayıl Qəzvindən Tehrana doğru hərəkətə başladı (72).

Xəlil ağa və Taclı Bahadır bir müddətdən sonra Polkörpüdən Herata doğru hərəkətlərini davam etdirdilər. Bu səfər Şeybək xanı heç də razı salmadı. Xəlil ağa onunla görüşündə Şah İsmayılın məktubunu təqdim etməklə bərabər, onun sözlərini də çatdırdı və bildirdi ki, Şeybək xan bir neçə dəfə elan etməsinə baxmayaraq Məkkə ziyarətinə yola düşməmişdir. Xəlil ağa onu da əlavə etdi ki, Şeybək xan bununla bağlı verdiyi bəyanatlarını icra etməsə də, Şah İsmayıl artıq onunla görüş üçün hərəkətə başlamışdır. Başqa sözlə, Şah İsmayıl Xorasan istiqamətində hərbi yürüşə başlamışdır. Şeybək xan bu məlumatdan son dərəcə qəzəbləndi və əmir və əyanlarına göstəriş verdi ki, Xəlil ağanı həbs edib zindana atsınlar (73).

Şah İsmayıl biləndə ki, Polkörpüdə özbək dəstəsi dayanır, onda bu dəstənin aradan götürülməsi üçün addım atılmasını qərarlaşdırdı. O, Hüseyn bəy Halvaçıoğluna göstəriş verdi ki, 300 nəfərlik dəstə ilə Polkörpüyə yollansın. Halvaçıoğlu da dərhal bu göstərişin icrası üçün yola düşdü. Polkörpüdə Biyaqu Bahadırın rəhbərliyi altında 400 nəfərlik özbək dəstəsi var idi. Halvaçıoğlu çətinlik çəkmədən bu dəstəyə ağır zərbə vurdu və Biyağu Bahadır canını salamat qurtarmaq üçün Semnana qaçdı. Onun dəstəsindən 300 nəfər qətlə yetirildi. Halvaçıoğlu bu döyüşdən sonra geri qayıdıb əldə etdiyi nəticə barəsində Şah İsmayıla məlumat verdi. Şah İsmayıl onu bu uğuruna görə mükafatlandırdı və bundan onra Mirzə Məhəmmd Talışa göstəriş verdi ki, 1000 nəfərlik qoşun dəstəsi ilə Semnana hərəkət etsin, orada hakim olan Şeybək xanın damadı Seyid Məhəmmədi cəzalandırsın. Mirzə Məhəmməd Talış da bu göstərişdən sonra dəstəsini hərəkətə gətirərək Semnana doğru yola düşdü. Şah İsmayıl onun ardınca Hüseyn bəy Lələnin rəhbərliyi altında da 2 min nəfərlik dəstəni göndərdi. Hüseyn bəy Lələ də Semnana doğru hərəkətə başladı. Polkörpünü tərk edib Semnana gəlmiş Biyaqu Bahadır Semnana gəlsə də, orada da dayanmağı özü üçün təhlükəli hesab etdi. Qızılbaşların necə fədakarlıqla döyüşdüyünün şahidi olan Biyaqu Bahadır hətta Semnan hakimi Seyid Məhəmmədə də Herata dönməyi təklif etdi. Seyid Məhəmməd eşitdiyi bu sözlərdən müəyyən qədər təəccübə gəldi. Çünki Şeybək xan Biyaqu Bahadırı Türküstan mülkünün Rüstəmi adlandırırdı. Türküstan mülkünün Rüstəmi olacaq birisinin qızılbaşlarla ilk döyüşdən sonra rəngi-ruhu qaçmışdı və bunu onun özünə də dedi. Bununla belə, Biyaqu Bahadır öz

qərarının üzərində dayandı və qızılbaşların qorxusundan Semnanı tərk edərək Herata doğru hərəkətə başladı (74).

Biyaqu Bahadırın təkidinə baxmayaraq, Semnan hakimi şəhəri tərk etməyə cəsarət etmədi. Onun sərəncamında 1700 nəfərlik dəstə var idi. Mirzə Məhəmməd Talışın dəstəsinin bir min nəfərdən ibarət olması haqqında məlumat aldıqdan sonra Seyid Məhəmmədə belə bir ümid yarandı ki, ona müqavimət göstərə bilər. Ona görə də, Seyid Məhəmməd öz dəstəsini toplayaraq Məhəmməd Talışı şəhərdən kənarda qarşılamağı qərara aldı. Şəhərdən dörd fərsəng aralanandan sonra o, Mirzə Məhəmməd Talışın dəstəsi ilə qarşılaşdı. Tərəflər arasında baş verən döyüşdə qızılbaşlar yenidən öz fədakarlıqlarını nümayiş etdirdilər və özbək dəstəsinə yeni bir zərbə vurdular. Seyid Məhəmmədin geri qaçmaqdan başqa çarəsi qalmadı. O hətta Semnanda dayanmağın təhlkəli olacağını hiss etdiyindən ailəsini və ətrafını toplayıb şəhəri tərk etmək istədi. Amma bu zaman şəhər əhli Seyid Məhəmmədin tez-tələsik qaçmaq niyyətindən xəbər tutanda onun evini mühasirəyə aldı. Burada yeni bir döyüş alovlandı. Tezliklə Mirzə Məhəmməd Talışın dəstəsinin yaxınlaşması xəbəri alınanda Seyid Məhəmməd müqaviməti dayandırdı və şəhər əhalisinin mühasirəsindən çıxaraq Damğana qaçmağa imkan tapdı (75).

Şah İsmayıl yalnız kiçik dəstələrin özbək dəstələrinə qarşı göndərilməsi ilə kifayətlənmədi. Səfəvi şahı eyni zamanda növbəti döyüşlərə hazırlıq göstərişi verdi. Şeybək xan qüvvələri ilə qarşıdurmanın qaçılmaz olduğu anlaşılanda bu qarşıdurmadan qalib çıxmağa zəmanət verəcək sayda qoşun toplanmasına başlandı. Bununla əlaqədar, Şah İsmayıl öz təvaçilərini vilayətlərə göndərdi. Təvaçilər qoşun toplanması üçün şah fərmanını bölgələrə çatdıran və bu işlərə nəzarət edən şəxslər idilər. Şah fərmanına əsasən, əcəm və ərəb İraqlarında, farsda, Kermanda, Kürdüstanda, Luristanda, Diyarbəkrdə, Aran və Azərbaycanda çoxlu sayda qoşun toplandı və bu qoşunlar yerli hakimlərin rəhbərliyi altında ümumi qoşunlara qatıldılar. Şah İsmayıl bilirdi ki, uzun bir hərbi yürüşə çıxmalıdır və ona görə də yetərli sayda qoşun toplamağı qarşısında dayanan əsas vəzifələrdən biri kimi qəbul etdi (76).

Mövcud olan bəzi məlumatlara görə, 1510-cu ilin yazının əvvəllərində Səfəvi səltənətinin qərbində bəzi yaşayış məntəqələrində Səfəvi hakimiyyətinə qarşı itaətsizlik halları baş vermişdi. Şah İsmayıl Xorasana doğru hərəkətə başlamazdan əvvəl bu itaətsizlikləri yatırdı və sonra Xorasana doğru yürüş hazırlıqlarını başladı. Bu hazırlıqlar Təbrizdə başladı və sonra Şah İsmayıl bütün qoşunlarla Sultaniyyəyə gəldi. Sultaniyyədə olarkən, Şah İsmayıl qoşunlara sıra baxışı keçirdi və onların qarşısında dayana vəzifələri müəyyənləşdirdi. Mənbələrdə olan məlumatlara görə, Sultaniyyədə insanların heyranlıqla izlədiyi bir qoşun toplanmışdı və hələ heç bir zaman belə yüksək nizamda və yaraşıqda qoşun görünməmişdi. Mövcud olan məlumatlara görə, həmin gün təcrübəli Səfəvi döyüşçülıri arasından seçilmiş qorçular dəstəsi Şah İsmayılın taxtının arxasında iki tərfədə düzülmüşdülər. Yasavullar və xas qulamlar da qızıldan olan gürzlərlə onlar üçün ayrılmış yerlərdə düzülmüşdülər. İstər qorçularım, istərsə də qulamların və yasavulların elə

gözoxşayan geyimləri var idi ki, bu geyimlər onların görünüşünü daha da əzəmətli edirdi. Şah sarayının protokol rəisi olan eşikağasının işarəsi əsasında mərasimdə iştirak edən vilayət hakimlərinin hər biri öz məkanlarını tutdular və bundan sonra Şah İsmayıl onların qarşısında çıxış etdi. Şah İsmayıl bu zaman Şeybək xanla formalaşmış münasibətlər haqqında məlumat verdi və sonra da Xorasana yürüş edilməsinin məqsədəuyğunluğu barəsində mərasimə toplaşan əmir və əyanların münasibətini soruşdu. Bu əmir və əyanların hamısı bir ağızdan Xorasan istiqamətində hərbi yürüşün zəruriliyinə tərəfdar oldular və hətta bu yürüşə hazır olduqlarını da bildirdilər. Söylənilən fikirləri dinləyəndən sonra Şah İsmayıl da öz qərarını açıqladı və bundan sonra mərasimə toplaşanlar üçün böyük bir ziyafət təşkil edildi. Bu ziyafət həm də ağır səfər qabağı bir əyləncə məclisinə çevrildi, bu məclisə musiqiçilər dəvət edildi. Ziyafət məclisi başa çatdıqdan sonra isə Səfəvi əmirlərinin, əyanlarının, sərkərdələrinin və döyüşçülərinin mükafatlandırılması həyata keçirildi. Şah İsmayılın əmri ilə xəzinə qapısı açıldı, böyük miqdarda pul, qiymətli əşyalar, sikkə və qızıllar, cins atlar, zərlə işlənmiş at təchizatı, nəfis silahlar və digər əşyalar mərasim iştirakçılarına paylandı. Sıra baxışında iştirak edən qızılbaş döyüşçülərinin hər biri onu razı sala biləcək hədiyyələrlə evinə döndü. Səhəri gün isə böyük təbillərin və şeypurların sədaları altında döyüşçülər uzaq səfərə yola düşdülər. Qoşunlar Reyə doğru istiqamət götürdülər (77).

Hərəkət zamanı qoşunların qarşısına xüsusi çavuşlar yerləşdirilmişdilər. Əllərində yaşıl bayraqlar olan bu çavuşlar xüsusi və yaraşıqlı geyimə malik idilər. Onların vəzifəsi qoşunların qarşısında hərəkət edərək xoş avazla dini məzmunlu şerləri və havaları səsləndirmək idi. Bununla, onlar həm qoşunların əhval-ruhiyyəsini qaldırırdılar, həm də yerli əhalidə mübarizlik əhval-ruhiyyəsini artırırdılar. Qoşunların tamaşasına toplanan əhalinin sayı çox olanda çavuşlar öz nəğmələrini daha şövqlə və uca səslə oxuyurdular və bununla, əhalinin qoşunlara daha güclü dəstəyini formalaşdırmağa çalışırdılar (78).

Şah İsmayıl Semnandan keçməklə Damğana doğru hərəkətini davam etdirməli idi. Semnanın özbək qoşunlarından təmizlənməsində şücaət göstərmiş qızılbaş döyüşçüləri Şah İsmayıl tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırıldılar. Amma Mirzə Məhəmməd Talış özbaşına Semnanı tərk edib Damğana doğru irəlilədiyinə görə, şahın iradı ilə qarşılaşdı. Şah İsmayıl xəbər tutanda ki, Mirzə Məhəmməd Talış Semnanın keçmiş özbək hakimini ələ keçirmək üçün onun təqibinə başlayıb onda Halvaçıoğlunu onun ardınca göndərdi ki, harada rastlaşsa onu dayandırsan və irəli hərəkət etməsinə imkan verməsin. Çox güman ki, Şah İsmayıl onun dəstəsinin çoxsaylı özbək dəstəsinin zərbəsi altına düşə biləcəyindən ehtiyat edirdi. Qızılbaş qoşunları Semnanı adlayıb Damğana yaxınlaşanda Şah İsmayıl onun diqqətinə çatdırdı ki, verilən əmri icra etmək lazımdır və icazəsiz başqa bir vəzifənin icrasına girişməyə ehtiyac yoxdur. Səfəvi şahı icazəsiz hərəkətinə görə, Mirzə Məhəmməd Talışı xəbərdar etməklə kifayətləndi və ona hər hansı bir cəza vermədi (79).

Bir sıra mənbələr Damğanda Sultan Əhməd adlı birisinin hakim olduğunu qeyd edirlər. Həmin hakim Damğana Şeybək xan tərəfindən təyin edilmişdi. Şah İsmayıl öz qoşunları ilə Damğan ətrafına yetişəndə Sultan Əhməd orada dayanmağı təhlükəli bilərək şəhərdən qaçdı. Onun ardınca Astrabad hakimi olan Xacə Əhməd də çıxış yolunu qaçmaqda gördü və bununla da Damğan və Astrabad şəhər-qalaları da özbək qoşunlarından təmizlənmiş oldu (80). Başqa sözlə, bu şəhərlər heç bir müqavimət olmadan özbək qüvvələrindən təmizləndilər.

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində isə Damğanın qızılbaşlar tərəfindən ələ keçirilməsi bir qədər fərqli şəkildə təsvir edilmişdir. Bu əsərlərin hər ikisi, Damğan qalasında özbək qoşun dəstəsinin olmasından və onların qızılbaş qoşunları tərəfindən mühasirəyə alınmasından söz açırlar. "Aləmara-yi Səfəvi"yə görə, bu qoşun dəstəsinin tərkibi 2 min nəfərdən ibarət idi. "Aləmara-yi Şah İsmayıl"a görə isə, Damğanda 12 min nəfərlik qoşun dəstəsi var idi. "Aləmara-yi Səfəvi"yə görə, Semnan hakimi Seyid Məhəmməd də canının qurtarmaq üçün bu qalaya sığınmışdı. Amma qızılbaşların yaxınlaşması xəbərini alanda oradan da qaçıb Herata doğru yol götürdü. Damğanda isə buranın hakimi Rüstəm Bahadır qaldı. "Aləmara-yi Şah İsmayıl"da Seyid Məhəmmədin adı çəkilmir və qalada Rüstəm Bahadırdan başqa Mehdi Xacə adlı birisinin olması bildirilir. Bu əsərdə sonradan onun Rüstəm Bahadırla qaçması və onların tutulması üçün görülən işlər təsvir edilmişdir. Həmin mənbələrin məlumatına görə, Rüstəm Bahadır qaçmağa müvəffəq olsa da Mehdi Xacə ələ keçdi və sonradan qətlə yetirildi (81).

Qala hakimlərinin qətlə yetirilməsindən sonra oradakı özbək dəstəsi də qalanı tərk etməyə cəhd göstərdi. Onlardan az bir hissəsi qaçıb canlarını qurtara bildilər. Qalanları isə qızılbaşlarla döyüşdə həyatlarını itirdilər. Bununla, Damğan Səfəvi hakimiyyəti altına düşdü. Bu uğurdan sonra Şah İsmayıl Mazandaran hakimi Ağa Rüstəmə məktub göndərdi, onu itaətə dəvət etdi. Həmin məktubda deyilirdi ki, Şeybək xana qarşı müharibə etmək məqsədilə qızılbaş qoşunları Damğan qalasına gəlmişdir və məktub çatan kimi Mazandaran hakimi də öz qoşunları ilə Şah İsmayılın xidmətinə yetişməlidir. Yəni, təklif olunurdu ki, Mazandaran hakimi Şah İsmayıla itaəti qəbul etsin və bunun təsdiqi kimi öz qoşunu ilə qızılbaşlarla birlikdə Şeybək xana qarşı döyüşdə iştirak etsin. Məktubda ümid edilirdi ki, qızılbaşlar tezliklə Xorasan vilayətini və Türküstanı fəth edə biləcəklər. Vəd verilirdi ki, Səfəvi hakimiyyətinə itaət edəcəyi təqdirdə Mazandaran hakimliyi yenidən Ağa Rüstəmə həvalə olunacaqdır. Əks təqdirdə onun da Hüseyn Çilavi kimi dəmir qəfəsə salınacağı və ciddi cəzaya çatdırılacağı bildirilirdi (82).

Amma Ağa Rüstəm bu təklifi qəbul etmədi və lazım gələrsə qızılbaşlara qarşı döyüşə başlamağa da hazır olduğunu bildirdi. Onun bu cavabı Şah İsmayılın böyük qəzəbi ilə qarşılaşdı və onun cəzalandırılması üçün Mazandarana qoşun dəstəsi göndərmək əzmini ifadə etdi. Lakin onun ətrafındakılar bunu məsləhət bilmədilər və təklif etdilər ki, bütün diqqətin Şeybək xanla müharibənin başa çatdırılmasına cəmlənməsi daha düzgün olardı. O da təklif olundu ki,

bu müharibə başa çatdırılandan sonra Mazandaranla bağlı Şah İsmayıl öz qərarını qəbul etsin. Şah İsmayıl səsləndirilən məsləhətləri dəyərləndirməklə onları qəbul etdi və Mazandarana qoşun göndərilməsini təxirə saldı. Bundan sonra qızılbaş qoşunları Bestam tərəfə hərəkət etdi və müqavimətə rast gəlmədən Şah İsmayıl Bestamı və Məzinanı da ələ keçirdi. Sonra isə qoşunlara Səbzəvar istiqamətində hərəkət etmək əmri verildi. Səfəvi şahının göstərişi ilə Hüseyn bəy Lələ və Məhəmməd Talış 2 min nəfərlik qoşun dəstəsi ilə əsas qoşunlardan əvvəl Səbzəvara doğru hərəkət etdi. Çox güman ki, Şah İsmayıl Səbzəvarda müqavimətlə rastlaşa biləcəyindən xəbərdar idi və ona görə də ora əvvəlcə avanqard dəstəni göndərdi. "Aləmara-yi Səfəvi" əsərində qızılbaş qoşun dəstəsinin bir min nəfərdən ibarət olması göstərilir. Səbzəvarda isə 3 min nəfərlik özbək qoşun dəstəsi var idi. Qızılbaş dəstəsinin yaxınlaşması ilə onların arasında döyüş baş verdi. Məlumata görə, bu gərgin döyüş zamanı özbək dəstəsindən 2500 nəfər qətlə yetirildi və şəhər hakimi çox çətinliklə qaçıb canını salamat qurtara bildi. Bununla, Səbzəvar da qızılbaşlar tərəfindən ələ keçirildi və Şah İsmayıl qoşunları şəhərə daxil oldular. İki günlük istirahətdən sonra Şah İsmayıl Nişapura doğru hərəkət edilməsi haqqında göstəriş verdi. Nişapurda isə qızılbaş qoşunları hər hansı bir müqavimətlə rastlaşmadılar və bundan sonra Şah İsmayıl Herata doğru istiqamət götürdü (83).

Şah İsmayıl "Xorasan vilayətinə qədəm qoyduqda Xorasan vilayətinin özbək hakimləri dayanmağa tab gətirməyib, hər biri öz iqamətgahını boş qoyaraq, Heratda toplandılar. Həzarə yürüşündən qayıtmış Şahibəy xan Heratda idi. O, Süleyman şanlı xaqanın cürətindən, igidliyindən və qorxusuz bir halda Xorasana gəlişindən xoflanaraq, fikir və narahatlıq dəryasına batdı. Onun ürəyində Süleyman şanlı xaqanın vahiməsi və dəhşəti gündən-günə artırdı. [O], müzəffər bayraqların müqəddəs Məşhədin ətrafına çatdığını eşitdikdə o həzrətin qarşısına çıxmaq və döyüşmək qərarına gələ bilmədi və öz qohumu Canvəfa mirzəni Herat qalasında qoyub, özü Mərvi-şahicana tərəf hərəkət etdi. Canvəfa mirzə də dayana bilməyib, onun ardınca Mərvə getdi. Süleyman şanlı xaqan sevinc və şadlıqla, ürəyi asudə və könlü qorxudan uzaq şəkildə müqəddəs və ulu Məşhədə gəlib, Xorasan sultanının (İmam Rzanın) məlaikələr oturan astanasına gedərək, dua və ziyarət etdi. [Şah İsmayıl] o Kəbəyə bərabər astananın seyid və xidmətçilərinə xüsusi mehribanlıq göstərdi. Sonra [o], həmin «vilayət» və imamət taxtının sultanının (İmam Rzanın) ruhundan imdad diləyərək, Şahibəy xanı təqib etmək üçün Mərvə tərəf getdi" (84).

Mənbələrdə olan məlumata görə, Məşhəd yolunda da qızılbaş qoşunları hər hansı bir müqavimətlə rastlaşmadılar. Məşhədin 4 fərsəxlik məsafəsində İmam Rzanın məqbərəsinin qülləsi müşahidə edildi. Həmin andan Şah İsmayıl da, qızılbaş döyüşçüləri də atdan yerə enərək pay-piyada "ya Mövla, ya Mövla" sədaları altında ziyarətgaha doğru irəliləməyə başladılar. Şah İsmayıl hələ Məşhəd yolunda ikən İmam Rzanın məqbərəsinin əmlakının özbək qoşunları tərəfindən talan edilməsi xəbərini aldı. Ona görə Nəcm-i Saniyə göstəriş verdi ki, özünü Məşhədə yetirsin və İmam Rza məqbərəsi üçün zəruri olan xalçalar, qızıl

və gümüş qəndillər, şamdanlar alıb ziyarətgahı onlarla təmin etsin. O da əvvəlcədən hərəkət edərək tapşırılan əşyaları almış və İmam Rza ziyarətgahına çatdırmışdı. Şah İsmayıl Məşhədə daxil olan gün onun üçün ayrılmış iqamətgahda yerləşdi və sabahı gün İmam Rzanın ziyarətinə yollandı. Şah İsmayıl İmam Rza qəbrinin astanasında üzünü yerə toxundurdu və sonra da öz dualarını etdi. Sonra Şah İsmayıl üç gün Məşhəddə qaldı və qoşunlara istirahət verdi. Üç gündən sonra qoşunlar Herata doğru hərəkətlərini davam etdirməli idilər. Amma əmirlər və əyanlar Şah İsmayılın hüzuruna yollanaraq Məşhəddə daha çox dayanmaq barəsində təklif verdilər. Onlar bildirdilər ki, qoşunlar Azərbaycandan başlayaraq uzun bir yol keçmişdir. Bu müddət ərzində atların çoxu arıqlayıb əldən düşmüş və bəziləri hətta qırılmışdılar. Qoşunların ehtiyatları da azalmışdı. Əmirlər və əyanlar məsləhət bildilər ki, qoşunlar təkmilləşdirilsin, onların ehtiyatları artırılsın, atlara qulluq gücləndirilsin və yalnız ondan sonra Herata doğru yürüş başlansın. Şah İsmayıl öz qazilərinə müraciət edərək onların narahatçılığının doğru olduğunu bildirdi. Amma onu da əlavə etdi ki, indiyə kimi onun və qızılbaşların gördüyü bütün fədakarlıqlar müqəddəslərin rizası və iradəsi əsasında baş vermişdir. Yəni, Şah İsmayıl deyilənlərlə razılaşsa da, müqəddəslərə pənah aparmağı və onlara sığınmağı məsləhət bildi. "Sizin dedikləriniz ağla və məntiqə əsaslanır. Amma mən elə bir padşahın qulamıyam ki, aləmlərin rəbbinin bu şahbazının rizası olmadan su da içmirəm. İndiyə kimi nə etmişiksə, ağamın icazəsi əsasında etmişik. Siz bunu bilmirsiniz. Padşahımın və ağamın icazəsini sizə bəyan edirəm, siz də xatircəm olun və mənimlə bu müharibəyə yollanın" (85).

Mənbələrdə olan məlumatlara görə, əmirlərin və döyüşçülərin nigarançılığını aradan qaldırmaq üçün Şah İsmayıl öz təklifini irəli sürdü. O təklif etdi ki, müharibə başlanmasına icazə verilməsi ilə bağlı qızılbaşların arzusu kağız üzərinə köçürülsün, bu kağız İmam Rzanın qəbri üzərindəki sandığın üstünə qoyulsun, qəbrin yerləşdiyi hücrənin qapıları bağlansın və bir gün sonra qapıları açıb həmin kağızda müqəddəslərin münasibətinin necə ifadə olunması yoxlansın. Məktubun ümumi məzmunu belə idi ki, qızılbaş qulamlar Şeybək xanla müharibə etmək əzmindədirlər. Müharibəyə dərhal yollanmaq və ya onun başqa bir vaxta keçirmək imam həzrətlərinin iradəsindədir. İmamın əmri necədir? Bildirilir ki, belə bir məktub yazılandan sonra İmam Rzanın qəbri üzərinə yerləşdirildi, ziyarətgahın qapıları bağlanıb möhürləndi. Şah İsmayıl və onun əmirləri, əyanları gecəni dua və ibadətdə keçirdilər. Səhəri gün qapılar açıldı və qızılbaşlar tərəfindən hazırlanmış ərz-hala nə cavab verilməsi məlum oldu. Qızılbaşların ərz-halı üzərində belə yazılmışdı: "Sizə müharibə buyurdum, yola düşün ki, qələbə və zəfər sizinlə olacaqdır" (86).

Belə bir cavabı oxuyanda Şah İsmayıl da, onun ətrafındakı əmirlər və əyanlar da səcdəyə gəldilər, dua və ibadətdən sonra mübariz iradə ilə səfər hazırlığına yola düşdülər. Qızılbaş əmirləri və əyanları alınan cavabın müqəddəslərin iradəsi olmasına şübhə etmədilər. Onlar eyni zamanda bu iradənin ifadəçisi olan mürşidi-kamil Şah İsmayılın qərarına qarşı öz məsləhətlərini

ortaya qoymalarını günah kimi qəbul etdilər və bu günahın bağışlanması üçün Şah İsmayıldan əfv dilədilər. Şah İsmayıl isə əmirlərinə hərəkət əmri verdi və öncə pişxananı (avanqard dəstəni) Herata doğru hərəkətə gətirdi.

Qızılbaş qoşunlarının Semnandan başlayaraq uğurlu bir yürüşlə Herata doğru irəliləməsi Şeybək xan və onun ətrafı tərəfindən ciddi şəkildə izlənilirdi. Hələ Semnan özbək qoşunlarından təmizlənəndən sonra Şeybək xan bundan xəbər tutmuşdu və qızılbaş qoşunlarının qarşısının alınması üçün yollar arayırdı. Amma o özü də başa düşürdü ki, sərəncamında olan qüvvələrlə Şah İsmayıla müqavimət göstərmək mümkün olmayacaqdır. Qızılbaşlarla müahribəyə girmədən Heratı tərk etməyi də Şeybək xan öz şəxsiyyətinə sığışdıra bilmirdi. O öz əyanlarına və əmirlərinə də bildirirdi ki, Şah İsmayıla göndərdiyi kobud məzmunlu məktublardan sonra onunla barış edilməsi artıq mümkün deyildir. Şeybək xan yaxınlaşmaqda olan real təhlükədən xilas olmaq üçün həm Türküstandan qoşun göndərilməsini xahiş etmişdi, həm də vilayət hakimləri olan övladlarına qoşun toplamağı tapşırmışdı. Güman edilirdi ki, Şeybək xanın övladlarının rəhbərliyi altında 60 min nəfərlik özbək qoşunu toplanacaq. Şeybək xanın özünün rəhbərliyi altında isə 40 min nəfərlik qoşun dəstəsi var idi. Şeybək xan inanırdı ki, bu qoşunlar toplansa qızılbaşlara qarşı müharibə aparmaq mümkün olacaqdır. Amma qızılbaş qoşunları Məşhədə daxil olduqdan sonra Şeybək xana bəlli oldu ki, Şah İsmayılın Herata qarşı müzəffər yürüşünün qarşısını almaq mümkün deyil. Ona görə də Şeybək xan Heratın müdafiəsini Canvəfa Mirzəyə tapşırıb Mərvə yollandı. O inanmırdı ki, Şah İsmayıl öz qoşunları ilə Mərvə tərəf irəliləsin. Hətta qızılbaşların Mərvə yürüş edəcəyi təqdirdə belə, Şeybək xan bu şəhərdə etibarlı şəkildə mühafizə olunacağına şübhə etmirdi. Çünki Mərv qalası kifayət qədər möhkəm bir qala idi (87).

Özbək qoşunlarının Mərvə çəkilməsi həm də Şeybək xanın əyanlarının təklifi idi. Onlar bildirdilər ki, Herat tərk edilsə də bu şəhər öz yerindədir. Qızılbaşlar bölgədən çəkiləndən sonra bu şəhəri yenidən ələ keçirmək mümkündür. Canvəfa Mirzə isə təklif etdi ki, Şeybək xan Səfəvi şahına məktub göndərsin və onunla Mərv ətrafında görüşməyə hazır olduğunu bildirsin. Canvəfa Mirzə güman edirdi ki, bu xəbəri eşidəndən sonra Şah İsmayıl Mərvə qədər uzun bir yol keçməyə ehtiyac duymayacaq və Məşhəd ətrafından geri qayıdacaqdır. Şeybək xan məktub yazılması ilə bağlı Canvəfa Mirzənin təklifini bəyəndi, ona əhsən dedi, eyni zamanda Heratın ciddi şəkildə mühafizə olunmasını ona tapşırdı. Sonra da Mərvə çəkilməsi ilə bağlı məktub yazıb Şah İsmayıla göndərdi. Bu məktub Cam adlı məntəqədə Şah İsmayıla yetişdi (88).

Bəzi məlumatlara görə, Səbzəvarla Nişapur ələ keçiriləndən sonra Şah İsmayıl özü də Şeybək xana məktub göndərmişdi, həmin məktubda Şah İsmayıl yazmışdı ki, bizimlə müharibə aparmaq və tərəflər arasında baş verəcək döyüşün yerinin müəyyənləşdirilməsi haqqında boş-boş danışıqlarına baxmayaraq səni tapmaq mümkün deyil. Səfəvi şah bildirirdi ki, özbəklərin əlində olan şəhərləri bir-birinin ardınca ələ keçirsə də özbək qoşunlarından bir xəbər yoxdur. O, sonra da istehza ilə əlavə edirdi ki, Xorasan vilayətini qızılbaşların

öhdəsinə buraxıb Amu-Dərya çayının o biri tərəfinə adlasa onun üçün daha ağlabatan olar. Əks təqdirdə isə bir daha təklif olunurdu ki, döyüş aparılması üçün Şeybək xan yer müəyyən etsin. Şah İsmayılın Şeybək xana ünvanladığı bu məktubun çatdırılmasını yasavul Hüseyn bəy adlı birisinə həvalə etdi. Hüseyn bəy də bir neçə nəfərin müşayiəti ilə Herata yola düşdü. Mənzil başına yaxınlaşanda Herat əhli Səfəvi elçisinin gəlişini böyük maraqla qarşıladı. Şəhər küçələrində onun başına çoxlu sayda adam toplaşdı. Hündür boylu, zəhmli baxışlara malik, bığları qulağının dibinə qədər burumlanmış Hüseyn bəy onun ətrafına toplaşan adamların arasında hündür səslə imam övladı tərəfindən məktub gətirdiyini bildirdi. Yerli əyanlar tərəfindən Hüseyn bəy Herat sarayına müşayiət olundu. Mövcud məlumata görə, Şeyək xanın sarayında Səfəvi elçisinin əyləşməsi üçün kürsü qoyulmuşdu. Hüseyn bəy əyləşən kimi onun ağırlığından bu kürsü sındı. İkinci və üçüncü kürsülər də belə yararsız vəziyyətə düşdülər. Bundan sonra Məhəmməd xan Şeybəkin göstərişi ilə dəmir kürsü gətirildi və qonağa təqdim olundu. Elçi tərəfindən isə Şah İsmayılın məktubu təqdim olundu. Lakin Hüseyn bəyin bu gəlişi bir nəticə vermədi. Dinlənildikdən sonra o, Heratdan yola salındı (89).

**a) Mərv döyüşü**

Şeybək xanın Mərvə çəkilməsi haqqında məktubu Şah İsmayıla yetişəndə o, Durmuş xanı yanına çağırdı və Heratın hakimliyini ona həvalə etdi. Sonra da Şah İsmayıl ona tapırdı ki, qızılbaş dəstəsi ilə Herata yollansın, oradakı özbək qoşun dəstəsinə zərbə vurmaqla bu şəhəri ələ keçirsin, Canvəfa Mirzəni əsir götürsün, öz müavinini Heratda saxlayaraq Canvəfa Mirzə ilə qayıdıb yenidən qızılbaş qoşunlarına qatılsın. Durmuş xan isə Şah İsmayıldan icazə istədi ki, onun yanında qalsın, onunla birlikdə Mərv yürüşündə iştirak etsin və yalnız Mərvdən qayıtdıqdan sonra Herata yürüş etsin. Şah İsmayıl onun bu xahişini qəbul etdi və sonra da Can adlanan məntəqədən Mərvə doğru hərəkətə başlamaq haqqında göstəriş verdi (90).

Bununla, Şah İsmayıl Heratı ələ keçirmədən Mərv qalasına doğru hərəkət etmək əmri verdi. Sərəxsə yetişərkən Şah İsmayıl irəliyə bir qızılbaş dəstəsinin göndərilməsini məqsədəuyğun bildi. Onun Danə Məhəmməd adlı əmiri könüllü şəkildə bu işin ona tapşırılmasını xahiş etdi. Danə Məhəmməd yaşlı əmirlərdən biri idi və məlumatlara görə onun oğlu Əxi Sultan qızılbaş qoşunlarında ələmdarbaşı vəzifəsində xidmət edirdi. Danə Məhəmməd hələ Şah İsmayılın atası Sultan Cüneyd və qardaşı Xacə Əli Mirzənin qoşunlarının tərkibində qızılbaş hərəkatında iştirak etmişdi və qızılbaş hərəkatına sadiq əmirlərdən biri hesab edilirdi. Şah İsmayıl onun könüllü şəkildə Mərvə tərəf göndərilən dəstəyə rəhbərlik etmə istəyinə əks getmədi. Amma onu yola saldıqdan sonra Şah İsmayıl hüznlü bir ifadə alaraq yanındakılara bildirdi ki, biz Danə Məhəmmədi bir daha görməyəcəyik. Doğrudan da belə oldu və özbək qoşunlarına qarşı mübarizədə Danə Məhəmməd şəhid oldu (91).

Danə Məhəmmədin dəstəsinin ardınca Şah İsmayılın göstərişinə əsasən, əvvəlcə Mirzə Məhəmməd Talış talışlardan toplanmış dəstə ilə, onun ardınca da Hüseyn bəy Halvaçıoğlu Mərv istiqamətinə yola salındılar (92).

Şah İsmayıl tərəfindən Mərv istiqamətində ön dəstənin göndərilməsi Şeybək xan tərəfindən diqqətlə izlənilirdi. O, Mərvə yetişəndən sonra bu qalanın möhkəmləndirilməsi üçün müəyyən addımlar ata bildi. Əvvəla, Canvəfa Mirzənin Heratda qalması məqsədəuyğun sayılmadı və o, qoşun dəstəsi ilə Mərvə qayıtdı. Şeybək xan onun Mərvə qayıtmasının səbəbini soruşanda Canvəfa Mirzə bildirdi ki, bölgənin taleyi Mərvdə müəyyənləşəcəkdir. Əgər Mərv döyüşündə Şah İsmayıl qələbə əldə etsə, onda Herat da, bütün Xorasan da onun olacaqdır. Şah İsmayılın Mərv ətrafında məğlub olacağı təqdirdə isə Şah İsmayıl bölgədən çəkilməyə məcbur olacaqdı və onda Heratın müdafiəsinə də bir ehtiyac qalmayacaqdı. Şeybək xan bu fikirlə razılaşdı və Mərvin müdafiəsinə diqqəti daha da gücləndirdi. Şeybək xanın vilayət hakimi olan oğlu Məhəmməd Timur sultanın və qohumu Ubeydulla xanın rəhbərliyi altında Mərvə əlavə qoşun dəstələri gətirildi. Bundan başqa kömək üçün Mavərənnəhrdən də qoşun dəstəsinin gəlməsi gözlənilirdi. Yəni, qızılbaş qoşunlarından mühafizə olunmaq üçün Mərvdə artıq müəyyən sayda qüvvə toplamışdı. Ona görə, Şeybək xan qızılbaş qüvvələrini qaladan kənarda, açıq döyüş meydanında qarşılamağı qərara aldı (93).

Bir sıra mənbələrin məlumatına görə, Şeybək xan qızılbaş dəstəsinin yaxınlaşması xəbərini alanda Canvəfa Mirzəni özbək qoşun dəstəsi ilə irəli çıxardı. Tahirabad adlanan məntəqədə Danə Məhəmmədin dəstəsi ilə Canvəfa Mirzənin dəstəsi arasında gərgin bir döyüş baş verdi. Doğrudur, Danə Məhəmməd bu döyüşdə şəhid oldu. Amma qızılbaşlar fədakarlıq göstərərək sayca üstün olan özbəklərə ciddi zərbə vurdular və onları geri qaçıb Mərv qalasına sığınmağa məcbur etdilər (94).

"Aləmara-yi Səfəvi" və " Aləmara-yi Şah İsmayıl" əsərlərində isə bu döyüşün təsviri fərqli şəkildə verilmişdir. Bu əsərlərdəki təsvirlərdən belə bir qənaət hasil olur ki, özbək və qızılbaş dəstəsi arasındakı döyüş Mərv qalasının çox yaxınlığında baş vermişdi və Şeybək xan da qala divarları üzərindən bu döyüşü izləyə bilmişdi. Adları çəkilən mənbələrdə bildirilir ki, Danə Məhəmmədin rəhbərliyi altında olan qoşun dəstəsi yaxınlaşanda Şeybək xan bu dəstənin necə döyüşməsini müşahidə etmək qərarına gəldi. Ona görə də Canvəfa Mirzəyə qoşun dəstəsi ilə qızılbaşların qarşısına çıxmağı əmr etdi. Canvəfa Mirzə isə Şeybək xanın nəzərinə çatdırdı ki, Taclı Bahadırla Sarıoğlan qızılbaşlara qarşı vuruşmaq arzusunu bildirmişlər və onlar istəyirlər ki, qızılbaşlara qarşı döyüşmələrini Şeybək xan da müşahidə etsin. Şeybək xan bu təkliflə razılaşıb öz əmirlərinin sərəncamına 3 min nəfərlik bir dəstə verdi və onları Danə Məhəmmədin dəstəsinə qarşı göndərdi. Özbək dəstəsinin sayca çox olması Danə Məhəmmədi heç də qorxutmadı və döyüşə başlamazdan əvvəl oğlu Əxi Sultanı yanına çağırdı, ona öz vəsiyyətini elədi. Danə Məhəmməd oğlu ilə hallalaşaraq ona Səfəvi ocağına sadiq qalmağı vəsiyyət etdi və bildirdi ki, bu ocağın kəraməti ilə çox

qarşılaşıbdır. Sonra əlavə etdi ki, mürşidi-kamilə qarşı heç zaman sədaqətsizlik göstərməsin və qızılbaş aləmini yaxşıca qoruyub saxlasın (95).

Sayca çox olan özbəklərə qarşı qızılbaşlar öz mübarizliklərini və iradələrini ortaya qoydular. Güclü düşmənlə qarşılaşmağa baxmayaraq qızılbaşlar onların qarşısında sınmadılar və bütün güclərini nümayiş etdirdilər. Onların döyüşü Şeybək xanın özünü də heyrətə gətirdi və əyani olaraq anladı ki, qızılbaşların döyüşkənliyi nədən ibarətdir. Danə Məhəmməd isə yaşının çox olmasına baxmayaraq qızılbaşlara nümunə göstərdi və döyüşün ən gərgin anlarından birində Sarıoğlanla qarşı-qaşıya gəldi. Sarıoğlan da Danə Məhəmmədi yaşlı bilib ona asanlıqla üstün gələcəyini güman etsə də, öz niyyətinə nail ola bilmədi. Onun endirmək istədiyi nizə zərbəsini Danə Məhəmməd dəf etdikdən sonra özü ona zərbə endirdi və bir zərbə ilə Sarıoğlanı atdan yerə sala bildi. Bununla da onun həyatına son qoyuldu. Şeybək xan baş verən bu səhnəni izlədikdən sonra qəzəblənərək qızılbaş dəstəsinin üstünə daha 8 min nəfərlik bir qoşun dəstəsini göndərdi və göstəriş verdi ki, qızılbaş dəstəsi əhatəyə alınsın və bütünlüklə məhv edilsin. Bununla, o, Şah İsmayıla da ağır bir dərs vermək istədiyini gizlətmirdi. Əlavə qoşun dəstələrinin döyüşə atılması qızılbaşların vəziyyətini mürəkkəbləşdirəcəyi güman edilsə də bu zaman Mirzə Məhəmməd Talşın və Hüseyn bəy Halvaçıoğlunun qızılbaş dəstələri özlərini yetirdilər. Bu da imkan verdi ki, qızılbaşlar ruhlanaraq özbək döyüşçülərinin üstünə atılsın. Qızılbaşların güclənməsinə baxmayaraq, döyüşün gedişində Danə Məhəmməd sinəsindən oxla yaralandı. Bu da onun şəhid olmasına gətirib çıxardı. Danə Məhəmmədin oğlu Əxi Sultan bunu görüncə özünü atasının yanına atdı, amma onun vəziyyətinin ağır olduğunu gördü. Elə bu zaman Şah İsmayılın rəhbərliyi altında bütün qoşunlar həmin bölgəyə gəlib yetişdilər. Özbək döyüşçüləri Şah İsmayılın gəlməsindən xəbərdar olunca qala daxilinə qaçmağa başladılar. Əxi Sultan isə özünü Taclı Bahadırın arxasınca atdı ki, onu tapıb atasının qisasını alsın. Axtarıb onu tapa bildi. Taclı Bahadır canını qurtarmaq üçün əlini ox-kamana atdı ki, Əxi Sultanı qabaqlaya bilsin. Amma Əxi Sultan buna imkan vermədi və qılıncının zərbəsi ilə onu iki yerə böldü. Şah İsmayıl isə döyüş meydanına yetişsə də, döyüşə qatılmadı. O, dayandığı mövqedən qızılbaşların necə döyüşməsini seyr etdi və Danə Məhəmmədlə maraqlandı. Ona məlumat verildi ki, Danə Məhəmməd artıq şəhid olmuşdur. Şah İsmayıl bu xəbəri çox böyük təəssüflə qarşıladı. Əxi Sultan isə ayağı-başı yalın halda gəlib Səfəvi şahına təzim edəndə, Şah İsmayıl onun döyüşkənliyinə ehtiramını bildirdi, başındakı çox qiymətli tacını çıxarıb Əxi Sultanın başına qoydu (96).

Şah İsmayıl 1510-cu il noyabr ayının 22-də Mərv ətrafına yetişdi və şəhəri mühasirəyə aldı. Səfəvi şahı qala mühasirəsi üçün malik olduğu təcrübəni işə saldı, qala bürclərini, qala divarlarının ayrı-ayrı Səfəvi əmirlərinə tapşırdı və onlara qala divarlarının fəth edilməsi yollarını tapmağı əmr etdi. Amma Mərv qalası kifayət qədər möhkəm bir qala idi və müşahidələrdən sonra Şah İsmayıl özü də belə bir qənaətə gəldi ki, adi mühasirə ilə bu qalanı almaq mümkün olmayacaqdır. Qala mühasirəsini yarmaq üçün istifadə edilən mancanaqlar,

divar vuran dəzgahlar isə Mərv ətrafına gətirilməmişdi. Şah İsmayıl əslində buna ehtiyac olacağını güman etmirdi. Çünki bir tərəfdən hərbi yürüş ilkin olaraq başqa istiqamətdə planlaşdırılmışdı, digər tərəfdən isə belə ehtimal olunurdu ki, böyük iddialarla uzun-uzadı məktublar göndərən Şeybək xan Səfəvi qoşunları qarşısından qaçıb qalaya sığınmayacaqdır (97).

Səfəvi qoşunlarında Div Sultan Rumlu, Cayan Sultan Ustaclı, Badencan Sultan Rumlu, Zeynal Sultan Şamlı, Mirzə Məhəmməd Talış və digər əmirlər Mərv qalasının mühasirəsi ağırlığını öz üzərinə götürmüşdülər. Bu əmilər hər gün özbək qoşun dəstələrinin qala xaricinə olan hücumlarının qarşısını almaqla qarşıya qoyulan vəzifələrin icrasına da çalışırdılar. Səfəvilərin bütün cəhdlərinə baxmayaraq, onlar özbəklərin yürüşlərindən müəyyən itkilərə də məruz qalırdılar (98).

Şeybək xan qala xaricində açıq döyüşə çıxmadı. O, ümid edirdi ki, Mavərənnəhrdən onun köməyinə göndərilmiş qüvvələr yetişdikdən sonra Səfəvi qüvvələrinə üstün gəlmək mümkün olacaqdır. Bəzi məlumatlara görə, Şah İsmayıl bir həftə Mərv qalasını mühasirədə saxladı və bundan sonra özbək qoşunlarının qala xaricinə çıxarılması üçün fənd işlətmək qərarına gəldi. Buna görə də, 1510-cu il noyabr ayının 30-da Səfəvi qoşunları Mərv divarları ətrafından geri çəkilməyə başladılar. Bununla bağlı şeypurlar çalınandan sonra xidmətçilər düşərgə çadırlarını sökdülər və onları yükləyərək Mahmudabad adlanan məntəqəyə sarı üz tutdular (99).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Səfəvi qoşunları tərəfindən Mərvin mühasirəsi, Şah İsmayılın geri çəkilərək Şeybək xanı döyüşə cəlb etməsi və bu döyüşün gedişi belə təsvir olunmuşdur: "Bu arada misilsiz xaqanın mübarək çətirinin kölgəsi Mərvin yanına çatdı, qala ətrafında ay və günəş bərabərində alaçıqlar və düşərgə quruldu. Şahibəy xan daha da vahiməyə düşərək, Mərv qalasında möhkəmləndi. Şəhəri və qalanı saxlamaq üçün son dərəcə tədbir gördü, Mavəraünnəhrə adamlar göndərərək, özbək tayfaları sultanlarının hazır olmasını əmr etdi. Hər gün qala ətəyində tərəflər arasında toqquşmalar baş verir, hər iki tərəfdən bir çox adam öldürülürdü. Bir neçə gün belə keçdi və qələbə əldə edilmədi. Süleyman şanlı xaqan həmişə səf çəkməyi və düşmənlə üzbəüz döyüşməyi qala müharibəsindən üstün tutduğu üçün istəyirdi ki, aslandan qorxan tülkü kimi deşikdə gizlənmiş Şahibəy xanı incə tədbirlə qaladan [bayıra] çıxarsın. [Buna görə də] köç təbili çaldırıb, qala ətəyindən çəkildi. [Şah İsmayıl] Məhəmməd [Şeybani] xana məktub yazıb göndərdi: «Sən bizlə Azərbaycan və İraqda görüşməyə söz vermişdin, [amma] sözünə vəfasız çıxdın. Biz isə sözümüzə (vədimizə) əməl edərək, Xorasana gəldik. Buna baxmayaraq, burada da qarşımıza gəlmədin. İndi isə Azərbaycanda bəzi hadisələr baş verdiyinə görə bizim oraya qayıtmağımız lazım olub. Ona görə də köçüb gedirik. Haçan döyüşə hazır olsanız və Allah təqdir edərsə, görüşümüz baş tutar». Şahibəy xan Süleyman şanlı xaqanın qayıtmasını acizlik və zəiflik hesab edərək, qızılbaş ordusunun hücumu qarşısından qaçıb qalada gizlənmək rüsvayçılığından bir qədər xilas olmaq üçün [Şah İsmayılı] təqib etmək qərarına gəldi. [Şahibəy xan] otuz



*Şah İsmayılın Mərv döyüşü*

min nəfər özbək qoşunu və yanında olan adlı-sanlı əmir və sərdarlarla şəhərdən [bayıra] çıxdı.

[Şah İsmayılın] qəzavü-qədər kimi cərəyan edən fərmanına uyğun olaraq, üç yüz nəfərlə ordunun arxasında duran Əmir xan Mosullu özbək qoşununun yaxınlaşmasını müşahidə edərək, şahın işarəsinə əsasən, qaçıb müzəffər orduya qoşuldu. Məhəmməd [Şeybani] xan bu hadisəni qızılbaş ordusunun vahiməyə qapıldığının [əlaməti] hesab edərək, onu təqib etməkdə daha da cürətləndi. Süleyman şanlı xaqan onun gəlməsi xəbərini aldıqda şəhərin üç fərsəxliyində onun çayı keçməsinə qədər gözlədi. [Sonra] o çayın körpüsünü dağıtmağı bir dəstəyə tapşırdı. [Şah İsmayıl] geri dönərək, müzəffər üzəngisinin həndəvərində olan on yeddi min nəfərlə Mərvin Mahmudabad [adlı yerində] özbək qoşunları qarşısında ordusunu nizama saldı. Şahibəy xan naçar vuruşmaya hazırlaşıb, döyüş meydanına üz çevirdi. İki tərəfdən özbək bahadırları və qızılbaş ordusunun igidləri [bir-birlərinə] qarışdılar. Elə bir vuruşma baş verdi ki, qaniçən Bəhramın da ürəyi bu mərəkədə öldürülənlərə yandı. ...Canvəfa Mirzə, Qənbər bəy və özbək əmirlərinin əksəriyyəti o vuruşmada öldürüldülər. Şahibəy xan bir dəstə qaçan özbək qoşunu ilə caşqın halda atla çıxışı olmayan bir yerə atıldı. Orada [onlar] bataqlıqda bir-birinin üstünə düşərək, yüz əzab və əziyyətlə can verdilər. Qazilərdən Adi Bahadır ləqəbi ilə tanınan Bozcalu Əziz ağa adlı birisi Şahibəy xanın cəsədini ölülərin altından çıxarıb, onun lovğalıq ucbatından heç bir şahı taca layiq görməyən başını bədənindən ayıraraq, [onu] əjdaha görkəmli bayrağın kölgəsində durmuş [Şah İsmayılın] dünyanı gəzən atının ayağı altına atdı. Süleyman şanlı xaqan Allaha səcdə qılıb, şükürlər etdi. [Şahibəy xanın] bədəninin hər üzvünü bir vilayətə göndərdilər. Onun başının dərisini soyub, samanla dolduraraq, Sultan Məhəmməd Qazinin oğlu olan Rum padşahı Sultan Bayəzidə göndərdilər, qafa tasını isə qızıla tutaraq, «Əhsənüt təvarix» müəllifinin dediyinə görə, kef məclisi yoldaşlarının eyş-işrət məclisində qədəh kimi əldən-ələ gəzdirirdilər.

...Məşhur Xoca Kəmaləddin Mahmud Sağərçi, Şahibəy xanın vəziri idi. Xoşbəxt padşah (Şah İsmayıl) o qızıla tutulmuş qafa tasını əlində tutub, ondan şənlik məclisində badə içəndə, [Xoca Kəmaləddin] Mərv qalasından gəlmiş və o səadət səmasının günəşinin (Şah İsmayılın) qarşısında əsir tutulanların sırasında durmuşdu. Süleyman şanlı xaqan ona xitab edib dedi:

- Xoca, bu qafa tasını tanıyırsanmı? Sənin padşahının başıdır.

[Xoca Kəmaləddin] dedi:

- Sübhanallah! [Gör] o, nə qədər səadət sahibi olmuş ki, indi də xoşbəxtliyini saxlamışdır. [Ona görə ki], yenə də sənin kimi səadət sahibinin əlindədir və sən ondan dəmbədəm şadlıq badəsi içirsən. Bu söz əşrəfın könlünün sevincinə səbəb oldu. O, Xocaya hüsn-rəğbətlə nəzər saldı, onu Xorasan vəziri təyin etməklə mərhəmət göstərdi və ucaltdı" (100).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şah İsmayılın Mərv ətrafında Şeybək xana qarşı döyüşü haqqında olan bu məlumat mənbələrin çoxunda oxşar şəkildə təkrar olunmuşdur. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl"

əsərlərində isə istər Mərv qalasının təfərrüatları, istərsə də Mərh yaxınlığında baş vermiş döyüş daha geniş və bir qədər də fərqli şəkildə təsvir olunmuşdur. Bu əsərlərdən məlum olur ki, Şah İsmayıl Mərv qalasının fəthinin çətin olduğunu görəndə Şeybək xanı açıq döyüşə cəlb etməyə çalışdı və bunun üçün ona məktub göndərdi. "Aləmara-yi Şah İsmayıl" əsərində həmin məktubun mətni belədir: "Türküstan padşahının ali rəyinə məxfi qalmasın ki, sizi bürümüş qururun, lovğalığın və dikbaşlığın təsirindən idi ki, Məkke-yi Müəzziməyə getməyinizi bildirib hər gün bizə sınıq körpüləri və xarab olmuş yolları təmir etməyi, hər mənzil başında ləvazimat hazırlamağı əmr edirdiniz. Bizim göstərişimizə əsasən, bütün ehtiyaclar sərəncam edildi. İntizarınızı çox çəkdiksə də, nəhs aqibətli alişan xandan heç bir nişanə zahir olmadı və özümüz cah-cəlal ilə Çingiz xan nəvəsinin istiqbalına çıxaraq ümid etdik ki, yolüstü qarşılaşacağıq. Lakin bu, mümkün olmadı. Dünya insanları, xüsusən də adlı-sanlı padşahlar gərək dediklərindən dönməsinlər, son günə qədər səy etsinlər. Hər halda qaladan çıxıb bizim ayağımızı öpmək şərəfinə nail olun ki, sizin təqsirinizi əfv edib bağışlayım. Əks təqdirdə, qızılbaş cavanları və aslan ovlayıcı sufilər fələk divarlı hasarı iti qılıncları ilə fəth edəcəklər" (101).

Şah İsmayıl yazdığı məktubu elçisi vasitəsilə Şeybək xana göndərdi. Şeybək xan Şah İsmayılın elçisinə belə bir cavab verdi: "Şeyxoğluya deyərsən ki, siz Türküstanın qiyamət əlamətli ordusunun yanımızda olmamasından istifadə edib bizim üstümüzə gəlmişsiniz. Hər halda, hər kəs öz işinə nəyin sərfəli olduğunu yaxşı bilir və hərbçiliyin bir çox cəhətləri vardır ki, siz hələ onlardan xəbərsizsiniz. Hərgah bir ay da qala ətrafında gözləsəniz onda bilərəm ki, sizdə mərdliyin olmasına şübhə yoxdur" (102).

Şeybək xan bununla bildirdi ki, o, əslində Türküstandan gələcək qoşunlara arxayındır. Ona görə özbək xanının cavabını alandan sonra Şah İsmayıl bildirdi ki, biz onu öz halına qoyarıqmı ki, Türküstandan kömək də alsın? "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində olan məlumatlara görə, Səfəvi qoşunları Mərv ətrafında olarkən özbək qoşunları onların üstünə gecə hücumu həyata keçirdilər. Qızılbaşlar tərəfindən öldürülmüş Taclı Bahadırın qardaşı Kuçum Bahadır qisas almaq və baş vermiş uğursuzluqların əvəzini qızılbaşlardan çıxmaq üçün Şeybək xandan geri çəkilməkdə olan Səfəvi qoşunları üzərinə gecə hücumu etmək üçün icazə istədi. Şeybək xan bu təklifi bəyəndi və düşündü ki, bununla əhali qarşısında özbək qoşunlarının üzünü ağarda biləcək bir nəticə əldə etmək olar. Ona beş min nəfərlik qoşun dəstəsi verdi ki, düşündüyünü həyata keçirsin. Həmin gün hələ qala ətrafını tərk etməmiş Səfəvi qoşunlarının mühafizəsi Mirzə Məhəmməd Talışa tapşırılmışdı. Mirzə Məhəmməd Talış da qala daxilində nə baş verdiyindən xəbər tutmaq üçün öz kəşfiyyatçılarını giriş darvazaları həndəvərinə göndərmişdi. Kəşfiyyatçılar gecə yarı ikən Kuçum Bahadırın rəhbərliyi altında özbək qoşunlarının qaladan çıxmasını müşahidə etdi. Bu məlumat dərhal Mirzə Məhəmməd Talışa çatdırıldı və o da qoşunları ayağa qaldırdı. Kuçum Bahadır vəziyyətin dəyişdiyini və Səfəvi qoşunlarının döyüşə hazır vəziyyətdə olduğunu görüb döyüşə girməyə cəsarət etmədi. O, kor-peşman dəstəsi ilə geri qayıtdı və

acizliyinə görə Şeybək xanın qəzəbi ilə qarşılaşdı. Kuçum Bahadır onun tənbihlərindən qurtarmaq üçün söz verdi ki, səhər açılan kimi mütləq Səfəvi qoşunları üzərinə hücum edəcək və onlardan qisas alacaqdır. Səhər açılan kimi Kuçum Bahadır doğrudan da öz dəstəsi ilə qala darvazalarından bayıra çıxdı. Şah İsmayıl onun gecə yürüşü barədə artıq məlumat almışdı. Sabah hücumu bəlli olan kimi qoşunlara hazırlıq əmri verildi. Bu dəfə Kuçum Bahadır 12 min nəfərlik qoşun dəstəsi ilə hücuma keçmişdi. O, qələbə əldə etmək üçün fənd işlətməyə cəhd göstərdi. Kuçum Bahadır on min nəfərlik qoşun dəstəsini döyüş meydanında, Səfəvi qoşunları ilə üzbəüz saxladı. İki min nəfərlik özbək dəstəsi ilə isə o, Səfəvi qoşunlarının sağ cinahını adlamaqla arxaya keçməyi qərarlaşdırdı. Həmin cinahdan çay axırdı və ola bilsin ki, Şah İsmayıl sağ cinahın bu çaya söykənməsinə görə həmin istiqaməti təhlükəsiz hesab edirdi. Kuçum Bahadır gizli şəkildə Səfəvi qoşunlarının sağ cinahını adlaya bilsə də istəyinə nail ola bilmədi. Həmin istiqamətdə yenidən Mirzə Məhəmməd Talışın dəstəsi ilə qarşılaşmalı oldu. O isə özbək qoşunlarının bu istiqamətdən başlanan hücumu barəsində xəbərsiz idi və hətta döyüşçülərinin çoxu da silahlarını çadırlarda buraxaraq kənar işlərlə məşğul idilər. Mirzə Məhəmməd Talışın əmri ilə bütün dəstə, hətta geyimdə olmayanlar belə atlanıb qılınclarını əllərinə aldılar. Elə ilk zərbədə çoxlu sayda özbək döyüşçüsünü qətlə yetirdilər. Mirzə Məhəmməd Talışın və onun dəstəsinin fədakarlığı tezliklə Kuçum Bahadırın bütün cəhdlərini və ümidlərini boşa çıxardı. Belə olanda Kuçum Bahadır qoşunların əsas dəstəsinə doğru istiqamət götürdü ki, heç olmasa canını salamat qurtara bilsin. Mirzə Məhəmməd Talış da onun ardınca özünü özbək qoşunlarına vurdu. Bildirilir ki, məhz bu vaxt özbək qoşunlarının hücuma atılması və Mirzə Məhəmməd Talışın da artıq özbəklərlə döyüşə girməsi xəbəri Şah İsmayıla çatdırıldı. O da dərhal bütün qoşunların silahlanmasına əmr verdi. Şah İsmayılın göstərişi ilə Durmuş xan və Həsən bəy Halvaçıoğlu öz dəstələri ilə Mirzə Məhəmməd Talışın köməyinə göndərildilər. Bu zaman Mirzə Məhəmməd Talış çox az sayda döyüşçüsü ilə ayaqyalın və başıaçıq özünü özbəklərin arasına vurmuşdu. Şah İsmayıl özü isə döyüş meydanının mərkəzində mövqe tutdu. Səfəvi qoşunları qalaya aparan yolu tutaraq özbəklərin geri çəkilmə yolunu bağladılar. Bu da onlara baha başa gəldi. Qala divarları üzərindən döyüşün gedişini izləyən Şeybək xan səfəvilərin qala daxilinə girə biləcəyindən ehtiyat etdiyi üçün qala darvazalarını hətta öz döyüşçüləri üzünə də açmadı. Adları çəkilən mənbələrin məlumatına görə, özbəklər öz qoşunlarının yarıdan çoxunu bu döyüşdə itirdilər. Sağ qalanlar isə qalaya daxil ola bilmədikləri üçün Türküstan tərəfə üz tutdular (103).

Mirzə Məhəmməd Talış qaçıb dağılmaqda olan özbək qoşunlarını təqib etmək və onların hamısını qılıncdan keçirmək istədi. Şah İsmayıl buna imkan vermədi. Amma göstərdiyi şücaətə görə onu çox təriflədi. Mənbədəki məlumatlara görə, Şah İsmayıl onun qana boyanmış üz-gözündən öpdü və zərlə bəzədilmiş tacını çıxarıb onun başına qoydu. Bundan əlavə, zərlə bəzədilmiş yəhəri olan bir cins at da ona bağışlandı. Nümayiş etdirdikləri fədakarlığa görə, talış

döyüşçülərinin hamısı Şah İsmayıl tərəfindən qiymətli hədiyyələrə layiq görüldülər (104).

Şeybək xan qala ətrafında yaranmış mürəkkəb vəziyyətdən çıxış yolu tapmaq üçün əvvəlcə xanımı ilə, sonra da əmir və əyanları ilə məsləhətləşmə apardı. Əmir və əyanlar ona bildirirlər ki, qala daxilində 30 min döyüşçü və 30 min baş da at vardır. Onların saxlanması üçün azuqə ehtiyatları elə də çox deyildir. Bu ehtiyatlar tükənməmiş yaxşı olar ki, Şeybək xan Türküstana yollansın, orada Şeybək xana kömək üçün toplanmış qoşunu götürüb Şah İsmayıl ilə döyüş aparmağa gəlsin. Yox, əgər, Türküstanda qoşun dəstəsi toplanmamışdısa, onda məsləhət görülürdü ki, Şeybək xan özü onun toplanması ilə məşğul olsun və yalnız qoşunla bərabər geri qayıtsın. Şeybək xan bu məsləhəti məqbul saydı, amma özü Türküstana yollanmaqdan imtina etdi. Bildirdi ki, bir neçə gün də səbr edək, bəlkə Türküstandan qoşunlar gəlib çıxdı (105).

Şeybək xan Türküstandan gələcək qoşunlara ümidini başğalasa da, Türküstan hakimlərinin Şeybək xanla münasibəti heç də ümid edilən səviyyədə deyildi. Urgənc hakimi Barsil (İlbars) xan Şeybək xana itaəti qəbul etməli olsa da, bu itaət məcburi xarakter daşıyırdı və ona görə də onların münasibətləri qarşılıqlı səmimiyyət üzərində qurulmamışdı. Şeybək xanın tələbindən sonda Barsil xan qoşun toplamaq məcburiyyətində qalmışdı. Həmin tələbdən sonra Məhəmməd Teymur sultan, Ubeydulla xan və Canıbəy sultanın rəhbərliyi altında 60 min nəfərlik özbək qoşunu toplamışdı. Amma Barsil xan istəmirdi ki, Şeybək xan qalib gəlsin və daha da möhkəmlənsin. Ona görə də Barsil xan gizli şəkildə Şah İsmayıla məktub göndərdi və ona çatdırdı ki, Şeybək xanın tələbi əsasında qoşun toplanmasına başlanmışdır. Barsil xan əlavə edirid ki, aldığı göstəriş əsasında əvvəlcə Buxaraya, sonra isə Bəlxə yollanaraq orada toplanan qoşunları götürüb Mərv ətrafına gəlməlidir. Şah İsmayıla məsləhət bilinirdi ki, bu qoşunlar Mərv ətrafına yetişənə kimi Şeybək xanın məsələsi həll olunsun (106).

Şah İsmayıl bu məlumatı gətirmiş Barsil xan elçisini qiymətli xələtlərlə mükafatlandırdı. Eyni zamanda onun təşəkkürünü Barsil xana çatdırmağı xahiş etdi və vəd etdi ki, Barsil xanın istəklərini həyata keçirməyə çalışacaqdır. Elçi yola salındıqdan sonra Şah İsmayıl öz əmirlərinin və əyanlarının toplantısını keçirdi. Həmin toplantıaa Hüseyn bəy Lələ, Nəcmi Sani, Dədə bəy Qorçubaşı, Həsən bəy Halvaçıoğlu, Mirzə Məhəmməd Talış və digərləri iştirak edirdilər. Şah İsmayıl onlara bildirdi ki, Barsil 60 min nəfərlik qoşun dəstəsi ilə Şeybək xanın köməyinə gəlməkdədir və bir həftədən sonra onlar Mərv ətrafına yetişəcəklər. Bu məlumatı verdikdən sonra Səfəvi şahı əmir və əyanlardan məsləhət verməyi xahiş etdi. Əmir və əyanlar da öz təkliflərini açıqladılar. Lakin bu təkliflərin heç biri məqsədəuyğun sayılmadı. Şah bildirdi ki, gümanımızı bağlayaq müqəddəslərə və görək onların tövsiyəsi nə olur. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərinə görə, Şah İsmayıl həmin axşam vaxtının çoxunu dua və ibadətdə keçirdi və qarşılaşdığı mürəkkəb vəziyyətdən çıxmaq üçün kömək dilədi. Adları çəkilən mənbələrin məlumatına görə, bu çıxış yolu yuxuda ikən Şah İsmayıla əyan oldu. Əmir əl-mömünin Həzrət Əli ona yuxu-

sunda əyan olaraq Osmanlı qoşunlarının hücum xəbərini alması adı altında Mərv qalası ətrafından çəkilməsini və altı fərsəxlik məsafədə dayanıb özbək qoşunlarının qaladan çıxmasını gözləməyi tövsiyə etdi (107).

Səhəri gün Şah İsmayıl əmir və əyanlarını toplayaraq yuxuda ona əyan olanları onlara çatdırdı və bildirdi ki, Mərv ətrafından çəkilmək və bununla Şeybək xanı qaladan çıxmağa vadar etmək lazımdır. Amma bunun inandırıcı olması üçün qərar verildi ki, Şah İsmayılın Təbrizdə qalmış qardaşı Sultan İbrahim Mirzənin adından bir məktub hazırlansın və çapar vasitəsilə onun qızılbaş düşərgəsinə çatdırılması təşkil edilsin. İbrahim Mirzənin adından yazılmış məktubda bidirilirdi ki, Osmanlı sultanı Sultan Səlim 120 min nəfərlik qoşun dəstəsi ilə Təbrizi tutmuş və saray əhli Ərdəbilə çəkilmişdir. Bildirilirdi ki, Şah İsmayıl özünü yetirməsə Osmanlı qoşunları Ərdəbil vilayətini də işğal edəcəklər. Bu məktub bir qızılbaş döyüşçüsünə verildi və ona tapşırıldı ki, gecə ikən Mərvin üç fərsəxlik məsafəsinə yola düşsün, gecəni orada keçirsin və səhəri gün öynə yeməyi vaxtı özünü nümayişkaranə şəkildə qızılbaş düşərgəsinə çatdırsın. Çaparın gəlməsi və onun gəlişindən sonra qızılbaş düşərgəsində hay-küyün qalxması Mərv hakimlərində səfəvilərin geri çəkilməsinin doğruluğu barəsində inandırıcı təsəvvür yarada bilərdi. Deyildiyi kimi də edildi. Səhəri gün çaparın düşərgəyə gəlməsindən sonra qızılbaşlar düşərgəsində hay-küy qaldırıldı və köç etmək hazırlığı başlandı. Mənbələrdə olan məlumata görə, Şeybək xan hər gün olduğu kimi, həmin gün də qala divarları üzərindən xanımı ilə birlikdə qızılbaş düşərgəsini müşahidə edirdilər. Onlar qızılbaş çaparının düşərgəyə gəlməsini, həmin çaparın Şah İsmayılın yanına aparılmasını, Şah İsmayılın çaparın verdiyi məktubu oxuduqdan sonra qala ətrafında olan qoşunların geri çağırılmasını, düşərgədə hay-küy qalxmasını öz gözləri ilə gördülər (108).

Bu vəziyyətin nə ilə bağlı olduğunu Şeybək xan öz casusları vasitəsilə müəyyənləşdirməyə çalışdı. Amma elə bu vaxt Şah İsmayılın elçisi də özünü qala darvazalarına yetirdi və Şah İsmayıldan xəbər gətirdiyini bildirdi. Bu elçi Şeybək xan tərəfindən qəbul edildi. Elçi Şah İsmayılın salam-duasını çatdırdı və onun göstərişlərini Şeybək xanın hüzuruna ərz elədi. Şah İsmayıl tərəfindən yazdırılan və çapara verilən məktubda Osmanlı qoşunlarının Təbriz üzərinə hücum etməsi haqqında İbrahim Mirzənin adından xəbər yazılmışdı. Şeybək xanın yanına gələn Şah İsmayıl elçisi isə Təbrizdə İbrahim Mirzə tərəfindən qiyam qaldırıldığı və onun üçün də Şah İsmayılın qoşunu ilə Mərv ətrafından çəkilməli olması bəyan edildi. Həm "Aləmara-yi Səfəvi" və həm də "Aləmara-yi Şah İsmayıl" əsərində Şah İsmayıl elçisi tərəfindən Şeybək xana belə məlumat verildiyi bildirilir. Şah İsmayıl sonra çatdırırdı ki, bu xəbərdən sonra Mərv ətrafında qala bilməz. Səfəvi şahı sonra bildirirdi ki, əgər Şeybək xan müharibə etməyə hazırdırsa, qaladan çıxsın. Yoxsa, qızılbaş qoşunları Mərv ətrafını tərk etmək məcburiyyətindədir. Sonra Şah İsmayıl tərəfindən xahiş edilirdi ki, Şeybək xan insaf və mürvət göstərsin və öz qoşunlarına imkan verməsin ki, qızılbaş qoşunlarını təqib etsinlər. Sonra da əlavə edirdi ki, vaxtilə Sultan Hüseyn Mirzəyə vəd etdiyi kimi, Polkörpüdən şərqə tərəf olan ərazilərin Şeybək

xana məxsusluğu onun tərəfindən tanınacaqdır. Şah İsmayıl bildiririditi ki, əslində onun Şeybək xanla heç bir işi yoxdur və onu bu yürüşə də Şeybək xanın əmirləri təhrik etmişdilər. Sonda Şah İsmayıl bir daha soruşurdu ki, əgər Şeybək xan müharibə etmək istəyirsə qaladan çıxsın. Yoxsa, Səfəvi qoşunları Mərv ətrafından uzaqlaşmalıdırlar (109).

Şeybək xanın casusları da sonradan yetişib Səfəvilər düşərgəsində baş verənlərin guya Osmanlı qoşunlarının hücumu ilə əlaqədar olduğunu bildirdilər. Casusların verdiyi məlumata görə, Osmanlı sultanı Sultan Səlim hücum edərək əvvəlcə Diyarbəkri tutmuş və sonra da Azərbaycan üzərinə yürüş etmişlər. Yəni, casuslar Şah İsmayıl tərəfindən tərtib edilmiş məktubda olan məlumatı təsdiq etmiş və Şeybək xanı da baş verənlərin doğruluğuna inandıra bilmişdilər. Casusların verdiyi məlumata görə, Səfəvi qoşunlarının bir hissəsi artıq Mərv ətrafından yola düşmüş, qalanlarının isə tezliklə yola düşəcəyi gözlənilir. Səfəvilər baş verənlərin doğruluğuna özbəkləri inandırmaq üçün səs-küy qaldırmış, guya aparılması onlar üçün ağırlıq təşkil edən əşyaların və təchizatın yandırılmasına başlamışdılar. Şeybək xan və özbək əmirləri də bunları qala divarları üzərindən müşahidə edərək təəccüb içində qalmışdılar.

Səfəvi qoşunlarının Mərv ətrafından çəkilməsi görüntüsü yaratmaq üçün bir sıra mənbələrdə Şah İsmayıl tərəfindən Şeybək xana məktub göndərilməsi təsdiqlənmişdir. Amma bu məktubların müxtəlif variantları mövcuddur. Məsələn, "Rövzətüs Səfəviyyə" əsərində bu məktubun tam mətni verilmiş, amma bu məktubda Şah İsmayıl geri qayıtmağın səbəbini sadəcə qışlağa dayanmaq üçün Xorasan yollandığını bildirirdi. Şah İsmayıl sonra da əlavə edilirdi ki, gələn (1511-ci ilin) ilin baharında bir də qayıdacağıq. Bəzi mənbə və tarixi ədəbiyyatda isə Azərbaycan və İraq daxilind baş verən hadisələrə görə Şah İsmayılın Mərv ətrafından uzaqlaşmağa məcbur olduğunu yazırlar (110).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərinə görə, Şah İsmayıl Mərv ətrafından çəkilməsinin səbəblərini Şeybək xana elçiləri vasitəsilə çatdırdı. Amma burada maraq doğura biləcək bir məqam var. Səfəvi qoşunlarının Mərv ətrafından geri çəkilməsinin səbəbləri Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücum etməsi ilə əlaqələndirilsə də və hətta Səfəvi düşərgəsindəki özbək casusları bunu təsdiq etsə də, Şah İsmayılın Şeybək xanın yanına göndərdiyi elçi məsələni Şah İsmayılın qardaşı İbrahim Mirzənin qiyam qaldırması ilə əlaqələndirmişdir. Çox güman ki, bu məsələdə ifadə xətalarına yol verilmişdir.

Bununla belə, Şeybək xan Səfəvi elçisinə belə bir cavab verdi ki, bizim qoşunlarımız indi yetişəcəkdir. Bundan sonra əgər dövlət maraqlarına cavab verərsə biz arxadan sizə hücum edəcəyik və ya bizim fikrimizə nə gəlsə onu da edəcəyik. Şeybək xan əlavə etdi ki, sizin bizimlə işiniz olmasa da bizim sizinlə çox işimiz vardır (111). Yəni, Şeybək xan Səfəvi şahının "təkliflərini" qəbul etmədi və bəyan etdi ki, o, nəyi məqbul biləcəksə onu da edəcəkdir. Əslində, Şah İsmayıl da bunu istəyirdi və Şeybək xanı da ona təhrik etmək istəyirdi ki, Səfəvi qoşunlarını təqib etmək qərarını versin.

Şeybək xan Şah İsmayılın hiyləsinə inansa da, onun ətrafında olan əmirlər, o cümlədən Canvəfa Mirzə baş verənlərin Səfəvilərin hiyləsi olması fikrində idi. Hətta Səfəvi düşərgəsində olan xeyli sayda əmlakın yandırılması da Canvəfa Mirzəni inandıra bilmədi. O eyni zamanda Şeybək xanı inandırmağa çalışdı ki, Şah İsmayılın hiyləsinə inanmasın və Türküstandan qoşun gələnə kimi Mərv qalasını tərk etməsin. Canvəfa Mirzənin fikrincə, Şah İsmayıl Mərv qalasının fəth edə bilməyəcəyini anladığı üçün hiyləyə əl atmış və bununla özbək qoşunlarını açıq meydana çəkmək istəyirdi. Onun sözlərinə görə, Osmanlı sultanının Səfəvi hüdudlarına hücum etməsi də inandırıcı görünmürdü. Çünki Osmanlı sultanı heç Əlaüddövlə Zülqədərlə bacarmırdı və ona bac-xərac verirdi. Onun birdən-birə cəsarət edib Səfəvi hüdudlarına hücum etməsi mümkün ola bilməzdi. Şeybək xanın xanımı Moqol xanım (Müqbilə xanım) da Canvəfa Mirzənin söylədiklərini qəbul etmədi və o da bu fikirdə idi ki, Səfəvilərin hiylə işlədəcəkləri halda bu qədər düşərgə əmlaknın yandırılmasına və tez-tələsik geri çəkilməsinə nə ehtiyac var idi? Başqa sözlə, Moqol xanım da Şeybək xanı təhrik etdi ki, Səfəvi qoşunlarının təqibinə başlasın və onların üzərinə hücum təşkil etsin. Moqol xanım hətta onu da təkid etdi ki, özbək qoşunlarının hücumu dərhal başlasın. Şeybək xan isə tələsməməyi məsləhət bildi və qərar verdi ki, səhərə yaxın Səfəvi qoşunları üzərinə hücum başlasın və bu hücum zamanı Səfəvi qoşunları bütünlüklə qırılsın. Bununla əlaqədar göstəriş verdi ki, özbək qoşunları yürüşə hazırlaşsınlar (112).

Beləliklə, Şah İsmayıl və onun qoşunları Mərv ətrafından uzaqlaşmağa başladılar. Yuxarıda qeyd edildiyi kimi, onların Mərv ətrafından uzaqlaşmağa başlaması 1510-cu il noyabr ayının son günlərinə təsadüf edir. Şah İsmayıl niyyətlərini həyata keçirmək üçün Hüseyn bəy Ləlәni yanına çağırıb ona tapşırdı ki, 400 nəfərlik bir dəstə ilə pusquda dayansın və Şeybək xan 30 min nəfərlik qoşun dəstəsi ilə Səfəvi qoşunlarını təqib etmək üçün Mahmudabad çayı üzərindəki körpünü adladıqdan sonra həmin körpünü xarab etsin. Özbək qoşunlarının geri çəkilmə yolu bağlanandan sonra Hüseyn bəy Lələ də yenidən Səfəvi qoşunlarına qoşulmalı idi. Hüseyn bəy Lələ də bu tapşırığı icra etdi. O biri gün səhərə yaxın özbək qoşunlarının Səfəvi qoşunlarının ardınca hərəkətə başlanması müşahidə olundu. Bu qoşunlar Mahmudabad körpüsünü adlayıb yarım fərsəx də irəliləyəndən sonra Hüseyn bəy Lələ öz dəstəsi ilə körpünü dağıdıb Səfəvi qoşunlarına tərəf yola düşdü (113).

Aldadıcı bir görüntü yaratmaq üçün Şah İsmayıl geri çəkilən qoşunlara mühafizə dəstəsi təyin etdi. Amma bu dəstədən də 300 nəfərlik bir qrup ayırdı və onu Əmir bəy Mosulluya tapşırdı. Ona göstəriş verildi ki, şah ələmini götürməklə yavaş-yavaş arxada gələn mühafizə qrupundan ayrılsın və Tecən çayının bir qolu olan Mahmudabad çayının yaxınlığında qərar tutsun. Bu qrup elə görüntü yaratmalı idi ki, guya Səfəvi qoşunlarının son dəstələrindəndir və özbək qoşunları müşahidə olunan kimi, bu qrup döyüşə girmədən nümayişkaranə şəkildə özbəklərin qarşısından qaçmalı idi. Bununla, Əmir bəy Mosullu həm özbək qoşunlarını hücuma təhrik etməli və həm də onların gəlməsini Şah İsmayıla çatdırmalı idi.

Səfəvi qoşunları hərəkət edərək yuxarıda qeyd edildiyi kimi, Mahmudabad adlı məntəqədə dayandılar. Şah İsmayıl göstəriş verdi ki, düşərgədə gecə vaxtı çox az sayda atəş yandırsınlar. Bu atəş və tonqal o sayda olmalı idi ki, düşmən tərəfindən müşahidə edilə bilsin. Qoşunlara tapşırıq verildi ki, yarımdairə şəklində yerləşsinlər. Bu yarım dairə elə qurulmalı idi ki, onun açıq tərəfi hücum gözlənilən tərəfə istiqamətlənməl idi ki, özbək qoşunları gəlib bu yarımdairəyə düşsünlər və mühasirə olunsunlar. Şah İsmayıl tələb etmişdi ki, döyüşçülər atların başına yem torbaları keçirərək onların yatmasına imkan verməsinlər. Qızılbaşlar özləri də gecəni yatmamalı idilər. Şah İsmayılın tələbinə görə, onlar sufi yuxusu almalı idilər. Yəni, atların yüyənini qollarına keçirərək dizlərini qucaqlayıb başlarını dizi üstə qoyub mürgüləməli idilər. Bundan başqa qoşunların qarşısında yarım dairə üzrə məşəllər yerə basdırılmalı, amma yandırılmamalı idi. Yalnız kərənayın və təbillərin səsi eşidiləndə məşəldarlar həmin məşəlləri yandırmalı idilər (114).

Bəzi məlumatlara görə, Şeybək xan Səfəvi qoşunları üzərinə hücuma hazırlaşdığı gün rəml də atdırdı. Onun özünün də rəmldən xəbərdar olduğu bildirilir. Təcrübəsinə etibar etdiyi rəmmallar atdıqları rəmlin çoxlu qan göstərdiyini Şeybək xanın nəzərinə çatdırdılar. Şeybək xan bu rəmlin doğru olduğunu, rəmlin göstərdiyi qanın da Səfəvi qoşunlarına aid olduğunu bildirdi. O hələ də şübhə etmirdi ki, gecə ikən başlayacağı bu hücumla bütün Səfəvi qoşunlarını qanına qəltan edəcəkdir. Şeybək xanın daxilində bir tüğyan var idi ki, Səfəvi qoşunlarından və onun gənc sərkərdəsindən necə qisas alsın və ona görə də bəxtinin qisməti hesab etdiyi bu fürsəti əldən vermək istəmirdi. Şeybək xan əyanları tərəfindən ona verilən bütün məsləhətləri qəbul etmədi və Səfəvi qoşunları üzərinə hücum etməkdə qərarlı olduğunu bildirdi (115).

Özbək qoşunları Mahmudabad körpüsünü adlayandan sonra uzaqdan Əmir xan Mosullunun dəstəsini və onun dəstəsində olan şah ələmini müşahidə etdilər. Bunun gördükdə Şeybək xan bir daha gümanlarında səhv etmədiyini ehtimal etdi və hətta Canvəfa Mirzəyə də istehza ilə bildirdi ki, onun qərarına şübhə ilə yanaşmasının mənasızlığını tezliklə anlayacaqdır. Canvəfa Mirzə isə yenə də öz fikrindən əl çəkmədi və bir daha Şeybək xanı Səfəvi şahının hiyləsinə uymamağa çağırdı. Əmir xan Mosullu isə ona vermiş tapşırıq əsasında özbək qoşunlarını görən kimi sürətlə geriyə üz tutdu (116).

Şeybək xan da həmin sürətlə bu dəstənin təqibinə başladı və çox tezliklə Səfəvi qoşunlarının mövqe tutduğu əraziyə yetişdi. Bu hadisə 1510-cu il dekabr ayının 1-də, Mərvdən 16 kilometr aralı olan Mahmudabad məntəqəsində baş verdi (117).

Bu zaman Şeybək xan anladı ki, doğrudan da Səfəvilərin tələsinə düşmüşdür. Döyüş vəziyyəti alan Səfəvi qüvvələri hər tərəfdən özbək qoşunlarının üzərinə şığıdı. Qoşunların qarşısına düzülmüş olan məşəllərin yandırılması ilə döyüş meydanı işıqlandırıldı və bu zaman özbək qoşunlarının ağır vəziyyətə düşdükləri aydın oldu. Kərənayların hücum işarəsi verilən kimi, Səfəvi döyüşçüləri hər tərəfdən hücuma keçdilər. Şeybək xan vəziyyətin çıxılmaz

olduğunu gördükdə döyüş əmri verdi və özü də bu döyüşə atıldı. Eyni zamanda özünün xacə Mahmud adlı vəzirini Canvəfa Mirzənin yanına göndərdi və ondan tələb etdi ki, o da bütün gücünü döyüşə sərf etsin. Bu göstərişdən sonra özbək qoşunlarının qruplaşdırılmasına cəhd göstərildi. Qoşunların sağ və sol cinahları təşkil edildi, Canvəfa Mirzə ilə Qəmbər bəy bu cinahların rəhbərləri oldular. Qoşunların mərkəzi hissəsi isə Şeybək xanın tabeliyində qaldı. Şeybək xan öz vəziri vasitəsilə Canvəfa Mirzəyə xəbər çatdırdı ki, ürəkli olsun ki, Səfəvi qoşunları üzərində qələbə əldə edilsin. Canvəfa Mirzə isə cavabında Şeybək xana belə bir xəbər göndərdi ki, bu qoşunlar sən deyən qoşunlardan deyil. Çox təəssüf ki, nəsihətlərə qulaq asmadın, özünü də, özbəklərin ailə-uşaqlarını da məhvə düçar elədin (118).

Bununla belə, istər Canvəfa Mirzə, istərsə də Şeybək xan üçün aydın idi ki, artıq geriyə yol yoxdur və onları bu ağır vəziyyətdən yalnız Səfəvi qoşunlarına qarşı ciddi müqavimət göstərməklə çıxmaq mümkündür. Özbək qoşunlarının məlum olduğu kimi, geri qayıtmaq yolları da yox idi. Bu isə onları məcbur etdi ki, bütün güclərini bu döyüşə sərf etsinlər və Səfəvi qoşunlarını məğlubiyyətə uğratmaqla özlərinin də canlarını qurtara bilsinər. Bəzi mənbələrin məlumatına görə, özbəklər doğrudan da onların taleyinin apardıqları döyüşdən asılı olduğunu bilərək Səfəvi qoşunları üzərinə güclü həmlə etdilər. Xüsusilə, Canvəfa Mirzənin rəhbərlik etdiyi cinahın bu döyüşdəki əzmkarlığı mənbələrdə qeyd olunmuşdur. Vəziyyət o yerə gəlib çatdı ki, döyüşün ağır vaxtında Şah İsmayıl atdan yerə düşdü, başındakı tacını kənara qoyub səcdə etdi və yaradana dualar etməyə başladı. Şah İsmayıl yaradandan kömək istədi ki, bu qanlı döyüşdən nicat yolu tapılsın. Sonra isə atına minib özünü döyüş meydanının mərkəzindəki özbəklərin üstünə atdı. Onun buradakı fədakarlıqları və misilsiz döyüşü qızılbaşları da ilhama gətirdi və onlar daha böyük səylə düşmən üzərinə atıldılar (119).

Bəzi məlumatlara görə, özbək qoşunları üç saat ərzində Səfəvi qoşunlarına qarşı lazım olan səviyyədə döyüşə bildilər. Üç saatdan sonra isə özbəklərin müqaviməti qırıldı. Bu zaman səhər yenicə açılmışdı. Özbək qoşunlarından sağ qalanlar geriyə yolun olmadığını görəndə Şeybək xanın o bölgədə olan hündür divarlı bağına sığınmaq istədilər. Bu bağa giriş üçün 30 metrlik bir dəhliz mövcud idi. Bu dəhlizdən keçmək istəyənlərin yaratdığı basabas və tıxac elə onların özlərindən çoxlu sayda döyüşçünün atların ayaqları altında qalmasına səbəb oldu. Digər tərəfdən də qızılbaşların təzyiqi özbəklər arasında itkiləri daha da artırdı. Bir müddətdən sonra Səfəvi qoşunları bu bağın hündür divarlarını dağıdıb içəri daxil ola bildilər. Silahlarını təhvil verən özbəklərə aman verildi, qalanları isə qılıncdan keçirildi. Şeybək xan da bu bağa girərək canını salamat qurtarmağa çalışdı. Amma buna nail olmadı və döyüşlərin gedişində o da canını itirməli oldu. Səfəvi əmirlərinin isə bundan xəbər yox idi. Əziz ağa adlı bir qızılbaş döyüşçüsü meyitlərin arasından onun da meyitini tapa bilmişdi. Əziz ağa dərhal onun başını bədənindən ayırıb Şah İsmayıla apardı. Şah İsmayıl onun atının ayaqları altına atılan kəllənin Şeybək xana məxsus olduğunu biləndə özü

də atdan yerə endi, yaradana səcdə edərək bu qələbənin əldə edilməsinə görə ona şükürlərini bəyan etdi. Sonra isə göstəriş verdi ki, Şeybək xanı şaqqa-şaqqa etsinlər və hər şaqqasını ətraf bölgələrin bir hakimin göndərsinlər (120).

Bəzi mənbələrə görə isə, Şeybək xan və onun dəstəsi təhlükədən xilas olmaq üçün geri qaçarkən çay kənarındakı bataqlığa düşdü və nə etdilərsə həmin bataqlıqdan çıxa bilmədilər. Şeybək xan elə bu bataqlıqda həyatını itirməli oldu. Onun kimi onun ətrafında olan döyüşçülərin çoxu da çaş-baş vəziyyətdə bu bataqlıqda batıb məhv oldular. Canvəfa Mirzə ilə Qənbər bəyi isə salamat ələ keçirmək mümkün oldu. Lakin onlar da sonradan qətlə yetirildilər. Döyüşdən sonra çoxlu sayda qənimət ələ keçirildi. Özbək qoşunlarına məxsus olan silah, sursat, atlar, əmlak və s. Səfəvi döyüşçülərinin əlinə keçdi. Döyüş başa çatandan sonra Şah İsmayıl Mərvə yollandı və bu şəhərə daxil oldu. Bildirilir ki, o, şəhər əhalisi ilə ədalət və rəiyyətpərvərliklə davrandı və qazandığı bu qələbəyə görə şükürlər etdi (121). Bununla, Şah İsmayıl növbəti və kifayət qədər ciddi bir uğurunu da əldə etdi və nəticədə Xorasan demək olar ki, bütünlüklə Səfəvilər hakimiyyətinin nəzarəti altına düşdü. Bildirilir ki, sonradan Şeybək xanın kəllə sümüyü işlənərək zər-zibaya tutuldu və ondan qədəh düzəldilərək məclislərdə işlədildi.

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Mərv ətrafında baş verən döyüşün təfərrüatı daha genişdir. Bu əsərlərdə bildirilir ki, Şeybək xan qoşun dəstəsi ilə Səfəvi qoşunlarının tələsinə düşdüyünü anlayanda ağsaqqlları başına topladı və onlardan məsləhət istədi. Onlar da döyüşməyi tövsiyə etdilər. Özbək ağsaqqalları Şeybək xanı inandırmağa çalışdılar ki, bir tərəfdən qızılbaşların sayı azdır, digər tərəfdən onlar dinsizlərdir. Ona görə də haqq özbəklər tərəfindədir və özbəklər qalib gələcəklər. Şeybək xan Canvəfa Mirzədən soruşanda ki, bu nə qoşundur belə? O da cavab verdi ki, bu qoşunlar mənim və sənin əcəlindir. Bu Şeyxoğludur ki, hiyləsi ilə səni qaladan çıxarıbdır. Amma pis yerdə haqlandıqlarını görəndə, onda hər ikisi döyüşə atıldılar. Tərəflər arasında üç saat döyüş getdi və üç saatdan sonra özbək qoşunlarının iradəsi qırıldı. Bu zaman Şeybək xan bir atlını Canvəfa Mirzənin yanına göndərdi ki, ey yetim nə edək? O da cavab göndərdidi ki, sən arvadın sözünə baxmaqla öz başına kül tökdün. Onun sözlərinə görə, arvad sözünə baxan arvaddan da alçaqdır və Şeybək xan öz arvadının sözlərinə uyaraq bütün qoşunu qılınca verdi (122).

Üç saatlıq döyüşdən sonra özbək qoşunları və onların əmirləri daha çox canlarını salamat qurtarmaq haqqında düşünməyə başladılar. Onlar vahimə və təlaş içərisində özlərini müxtəlif tərəflərə vurur və çıxış yolu axtarırdılar. Bu anlarda Şah İsmayıl özü Şeybək xanın ələminə doğru istiqamət götürdü ki, onu o biri dünyaya göndərsin. Amma Şeybək xan ətrafının xeyli seyrəldiyini görəndə özü də ələmi tərk edərək qaçmağa üz tutdu. Şah İsmayıl özbək ələminə yaxınlaşanda Şeybək xanın qaçmış olduğunu eşitdi. Bunu eşidəndə Şah İsmayıl onun yollandığı istiqamətə doğru hərəkət etdi. Şeybək xan Mahmudabad çayına çatanda dayanmağa məcbur oldu. Amma arxadan Şah İsmayılın və qızılbaş döyüşçülərinin yaxınlaşmaqda olduğunu gördükdə özünü çaya atdı. Şeybək xan

bu zaman müşahidə etdi ki, özbək döyüşçüləri yaxınlıqdakı tikilinin hasarları arxasında sığınmağa çalışırlar. O da özünü həmin hasarlara yetirdi. Amma bu hasarların arxasında bataqlıq var imiş. Özbək döyüşçülərinin də bundan xəbəri yox imiş. Onların çoxu bu bataqlığa qərq oldular və onları xilas etmək mümkün olmadı. Şeybək xan da bilmədən həmin bataqlığa qərq oldu və oradan çıxa bilmədi. "Aləmara-yi Səfəvi"dəki məlumata görə, Şah İsmayıl özünü onun ardınca atıb onu ələ keçirmək istəyəndə sanki bir səs qeybdən ona getməməyi məsləhət gördü. Həmin səs bəyan etdi ki, irəli gedərsən sən də fənaya qərq olacaqsan. Bu səs Şah İsmayıla röya kimi göründü və ona görə atını məhmizlədi ki, irəli hərəkət etsin. Amma onun atı da yerindən tərpənmədi və bu dəfə də arxadan bir səs eşitdi ki, irəli getmə, durduğun yerdə dayan. Şah İsmayıl arxasına nəzər yetirdi və yenə də kimsəni görmədi. O, irəliyə hərəkət edə bilməsə də Şeybək xanın bataqlıqda batmasını müşahidə etməli oldu. Bu zaman onun fikrindən keçdi ki, bu həmin zülmkardır ki, bu aləmdə kimsənin yaşamaq haqqını tanımırdı, indi özü belə bir bataqlığın əsiri olubdur. Şah İsmayıl bu səhnə qarşısında qalanda onun Adi Mehtər adlı mehtəri özünü ora yetirdi və Şah İsmayıla öz köməyini təklif etdi. Şah İsmayıl da ona Şeybək xanı bu bataqlıqdan çıxarmağı tapşırdı. Adı çəkilən mənbənin məlumatına görə, Adi Mehtər kəməndlə Şeybək xanı bataqlıqdan çıxardı və Şeybək xanın hətta aman diləmək imkanı da oldu. Amma Şah İsmayılın əmri ilə onun başını bədənindən ayırdılar. Bu mənbədəki məlumata görə, Canvəfa Mirzə isə Durmuş xan tərəfindən təsadüfən qətlə yetirilmişdi (123).

Mahmudabad çayını adlayaraq canını qurtaran özbəklərin sayı çox az idi. Onlardan biri də Şeybək xanın vəziri Xacə Sultan Mahmud oldu. Onun qalaya yetişməsi ilə Bəlx hakimi Übeydulla xanın rəhbərliyi altında 10 min nəfərlik ("Aləmara-yi Səfəvi"yə görə isə 2 min nəfər) qoşun dəstəsi ilə Mərvə çatması bir vaxta düşdü. Məlum oldu ki, 2-3 gündən sonra Türküstan hakimləri öz qoşunları ilə gəlib çıxacaqlar. Xacə Sultan Mahmud Mərvin darvazalarını onun üzünə açmadı və onu xəbərdar etdi ki, Şeybək xan və bütün özbək qoşunları artıq qırılıb və Übeydulla xan qala divarları ətrafında dayanmalı olsa onu da həmin aqibət gözləyə bilər. Belə olanda Übeydulla xan tələb etdi ki, Şeybək xanın xəzinəsini və hərəmlərini ona versinlər və o da çıxıb getsin. Xacə Sultan Mahmud bu tələblə də razı olmadı. O şübhə etmirdi ki, xəzinəni Übeydulla xana təhvil verərsə, Şah İsmayıl qarşısında bunun cavabını verməli olacaqdı. Ona görə Übeydulla xana yox cavabı verildi. Übeydulla xan Şeybək xanın xəzinəsini ələ keçirə bilməyəcəyini anlayanda heç olmasa xanın arvadının ona təhvil verilməsini istədi. Xacə sultan Mahmud bunu mümkün saydı və bu barədə Moqol xanıma xəbər verəndə o, dərhal hazırlanıb Übeydulla xanın dəstəsinə qoşuldu. Mənbə məlumatlarına görə, bir gündən sonra Şeybək xanın oğlu Məhəmməd Teymur da qoşunu ilə qala divarları ətrafına yetişdi və burada atasının aqibəti haqqında məlumat ələ etdi. Onun təkidli israrlarına baxmayaraq Xacə Sultan Mahmud qala darvazalarını açmadı və ona geri qayıtmağı tövsiyə etdi. Sonradan Barsil xanın və Cani bəyin rəhbərliyi altında olan qoşun dəstələrinin

də Mərv ətrafına yetişdiyi bildirilir. Onlar heç biri Mərv ətrafında dayanmayıb Səfəvi qoşunları gəlməzdən əvvəl geri qayıtdılar (124).

Mənbə məlumatlarına görə, Şeybək xanın hərəminin azad buraxılması Şah İsmayılı razı salmadı, bununla belə o, Xacə sultan Mahmudu cəzalandırmadı. Şah İsmayıl qoşunları ilə Orta Asiyanın ən güclü qalalarından biri olan Mərv qalasına daxil oldu. Bununla, onun səltənətinin şimal-şərq sərhədi Amu-Dərya çayına çatdı. Şeybək xanın xəzinəsi ələ keçəndən sonra Şah İsmayıl bu döyüşdə şücaət göstərmiş əmirlərini və döyüşçülərini qiymətli hədiyyələrlə mükafatlandırdı.

### a) Mazandaranın ələ keçirilməsi

Şah İsmayıl Xorasana doğru irəliləyərkən Mazandaran vilayətini öz hakimiyyəti altına gətirə bilməmişdi. Yuxarıda qeyd edildiyi kimi, ona məsləhət bilinmişdi ki, əvvəlcə Şeybək xanın məsələsinin həll edilməsi daha vacibdir. Şah İsmayıl Mazandarana qoşun göndərməsə də öz nümayəndəsini göndərdi. Amma Mazandaran və Rüstəmdarın bir hissəsinin hakimi olan Ağa Rüstəm bu elçini çox sərt qarşıladı. Şah İsmayılın qoşunu ilə ona qoşulmaq təklifinə Ağa Rüstəm bildirmişdi ki, mən xanlar xanına və Türküstan xanına qarşı müharibə edə bilmərəm. Mərv qalası alınandan sonra elə oradaca Şah İsmayıl öz əyanları və əmirləri arasında yenidən Mazandaranın işğal edilməsi məsələsini qaldırdı. Bu dəfə də Şah İsmayıl öz elçisini göndərməklə Mazandaran hakimini itaət altına gətirmək istədi. Mazandaran hakimi vaxtilə Şah İsmayıl elçisinə cavab vermişdi ki, nə qədər ki, mənim əlim Şeybək xanın ətəyindədir heç nədən qorxum yoxdur. Şah İsmayıl da qərara gəlmişdi ki, Şeybək xanın kəsilmiş qollarından birini öz elçisi vasitəsilə Ağa Rüstəmə göndərsin. Bununla ,Şah İsmayıl ona çatdırmaq istəyirdi ki, "sənin əlin Şeybək xanın ətəyinə çatmasa da, Şeybək xanın əli sənin ətəyinə çatdı". Mənbə məlumatlarına görə, Şah İsmayıl kimin könüllü şəkildə Mazandarana yollanmaq istəməsini soruşanda kimsə müsbət cavab vermədi. Onun ikinci sorğusuna da kimsə cəsarət edib irəli çıxmadı. Bu zaman Mirzə Məhəmməd Talış Mazandara getməyə hazır olduğunu bildirdi. Çox güman ki, Səfəvi əmirləri Ağa Rüstəmin qəzəbindən qorxaraq onun yanına getməyə ehtiyat edirdilər. Çünki Ağa Rüstəm bir tərəfdən Şeybək xanın müttəfiqi idi, digər tərəfdən isə onların arasında artıq qohumluq əlaqələri qurulmaq üzrə idi. Şeybək xan oğlu Məhəmməd Teymura Ağa Rüstəmin qızını almağı planlaşdırırdı. Şah İsmayılın Mirzə Məhəmməd Talışa dediyi sözlərdən də belə başa düşmək olar ki, doğrudan da Ağa Rüstəmin yanına getmək təhlükəli bir elçilik kimi qəbul edilirdi. Şah İsmayıl yola düşməzdən əvvəl Mirzə Məhəmməd Talışa dedi ki, qorxmadan get və sən sağ-salamat geri qayıdacaqsan. Bu sözlər onu toxtatdı. Onun gümanında mürşidi-kamil sağ-salamat qayıdacağına əminliyini bildirirdisə, deməli belə də olacaqdı (125).

Mirzə Məhəmməd Talış yola düşməzdən əvvəl şah atlarından birinin ona verilməsini təvəqqe etdi. Şah İsmayıl buna etiraz etmədi. Hətta atdan əlavə ona Sultan Heydərin zirehli geyimini, Uzun Həsənin qılıncını və Ağqoyunlu Yaqub

Mirzənin kamanını da bağışladı. Bütün bunları geyindikdən sonra Mirzə Məhəmməd Talış bir daha şah qarşısında səcdə edib bir nəfərin müşayiəti ilə Astrabada yola düşdü. Səfəvi elçisi bölgəyə yetişəndə Ağa Rüstəm Xəzər kənarındakı Tahunə (Fərəhabad) qəsəbəsinə gələrək orada təşkil olunmuş su mərasimində iştirak edirdi. Bu mərasim zamanı Mazandaran camaatı bir-birinin üstünə su çiləyirdilər. Bölgədə yaşayan tayfaların hər biri onlara xas olan geyimlərdə bu bayramda iştirak edirdilər. Ağa Rüstəm də bu bayramı seyr etmək üçün dəniz kənarına gəlmişdi. O öz əzəmətini nümayiş etdirmək üçün ətrafına çoxlu sayda əmirlərini də toplamışdı. Bu mərasimin gedişində Mirzə Məhəmməd Talış bölgəyə gəlib yetişdi. O, Təcinə çayının kənarına çatanda ətrafdakıları səslədi ki, mən Şah İsmayılın elçisiyəm, mənə gəmi verin, çayın o biri tərəfində adlayım. Bu xəbəri eşidən adamlar məsələdən Ağa Rüstəmi hali etdilər. Ona çatdırdılar ki, Astrabad tərəfdən yaraqlı-yasaqlı bir qızılbaş Şah İsmayıl tərəfindən gəlmişdir. Ağa Rüstəm uzaqdan Mirzə Məhəmməd Talışı müşahidə etdikdə fikrindən onun atını və əsləhəsini mənimsəmək keçdi. Ona görə ona çayı adlamaq üçün gəmi və ya qayıq da vermədilər. Mirzə Məhəmməd Talışa çatdırdılar ki, özünü atla vur çaya və çayı adlaya biləcəksən. Mirzə Məhəmməd Talış da onların bu sözlərindən özünü sındırmayıb özünü çaya vurdu. Bu at vaxtilə Bağdad çayından adlaya bilmişdi. Mirzə Məhəmməd Talışın fikrincə, Təcinə çayı Bağdad çayından heç də böyük deyildi və onu keçmək mindiyi at üçün çətin olmaz. Mirzə Məhəmməd Allahı çağırıb atın üzünü çaya tərəf çevirdi. Bu at doğrudan da elə bir çətinlik çəkmədən çayı adlaya bildi. Mirzə Məhəmmədi müşayiət edən atlı isə çayı üzərək keçmək məcburiyyətində qaldı. Hətta müəyyən çətinlik də çəkməli oldu. Onda Mirzə Məhəmməd Talış kəməndini ataraq onu sudan çıxardı (126).

Ağa Rüstəm Mərv ətrafında baş vermiş döyüşdən və onun nəticələrindən xəbərsiz idi. O, Şeybək xanın məğlub olmasını və qətlə yetirilməsini gümanına belə gətirə bilmirdi. Ehtimal edirdi ki, Şah İsmayıl bu qarşılaşmada Şeybək xana məğlub olub və elçi göndərməkdə yəqin ki, ondan kömək almaq istəyir. Ona görə də Ağa Rüstəm Səfəvi elçisinin gəlişinə çox etinasız yanaşdı. Onun ürəyindən hətta Şah İsmayıl elçisini qətlə yetirmək də keçirdi. Amma elçini qəbul etdikdə eşitdiklərindən dəhşətə gəldi. Mirzə Məhəmməd Talış onun çadırına daxil olub əvvəlcə kim tərəfindən göndərildiyini bəyan etdi. O, Şah İsmayıl tərəfindən göndərildiyini bildirərkən Səfəvi şahının titullarını belə xatırlatdı - Mürşidi-kamil, kamili-mükəmməl Şah İsmayıl Səfəvi əl-Musəvi əl-Hüseyni, Bahadır xan və Həzrət Sahib əl-zamanın varisi və nayibi, Diyarbəkr və Şirvan bögəsinin fatehi, zamanın xəlifəsi və Çingiz xanın canişini, bütün Türküstanın və Xorasanın padşahı Şeybək xanın qatili. Sonra Mirzə Məhəmməd Talış Səfəvi qoşunlarının Xorasan yürüşü ərəfəsində Ağa Rüstəmin yanına elçi göndərilməsini və Ağa Rüstəmin Şah İsmayıl elçisinə verdiyi cavabı xatırlatdı. Mirzə Məhəmməd Talış ona - mənim əlim Şeybək xanın ətəyindədir- deməsini yada salıb Şeybək xanın kəsilmiş qolunu onun qarşısına atdı. Ağa Rüstəm üstünə atılmış qolu qaldırıb ona baxdı və barmaqlardakı üzükdən onun Şeybək xana

məxsusluğu barədə şübhəsi qalmadı. Gördüyü və eşitdiyi onun halını xeyli xarab etdi və bunu görcək əmirləri onun başına toplaşdılar. Bu zaman məzhəbi şiə olan yerli sakinlərdən biri Mirzə Məhəmməd Talışa təklif etdi ki, daha orada dayanmasın və atını minib aradan çıxsın. Mirzə Məhəmməd ona tapşırılan vəzifəni icra etdiyindən daha orada dayanmağı məqsədəuyğun saymadı. Ona görə atını mindi, onu müşayiət edən yerli əmirlərdən biri ilə yola düşdülər. Çayı yenidən adlayan zaman yerli əmirin atı çayda boğuldu və Mirzə Məhəmməd Talış onu müşayiət edəni boğulmaqdan xilas edib yoluna davam etdi (127).

Mazandaran əmirləri bu sarsıdıcı xəbərdən sonra özlərinə gələndə elçini axtardılar və onun yola düşməsi xəbərini eşidəndə arxasınca silahlı dəstə göndərdilər. Bu silahlı dəstə Mirzə Məhəmmədi Talışı çayını adlayan zaman haqladı və onu dayandırmağa cəhd göstərdi. Mirzə Məhəmməd də bu dəstədən qorxmayaraq dayandı və onu tutmağa əglənlərə səsləndi ki, mərdi-mərdanə döyüşməyə hazırdır. Mirzə Məhəmməd qorxmadan birldirdi ki, təkbaşına onunla döyüşmək istəyənlərin ən azı yüzünə cavab verməyə hazırdır. Silahlı dəstənin üzvləri öz aralarında çox səs-küy salsalar da çayı keçməyə cəsarət etmədilər. Ağa Rütəmin ölməsi xəbərini eşidəndə isə onlar Mirzə Məhəmməd Talışla döyüşməyə bir lüzum da görmədilər.

Ağa Rüstəm isə doğrudan da dünyasını dəyişmişdi. O, Şeybək xanın öldürülməsi haqqında eşitdiyi xəbərdən o dərəcədə sarsıldı ki, bir daha özünə gələ bilmədi və tezliklə dünyanı tərk etdi. Əmirlər onun ölümündən sonra oğlu Məhəmmədi onun yerinə gətirdilər (128).

Şah İsmayıl özbək xanının kəsilmiş digər qolunu Kabul hakimi Zəhirəddin Məhəmməd Babura göndərdi. Məhəmməd Baburla Şeybək xan arasında heç də xoş olmayan münasibətlər mövcud idi və görünür ona görə Şah İsmayıl kəsilmiş qollardan birini də ona göndərdi. Zəhirəddin Məhəmməd Babura yzılmış məktubda deyilirdi ki, Şeybək xan sənin əlini Səmərqənddən kəsmişdi. Biz isə onun əlini bu dünyadan kəsdik. Mərv şəhəri alınarkən Məhəmməd Baburun Xanzadə bəyim adlı bacısı qala daxilində idi. Şeybək xan Səmərqəndi ələ keçirəndə Xanzadə bəyimi özünə nikah etmişdi. Mərv şəhəri fəth ediləndə isə Xanzadə xanım artıq Şeybək xanımdan talaq almışdı. Şah İsmayıl Mərvi fəth edəndən sonra Xanzadə xanımı böyük ehtiramla Kabula yola saldı. Bu da Zəhirəddin Məhəmməd Baburla Şah İsmayıl arasında yaxşı münasibətlər yaranmasına yol açdı. Sonradan onlar özbək qoşunlarına qarşı mübarizədə müttəfiq olmuşdular (129).

Şah İsmayıl Dədə bəyi Mərvin hakimi təyin etdi və ətraf bölgələrin hakimlərinə, o cümlədən Əcəm və ərəb İraqına, Farsa, Kermana, Arana, Azərbaycana, Şirvana, Gilana, Mazandarana fəthnamələr gödərdi və Mərvin fəth edilməsi həmin vilayətlərə bəyan olundu. Məsələn, Misir məmlükünə göndərdiyi məktubunda Şah İsmayıl Mərv şəhərinin fəth edildiyini, Şeybək xanın və onun əmirlərinin qətlə yetirildiyini, İran və Turanın bütün ərazilərini öz hakimiyyəti altına gətirdiyini bəyan edirdi (130).

### c) Mərv döyüşünün nəticələri ilə bağlı Osmanlı sarayına elçilik göndərilməsi

Şah İsmayıl hələ Mərvdə ikən yanına Diyarbəkr hakimi Məhəmməd xan Ustaclının elçisi gəldi və onun yazmış olduğu məktubu Səfəvi şahına çatdırdı. Bu məktub Osmanlı qoşunlarının Diyarbəkrə hücum etməsi ilə bağlı idi. Həmin məktubun mətni belə idi: "Ey şəhriyar! Mən xəstə olduğuma görə, Sultan Bəyazidin oğlu Sultan Səlim atasının icazəsi olmadan Diyarbəkr tərəfə gəldi, pis hücum etdi, səhranişin camaatın çoxlu sayda əşyalarını və malını götürüb Rum Amasiyası tərəfə getdi. Xəstə olmasaydım onun ardınca gedərdim. Qardaşım Qaraxan xan da Qarahəmid tərəfdə xəstə idi. Mürşidi-kamilin bundan məlumatı olsun" (131).

Şah İsmayıl bu məktubu alandan sonra Osmanlı sultanına da məktub yazmaq və Şeybək xanın başının soyularaq samanla doldurulmuş dərisini də ona göndərmək qərarına gəldi. Amma o özü də, onun ətrafındakılar da yaxşı anlayırdılar ki, Osmanlı sarayına göndəriləcək elçilik də təhlükəli ola bilər. Ona görə də, Şah İsmayıl öz əmirlərinə və əyanlarına belə müraciət etdi ki, əgər Mirzə Məhəmməd Talış burada olsaydı Osmanlı sarayına elçi kimi onu göndərərdim. Onun olmadığı bir vaxtda elə bir cavan varmı ki, başından keçməyə hazır olsun, bizim məktubumuzu və Şeybək xanın başını götürüb Osmanlı sultanının yanına aparsın, Osmanlı sultanının cah-cəlalından qorxmayaraq Şeybək xanın başını onun ayaqlarına atsın, bizim məktubumuza cavabı götürüb geri qayıtsın. Bu zaman kifayət qədər yaşlı olan və bir müddət Şeybək xanın həbsxanasında məhbus olmuş Xəlil ağa səcdə edib bu işi görməyə hazır olduğunu bəyan etdi. Şah İsmayıl həm onun yaşına, həm də bir müddət həbsxanada əziyyət çəkməsinə görə bu səfərə yollanmasına razı olmadı. Lakin Xəlil ağa təkid etdi ki, mürşidi-kamilin tapşırıqlarını böyük məmnunluqla icra etməyə hazırdır. Ona görə bir də xahiş etdi ki, elçilik vəzifəsi ona tapşırılsın. Belə olanda Şah İsmayıl etiraz etmədi. Onun göstərişi ilə Şeybək xanın başı Şeybək xanın xəzinəsindən götürülmüş zər-ziba və bir də şah məktubu ona verildi. Vəzir Nəcmi-saninin təklifinə əsasən Şeybək xanın bazubəndləri də hədiyyə kimi Osmanlı sultanına göndərildi. Bu bazubəndin üzərində 18 ədəd almaz, yaqut, zümrüd və ləl var idi ki, onların hər biri bir şəhərin bac-xəracı qiymətində idi (132).

Lazımi hazırlıqları görəndən sonra Xəlil ağa yola düşdü və bir müddətdən sonra Osmanlı sultanlığına yetişdi. Osmanlı sultanı eşidəndə ki, Şah İsmayıl tərəfindən onun yanına elçi gəlib onu maraq bürüdü və tezliklə elçinin onun hüzuruna gətirilməsini tələb etdi. Elçi qəbul edilən gün sultan sarayında böyük mərasim düzəldildi, sultanlar və əyanlar hər biri saray daxilində öz yerlərini tutdular. Həm sultanın, həm də onun əyanları böyük maraqla Səfəvi elçisinin əlindəki bağlamanın içərisində nə olduğunun aşkarlanmasını gözləyirdilər. Onların fikrincə, bu bağlama içərisindəki qiymətli hədiyyələr olsaydı onda onu xidmətçilər daşımalı idilər. Ona görə də saray daxilində bir təəccüb yaranmışdı. Xəlil ağa hələ oturmamışdan əvvəl Şah İsmayılın peyğamlarını çatdırmaq üçün

icazə istədi. Bu icazəni aldıqdan sonra Xəlil ağa Şah İsmayılın sözlərini ona ərz elədi. Şah İsmayıl tapşırmışdı ki, elçi əvvəlcə onun salam-duasını Osmanlı sultanına çatdırsın və sonra desin ki, Şah İsmayıl pərvərdigarın tövfiqi və həzrət Əmir əl-mömünin imdadları nəticəsində cəmi 7 nəfər sufi ilə Gilandan öz cahangirlik hərəkatına başlamış və indi artıq Allahın inayəti ilə Bəlx darvazasından Durna çayına qədər olan əraziləri qılıncının zərbəsi ilə fəth etmişdir. Çingiz xanın varislərindən olan Şeybək xan böyük-böyük sözlər danışaraq və öz cahilliyi və iddialılığı üzündən ədəbsizlik göstərərək meydana çıxmağa cürət etdi. Amma onun başı bədənindən ayrıldı, samanla doldurularaq Osmanlı sultanının xidmətinə göndərildi. Şah İsmayıl sonra da əlavə edirdi ki, əgər siz də ədəbsizlik göstərərək at belində bizim vilayətlərimizə hücum etsəniz sizin başınız da bu başıkəsilmişin başı kimi kəsiləcəkdir (133).

Həm Şah İsmayılın sözləri, həm Xəlil ağanın özünü cəsarətli aparması saray əyanlarını, xüsusilə də Sultan Bəyazidin oğlu Sultan Səlimi çox hirsləndirdi və öz hirsini belə bəyan etdi: "Ey ata, sən hələ də bu elçini öldürməmisən ki, belə işlər görür və Şeybək xanın samanla doldururulmuş başını sənin qabağına atır? Gördünmü bu tədbirsiz və dinsiz qoca nə etdi?" Mənbə məlumatlarıma görə, Sultan Səlim elçini öldürməklə hədələdi və hətta elə mərasim zamanı toppuzunu çıxarıb onun başına endirməyə çalışdı. Xəlil ağa isə qılıncı ilə özünü onun toppuzunun zərbəsindən yayındıra bildi (134).

Mənbə məlumatlarına görə, Xəlil ağa sarayı tərk etdikdən sonra Sultan Səlimin silahlıları onun üstünə hücum çəkdilər. Sultan Səlim onlara bildirdi ki, Xəlil ağa öldürülməlidir, yoxsa sizin hamınız öldürüləcəksiniz. Məlumatlara görə, Xəlil ağa bu hücumdan qorunmağa çalışdı, onun üzərinə silah qaldırmış bir neçə döyüşçünü qətlə yetirə bildi. Lakin çoxlu sayda silahlının qarşısında müqavimət göstərə bilmədi və nəhayətdə o da qətlə yetirildi. Sonra hətta Xəlil ağanı müşayiət edən elçilərin də öldürülməsinə cəhd göstərildi. Amma Sultan Bəyazid buna imkan vermədi. Sultan Səlim sonradan Şah İsmayıl elçisini öldürülməsindən peşman oldu və Səfəvi qəzəbindən qorunmaq üçün Osmanlı hakimlərinə məktub yazıb göndərdi ki, qoşun toplasınlar (135).

### 6. Şah İsmayılın Herata yürüşü

Şah İsmayıl hələ Mərvi tərk etməmiş Mzandarana məktub aparmış Mirzə Məhəmməd Talışın qayıtması xəbəri gəldi. "Aləmara-yi Səfəvi"nin məlumatına görə, Şah İsmayıl əslində Mirzə Məhəmməddən xəbər gəlməsini gözlədiyi üçün Mərvi tərk etməmişdi. Ona görə də Mirzə Məhəmmədin layiqincə qarşılanmasına göstəriş verdi. Bu qarşılanmanın təşkilini o, Nəcmi-saniyə həvalə etdi. Nəcmi-sani yuxarıda qeyd edildiyi kimi, Səfəvi sarayının vəkili olmaqla mülki və maliyyə işlərində tam ixtiyara malik idi. Yəni, əslində Səfəvi səltənətinin ən nüfuzlu adamlarından biri idi. Tutduğu vəzifəyə görə, o, şahdan sonra sarayda ikinci adam sayılırdı. Nəcmi-saninin Mirzə Məhəmmədin qarşılanması üçün ata minməsi digər əmirlər üçün bir işarə oldu və onlar da atlanaraq Mirzə Məhəm-

məd Talışın qaşılanmasına çıxdılar. Nəcmi-sani və ətrafındakılar onu qarşılayaraq Şah İsmayılın hüzuruna apardılar. Mirzə Məhəmməd Talış səcdə edərək elçiliyi ilə bağlı ona geniş məlumat verdi. Bununla, Şah İsmayıl həm də Mazandaran hakimi Ağa Rüstəmin dünyasını dəyişməsi haqqında da məlumat əldə etdi (136).

Şah İsmayıl Mərvdəki işlərini başa vurub Bəlx istiqamətində hərəkətə başlamaq istəyirdi. Bu məqsədlə hazırlıq apardığı günlərdə Urgənc hakimi Barsil xan Şah İsmayılın yanına yetişdi və əmisi ilə onun arasında baş vermiş hadisədən Şah İsmayılı xəbərdar etdi. Barsil xan danışdı ki, Mərv ətrafından geri qayıtdıqdan sonra Şah İsmayılın adına sikkə vurdurdu və xütbə oxutdurdu. Bundan onun əmisinin və Şeybək xanın oğlu Məhəmməd Teymurun xoşu gəlmədi və onlar Barsil xan üzərinə hücum etdilər. Barsil xan onların qarşısına üç min nəfərlik dəstə ilə çıxsa da əvvəlcə onlardan bağışlanmasını xahiş etdi. Əmisi və Məhəmməd Tahir isə onu öldürməklə hədələdilər. Lakin görəndə ki, üç minlik dəstə ilə onlara müqavimət göstərə bilməyəcək, dəstəsindən 2 min nəfərini Urgənc qalasının mühafizəsinə göndərdi. Digər min nəfəri isə özü ilə götürüb Şah İsmaylın yanına gəldi. Barsil xan qalada qalan döyüşçülərinə vəd etmişdi ki, 25 gündən sonra Şah İsmayıldan kömək alıb geri qayıdacaq. Həmin müddətdə özünü yetirə bilməyəcəyi halda qala təslim edilməli idi (137).

Şah İsmayıl kömək xahişini qəbul etdi və bu işə rəhbərliyi də Nəcmi-saniyə tapşırdı. O, Mirzə Məhəmməd Talış və Həsən bəy Halvaçıoğlunu də özü ilə götürərək 6 min nəfərlik qoşun dəstəsi ilə Urgəncə yollanmalı və bu qalanın müdafiə olunmasına kömək göstərməli idilər. Qızılbaş dəstəsi Urgənc ətrafına yetişəndə Barsil xanın əmisi Şərif Sufi qala üzərinə hücumunu davam etdirirdi. Onun sərəncamında 12 min nəfərlik səhra özbəklərinin qoşun dəstəsinin olduğu bidirilir. Qızılbaş dəstəsinin yetişməsi ilə qala ətrafında daha gərgin bir döyüş başladı və hərbi təşəbbüs tezliklə qızılbaşların əlinə keçdi. Şərif Sufi özünü döyüşün mərkəzinə atdı ki, özbəkləri bir qədər də ruhlandıra bilsin. Amma bu zaman ona dəyən oxdan dünyasını dəyişdi. Onun ölməsi xəbərini eşidəndən sonra özbək döyüşçüləri də qaçıb dağılışdılar. Özbək qoşunlarının uzaqlaşmasından sonra Barsil xan öz mövqeyini müəyyən qədər möhkəmləndirə bildi. O, həm qızılbaş əmirlərinə qiymətli hədiyyələr verdi, həm də Nəcmi-sani vasitəsilə Şah İsmayıla qiymətli hədiyyələr göndərdi (138).

Urgənc ətrafına göndərdiyi dəstə geri qayıtdıqdan sonra Şah İsmayıl bir də Bəlxə doğru hərəkət etmək istədi. Bu dəfə də ona xəbər çatdırdılar ki, Bədəxşan padşahı Ömər Şeyx mirzənin qardaşı oğlu Üveys Mirzə onun görüşünə gəlməkdədir. Üveys Mirzə Mərvin dörd fərsəxlik məsafəsinə çatanda məktub yazıb qasid vasitəsilə Nəcmi-saniyə göndərdi. Nəcmi-sani Üvüeys Mirzənin məktubunun məzmunundan xoşhal oldu və Şah İsmayıla da onun gəlişini xüsusi bir əhval-ruhiyyə ilə çatdırdı. Şah İsmayıl da onun gəlişinə məmnunluğunu bəyan etdi və hətta göstəriş də verdi ki, Üveys Mirzənin qarşılanması təşkil olunsun. Nəcmi-sani bu işin ona tapşırılmasını xahiş etdi. Bunun icazəsini alandan sonra Nəcmi-sani bir dəstə döyüşçü ilə Üveys Mirzənin qarşılanmasına yola düşdü. Üveys Mirzə Mərvdən xeyli kənarda böyük ehtiramla qarşılandı və sonra onu

Şah İsmayılın yanına gətirdilər. Şah İsmayıl da onu hörmətlə qarşıladı və onun başına qiymətli bir tac qoydu. Üveys Mirzə Şah İsmayıla itaətini bildirdi və onun tərəfindən ehtiramla qarşılanmasından çox razı qaldı. O hələ Mərvi tərk etməmiş Kabul hakimi Zəhirəddin Məhəmməd Babura məktub göndərdi və onu da Şah İsmayıla itaət göstərməyə çağırdı. Babur padşah bu məktubu alan kimi dərhal Kabuldan Mərvə doğru hərəkətə başladı. Onun gəlişi xəbəri alınanda da Şah İsmayılın tapşırığı ilə Nəcmi-sani Kabul hakiminin qarşılanmasına yollandı. Şah İsmayıl onun da böyük ehtiramla qarşıladı. Hətta hörmət əlaməti olaraq taxtdan enib bir neçə qədəm ona doğru atdı. Sonra da əmr etdi ki, onun yanında Babur padşah üçün ayrıca taxt qoysunlar. Üveys Mirzə isə Babur padşahın kənarında əyləşdirildi. Şah İsmayıl tərəfindən Babur padşaha da xüsusi bir tac bağışlandı və onu da vəd etdi ki, bütün Türküstan paytaxtı Səmərqəndlə birlikdə alınandan sonra onu Babur padşahın hakimiyyəti altına verəcəkdir (139).

Bundan sonra Bəlx istiqamətinə qoşun göndərilməsi yenidən diqqət mərkəzinə gəldi. Şah İsmayıl göstəriş verdi ki, qızılbaş qoşunların pişxanasi (avanqard dəstəsi) Bəlxə doğru hərəkətə başlasın. Bəlx hakimi qızılbaş qoşunlarının gəlməsi xəbəri eşidəndə qorxuya düşdü. Amma məsləhətləşmə və məşvərətlərdən sonra qərara gəldi ki, Şah İsmayıla itaət göstərməsin. Cani bəy Bəlx qalasına Şeybək xanın sayəsində yiyələnmişdi. O isə bu qalanın alınması üçün xeyli vaxt və qüvvə sərf etməli olmuşdu. Ona görə min bir məşəqqətlə ona qismət olan bu qalanı Cani bəy döyüşsüz təhvil vermək istəmirdi. Cani bəyin sərəncamında həm xeyli sayda qüvvə var idi, həm də Bəlx qalası möhkəm qalalardan biri idi. Şeybək xanın taleyi gözləri qarşısında olsa da, Cani bəy yenə Şah İsmayıla müqavimət göstərməyə üstünlük verdi. Qızılbaş qoşunlarının avanqard dəstəsi Bəlx qalasına yaxınlaşanda Cani bəy 20 min nəfərlik qoşun dəstəsi ilə qaladan bayıra çıxdı və bu avanqard dəstənin üstünə hücum çəkdi. Ola bilsin ki, Cani bəy qızılbaş qüvvələrinin yalnız bu avanqard dəstəsindən ibarət olmasını güman edirmiş. Amma qızılbaş avanqardının üstünə hücum başlanan əsnada Şah İsmayılın rəhbərliyi altında əsas qüvvələr də ora yetişdilər. Cani bəy öz qüvvələrindən 5-6 min nəfər itki verdikdən sonra qalaya çəkilmək məcburiyyətində qaldı (140).

Cani bəy qalaya çəkiləndən sonra Türküstan hakimlərinə məktub göndərdi, onlardan qızılbaş qoşunlarına qarşı mübarizə üçün kömək göndərilməsini xahiş etdi. Lakin o, ümidində olduğu köməyi ala bilmədi. Səmərqənd hakimi Məhəmməd Teymur xan ona çatdırdı ki, əgər qızılbaş qoşunları ilə müharibə edə bilirsənsə et, yox, əgər bacarmırsansa, onda qalanı tərk edib bir tərəfə qaç, canını qurtar. Belə olanda Cani bəy də qızılbaşlara müqavimət göstərməyin mənasız olduğunu anladı. Bir müddətdən sonra ailəsini, uşaqlarını, mal-mülkünü toplayıb gizli yolla qalanı tərk etdi. Bundan sonra qala sakinləri boyunlarına qılınc asıb Şah İsmayılın düşərgəsinə gəldilər, ondan bağışlanmalarını təvəqqe etdilər. Şah İsmayıl onlara şəfqətlə yanaşdı, Durmuş xanı qalanı tərk etmiş Cani bəyin təqibinə göndərmək istədi. Sonra bu qərarından döndü ki, əzilmiş qoşunları təqib etmək onun adətincə deyil (141).

"Tarix-i aləmara-yi Abbasi" əsəri Şah İsmayılın Üveys Mirzə və Babur padşahla görüşünü belə təsvir etmişdir: "Xülasə, bu gözəl qələbədən sonra ətraf və qonşu məmləkətlərə fəthnamələr göndərdilər. Bütün Xorasan vilayətində xütbə və sikkələr on iki imamın - onlara Allahın salavatı olsun - mübarək ləqəbləri və şahın şöhrətli adı ilə bəzəndi. Ceyhun kənarınadək [ərazi] qızılbaş əmirlərinin əlinə keçdi. Doğru yola çağıran imamiyyə məzhəbi Xorasanın bütün şəhərlərində yayıldı. Müzəffər bayraqlar Herata tərəf yönəldi. Şərəfli xaqanın (Sultan Hüseyn Bayqaranın) paytaxtı o taxt-taca layiq vücudun (Şah İsmayılın) təntənəsi sayəsində səma yüksəkliyini qazandı. Bu qəribə hadisənin tarixi [əbcəd hesabı ilə] «fəth-i şah-i dinpənah»dır («dinin pənahı olan şahın qələbəsi»). O qışda gözəl Herat şəhəri kamil xasiyyətli [Şah İsmayılın] qışlaq və düşərgəsi oldu. Ətrafdakı vali və hakimlər səadətli astanaya tələsərək, Xorasanın fəthi münasibətilə onu təbrik edib, «mübarək olsun!» dedilər. O cümlədən, Sultan Əbu-Səid Kürəkanın oğlu Sultan Mahmud mirzənin oğlu Xan-Mirzə adı ilə məşhur olan Sultan Üveys mirzə Bədəxşandan səltənət taxtının ayağına gələrək, xüsusi ehtiramla qarşılandı və [şaha] yaxın adamların məclisinə daxil edildi. O, Hisari-Şadman və Bədəxşan əyalətlərinin idarəçiliyini alıb, razılıqla geri döndü. Həmçinin Sultan Əbu-Səid Kürəkanın oğlu Ömərşeyx mirzənin oğlu Məhəmməd Babur mirzə Kabildən mahir elçilər göndərərək, sədaqətini göstərdi " (142).

Amma Herata yollanmamışdan əvvəl Şah İsmayıl Mavərənnəhr hakimləri ilə münasibətlərə aydınlıq gətirməyə çalışdı. Səfəvi qoşunlarının daha bir uğuru və Bəlxin ələ keçirilməsi, habelə Şah İsmayılın Mavərənnəhrin dərinliklərinə doğru irəliləmək niyyətində olması Mavərənnəhrin digər hakimlərinin ciddi təşvişinə səbəb oldu. Şeybək xanın oğlu Məhəmməd Teymur xan və Buxara hakimi Übeydulla xan birlikdə bu təhlükənin qarşısının alınması üçün götür-qoy etməyə başladılar. Amma bir qərara gələ bilmədilər. Bu zaman Şeybək xanın xanımı Moqol (Müqbilə) xanım onların dadına çatdı və nə etmək lazım olduğu barədə onlara öz məsləhətlərini verdi. Moqol xanımın təklifi Şah İsmayılın yumşaldılmasına və Səfəvi şahının barışığa gətirilməsinə hesablanmışdı. Onun fikrincə, Şah İsmayıla belə bir məktub göndərilməli idi ki, Şeybək xanın fəth edilməsi ilə onun ölkəsi mürşidi-kamilə məxsus olmalıdır. Ona görə də Şah İsmayıl bu ölkənin hər bir vilayətinə öz adamlarını hakim təyin edə bilər. Məhəmməd Teymur xanla Übeydulla xan da özlərini məktubda Şah İsmayıla itaət edən adamlar kimi göstərməli və bildirməli idilər ki, onlar öz vəzifələrində saxlanacağı təqdirdə hakim olduğu ərazidə Şah İsmayılın adına xütbə oxunacaq və sikkə vurulacaqdır. Adları çəkilən xanlar məktubda Şah İsmayıla itaətini qabarıq şəkildə açıqlamalı və bildirməli idilər ki, əgər Şah İsmayıl onların itaətini qəbul etsə ona sədaqətlə xidmət etməyə hazırdırlar (143).

Bu məktub çoxlu sayda hədiyyə ilə Şah İsmayılın hüzuruna göndərilməli idi. Bunun üçün Mavərənnəhrin vilayətlərinə və tayfalarına xas xüsusi hədiyyələr, o cümlədən Çindən gətirilmiş qiymətli hədiyyələr toplandı. Sonra yuxarıdakı məzmunda məktub da yazıldı və qasid vasitəsilə yola salındı. Mənbə məlumatlarından məlum olur ki, bu zaman Şah İsmayıl da öz qoşunları ilə

Mərvdən hərəkət edərək Ceyhun çayı kənarına gəldi və göstəriş verdi ki, qoşunların çayı adlaması üçün sal və digər vasitələr düzəldilsin. Çay üzərindən keçid düzəldilməsi işləri davam edəndə Mavərənnəhrin xanlarının elçisinin gəlməsi xəbəri alındı. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərinin məlumatına görə, Şah İsmayıl əvvəlcə bu xanların əvvəlki davranışlarını nəzərə alaraq barışıq etmək fikrində deyildi. Hətta onlara müharibəyə hazır olmaları barəsində xəbər göndərmək istəyirdi. Səltənət vəkili Əmir Nəcm (Nəcmi-sani) müharibənin aparılmasına tərəfdar deyildi. Onun fikri belə idi ki, müharibə başlanacağı təqdirdə barışıq istəyən xanlar öz vilayətlərini talan edib qoşunları ilə vilayətdən kənara qaçacaqdılar. Bu isə bir tərəfdən vilayətin talan edilməsinə səbəb olacaqdısa, digər tərəfdən də həmin hakimlər Səfəvi qoşunlarının geri çəkilməsindən sonra yenidən öz vilayətlərinə hücum edəcək və onu ələ keçirəcəkdilər. Ona görə də Əmir Nəcm barışıq tərəfdarı idi ki, əgər Türküstan hakimləri boyunlarına qılınc asıb itaət göstərirlərsə, onların öz yerlərində saxlanması daha məqsədəuyğundur ki, onlar da öhdələrinə götürdükləi bac-xəracı verməkdə davam edəcəkdilər. Əslində, Səfəvilərin də son məqsədi o idi ki, Mavərənnəhr vilayətləri itaət altına gətirilsin və həmin vilayətlər şah xəzinəsinə bac-xərac versinlər. Əmr Nəcm barışığın əldə edilməyəcəyi təqdirdə müharibənin aparılmasına da hazır olmağı zəruri bilirdi. Amma sülhə daha çox üstünlük verirdi (144).

"Aləmara-yi Səfəvi"yə görə, Türküstan xanlarının elçisinin gəlməsi xəbəri alınan kimi, Əmir Nəcm əllərini yuxarı qaldırdı və dedi ki, xudavənda, ölmədim, bu günü də gördüm ki, Çingiz xanın nəvələri, Türküstanın bütün padşahları padşahımızın dərgahına gələrək itaət etməyi və bac-xərac verməyi boyunlarına götürüblər. Şah İsmayıl qərarını verməmiş Əmir Nəcmin belə bir fikir səsləndirməsindən təəccüb etdi və bunun nə demək olduğunu ondan soruşdu. Əmir Nəcm də öz fikirlərini Şah İsmayıla çatdırdı. Şah İsmayıl söylənilən fikirlərlə razılaşdı və o da barışığa üstünlük verilməsini məqsədəuyğun saydı. Bir gün sonra Türküstan hakimlərinin elçisi Şah İsmayıl tərəfindən qəbul edildi. Məktubda öz əksini tapmış fikirlər də Şah İsmayılı qane etdi. Amma elçiyə çatdırdı ki, mənim artıq özbəklərə etibarım qalmayıb. Əgər Türküstan əhalisi öz sədaqətlərində davamı olsa biz də onlara şəfqətlə yanaşacağıq. Əks təqdirdə, qoşunlar Ceyhun çayının o biri tərəfinə adlayaraq oradakı əhalinin başına oyun açacaqdır. Elçi də bildirdi ki, əgər bir nəfər özbək düşmənçilik məqsədilə Ceyhun çayının bu tərəfinə adlasa, onda bütün özbəklərin qanı halaldır (145).

Mavərənnəhr hakimlərinin elçisi Şah İsmayılın yanında olduğu zaman Kabul hakimi Babur padşah da onun yanında idi. Mavərənnəhr hakimləri ilə barışıq edilməsi haqqında bu bölgənin gələcək hakimləri kimi onu heç də razı salmırdı. O şübhə etmirdi ki, barışığa gəlmiş hakimlər gələcəkdə Səfəvi səltənətinə itaətdə sədaqətli olmayacaqlar və qiyam qaldıracaqlar. Onların qiyam qaldırılması eyni zamanda Babur padşaha qarşı qiyam qaldırılması demək idi. Ona görə Babur padşah çox arzulayırdı ki, Səfəvi qoşunları Amu Dərya çayının şimalına adlasınlar və Mavərənnəhr hakimlərinin qoşunlarına ciddi zərbə vursunlar. Bununla, zəifləmiş olan hakimlər qiyam qaldırmağa da cəsarət etməzdilər. Babur

padşah baş verənlərdən sonra Şah İsmayılın iradəsinə qarşı çıxmasa da ona öz xahişini çatdırdı. Babur padşah istəyirdi ki, gələcəkdə özbək qoşunlarının fəallaşacağı təqdirdə onlara qarşı sərbəst mübarizə aparmaq səlahiyyətini özündə əks etdirən bir fərman versin. Şah İsmayıl bu xahişi qəbul etdi və Babur padşaha bir fərman verdi ki, Ceyhun çayından başlayaraq Xəta çölünə qədər olan ərazi Babur padşaha aiddir. Yəni, həmin ərazilərdə təhlükəsizliyinin təmin edilməsi Babur padşahın səlahiyyətində idi (146).

Bundan sonra Şah İsmayıl Xorasan istiqamətində geri hərəkət etməyə başladı. Səfəvi qoşunları Heratdan üç mənzil məsafədə olanda Şah İsmayıl düşərgə salınmasını əmr etdi və qərara aldı ki, bu şəhər də Səfəvilərin itaəti altına gətirilsin. Yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıl hələ Şeybək xanla qarşılaşmazdan əvvəl Heratı itaət altına gətirmək istəyirdi. Amma Şeybək xana tezliklə zərbə vurulması istəyi Herat yaxınlığından irəli hərəkət etməyi zəruri etdi. Şah İsmayıl belə qərara gəldi ki, Herat hakiminin adına məktub yazsın, özünün Herat yaxınlığına gəlməsini və Herata gəlmək niyyətində olduğunu ona çatdırsın. Bu məktubun Herat hakiminə çatdırılması Qulu xan adlı bir qızılbaşa tapşırıldı. O, Əmir Nəcmin xidmətçilərindən biri idi və Əmir Nəcm ona etibar etdiyi üçün bu işin ona tapşırılmasını Şah İsmayıldan xahiş etdi. Şah İsmayıl da bu təklifə etiraz etmədi. Lakin elçini yola salmazdan əvvəl tapşırdı ki, Qulu xanı onun yanına gətirsinlər. Qulu xan şah hüzuruna təşrif gətirdikdə Şah İsmayıl ona öz təlimatlarını verdi və beləliklə, Qulu xan şah məktubunu götürüb üç nəfər atlının müşayiəti altında Herata yollandı. Şəhər ətrafında rastlaşdıqları adamlar vasitəsilə Heratın kələntərinə, şeyxülislamına, kətxudalarına Şah İsmayıl tərəfindən göndərildiyini çatdırdı (147).

Şah İsmayıl elçisinin gəlişi Herat daxilində heç də birmənalı şəkildə qarşılanmadı. Herat sakinləri, əyan və əmirləri arasında Səfəvi qoşunlarının və o cümlədən onun elçisinin yaxınlaşması xəbərinə həm sevinclə yanaşanlar, həm də bu xəbərdən öz məqsədləri üçün istifadə etməyə çalışanlar da tapıldı. Mənbələrdə olan məlumatlara görə, şəhər əyanlarının, ariflərinin böyük bir hissəsi Qulu xanın şəhərə yaxınlaşması xəbərini alan kimi Gurgani hakimləri tərəfindən tikilmiş Darül-səyyadədə toplantı keçirdilər. Həmin toplantıya şəhərin böyüklərindən və alimlərindən olan şeyxülislam Əhməd Tüftəzani, Əmir Nəcməddin Əbdülqadir Şəhəndi, Seyid Qiyasəddin Məhəmmədpur, Əmir Cəlaləddin Yusifrazi, Qazı Sədrəddin Məhəmməd İmami, Qazı İxtiyarəddin Həsən Türbəti və digərləri təşrif gətirmişdilər. Bu toplantıda aparılan müzakirələrdən sonra qərara alındı ki, həm Quluxanın qarşılanması təşkil edilsin, həm də Şah İsmayılın məktubunu gətirmiş bu elçiyə hədiyyə hazırlansın. Bununla bərabər, şəhərdə bir qrup adam peyda oldu ki, guya onlar şəhərdəki özbək hakimiyyətinin əleyhinədirlər və ona görə də özbəklərlə münasibətdə olmuş adamların qətlinə başladılar. Hətta bir neçə şəhər əyanı da guya özbəklərlə əlaqədə olduğuna görə qətlə yetirildilər. Məlumatlara görə, bu adamlar Qulu xanın şəhərə daxil olması ərəfəsində yüzdən artıq adamı qətlə yetirdilər və bununla şəhər daxilində mürəkkəb bir ab-hava yaratdılar (148).

Mövcud olan məlumatlara görə, Qulu xan 1510-cu il dekabr ayının 21-də, yəni bəzi qarışıqlıqlar baş verən gün Herata daxil oldu. Onun şəhərə daxil olması ilə bir qrup şəxsin şəhər daxilində özbaşınalıq törətməsinə son qoyuldu. Qulu xan Səfəvi şahı tərəfindən Herat sakinlərinin adına yazılmış fəthnaməni şəhər əyanlarına təqdim etdi. Səhəri gün isə şəhər sakinləri məsciddə toplandı və Zeynəddin ziyarətgahının hafizi minbərə qalxaraq avazla şah fəthnaməsini səsləndirdi. Qulu xan və onun ətrafındakılar bu hafizdən tələb etdilər ki, bəzi mənbələrə görə İmam Əlinin düşmənlərinə qarşı, bəzi mənbələrə görə isə şahın düşmənlərinə qarşı lənətlər oxusun. Ziyarətgah hafizi isə bunu etməkdən imtina etdi. Onda onu çəkib minbərdən yerə saldılar. Yenə bəzi mənbələrə görə, Qulu xan şəxsən özü, bəzi mənbələrə görə isə onun yanındakılar qılıncla bu hafizə ölümcül yara vurdular və o da həyatını itirdi (149).

Hafizin öldürülməsi şəhər əhalisi arasında qorxu və təlaş yaratdı və çoxları etiqad adamına qarşı belə qəddarlıq ediləcəyini gözləmirdi. Bununla belə, qızılbaşlara qarşı kütləvi etiraz edilməsi də artıq mümkün deyildi. Çünki qızılbaş qoşunlarının yaxınlaşmaqda olması kimsəyə gizli deyildi. Belə bir vaxtda Xacə Seyfəddin Müzəffər adlı birisi şəhər əyanlarını, dindarlarını ətrafına toplayıb görülməli olan işlər haqqında onlarla məsləhətləşmələr apardı. Herat böyüklərinə və əyanlarına göndərilmiş məktubda şiə məzhəbinin tələblərinə əməl edilməsi irəli sürülmüşdü. Bununla əlaqədar Xacə Seyfəddin də məscidlərdə 12 imam adına xütbə oxunmasının zəruriliyini bildridi. Növbəti cümə günü şəhər dindarlarının müəyyən hissəsi istisna olmaqla, digər hissəsi məscidə toplandı və orada şəhər böyüklərindən olan Əmir Sədrəddin adlı birisi tərəfindən Şah İsmayılın şəhər əhalisinin asayişi ilə bağlı göndərdiyi fərman oxundu. Elə həmin gün də məsciddə namaz zamanı 12 imamın adı zikr olundu və onların düşmənlərinə lənətlər yağdırıldı (150) .

Bir müddətdən sonra Əmir Nəcm Herata yetişdi. Ondan bir müddət sonra da Şah İsmayıl Herata yaxınlaşdı. Onun qarşılanması şəhərdə böyük təntənə və təmtəraqla həyata keçirildi. Bir tərəfdən şəhərin bütün küçə və meydanları bəzədildi, digər tərəfdən isə şəhər əhalisi böyükdən kiçiyə hamısı şəhər dışarına, Səfəvi şahının pişvazına axışdılar. Mənbə məlumatlarına görə, hətta elə bir təmtəraqlı mərasim təşkil edildi ki, tayı-bərabəri görünməmişdi. Şah İsmayıl şəhərə daxil olandan sonra özbək işğalının bütün qalıqlarını aradan qaldırdı, şəhər əhalisi üçün artıq yükə çevrilmiş bir çox vergilər ləğv edildi. Orada olduğu müddətdə Şah İsmayıl insanların məzhəb və din fərqinə baxmayaraq hamısının asayiş içərisində yaşaması üçün lazımi tədbirlər həyata keçirdi ki, bu da insanlar tərəfindən razılıqla qarşılandı Məlumatlara görə, Şah İsmayıl 1510-11-ci illərin qışını Heratda keçirdi. Burada olduğu müddətdə Şah İsmayıl bütün Xorasan vilayətində Səfəvi hakimiyyətinin, habelə şiə məzhəbinin möhkəmləndirilməsi ilə məşğul oldu, vilayətin bütün məscidlərində 12 imamın adının zikr olunması təmin edildi (151).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Qulu xan tərəfindən Heratda daha sərt tədbirlər həyata keçirilməsindən xəbər verilir. Bu

da Qulu xanın lazımi səviyyədə qarşılanmamasından, onun şah elçisi olmasına şəhər hakimləri tərəfindən etinasızlıq göstərilməsindən irəli gəlirdi. Qulu xan şah elçisinə belə etinasızlıq göstərdiyinə görə şəhər hakimini, bir sıra əyanları və nəhayət minbərdən şiə məzhəbini rəvac görməyən hafizi qətlə yetirdi. Onun gəlişindən beş gün sonra Şah İsmayıl da Herata yetişdi. Qulu xan şəhər əhalisini onun pişvazına çıxardı və Şah İsmayıl böyük təmtəraqla qarşılandı. Bu mənbələrə görə, şiə məzhəbinin şəhər əhalisi arasında yayılmasına görə Şah İsmayıl Qulu xana öz təşəkkürünü bildirdi (152).

Şah İsmayıl Heratda olduğu zaman Bədəxşan hakimi Üveys Mirzə, çoxlu qiymətli hədiyyələrlə onun hüzuruna gəldi və öz itaətini bəyan etdi. Şah İsmayıl da onu hörmətlə qarşılayaraq Bədəxşanın hakimliyini yenidən ona həvalə etdi. Heratda olduğu zaman Şah İsmayıl Mərvin hakimliyini Dədə bəyə, Heratın hakimliyini isə Hüseyn bəy Lələyə həvalə etdi. Mənbələrin məlumatına görə, Şah İsmayıl Heratda olduğu zaman dövrünün böyük islam alimlərindən olan Mövlana Seyfəddin Əhmədi məzhəb fərqinə görə qətlə yetirdi. Bu fakt mənbələrdə təəssüflə xatırlanır. Çox güman ki, dövrünün nüfuzlu alimlərindən biri olduğu üçün Mövlana Seyfəddin Əhmədinin şiə məzhəbinə çəkilməsinə cəhd göstərilsə də buna nail olunmamış və nəticədə onun qətlinə göstəriş verilmişdi. Amma Şah İsmayıl bölgənin sünnilərinin istəklərinə bütünüklə üz çevirməkdən də ehtiyat edirdi. Məsələn, sünnilər məclislərdə şərab içilməsinə etirazla yanaşırdılar və bunu dinə zidd hesab edirdilər. Heratda olarkən qızılbaşlar tərəfindən bu hallara yol verilməsi yerli əhali tərəfindən narazılıqla qarşılanırdı. Ona görə Şah İsmayıl şəhərdə qızılbaşlar tərəfindən şərab içilməsini qadağan etdi (153).

Mənbə məlumatlarına görə, hələ Mərvdə ikən Şah İsmayılın hüzuruna gəlib öz itaətlərini bildirən Bədəxşan hakimi Üveys Mirzə ilə Kabul hakimi Məhəmməd Babur padşah Herata qədər onunla oldular. Şah İsmayıl, Üveys Mirzəni Xan Mirzə adlandırdı və mənbələrdə onun adına Xan Mirzə kimi də təsadüf etmək mümkündür. Şah İsmayıl Herata daxil olandan sonra Babur padşah Kabula qayıtmaq üçün Şah İsmayıldan rüxsət istədi və Kabula yola düşdü. Xan Mirzə isə Bədəxşana yollanmağa hazırlaşırdı. Elə bu vaxt xəbər aldı ki, Canı bəyin oğlu Qara Gəskən sultan Xan Mirzənin Bədəxşanda olmamasından istifadə edərək bu vilayətə qoşun çəkib və oranı ələ keçiribdir. Xan Mirzə bu xəbərdən son dərəcə təəssüflənərək məsələni Əmir Nəcmə çatdırdı. Əmir Nəcm onu bu məsələyə görə təəssüflənməməyə çağırdı və bildirdi ki, bu barədə dərhal Şah İsmayıla məlumat çatdıracaq və onun tərəfindən Bəlx hakimi Bayram xan Qaramanlının bu işə cəlb edilməsinə nail olacaqdır. Şah İsmayılın hüzuruna yollananda Əmir Nəcm Bədəxşanın tutulmasını ona ərz elədi. O da dərhal Bayram bəy Qaramanlının adına fərman yazdı ki, Bədəxşan vilayəti azad edilsin ki, Xan Mirzə öz vilayətinə gedə bilsin (154).

Bu fərman Bayram bəy Qaramanlıya çatan kimi dərhal onun icrasına başladı. O, kürəkəni Ağa Məhəmməd Şirazinin rəhbərliyi altında 5 min nəfərlik qoşun dəstəsini Bədəxşana yolladı. Orada baş verən döyüşdə Ağa Məhəmməd Şirazinin dəstəsi üstün gəldi və Qara Gəskənin qaçmaqdan başqa çarəsi qalmadı.

Bədəxşan şəhəri Xan Mirzənin adamlarına tapşırıldıqdan sonra Bayram bəyin göndərdiyi dəstə geri qayıtdı və bununla bağlı o, Şah İsmayıla məktub göndərdi. Şah İsmayıl da Xan Mirzəyə qiymətli hədiyyələr, cins at və tac bağışlayaraq Bədəxşana yola saldı (155).

**7.Əmir Nəcmin rəhbərliyi altında Səfəvi qoşunlarının Türküstan yürüşü**

1511-ci ilin sonlarına yaxın, havalar soyuyanda Şah İsmayıl qışı keçirmək üçün Qum istiqamətində hərəkətə başladı. Semnanda olarkən o, Mazandaranın bütünlüklə hakimiyyət altına gətirilməsi ilə məşğul oldu. Yuxarıda qeyd edildiyi kimi, Mazandaran hakimi Ağa Rüstəm Səfəvi hakimiyyətini tanımaq istəmirdi və Şeybək xanın gücünə arxalanırdı. Şeybək xanın ölümündən sonra Mirzə Məhəmməd Talışın Şah İsmayılın elçisi kimi onun yanına gəlməsi Ağa Rüstəmi xeyli əsəbiləşdirmiş və bu əsəbiləşmək də onun ömrünə son qoymuşdu. Ondan sonra Mazandaran hakimiyyətinə gətirilən oğlu Ağa Məhəmməd, görünür, Səfəvilərə qarşı müqavimət göstərməyin mənasızlığını anlayırdı və ona görə də Şah İsmayıla itaət etmək qərarına gəlmişdi. Amma bu zaman Mazandaran vilayətinə Əmir Nizaməddin Əbdülkərim adlı başqa birisi də iddia irəli sürürdü. Bu adam əcdadlarının əvvəllər uzun müddət Mazandarana hakim olmasına görə bu vilayəti yenidən öz nəzarəti altına almaq istəyirdi. Əmir Nizaməddinlə Ağa Məhəmməd arasındakı ixftilaf genişlənməyə başlayanda Şah İsmayıl bu ixtilafa son qoydu. O, Semnana yetişəndə həm Ağa Məhəmməd və həm də Əmir Nizaməddin çoxlu hədiyyələrlə Şah İsmayılın hüzuruna gəldilər, aralarındakı ixtilaf barəsində ona ərz etdilər. Şah İsmayıl da öz növbəsində onlara qiymətli hədiyyələr verməklə, Ağa Rüstəmin idarəsi altında olan əraziləri Ağa Məhəmmədin, Mazandaranın digər ərazilərini isə Əmir Nizaməddinin idarəsi altına verdi. Onlar üçün xəzinəyə veriləcək maliyyənin miqdarı müəyyənləşdirildi. Sonra da Şah İsmayıl Quma yollanaraq orada qışlağa dayandı (156).

Şah İsmayılın Xorasan və Türküstan yürüşünü başa vurmaqla yeni böyük bir uğur əldə etməsi qonşu dövlətlərin də nəzərindən kənar qalmadı və Osmanlı sultanı II Bəyazid və Misir sultanı Qansu Qurinin elçiləri qiymətli hədiyyələrlə Qumda olarkən Şah İsmayılın hüzuruna gəldilər. Bu elçilər mənsub olduqları dövlətlərin sultanlarının Xorasan və Mərvin fəthi ilə bağlı təbriklərini Şah İsmayıla çatdırdılar (157).

Şah İsmayılın Xorasandan uzaqlaşmasından sonra özbək xanları ilə olan münasibətlər yenidən mürəkkəbləşdi. Bəzi mənbələr, özbək xanlarının Şah İsmayıla verdikləri vədin pozulmasını onların müəyyən ərazilərə iddia irəli sürmələri ilə, digərləri isə Babur xanın öz hakimiyyəti altında olan əraziləri genişləndirmək niyyətləri ilə bağlayırlar. Məsələn bildirilir ki, Übeydulla xan, Məhəmməd Teymur xan, Cani bəy Səfəvi şahının və qoşunlarının geri qayıtması xəbərini alandan sonra Məvərrənnəhrin yenidən işğal edilməsi fikrinə düşdülər və onlar çoxsaylı qoşunları ilə Buxara istiqamətinə hücum etdilər. Şah İsmayıldan aldığı fərmana əsasən, Kabul hakimi Babur padşah özünü həm də Mavə-

rənnəhrin hakimi sayırdı və ona görə özbək xanlarının belə fəallaşması onu heç də razı salmadı. Ona görə Babur padşah qoşun toplayaraq özbək xanlarının üstünə yürüş etdi. Baxmayaraq ki, əmir və əyanları Babur padaşahı çoxsaylı özbək qoşunlarına qarşı ehtiyatlı olmağa çağırırdılar, bununla belə Babur padşah öz niyyətindən əl çəkmədi. Buxara yaxınlıqlarına yaxınlaşanda Babur padşah özbək xanlarının öz qoşunları ilə geri çəkilməsi haqqında məlumat aldı və o güman etdi ki, özbək qoşunları onun rəhbərliyi altında olan cığatay qoşunlarından çəkinərək geriyə üz tutublar. Bu ehtimal onu bir qədər də ruhlandırdı. Amma yaxınlaşanda Babur padşah anladı ki, özbək qoşunlarının geri çəkilməsi heç də təsadüfi deyilmiş. Özbək qoşunları hətta cığatay qoşunlarının geri çəkilmək yolunu da tuta bilmişdilər. Belə olanda Babur padşah bütün gücünü səfərbər edərək özbək qoşunlarına qarşı döyüşə başladı və onun göstərdiyi fədakarlıqlardan sonra müəyyən üstünülk də əldə etmək mümkün oldu. Übeydulla xan öz dəstəsi ilə döyüşdən çıxaraq kənara çəkildi və münasib bir yerdə gizləndi. Babur padşah isə döyüşün bir məqamında özbək qoşunlarının təqibinə başladı və elə bu zaman Übeydulla xan gizləndiyi yerdən çıxaraq Babur padşahın qoşun dəstəsinə zərbə endirdi. Bu zərbə cığatay qoşunları üçün həlledici oldu və Babur padşah öz qoşunları ilə Buxaraya doğru geri çəkilmək məcburiyyətində qaldı. Babur padşahın aldığı zərbə elə ağır oldu ki, o, hətta Buxarada da dayanmayaraq Səmərqənd istiqamətində geri çəkilməyə başladı. Babur padşah Səmərqənddə də dayanmağa cəsarət etməyərək Hisari Şadman bölgəsinə doğru istiqamət götürdü. Özbək xanları isə əldə etdikləri uğurdan ruhlanaraq Babur padşahın təqibindən əl çəkmədilər və onlar qoşunların sayını artıraraq Hisari Şadmana doğru irəliləməyə başladılar. Belə olanda Babur padşah Bədəxşan hakimi Xan Mirzəni də yanına alaraq Hisar Şadman qalasına sığındılar. Sonra da Bəlxdə olan Bayram bəy Qaramanlının yanına kömək üçün adam göndərdilər. Bayram bəy Qaramanlı da onlara kömək göndərdi. Bundan sonra özbək qoşunları geri qayıtmaq məcburiyyətində qaldılar (158).

Başqa bir məlumata görə isə, Məvərənnəhrdə vəziyyətin mürəkkəbləşməsinin ilhamçısı elə Babur padşah olmuşdu. Mavərənnəhrin böyük bir hissəsi vaxtilə onun hakimiyyəti altında olmuş, amma Şeybək xanın fəallaşması nəticəsində həmin əraziləri itirmişdi. Həmin ərazilərdə hakimlik səlahiyyətinə malik olması haqqında Şah İsmayıldan fərman alandan sonra Babur bu səlahiyyətin reallaşdırılmasını öz qarşısına məqsəd qoydu. Bildirilir ki, bununla bağlı Babur padşah Zabulistan vilayətində qoşun topladı və Bədəxşan vilayətinə yollandı. Burada o, Bədəxşan hakimi Xan Mirzənin qoşun dəstəsini də özünə birləşdirəndən sonra Babur padşah Hisari Şadman bölgəsinə istiqamət götürdü. Bu bölgə o zaman özbək xanlarının əlində idi. Əmir Teymur nəslindən olan Həmzə sultan və Mehdi sultan adlı iki əmir bu bölgənin hakimləri idilər. Onlar yaxınlaşan təhlükənin qarşısının alınması üçün qoşun topladılar və döyüşə atıldılar. Lakin Babur padşahın qoşun dəstəsi üstün gəldi və bu uğurun nəticəsi kimi Hisari Şadman, Xətlan, Qunduz, Bağlan vilayətləri Babur padşahın hakimiyyəti altına gətirildi. Sonra Məhəmməd Babur əldə etdiyi uğur barəsində Şah İsmayıla

məlumat göndərdi. Babur padşah eyni zamanda Şah İsmayıl qarşısında belə bir məsələ qaldırdı ki, əgər Səfəvi əmirlərindən biri qoşun dəstəsi ilə ona kömək edərsə, Ceyhun çayı bölgəsindəki digər vilayətlər də ələ keçirilər və orada Şah İsmayılın adına sikkə vurulmaqla xütbə də oxunar. Bu məlumatı alandan sonra Şah İsmayıl tapşırıq verdi ki, Əhməd bəy Sufioğlunun və Şahrux bəy Əfşarın rəhbərliyi altında olan qoşun dəstəsi Hisari Şadmana yollansın və Babur padşaha kömək etsin. Adları çəkilən əmirlərin rəhbərliyi altında qızılbaş dəstəsinin bölgəyə gəlməsi Babur padşahın gücünü xeyli artırdı. Bundan xəbər tutan özbək xanları Türküstana tərəf çəkilmək məcburiyyətində qaldılar. Babur padşah Səmərqəndə daxil oldu və vəd etdiyi kimi, Şah İsmayılın adına sikkə vurdurmaqla, həm də xütbə oxutdu (159).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində bu hadisə bir qədər fərqli və təfərrüatlı şəkildə təsvir edilmişdir. Bu əsərlərdəki məlumatlardan belə bir qənaətə gəlmək olar ki, Babur padşaha görə, Bədəxşan hakimi Üveys Mirzə (Xan Mirzə) Heratda Şah İsmayılın yanında olarkən Cani bəyin oğlu Qara Gəskən sultanın həmin vilayətə basqın etməsini və onun ələ keçirməsini artıq özbəklərin Şah İsmayıl qarşısında götürdükləri öhdəliyin pozulması kimi qiymətləndirmək olardı. Özbək xanları Ceyhun çayının cənubuna qoşun çıxarmamağı vəd etsələr də Bədəxşanın tutulması bu vədin pozulması demək idi. Bu hadisəni əlində əsas tutan Babur padşah bir daha Şah İsmayılın diqqətini özbək xanlarının əzilməsi məsələsi üzərinə gətirməyə çalışdı. Sözsüz ki, özbək xanlarına zərbə vurulması ilk növbədə Babur padşahın öz maraqlarına cavab verirdi ki, bununla Mavərənnəhr üzərindəki hakimliyini yenidən bərpa etsin. Onun itaətdən çıxmayacağı halda belə bir planın həyata keçirilməsi həm də Şah İsmayılın maraqlarına cavab verə bilərdi. Məsələnin həllinə nail olmaq üçün Babur padşah məktubla Şah İsmayıla müraciət etdi. Həmin məktubda özbəklərin öz vədlərini pozması barəsində məlumat çatdırılmaqla onların cəzalandırılması üçün kömək göstərilməsi xahiş olunurdu. Babur padşah bildirirdi ki, əgər Şah İsmayıldan kömək üçün qoşun dəstəsi alsa, həmin dəstəni özünün cığatay dəstəsinə birləşdirərək Türküstan vilayətini özbək qoşunlarından təmizləyər və bu vilayəti Şah İsmayılın bayrağı altına gətirər (160).

Şah İsmayıl bu xahişi qəbul etdi və göstəriş verdi ki, Əlişükür bəy Türkman Baharlının, Zeynal xan Şamlının, Məhəmməd Sultan Sufioğlunun rəhbərliyi altında beş min nəfərlik qoşun dəstəsi Bəlxə yollansın və orada Bayram xan Qaramanlıya qoşulsun. Bayram xan da bu dəstəni yanındakı dəstəyə birləşdirərək Babur padşaha qoşulmalı və sonra da onunla birlikdə Buxara və Səmərqənd istiqamətində hərəkətə gəlməli idi. Bayram xan Qaramanlı bu yürüş zamanı Babur padşahın istədiyi qədər onun yanında qalmalı və Mavərənnəhrin özbək qoşunlarından təmizlənməsində iştirak etməli idi. Ələ keçirilmiş bütün ərazilər Babur padşaha tapşırılmalı və onun lazım bildiyi vaxt qızılbaş dəstəsi geri qayıtmalı idi. Şah İsmayılın verdiyi tapşırığın icrası kimi beş min nəfərlik qızılbaş dəstəsi Bəlxə doğru hərəkətə başladı. Babur padşah da 20 min nəfərlik cığatay qoşun dəstəsi ilə Bəlxə doğru istiqamət götürdü. Bəlx daxilində bir neçə günlük

istirahətdən sonra birləşmiş qoşunlar Türküstan yürüşünə başladılar. Babur padşahın rəhbərliyi altına olan qoşun dəstəsinin özbək qoşunları ilə ilk qarşılaşması Şurqanda oldu. Qızılbaş və cığatay dəstəsi bu qarşılaşmada üstünlük əldə etdi və sonra Türküstan istiqamətində hərəkətini davam etdirdi. Bu məlumatlar "Rövzətüs Səfəviyyə" əsərində də təsdiqlənir (161).

Səmərqənd və Buxara hakimləri olan Məhəmməd Teymur və Übeydulla xan qızılbaş və cığatay qoşunlarının irəliləməsi xəbərini alan kimi döyüşə hazırlaşmağa başladılar. Onlar Cani bəyi də yanlarına dəvət edərək qoşun toplanmasını sürətləndirdilər. Qızılbaş-cığatay qoşun dəstəsi isə tezliklə Buxara və Səmərqənd şəhərlərinə yaxınlaşdılar. Babur padşah əvvəlcə Buxara üzərinə hərəkət etmək istəyirdi. Amma qızılbaş əmirləri ona söylədilər ki, əgər Səmrqənd alınmış olsa, onda Buxaranın məsələsini həll etmək daha asan olacaqdır. Ona görə də Babur padşah Səmərqənd istiqamətində irəliləmək əmri verdi. 1511-ci ilin oktyabrında birləşmiş qoşunlar Səmərqənd ətrafına yetişdi. Bu qüvvələrin Səmərqənd ətrafına yetişməsi ilə özbək xanları da 60 min nəfərlik böyük qoşun dəstəsi ilə döyüş hazırlığı aldılar. Hər iki tərəf Səmərqənd ətrafında toplaşaraq düşərgə saldılar və döyüşdən əvvəlki günü istirahətdə keçirdilər. Kifayət qədər böyük miqdarda qoşunun iştirak etdiyi bu döyüşün təfərrüatları barəsində təəssüf ki, mənbələrdə ətraflı məlumat yoxdur. Adları çəkilən mənbələrdəki məlumatlara görə, döyüşün başlanğıcında qızılbaş qoşunları ilə cığatay qoşunları arasında bir anlaşılmazlıq yaşandı. Bildirilir ki, döyüş başlamazdan əvvəl Bayram xan Qaramanlı qızılbaş əmirlərinə müraciət edərək onları cığatay qoşunlarına fikir vermədən müstəqil şəkildə döyüşmək tapşırığı verdi. Cığatay əmirləri isə bu xəbərdən narazı qaldılar, onlara qarşı belə diqqətsizlik və saymazyanalıq göstərildiyi üçün döyüşə girməməyi qərara aldılar. Doğrudan da, Bayram xanın rəhbərliyi altında qızılbaş dəstəsi özbək qoşunlarına qarşı döyüşə girəndə, cığatay qoşun dəstəsi hərəkətsiz dayandı. Babur padşah vəziyyəti belə görəndə öz əmirlərinə döyüşə başlamaq əmri verdi. Onlar isə öz narazılıqlarını bir daha açıqladılar. Cığatay əmirlərinin fikrincə, qızılbaşlar özlərini irəli atmaqla qələbəni öz adlarına çıxmaq istəyirdiər. Ona görə də cığatay əmirləri qərara gəlmişdilər ki, gözləmə mövqeyində olsunlar. Əgər qızılbaşlar bu döyüşdə üstünlük əldə etməyi bacarsalar onlara daha ehtiyac qalmaz. Yox, əgər qızılbaşlar uğur əldə edə bilməsələr, onda özlərini meydana atsınlar və döyüşü qələbə ilə başa çatdırsınlar (162).

Babur padşah nə qədər təkid etsə də qoşunlar onun əmrini qəbul etmədilər. Belə olanda Babur padşah qılıncını sıyraraq özü döyüş meydanına atıldı. Onun ardınca isə yalnız Rüstəm Bahadır Atalıq öz dəstəsi ilə döyüşə qoşuldu. "Aləmara-yi Səfəvi"yə görə, Rüstəm Bahadır Atalığın dəstəsində 2 min nəfər döyüşçü var idi. "Aləmara-yi Şah İsmayıl"dakı məlumata görə isə, bu dəstədəki döyüşçülərin sayı 10 min nəfərə çatırdı. Bununla da özbək xanlarına qarşı aparılan döyüşün əsas ağırlığı qızılbaş qoşunları üzərinə düşdü. Onların fədakarlığı, sürətli hücumu özbək qoşunlarının bütün həmlələrinin qarşısını aldı və mənbə məlumatlarına görə, axşamın düşməsindən iki saat əvvəl döyüş qızılbaş qoşunlarının qələbəsi ilə başa çatdı. Mövcud məlumatlara görə, özbək qoşunlarına

ciddi itki verildi və bu qoşunların bütün düşərgəsi qızılbaş dəstəsinin əlinə keçdi. Bundan sonra Bayram xan Qaramanlı qoşun dəstəsi və Babur padşahla birlikdə qalib kimi Səmərqəndə daxil oldular. Səmərqənd sakinləri bu qoşunların qarşısına çıxdı. Babur padşah verdiyi vədə əməl edərək Səmərqəndə daxil olduqdan sonra məsciddə Şah İsmayılın adına xütbə oxutdu. Sonradan isə onun adına sikkə vuruldu. Səmərqənd əhalisinə müraciətlə Babur padşah bildirdi ki, o, bu vilayətdə Şah İsmayılın vəkili və müavini olacaqdır. Başqa sözlə, Babur padşah bölgə hakimliyinin Şah İsmayıl tərəfindən ona həvalə olunduğunu və özbək xanlarının hakimiyyətinə son qoyulduğunu bəyan etdi (163).

Səmərqənd ələ keçirildikdən sonra Bayram xan Qaramanlı özbək qoşunlarına qarşı yürüşlərini davam etdirmək qərarını verdi. Bayram xan ilkin olaraq Daşkəndi fəth etməyi məqsədəuyğun saydı. Babur padşah bu məsələdə tələsməməyi məsləhət gördü. O şübhə etmirdi ki, aldıqları ağır zərbədən sonra özbək qoşunları Daşkəndi də, Buxaranı da tərk edəcəklər. Doğrudan da, tezliklə Babur padşahın gümanları öz təsdiqini tapdı. Buxara sakinlərindən məlumat gəldi ki, qızılbaş qoşunlarının qorxusundan Məhəmməd Teymur xan və Übeydulla xan Buxaranı tərk edib getmişlər və hazırda Buxara hakimsiz qalmışdır. Bu məlumat alınandan sonra Babur padşah öz divanbəyi Mehdi Xacəni iki min nəfərlik bir dəstə ilə Buxaraya göndərdi. Oxşar hadisə digər məntəqələrdə də baş verdi. Məlumatlara görə, Dəşti-Qıpçaq hüdudlarından başlayaraq Ceyhun çayına qədər olan ərazilərdəki özbək hakimləri qızılbaş qoşunlarının hücum təhlükəsindən qorxuya düşərək öz vəzifələrini buraxıb ətrafa səpələndilər. Bütün bu ərazilər Babur padşahın hakimiyyəti altına düşdü və o da yerlərə öz hakimlərini təyin etdi (164).

Qızılbaş qoşunları təxminən iki ay bölgədə qaldılar. Amma onların bölgədə qalması cığatay qoşunlarının narazılıqlarının artması ilə müşayiət olundu. Görünür, onlar qızılbaş qoşunlarının nüfuzunun artmasını istəmirdilər və ona görə də onlar açıq şəkildə qızılbaş qoşunlarının bölgəni tərk etməsini tələb etməyə başladılar. Babur padşah bu narazılıqların kəskin qarşıdurmaya çevrilməsinə yol verməmək üçün Bayram xan Qaramanlı ilə məsləhətləşmə apardı. Babur padşah göstərilən köməyə görə Şah İsmayıla təşəkkür etdi və bildirdi ki, qızılbaş qoşunlarının köməyi ilə bölgəni özbək qoşunlarından təmizləmişik və indi istəmirik ki, Şah İsmayıl bu qoşunların intizarını çəkmiş olsun. Ona görə də təklif edildi ki, Bayram bəy qızılbaş qoşunları ilə geri dönsün. Bayram bəy də, Zeynal xan də, Əlişükür bəy də bildirdilər ki, özbək xanları hələ lazımınca əzilməmişlər və onların hansı planlara malik olması haqqında da məlumat mövcud deyil. Səfəvi əmirlərinin fikrincə, Babur padşah özü də ələ keçirilmiş vilayətlərdə kifayət qədər mökəmlənməmişdi və ona görə də onlar qızılbaş qoşunlarının geri göndərilməsini məqsədəuyğun bilmirdilər. Səfəvi əmirləri təklif etdilər ki, özbək xanlarının məsələsi birdəfəlik həll edilsin və ondan sonra qızılbaş qoşunları geri qayıtsınlar (165).

Babur padşah deyilənlərin heç birini qəbul etmədi və təkid etdi ki, Səfəvi qoşunları geri qayıtsınlar. Bayram xan Qaramanlı da bu tələblə razılaşmalı oldu və geri qayıtmaq hazırlığına başladı. Babur padşah həm Şah İsmayıl üçün, həm

də Səfəvi əmirləri üçün qiymətli hədiyyələr hazırladı və onları yola saldı. Səfəvi qoşunları Xorasana doğru hərəkətə başladılar. Bayram xan Qaramanlı Bəlxdə dayandı, Zeynal xan, Əlişükür bəy, Məhəmməd Sultan Sufioğlu qızılbaş qoşunları ilə Şah İsmayılın düşərgəsinə doğru istiqamət götürdülər. Onlar Babur padşahın ismarışını və onun qiymətli hədiyyələrini Şah İsmayıla təqdim etdilər. Şah İsmayıl qızılbaş qoşunlarının uğurunu məmnunluqla qarşıladı və dərhal da səcdəyə düşərək əldə edilmiş bu uğurlar üçün yaradana şükürlərini söylədi. Duaları zamanı Şah İsmayıl etiraf etdi ki, azsaylı qoşun dəstəsi ilə Türküstan kimi böyük bir ərazinin fəth edilməsi yalnız yaradının lütfü ilə mümkün ola bilərdi və belə bir lütf üçün də Şah İsmayıl davamlı şükürlərini səsləndirdi (166).

Özbək xanları isə öz hakimiyyətlərinin itirilməsi ilə doğrudan da razılaşmaq istəmirdilər. Xüsusilə, Übeydulla xan daha çox fəallıq göstərməyə çalışdı və Bağlan səhrası hüdudlarında olarkən bu səhraların hakimi Qasım xana məktub göndərdi və düşdüyü vəziyyəti ona anlatdı. Qasım xan ona kömək göstərməyi vəd etdi. Amma bir şərtlə ki, qış (1511-1512-ci ilin qışı) başa çatsın və havalar isinməyə başlayanda əməli fəaliyyətə başlansın. Übeydulla xan ilk vaxtlar bununla razılaşdı. Amma eşidəndə ki, Səfəvi qoşun dəstəsi Babur padşahı tərk edib geri qayıdıb və Babur padşah köməksiz qalıb, onda havaların istilənməsini gözləməyə lüzum görmədi. Übeydulla xan ətrafındakı beş min nəfərlik qoşun dəstəsini səfərbər edərək Buxara üzərinə hücuma keçdi. Bu zaman Babur padşahın yanında üç min nəfərlik cığatay dəstəsi var idi. Übeydulla xanın yaxınlaşması ilə Babur padşah da öz dəstəsi ilə onun qarşısına çıxdı. Say üstünlüyü Übeydulla xanın tərəfində olsa da, mənbələrin məlumatına görə, cığatay qoşunları Səfəvi qoşunlarının döyüşlərindən ciddi təcrübə əldə etmişdilər. Bu da onlara imkan verdi ki, sayca üstün olan Übeydulla xan dəstəsini məğlubiyyətə uğratsınlar. Özbək qoşunlarının bütün cəhdlərinə baxmayaraq, cığatay qoşunlarının zərbəsi daha təsirli və səmərəli oldu. Özbək qoşunları geri çəkilmək məcburiyyətində qaldı və cöğatay qoşunları da onları mənzil məsafəsində təqib etdilər. İlk zərbənin uğurundan ruhlanan Babur padşah hərəkətlərinin sonrakı nəticələrini düzgün müəyyənləşdirmədən özbək dəstəsini təqib etməkdən əl çəkmədi. Übeydulla xan da ilk zərbənin ağır nəticələrindən sonra qaçmağa üz qoysa da, Babur padşahla dil tapmağa çalışdı. O, bir məktub yazıb qasidi vasitəsilə Babur padşaha göndərdi. Übeydulla xan təklif edirdi ki, Babur padşah ondan əl çəksin və onun xətərsiz geri çəkilməsinə mane olmasın (167).

Übeydulla xanın aman istəməsi Babur padşahın iştahasını daha da artırdı və onda belə bir güman yarandı ki, çox asanlıqla özbək qoşunlarının axırına çıxa bilər. Belə bir nəticə əldə edəcəyi halda bir tərəfdən bölgədə Babur padşahın hakimiyyəti daha da möhkəmlənə bilərdi, bir tərəfdən da Babur padşah özünün fatehliyini nümayiş etdirmiş olardı. Ona görə də o, Übeydulla xana belə bir cavab göndərdi ki, onun başını əldə etməsə geri qayıtmayacaq. Übeydulla xan da gördü ki, artıq başqa seçimi yoxdur. Ya Babur padşaha təslim olmalı və həyatını itirməlidir, ya da mübarizə aparıb özünü qorumalıdır. Übeydulla xan yanında qalmış qoşun dəstəsindən iki min nəfəri pusquda dayandırdı. O özü də həmin

dəstə ilə birlikdə mövqe tutdu. İki min nəfərlik digər dəstə isə Babur padşahın dəstəsinə qarşı döyüşə atıldı. Həmin dəstənin əmirinə göstəriş verilmişdi ki, döyüş qızışandan sonra pusquya tərəf geri çəkilsin. Cığatay qoşunları əvvəlki uğurlarının təkrarlanacağına əmin olduqları üçün arxayınçılıqla bu döyüşə qatıldılar. Lakin özbəklər də öz fədakarlıqlarını nümayiş etdirə bildilər. Əslində, pusquda dayanmış dəstənin köməyinə ehtiyac olmadan cığatay dəstəsinin iradəsini qırmaq mümkün oldu. Doğrudur, bu döyüş son dərəcə gərgin keçdi və özbək dəstəsi bir neçə həmlədə irəli atıldılar. Sonra onlar üstün gələrək cığatay dəstəsini geri atdılar. Babur döyüşçüləri uğursuzluğa düçar olaraq geriyə üz tutdular. Babur padşah isə az sayda döyüşçünün əhatəsində arxada qalmışdı. Übeydulla xanın pusqudan çıxması ilə Babur padşahın dəstəsinin vəziyyəti daha da ağırlaşdı. Hətta onun həyatı da təhlükə ilə üzbəüz qaldı. Babud padşah öz döyüşçülərinə qoşularaq geri qaçmaq istəyəndə atının ayağı büdrədi və yerə sərildi. Yalnız cığatay döyüşçülərinin canı bahasına onun həyatını xilas etmək mümkün oldu. Übeydulla xanın uğuru ilə baş çatan bu döyüş 1512-ci il aprel ayının 28-də baş vermişdi (168).

Babur padşah geri qaçaraq Buxaraya sığınmaq istədi. Amma məlum oldu ki, Buxara artıq Übeydulla xan tərəfindən ələ keçirilmiş və hətta onun bəzi əmirləri də onun tərəfindən qətlə yetirilmişdi. Übeydulla xan Buxaraya sahib olduqdan sonra keçmiş Səmərqənd hakimi Məhəmməd Teymur xanın yanına adam göndərdi ki, nə dayanmısan, sən də get Səmərqəndi ələ keçir. Məhəmməd Teymur xan da öz qoşun dəstəsi ilə müqavimətsiz Səmərqəndə daxil oldu. O da öz növbəsində Cani bəyə xəbər göndərdi ki, hərəkətə gəlsin və yaranmış fürsətdən istifadə edərək itirdiyi əraziləri geri qaytarsın. Bütün bunların nəticəsində, özbək xanları itirdikləri əraziləri geri qaytardılar və Babur padşah bu xanlara müqavimət göstərə bilməyəcəyini anladığı üçün Kabula çəkildi (169).

Mövcud məlumatlara görə, Babur padşah Buxaradan geri çəkiləndən sonra Hisari Şadmana qayıdaraq Xan Mirzəyə sığındı. Onunla birlikdə qalada gizlənərək qala ətrafına xəndəklər qazılmasına, qala daxilində barrikadalar yaradılmasına göstəriş verdi. Bundan sonra Bəlx hakimi Bayram bəy Qaramanlının yanına çapar göndərildi ki, öz köməyini əsirgəməsin. Özbək xanları və qoşunları isə Hisari Şadman ətəklərinə qədər irəlilədilər. Özbək xanları bu qalanın müdafiə imkanlarını nəzərdən keçirdikdən sonra mühasirəni dayandırıb geri qayıtmaq qərarına gəldilər (170).

Babur padşah kor-peşman vəziyyətə düşdükdən sonra yenidən Şah İsmayıldan kömək istəmək qərarına gəldi və bununla bağlı ona məktub yazdı. Həmin məktubda Babur padşah yol verdiyi xətaları etiraf edirdi. Amma onu da yazdı ki, böyüklər (müdriklər) himayəyə götürdüklərini heç vaxt atmırlar. O da Şah İsmayılın müdrikliyinə və böyüklüyünə arxalanaraq yenidən ondan kömək istəyirdi. Babur padşah bir daha acizanə şəkildə xahiş edirdi ki, əldən getmiş ərazilər yenidən fəth edilərək onun idarəçiliyi altına verilsin. Şah İsmayıl bu məktubu alıb yenidən Babur padşaha kömək göstərilməsinə, daha doğrusu qiyam qaldırmış özbək xanlarını cəzalandırmaqla bölgədə Səfəvi hakimiyyətinin daha

da möhkəmləndirilməsinə qərar verdi. Öz fikrini o, Babur padşaha göndərdiyi məktubunda da ifadə etdi. Şah İsmayıl həmin məktubunda yazırdı ki, yazın başlaması ilə Türküstana yeni bir yürüş edəcəkdir. O yazırdı: "Babur padşaha məlum olsun ki, inşaallah özbəklərin başına elə bir bəla gətirim ki, uzun illər ərzində məni yaddan çıxarmasınlar. Özbəklərə mürüvvət göstərsəm də, nəticə çıxarmadılar. Türküstana elə bir bəla göndrəcəyəm ki, Dəşti-Qıpçağın bütün özbəkləri bu dəşti (səhranı) atıb Ədəm dəştinə qədər qaçsınlar. Bu yeni ilin baharının əvvəlində inşaallah, sərdarımız Bəlxə tərəf gələcək, sən də özünü ona yetir ki, o sizinlə birlikdə Türküstana yollanacaqdır" (171).

Bəzi məlumatlara görə, Şah İsmayılı Türküstan istiqamətində yenidən qoşun göndərməyə sövq edən başqa səbəb də olmuşdu. Bildirilirdi ki, Babur padşahın köməyinə göndərilmiş qızılbaş dəstəsi geri qayıdandan sonra Əmir Nəcmin eşikağası olan Məhəmmədcan adlı birisi yenidən məktubla Babur padşahın yanına göndərilmişdi. Məhəmmədcan məktubla Babur padşahın yanına yollandı. Lakin Məmmədcan bu səfəri zamanı Babur padşah tərəfindən lazımi qayğı və qonaqpərvərliklə qarşılanmadı. Bu da Məmmədcanı naraza saldı. O da əvəzində Şah İsmayılın Qumdakı qışlaq düşərgəsinə qayıtdıqdan sonra qəsddən belə bir məlumat yaydı ki, Babur padşah bölgədə hakimiyyəti ələ keçirib yeni iddiaya düşmüşdür və Səfəvi hakimiyyətindən qoparaq müstəqil olmağa çalışır. Əmir Nəcm öz eşikağasına etimadı var idi və ona görə də onun sözlərinə inandı və bu barədə Şah İsmayıla da məlumat verdi. Belə olanda Əmir Nəcm də Şah İsmayıl qarşısında Xorasana yollanaraq orada Səfəvi hakimiyyətinin möhkəmləndirilməsi vəzifəsini öz üzərinə götürməyə hazır olduğunu bildirdi. Şah İsmayıl bu təkliflə razılaşdı və Əmir Nəcmin Səfəvi qoşun dəstəsi ilə Xorasana yollanmasına icazə verdi. Bu səfərdə Əmir Nəcmi Zeynalabdin bəy, Badencan bəy və Xacə Kamaləddin Mahmud Sağərçi kimi tanınmış və təcrübəli əmirlər müşayiət etməli idilər (172).

Amma mənbələrin təhlili onu deməyə əsas verir ki, Səfəvi qoşunlarını yenidən Türküstan istiqamətində hərəkətə gətirməkdə Şah İsmayılın əsas məqsədi məhz özbək xanlarının qaldırdığı qiyamın yatırılması və bu bölgədə Səfəvi hakimiyyətinin möhkəmləndirilməsi idi. Həm də Şah İsmayıl dərhal bu işin görülməsini zəruri bildi. Çünki özbək xanlarının möhkəmlənməsinə imkan verilməsi, sonradan onlara qarşı mübarizə aparılmasını daha da çətinləşdirə bilərdi. Şah İsmayıl Bəlx hakimi olan Bayram bəy Qaramanlıya və Herat hakimi Hüseyn bəy Lələyə göstəriş verdi ki, onlar da Əmir Nəcmin tabeliyində olaraq özbək qoşunların qarşı döyüşlərdə iştirak etsinlər. Əmir Nəcmə bu səfərin həyata keçirilməsi üçün Şah İsmayıl tərəfindən böyük səlahiyyətlər verilmişdi. O, Xorasanın digər hakimlərini də bu döyüşə səfərbər edə bilərdi. Qarşıya qoyulan vəzifənin uğurlu həlli üçün Əmir Nəcmin rəhbərliyi altına 12 min nəfərlik qoşun dəstəsi verilmişdi və bu dəstə 1512-ci ilin yazında Xorasana doğru hərəkətə başladı. Xorasanda ikən bu dəstəyə Hüseyn bəy Lələnin rəhbərliyi altında olan qoşun dəstəsi, sonra isə Bayram bəy Qaramanlının dəstəsi Əmir Nəcmin dəstəsinə qoşuldular (173).

Yuxarıda adları çəkilən əmirlərdən başqa Əmir Nəcmin dəstəsində Dədə bəy Qorçubaşı, Vəlican Sultan Əfşar, Məhəmməd Həsən Sufioğlu, Mirzə Məhəmməd Sultan, Şeyx Şəhabəddin, Mir Şərafəddin Sədr, Mirzə Məhəmməd Talış və digər əmirlər də var idi. "Aləmara-yi Səfəvi"dəki məlumata görə, Əmir Nəcm Xorasan istiqamətində hərəkətə başlamazdan əvvəl Şah İsmayıl qarşısında Xorasanın gələcək hakiminin kimliyi barəsində məsələ qaldırdı. Onun fikrincə, bu vilayətin hakimliyinin şiə məzhəbinə məxsus birisinə tapşırılması daha məqsədəuyğun olardı. Şah İsmayıl da buyurdu ki, Xorasanın hakimiliyini Babur padşaha tapşırmaqla özündən bir yadigar qoymuş olarsan. "Bu dünyaya vəfa yoxdur. Bu dünyada mal və can yox, ad qalacaqdır". Əmir Nəcm isə Baburla bağlı öz təklifini səsləndirdi, onu ağılsız bir hakim kimi qiymətləndirdi. Çünki o öz ağılsızlığı üzündən Türküstan padşahlığını əldən vermişdi. Sonra Əmir Nəcm şah dərgahında Xan Mirzənin Türküstan hakimliyinə gətirilməsi barəsində məsələ qaldırdı. Şah İsmayıl bu təklifə cavab verməmişdən əvvəl sükuta daldı. Onda Əmir Nəcm soruşdu ki, onların hansı layiq olsa hakimliyi ona verəkmi? Şah İsmayıl da hələlik Səmərqənd və Buxaranın Babur padşaha verilməsini məsləhət bildi. Onu da əlavə etdi ki, sonra baxarıq vəziyyət necə olacaq (174).

"Aləmara-yi Şah İsmayıl" əsərinə görə isə, Əmir Nəcm yola düşməzdən əvvəl Şah İsmayıl onu hüzuruna çağırdı və bildirdi ki, Türküstanın hakimiliyini ona həvalə edir. Səfəvi şahının əmrinə əsasən, Əmir Nəcm yuxarıda adları çəkilən əmirlərlə Türküstana yollanmalı, Ceyhun çayından başlayaraq Dəşti-Qıpşaq və Dəşti-Bağlana kimi olan ərazilərdə hansı hakim itaətsizlik yolunu tutmuşdusa onların başlarını bədənindən ayırmalı, həmin əraziləri itaət altına gətirməli idi. Sonra da alınan ərazilər Babur padşahın hakimiyyəti altına verilməli idi. Əmir Nəcm vəd etdi ki, şahın tapşırıqlarının icra olunması üçün bütün səylərini göstərəcək və Şah İsmayılın adını bütün Türküstanda daha da ucaldacaqdır. Bununla belə, Əmir Nəcm belə bir fikri də səsləndirdi ki, Türküstanın alınmasının bütün zəhmətini Səfəvi döyüşçüləri çəkdiyi halda nə üçün bu vilayətin hakimliyi başqasına tapşırılsın? Şah İsmayıl da bəyan etdi ki, Türküstanın hakimliyini artıq Babur padşaha həvalə edibdir. Şah İsmayılın sözlərincə, bunu ona görə etmişdi ki, bu dünyada ondan bir yadıgar qalsın. Çünki bu dünyada yalnız yaxşı ad qalacaqdır. Adı çəkilən bu mənbənin məlumatın görə də, Əmir Nəcm Türküstan hakimliyinə Xan Mirzəni məsləhət bildi. Amma sonra soruşanda ki, bu vəzifəyə həmin şəxslərdən hansının layiqi olmasının onun tərəfindən yerində müəyyənləşdirilməsi ilə şah razı olarmı? Şah buna razı olduğunu bildirdi (175).

Mənbə məlumatlarına görə, Əmir Nəcm Bəlxə yaxınlaşanda oranın hakimi Bayram xan Qaramanlı onu qarşılamaq üçün şəhərdən kənara çıxdı. Şəhərin əhalisi də onun pişvazına yollandı və böyük ehtiramla onun qarşılanması keçirildi. Babur padşahla Xan Mirzənin qarşılanmasına isə Əmir Nəcm özü çıxdı və onları ehtiramla qarşılayaraq şəhər daxilinə apardı. Bəzi mənbələr Əmir Nəcmin sərəncamında olan qoşun dəstəsinin sayının 15 min nəfər olmasını göstərmişlər (176). Babur padşahın özü ilə gətirdiyi qoşun dəstəsinin sayının da

15 min nəfər olduğu bildirilir (177). Bundan başqa Əmi Nəcmin rəhbərliyi altına Xan Mirzənin qoşun dəstəsi, Bayram xan Qaramanlının və Hüseyn bəy Lələnin də qoşun dəstələri toplanmışdı. Bütünlükdə isə Əmir Nəcmin sərəncamında bəzi məlumatlara görə, 80 min nəfərlik qoşun dəstəsi var idi (178). Bu qoşunların sayının 60, 65 və 70 min nəfər olması haqqında da məlumatlar mövcuddur (179). Mənbələrdəki məlumatlara görə, Əmir Nəcm əzəmətli bir qoşun toplaya bilmişdi. Bu qoşunları görənlər deyirdilər ki, onun vasitəsilə Çini də fəth etmək olar. Yox, əgər Çini tutmaq mümkün olmazdısa, deməli bu, Əmir Nəcmin özünün xətaları üzündən baş verə bilərdi.

Mənbə məlumatlarına görə, Əmir Nəcm təxminən 20 gün Bəlxdə qaldı və qarşıda dayanan səfərin uğurla nəticələnməsi üçün lazımi hazırlıq işləri apardı. Mənbə müəllifləri bu yürüş üçün Əmir Nəcmin seçilməsinə və onun şəxsiyyətinə xeyli yer ayırmışlar. Əmir Nəcm Səfəvi səltənətinin ikinci məqamı idi. O yalnız vəzifə və məqamına görə ikinci şəxs deyildi, o həm də Səfəvi səltənətinin təşkilatlanması, möhkəmlənməsi, dövlətin və rəiyyətin idarə edilməsi sahəsində məsuliyyət və fəaliyyət sahibi idi. Ölkə əhalisinin haqqının qorunmasında, onların ehtiyaclarının aradan qaldıırlmasında bu insanın rolu böyük idi. Əmir Nəcm özü də bir insan kimi ədalətli və çalışqan, insanların dadına yetməyi bacaran birisi kimi vəsf edilməkdədir. Dövlət idarəçiliyində, maliyyə məsələlərində Şah İsmayıl ona sonsuz etibar göstərirdi. O da bu haqqa layiq olmasını fəaliyyəti ilə nümayiş etdirirdi. Əmir Nəcmin sədaqətli xidməti, fəal mövqeyi özünün də zəngin və imkanlı bir şəxsə çevrilməsinə səbəb olmuşdu. Mənbə məlumatlarına görə, onun şəxsi vəsaiti hesabına xidmətində 5 min nəfərlik silahlı dəstə var idi. Onun şəxsi tabeçiliyində olan dəstəsinin və xidmətçilərinin yalnız gündəlik azuqəsi üçün gündə 100 baş qoyun və çoxlu sayda ev quşları istifadə olunurdu. Bu dəstə onun şəxsi vəsait hesabına saxlansa da, Səfəvilər dövlətinin də xidmətində idi. Başqa əmirlər kimi, Əmir Nəcmi də Türküstan səfərində xidmətçilərinin böyük bir hissəsi müşayiət edirdi. Mənbə məlumatlarına görə, bu xidmətçilər tərəfindən necə süfrə açılmasını ətrafdakılar böyük bir zövqlə müşahidə edirdilər (180).

Amma tarixçilər və araşdırmaçılar Əmir Nəcmin şəxsiyyəti barəsində mənbələrdə yazılanları heç də birmənalı şəkildə qəbul etmirlər. Xüsusilə, onun hərbi sahədə təcrübəsiz olması daha çox qabardılaraq rəhbərliyi altında həyata keçirilən Türküstan səfərinin uğursuzluqları da bu təcrübəsizliklə bağlanılmışdır. Bildirilir ki, hərbi yürüş zamanı Əmir Nəcm öz hərbi təcrübəsizliyinə baxmayaraq, təcrübəli əmirlərin fikir və məsləhətləri ilə az hesablaşmış, qoşun əhlinə yerli-yersiz cəzalar verməklə onların arasında müəyyən bir ruh düşkünlüyünə də səbəb olmuşdu (181).

Qarşıda dayanan vəzifələrin icrası üçün yola düşmək ərəfəsində Əmir Nəcm avanqard dəstə (çərxçi) vəzifəsini könüllü surətdə kim tərəfindən öz üzərinə götürülə bilməsi məsələsi ilə maraqlandı. Bu məsələ hakimlərin və əmirlərin yanında ortaya atıldığından Babur padşah ona həssaslıqla yanaşdı. O ehtiyat edirdi ki, əgər bu vəzifə Xan Mirzəyə tapşırılsa onda onun Türküstan

hakimi olmaq şansı arta bilər. Ona görə Babur padşah dərhal söz alaraq onun tabeliyində olan Xacə Kəlan adlı birisinin birləşmiş qoşunların çərxçisi təyin olunmasını təklif etdi. Əmir Nəcm bu təklifi qəbul etdi. Amma bir şərtlə ki, Xacə Kəlan bu vəzifənin icrasından sonradan boyun qaçırarsa və ya döyüşdə məğlub olarsa qətlə yetiriləcəkdir. Babur padşah bu şərtlə razı oldu və Xacə Kəlan 5 min nəfərlik qoşun dəstəsi ilə öncədən yola salındı. Təsadüfdən, Xacə Kəlanın avanqard dəstəsi Hisari Şadman ətrafında baş verən döyüşdə uğursuzluğa düçar oldu. Burada Xacə Kəlan öz dəstəsi ətrafına mühafizəçilər qoysa da, bütünlükdə zəruri ehtiyat tədbirlərini görmədi və ona görə də onun dəstəsi qarşı tərəfin hücumu qarşısında müqavimət göstərə bilmədi. Xacə Kəlan ona verilmiş dəstəni itirərək geri qayıtdı. Bu hadisə Babur padşahın da əhvalına pis təsir etdi. Çünki Xacə Kəlanın uğursuzluğu həm də onun nüfuzunun aşağı düşməsi demək idi. Əmr Nəcm əvvəldən irəli sürdüyü tələbinə əsasən, Xacə Kəlanın qətlinə göstəriş verdi. Lakin Babur padşahın, Xan Mirzənin və digər əmirlərin təkidli xahişindən sonra Əmir Nəcm onu bağışladı. Bununla belə, o, Şah İsmayılın başına and içərək bəyan etdi ki, döyüşdə məğlub olanlar onun sərt cəzasından yaxa qurtara bilməyəcəklər (182).

Bundan sonra Əmir Nəcm birləşmiş qoşunların çərxçiliyini Zeynal xana tapşırdı və onun nəzərinə çatdırdı ki, vəzifənin icrasına Xacə Kəlan kimi yanaşsa onu sərt cəza gözləyir. Zeynal xan da 2 min nəfərlik qoşun dəstəsini götürərək irəli hərəkət etdi. Hisar qalasını ətrafına yetişəndə onun alınmasının mümkün olmadığını gördü və ona görə də qoşunların gəlib yetişməsini gözlədi. Bir müddətdən sonra Əmir Nəcm də qoşun dəstəsi ilə gəlib yetişdi. Bundan sonra Hisar qalası birləşmiş qoşunlar tərəfindən mühasirə edildi. Qala daxilindəkilər bu mühasirəyə davam gətirməyərək aman istəməli oldular (183).

Qala ətrafında cığatay dəstəsindən qətlə yetirilənlərin kəsilmiş başlarını görəndə Əmir Nəcm xeyli qəzəbləndi. Əvvəlcə, buna səbəb olmuş qala hakimini qətlə yetirdi. Sonra da qoşun itkilərinin qisasının alınması üçün şəhər əhalisi arasında müəyyən qətllər başlandı. Şəhər rəiyyəti qiymətli hədiyyələr toplayaraq öz nümayəndələrini Əmir Nəcmin yanına göndərdilər və şəhər rəiyyətinin Səfəvi qoşunlarına qarşı müqavimət göstərilməsində iştirak etmədiklərini bildirərək ondan aman istədilər. Əmir Nəcm onlara aman verdi. Amma onu da bəyan etdi ki, digər şəhərlərdə və qalalarda yerli əhalinin özbək qoşunlarını dəstəkləməsi halı ilə qarşılaşsa, onda həmin əhaliyə qarşı çox ciddi cəzalar həyata keçirəcəkdir. Bundan sonra Əmir Nəcm qoşunların çərxçiliyinə Bayram bəy Qaramanlının rəhbərliyi altında olan dəstəsini təyin etdi. Əmir Nəcm bildirdi ki, onun nə edə biləcəyinə əmindir və ona görə də bu vəzifəni ona həvalə edir. Bayram xan Qaramanlının bütünlükdə 6 min nəfərlik qoşun dəstəsi var idi. Bu qoşundan bir min nəfərlik dəstə Bəlxdə saxlanmış və qalan 5 min nəfərlik qoşun isə səfərə cəlb edilmişdi. Bayram xan bu vəzifəni öz üzərinə götürdü və sonra da hansı marşrutla irəliləməli olacağını soruşdu. Bu məsələ əvvəldən həll edilməmişdi. Ona görə bu barədə bir fikir müxtəlifliyi də ortaya çıxdı. Qoşun əmirləri bu məsələdə Babur padşahın təkliflərinin nəzərə alınmasını məsləhət bildilər.

Çünki o, bölgəni daha yaxşı tanıyırdı. Babur padşah da hərəkət marşrutu üçün hansı seçimlərin olduğunu qoşun rəhbərliyinin nəzərinə çatdırdı. O bildirdi ki, Səmərqəndə bir yol şərqdən gedir. Buxaradan keçən bu yolun üzərində altı qala mövcud idi ki, onların ələ keçirilməsi lazım idi. Qoşunların hərəkətdə olduğu yol ilə də irəliləmək mümkün idi. Səmərqəndə aparan bu yol daha yaxın idi. Amma Buxara bu yoldan kənarda qalırdı. Bundan başqa bu yolun da üstündə dörd qala var idi ki, onların ələ keçirilməsinə ehtiyac var idi. Əks təqdirdə, qoşunlar arxa istiqamətdən özbək qoşunlarının təhlükəsi ilə qarşılaşa bilərdi. Başqa bir marşrutun seçilməsi üçün isə geriyə qayıtmağa ehtiyac var idi (184).

Əmir Nəcm digər marşrutların heç birini, xüsusi ilə geri qayıdılmasını qəbul etmədi. Onun fikrincə, bu məsləhətlər ona Bəlxdən yola düşməzdən əvvəl verilməli idi. Qərar verdi ki, qoşunlar irəlilədiyi yol ilə Səmərqənd istiqamətində hərəkətlərini davam etdirsinlər. Amma qoşunlar hərəkətə başlamazdan əvvəl Bayram xan Qaramanlının 5 min nəfərlik avanqard dəstəsi hərəkətə gəldi. Bayram bəy bu dəstədən də 2 min nəfərlik bir dəstə ayırdı və onu kürəkəni Ağa Məhəmmədin rəhbərliyi altında daha irəli göndərdi. Ağa Məhəmmədin dəstəsi Bayram xanın əsas dəstəsindən bir fərsəx irəlidə hərəkət edirdi. Qoşunların hərəkət istiqamətində qarşıya çıxan ilk qala Davər qalası oldu. Bu qalanın hakimi Fulad Sultan Hisar qalasının Səfəvi qoşunları tərəfindən alınmasından və bu qalanın hakiminin, oradakı özbək döyüşçülərinin başlarına gətirilənlərdən xəbərdar idi. Bununla belə, Fulad Sultan təslim olmaqdan boyun qaçırdı. Əmir və əyanlar ona qala daxilində müdafiə olunmağı təklif etdilər. Amma Fulad Sultan qoşun dəstəsi ilə qaladan kənara çıxmağı və bayırda Səfəvi qoşunları ilə qarşılaşmağı qərara aldı. Çox güman ki, Fulad Sultan ilkin olaraq avanqard dəstənin qalaya yaxınlaşmasından xəbərdar idi və ona görə də doqquz min nəfərlik özbək dəstəsi ilə qaladan bayıra çıxdı. Qaladan yarım fərsəx aralanandan sonra Ağa Məhəmmədin qoşun dəstəsi də görünməyə başladı. Ağa Məhəmməd isə özbək qoşunlarının yaxınlaşmaqda olduğunu müşahidə edəndə Bayram xanın yanına çapar göndərdi, özbək qoşunlarının yaxınlaşmaqda olduğunu ona çatdırdı və onu da təklif etdi ki, Bayram xan dəstəsi ilə özbək qoşunlarının arxasına keçməyə cəhd göstərsin. Bununla, özbək qoşunlarının məğlubiyyətə uğradılması daha da asanlaşa bilərdi. Tezliklə Bayram xan da dəstəsi ilə özünü yetirdi və tərəflər arasında döyüş başladı. Özbək dəstəsinin müqaviməti çox da uzun sürmədi və təxminən yarım saatdan sonra özbək döyüşçüləri geri qaçmaq məcburiyyətində qaldılar. Sultan Fulad bu döyüşdən qaçmaqla canını salamat qurtara bildi. Əmir Nəcm bu döyüşün uğurla bitməsinə görə həm Bayram xana, həm də Ağa Məhəmmədə qiymətli hədiyyələr verdi. Davər qalasına hakimliyi isə Əmir Nəcm onun əvvəlki hakimi olan Babur padşaha deyil, Xan Mirzəyə həvalə etdi. Bu qərar daxilən Babur padşahın narazılğı ilə qarşılaşsa da, o öz etirazını səsləndirməyə cəsarət etmədi (185).

Digər bir sıra mənbələrdə Fulad Sultanın hakim olduğu qala Xozar qalası kimi təqdim olunur və yuxarıdakı məlumatlardan fərqli olaraq bəzi mənbələr Fulad Sultanla Bayram xan Qaramanlının avanqard dəstəsi arasında döyüş baş

vermədiyi bildirilir. Heç şübhəsiz ki, Fulad Sultan, Səfəvi qoşunlarının gücündən xəbərdar idi və ona görə də müqavimət göstərilməsini mənasız sayırdı. Fulad Sultan qala divarlarını açıb Səfəvi qoşunlarını qala daxilinə buraxdı. Bu hərəkətinin Səfəvi əmirləri və hakimləri tərəfindən lazımınca qiymətləndiriləcəyinə Fulad Sultan ümid bağlasa da, Əmir Nəcm sonradan onu da, onun ətrafındakı əmirləri və döyüşçüləri də qətlə yetirdi (186).

Bundan sonra Səfəvi qoşunları Qərşı qalasına doğru irəliləməyə başladılar. Bu qalanın hakimi Məhəmməd Teymur xanın qohumu olan Şeyxəm Mirzə adlı birisi idi. Əmir Nəcmin rəhbərliyi altında qoşun dəstəsinin yetişməsi xəbərini alanda Şeyxəm Mirzə qala əhlinin bir yerə toplanmasını istədi. Şeyxəm Mirzə Xozar qalasında qala hakiminin və qoşunlarının taleyi haqqında artıq məlumat əldə etmişdi. Ona görə qalanın təhvil verilməsini heç də özünün təklükəsizliyinin zəmanəti kimi qəbul etmirdi. Şeyxəm Mirzə qala əhlindən nə edilməsinin lazım gəldiyini soruşdu. Qala sakiləri də bildirdilər ki, Qərşı böyük şəhərdir, onun qala divarları çox möhkəmdir, qala daxilində 12 min nəfərlik qoşun dəstəsi və bir illik azuqə ehtiyatı var. Bütün bunlara görə, qala sakinləri müdafiə olunmağı və təslim olmamağı məsləhət bildilər. Qala daxilində 300 min nəfər sakinin olduğu bildirilirdi. Sakinlər söylədilər ki, onlar da arvad-uşaqları ilə birlikdə qala divarları üzərində qoşun dəstəsinə qoşulub Səfəvi qüvvələrinə qarşı vuruşacaqlar. Əmir Şeyxəmin qarşısında qala sakinləri Qurani-məcidə and içdilər ki, bütün qoşun və şəhər rəiyyəti qırılmayınca müqavimət göstərməkdən əl çəkməyəcəklər. Belə olanda qala daxilində müdafiə olunmağa qərar verildi, qala darvazaları möhkəmləndirildi, qala ətrafındakı xəndəklər su ilə dolduruldu (187).

Əmir Nəcm Qərşi qalasına yetişəndən sonra onun divarlarının çox möhkəm olduğunu və onun alınmasının heç də asan olmadığını gördü. Onda qərar verdi ki, Şeyxəm Mirzəyə məktub göndərilsin. Həmin məktubda Əmir Nəcm ondan tələb etdi ki, qala darvazaları Səfəvi qoşunları üzərinə açılsın. Bunun əvəzində vəd olunurdu ki, həm Şeyxəm Mirzəyə, həm də qala daxilindəkilərə aman veriləcəkdir. Əks təqdirdə isə qala daxilindəkilərə sərt cəzalar veriləcəyi bildirilirdi. Əmir Nəcm qeyd edirdi ki, əgər qalanı məcburi şəkildə ələ keçirmiş olsa, onda kimsə salamat qalmaycaqdır. Bu məqamı Əmir Nəcm xüsusi olaraq Şeyxəm Mirzənin nəzərinə çatdırırdı. Şeyxəm Mirzə bu tələbi qəbul etmədi və öz qərarını da belə izah etdi ki, sizdən qorxsaydıq qala daxilində müdafiəyə çəkilməzdik. Digər tərəfdən Şeyxəm Mirzə onun sözünə etibar qalmadığını da bəyan edirdi və əvvəllər könüllü şəkildə təslim olmuş qalaların hakimlərinin və sakinlərinin taleyini buna sübut kimi göstərirdi. Ona görə də Şeyxəm Mirzə bildirirdi ki, canlarında can qaldıqca Səfəvi qoşunlarına qarşı müqavimət göstərəcəklər (188).

Belə olanda Əmir Nəcm qalanın mühasirəyə alınması göstərişini verdi. Səfəvi qoşunları və onlara qoşulan dəstələr qala ətrafına istiqamətləndilər. Qala divarları qoşun əmirləri arasında bölündü və onların hər birinə qalanın bir hissəsinin alınması tapşırıldı. Amma bir nəticənin əldə ediləcəyinə hər hansı bir ümid görünmürdü. Bir tərəfdən də qala müdafiəçiləri divarlar üzərindən Səfəvi

döyüşçülərinə müqavimət göstərir, onların üstünə ox, güllə, daş və s. yağdırırdılar. Şeyxəm Mirzə qalanın mühasirəsinə cəlb edilmiş qüvvələrin vəziyyətini nəzərdən keçirdikdən sonra hətta onların üzərinə hücum həyata keçirilməsini də mümkün saydı. Onun nəzərincə, Dədə bəy Qorçubaşının dəstəsi qalaya çox yaxınlaşmışdı və bu dəstənin hücum obyekti seçilməsi daha məqsədəuyğun ola bilərdi. O, qala daxilindəki ağsaqqallarla məsləhətləşəndən sonra gecə vaxtı Dədə bəyin dəstəsi üzərinə qəfil hücum təşkil edilməsinə qərar verdi. Amma Dədə bəy də dəstəsinin təhlükə ilə qarşılaşa bilməsini daim diqqət mərkəzində saxlayırdı və öz əmirlərinə də tapşırmışdı ki, daim döyüşə hazır vəziyyətdə olsunlar. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl"ın verdiyi məlumata görə, Şeyxəm Mirzənin Səfəvi qoşunları üzərinə hücum təşkil etdiyi gün Dədə bəy də təsadüfən döyüş mövqeyini tərk etməli olmuş və dəstə üzərində nəzarəti müəyyən qədər azaltmışdı. Bildirilir ki, bir neçə gün ərzində Dədə bəy gecələr yatmadığı üçün yorulub əldən düşmüşdü və ona görə də hücum baş verən gecə o öz çadırına çəkilərək bir qədər dincəlməyi planlaşdırırdı. Ona görə də o, İsgəndər bəy adlı əmirlərdən birini öz yerinə təyin etdi və ona diqqətli olmağı tapşırdı. Amma görünür, İsgəndər bəy qala daxilindəkilərinin hücum edə biləcəyini real saymırdı və ona görə də həm özü, həm də dəstənin döyüşçüləri intizamsızlığa yol verdilər. İsgəndər bəyin əmri ilə həmin gecə döyüş mövqeyinə şərab gətirildi. Həm İsgəndər bəy, həm də döyüşçülər şərab içməyə qurşandılar. Bütün qorçular şərab içərək öz hərəkətlərinə nəzarəti əldən verdilər. Nəticədə, döyüşçülərin çoxunun gözünü yuxu apardı və mövqelərdə yerləşdirilmiş məşəllər də işıqlandırılamamış qaldı. Bütün bunlar isə Şeyxəm Mirzənin qəfil hücumu üçün daha əlverişli şərait yaratdı. O, iki min nəfərlik özbək dəstəsini özü ilə götürüb Dədə bəyin dəstəsi üzərinə hücum etdi. Sürətli hücum Dədə bəyin dəstəsində anlaşılmaz bir vəziyyət yaratdı. Elə ilk zərbədən 300 nəfər Səfəvi döyüşçüsü qətlə yetirildi. Dədə bəy və İsgəndər bəy baş verən hücumdan xəbər tutana qədər özbək dəstəsi geri qayıtdı və qətlə yetirilmiş Səfəvi döyüşçülərinin başlarını kəsərək özləri ilə apardılar. Sonra da onları nümayişkaranə şəkildə nizələrə keçirərək qala divarları üzərində yerləşdirdilər ki, Səfəvi əmirləri və döyüşçüləri onları görə bilsinlər (189).

Dədə bəy dəstəsinin belə intiszamsızlığa yol verməsi və özbək dəstəsinin gecə hücumu haqqında alınan məlumat Əmir Nəcmi son dərəcə qəzəbləndirdi və onu öz halından çıxardı. O, özbəkləri qalanın təslim edilməsinə məcbur etməyə çalışdığı halda özbək qoşunlarından belə bir zərbə alınmasını Əmir Nəcm heç təsəvvürünə belə gətirə bilmirdi. Bu isə onun özbəklərə qarşı barışmaz münasibətini daha da kəskinləşdirdi. Verdiyi tapşırıqlara laqeyd münasibət göstərilməsinə görə Əmir Nəcm Səfəvi əmirlərinə qarşı da amansız bir münasibət nümayiş etdirdi.

Səhəri gün Əmir Nəcm bütün əmirlərinin toplantısını çağırdı. Adları çəkilən mənbələr Əmir Nəcmin bu toplantıya bütünlüklə qırmızı paltar geyərək gəldiyini qeyd edirlər. Bildirilir ki, ağzından od tökülən Əmir Nəcm fəryad çəkərək Dədə bəyin gətirilməsini tələb etdi. Əmir Nəcm bütün qəzəbini onun üstünə

tökərək nəyə görə Səfəvi döyüşçülərinin mənasız qətlinə yol verilməsi ilə maraqlandı. Dədə bəy xəstə olduğu üçün döyüş mövqeyində olmadığını bəyan etdi. Əmir Nəcm bundan daha da qəzəbləndi, onun əllərinin bağlanmasını tələb etdi. Sonra da atlanaraq ayaqları yalın olan Dədə bəyi qarşısına qatdı və ordu bazar daxilinə gətirdi. Burada onun əmri ilə dar ağacı quruldu və Dədə bəyin yol verdiyi səhlənkarlığa görə dar ağacından asılması qərarlaşdırıldı. Gördükləri, müşahidə etdikləri bütün Səfəvi əmirlərini, əyanlarını və döyüşçülərini də çaş-baş vəziyyətə saldı. Yəni, Əmir Nəcm tərəfindən döyüş intizamsızlığına münasibətdə belə barışmazlıq nümayiş etdirilməsi heyrət və sonsuz təəccüblə qarşılandı. Səfəvi əmirlərinə və əyanlarına görə, qəzəb Əmir Nəcmin gözlərini örtmüşdü. Onlar şübhə etirdilər ki, Əmir Nəcm sonradan etdiyi əməllərin peşmançılığını çəkəcəkdir.

Əmir və əyanlar Hüseyn bəy Lələdən xahiş etdilər ki, öz nüfuzundan istifadə edib Dədə bəy Qorçubaşının qətlinin qarşısını alsın. Hüseyn bəy bundan imtina etdi və bildirdi ki, bu barədə xahiş etsə, Əmir Nəcm onu boğdurar. Beləcə, digər nüfuzlu əmirlər də Əmir Nəcmə yaxınlaşmağa cəsarət etmədilər. Onda əmir və əyanlar Babur padşahdan vasitəçi olmağı xahiş etdilər. Babur padşah dərhal atlanaraq dar ağacı qurulan meydana yollandı. O bu meydana o vaxt çatdı ki, dar ağacının kəndiri Dədə bəyin boynuna salınmış və onun ayağının altındakı kürsünü aralamaq zamanı çatmışdı. Babur padşah məhz bu əsnada Əmir Nəcmə mürşidi-kamilin (Şah İsmayılın) canına and verdirdi ki, bu qərarından imtina etsin. O iltimas etdi ki, ahıl yaşında olan Dədə bəyi onun xahişlərinə bağışlasın və Dədə bəy də yalın ayaqlarla yaxınlaşıb onun əlindən öpsün. Babur padşah eyni zamanda əmirlərin xahişləri əsasında vasitəçiliyi üzərinə götürdüyü üçün onu xəcalətli etməməyi xahiş etdi. Əmir Nəcm bildirdi ki, əgər Dədə bəyi qətlə yetirməsə, onda qoşunları daxilində onun işləri irəli getməyəcəkdir. Babur padşahın təkidli xahişlərindən sonra Əmir Nəcm nəhayət ki, Dədə bəyin qətlini dayandırdı və elə onun yanında and içdi ki, əgər gələcəkdə Dədə bəyin xidmətində ən kiçik etinasızlıq özünü göstərsə, daha ölüm cəzasından canını salamat qurtara bilməyəcəkdir. İsgəndər bəyi isə Əmir Nəcm bağışlamadı və döyüş mövqeyində yol verdiyi səhlənkarlığa görə ölüm cəzasına məhkum etdi (190).

Səfəvi döyüşçüləri bu səhnəni izləyən qala müdafiəçilərinə onların da belə bir aqibətlə rastlaşacaqlarını bir daha çatdırdılar. Onlar hündür səslə bildirdilər ki, Əmir Nəcmin qəzəbi qarşısında dayanmaq mümkün deyil və bu qəzəb sizin üstünüzə tökülsə aranızdan bir nəfər də sağ qalmayacaqdır. Başqa sözlə, onlar bu qəzəblə qarşılaşmamaq üçün bir daha qalanın könüllü surətdə təhvil verilməsini məsləhət bildilər (191).

Qala sakinləri isə nəinki təslim olmadılar, əksinə, növbəti gecə qala qoşunları yenidən Səfəvi qüvvələri üzərinə hücum etdilər. Şeyxəm Mirzə bu dəfə Hüseyn bəy Lələnin rəhbərlik etdiyi dəstəni hücum obyekti seçdi. Amma Hüseyn bəy Lələ öz huşyarlığını heç də əldən verməmişdi. Onun dəstəsi özbək dəstəsinin qəfil hücumunu döyüşə hazır vəziyyətdə qarşıladı və görülən çevik tədbirlər nəticəsində özbək dəstəsinə ciddi müqavimət göstərildi. Özbək dəstə-

sindən 600 nəfərin qətlə yetirildiyi bildirilir. Şeyxəm Mirzə qarşısına qoyduğu məqsədə nail olmayaraq qala daxilinə çəkilmək məcburiyyətində qaldı. Əmir Nəcm isə Hüseyn bəy Lələnin bu uğuru haqqında məlumat alan kimi onun dayandığı mövqeyə yollandı, vəziyyətlə yerində tanış oldu, qətlə yetirilmiş özbəklərin meyitlərini gördükdə uğurun doğruluğuna əmin oldu. Əmir Nəcm ona təşəkkürünü çatdırdı və pulla mükafatlandırdı. Eyni zamanda bütün dəstə üçün böyük miqdarda pul mükafatı ayırdı və göstəriş verdi ki, bu puldan şəhid olanlar üçün də pay nəzərdə tutulsun (192).

Şeyxəm Mirzə aldığı zərbədən sonra bir neçə gün yalnız müdafiədə dayandı. Amma o yaxşı anlayırdı ki, yalnız müdafiədə dayanmaqla qalanı xilas edə bilməyəcəkdir. Şeyxəm Mirzə davamlı zərbələr vurmaqla Səfəvi qoşunlarını zəiflətmək və onları qala ətrafından çəkilməyə məcbur etmək istəyirdi. Ona görə Şeyxəm Mirzə yenidən Səfəvi qoşunları üzərinə gecə hücumu həyata keçirmək qərarına gəldi. Bu dəfə o, Əmir Nəcmin dayandığı mövqeyə hücum etməyi qərarlaşdırdı. Təsadüfdən həmin gecə Əmir Nəcm o mövqedə yox idi. O, həmin mövqeni mövqeni bacısı oğlu Məhəmməd Kazıma tapşırmışdı. Məhəmməd Kazım da gecə vaxtı səhlənkarlığa yol verdi və yatmaq üçün öz çadırına yollandı. O, yuxuda olduğu zaman Şeyxəm Mirzə bir min nəfərlik özbək dəstəsi ilə bu Səfəvi dəstəsinin üzərinə hücum etdi. Məhəmməd Kazım yuxudan ayılana kimi, bu dəstədə olan İsfahan döyüşçülərindən 70-80 nəfər qətlə yetirildi. Dəstəni məhv olmaqdan Hüseyn bəy Lələ ilə Dədə bəy Qorçubaşının köməyə gəlməsi qurtara bildi. Həmin əmirlər özbək qoşun dəstəsinin hücum xəbərini eşidən kimi, dərhal hərəkətə gəldilər və yanlarındakı qoşun dəstəsi ilə döyüşün getdiyi məkana yollandılar. Məlumata görə, Şeyxəm Mirzə ilkin ümidlərinə baxmayaraq, 700 nəfər itki verəndən sonra yenidən qalaya çəkilmək məcburiyyətində qaldı (193).

Səhər açılanda Əmir Nəcm baş vermiş hadisədən xəbərdar oldu və maraqlananda məlum oldu ki, özbəklərin bu dəfəki hücumu məhz onun rəhbərlik etdiyi mövqe üzərinə olmuşdur. Yenidən qəzəb onu bürüdü və hətta Məhəmməd Kazımın onun bacısı oğlu olması belə onun bu hirs və qəzəbini soyutmadı. Dərhal onu yanına çağırtdırdı və gecə nə baş verməsini ondan da soruşdu. Məhəmməd Kazım isə cavab verdi ki, gecə paltarını dəyişmək üçün mövqeni tərk edəndə özbəklər hücum etmiş və 70-80 nəfəri qətlə yetirmişlər. Əmir Nəcm onun bu səhlənkarlığını bağışlamadı və dar ağacından asılması haqqında qərar verdi. Bu əmr dərhal yerinə yetirildi. Əmirlər və əyanlar Məhəmməd Kazım bəyin bağışlanması üçün yenidən Babur padşahı vasitə etməyə çalışdılar. Babur padşah da atlanıb meydana gələndə artıq iş-işdən keçmiş və Məhəmməd Kazım dünyasını dəyişmişdi. Əmir Nəcm döyüş tapşırığının icrasına məsuliyyətsiz yanaşılmasını hətta bacısı oğluna belə bağışlamadı. Baxmayaraq ki, əmirlər və əyanlar bu qətlin əleyhinə idilər. Amma Əmir Nəcm sonradan peşman oldu. O dərəcədə peşman oldu ki, havalanmaq dərəcəsinə gəlib çıxdı. Əmir Nəcm "Kazım, Kazım" deyə gəzir, rastlaşdığı əmirlərdən də Məhəmməd Kazımın harada olmasını soruşurdu. Fəryad çəkərək bildirirdi ki, mən özüm gedəcəyəm qala üzərinə, ya

bir iş görəcəyəm, ya da Şeyxəm Mirzənin əlində öləcəyəm. Bu vəziyyətdən əmirlər və əyanlar da çox təsirləndilər və Əmir Nəcmin bu dərdinin unutdurulmasının ən yaxşı yolunu qala üzərinə uğurlu hücumun təşkil edilməsində gördülər. Səfəvi döyüşçüləri bir neçə gün ərzində çoxlu sayda nərdivanlar hazırladılar və onların köməyi ilə qala üzərinə hücum çəkdilər. Bununla belə, göstərilən cəhdlər bir nəticə vermədi və qalanı ələ keçirmək mümkün olmadı. Qala daxilindəkilərin müqaviməti buna imkan vermədi (194).

Qərşı qalasının alınması üçün Bayram bəy Qaramanlı öz fəndini işlətməli oldu. O öz döyüşçülərinə əmr etdi ki, nərdivanlara sarmaşaraq yenidən qala üzərində dayanmış özbək döyüşçüləri ilə döyüşə başlasınlar. Bu zaman özbəklər duyuq düşməsin deyə nərdivanlar düzülmüş ərazidə qala divarları altından lağım atılmasına başlandı. Bunun üçün Bayram bəyqala divarlarının daha münasib hissəsini seçə bilmişdi və bir müddətdən sonra onun döyüşçüləri qazılmış lağımdan qala daxilinə nüfuz edə bildilər. Bu da qalanın taleyini həll etdi. Səfəvi döyüşçüləri qalanın bütün darvazalarını açmağa müvəffəq oldular və bütün qoşunlar qala daxilinə yeridildi. Əsəblərində artıq müəyyən problemlər yaranmış Əmir Nəcm göstəriş verdi ki, qala daxilindən bir nəfər də salamat çıxmamalıdır. Nəticədə, mənbə məlumatlarına görə, bütün qala əhli qılıncdan keçirildi. Qala daxilindəki məhəllələrin birində cığataylar yaşayırdılar. Onların nümayəndələri Babur padşahın yanına gələrək ondan cığataylılara aman verilməsini istədi. Babur padşah da Əmir Nəcmin yanına gəldi ki, cığataylar günahsızdırlar və onlara aman verilsin. Əmir Nəcm də bildirdi ki, onlar günahsız olsaydılar əvvəldən məktub göndərib öz hallarını bildirərdilər. Artıq gecdir, mən and işmişəm ki, Məhəmməd Kazımın qisasının alınması üçün qaladan bir nəfər də sağ çıxmamalıdır. Ona görə də şəhər əhlinin kütləvi qətlinə yenidən rəvac verildi. Əmir Nəcm hətta sayı xeyli çox olan seyidlərə belə rəhm etmədi. Onlardan böyük bir hissəsi məscidə sığınaraq Əmir Nəcmin yanında olan Mir Şərafəddinin yanına adam göndərdilər, ondan kömək istədilər. Mir Şərafəddin də Əmir Nəcm qarşısında islam seyidlərinin bağışlanmasını xahiş etdi. Əmir Nəcm bu xahişi də qəbul etmədi. Bildirilir ki, hətta Əmir Nəcm özü məscidə yollanaraq həmin seyidlərin məscid daxilində qətlinə sərəncam verdi. Bir sözlə, Əmir Nəcm Qərşi qalası daxilində çox böyük qırğınlara rəvac verdi və mühasirə günləri ərzində rastlaşdığı gərginliklərin, əsəb sarsıntılarının və pozğunluqlarının əvəzini bu qırğınları törətməklə çıxmağa çalışdı (195).

Mənbələr Qərşi qalası daxilində həyata keçirilən kütləvi qırğınlar zamanı 15 min nəfərin öldürüldüyünü bildirirlər (196). Bu qala daxilində baş verənlərdən yazarkən yerli əhaliyə qarşı qətliam həyata keçirilməsi və ya Əmir Nəcm tərəfindən bir nəfərin belə salamat buraxılmayacağı barədə and içilməsi haqqında yazırlar. Amma əgər qala əhalisinin ümumi sayının 300 min nəfər olması haqqındakı mənbə məlumatının doğruluğu nəzərə alınsa (197), onda Qərşi qalasının bütün əhalisinin heç də qətlə yetirilmədiyini görmək mümkündür. Bununla belə, əslən İsfahandan olan Əmir Nəcmin Qərşı qalası daxilində böyük amansızlığa yol verməsi mənbələrdə öz əksini tapmışdır. Bu amansızlıqlar o həddə çatmışdı

ki, hətta bu, bir çox Səfəvi əmirlərini də narazı salmışdı. Şeyxəm Mirzənin taleyinə gəlincə isə o, həbs edilərək qətlə yetirildi.

Səfəvi qoşunları bir müddət Qərşi qalasında qaldılar və istirahət etdilər. Əmir Nəcm qala daxilində ələ keçirilən sərvətlərin böyük bir hissəsini qoşun əhli arasında bölüdürdü və Qərşi qalasının alınmasında göstərdikləri xidmətlərə görə onların daha qiymətli hədiyyələrə layiq olduğunu bildirdi. Sonra qoşunlar Buxara istiqamətində hərəkətə gətirildi. Məlumat alınmışdı ki, Übeydulla xanın və Canı bəyin qoşun dəstələri bu şəhərdə toplanmışdır. Bu keçmiş hakimlərin birləşmiş qoşunlarına ağır zərbə vurmaqla bölgədə Səfəvi hakimiyyətini xeyli möhkəmləndirmək olardı. Buxaranın dörd fərsəxliyinə yetişəndə Əmir Nəcm məlumat aldı ki, Şeybək xanın oğlu Məhəmməd Teymur xan böyük bir qoşun dəstəsi ilə Buxaraya tərəf gəlməkdədir. Belə olanda Əmir Nəcm qoşunları Buxara yaxınlığında dayandırdı və Bayram xan Qaramanlının rəhbərliyi altında olan qoşun dəstəsini Məhəmməd Teymur xanın dəstəsinin qarşılanmasına və onun dəstəsinə zərbə vurulmasına göndərdi. Məhəmməd Teymur xan eşidəndə ki, Bayram xan Qaramanlı ona qarşı göndərilib, onda onunla açıq döyüşə çıxmaqdan imtina etdi. Çox güman ki, Bayram xanın sərəncamına kifayət qədər güclü bir dəstə verilmişdi və ona görə də Məhəmməd Teymur xan Səfəvi qoşun dəstəsi ilə açıq döyüşə girməyə cəsarət etməyərək yaxınlıqdakı Ğecdevan qalasına sığındı və orada müdafiəyə çəkildi. Məhəmməd Teymur xan öz qoşun dəstəsi ilə Buxaradakı özbək qoşunlarına birləşdikdən sonra Səfəvi qoşunlarına qarşı çıxış etmək istəyirdi. Lakin Səfəvi əmirlərinin onu qabaqlaması və bu qoşun dəstələrinin birləşməsinə imkan verməməsi Məhəmməd Teymur xanı məcbur etdi ki, müdafiəyə çəkilsin. Bayram xan da bu qalaya yetişib onu mühasirəyə aldı və sonra da vəziyyət barəsində Əmir Nəcmə məlumat göndərdi. Əmir Nəcm də bütün qoşunları hərəkətə gətirərək Ğecdevan qalası ətrafına gəldi. Səfəvi qoşunlarının Ğecdevan qalası ətrafına gəlməsi və orada Məhəmməd Teymur xanın mühasirəyə alınması xəbərini eşidəndə əvvəlcə Übeydulla xan, onun ardınca da Cani bəy öz qoşun dəstəsi ilə Məhəmməd Teymurun köməyinə yollandılar. Onların yetişməsi ilə özbək qoşunlarının gücü xeyli artmış oldu (198).

Beləliklə, hakimiyyəti öz əllərinə almaq istəyən özbək xanlarının birləşmiş qoşunları 1512-ci ilin oktyabr ayında Ğecdevan qalasında mühasirəyə alındılar. Əmir Nəcmin artıq qala döyüşünə rəhbərlik etmək təcrübəsi var idi. Çox güman ki, əvvəlki təcrübəyə arxalanan Əmir Nəcm bu dəfə də qala döyüşündən uğurla çıxacağına şübhə etmirdi və bu da onda müəyyən arxayınçılıq yaratmışdı. Mənbə müəllifləri bildirirlər ki, Əmir Nəcm bu qalanın mühasirəsi zamanı kifayət qədər qürurlu idi və mövcud olan hərbi şəraiti əslən dəyərləndirmədi. Qışın yaxınlaşmaqda olduğu bir vaxtda bu qala ətrafında döyüş aparılmasını bir çox əmirlər düzgün hesab etməsələr də, Əmir Nəcm onların fikirlərini qəbul etmədi (199).

Hələ Übeydulla xanla Cani bəy öz qoşun dəstələri ilə yetişməzdən əvvəl Məhəmməd Teymur xanın dəstələri tez-tez qaladan bayıra çıxır və Səfəvi qoşunları üzərinə qəfil hücumlar edirdilər. Bu hücumlar Səfəvilər üçün kifayət qədər üzücü hücumlar idilər. Doğrudur, bəzi hücumlar Səfəvi qüvvələri tərəfin-

dən uğurla dəf edilirdi. Amma bəzi hücumlar da Səfəvilərə itkilər yetirilməsi ilə başa çatırdı. Yəni, Səfəvilər açıq təşəbbüs üstünlüyünə malik ola bilmirdilər. Ğecdevan qalasının imkanlarından xəbərdar olan yerli əyanlar da onun mühasirə yolu ilə alınmasının xeyli çətin olduğunu anlatmağa çalışırdılar. Bu əyanların Əmir Nəcmə verdiyi məlumatlara görə, qalanın müdafiə imkanları yaxşı olmaqla bərabər, qala daxilində kifayət qədər silah-sursat və azuqə ehtiyatları var idi. Əmir Nəcmin nəzərinə o da çatdırılırdı ki, yaxınlaşmaqda olan qış Səfəvi qoşunlarının azuqə çətinliklərini artıracağı kimi, Buxaradakı qoşun dəstələrinin yetişməsi isə Səfəvi qoşunlarının vəziyyətini xeyli mürəkkəbləşdirəcəkdir. Qoşunları azuqə ehtiyatlarının tükənməsi narahatçılığı xüsusi ilə artırırdı. Ona görə də əmirlər və əyanlar Ğecdevan qalasının mühasirəsinin dayandırılmasını, qoşunların Xozar və Qərşi bölgələrinə geri çəkilməsini, qışın orada keçirilməsini Əmir Nəcmə təklif etdilər. Qərşi və Xozar bölgələri həm su ehtiyatlarının bolluğu ilə seçilirdi, həm də bu bölgələrdə azuqə ehtiyatlarını daha asanlıqla tapmaq mümkün idi (200).

Mənbə məlumatlarına görə, bu məsələ əmirlər tərəfindən qaldırılanda Əmir Nəcm onu qəbul etmədi. Onun fikrincə, əgər Səfəvi qoşunları geri çəkilməyə başlasaydı özbək qoşunları bunu qorxaqlıq əlaməti kimi qəbul edə bilərdilər. Bu isə onları daha da ruhlandıra bilərdi. Geri çəkilməklə bağlı məsələnin müzakirəsi zamanı Babur padşah da özünü məclisə yetirdi. O da bölgəni yaxşı tanıyan birisi kimi, qoşunların geri çəkilməsini və yazın gəlişi ilə Ğecdevan qalasının yenidən mühasirə edilməsini məsləhət bildi. Bəzi məlumatlara görə, Əmir Nəcm bu zaman təklifi qəbul etdi. Amma bəzi məlumatlara görə isə qəbul etmədi. Həmin müzakirələrin səhəri günü Übeydulla xanla Cani bəyin qoşunlarının yaxınlaşması müşahidə olundu. Bu qoşunların görünməsi Əmir Nəcmin geri çəkilməklə bağlı tərəddüdlərinin üstündən xətt çəkdi. Çünki köməyə gələn özbək qoşunlarının hücum hazırlıqları Səfəvi qoşunlarını döyüşə girməyə məcbur etdi (201).

Bəzi məlumatlara görə isə, Ğecdevan qalası ətrafında olanda Səfəvi qoşun dəstələri azuqə tapılması üçün ətraf məntəqələrə dağılırdılar və beləliklə, onların qüvvələri səpələnirdilər. Übeydulla xanla Canı bəy də Səfəvi qoşunlarının belə səpələnmələrindən istifadə edərək ona zərbə vurulmasını münasib bilmiş və ona görə də Ğecdevan qalası ətrafına yola düşmüşdülər. Onların qala ətrafına yetişməsi ilə tərəflər arasında ciddi döyüşün baş verməsi qaçılmaz oldu. Məhəmməd Teymur xanın qoşun dəstəsinin Buxaradan gələn özbək qoşunlarına qoşulması ilə kifayət qədər güclü bir qüvvə formalaşdı və bu qüvvə Səfəvi qoşunlarına qarşı döyüş mövqeyi tutdu. Tərəflər arasında döyüşün qaçılmaz olması aydın olanda Əmir Nəcm də Səfəvi qoşunlarını döyüşqabağı qruplaşdırdı. Sağ və sol cinahlara rəhbərlik təcrübəli əmirlərə tapşırıldı, mərkəzdəki qüvvələrə rəhbərliyi isə Əmir Nəcm öz üzərinə götürdü. Babur padşahın tabeçiliyində olan qoşun dəstəsi ehtiyatda saxlanıldı. Əmir Nəcm ona tapşırıq verdi ki, hansı tərəfdə özbəklərin üstünlüyü hiss olunsa dəstəsi ilə həmin tərəfə atılsın. Beləliklə, 1512-ci il noyabr ayının 12-də Əmir Nəcmin rəhbərliyi altında olan Səfəvi qoşunları ilə

özbək qoşunları arasında böyük bir döyüş baş verdi. Bu döyüşün təfərrüatları barəsində mənbələrdə geniş məlumat yoxdur. Bəzi mənbələrə əsasən, müəyyən etmək mümkündür ki, Səfəvi qoşunlarının sağ cinahına Bayram xan Qaramanlı rəhbərlik edirdi. Bu cinahda döyüş uğurla başlasa da, Bayram xanın təsadüfi oxa tuş gəlməsi və dünyasını itirməsi həmin cinahdakı qüvvələr arasında bir çaşqınlıq yaratdı. Səfəvi əmirinin qətlə yetirilməsi həm də özbəkləri xeyli ruhlandırdı və onlar daha böyük əzmkarlıqla irəli atıldılar (202).

Amma mövcud olan məlumatlar onu deməyə əsas verir ki, Əmir Nəcm bu döyüşü təşkil edə bilmədi. Əvvəla, yuxarıda qeyd edildiyi kimi, yersiz qürur və özünə arxayınçılıq qarşı tərəfin qüvvələrinin və imkanlarının reallıqla dəyərləndirilməsini çətinləşdirdi və Əmir Nəcm elə hesab etdi ki, onun adı döyüşün taleyini həll etməyə yetərli olacaqdır. Bundan başqa, Əmir Nəcm döyüş şəraitini, qəfil baş verə biləcək hücumların nəticələrini öncədən görə bilmədi. Onun tərəfindən qarşı tərəfin lazımi şəkildə kəşfiyyatının aparılması da təşkil edilmədi. Əmir Nəcm Buxaradakı özbək qoşunlarının nə vaxt və hansı istiqamətdən gəlməsindən vaxtında xəbər tuta bilmədi və bununla əslində iki tərəfdən hücum edən qoşun dəstələrinin zərbəsi altında qaldı. Əmir Nəcm döyüşü düzgün qura bilmədi, qüvvələrini düzgün bölüşdürə bilmədi, səmərə gətirəcək bir taktika işlətmədi. Nəhayət, Əmir Nəcm rəhbərliyi altında olan qüvvələri bu döyüşə səfərbər edə bilmədi. Səfəvi qüvvələri elə döyüşün əvvəlində parçalandılar və döyüş meydanını tərk etdillər. Mənbələrdə bunun səbəbi göstərilmiş və əmirlərin Əmir Nəcmə sədaqətsizlik göstərməsi ilə əlaqələndirilmişdir. Amma bu səbəb çox da inandırıcı görünmür. Çox güman ki, qüvvələrin parçalanmasına başlıca səbəb məhz döyüşün düzgün təşkil edilə bilməməsi idi. Çünki Türküstan səfərinə çıxmış adlı-sanlı Səfəvi əmirləri, Şah İsmayılın ən etibarlı sərkərdələri yalnız Əmir Nəcmə sədaqətsizlik üzündən döyüşü atıb qaçmazdılar. Baxmayaraq ki, Əmir Nəcmin düşünülməmiş və səmərəsiz qərarları, əmrləri, tədbirləri onunla sərkərdələr arasında müəyyən narazılıqlar yaratmışdı. Amma Səfəvi əmirləri yalnız Əmir Nəcm qarşısında məsuliyyət daşımırdılar. Onlar Şah İsmayıl qarşısında məsuliyyət daşıyırdılar və ona hesabat verməli olacaqlarını bilirdilər. Özbəklərə qarşı döyüşdə də Əmir Nəcmin yox, Səfəvi dövlətinin taleyi həll olunurdu. Bunlar bilindiyi halda Səfəvi əmirlərinin Ğecdevan ətrafındakı döyüşdə yalnız Əmir Nəcmə görə döyüş meydanından çəkilmələri haqqında ortaya qoyulan məlumatlar elə də inandırıcı görünmür.

Bununlka belə, bəzi mənbələrdəki məlumatlara görə, döyüşün gedişində təcrübəli Səfəvi əmirləri, o cümlədən Hüseyn bəy Lələ, Əhməd bəy Sufioğlu və digərləri döyüş meydanını tərk edib kənara çəkildilər. Bildirilir ki, bu vəziyyəti görəndən sonra Babur padşah da heç döyüşə girmədən Hisari Şadman istiqamətində geri çəkildi. Əmir Nəcm isə öz dəstəsi ilə döyüş meydanından çıxmadı. Amma üstün olan özbək qoşunlarının qarşısını saxlamağa da gücü çatmadı. Übeydulla xan öz dəstəsi ilə mərkəzdən irəliləyərək Əmir Nəcmin dəstəsinə ağır zərbə vurdu. Əmir Nəcm də bu döyüşdə ələ keçirildi və Übeydulla xanın əmri ilə qətlə yetirildi (203).

Özbək xanları arzusunda olduqları bir qələbəni əldə etdilər. Bununla, onlar bir tərəfdən Şah İsmayıl qarşısında qəbul etdikləri öhdəliyə sədaqətli qalmadıqlarını və bölgəyə hakimlik iddialarından əl çəkməyəcəklərini nümayiş etdirdilər, bir tərəfdən də döyüşün təşkilinə məsuliyyətsizcəsinə yanaşılmasının bağışlanmayacağını ortaya qoydular. Şah İsmayılın bu yürüşdə iştirak etməməsi Səfəvi qoşunlarının ilk dəfə belə böyük bir uğursuzluğuna yol açdı. Şah İsmayılın sonradan Türküstan üzərinə həyata keçirdiyi uğurlu yürüşün nəticələri də onu göstərirdi ki, məhz Şah İsmayılın olmaması, yəni döyüşün təşkilində onun təcrübəsinin tətbiq edilməməsi Səfəvi qoşunlarını çox ciddi sınaq qarşısında qoydu. Bölgədə Səfəvi hakimiyyətinə son qoyuldu, özbək xanları müstəqil hakimiyyətlərini geri qaytardılar. Bundan əlavə, özbək qoşunlarının əlinə çox böyük həcmdə qənimət keçdi. Bu qənimət o qədər çox idi ki, ən kasıb özbəklər də var-dövlət sahibinə çevrildilər.

Özbək xanları isə heç də Ğecdevan ətrafında əldə etdikləri uğurla kifayətlənmədilər. Yaranmış əlverişli şəraitdən istifadə etməklə onlar öz hücumlarının coğrafiyasını daha da genişləndirdilər. Bütün Mavərənnəhr onların hakimiyyəti altına düşdükdən sonra özbək xanları Xorasan üzərinə də hücum etdilər. Xorasan və Herat hakimi Hüseyn bəy Lələ Ğecdevan ətrafındakı döyüşdən sonra Herata gələrək onun müdafiəsinin möhkəmləndirilməsi üçün müəyyən tədbirlər görməyə başladı. 1513-cü ilin fevralında Canı bəy Heratı mühasirəyə aldı. Bir müddətdən sonra Übeydulla xan da öz qoşunları ilə Herat ətrafına gəldi və o da Heratın mühasirəsinə girişdi. Bu şəhərin divarları ətrafında iki ay mühasirədə dayandıqdan sonra Canı bəylə Übeydulla xan arasında ixtilaf baş verdi və ona görə də onlar mühasirəni dayandırıb geri çəkildilər. Məhəmməd Teymur xan isə öz qoşun dəstəsi ilə Xorasan üzərinə hücum çəkdi. Übeydulla xan Herat ətrafından geri çəkilərkən Mürğabda Məhəmməd Teymur xanla qarşılaşdı və onunla birlikdə Xorasan üzərinə yürüşdə iştirak etməyə razı oldu. Onlar birlikdə Mərv, Məşhəd, Tus, Esfəreyn və digər şəhərləri öz nəzarətləri altına gətirdilər. Heratda olan Hüseyn bəy Lələ özbək xanlarının bu yürüşlərinin qarşısının alınmasının çətin olduğunu görəndə şəhəri tərk etdi və Təbəsdən keçməklə Şah İsmayılın düşərgəsinə yollandı. Hüseyn bəy Lələnin qaçması xəbərini eşidəndən sonra Məhəmməd Teymur xan Herat üzərinə, Übeydulla xan isə Məşhəd üzərinə hücum etdilər və onlar həmin şəhərləri ələ keçirdilər (204).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl"ın verdiyi məlumata görə, Xorasanın və Türküstanın itirilməsi xəbəri Şah İsmayıla İsfahanda çatdırıldı. Bildirilir ki, bu zaman Şah İsmayıl çox ağır xəstəlik keçirdi və hətta müalicə işlərinə cəlb olunmuş həkimlər onun sağala biləcəyindən əllərini də üzmüşdülər. Bununla belə, Hüseyn bəy Lələnin yetişdiyi vaxt Şah İsmayılın vəziyyətində yaxşılaşma özünü göstərməkdə idi. Mənbə məlumatlarına görə, Şah İsmayıl xəstəlikdən sonra öz hərəmindən kənara çıxdıqda bütün əyanlar və əmirlər onun ətrafına toplaşdılar. Hüseyn bəy Lələ isə onun qarşısında səcdə edib göz yaşlarını saxlaya bilmədi və baş verənlər haqqında ona məlumat çatdırdı. "Şah ondan soruşdu: Ey Lələ, mənim ağa Nəcmimi nə elədin və nə oldu? Dedi:

qurbanın olum, ruzgar Nəcmə vəfasızlıq etdi. Şah buyurdu: ruzgar ona siz etdiyiniz qədər edə bilməzdi. Dedi: Ey şəhriyar! Mənim Nəcmə münasibətim məgər Siz mürşidə məlum deyilmi? Dedi: məlumdur, amma mətləb yalnız səndə deyil. Nəcmə görə yüz min təəssüf. Mən istəyirdim ki, onu daha da ucaldım və elə bir səviyyəyə çatdırım ki, əgər bir gün mən olmasam, övladlarıma, İrana və xidmətçilərimə görə xatircəm olum. ...Ey Hüseyn bəy, bu insanda necə qüvvət və qüdrət var idi? Bu kəndçi balasında necə ağıl və zəka var idi? Bil və Allah da şahiddir ki, onun ölümünün dağı mənim ürəyimdən heç zaman getməyəcəkdir. Əgər o bu dünyada padşah olsaydı, o biri padşahların başına kül tökülmüş olardı" (205).

Mənbə məlumatlarına görə, Şah İsmayıl üç saat müddətində Əmir Nəcmi yad etdi və baş verən hadisələrin təfərrüatı haqqında Hüseyn bəy Lələdən məlumat istədi. Hüseyn bəy Lələ də bütün baş verənləri, o cümlədən Əmir Nəcmin Dədə bəyi cəzalandırmaq istəməsi, onun müavini İsgəndər bəyi cəzalandırması, bacısı oğlu Məhəmməd Kazımı yol verdiyi səhlənkarlığa görə dar ağacına çəkməsi və s. məsələlərdən Şah İsmayıl da hali oldu. Hüseyn bəy Lələ baş verən uğursuzluğun səbəbi barəsində də öz düşüncələrini Şah İsmayıla məruzə etdi. O da etiraf edirdi ki, qızılbaş döyüşçüləri döyüş meydanını tərk edərək Əmir Nəcmi çətin vəziyyətə salıblar. Amma onun dediyinə görə, döyüş meydanını ilkin olaraq Babur padşah tərk etdi və onun dəstəsinin geri qaçması qızılbaşlar arasında da bir anlaşılmazlıq yaratdı. Hüseyn bəy onu da əlavə etdi ki, Babur padşahın dəstəsi qaçmasaydı, özbək qoşunları qızılbaşların qarşısında bir iş görə bilməzdilər. Şah İsmayıl bu xəbərdən də mütəəssir oldu və bildirdi ki, bu gündən sonra kimsə mənim yanımda Babur padşahın adını çəkməsin. Əks təqdirdə, həmin adam cəzalandırılacaqdır. Sonra Şah İsmayıl göstəriş verdi ki, Səfəvi səltənəti tabeliyində olan bütün hakimlərə qoşun toplanması haqqında məktub göndərilsin. Həmin qoşunlar 1513-cü ilin yazın əvvəlində Sultaniyyə çəmənində toplanmalı idi (206).

### 8.Şah İsmayılın Xorasana növbəti yürüşü

1513-cü ilin novruz bayramından əvvəl Şah İsmayıl İsfahanı tərk edərək Sultaniyyə çəməninə gəldi. Novruz bayramını orada böyük təntənə və şənliklə keçirdikdən sonra Şah İsmayıl Xorasan üzərinə yürüş hazırlıqlarını görməyə başladı. Amma Xorasan yürüşünə başlamazdan əvvəl Şah İsmayıl bəzi dövlət təyinatları apardı. Dünyasını dəyişmiş Əmir Nəcmin vəzifəsi Mir Əbdülbaqiyə həvalə olundu. Mir Əbdülbaqi bu vəzifənin Ərdəbilin böyük şeyxinə həvalə edilməsini təklif edilsə də, Şah İsmayıl öz qərarında qaldı. Bundan sonra toplanmış qoşunlar Xorasana doğru hərəkətə başladılar. "Aləmara-yi Şah İsmayıl"ın verdiyi məlumata görə, bu yürüş üçün Şah İsmayıl 12 min nəfərlik bir qoşun dəstəsi toplamışdı (207). Bəzi məlumatlara görə isə, Şah İsmayıl 40 min nəfərlik qoşun dəstəsi toplamışdı (208).

Səfəvi qoşunları hərəkətə gəldikdən sonra Savə ətrafında düşərgə salındı. Burada yürüş üçün daha konkret hazırlıqların görülməsinə başlandı. Bəzi

məlumatlara görə, Səfəvi qoşunları novruz bayramından iki ay keçdikdən sonra, yəni 1513-cü il may ayının axırlarında Sultaniyyədən hərəkətə başladı. Savədə olarkən Şah İsmayıl göstəriş verdi ki, bütün əmirlər, döyüşçülər özləri və xidmətçiləri üçün ən azı üç aylıq azuqə ehtiyatı yaratsınlar. Xorasan vilayətində azuqə qıtlığının olması belə bir hazırlığın görülməsini zəruri edirdi. Qısa müddət ərzində Səfəvi qoşunları üçün üç aylıq azuqə ehtiyatı yaradıldı. Ondan sonra qoşunlar və Şah İsmayıl Kəbud Künbəz və Firuzkuh istiqamətində irəliləyərək Bestam çəməninə gəldi və qoşunlar orada da düşərgə saldılar. Bestamda olarkən Şah İsmayıl şəxsən qoşunlara sıra baxışı keçirdi. Qoşun toplanması üçün göstəriş verilərkən tələb olunmuşdu ki, hər bir atlı mindiyi atdan başqa bir baş ehtiyat ata, ehtiyat silah və təchizata malik olmalıdır. Şah İsmayıl özünün ağ atının belində qoşunların qarşısından keçməklə hər bir fövcün (alayın) təchizat və hazırlıq səviyyəsini nəzərdən keçirirdi. Hər fövcün sıra baxışı sona çatanda həmin fövcün rəhbəri sıra qarşısında bir növ dəstənin hazır olması və qarşıya qoyulan vəzifənin icrası üçün dəstə döyüşçülərinin öz səylərini əsirgəməyəcəyi haqqında məlumat verirdi. Məlumatlara görə, belə təcrübənin tətbiqinə məhz Bestamda başlandı (209).

Sonra qoşunlar Bestamdan hərəkət edərək Kalpuş yaylağına gəldilər. Burada qoşunların səfər qruplaşması aparıldı. Şah İsmayılın göstərişi ilə Şiraz hakimi Xəlil Sultan qoşunların mənqəlayı (avanqard dəstəsi) təyin edildi və onun dəstəsi əsas qüvvələrdən öncə Məşhədə doğru hərəkətə başladı. Bu qüvvələrin Məşhədə doğru hərəkət etməsindən xəbər tutan Übeydulla xan Səfəvilər qarşısında taqət gətirə bilməyəcəyini anladığından heç bir müqavimət göstərmədən şəhəri tərk etdi. Übeydulla xan əvvəlcə Mərvşahican məntəqəsində dayanmaq istədi. Lakin sonradan bunun da mənasız olduğunu anlayanda Buxaraya doğru geri çəkilməyə başladı. Onun bu hərəkətini Məhəmməd Teymur xan da təkrarladı və o da qoşunları, əyan və əmirləri ilə Heratı döyüşsüz tərk edərək Səmərqəndə doğru üz tutdu. Bununla da Şah İsmayıl hələ Kalpuş yaylağında olarkən Xorasan vilayəti bütünlüklə özbək qoşunlarından təmizləndi (210).

"Aləmara-yi Şah İsmayıl"ın verdiyi məlumata görə isə, Şah İsmayıl Mirzə Məhəmməd Talışı pişxana (avanqard) dəstəsinə rəhbər təyin etdi və onun dəstəsini öncədən yola saldı. Şiraz hakimi Xəlil Sultanla Div Sultan isə qoşun çərxçiləri təyin edildilər və onlar da 5 min nəfərlik qoşun dəstəsi ilə öz vəzifələrinin icrasına yollandılar. Xəlil Sultanın və Div Sultanın rəhbərliyi altında olan çərxçilər də dərhal Məşhədə doğru istiqamət götürdülər. Onların yaxınlaşması Xorasan vilayətində olan özbək əmirlərini və döyüşçülərini böyük təşvişə saldı və geri çəkilməklə yaxınlaşmaqda olan təhlükədən canlarını qurtara bildilər. Semnandan Məşhədə qədər olan ərazidə yerləşən şəhərlərdəki özbək əmirləri və onların dəstələri hamısı geri çəkilib Məşhədə, Übeydulla xanın yanına toplandılar. Onun özünün sərəncamında beş min nəfərlik qoşun dəstəsi var idi. Ətraf şəhərlərdən gəlmiş qoşun dəstələri ilə birlikdə Übeydulla xanın yanında 20 min nəfərlik bir qoşun dəstəsi toplandı. Übeydulla xan güman etdi ki, bu qoşun dəstəsi ilə Səfəvi çərxçilərinə müəyyən zərbə vura bilər. Elə bu məqsədlə də

Übeydulla xan Səfəvi çərxçilərinin üzərinə hücuma keçdi. Amma Übeydulla xan bu döyüşdə də anladı ki, Səfəvi qoşunları ilə üz-üzə durmaq heç də asan deyil. Adı çəkilən mənbənin məlumatına görə, özbək dəstəsindən dörd min nəfər qırılandan sonra Übeydulla xan canını salamat qurtarmaq üçün hətta qoşunlara da xəbər vermədən gizlicə Məşhədi tərk etdi və Herata üz tutdu. Özbək döyüşçüləri Übeydulla xanın qaçmasından xəbər tutanda idarəedilməz vəziyyətə düşdülər və qaçıb dağıldılar. Xəlil Sultanla Div Sultan döyüşə-döyüşə Übeydulla xanın ələminə yetişdikdə onun qaçmasından xəbər tutdular. Səfəvi dəstəsi elə bir ciddi müqavimətlə rastlaşmadan döyüşdən qalib çıxdı və sonra da Məşhədə daxil oldu (211).

Xəlil Sultan və Div Sultan Məşhədə daxil olduqdan sonra əsir götürülmüş özbək döyüşçülərini, qətlə yetirilənlərin kəsilmiş başlarını və baş verənlər haqqında məlumatı Şah İsmayıla göndərdilər. Baxmayaraq ki, Məşhəd ətrafında uğur əldə edilmişdi, ümumən döyüşün nəticələri Şah İsmayılı razı salmadı. Şah İsmayıl onu istəyirdi ki, Məşhəddə olan özbək xanları, onların yaxınları ələ keçirilərək Səfəvi düşərgəsinə gətirilsin. Məlumatlardan belə məlum olur ki, o, çərxçilərə və onların rəhbərlərinə də belə tapşırıq veribmiş. Amma özbək xanlarından heç biri ələ keçirilməmişdi. Bunun nəticəsi idi ki, Xəlil Sultanla Div Sultanın fəaliyyəti onu heç də qane etmədi. Ona görə də Şah İsmayıl Qarapər (Qarapir) Sultan Qacarı yeni bir qoşun dəstəsi ilə Herata yola saldı. Bu qoşun dəstəsi 8 min nəfərdən ibarət idi. Ona da tapşırıq verildi ki, Məhəmməd Teymur xanla Übeydulla xanı əsir edərək Səfəvi düşərgəsinə gətirsin. Qarapər Sultanın irəliyə göndərilmiş Səfəvi dəstəsinin rəhbəri təyin edilməsi Xəlil Sultanla Div Sultan tərəfindən təəccüblə qarşılandı. Onlar özlüyündə Məşhədin ələ keçirilməsinə görə Şah İsmayıl tərəfindən mükafatlandırılacaqlarını gözləyirdilər. Əvəzində isə onlar vəzifədən kənarlaşdırılmışdılar. Şah İsmayılın məzəmmətləri və cəzası ilə qarşılaşmamaq üçün Xəlil Sultanla Div Sultan qərara gəldilər ki, sərəncamlarında olan qoşun dəstəsi ilə Übeydulla xanın ardınca Herata yollansınlar, onu ələ keçirib Şah İsmayıla təhvil versinlər. Bununla, onlar şah yanındakı nüfuzlarını bərpa etməyə cəhd göstərdilər (212).

Şah İsmayıl Məşhədin azad edilməsi xəbərini alandan sonra İmam Rzanın ziyarətinə yollanmağı qərarlaşdırdı. Bu ziyarətgaha üç fərsəxlik yol qalmış Şah İsmayıl və onun ətrafındakılar atlardan yerə endilər və piyada öz yollarını davam etdirdilər. Ziyarət və ibadət işlərini başa vurandan sonra Şah İsmayıl

Xəlil Sultanla Div Sultanın harada olması ilə maraqlandı. Ona məlumat verildi ki, onlar şahın rizasını qazanmaq üçün Herata tərəf üz tutublar ki, Übeydulla xanla Məhəmməd Teymur xanı ələ keçirib Səfəvi düşərgəsinə gətirsinlər (213).

Məhəmməd Teymur xanla Übeydulla xan isə, yuxarıda qeyd edildiyi kimi, Heratda da dayanmadılar və Buzxara-Səmərqənd istiqamətində geri çəkilməyə başladılar. Xəlil Sultanla Div Sultan Herat ətrafına yetişəndə bu şəhərin Məlik Nizaməddin adlı birisinin nəzarəti altında olmasından xəbər tutdular. Onlar fənd işlətməklə Məlik Nizaməddinin qoşun dəstəsini qaladan



*Şah İsmayılın özbək qoşunlarına qarşı döyüşü*

kənara çıxara bildilər. Tərəflər arasında baş verən döyüşdə Məlik Nizaməddinin qoşun dəstəsi məğlubiyyətə uğradı. Xəlil Sultanla Div Sultan bu uğuru genişləndirməyə çalışaraq Məlik Nizaməddinin sağ qalmış döyüşçülərinin təqibinə başladılar. Səfəvi dəstəsi onları Qur və Ğərcistana kimi izlədilər, orada çoxlu sayda qənimət ələ keçirərək Herata döndülər. Şah İsmayıl Heratda olarkən Xəlil Sultanla Div Sultanın Herata tərəf irəliləməsini narahatçılıqla qarşıladı. Onun gümanınca, Heratda sayca xeyli çox olan özbək qoşunu toplaşmışdı və bu da Xəlil Sultanla Div Sultanın dəstəsi üçün ağır nəticələrə gətirib çıxara bilərdi. Ona görə, Şah İsmayıl hətta qoşunların pişxanasının Herata doğru hərəkətə başlamasını lazım bildi. Bu dəstə bir-iki mənzil irəlilədikdən sonra Xəlil Sultanla Div Sultanın Heratdakı qoşun dəstəsinə üstün gəlməsi və onların sonrakı fəaliyyəti haqqında məlumat aldı. Bu xəbər Şah İsmayılı çox sevindirdi. Xüsusilə, fəaliyyətlərindən narazı qaldığı Xəlil Sultanla Div Sultanın belə nəticə əldə etməsi onu çox məmnun etdi. Şah İsmayıl bununla bağlı hisslərini belə ifadə etdi ki, kişiliklə nakişilik (namərdlik) arasında bir addım məsafə vardır. Səfəvi şahının əmri ilə Xəlil Sultanla Div Sultan böyük səxavətlə mükafatlandırıldılar, onlara şah tərəfindən at, qılınc, qiymətli əşyalar bağışlandı (214).

Şah İsmayıl xüsusi bir müqavimətlə rastlaşmadan qoşunlarla birlikdə Herata daxil oldu. Bu şəhərdə olduğu günlərdə Şah İsmayılın hüzuruna Dədə bəy Qorçubaşı gəlib çıxdı. O, həm də Mərv hakimi idi və özbək qoşunlarının yaxınlaşması xəbərini eşidəndə o öz vəzifəsini tərk edib qaçmağa üz tutmuşdu. Dədə bəy şübhə etmirdi ki, bu qorxaqlığına və bütünlükdə səltənətə sədaqətsizlik nümayiş etdirdiyinə görə Şah İsmayılın qəzəbindən qurtara bilməyəcəkdir. Dədə bəy hüzura yetişən kimi səcdə edib bağışlanmasını xahiş etdi və mürşidi-kamildən aman istədi. Şah İsmayıl onun günahını bağışlamadı və onun şənini təhqir edəcək bir cəza ilə cəzalandırdı. Əvvəlcə, onun bığını və saqqalını qırxdılar, üzünə ağ çəkdilər, əyninə qadın paltarı geyindirdilər, sonra da ulağa otuzdurub ordubazar daxilində gəzdirdilər. Carçılar da car çəkib ətrafdakılara Dədə bəyin nə üçün belə cəzalandırılmasını çatdırdılar. Bununla da onun cəzalandırılması sona çatmadı. Dədə bəy ulağ belində Herat küçələrində də gəzdirildi və əmr olunmuşdu ki, bütün səltənət ərazisində onu ulağ üstündə gəzdirsinlər. Dədə bəy bu təhqiramiz cəzaya dözə bilmədi və məktub yazaraq Şah İsmayıldan xahiş etdi ki, belə cəzadansa onun ölümünə hökm versin. Şah İsmayıl da bəyan etdi ki, əslində, bu insanın qətli nəzərdə tutulmuşdu. Amma Gilanda aparılan döyüşlərdə, habelə səltənət xidmətində göstərdiyi fəaliyyətə görə onun öldürülməsindən əl çəkilmişdir. Şah İsmayıl hökm etdi ki, Dədə bəyi Ərdəbilə aparıb həbs etsinlər və ona gündə bir tikə çörək verilsin ki, acından ölməsin (215).

Şah İsmayılın bölgədə olduğu vaxt həyata keçirdiyi tədbirlərdən biri də Badğis ətrafında məskunlaşmış türkmanların və digər tayfaların cəzalandırılması oldu. Bu bölgənin Mürğab və Çaharoymaq məntəqələrində səpələnmiş olan həmin tayfalar Ğecdevan döyüşündən geri çəkilmək məcburiyyətində qalmış qızılbaş döyüşçüləri talan edərək hamısını qətlə yetimişdilər. Bundan başqa mə-

lum oldu ki, həmin bölgədə məskunlaşmış bəzi tayfalar könüllü şəkildə özbək xanlarının hakimiyyətini qəbul etmişlər. Bu tayfalar əslində, idarəolunmaz bir topluya çevrilmişdilər və onların talançı yürüşləri də vaxtaşırı dinc əhalinin güzəranını mürəkkəbləşdirirdi. Şah İsmayıl göstəriş verdi ki, bu tayfaların üstünə qoşun dəstəsi göndərilsin, onlara elə bir dərs verilsin ki, bir daha bölgə daxilində təcavüakar əməllərə cəsarət etməsinlər. Bu vəzifənin həyata keçirilməsi üçün təşkil olunmuş qoşun dəstəsinə Şah İsmayıl tərəfindən Cuci Sultan adlandırılan bir əmir təyin edildi. O da qısa müddət ərzində ona həvalə olunmuş tapşırığı yerinə yetirdi. Çöllərdə məskunlaşmış olan tayfalara elə bir zərbə vuruldu ki, bu tayfalar daha uzun müddət bölgənin narahatçılığına səbəb olacaq əməllərə yol vermədilər (216).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl"ın verdiyi məlumata görə isə Şah İsmayıl tərəfindən Badğis çöllərindəki tayfaların cəzalandırılması Div Sultana tapşırıldı. Özü də bu hücum gözlənilməz bir şəkildə həyata keçirildi. Çünki həmin tayfalar yerli şəraitdən istifadə etməklə çoxsaylı qoşunlara qarşı ciddi müqavimət göstərməyi bacarırdılar. Bu ərazilərdə ucsuz-bucaqsız qamışlıqlar mövcud idi. Təhlükə yaranan kimi yerli tayfaların kişi əhalisi bu qamışlıqlarda gizlənir və onlar üzərinə hücum etmiş döyüşçülərin yaxınlaşmasını gözləyirdilər. Yad döyüşçülər də bu tayfa üzvlərinin taktikasından xəbərsiz olduqlarından qamışlıqlar arasında onları axtarmağa başlayır və bu zaman gözləmədikləri halda onlardan nizə yarası alaraq həyatlarını itirirdilər. Səfəvi döyüşçülərinə qarşı da belə taktikanın tətbiqinə imkan verilməməsi üçün Şah İsmayıl hücumun gizliliyini qorumağa çalışdı. Bunun nəticəsi idi ki, Div Sultanın rəhbərliyi altında olan 10 min nəfərlik qoşun dəstəsi gizli şəkildə hərəkət etdi və gecə vaxtı həmin tayfaları mühasirəyə aldı. Bu tayfaların kişi əhalisi hamısı döyüşçü idilər və ona görə də kişi əhalisi kütləvi qırğınlara məruz qaldı. Yerdə qalan əhalinin böyük hissəsi isə əsir alınaraq Səfəvi düşərgəsinə gətirildi. Şah İsmayıl yürüşün nəticələrinə görə, Div Sultana və onun dəstəsinə öz məmnunluğunu çatdırdı (217).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Şah İsmayıl ilə Babur padşah arasında münasibətlərin aydınlaşdırılması haqqında da bəzi məlumatlar mövcuddur. Yuxarıd qeyd edildiyi kimi, Hüseyn bəy Lələ Ğecdevan döyüşünün uğursuzluğa düçar olamsında Babur padşahı daha çox ittihamlandırdı və Şah İsmayıl da bildirdi ki, bundan sonra kimsə onun yanında Babur padşahın adını çəkməsin. Başqa sözlə, Şah İsmayıl əvvəlki səmimi münasibətlərin bərpa edilə biləcəyini artıq mümkün saymırdı və bu da sözsüz ki, Babur padşah üçün yaxşı bir şey vəd etmirdi. Babur padşah öz adamları vasitəsilə Şah İsmayılın ona qarşı münasibətinin kəskin şəkildə dəyişməsindən xəbərdar olmuşdu. Ona görə də, Babur padşah onu gözləyən təhlükədən nicat tapmaq üçün yollar arayırdı. Səfəvi qoşunlarının Herata girməsi isə onun təşvişini daha da artırdı. Babur padşah təşviş içində idi ki, Səfəvi qoşunları Kabula doğru da istiqamət götürə bilərlər. O, qərara gəldi ki, Kabulu tərk edib Hindistana tərəf çəkilsin və oranın hakimlərinə sığınsın. Babur padşah Bədəxşan hakimi Xan Mir-

zənin yanına qasid göndərdi və Hindistana çəkilmək barəsində öz qərarını ona da çatdırdı. Eyni zamanda ondan bu qərarı ilə bağlı məsləhət də istədi. Xan Mirzə isə onun bu qərarını dəstəkləmədi. Bildirdi ki, əgər Babur padşah Kabulu tərk etsə, bununla, hakimiyyət birdəfəlik itiriləcəkdir. Xan Mirzə məsləhət gördü ki, Babur padşah yenə də Şah İsmayılın rəhminə sığınsın, onun yanına getsin, özünün bağışlanmasını bir daha xahiş etsin, Əmir Nəcmə lazımi anda kömək göstərməməsini isə həmin əmirin ona qarşı pis niyyətdə olması ilə əlaqələndirsin. Xan Mirzə şübhə etmirdi ki, günahlarının bağışlanmasını təvəqqe edəcəyi halda Şah İsmayıl onu bağışlayacaqdır. Xan Mirzə onun ardınca özünün də Şah İsmayılın yanına yollanmaq niyyətində olduğunu bildirdi (218).

Xan Mirzənin bu məsləhətlərinin əks olunduğu məktubu oxuyandan sonra Babur padşah verilən bu təkliflərin daha doğru olduğu qənaətinə gəldi. Ona görə də müəyyən hədiyyələrlə Babur padşah üzr istəmək üçün Şah İsmayılın düşərgəsinə yollandı. Adları çəkilən mənbələrin məlumatına görə, Babur padşahın Herata gəlməsi xəbərsiz halda baş verdi və Şah İsmayıl öz taxt və məqamında qərar tutduğu vaxt Babur padşah boynundan qılınc asılı vəziyyətdə onun hüzuruna yetişdi. Dua və sənadan sonra Babur padşah günahkar olduğunu, etdiyi əməllərdən xəcalət çəkdiyini dilə gətirdi. Böyük Əmir Teymurun varisinin bu halda dərgahda peyda olması səltənət əmirlərini və əyanlarını da təəccübə saldı. Babur padşah cəzalandırılacağını gözlədiyi və buna hazır olduğu halda Şah İsmayıl ona qarşı böyük lütfkarlıq göstərdi, ayağa qalxıb qolunu onun boynuna saldı, alnından öpdü, qılıncı Baburun boynundan açıb onun belinə bağladı, öz yanında ona əyləşmək üçün yer verdi. Şah İsmayıl bu görüş zamanı bir daha Əmir Nəcminin qabiliyyət və xidmətlərini xatırladı və sonra Babura dedi ki, bu şəkildə gəlişinlə hətta oğlumu qətlə yetirmiş olsaydın belə səni bağışlardım (219).

Babur padşah özünə haqq qazandırmaq üçün Əmir Nəcmə verdiyi təkliflərin qəbul edilmədiyini bildirdi. O cümlədən, onun Daşkənd istiqamətində irəliləmək təklifini qəbul etməməsini Babur padşah Əmir Nəcmin uğursuzluqlarından biri kimi qiymətləndirdi. Şah İsmayılın sakitləşdirilməsi üçün isə o bəyan etdi ki, Səfəvi şahının xidmətində olan yüzlərlə insan öz şahının şəfqəti nəticəsində Əmir Nəcmi əvəz edə bilər. Şah İsmayılın Babur padşahla görüşü Kabul hakiminin qiymətli hədiyyələrlə mükafatlandırılması ilə başa çatdı. Elə həmin günlərdə də Bədəxşan hakimi Xan Mirzə şah dərgahına üz tutdu və Herat ətrafında olduğu zaman Şah İsmayıl ilə görüşə bildi. Xan Mirzəyə də eyni münasibət göstərildi və bununla, həm Babur padşahın, həm də Xan Mirzənin Şah İsmayıl tərəfindən ola biləcək narahatçılıqlarına son qoyuldu (220).

Xorasanda dayandığı vaxt Şah İsmayılın aydınlıq gətirdiyi məsələlərdən biri də Qəndəharın səltənət hakimiyyəti altına gətirilməsi oldu. Bu vilayətin hakimliyi vaxtilə Sultan Hüseyn Mirzə Bayqaranın xidmətində olmuş sərdarlardan birinin vasitəsi ilə Şüca bəyin əlinə keçmişdi. O, vilayət daxilində öz müstəqilliyini elan etmişdi və hər vasitə ilə bu müstəqilliyi qoruyub saxlamağa çalışırdı. Babur padşah Kabulu ələ keçirəndən sonra Qəndəharı ələ keçirmək

üçün də planlar qurmaqda idi. Bu planın qarşısının alınması üçün Şüca bəy Şah İsmayılın Xorasana ilk yürüşü zamanı Herat ətrafında onunla görüşə bilmiş və Qəndəharın da Səfəvilər dövlətinə itaətini bəyan etmişdi. Şah İsmayıl onun sözlərinin səmimiliyinə inanmayaraq həbs olunmasına qərar vermişdi. Amma Şüca bəy həbsdən qaçmağa müvəfəq olaraq Qəndəhara qayıtdı və orada hakimiyyəti yenidən ələ aldı. Xorasanda olduğu zaman Şah İsmayıl bu məsələyə son qoymaq üçün Qəndəhar istiqamətinə Şahrux bəyin rəhbərliyi altında qoşun dəstəsi göndərdi. Şahrux bəyin yaxınlaşması xəbərini eşidən Şüca bəy Qəndəharı tərk edərək onun müdafiəsini əmisinə tapşırdı. Başqa bir məlumata görə isə, Şüca bəy Səfəvi səltənətində sədaqətlə xidmət edəcəyini və müəyyənləşdirilmiş olan bac-xəracın vaxtlı-vaxtında verəcəyini vəd etdikdən sonra Şahrux bəyin qoşun dəstəsi geri qayıtdı (221).

"Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, Şah İsmayıl üç ay müddətində Herat ətrafında dayandıqdan sonra Babur padşahın və Xan Mirzənin müşayiəti ilə Türküstana doğru istiqamət götürdü. Səfəvi şahı Div Sultanı çərxçi təyin edib onu qoşun dəstəsi ilə irəliyə göndərdi. Bu dəstənin ardınca isə bütün qoşun hərəkətə gəldi. Mürğab çayını adlayandan sonra məlum oldu ki, Bəlx hakimi Cani bəy Səfəvi qoşunlarının irəliləməsindən xəbər tutub qorxuya düşmüş və Bəlxi tərk edərək Buxara-Səmərqənd istiqamətində şimala çəkilmişdi. Bu da əslində Bəlxin yenidən Səfəvi hakimiyyəti altına gətirilməsini asanlaşdırdı. Bəlx sakinləri Şah İsmayılın yaxınlaşmasını eşidincə çoxlu sayda hədiyyə toplayaraq onun pişvazına çıxdı. Şah İsmayıl Bəlx sakinlərinin hədiyyələrini qəbul etdi, onlarla mehribanlıqla davrandı və bu vilayətin hakimliyini Div Sultana tapşırdı. Şah İsmayıl son səfərin gedişində Div Sultanın nümayiş etdirdiyi fədakarlıq və şücaətləri nəzərə alaraq Ceyhun çayından Əndicana qədər olan ərazilərin hakimliyini ona tapşırdı. Bildirilir ki, Şah İsmayıl bir ay müddətində Bəlxdə qaldı və həmin müddət ərzində Türküstana doğru yürüş üçün zəruri olan hazırlıqları apardı (222).

Şah İsmayıl Türküstanın dərinliklərinə doğru yolunu Hisari Şadman qalası yaxınlığından saldı. Bu zaman bu qalanın hakimi Fulad Sultan idi. Mənbələrdə bildirilir ki, Çingiz xan nəslində ondan şücaətli başqa birisi mövcud deyildi. Fulad Sultan, xüsusilə, kamandan ox atmaqda böyük məharət sahibi idi və sərəncamında olan iki min nəfərlik qoşun dəstəsi ilə Hisari Şadmanı öz nəzarəti altında saxlayırdı. Şah İsmayıla itaəti isə o, qəbul etmək istəmirdi. Qala yaxınlığında düşərgə saldıqdan sonra Şah İsmayıl onun yanına qasid göndərdi və çatdırdı ki, qala darvazalarını açıb itaət göstərsə onu öz hakimliyində saxlayacaq və sonra da qoşun dəstəsi ilə yoluna davam edəcəkdir. Şah İsmayıl sonra onu da əlavə etdi ki, qalanı zorla almaq məcburiyyətində qalsa onda nəinki Fulad Sultana, heç qala əhlinə də aman verməyəcəkdir. Şah İsmayılın bu ismarıcını alandan sonra Fulad Sultan ağsaqqalları topladı və onlardan məsləhət istədi. Ağsaqqallar da birmənalı şəkildə Şah İsmayılın təklifinin qəbul edilməsini, ona itaət göstərilməsini və bununla qırğınların qarşısının alınmasını məsləhət bildilər. Fulad Sultan Səfəvi şahına boyun əymək istəmədiyindən qala ağsaqqallarının məsləhətini

qismən qəbul etdi. Səfəvi qasidinin yanında o, qala sakinlərinə çatdırdı ki, mənim sizinlə işim yoxdur. Amma özüm Səfəvi qoşunları qarşısına çıxacaq, Şah İsmayılı tələb edəcək və ona bir ağac ox atacağam, ya onu öldürəcəyəm, ya da onun əli ilə öldürülmüş minlərlə özbəkdən biri də mən olacağam (223).

Şah İsmayılın qasidi eşitdiklərini geri qayıdıb şah hüzurunda ərz elədi. Şah İsmayıl bu təklifi qəbul etdi və səhəri günü mükəmməl döyüş geyimi, silahı və sursatı ilə Hizari Şadman qalası ətrafına yaxınlaşdı. Fulad Sultan bu geyimli-kecimli sərkərdənin kim olmasını soruşanda ona etdiyi təklif əsasında Şah İsmayılın döyüşə gəldiyini bildirdilər. Fulad Sultan da bütün təchizatı ilə döyüş meydanına çıxdı. Mənbə məlumatlarına görə, onlar bir müddət söhbətləşdilər və sonra döyüşə başladılar. Çox güman ki, onlar bu qarşılaşmanın şərtlərini müəyyənləşdirirdilər. Qarşılıqlı razılaşmaya əsasən, əvvəlcə Fulad Sultan kamanından Şah İsmayıla tərəf üç ədəd ox atdı. Amma bu oxlardan heç biri Şah İsmayıla dəymədi. Şah İsmayıl isə elə ilk oxu ilə onu atdan yerə saldı. Bu ox Fulad Sultanın sinəsini yararaq onun arxasından çıxdı. Qala sakinlər və qala daxilindəki qoşun dəstəsi Şah İsmayıl ilə Fulad Sultan arasındakı döyüşü maraqla izləyirdilər. Özbək qoşun dəstəsi Fulad Sultanın qalib gələcəyi təqdirdə qala dışarına çıxaraq Səfəvi qoşunları üzərinə atılmalı idi. Amma baş verənləri müşahidə etdikdən sonra qala əhli də, qala daxilindəki qoşun dəstəsi də itaət yolunu seçdi. Şah İsmayıl da qoşun dəstəsi ilə qalaya daxil olaraq həm oradakı qoşun dəstəsini, həm də qala əhlini bağışladı (224).

Bir neçə gündən sonra Şah İsmayıl Türküstanın içərilərinə doğru hərəkətini davam etdirmək istədi. Amma ona məlumat verdilər ki, bu ətrafda bir yaşıl vadi vardır ki, lalələrlə örtülmüdür. Hər gün də orada yağış yağır və yağışın damlaları lalələrə xüsusi bir gözəllik verir. Şah İsmayıl bunu eşidəndən sonra həmin vadiyə getməyə maraq göstərdi və ətrafındakı bir neçə əmirlə ora yollandı. Bu səfərlə bağlı "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərləri bir qədər rəvayət məzmunlu bir hadisəni təsvir etmişlər. Bildirilir ki, bu vadini seyr etmək doğrudan da Şah İsmayılın xoşuna gəldi. Lakin bu vadidə olarkən birdən Şah İsmayılın mindiyi madyanın iki qarşı ayaqları sürüşdü və at da, Şah İsmayıl da daş parçalarının üzərinə yıxıldılar. Şah İsmayılın atı aldığı zərbələrdən və yaralardan dərhal öldü. Şah İsmayıl özü isə huşunu itirdi. Ətrafındakılar nə etsələr də onu huşa gətirə bilmədilər. Şah İsmayılı bu səfərdə müşayiət edən Div Sultan tələb etdi ki, kimsə şahın bu vəziyyətdə olması barədə məlumat yaymasın. Ətraf nəzərlərdən gizli şəkildə əmirlər və əyanlar Şah İsmayılı öz çadırına gətirə bildilər. Bəziləri güman edirdilər ki, bəlkə Şah İsmayıl dünyasını dəyişib. Burnunun qarşısına güzgü tutduqda onun nəfəsinin hələ itmədiyi məlum oldu. Bununla belə, nə etsələr də onu ayılda bilmədilər. Şah İsmayıl beləcə üç gün huşsuz qaldı. Yalnız dördüncü gün o özünə gəldi. Şah İsmayılın ətrafında olan əmirlər baş verən hadisəni, göstərdikləri bütün cəhdlərin bir nəticə vermədiyini ona danışdılar. Şah İsmayıl da cavabında bildirdi ki, onun özünün də nə baş verməsindən xəbəri yoxdur. Yalnız onu xatırlayır ki, Əmir əl-mömünin onun balışının yanına təşrif gətirdi, əlini onun bütün bədəninə çəkdi, şəfqətini

əta elədi və dedi ki, öz sufilərinin yanına qayıt. Yoxsa onların işləri alınmayacaqdır (225).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" və "Cahanqoşa-ye xaqan" əsərlərində Şah İsmayılın huşsuz olduğu günlərdə Ərdəbildə səltənətə qarşı qiyam qaldırılması barəsində məlumat verilçişdir. Bu qiyamı Şah İsmayılın qardaşı Süleyman Mirzə qaldırmışdı. Süleyman Mirzə Ərdəbildəki Şeyx Səfi türbəsinə rəhbərik edirdi. Görünür, o da kifayət qədər iddialı bir insan idi və Ərdəbildə olduğu zaman mürşidi-kamil məqamının ona çatması barəsində müəyyən fikirlərə düşməyə başlamışdı. Xanəgaha rəhbərliyin ələ keçirilməsini isə o, dünyəvi rəhbərliyin ələ keçirilməsi kimi qəbul edirdi. Bu iddiasının həyata keçməsinin elə də asan olmadığını bilsə də, Süleyman Mirzə öz planları haqqında bəzi adamlarla məsləhətləşmişdi. Həmin adamlar da böyük iddalarla yaşadıqlarından və özlərinin bu işdə fayda əldə edə biləcəklərini düşündüklərindən Süleyman Mirzəni Şah İsmayıla qarşı qiyama təhrik etməyə başladılar. Həmin insanlar qiyama başlayacağı təqdirdə Süleyman Mirzəyə kömək göstərəcəklərini də bildirirdilər. Amma bir şərtlə ki, Süleyman Mirzə hakimiyyəti ələ keçirsə onların xidmətini layiqincə qiymətləndirsin. Süleyman Mirzə də vəd etdi ki, hakimiyyətə gələcəyi halda onlara istədikləri vəzifəni verəcəkdir. Qarşılıqlı razılaşma əsasında onlar belə qərara gəldilər ki, Şah İsmayıla qarşı qiyam qaldırılması üçün münasib anın yetişməsini gözləsinlər. Şah İsmayılın qəzaya düşməsi xəbərini eşidəndə isə həmin adamlar nəhayət ki, belə bir məqamın yetişməsi qənaətinə gəldilər (226).

Səfəvi əmirlərinin göstərdiyi bütün cəhdlərə baxmayaraq, Şah İsmayılın qəzaya düşməsini gizli saxlamaq mümkün olmadı. Hətta Şah İsmayılın dünyasını dəyişməsi barəsində də xəbərlər yayılmağa başladı. Süleyman Mirzənin və onun ətrafındakıların adamları bu xəbəri dərhal Ərdəbilə çatdırdılar. Süleyman Mirzə bu xəbərdən xoşhal oldu və qiyama başlamazdan əvvəl Şeyx Səfi türbəsinin ağsaqqallarını topladı, onlarla məsləhətləşdi. Bununla, Süleyman Mirzə onların da dəstəyini qazanmağa çalışdı. Amma sufi ağsaqqalları qiyam qaldırılması məsələsini dəstəkləmədilər. Bununla belə, Süleyman Mirzə öz niyyətindən əl çəkmədi. Ətrafındakılar vasitəsilə təhrik edilən Süleyman Mirzə dərhal qoşun toplanmasına başlandı və üç gün ərzində 18 min nəfərlik qoşun dəstəsi toplandı. Süleyman Mirzə bununla da kifayətlənmədi. O, Şeyx Səfi türbəsinə hədiyyə edilmiş qızıllardan həm öz adına sikkə vurdurdu, həm də həmin qızılları qoşunların xərcinə sərf elədi. Sonra da Süleyman Mirzə başına topladığı qoşunla Təbrizin tutulmasına yollandı.

Əhməd Sultan Şamlı adlı Səfəvi əmirlərindən biri Təbrizin hakimi idi. Onun Süleyman Mirzənin xeyir-duası ilə Təbriz hakimi təyin edildiyi bildirilir. Bu da qiyamçılarda bir ümid yaratmışdı ki, Təbriz asanlıqla ələ keçirilə bilər. Sultan Əhməd isə Ərdəbildə toplanmış qoşunların Təbriz üzərinə hərəkət etməsini eşidəndə əlavə qoşun toplanmasına başladı. Təbriz əhalisi bu işdə yaxından iştirak etdi və qısa müddət ərzində böyük bir qoşun dəstəsi toplandı. Sonra da bu dəstə Təbrizin kənarına çıxdı. Süleyman Mirzə bu dəstəni görəndə əvvəlcə se-

vindi. O belə güman etdi ki, Təbriz hakimi onu qarşılamağa çıxıbdır. Amma sonra məlum oldu ki, Təbriz hakimi və onun ətrafında olan qoşun dəstəsi Şah İsmayıla sədaqətlidir və Səfəvi şahı kimi yalnız onu qəbul edirlər. Onda Süleyman Mirzə özü Sultan Əhmədin yanına yollandı, nə etdisə onu inadından döndərə bilmədi. Bunu görəndə Süleyman Mirzə fürsət taparaq Sultan Əhmədi qətlə yetirdi. Təbriz dəstəsi Sultan Əhmədin qətlə yetirilməsini görüncə qaçıb dağılışdı. Bunun ardınca Süleyman Mirzə Təbrizə daxil oldu. Lakin onun sevinci çox da uzun sürmədi. Səfəvi qoşunlarının qorçubaşısı olan Sarıpirinin Təbrizdə olan qardaşı Məntəş Sultan dağılmış olan qızılbaş döyüşçülərini öz ətrafına topladı və Süleyman Mirzənin dəstəsini Təbrizdən çıxarmağa müvəffəq oldu. Süleyman Mirzə və onun ətrafında olan bir sıra əmirlər burada baş vermiş döyüşdə həyatlarını itirdilər. Bildirilir ki, Təbriz əhli hamılıqla ayağa qalxaraq Süleyman Mirzəni daş-qalaq etdilər və bu daşların zərbindən o da dünyasını dəyişdi. Bununla, Süleyman Mirzə tərəfindən qaldırılmış qiyama da son qoyuldu (227).

"Əhsənüt təvarix" əsərində isə Süleyman Mirzənin qiyam qaldırmaq cəhdi bir qədər fərqli şəkildə təsvir edilmişdir. Bu təsvirdən görünür ki, həmin qiyamın yatırılmasında Şah İsmayıla sədaqətli olan Təbriz əhalisi xeyli fəal rol oynamışdır: "...Sultan Heydərin oğlu Seyid Süleyman, İsgəndər şanlı xaqana qarşı müxaliflik izhar etdi. Onun başına çoxlu adam toplaşdı və dedilər:

- Zamanın xaqanı Xorasana getmiş və Azərbaycandan uzaq düşmüşdür. Fürsəti qənimət bilib Təbrizi ələ keçirmək lazımdır.

Seyid Süleyman o əbləhlərin sözünə aldanıb, təkəbbür və lovğalıq buxarının beyninə girməsinə yol verərək qiyam hazırlıqları gördü. ...O, bir dəstə fitnəkar adamla Təbriz üzərinə sürətli yürüş etdi. Elə ki bu xəbər Təbriz hakiminə çatdı, o, şəhərlilərlə birlikdə küçələri nəzarət altına alıb [yollara] su buraxdı ki, yer buz bağlasın və süvarilərin irəliləməsi çətinləşsin. Seyid Süleyman çoxlu qoşunla şəhərin əsas küçəsinə (xiyabana) daxil oldu. Təbrizin qara camaatı davaya başlayıb, xiyabanın divarlarından deşik açaraq o bədbəxtləri ox və tüfəng zərbəsi ilə məğlub etdilər. Seyid Süleyman bol kədərlə Acısuya (Abi-Şor) yönəldi. Qara camaat gözlənilməz bəla kimi Şənbi-Qazanda onlara çatdı. Seyid Süleyman tərəfdarları da qarışqa və ilan (həşəratlar) kimi döyüş səfi tərtib etdilər. Təbriz yetimləri (yoxsulları) iti qılınc zərbəsi ilə qiyamət gününü zahir etdilər və Seyid Süleymanı atdan aşırdılar. Buna baxmayaraq, Seyid Süleyman özü gənclərdən və yaşlılardan on altı nəfəri ox zərbəsi ilə yaraladı. O əsnada həmin vaxt qorçu olan Məntəşa sultan Ustaclu özünü ona yetirib qılınc zərbəsi ilə həlak etdi" (228) .

Şah İsmayıl isə rastlaşdığı qəzadan salamat qurtardıqdan sonra Buxara və Səmərqənd istiqamətində hərəkətə başladı. Bu səfər zamanı ilkin olaraq Bəlxin alınması planlaşdırılmışdı. Səfəvi qoşunlarının hərəkət xəbərini alan kimi bu vilayətin hakimi Cani bəy Bəlxi tərk edib Buxaraya, Übeydulla xanın yanına yollandı. Übeydulla xan da Səfəvi qoşunlarına müqavimət göstərməyin mümkün olmayacağını anladığı üçün Buxaranı tərk etdi və o, Cani bəylə birlikdə Səmərqəndə, Məhəmməd Teymur xanın yanına üz tutdu. Onlar birlikdə Səfəvi

qoşunlarının yürüşünün qarşısının necə alınması ilə bağlı məsləhətləşmələr apardılar. Übeydulla xan bölgəni tərk edib Şah İsmayılın əlinin çata bilməyəcəyi bir yerə getməyi məsləhət bildi. Onun üçün gizli deyildi ki, verdiklərin vədin pozulması qarşısında özbək xanlarını ağır cəza gözləyir. Amma Məhəmməd Teymur xan qaçmağı deyil, Dəşti-Qıpşaq hakimi Qasım xandan kömək almağı və Səfəvi qoşunlarına müqavimət göstərməyi təklif etdi. O bildirdi ki, bütün Çin padşahları ona baş əydiyi halda, ona itaət etdiyi halda nə üçün onun yanına gedib kömək istəməyək. Özbək xanları qərarlaşdırdılar ki, Qasım xanla görüşsünlər, yaranmış vəziyyət haqqında ona məlumat versinlər və ondan hərbi yardım istəsinlər. Məhəmməd Teymur xan onu da təklif etdi ki, Qasım xanın yanına Cani bəy yollansın. Cani bəy həm yaşca böyük idi, həm də Qasım xanın rəğbətini qazanmış bir hakim idi. Güman edilirdi ki, Qasım xanın Cani bəyə olan rəğbətli münasibəti məsələnin müsbət həll olunmasına da öz təsirini göstərə bilər (229).

Məhəmməd Teymur xan özbək xanlarının xahişi ilə bağlı Qasım xana məktub yazdı və bu məktubu Cani bəy çoxlu hədiyyələrlə birlikdə Dəşti-Qıpçağa apardı. O bu bölgənin hüdudlarına yaxınlaşanda Qasım xana xəbər verildi ki, Cani bəy onun görüşünə gəlir. Cani bəyin qarşılanmasına Dəşti-Qıpçağın ağsaqqalları göndərildi və o, böyük bir ehtiramla Qasım xanın hüzuruna gətirildi. Qasım xan da onu xüsusi bir təntənə ilə qarşıladı və bunun üçün bütün əyanlarını və əmirlərini, ona itaəti qəbul etmiş ölkələrin hakimlərini saraya topladı. Mənbələrdə həm Qasım xanın nəhəng bir insan olması, həm də çox qiymətli, daş-qaşlı paltara bürünməsi təsvir olunmuşdur. O, Çingiz xanın varislərindən biri hesab olunurdu və sarayında da Çingiz xan əzəmətini qoruyub saxlamağa çalışırdı. Cani bəy bu qəbula düşəndə əvvəlcə səcdə edib Qasım xana və onun oğlu Əbülxeyir xana dua və sənalarını səsləndirdi. Sonra isə özü ilə bərabər, Məhəmməd Teymur xanın və Übeydulla xanın itaətini ona ərz elədi. Cani bəyə Qasım xan taxtının kənarında yer verildi. Yemək və hədiyyələrin təqdim edilməsi mərasimindən sonra Cani bəy gəlməsinin məqsədini açıqladı. Cani bəy də Əmir Nəcmin yürüşündən başlamış son günlərə kimi özbək xanlarının ərazisində baş verən hadisələr, Şah İsmayılın böyük qoşun dəstəsi ilə özbək xanlarının üstünə gəlməsi haqqında məlumat verdi. Cani bəy verdiyi məlumatlarla Qasım xanda özbək xanlarına qarşı bir maraq yarada bildi və bununla, qıpçaq qoşunlarının özbək xanlarının köməyinə göndərilməsi məsələsi müsbət həllini tapdı. Eşitdiyi məlumatlardan qəzəblənmiş olan Qasım xan Səfəvi qoşunlarına və Şeyxoğluna çox güclü bir zərbə vuracağını və bundan sonra daha kimsənin Türküstana hücum çəkməyə cəsarət etməyəcəyini bəyan etdi. Türküstanın əldən getməsində Qasım xan Məhəmməd Teymur xanı da ittihamlandırmağa başladı. Onun fikrincə, Məhəmməd Teymur xan Çingiz xanın yolunu davam etdirə bilməmiş, onun nüfuzunu qoruyub saxlaya bilməmişdi. Qasım xan bildirdi ki, oğlu Əbülxeyir xanın rəhbərliyi altında elə bir qoşun dəstəsi göndərəcək ki, Səfəvi qoşunlarına və Şah İsmayıla heç Ceyhun çayını adlamağa imkan verməsinlər və onların axırına çıxsınlar. Bununla bağlı, Qasım xan göstəriş verdi ki, Dəşti-

Qıpçağın hər evindən bir cəsur gənc qoşunlara çağırılsın. Bu hesabla 700 min nəfərlik bir qoşun dəstəsi toplandı. Sonradan bu qoşunlara İdil çayı hövzəsində istirahətdə olan Qasım xan tərəfindən baxış keçirildi və həmin qoşunlardan 160 min nəfərlik bir qoşun dəstəsi seçildi və bu qoşun dəstəsi silahlandırıldı. Qoşunların yola düşməsi ərəfəsində Qasım xan oğlu Əbülxeyir xanı yanına çağırıb onu təlimatlandırdı, onun qarşısında dayanan vəzifələri konkretləşdirdi. Qasım xan necə olursa olsun, Şah İsmayılın əsir götürülməsini və onun yanına gətirilməsini istəyirdi. O, 25 yaşında böyük hünərlər göstərən, Şeybək xan kimi iqtidar sahibini qətlə yetirən, Məhəmməd Teymur xan və Übeydulla xan kimi hakimləri meydandan qaçmağa məcbur edən Şah İsmayılı görmək istəyirdi. Əbülxeyir xan isə bəyan etdi ki, Şah İsmayılı elə onun ələmi yanında atdan aşırmasam və xanın hüzuruna gətirməsəm heç Qasım xanın oğlu deyiləm. Qasım xan bu sözlərdən özündə əminlik hasil etdi və oğluna da bildirdi ki, sənin bu əzəmətin qarşısında səfəvilər davam gətirə bilməzlər. Qasım xan onu da vəd etdi ki, Səfəvi qoşunlarına qalib gələcəyi təqdirdə Əbülxeyir xan bütün Türküstan üzrə canişin olacaq və gələcəkdə də Çingiz xanın canişinliyini əldə edəcəkdir (230).

Səfər hazırlıqları başa çatandan sonra Dəşti-Qıpçaq qoşunları Türküstana doğru istiqamət götürdü və bir müddətdən sonra Daşkənd ətrafına yetişdi. Bu zaman Dəşt qoşunlarının gəlməsi barəsində Şah İsmayıla da məlumat çatdırıldı. Böyük sayda qoşun dəstəsinin bölgəyə gəlişi Şah İsmayılın elə də narahatçılığına və təşvişinə səbəb olmadı. Əksinə, bildirdi ki, o, müharibəni böyük yaradanın lütfünə arxalanaraq aparır və bu qoşunlardan qorxusu yoxdur. Mənbə məlumatlarına görə, Şah İsmayıl belə böyük sayda qoşun dəstəsinin gəlməsini eşidəndə gülümsündü və yaradanın iradəsinə tapındığını qeyd etməklə bildirdi ki, bu bəxti dönmüş insanların başına elə bir oyun gətirəcəyəm ki, onun söhbətləri Rüstəm Zal və İsfəndiyar haqqında danışılanlardan da məşhur olsun. Bununla belə, qarşıda gözlənilən böyük döyüşə yola düşməzdən əvvəl münəccimlər meydana çağırıldı və bu döyüşün necə başa çatacağı barəsində onların fikirləri öyrənildi. Münəccimlər rəml atdıqdan sonra qarşıdakı döyüşün Şah İsmayılın tam qələbəsi ilə baş çatacağına şübhə etmədiklərini bildirdilər. Mənbələrdə onların söylədikləri şahmat terminləri ilə ifadə olunmuşdur. Münəccimlər bəyan etdilər ki, bu döyüşdə Əbülxeyir xanın şahmat oyununa son qoyulacaq və Şah İsmayıl bu döyüşdə əldə etdiyi qələbə ilə onu elə mat edəcək ki, heç təsəvvürünə belə gəlməmiş olsun. Ulduzların seyrinin nəticələrini açıqlayan münəccimlər onu da bildirdilər ki, Səfəvi qoşunları bu döyüşdə Ceyhun çayının cənubunda döyüşdükləri təqdirdə Əbülxeyir xanı gün işığından məhrum edə biləcəklər. Bu zaman Səfəvi qoşunları artıq Ceyhun çayının şimalına adlamışdılar. Şah İsmayıl münəccimlərin dediklərini və təkliflərini qəbul etdi və qoşunlara geri qayıtmaq əmri verdi. Nəticədə, Səfəvi qoşunları doqquz mənzillik yolu geri qayıtdılar və Ceyhun çayını keçdikləri yerdən çayın cənubuna adladılar. Oradan da qoşunlar Bəlxə doğru irəliləməyə başladılar və Bəlxin on

fərsəngliyində düşərgə saldılar. Bu düşərgə Ceyhun çayından yeddi fərcənglik məsafədə idi (231).

Şah İsmayılın öz qoşunları ilə birlikdə geri çəkilməsi və Bəlx istiqamətində irəliləməsi Əbüleyir xana Buxarada olduğu zaman çatdırıldı. Əbülxeyir xan Səfəvilərin geri çəkilməsini onların qorxuya düşməsi kimi qiymətləndirdi və bəyan etdi ki, mən öz ovumun əlimdən çıxmasına imkan verməyəm. Ona görə əmr etdi ki, onun da qoşunları Bəlx istiqamətində hərəkətə başlasınlar. Ceyhun çayı kənarında Səfəvi qoşunları ilə maraqlananda onların yeddi fərsənglik bir məsafədə olduğu bildirildi. Bu xəbəri eşidəndə Məhəmməd Teymur xanı da, Übeydulla xanı da, Cani bəyi də böyük bir təşviş bürüdü və onlar hansı hisslər keçirdiklərini Əbülxeyir xana da açıqladılar. Belə ki, Əbülxeyir xanın sərəncamında 160 min nəfərlik qoşun dəstəsi var idi. Bundan başqa özbək xanlarının da qoşun dəstəsi var idi və bu qoşunun da sayı 60 minə çatmışdı. Yəni, Şah İsmayıla qarşı çıxarılmış qoşunların ümumi sayı 200 mindən artıq idi. Özbək xanları belə güman edirdilər ki, Şah İsmayıl belə böyük sayda qoşun dəstəsinin gəlməsi xəbərini eşidən kimi geri qaçacaqdır. Amma özbək xanlarının bu gümanı heç də düz olmadı. Şah İsmayıl heç də qarşı tərəfin qoşunlarından qorxub çəkinmədi və onlara qarşı çıxmaq üçün özünə mövqe seçdi. Ona görə özbək xanları təəccüb edirdilər ki, Şah İsmayılda bu kəramət və cəsarət haradandır. Əbülxeyir xan isə bildirdi ki, bu, heç də kəramət və şücaət deyil. Onun fikrincə, Şah İsmayılın 12 min nəfərlik qoşun dəstəsi ("Aləmara-yi Səfəvi"də Səfəvi qoşunlarının sayı 30 min nəfər göstərilmişdir) ilə belə böyük qoşun dəstəsinə qarşı çıxmaq istəməsi onun şücaətindən yox, divanəliyindən irəli gəlirdi (232).

Əbülxeyir xanın bu sözləri özbək xanlarında müəyyən bir ümid yaratsa da, onların daxilindəki təşvişə də son qoyulmadı. Onlar Səfəvi qoşunlarının necə döyüşməsindən xəbərdar idilər və ona görə də yaxşı bilirdilər ki, qoşunların say üstünlüyü məsələsi onlar üçün elə də ciddi bir məsələ deyil. Digər tərəfdən qoşunların sonsuz üstünlüyü onlarda bir ümid də yaratdı ki, bəlkə bu dəfə Səfəvi qoşunlarına əsaslı bir zərbə vurulsun, onların hakimiyyətinə mövcud olan təhlükə aradan qaldırılsın və özbək xanları nəhayət ki, asudə həyat sürə bilsinlər. Öz ümid və təşvişlərinə bir aydınlıq gətirmək üçün özbək xanları da münəccimlərin xidmətindən faydalanmağa əl atdılar. Onların sərəncamında olan Həsən Şanəbin adlı münəccim bu işə qoşuldu və Həsən Şanəbin də Asimanı seyr etməyə başladı. Sonra da öz müşahidələrinin nəticələrini özbək xanlarına açıqladı. O bildirdi ki, müşahidələrinə görə, Əbülxeyir xanın üç gün sağ-salamat olacağına əmindir. Amma dördüncü gün onun taleyinin necə olacağı məlum deyil. Übeydulla xan bu münəccimdən özünün və Məhəmməd Teymur xanın da taleyini soruşdu. Cavabında eşitdi ki, Məhəmməd Teymur xanın da ömrünə çox qalmayıbdır. Übeydulla xan isə müəyyən çətinliklərlə qarşılaşsa da, çox yaşayacaq və uzun müddət də hakim olacaqdır. Bu xəbəri eşitdikdən sonra Übeydulla xan Səfəvi qoşunları ilə döyüşə girməyə yenidən təşvişlə yanaşdı və Əbülxeyir xanın yanında olarkən ondan Şah İsmayılın yanına elçi göndərilməsinin mümkünlüyü məsələsini soruşdu. Əbülxeyir xan bu təklifi qəbul etdi və

Şah İsmayılın dinc şəkildə yola gətirilməsi üçün onun yanına elçi göndərilməsini məqsədəuyğun saydı. Bundan sonra Əbülxeyir xan tərəfindən Şah İsmayıla məktub yazıldı. Həmin məktubda deyilirdi ki, Dəşt padşahı Qasım xanın oğlunun qulaqlarına çatan məlumata görə, Şah İsmayıl itaət dairəsindən çıxaraq Türküstanın böyük xanlarını bölgədən qovmağa cəsarət etmişdir. Ona görə də xan tərəfindən qoşun göndərilib ki, Şah İsmayıl tutulsun. Sonra Əbülxeyir xan bildirirdi ki, atasının əmrini yerinə yetirmək əzmindədir və tələb edirdi ki, Şah İsmayıl ömrünü qənimət bilərək tutduğu vilayətlərdən geri çəkilsin, həmin vilayətlər Çingiz xan övladlarının hakimiyyəti altına verilsin və Səfəvi qoşunları da dönərək geri getsinlər. Şah İsmayıla məsləhət görülürdü ki, cavanlığına yazığı gəlsin və özünü ölümün ağzına atmasın (233).

Əbülxeyir xanın elçisi onun məktubunu Şah İsmayıla yetirdi. Amma Əbülxeyir xan ümidində olduğu cavabı ala bilmədi. Əksinə, Şah İsmayıl onun məktubu ilə tanış olduqdan sonra elçiyə müharibə seçimini etdiyini bildirdi. Bu xəbər Əbülxeyir xana çatdırıldıqdan sonra o da qoşunlara irəli hərəkət etmək əmri verdi. Təbillər çalındı və qoşunlar hərəkətə başladılar. Birləşmiş qoşunlar Ceyhun çayı kənarına çatanda orada dayanmış olan Şah müşahidəçiləri qoşunların gəlməsini Şah İsmayıla çatdırdılar. Şah İsmayıl birləşmiş qoşunların hərəkət xəbərini alan kimi əmirlərini və əyanların toplantısını keçirdi və qarşıdakı döyüşlə bağlı onların fikirlərini soruşdu. Mənbədəki məlumatdan belə bir qənaətə gəlmək olur ki, əmirlər Şah İsmayıla Ceyhun çayındakı qayıqların, salların məhv edilməsini və bununla Əbülxeyir xanın qoşunlarının çayı adlamasının çətinləşdirilməsini təklif etmişdilər. Şah İsmayıl da bəyan etdi ki, bu qoşunlar onsuz da hansı yolla olursa-olsun çayı adlayacaqlar. Ona görə Şah İsmayıl üzən vasitələrin xarab edilməsi təklifini qəbul etmədi. Onun fikrincə, bu əməl səfəvilərin nüfuzuna bədnamlıqdan başqa bir şey gətirməyəcəkdi. Əksinə, belə göstəriş verdi ki, sal və qayıqlar öz yerlərində olsunlar ki, qıpçaq və özbək qoşunları çayı asanlıqla adlayıb döyüş meydanına gəlsinlər. Əbülxeyir xan və onun müttəfiqləri də həmin keçiddən istifadə etməklə Ceyhun çayından adladılar və Səfəvi qoşunlarının üç fərsəngliyində düşərgə saldılar (234).

Əbülxeyir xanın qoşunlarının yaxınlaşaraq düşərgə salması xəbərini alandan sonra Şah İsmayıl müharibə təbillərini vurdurdu. Onun qoşunlarında nəhəng təbillər var idi və onu döyəcləmək üçün təbil yanındakı xüsusi kürsünün üstünə qalxmaq lazım idi. Həmin iki ədəd nəhəng təbil Şeybək xanın qoşunlarından qənimət olaraq götürülmüşdü. Bu təbillərin səsini dörd fərsəxlik məsafədən eşitmək mümkün idi. Səfəvi qoşunları arasında bu təbillər Şeybək xan təbilləri kimi tanınmışdı. Bu təbillərin səsini Məhəmməd Teymur xan dərhal tanıdı və bildi ki, onun atasından qənimət götürülmüş təbillərin səsidir. Səsi uzaqdan eşidilən təbillərin vaxtilə Şeybək xana mənsub olmasını biləndə Əbülxeyir xan onları ələ keçirmək arzusunu ifadə etdi. O, Şah İsmayıla məxsus iki şeyin ələ keçirilərək Qasım xana hədiyyə aparılacağını bildirdi. Biri səsi uzaqlara yayılan həmin təbillər idi. Əbülxeyir xanın fikrincə, Qıpçaq çöllərində bu təbil Qasım xanın işinə çox yaraya bilərdi. Qoşun toplamaq zərurəti yayanda bu təbillərin

səsləndirilməsi ilə çox böyük ərazilərdə yaşayan qıpçaqlara toplanmaq işarəsini çatdırmaq mümkün idi. Bu isə qoşun toplanışını xeyli asanlaşdıra bilərdi. Əbülxeyir xanın Qasım xana aparmaq istədiyi ikinci hədiyyə isə Şah İsmayılın mindiyi ağ rəngli madyan idi. Bu madyan Mənsurbəy madyanı adı ilə məşhurlaşmışdı. Əbülxeyir xana görə, bu madyan xanlara layiq bir madyan idi və ona görə də Qasım xana məxsus olmalı idi (235).

Səhəri gün tərəflərin qoşunları hərəkətə gəlib döyüş mövqelərini tutdular. Əbülxeyir xan hələ də şübhə etmirdi ki, malik olduğu çoxsaylı qoşunla Səfəvi qoşunlarını məhv edəcəkdir. Ona görə Übeydulla xanın döyüş düzülüşündə qıpçaq qoşunlarının arxasında mövqe tutmaq arzusunu Əbülxeyir xan istehza ilə qarşıladı. Übeydulla xanın bəhanəsi də bu oldu ki, qıpçaq qoşunları ağır vəziyyətə düşsələr onda öz qoşun dəstəsi ilə onların köməyinə gələr. Əbülxeyir xan da özünəməxsus əminliklə onu sakitləşdirməyə çalışdı, bəyan etdi ki, özü döyüş meydanının mərkəzinə atılacaq və Şah İsmayılı ələ keçirəcəkdir. Döyüş düzülüşünün ön sırasında Əbülxeyir xanın çoxsaylı qoşunları yerləşdirildi. Qoşunların mərkəzi hissəsinin rəhbərliyini Əbülxeyir xan öz üzərinə götürdü. Qoşunların sağ cinahı Bayram Atalığa, sol cinahı isə Sarudelə tapşırıldı. Özbək xanlarının qoşunları isə ikinci eşelonda yerləşdirildilər. Məhəmməd Teymur xan Səmərqənd qoşunları ilə sağ cinahın arxasında, Cani bəyin rəhbərliyi altında olan qoşun dəstəsi isə sol cinahın arxasında qərar tutdu. Səfəvi qoşunlarına gəlincə isə Durmuş xan qoşunların sağ cinahının rəhbərliyini, Sarıpirə qorçubaşı sol cinahın rəhbərliyini öz üzərinə götürdü. Şah İsmayıl özü yenə də qoşunların mərkəzində qərar tutdu. Div Sultana isə qoşunların çərxçiliyi tapşırıldı. Döyüşə başlamazdan əvvəl Şah İsmayıl bir neçə əmirin müşayiəti ilə bir yüksəkliyə qalxıb qarşı tərəfin qoşunlarını izlədi. Bu qoşunlar o qədər çox idi ki, dörd fərsəx dərinliyində olan bir ərazini tutmuşdu. Qarşı tərəfin ucsuz-bucaqsız qoşunlarını müşahidə edəndən sonra Şah İsmayıl papağını çıxarıb səcdəyə getdi və yaradana belə müraciət etdi: "Ey xudavənd! Mənim bir qarışqalıq gücüm yoxdur. Mənim gücüm və qüvvətim səndəndir. Məni utandırma. Xudavənda, Həzrət Məhəmmədin və onun övladlarının pak nuru xətrinə sən fəthi, uğuru və qələbəni qızılbaş qoşunlarına əta elə". Sonra da başını yerə qoyub Şah İsmayıl dua və səna etdi, göz yaşları axıtdı. Bir müddətdən sonra o özündə bir yeni qüvvə hiss etdi və bunu Allahın lütfü kimi qəbul etdi. Şah İsmayıl əmin oldu ki, bu yeni qüvvə onu qarşı tərəfin qoşunları üzərində qələbəyə gətirəcəkdir. O sonra da geri qayıdaraq döyüş ələmini dalğalandırmağa başladı (236).

Əbülxeyir xan da öz növbəsində bir neçə əmirlə bir yüksəkliyin üstünə qalxıb Səfəvi qoşunlarını müşahidə etdi. Qarşıda dayanan qoşunlarının sayının 30 mindən artıq olmayacağına əmin olanda onu gülmək tutdu. Əbülxeyir xan yanındakılara istehza ilə dedi ki, Übeydulla xan burada olsaydı bu qoşunları ona da göstərərdim. Əbülxeyir xana görə, bu qoşunlar elə bir qüvvə deyildi ki, kimsə ondan çəkinsin. O əlavə etdi ki, bu saat təkcə meydana çıxaraq Şeyxoğlunu tutub Çingiz xan bayrağının ayağına gətirəcəkdir. Müşahidələrini başa çatdırandan sonra Əbülxeyir xan öz döyüş bayrağının yanına gəldi və əvvəlcə

30 min nəfərlik çərxçilər hərəkətə gətirilərək döyüş meydanına çıxarıldılar. Bu dəstənin qarşısına Div Sultanın rəhbərliyi altında olan 6 min nəfərlik qoşun dəstəsi atıldı. Əbülxeyir xanın böyük iddialarına baxmayaraq, onun çərxçiləri ciddi zərbə alaraq geri çəkilməli oldu. Çərxçilərin geri çəkilməsini görəndə Əbülxeyir xan qoşunlarının sağ cinahına rəhbərlik edən Bayram Atalıq 40 min nəfərlik dəstə ilə özünü irəli atdı və Səfəvi qoşunlarının fədakar döyüşünün qarşısını almağa çalışdı. Onun qarşısına Durmuş xan çıxdı. Bu anda Əbülxeyir xan qoşunlarının sol cinahı da döyüşə atıldı. Bu dəstənin qarşısına isə Sarıpirə Qorçubaşının rəhbərliyi altında olan qorçular dəstəsi çıxdı. Bununla, tərəflər arasında döyüş öz gərginliyinin ən yüksək səviyyəsinə çatdı. Səfəvi qoşunlarından əvvəlcə sağ və sol cinahlar döyüşə atıldılar. Şah İsmayıl bir müddət bu cinahların döyüşünü izlədi. Sonra özünün də döyüşə atılmaq anının yetişdiyini ətrafındakılara bəyan etdi. Mənbə məlumatlarına görə, bu zaman Məşhəd istiqamətindən güclü külək əsməyə başladı və bu küləyin qaldırdığı tozanaq özbək qoşunlarının başı üstünü aldı. Şah İsmayıla görə, özbəklərin başı üstünü almış bu tozanaq da müqəddəslərin Səfəvilərə olan lütfünün əlaməti idi. Həmin tozanaq özbək döyüşçülərinin gözlərini örtərək onların görmək imkanlarını məhdudlaşdırdı. Bunu müqəddəslərin xoş müjdəsi kimi qəbul edən Şah İsmayıl əlini qılıncına atdı və "Allahü Əkbər" sədası altında döyüşə girdi (237).

Mənbə məlumatlarına görə, qısa bir zaman ərzində çox böyük sayda özbək və qıpçaq döyüşçüsü öldürüldü. Bu vəziyyəti görəndən sonra Əbülxeyir xan hansı təhlükə ilə qarşılaşdığını anlamağa başladı. Döyüşün gedişi haqqında məlumat istəyəndə isə ona bildirdilər ki, sağ və sol cinahların rəhbərləri artıq öldürülmüşlər. Bundan sonra Əbülxeyir xan özü qoşunların mərkəzində döyüşə girdi. Onun qoşunlarının əmirləri və ağsaqqalları yalvararaq bu fikirdən əl çəkməsini xahiş etdilər. Ağsaqqallar və əmirlər narahatçılıq içində bildirdilər ki, Əbülxeyir xana bir şey olarsa Qasım xan onları salamat buraxmayacaqdır. Əbülxeyir xanı müşayiət edən ağsaqqallar qırılan qoşunu göstərərək bildirdilər ki, Şeyx oğlunun öhdəsindən kimsə gələ bilməz. Amma Əbülxeyir xan heç döyüşə girməyə fürsət tapmadı. Həmin anlarda Şah İsmayılın döyüşə-döyüşə ona tərəf irəlilədiyini gördü. Mənbə məlumatlarına görə, ağsaqqalların təkidi ilə Əbülxeyir xan geri qaçmağa üz qoydu. Bunu görəndə Şah İsmayıl da ağ madyanın belində onun ardınca düşdü. Əbülxeyir xan nə etsə də Şah İsmayılın təqibindən yaxa qurtara bilmədi və onun qılıncının zərbi ilə də həyatını əldən verdi. Şah İsmayılın göstərişi ilə Əbülxeyir xanın başını bədənindən ayıraraq nizəyə keçirildi. Onun qətlə yetirilməsi ilə döyüşün taleyi də həll edilmiş oldu. Məhəmməd Teymur xan, Übeydulla xan və Cani bəy baş verənləri müşahidə etdikdən sonra döyüşə qatılmağa cəsarət etmədilər və təhlükədən sovuşmaq üçün Ceyhun çayının sağ sahilinə adladılar. Bundan sonra özbək xanları hətta Ceyhun çayı üzərindəki keçidin də xarab edilməsinə göstəriş verdilər ki, Səfəvi döyüşçüləri asanlıqla onları ələ keçirə bilməsinlər (238).

Özbək xanlarının Dəşti-Qıpçaq hakimi Qasım xanın hərbi yardımına arxalanaraq Şah İsmayılı Türküstandan kənarlaşdırmaq cəhdi baş tutmadı və

Səfəvi qoşunları Şah İsmayılın rəhbərliyi altında növbəti böyük qələbəsini əldə etdilər. Özbək xanları çarəsiz vəziyyətə düşdülər və bildilər ki, yenidən Qasım xandan hərbi yardım alınması mümkün deyil. Ona görə, döyüş meydanından bir qədər uzaqlaşdıqdan sonra özbək xanları toplanıb öz gələcəkləri ilə bağlı məsləhətləşməyə başladılar. Cani bəy bu toplantıda Türküstanı tərk edib bölgədən uzaqlaşmağı və münasib fürsətin yetişə biləcəyini gözləməyi məsləhət bildi. Çünki Şah İsmayılın qarşının alınması üçün onların ümid edə biləcəkləri bir hərbi qüvvə yox idi. Digər özbək xanları və ağsaqqalları bundan fərqli ola biləcək bir təklif irəli sürə bilmədilər. Həmin təklifin qəbul edilməsi özbək xanlarının Türküstana olan iddialarından əl çəkilməsi demək idi. Hakimiyyəti itirmək istəməyən özbək xanları isə bu vəziyyətlə elə də razı deyildilər. Onda özbək xanları yenidən Moqol (Müqbilə) xanıma müraciət etmək qərarına gəldilər. Moqol xanım da özbək xanlarını düşdükləri vəziyyətdən çıxara biləcəyini vəd etdi və söz verdi ki, özbək xanları yenidən hakimiyyət və xəzinə sahibi olacaqlar. Məsələnin həlli üçün Moqol xanım təklif etdi ki, 300 nəfərlik bir dəstə Buxaraya göndərilsin və Buxarada yaşayan Xacə Əbdülrəhim Nəqşbəndini hörmət və ehtiramla düşərgəyə gətirsinlər. Mövcud məlumatlara görə, Xoca Əbdülrəhim Nəqşbəndi müsəlman aləmində kifayət qədər geniş yayılmış Nəqşbəndi təriqətinin banisi Xacə Bəhaəddin Nəqşbəndinin nəslindən olmaqla böyük nüfuza malik idi. Moqol xanım bu böyük nüfuz sahibini ortaya çəkməklə özbək xanları ilə Şah İsmayıl arasındakı münasibətləri sahmana salmaq istəyirdi (239).

Özbək xanları əvvəlcə bu təklifə bir qədər ehtiyatla yanaşdılar ki, Şah İsmayıl artıq onlarla bağlı heç bir təklifi qəbul etməyəcəkdir. Amma Moqol xanım bu təklifin üstündə təkid etdi və özbək ağsaqqalları da bu təklifi məqsədəuyğun saydılar. Ona görə özbək xanları məktub yazıb Xacə Əbdülrəhimə göndərdilər və onu yanlarına dəvət etdilər. Xacə Əbdülrəhim bu məktubu alıb oxuyandan sonra xanların təklifini qəbul etmək məcburiyyətində qaldı və onların yanına yollandı. Özbək xanları eşidəndə ki, Xacə Əbdülrəhim düşərgəyə yaxınlaşmaqdadır onun pişvazına çıxdılar. Bunun üçün onlar düşərgədən dörd fərsəx aralandılar və Xacəni görəndə atdan yerə düşüb onun əllərini öpdülər, yol verdikləri xətalara görə ondan üzr istədilər. Özbək xanları döyüş meydanında baş verənləri Xacə Əbdülrəhimə danışdıqdan sonra ondan Şah İsmayılın yanına yollanmasını və barışıq əldə edilməsi üçün vasitəçilik etməsini xahiş etdilər. Xacə Əbdülrəhim özbək xanlarına ehtiyatla yanaşsa da onların bu təklifini qəbul etdi və Şah İsmayıl üçün hazırlanmış hədiyyələri də götürərək onun düşərgəsinə yollandı. Xacə Əbdülrəhim özbək xanlarının Şah İsmayıl ilə barışığa sədaqətli qalacaqları barədə and içdirdi və bunu yazılı şəklə salaraq özü ilə Şah İsmayıla apardı. Onu Şah İsmayılın düşərgəsinə yollandığı zaman 300 nəfər ağsaqqal müşayiət edirdi. Şah İsmayıla göndərilən hədiyyələr isə 200 baş dəvələrə yüklənmişdi. Xacə Əbdülrəhim şübhə etmirdi ki, Şah İsmayıl onun yaşını din yolundakı xidmətlərini nəzərə alaraq xahişini rədd etməyəcəkdir. Özbək xanları Şah İsmayıla həm də məktub göndərdilər. Həmin məktubda özbək xanları özlərini biçarə və zəiflər kimi təqdim edirdilər. Məktubun əvvəlində dövrün

ənənələrinə uyğun olaraq Şah İsmayılın adı təmtəraqlı ibarələrlə, titullarla yad olunur, onun böyüklüyü və qüdrəti yada salınırdı. Məktubun sonunda isə müxtəsər şəkildə xahiş olunurdu ki, Şah İsmayıl təqsirkar özbək xanlarını himayəsi altına götürsün, onları bağışlasın (240).

Şah İsmayılın Xacə Əbdülrəhimin bölgədə çox böyük hörmət və ehtiram sahibi olmasından xəbəri var idi və ona görə onun gəlməsi xəbərini eşidəndə qarşılanması üçün xüsusi göstərişlər verdi. Onun göstərişi əsasında Səfəvi qoşunlarının bir neçə böyük əmiri düşərgənin bir fərsəxliyində Xacə Əbdülrəhimin qarşılanmasına yollandılar və onu hörmətlə Şah İsmayılın düşərgəsinə müşayiət etdilər. Xacə Əbdülrəhim Şah İsmayılın çadırına daxil olarkən ona səcdə etdi və Şah İsmayıl tərəfindən ehtiramla qarşılanaraq onun taxtı kənarında yer aldı. Xacə Əbdülrəhim Səfəvi şahını salamladıqdan, onun şücaətini, səxavətini və əzəmətini xatırladıqdan sonra özbək xanlarının xahişini ona yetirdi. Özbək xanlarından gətirilmiş olan məktub Şah İsmayılın göstərişi ilə məclis iştirakçıları üçün səsləndirildi. Şah İsmayıl doğrudan da Xacə Əbdülrəhimin yaşını, insanlar arasındakı nüfuzunu nəzərə alaraq özbək xanları ilə barışığa gəlinməsini qəbul etdi. Baxmayaraq ki, özbək xanları özləri əvvəllər əldə edilmiş barışığı pozmuşdular. Şah İsmayıl bunu Xacə Əbdülrəhimə və onu müşayiət edən böyük heyətə də xatırlatdı. Səfəvi şahı bildirdi ki, onun məqsədi heç də Türküstanı yalnız işğal etmək və orada öz adamlarının hakimiyyətini yaratmaq deyildi. Buna misal kimi, Şah İsmayıl Türküstan ələ keçirildikdən sonra Babur padşahın hakim təyin edilməsini yada saldı. Şah İsmayıl bildirdi ki, biz yaxşı məramla Türküstana gəlmişik və burada yaxşı bir iz qoymaq istəyirik. Onun üçün Şah İsmayıl bir daha özbək xanları ilə barışığa getməyə hazır olduğunu bildirdi. Amma o öz şərtini də irəli sürdü. Şah İsmayıla görə, Türküstanda qarışıqlığın yaranması, müxtəlif fitnəkar planların ortaya atılması Üdeydulla xanın təşəbbüsləri ilə bağlı idi və tələb etdi ki, Übeydulla xan mütləq Məhəmməd Teymur xan və Cani bəylə birlikdə onun hüzuruna gəlsin. Sonra da bu xanlar Allaha and içsinlər ki, əgər bir də öz vədlərini pozsalar onda Allahın düşməni olacaqlar. Şah İsmayılın tələbinə görə onlar öz üzərinə belə bir öhdəlik də götürməli idilər ki, əgər bir də Xorasanın istilası məqsədilə Ceyhun çayının sol sahilinə adlasalar talağı verilmiş arvad adını üzərlərinə götürsünlər. Şah İsmayıl bildirdi ki, özbək xanları bu şərtləri qəbul etsələr, onda Türküstanı tərk edəcək və özbək xanlarına şəfqət göstərəcəkdir (241).

Xacə Əbdülrəhim özbək xanlarına yazılı şəkildə and içdirdiyini, bu anddan, habelə onun qarşısında verdiyi sözdən dönə bilməyəcəklərini bəyan etsə də, Şah İsmayıl yenidən onların gəlməsini tələb etdi. O bildirdi ki, özbək xanlarının itaətsizliyi bir daha baş versə çox uzun məsafəni arxada qoyaraq gəlib bütün əhalini qılıncdan keçirəcəkdir. Həmin uzun yolu yenidən keçməmək üçün Şah İsmayıl özbək xanlarının onun qarşısında bir daha söz verməlderini istədi. Xacə Əbdülrəhim bu tələbin icrası üçün onunla gəlmiş heyətdən bir neçə nəfəri özbək xanlarının yanına göndərdi və özbək xanlarına belə bir xəbər çatdırdı ki, şəhriyarı barışığa razı saldım, amma siz gəlməsəniz barışıq əldə edilməyəcəkdir. Bu

xəbər özbək xanlarına yetişəndə Məhəmməd Teymur xan qorxu içinə düşdü və Şah İsmayılın düşərgəsinə yollanmaqdan imtina etdi. Übeydulla xanla Cani bəy isə bir sıra əyanların müşayiəti ilə Səfəvi düşərgəsinə yola düşdülər. Bu xanlar Şah İsmayılın hüzurunda bir daha and içdilər ki, Şah İsmayıl həyatda olduğu vaxt ərzində bir daha Xorasan vilayətinə hərbi yürüş etməyəcəklər. Şah İsmayıl onların andını qəbul etdi və bir daha onların hər birinə qiymətli hədiyyələr verdi. Məhəmməd Teymur xanın gəlməkdən imtina etməsinə baxmayaraq ona da qiymətli hədiyyə göndərildi. Bundan başqa Şah İsmayıl tərəfindən adları çəkilən xanların Türküstan hakimləri olması barəsində fərman yazıldı, Türküstanın hakimliyi həmin xanlara tapşırıldı. Bu xanlar isə hər il Şah İsmayıl xəzinəsinə müəyyən edilmiş miqdarda bac-xərac ödəməli idilər (242). Başqa sözlə, Səfəvilər dövləti ilə Türküstan arasındakı sərhəd xətti kimi Ceyhun çayı təyin edildi. Özbək xanları isə Səfəvi sarayından müəyyən asılılığı öz üzərinə götürdülər.

Şah İsmayıl Türküstanla bağlı məsələləri sahmana saldıqdan sonra Təbrizə dönmək barədə qərar verdi. Ceyhun çayı kənarındakı düşərgədən cəmi iki mənzillik məsafə uzaqlaşdıqdan sonra Təbrizdən göndərilmiş çapar onun yanına yetişdi və Süleyman Mirzənin qiyam qaldırması və onun Təbriz ətrafında öldürülməsi xəbərini çatdırdı. Onun ətrafındakılar bu hadisədən xəbər tutanda bildirdilər ki, Şeyx Səfi ocağına sufilikdən kənar münasibət göstərənlərin aqibəti belə olacaqdır. Şah İsmayıl bu xəbərdən xeyli kədərləndi. Baxmayaraq ki, Süleyman Mirzə dövlətə qarşı, Şah İsmayılın mürşidi-kamil olmasına qarşı qiyam qaldırmışdı, bununla belə, onun qətlində iştirakı olmuş Məntəş Sultanın və digərlərinin həbsi barəsində göstəriş verdi (243).

## 9.İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 296
2. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 109
3. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 160
4. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.35
5. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.272
6. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.77-78. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxsusdur
7. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 109
8. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 196
   Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.164
9. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 196
10. Yenə orada, s. 197
11. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 487
    Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 297
12. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 299
13. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 159

14. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 110
15. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.487
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 198
16. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 110
17. Yenə orada, s.111
18. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 160
19. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 110
20. Yenə orada, s.114-115
21. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.488
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 181
22. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.78
23. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 160
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 299
24. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 119-120
25. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.488
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 182
26. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.488
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 160
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 184
27. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 79
28. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.490
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 166
29. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 80
30. Yenə orada, s. 81
31. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 124
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 161
32. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 163
33. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.82
34. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.129
35. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 199
36. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.84
37. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 130
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 171
38. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 132
39. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 174
40. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 133
41. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 179
42. Yenə orada
43. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.496
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.309
44. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 135
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 181
45. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 187

46. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 135
47. Tarix-i aləmara-yi Abbasi . C.I, Bakı, 2009, s.84
48. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.177
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 69
49. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.178
50. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.317
Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 501
51. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 85
52. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.224-225
53. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.320-321
Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 503
54. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 86
55. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.258
Əmir Hüseyn Borazeş. Rəvabet-e siyasi-diplomatik İran və cahan dər əhd-e Səfəviyye . Tehran, 1392, s.238
56. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlərin toplusu. Bakı, 2014, s. 47-49
57. Əmir Hüseyn1-292Borazeş. Rəvabet-e siyasi-diplomatik İran və cahan dər əhd-e Səfəviyye . Tehran, 1392, s.239
58. Yenə orada, s. 242-243
59. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 258-259
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.191
60. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 326
61. Yenə orada, s.329
62. Yenə orada, s. 334
63. Yenə orada, s. 335
64. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 336
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.193
Хусейништразы С. Военно-политические отношения Мавереннехра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, (электрон. вариант), с. 40
65. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 271
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 337
66. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlərin toplusu. Bakı, 2014, s.50
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.48-52
66. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 337
67. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 86
68. Tufan Gündüz. Son kızılbaş Şah İsmayıl. İstanbul, 2014, s.95-96
69. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.224

70. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 282
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 338
71. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 317-318
72. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 338
73. Yenə orada, s. 339
74. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.248
75. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 340
76. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 318
77. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 186
Хусейнироширази С. Военно-политические отношения Мавереннехра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, (электрон. вариант), с.53
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 226
78. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 228
79. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 341
80. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 506
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.330
81. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 286
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 341
82. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 342
83. Yenə orada, s. 346
84. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 87
85. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 291-292
86. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 292
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 348
87. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 350
88. Yenə orada
89. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 230
90. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 351
91. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 508
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 189
92. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.295
93. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 352
Хусейнироширази С. Военно-политические отношения Мавереннехра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, (электрон. вариант), с.54
94. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.508
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 234
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 189
Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.87
95. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 296
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 353
96. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 297-298

Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 354-355
97. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 75
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 238
98. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 75
99. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 234
Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.339
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 75
100. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.88-89
101. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.355-356
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 200-201
102. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 356
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 201
103. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 300-301
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 357-358
104. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 302
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 359
105. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 359
106. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 360
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 201-202
107. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 361
108. Yenə orada
109. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 308-309
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 362
110. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 236
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 191
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.238
111. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 308
112. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 310
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 364
113. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 310
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 365
114. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 237
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 239
115. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 240
116. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 365
117. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 322
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 76
118. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.193-194
119. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 240
120. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.196

Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 242
121. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 242
122. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 311
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 365-366
123. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 314
124. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 316-317
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 371-372
125. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 322
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 376
126. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 324
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 378
127. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 326
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 379
128. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 326
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 379
129. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 324
130. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 197
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 325
131. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 328
132. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 382
133. Yenə orada, s. 384
134. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.332
135. Yenə orada, s. 334
136. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 333
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 386
137. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 386
138. Yenə orada, s. 387
139. Yenə orada, s. 391
140. Yenə orada, s. 392
141. Yenə orada, s. 392-393
142. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 90
143. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 342
144. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 395
145. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 343
146. Yenə orada, s. 344
147. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 243
Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 514
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 397
148. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 243
Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 514
149. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 243
Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 515
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 198

150. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 245
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 249
151. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 515-516
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s. 55
152. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 347
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 400
153. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 517
154. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 348-349
155. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 401
156. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 204
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 260
157. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 328
158. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.212-213
159. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 524
160. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 350
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 402
161. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 402
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 257
162. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 350
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 403
163. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 352
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 404
164. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 352
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 404
165. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 405
166. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 353
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 405-406
167. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 354
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 406-407
168. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 355
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 407
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 215
169. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 356
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 408
170. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 525
171. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 358
172. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 258
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 272
173. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.215
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.57
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 332

174. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 359
175. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 411
176. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.379
177. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.359
178. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 332
179. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 216
180. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 527
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 275
181. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 217
182. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 362
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 415
183. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 362
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.415
184. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 363
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.417
185. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 365
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.418
186. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 527
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 261
187. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 419
188. Yenə orada, s.419
189. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 367
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.420
190. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.421
191. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 368
192. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 368-369
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.421
193. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.422
194. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 369
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.423-424
195. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 371
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.424
196. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 430
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 261
197. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 419
198. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 528
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 217
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.58
199. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s. 59

200. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 262
201. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 218-219
202. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 529
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 219
203. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 529
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 220
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 234
204. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 335-336
205. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 408
206. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 463
207. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s.60
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 464
208. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 220
209. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.534-535
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 464
210. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.275
211. Aləm Ara-ye Şah İsmayıl. Tehran, 1384, s. 464
212. Yenə orada, s. 467
213. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 416
214. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 470
215. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.226-227
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 243
216. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s.292
217. Aləmara-yi Səfəvi. Tehran, 1350, s.419
218. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 422
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 474
219. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 474-475
220. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 423
221. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.541
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 88
222. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 476
223. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 424
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 477
224. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 424-425
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 478
225. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 425
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 479
226. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 426
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 480
Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 470
227. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 426
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 480-481

Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 470-471
228.Həsən Rumlu. Əhsənüt təvarix (tərcüməsi Oqtay Əfəndiyevə və N.Musalıya məxsusdur) . Kostamanı, 2017, s. 421
229. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 429
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 482
230. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 434
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 485
231. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 435
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 486
232. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 435
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 487
233. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 439
234. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 488
235. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 439
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 489
236. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 442
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 491
237. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 443
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.492
238. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 444
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.493
239. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 446
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.494
240. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 447
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.495
241. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 451
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.497
242. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 452
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.499
243. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 454
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.500

# IV FƏSİL

# ÇALDIRAN DÖYÜŞÜ

## 1.Sultan Bəyazidin hakimiyyəti illərində Səfəvi-Osmanlı münasibətləri

Xorasan və Türküstan yürüşlərini uğurla başa çatdırıb Təbrizə qayıtdıqdan sonra Şah İsmayıl Osmanlı dövləti ilə münasibətlərinə bir aydınlıq gətirmək seçimi qarşısında qaldı. Osmanlı dövlətinni kifayət qədər möhkəmlənməsi və yeni Osmanlı sultanı Sultan Səlimin sərt siyasəti Səfəvi dövlətinin qərbində ciddi bir təhlükəni formalaşdırmaqda idi. İki dövlət arasındakı münasibətlərin aydınlaşdırılması üçün Sultan Səlimin müharibə qərarı verməsi isə Şah İsmayılı da bu dövlətə qarşı müharibəyə girmək məcburiyyəti qarşısında qoydu.

Şah İsmayılın Türküstan yürüşündən sonra Osmanlı-Səfəvi münasibətlərinin yüksək gərginlik nöqtəsinə çatması, əslində, bu iki dövlət arasında mövcud olan münasibətlərin inkişafının məntiqi nəticəsi idi. Çünki bu dövlətlərin bölgədəkə mövqelərinin möhkəmlənməsi qarşı tərəfdən ehtiyat və narahatçılıqla izlənilirdi və buna qarşı uyğun siyasətin həyata keçirilməsi təbii bir hal idi. Doğrudur, qarşı tərəfin möhkəmlənməsi ilə bağlı izlənilən siyasət ilk vaxtlar kəskin hərbi qarşıdurmadan uzaq idi. Lakin Sultan Səlimin hakimiyyət başına gəlməsi ilə iki dövlət arasındakı münasibətlərin hərb meydanında müəyyənləşdirilməsi məsələsi daha qabarıq bir xarakter aldı.

Şah İsmayıl hakimiyyətə gələndə Osmanlı sultanı Sultan II Bəyazid idi. O, 1481-ci ildə hakimiyyətə gəlmişdi və atası Fateh Sultan Mehmetin iki oğlan övladından biri idi. Osmanlı dövlətinin şərqə istiqamətlənmiş siyasəti də Fateh Sultan Mehmetin dövründə başlamışdı. 1453-cü ildə Fateh Sultan Mehmet tərəfindən İstanbul işğal edildikdən sonra Osmanlı dövlətinin bölgədəki mövqeləri daha da möhkəmləndi. Osmanlı sərhədlərinin genişləndirilməsi siyasətini yeridən Fateh Sultan Mehmet 1461-ci ildə Trabzon krallığını nəzarət altına aldı. 1473-cü ildə isə Uzun Həsənlə döyüşdə Osmanlı sultanı Diyarbəkri ələ keçirdi və bununla Şərqi Anadolunun bütünlüklə nəzarət altına alınmasına nail oldu (1).

Sultan II Bəyazidin hakimiyyəti dövründə Osmanlı sərhədlərinin şərqə doğru genişləndirilməsi siyasətinə bir qədər ehtiyatla yanaşılırdı. Amma Sultan Bəyazid Səfəvi dövlətinin günü-gündən möhkəmlənməsinə heç də biganə deyildi və şübhə etmirdi ki, Səfəvi dövlətinin güclənməsi Osmanlı üçün ciddi təhlükəyə çevrilə bilər. Bu təhlükənin qarşısının alınmaıs üçün Sultan Bəyazid əvvəlcə qeyri-müstəqim şəkildə Səfəvi dövlətinə qarşı mübarizəyə başladı. Belə ki, 1501-ci ildə Şah İsmayıl Səfəvi hələ hakimiyyətə gəlməmişdən əvvəl Şərur ətrafında Ağqoyunlu Əlvənd Mirzənin qoşunlarını məğlubiyyətə uğratdıqdan sonra Əlvənd Mirzə Osmanlı sultanı Bəyazidə məktub göndərdi və ondan kömək istədi. Əlvənd Mirzə öz məktubunda Osmanlı sultanına güclənməkdə

olan Səfəvi təhlükəsinin Osmanlı dövlətindən də yan keçməyəcəyini xatırlatdı və Sultan Bəyazidi səfəvilərə qarşı birgə mübarizəyə çağırdı. Sultan Bəyazid Səfəvi qoşunlarının Ağqoyunlu qoşunları üzərindəki qələbəsindən məmnun olmasa da, səfəvilərə qarşı müharibəyə girmək qərarına gəlmədi. Ümumiyyətlə, tarixi ədəbiyyatda Sultan Bəyazid mülayim, elm və sənətə maraq göstərən bir sultan kimi xarakterizə olunmaqdadır. Osmanlı sultanı olmazdan əvvəl o, Amasiya hakimi idi. Şəriət elmindən başqa Sultan Bəyazid fəlsəfə ilə, astronomiya ilə, ədəbiyyatla yaxından maraqlanırdı. İstər Amasiya hakimi olduğu zaman, istər sultan kimi İstanbula gələndən sonra yanına çoxlu sayda alimləri toplamış və İstanbulu da bir elm mərkəzinə çevirmişdi. Mövcud olan məlumatlara görə, hakimiyyət başına gəldikdən sonra da Bəyazid mülayim siyasətə üstünlük vermiş, digər dövlətlərlə olan münasibətləri mülayim xarici siyasət yeritməklə həll etməyə çalışmışdı. Bunun nəticəsi idi ki, Sultan Bəyazidin dövründə Səfəvi dövləti ilə olan münasibətlər müharibə həddinə gəlib çatmamışdı(2). Hətta Ağqoyunlu qoşunlarının Şərur yaxınlığındakı məğlubiyyətindən və Şah İsmayılın Təbrizdə taxta çıxmasından sonra da Sultan Bəyazid səfəvilərə qarşı qoşun çıxarmağı lazım bilmədi. Baxmayaraq ki, Səfəvi dövlətinin yaranması artıq Osmanlı maraqlarını təhlükə altına qoyurdu. Səfəvi şiə dövlətinin təşəkkül tapması Osmanlı dövlətinin yalnız xarici sərhədləri üçün deyil, həm də daxili sabitliyi üçün ciddi təhdid ola bilərdi. Çünki Şah İsmayıl hələ hakimiyyəti bərqərar etməzdən əvvəl sünniliyə qarşı şiə cihadına rəvac vermişdi və bu baxımdan Şah İsmayıl ilə Osmanlı sarayı arasında artıq dini-ideoloji bir barışmazlıq var idi. Şiəliyin yayılması və hakim məzhəbə çevrilməsi üçün Şah İsmayılın hərbi güc tətbiq etməsi isə yaxın gələcəkdə Osmanlı dövlətinə qarşı cəbhə açılmasına da gətirib çıxara bilərdi. Ağqoyunlu dövlətinin mövcudluğuna son qoymaqla onun sərhədlərinə sahib çıxmaq istəyi isə Şah İsmayılın Osmanlı hüdudlarına yaxınlaşması niyyətlərini daha da reallaşdırırdı.

Digər tərəfdən Osmanlı hüdudlarında, xüsusilə Anadoluda çoxlu sayda şiə məzhəbinə mənsub olan insanlar yaşayırdı və onların Səfəvi hərəkatına rəğbətlə yanaşması Osmanlı daxilində yeni bir narahatçılıq mənbəyinə çevrilə bilərdi. Onların sayı isə Anadoluda çox idi. Mövcud məlumatlara görə, Anadolu əhalisinin beşdə dördünü şiələr təşkil edirdilər (3). Məlum idi ki, Səfəvi qoşunlarının formalaşmasında da Anadoluda məskunlaşmış türk boylarının nümayəndələri kifayət qədər çox idi. Bəzi məlumatlara görə, 1500-cü ildə İsmayıl Ərzincanda olarkən Anadoluda məskunlaşmış Ustaclı və Bozuk türkmənlərindən 6 min nəfər səfəvi qoşunları sırasına qatılmış və bu kontingent İsmayılın Şirvanşah və Əlvənd Mirzə qoşunlarına qarşı döyüşlərdə iştirak etmişdi. Anadolu şiələri arasında hətta belə söz-söhbətlər də yayılmışdı ki, Təbrizdə öz hakimiyyətini bərqərar edən Şah İsmayıl tezliklə Osmanlı dövləti üzərinə hücum edəcək və bu dövləti öz hakimiyyəti altına gətirəcəkdir. Səfəvi dövləti qurulduqdan sonra isə Osmanlı ərazisində şiə təriqətinin təbliğinin genişləndirilməsi rəsmi dövlət səviyyəsində özünü göstərməyə başladı. Mövcud olan məlumatlara görə, Səfəvi

dövləti qurulduqdan sonra Səfəvi xəlifələri və müridləri Osmanlı daxilində aşağıdakı fəaliyyətlərə rəvac vermişdilər:

1. Əhlibeyt sevgisi ilə yaşayan etiqad əhli arasında şiəliyin təbliğinin genişləndirilməsi;

2. Anadoludakı türk boyları arasında şiəliyin təbliğini gücləndirməklə onların Azərbaycana köç etməsinin sürətləndirilməsi;

3. Anadoludakı şiə əhali arasında nəzir və sədəqə kimi toplanan vəsaitlərin Ərdəbil xanəgahına yollanması;

4. Şiə tərəfdarların vasitəsi ilə Osmanlı daxilində dövlət əleyhinə çıxışlar təşkil edilməsi (4).

Mövcud məlumatlar onu deməyə əsas verir ki, Anadoluda yaşayan şiələrin səfəvilərə meylli olmasını şərtləndirən yalnız məzhəb eyniliyi deyildi. Osmanlı sarayının torpaqlardan istifadə və vergi siyasəti Anadolu əhalisinin maraqlarına cavab vermirdi və onlar mövcud vəziyyətdən çıxış yollarından birini də Şah İsmayıla bağlanan ədalət axtarışında görürdülər. Onların nəzərində Səfəvi şiə dövləti onların bütün arzularını həyata keçirməyə qadir idi və ona görə də Şah İsmayıl Anadolu şiələrinin nəzərində xilaskar kimi canlanırdı (5).

Anadoluda məskunlaşmış çoxlu sayda şiənin Səfəvi dövlətinə birləşmək cəhdi və ya bölgədə şiəliyin hakimliyi olan hər hansı bir dövlət qurumunun yaradılmasına cəhd göstərilməsi Osmanlı dövləti üçün heç də arzuolunan deyildi. Ona görə Sultan Bəyazid dövlətinin sərhədləri boyunca şiə dövlətinin yaranmasından heç də razı deyildi.

Şərur yaxınlığında ağır məğlubiyyətə uğradıqdan sonra Ağqoyunlu Əlvənd Osmanlı sultanı Bəyazidə məktub göndərdi və ondan Şah İsmayıla qarşı mübarizədə kömək istədi. Bu məktubu alandan sonra Sultan Bəyazid, Mahmud ağa Çavuşbaşı adlı elçisini cavab məktubu ilə birlikdə onun yanına göndərdi(6). Həmin məktubda Sultan Bəyazid Əlvənd Mirzəni Səfəvi qoşunlarına qarşı mübarizə aparılması üçün digər Ağqoyunlu şahzadələri ilə briləşməyə, Ağqoyunlu şahzadələrinin və hakimlərinin səylərinin səfəvilərə qarşı birləşdirilməsinə çağırdı. Öz tərəfindən isə Sultan Bəyazid Ağqoyunlu qoşunlarına maliyyə yardımı və digər köməklərin göstəriləcəyini bildirdi. Əslində isə, Sultan Bəyazid səfəvilərə qarşı ciddi tədbirlərə əl atmadı və Ağqoyunlu qoşunlarına da elə bir təsirli kömək göstərmədi. Əlvənd Mirzə, görünür, Osmanlının yardımı olmadan Səfəvi qoşunlarına üstün gəlməyin mümkün olmayacağını gördüyü üçün Sultan Bəyazidə yeni bir məktub göndərdi. Həmin məktubunda o, Sultan Bəyazidi "Allahın kölgəsi", "bütün müsəlmanların xəlifəsi" kimi dəyərləndirdi, Səfəvi qoşunlarına qarşı ağqoyunluların hamısının birləşməli olması haqqında sultanın tövsiyəsini qəbul etdiyini bildirdi. Amma onu da əlavə etdi ki, Sultan Bəyazidin köməyi ilə səfəvilərin saxtakar qrupunu yox edə biləcəkdir. Sultan Bəyazid bu məktuba da cavab verdi və bu dəfə də Əlvənd Mirzəyə hərbi kömək göstərilməsi barəsində aydın bir fikir ifadə etmədi. Əksinə, yenə də ağqoyunluları birləşməyə və Səfəvi qoşunlarına qarşı birgə mübarizə aparmağa səslədi. Əlvənd Mirzənin bu mübarizəyə təşviq edilməsi üçün Sultan Bəyazid yazdı ki,

üsyançı qızılbaşlar dünyanı atəşə tutsalar da, onların minarələri nə qədər yüksəlsə də Əlvənd dağından uca ola bilməyəcəkdir (7). Bununla, Sutan Bəyazid ona işarə edirdi ki, Əlvənd Mirzəni səfəvilər məğlub edə bilməyəcəklər. Yəni, Osmanlı dövlətinin maraqları tələb etsə də Sultan Bəyazid səfəvilərə qarşı qoşun çıxarmağa ehtiyat etdi.

Əlvənd Mirzə də Osmanlı sultanından kömək almaq ümidi ilə qoşunlarını toparlayıb yenidən Səfəvi qoşunlarına qarşı göndərdi. Amma bu dəfə də məğlubiyyətə düçar oldu və Səfəvi qoşunları qarşısında geri çəkilmək məcburiyyətində qaldı. İsmayıl isə bununla kifayətlənmədi və indiki İranın cənubunun hakimi olan Əlvənd Mirzənin qardaşı Sultan Murada qarşı qoşun çəkdi və onu da məlum olduğu kimi məğlubiyyətə uğradaraq Əcəm İraqını, İsfahanı, Fars vilayətini ələ keçirdi.

Bundan sonra Sultan Bəyazid Diyarbəkr hakimi Rüstəm bəyə məktub göndərdi və ondan tələb etdi ki, səfəvilərin hansı gücə malik olması, səfəvilərin güclənməsi ilə bölgədə vəziyyətin necə dəyişməsi haqqında ona məlumat versin. Sultan Bəyazid həm də bilmək istəyirdi ki, Ağqoyunlu və Səfəvi çəkişmələri sonda hansı tərəfin qələbəsi ilə başa çata bilər. Bir müddətdən sonra Rüstəm bəy Osmanlı sultanına cavab məktubu göndərdi və bəyan etdi ki, Səfəvi qoşunları Ağqoyunlu qoşunlarını məğlubiyyətə uğradaraq Misirə doğru irəliləməkdədir. Onun yazdıqlarından belə bir qənaət hasil olurdu ki, Səfəvi qoşunlarının Misir yürüşü uğurla başa çatacağı təqdirdə Diyarbəkr təhlükə altına düşə bilərdi (8).

Aldığı bu cavabdan sonra Sultan II Bəyazid əmin oldu ki, Şah İsmayılın Əlvənd Mirzə üzərində qələbəsi heç də təsadüfi deyildir və səfəvilər böyük gücə malikdirlər. Ona görə də Sultan Bəyazid Səfəvi dövlətinə qarşı sərt mövqe tutmaqdan çəkindi. Bu heç də o demək deyildi ki, Sultan Bəyazid Osmanlı sərhədlərinin şərqə doğru genişləndirilməsi istəyindən də əl çəkmişdi. Konkret tarixi şərait, ölkə daxilindəki hərbi-siyasi vəziyyət Səfəvi dövlətinə qarşı təcavüzkar mövqe tutulmasından imtina edilməsini tələb edirdi ki, Sultan Bəyazid də bu yolu tutdu. İki dövlət başçısı arasında aparılan məktublaşma da Osmanlı sarayının şərq qonşusu ilə mülayim münasibətlərdə olmasından xəbər verirdi.

Əcəm İraqının, İsfahanın, Farsın Səfəvi qoşunlarının əlinə keçməsindən sonra Sultan Bəyazid özünün Məhəmməd Çavuş Balaban adlı elçisini çoxlu qiymətli hədiyyələrlə Şah İsmayılın yanına göndərdi. Həmin elçi vasitəsilə Osmanlı sultanı tük dilində Şah İsmayıla iki məktub göndərmişdi. Məktubların birində Sultan Bəyazid əldə etdiyi uğurlara görə Şah İsmayılı təbrik edirdi. Digər məktubunda isə Sultan Bəyazid Səfəvi ərazisində sünnilərin incidilməsinə son qoyulması barəsində Şah İsmayıl qarşısında məsələ qaldırmışdı. Səfəvi dövlətinin bərqərar edilməsi və möhkəmləndirilməsi üçün Şah İsmayıl və onun ətrafındakılar tərəfindən sünnilərə təzyiqlər göstərilməsi xəbəri Sultan Bəyazidə də çatmışdı və o, dostcasına irəli sürdüyü təkliflə bu məsələyə son qoyulmasını istəmişdi. Şiəliyin qəbul edilməsi ilə razılaşmayan xeyli sayda etiqad sahibi Osmanlı ərazisinə köçmüşdü və onların arasında üləmalar və fəqihlər də var idi. Bu insanlar Osmanlı sultanına müraciət edərək ondan səfəvilər tərəfindən sünni

məzhəbinin təqibinə son qoyulmasına kömək göstərilməsini xahiş etmişdilər (9). Ona görə də, Sultan Bəyazid də məktubunda bu məsələni qaldırmışdı.

Osmanlı sultanı həmin məktubda İsmayılın öz atası Şeyx Heydərin qisasını almaq üçün Gilandan hərəkata başlamasını, Şirvanşah Fərrux Yasarın qoşunlarını məğlub etməsini, sonra Əlvənd Mirzə üzərində qələbə çalaraq Təbrizə daxil olmasını və özünü şah elan etməsini, daha sonra Sultan Murad üzərindəki qələbə ilə İsfahan-Bağdad arasındakı əraziləri ələ keçirməsini təbrik edir və Şah İsmayılın diqqətini bəzi qərəzdən uzaq nəsihətlərinin üzərində cəmləmək istəyirdi. Konkret olaraq Sultan Bəyazid dörd məsələni Şah İsmayılın nəzərinə çatdırırdı. Birincisi, ona tövsiyə edirdi ki, cavanlıq şövqünün əsirinə çevrilərək yürüş etdiyi əraziləri əhalisini qılıncdan keçirməsin. Onun fikrincə, insanların ömrünü yarımçıq qoymaq əbədi bədnamlıqdan başqa bir şey deyildir. İkincisi, Osmanlı sultanı tövsiyə edirdi ki, müsəlmanlara müxalif olan bir təriqətin təbliği və qəbul etdirilməsi və üçgünlük səltənətin əldə edilməsi üçün müsəlman ümməti arasında təfriqə salmasın, müsəlmanları bir-birinə düşmən etməsin və bununla islamı da zəifləməsin. Üçüncüsü tövsiyə olunurdu ki, Şah İsmayıl bəzi nadanlar tərəfindən məscid və qəbirlərin, islam müqəddəslərinin sultanlarının dağıdılmasının, bu müqəddəs məkanların və ziyarətgahların əmlakının qəsb edilməsinin və ya xarab edilməsinin qarşısını alsın. Dördüncüsü, bütün müsəlmanlara qarşı ədalət və insafla yanaşılması, insanların incidilməsinə son qoyulması, insanlarının öz yurdlarını tərk etməyə məcbur edilməsinin qarşısının alınması tövsiyə olunurdu. Sultan Bəyazid padşahlığın ədalətliliyini qabartmaqla Şah İsmayıla öz ehtiramını bəyan edir və Məhəmməd Çavuş Balabanın da bu məqsədlə onun yanına göndərildiyini bildirirdi (10).

Həmin məktubun mətni aşağıdakı kimi idi: "Böyüklük sifətini daşıyan şövkətli cənab, seyidliyə mənsub, səltənət və hökumət cəngavəri, sağlam fəthlərə sahib, Allahın ədalətini və dininin fərzlərini icra etmək üçün vəzifəli olan Heydər oğlu, Səfəvi sultanı Əmir İsmayıl! ...Uca dövlət silsiləsinin başlanğıcı Dara və Keyxosrovun xəlifəsisiniz, öncəliklə sizə salam və salamat olmağnızı diləyirəm. İkincisi də, şikayət qapısını açaraq izhar edirəm: belə ki, siz aliməqam atanız Heydərin intiqamını almaq üçün Gilandan hərəkət etdiniz. Şirvanah Fərrux Yasarla döyüşdünüz və bəxtin köməyi ilə qalib gələrək onu cəzalandırdınız. Sonra Ləvənd Əlvəndlə müharibə edib onu qaçmağa mübtəla etdiniz. Şərəf və cəlalla Təbrizə girdiniz və Xosrov Pərviz taxtına oturaraq arzunuza çatdınız. Bu iki xoş müjdə Rum (Anadolu) hüdudlarında yayılanda çox sevindim və sizə özəl məktubla müjdə gətirən birisini vəzifələndirdim. Mən də sizdən bizə özəl bir elçi ilə təbrik göndərmənizi gözlədim. Çünki belə böyük bir hadisənin elan edilməsi hökmdarın üzərinə düşən vəzifədir. İndi sizdən bir müjdə verən və bir işarə göndərən olmadığı üçün başqa bir müjdə də bu ölkədə yayıldı və bəlli oldu ki, o Əmirlik sifətini daşıyan adam (İsmayıl) geniş torpağı olan Fars və İraqı da Bayandurluların zülmündən qurtararaq təmiz günəş işığının parıltısının oralara işıq salmasına səbəb olmuşsunuz. Sizin tərəfinizdən fəthnamə gəlmədiyi üçün lazım bilindi ki, seyid sifətli siz aliməqamı təbrik

edəm. ...Eyni zamanda bəzi qərəzsiz vəsiyyətlərimi də vilayət xanədanının soyundan qulağınıza çatdıraraq o əmirlik kişiliyində olan bir neçə məsələnin sizə zərər yetirə biləcəyinə diqqətinizi yönəldirəm:

Birincisi - çox öldürmək ömrü qısaldır və əbədi bədnamlığa səbəb olur. Həm ağıl, həm də şəriət onu təqdir etmir. Gəncliyin və nəfsin istəyinə tabe olmayın və bu elədiklərinizdən geri dönün. Əlbətdə Həccacın, Çingizin və Teymurun adını xalq və seçilmişlər necə dilə gətirdiklərindən xəbəriniz vardır.

İkincisi - üç-beş günlük dünya səltənəti üçün müxalif yolu tutmaq, müsəlmanlardan bir vasitə kimi istifadə etmək bəşər övladının xeyirlisi olanının (Məhəmməd peyğəmbər nəzərdə tuutlur) ümmətinin arasında parçalanma salmaq doğru deyildir. Bu uzaqlıq və bir-birinə nifrət sevgili həzrətin (Məhəmməd peyğəmbər) zülmə düçar olmuş ümmətini bir-birinə düşmən edəcəkdir. Bununla da islamın maddi və mənəvi gücü zəifləyəcəkdir. Nəticədə islam düşmənləri müsəlman məmləkətlərinə əl uzadacaqlar.

Üçüncüsü - İmkan verməyiniz ki, məscidlər, məzarlar, təkkələr, hücrələr, habelə sultanlar, əmirlər, keçmiş və sabiq alimlərin əsərləri cahil sufilər, bəd niyyətli insanlar tərəfindən qəsb və talan edilsin. Çünki onlar o məmləkətlərdə islam mülkiyyətidir və Allahın sevimli insanının (peyğəmbərin) şöhrətli ümmətinin nişanələridir.

Dördüncüsü - Qəlb oxşamaq, ədalətli və insaflı olmaq xalqın fikrində savaşdan, təcavüzdən və qan tökməkdən daha təsirlidir. Yaxşısı odur ki, hər işdə bərabərlik, ədalət, şəriət və xalqının hürriyəti o əmir məqamlının (Şah İsmayıl nəzərdə tutulur) peşəsi olsun. Xalqınızın sevgisini qazanın, yaxşı niyyətinizlə və davranışınızla onları əfv edin ki, kimsə qırılmasın. Elə bir davranış göstərin ki, o torpağın əhalisi atalarının vətənini tərk edib xaricə hicrət etməsin. Çünki dövlətin və məmləkətin abadlığı xalqın hökumətdən razı qalmasından asılıdır. ....siz səadət sahibi o qədər məmləkətləri asanlıqla fəth edə bilməzdiniz. İran elə bir məmləkətdir ki, islamdan öncə də mötəbər hökmdarlar o ərazidə səltənətdə olmuş, bəzi hökmdarlar da iranlıların köməyi ilə yer üzündə olan məntəqələri fəth etmiş və sultanlar arasında özlərindən yaxşı ad qoyub getmişlər.

İranlılar elə bir millətdir ki, əgər onların padşahı özlərindən və öz əyanlarından olmasa onlara itaət etməzlər, padşahlarının İranın paytaxtlarından birində oturmasını və özünü iranlı hesab etməsini, iranlıları hakim millət hesab edərək ədalətlə yol getməsini istərlər. Allaha həmd və şükürlə o cəsur cənab (İsmayıl) bütün iranlılardan nəcib, soylu, ulu, şöhrətli olmaqla İranın qədim, məşhur və tanınmış ailələrdən birinin üzvüsünüz. Əgər ədalətli olsanız, hər zaman xalqın rifah və rahatlığını düşünsəniz, İran xalqına itaət və xoşluqla Hindistan və Türküstan xalqı da sadəcə sizin bir işarənizlə tabe və itaətkarlıqla boyunlarını əyəcək, Səfəvi sufi dövlətinin yüksəlməsi və yaşaması üçün fədakarlıqla çalışacaqlar. Amma bunun əksinə olaraq qılınc gücünə İrana sahib olsanız, dövlət və məmləkətin şərqindən və qərbindən özünüzü bütün müsəlmanların düşmənçilik oxuna hədəf etsəniz onda bütün müsəlmanların əmirlərinin və hakimlərinin hücumlarından rəzil olarsınız və bir daha rahat olmazsınız. Beləcə İran məmləkəti

viran qalar və müsəlmanların gözündə yenilmiş olar. Ağıllı niyə elə işlər görsün ki, sonra da peşimançılığını çəksin. Məmləkətə padşah lazımdır. Məmləkət padşahı və rəiyyət hər ikisi ədalətlə rifaha qoşuşa bilər. Mənəvi və axirət işləri olan, yəni dindar və etiqad sahibi olan padşah nə üçün belə işlərə qurşansın? Əgər o nəcibliyə malik olan (İsmayıl) bu cənabın öyüdlərinə qulaq asıb qəbul edərsə, əbədi olacaq Osmanlı dövləti sizə arxa çıxıb zəruri anlarda sizə yardım edəcəkdir" (11).

Mətndən göründüyü kimi, Sultan Bəyazid məktubun bir yerində yazırdı ki, əgər iranlıların padşahı öz aralarından olmasa onda ona itaət etməzlər. Tədqiqatçıların fikrincə, bununla Sultan Bəyazid, əslində, həm də Şah İsmayıla qarşı qoşun çəkməməyin səbəbini göstərirdi və ehtiyat edirdi ki, Səfəvi torpaqlarını ələ keçirsə belə onu əlində saxlaya bilməyəcəkdi. Ona görə də münasibətlərin hərbi məcraya çevrilməsindən ehtiyat etdi.

Sultan Bəyazid bu məktubunda Şah İsmayılı "şah" adlandırmadı, ona əmir deyə müraciət etdi. Amma məktubun məzmunundan görünür ki, Sultan Bəyazid Şah İsmayılı şah kimi qəbul edirdi, onu Dara və Keyxosrov kimi hökmdarların varisi sayır, Təbrizi tutaraq Xosrov Pərviz taxtına, yəni şahlıq taxtına oturduğunu etiraf edirdi. Sultan Bəyazid həmçinin Səfəvi xanədanını qəbul edirdi, bu xanədanın qədimliyinə, İsmayılın özünün isə bütün iranlılardan ən nəcib soylu, ulu olmasına işarə edirdi. Ağqoyunlulara qarşı münasibətinin ifadəsi də Sultan Bəyazid tərəfindən Şah İsmayılın yeni dövlətin hökmdarı kimi tanımasına bir işarə idi. Sultan Bəyazid Ağqoyunlu Əlvənd Mirzəni öz məktubunda ləvənd adlandırırdı və bununla bir növ onun dövlətinin yıxılmasına da öz münasibətini bildirmiş olurdu.

Şah İsmayıl Osmanlı elçisini hörmət və ehtiramla qarşıladı və onu çoxlu qiymətli hədiyyələrlə geri yola saldı. Məlumdur ki, Şah İsmayıl Osmanlı elçisini İsfahanda qarşıladı. Onun qarşılanması üçün çox təmtəraqlı bir mərasim keçirildi və bununla Şah İsmayıl həm də öz gücünü və qüdrətini Osmanlı elçisinə nümayiş etdirdi.

Osmanlı elçisinə böyük ehtiram göstərilsə də, Osmanlı sultanının sünniləri təqib etməmək haqqında tövsiyəsi heç də qəbul edilmədi və Şah İsmayıl öz hakimiyyətinin möhkəmləndirilməsi və genişləndirilməsi üçün şiəliyi hakim dini-ideoloji səviyyəyə qaldırdı, bununla belə o da Osmanlı sərhədinə qoşun çıxarmaqdan çəkindi. Çünki Şah İsmayıl, Səfəvi dövləti daxilində hələ müəyyən təhdidlərlə, xüsusilə Ağqoyunlu şahzadə və əmirlərinin yenidən ətrafına qoşun toplayaraq baş qaldırmasından, şərq sərhədləri boyunca isə özbək qoşunlarının müdaxilələrindən ehtiyat edirdi. Yəni, həll edilməli ciddi məsələlərin həllinə nail olmadan Osmanlıya qarşı cəbhə açmaq heç də gözlənilən nəticəni verməzdi və ona görə də Şah İsmayıl da hələlik Osmanlı dövləti ilə dinc dolanmağı üstün tutdu. Sünni əhalinin səfəvilər tərəfindən təqib edilməsi davam edəndə Sultan Bəyazid də vilayət əmirlərinə məktub göndərdi və onlardan tələb etdi ki, Osmanlı təbəələrinin Səfəvi dövləti ərazisinə yollanmasının qarşısını alsınlar. Əslində, Anadolu sufilərinin səfəvilərə qoşulmasının qarşısının alınması üçün

əvvəllər də müəyyən məhdudlaşdırıcı tədbirlər görülməkdə idi və bununla bağlı, Sultan Bəyazid tələblər də irəli sürmüşdü. Sultan Bəyazidin bu tələbləri kifayət qədər konkret xarakter daşıyırdı. Məsələn, Sivas sancaq bəyinə verilmiş əmrdə tələb olunurdu ki, Ərdəbil oğlunun (Şah İsmayılın) yanına yollanmaq istəyən hər bir sufidən sərhəd xəttində tutularkən 400 ağca pul, sufi xəlifəsindən isə 2000 ağca alınsın. Bundan başqa, tələb olunurdu ki, sufilərin Ərdəbilə tərəf irəliləməsi ciddi nəzarət altında saxlansın, belə hallar müşahidə edilərsə həmin sufilər dərhal saxlansın və onlarla bağlı müvafiq əmrlər yerinə yetirilsin. Sultan tərəfindən icazə verilmişdi ki, Osmanlı məmurlarından kimsə səfəvilərə qoşulmaq istəyən Anadolu sufisini tutsa, onun malik olduğu mal və əmlak həmin məmura hədiyyə edilsin. Sultan Bəyazid səfəvilərə qoşulmaq istəyən Anadolu sufilərini fəsad təbəqə adlandırırdı və belələrinin nə qədər saxlanması və cəzalandırılması haqqında vaxtaşırı Osmanlı sarayına məruzə olunmalı və müvafiq məlumat çatdırılmalı idi. Bununla belə, Anadolu sufilərinin sərhədi adlamasına hələlik qadağa qoyulmamışdı (12).

Amma sonradan Sultan Bəyazidin Anadolu sufilərinin səfəvilərə qoşulmasının qarşısının alınması üçün irəli sürdüyü tələblər daha da sərtləşdi. Onun oğlu Sultan Mahmuda göndərdiyi əmrlərdən birində deyilirdi: "Bundan öncə mənim qorunan məmləkətlərimdə bəzi sufilər silahlarıyla digər tərəfə gedib Ərdəbil oğlu ilə birləşib orada o asi zümrə və qiyamçı tayfası ilə çeşidli qəzavətdə olmuşlar. Bu səbəblə yuxarı tərəfə getmələri yasaq olsun, əgər gediş-gəliş əsnasında sufilərdən kimsə tutularsa malları onu yaxalayana verilsin və özü isə edam olunsun. Əmr etmişdim və bu xüsusda mənim şərif fərmanım sizə göndərilmişdi. İndiki halda belə duyulur ki, o şərir (şər-red.) tayfanın haqqında mənim şərif hökmümə əməl olunmamış, sufilərin edam edilməsi qarşısında malları alınır, sufilərdən 400 ağca və xəlifələrdən 2 min ağca alınıb cəzalandırılmırlar, sufilər də ötə tərəfə getməyə fürsət tapıb, adı keçən dəstələr para cəzasına razı olub gediş-gəlişlərinə davam edirlər. Beləliklə, o tayfanın gerçək durumu tam bəllidir, şər və fəsadları tamamilə aşkar və harada hansı kəsavəti törətdikləri bəlli və bunlar hamısı mənim uca taxtımın hüzuruna ərz olunmuş, çirkin əməlləri və təkrar törətdikləri şər və fəsadlar davamlı şəkildə anlaşılmışdır. İndi onların cüzi sərvətini yönəlmək mənim onları cəzalandırma fərmanımın görməzliyinə səbəb olmuşdur. ...İndi buyururam, o tayfadan yuxarı tərəfə gedənlərin, səadətli sarayınızın əsgər və xidmətçilərinə sufilərin yollarını kontrol etməsini sifariş edin və sufi tayfasından kimsə mənim əmrimə müxalifət edib yuxarı tərəfə gedərsə tutulsun, malları onları tutanlara verilsin, onlara bir fürsət ikanı verməyib tutulan sufiləri öldürsün. Bu şərif hökmüm sənə yetişəndə tutulanların siyahısını bizə elan et. Amma bu xüsusda əsgər və adamlarına təidlə çatdır ki, bu məsələyə özlərinin bir qazanc və peşəsi kimi baxmasınlar və sufilərin mal və əşyalarına tamah salıb tutulanları buraxmasınlar. Əgər belə bir hal baş verərsə (onlar) ciddi cəzaya məruz qalacaqlar. İndi bilin, bu fərman icra üçün göndərildi. Əlaməti-şərifəyə güvənin" (13).

Sultan Bəyazid vilayət bəylərbəyi olan digər övladları - Sultan Əhmədə, Sultan Aləmşaha, Sultan Səlimə də eyni məzmunlu fərmanlar göndərdi və onlardan da Anadolu sufilərinin sərhədi keçməsinin və sufilərə qoşulmasının qarşısını almağı tapşırdı. Amma elmi dövriyyədə mövcud olan sənədlərdən belə məlum olur ki, bu fərman lazım olan səviyyədə icra olunmurdu və Sultan Bəyazid də bundan narazı idi. Ona görə də Sultan Bəyazid çox sərt şəkildə tələb etdi ki, sərhəd xəttini keçmək istəyən sufilərlə bağlı onun fərmanı icra olunsun. Sultan Bəyazidin oğlu Sultan Mahmuda göndərdiyi növbəti məktubunda deyilirdi ki, Ərdəbil oğlunun yanına gedib-gələn və fitnə-fəsada səbəb olan Anadolu sufilərinin tutulması, mal-mülkü əlindən alındıqdan sonra edam olunması barəsində dəfələrlə hökm verilsə də, bu hökmlər icra edilmir. Sultan Bəyazidə məlum olmuşdu ki, valilər və sancaq bəyləri onun fərmanın icrasından sui-istifadə edirlər. Sərhədi keçmək istəyən Anadolu sufiləri və xəlifələri tutulanda onlardan pul cəriməsi alınır və sonra da onlar azad buraxılırdı. Bu isə Anadolu sufilərinin köçlərinin qarşısını almırdı. Sultan Bəyazid növbəti məktubunda tələb edirdi ki, sərhədi keçmək istəyən Anadolu sufilərindən və xəlifələrindən 400 və 2000 ağca cərimə tutulması ləğv edilsin və yolda tutulan sufilər edam edilsin. Şahzadələrdən tələb olunurdu ki, bu əmr yerli valilərə və sancaq bəylərinə çatdırılsın və onlardan bu əmrin icrası ciddi şəkildə tələb olunsun. Sultanın fərmanına əsasən edam olunmuş sufilərin ailələrinə qan bədəli də verilməli deyildi. Osmanlı sultanı tələb edirdi ki, onun bu fərmanının yerlərdə icrası mütəmadi şəkildə yoxlanılsın və fərmanın icrasına laqeydcəsinə yanaşanlar ciddi cəzalandırılsınlar. Sultan Bəyazid qətiyyətli şəkildə bildirirdi ki, onun fərmanın icrasına əməl etməyənlər hətta saraya yaxın adamlar olsa belə, yalnz işdən azad olmaqla canlarını xilas edə bilməyəcəklər. Belələrinin edam edilməsi də istisna edilmirdi. Şahzadələrə buyrylurdu ki, hər üç aydan bir sərhədi keçmək istəyən sufilərdən neçəsinin ələ keçirilib edam edilməsi haqqında ona məlumat göndərilsin. Sərhədi keçmək istəyən sufilərə qarşı qətiyyət göstərib onları edam edən məmurların saray tərəfindən mükafatlandırılacağı da vəd edilirdi (14).

Osmanlı sultanının tələbinə görə, vilayət əmirləri eyni zamanda təqibdən qaçaraq Osmanlı ərazisinə gəlmiş sünnilərə qayğı göstərilməsinə və gərəkərsə Osmanlı ərazisini tərk etmiş şiələrin əmlakının onlara verilməsi məsələsinə baxa bilərdilər. Hətta Sultan Bəyazid Anadoluda məskunlaşmış şiə əhalinin ölkənin qərbinə, Yunanıstanın sərhədlərinə tərəf köçürülməsi barəsində göstəriş verdi (15).

Osmanlı ərazisindəki şiə türklərlə əlaqələrin kəsilməsi cəhdi Şah İsmayılın marağında deyildi. Bununla, Şah İsmayıl bir tərəfdən qoşunlarının təkmilləşdirilməsi üçün canlı qüvvə ehtiyatlarından məhrum olurdu, digər tərəfdən də qonşu ölkənin daxili həyatına güclü təsir etmək imkanını əldən çıxırdı. Ona görə, Şah İsmayıl 1504-cü ildə (bəzi məlumatlara görə 1505-ci ildə) Sultan Bəyazidə məktub göndərdi, ondan Osmanlı zəvvarlarının Ərdəbilə gəlməsinin qarşısının alınmasının dayandırılmasını xahiş etdi. Həmin məktubun mətni aşağıdakı kimi idi:

"Dünya sultanlarının dərgahına layiq olacaq həmd-səna və Allah aşiqlərinin zikri olacaq duanı səmimi qəlbdən, xeyirxahlıq, dostluq və diqqətini nümayiş etdirərək İslam sultanlarının sultanı, ədalətin zirvəsi olan səltənətin himayədarı, ali xilafətin sığınacağı, İslamın pənahı, Allaha inanmayanları diz çökdürən, dünya xaqanlarının sığınacağı, ümmətlərin padşahları və məmləkətlərin hakimlərinin pənahı, Allah yolunda cihad edən, Allah tərəfindən yardım olunan, ədalətli və alim sultan, arif və kamil xaqan, kainatın izzət sahibinin lütfü ilə şərafətləniş və İslamın xəlifəsi olan həzrət Sultan Bəyazidin - Allah müsəlmanlar üzərindəki ədalət kölgəsini və xilafətinin ömrünü İslam müsəlmanlarının mənafeyi naminə sonsuz və əbədi etsin - mübarək dərgah və hüzuruna ərz edirəm. Həmişə mübarək vaxtlar və müqəddəs saatlarda peyğəmbərlər, din rəhbərləri və seçilmiş insanların müqəddəs ruhlarını və eləcə də şərafətli ata-babalarımızın nurlu qəbirlərini yardıma səsləyərək mərhəmətli İslamın padşahı (himayədarı) olan cənabi-alinin xilafətinin davamlı, ədalət və şəfqətinin hamıya şamil olması üçün dua edirlər. O (Allah) eşidən və duaları qəbul edəndir.

Mətləbə gəldikdə, əzəmətli şahzadələr və ədalətin xidmətçilərinin şərəfli diqqət və nəzərinə çatdırılır ki, aləmi bəzəyənə (II Bəyazidə) qədim zamanlardan indiyə qədər bütün məmləkətlərin, xüsusilə Rum diyarı əhalisinin bizin xanədanımıza olan məhəbbəti, sevgisi, etiqadı və qucaq açması məlumdur. Hər zaman oradan mənəviyyat yolunun yolçuları bu hidayət ailəsinə, cənnətməkan şeyxlərin -Allah onların ruhlarını müqəddəs etsin - müqəddəs yurduna doğru istiqamət götürmüş və hər kəs öz fitri qabiliyyətinə uyğun mənəviyyat və axirətlə bağlı məqsədinə nail olmuşdur. Bəzən onların yolu üzərində olan şahlar, ətraf və məmləkətlərin hakimləri onların fəaliyyətinə mane olmuşlar. Çünki ədalət və xilafətin ən fəzilətli xadimi olmaq tələb edir ki, bütün islam əhli, xüsusilə də təriqət yolunun yolçuları və həqiqət mülkinin sahibləri üçün cavabdehlik daşıyasan və bu ailəni ziyarət etmək istəyən mürid və tərəfdarlara icazə verəsən. Şahlar, ətraf [ərazilərin] hakimləri, sərhəd və şəhər keşikçilərinə fərman verilsin ki, qətiyyən bu dəstənin fəaliyyətinə mane olmasınlar və bu istiqamətə kim üz tutarsa Allahın istəyi ilə axirət istəklərinə nail olar, dəvətləri çoxalar, cah-cəlalı artar, bəxşişləri və xilafətin qüdrəti çoxalmış olar..." (16).

Sultan Bəyazid bu Çah İsmayılın bu xahişinə müsbət cavab verdi. Onun cavab məktubunda bildirilirdi ki, Ərdəbilə ziyarətə yollanmaq istəyənlər qoşun xidmətindən yayındıqları üçün səfər icazəsi ala bilmirlər. İki dövlət arasında münasibətlərin xoş məram üzərində qurulması naminə bu zəvvarların Ərdəbil səfərinə icazə veriləcəyini bildirdi. Bir şərtlə ki, Səfəvi ərazisində ziyarətdən sonra yenidən Osmanlı ərazisinə qayıtmalı idilər: "...Həqiqət əhlinə meyl edənlərə mane olunmaması barəsindəki xahişiniz haqqında da araşdırma aparılarkən belə məlum oldu ki, mücahid qazilərin rəiyyətinin əksəriyyəti ziyarət bəhanəsi ilə bu məmləkəti tərk edərək iş-gücdən yayınır və bu da ordunun məhsuldarlığına böyük zərər vururmuş. Böyük ordu rəhbərləri öz sabiq rəiyyətləri ilə qarşılaşdıqda qədim adət-ənənələrə görə görən kimi tutub onları əsas vətənlərinə gətirmişlər.

Sizin mübarək xəbərdarlığınızı aldıqdan sonra fərman verdik ki, bu təbəqə arasından kimsə Allah övliyalarını - Allahın rəhməti onların üzərində olsun - ziyarət etmək niyyətində olarsa, hər iki tərəfin istəyi və arzusu olan məhəbbət yolu abad, möhkəm məhəbbət bağları sarsılmaz olsun deyə geri dönüş istiqamətində kimsə onlara mane olmasın" (17).

Sultan Bəyazid bu məktubunda həm Şah İsmayıla, həm də onun əcdadlarına böyük hörmət və ehtiramını bildirdi, Şah İsmayılın əcdadlarını Allahın övliyası kimi qəbul etdi. Amma bu məktubdan belə bir qənaət də hasil olur ki, Osmanlı ərazisini tərk edənlərin məqsədi yalnız Şeyx Səfi türbəsini ziyarət etmək deyil, həm də Osmanlı ərazisində əsgəri mükəlləfiyyətlərdən qaçmaq idi. Ona görə də Sultan Bəyazid mülayim şəkildə belə bir şərt irəli sürdü ki, Osmanlı ərazisini tərk edənlər geri qayıtmalıdırlar.

1507-ci ildə Şah İsmayıl Ağqoyunlu Sultan Muradla birləşmiş Əlaüddövlə Zülfüqara qarşı qoşun çəkdi və bu cütlüyün qüvvələrinə zərbə vurmaq üçün Bestam istiqamətində hərəkətə başladı. Bu yürüşünü başa çatdırmaq üçün Şah İsmayıl qoşunları ilə Osmanlı ərazisindən keçmək məcburiyyətində qaldı. Şah İsmayıl bu məqsədlə Osmanlı sarayından icazə almadı. Amma Osmanlı ərazisinə qədəm qoyanda Sultan Bəyazidə məktub göndərdi və Osmanlı ərazisindən adlamaq məcburiyyətində qalmasının səbəblərini ona çatdırdı və belə addım atılmasının qəzəblə qarşılanmamasına ümid etdiyini bildirdi. Şah İsmayıl belə bir qərar qəbul etdiyinə görə təəssüfünü bildirdi və bəyan etdi ki, Osmanlı ərazisindən keçmək məcburiyyətində qalması ilə heç də iki dövlət arasındakı münasibətlərin pisləşməsini istəmir. Məktub hörmət ruhunda yazılmışdı və Sultan Bəyazid çox təmtəraqlı titullarla xatırlanmışdı:

"Tərifəlaiq səltənət və xilafət məqamına [sahib], Günəş kimi parlaq və yüksək mərtəbədə dayanan, Cəmşid qədər əzəmətli, İskəndər kimi qüdrətli, ucalıq və ədalətin himayədarı, insaf və mürüvvət sahibi, dünya qeysərlərinin tabe olduğu, səltənət mülkünün valisi və layiqlisi, kafirlər və bütpərəstlərə baş əydirən, İslam ordularının sevimlisi, "dənizdə dağlar kimi üzən gəmilərin" sahibi, sultanların və şahların ən ləyaqətlisi, xaqanlar xaqanının ən əzəmətlisi, yüksək cəsarətlə həqiqət bayrağını daşıyan, fəth bayrağını qaldıran, təmkin və izzət kürsüsünə əyləşmiş, din və dünya mülkünü qoruyun, səltənət və xoşbəxtlik qanunlarını yayan, əzəmət və dövlət qanunlarını qoyan, Allah yolunun mücahidi, "nəfsini özünə tanrı edənləri" cəzalandıran, Allah tərəfindən yardım edilən, səltənət, ədalət, qüdrət və xoşbəxtliyin yardımçısı həzrəti Sultan Bəyazid - Allah səltənətinin təməllərini abad etsin, sizə gözəllik və sevinc bəxş etsin - məhəbbətinin çoxluğunu özündə ehtiva edən və kamil sevgidən ayrılan nərgiz ətirli dualar qafiləsi və ənbər qoxulu salamlar karvanı sizə ərməğan olsun.

Agah ol ki, məmləkəti gözəlləşdirmək düşüncəsinin düyün nöqtəsi Rəbiüs-sani ayının 12-də [indiki] Harput yurdunda baş verən [hadisə ilə] bağlıdır. Oradan ötərək müxalifətə doğru getmək niyyətindəyik. Tərəflərimiz arasında əvvəlcədən razılaşdırılan qərar bağlılıq və vəfadarlıq eyni qaydada davam edir və sarsılmazdır.

Bu mübarək vaxtlarda Rum diyarının müsəlman məmləkətlərindən keçərkən qüdrətli qazilər və qalib əsgərlərimizə həmin vilayətlərin əhalisini incitməyi qəti şəkildə qadağan etmişik. Müzəffər ordumuzun keçməsi ilə zərər çəkmiş insanlara nəvaziş göstərib öz yerlərinə və məkanlarına [qayıtmasına yardım etdik]. Gələcəkdə də, ümumiyyətlə, onlara qarşı heç bir təhlükə yoxdur. Ümidvaram ki, ilahi əmanətin qoruyucusu eşq əhlini sonsuz hikməti ilə [öz] himayəsinə götürmüş və qorumuşdur. Şər və zülmətin yüksəldiyi zaman, taleyin münasib qoruyucusunu onu qorumaq üçün təyin edəcəkdir. Bu əzəli bəxşişin mənşəyi, mahiyyətin yaradılış cövhəri olduğu üçün Tanrı tərəfindən sonradan yaranan çətinliklərdən əbədiyyən amanda olacaqdır. Bir olan əziz Allahın istəyi ilə.

Əziz məqsəd dostluq və sevgi münasibətlərini vurğulamaq olduğu üçün uzunçuluğa yol vermədik. "Nun və sad" ilə ilk danışan xatirinə (Allah xatirinə) dövlətin qalası, uca gələcəyi və səadət sevincinin zirvəsi möhkəm olsun" (18).

Sultan Bəyazid hələ də Səfəvi dövləti ilə münasibətlərin gərginləşməsi marağında deyildi və ona görə də səfəvi qoşunlarının Osmanlı ərazisindən keçməsinə mülayimliklə yanaşdı. Eyni zamanda Şah İsmayılın məktubuna da cavab yazdı. Osmanlı sultanının məktubu da hörmət və ehtiram hissələrinin ifadəsi idi və o da Şah İsmayıla çox yüksək titullarla müraciət etdi. O, Şah İsmayılı böyük padşah, zəmanənin Cəmşidi, böyük Allahın yardımına layiq bir hökmdar kimi xatırladı: "Böyük padşah, Əcəm məmləkətinin hökmdarı, türk və Deyləm diyarının əmiri, dövrümüzün Cəmşidi, zəmanənin Keyxosrovu, əzəmətli Allahın yardım etdiyi Şah İsmayılın - Allah dövlətinin əsaslarını möhkəmləndirsin, ömrünü uzatsın, ona uğurlar və qələbələr bəxş etsin - bəlağətli məktubu gözəl ovqat və zamanda əlimizə gəlib çatdı. [Bu məktubda] mübarək ordunuzun qorunan padşahlığımıza (Qeysəriyyəyə) daxil olması, həmin ərazi və sərhədlərin əmirlərinin sizinlə dostcasına davranması haqqında məlumat verildi. Tərəflər arasındakı birlik və səmimiyyətin bir an belə itirilməməsi, səmimiyyət, ədalət və razılığın həmişə bərqərar olmasına cəhd göstərilməsi əmr edildi. Çünki Allahın bizə əmanəti olan xalq təhlükəsizlikdə və əmin-amanlıqda yaşamalı, bu vəhdətin əbədi olması üçün duaları artırmalıdır. Ədalətli və güclü dövlətinizin müttəfiqliyinin və sevgisinin möhkəmliyi açıq-aşkar kamillik dərəcəsinə çatdığı üçün ədalətpərəst ordunuzun gəlişindən həmin bölgənin sakinləri narahat olmamışlar. Padşaha ehtiramımı qorumuş və hər mövzuda tərəfimizi saxlamışlar. Öz alicənablıqları sayəsində bu mövzuda az da olsa gecikmə və ləngimə olmamışdır. Əziz və əzəmətli Allahın istəyi ilə qarşı tərəfdən də həmin razı üslubdan istifadə olunur və əks bir hal ortaya çıxmaz. Bu böyük nemətin faydaları hər iki tərəfdə yaşayanlara məlum olmuş, onun şükr və fəziləti əməl dəftərlərinə dərc edilmişdi ki, bunun da müqabilində böyük savab veriləcəkdir.

Allah xatirinə səltənətinin qalan günləri məhəbbətlə keçsin" (19).

Bununla belə, Sultan Bəyazid ehtiyat tədbirləri də gördü və Səfəvi qoşunlarının Osmanlı ərazilərinə yayılma ehtimalının qarşısını almaq üçün konkret tədbirlər gördü. Səfəvi qoşunlarının hərəkət marşrutu yaxınlıqlarında kifayət sayda Osmanlı qoşunları toplandı. Belə ki, Anadolu bəylərbəyi Qaragöz

paşaya göstəriş verdi ki, rəhbərliyi altında olan qoşun dəstəsini Çubuk obasına toplasın. Damat Yəhya paşa isə 70 min nəfərlik qoşun dəstəsi ilə Qeysəri-Sivas arasında dayanmışdı və Səfəvi qoşunlarının hərəkətlərini nəzarət altında saxlamışdı. Bundan başqa daha 10 min nəfərlik bir qoşun dəstəsinin hazırlanmasına göstəriş verilmişdi. Anadolu bəylərbəyi Qaragöz paşa bütün bu qoşunların rəhbəri təyin edildi və o öz vəzifəsini icra etmək üçün tezliklə Qeysəriyə yollandı. Səfəvi qoşunlarının fəaliyyətini nəzarət altında saxlamaq üçün 100 min nəfərdən artıq olan bir qoşun dəstəsi vəzifələndirildi və bu qoşun dəstəsi bütün 1507-ci ili əmrə hazır vəziyyətdə oldu (20).

Belə bir hazırlıq tədbirləri görsə də, Sultan Bəyazid Səfəvi qoşunlarına qarşı sərt tədbirlərə əl atmaqdan çəkindi və iki dövlət arasında dinc münasibətlərin mövcudluğuna üstünlük verdi. Müəyyən anlaşılmazlıqlar və gərginliklər olmasına baxmayaraq, Sultan Bəyazid həyatının sonuna qədər belə bir siyasət izlədi və Şah İsmayıl ilə müharibəyə girişmədi.

Osmanlı sarayının Səfəvi dövlətinə qarşı mülayim siyasəti Şah İsmayılın Türküstan yürüşünə qədər davam etdi. Məlumdur ki, Türküstan yürüşünü uğurla başa çatdırılması ərəfəsində, Şah İsmayıl Mərv qalasında olarkən Diyarbəkr hakimi Məhəmməd xan Ustaclıdan məktub aldı. Bu məktub Sultan Səlimin Diyarbəkr ətrafına hücumları haqqında idi. Şah İsmayıl da bu məktubu alandan sonra öz elçisi Xəlil ağanı məktubla və özbək xanı Şeybək xanın saman doldurulmuş kəllə dərisi ilə birlikdə Osmanlı sultanına göndərdi. Şeybək xanın başının dərisinin samanla dolduraraq Sultan Bəyazidə göndərilməsinin nə üçün edildiyinə birmənalı cavab tapmaq çətindir. Amma Şah İsmayılın bu hərəkəti Osmanlı sarayı ilə Şah İsmayıl arasındakı münasibətləri xeyli gərginləşdirdi. Bu "hədiyyə" Sultan Bəyazidi də hövsələdən çıxardı. Şeybək xanın baş dərisinin Osmanlı sarayına göndərilməsi sadəcə Səfəvi qoşunlarının uğuru haqqında məlumat verilməsi demək deyildi. Çox güman ki, bununla Şah İsmayıl bir tərəfdən hansı qüdrətə malik olmasını nümayiş etdirmək istəyir, digər tərəfdən də sünni şahların gələcək taleyinə işarə edirdi. Əslində, Osmanlı sarayında da Şah İsmayılın bu "hədiyyəsi" Osmanlı dövlətinə bir təhdid və xəbərdarlıq kimi qəbul edildi. Bu "hədiyyə"dən sonra Sultan Bəyazidin səfəvilərə qarşı hərbi vasitəyə əl atmaq niyyətinə düşməsi də istisna deyil. Lakin Sultan Bəyazid yaşı ilə əlaqədar artıq öz çevikliyini itirmişdi. Digər tərəfdən onun övladları arasında hakimiyyət uğrunda çəkişmələr də başlamışdı ki, bu Səfəvi dövləti kimi böyük və güclü bir dövlətə qarşı hərbi kampaniyaya başlanmasını çətinləşdirirdi.

Şah İsmayıldan alınan "hədiyyə"dən sonra Sultan Bəyazid ona bir məktub göndərdi. Həmin məktubun Şahqulu baba üsyanından sonra Şah İsmayıla göndərilməsi haqqında da fikirlər mövcuddur. Amma ümumi məzmun onun məhz Şeybək xanın saman doldurulmuş kəlləsinin alınmasındn sonra yazıldığını deməyə əsas verir. Sultan Bəyazidin məktubu belə başlayırdı: "Ey az təcrübəli cavan, yenə ata nəsihətlərini eşit. Yeni bir məzhəbin qəbul etdirilməsi üçün müsəlmanların qanını axıtma. Çoxlu sayda mömünün qətlə yetirilməsinin cəhənnəmlik olmasını başından uzaq tutma. Əzəmətli əcdadın Narullah yolunu

özünə peşə elə. Şücaətli sultan Şeybək xanın dərisinin göndərilməsi osmanlılarda qorxu və təlaş yarada bilməz" (21).

Məktubda sonra deyilirdi ki, məlun niyyətli insanları Osmanlı daxilinə göndərmək və sonra da onların vasitəsilə Osmanlı daxilində talanlar təşkil etmək, Osmanlıları öz yurdundan köçürmək oğrulara yaraşan bir əməldir. Sultan Bəyazid öz məktubunda Səfəvi dövlətini iki islam iqlimi arasında yer tapmış bir körpüyə bənzədirdi. Bu iki iqlimi deyəndə Osmanlı sultanı Kiçik Asiya ilə Orta Asiyanı nəzərdə tuturdu. Onun fikrincə, bu körpü qüdrətli bir gözətçiyə möhtac idi ki, həmin gözətçi zərurət yarananda islam düşməninin qarşısını ala bilsin. Eyni zamanda Sultan Bəyazidə görə bu körpünün gözətçisi həm də imkan verməməli idi ki, bir iqlimin hökmdarı digər iqlimə hücum etsin və ya dağıntılar törətsin. Osmanlı sultanının yazdığına görə, dünya mülkünün sahibi olan yaradan bu körpünün gözətçisi olmaq vəzifəsini Şah İsmayıla həvalə etmişdi və ona görə də Şah İsmayıl qələbələr və uğurlar əldə edirdi: "Ona görə vacibdir ki, böyük yaradana şükürlər edib bu böyük nemətin qədrini biləsiniz. Bu körpünü dini ixtilaflarla xarab edib hər iki tərəfin müsəlmanlarının əlaqələrinə və görüşmələrinə maneçilik yaratmayın. Bundan əvvəl də bəyan etdiyimiz kimi, rəiyyət ədalət istəyir. Rəiyyət tərəfindən sultana itaət edilməsi mənəvi məqamdır. Səltənət isə maddi məqamdır. Ona görə sultan ədaləti izləməli və mənəvi məqama müdaxilə etməməlidir" (22).

Sultan Bəyazid məktubunun sonluğunu Şah İsmayıla göndərdiyi hədələrlə bitirirdi. O xəbərdar edirdi ki, Rum ərazilərini istila etmək niyyətlərindən əl çəkin. Sonra da Şah İsmayıla məsləhət görürdü ki, öz üzünü Turan və Hindistana tərəf çevirsin, oralarda özünə səltənət qursun. Osmanlı sultanı Səfəvi şahını düşünülməmiş əməllərdən əl çəkməyə çağırırdı. Əks təqdirdə, onun fikrincə, o, Osmanlı qazilərinin cihada qalxacağını və Səfəvi hüdudlarını viran edəcəyini istisna etmirdi.

Sultan Bəyazidin Səfəvi dövlətinə qarşı mülayim siyasəti heç də Osmanlı sarayı tərəfindən bütünlüklə müdafiə olunmurdu. Səfilərin günü-gündən möhkəmlənməsinin və qonşularına qarşı iddialı olmasının son nəhayətdə hərbi qarşıdurmaya gətirib çıxaracağı bir çox Osmanlı əmir və sultanlarına gizli deyildi. Ona görə Səfəvi dövlətinə qarşı sərt tədbirlər görülməsini lazım bilən dairələr də mövcud idi. Osmanlı sultanının kiçik oğlu, Trabzon hakimi Sultan Səlim Səfəvi dövlətinə qarşı sərt siyasət izlənilməsini xüsusilə vacib sayırdı. Ona görə də Sultan Səlim hələ atasının sağlığında ondan icazəsiz Səfəvi hüdudlarına qoşun yeritməkdən çəkinmirdi.

Xorasan və Türküstan yürüşlərini uğurla başa vurub Təbrizə qayıtdıqdan bir müddət sonra Şah İsmayıl Diyarbəkr hakimi Məhəmməd xan Ustaclıdan yeni bir məktub aldı. Bu məktubda Məhəmməd xan, Osmanlı sultanı Sultan Bəyazidin oğlu Sultan Səlimin Səfəvi səltənətini qərb sərhədləri boyunca yaratdığı narahatlıqlardan xəbər verilirdi. Məhəmməd xanın yazdığına görə, Sultan Səlim böyük sayda qoşun toplayaraq Mustafa paşa ilə birlikdə Qarahəmid qalası üzərinə hücum etmişdi. Həmin vaxt Məhəmməd xan Ustaclı xəstə

olduğundan onun qardaşı Qaraxan 10 min nəfərlik qoşun dəstəsi ilə Osmanlı qoşunlarının qarşısına çıxmış və bu qoşunlara təsiredici zərbə vurmuşdu. Mənbələrin məlumatına görə, sultan qoşunları niyyətlərinə nail ola bilməyərək geri qayıtmaq məcburiyyətində qalmışdılar. Şah İsmayıl bu xəbərdən son dərəcə qəzəbləndi və Məhəmməd xana göndərdiyi məktubunda ondan tələb etdi ki, Sultan Səlimin yenidən Səfəvi sərhədlərinə hücum edəcəyi təqdirdə dərhal ona xəbər göndərsin. Şah İsmayıl bəyan etdi ki, şəxsən özü gələrək Osmanlı sultanının oğlunun qarşısını kəsəcək və onun başının dərisini soyub çıxaracaqdır. Bununla belə, Şah İsmayıl Osmanlı sultanına məktub yazmağı da məqsədəuyğun saydı. Həmin məktub və qiymətli hədiyyələr Süleyman Yasavula verildi ki, elçi kimi Sultan sarayına yollansın, məktub və hədiyyələri Osmanlı Sultanına çatdırsın. Hədiyyələrə Əbülxeyir xandan götürülmüş qənimətin bir hissəsi, Çingiz xan ələminin bir parçası, Əbülxeyir xanın qana bulanmış taxtının qərqərəsi daxil idi (23).

Şah İsmayıl məktubundan əlavə, Osmanlı sultanına elçi vasitəsilə şifahi ismarıclar da göndərmişdi. Süleyman Yasavul Osmanlı ərazisində olarkən artıq Sultan Bəyazidə Şah İsmayılın elçisinin gəlməsi barəsində məlumat verilmişdi. Farsdilli mənbələrin məlumatına görə, Sultan Bəyazid elçi gəlməsi xəbərini müəyyən təşvişlə qarşıladı və hətta öz adamlarından birini elçinin yanına göndərdi ki, onun gətirdiyi xəbər yaxşı xəbər deyilsə, onda həmin xəbəri sarayda səsləndirməsin. Çünki Sultan Səlim və digər saray mənsubları bu xəbərləri eşitdikdən sonra sərt tədbirlərə əl ata bilərdilər. Ona görə Sultan Bəyazid tələb etdi ki, gətirilən xəbər xoş xəbər deyilsə həmin xəbər əmirlər vasitəsilə ona çatdırılsın. Bununla belə, Osmanlı sarayı tərəfindən elçinin qarşılanması üçün müvafiq tədbirlər görüldü və o, Osmanlı sarayında qəbul edildi. Elçinin gəlişi münasibəti ilə sarayda xüsusi bir ziyafət də təşkil edildi və həmin ziyafətdən sonra Şah İsmayılın məktubu Sultan Bəyazidə təqdim edildi. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində bu məktub bir-birindən azacıq fərqli şəkildə verilmişdir. Məktuda deyilirdi: "Quruların və dənizlərin sultanı, Hərəmeyn şərifəin xadimi, Rum qeysəri və Rum məmləkətinin hökmdarı Sultan Bəyazidə məlum olsun ki, biz hümayun xaqan çalışırıq ki, qədimdən aramızda olan dostluq və əhd-peyman qaydaları qırılmasın. Amma yenə Sultan Səlim biz humayun xaqanın mənsublarına qarşı yaraşmaz hərəkət etmişdir. ... O Rum məmləkətinin hökmdarının izzəti-xatirinə ona təsir göstərilsin, ona qadağan edilsin ki, gələcəkdə belə hərəkət etməsin. Əgər belə edilməsə, onda göstəriş verəcəyik ki, onları tutub bizim siyasət məkanımız olan Diyarbəkrin minarələri yanında onu dara çəksinlər. Həmin vaxt Türküstan səfəri baş verdiyindən çöllərin padşahı Qasım xan oğlu Əbülxeyir xan Çingiz xanın varisləri və 220 min nəfərlik qoşunlar biz humayun xaqana qarşı gəlmişdi. Aləmlərin rəbbinin tövfiqi və məsum imam həzrətlərinin yardımı ilə imkan vermədik ki, bir nəfər də olsa bizim qılıncımızın zərbəsindən kənar qalsın. Əbülxeyir xanın qərqərəsini Çingiz xan bayrağının bir parçası ilə hədiyyə kimi sizin hüzurunuza göndərdim" (24).

Göründüyü kimi, Şah İsmayıl bu məktubunda Sultan Bəyazidə müəyyən hədələr göndərməklə Sultan Səlimi Səfəvi sərhədlərinə qarşı yürüşlərdən çəkindirməyə çalışırdı. Şah İsmayıl bu məktubda Türküstan səfərini də xatılatmışdır. Amma bu səfərin nə üçün xatırlanması həmin məktubun "Aləmara-yi Səfəvi" əsərindəki variantından daha yaxşı aydın olur. Şah İsmayıl məktubunda Sultan Bəyazidə tövsiyə edirdi ki, öz atalıq vəzifəsini icra edərək oğlu Sultan Səlimi Səfəvi dövlətinə qarşı yürüşlərdən çəkindirsin. Sonra da Türküstan yürüşünü xatırlatmaqla Şah İsmayıl öz qüdrətini nümayiş etdirmək istəyirdi ki, o, Çingiz xanın nəvələrinin rəhbərlik etdiyi çox böyük sayda qoşuna qalib gəlməyi bacarmışdır. Bununla, həm də onu demək istəyirdi ki, əgər Sultan Səlim öz düşmənçiliyindən əl çəkməsə, onda Osmanlı ərazisinə də qoşun yeridə bilər və Türküstan qoşunlarını məğlub etdiyi kimi, Osmanlı qoşunlarına da ağır dərs verə bilər.

Yuxarıda adları çəkilən farsdilli mənbələrə görə, Səfəvi elçisinin qəbulu mərasimində Sultan Səlim də iştirak edirdi və Şah İsmayılın məktubunun məzmunu onu hövsələdən çıxardı. Ona görə də, elə həmin qəbulda atası Sultan Bəyazidə qarşı sərt ifadələr işlətdi və dedi: "Ey biqeyrət, Siz Rum məmləkətinin padşahı və hökmdarısınız. Nə üçün Şeyxoğlundan bu dərəcədə vahimələnirsiniz?" Sonra da üzünü Şah İsmayılın elçisi Süleyman yasavula tutub dedi: "Get və öz ağana de ki, belə işlərə əl atmaq yaxşı deyil. Elə işlər görmə ki, Allaha xoş gəlməsin, bizi qara torpaqla alt-üst elədin. Mən qeysər oğlu Sultan Səlim deyiləm, əgər sənin başına oyun açmasam və səni aləm padşahları arasında xəcil və xəcalətli etməsəm" (25).

Bu mənbələrdəki məlumatlara görə, məhz bu qəbuldan sonra Sultan Səlim hakimiyyəti ələ keçirmək üçün konkret işlər görməyə başladı və Osmanlı hakimiyyətinə yiyələndi.

### 2. Anadoluda Şahqulu baba üsyanı

Osmanlı-Səfəvi münasibətlərinin daha da gərginləşməsinə səbəb olan ciddi hadisələrdən biri də 1511-ci ilin aprel ayında Anadoluda baş vermiş Şahqulu baba üsyanı adlı səltənətə qarşı çevrilmiş hərəkat oldu. Bu hərəkat Antaliya, Manişa, İzmir, Qaraman, Mərsin, Konya, Qırşəhir, Tokat, Amasiya, Yozqut və Çorumda məskunlaşmış ələvilər tərəfindən başlanmışdı. Bu hərəkat məzhəb zəminində Osmanlı ərazisində baş vermiş ilk böyük üsyanlardan biri idi və onun baş verməsi onsuz da zəifləməkdə olan hakimiyyəti bir qədər də zəiflətdi. Şahqulu baba üsyanının baş verməsi ilk növbədə Səfəvi təriqətinin Osmanlı ərazisində məskunlaşmış şiələrə təsirləri ilə əlaqələndirilsə də, onun dərin ictimai kökləri də var idi. Xüsusən, ağır həyat şəraiti, Osmanlı şiələrinin məskunlaşdığı ərazilərdə vergi siyasətinin sadə insanların marağına cavab verməməsi Şahqulu baba üsyanının alovlanmasına və kütləviləşməsinə təkan verdi. Mövcud olan məlumatlara görə, hələ Fateh Sultan Mehmet dönəmində Anadoluda məskunlaşmış əhalinin vergi yüklərinin artırılmasına başlanmışdı. Sultan Bəyazid dövründə isə bu vəziyyət yaxşılığa doğru dəyişmədi. Bu isə yerli əhalinin,

xüsusilə yarımköçəri türkmanların yaşayış vəziyyətini ağırlaşdırmaqla onlar arasında səltənətə qarşı narazılıqları da artırdı. Sultan Bəyazidin hakimiyyətinin sonlarında dövlət idarəçiliyində və ölkə daxilində anarxiyanın güclənməsi isə Şahqulu baba üsyanının qalxması üçün əlverişli zəmin yaratdı (26).

Şahqulu baba üsyanının baş verməsində Səfəvi təriqəti təəssübkeşlərinin təbliğat təsiri sözsüz ki, istisna deyildi. Səfəvi təriqətinin təbliği yerlərə göndərilmiş Səfəvi xəlifələrinin qarşısında dayanan başlıca vəzifə idi. Bu təriqətin dəyərlərini təbliğ etməklə xəlifələr sufilərin saylarını artırmağa çalışırdılar. Sufilərin sayının artırılması, tərəfdaşların sıralarının genişləndirilməsi xəlifələrin həm də dini vəzifəsi idi. Eyni zamanda Şeyx Səfi xanəgahından da təriqət təbliğatçıları öz səfərləri zamanı təriqətin təbliğinə və onun sıralarının artırılmasına səy göstərirdilər. Əslində, təriqət daxilində təriqət dəyərlərinin təbliği və öyrədilməsi üçün işlək bir sistem yaradılmışdı və ona görə də Osmanlı şiələri və qeyri-şiələri, Səfəvi hərəkatı ilə sıx əlaqələri olan türk boyları arasında Şah İsmayılın mürşidi olduğu Səfəvi təriqət ideyalarının təbliği geniş xarakter almışdı. Lakin bu məqamın özünün də bir çaları odan ibarət idi ki, ağır dolanışıq şəraiti və mürəkkəb ictimai-siyasi vəziyyət Osmanlı şiələrini Şah İsmayıl hərəkatına nicat mənbəyi kimi baxmağa və Səfəvi təriqəti ətrafında daha sıx toplaşmağa sövq edirdi.

Elmi-tarixi ədəbiyyatda Osmanlı ərazilərində Səfəvi təriqət təbliğatının fəallarından biri kimi xəlifə Nurun (Nurəli) adı çəkilməkdədir. Onun bu istiqamətdəki fəaliyyəti Sivas, Tokat, Amasiya və Çorumda xüsusilə geniş idi. Bəzi məlumatlara görə, Osmanlı ərazisində Səfəvi təriqət tərəfdarlarının sayı o qədər artmışdı ki, Osmanlı şahzadələri hətta hakimiyyət uğrunda mübarizədə onların dəstəyini qazanmağa da meyl edirdilər. O cümlədən, Şahzadə Qorqud hakimiyyət uğrunda mübarizə apararkən Şahqulu baba ilə görüşmüş və öz mübarizəsində onun da nüfuzundan istifadə etməyə çalışmışdı (27).

Mütəxəssislər Osmanlı ərazisində Səfəvi təriqətinin dəyərlərinin geniş təbliğində Şah İsmayılın özünün şəxsiyyətini və fəaliyyətini xüsusi olaraq dəyərləndirirlər. Onların fikrincə, Şah İsmayıl təbliğatının təsirliliyinin mühüm cəhətlərindən biri onun Məhdəviyyət üzərində qurulması, son imam Mehdinin zühur edəcəyi və onun tərəfindən dünyanın nizamlanacağı inanclarının əsas tutulması, onun yüksək etiqad sahibi və qılınc vurmağı bacaran döyüşçü ideyalarının təsirliliyini artırır və şiələri daha sıx şəkildə birləşdirirdi. Şah İsmayıl öz təbliğatını ədəbi yaradıcılığına da köçürmüşdü və bunun ən yaxşı nümunəsi kimi aşağıdakı beyt göstərilirdi:

Allah, Allah deyən qazilər şah mənəm
Qarşı gəlin, səcdə qılın, qazilər, dini-şan mənəm

Ehtimal edilir ki, Şah İsmayıl bu beytdə həm tərəfdarlarının onun ətrafında sıx birləşməsinə çağırmış, həm tərəfdarlarını mövcud hakimiyyətə qarşı çıx-

mağa təşviq etmiş, həm də imam Mehdi missiyasının onun şəxsində cəmləşməsini göstərmək istəmişdi (28).

Səfəvi təriqət dəyərlərinin Osmanlı ərazisində özünə geniş tərəfdar tapmasının bir səbəbi kimi də bu təriqətin insanlara daha böyük sərbəstlik vəd etməsi idi. Bu sərbəstlik onların həyatını necə qurmasında, hərbi xarakterli işlərdə könüllü şəkildə iştirak edə bilməsində, təriqət dəyərlərinə könüllü bağlılığında tapmalı idi. Bunun əksinə olaraq, Osmanlı sultanlığı onun ərazisində yaşayan türkman boylarını oturaq həyata keçməyə məcbur edir, vergi toplanışlarının artırılması üçün onların sayını nəzarət altında saxlamaq istəyir, bu boyların iqtisadi fəaliyyətlərini müəyyən çərçivəyə salmağa çalışmaqla etnik hüquqlarına da biganə yanaşırdı. Bu isə mövcud vəziyyətə və hakimiyyətə qarşı narazılıqları artırmaqda idi (29).

Səfəvi təriqətinin dəyərləri sadə xalq kütlələrini kifayət qədər ciddi şəkildə özünə cəlb edə bilirdi. Bu təriqət tərəfdarlarının fərqləndirici xüsusiyyətlərindən biri də onlarda təriqətə və təriqət rəhbərinə dərin mənəvi bağlılığın olması idi. Həmin bağlılığın nəticəsi idi ki, təriqət tərəfdarları təriqət inancları yolunda silaha sarılmağa belə hazır idilər və Şah İsmayılın qoşunlarının əsasını da əsasən belə əqidə sahibləri təşkil edirdilər. Ona görə, Osmanlı ərazisində Səfəvi təriqətinin genişlənməsi yalnız məzhəb məsələsi deyildi, həm də dolayısı isə Şah İsmayıl qoşunları üçün canlı qüvvə bazasının formalaşdırılması idi. Bu təriqət üzvlərinin təşkilatlanaraq Osmanlı səltənətinə qarşı cəbhə tutmaq ehtimalı da istisna deyildi. Ona görə də Osmanlı sarayı şiəliyin genişlənməsinə yalnız məzhəb təfriqəçiliyinin genişlənməsi kimi yox, həm də ictimai-siyasi təhlükə kimi yanaşırdı. Bu təhlükənin qarşısının alınması isə Osmanlı sultanlarının dövlət qayğılarından biri idi.

Mövcud olan məlumatlara görə, şiəliyin Osmanlı ərazisində yaylmasının qarşısının alınması üçün Sultan Bəyazid Anadoludakı türk boylarının Bəktaşi təkkələri ilə əlaqələrinin qurulmasına çalışmışdı. Bu niyyətin həyata keçirilməsi üçün Bəktaşi təkkələrinə dövlətin yardımları çoxalmış və hətta bu təkkələrlə əlaqələri olan boyların nümayəndələrinin yerli vəzifələrə təyinatını və azad edilməsini tamamilə onları öz ixtiyarına buraxmışdı. Amma Bəktaşi təkkələrinə bağlanan ümidlər özünü tam şəkildə doğrultmadı. Yəni, bəktaşilərin fəaliyyətinə yaradılan imkanlar bölgədə Səfəvi təriqətinin təbliğini məhdudlaşdıra bilmədi (30).

Şahqulu baba üsyanının mərkəzi Kişik Asiyanın cənub-qərbində, Aralıq dənizi sahillərində yerləşən Təkə eli idi. Bu üsyanın təşkilatçısı və rəhbəri olan Şahqulu baba bu bölgənin Qorqudeli qəzasının Yanlı (Yalınlı) kəndindən idi və Səfəvi təriqətinə inanclı olan bir ailəyə mənsub idi. Onun atası Həsən baba Şeyx Heydərin sağlığında iki dəfə Şeyx Səfi xanəgahında olmuş, təriqətin dəyərlərinə sahib olmuşdu. Atasının Ərdəbil səfərləri ilə əlaqədar olaraq Şahqulu da uzun müddət Səfəvi müridlərinin arasında olmuş və təriqət ruhunda tərbiyələnmişdi. Ümumən, Şahqulu baba kifayət qədər ağıllı, zəkalı, cəsur bir insan kimi tanınırdı. Həsən baba sonradan Səfəvi xəlifəsi kimi Anadoluya göndərilmişdi və o da bu bölgədə təriqət dəyərlərinin təbliği, etiqadın gücləndirilməsi ilə məşğul

idi. Həsən baba ilə Şahqulu babada Səfəvi təriqətinə mənəvi bağlılıq çox güclü idi. Bunun nəticəsi idi ki, onlar hər ikisi yaşayışlarını tərk edərək bir mağaraya sığınmışdılar və vaxtlarını orada ibadətlə keçiridilər. Etiqad sahibi olmaları, maddi dünyadan uzaq düşmələri onlara qarşı yerli əhalinin hörmət və ehtiramını da artırmışdı. Hətta onların dərin etiqad sahibi olmaları Sultan II Bəyazidə də çatmış və o da hər il Həsən baba və onun oğluna 6-7 min ağca göndərməyə başlamışdı (31).

Həsən Xəlifənin ölümündən sonra onun yerini və məqamını Şahqulu baba tutdu. Əsil adı Qarabığ baba olan Şahqulu baba sonradan özünə bu adı Şah İsmayıla bağlılığının göstəricisi kimi götürmüşdü. Şahqulu baba - Şah İsmayılın qulu anlamında idi və bununla Qarabığ baba Şah İsmayıl ideyalarına necə sədaqətli olmasını göstərmək istəyirdi. O da bir müddət mağara həyatını davam etdirdi və bununla o bir daha dünya malından uzaq olmasını nümayiş etdirdi. Mağara həyatının sürülməsi, günün əksər hissəsinin dua və ibadətdə keçirilməsi təriqət və etiqad əhlinin həyatında xüsusi yer tuturdu. Şahqulu baba da bu yolu davam etdirdi, etiqadı, həyat mövqeyi və savadı ilə ətrafına xeyli mürid toplaya bilmişdi. Şahqulu baba özünün sədaqətli xəlifələrini ətraf bölgələrə, o cümlədən qərbi Anadoluya və Rumeliyə (Avropa ərazilərin) göndərdi və onların vasitəsilə təriqət təbliğatını genişləndirdi (32). Bəzi tarixi ədəbiyyatda isə Şahqulu baba xəlifələrinin Osmanlı dövlətinin Avropa ərazislərinə və qərbi Anadoluya göndərilməsi Şah İsmayılın tələbi ilə baş vermişdi (33).

Şahqulu babaya olan inam, başlıcası isə rastlaşdıqları ağır həyatdan xilas olmaq ümidi onun ətrafında xeyli insanın birləşməsinə gətirib çıxardı. Məlumdur ki, Şahqulu baba 1511-ci ilin aprelində mövcud hakimiyyətə qarşı üsyan qaldıranda onun ətrafında bəzi məlumatara görə 10 min (34), bəzi məlumatlara görə 15 min nəfərlik silahlı dəstə toplanmışdı (35). Bəzi məlumatlara görə isə bu dəstənin sayı 30 min nəfərə çatmışdı (36). Bu rəqəmlər Şahqulu babanın öz müridləri və tərəfdarları arasındakı nüfuzunun göstəricisi ola bilər. Yəni, onun bir çağırışı ilə bu qədər sayda insan silaha sarılaraq hakimiyyətə qarşı üsyan qaldırmağa razı olmuşdu.

Şahqulu baba "mən sahibi-zühur olan Şah İsmayıl bin Heydərin xəlifəsiyəm" deyərək fəaliyyətini genişləndirmiş və "məmləkət xalidir, fürsət bizimdir. Gəlin cəm olalım, məmləkəti zəbt edəlim" (37) çağırışı ilə öz hərəkatını başlamışdı. Şahqulu baba üsyanının baş verməsinə bütünlükdə Şah İsmayıl hərəkatının təsirini istisna etmək olmaz. Çox güman ki, Şahqulu baba da Şah İsmayıl kimi öz müridləri ilə yeni bir dövlət yarada biləcəyinə, Şah İsmayıl hərəkatını təkrar edə biləcəyinə ümid bağlayırdı. Bunun üçün müəyyən tarixi və siyasi şərait də yetişməkdə idi.

Bu üsyanın başlanması üçün münasib vaxtın seçilməsi belə ehtimal etməyə imkan verir ki, Şahqulu baba bu hərəkat üçün əvvəlcədən hazırlıq görmüşdü. Çünki qısa müddət ərzində böyük bir dəstənin təşkilatlandırılması və onun silahlandırılması mümkün ola bilməzdi. Hərəkatının başlanğıcında həyata keçirdiyi bir tədbirlə isə Şahqulu baba bu hərəkat üçün əlavə maliyyə ehtiyatları təmin etmişdi.

Şahqulu baba üsyanının başladı vaxt şahzadələrin sultanlıq uğrunda mübarizəsi yüksək zirvəsinə çatmışdı. Sultan Bəyazidin səhhətinin pisləşməsi üzündən oğlanları şahzadə Sultan Əhmədlə şahzadə Sultan Səlim arasında mübarizə kəskinləşəndə Sultan Qorqud da sultanlıq uğrunda daha qətiyyətli mübarizəyə qoşulmağı qərarlaşdırdı və bu məqsədlə Saruxana doğru hərəkətə başladı. O özü ətrafındakı dəstəsi ilə tələsik yola düşdü və arxada qalan başqa bir dəstəyə onun xəzinəsini, var-dövlətini gətirməyi tapşırdı. Bundan xəbər tutan Şahqulu baba bu xəzinəni ələ keçirməyə qərar verdi. Onun göndərdiyi dəstə Sultan Qorqudun xəzinəsini ələ keçirdi və bu da üsyanın genişlənməsinə bir təkan oldu (38).

Bundan sonra Şahqulu baba öz qüvvələrini Antaliyaya istiqamətləndirdi, onu ələ keçirdi və hətta Antaliya hakimini də qətlə yetirdi. İstər farsdilli, istərsə də türkdilli mənbə və tarixi ədəbiyyatda Şahqulu babanun bu üsyanının böyük talanlarla, soyğunçuluqla müşayiət edildiyi bildirilirdi. Qızılcaqaya, İstanos, Almalı, Burdur, Keçibolu məntəqələri də bir-birinin ardınca Şahqulu baba üsyançılarının nəzarəti altına keçdi. Məlumatara görə, üsyanın belə genişlənməsini görəndə Qaraman türkləri də Şahqulu baba qüvvələrinin sıralarına qoşuldular. Üsyançılar tərəfindən Mersin, Adana, Denizli, Manisa bölgələri də ələ keçirildi (39). Bununla, Şahqulu baba üsyanı səltənət üçün böyük təhlükə kəsb etməyə başladı və Sultan sarayı tərəfindən bu üsyanın qarşısının alınması üçün müəyyən tədbirlər görülməyə başlandı. Bəzi məlumatlara görə, əvvəlcə Sultan Qorqud üsyançılara qarşı dəstə göndərdi. Başqa bir məlumata görə isə, Şahqulu baba üsyançıları Qaramanı ələ keçirmək istərkən Anadolu bəylərbəyi Qaragöz Əhməd paşa onun qarşısına q-şun çıxardı. Amma Qaragöz Əhməd paşa ehtiyatsızlıq etdiyi üçün uğursuzluğa düçar oldu və geri çəkildi (40).

Üsyançıların Sultan Qorqudla qarşılaşmasına gəlincə isə bildirilir ki, Sparta yaxınlığında Osmanlı şahzadəsi məğlub oldu və döyüş meydanını tərk etdi. Sonra Konya əyalət qüvvətləri Şahqulu baba üzərinə göndərildi. Üsyançılar bu qüvvələrə də üstün gəldilər. Üsyançılar Buşehiri, ardınca isə Qaramanı da ələ keçirdilər. Bundan sonra Şahqulu baba qarşısına məqsəd qoydu ki, Bursanı ələ keçirsin. Amma Bursaya doğru irəliləmək üçün Kutahyanı nəzarət altına almaq lazım idi. Ona görə əvvəlki uğurlardan ilhamlanmış Şahqulu baba qüvvələrini Kutahyaya istiqamətləndirdi. Üsyançıların təhlükəsinin qarşısının alınması üçün Anadolu bəylərbəyi Qaragöz Əhməd paşa qoşun dəstəsi ilə onları Anadoluya aparan yol üzərində qarşıladı. Qaragöz Əhməd paşa göstərdiyi cəhdlərə baxmayaraq, Şahqulu baba üsyançılarına üstün gələ bilmədi və döyüşün gedişində özü də üsyançılara əsir düşdü. Osmanlı qoşun dəstəsi geri çəkilmək məcburiyyətində aldı və bu qoşun dəstəsinin əmlakı üsyançıların əlinə keçdi. Bu döyüşün ardınca Şahqulu baba və onun dəstəsi Kutahyaya daxil olmaq istədi. Ancaq yerli əhali şəhəri təslim etməkdən imtina etdi. Belə olanda Şahqulu baba əvvəlcə Qaragöz Əhməd paşanı qətlə yetirdi və ardınca da öz qüvvələrindən bir dəstəni Təki baba adlı müridinin rəhbərliyi altında Kutahyanın mühasirəsinə göndərdi. Şahqulu baba özü isə tabeliyində olan qüvvələrlə Bursaya doğru üz tutdu. Onun əldə

etdiyi hərbi uğurların miqyası nəhayətdə Osmanlı sarayını da hərəkətə gəlməyə məcbur etdi. Sultan Bəyazid xəstə və düşkün vəziyyətdə olsa da baş verən hadisələrin böyük təhlükə ilə müşayiət olunduğunu anladığından Şahqulu baba qüvvələrinə qarşı qoşun dəstəsi göndərməyi qərara aldı. Bu qoşun dəstəsi Şahqulu baba qüvvələrinə üstün gəldi və belə olanda Şahqulu babanun özünün rəhbərliyi altında olan dəstə Bursa ətrafında geri çəkilib meşələrə dağıldılar. Eyni zamanda Osmanlı saray vəzirlərindən olan Heydər paşanın rəhbərliyi altında olan bir qoşun dəstəsi isə Kutahya ətrafına göndərildi. Bu qoşun dəstəsi Kutahyanı mühasirədə saxlamış üsyançılara güclü zərbə vurdu və onları qaçıb dağılmağa məcbur etdi (41).

Şahqulu baba bu məğlubiyyətlərlə barışmadı və bütün qüvvələrini birləşdirərək Heydər paşanın rəhbərliyi altında olan qoşun dəstəsinin üzərinə hücum etdi. Kutahya boğazı yaxınlığında Şahqulu babanun qüvvələri ilə Heydər paşanın qüvvələri üz-üzə gəldilər və bu qarşılaşma üsyançıların qələbəsi ilə başa çatdı. Heydər paşa özü isə bu qarşılaşmada qətlə yetirildi. Heydər paşanın qətlə yetirilməsi və onun qoşun dəstəsinin məğlub edilməsi Osmanlı sarayında artıq daha ciddi təşvişlə qarşılandı və qərara alındı ki, sədr-əzəm Xadim Əli paşanın rəhbərliyi altında Şahqulu baba üsyançıları üzərinə 50 min nəfərlik qoşun dəstəsi göndərilsin. Çünki mövcud məlumatlara görə, Şahqulu baba artıq Ankara üzərinə istiqamətlənməkdə idi və bu şəhərin də alınması Osmanlı sarayını xeyli çətin bir vəziyyətə sala bilərdi. Şahqulu babanun üsyançı qüvvələri doğrudan da Ankaraya doğru hərəkət edib bu şəhərə xeyli yaxınlaşa bilmişdilər. Xadim Əli paşanın rəhbərliyi altında olan qoşun dəstəsi üsyançıların qarşısını Çubuk obasında kəsə bildilər. Mənbə məlumatlarına görə, Şahqulu baba bu qarşılaşmanın hərbi-siyasi əhəmiyyətini kifayət qədər yaxşı başa düşürdü və ona görə də malik olduğu qüvvələrin döyüşqabağı qruplaşdırılmasına diqqətlə yanaşdı. O, tabeliyində olan 1000 nəfərlik həbəş dəstəsini üsyançıların ön xəttində yerləşdirdi. Sonra qüvvələrini sağ və sol cinahlara ayırdı və onlara təcrübəli müridləri rəhbər təyin etdi. Osmanlı qoşunları döyüş meydanına daxil olan kimi üsyançıların mərkəzini hədəf götürdülər və qısa zaman ərzində üsyançılardan 500 nəfəri qətlə yetirdilər. Şahqulu baba vəziyyəti belə görəndə cinahlardan mərkəzə kömək göndərdi. "Xolde bərin" müəllifinin məlumatına görə, Şahqulu baba öz qüvvələrinin zərbəsinin əsas ağırlığını Osmanlı qoşunlarının mərkəzinə yönəltdi və güclü zərbə Osmanlı qoşunlarının mərkəzinin geri çəkilməsinə səbəb oldu. Bildirilir ki, bu zərbədən sonra Osmanlı qoşunları, ümumiyyətlə, geri çəkilmək məcburiyyətində qaldılar və onlar döyüş meydanına tərk edərək qaçmağa üz tutdular. Bu zaman Şahqulu silahlıları Xadim Əli paşanın izinə düşdülər və ona yetişərək qətlə yetirdilər. Sonra isə döyüş zamanı Şahqulu babanın da öldürülməsi baş verdi (42).

Türkdilli tarixi ədəbiyyatda olan məlumata görə isə, Xadim Əli paşanın dəstəsi ilə Şahqulu babanın üsyançı dəstəsinin qarşılaşması Göyçay müharibəsi kimi tanınmışdır. Bu döyüş zamanı Osmanlı qoşunları say üstünlüyündən istifadə edərək Şahqulu üsyançılarına üstün gələ bildilər. Qarşılaşmanın gedişində Osmanlı qoşunları üstün gəlsələr də Xadim Əli paşa bu döyüşdə öz həyatı ilə vidalaşmalı

oldu. Bundan sonra Osmanlı qoşunları üsyançıları Çubuk obasında sıxışdırdılar və üsyanın rəhbəri Şahqulu baba döyüşün gedişində qətlə yetirildi (43).

Şahqulu babanın öldürülməsi həm qarşılaşmanın, həm də bütünlükdə Şahqulu üsyanının taleyini həll etdi. Çubuk obasında baş verən qarşılaşma üsyançıların məğlubiyyəti ilə sona çatdı və Şahqulu babanın ölümündən sonra onun müridlərindən biri Xəlifə baba adı altında üsyançılara rəhbərliyi öz üzərinə götürdü. Osmanlı qoşunlarına qarşı müqavimət göstərməyin mümkün olmayacağını görəndə üsyançılar qərbə, Səfəvi sərhədlərinə doğru geri çəkilməyə başladılar. Ərzincan yaxınlığında olarkən üsyançılar Təbrizdən 500 nəfərlik bir tacir karvanının Osmanlı daxilinə hərəkəti barəsində məlumat aldılar. Üsyançılar bu karvan dəstəsinin üzərinə hücum çəkdilər, bütün tacirləri qətlə yetirdilər və onların əmlakını talan etdilər (44).

Üsyançıların bu əməli həm Osmanlı sarayı tərəfindən, həm də Şah İsmayıl tərəfin-dən heç də rəğbətlə qarşılanmadı. Bəzi məlumatlara görə, məhz bu talançı basqın Şah İsmayıl ilə Şahqulu üsyançıları arasında münasibətlərin pisləşməsinə səbəb oldu.

Ümumən, Osmanlı dövləti ilə Səfəvi dövləti arasındakı münasibətlərin daha da gərginləşməsinə səbəb olmuş bu üsyana Şah İsmayılın münasibəti ilə bağlı elmi-tarixi ədəbiyyatda ikili münasibət vardır. Bəzi tədqiqatçılar və araşdırmaçılar Şah İsmayılın bu üsyandan xəbərsiz olmasını və onun bu üsyanın hazırlanmasına və alovlanmasına hər hansı mənəvi və maddi dəstəyi vermədiyini bildirirlər (45). Buna əsas sübutlardan biri kimi Şah İsmayılın onun yanına pənah gətirmçiş üsyançılara qarşı çox sərt münasibət nümayiş etdirməsi göstərilir. Eyni zamanda bildirilir ki, Şah İsmayılın Osmanlı dövlətinə qarşı xüsusi yanaşması olsa da, konkret tarixi şəraitdə iki dövlət arasındakı münasibətlərin gərginləşməsi maraqlara uyğun deyildi. Xüsusilə, Şah İsmayıl özünün Türküstan səfərini yenicə başa vurmuşdu və belə ağır bir yürüşdən sonra Osmanlı dövləti kimi güclü bir dövlətlə münasibətlərin böhran vəziyyətinə gətirilməsi heç də istəmirdi.

Bəzi araşdırmaçılar isə bu üsyanın başlamasından Şah İsmayılın xəbərdar olmasını istisna etmirlər (46). Belə araşdırmaçılar şübhə etmirlər ki, Şah İsmayıl hər zaman Osmanlı daxilində Səfəvi təriqət dəyərlərinin yayılmasına və orada Səfəvi tərəfdarlarının çoxalmasına maraqlı idi. Əslində, bu istiqamətdə konkret işlər hələ Şah İsmayıldan öncə də başlamışdı. Şahqulu üsyanının baş verməsi ərəfəsində isə iki dövlət arasındakı münasibətlər kifayət qədər gərginləşmişdi və Şah İsmayıl da Osmanlı dövlətinin zəifləməsində maraqlı idi. Şahqulu üsyanının baş verməsi isə Osmanlı dövlətini daxildən ciddi şəkildə zəiflədirdi. Hətta belə gümanlar da irəli sürülür ki, Şah İsmayıl Türküstanda olduğu kimi, Osmanlı ərazisində də ondan asılı olan bir hakimiyyət formalaşdıra bilərdi. Şahqulu üsyanının qələbə çalması da belə bir hakimiyyətin yaradılmasına imkan verə bilərdi.

Ümumiyyətlə isə, Şah İsmayılın Şahqulu üsyanı ilə bağlılığını aydın şəkildə sübut edəcək məlumatlar mövcud deyildir. Mənbələrdə bu barədə heç bir işarə yoxdur. Şah İsmayılın Şahqulu üsyanı ilə əlaqəsinin olub-olmaması daha çox

məntiqi mühakimələrdən qaynaqlanır və qeyd edilməlidir ki, bu mühakimələrin hər ikisi də müəyyən əsaslara malikdir.

Şahqulu üsyançılarının Səfəvi sərhədlərini aşdıqdan sonra Şah İsmayılın yanına yollanması və onların Şah İsmayıla sığınmaq cəhdi də Şah İsmayılın bu üsyandan xəbərdar olması ehtimalı kimi irəli sürülür. Lakin məlumdur ki, Şah İsmayıl üsyançıları heç də xoşluqla qarşılamadı. Türküstan yürüşündən geri qayıdarkən Şah İsmayıl Reyin Şəhriyar məntəqəsində üsyançıların nümayəndələrini və rəhbərlərini qəbul etdi. Üsyançıların fəaliyyəti, xüsusilə Təbrizdən olan ticarət karvanının talanması Şah İsmayılın qəzəbi ilə qarşılaşdı. Mövcud olan bəzi məlumatlara görə, Şah İsmayıl üsyanın rəhbərlərindən iki nəfərin qaynar qazana salınaraq qətli barəsində hökm verdi. Bir çoxları öldürüldü, üsyançıların böyük bir hissəsi Səfəvi qoşunlarının tərkibinə daxil edildi. Üsyançılara qoşulanların müəyyən hissəsinin əsir edildiyi və onların əmlakının Səfəvi döyüşçüləri arasında paylandığı da tarixi araşdırmalarda öz əksini tapmışdır. O da bildirilir ki, üsyançılar qruplara bölüşdürüldü və hər qrupa nəzarət bir əmirə tapşırıldı. Bununla, onların yenidən birləşərək hər hansı birgə fəaliyyət imkanları aradan qaldırıldı.

Mövcud olan bir başqa məlumata görə, Şah İsmayıl Osmanlı ərazilərini tərk edərək onun yanına gəlmiş üsyançıları əvvəlcə mehribanlıqla qarşıladı, onların gəlişi münasibətilə mərasim də təşkil etdi. Bu mərasim zamanı Şah İsmayıl özlərini üsyanın rəhbərləri hesab edən adamlara belə bir sual verdi: "Babam Bəyazid həzrətləri sayəsində bu vaxta qədər rahat şəkildə yaşadınız. Üsyan etməyinizin səbəbi nədir?" Şah İsmayıl sualına belə bir cavab aldı: "Bəyazidin xəstə olub dövlət işlərinin vəzirlərin əlində qalmasına və zülmə daha artıq dözə bilməyib üsyan etdik". Bundan sonra Şah İsmayıl Sultan Bəyazidlə dost olduğunu, Bəyazidə qarşı baş vermiş üsyanın özünə qarşı bir üsyan kimi qiymətləndirdiyini bildirmiş və üsyançıları ciddi cəzalandırmışdı (47).

"Xolde bərin" müəllifi də Şahqulu üsyançılarının Şah İsmayıl tərəfindən cəzalandırılması məsələsinə toxunmuşdur. Amma bu mənbədə Şahqulu üsyançılarından iki nəfərin Şah İsmayıl tərəfindən qaynar qazana salınaraq qətlə yetirilməsi barəsində məlumat yoxdur.

Osmanlı tarixçisi Mehmet Solakzadənin "Tarix" əsərində Şah İsmayılın Şahqulu üsyanına və onun iştirakçılarına münasibəti daha geniş şəkildə təsvir edilmişdir. Həmin təsvir aşağıdakı kimidir:

"Şeytan Qulu dedikləri müfsid bu döyüşdə həlak olanda, arxasınca gedənlər, bir məzhəbsizə tabe olub Əcəm diyarına çəkilib getdilər. Şah İsmayıl o vaxt İraqda idi. Bunların məmləkətinə qaçmalarını eşidəndə əsgərlərinin çoxu ətrafında pərakəndə olmuş idi. Bu səbəb üzündən özünə qorxu gəldi və elə o saat İraqdan çıxıb Təbrizə gəldi və o iqbalları olmayanları qarşıladı.

O uğursuz qövm, canavarlar sürüsü kimi çatdıqları əyalətlərin altını üstünə çevirib qarət və talan edərək Təbrizə gəldilər. Yolda şaha mənsub olan böyük bir karvana rast gəldilər. Karvanı talan və adamlarını həlak etdilər. Bütün mallarını götürdülər. Hətta böyük şeyxlərdən Şeyx İbrahim Şəbüstəri həzrətləri də,

bir oğlu ilə o karvanda idi. Həccin şərif niyyəti ilə səfərə getməkdə idi. O karvanda onlar da bu pozuq qövmin əlində şəhid olmuşlar.

...Sözün qısası, o azmış qövm, yola davam edərək Təbrizə gəldikdə, Şah İsmayıl ilə görüşdülər. Şah bunları bir-birindən ayırmaq üçün hər bölüyü öz zabitlərindən birisinə təyin etdi və ziyafət vermələrinə fərman buyurdu. Hamısını bu yolla bir-birindən ayırdı, üçüngü gün böyük bir ziyafət verilsin deyə tədarüklər görüldü. Geniş meydanda iki böyük qazan su ilə doldurularaq altına od qoyuldu. Sular qaynadıldı. Görənlər bunun yemək bişirilmək üçün hazırlandığını zənn edirdilər. Hamı bu qazana baxırdı. Demə, birini başçıları, birini də kəndxudaları üçün qaynadırdılar. O yaramazları bişirmək üçün idi. Qalanlarını təyin edilən yaşıl çəmənliyə gətirdilər. Orada düzəldilən könüllər açan və naxışlı kölgəliklər altında şah özü də oturdu, onları sorğu-sual edib belə dedi: "Atalığım Sultan Bəyazid xanın himayəsi altında neçə zamandan bəri əhli əyallarımızla asudə ikən, nə üçün lazım idi ki, onun itaətindən çıxıb əleyhinə çıxasınız?" Sərdarları olan namussuz və fəsadçı, arsız belə cavab verdi: "Bəyazid xan qoca və zəif, xəstəliyə düçar olub, qocalığının afətini almış, işlərin tədbirindən uzaq idi. Dövlətinin üzəngələrini vəzirlərinə təslim etməklə məmləkətə ixtilaf vaqe oldu. Rəiyyət ayaq altında payimal oldu. Zülmlərinə tab gətirməyib getməyi qərara aldıq və şah həzrətlərinin dərgahına üz sürtmək və onun gözəlliyini görmək sonsuz arzumuz idi" – dedi.

Şah İsmayıl yenə sual verdi: "Bəs məmləkəti talayaraq xarab etmək nəyə lazım idi?" Bu suala belə cavab verdilər: "Çəkdiyimiz zülmlərin intiqamını almaq üçün. Ayrıca tərəfdarlarımızın yanımızda çoxalması üçün qarət və talana əl atdıq". Şah İsmayıl: "Bu cavab qəbul olunmayır. Sultan Bəyazid xanla aramızda atalıq və oğulluq ittifaqı olduğunu bilirdiniz. Onun məmləkətlərinə xəsarət verib bu tərəfə böyük xəyanət olduğunu nə üçün xoş mülahizə etmədiniz. Fərz edək ki, bu xüsusda günahınız yox imiş. Bizim karvanımıza və tacirlərimizə basqın etməyin səbəbi nədir? Tüccara təcavüz və basqın etmək, yol kəsmək əməlidir. Sənin etdiyinin sözünə mütabiq və sözlərin də bir-birinə müvafiq deyil".

Məlunların başçısı Şah İsmayılın bu sözünə cavab vermədi, nəhayət cinayətini etiraf etdi. Bundan sonra Şah İsmayıl belə dedi: "Yaxşı, bəs bu papaq ki, başındadır, kimin izni ilə geydin?" Sərdar cavab verdi: "Qazilər əlamətidir". Şah İsmayıl: "bu papağı geymək padşahların izni ilə bağlıdır. Nə zaman qazi oldun? Müsəlmanların haqsız yerə qanını tökmək qəzavətdirmi? ...Onların hər ikisini o qazanların içinə atdılar. Başqa zabitlərini də qətl edib, günahlarının cəzalarını verdilər" (48).

### 3. Sultan Səlimin hakimiyyətə gəlişi və Səfəvi-Osmanlı münasibətlərinin yeni dövrü

Məlumdur ki, 1512-ci ildə Sultan II Bəyazid hakimiyyəti Sultan Səlimə təhvil verdi və əslində, Şah İsmayıl Türküstan səfərindən qayıtdığı dövrdə Osmanlı şahzadələri arasında hakimiyyət uğrunda çəkişmələr artıq kifayət qədər

qızışmışdı. Sultan Bəyazidin səkkiz oğlu olsa da hakimiyyətə ən kiçik oğlu, Sultan Səlim yiyələnmişdi və bu məqamın özü də sultan ailəsi daxilində taxt-tacın ələ keçirilməsi üçün gərgin mübarizə getməsinin göstəricisi idi. Yaş ardıcıllığına görə Sultan Bəyazidin oğlan övladları bunlar idi - Abdulla, Şahənşah, Aləmşah, Mahmud, Məhəmməd (Mehmet), Əhməd, Qorqud və Səlim. Bu övladlardan beşi - Abdulla, Mahmud, Mehmet, Aləmşah və Şahənşah Sultan Bəyazidin sağlığında dünyalarını dəyişmişdilər. Sultanın sağ qalan övladlarından Sultan Əhməd Amasiyada, Sultan Qorqud Saruxanda, Sultan Səlim isə Trabzonda sancaq bəyi vəzifəsinə təyin edilmişdilər. Sultan Bəyazid övladlarının hamısına qarşı şəfqət göstərirdi. Amma mövcud olan məlumata görə, onun Sultan Əhmədə olan mehri daha çox idi və hakimiyyətin də ona keçməsinə meylli idi. Sultan Qorqud isə Sultan Əhmədin hakimiyyətə gələ bilməsinə müxalif idi və onların arasında gizli bir çəkişmə də gedirdi. Bu ixtilafın zəiflədilməsi məqsədi ilə Sultan Bəyazid Sultan Qorqudu Saruxan bəyliyindən azad etdi və onu Antaliya hakimi təyin etdi. Bu yolla Sultan Qorqudu İstanbuldan uzaqlaşdırmaq mümkün oldu. Nəticədə, Sultan Əhmədin hakimiyyət uğrunda mübarizə aparması bir qədər asanlaşdı (49).

Sultan Əhmədin Amasiya bəyi təyin edilməsi də təsadüfi deyildi. Amasiya İstanbula daha yaxın olan sancaq idi və bu yaxınlıq tez bir zamanda İstanbul sarayına sahib olmağa imkan verə bilərdi. Sultan Əhmədin bu şansının artırılması üçün Sultan Bəyazid kiçik oğlu Sultan Səlimi də İstanbuldan xeyli uzaqlaşdırmış və onu Trabzon bəyi təyin etmişdi. Bir ənənə olaraq Osmanlı sultanları öz varislərini adətən İstanbula yaxın olan sancağa hakim təyin edərdilər. Sultan Bəyazid də taxta çıxmazdan əvvəl İstanbula ən yaxın olan Amasiya sancağının hakimi təyin edilmişdi və taxt-tac da atası Sultan Mehmetdən sonra ona qismət olmuşdu (50).

Hakimiyyətə varisin seçilməsi işində isə qəbul olunmuş bir qayda yox idi. Hətta Sultan Bəyazidin atası Fateh Sultan Mehmetin dövlət idarəçiliyinin tənzimlənməsi üçün hazırladığı Fatehnaməsində varis seçimində övladların böyüyünün üstün hüquqlara malik olması haqqında bir qeyd yox idi. Bu məsələ üçün əsas meyar kimin daha ləyaqətli olması idi. Ona görə Sultan Bəyazidin övladlarının hər biri özünü taxt-taca daha layiqli görür və bunun üçün mübarizə də aparmaq istəyirdi (51). Bu isə saray daxilində intriqaları və çəkişmələri gücləndirirdi

Əslində, saray adamları, o cümlədən sədr-əzəm Xadim Əli paşa Sultan Əhmədin taxt-taca yiyələnməsinə tərəfdar idilər. Bu da öz növbəsində Sultan Əhmədin sultan olmaq şanslarını xeyli artırırdı. Bir tərəfdən atasının mövqeyi, bir tərəfdən də saray əhlinin onun hakimiyyətə namizədliyini dəstəkləməsi Sultan Əhməddə bir arxayınçılıq yaratmışdı və o özünü müəyyən hallarda dövlət başçısı kimi də aparmaqdan çəkinmirdi. Məsələn, Sultan Əhməd əsgər və qoşun başçılarına çoxlu mükafatlar paylamaq istəyirdi. Amma yeniçərilər onun bu əliaçıqlığını qəbul etmirdilər və bildirirdilər ki, padşahımız sağ olduğu halda kimsəni hökmdar kimi tanıya bilmərik (52).

Mövcud olan şanslara baxmayaraq, Sultan Əhməd hakimiyyətə yiyələnmək imkanlarını qoruyub saxlaya bilmədi. Bir tərəfdən Səfəvi qoşunlarının təhlükəsinin aradan qaldırılması baxımından onun çeviklik nümayiş etdirməməsi, daha çox müşahidəçi mövqeyində qalması xalq arasında onun nüfuzunun azalmasına səbəb oldu. Digər bir tərəfdən yeniçərilər onun dəstəkləməkdən imtina etdilər və bu da onu real imkanlardan məhrum etdi. Bir tərəfdən də sədr-əzəm Xadim Əli paşanın Şahqulu baba üsyanında öldürülməsi Sultan Əhmədin saray daxilindəki dəstəyinin itməsinə gətirib çıxardı. Ən nəhayət, Sultan Bəyazidin qocalması, nəticədə hakimiyyətin zəifləməsi sultan ailəsinin kiçik oğlu, lakin iddialı oğlu Sultan Səlimin hakimiyyətə keçmək imkanlarını daha da artırdı.

Sultan Əhmədin İstanbula daha yaxın olması və istər Sultan Bəyazid tərəfindən, istərsə də saray tərəfindən Sultan Əhmədin növbəti sultan olmasını andıran açıqlamalar və hərəkətlər etməsi onun digər qardaşları Sultan Qorqudla Sultan Səlimi daha fəal olmağa sövq etdi. Onlar öz niyyətlərinə nail olmaq üçün əməli fəaliyyəti daha da genişləndirdilər və İstanbula yaxın olmaq üçün hətta tez-tez öz sancaqlarını icazəsiz olaraq tərk etməyə başladılar. Bu əməli fəaliyyətlərin nəticəsi idi ki, Sultan Qorqud əvvəlcə hakimi olduğu Təkə sancağından ayrılaraq Saruxan sancağının hakimliyini ələ ala bildi. Sultan Səlim də İstanbula daha yaxın olmaq üçün atası Sultan Bəyazidə məktub göndərdi, Trabzonun iqtisadi çətinliklərindən ona şikayət etdi və sonra da İstanbula yaxın olan bir sancağa dəyişdirilməsini xahiş etdi. Onun bu xahişi Sultan Əhmədin sultan olmasını dəstəkləyən saray məmurlarını hərəkətə gətirdi və onların təsiri və təzyiqi ilə Sultan Bəyazid Sultan Səlimin Trabzondan ayrılmasına icazə vermədi. Amma Sultan Səlim heç də bu qərarla razılaşmadı və Sultan Əhmədin növbəti sultan olacağı barəsində söz-söhbətlər artmağa başlayanda oğlu Sultan Süleymanın hakim olduğu Kəfə sancağına yollandı. Burada onun Sultan Əhmədə qarşı mübarizəsi daha da gücləndi. Sultan Səlim ilk növbədə atasını və saray vəzirlərini inandırmağa çalışdı ki, Sultan Əhməd sultanlığa layiq deyildir. Əslində, Sultan Səlim atasının və saray vəzirlərinin növbəti sultan seçimi ilə bağlı mövqelərinin dəyişəcəyinə elə də əmin deyildi. Çünki Sultan Bəyazid artıq öz qərarını müəyyənləşdirmişdi. Saray vəzirlərinə isə Sultan Əhməd kimi birisi daha münasib idi. Sultan Səlimin fəallaşmasını görüncə Sultan Əhməd də ona qarşı bəzi addımların atılmasına cəhd göstərdi. Belə ki, Sultan Əhməd onu dəstəkləyən saray mənsublarının, o cümlədən elə Sultan Bəyazidin özünün və saray vəzilərinin vasitəsilə Sultan Səlimi Trabzona qaytarmağa, bununla, onun hakimiyyət uğrunda mübarizəsini məhdudlaşdırmağa çalışdı. Lakin o öz məqsədinə nail olmadı. Sultan Səlim sarayın təzyiqlərini qəbul etmədi və Kəfədə qalmaqla saraya təsir imkanlarının artırılması üçün yollar aramağa başladı (53).

Hətta Osmanlı sarayı tərəfindən dövrün tanınmış mövlanalarından biri olan Mövlana Nürəddin Sarıgörəz Sultan Səlimin yanına göndərildi ki, onu Trabzona dönməyə inandıra bilsin. Mövlana Nürəddin böyük hörmət və nüfuz sahibi olsa da Sultan Səlim onun xahişini qəbul etmədi və bununla bir daha bildirdi ki, hakimiyyət uğrunda qətiyyətli mübarizəyə başlamışdır. Hətta onun



*Sultan Səlim*

başqa bir sancağa dəyişdirilməsi üçün Sultan Bəyazidin güzəştə getməsi də Sultan Səlimi yolundan döndərə bilmədi və Kəfədə qalmağı üstün tutdu. Məsələnin çözülməsi üçün isə Sultan Səlim nəyin bahasına olursa olsun Sultan Bəyazidlə görüşməyi vacib bildi və bunu açıqca elan etdi. Bu məqsədlə Ədirnəyə doğru hərəkət edilməsi qərara alındı. Amma Sultan Səlim Ədirnəyə təkbaşına deyil, silahlı dəstə ilə yollanmağı qərara aldı və elan da etdi ki, ətrafına silahlı dəstə toplaması heç də onun atasına qarşı qiyam qaldırması demək deyildir. Bu dəstə kifayət qədər böyük bir dəstə idi və həmin dəstənin Ədirnəyə aparılması üçün 100-dən artıq gəmidən istifadə etmək lazım gəlmişdi. Onun ətrafına topladığı dəstə ilə Ədirnəyə doğru hərəkətə başlaması saray əyanlarını ciddi təşvişə saldı və onlar Sultan Bəyazidi inandıra bildilər ki, Sultan Səlimin silahlı dəstə ilə hərəkətə başlaması hakimiyyət uğrunda mübarizə planlarna xidmət edir və nəticədə Sultan Səlimin dəstəsinin silahla qarşılanması qərara alındı. Mövcud olan məlumatlara görə, bu vaxtlarda artıq Sultan Bəyazid də Sultan Səlimin taxt-taca daha layiqli olması barəsində düşünməyə başlamışdı. Lakin Sultan Əhmədi dəstəkləyən saray əyanları öz işlərini görərək onun bu fikirdən daşındırmağa çalışdılar. Nəticədə, Sultan Səlimin silahlı dəstəsi qarşısına sarayın qoşun dəstəsi çıxarıldı (54).

1511-ci ildə baş verən bu qarşılaşma zamanı tərəflərin heç biri silaha əl atmadı. Tərəflər döyüşə girmədən bir-birindən aralandılar və bununla Sultan Səlim bir daha nümayiş etdirmək istədi ki, onun məqsədi heç də atasına qarşı silah qaldırmaq deyil. (Bəzi məlumatlara görə isə Sultan Bəyazidin göndərdiyi qoşun dəstəsi bu qarşılaşmada üstün gəldi və Sultan Səlim geri çəkilmək məcburiyyətində qaldı). Bu hadisə Sultan Bəyazidin Sultan Səlimə qarşı münasibətinin dəyişməsini daha da sürətləndirdi. Sultan Bəyazidin xəstəliyinin güclənməsi isə varislər arasında taxt-tac uğrunda mübarizəni daha da gücləndirdi. Hətta şahzadələrin qoşun dəstələrini hərəkətə gətirib onların tətbiqinə də başladılar.

Qardaşlarını önləmək üçün Sultan Səlim Kəfədə olarkən tərəfdarlarının məsləhəti ilə atası Sultan Bəyazidə məktub yazdı və aralarında yaranmış anlaşılmzlıqlara görə onun bağışlamasını xahiş etdi. Bu məktub Sultan Bəyazid tərəfindən məmnunluqla qarşılandı və həmin məktubdan sonra o, Sultan Səlimi sərəsgər kimi İstanbula çağırdı. Sultan Səlim də dərhal İstanbula üz tutdu, saraya yollanaraq Sultan Bəyazidin hüzurunda oldu. Sultan Bəyazid ona ciddi münasibət göstərsə də, sonradan taxt-tacın ona verildiyini elan etdi. 1512-ci il aprel ayının 24-də Sultan Bəyazid taxt-tacdan əl çəkdiyini və onu Sultan Səlimə həvalə etdiyini bəyan etdi. Sonra da ömrünün qalan günlərini keçirmək üçün paytaxtı tərk etmək qərarını açıqladı. Taxt-tacın tərk edilməsindən təxminən bir ay sonra Sultan Bəyazid dünyasını dəyişdi. Bununla, Osmanlı dövlətində Sultan Səlim dövrü başladı. Onun hakimiyyətə gəlişi isə Osmanlı-Səfəvi münasibətlərinə ciddi dəyişikliklər gətirdi.

Amma Şah İsmayıl ilə münasibətləri aydınlaşdırmazdan əvvəl Sultan Səlim öz qardaşları ilə münasibətləri aydınlaşdırdı və öz hakimiyyətini daxildən kifayət qədər möhkəmlətdi. Məlum idi ki, onun hər iki qardaşı, Sultan Əhməd

və Sultan Qorqud Osmanlı taxt-tacına iddialı idilər və könüllü şəkildə bu iddiadan əl çəkmək fikrində deyildilər. Sultan Bəyazidin hakimiyyətdən əl çəkməsi ərəfəsində Sultan Əhməd ətrafına topladığı qoşun dəstəsi ilə Üsküdara qədər irəliləmiş, Konyanı öz nəzarət altına almış, hətta ölkə sultanı kimi ətraf bölgələrə fərmanlar belə göndərməyə başlamışdı. Sultan Əhmədin sultanlıq iddialarına son qoymaq üçün Sultan Səlim 70 min nəfərlik qoşun dəstəsi ilə Anadoluya hərəkət etdi. Belə böyük bir qoşun dəstəsinə müqavimət göstərə bilməyəcəyini anlayan Sultan Əhməd geri çəkilməyə başlayaraq, əvvəlcə Amasiyaya gəldi və burada Sultan Əhmədin izlənilməsinə və ələ keçirilməsinə göstəriş verdi. Sultan Səlim eyni zamanda Sultan Qorqudun təqibinə başladı və Bursaya yollanmaqda olan Sultan Qorqud 1513-cü il martın 17-də ələ keçirilərək qətlə yetirildi. Bir müddət sonra isə Sultan Əhməd Bursa yxınlığındakı qarşıdurma zamanı Sultan Səlim adamları tərəfindən ələ keçirilmiş və boğularaq öldürülmüşdü. (55). Taxt-tacın qorunması üçün Sultan Səlim belə qəddar əməllərə əl atmaqla öz hakimiyyətini kifayət qədər möhkəmlədə bilmişdi.

Sultan Əhmədin qətlə yetirilməsindən sonra onun oğlu Sultan Murad qaçaraq Şah İsmayıl sarayına sığındı. Mövcud məlumatlara görə, Şah İsmayıl onu mehribanlıqla qarşılamış, ona böyük torpaq sahəsi ayırmışdı. Sultan Muradın Səfəvi hüdudlarına sığınması Sultan Səlimin təşvişi ilə qarşılaşdı. O şübhə etmirdi ki, Sultan Murad gələcəkdə Şah İsmayıldan aldığı köməklə yenidən Osmanlı taxt-tacına iddia irəli sürə bilər. Ona görə Sultan Muradın geri qaytarılmasına cəhd göstərdi. O, Sultan Bəyazidin dünyasını dəyişməsi və özünün Osmanlı taxt-tacına çıxması bağlı Şah İsmayıla məktub və qiymətli hədiyyələr göndərdi. Sultan Səlim elçisi vasitəsilə Şah İsmayıldan Sultan Muradın geri qaytarılmasını istədi. Amma Şah İsmayıl bu tələblə razılaşmadı. Hətta Osmanlı elçilərinin Şah İsmayıl tərəfindən qətlə yetirildiyi də bildirilir. Sultan Murad Osmanlı hüdudlarını tərk edəndən dörd il sonra İsfahanda olarkən vəfat etdi və Şah İsmayılın göstərişi ilə şəhərin Topçu darvazası yaxlnlığında hörmət və ehtiramla dəfn edildi (56).

Sultan Əhmədin qətlə yetirilməsindən sonra Sultan Muradın səltənəti tərk etməsi və Şah İsmayıla sığınması barəsində "Aləmara-yi Şah İsmayıl" və "Aləmara-yi Səfəvi" əsərlərində geniş məlumatlar vardır. Bu məlumatlar hazırkı elmi-tarixi ədəbiyyatda olan məlumatlardan bir qədər fərqli olsa da onlar problemlə bağlı, o cümlədən Sultan Muradla Şah İsmayıl arasında olan münasibətlər haqqında daha geniş məlumatlar əldə edilməsi baxımından maraqlıdır.

Adları çəkilən əsərlərdə Sultan Bəyazidin hakimiyyətə yiyələnmək arzusunda və sövdasında olan oğlu Sultan Səlim tərəfindən qətlə yetirildiyi bildirilir. Sultan Bəyazidin boğularaq öldürüldüyü xəbərini eşidəndən sonra Sultan Əhməd, Sultan Səlimin üzərinə qoşun çəkdi. Bu qarşılaşmada Sultan Əhmədin də Sultan Səlimin özü tərəfindən qətlə yetirildiyi bildirilir. Sultan Əhmədin qətlə yetirilməsi xəbərini eşidənsən sonra onun Amasiyada olan oğlu Sultan Murad saray çevrilişinin ilhamvericisi olan sədr-əzəm Rüstəm paşaya xəbər göndərdi ki, səni tutub tikə-tikə etməsəm, arvad-uşaqlarını həbsə saldırmasam heç kişi

oğlu deyiləm. Sultan Səlim qardaşı oğlu Sultan Muradın təhdidlərini eşidəndə bir qədər təşvişə düşdü və bildirdi ki, Şah İsmayılın üzərinə hücum çəkmək işləri ilə məşğul olmalı olduğu halda, indi gərək Sultan Muradın təhdidlərinin aradan qaldırılması ilə məşğul olsun. Sədr-əzəm Rüstəm paşaya görə, Sultan Murad atası kimi cəsur deyildi və Sultan Səlimə qarşı ciddi müqavimət göstərə bilməzdi. Ona görə Sultan Səlimə təklif etdi ki, Dilavər paşa ilə Şahbaz paşanın rəhbərliyi altında 30 min nəfərlik qoşun dəstəsini Sultan Muradın üstünə göndərsin. Rüstəm paşa şübhə etmirdi ki, göndərilən qoşun dəstəsi Sultan Muradı həbs edərək Osmanlı sarayına gətirəcəkdir (57).

Sultan Murad bu qərardan xəbər tutanda Amasiyada qoşun toplanmasına başladı. Məqsəd aydın olanda qoşun üzvləri bildirdilər ki, onların kimsədən qorxusu yoxdur və hətta sultan özü qoşunla Amasiyaya tərəf gəlsə onunla vuruşmaqdan çəkinməzlər. Beləliklə, Sultan Murad 20 min nəfərlik qoşun dəstəsi topladı, bu qoşun dəstəsinə sıra baxışı keçirdi. Sonra da Sultan Murad bu qoşun dəstəsini götürüb Osmanlı paşalarının rəhbərlik etdiyi 30 min nəfərlik qoşun dəstəsini qarşılamağa yollandı. Sultan Muradla Sultan Səlimin göndərdiyi qoşun dəstələri arasında baş vermiş döyüşün təfərrüatı adları çəkilən mənbələrdə olmasa da, həmin döyüşün çox gərgin keçməsi bildirilmişdir. Sultan Murad özünü qoşuna vuraraq Dilavər paşaya çatdırmış və onu qılıncla qətlə yetirmişdi. Şahbaz paşa isə döyüşdə yaralanaraq geri çəkilməli olmuşdu. Sultan Səlim tərəfindən göndərilmiş 30 minlik qoşun dəstəsindən 18 min nəfərlin məhv edildiyi ehtimal edilirdi. Xəbər Osmanlı sarayına çatanda Sultan Səlim bu məsələnin həllini sədr-əzəm Rüstəm paşaya tapşırdı. "Aləmara-y Səfəvi" yə görə Rüstəm paşanın rəhbərliyi altına 60 min nəfərlik qoşun dəstəsi verildi. "Aləmara-yi Şah İsmayıl"da isə qoşun dəstəsinin sayı 100 min nəfər göstərilmişdir (58).

Böyük sayda qoşun dəstəsinin Amasiyaya tərəf irəliləməsi xəbərini alanda Sultan Murad çıxış yolunu Şah İsmayıldan kömək almaqda gördü və bununla bağlı ona məktub göndərdi. Həmin məktubda deyilirdi: "Əgər o ali şəhriyar bu aciz bəndənin köməyinə yetərsə, söz verirəm ki, bütün ölkəni o qardaş şəhriyara bağışlayım və o həzrətin xidmətində dayanım. Çünki mənim atam Şeyx Səfi ocağının sufi və müridlərindən biri olmuşdu və mən də bu ocağın dostlarından, təəssübkeşlərindən, sadiqlərindən biriyəm". Bu məktub dərhal Şah İsmayıla göndərildi və Sultan Muradın elçisi İsfahanda Şah İsmayılın hüzuruna düşərək məktubu ona çatdırdı. Şah İsmayıl məktubla tanışlıqdan sonra Sultan Murada kömək göstərmək qərarına gəldi və bununla bağlı xəlifələrindən biri olan Nurəlini qoşun dəstəsi ilə Sultan Muradın yanına göndərdi. Şah İsmayıl eyni zamanda Sultan Muradın məktubuna cavab yazdı. Həmin məktubda deyilirdi: "Biz cəsur xəlifə Nurəli Rumlunu göndərdik ki, sizin xidmətinizə olsun və həm də sizin cavabınızı çatdırsın. Nə buyursanız onu icra edəcək. Əgər Rum qeysəri sizin üstünüzə gəlsə, onda özüm gələcəyəm. Bu zaman qeyb pərdəsindən zühur etməli olunanlar aydın olacaqdır. Allah-Təalanın köməyi ilə işlər öz muradına çatacaqdır" (59).

"Aləmara-yi Səfəvi"nin məlumatına görə, Nurəlinin rəhbərliyi altında göndərilmiş olan Səfəvi dəstəsi Rüstəm paşa ilə döyüşdən sonra Sultan Muradın köməyinə yetişmişdi. Amasiyadan 8 fərsəx aralıda Sultan Muradla Rüstəm paşanın dəstəsi arasında güclü döyüş baş verdi. Əvvəlcə hər iki tərəfdən çərxçilər döyüş meydanına atıldılar. Onların ardınca isə bütün qoşunlar döyüşə qoşuldular. Rüstəm paşa qoşunların say üstünlüyünə malik olsa da bu üstünlüyü nəticəyə çevirə bilmədi. O görəndə ki, qoşunları ağır vəziyyətə düşüb, onda özü də döyüş meydanına atıldı və bununla qoşunlarını da təşviqləndirməyə çalışdı. Amma bir nəticə hasil olmadı. Sultan Murad onun döyüşə qoşulduunu görüncə ona tərəf yaxınlaşmağa başladı. Adları çəkilən mənbələrin məlumatına görə, Sultan Murad bu qarşılaşmada Rüstəm paşaya üstün gəldi və nəticədə onu qətlə yetirdi. Bununla da əslində, döyüşün taleyi həll edilmiş oldu və Rüstəm paşanın qoşun dəstəsi geri çəkilməyə başladı (60).

Sultan Səlim qoşunlarının növbəti uğursuzluğundan sonra daha bir qoşun dəstəsinin toplanması haqqında fərman verdi. Bu dəfə o, 100 min nəfərlik qoşun dəstəsinə rəhbərliyi Mustafa paşa adlı sədr-əzəmə tapşırdı və ona Amasiyaya doğru irəliləmək əmri verdi. Sultan Murad bu qoşun dəstəsinə qarşı döyüşmək üçün də hazırlıq işləri aparmağa başladı. Nurəlinin tabeliyində 5 min nəfərlik qızılbaş qoşun dəstəsi var idi. Osmanlı ərazisinə yollanmazdan əvvəl Nurəlini Şah İsmayıl qəbul etdi. Şah İsmayıl ona bildirdi ki, Bəlx sərhədində ölkə hakimi təyin etmək istədim razı olmadın, Osmanlı sərhədində ölkə hakimi olmaq istədin. Səfəvi şahı sonra da əlavə etdi ki, indi adamlarını götür, Ərzincan tərəfə hərəkət et, oradakı sərhəd bölgəsini sənə bağışladım. Nurəli eyni zamanda Sultan Murada kömək etməli idi və bu zaman rəhbərliyi altında olan qoşun dəstəsi ilə nə qədər ərazini ələ keçirsəydi, həmin ərazilər də onun hakimliyi altına verilməli idi. Amma Şah İsmayıl onu da tapşırdı ki, sürətlə hərəkət etsin və tezliklə Sultan Muradın köməyinə çatsın. Bu dəstə Mustafa paşanın dəstəsindən daha tez bölgəyə gəlib yetişə bildi. Amma hələ Amasiaya çatmamış Nurəli xəbər tutdu ki, Sultan Murad qoşun dəstəsi ilə şəhəri tərk edibdir. Nurəliyə görə, böyük sayda qoşun dəstəsi ilə qala daxilində döyüşmək daha asan idi və ona görə də irəliyə çapar göndərərək Sultan Murada qoşun dəstəsi ilə qala daxilində qalmağı tövsiyə etdi. Sultan Murad isə bu zaman qoşun dəstəsi ilə şəhəri tərk etmişdi və belə bir qərar qəbul etməsində şəhər əhlinin ona olan təzyiqləri də istisna deyildi. Çünki hələ Amasiyaya doğru hərəkətə başlayanda Mustafa paşa öz çaparlarını şəhər əhalisi arasına göndərmiş və orada Sultan Murad əleyhinə təbliğat aparılmasına başlamışdı. Mustafa paşa Amasiya əhalisini təhdid edərək bildirdi ki, onlar nə üçün Osmanlı sultanının qətliamından, arvad-uşaqlarının qılıncdan keçirilməsindən ehtiyat etmirlər? Ona görə, Amasiya əhalisi xəbərdar edildi ki, Sultan Muradla əlaqələri kəssinlər, onu dəstəkləməsinlər, Osmanlı sultanına boyun əysinlər. Yəqin elə bunun nəticəsi idi ki, Mustafa paşa ilə Sultan Muradın qoşunları Amasiya yaxınlığında döyüşə atılanda şəhər əhalisi Mustafa paşaya xəbər göndərərək saraya sədaqətli olduğunu bəyan etdilər. "Aləmara-yi Səfəvi"yə görə, bu döyüş Mustafa paşanın qoşunlarının üstünlüyü

ilə başa çatdı. Döyüşdə məğlub olacağını görən Sultan Murad geri çəkilib Amasiya qalasına sığınmaq istədi. Lakin qaladakılar darvazaları onun üzünə açmadılar və ona çatdırdılar ki, şəhəri tərk edib istədiyi istiqamətə yollansın. Sultan Murad israr etsə də onu şəhərə buraxmadılar. Yalnız ona imkan verildi ki, Sultan Murad şəhər daxilindəki ailə üzvlərini özü ilə apara bilsin. Bundan sonra Mustafa paşa Amasiynı ələ keçirdi və bu barədə Sultan Səlimə də xəbər göndərdi (61).

"Aləmara-yi Şah İsmayıl"da saray qoşunları ilə Sultan Murad qoşunları arasındakı qarşıdurma fərqli şəkildə təsvir edilmişdir. Bu təsvirdə Sultan Muradın qoşunlarının üstün gəldiyi bildirilmişdir. O da əlavə olunur ki, həmin ilin qışı başa vurulduqdan sonra Sultan Murad ölkəsini tərk etməyi və Şah İsmayıl ilə birləşməyi qərara aldı. Nurəli də onu Kürdüstandan adlamaqla Şah İsmayılın yanına yola saldı. İsfahan yaxınlığında onu əvvəlcə Səfəvi əmirləri qoşun dəstəsinin müşayiəti ilə qarşıladılar. Nəqşicahan sarayının darvazaları qarşısında isə onu Şah İsmayıl qarşıladı, alnından öpdü, saray daxilinə apararaq ona yanında yer verdi. Yəni, Sultan Murada Səfəvi sarayında böyük ehtiram göstərildi və Şah İsmayıl bəyan etdi ki, bütün Osmanlı sultanlığını ələ keçirərək onun hakimiyyəti altına verəcəkdir. Sultan Muradın şiə məzhəbinə mənsub olmasına görə, Şah İsmayıl ona Sultan Cüneydin qiymətli daşlarla bəzədilmiş tacını və bahalı qızılbaş libasını bağışladı. Mənbədəki məlumata görə, Sultan Murad təxminən Novruzdan 40 gün əvvəl İsfahana yetişmişdi. Şah İsmayıl ona təklif etdi ki, Novruzu İsfahanda birlikdə keçirsinlər və Novruzdan sonra Sultan Səlimlə olan münasibətlərə aydınlıq gətirməyə çalışsınlar. Şah İsmayılın planı belə idi ki, Novruz bayramından sonra Təbrizə yollansın, orada toplanmış Səfəvi qoşunlarına sıra baxışı keçirsin, qoşunların kəm-kəsirini təkmil etsin və sonra da Sultan Səlimə qarşı hərəkətə başlasın. Sultan Səlim öz qoşun dəstəsi ilə Səfəvi sərhədlərinə doğru irəliləməyəcəyi halda Şah İsmayıl qoşunu ilə Tokata doğru hərəkət etməli, bu şəhəri ələ keçirməli və sonra da İstanbula doğru hücumu davam etdirməli idi. O güman edirdi ki, Sultan Səlimin qoşunları ilə Üsküdar çayı yaxınlığında qarşılaşmaq yaxşı olardı. Novruz bayramından sonra Şah İsmayıl və Sultan Murad Təbrizə doğru hərəkətə başladılar. Həmədan yaxınlığında olarkən Sultan Muradın səhhəti korlanmağa başladı. Belə qərara gəlindi ki, İsfahanın ab-havası Sultan Murad üçün daha münasibdir və ona görə də onun İsfahana qaytarılması məqsədəuyğun sayıldı (62).

Sultan Muradın səltənət hüdudlarını tərk etməsi və Şah İsmayıla sığınması Sultan Səlim tərəfindən böyük qəzəblə qarşılandı. Çünki Şah İsmayıl ilə birləşəndən sonra Sultan Murad Osmanlı taxt-tacı üçün daha böyük təhlükə törədə bilərdi. Amasiya ətrafında Sultan Murad təslim olsa da, əslində, daha böyük təhlükəyə çevrilmişdi və onun Səfəvi sarayına sığınması isə Şah İsmayılın Osmanlı sultanlığına qarşı iddialarına ciddi təkan verə bilərdi. Ona görə Sultan Səlim dərhal Mustafa paşaya məktub göndərdi və ona Sultan Muradın izlənməzi tapşırığını verdi. Həmin məktubda Sultan Səlim təhdidamiz şəkildə Mustafa paşaya bildiririd ki, Sultan Murad ələ keçirilib geri qaytarılmasa onun dərisi

soyulacaqdır. Güman edilirdi ki, Sultan Murad Diyarbəkr tərəfə getmiş olar. Mustafa paşadan da tələb olundu ki, Diyarbəkrə yollanıb Sultan Muradı ələ keçirsin. "Aləmara-yi Səfəvi"nin məlumatına görə, Mustafa paşa bu əmrin icrasını öz boynuna götürmək istəsə də, əvvəlcə Şahbaz paşanın rəhbərliyi altında bir dəstənin Sultan Muradın ardınca göndərilməsi məqsədəuyğun bilindi. Mustafa paşa da sonradan onun ardınca hərəkət etməli idi. Bu mənbənin məlumatına görə, Şahbaz paşa 5 min nəfərlik dəstəsi ilə Ərzincan yaxınlığında Sultan Murada çata bildi. Burada onların dəstələri arasında döyüş baş verdi. Sultan Murad bu döyüşdə Şahbaz paşanın dəstəsinə heç bir şans vermədi və qısa bir zaman ərzində Şahbaz paşanın dəstəsi məhv edildi. Onun özü isə ağır yara alaraq dəstəsinin tör-töküntüləri ilə Mustafa paşanın yanına qayıtdı. Məğlubiyyətinin səbəbini açıqlamaqla Şahbaz paşa Mustafa paşaya çatdırdı ki, 30 minlik qoşun dəstəsi ilə bəlkə Sultan Murada üstün gəlmək olar. Mustafa paşa da 30 min nəfərlik qoşun dəstəsi ilə Sultan Muradı ələ keçirməyə yollandı. Sultan Murad onun üstünə daha böyük qüvvə gələcəyinə şübhə etmirdi. Çünki Sultan Səlim öz hakimiyyətini möhkəmləndirmək üçün taxt-taca iddialı olan Sultan Muraddan əl çəkəcəyi inandırıcı deyildi. Ona görə Sultan Murad Ərzincan yaxınlığında dayanmayıb Səfəvi hüdudlarına doğru hərəkətini davam etdirdi. O, irəliyə çaparlar göndərdi ki, Səfəvi sərhədində dayanan qüvvələri xəbərdar etsin. Həmin çaparlar yolda Nurəlinin 5 min nəfərlik qoşun dəstəsi ilə qarşılaşdılar. Nurəli də Sultan Muradın yanına öz çaparlarını göndərdi və ona tövsiyə etdi ki, qərarlaşdığı məkanda dayansın və onlar birlikdə Sultan Səlimə qarşı müqaviməti davam etdirsinlər. Nurəli yetişəndən sonra əvvəlcə döyüşə girmədən Səfəvi hüdudlarına doğru irəliləmək qərara alındı. Amma sonradan Mustafa paşanın qoşun bölmələrinin yaxınlaşması xəbəri alınanda döyüşə girməkdən başqa bir çarə qalmadı. Mustafa paşanın göndərdiyi dəstə Məhəmməd paşanın rəhbərliyi altında idi. Nurəlinin təkidi ilə Sultan Muradın dəstəsi kənara çəkilib müşahidəçi mövqeyi tutdu. Döyüşün ağırlığını Nurəlinin rəhbərliyi altında olan qızılbaş dəstəsi öz üzərinə götürdü və elə bu dəstə də döyüşdə üstün gəldi. Nurəli bu döyüşdən sonra Sultan Muradı Kəmax qalasına gətirdi. O istəyirdi ki, Sultan Murad qışı bu qalada qalsın, sonra Şah İsmayılın yanına yollansın. Sultan Murad isə bununla razılaşmadı və bir gecə Nurəlidən xəbərsiz Kəmaxı tərk edərək Səfəvi hüdudlarına doğru hərəkətə başladı (63).

Sultan Muradın İsfahana yollandığı məlum olanda Sultan Səlim yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıla məktub yazdı və onun geri qaytarılmasını istədi. Həmin məktubda deyilirdi: "Şeyx oğlu Şah İsmayıla məlum olsun ki, möhtərəm atamızın gücü qalmamışdı və siz də bir dəfə Türküstan padşahı Şeybək xanın başını, bir dəfə Çingiz xanın bayrağının bir şaqqasını, bir dəfə Əbülxeyir xanın qərqərəsini ona göndərirdiniz və onu aldadırdınız. Onun isə artıq zəkası qalmamışdı, tədbirsiz idi və bu oyunlardan vahimələnirdi. Biz humayun sizin qəhr əməllərinizə görə onu padşahlıqdan azad etdik, dövlət iqbalı ilə Qeysər taxtına arxalanaraq yola düşdük ki, keçmiş intiqamlar sizdən alınsın. Hər halda bu vaxtlarda biz cənabların qardaşı oğlu Sultan Murad saray xid-

mətindən üz döndərərək sizin yanınıza gəlmişdir. Onu qolu bağlı şəkildə bizim yanımıza göndərin və fərman verin ki, sizin xidmətçiləriniz bizim olmuş Diyarbəkr vilayətindən əl çəkib bizim xidmətçilərimizə tapşırsınlar. Bizim aramızda möhkəm olan dostluq düşmənçiliyə çevrilməsin. Yoxsa müharibəyə hazır olun ki, biz dərya kimi dalğalanan Rum qoşunları ilə sizin üstünüzə gəlirik" (64).

Göründüyü kimi, Sultan Səlim yalnız Sultan Muradın geri qaytarılmasını tələb etmirdi. O həm də Şah İsmayıldan Diyarbəkrin geri qaytarılmasını tələb edirdi. Əks təqdirdə isə onu müharibə ilə qorxudurdu. Şah İsmayıl ona qarşı ünvanlanmış bu təhdidlərdən və kobud ifadələrdən son dərəcə qəzəbləndi və Osmanlı sarayının elçisi vasitəsilə Sultan Səlimə öz cavabını göndərdi. "Aləmara-yi Səfəvi" əsərində Şah İsmayılın Sultan Muradı geri verməyəcəyi ilə bağlı Sultan Səlimə yazdığı məktubun məzmunu belə açıqlanmışdır: "Ata qatili, səadətsiz Rum padşahı Sultan Səlimin iki kəlməlik mənasız məktubu biz humayuna yetişdi, məzmunu aydın oldu. Valideyninizin ağılsızlığı, Şeybək xanın başının və Çingiz xan bayrağının bir şaqqasının və Əbülxeyir xanın qərqərəsinin göndərilməsi barəsində və onların vahiməsi barəsində yazmışdınız. Səltənət pənahı olan atanız səadətli və fikirləşən bir adam idi. O bilirdi ki, biz humayuna qarşı kim üz çevirsə yerlə yeksan olacaqdır. İndi sizin damağınızda düşmənçilik küləyi yer tapıb, inşallah-təali ki, sizin mübarək olmayan başınızı həzrət Əmir əl-mömünin Xeybəri yaran qolunun gücü ilə üzərək Portuqala göndərəcəyəm. Buyurmuşdunuz ki, Diyarbəkr vilayətini sizin xidmətçilərinizə təhvil verim. Çünki sizə mənsub olmuş mülkdür. Diyarbəkr sizin atanızın işğalı altına düşməmişdi və biz humayun (bu vilayəti) ondan almış olaq. Diyarbəkri Uzun Həsənin övladlarından olan Əlaüddövlə Zülfüqar almışdı və biz humayun da sizin cəddinizin və əcdadlarınızın bac-xərac verdiyi Əlaüddövlədən qılınc gücü ilə almışıq. Sizin haqqınız çatmır ki, biz humayundan Uzun Həsən övladlarının vilayətini istəyəsiniz. Sultan Muradın göndərilməsi barəsində yazmışdınız. O, elə bir dərgaha pənah gətirmişdir ki, həmişə aləmin padşahları bu dərgaha sığınmışlar və indi də sığınmaqdadırlar ki, biz humayunun qonağı olsunlar Heç kəs öz qonağını evindən qovmayıb və siz bu tərəfə iradə göstərsəniz bəlkə görüşümüz baş tutdu" (65).

Yuxarıda qeyd edildiyi kimi, Sultan Muradın geri qaytarılması haqqında Sultan Səlimin tələbləri Şah İsmayıl tərəfindən qəbul edilmədi. Başqa sözlə, Şah İsmayıl Sultan Səlim tərəfindən mövcud ola biləcək təhlükədən çəkinmədiyini nümayiş etdirdi. Bununla, Səfəvi və Osmanlı dövlətləri arasındakı gərgin olan münasibətlər daha da gərginləşdi və bu gərginlik müharibə təhlükəsini daha da yaxınlaşdırdı.

Bu təhlükənin qarşısının alınması yollarından birini Şah İsmayıl Osmanlı daxilində hərc-mərcliyin gücləndirilməsində görürdü. Ona görə də hələ Sultan Səlimin taxt-taca sahib olması ərəfəsində Osmanlı daxilində yeni bir üsyanın qalxmasına rəvac verildi. Həmin üsyana Şah İsmayılın xəlifələrindən birin olan Nurəli rəhbərlik edirdi. Yuxarıda "Aləmara-yi Şah İsmayıl" və "Aləmara-yi Səfəvi" əsərlərinə istinadən verilmiş məlumatlarda Nurəlinin Osmanlı daxilinə gəlişi Sultan Muradın xahişi əsasında baş verdiyi bildirilsə də, əslində

Nurəli Osmanlı daxilinə hələ taxt-tac uğrunda çəkişmələr gərginləşdiyi bir vaxtda gəlmişdi.

Elmi-tarixi ədəbiyyatda Nurəlinin şəxsiyyəti ilə bağlı müxtəlif fərqli məlumatlarla rastlaşmaq mümkündür. Bəzi məlumatlarda Nurəli Ərzincan hakimi kimi göstərilmişdir və 1512-ci ildə, Sultan Səlimin hakimiyyətə gəlişindən əvvəl onun Anadoluda qarışıqlıq yaratmaq barəsində Şah İsmayıldan göstəriş aldığı bildirilir (66). Bir arşdırmada bildirilir ki, Sultan Bəyazidin dünyasını dəyişməsindən sonra yaranmış vəziyyətdən Şah İsmayıl Osmanlı ərazilərinin işğalı üçün yararlanmağa çalışdı və ona görə də sərdarlarından biri olan xəlifə Nurəli Rumlunu Osmanlı ərazisinə göndərdi (67). Başqa bir məlumata görə isə, Sultan Səlimin Səfəvi dövlətinə qarşı təcavüzkarlığının səngidilməsi üçün Şah İsmayıl Nurəlini Anadoluya göndərdi ki, orada üsyan qaldırsın (68).

Yəni, mövcud olan məlumatların çoxu Nurəli hərəkatının Şah İsmayılın təhriki ilə başlandığını bildirir. Şahqulu üsyanını dəstəkləmədiyi halda Şah İsmayılın Nurəli üsyanını dəstəkləməsi heç şübhəsiz ki, Osmanlı daxilində cərəyan edən proseslərlə, Osmanlı-Səfəvi münasibətlərində baş verən və gözlənilən dəyişikliklərlə bağlı idi. Mövcud məlumatlara görə, Nurəli üsyan təşkilatçısı kimi Anadoluya göndəriləndə Şah İsmayıl onun vasitəsilə Anadolu sufilərinə məktub da göndərmişdi. Həmin məktubda deyilirdi: "Yüksəkdən yüksək olan bu sülalənin Rumda sakin olan pak etibarlı sufilərinə elan edirik ki, bu zamanda biz hamısı məsum olan həzrət imamların - onlara salam olsun - buyuruğuna əsasən Məhəmməd zərbini və "Əliyyən-Vəliyullah" təbilini nəvazişlə səsləndirib xüruc etmişik (hərəkata başlamışıq - red.) və on iki imamın məzhəbinə rəvac verib əksər sünni və kafir padşahlarını və dikbaşlarını həlak edib torpağa tökmüşük, haqq məzhəbin yolunda çalışmışıq və çalışmaqdayıq. Və halhazırda əsil-nəsillikə Şah-i Mərdanın şiələrindən olan Nurəli xəlifəni zati-alilərimizin nayibi kimi o tərəfə rəvan edirik. Gərəkdir ki, bu yüksək sülalənin saf fikirli sufiləri onu özlərinin birbaşa xəlifəsi hesab edib onun itaətindən boyun qaçırmasınlar və əgər bir kimsə ona itaət etməzsə həmin şəxs zati-alilərimizin itaətindən boyun qaçırmış olacaqdır" (69).

Mənbələrdə mövcud ola məlumatlara görə, Nurəli Anadoluda Şah İsmayılın xəlifəsi kimi sevinclə qarşılandı və burada onun başlamaq istədiyi hərəkata yaxından dəstək verildi. Bu məqam mənbələrdə belə təsvir edilmişdir: "Nurəli xəlifənin Ruma getməsi xəbəri sufilərə çatdıqda 10 minə qədər sufi onun başına cəm oldu. Nurəli xəlifə hökmdarın başmağını sufilərin yanına aparmışdı və onlar o başmağı öpüb gözlərinin üstünə qoyub dedilər ki, xoş olsun sizin halınıza ki, hər gün mürşidi-kamilin didarını görürsünüz. Məktubu açdıqda çoxlu ehsanlar tökdülər, az qaldı ki, öz canlarını ehsan etsinlər və daha sonra o məktub oxunduqda hamısı birdən yerlərindən qalxdılar, bəziləri xəlifənin ayağını öpürdü və bəziləri onun əlini öpürdü və deyirdilər ki, əmr mürşidi-kamilin əmridir ki, biz sənə xidmət edib başımızı sənin yolunda qoyaq" (70).

Nurəlinin üsyanının başlanması üçün də əslində, Anadoluda bir ictimai-siyasi zəmin mövcud idi. Bir tərəfdən burada çoxlu sayda Səfəvi sufiləri var idi

və onların Səfəvi dəyərlərinə dərin etiqadı var idi. Bu insanlar sufi dəyərləri ətrafında birləşməyə və əməli işlər görməyə hazır idilər. Digər tərəfdən də həyat şəraitinin dözülməzliyi, ölkə daxilində şahzadələr arasında davam edən çəkişmələr və bunun xalqa gətirdiyi bəlalar Anadolu şiələri arasında bütün ümidlərin Şah İsmayıla bağlanmasına yol açırdı. Mövcud şəraitdən istifadə etməklə Nurəli ətrafına xeyli sayda sufi toplaya bildi və bununla da qaldırmaq istədiyi üsyan üçün özünün canlı qüvvəsini təmin etdi.

Məlumatlara görə, Nurəli əvvəlcə Səfəvi sərhədlərinə yaxın olan məntəqələr üzərinə hücum etdi və nəticədə, Qarahisarla Malatiyanı ələ keçirdi. Sonra da həmin məntəqələrdə Şah İsmayılın adına xütbə oxutdurdu. Bu hadisə o zaman baş verdi ki, Sultan Səlimin hakimiyyət uğrunda qardaşları ilə apardığı mübarizə ən yüksək həddə çatmışdı. Belə bir məlumat mövcuddur ki, Sultan Səlim tərəfindən öldürülən qardaşı Sultan Əhmədin oğlu Sultan Murad da məhz bu vaxtlarda rəhbərliyi altında olan 10 min nəfərlik qoşun dəstəsi ilə Nurəliyə qoşulmuş və hətta Tokat şəhərinin ələ keçirilməsində iştirak etmişdi (71).

Nurəlinin ətrafına toplaya bildiyi qoşun dəstəsinin böyük bir hissəsini Varsaq, Əfşar, Qaramanlı, Turqudlu, Bozuklu, Təkalu, Həmidli soylarından olan sufilər təşkil edirdilər. Nurəlinin Şah İsmayıl adından çağırış etməsi və fəaliyyətə başlaması bu boylara mənsub olanlar tərəfindən rəğbətlə qarşılanmışdı və onlar da əməli fəaliyyətə meydan vermişdilər. Qarahisarın ələ keçirilməsi və orada Şah İsmayıl adına xütbə oxunması Səfəvi təriqətinə bağlı olan digər soylar arasında da bir coşqunluq yaratmışdı və bunun nəticəsi idi ki, Sivas, Amasiya və Tokat ətrafından əlavə olaraq 20 min nəfər toplanaraq Nurəlinin qoşunlarına qatılmışdılar. Osmanlı ərazisində yaşayan kürd və türkman soylarından xeyli sayda könüllünün Nurəlinin hərəkatına qoşulması haqqında məlumatlar mövcuddur. Nurəlinin geniş bir ərazidə üsyan qaldırması hakimiyyət uğrunda mübarizəsini gücləndirmiş Sultan Səlim tərəfindən də həyəcanla qarşılandı və əvvəlcə Malatiya valisi Faiq paşanın rəhbərliyi altında üsyançılara qarşı qoşun dəstəsi göndərdi. Lakin Faiq paşa ona həvalə edilmiş vəzifəni icra edə bilmədi və Nurəli üsyançılarına məğlub olaraq geri çəkilməli oldu. Mövcud olan məlumatlardan aydın olur ki, Tokat şəhərinin əhalisi Nurəli hərəkatına heç də rəğbətlə yanaşmırdı. Görünür ona görədir ki, əhali üsyançıların şəhərə daxil olmaması şərti ilə Şah İsmayılın adına xütbə oxunmasına razı olmuşdu. Sonradan Sultan Muradın dəstəsi ilə birləşən Nurəli yenidən Tokat şəhəri üzərinə yeridi. Şəhər əhalisi üsyançıları bu dəfə də şəhərə buraxmaq istəməsələr də, Nurəli qoşunlarının qarşısında uzun müddət davam gətirə bilmədi. Nurəli üsyançı qoşunlarla Tokata daxil ola bildi. Tokatı alandan sonra Nurəli Ərzincana tərəf çəkildi. Bu zaman üsyançılar çox da böyük olmayan bir neçə hökumət dəstələri ilə qarşılaşdılar və həmin dəstələrə də üstün gəldilər. Nurəli üsyanının nəzarət altından çıxmasına imkan verməmək üçün Sultan Səlim daha böyük bir dəstəni bu üsyanın yatırılmasına cəlb etdi. Üsyançılar üzərinə göndərilən bu qoşun dəstəsinə Sinan paşa rəhbərlik edirdi. Sinan paşa ilə Nurəli arasında qarşılaşma Qoyluhisar yaxınlığında baş verdi. Bu qarşılaşmada da üsyana qoşulmuş olan

sufilər fədakarcasına vuruşdular və Sinan paşanın dəstəsinə üstün gəldilər. Sinan paşa özü isə bu döyüşdə dünyasını dəyişməli oldu. Gərgin döyüş zamanı Osmanlı qoşun dəstəsindən 1500 nəfərin öldürüldüyü və onların başları kəsilərək Səfəvi sarayına göndərildiyi bildirilirdi. Lakin bu qələbədən sonra Nurəli üsyanının dayandırılması qərara alındı. Bunun nə ilə bağlı olması haqqında mənbələrdə və elmi-tarixi ədəbiyyatda yetərincə məlumat mövcud deyildir. Sinan paşa dəstəsi üzərindəki qələbədən sonra Nurəli Ərzincana və oradan da Səfəvi hüdudlarına çəkildi (72).

İlk baxışdan Sinan paşa üzərində Nurəli üsyanının ən böyük qələbəsi bu hərəkatın daha da genişlənməsinə təkan verə bilərdi. Amma Nurəli üsyanı genişləndirməyib Osmanlı ərazilərini tərk etdi. Çox güman ki, Nuərli hərəkatının rəhbələri bu hərəkatın gələcəyinin olmadığını yaxşı görürdülər və ona görə də üsyanın davam etdirilməsini məqsədəuyğun saymadılar. Çünki hakimiyyəti yenicə əlinə keçirmiş Sultan Səlim də kifayət qədər möhkəmlənməkdə idi və onun tərəfindən bu üsyanın genişlənməsinə imkan veriləcəyi inandırıcı deyildi. Üsyanın ciddi müqavimətlə rastlaşmadan dayandırılması Şah İsmayıl tərəfindən ona dəstək verilməməsi ilə də bağlı ola bilərdi. Şahqulu üsyanının təcrübəsi də göstərdi ki, Osmanlı daxilindəki şiə-sufi elementlərinin hələ Osmanlı dövlətini çökdürəcək qədər qüdrəti yox idi və ona görə də Nurəli üsyanı dayandırılmalı oldu. Sultan Səlim isə Osmanlı ərazisində baş verən üsyanlardan ciddi nəticə çıxardı. Bu üsyanlar Osmanlı dövləti daxilində vəziyyətin heç də sabit olmadığını və Osmanlı dövləti daxilində Səfəvi dövlətinə rəğbətli olan bir ictimai toplumun mövcud olduğunu nümayiş etdirdi. Mövcud məlumatlara görə, bu toplum Anadolu əhalisinin böyük bir hissəsi idi və onlar şiə məzhəbinə mənsub idilər. Bu toplum şiəliyi Səfəvi xanəgahının təbliğatı və bu xanəgaha olan inam nəticəsində qəbul etmişdilər. Səfəvi təriqətinə mənsub olan sufilərdə Səfəvi xanədanına, o cümlədən Şah İsmayıla bağlılıq və sədaqət xeyli güclü idi və ona görə bu topluma qarşı münasibət Sultan Səlim tərəfindən çox sərtləşdirildi.

### 4. Səfəvi-Osmanlı münasibətlərinin gərginləşməsinin səbəbləri

Osmanlı-Səfəvi münasibətlərinin gərginləşməsi məsələsinin səbəblərini araşdırarkən və bu səbəbləri qruplaşdırarkən görmək olar ki, məzhəb və dini təəssübküşlik məsələləri həmin gərginləşmənin mühüm səbəblərindən biridir. Sadəcə məzhəb fərqliliyi deyil, bu məzhəbin və bütünlükdə dinin siyasətin xidmətinə gətirilməsi iki dövlət arasında kəskin qarşıdurmaya yol açdı. Səfəvi və Osmanlı dövlət rəhbərlərinin, bu dövlətlərin din xadimlərinin iddialı mövqeyi ilə məzhəblər arasındakı dözümsüzlük siyasi dözümsüzlüyə yol açmışdı. Əslində, bu, həmin dövlətlərin rəhbərliyi tərəfindən məqsədyönlü şəkildə seçilmiş bir ssenari idi və bu dözümsüzlük siyasi məqsədlərin əldə edilməsinə xidmət edirdi. Osmanlı ərazisində isə Osmanlı dövlət maraqlarına əks mövqe tuta biləcək və iki dövlət arasında müharibə başlayacağı təqdirdə Səfəvi dövlətini dəstəkləyəcək fərqli məzhəb tərəfdarlarının sayı deyildiyi kimi, xeyli çox idi. Təriqət

baxımından Anadolu ərazisindəki sufilər Şah İsmayılın müridləri hesab olunurdular. Bu müridlər də öz mürşidlərinin fitvalarını icra etməyi özlərinin dini--mənəvi borcu sayırdılar. Şah İsmayıl bu müridlərini istədiyi vaxt ayağa qaldırıb Osmanlı dövlətinə qarşı istifadə edə bilərdi və bunun artıq təcrübəsi də mövcud idi. Şahqulu və Nurəli üsyanları göstərdi ki, Şah İsmayılın Osmanlı dövləti daxilində güclü ictimai-siyasi dayağı var. Bu dayaq o qədər güclü idi ki, onun vasitəsilə Osmanlıda hakimiyyət iddiasını da ortaya atmaq mümkün idi. Özü də davamlı olaraq bu dayağın gücləndirilməsi istiqamətində iş də görü-lürdü. İstər Şah İsmayıl tərəfindən, istərsə də Səfəvi xanəgahı tərəfindən Osmanlı ərazisinə xəlifələr göndərilir və onlar da sufilər və müridlər arasında məzhəbin möhkəmləndirilməsi və genişləndirilməsi ilə məşğul olurdular. Onların təsiri elə güclü idi ki, yuxarıda qeyd edilənlərdən göründüyü kimi, Osmanlı ərazisindən xeyli sayda sufi Səfəvi hüdudlarına köç edirdilər. Bu köç geniş miqyas alanda məlum olduğu kimi, Sultan Bəyazid də onun qarşısının alınması ilə bağlı fərman verməli olmuşdu. Şiə təsiri Osmanlı daxilində o dərəcədə güclənməkdə idi ki, hətta sultan ailəsinin üzvləri də bu təsirə mübtəla olurdular. Konkret olaraq Sultan Əhmədin və Sultan Muradın şiəliyə münasibəti buna misal ola bilərdi. Yəni, yad sayıla biləcək dini-siyasi ideologiya Osmanlı saray mənsublarına belə təsirsiz qalmırdı (73).

Səfəvi və Osmanlı dövlətləri arasında ixtilafların dərinləşməsinə məzhəb fərqliliyinin olması və sünni məzhəbinə mənsub olanların Səfəvi daxilində təqib edilməsi və Osmanlı daxilindəki şiələrdən siyasi məqsədlərlə istifadə edilməsi Şah İsmayılın həm Sultan Bəyazidlə, həm də Sultan Səlimlə məktublaşmasında da öz əksini tapmışdı. Osmanlı dövləti sərhədləri hüdudunda Səfəvi şiə dövlətinin yaranmasını və möhkəmlənməsini öz təhlükəsizliyi üçün təhdid hesab edirdi və ona görə də bu təhdidlərin aradan qaldırılması üçün sərt tədbirlərə belə əl atmaqdan imtina etmirdi.

Dini amildən Osmanlı dövlətinin daxili işlərinə müdaxilə edilməsi üçün çox səmərəli şəkildə istifadə edilirdi, Səfəvi xəlifələri vasitəsilə Osmanlı daxilində Osmanlı maraqlarına cavab verməyən bir ab-hava yaradılırdı. Sultan Səlimin hakimiyyətinin ilk vaxtlarına aid olan bir sənəddə deyilirdi ki, 10 min nəfərdən artıq adam xəlifə İsa oğlu adlanan bir mülhədin ətrafında birləşərək kəndləri və yaşayış məntəqələrini talan edirlər, insanları öldürürlər, əmlaklarını talan edirlər. Həmin sənədə görə Amasiyada da 20 min nəfər sufi toplaşaraq müsəlmanları öldürmüş və sonra Sultan Murada birləşərək öz talanlarını davam etdirmişdilər (74).

Osmanlı hakimləri və şünni ruhaniləri şiələri mülhəd adlandırır və onlara qarşı mülhəd kimi davranmasını tələb edirdilər. Yəni, əslində hakim qüvvələr və sünni toplum tərəfindən şiələrə düşmən münasibət bəslənilirdi və onlara qarşı sərt tədbirlərin həyata keçirilməsini də tələb edirdilər. Bununla bağlı Osmanlı müftiləri də müxtəlif fitvalar verir və şiələrə qarşı daha sərt tədbirlərin həyata keçirilməsini istəyirdilər. Əslində, Sultan Səlim də belə fitvaların verilməsinə tərəfdar idi. Çünki bu fitvalar onun Osmanlı dövlətinin və taxt-tacının təhlü-

kəsizliyi üçün ciddi təhdid olan Anadolu sufilərinin neytrallaşdırılması üçün dini bazanı təşkil edirdi. Bu məsələdə dinin dəstəyini qazanmaq isə Sultan Səlim üçün ictimai dəstək qazanmaq, sufilərin istinad yeri olan Səfəvi dövlətinə qarşı mübarizə üçün ölkə dəstəyini qazanmaq demək idi. Sultan Səlim dövrünün tanınmış müftilərindən biri olan müfti Həmzə əfəndi ölkə şiələrinə qarşı belə bir fitva vermişdi: "...Müsəlmanlar bilin və agah olun, bu tayifeyi qızılbaş ki, rəisləri Ərdəbil oğlu İsmayıldır, Peyğəmbər əleyhüssəlam şəriətini və sünnətini və dini islam və elmi dini və Qurani mübini istihfaf etdikləri və daha Allah-Taalanın haram qıldığı günahlara halaldır dedikləri və istihfafları və Qurani-Əzimi və Mushafları və kütubi-şəriəti təhqir edib oda yaxdıqları və daha üləmaya və süləhaya ihanət edib qırıb məscidləri yaxdıqları və rəislərini məbud yerinə qoyub səcdə etdikləri və daha həzrəti Əbu Bəkr radiyullahü ənhu və həzrəti Ömər radiyullahü ənhü söyüb xilafətlərini inkar etdikləri və daha Peyğəmbərimizin xanımı Aişə anamıza (radiyullahü ənhuya iftira edib) söyüdkləri və daha Peyğəmbərimizin əleyhüs səlati vəssəlam şərini (şəriətini) və dini-islamı götürməyə qəsd etdiklərini və felləri bu fəqir qatında və baqi üləma dini-islam qatlarında (təvatürlə) məlum və zahir olduğu səbəbdən bir daha şəriətin hökmü və kitablarımızın nəqli ilə fitva verdik ki, ol zikr olunan tayfa kafirlər və mülhədlərdir və daha bir kimsə ki, anlayıb və meyl edib ol batil dinlərinə razı və müavin olalar, onlar da kafirlər və mülhədlərdir. Bunları qırıb camaatlarını dağıtmaq (cəmi müsəlmanlara) vacib və fərzdir. Müsəlmanlardan ölən səid və şəhid cənnəti alidədirlər. Onlardan ölən or və həqir, cəhənnəmin dibindədirlər. Bunların halı kafirlərin halından əşəddü əkbahdır. Zira bunların boğazladıqları və hətta seydləri (kəsilən və ov edilən heyvanlar və quşlar nəzərdə tutulur - red.) gərəksə doğulanla, gərəksə ök ilə və gərəksə kəlb ilə olsun murdardır. Və daha nikahları gərəksə daxildən və gərəksə qeyrdən olsunlar batildir. Daha bunlar kimsədən miras yemək yoxdur. (Bir nahiyə əhli ki, bunlardan ola) Sultani İslam əəzzelləahu ənsarehu üçün vardır ki, bunların (ricalların qətl edib) mallarını və nisalarını və övladlarını güzatü İslam arasında qismət edə və bunların bəədən əxz tövbələrinə və nədamətlərinə iltifat və etibar olunmayıb qətl oluna və daha bir kimsə ki bu vilayətdə olub onlardan oldugü bilənə və yaxud onlara gedərkən tutulub qətl oluna və bilcümlə bu tayfa həm kafirlər və mülhədlərdir və həm əhli-fəsaddır, iki cəhətdən qətlləri vacibdir" (75).

Osmanlı daxilində şiələr haqqında bu məzmunlu fitvalar çoxlu sayda verilmişdi və Şah İsmayıl tərəfdarları əslində islamın düşməni adlandırılmaqla onların qətl edilməsi halal sayılmışdı. Osmanlı taxt-tacı və islam üçün bir "bəla" sayılan şiəliyin birdəfəlik aradan qaldırılmasını isə Sultan Səlim şiəliyin kökünün kəsilməsində, Səfəvi dövlətinə ciddi zərbə vurulmasında görürdü. Yəni, bu dini-ideoloji təhdidin aradan qaldırılması Sultan Səlimin Şah İsmayıla qarşı müharibə başlamasının ciddi səbəblərindən biri oldu.

Osmanlı və Səfəvi münasibətlərinin gərginləşərək müharibə səviyyəsinə çatmasının mühüm səbəblərindən biri də heç şübhəsiz ki, siyasi səbəb idi. Osmanlı və Səfəvi dövlətləri arasındakı münasibətlər bölgədə günü-gündən

möhkəmlənməkdə və güclənməkdə olan iki böyük dövlətin siyasi baxımdan kəllə-kəlləyə gəlməsi idi. Onların bir-birinə qarşı mübarizəsi mövcudluğun qorunub saxlanması uğrunda aparılan mübarizəyə çevrilmişdi. Bu dövlətlərin hər ikisi eyni ərazilərə iddialı idilər, onların hər ikisi islam aləmində liderliyə iddialı idilər və onların hər ikisi bölgənin liderliyinə iddialı idilər. Ona görə onlar bir-birini qəbul edə bilmirdilər. Hətta Sultan Səlimin Osmanlı taxtına çıxmasından sonra Rusiya, Misir, Macarıstan və s. kimi dövlətlər öz nümayəndələrini göndərib onu təbrik etsələr də Şah İsmayıl onu təbrik etmədi. Daha doğrusu, rəsmən onu tanımadı. Şah İsmayıl onun hakimiyyətini nəinki tanımadı, Osmanlı taxtına iddialı olan və Sultan Səlimin yerinə hakimiyyət uğrunda mübarizə aparan Sultan Muradı öz himayəsi altına aldı və bununla onun Sultan Səlimə qarşı mübarizəsini dəstəkləmiş oldu. Osmanlı ərazisində üsyanların qaldırılması həm də siyasi məsələ idi və bununla Səfəvi dövləti və Səfəvi xanəgahı Osmanlı dövlətinin daxili işlərinə siyasi müdaxilə edir və Osmanlı daxilində sərfəli bir hakimiyyətin formalaşmasını istəyirdilər. Yəni, Sultan Səlimin hakimiyyətinin devrilməsi və onun yerinə Səfəvi xanəgahına bağlı olan qüvvələrin hakimiyyətə gətirilməsi heç də məqsəddən kənar deyildi. Bu qarşıdurma həm də qarşılıqlı şəkildə biri-digərinin ərazisinin ələ keçirilməsi planları ilə müşayiət olunurdu. Osmanlı dövləti Səfəvi ərazilərini öz hüdudları tərkibinə daxil etmək istəyirdi və bu istiqamətdə sərhəd qarşıdurmaları da baş verirdi. Eyni zamanda Səfəvi dövləti də qərb sərhədləri boyunca Osmanlı ərazilərini öz hüdudları tərkibinə daxil etmək istəyirdi. Səfəvi dövləti Türküstanı və Əfqanıstanın böyük bir hissəsini öz hüdudları tərkibinə daxil etdikdən sonra Osmanlı dövləti hesabına əraziləri genişləndirmək xeyli cazibəli görünürdü. Yeni ərazilərin tutulması hər iki tərəf üçün yalnız sərhədlərin genişləndirilməsi məqsədi daşımırdı. Sərhədlərin genişləndirilməsi həm də sərhəd xətti boyunca təhlükəsizliyin təmin edilməsi xarakteri daşıyırdı. Şahqulu və xüsusilə də Nurəli üsyanından sonra Səfəvi sərhədlərinə yaxın məntəqələrin dağıdılması da Osmanlı hakimlərində Şah İsmayıla qarşı müharibə başlamaq əminliyi yaratmışdı. Çünki bu yolla Səfəvi dövlətinin birbaşa iştirakı və ya təhriki ilə baş verəcək yeni müharibə dağıntılarından sığortalanmaq mümkün ola bilərdi (76).

Nurəli və Şahqulu üsyanları vasitəsilə Osmanlı ərazilərinin Osmanlı sarayının nəzarəti altından çıxarılması halları Osmanlı sarayı tərəfindən ərazilərin işğalı kimi qiymətləndirilirdi və həmin ərazilərin yenidən nəzarət altına gətirilməsi üçün kifayət qədər böyük itkilər verilmiş və dağıntılar yaradılmışdı. Sultan Səlim hakimiyyət başına gələndən sonra yeniçəri qüvvələrinin rəhbərləri və sərkərdələrini toplayaraq onların qarşısında Osmanlı ərazilərinə göz dikən, Osmanlı işlərinə müdaxilə edən səfəviləri, konkret olaraq Şah İsmayılı Osmanlı dövləti üçün böyük təhlükə adlandırdı və bu təhlükənin aradan qaldırılması üçün heç bir vəchlə süstlük göstərməyəcəyini bəyan etdi. Qarşılıqlı yazışmalarda da bu münasibəti müşahidə etmək mümkün idi. Sultan Səlim hakimiyyət başına gələn kimi saray daxili mübarizələri və çəkişmələri yoluna qoyduqdan sonra bütün diqqətini Şah İsmayıl ilə olan münasibətlərin aydınlaşdırılmasına yönəlt-

di. Bu isə onun müharibə seçimi etməsi demək idi. Sultan Səlim hakimiyyətin əldən getməsi və ya bölünməsi üçün öz qardaşlarına güzəştə getmədiyi halda, Şah İsmayıl təhlükəsinə qarşı biganə qalacağı real deyildi və öz siyasətində də bunu ortaya qoydu.

Osmanlı dövləti Səfəvi təsirlərinin zəiflədilməsi və qarşısının alınması üçün Sultan Səlim müharibəyə başlamazdan əvvəl bir sıra konkret tədbirlərə əl atdı. Əslində, bu tədbirlər Səfəvi dövləti ilə müharibəyə hazırlığın tərkib hissəsi idi və onların həyata keçirilməsi ilə Osmanlı daxilindəki vəziyyətin sabitləşdirilməsinə yeni bir cəhd göstərildi. Bu tədbirlərdən biri Osmanlı-Səfəvi sərhəd xətti boyunca Səfəvi təsirlərinin azaldılması və sərhəd xəttinin təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı idi. Həmin məqsədlə sərhəd xətti boyu məskunlaşan və Səfəvi təsirləri altında olan soylar Osmanlı dövlətinin içərilərinə köçürüldü və sərhəd xəttinə sünni əhali məskunlaşdırıldı. Bundan başqa vilayət hakimləri, eləcə də yerli hakimlər arasında səfəvilərlə əlaqəsi olanlar, həmçinin səfəvilərə rəğbətli olanlar vəzifələrindən kənarlaşdırıldılar və onların yerinə daha etibarlı adamlar təyin edildilər. Sərhəd xəttindən gediş-gəliş məsələsi daha ciddi nəzarət altına alındı. Səfəvilərə meylli və rəğbətli olan Osmanlı təbəələrinin Səfəvi hüdudlarına daxil olmasının qarşısı alındı. Nəhayət, səfəvilərlə əlaqəsi olan, səfəvilərin təbliğatını aparan adamların təqibi gücləndirildi. Bu sahədə fəallıq göstərənlər həbs edilərək zindanlara atıldı (77).

Sultan Səlimi Səfəvi dövləti ilə müharibə seçimi etməsinə gətirib çıxaran səbəblərdən biri də bölgədə Osmanlı dövlətinin maraqlarına cavab verməyən beynəlxalq münasibətlərin formalaşması idi. Xüsusilə, Səfəvi-Misir ittifaqının yaranması və güclənməsi Osmanlı dövlətinin maraqlarına heç də cavab vermirdi və onun üçün real təhdidə çevrilmişdi. Bölgənin böyük və nüfuzlu dövlətlərindən olan Misir həm də islam dünyasının mərkəzi sayılırdı. Çünki islam müqəddəsləri olan Məkkə və Mədinə bu dövlətin tərkibində idi və bu baxımdan Misirin bölgədə xüsusi yeri və çəkisi var idi. Lakin Osmanlı və Səfəvi dövlətlərinin XVI əsrin əvvəllərində güclənməsi və Misir hakimlərini bu dövlətlərə qarşı ehtiyatlı siyasət yeritmək məcburiyyəti qarşısında qoyurdu. Bu dövlət həm Osmanlı ilə, həm də Səfəvi ilə sərhəddə yerləşirdi və həmin dövlətlərin öz hüdudlarını genişləndirmək üçün izlədiyi siyasət Misir hakimləri tərəfindən narahatçılıqla izlənilirdi. Ona görə Misir hakimləri hələ Sultan II Bəyazidin hakimiyyəti illərində Osmanlı dövləti ilə yaxın münasibətlər qurmaq və bununla Misiri kənar hücumlardan daha etibarlı qoruya bilmək üçün bir neçə cəhd göstərdilər. Lakin bu cəhdlər bir nəticə vermədi və Misirlə Osmanlı dövləti arasında qarşılıqlı maraqlara cavab verəcək münasibətlər qurulmadı. Belə olanda, Misir hakimləri bölgənin daha böyük bir fatehi olan Şah İsmayıl ilə yaxınlaşmaq siyasətini qarşıya qoydular. Şah İsmayıl da belə münasibətlərin tərəfdarı idi və o, Türküstan səfərindən sonra Misir Hakimi Qansu Quriya yazdığı məktubunda onu çox böyük səxavətlə tərifləyir və tövsif edirdi. Həmin məktubda deyilirdi ki, Şah İsmayıl elçisi "...şərafətli varlığı ilə həqiqi sevgi əsaslarının artmasının səbəbkarı olmuş, səxavətli vücudunda səltənət və xoşbəxtlik par-

laqlığını ehtiva edən əhdnamə və xilafəti təmsil edən aliməqamın, yəni əzəmətli sultan, ümmətlər arasında hökm edən, padşahların dayağı, ədalət və insaf bayrağını ucaldan, zülm və zəlalətin əsaslarını kökündən qoparıb, sahib və dost Allah tərəfindən yardım olunan, səltənət, hakimiyyət, ədalət və səadətin iftixarı Qansu Qurinin, - Allah qiyamətə qədər vücudunun bərəkəti ilə İslam bayraqlarını yüksəltsin, hüzuruna göndərilir" (78).

Misir hakimi Osmanlı dövlətinin fatehlik yürüşlərindən o dərəcədə ehtiyat edirdi ki, şiə məzhəbli Şah İsmayıl ilə ittifaqda olmaq yolunu tutmuşdu. Bu həm də onu göstərirdi ki, Şah İsmayıl üçün də dövlət maraqları məzhəb mənsubiyyətindən daha yuxarı idi və o da sünni məzhəbli bir dövlətlə ittifaq münasibətləri qurulmasında maraqlı idi. Mövcud məlumatlara görə, ikitərəfli münasibətlərin qurulması üçün Misir hakimi Əcəmi Cinağçı adlı elçisini Şah İsmayılın yanına göndərmişdi. Bu elçinin gətirdiyi məktubda Misir hakimi açıq şəkildə Şah İsmayılı Osmanlı dövlətinə qarşı ittifaqa və Osmanlı dövlətinin mövcudluğuna son qoyulmasına çağırırdı. Belə bir siyasət Şah İsmayılın da maraqlarına cavab verirdi. Ona görə Şah İsmayıl da öz elçisini çoxlu sayda qiymətli hədiyyələrlə Misir hakiminin yanına göndərdi və bununla onun Osmanlı dövlətinə qarşı ittifaq yaratmaq təklifinə rəğbətlə yanaşdığını nümayiş etdirdi. Misir ilə Səfəvi dövləti arasında belə bir münasibətlərin formalaşması Sultan Səlim tərəfindən yaxından izlənilirdi. Ümumiyyətlə, Səfəvi dövləti daxilində cərəyan edən hadisələr Sultan Səlim tərəfindən ciddi nəzarət altında saxlanılırdı və bunun üçün Səfəvi daxilində Sultan Səlimin geniş casus şəbəkəsi mövcud idi. Bu şəbəkə vasitəsilə qısa zaman ərzində maraq doğuran məlumatlar Osmanlı sarayına çatdırılırdı. Bu casus şəbəkəsinin təşkilatlandırılmasında Səfəvi daxilində olan sünnilərdən də istifadə olunurdu. Sultan Səlim həmin şəbəkənin vasitəsilə nəinki Səfəvi dövləti daxilində baş verənlərdən, o cümlədən də Səfəvi-Misir münasibətlərindən xəbər tutur, həm də Osmanlı maraqlarına cavab verən qeyri-doğru məlumatların Səfəvi mənsublarına çatdırılmasına nail olurdu. Osmanlı sultanı üçün gizli deyildi ki, Səfəvi-Misir ittifaqı Osmanlı dövləti üçün ciddi təhdiddir. Bu təhdidin aradan qaldırılması yollarından biri də Səfəvi dövlətinə qarşı müharibə başlanmasında və bununla da, Osmanlı dövlətinə qarşı formalaşmış ittifaqın pozulmasına nail olunmasında görürdü (79).

Sultan Səlim taxta çıxdıqdan sonra Avropa istiqamətində öz fatehlik yürüşlərini daha da genişləndirmək niyyətində idi. Amma bu yürüşlərin davam etdirilməsi və Avropada daha böyük ərazilərin ələ keçirilməsinə nail olunması üçün səltənətin şərq sərhədlərinin təhlükəsizliyinə nail olmaq lazım idi. Səfəvi dövləti kimi böyük dövləti neytrallaşdırmadan Avropaya uzunmüddətli yürüşlərin həyata keçirilməsi mümkün deyildi. Bu məqamın özü də Osmanlı dövlətinin Səfəvi dövlətinə qarşı müharibə seçimini etməsini şərtləndirən məqamlardan biri idi.

Elmi-tarixi araşdırmalarda Osmanlı-Səfəvi müharibəsinin səbəblərinə toxunarkən Diyarbəkr hakimi Məhəmməd xan Ustaclının da təhrikçiliyindən söz açılır. Yuxarıda göründüyü kimi, məhz Məhəmməd xan Ustaclının məktubunu

alandan sonra Şah İsmayıl öz elçilərini Sultan Bəyazidin yanına göndərmişdi. Bu məktub iddialı bir məktub idi və orada Osmanlı sultanına bir hörmətsizlik nümayiş etdirilmişdi. Şah İsmayıl hətta Osmanlı sarayını müharibə ilə və Osmanlı ərazilərinin ələ keçiriləcəyi ilə də təhdid edirdi. Doğrudur, Sultan Bəyazid bu məktuba dözümlü yanaşsa da, Sultan Səlim bu məktubla bağlı öz qəzəbini ifadə etməkdən çəkinməmişdi. Məhəmməd xan Ustaclı eyni zamanda Sultan Səlimə də məktublar göndərirdi. Çünki Səfəvi dövlətinin qərb sərhədi boyunca yerləşən ərazilər məhz Trabzon hakimi olan Sultan Səlimin qoşun dəstəsinin talançı hücumlarından əziyyət çəkirdi. Məhəmməd xan Ustaclı öz məktubunda təhqiramiz ifadələr işlətmiş, Sultan Səlimə qadın alt paltarı göndərmiş və bununla onun şəxsiyyətini hakimlərə yaraşmayan bir şəkildə təhqir etmişdi. Bəzi tarixi ədəbiyyatda Məhəmməd xan Ustaclığının belə hörmətsiz müraciətinin Şah İsmayılın razılığı ilə edildiyi bildirilir. Məhəmməd xan Ustaclı eyni zamanda Sultan Səlimi döyüşə çağırır və ona bu döyüşdə ağır zərbə endirəcəyini bildirirdi. Sultan Səlimə qadın alt paltarını göndərməklə də Məhəmməd xan Ustaclı demək istəmişdi ki, kişisənsə döyüşə çıx. Kifayət qədər iddialı bir hakim olan Sultan Səlim isə bu təhqiramiz çağırışların cavabını vermək fikrini heç də kənara qoymamışdı. "Əhsənüt təvarix" əsərində bu barədə aşağıdakı qeydlər var idi: "Rum padşahı Sultan Səlim, Cəmşid səviyyəli xaqanın saray adamlarına qarşı üsyan məqamına gəldi. Onun müxalifliyinin səbəbi budur ki, Xan Məhəmməd Ustaclu Diyarbəkri istila etmiş, bir neçə dəfə zülqədər qoşununu az adamla məğlub etmiş, onun mülazimi Dəli Duraq yetmiş süvari ilə Misir padşahı Sultan Qansunun igidlikdə şöhrət tapmış və ad-san qazanmış üç yüz qulamını məğlubiyyətə uğratmışdı. Bu şücaət üzündən onun (Xan Məhəmmədin) lovğalığı, qüruru, əzəməti, cah-calalı və özündənrazılığı həddini aşdı və Sultan Səlimə təhdid və təhqirlə dolu məktublar göndərib onu vuruşmaya və qarşıdurmaya rəğbətləndirdi və təhrik etdi. Hətta ona kələğayı və s. kimi fitnə-fəsada səbəb olan bir neçə şeylər göndərdi. Digər səbəb o idi ki, Nurəli xəlifə Rumlu o diyarda çoxlu xarabalıqlar törədib Toqatı yandırmışdı. Bu hadisələr onu (Sultan Səlimi) müharibəyə sövq etdi" (80).

Tədqiqatçıların mülahizələri və bütünlükdə iki dövlət arasında cərəyan edən proseslər belə bir qənaətə gəlməyə əsas verir ki, Osmanlı və Səfəvi dövlətləri arasındakı gərginliyin artmasının bir səbəbi də bölgənin iqtisadi mərkəz və qovşaqlarına nəzarəti ələ keçirilməsi cəhdləri idi. Bu mənada Şərqi Anadolu xüsusi əhəmiyyət kəsb edirdi. Həmin bölgə həm iqtisadi imkanların böyüklüyü ilə seçilirdi, həm də bu bölgə böyük ticarət yollarının keçdiyi bir ərazi idi. Şərqi Anadoluya nəzarət edilməsi ilə hətta Hindistandan və Türküstandan başlayaraq Avropaya uzanan ticarət yollarına nəzarət edilməsi demək idi. XV əsrin ortalarında İstanbulu ələ keçirilməsi ilə Osmanlı dövlətinin Avropa və Asiya ticarətinin qarşılıqlı inkişafında əhəmiyyəti strateji xarakter almışdı. Asiyadan İstanbula aparan yolların çoxu da məhz Şərqi Anadolundan keçməli idi. Şərqi Anadolu eyni zamanda Aralıq dənizinə, habelə Qara dənizə uzanan ticarət yollarının da kəsişmə nöqtəsi idi. Səfəvi dövlətinin böyük ticarət şəhər-

ləri olan Şamaxının, Təbrizin, İsfahanın, Reyin və digərlərinin də qərblə əlaqələri Anadoludan keçən yollar vasitəsilə təmin olunurdu. Səfəvi dövlətinin ticarət əlaqələrinin qurulduğu əsas marşrut yollar bunlar idi: 1) İraq və Suriyadan keçən quru yolları. Bu yollar Aralıq dənizinə birləşməklə Avropaya çıxış da əldə edirdi; 2) Hörmüz limanından Hindistana çıxış və Portuqaliya ilə ticarət. Bu zaman Fars körfəzi Portuqaliyanın nəzarəti altında idi. Ona görə Səfəvi dövlətinin buradan birbaşa Hind okeanına çıxışı yox idi. 3) Xəzər dənizi vasitəsilə şimala çıxış. Bu çıxış əsasən Rusiya ilə ticarət əlaqələrini təmin edirdi. Rusiya ərazisindən Avropaya çıxmaq mümkün idi. Lakin bu marşrut xeyli uzun idi. 4) Anadoludan keçməklə Avropaya çıxış. Bu marşrut Səfəvi dövləti üçün daha münasib və əlverişli marşrut idi. Amma məlum idi ki, bu marşrut Osmanlı sarayının nəzarəti altında idi (81).

Söylənilən marşrutlar içərisində Anadoludan keçən marşrut yalnız Səfəvi dövlətinin tacirlərinin yox, eyni zamanda Səfəvi dövləti ərazisindən keçməklə Avropaya çıxmaq istəyən Çin, Hindistan kimi dövlətlərin ticarətinin təşkilində də mühüm əhəmiyyət kəsb edirdi ki, bu da Səfəvi dövlətinə əlavə gəlirlər gətirirdi. Anadoludan keçən ticarət yolları eyni zamanda Səfəvi dövlətinin özünün iqtisadi inkişafının təşviq edilməsi baxımından strateji əhəmiyyət daşıyırdı. Məlumdur ki, Səfəvi dövlətinin bərqərar olduğu dövrdə Azərbaycan və Xəzərin cənub bölgəsi ipəkçiliyin yüksək inkişaf etdiyi bölgələrdən idi. İpək isə bu dövrdə dünya ticarətində əhəmiyyətli yerə malik idi. Yəni, Səfəvi dövlətinin iqtisadiyyatında mühüm yer tutan və dünya bazarında böyük ehtiyac olan ipəyin istehsalı bu ipəyin xarici bazara çıxarılması üçün təhlükəsiz və işlək marşrutların olmasını tələb edirdi. Ona görə də Şah İsmayıl Anadoluda etibarlı mövqe qazanılmasına xüsusi diqqət yetirirdi. Bunun üçün Şah İsmayıl Anadoluda müəyyən ictimai bazaya da malik idi. Həmin bazanı Anadoluda məskunlaşmış Səfəvi müridləri təşkil edirdilər. Yuxarıdakı məlumatlardan göründüyü kimi, Anadoluda məskunlaşmış Səfəvi müridlərinin sayı o qədər çox idi ki, onların vasitəsilə bölgənin ictimai-siyasi vəziyyətinə, o cümlədən Osmanlı dövlətinin daxili işlərinə müdaxilə edilməsi imkanları da mövcud idi. Səfəvi dövlətinin maraqlarını qorumağa hazır olan bu kontingent hətta Şahqulu və Nurəli üsyanlarını da təşkil etməklə Osmanlı dövlətinə meydan oxumağa başlamışdılar. Yəni, Anadolunu nəzarət altında saxlamaq üçün Səfəvi dövləti, əslində, öz niyyətlərini açıq şəkildə ortaya qoymuşdu. Bu bölgənin nəzarət altında saxlanması Osmanlı dövlətinin də strateji maraqları çərçivəsində idi və Anadolunun itirilməsi Osmanlım dövlətinin iqtisadi həyatını iflic vəziyyətinə sala bilərdi. Bununla, Osmanlı çox böyük maliyyə gəlirləri mənbəyindən də məhrum ola bilərdi. Ona görə də Osmanlı sultanları, o cümlədən Sultan Səlim Anadoludakı Səfəvi təsirlərinə qarşı çox qətiyyətli mübarizəyə başladılar. Bu təsirlərin birdəfəlik aradan qaldırılması və Anadolu kimi iqtisadi mərkəzin nəzarət altından çıxarılmasını qarşısına məqsəd qoyan Səfəvi dövlətinə qətiyyətli zərbənin vurulması üçün Sultan Səlimin seçimlərindən biri də müharibə seçimi idi. Böyük

iqtisadi maraqlar bu seçimin məqdəsəuyğunluğuna bir əsas idi və ona görə Sultan Səlim də bu seçimə üz çevirmədi.

İki dövlət arasında münasibətlər gərginləşməyə başlayanda Sultan Səlim, Səfəvi dövləti ərazisindən ticarət mallarının gətirilməsinə, xüsusilə ipək ticarətinə embarqo qoydu və bununla, Səfəvi dövlətinin ticarət fəaliyyətinə ciddi çətinliklər yaratdı. Səfəvi-Osmanlı arasında ticarət işlərinin çətinləşdirilməsi üçün Səfəvi tacirlərinin təqibi, onların yerli-yersiz həbsi və Osmanlı ərazisindəki yerdəyişmələrinə məhdudiyyətlər qoyuldu. Hətta belə bir fikir də ortaya atıldı ki, Osmanlı ərazisində ticarətlə məşğul olan Səfəvi tacirləri geri qayıdarkən özləri ilə qızıl, gümüş, dəmir və odlu silahlar aparırdılar. Yəni, Səfəvi tacirlərinin silah alveri Səfəvi qoşunlarının gücləndirilməsinə öz müsbət təsirini göstərə bilərdi. Ona görə iki dövlət arasında həm də iqtisadi müharibənin də əsası qoyuldu (82).

İkitərəfli münasibətlərin araşdırılması Səfəvi dövləti ilə Osmanlı dövləti arasında müharibə təhlükəsinin reallığa çevrilməsinin hərbi-siyasi məqamlarının olmasını deməyə əsas verir. Mütəxəssisləriun də fikrincə, Sultan II Bəyazidin hakimiyyəti dövründə iki dövlət arasında hərbi təşəbbüs Səfəvi dövləti tərəfində idi. Yəni, Şah İsmayılın Osmanlı sərhədləri boyunca hərbi fəallıqları, Səfəvilərin dəstəyi ilə Osmanlı daxilində üsyanların təşkili kimi hadisələrin qarşısında Sultan Bəyazid dözümlü siyasət yeritməyə, yazdığı məktublar, göndərdiyi elçilər vasitəsi ilə Şah İsmayılı bu fəallıqlardan çəkindirməyə çalışırdı. Osmanlı dövlətinin Səfəvi dövləti qarşısında öz gücünü göstərməkdən çəkinməsi, dözümlü siyasəti əsas tutması Səfəvi dövlət rəhbərləri, hakimləri və mənsubları tərəfindən Səfəvi dövlətinin hərbi gücünə olan əminliyi daha da artırırdı. Osmanlı dövlətinin digər bir sıra dövlətlər qarşısındakı zəifliyi də özünü büruzə verməkdə idi. Həmin dövrdə Osmanlı sarayı tərəfindən böyük fəthlərin baş verməməsi də bu dövlətin zəifliyinin ifadəsi kimi qəbul edilirdi. Əvəzində isə Səfəvi dövləti nəinki ətraf qonşuları arasında, hətta Anadoluda məskunlaşmış şiə sufilər arasında öz nüfuzunu artırmaqda idi. Kifayət qədər qətiyyətli, iddialı və cahtələb bir adam olan Sultan Səlim isə belə bir durumla razılaşmırdı və özünün üstün mövqeyinin təsdiqi üçün müharibənin qaçılmaz olduğunu qəbul edirdi (83).

Elmi-tarixi ədəbiyyatda olan qənaətlərə görə, Sultan Səlimi müharibə variantını seçməyə sövq edən məqamlardan biri də hakimiyyət legitimiyinin təsdiq edilməsi və qəbul etdirilməsi istəyi idi. Yuxarıdakı məlumatlardan aydındır ki, Sultan Səlim Osmanlı taxt-tacına yiyələnmək üçün həm atasına müəyyən təzyiqlər göstərməli olmuşdu, həm də öz qardaşlarını, onların ailə üzvlərini qılıncdan keçirmişdi. Bununla isə istər saray daxilində, istərsə də qoşun daxilində razılaşmayanlar var idi. Sultan Səlim böyük bir müharibədə əldə etdiyi böyük uğurla ona müxalif olan qüvvələri Sultan Səlim hakimliyi ilə razılaşmağa məcbur etmək istəyirdi. Şah İsmayıla qarşı başlanan müharibə siyasi, iqtisadi, dini, hərbi məqsədlərin həlli ilə bərabər onun legitimlik məsələsinin təsdiqinə də yol aça bilərdi (84).

Bu zaman Sultan Səlim bir tərəfdən hakimiyyətinin möhkəmləndirilməsi üçün diqqətini daha çox qardaşları ilə mübarizəyə istiqamətləndirdi. Digər tərəfdən də müharibə seçiminin edilməsinə dəstək qazanmaq üçün ruhanilərin dəstəyinə arxalanmağa çalışdı. Bunun üçün Anadoluda məskunlaşmış şiə sufilərin islam dini üçün təhlükəsi məsələsini gündəmə gətirməklə Sultan Səlim üləmaların onlara qarşı kəskin fitvalar verilməsinə nail oldu. Sünnilərin təqibi, sünni üləmaların öldürülməsi, sünni müqəddəslərinin ziyarətgahlarının dağıdılması haqqında məlumatların yayılması ilə sünni üləmalarının səfəvilərə qarşı fitvası alındı və bununla Şah İsmayıl ilə müharibə aparılmasına müxalif olan dairələr də ideoloji təzyiq altına alındılar. İslam üləmaları tərəfindən verilmiş fitvaların icra edilməsi, islam üçün "fəsad" sayılan şiələrə güclü zərbə vurulması dünyəvi baxımdan Sultan Səlimin legitimliyini təsdiqləməklə, dini baxımdan isə onu islamın hamisinə çevirə bilərdi ki, bu da Sultan Səlimin mövqeyinin və hakimiyyətinin möhkəmlənməsinə əlavə müsbət təsirlər göstərə bilərdi. Sünni üləmaların verdiyi fitvaların yaratdığı şəraitdən istifadə edərək Sultan Səlim Anadoluda yaşayan şiələrin siyahıya alınması barəsində göstəriş verdi. O tələb etdi ki, yalnız Anadoluda deyil, bütün Osmanlı ərazisində olan Səfəvi davamçıları aşkarlansınlar və siyahıya alınsınlar. Yeddi yaşından yetmiş yaşına qədər olan bütün şiələr bu siyahıya alınmalı idilər. Sufi müridləri tərəfindən kəskin etirazla qarşılansa da Osmanlı sarayı bu siyahıyaalmanı həyata keçirə bildi, Çaldran döyüşü ərəfəsində isə bu siyahı əsasında 40 min nəfərə qədər Səfəvi tərəfdarı qətlə yetirildi (85). Bu yolla Şah İsmayıla qarşı müharibə başlamaq ərəfəsində Sultan Səlim ölkə ərazisində hakimiyyətinə təhlükə kimi qəbul etdiyi toplumun mövcudluğuna güclü zərbə vurdu.

### 5. Sultan Səlimin Şah İsmayıla qarşı müharibə hazırlıqları

Osmanlı ərazisindəki Səfəvi tərəfdarlarına və bütünlükdə Səfəvi təriqətinə qarşı mübarizəsini gücləndirməklə Sultan Səlim həm də Şah İsmayıla qarşı müharibə aparılması üçün ölkə daxilində münasib zəmin yaratdı. Sultan Səlim, əslində, hakimiyyət başına gəldiyi gündən bu müharibəyə hazırlıq görürdü. Onun öz hakimiyyətini möhkəmləndirməsi, saray və qoşun aristokratiyasına təzyiqlər göstərilməsi və onları mövqeyinin dəyişdirilməsi də Şah İsmayıla qarşı müharibə hazırlığı üçün görülən işlər idi.

Sultan Səlim daxili hazırlıqlarını aparmaqdan əlavə, Şah İsmayıla qarşı həm beynəlxalq ittifaqın yaradılmasını, həm də Osmanlı dövləti ətrafında münasib beynəlxalq şəraitin yaradılmasını diqqət mərkəzində saxlayırdı. Səfəvi dövlətinə qarşı müharibənin başlanması ərəfəsində Osmanlı dövlətinin qərb sərhədlərində bəzi Avropa ölkələri ilə münasibətlər kifayət qədər gərgin idi və Osmanlı sarayının bütün diqqəti şərq sərhədlərinə çevrildiyi bir vaxtda Avropa dövlətləri tərəfindən ciddi təhlükə ilə qarşılaşa bilərdi. Konkret olaraq Macarıstanla, Moldova ilə Osmanlı dövlətinin münasibətləri gərgin olaraq qalmaqda idi. Sultan Səlim, Şah İsmayıla qarşı müharibənin başlanmasından əvvəl qərb

dövlətləri ilə münasibətləri təhlükəsiz bir duruma gətirə bildi və bununla, Sultan Səlim Səfəvi dövlətinə qarşı müharibəyə başlamazdan əvvəl qərb ölkələri tərəfindən yarana biləcək hərbi müdaxilə təhlükəsindən sığortalanmağa müvəffəq oldu (86).

Qərb dövlətləri ilə münasibətlərin sahmana salınması ilə bərabər, Sultan Səlimə eyni zamanda Şah İsmayıla qarşı müttəfiq tapılmasını da lazım bilirdi. Bu məqsədə nail olmaq üçün Sultan Səlim özbək xanı Übeydulla xanla müttəfiqlik əlaqələri qurmağa çalışırdı. Übeydulla xan xeyli uzaqda olsa da, onun Səfəvi dövlətinə qarşı Sultan Səlimlə əlaqələndirilmiş fəaliyyəti Şah İsmayıla təsiredici zərbə vura bilərdi. Ona görə də, səfəvilərə qarşı müharibəyə başlamaq ərəfəsində Sultan Səlim özbək xanına məktub göndərdi, onu Şah İsmayıla qarşı ittifaqa dəvət etdi. Həmin məktubda Sultan Səlim, Şah İsmayıla qarşı çox kəskin ifadələr işlətdi və bununla, ona olan barışmaz münasibətini bir daha ifadə etdi. Sultan Səlimin özbək xanına 1514-cü il ilin mart ayında göndərdiyi məktubunda yazırdı: "... Bir müddətdir ki, Şərq məmləkətinin əhalisi napak, xəbis, yalançı, günahkar, qantökən cani olan sufi körpənin əlindən cana gəlibdir. "İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) şərik qoşub, onları Allahı sevən kimi sevənlər" (ayəsinin örnəyi olan) yolunu azmış və məhv olmağa məhkum zəlalətə düşmüş firqə "Allaha əhd bağladıqdan sonra onu pozan, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayan yer üzündə fitnə-fəsad törədənlər (dünyada və axirətdə) ziyana uğrayanlardır" (ayəsində qeyd edilən) xüsusiyyətə malikdirlər. (Onlar) düşmənçilik odu alovlandıraraq evləri dumana bürüyüb, torpağına ayaq basdığı hər bölgənin kürəsini çovkən oyununun fitnə-fəsad çomağına çevirib (ayaq basdığı hər bölgəni fitnə-fəsad mərkəzinə çevirib). Hətta ən aşağı səviyyəli fərmana itaət edənlərin cərgəsindən, ən yüksək səviyyəli fərman verənlərin cərgəsinə yüksəlib o boyun əyməyin (Şeytanın) qorxutma yolunu, o məmləkətin torpaqlarında öz şüarına və bayrağına çevirmişdir. Mübarək və toxunulmaz qanları, haram və toxunulmaz namusları mübah (halal) hesab etmişdir. Müsəlmanların əhli-əyalları, malları və sərvətləri, istehlakçıların əkinləri, tarlaları, nəsilləri və heyvanları, çox və ya zəngin olanların dəfinələri və xəzinələri tələf oldu. Bu zamanda məzlum miskinlərin zalım və sitəmkar tərəfindən edilən qətllər, əsir, işgəncə və zülmlər, zalım ali-Firon tərəfindən bəni-İsrail övladlarına və qəddar Buxtunnəsir tərəfindən Beytül-Müqəddəs sakinlərinə edilməmişdi. ..."Allah da onları günahlarına görə cəzalandırdı" [buyurulan ayənin] əzəmətli sirrinin ortaya çıxmasının vaxtıdır. ... Uca niyyətli şahlığımızı "mən zalımdan qisas almayacağım təqdirdə zalım hesab ediləcəm" qərarı verməsinə gətirib çıxardı. [Dünyaların ] sahibi olan Allahdan xeyir tələb edərək və dünyanı idrak etmək qabiliyyətinə sahib fəal ağılın ilhamlarına istinad edərək özlərini kamandan çıxan oxlar kimi, düşmən və üsyan əhlinin qanını tökərək qırmızı rəngə boyanmış qılınclar timsalında, yaşıl dağlar bənzəri çoxlu sayda ordu və əzəmətli dəstələrlə, həmin özbaşına olan fasid və inadkar kafirin kökünü kəsmək üçün hərəkət etmək qərarına gəldik. Saysız və hesabsız olan əsgərlərimizin hər biri

qılınc çalmaq və xəncər oynatmaqda dünyaca məşhur Xurşid (günəş) və Bəhrama, nizə oynatmaqda və ox atmaqda da Şihab ulduzuna və Semaki-Ramih ulduzuna bənzəyirlər. O şeytan firqələrinin ordusunun, yolunu azmış məlumların rəhbərlərinin, təkəbbür, kin-küdurət edənlərin qafiləsinin başçısının, din və dünya quldurlarının rəhbərinin üzərinə yaxın zamanlarda çökməyin mübarək hədəfi geniş qəlbimizdə mərkəzləşmişdir. "Hər kəsin niyyəti Allah olarsa, Allah da ona kifayət edər" [hədisinin] uca məzmununda buyurulduğu kimi, ilahi yardım və sonsuz olanın (allahın) köməyi (üzərimizdə olmuş) və Allahın lütfü bizimlə olmuş, Allahın seçilmiş mələkləri köməkçimiz və yardımçımız olmuşdur. ...Ümid olunur ki, hədəfdən yayınmaz tədbir oxumuz qəza və qədərin qoymuş olduğu nişangahı ən gözəl şəkildə hədəfə alacaqdır. Allahın ən gözəl lütf və yardımları ilə həmrəy və müttəfiq olmaq, dostluq və yardımlaşmanın ortaya çıxması ilə qeyb pərdəsi arxasından [ilahi] bir lütf gəlməklə fəsad mənbəyi məhv edilər, o murdar zalim və sitəmkarın vücudu ortadan qaldırılar və onun zamanında əsən küləklərin tozanaq etdiyi bədbəxtliklər dindar mücahidlərimizin iti qılınclarından daman sularla yatırılmış olar" (87).

Bu məktubunda Sultan Səlimin Şah İsmayıla və onun rəhbərlik etdiyi hərəkata hansı münasibət bəslədiyini görmək mümkündür. Elə bu ifadələr onu göstərirdi ki, müharibə edilməsi Sultan Səlimin qətiyyətlə qəbul etmiş olduğu bir qərardır və bu qərardan geri çəkilməyəcəkdir.

Şah İsmayıla qarşı müttəfiqlik təklifi Übeydulla xan tərəfindən böyük məmnunluqla qarşılandı. Güclü bir dövlətlə müttəfiqlik Übeydulla xanda Səfəvi hakimiyyəti altından çıxmağa ümid verdi və ona görə cavab məktubunda Sultan Səlimə səfəvilərə qarşı birgə mübarizə aparmağa hazır olduğunu bəyan etdi. Özbək xanının məktubu da kifayət qədər uzun bir məktub idi və həmin məktubda ifadə olunmuş fikirlər Quran ayələri ilə müşayiət olunurdu: "...Bu işi [şükr etməyi] icra etmək yollarından biri də ildırıma bənzər qəddar zalımlardan zülm görmüşlərin və zəmanə əhlinə vəziyyət və fəryadlarından qopmuş ildırıma bənzər qəzəbimizdən doğan soyuq külək və iti qılınclarımızdan süzülən damcılar vasitəsilə [hər yerdə] alov yandıran şərin ortadan qaldırılması və söndürülməsidir. Xüsusilə, kafirlərin ən böyüyü dinsiz qızılbaş, - Allah onları məhv etsin və canlarını alsın, - bir neçə kimsəsiz dostla yenə ortaya çıxdıqdan sonra qələbə və hakimiyyətə nail olan kimi zülm və sitəm etməyə başladı. Günahsız yerə minlərlə müsəlmanı qətl edib, iffətli insanların namus pərdəsini yırtdı. Səltənət sevdasının xam xəyallarına qapılıb ağıl kasasında bişirdi (səltənət xəyalına düşdü). Zəmanının sultanı ilə söz güləşdirib qol gücü sınamağa başladı. Bu tayfanın aradan qaldırılaraq məhv edilməsini hər kəsin icra etməkdə mükəlləf olduğu vacib əməl hesab edirəm. Bir-birinin arxasınca özbəklərin danışıq və mübahisələri dərgahımızı izləyənlər [tərəfindən] dinlənilmiş və bizim qafil olmağımıza görə keçmişdə olduğu kimi tale o dinsiz məlun və çirkin dinə [mənsub] kafirin üzünə güldü. Lakin cənabınıza məlumdur ki, hər hansı bir yırtıcı, köpək və ya kaftar quduzlaşaraq insanlara zərərli olarsa, o məhəllə və ya şəhər təhlükədən qorunmaq üçün narahatlıq keçirər və toplanaraq birlikdə

müdafiə olunmağa çalışarlar. ... O böyük köpəyin nümayəndəsi son dərəcə nadan olan Nəcmi Sani adlanan kiçik köpəyi qadın köpəklə evləndirib. O, yolunu azmış və başları dar [ağacında olan] 80 min qızılbaş atlının rəhbəri kimi İrandan (hərəkət edərək) tutulanları pərişan etməyə başladı. Amudərya çayının sularını keçdikdən sonra bir çox şəhər və bölgə (sakinlərini) qətliam edib qiyamət gününün dəstə-dəstə yolçularına çevirdilər (o dünyaya yola saldılar). O çirkin əməlli bədbəxtlik ulduzunun (üzündəki) zəhmindən (qorxaraq) Kabil və Qəndəharın hakimi Babur yenidən ona itaət etməyə başlayıb İslamın qübbəsi olan Səmərqəndə gəlib çıxdılar. ...Şahzadələrə (və ya mirzələrə), xanlara, sultanlara, igidərə, ulus əmirlərinə, tümən əmirlərinə, qoşun başçılarına, mərzbanlara, bir sözlə, Çingiz xan sülaləsinin Cığatay və Özbək [qollarına] tabe olanlara və onların rəhbərliyinə bildiriş göndərərək bu müjdəli xəbəri çatdırdıq. [İndi isə] yolunu azaraq zəlalətə düçar olmuş tayfanı və nifrət edilən təcavüzkar qrupu, - Allah onlara lənət edib məhv etsin, - məhv etmək üçün yekdil qərara gəlmək və uğurlu fikri müzakirə etmək üçün qurultay və toplantı keçirmək fikrindəyik. Pak və uca olan Allah bizi və onu hər bir mühüm [işdə], xüsusilə də bu işdə müvəffəq və qalib etsin. O, zalımların fəsadını dünya və dünyada yaşayanların üzərindən uzaq etsin" (88).

Übeydulla xan da məktubunda Sultan Səlimin Şah İsmayıl və bütünlükdə, səfəvilər haqqında işlətdiyi kəskin ifadələrin oxşarı olan ifadələr işlətmişdi. Öz müstəqilliyini geri qaytarmaq üçün Übeydulla xan ona təklif olunan müttəfiqlik təklifini dərhal qəbul etdi və bunu cavab məktubunda da açıqladı.

Sultan Səlim hazırlaşdığı müharibədə əminliklə qələbə əldə etmək üçün ittifaqı mümkün olan bütün qüvvələrlə birləşməyə çalışdı. Bu istiqamətdə o, Şah İsmayılın süquta uğratdığı Ağqoyunlular dövlətinin şahzadələri və əyanları ilə də əlaqə qurmağa cəhd göstərdi. Məsələn, məlumdur ki, iki dövlət arasında müharibə başlananda Ağqoyunlu Murad bəy və onun tərəfdarları da Osmanlı qoşunları sıralarında idi (89). Bu yolla Sultan Səlim Ağqoyunlu dövlətinə rəğbətlə yanaşan qüvvələri özünə birləşdirmək istəyirdi.

Ağqoyunluların Şah İsmayıla qarşı səfərbər edilməsi üçün Sultan Səlimin göstərdiyi daha bir cəhd Ağqoyunlu Fərruxşad bəyin oğlu Məhəmməd bəyin səfəvilərə qarşı müharibəyə cəlb edilməsi cəhdi idi. Məhəmməd bəy Ağqoyunlu, Kürdüstan və Diyarbək hüdudlarında kiçik bir ərazinin hakimi idi. Bununla belə, Sultan Səlim ona məktub göndərmiş və onu da Şah İsmayıla qarşı birgə mübarizəyə çağırmışdı. Sultan Səlim bu məktubunda da Şah İsmayılın fəaliyyətinə toxunur və sonra da bildirirdi ki, islam məmləkətində vəziyyətin düzəldilməsi üçün Səfəvi hüdudlarına hücum etmək və bu ərazilərə mülhədlərin əlindən nicat vermək istəyir. Səfəvilər üzərinə yürüşünü Sultan Səlim yolunu itirmiş Şah İsmayılın yola gətirilməsi üçün həyata keçirəcəyini bildirirdi və sonra da Məhəmməd bəy də qısa zaman ərzində öz qüvvələri ilə onun qoşunlarına qoşulmağa dəvət olunurdu: "Hamıya məlum olan budur ki, yaxın dostlar və səfərdən gələnlərdən siz hakim ailənin ata-babalarının tayfası, milliyyəti və qəbiləsi haqqında dəfələrlə eşitdikdən sonra İslama və dinə son dərəcə bağlı olmanız sübuta

yetmişdir. Sizin hakimiyyətiniz və rəhbərliyiniz əsasən İslamı gücləndirmək, zülm və zorakılığın ortadan qaldırılması üzərində qurulmuşdur. Cənabınızın əsas fitrəti əhli-sünnət və cəmaət yoluna, iradəsi isə gözəl ibadət və itaətlərə yönəlmişdir. Kafir qızılbaş tayfasına yardım etmək və irsən sizin mülk olan Diyarbəkr əyalətini tərk etmək hadisəsi çarəsizlikdən baş vermişdir. "Allah surətlərinizə (xarici görünüşlərinizə) və əməllərinizə baxmaz, əksinə qəlblərinizə və dostlarınıza baxar" [hədisinə] əsaslanan parlaq düşüncəmizə, sizin doru etiqad üzərində sabitqədəm olduğunuz məlumdur. O kafir və dinsiz tayfaya bu qədər bağlı olmadığınızdan sizin din və inancınıza heç bir zərər dəyməyəcəkdir. Böyük səhabələrin Allaha şərik qoşanlar və kafirlərin əlində əsir və giriftar olması [sizin] bu [çarəsizlik üzündən baş verən] giriftarçılıq və bağlılığınıza bəraət qazandırır. Amma Mustafanın (Məhəmməd peyğəmbərin) din kəmərini bağlayanların mərdlik və qəhrəmanlığı, Murtuzanın (imam Əlinin) şücaətli davranışına tabe olan din və dünya xoşbəxtliyinin riayət etmələri ən vacib olan məsələ insanların namus və arını gözləməsidir (onlara toxunmamalarıdır).

Namus və ar məsələlərinin bəzisində İslami qeyrət və mürüvvət din insanlarının vazkeçilməz davranışlarıdır.

Hazırda mübarək niyyətimiz İslam məmləkətlərini, xüsusilə də İran məmləkətini islah etmək və o torpaqları fəth edərək dinsiz kafirlərin zülmündən qurtarmaq və o dinsiz-kafir millətin yolunu azmış başçısı və rəhbərini yer üzündən silmək üçün o torpaqlara doğru yola düşmək üçün hazırlığa başlanılmışdır. Bu lütf məktubu şərafətli cənabınıza ondan ötrü göndərilmişdir ki, tərəflər arasında yaxınlaşma nə qədər uzaq və məsafəli görünsə də, sizin dindarlıq və müsəlmançılığınızdan gözləntim və intizarım budur ki, o məmləkətin dini və dünyəvi mənafeyi tələb etdiyi təqdirdə özünüzü bu etiqad dərgahının xalis və xüsusi xadimlər zümrəsində qərar verəsiniz" (90).

Məhəmməd bəy, əslində, Şah İsmayıl üzərinə Sultan Səlim tərəfindən həyata keçiriləcək hücumun əleyhinə deyildi. Amma Şah İsmayıl təhlükəsi də onu ciddi şəkildə təşvişə salırdı. Ona görə Məhəmməd bəy cavab məktubu yazsa da, bunu çox ehtiyatla etdi. Əvvəla, məktub soğan suyu ilə yazıldı. Soğan suyu ilə məktub yazılmış kağızda adi halda yazı oxunmurdu. Lakin kağız şam işığının qarşısına tutulduqda onun mətnini oxumaq mümkün idi. Sonra da məktubun çatdırılması üçün xüsusi adam seçildi ki, çox ehtiyatla hərəkət etsin və onun məktubu Səfəvi məqamlarının əlinə keçməsin. Məhəmməd bəy özü də bildirirdi ki, həm Sultan Səlimin məktubunu gizlicə oxudu, həm də ona cavab məktubunu gizlicə yazdı. Bununla belə, Məhəmməd bəy səfəvilərə qarşı birləşmək üçün Sultan Səlimə qəti cavab vermədi. Onun cavab məktubunun mətni belə idi:

"Əzəmət və şan-şöhrət meydanınn ləyaqətlisi, dünyanın uca malikinin (Allahın) yardımı ilə həmişə ali (uca) olasınız! Rəbiəl-axir ayının sonlarında qədim sirdaşım ilə söhbətləşərkən, əyan və böyüklərin rəhbəri Əhmədcan Zeyd tərəfindən gizlin surətdə bu riyasız bəndəyə gəlib çatdı. Yalnız bir guşəyə çəkilib son dərəcə griftarlıqla yavaş-yavaş açaraq gizlicə oxuyub hər sətri sevinc və fərəh hissi ilə mütaliə edib gizli cövhərlərinizin mənasını idrak edirdim. Yeni bir

sətrə başlamadan öncəki sətri göz yaşlarımla yuyurdum. Bu vəsilə ilə paxılın əyri görən gözlərindən gizlədir və öz-özümə həmişə deyirdim: "qorxuram ki, başım bu məktub üstündə getsin".

Təsadüfən heç kimin bu gizli sirdən məlumatı olmaması üçün sirləri də gizli olanları biləndə (Allaha) təvəkkül edərək [məktubunuzun] cavabını soğan suyu ilə ağ [kağıza] yazıb göndərdim. Baxmayaraq ki, katibi bizim ocağın (xanədanın) xeyirxahlığını istəyənlərdən olsa da və möhkəm and-aman edəndən sonra xəbərdar olsa, ondan qorxum yoxdur. Qorxumuz bundadır ki, ixlaslı Əyyub kimi qəfildən bəlaya düçar olub Allah eləməmiş hamımız cəzalandırılmış və əzab verilmiş olarıq. "Allah bizə bəs edər. O nə gözəl vəkildir" [Al-İmran surəsi, 173-cü ayə].

Hər bir mövzuda səbəblər səbəbinə (Allaha) təvəkkül edir və öz bəndələrinə lütf edəcəyinə və bizi məqsəd ünvanına çatdıracağına ümidvarıq. Məqsəd budur və uca əmr sahibi Sizsiniz" (91).

Ağqoyunlu Məhəmməd bəyə göndərilən məktub Sultan Səlimin Şah İsmayıla göndərdiyi məktublardan sonra yazılmışdı. Bu da onu göstərirdi ki, Sultan Səlim Çaldıran müharibəsi başlanana kimi öz müharibə hazırlıqlarını davam etdirmişdi.

İki dövlət arasında münasibətlərin müharibə səviyyəsinə qaldırılmasının səbəblərindən bir də heç şübhəsiz ki, hər iki hökmdarın şəxsi xarakteri və bu xarakterin dövlət siyasətində də öz əksini tapması ilə bağlı idi. Qətiyyət, dönməzlik, iddialılıq onların hər ikisinə xas keyfiyyətlər idi və hər ikisi də bu keyfiyyətləri ortaya qoymaqda qərarlı idilər. Müharibə edilməsi son nəhayətdə hər iki tərəfin seçimi oldu. Hər iki tərəf də bu müharibədə qalib olacağına əmin idi. Əgər tərəflərdən biri bu müharibədə uğursuzluğa düçar olacağını hiss etsəydi, onda Çaldıran döyüşü də baş verməyə bilərdi. Şah İsmayıl fatehliyinin zirvəsində idi, qısa müddət ərzində böyük bir imperiya yaratmışdı. Osmanlı ərazilərinin də Səfəvi hüdudlarına daxil edilməsi ideyası onun üçün yad deyildi və başlıcası isə səltənətin qərb sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi zərurəti mövcud təhlükənin aradan qaldırılmasını tələb edirdi. İlk vaxtlar o, Sultan Səlimin qıcıqlandırıcı məktublarına dözümlü münasibət göstərsə də, sonda nəhayət o da müharibə qərarını verdi və əmin idi ki, bu müharibədə Sultan Səlimin Səfəvi dövləti üzərinə yürüşünün qarşısını ala biləcəkdir.

Sultan Səlim isə fatehliyinin ilk addımlarını atırdı və Şah İsmayıla qarşı başlayacağı müharibəni qələbə ilə başa çardırmaqla o öz fatehliyinin və hakimiyyətinin legitimliyini təsdiq etməyə çalışırdı.

Qeyd etmək lazımdır ki, Sultan Səlimin Osmanlı taxt-tacına sahib olmasından Çaldıran döyüşünə qədər təxminən iki illik bir fasilə vardır. Bu müddət ərzində Sultan Səlim böyük döyüşlərə girməkdən çəkindi, Şah İsmayıl ilə müharibənin uğurla başa vurulması üçün hazırlıqlar aparmağı davam etdirdi. Bu hazırlıqlar qoşunların toplanmasını, onların sıralarının genişləndirilməsini, qoşunların maddi-texniki təchizatının yaxşılaşdırılmasını, onların döyüş hazırlığı səviyyəsinin təkmilləşdirilməsini əhatə edirdi.

### a) Osmanlı qoşunları

Sultan Səlimin dövründə Osmanlı qoşunlarının təkmilləşdirilməsi və gücləndirilməsi davam etdirildi. Bu qoşunlar dövrünün ən güclü qoşunlarından biri olmaqla təchizat səviyyəsinə görə Avropa qoşunlarından heç də geri qalmır və Səfəvi qoşunlarını üstələyirdi. Osmanlı qoşunları üç qoşun növündən təşkil olunmuşdu - piyada qoşunları, atlı qoşunları və hərbi dəniz qoşunları. Bəzi tarixi ədəbiyyatda topçu qüvvələri də müstəqil qoşun növü kimi göstərilmişdir. Bu qoşunların təşkilində Avropa təcrübəsinin izləri görünsə də, şərq üçün ənənəvi olan xarakterik cəhətlər də öz mövcudluğunu saxlamaqda idi.

Osmanlı dövlətində də ali mülki və hərbi idarəetmə işləri birləşdirilmişdi. Osmanlı sultanı dövlətin qoşunlarının ali baş komandanı idi. Sədr-əzəm bir qayda olaraq sultanın özünün iştirak etmədiyi döyüşlərdə qoşunlara baş komandanlıq edərdi. Vilayət bəylərbəyi, hətta sancaq bəyləri də hərbi və mülki hakimiyyəti birləşdirmişdilər. Onların hər birinin rəhbərliyi altında qoşunlar var idi və sultanın göstərişi ilə zərurət yaranan anda onlar ümumi qoşunlara qoşulur, ya da zərurət yarananda lokal əhəmiyyətli döyüşlərə cəlb edilirdilər.

Komplektləşdirmə üsuluna görə qoşunları iki yerə bölünürdülər - əyalət qoşunları, qapıqolu qoşunları. Əyalət qoşunları yerlərdə toplanan və əyalət rəhbərləri tərəfindən idarə olunan qoşunlar idi. Belə qoşunlar bir qayda olaraq əyalət hakimlərinin rəhbərliyi altında hərbi vəzifələrin icrasına qoşulurdular. Qapıqolu qoşunları isə bir başa sarayın nəzarəti altında olan, başqa sözlə, mərkəzdə təşkil edilmiş qoşunlar idi. Qapıqolu qoşunları daimi qoşunlar idi və onların formalaşdırılmasında qeyri-müsəlman kontingentdən istifadə edilməsinə xüsusi əhəmiyyət verilirdi. Qapıqolu qoşunlarının şəxsi heyəti xüsusi olaraq seçilirdi. Səltənət hüdudlarında və kənarda toplanmış olan gənclər fiziki və hərbi keyfiyyətlərinə görə qapıqolu qoşunları tərkibinə daxil edilirdilər. Ümumiyyətlə, sultana xidmət üçün seçilən gənclər xüsusi saray məktəblərinə göndərilirdilər. Həmin məktəbləri uğurla bitirənlər sarayda xidmətə, təhsildə müvəffəq olanlar isə qapıqolu qoşunlarına göndərilirdilər. Qapıqolu qoşunlarına göndərilənlər isə hərbi işin sirlərinə yiyələnmək üçün ayrıca hazırlıq keçirdilər. Bunun üçün yeniçəri ocağı, cəbəçi ocağı, topçu ocağı, top arabaçı ocağı, qumbaraçı ocağı, qapıqolu süvari ocağı adlanan təlim mərkəzləri yaradılmışdı (92).

Piyada qoşunları da öz növbəsində üç qismə bölünürdü - yeniçərilər, əzaplar və sultanın xüsusi qarovulları. Yeniçərilər piyada qoşunlarının çox mühüm zərbə qüvvəsini təşkil edirdilər. Bu qüvvələrin yaradılması Osmanlı dövlətinin ikinci sultanı olan Sultan Orxanın dövründə qoşunlar daxilində aparılmış islahatların uğurlu nəticəsi idi. Həmin dövrə kimi qoşunları formalaşdırılması tayfa-qəbilə mənsubiyyətinə görə aparılırdı. Yəni, hər tayfa öz qoşun dəstəsini təşkil edir və bu dəstəyə tayfa başçısı tərəfindən rəhbərlik edilirdi. Osmanlı sultanları vaxtında müşahidə edə bilmişdilər ki, qoşunları bu üsulla təşkilatlandırılması lazımi zərbə qüvvəsinin əldə edilməsinə mane olur. Digər tərəfdən belə bir

qənaət hasil olunmuşdu ki, tayfa əlaməti üzrə təşkil edilən qoşunlar tayfa başçılarının tələbi ilə ümumi rəhbərliyə tabeçilikdən imtina edə bilərlər. Ona görə də qoşunların təşkilinin yeni bir forması seçildi. Yeni qoşunların yaradılmasında Avropa və Asiya ölkələrinə yürüşlər zamanı ələ keçirilmiş qeyri-müsəlman hərbi əsirlərdən daha çox istifadə olundu. Əvvəlcə bu əsirlərə islam dini qəbul etdirildi. Sonra da ayrıca dəstələrdə birləşdirilməklə onlara hərbi təlim verilirdi, onlara yüksək döyüş vərdişləri aşılanırdı. Yeniçəri - yeni sözündən düzəldilmişdir və yeni qoşun mənasındadır. Bu qoşun qismi müstəqimən sultana tabe idi və yeniçərilərin sultandan başqa rəhbəri yox idi. Yeniçərilərin başlıca vəzifəsi də məzhəb yolunda cihad etmək və sultanın bütün tapşırıqlarını sözsüz yerinə yetirmək idi. Yeni qoşun dəstələrinin formalaşdırılması başa çatdıqdan sonra onlar sultan tərəfindən Amasiyadakı tanınmış şeyx Hacı Bəktaşın hüzuruna göndərildilər ki, bu dəstələrə onun tərəfindən xeyir-dua verilsin, onlara düşmənlər üzərində qələbə və fəthlər iltimas edilsin. Hacı Bəktaş da onlara xeyir-dua verdi, onların uğurları üçün Allaha dua etdi. Bu yeni qoşun dəstələrinə yeniçəri adının verilməsi də Hacı Bəktaşın adı ilə bağlıdır. Hacı Bəktaş eyni zamanda özünün keçədən olan papağını da yeniçərilərin papağına çevirdi. Bu papaqların arxasında ağ bir ətək də sallanırdı ki, bu ətək yeniçərilərin çiyninə qədər uzanırdı. Yeniçərilər bu ağ ətəyi kiçik qaşıq şəklində olan sancaq vasitəsilə papaqdan asırdılar. Bu sancaqlar adətən papağın qarşı tərəfindən bərkidilirdi və bu da papağa özünəməxsus görünüş verirdi. Kiçik qaşıqlar, əslində, bir qənaətcillik simvol idi və yeniçərilərin sultan süfrəsindən qənaətlə dolanmasından xəbər verirdi. Yeniçərilərin qənaətcil olmasına və sultan süfrəsi bərəkətindən bəhrələnmələrinə xüsusi önəm verilirdi. Hətta onların vəzifə adlarında da mətbəx terminlərinə rast gəlmək mümkün idi. Məsələn, yeniçərilərin alay komandiri şorbaçıbaşı, dəstə rəhbəri aşçıbaşı adlanırdı. Yeniçərilər arasında belə adlar şox idi. Süfrə ilə bağlı olan əşyalar da yeniçərilərin yanında böyük dəyər kəsb edirdi. Belə ki, yemək qablarını yeniçərilər hər zaman öz yanlarında gəzdirərdilər. Hətta döyüşə gedəndə belə, onlar yemək qablarını özləri ilə aparardılar. Döyüş zamanı yeniçərilərin yemək qabının düşmən əlinə keçməsi və ya sıradan çıxması heç də yaxşı hal sayılmazdı. Xidmət zamanı hər hansı bir məsələdən narahat olduqda və ya öz narazılıqlarını bildirmək istədikdə də yeniçərilər yemək qablarını, qazanları çadırlarının qarşısına düzər və bununla da öz narazılıqlarını ifadə edərdilər (93).

Sultan Orxanın hakimiyyətindən sonra da Osmanlı sultanları Avropada fəth edilmiş ölkələrdə yerli əhali üzərinə müxtəlif vergilər təyin etmişdilər. Həmin vergilərdən biri də xristian ölkələrdə yeniçəri qoşunları üçün gənclərin toplanması idi. Hər beş ildən bir Osmanlı mənsubları fəth edilmiş ölkələrin şəhər və qəsəbələrini gəzir, həmin yaşayış məntəqələrinin gənclərini toplayıb bir meydanda düzür və sonra da onların beşdə biri miqdarında xidmətə ən yararlı olanları seçirdilər. Bu cavanlar sonra da yeniçəri hazırlıq mərkəzlərinə göndərilirdilər. Mövcud olan məlumatlara görə, yeniçəri qoşunların üçün cavanların toplanması elə də bir çətinliklə qarşılaşmırdı.




*Yeniçəri döyüşçüləri*

Çünki xristian ölkələrində yaxşı bilirdilər ki, yeniçərilər Osmanlı sultanlığının dayağıdır, onlara həm etibar edilir, həm də onlar daha tez vəzifə və mənsəb sahibi olurdular. Ona görə bəzi xristian ölkələrində yerli əhali hətta övladlarının yeniçəriliyə verilməsinə maraq da göstərirdi. Osmanlı mənsubları isə yunanlar və slavyanlar arasından yeniçəri ehtiyatları seçilməsinə daha çox maraq göstərirdilər. Təcrübə göstərirdi ki, həmin xalqların nümayəndələrindən daha yaxşı yeniçəri alınırdı. Yeniçəri qoşun dəstələrinin formalaşdırılması Osmanlı dövlətinin qoşunları üçün canlı ehtiyat qıtlığının aradan qaldırılması baxımından da əhəmiyyət kəsb edirdi. Çünki Osmanlı və bütünlükdə, Kiçik Asiya daxilində olan qoşun ehtiyatları fəth edilmiş əraziləri nəzarət altında saxlamaq və yeni ərazilər fəth etmək üçün yetərli deyildi. Bu mənada xristian ölkələrin gəncləri Osmanlı qoşunları üçün əlavə ehtiyata çevrilirdi (94).

Vaxt ötdükcə yeniçərilərin Osmanlı dövləti daxilində nüfuzu xeyli artdı. Hətta sultan da özünü yeniçərilərdən biri hesab edirdi. Yeniçərilərdən hansısa biri bir günah işlətmiş olardısa onu yalnız rəhbəri cəzalandıra bilərdi. Ölüm cəzasına məhkum edilənlər isə ictimaiyyətdən gizli şəkildə edam edilərdilər. Malik olduqları gücə və nüfuza əsaslanaraq yeniçərilər dövlətin siyasi həyatına da müdaxilə edir, dəstəklədikləri şahzadələri hakimiyyətə gətirirdilər. Elə Sultan Səlimin özü də yeniçərilərin dəstəyi ilə Osmanlı taxt-tacını ələ keçirmişdi və Şah İsmayıla qarşı müharibəyə başlamaq istəyəndə də Sultan Səlim ilk növbədə yeniçərilərin dəstəyini qazanmağa çalışırdı. Sultan Səlimin hakimiyyəti illərində yeniçəri qoşunlarının sayı 12 min nəfər idi. Onlara ümumi rəhbərlik "Ağa" adlandırılan adam tərəfindən edilirdi (95).

Yeniçərilər ox, yay, mizraq, balta, yatağan (qılınc), hərbə (kiçik mizraq), gürz, xəncər, tapança, tüfəng kimi silahlarla silahlanırdılar. Onlar zirehli mühafizə geyimlərindən də istifadə edirdilər (96).

Osmanlı piyada qoşunlarının başqa bir qismini əzaplar təşkil edirdilər. Onlar sayca daha çox idilər və Osmanlı qoşunlarının böyük bir hissəsini təşkil edirdilər. Müxtəlif elmi-tarixi ədəbiyyatda onların sayı 30-40 min nəfər arasında göstərilmişdir. Piyadaların başqa bir qismi olan xüsusi qarovul dəstəsi isə sayca daha kiçik idi. Xüsusi qarovul dəstəsinin sulağ adlanan dəstəsi cəmi 400 nəfərdən, qapıçı adlanan dəstəsi isə cəmi 300 nəfərdən ibarət idi. Sulağ - sol mənasında idi və sulağların sultanın sol tərəfi ilə hərəkət etməsini andırırdı. Onlar səfər zamanı sultanı müşayiət edirdilər və müəyyən manеələrin keçilməsi zamanı sultana kömək edirdilər. Məsələn, sultanın atının yüyənindən tutub onu maniələrdən adladırırdılar və bu maniələrdən təhlükəsiz keçməsini nəzarət altında saxlayırdılar. Sulağlara sulağbaşı rəhbərlik edirdi. Qapıçılara isə qapıçıbaşı rəhbərlik edirdi. Qapıçılar adi günlərdə qəsrin girişini-çıxışını, səfər zamanı isə sultan çadırlarının giriş-çıxışını mühafizə edirdilər. Səfərə çıxanda qapıçılar sultanın sağ tərəfində hərəkət edirdilər (97).

Piyadalar arkebus və muşket tipli ağır tüfənglərlə silahlanmışdılar. Bu tüfənglər Osmanlı dövlətinə daxil olanda onlar ilkin olaraq yeniçərilərin ixtiyarına verilmişdi. Həmin tüfənglərin həm diametri fərqli idi, həm də onlar

müxtəlif ağırlıqda idilər. Onların daşınması üçün hətta əlavə adamlar da cəlb edilirdi. Bir çox hallarda isə onların daşınması üçün yük heyvanlarından istifadə olunurdu. Tüfənglərin diametrləri müxtəlif olduğu üçün mövcud emalatxanalar yetərli sayda güllə istehsal edə bilirdi. Ona görə qoşunlar döyüşə yollananda qurğuşun külçələr də daşınır və elə döyüş meydanında müxtəlif kalibrli güllələr tökülürdü (98). Piyadaların istifadəsində olan digər silahlar yeniçərilərin istifadəsində olan silahların eyni idi.

Atlı qoşunlar da sultan qoşunlarının böyük bir hissəsini təşkil edirdilər və onlar da üç qismə bölünürdülər - tiyul sahibi olan atlılar, akınçılar və səltənətin xüsusi atlıları. Tiyul sahibi olan atlı dəstələri əsasən yerlərdə formalaşdırılırdı. Bu atlılara xidmət əvəzi olaraq tiyul torpaqlar ayrılırdı və onlar bu torpaq hesabına yaşayışlarını təmin edirdilər. Zərurət yarandığı halda isə onlar qoşun dəstələrinə cəlb edilir və müəyyən vəzifələrin icrasına göndərilirdilər. Tiyul atlılarının təchizat məsələləri yerli hakimlər tərəfindən həll edilirdi. Səltənətin hər sancağı 500-1000 nəfər arası atlı toplayaraq sultan qoşunlarına verməli idi. Bəzi sancaqlar hətta 2000 atlının toplanaraq təchiz edilməsini öz üzərinə götürürdü. Sultan Səlimin hakimiyyəti illərində Osmanlı dövlətinin Asiyada 24 sancağı, Avropa ərazisində isə 34 sancağı var idi və bu sancaqların hamısı atlı qoşunların formalaşdırılmasında iştirak etməli idi. Bu sancaqlardan toplanan tiyul atlılarının ümumi sayı Sultan Səlimin vaxtında 60 min nəfərə çatırdı (99).

Akınçı və səltənətin xüsusi atlılarının sayı isə tiyul atlılarının sayına nisbətən az idi. Akınçı dəstələrinin sayının 40 min nəfər, səltənət atlılarının sayının isə 17-18 min nəfər olduğu bildirilirdi. Akınçılar ehtiyat qüvvəni təşkil edirdilər və onlar yalnız hərbi yürüşlər zamanı qoşunlara cəlb edilirdilər. Bununla belə, onların seçilməsinə xüsusi diqqət yetirilirdi və müəyyən tələblərə cavab verən atlılar akınçı dəstələrinin tərkibinə daxil edilirdilər. Akınçılar bir qayda olaraq iki baş ata malik olmalı idilər və onlarda qəfil gecə hücumlarının, düşmən qüvvələrinin təqibinin həyata keçirilməsində, uzun səfərlər üçün istifadə edilirdi. Səltənətin xüsusi atlıları altı dəstədən təşkil olunmuşdu: ocaq sepahiləri və ya tiyil atlıları - 7000 nəfər, silahdarlar - 5000 nəfər, sağ ulufəçilər - 1700 nəfər, sol ulufəçilər - 1000 nəfər, sağ qürbalar - 1000 nəfər, sol qürbalar - 800 nəfər, cəmi 17100 nəfər. Bu dəstələrin hər birinin başında öz rəhbərləri dayanırdı və həmin dəstələrin hər birinin səfər yürüşü zamanı qoşunların sırasında öz məxsusi yeri var idi (100).

Topçular Osmanlı qoşunlarında yenicə formalaşmaqda olan qoşun qismi idi. Bu qoşun qismi topların istifadəyə alınması ilə yaradılmışdı. Topların istifadəsi üzrə sultan qoşunlarında hazırlıqlı adamlar olmadığından bu işə qeyri-müsəlmanlar daha çox cəlb edilirdi. Bu kontingentə əvvəlcə islam dini qəbul etdirilir və sonra xidmətə cəlb edilirdilər. Topçu qüvvələrinə topçubaşı rəhbərlik edirdi. Topçubaşıya yalnız topçular deyil, cəbbəxanalar, top tökmə emalatxanaları da tabe idi.

Osmanlı qoşunlarının növlərindən biri də dəniz qüvvələri idi. Osmanlı dövləti böyük dəniz dövləti idi və ona görə də dəniz donanmasının saxlanmasına böyük diqqət yetirilirdi. Osmanlı hərbi dəniz qüvvələri dövrünün ən böyük və güclü hərb dəniz qüvvələrindən biri sayılırdı.

**b) Şah İsmayıla qarşı müharibə fitvası**

Sultan Səlim hələ Osmanlı taxt-tacına sahib olmazdan əvvəl Səfəvi dövlətinə qarşı bəslədiyi planlarını həyata keçirmək üçün hakimiyyətdə olduğu ilk illər ərzində kifayət qədər geniş hazırlıq işləri apardı, qardaşları ilə mübarizəni başa çatdıraraq hakimiyyətini möhkəmləndirdi, səltənət daxilində qeyri-sabitliyin əsas amillərindən biri olan şiə kontingentini demək olar ki, zərərsizləşdirdi, Avropa dövlətləri ilə münasibətləri normal hala gətirdi, özbək xanı ilə ittifaq münasibətlərini gücləndirdi, qoşunları daha da təkmilləşdirdi. Bununla belə, Səfəvi dövləti üzərinə hücum üçün Sultan Səlim təkbaşına qərar qəbul etməkdən çəkindi və müharibə səfərinə çıxmazdan əvvəl, yəni 1524-cü il mart ayının 19-da Ədirnədə divan çağırdı. Həmin divanda sədr-əzəm, qübbəaltı vəzirlər, Rumeli və Anadolu kazəsgərləri, nişançı, baş dəftərdar, Anadolu dəftərdarı, digər dəftərdarlar, yeniçərilərin rəhbəri, 50-yə qədər elm adamı, müftü, qapıqolu qüvvələrinin ocaqbaşıları iştirak edirdilər. Sultan Səlim nəzərdə tutmuşdu ki, bu divanda hər şeydən əvvəl Səfəvi dövləti üzərinə hücum üçün fitva verilməsinə nail olsun. Xristian dövlətləri üzərinə hərbi yürüşlər zamanı belə bir fitvanın alınmasına zərurət olmadığı halda, islam dövlətinin üzərinə hücum üçün fitva verilməsinə ehtiyac var idi. Əslində, bunun üçün səltənət daxilində lazımi bir zəmin yaradılmışdı və onun rəsmiləşdirilməsinə ehtiyac var idi. Digər ciddi bir məqam yeniçərilərin Səfəvi dövlətinə qarşı hərbi yürüşə başlanması haqqında razılığının alınması idi. Yuxarıda qeyd edildiyi kimi, yeniçərilər təşkil ediləndə Hacı Bəktaşın xeyir-duasını almağa göndərilmişdi. Yenəçərilər onu özlərinin vəli-ye-piri adlandırırdılar. Başqa sözlə, yeniçərilər onu özlərinin dini və mənəvi rəhbəri kimi qəbul etmişdilər. Bəktaşilərin isə İmam Əliyə dərin inamları var idi. Bu mənada bəktaşilərlə səfəvilər arasında daxili bir yaxınlıq tapmaq olardı. Həmin daxili bağlılıq sultanın müharibə planına mane ola bilərdi. Ona görə də Sultan Səlim yeniçərilərin dəstəyini tam şəkildə qazanmaq istəyirdi (101).

Divanda ilkin olaraq Sultan Səlim danışmağa başladı və Səfəvi dövlətinə qarşı müharibəyə başlanmasının əsaslandırılmasına çalışdı. O, müharibə planının nədən qaynaqlanmasını ortaya qoyaraq müharibənin başlanması üçün divan iştirakçılarının dəstəyini qazanmağa cəhd göstərdi. O dedi: "...Şah İsmayıl tamamilə İran torpaqlarına hakim olmuşdur. Diyari İraq və Diyari Ərəb, Azərbaycan, Gəncə, Şirvan, Gilan, Mazandaran, Təbəristan və Cürcün ilə bütün Kürdüstan və özəlliklə Gürcüstan vilayətləri hakimiyyəti altına girmişdir. Cahan taxtlarına oturan və ölkələrində hökmlərini yürüdən Xarəzm padşahlarının türk qumaşından on dörd kişi səltənət taxtına cülus etmişdir. İndi cahan padşahlarının böyüklərinin dəftərlərini durdurmuşdur. Onların əsgərlərini yenərək xidmətə

uğratdı. Mallarını və xəzinələrini mülhidlərə və zındıq tayfasına yağma və qarət etdirdi. Özbəklərin hakimlərindən Şeybək xan padşahın da kəlləsini altuna qabladaraq çeşidli gövhər və incilərlə süslədikdən sonra şərab məclisində o qab ilə komandanlarına şərab içirtdi. Bundan böylə camaatla namaz qılınmasını yasaqlayaraq camilərdə minbərləri yıxdılar. Haşa, küfür və lənət ilə hidayətə müntəsib olanları təciz etməklə İran mülkünü viran və sünnət əsərlərini o İslam məkanı olan bölgədən binam və binişan elədi. Bu dinsiz və məzhəbi bozuq din alimlərindən kimi buldu isə öldürmüşdür. Allahın fəzli ilə qüvvət və qüdrətimiz yerindədir. Cahanı zəbt edən qılıncımız da İslamın nuru ilə parlamaqda ikən o mürtəkib və pis işlər işləyən şiə tayfasının vücudlarını izalə etmək üçün haqlı zimmət əqlən və şərən himmətimizə lazım gəlmişdir" (102).

Bu çıxışında Sultan Səlim ətraf bölgələrin Şah İsmayıl tərəfindən fəth edilməsinə toxunsa da, divan iştirakçılarının diqqətini daha çox şiə məzhəbinin qəbuledilməzliyinə, Şah İsmayıl tərəfindən sünnilərin sıxışdırılmasına, məscidlərin dağıdılmasına, şiəliyə qarşı dözümsüzlüyə yönəltdi. Sözsüz ki, bununla Sultan Səlim divanda toplaşanların dini hisslərinə toxunmaqla onların dəstəyini daha asanlıqla əldə etmək istəyirdi. Nəticədə, Sultan Səlim din xadimlərinin Şah İsmayıla qarşı müharibəyə başlanması üçün fitvasını əldə edə bildi.

Sultan Səlim şərqə doğru hərbi yürüşə dərhal başlamağın tərəfdarı idi və divana toplaşanlara da bunu çatdırmağa çalışdı. O, çıxışında da qeyd etdi ki, hazırda xristian dövlətlərlə münasib münasibətlər qurulub və bu dövlətlər hazırda Osmanlıya qarşı heç baş qaldıra biləcək durumda deyildilər. Sultan Səlim təkid edirdi ki, Səfəvi qoşunları harada olursa-olsun axtarılıb tapılmalı və məhv edilməlidir. O, Osmanlı dövlətinin təhlükəsizliyini də bunda görürdü. Yəni, Sultan Səlim onunla razı idi ki, Şah İsmayıl ilə döyüşmək üçün qoşunlarına uzun bir marş icra etdirsin və hətta lazım gələrsə Səfəvi hüdudları daxilində Şah İsmayıl qoşunları ilə döyüşə girsin.

Osmanlı qoşunlarının səltənətin mərkəzindən, xüsusilə təchizat mərkəzlərindən uzaqlaşması onların fəaliyyətini çətinləşdirə bilərdi. Bu isə hərbi yürüşün ağır nəticələrlə başa çatmasına yol aça bilərdi. Ədirnədə təşkil olunmuş divanda qoşun başçıları da bu məsələyə ehtiyatla yanaşdılar. Onlar da bəyan etdilər ki, Səfəvi hüdudlarına qədər yolun uzaqlığı, döyüşün Səfəvi hüdudları daxilinə keçirilməsi, Səfəvi qoşunlarının öz ərazisində daha yaxşı təchizat imkanlarına malik olması diqqətdən qaçırılmamalıdır. Yəni, qoşun başçıları, Səfəvi dövlətinə qarşı qoşun çıxarmağın çətinliklərini gördükləri üçün Sultan Səlimin çıxışını sükutla qarşıladılar. Sultan Səlim bu toplantıda Şah İsmayılın şeyxlikdən şahlığa gəlib çıxmasına öz münasibətini bildirmiş, onu Osmanlı dövlətinin ən böyük düşməni kimi dəyərləndirmiş və sonra da Şah İsmayıl üzərinə hücum etmək niyyətində olduğunu bildirərək toplantı iştirakçılarından bu müharibəyə dəstək istəmişdi. Amma onun Səfəvi dövlətinə qarşı müharibə aparmaq planı yuxarıda sadalanan səbəblərə görə, toplantı iştirakçıları tərəfindən dəstəklənmədi. Belə olanda Sultan Səlim həmin toplantıda Şah İsmayıla qarşı olan planını üç dəfə açıqladı. Yenə kimsə bu plana öz dəstəyini ifadə etmədi. Xeyli sükutdan sonra

elə də yüksək vəzifəyə malik olmayan Abdulla adlı birisi irəli çıxaraq yeni sultanın planını dəstəklədiyini bəyan etdi. Abdullanın bu bəyanatını Sultan Səlim divanda iştirak edən qoşun başçılarının və yeniçərilərin bəyanatı kimi qəbul etdi və divandan sonra qoşunların yürüşə hazırlaşması haqqında göstəriş verdi (103).

### 6. Sultan Səlimin Şah İsmayıl üzərinə hərbi yürüşə başlaması. Sultan Səlim-Şah İsmayıl məktublaşması

Sultan Səlim tərəfindən müharibəyə hazırlıq tapşırığı veriləndə artıq məlum idi ki, Səfəvi qoşunları ilə döyüş Səfəvi hüdudlarında baş verəcəkdir. Qoşunların yürüşə hazırlaşması bu vəzifə çərçivəsində həyata keçirilməli idi. Xüsusilə, qoşun başçılarının narahatlığına səbəb olan məsafənin uzunluğu və təchizat çətinlikləri bu hazırlıq zamanı həll edilməli idi. Qoşunlar üçün həm də səfərbərlik planının icrası zəruri əhəmiyyət kəsb edirdi. Bu istiqamətdə qapıqolu ocaqlarının (toplumlarının) və əyalət əsgərlərinin səfərbərliyi təmin edilməli idi. Qapıqolu qüvvələrinin səfərbərliyinin xüsusi bir çətinlik olmadan başa çatacağı gözlənilirdi. Həmin qüvvələrin canlı ehtiyatları və onların xidmətə cəlb edilməsi yolları bəlli idi və ona görə də bu məsələ xüsusi narahatçılıq doğurmurdu. Əsası keçmiş qeyri-müsəlmanlar olan qapıqolu qüvvələri Səfəvi qoşunlarına qarşı yürüşdə iştirak etməli deyildilər. Bu qüvvələrə sərhəd xəttinin mühafizəsi tapşırılmışdı (104).

Əyalət qoşunlarının toplanması isə müəyyən diqqət tələb edirdi. Çünki əvvəla, bu əyalət dəstələrinin say tərkibi mərkəz tərəfindən müəyyənləşdirilməli, sonra bu barədə yerlərə xəbər verilməli və yerlərdə də göstərilən miqdarda qoşun toplanaraq təyin edilmiş məntəqəyə göndərilməli idi. Əyalət qoşunlarının nə zaman harada toplaşacaqları yer müəyyənləşəndən sonra əyalət hakimləri də öz tapşırıqlarını dəqiqləşdirməli və konkretləşdirməli idilər. Qoşunların toplanış məntəqəsinə vaxtında çatdırılması müvafiq hakimlərin və qoşun rəhbərlərinin qaşısında dayanan məsuliyyətli vəzifələrdən idi. Ona görə təchizat işləri vaxtında başa çatdırılmalı və hərəkət qrafiki müəyyənləşdirilməli idi. Tezliklə hansı vilayətlərdən hansı sayda qüvvələrin toplanması dəqiqləşdirildi və qoşunların yazda Səfəvi dövlətinə qarşı yürüşə başlayacağı haqqında bəylərbəylərinə, sancaq bəylərinə və yerli hakimlərə hökmlər göndərildi. Yerli hakimlərdən tələb olundu ki, qoşunların toplanması, təchizatı və toplanış məntəqələrinə daşınması üçün silah və nəqliyyat vasitələri tapılsın. Qərara alındı ki, bütün qoşunlar üçün toplanış məntəqəsi Yenişəhir obası elan edilsin və qoşunların vaxtında həmin məntəqəyə çatdırılması təmin edilsin (105).

Sultan Səlim 1514-cü il mart ayının 20-də Ədirnəni tərk edərək İstanbula doğru irəliləməyə başladı və həmin ayın 29-da İstanbula yetişdi. Burada da o, Səfəvi dövlətinə qarşı hərbi yürüş hazırlıqlarını davam etdirdi. Sultan Səlimin özbək xanı Übeydulla xanla, Ağqoyunlu Məhəmməd bəylə məktublaşması və Anadoluda şiələrinə qarşı soyqırım tətbiq etməsi də bu dövrə təsadüf edir.

Sultan Səlim 23 gün müddətində İstanbulda qaldı. Bu zaman Sultan Səlim həm yürüş hazırlıqlarını davam etdirirdi, həm də havaların daha da qızmasını gözlədi. 1514-cü il aprel ayının 20-də Sultan Səlim, Səfəvi dövləti üzərinə yürüşün təşkili məqsədilə İstanbulu tərk etdi və Üsküdara gəldi. İki gün də burada qaldıqdan sonra Sultan Səlim Maltəpədə toplanan qoşunlara yetişdi. Aprel ayının 27-də İzmit ətrafında olarkən Sultan Səlim döyüşqabağı ilk məktubunu Şah İsmayıla göndərdi. Tacızadə Cəfər Çələbi tərəfindən qələmə alınmış olan bu məktubla Sultan Səlim bir növ Şah İsmayıla qarşı soyuq müharibəyə başladı, bu və qələmə aldığı digər məktublarda hərbi yürüşə başlamaqda haqlı olduğunu əsaslandırmağa çalışdı. Sultan Səlim öz məktubunu bir Səfəvi əsiri vasitəsilə göndərdi. Həmin əsir Qılınc adlanırdı və onun Səfəvi dövlətinin xeyrinə casusluq etdiyi zaman əsir götürüldüyü bildirilirdi. Sultan Səlim onu əsirlikdən azad edərək Şah İsmayıla yazdığı məktubu çatdırmağı ona tapşırdı (106).

Həmin məktubun mətni belədir:

"Bağışlayan və mehriban Allahın adı ilə!

"Allah qatında din, İslamdır..." [ Ali-İmran surəsi, 19-cu ayə].

"Kim İslamdan başqa bir din ardınca gedərsə heç vaxt ondan qəbul olmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar..." [ Ali-İmran surəsi, 85-ci ayə].

"İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı onundur. Onun işi Allaha aiddir. Amma qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar" [ əl-Bəqərə surəsi, 275-ci ayə].

İlahi, bizi hidayət edən və hidayət olunmuşlardan qərar ver, yol azdıran və yolunu azanlardan etmə. Aləmlərin ağası, əmin [ləqəbli] peyğəmbər Məhəmməd Mustafaya, ailəsinə və bütün səhabələrinə Allahın salamı olsun.

Amma bu bəyənilən xitab bizim böyük hökmdarımız, kafir və müşkirlərin qatili, din düşmənlərini məğlub edən, fironların (zülmkarların) burunlarını yerə sürtən, xaqanların dəbilqəsi (qoruyucusu), mücahid və qazilərin sultanı, Firudin kimi şərəfli, İskəndər kimi cahangir (fateh, yırtıcı, xeyirli), ədalətin Keyxosrovu, ali irqə (tayfa, qəbilə, millət) mənsub olan Sultan Məhəmmədin nəvəsi Sultan Bəyazidin oğlu Sultan Səlimdən Əcəm hakimi, ən yüksək qoşun başçısı, böyük rəhbər, zəmanənin Zəhhaki - Zöhhak, müharibəyə meylli Dara, dövrün Əfrasiyabı sən "Əmir İsmayıl"a göndərilir.

Bil və agah ol ki, haqq olanı edən və mütləq səxavət [ mənbəyi] olan [Allahın] etdiklərində məqsədyönlü səbəblər olmaqla yanaşı, özündə sonsuz hikmət və yaxşılıqları da ehtiva edir. Necə ki, açıq-aşkar olan kitabda (Quranda) deyilir: "Biz göyü, yeri və onların arasında olanları oyun-oyuncaq yaratmadıq" [əl-Ənbiya surəsi, 16-cı ayə]. İnsanın yaradılış hikməti də varlıq aləminin seçilməsi, aləmin ən yaxşısı olmaq və gözlə görülə bilənlərin (yaradılmışların) gözü olmaqdır. Necə ki, Allah [Quranda] buyurmuşdur: "O, sizi yer üzündə varislər təyin etdi..." [əl-Ənam surəsi, 165-ci ayə]. Amma bu növ insanlarda mənəviyyatın gözəlliyi və cismin (bədənin) çirkinliyi kimi zidd anlayışların meydana çıxması mümkün olduğu üçün peyğəmbərin müqəddəs şəriətinə itaət etmədən xilafətin (yer üzünün xəlifəsi olmaq) bərqərar olması və [ilahi] hədəfin keşi-

yində durmaq olmaz. Halbuki peyğəmbərin şəriəti əbədi bağışlanmağa və hər iki dünyanın xoşbəxtliyinə qovuşmağa səbəb olur. Deməli, kimsə ilahi hökmləri icra etməkdən üz çevirsə, [ilahi] əmr və qadağalara tabe olmaqdan boyun qaçırsa, din pərdəsini ləkələyərsə və möhkəm şəriəti məhv etməyə qalxarsa, bütün müsəlmanlara ümumi [anlamda], dinin ədalətli sultanlarına isə xüsusi [anlamda] "Ey iman gətirənlər! Allahın (dininin və peyğəmbərinin) köməkçisi olun! ..." [əs-Saff surəsi, 14-cü ayə] nidasına səs vermək, hiylələri dəf etmək, fitnə-fəsad yaradanların fəsadlarını aradan qaldırmaq üçün əllərindən gələni etməsi vacibdir.

Beləcə giriş verməkdən məqsəd odur ki, Bayandur (Ağqoyunlu) əhalisinin pərakəndəliyini beytlə deyək:

Meşədə aslanın nəriltisi yoxdursa
Çaqqalın səsi hündürdən gələr

Təcavüz etməklə Şərq ölkələrini ələ keçirdin. Əmrə tabe olduğun miskin bir guşədən əmr verən əzəmətli saraya qədəm basdın. Müsəlmanların üzünə zülm və əziyyət qapılarını açdın. Dinsiz və kafirləri bir-biri ilə evləndirərək qarışdırdın. Fitnə və fəsadın aşkar olmasını özünə şüar və hədəf seçdin. Zülm bayraqlarını qaldırdın. Öz təbii meylin və nəfsinin istəyinə uyğun hökmranlıq edib şəriətin hökmlərini (şərtlərini, bağlarını) pozdun və millətin şərəfini (inancını, abrını, namusunu) məhv etməyi düşündün. Zinanı halal etmək, haqsız yerə qan tökmək, məscid və minbərləri sökmək, qəbristanlıqları və məqbərələri yandırmaq, peyğəmbər övladlarına və alimlərə hörmətsizlik etmək, müshəfləri pisliklər içərisinə atmaq, iki şeyxə, - Allah onlardan razı olsun, - söyüş söymək kimi pis davranış və hərəkətlərin haqqında hər kəs danışır. Din rəhbərləri və hidayət edən amillər, - Allah onların hamısından razı olsun, - sənin ardıcıllarının mürtəd olması haqqında yekdilliklə fətva verdilər ki, bu da qətl edilməyə səbəb olur. Buna əsasən, bir də dini gücləndirmək, məzlumlara yardım etmək, əzab çəkənlərə kömək etmək, ilahi əmrlərə itaət və padşahlığın şərəf qayda-qanunlarını bərpa etmək üçün ipək və nazik parça yerinə zireh və dəmir libas geyindik. Allahın yardımı və gözəl lütfi ilə qələbə bayraqlarının daşıyıcıları, yola (şüara, üsluba, adətə, qayda-qanuna) yardım edən əsgərlər, döyüş aslanları, qılıncı qəzəb qınından çıxaran qılıncvuran qəhrəmanlar bədbəxt düşməni əzmlə taleyinə qovuşduracaq, kin kamanında oxları olduğu üçün rəqibin ölüm payını oxatan bürcünə rast gətirəcəklər. Zəfər və xeyirlərə vəsilə olan Səfər ayında dənizdən keçdik. Bu niyyətlə ki, əgər Allah-təala yardım etsə güc və qüvvəmizdən istifadə edərək zülmkar əl-qolunu qoparıb, təşvişli başından qalib olmaq sevdasını çıxaraq. Kasıb və gücsüzlərin başı üzərindən şər və fitnənin [yaratdığı] fəsadları uzaqlaşdıraq.

Evlərə vurduğun həmin odun tüstüsünü evinə gətirək.

Çünki qılıncdan öncə İslama [dəvət] təklifi Mustafa, salam olsun ona, - şəriətin hökmüdür. Bu məşhur məktub da [həmin qaydaya əsasən] gözəl şəkildə

yazıldı. İnsan övladının ruhu (nəfsləri) fərqlidir. İnsan qızıl və gümüş mədənləri kimidir. Bəzi xarakterlərin pis olması təbiidir və düzələn deyil. Belə ki, zəncini yumaqla ağarmaz. Xarakterin süstlüyü, şər işlərə adətkərdə olmaq şəhvətin hakim olmasından qaynaqlanır və düzəlməsi mümkündür. Necə ki deyirlər: pislər təlim və tərbiyə ilə yaxşılar cərgəsində olar, bir ehtimala görə. Əgər özünü "O kəslər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyirlər..." (Ali-İmran surəsi, 135-ci ayə) cərgəsinə daxil etsən, bütün hallarda Allah-təalanı unutmasan, pis işlər, doğru olmayan davranışlar və çirkin adətlərdən peşman olsan, səmimi qəlbdən tövbə və istiğfar etsən, ötən zamanda bizim qalib ordunun dördayaqlılarının ayağı dəydiyi qala və məkanları [indi isə sənin tabeçiliyində olan və onları işğal edərkən bizi] məzəmmət etdiyin həmin ərazilərin hər bir guşəsini Osmanlı məmləkətlərinin tabeçiliyinə verərək bizim əzəmətli himayəmizdə olan bəndələrə tapşırsan daha yaxşı olar. Bizim xidmətimizdə duranlardan yaxşılıq, nəvaziş, mehribanlıq və xoşxasiyyətdən başqa bir şey görməzsən.

Pis vərdiş təbiətində özünə yer etdisə
Ölənə qədər səndən əl çəkməz

Əgər pis əməllər və rüsvayçı davranışlari israr və təkidlə davam etdirsən, uca Allahın köməyi ilə qələbə çalacağıq və ələ keçirdiyin həmin məmləkətin meydanı tezliklə bizim qalib ordunun düşərgəsi olacaqdır. Bir müddətdir yelbeyinliyin şiddətindən sərdarlıq sevdasına düşmüsən və lovğalığın çoxluğundan cahangirlik və fatehlik iddiası dilində cari olur. Əgər mərdsənsə mərdlərin meydanına çıx ki, taleyin hökmü müəyyən olsun. "...O gün hökm ancaq Allahındır" (əl-İnfitar surəsi, 19-cu ayə). "...Haqq yolu tutub gedənlərə salam olsun" (Ta-ha surəsi, 47-ci ayə). 920-ci ilin qalibiyyət [ayı olan] Səfər ayında İznikomid (indiki İzmit) yurdunda yazıldı" (107).

Məktubun məzmunundan göründüyü kimi, Sultan Səlim səltənət diplomatiyasına uyğun gəlməyən təhqiramiz sözlərlə və ifadələrlə Şah İsmayıla müraciət etmişdi və hətta onu şah yox, əmir adlandırmışdı. Şah İsmayıl bu məktubda şərq ölkələrinə təcavüz etməkdə, misgin bir durumdan əzəmətli bir məqama çatmaqda, müsəlmanlara zülm və əziyyət verməkdə, dinsizləri və kafirləri bir-biri ilə evləndirməkdə, zülm bayrağını qaldırmaqda, şəriətin hökmlərini pozmaqda, haqsız yerə qan tökməkdə, zinanı halala çevirməkdə, məscid və minbərləri dağıtmaqda, qəbristanlıqları viran etməkdə ittihamlandırılırdı. Bu baş verənlərin qarşısının alınması üçün isə Sultan Səlim sonsuz sayda qoşunu ilə Şah İsmayıla qarşı müharibəyə başladığını bəyan edirdi. Osmanlı sultanı Şah İsmayılın böyük əraziləri fəth etməsinə də toxunurdu və sonra da bu onun hərbi uğurlarını bir növ Ağqoyunlu şahzadələri arasındakı parçalanmalarla əlaqələndirirdi. Bununla, Şah İsmayılın fatehliyinin üzərinə bir kölgə də salınırdı. Sultan Səlim bütün mənalarda Şah İsmayılı aşağılamağa çalışmaqla özünün ondan daha üstün olmasını qabartmağa çalışırdı. Müharibə qərarı verməsini əvvəldən elan etsə də

Sultan Səlim bu müharibənin dayandırılması ilə bağlı şərtlərini də bu məktubda irəli sürürdü. Həmin şərtlər belə idi: Şah İsmayıl etdiyi əməllərə görə Allahdan bağışlanmasını istəməli, "pis işlər, doğru olmayan davranışlar və çirkin adətlərdən peşman" olmalı, səmimi qəlbdən tövbə etməli, başqa sözlə şiəlikdən əl çəkərək yenidən sünni məzhəbinə dönməli və şiəliyn yayılmasını dayandırmalı, bir vaxtlar Osmanlı tabeliyində olan ərazilərdən əl çəkməli və həmin əraziləri Osmanlı hakimiyyəti altına verməli idi. Belə olduğu təqdirdə Sultan Səlim hətta Şah İsmayıla qayğı göstərəcəyini də vəd edirdi.

İrəli sürülən bu şərtlərin qəbul edilməsi, əslində, Səfəvi dövlətinin Osmanlı dövlətinin təsiri altına düşməsi və Səfəvi dövlətinin müstəqilliyinin formal bir müstəqilliyə çevrilməsi idi. İnandırıcı deyil ki, Sultan Səlim bu təkliflərin Şah İsmayıl tərəfindən qəbul ediləcəyini güman edirdi. Belə bir ehtimal olsaydı yəqin ki onda müharibə maşınını hərəkətə gətirmək də heç lazım olmazdı. Heç şübhə yoxdur ki, müharibə qərarı veriləndən və qoşunlar da müharibə meydanına doğru hərəkətə başlayandan sonra Sultan Səlim tərəfindən Şah İsmayıla bir neçə məktub göndərilməsi müharibənin önlənməsi məqsədindən daha çox Şah İsmayıla psixoloji təsirin göstərilməsi, onda hansısa bir qorxu hissinin yaradılması məqsədini daşıyırdı. İnandırıcı deyil ki, Sultan Səlimin iddiasında olan ərazilərin Osmanlı tabeliyinə verilməsindən sonra da müharibə dayandırıla bilərdi. Sultan Səlimin Səfəvi dövlətinə qarşı çox ciddi planları var idi və bu planların həyata keçirilməsinə sultanı olduğu dövlətin təhlükəsizliyi üçün xüsusi əhəmiyyət verilirdi. Sultan Səlim özünü Şah İsmayıldan güclü sayırdı və müharibəyə başlamaqda da başlıca məqsədi Şah İsmayıla güclü zərbə vurmaq və bölgədə tək nüfuz sahibinə çevrilmək idi. Şah İsmayılın mövcud gücünün qorunub saxlanmasına və onun gələcəkdə daha da gücləndirilməsinə fürsət vermək Sultan Səlim üçün heç də məqsədəuyğun deyildi. Əksinə, Sultan Səlim hər vasitə ilə çalışırdı ki, Şah İsmayılı müharibəyə təhrik etsin, ona ağır zərbə vursun və bölgədə yeganə söz sahibinə çevrilsin. Şah İsmayıl isə o fatehlərdən deyildi ki, məktublarda ifadə olunan kobud ifadələrə görə əqidəsindən dönsün, milyonlarla insanın inancına çevrilmiş dəyərlərindən üz döndərsin.

Şah İsmayıla ilk məktubunu göndərəndən sonra Sultan Səlim onun cavabını gözləmədən müharibə meydanına doğru hərəkətini davam etdirdi. 1514-cü il aprel ayının 24-də o, Yenişəhirə gəldi. Osmanlı dövlətinin Avropa hissəsindən toplanmış qoşun dəstələri burada cəmləşmişdilər. Osmanlı sultanı bu qoşunlarla birləşdi. May ayının 2-də isə Seyidqazi məntəqəsinə gəldi. Osmanlı dövlətinin müxtəlif bölgələrindən toplanan qoşun dəstəsi yetişərək ümumi qoşunlara birləşirdi. Sultan Səlim çoxlu sayda qoşunun toplanmasından çox məmnun idi və hətta bu qoşunları hər vasitə ilə ağır yürüşə və döyüşə ruhlandırmağa çalışırdı. Seyidqazi ətrafında olarkən Sultan Səlim qapıqolu əsgərlərinin hər birinə 1000 ağca bəxşiş verdi. Sonra Sultan Səlim Konyaya gələrək Filobad Çayırında yerləşdi. Onun burada olduğu müddət ərzində yenə müxtəlif bölgələrdən qoşun dəstələri gələrək ümumi qoşunların tərkibinə qatıldılar. Sultan Səlim Konyada Cəlaləddin Ruminin məzarını ziyarət etdi, fəqir-füqəraya

100 min ağca sədəqə payladı, tiyul sipahilərinin hər birinə isə 100 ağca mükafat verdi. Sonra da o, Qırxpinar, Qaracadağ, Pinarbaşı, Ağcaşəhr, Qərye-yi Sulu, Kilimsə, Nağarazən, Alaquş Çayırı, Suluçayır, Qarahisar, Boğaz körpüsü məntəqələrindən keçməklə Qeysəriyə gəldi (108).

Bəzi məlumatlara görə, Sultan Səlim Konyada olarkən Şah İsmayılın üç nəfər casusu ələ keçirildi. Müəyyən işgəncələr veriləndən sonra həmin əsirlər edam edildi (109). Əslində, Şah İsmayılın casusu hesab edilən şəxslərə qarşı belə bir qəddarlığın həyata keçirilməsi özü də Sultan Səlimin Şah İsmayıla göndərdiyi məktubunda hansı səviyyədə səmimi olmasının nümayişi ola bilər. Yəni, Şah İsmayıla qarşı qisasçılığın həyata keçirilməsi üçün Sultan Səlim əlinə düşən fürsətlərdən üz çevirmirdi.

Sultan Səlim qoşunların toplanmasını və onların hazırlıq səviyyəsini ciddi nəzarət altında saxlayırdı və dayandığı məntəqələrə toplanmış qoşunlara sıra baxışı keçirərək onların hazırlıq səviyyəsini yoxlayırdı. Başqa sözlə, Sultan Səlim Səfəvi dövlətinə qarşı müharibə hazırlıqlarını ən yüksək səviyyədə aparırdı.

Osmanlı qoşunları 1514-cü il may ayının sonunda Qeysəridə idisə, iyun ayının 23-də Zülqədər bəyliyinin sərhədində yerləşən Çubuk adlı məntəqəyə yetişdi. Burada olarkən Sultan Səlim məktubla Zülqədər hakimi Əlaüddövləyə məktub göndərdi və onu da Şah İsmayıla qarşı müharibəyə dəvət etdi. Baxmayaraq ki, Əlaüddövlə öz bəyliyini qorumaq üçün Şah İsmayıldan hər zaman təhlükə gözləyirdi, bununla belə Sultan Səlimə birləşərək ona qarşı müharibədə iştirak etməkdən imtina etdi. Əlaüddövlə nəinki Osmanlı qoşunları ilə birləşmədi, əksinə, onun göstərişi əsasında Osmanlı qoşunları üzərinə basqınlar təşkil edildi və bu qoşunlara müəyyən ziyanlar yetirildi. Sultan Səlim Səfəvi dövləti üzərinə hücumdan əvvəl Əlaüddövləyə qarşı hər hansı bir tədbir görməsə də, sonradan onu ciddi cəzalandırdı və onun hakimi olduğu əraziləri də Osmanlı hüdudlarına daxil etdi (110).

Qoşunların Səfəvi hüdudlarına doğru hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üçün Sultan Səlim 20 minlik qoşun dəstəsini vəzir Əhməd paşanın rəhbərliyi altında Sivasa göndərdi. Sultan Səlim özü isə bu məntəqəyə iyun ayının 28-də yetişdi və Sivas ətrafında düşərgə saldı. Bir neçə gündən sonra Sivasa göndərilmiş olan Əhməd paşa dəstəsi də ümumi qoşunlara qatıldı. Sivasda olduğu günlər ərzində Sultan Səlim bir sıra tədbirləri həyata keçirdi. İyun ayının 29-da Sinop sancaq bəyi Əhməd bəyin rəhbərliyi altında 500 nəfərlik bir qoşun dəstəsi Ərzincana göndərildi. Bu qoşun dəstəsinin də vəzifəsi ümumi qoşunların hərəkət marşrutu üzrə təhlükəsizliyi təmin etmək idi. İyun ayının 30-da Sultan Səlim qoşun başçılarının toplantısını keçirdi və onlara yenidən qoşunlara sıra baxışı keçirilməsi tapşırıldı. Bu baxış zamanı Şah İsmayıl qoşunlarına qarşı yürüşün və döyüşün ağırlığına tab gətirə bilməyəcək adamlar seçilməli, qoşundan ayrılmalı və onlar geridə buraxılmalı idi. Həyata keçirilən sıra baxışı gedişində qoşunlar daxilində seçim aparıldı və qarşıdakı ağır döyüşün gərginliyinə dözə bilməyəcək 40 min nəfər seçilərək qoşunlardan ayrıldı. Bu sayda olan silahlılar ayrıca bir qoşun dəstəsində birləşdirildi. Həmin qoşun dəs-

təsi ümumi qüvvələrin ehtiyatını təşkil etməklə Sivasla Qeysəri arasında yerləşdirildi. Nəzərdə tutulmuşdu ki, döyüşün gərginliyinə gücü çatmayacaq insanların qoşunlardan ayrılması ilə həm ümumu qoşunların çevikliyi, döyüşkənliyi artırılsın, həm də təchizat çətinliklərini nisbətən yüngülləşdirmək mümkün olsun. Bundan başqa irəliyə çıxarılmış qoşunların arxa ilə əlaqələrinin təhlükəsizliyinin təmin edilməsi zərurəti var idi ki, 40 minlik qoşun dəstəsinin Sivasla Qeysəri arasında buraxılması bu mühüm məsələnin də həllinə imkan verə bilərdi. Bir tərəfdən təchizat yolları mühafizə olunmalı idi, digər tərəfdən də Misir məmlüklüyü ilə Zülqədər bəyliyindən gözlənilə biləcək təhlükələrin qarşısı alınmalı idi. Qoşunların ağır yükləri, dövlət xəzinəsi, sənədləşmə arxivi Sivas qalasında saxlanılmışdı. Bu yüklərin mühafizə olunması da geridə buraxlmış 40 min nəfərlik qoşun dəstəsinə həvalə olunmuşdu (111).

1514-cü il iyul ayının 4-də Sultan Səlim qoşunları ilə birlikdə Sivasdan şərqə doğru hərəkətini davam etdirdi. İyulun 8-də qoşunlar Qunduzsuyu məntəqəsinə yaxınlaşdı və Sultan Səlim göstəriş verdi ki, həmin məntəqədən sonra qoşunların irəli hərəkəti ciddi mühafizə altında davam etsin. Çünki həmin məntəqədən etibarən qoşunlar Səfəvi hüdudlarına daha da yaxınlaşmaqda idilər. Nəzərdə tutulmuşdu ki, iyulun 14-də qoşunlar Səfəvi sərhədinə çatacaqdır. Bu isə qoşunların təhlükəsizliyinə diqqətin daha da artırılmasını tələb edirdi. Bu məqsədlə Anadolu bəylərbəyi Xadim Sinan paşa avanqard dəstənin rəhbəri təyin edilərək irəli göndərildi (112).

Farsdilli mənbələrin məlumatına görə, Sultan Səlimin yazdığı məktubun çatdırılması xüsusi bir nümayəndə heyətinə tapşırılmışdı. Həmin nümayəndə heyəti Şah İsmayılın Həmədanda olduğu vaxt onun hüzuruna qəbul olundu. Elçiləri qonaqpərvərliklə qarşılayan Şah İsmayıl məktubda yazılanları qəbul etmədi və dərhal elçilər vasitəsilə Sultan Səlimə onun müharibə çağırışını qəbul etdiyini bildirdi. Sonra Şah İsmayıl Təbrizə yollandı və burada Sultan Səlimin böyük bir qoşun dəstəsi ilə Səfəvi üzərinə yürüşə başlaması haqqında məlumat aldı (113).

Bir başqa məlumata görə isə, Şah İsmayıl İsfahanda olarkən Sultan Səlimin ilk məktubunu aldı. Guya Şah İsmayıl əvvəlcə ona məktubu gətirmiş Qılınc xəlifənin Osmanlı əsirliyində olmasını qəzəblə qarşılayaraq onun edamına əmr verdi. Sonra da Sultan Səlimin ona müharibə elan etməsi xəbərinə son dərəcə etinasız yanaşdı, onun gücü qarşısında Sultan Səlimin belə bir qərara gələ biləcəyini ciddi qəbul etmədi və sonra da yenidən başını ova və əyləncələrə qarışdırdı (114).

Türkdilli mənbə və elmi-tarixi ədəbiyyatın verdiyi məlumatlara görə isə, Sultan Səlimin göndərdiyi birinci məktuba Şah İsmayıl cavab yazmış və həmin məktubu Qılınc xəlifə vasitəsilə geri göndərmişdi. Hətta həmin məktubun 1514-cü il iyul ayının 16-da Ərzincan ətrafındakı Yassıçəmən məntəqəsində Sultan Səlimə çatdırıldığı da bildirilir. Bildirilir ki, Sultan Səlim onun yazdığı məktuba nisbətən daha yumşaq dildə yazılmış cavab almasında xeyli qəzəblənmiş və məktubu gətirən Qılınc xəlifəni də edam etdirmişdi. Məlumata görə, Şah İsma-

yıl cavab məktubunda Sultan Səlimə atası Sultan Bəyazidlə dostluq münasibətlərində olduğunu, həmin münasibətlərin nə üçün pozulduğunu və Sultan Səlimin də ona qarşı nə üçün müharibəyə başladığını anlaya bilmədiyini yazmışdı. Şah İsmayıl sonra da yazmışdı ki, sülh tərəfdarıdır, Osmanlı dövləti ilə dünc münasibətlərin saxlanmasını istəyir, Əmir Teymur dövründə olmuş qarışıqlıqların olmasını istəmir, ona göndərilmiş məktubda işlədilmiş ifadələr Osmanlı padşahına yaraşmır. Şah İsmayılın adına tutulan məktubda daha sonra yazılmışdı ki, kobud ifadələri yalnız nəşəli durumda olan katiblər yaza bilərlər. Ona görə məktubla birlikdə bir qutu nəşələndirici vasitələr də göndərilmişdi. Nəhayət, məktubda Şah İsmayıl adından o da bildirilirdi ki, Sultan Səlimlə müharibə aparmağa hazırdır. Şah İsmayıl hətta Osmanlı dövləti ilə əvvəldən müharibə aparmaq niyyətində olduğunu bildirir və həmin müharibənin hələ də başlanmamasının səbəbini isə bu müharibənin nə ilə bitəcəyi barəsində uzun müddət fikirləşməli olması ilə bağlayırdı. Bəzi məlumatlara görə isə, Sultan Səlim belə bir məktubu alsa da onun Şah İsmayıl tərəfindən yazıldığına inanmırdı (115).

Sultan Səlimin ilk məktubuna Şah İsmayıl tərəfindən cavab yazılması haqqında məlumatın düzgünlüyü şübhə doğurur. Çünki elmi-tarixi ədəbiyyatda Şah İsmayılın yalnız Sultan Səlimin üçüncü məktubuna cavab yazdığı bildirilir. Həmin məktubun məzmunu Şah İsmayılın yuxarıda ehtimal olunan məktubunun məzmununa oxşarlıq təşkil edir. Ona görə də araşdırmaçılar tərəfindən Sultan Səlimin üçüncü məktubuna yazılan cavabın ilk məktuba yazılan məktub kimi qələmə verilməsi heç də istisna deyildir.

Elmi-tarixi ədəbiyyatda olan məlumat belədir ki, Şah İsmayıl Osmanlı sultanının ona göndərdiyi məktuba cavab vermədi. Bunun nə ilə bağlı olduğunu söyləmək çətindir. Şah İsmayıla iddialı yanaşan bəzi araşdırmaçılar bunun Səfəvi şahının özünə arxayın olması, Sultan Səlimlə müharibəyə biganəlik göstərməsi ilə əlaqələndirirlər. Güman edilir ki, Şah İsmayılın Osmanlı sultanının ilk məktubları qarşısında sükut etməsi Sultan Səlim üslubunda məktublaşmanı qəbul edə bilməməsi ilə bağlı idi. Amma o da məlumdur ki, Şah İsmayıl bu məktublara cavab verməsə də, Sultan Səlimin ilk çağırışını alandan sonra müharibəyə ciddi hazırlıqların aparılmasına da başlamadı.

Şah İsmayıldan cavab alınmayanda Sultan Səlim ona ikinci məktubunu yazdı. Həmin məktubun 1514-cü ilin iyul ayının ikinci yarısında yazıldığı güman edilir. Mövlana Mürşid tərəfindən qələmə alınmış həmin məktubun mətni belə idi:

"O məktub Süleymandandır və o, bismillahir-rəhmanir-rəhim (bağışlayan və mehriban Allahın adı ilə)"dir. Mənə qarşı təkəbbür göstərməyin və yanıma müsəlman (Allaha itaət edən) olaraq gəlin!" [ən-Nəml surəsi, 30-3-ci ayə].

Allahın salamı olsun yaratdıqlarının ən yaxşısı olan Məhəmmədə, övladları və səhabələrinə hamılıqla. Bu, nazil etdiyimiz mübarək bir kitabdır, ona tabe olun və Allahdan qorxun ki, sizə rəhm edilsin! [əl-Ənam surəsi, 155-ci ayə]. Səmadan enmiş vəhy kimi bu zəfər tuğralı məktub, "Biz peyğəmbər

göndərməmiş (heç bir ümmətə) əzab vermərik" [əl-İsra surəsi, 15-ci ayəsinin tələbinə uyğun olaraq] Allah-təalanın bütün dünyadakı xəlifəsi, "İnsanlara fayda verən bir şey isə yer üzündə qalar" [ər-Rad surəsinin 17-si ayəsinə şamil edilən] yerə endirilən, Süleyman kimi uca mərtəbəli, İskəndər kimi cahangir, Firudin kimi şərəfli, kafir qövmə qarşı vuruşan, [Allahın yanında] çox möhtərəm və çox müti [mələkləri] qəbul edən, qoruyucu mücahid, müzəffər yardımçı, şir nəslindən olan (Leys bin əl-Əsəd bin əl-Qəzənfər), ədalət və yaxşılıq bayrağını genişləndirən, bizim əzəmətli ağamız Sultan Səlim şah ibn Sultan Bəyazid ibn Sultan Məhəmməd xan tərəfindən Əcəm məmləkətinin padişahı, zülm və sitəm diyarının ağası, pislərin sevinc və rəhbəri, zəmanənin Darası, dövrün Zəhhakı, Qabilə bənzər əmir İsmayıla yazıldı.

Məlum olan budur ki, Allah dərgahından "Allahın insanlara əta etdiyi mərhəmətə heç kəs mane ola bilməz..." [əl-Fatir surəsi, 2-ci ayə] nişanəsi ilə olan "Sən mülki istədiyinə verərsən" [Ali-İmran surəsi, 25-ci ayə] padşahlıq hökmünü qəzavü-qədər bizim böyük adımıza çıxardı (yəni Allah tərəfindən hökmdar olmaq bizə həvalə edildi). Şübhəsiz ki, yer üzündə ilahi qanunların əmr və qadağaları [eləcə də] səltənətə aid olan işlər və hökmlər səmavi hökmün nüfuzuna malikdir. Bu, Allahın istədiyinə əta etdiyi mərhəmətdir... [əl-Cumuə surəsi, 4-cü ayə]. Bir çox şəxsdən eşitdiyimizə görə, Məhəmmədin pak ümmətini, - salam olsun ona, - özünün yanlış əqidənə tabe etmiş və sabit dinin əsaslarını ləğv edib, zülm bayrağını təcavüz qaydaları ilə yüksəltmiş, pislikdən çəkindirməyi və yaxşılığa əmr etməyi şəriətin əsaslarından hesab etmiş, öz çirkin şiəni (müridlərini, tabeçiliyində olanlar) məhrəm qadınları halal hesab etməyə və günahsız insanların qanını tökməyə təhrik etmişsən. Yalana qulaq asan və haram yeyənlərin" [əl-Maidə surəsi, 42-ci ayə] hökmü ilə bihudə sözlərə qulaq asıb, haramlar yemisən. Məscidi xarab edərək bütxana düzəltmisən. İslamın böyük sultanları olan minbərləri zalımcasına dağıdıb, açıq-aşkar haqqı batildən ayıran [Quranı] keçmiş [xalqların] əfsanələri adlandırıb pisliyin yayılmasının səbəbkarı olaraq öz adını bədnam etmisən. Əhli sünnət və cəmaətin üstün alimlərinin əqli və nəqli (dini mətnlərə) əsaslanan fətvalarına görə bizim ali iradəmizin borcudur ki, qədimdən qalma adət-ənənə olan "çox ehsan edən Allahın dininə yardım etmək imanın ən yüksək dərəcəsinə [sahib olmaqdır qanununa əməl edərək]" yeni adət-ənənələrin rədd edilməsi, qadağan edilməsi, sıradan çıxarılması və sıxışdırılmasını [həyata keçirək]. Onun [peyğəmbərin], - salam olsun ona, - bir hədisdə buyurduğu kimi: "Hər kəs bizim işimizdə yenilik (bidət) etsə bu məqbul deyildir" və ya başqa bir hədisdə "hər kəs bizim işimizə uyğun olmayan bir iş görsə bu məqbul deyil və tənqid olunmuşdur". İlahi qəzavü-qədər, kafir olanın əcəlini bizim iqtidarımıza həvalə etdiyi üçün o diyara tərəf istiqamət alaraq "Yer üzündə bir nəfər belə kafir qoyma" [Nuh surəsi, 26-cı ayə] hökmünü [rəhbər tutub] əziz Allahın izni ilə yola düşdük.

Zəfər qılıncını siyirməkdən məqsəd Allahın şəriət arxının yolunda bitən və pərpərən kimi inkişaf eləmiş tikan [və alaq otlarını] kökündən qopararaq rüsvayedici torpaq üzərinə atmaqla müqəddəs atların ayaqları altında tapdala-

maqdır. "Xalqının böyüklərini də zəlil edirlər. Onlar məhz belə hərəkət edirlər" [əl-Nəml surəsinin 34-cü ayəsində deyildiyi kimi] kin-küdurət dolu toppuz zərbəsi ilə xam xəyala düşmüş din düşmənlərinin beynini müharibənin cəngavər şirlərinin yeminə çevirək. [Ayədə deyildiyi kimi] "zülm edənlər isə (öləndən sonra) hansı dönüşə dönəcəklərini mütləq biləcəklər!" [əş-Şüəra surəsi, 227-ci ayə].

Şeir:
Mən o şəxsəm ki, iti qılıncımı siyirdikdə
Yer üzündə qiyamət qopararam
Erkək aslanların ürəyindən kabab edər
Pəhləvanların qanından sübh vaxtı şərab içərəm
Kamanımla qartal ovlayar
Qılıncımdan günəşin ürəyi titrəyər
Əgər döyüşə gəlmişəmsə [deməli] sən [məni] saymamısan
Fırlanan (hərəkət edən) səma eşitməmisən
Günəşdən yüyənimin qüvvətini soruş
Bəhramdan nizəmin ucunun suyunu soruş
Əgər tacın varsa mənim də qılıncım var
Çünki tacın əlimdə aram olan qılıncdır
Ümidvaram ki, bəxtin qüvvəsi ilə
Düşmənlərin təxti-tacını alaram

"Din nəsihətdir" [düşüncəsindən] çıxış edərək əgər kişilərin üz tutduğu yer olan bizim yurdun mələklərinin arzu Kəbəsi və bəxt qibləsinə üz tutsan, zülm altında inləyən təbəələrini incitməkdən əl çəksən və özünü "günahdan tövbə edən günahı heç olmayan kimidir" cərgəsində qərar versən, Məhəmmədin, - salam olsun ona, pak ailəsinə və hidayət edən səhabələrinə və Allah onların hamısından razı olsun; "səhabələrin ulduzlar kimidir, hər hansı birini nümunə götürsəniz hidayət olarsınız" [deyə buyurmuşdu], - pak və doğru sünni təriqətinin ardıcıl olan millət və məzhəbdən olasan, həmin ölkələri və onlardan asılı olanları Osmanlı ərazilərindən hesab etsən padşahlıq və şahlıq lütfümüz sənə də şamil olacaqdır.

Şeir:
Başının üzərində ədalət və lütf kölgəsi yaradaq
Məhəbbət görən qapımızın torpağına üz sürtər

Afərin bunu qəbul edən şəxsin bəxtəvərliyinə. Əks təqdirdə mahiyyətindən irəli gələn fitnəkarlıq və təhrikçi təbiətinə uyğun davranmağa üstünlük verərik. Qaralmış qəlbə moizə oxumağın faydası olmaz. Allahın köməyi və ən gözəl yardımları ilə başında hər tac olanın tacını odlayaram (tac şəklinə salaram) və geniş yer üzünü o insanlardan təmizlərəm. "Şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir" [əl-Maidə surəsi, 56-cı ayə]. Zalımların əllərini yədi-beyza (parlaq əl) pəncəsi, qüdrəti ilə büküb sındıraram ki, "Allahın (qüdrət) əli onların əllərinin üstündədir" [əl-Fəth surəsi, 10-cu ayə].

Qulağınızdan qəflət pambığını çıxarıb, əyninizə kəfən geyib hazır olun ki, "verdikləri vədə əməl edərlər" [ayəsini] rəhbər tutan "sanki onlar möhkəm divarlardır" [əs-Saff surəsinin 4-cü ayəsində əmr edənlərə bənzər] qalib əsgərlərim ölüm vədəsi gəldiyi üçün "Onların əcəli gəlib çatdıqda (ondan) bircə saat belə nə geri qalar, nə də irəli keçərlər" [Yunus surəsinin 49-cu ayəsi] ucadan oxuyar və "onları harada görsəniz, tutub öldürün" [ən-Nisa surəsinin 89-cu ayəsinin] hökmünə əməl edərlər. Onları yer üzündən silər və o diyarda heç bir şəxsi sağ qoymazlar.

"Əvvəl də, sonra da hökm Allahındır. O gün mömünlər sevinəcəklər" [ər-Rum surəsi, 4cü ayə]. "Artıq o zalım tayfanın kökü kəsilmiş olacaq. Həmd olsun aləmlərin Rəbbi olan Allaha!" [əl-Ənam surəsi, 45-ci ayə]" (116).

Bu məktubunda da Sultan Səlim, göründüyü kimi, Şah İsmayılı ilk növbədə islama qarşı düzgün mövqe tutmamaqda ittihamlandırırdı. Məscidlərin dağıdılması, sünnilərin təqib edilməsi, günahsız insanların qanının tökülməsi kimi əvvəlki məktubda öz əksini tapmış ittihamlar bu məktubda da təkrarlanmışdı. Şah İsmayıl bu əməllərdən çəkinməyə dəvət edilirdi. Əks təqdirdə isə, Sultan Səlim yenə də onu təhdid edirdi. Sultan Səlimə görə, Şah İsmayıl bir şərtlə bağışlana bilərdi ki, o, yenidən sünni məzhəbinə dönsün, müəyyən əraziləri isə geri, Osmanlı hakimiyyəti altına qaytarsın.

Yəni, Sultan Səlim yenidən Şah İsmayılı özündən asılı vəziyyətə salmaq istəyirdi və bildirirdi ki, Səfəvi şahı onun tələblərini qəbul edəcəyi təqdirdə Osmanlı sultanının padşahlıq və şahlıq lütfü ona da şamil olacaqdır.

Sultan Səlim başladığı müharibəyə dini-ideoloji məzmun verməyə çalışırdı. Bu isə onun Şah İsmayıl üzərinə yürüşünə səltənətin bütün təbəqələri tərəfindən dəstək qazanılması üçün xüsusi əhəmiyyət kəsb edirdi.

Sultan Səlimin Şah İsmayıla göndərdiyi ikinci məktubu əvvəlki məktubundan daha sərt idi. Bu məktubla, əslində, o, Şah İsmayıl qarşısında tələb qoyurdu ki, onunla müharibəyə girsin. Hətta Şah İsmayılın bu müharibədən çəkinmək ehtimalının onun psixoloji durumuna təsir etməsini də görməmək mümkün deyil. Sultan Səlim məqsədinə nail olmaq üçün Şah İsmayılı açıq şəkildə təhqir etməkdən, sultanlıq məqamına uyğun olmayan ifadələr işlətməkdən çəkinmirdi. Məktubun elə ilk sətirlərində bunu görmək mümkündür. Həmin sətirlərdən göründüyü kimi Sultan Səlim özünü "Süleyman kimi uca mərtəbəli, İskəndər kimi cahangir, Firudin kimi şərəfli, kafir qövmə qarşı vuruşan, [Allahın yanında] çox möhtərəm və çox müti [mələkləri] qəbul edən, qoruyucu mücahid, müzəffər yardımçı, şir nəslindən olan, ədalət və yaxşılıq bayrağını genişləndirən" bir sultan kimi tərifləyirdi. Bu təriflərin ardınca isə o, Şah İsmayılı "Əcəm məmləkətinin padişahı, zülm və sitəm diyarının ağası, pislərin sevinc və rəhbəri, zəmanənin Darası, dövrün Zəhhakı, Qabilə bənzər əmir İsmayıl" kimi xarakterizə edirdi.

Bununla belə, Sultan Səlim ikinci məktubuna da cavab almadı. Şah İsmayılın onun məktublarına cavab verməməsi və özünü soyuqqanlı aparması Sultan Səlimi hövsələdən daha da çıxardı. O, Səfəvi sərhədinə doğru hərəkətini davam

etdirdi və iyul ayının 13-də Səfəvi sərhədi yaxınlığında olan Çay suyu çayına yetişdi. Bu çay həm də Ərzincan yaxınlığında idi. Bu şəhərin Səfəvi hakimi Osmanlı qoşunlarının yaxınlaşması xəbərini eşidincə oradan uzaqlaşdı. Ərzincan əhalisinin bir qrup nümayəndəsi Sultan Səlimin yanına gələrək ondan aman istədi və şəhərin talan edilməməsini xahiş etdilər. Sultan Səlim də bu xahişi bir şərtlə qəbul etdi ki, Ərzincan əhalisi Osmanlı qoşunlarına ərzaq və yem satsın. Ərzincan əhalisi də buna razı oldu (117).

Ərzaq və qoşunlarda olan heyvanlar üçün yem məsələsi Osmanlı qoşunları üçün ciddi bir problemə çevrilməkdə idi və Ərzincan əhalisindən alınan ərzaq və yem qoşunların bütün ehtiyacını ödəmək imkanına malik deyildi. Mövcud olan məlumatlara görə, Səfəvi sərhədləri hüdudlarında Şah İsmayılın əmri ilə ətraf aləm talan edilmiş, Osmanlı qoşunları üçün ərzaq və yem ehtiyatları saxlanmamışdı. Osmanlı qoşunlarının bölmələri ərzaq toplanması üçün ətraf məntəqələri və əraziləri gəzib-dolaşsalar da bu istiqamətdə ciddi bir nəticə əldə edə bilmirdilər. Ərzaq və yem çətinliklərinin mövcud olacağı və bu məsələnin ciddi bir problemə çevrilə biləcəyi əvvəlcədən də məlum idi və qoşun başçıları da bununla bağlı Sultan Səlimi xəbərdar etmişdilər. Səfəvi hüdudlarına yaxınlaşdıqca qoşunlarda özünü göstərən vəziyyət də bunu təsdiq edirdi. Ərzaq və yem probleminin həll edilməsi üçün Sultan Səlim səltənətin içəriləri ilə əlaqə yaratmağa çalışırdı. Səltənətin mərkəzində və şimalında toplanmaqda olan ərzaq və yem gəmilər vasitəsilə Trabzona, oradan da qoşunlara çatdırılırdı. Bu yüklər çox uzaq məsafədən daşınırdı. Məsələn, səltənətin Avropa hissəsi ilə Çaldıran düzünə qədər olan məsafə 2 min kilometrə yaxın idi. Bu, həm də böyük zəhmət tələb edirdi. Trabzondan yüklərin qoşunlara çatdırılması üçün çox böyük sayda yük heyvanları ayrılmışdı. Bu məqsədlə qoşunların tərkibində şotorxana (dəvə dəstəsi) və qatırxana yaradılmışdı. Mövcud məlumatlara görə, yüklərin daşınması üçün Osmanlı qoşunlarında olan dəvələrin sayı 60 min başa çatırdı. Bundan başqa qoşunların tərkibində olan əmirlərin, əyanların, qoşun başçılarının, hətta sultanın və vəzirlərin sərəncamında olan dəvə və qatırlar da qoşun yüklərinin daşınmasına cəlb edilmişdi. Bütünlükdə yük heyvanlarının sayı 70 min başa çatmışdı (118).

Bir neçə günlük istirahətdən sonra Sultan Səlim və onun qoşunları Kəmax qalası yaxınlığına gəldilər.

Osmanlı qoşunlarının Ərzincan-Kəmax ətrafında olduğu günlərdə Şah İsmayıl tərəfindən göndərilmiş elçilərin Sultan Səlimin hüzuruna çatması haqqında elmi-tarixi ədəbiyyatda bəzi xəbərlər mövcuddur. Bu xəbərlərin biri Övliya Çələbinin qeydlərinə əsaslanır. Bildirilir ki, Şah İsmayılın elçiləri Trabzon ətrafında olarkən yerli hakimin sərəncamında olan döyüşçülər onların üzərinə hücum çəkdilər və elçilərin malını və pulunu ələ keçirmək üçün onları qətlə yetirdilər. Sonradan həmin döyüşçülər Şah İsmayılın məktubunu özləri Sultan Səlimə çatdırdılar. Sultan Səlim biləndə ki, məktubu gətirənlər Səfəvi elçilərini öldürənlərdir, onda onların da qətlinə fərman verdi (119).

Başqa bir məlumata görə isə, həmin məktub Diyarbəkr hakimi Məhəmməd xan Ustaclı tərəfindən Sultan Səlimə göndərilmişdi. Bildirilir ki, bu məktub Şah İsmayılın göstərişi ilə göndərilmişdi. Həmin məktubun mətni elmi dövriyyədə mövcud deyil. Ümumiyyətlə, Məhəmməd xanın belə bir məktubun Sultan Səlimə göndərməsinə cəsarət edəcəyi şübhə doğurur. Bununla belə, bildirilir ki, Məhəmməd xan Ustaclı tərəfindən Sultan Səlimə bir ədəd qılınc və bir dəst qadın paltarı da göndərilmişdi. Guya, Şah İsmayıl bununla Sultan Səlimə çatdırmaq istəyirmiş ki, əgər döyüşmək istəyirsənsə, onda qılıncı belinə bağla və döyüş meydanına çıx. Yox, əgər döyüşmək istəmirsənsə, onda qadın paltarını əyninə geyin (120).

Kəmax qalası ətrafında cərəyan edən hadisələr haqqında elmi-tarixi ədəbiyyatda müxtəlif məlumatlar mövcuddur. Bir məlumata görə, Kəmax qalası kifayət qədər möhkəm bir qala idi və bu qala Səfəvi qoşun bölmələri tərəfindən müdafiə olunurdu. Məlumata görə, bu qalanın alınması çox vaxt aparacağı üçün Sultan Səlim buna vaxt ayırmadı və qalanı adlamağı məqsədəuyğun saydı. Bir neçə gündən sonra Osmanlı qoşun dəstələri Kəmax və Bayburd qalaları ətrafındakı yaşayış məntəqələri üzərinə soyğunçu yürüşlər təşkil etdi və bu yürüşlər zamanı böyük miqdarda ərzaq ələ keçirmək mümkün oldu. İyul ayının 19-da Sultan Səlimin qəbuluna Misir hakiminin elçisinin gəldiyi bildirilir. Verilən məlumata görə, Şah İsmayıl ilə yaxşı münasibətlərdə olan Misir hakimi göndərdiyi məktub vasitəsilə Osmanlı sultanı ilə Səfəvi şahı arasındakı münasibətlərin yaxşılaşmasına vasitəçilik etmək istəyirdi. Türkdilli tarixi ədəbiyyatda olan məlumata görə, Sultan Səlim bu təklifi qəbul etmədi. Bununla belə, Misir elçisini Sultan Səlim qonaqpərvərliklə qarşıladı və hörmətlə də yola saldı (121).

Amma Səfəvi qoşunlarına qarşı döyüşün baş verməməsi, qoşunlar daxilində mövcud olan çətinliklər qoşun əhli daxilində Şah İsmayıla qarşı nəzərdə tutulan kampaniyanın məqsədəuyğunluğuna şübhəni artırmaqda idi. Osmanlı qoşunları 1514-cü ilin mart ayından etibarən toplanmağa başlamışdı. Mart ayından etibarən çox böyük sayda qoşun dəstəsi düşərgə həyatına qatlaşmalı olmuşdu və bu ağır düşərgə həyatının hələ nə qədər uzanacağı da məlum deyildi. Ev-eşikdən uzaq düşmək, ağır səfər həyatına dözmək qoşunların səbrini əlindən almaqda idi. Bir tərəfdən də təchizat çətinlikləri qoşunlar daxilində narazılıqları artırmaqda idi. Osmanlı qoşunlarının təchizat məsələsi etibarlı şəkildə təmin olunmamışdı və buna bir zəmanət də yox idi. Səfəvi sərhədlərinə yaxınlaşdıqca viran edilmiş ərazilərlə rastlaşmaları isə qoşun əhlinin təchizat ümidlərini də heçə endirirdi. Yəni, Osmanlı qoşunları perspektivi kifayət qədər aydın olmayan ağır bir yürüşün onlara gətirdiyi çətiniklərdən narazı idi və vaxt ötdükcə bu narazılıq daha aydın və daha kütləvi şəkildə özünü göstərməyə başladı. Bir tərəfdən də Osmanlı qoşunları daxilində və hətta saray əyanları arasında Şah İsmayıla və bütünlükdə Səfəvi xanəgahına rəğbətlə yanaşanlar artmaqda idi. Bu insanlar Şah İsmayıla qarşı belə bir kampaniyanın keçirilməsini istəmirdilər və onlar qoşun əhli arasında Şah İsmayılın müharibə istəməməsi, bu müharibənin ağır nəticələrə yol aça biləcəyi haqqında söz-söhbətlər yayırdılar. Belə söhbətlər

isə hərbi yürüşün əziyyətlərindən cana gəlmiş qoşun əhli arasında Sultan Səlimin arzusunda olmadığı bir əhval-ruhiyyəni yaratmaqda idi. Nəhayət, bu söz-söhbətlər narazılıq şəklində özünü göstərdi. Onun nəticəsi idi ki, qoşun başçıları, əyanlar və əmirlərin bir hissəsi Osmanlı qoşunlarının Ərzincan ətrafından geri dönməsini daha məqsədəuyğun saydılar. Mövcud olan məlumata görə, Şah İsmayıla qaşı hərbi yürüşün davam etdirilməsini mənasız sayan qoşun başçıları və əmirlər əvvəlcə yeniçəriləri müharibənin aparılmasına qarşı qalxmağa təhrik etməyə çalışdılar. Məlumdur ki, yeniçərilər heç də bu yürüşün başlanmasına tərəfdar deyildilər. Ona görə qoşun daxilində formalaşmaqda olan narazılıqlar yeniçərilər tərəfindən Sultan Səlimə çatdırıldı və ondan xahiş edildi ki, hərbi yürüş dayandırılsın və qoşunlar geri çəkilsin. Lakin Sultan Səlim bu xahişi qəbul etmədi (122).

Belə olanda hərbi yürüşün davam etdirilməsindən narazı olanlar Qaraman bəylərbəyi Həmdəm paşanı vasitəçi etməyə, onun vasitəsilə hərbi yürüşü dur-durmağa cəhd göstərdilər. Həmdən paşa da bu yürüşdə iştirak edirdi və o, Sultan Səlimə çox yaxın olan adamlardan biri idi. Həmdəm paşa sarayda böyümüşdü və Sultan Səlimin taxt-tac uğrunda qardaşı Sultan Əhmədə qarşı mübarizəsində ona faydalı xidmətlər göstərmişdi. Sultan Səlim də bu xidmətlərin qarşılığı kimi onu Qaraman bəylərbəyi təyin etmişdi. Həmdəm paşanın sultan yanında elə bir etimadı və hörməti var idi ki, onlar bir-biri ilə çox səmimi münasibətlərə malik idilər və təklikdə ən müxtəlif məsələlər üzrə bir-biri ilə məsləhətləşmələr də aparırdılar. Ona görə də hərbi yürüşün davam etdirilməsinə narazı olanlar Həmdəm paşanın sultana olan yaxınlığından bəhrələnməyə qərar verdilər. Həmdəm paşa da narazıların fikrini Sultan Səlimə çatdırmağa söz verdi. Çox güman ki, narazılar bu yürüşün gərəksizliyi fikrinə Həmdəm paşanı da inandıra bilmişdilər. Həmdəm paşa da bu fikirləri Sultan Səlimə çatdırdı. Sultan Səlim isə yenə də bu fikirlərlə razılaşmadı. Özü də o, nəinki hərbi yürüşü dayandırmadı, hətta qoşun daxilində formalaşmış olan müxalifətçiliyi kökündən qoparmaq üçün ən yaxın sirdaşlarından biri olan Həmdəm paşanı belə bir xahişi onun qarşısında qaldırmağa cəsarət etdiyi üçün edam etdirdi (123).

Hər halda qoşunlar daxilində mövcud olan narazılıqlar Sultan Səlimə təsirsiz ötüşmədi. Vaxtın uzanması, Şah İsmayılın onun qarşısına çıxmaması Sultan Səlimin də hövsələsini daraltmaqda idi. Əgər hərbi yürüş xeyli uzanmış olsaydı sözsüz ki, qoşunlar daxilində narazılıqları daha da artıra bilərdi. Ona görə də Sultan Səlim, Şah İsmayılın planlarından, Səfəvi qoşunlarının hərəkətlərindən xəbər tutulması üçün kəşfiyyat işlərini daha da genişləndirdi. Sultan Səlim həm Səfəvi döyüşçülərinin əsir alınması ilə, həm də Səfəvi daxilinə casuslar göndərməklə geniş məlumatlar əldə etməyə çalışırdı. Bu məqsədlə Əli bəy Şahsuvaroğlu adlı əmirini bir qoşun dəstəsi ilə Səfəvi sərhədlərinə doğru irəli göndərdi. İyul ayının 24-də isə Mehmet bəy Mihaloğlu və Bali Voyevodanın rəhbərliyi altında akınçıları müxtəlif istiqamətlərə göndərdi. Belə güman edilirdi ki, bu dəstələrin müxtəlif istiqamətlərə göndərilməsi həm də

qoşunların başını qatacaq və onlar arasında narazılıqların artmasının qarşısını alacaqdır (124).

Sultan Səlimin həmin günlərdə əldə edə bildiyi məlumatlar isə onun üçün elə də ürəkaçan olmadı. Bir məlumata görə, Şah İsmayılın Osmanlı qoşunları ilə döyüşmək niyyəti yox idi. Guya, Şah İsmayıl bilirdi ki, Osmanlı qoşunlarının sayı xeyli çoxdur və bu qoşunların qarşısını saxlamağa gücü çatmayacaqdır. Ona görə də bildirilir ki, Şah İsmayıl Osmanlı qoşunlarını Səfəvi daxilinə çəkməklə onları yormaq və əldən salmaq istəyirdi. Osmanlı qoşunlarının irəliləyə biləcəyi marşrut üzrə ərzaq ehtiyatlarının məhv edilməsi isə Osmanlı qoşunlarının vəziyyətini getdikcə ağırlaşdıra bilərdi. Bundan əlavə nəzərdə tutulubmuş ki, Səfəvi hüdudları daxilində çox qaldığı təqdirdə Osmanlı qoşunları qışa düşəcək və qış fəslində bu qoşunların üzərinə qəfil hücumlar həyata keçirməklə onlara ağır zərbələr vurmaq mümkün olacaqdır. Məlumata görə, Sultan Səlim bu xəbərin qoşunlar arasında yayılmasından ehtiyat etdi və ona görə də həmin xəbəri gətirən casuslar həbs edildi ki, həmin xəbərin yayılması ilə qoşunlar daxilindəki müxalifətçilik daha da genişlənməsin (125).

Bildirilir ki, bu məlumatdan Sultan Səlim xeyli əsəbiləşdi və Ərzincan ətrafında olduğu günlərdə Şah İsmayıla üçüncü məktubunu göndərdi. Həmin məktub türk dilində yazılmışdı. Bu məktubun fars dilindən çevrilmiş mətni belədir:

"Qocaq İsmayıl, - Allah sənin əməllərini islah etsin! - əməl edilməsi lazım olan bu fərman sənə çatdıqda məlumun olsun ki, İslama qarşı hörmətsizlik və məxluqatın ağasının, - salam olsun ona, - şəriətini məhv etməyə ciddi-cəhdlə çalışmağın [haqqında] yetərincə xəbər almışıq. Fitnə-fəsad dairəsinin mərkəzi olan zərərli vücudunu ruzigarın səhnəsindən iti qılınc və xəncər ilə silmək bütün müsəlmanlara, ümumiyyətlə, əmr sahibi olan sultanlara və qüdrətli xaqanlara isə xüsusilə vacibdir. Alimlər və din rəhbərləri, - Allah qiyamətə qədər onların sayını artırsın, - yekdilliklə fətva verib əsasən Məhəmmədin (s) dini qanunlarını dirçəltmək və Əhmədin (s) şəriət hökmlərini bərpa etmək üçün düşmən şikarına susamış çoxsaylı ordu ilə səni [məğlub etmək] məqsədi ilə Şərqə doğru yönəldim. Bu səfərimlə sənin hökmranlıq etdiyin və tabeçiliyində olan torpaq və ərazilər fəth bayrağımın dalğalanması şərəfinə nail olacaqdır. Ərsənsə meydana çıx. Uca və pak olan Allahın iradəsi nədirsə gerçəkləşsin deyə buyurmuşdum. Bundan (məktubu yazmaqdan) məqsədim budur ki, bir neçə ay əvvəldən [yola çıxmağımdan] xəbərin olsun və lazımi tədarük görəsən. Sonra qəfil yaxalandım, hakimiyyətim altında olan xalqı tamamilə toplamağa (səfərbər etməyə) macal tapa bilmədim deyə bəhanə gətirməyəsən. Uzun müddətdir ki, dünya çoxsaylı əsgərlərindən cana gəlmiş, hava nizə ucu və silahın bir-birinə dəyməsindən təngnəfəs olmuş, yer üzü tökülən at nallarından dəmirə bürünmüş səma sərt şeypurun gurultulu [səsindən] lərzəyə gəlmişdir.

Bu əsnada səndən [bizə qarşı] gizlin və ya aşkar, xeyir və ya şər [olmasından asılı olmayaraq] cəsarətə eyham vuran bir vəziyyət müşahidə edilməmişdir. Xüsusilə də hazırda Azərbaycanda olan dağ və təpələrdə qalib ordunun

dördayaqlılarının dırnaq izi aypara ilə dolu səmaya dönmüşkən, hələ ki, nə səndən bir səs-soraq var, nə də gözə dəyirsən. Elə yox olmuşsan ki, varlığınla yoxluğun arasında fərq yoxdur. Qılınc davası edənlərinin qalxan kimi bəlalara sinə gərmək peşələri olmalı, ağalıq iddiası edənlərin dəbilqə kimi ox və nizə zərbələri ilə qarşılaşmaq qorxusu olmamalıdır.

Nəzm:
Kimsənin mələk gəlini kənarda yaxınlıq edərsə
İti qılıncın qırağına öpüş verər

Təhlükəsiz yerdə pərdə arxasında gizlənənləri ər adlandırmaq xətadır. Ölümdən qorxanların qılınca qurşanıb ata minməsi isə bəyənilməz haldır.

Beyt:
Ölümə doğru getməkdən kimsə qaçırsa
Zorla dartıb [ölümə doğru] yerindən tərpədərlər

Belə bir vəziyyətdə gizlənərək bir küncə sıxılıb gözə görünməmənin səbəbi böyük ehtiramla müqayisəolunmaz dərəcədə güclü qoşunumdan qorxub çəkinməndir. Elə isə belə bir ehtimalın (səndəki bu qorxunun) aradan qaldırılması üçün 40 min nəfərdən ibarət igid əsgərin ordumdan ayrılaraq Qeysəriyyə ilə Sivas arasında düşərgə salmasını əmr etdim. Düşmənə at oynatması və meydanı boş görməsi üçün bu qədər [fürsət] verilə bilər və bundan artıq olmaz. Əgər səndə az da olsa qeyrət və cəsarət varsa, gəlib şanlı və qalib əsgərlərimlə qarşılaşarsan. İlahi təqdirdə nə varsa o da Allah-təalanın izni ilə həyata keçər. Hidayət yolunun yolçularına salam olsun!

920-ci ilin Cəmadiəl-əvvəl ayının sonlarında Ərzincan yurdunda yazıldı" (126).

Şah İsmayılı təhqir etmək yolu ilə müharibəyə təhrik edilməsi üslubu Sultan Səlimin bu məktubunda da saxlanmışdı. Burada Osmanlı sultanı daha açıq və qətiyyətli şəkildə bəyan etdi ki, alimlərin və din rəhbərlərinin verdiyi fitva əsasında böyük saylı bir qoşun dəstəsi ilə Şah İsmayıla qarşı müharibə yürüşünə başlamışdır. Sultan Səlim özünə arxayınlıqla bildirirdi ki, Şah İsmayılın hökmranlıq etdiyi əraziləri fəth edəcək və onun ərazilərində öz bayrağını dalğalandıracaqdır. Sonra isə Sultan Səlim məktubunda Şah İsmayıla qarşı öz şərtini irəli sürürdü ki, kişisənsə meydana çıx. Sultan Səlim məktubuna əlavə olaraq sufi şeyxlərinə məxsus olan cirgə, kəşkül və təsbih də Şah İsmayıla göndərmişdi. Bu əşyaların göndərilməsi ilə də Sultan Səlim kobud müraciət tərzini saxlamışdı. Sultan Səlim bununla Şah İsmayıla çatdırmaq istəyirdi ki, ya döyüş aparılmasını qəbul et, ya da şahlıqdan imtina et, əyninə sufi paltar geyinib sufiliklə məşğul ol (127).

Bu məktubdan sonra Şah İsmayıl nəhayət ki, Sultan Səlimə cavab vermək qərarına gəldi. İsfahan ətrafında ovla məşğul olduğu günlərdə o öz məktubunu

yazdı və Şahqulu Ağabəyi adlı bir xidmətçisi ilə Sultan Səlimə göndərdi. Həmin məktub Sultan Səlimə Kəmax qalası ətrafında olarkən çatdırıldı. Sultan Səlimin məktublarından fərqli olaraq Şah İsmayılın məktubu dövlətlərarası münasibətlərin protokolu çərçivəsində, kifayət qədər nəzakətli bir məzmunda yazılmışdı. Həmin məktubun məzmunu həm də onu da göstərdi ki, Şah İsmayılın Osmanlı qoşunlarından ehtiyat edərək ölkənin içərilərinə doğru məqsədyönlü şəkildə çəkilməsi haqqında yuxarıda toxunulan məlumatlar heç də doğru deyildi. Sultan Səlim, Səfəvi sərhədlərinə doğru hərbi yürüş etdiyi günlərdə Şah İsmayıl sakit və aram şəkildə ovla məşğul idi və istirahət üçün çoxlu vaxt ayırırdı.

Sultan Səlimin üçüncü məktubundan sonra Şah İsmayılın ona yazdığı cavab məktubunun mətni belədir:

"İlahi lütfü əldə edən, səltənəti ilə yamyaşıl İslam bağının himayəsində duran (İslamın himayədarı), dövlət, səltənət, dünya və din yolunun mücahidi cənab Sultan Səlim şaha, - Allah dövlətinizi daimi, əbədi səadətinizi isə tükənməz etsin, - sevgi və məhəbbət dolu salam və dualarımı göndərir və görüşmək arzusunda olduğumu bildirirəm.

Mətləbə gəldikdə, bir-birinin ardınca göndərdiyin mübarək məktubların sayı üçə çatmış oldu. Gəlib çatan [məktubların] məzmununda ədavət, cürət və sərtliyin payı daha çox idi. Lakin onun mənşəyinin nə olduğunu bilmədik. Cənnətməkan atanızın zamanında, - Allah qəbrini nurla doldursun, - bizim uğurlu yürüşümüz Əlaüddövlə Zülqədərin dikbaşlığına görə Rum sərhədlərinə gəlib çıxsa da, hər iki tərəfdən dostluq və həmrəylikdən başqa heç nə müşahidə edilmədi. Cənabınız da Trabzon valisi olan zaman həmrəyik nümayiş etdirdiniz. Hazırkı kin-küdurətin səbəbi isə məlum deyil. Düşünürəm ki, buna səni səltənət məqamı məcbur edir.

Şeir:
Söz dava-dalaşı o həddə çatdırar ki,
Köhnə dostluqları viran edər

Bizim həmin bölgəni görməməzlikdən gəlməyimizin səbəbi iki şeydir: Birincisi budur ki, o diyarın əksər sakinləri bizim əsil-nəcabətli əcdadımızın, - bağışlayan və qüdrətli Allah öz mərhəmətini onlardan əsirgəməsin, - müridləridir. [İkincisi isə İslam uğrunda vuruşan] o ailəyə olan məhəbbətimizin [tarixi] qədimdir. Teymurilər dövründə o diyara edilən yürüşü [təkrar etmək] istəmirdik və hələ də istəmirik. Bu olanlara görə incimirik, niyə də inciyək ki?

Sultanlar [arası] ədavət, qədim ənənələrdəndir
Kimsənin mələk gəlini kənarda yaxınlıq edərsə
İti qılıncın qırağına öpüş verər

[Sultanlara] yaraşmayan ifadələrə gərək yoxdur. Şübhəsiz ki, həmin dəniz ifadə və fikirlər katiblərinin və tiryək çəkməkdən beyinləri qurumuş mirzələrin

yazdığı uydurmalardır. Bu qədər ləngimənin də bir zərurəti olduğunu düşünürəm. Buna görə də möhürümüzlə möhürlənmiş xüsusi keyfiyyətli qızıl ilə dolu mücrünü (qutunu) ən yaxın və ən etimad etdiyimiz Şahqulu ağa, - ruzisi bol olsun, - ilə birlikdə göndərdim ki, əgər lazım olsa istifadə edərsən. Tezliklə gəlib çıxacaqdır. Allahın köməyi ilə qəzavü-qədərdə nə yazılıbsa o da baş verəcəkdir. Amma kiminsə sözünə əhəmiyyət vermədən ciddi şəkildə düşün ki, sonrakı peşmançılıq fayda verməz.

Bu məktub biz İsfahan torpağında ov edərkən yazıldı. Sizinlə dərhal qarşılaşmağa tədarük görməyə başlamaqla yanaşı, dostcasına cavab yazdıq ki, istədiyiniz kimi hərəkət edəsiniz (seçim sizindir).

Sənin bu istəyini çoxları təcrübə etdilər
Əli övladlarına qarşı çıxan məğlub olar

Səni çox incitmədən "heç bir günahkar başqasının günahını daşımaz" [əl-Ənam surəsi, 164-cü ayə] demək istəyirəm ki, əgər [bu] iş müharibə ilə nəticələnəcəksə, süstlük edib yubanma. Lakin sonunu da düşün. Vəssəlam" (128).

Şah İsmayılın bu məktubu müharibə ərəfəsində iki böyük dövlətin hökmdarlarının hansı psixoloji durumda olmasını müəyyənləşdirməyə imkan verir. Sultan Səlimdən fərqli olaraq Şah İsmayıl kifayət qədər sakit və aramla iki dövlət arasında cərəyan edən hadisələrə cavab verdi və cərəyan edən proseslərə də biganə qalmadığını nümayiş etdirdi. Məktubdan aydın olur ki, müharibə seçiminin təşəbbüskarı heç də Şah İsmayıl deyildi. Əksinə, Şah İsmayıl təmkinli şəkildə Sultan Səlimi də iki dövlət arasındakı münasibətlərin müharibə həddinə çatdırılmasından çəkindirməyə çalışırdı. Şah İsmayıl hətta Osmanlı üzərinə hücum etmək fikrində olmadığını da Sultan Səlimə çatdırır və bunun səbəbini də açıqlayırdı. Həmin səbəblərdən biri onunla bağlı idi ki, Osmanlı ərazisində yaşayan insanların çoxu Səfəvi xanəgahının müridləri idi və Şah İsmayıl da onları müharibə od-alovu ilə qarşı-qarşıya qoymaq istəmirdi. İkinci səbəbi isə Şah İsmayıl Osmanlı ərazilərinin müharibə viranəliklərinіə məruz qalmasını istəməməsi ilə bağlayırdı. Bununla bağlı konkret misal olaraq Əmir Teymurun hərbi yürüşünün Osmanlı ərazilərin gətirdiyi bəlalar göstərilirdi. Şah İsmayıl bəyan edirdi ki, biz Osmanlı ərazilərinin yenidən belə bir duruma düşməsini istəmirik.

Şah İsmayılın Osmanlı qoşunlarının hücum xəbəri haqqında xəbəri var idi. O, ən azı Sultan Səlimin ilk üç məktubundan bu barədə məlumat almışdı. Amma bu yürüşün qarşısının alınması üçün ciddi müharibə hazırlığı aparmırdı. Yəni, Şah İsmayılın özünə və öz qüvvələrinə arxayınçılıqda ifrata varması onu sonradan ciddi sınaqlar qarşısında qoydu. Lakin inandırıcı deyildi ki, Səfəvi daxilində Osmanlı qoşunlarına qarşı hər hansı bir hazırlıq görülmürdü. Onun vaxtını ovda keçirməsi haqqında Sultan Səlimə yazdıqları da heç şübhəsiz ki, bütün qayğılardan kənar olması demək deyildi. Çox güman ki, Şah İsmayıl bununla Sultan Səlimin hücumunu ciddi qəbul etmədiyini anlatmaq istəyirdi. Ona görə də

döyüşə hazır olduğunu bildirirdi. Şah İsmayıl həm də Sultan Səlimi müharibəni nə ilə qurtara biləcəyini düşünməyə də çağırırdı.

Şah İsmayıl Osmanlı sultanının məktubunda yol verilmiş nəzakətsizliyin padşah şəninə uyğun olmadığını da Sultan Səlimin diqqətinə çatdırırdı. O, eyhamla bu nəzakətsizliyin Osmanlı sultanı tərəfindən edilə biləcəyinə inanmadığını bildirir və güman etdiyini söyləyirdi ki, Şah İsmayıla yazılmış məktublarda yol verilmiş kobud ifadələr Osmanlı sultanının nəşəli katiblərinin işidir. O, məktubuna əlavə olaraq qızıl qutu içərisində tiryək də göndərdi və Sultan Səlimə təklif etdi ki, bu tiryəki nəşə həvəskarı olan mirzələrinə və katiblərinə bağışlasın.

Beləliklə, Şah İsmayıl Osmanlı sultanının müharibə çağırışını qəbul etdiyini bildirdi və özü də müharibəyə hazırlaşmağa başladı.

Bəzi məlumatlara görə, Sultan Səlimin də tiryəkə meyli var idi. Şah İsmayıl tiryəki başqa ad altında göndərsə də, əslində Sultan Səlimi nəzərdə tuturdu və bununla Sultan Səlimə istehza edirdi. Bu istehzanın mahiyyəti isə Sultan Səlimə heç də gizli qalmadı və Şah İsmayılın məktubundan və göndərdiyi "hədiyyədən" son dərəcə qəzəbləndi. Bu qəzəbin şiddəti o dərəcədə idi ki, Sultan Səlim hətta Şah İsmayıldan məktub gətirən elçinin qətlinə də fərman verdi (129).

Şah İsmayılın məktubunu oxuyandan sonra onun müharibəyə başlayacağı haqda Sultan Səlimdə bir əminlik hasil olmadı. Bu da bir tərəfdən onun qəzəbini artırdı. Çünki müharibə ilə bağlı planlara aydınlıq gəlməməsi qoşunlar daxilində narazılıqların genişlənməsinə də bir təkan verə bilərdi. Ona görə də Sultan Səlim qoşun başçılarının və vəzirlərinin toplantısında qəzəblə bildirdi ki, Şah İsmayıl hara qədər çəkilsə də onun ardınca gedəcəkdir (130).

İstər mənbələrdə, istərsə də müəyyən elmi-tarixi ədəbiyyatda Şah İsmayılın Osmanlı qoşunlarının hərbi yürüşü qarşısında soyuqqanlılıq göstərməsini onun məqsədyönlü siyasəti kimi qələmə verirlər. Əslində, onun soyuqqanlı olması, çox böyük sayda olan Osmanlı qoşunlarının hücumuna dərhal cavab verməməsi Sultan Səlimin hövsələsini daraltmaqda və onun rəhbərlik etdiyi qoşunların isə parçalanmasına yol açmaqda idi. Şah İsmayıl belə bir strategiyanı davam etdirəcəyi təqdirdə Osmanlı qoşunlarına güclü bir zərbə vurmuş olardı. Bunu Sultan Səlim də hiss edirdi və ona görə də Şah İsmayılı müharibəyə təhrik etmək üçün ona yeni bir məktub göndərdi. Bu məktub Çaldıran müharibəsi ərəfəsində Sultan Səlimin Şah İsmayıla göndərdiyi dördüncü məktubu idi. Həmin məktub da türk dilində yazılmışdı və bu məktubun fars dilinə tərcümə olunmuş mətninin tərcüməsi aşağıdakı kimidir:

"Qoçaq İsmayıl, - Allah əməllərini islah eləsin, -itaəti vacib olan şərafətli hökm və dünyanın itaət etdiyi uca məktubum [sarayına] çatdıqda məlumun olsun ki, hüzuruma məktub göndərib cəsarətli ifadələr söyləmiş və cürət tələb edən bir şey göndərərək "gəlməyə tələsin ki, intizardan xilas olaq" deyə bildirmisən. İndi biz zatımıza həkk olunan hal və təbiətimizdəki cəsarətə uyğun olaraq səni öldürmək məqsədi ilə saysız-hesabsız ordu və qələbə rəmzi olan fəth

bayraqlarımızla uzaq məsafələri qət edib hakimiyyətin altında olan məmləkətə daxil olduq. Əmr sahibləri olan sultanların, padşahlıq qüdrətinə sahib olan xaqanların inancına görə, idarəçiliyi altında olan məmləkətlər onların namusu (kəbinində olan qadınlar) kimidir. Kişilikdə pay sahibi, mərdlikdə bəhrəsi, heç olmazsa daxilində zərrə qədər özəyi olan bir şəxs üçün başqasının onun [namusuna] hücum etməsinə dözmək ehtimalı yoxdur. Elədirsə neçə gündür ki, güclü və qalib əsgərlərim məmləkətinə daxil olub səfa sürürlər, nə səndən bir səs-soraq var, nə də gözə dəyirsən. Elə yox olmusan ki, varlığın ilə yoxluğun arasında bir fərq yoxdur.

Şeir:
Bu rüsvayçılıqdan əbədi olaraq mehtərlər
Qoşunlara yük tutarlar

Əlavə cürət əldə etməyə kimin ehtiyacı vardır? Bütün baş verənlərə nəzər saldıqda bu zamana qədər səndən mərdlik və igidliyin müşahidə edildiyi bir iş görünməyib. Gördüyün işlər də bütünlükdə hiylə və fırıldağın səmərəsidir. Heç şübhə yoxdur ki, müvəqqəti cəsarətin nəticəsi ancaq hiyləgərlik və riyakarlıq olur. Hələ mübtəla olduğun dərdin davası da məlumdur. O deyiləsi olmayan şeydən istifadə etməklə qəlbini gücləndirmişsən. İstifadə etməyə davam et, bəlkə o zaman qarşımıza çıxmağa cəsarətin olar. Bu baxımdan sənə həddindən artıq güzəşt olmuşdur. Sənin qəlbindəki qorxunu aradan qaldırmaq üçün müzəffər ordumdan 40 min əsgəri ayıraraq Sivas və Qeysəriyyə arasında qalmalarını əmr etdim. Düşmənə qarşı mərhəmət ancaq bu qədər olar, bundan artıq olmaz. Əgər bundan sonra da keçmişdə olduğu kimi qorxu və dəhşətdən bir küncə sıxılsan, [igid] adı sənə haramdır. Dəbilqə yerinə məhəccər, zireh yerinə çarşab ixtiyar edib rəhbərlik və ordu başçılığı sevdasından vaz keçərsən" (131).

Bəzi məlumatlara görə, Sultan Səlim dördüncü məktubu ilə Şah İsmayıla qadın paltarları və bəzək əşyaları da göndərmişdi ki, onların vasitəsilə Səfəvi şahını tezliklə müharibəyə təhrik edə bilsin (132). Amma Şah İsmayılın Osmanlı sultanının üçüncü məktubuna cavabından görmək mümkündür ki, həmin məktubdan sonra müharibə hazırlıqlarına başlamağı qərara almışdı.

### 7. Osmanlı qoşunlarının rastlaşdığı çətinliklər

1514-cü il iyul ayının 30-da Osmanlı qoşunları Tercan yaxınlığındakı Əskitəpə adlı məntəqəyə yetişdi. Burada olarkən Sulat Səlim bir qoşun dəstəsini Bayburt qalasının ələ keçirilməsinə göndərdi. Yanya sancaq bəyi Yılak Mustafa bəylə Trabzon sancaq bəyi Mehmet bəy Bayburta göndərilən qoşun dəstəsinin rəhbəri təyin edildilər. Sonra isə qoşunlar şərqə doğru irəliləməyi davam etdirdilər və avqust ayının 2-də artıq Germuka yetişdilər. Şah İsmayıla sonuncu məktubun da məhz Germukdan göndərildiyi bildirilir. Avqustun 3-də Səfəvi qoşunları haqqında daha geniş məlumatların əldə edilməsi üçün edam edilmiş

Həmdəm paşanın yerinə Qaraman bəylərbəyi təyin edilmiş Zeynal paşa irəli göndərildi (133).

Avqust ayının 9-da Osmanlı qoşunları Sökmən adlanan məntəqəyə yetişdilər. Burada olarkən Gürcüstan hakiminin elçisi Sultan Səlimin yanına gəldi. Gürcü hakimi məktubla bərabər, Osmanlı qoşunlarının ərzaq təminatı üçün 2 min baş qoyun da göndərmişdi. Gürcüstan hakiminin göndərdiyi bu qoyunlar doğrudan da Osmanlı qoşunlarının ərzaq təminatını bir qədər yaxşılaşdırdı. Lakin bu məsələ bütünlüklə həll edilmədi. Məlumdur ki, ərzaq çətinliklərinin olması da Osmanlı qoşunları arasında mövcud olan narazılıqların səbəblərindən biri idi. Müharibənin başlanmasının uzanması, qoşunlar daxilində təchizat çətinlikləri və uzun səfərin yorğunluqları narazılıqların yenidən baş qaldırmasına səbəb oldu. Həmdəm paşanın edam edilməsi qoşunlar daxilindəki narazılıqları bir qədər səngitsə də, onu birdəfəlik aradan qaldırmadı. Nəticədə, avqust ayının 16-da Osmanlı qoşunları Ələşkert yaxınlığındakı Səqalu (Səqallu) kəndi ətrafında olarkən yeniçərilər öz narazılıqlarını açıq şəkildə ortaya qoydular.

Ehtimal edilir ki, yeniçərilərin narazılıqları olsa da, onları bu üsyana təhrik edənlər də var idi. Bu üsyana başlıca səbəb müharibənin ləngiməsi, Sultan Səlimin seçdiyi taktikanın yararsızlığı, təchizat və təminat məsələlərinin lazımi səviyyədə təşkil edilməməsi olmuşdu. Bundan başqa qoşunların yürüşünün uzanması, səltənətin təchizat mərkəzlərindən daha da uzaqlaşması, qoşun əhlini ciddi şəkildə yormuşdu. Bildirilir ki, yeniçərilər də bu yürüşdən üzgün vəziyyətə gəlmişdilər. Hətta onların geyimləri də yararsız hala düşmüşdü. Bu paltarları və ayaqqabıları dəyişmək imkanı isə yox idi. Ərzaq çətinlikləri də günü-gündən artmaqda idi. Müəyyən vaxtdan sonra qoşunlar daxilində ərzaq paylanmasına müəyyn məhdudiyyətlərin tətbiqi başladı. Belə bir vaxtda yeniçərilər "padşahımız mərhəmət qılsın və geri dönəyin" deyə məsələ qaldırdılar. Sultan Səlim isə yenə də bu narazılıqlara birmənalı şəkildə mənfi cavab verdi və bu da yeniçərilər tərəfindən üsyan qaldırılmasına yol açdı. Yeniçərilər qətiyyət göstərərək tələblərinin yerinə yetirilməsinə nail olmaq üçün hətta Sultan Səlimin çadırını güllə atəşinə də tutdular (134).

Türkdilli elmi-tarixi ədəbiyyatda, o cümlədən bir sıra farsdilli elmi-tarixi ədəbiyyatda Osmanlı qoşunları irəlilədikcə Səfəvi hüdudlarında olan yaşayış məntəqələrinin tərk edildiyi, ərzaq ehtiyatlarının məhv edildiyi, yolların viran günə qoyulduğu haqqında məlumatlar vardır. Bildirilirdi ki, bütün bunlar Şah İsmayılın göstərişi əsasında edilmişdi və bu yolla Osmanlı qoşunlarının irəliləməsinin qarşısının alınmasına cəhd göstərilmişdi. Lakin istər Şah İsmayılın yazdığı məktub, istərsə də farsdilli mənbələrdəki məlumatlar bu fikrin doğruluğunu təsdiq etmir. Məsələn, “Xolde bərin" əsərində bildirilir ki, Sultan Səlimin məktubu yetişəndə Şah İsmayıl bildirdi ki, biz də Osmanlı sultanı ilə müharibə aparmağa hazırıq və Rum qeysərindən bizim hər hansı bir qorxumuz yoxdur. Bu mənbədəki məlumata görə, Şah İsmayıl sultan elçilərini qiymətli hədiyyələrlə geri qaytardı və bildirdi ki, istənilən yerdə sultan qoşunları ilə qarşılaşmağa hazırdır. Sonra Şah İsmayıl Diyabəkr hakimi Məhəmməd xan Ustaclıya xəbər göndərdi ki, qoşunlarını hazırlasın və Osmanlı qoşunlarına qarşı

döyüşmək üçün şah qoşunlarına qoşulsun. Bundan sonra isə Şah İsmayıl son hazırlıqları başa çatdırmaq üçün Təbrizə yollandı (135).

"Tarixi aləmara-yi Abbasi" əsərində isə belə bir məlumat vardır: "Sultan Səlim o həzrətə (Şah İsmayıla) qarşı tərslik yolunu tutaraq, düşmənçiliyə başladı. İki tərəf arasında mübahisə mənbəyi olan Kəmax qalası və Diyarbəkrin bəzi qalaları üstündə ziddiyyət kəskinləşdi və get-gedə başqa səbəblərdən də tərəflər arasında qorxulu vəziyyət yarandı. Qeyd olunan (920/1514-cü) ildə [Sultan Səlim] həddən çox sayda cəngavər qoşunla Azərbaycana tərəf yollandı və Süleyman şanlı xaqana məktub yazaraq, ona öz gəlişi barədə xəbər verdi. O həzrət (Şah İsmayıl) İsfahandan Həmədan yaylaqlarına gəldi. Onun nurlu fikrində rumilərlə müharibə və düşmənçilik etmək xəyalı yox idi. Lakin [Səlimin] gözlənilməz və vaxtsız gəlişindən xəbər aldıqda qeyrətinin çoxluğundan, İran məmləkətlərinin müzəffər ordusunun toplanmasının qayğısına qalmadan, fələyi bürüyən bayrağın altında hazır olan az miqdarda [qoşunla] düşmənin qarşısına tələsdi" (136).

Osmanlı qoşunlarının bu hərbi yürüş zamanı ərzaq və yem çətinlikləri ilə qarşılaşdığı məlumdur. Lakin bu çətinliyin bir səbəbinin də Şah İsmayılın göstərişi əsasında ərzaq ehtiyatlarının qəsdən məhv edilməsi ilə bağlanması müəyyən şübhə doğurur.

Sultan Səlimin çadırı yeniçərilər tərəfindən mühafizə olunurdu. Həmin yeniçərilərin vasitəsilə əvvəlcə Sultan Səlimin çadırına məktublar atıldı. Bu məktublardan birində belə yazılmışdı: "...bizi savaş için gətirmiştiniz, hâlbuki bizim qarşımızda savaşan bir düşmən yoxdur, Kiminlə savaşacağıq. Bu təxrib olunmuş məmləkətin harasına qədər gedəcəyik, ərzağın azlığı və məsafənin uzunluğu, bizi və atlarımızı məğlup etmiş, bu yorğun ordu düşmənin dinlənən ordusunun qarşısında savunmak öhdəsindən çıxa bilməsə kim suçlanacaqdır. Qızılbaşlara yenilmə acısı ölümden daha pisdir. Yaxşısı budur ki, Ərdəbil oğlu (Şah İsmail) yanına bir kişini göndərəlim və onunla barış edəlim. Əsgərlərimiz Xoya vardığı zaman əgər Ərdəbil oğlu (Şah İsmail) alimlərin dediklərini qəbul edərsə barış yapar və oradan dönəriz, qəbul etməzsə onunla savaşırız, - dedi" (137).

Sultan Səlim bu dəfə də qətiyyət göstərdi və öz iradəsindən dönmədi. O, yeniçərilərin tələbini qəbul etmədi və qorxu hisslərini bir kənara qoyaraq onların arasına yollandı. Birbaşa yeniçərilərlə təmasa girən Sultan Səlim onlara müraciət etdi və dedi: "Biz hələ arzu etdiyimiz əraziyə çatmamışıq. Buradan geri dönmək ehtimalı yoxdur. Hətta bunu düşünmək belə doğru olmayan bir xəyaldır. Təəssüf olunur ki, şahın xidmətində olanlar öz əfəndilərinin yolunda can verdikləri halda biz, şəriəti Əhmədiyyəyə qarşı hərəkət edənləri yola gətirmək üçün buralara, sərhədlərə qədər gəldik. Bir qrup qeyrətsizlər bizim bu zəhmətimizi yarıda qoymaq üçün bizi geri çevirmək istəyirlər. Biz qətiyyən yolumuzdan geri dönməyəcəyik. Əmrə itaət edənlərlə planlaşdırdığımız yerə qədər gedəcəyik. Qorxaqlar və ürəkləri zəif olanlar, arvadlarını, uşaqlarını düşünənlər, yol yorğunluğunu bəhanə edənlər, mənə xidmət üçün qılınc taxmış olanlardan indi ayrılsınlar, geri dönsünlər. Özləri bilərlər, dönərlərsə, din yolundan dönmüş

sayılarlar. Əgər onların bəhanələri düşmənin gəlməməsidirsə, dümən daha irəlidədir. Ər olanlar və düşmənlə çarpışacaq mərdlər mənimlə bərabər gəlsin. Əgər içinizdə ər yoxdursa, mən tək başına gedərəm" (138).

Sultan Səlimin bu qətiyyətli çıxışı yeniçərilərin susmasına gətirib çıxardı və kimsə hərbi yürüşdən üz döndərmədi. Elə həmin günlərdə qızılbaş qoşunlarının müşahidə edilməsi haqqında da məlumatlar daxil olmağa başladı və çox güman ki, bu məlumatlar da yeniçərilərin mövcud çətinliklərə qarşı səbirlə yanaşmasına yol açdı. Yuxarıda qeyd edildiyi kimi, kəşfiyyat məlumatlarının toplanması üçün irəliyə göndərilmiş Əli bəy Şahsuvar oğlu və Mehmet bəy Mihaloğlunun ələ keçirmiş olduğu əsirlər Şah İsmayılın öz qoşun dəstəsi ilə artıq Xoyda olması və Diyarbəkr hakimi Məhəmməd xan Ustaclının da öz qoşun dəstəsi ilə Xoyda ona birləşməsi haqqında məlumat verdilər (139). Bu məlumatlar sonradan Osmanlı qoşunlarının Şeyx Əhməd adlı casusu tərəfindən gətirilmiş məlumatlarla da təsdiqləndi. Şeyx Əhməd Osmanlı sultanına sığınmış olan Ağqoyunlu əmiri Fərəhşadın casuslarından idi və Fərəhşadın götərişi ilə məlumatlar toplanmasına göndərilmişdi. O, Ucan yaylağında hətta Şah İsmayıl ilə də görüşə bilmişdi. Şeyx Əhməd özünü Şah İsmayıla Osmanlı daxilində yaşayan şiələrin nümayəndəsi kimi təqdim etmiş və Osmanlı şiələri adından Sultan Səlimə qarşı müharibəyə hazır olduqlarını çatdırmışdı. Şeyx Əhməd, Səfəvi şahına çatdırmışdı ki, Anadoluda və Rumelidə yaşayan tayfaların əksəriyyəti Səfəvi xanədanına sədaqətlidirlər və Səfəviyyə xanəgahına dərin etiqad bəsləyirlər. Onun məlumatına görə, guya Osmanlı və Səfəvi qoşunları qarşılaşacaqları halda Osmanlı qoşunları daxilində olan şiə məzhəblər və Səfəvi xanəgahına sədaqətli olanlar Osmanlı qoşunlarından ayrılaraq Səfəvi qoşunlarına qatılacaqlar. Bunları bəyan edən Şeyx Əhməd guya Şah İsmayıldan xahiş etmişdi ki, öz qələbəsinə əmin olaraq Osmanlı qoşunlarına qarşı çıxsın. Şeyx Əhməd onu da bildirdi ki, onun bu məlumatından sonra Şah İsmayıl qoşunlarına hərəkət göstərişi verdi və o özü də Səfəvi qoşunları ilə birlikdə Xoya qədər hərəkət etdi. Xoyda Şeyx Əhməd Səfəvi qoşunlarından ayrılaraq Osmanlı qoşunlarının yanına gəldiyini söylədi. Məlumata görə, Sultan Səlim aldığı bu xəbərin doğruluğuna inandı və hətta Şeyx Əhmədin mükafatlandırılmasına göstəriş də verdi.

Şeyx Əhmədin məlumatları hər iki tərəfdən sevinclə qarşılanmışdı. Şah İsmayıl ona sevinmişdi ki, müharibəni başlayacağı təqdirdə Osmanlı qoşunlarını daxildən parçalamaq mümkün ola bilər. Bu, Səfəvi qoşunlarına əlavə üstünlüklər verə bilərdi. Ona görə Şah tərəfindən Şeyx Əhməd qiymətli hədiyyələrlə mükafatlandırıldı. Həm də Osmanlı ərazisindəki sufilərə müraciətlə bir məktub yazıb ona verdi. Şeyx Əhməd sonradan bu məktubu da öz məlumatları ilə birlikdə Sultan Səlimə təqdim etmişdi. Sultan Səlim isə Şeyx Əhmədin məlumatlarından ona görə sevindi ki, Şah İsmayıla qarşı döyüşün başlanacağı vaxtın yaxınlaşdığına əmin oldu. Belə bir xəbər gətirməsinə görə o da Şeyx Əhmədi qiymətli hədiyyələrlə mükafatlandırdı. Sonradan daxil olan məlumatlar istər Şeyx Əhmədin, istərsə də Əli Şahsuvaroğlunun məlumatlarının doğru olduğunu təsdiqlədi. Hətta əlavə daxil ol-

muş məlumatlar həm Səfəvi qoşunlarının ön dəstələrinin artıq tez-tez müşahidə olunduğunu, həm də Şah İsmayılın Çaldıran düzündə Osmanlı qoşunları ilə qarşılaşmaq niyyətində olduğunu göstərdi (140).

Yəni, uzun müddətdən bəri Sultan Səlimin intizarında olduğu anın yaxınlaşdığına artıq şübhə yeri qalmırdı və belə bir vaxtda Sultan Səlimin qarşısında dayanan başlıca vəzifə qoşunların döyüşə səfərbər edilməsi idi. 1514-cü il avqust ayının 19-da günəş tutulması hadisəsi baş verdi. Sultan Səlim münəccimlərini yanına toplayaraq Şah İsmayıl ilə döyüş ərəfəsində belə bir hadisənin baş verməsinin yozumunu onlardan soruşdu. Onlar da bu hadisəni xoş əlamət kimi yozdular. Bildirdilər ki, günəş Səfəvilərin dövlət simvoludur. Onun tutulması Səfəvilərin gözlənilən döyüşdə yeniləcəyinin əlamətidir. Bu xəbər qoşunlar içərisində də paylaşıldı və bu da qoşunların əhval-ruhiyyəsinin qalxmasına müsbət təsir göstərdi. Avqust ayının 21-də Osmanlı qoşunları Qarakənd adlı məntəqədə olarkən Səfəvi qoşunlarının Çaldıran düzünə yetişdiyi məlum oldu. Bu xəbəri alan kimi Sultan Səlim də Çaldırana doğru hərəkətini davam etdirdi və avqust ayının 22-də Osmanlı qoşunları da Çaldıran düzünə daxil oldular (141).

Bəzi mənbələrdə Səfəvi qoşunlarının avqustun 22-də Çaldıran düzünə yetişdiyi bildirilir. "Aləmara-yi Şah İsmayıl" əsərində də Osmanlı qoşunlarının Səfəvi qoşunlarından daha tez Çaldıran düzünə çatması qeyd olunmuşdur (142).

Səfəvi qoşunlarının ön dəstələrinin və mühafizə dəstələrinin Çaldıran düzünə daha tez yetişməsini isə istisna etmək olmaz. Çünki mövcud məlumatlara görə, avqustun 22-23-də Osmanlı qoşunları ilə Səfəvi qoşunlarının ön və mühafizə dəstələri arasında qarşılaşmalar olmuşdu (143).

Hər iki tərəfin qoşunları birbaşa Çaldıran düzünə çıxmadılar. Qoşunlar hərəkət istiqamətlərində Çaldıran düzünə baxan təpəliklərin arxasında toplanaraq son hazırlıqlarını görməyə başladılar.

### 8. Döyüşqabağı hərbi müşavirələr

Çaldıran düzü Van gölü ilə Urmiya gölü arasında, İran Azərbaycanının qərbində Maku şəhərinin 20-25 kilometriyində, Xoyun isə 75-80 kilometrliyində, qərbdən cənuba doğru uzanan, təxminən 20 kilometr uzunluğunda və 7-8 kilometr enində olan bir düzənlik ərazidir. Bu ərazi dəniz səviyyəsindən 1800 metr yüksəklikdədir. Çaldıranın əhalisi Azərbaycan türkləridir. Osmanlı və Səfəvi qoşunları arasında döyüş baş verən vaxt da bu ərazidə azərbaycanlılar yaşayırdılar. Çaldıran düzü şimaldan Mors dağı (2799 metr yüksəkliyində), cənubdan Qaragül dağı (2347 metr), şimal-şərqdən Qarlı dağı, qərbdən Təkaltı təpələri ilə əhatələnmişdir. Düzənliyin şimalında Ovacıq çayı, şimal-qərbində Qızılçay, düzənliyin cənubunda isə Ağçay axmaqdadır. Bu düzənliyin havası yayda münasib, qışda isə çox soyuq olurdu. Çaldıran düzü yağıntıların çox düşdüyü bir ərazidir. Çaldıran sözü fars dilində olan "çahar dəran" sözündən götürmüşdür və mənası dörd məbəd deməkdir (144).

Çaldıran düzü böyük sayda qoşun dəstələrinin azad və sərbəst şəkildə fəaliyyət göstərməsi mümkün olan bir ərazi idi. Ərazidə həm daldalanmaq və müəyyən taktiki planları qurmaq üçün təpəliklər, həm də içməli su mənbələri var idi. Çaldıran düzünə aparan yollar da hərəkət üçün münasib idi.

Osmanlı qoşunları Çaldıran düzünə yetişən kimi Sultan Səlim hərb məclisi təşkil etdi. Hərb məclisində sədr-əzəm, vəzirlər, Rumeli və Anadolu kazəsgərləri, nişançı, baş dəftərdar, yeniçəriağası, Rumeli, Anadolu və Qaraman bəylərbəyləri iştirak edirdilər. Bu məclisdə müzakirə olunan əsas məsələ döyüşün nə vaxt və necə başlanması idi. Sultan Səlim qərara gəlmək istəyirdi ki, avqustun 24-də döyüş meydanına atılsın, yoxsa qoşunlara istirahət versin. Bununla bağlı fikirlər müxtəlif oldu. Məclis iştirakçılarından yalnız bir nəfər, baş dəftərdar Pir Məhəmməd Çələbi dərhal döyüşə girilməsini təklif etdi. Pir Məhəmməd bildirdi ki, qoşunlar arasında ələvi məzhəbinə mənsub olan insanlar vardır. Əgər qoşunlara istirahət verilərsə, ələvi məzhəbinə mənsub olanlar Şah İsmayıl ilə və ya səfəvilərlə əlaqə yaratmaq imkanı əldə edərlər və bu da qoşunların gücünün zəifləməsinə gətirib çıxara bilər. Pir Məhəmməd öz təklifini bir də onunla əsaslandırırdı ki, Şah İsmayıl dərhal döyüşə qoşula bilər və qəfil hücumla rastlaşmaq Osmanlı qoşunlarını ağır duruma sala bilər. Məclisdə iştirak edən digər məqamların hamısı qoşunların təxminən 5 aylıq ağır yürüş icra etdiyini, döyüşçülərin və heyvanların son dərəcə yorğun olmalarını nəzərə alaraq bir günlük istirahət elan edilməsini təklif etdilər. Sultan Səlim məclis iştirakçılarının əksəriyyətinin deyil, yalnız Pir Məhəmməd Çələbinin təklifini qəbul etdi. Onun fikrincə, Pir Məhəmməd qoşun içərisində yeganə sahibi-rəy idi və onun dediklərini doğru sayaraq bütün gecə ərzində qoşunların döyüşə hazırlaşdırılması əmrini verdi. Elmi-tarixi ədəbiyyatda Sultan Səlimin hərb məclisində iradə nümayiş etdirməsi strateji məqam kimi dəyərləndirilir və bildirilir ki, həmin qərar Çaldıran döyüşünün uğurla başa çatdırılmasına zəmin yaratdı. Güman edilir ki, əks təqdirdə Osmanlı qoşunları ağır vəziyyətlə qarşılaşa bilərdilər (145).

Şah İsmayıl da Çaldıran düzünə yetişdikdən sonra öz əmirlərinin və qoşun başçılarının toplantısını keçirdi və döyüşə necə balanması barəsində onlarla məsləhətləşdi. Bu toplantıda Diyarbəkr hakimi Məhəmməd xan Ustaclı, onun qardaşı Qaraxan, habelə Durmuş xan, Məntəş Sultan, Həsən bəy Lələ iştirak edirdilər. Şah İsmayıl gözlənilən döyüşlə bağlı əvvəlcə onların fikrini öyrənmək istədi. İlkin söz alan Məhəmməd xan Ustaclı Osmanlı qoşunları ilə dərhal döyüşə girməyi məqsədəuyğun saymadı. O bildirdi ki, 18 min nəfərlik Səfəvi qoşunları ilə Osmanlı qoşunlarının qarşısını saxlamaq mümkün olmayacaqdır. Ona görə təklif etdi ki, Səfəvi qoşunları Sərkeş (Nərkeş) dağına çəkilsinlər, iki ay orada gözləsinlər. Məhəmməd xanın Ustaclının fikrincə, həmin iki ay ərzində Səfəvi qoşunları da bütünlüklə toplanar və onların sayı 70 min nəfər çatar. Təklif olunurdu ki, 70 min nəfərik qoşun dəstəsi toplanandan sonra Sultan Səlimə qarşı döyüş başlansın. Əgər Səfəvi qoşunlarının geri çəkilməsindən sonra Osmanlı qoşunları Təbrizə hücum etməli olacaqdısa, Məhəmməd xan təklif edirdi ki, Təbriz əhalisi əvvəlcədən qoşunların köməyi ilə şəhərdən çıxarılsın. O

da təklif olunurdu ki, Osmanlı qoşunları üzərinə davamlı şəkildə qəfil hücumlar təşkil edilsin, Osmanlı qoşunları bu yolla əldən salınsın, Osmanlı qoşunları geri çəkilməli olacaqları təqdirdə isə bu qoşunlar təqib edilsin və onlara zərbələr vurulsun (146).

Məhəmməd xan Ustaclının bu fikirləri həm də qışın yaxınlaşmasına hesablanmışdı. Havaların soyuması bir tərəfdən Osmanlı qoşunlarının ərzaq təminatını çətinləşdirə bilərdi, bir tərəfdən də ölkə daxilində onların hərəkətləri xeyli məhdudlaşa bilərdi. Belə bir şəraitdə Səfəvi qoşunlarının vaxtaşırı qəfil hücumları Osmanlı qoşunlarına xeyli itki yetirə bilərdi. Məhəmməd xan Ustaclı şübhə etmirdi ki, Osmanlı qoşunlarına qarşı belə bir taktikanın tətbiq ediləcəyi halda Azərbaycan əhalisi də Səfəvi qoşunlarına təsirli kömək göstərə bilərdi. Amma Məhəmməd xan Ustaclının bu təklifi qəbul olunmadı. Eyni zamanda onun başqa bir təklifi də toplantı iştirakçıları tərəfindən qəbul edilmədi. Məhəmməd xan Ustaclı və Osmanlı qoşunlarının döyüş təcrübəsinə yaxşı bələd olan xəlifə Nurəli Rumlu təklif etdilər ki, Çaldıran düzünə yetişmiş olan qoşunlar dərhal Osmanlı qüvvələri üzərinə hücum etsinlər. Onların fikrincə, Osmanlı qüvvələri Çaldıran düzünə yenicə yetişmişdilər, qoşunların düşərgə saldığı ərazinin təhlükəsizliyini, qoşunların mühafizəsini lazımınca təmin etməmişdilər. Belə bir anda qəfil hücum Osmanlı qüvvələrini çaş-baş sala bilərdi və nəticədə hərbi təşəbbüsü də ələ almaq mümkün olardı. Amma Məhəmməd xan Ustaclının və Nurəli Rumlunun bu təklifi də qəbul olunmadı. Durmuş xan ona bildirdi ki, öz kəntxudalığıvı Diyarbəkrdə edərsən və bununla Məhəmməd xan Ustaclının təkliflərinə bir istehza da ifadə olundu. Son təkliflə bağlı söz-söhbət Şah İsmayıla çatanda o da Durmuş xanın mövqeyini dəstəklədi. Şah İsmayıl bildirdi ki, Osmanlı qoşunları üzərinə qəfil hücum edilməsin, onların öz mövqelərini tutmasına imkan verilsin, mühafizənin təşkilinə şərait yaradılsın, sonra da mərdi-mərdanə meydana atılaraq onların dərsini verək (147).

Mənbələrdə Məhəmməd xan Ustaclının başqa bir təklifi haqqında da məlumat vardır. Bu təklif ondan ibarət idi ki, Səfəvi qoşunları Osmanlı qoşunları üzərinə gecə vaxtı hücum etsin. Çünki gecə hücumu Osmanlı qoşunlarını toplardan istifadə üstünlüyündən məhrum edə bilərdi. Səfəvi əmirləri artıq Osmanlı qoşunlarında çoxlu sayda topun olmasından xəbərdar idilər və bu topların döyüşdə yarada biləcəyi üstünlükdən də onların xəbəri var idi. Həmin topların zərbə qüdrəti qarşısında Səfəvi qoşunlarının çarəsiz qalacaqları şübhəsiz idi. Bununla belə, Məhəmməd xan Ustaclının bu təklifi də qəbul edilmədi (148).

Məhəmməd xan Ustaclının birinci təklifinin taleyinə gəlincə isə, mənbələrdə olan məlumatlara görə, həmin təklif səslənəndən sonra Şah İsmayıl dərhal öz münasibətini bildirmədi. O, sağ tərəfində qərar tutmuş Durmuş xana baxdı, onun hansısa bir təklifi olub-olmamasını soruşdu. Durmuş xan bu təkliflə bağlı Məhəmməd xan Ustaclıya özünəməxsus bir istehza ilə yanaşdı. Şah İsmayılın hüzurunda Durmuş xan bəyan etdi ki, Məhəmməd xan Ustaclının insanlar arasında çıxardığı ada görə çox təəssüflənir. Yəni, o demək istəyirdi ki, Məhəmməd xan cəsur bir insan kimi ad çıxardığı halda indi düşmən qarşısından

qaçmağı təklif edir. Durmuş xan belə də bəyan etdi ki, o özü də Məhəmməd xanı bir cavanmərd kimi tanıyırdı. Amma onun fikirləri ilə razılaşmadığını bildirdi. Durmuş xana görə, Rum qeysəri (Osmanlı sultanı) elə bir vücuda malik deyildi ki, ona arxa çevrilsin, qoşunlar geri çəkilsin və ona qarşı oğru kimi yanaşılsın. Durmuş xan sonra da əlavə etdi ki, Osmanlı qoşunlarına qarşı mərdi-mərdanə vuruşaq, onların rüzgarını qara edək, tale onlara qismət edərsə qələbə onların olsun, yox əgər inşallah Allah bizim mürşidi-kamilə qismət edərsə, onda qələbə bizim olar. Durmuş xanın Osmanlı qoşunları ilə açıq döyüşə girilməsi təklifi əvvəlcə Nurəli Rumlu, sonra da Şah İsmayıl tərəfindən dəstəkləndi. Bildirilir ki, toplantıda belə bir qərar alınandan sonra döyüş təbilləri vuruldu (149).

Əslində isə, Məhəmməd xan Ustaclının təklifləri kifayət qədər real təkliflər idi və onların həyata keçirilməsi Səfəvi qoşunlarından bir neçə dəfə çox olan Osmanlı qoşunları üzərində qələbə əldə etməyə imkan verərdi. Osmanlı qoşunları ilə döyüşə girmədən onların ölkənin içərilərinə cəlb edilməsi ilk baxışdan ağır görünə bilərdi. Çünki Osmanlı qoşunlarının ölkənin daxilinə doğru irəliləməsi özü ilə dağıntılar, talanlar gətirəcəyi şübhəsiz idi. Lakin Səfəvi qoşunları fəal geriləmə əməliyyatının tətbiqi ilə sayca çox olan Osmanlı qoşunları üzərində hərbi üstünlüyü təmin edə və bununla Osmanlı-Səfəvi müharibəsini son nəhayətdə qələbə ilə başa vura bilərdi. Amma Səfəvi əmirlərinin romantizmi, xəyalpərvərliyi, özlərinə əsassız arxayınçılığı, düşmən qüvvələrini və imkanlarını reallıqla qiymətləndirməməsi strateji səhvin yol verilməsinə gətirib çıxardı.

Məhəmməd xanın Nurəli Rumlu tərəfindən dəstəklənən ikinci təklifi də konkret hərbi şəraitin dəyərləndirilməsi əsasında real taktiki variant idi. Lakin bu təklifə qarşı da xəyalpərvərlik nümayiş etdirilməsi və passiv döyüş elementlərinin tətbiqinə üstünlük verilməsi hərbi təşəbbüsün əldə edilməsini çətinləşdirdi. Səfəvi əmirləri, eləcə də Şah İsmayıl əvvəlki döyüşlərdə olduğu kimi, Osmanlı qoşunlarına qarşı döyüşdə də öz döyüşçülərinin qəhrəmanlığına, son nəfəsə qədər vuruşacaqlarına ümid bəsləyirdilər. Doğrudur, Səfəvi döyüşçüləri misilsiz şücaət göstərdilər, öz mübarizliklərini, mürşidi-kamilə olan sonsuz sədaqəti bir daha ortaya qoydular. Lakin bütün bunlar Osmanlı qoşunlarının odlu silahlara dayaqlanan taktikasına üstün gəlmək üçün yetərli olmadı.

Beləliklə, Səfəvi qərargahında belə bir qərara gəlindi ki, heç bir döyüş hiyləsi işlədilmədən, heç bir qəfil və qabaqlayıcı tədbirlər həyata keçirmədən Osmanlı qoşunları ilə açıq meydan döyüşünə girilsin. Türk dilli elmi-tarixi ədəbiyyatda da bildirilirdi ki, daha çox atlı qoşunların cinah hücumlarına diqqət yetirilən Səfəvi qoşunlarında yüksək döyüşkən əhval-ruhiyyə mövcud idi. Bir-birinin ardınca həyata keçirilmiş uğurlu döyüşlər belə bir əhval-ruhiyyənin yaranmasına əsas olmuşdu. Digər tərəfdən Şah İsmayılın mürşidi-kamil olması və Səfəvi qoşunlarında vuruşan döyüşçülərin çoxunun sufi olması Səfəvi şahına qarşı dərin bir etiqad da formalaşdırırdı. Səfəvi qoşunlarının ölkə hüdudları daxilində vuruşması, təchizat mənbələrinə yaxın olması, döyüş meydanına yetişmək üçün uzun və üzücü yürüşün icrasına ehtiyac olmaması, yorğunluqla

qarşılaşmaması Səfəvi qoşunlarının döyüşqabağı üstünlüklərindən sayılırdı. Məlumata görə, Şah İsmayıl qoşun başçılarının və əmirlərin toplantısında onları əzmkarlıqla vuruşmağa çağırdı. Elmi dövriyyəyə çıxarılmış bir məlumata görə, Şah İsmayıl bildirdi ki, Sultan Səlimlə müharibənin aparılması mütləqdir və həyati əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, Səfəvi qoşunları Osmanlı qoşunları qarşısında zəif görünə bilərdi. Şah İsmayıl qeyd etdi ki, bizim hamımızda iman və Vətəni müdafiə hissləri çox güclüdür, bununla ən güclü dövlətləri belə diz çökdürmək mümkündür. Şah İsmayıl sonra əlavə etdi ki, biz gərək ya fəth olunaq, ya da məmləkətin müdafiəsi üçün son nəfəsədək mübarizə aparaq. Əgər bu müharibədə süstlük etsək, onda həm vətənimizi, həm də həyatımızı itirəcəyik. Sonra da bizləri bişərəf və biqeyrət kimi tanıyacaqlar. Mürşidi-kamil şübhə etmirdi ki, ölüm bir anlıqdırsa, şərəfsizlik və bədnamlıq bütün ömürlükdür (150).

Türkdilli elmi-tarixi araşdırmalarda Çaldıran döyüşü ərəfəsində Səfəvi qoşunlarının imkanlarına qeyri-obyektiv yanaşılması, Səfəvi qoşunlarının müəyyən üstünlüklərə malik olması haqqında məlumatlar mövcuddur. Hətta Səfəvi qoşunlarının azacıq da olsa say üstünlüyünə malik olması haqqında məlumatlar da mövcuddur. Bildirilir ki, Səfəvi atlı qoşunlarının cinahlardan hücum imkanları da Osmanlı ordusuna qarşı güclü məqamlardan biri idi (151).

### 9. Qoşunların sayı və döyüşqabağı düzülüşü

Səfəvi qoşunları sayca Osmanlı qoşunlarından xeyli az idi. Hətta qüvvələr nisbətindəki fərq o dərəcədə böyük idi ki, belə bir fərqin olduğu halda Səfəvi qoşunlarının döyüşü qəbul etməsi müəyyən bir təəccüb doğurur. Amma səltənəti, səltənət hüdudlarını qorumaq istəyi həm Şah İsmayılda, həm onun əmirlərində, həm də döyüşçülərində o dərəcədə yüksək idi ki, bu döyüşü qəbul etdilər. Tədqiqatçıların fikrincə, Səfəvi qoşunlarının az olduğu halda Şah İsmayılın Osmanlı qoşunlarına qarşı döyüş qərarı verməsi heç də təsadüfi deyildi. Çünki az qoşunlarla daha çoxsaylı qoşunlara qarşı vuruşmaq üçün Şah İsmayılın və onun qoşunlarının artıq böyük təcrübəsi var idi. Bildirilir ki, Çaldıran döyüşünə qədər Şah İsmayılın iştirak etdiyi elə bir döyüş olmamışdı ki, orada qoşunların say üstünlüyünə malik olsun. Səfəvi döyüşçülərinin şücaəti, qoşun başçılarının iradəsi, Şah İsmayılın isə əzmkarlığı sahəsində həmin döyüşlər uğurla başa çatdırılmışdı (152). Ona görə Osmanlı qoşunlarına qarşı döyüş qərarı veriləndə heç şübhəsiz ki, əvvəlki döyüşlərin təcrübəsi də nəzərə alınmışdı.

Çaldıran döyüşündə iştirak edən Səfəvi qoşunlarının sayı haqqında mənbələrdə və elmi-tarixi ədəbiyyatda müxtəlif rəqəmlər vardır. Bu rəqəmlərin çoxu 20-25 min nəfər ətrafındadır. Məsələn, "Tarix-i aləmara-yi Abbasi" əsərində Səfəvi qoşunlarının sayı 20 min nəfər (153), "Aləmara-yi Səfəvi" və " Aləmara-yi Şah İsmayıl" əsərlərində 18 min nəfər (154) göstərilmişdir. Başqa mənbə və elmi-tarixi əsərlərdə isə Səfəvi qoşunlarının sayı 12 min nəfər, 20 min nəfər, 27 min nəfər, 40 min nəfər, hətta 60 min nəfər göstərilmişdir. Səfəvi qo-

şunlarının əsasını səltənətin qərbində və Diyarbəkrdə toplanmış qoşunlar təşkil edirdilər (155).

Şah İsmayılın Çaldıran döyüşünün aparılması üçün xüsusi bir səfərbərlik keçirmədiyi də məlumdur. "Aləmara-yi Şah İsmayıl" əsərində də deyilirdi ki, Şah İsmayıl Osmanlı qoşunlarına qarşı döyüş aparılması məsələsində "bir qədər mənəmlik etdi" (156). Yəni, özünə arxayınçılıq hissləri özünü daha qabarıq şəkildə nümayiş etdirdi.

Mənbələrdə olan məlumatların təhlili əsasında farsdilli elmi-tarixi araşdırmalarda Çaldıran döyüşündə iştirak edən Səfəvi qoşunlarının real sayı 20 min, 27 min nəfər göstərilmişdir (157).

Səfəvi qoşunlarının döyüşqabağı düzülüşündə ənənəvi formadan istifadə edilmişdi. Qoşunlar üç taktiki dəstəyə bölünmüş və ehtiyat saxlanmışdı. Türkdilli tarixi araşdırmalara görə, Şah İsmayıl sağ cinah qrupunda qərar tutmuşdu. Ondan başqa Səfəvi əmirlərindən olan Durmuş xan Şamlı, Sultan Zülqədər, Hüseyn bəy Lələ, Ərzincan hakimi Nurəli Rumlu, Təbriz hakimi Məntəşə Sultan, Xəlil bəy, Sultanəli Mirzə Əfşar, Pirə bəy Çavuşlu sağ cinahda qərar tutmuşdular. Mərkəzdəki qrupa Vəkil üs-səltənə Nizaməddin Mir Əbdülbaqi xan rəhbərlik edirdi. Sol cinahdakı qrupa isə Pir Budaq xan rəhbərlik edirdi. Bu qrupların hər birində nə qədər qüvvənin olması isə bildirilmir (158).

Farsdilli mənbə və tarixi ədəbiyyatda görə isə Şah İsmayıl qoşunların mərkəzindəki qrupda qərar tutmuşdu. Şah İsmayıl bir qayda olaraq qoşunların mərkəzində qərar tuturdu və ona görə də bu məlumatın doğruluğu daha realdır.

Farsdilli mənbə və ədəbiyyatda olan məlumata görə, Səfəvi qoşunlarının sağ cinahı Durmuş xanın rəhbərliyi altında idi. Səfəvi qoşunlarının tanınmış və təcrübəli əmirlərindən olan Fars hakimi Xəlil Sultan Zülqədər, Həsən bəy Lələ, Xəlil bəy, Təbriz hakimi Məntəşə Sultan, xəlifə Nurəli Rumlu, Sultanəli Mir Əfşar və Pirə bəy Çavuşlu da öz qoşun dəstələri ilə bu cinahda yerləşmişdilər. Qoşunların sol cinahı Məhəmməd xan Ustaclıya tapşırılmışdı. Onunla birlikdə bu cinahda Ustaclı əmirləri və digər boyların əmirləri dayanmışdılar. Qoşunların mərkəzinin rəhbərliyini isə Şah İsmayıl öz üzərinə götürmüşdü. Vəziri-əzəm və ya vəkil üs-səltənə Nizaməddin Mir Əbdülbaqi, Mir Səid Şərifəddin, Seyid Məhmməd Kəmunə və digərləri də öz dəstələri ilə mərkəzdə qərar tutmuşdular. Mövcud məlumatlara görə, Şah İsmayıl ətrafındakı qorçular və atlılar dəstəsi ilə birlikdə ehtiyatda dayanmışdı və onlar zərurət yarananda döyüşün gərgin nöqtələrinə müdaxilə etməli idilər(159).

İngəndər bəy Münşinin "Tarix-i aləmara-yi Abbasi" adlı əsərində Səfəvi qoşunlarının döyüş düzülüşü haqqında aşağıdakı qeydlər vardır: "Süleyman şanlı xaqan Diyarbəkrdən hazırlıqlı qoşunla gəlmiş Xan Məhəmmədi müzəffər ordunun çərxçisi təyin etdi. Məntəşa Sultanın böyük qardaşı Sarı Pirə Qorçubaşı Ustaclu da ona yoldaş oldu. Böyük əmirlərdən Durmuş xan Şamlu, Nurəli xəlifə Rumlu, Xüləfa bəy, Hüseyn bəy Lələ və Xəlil sultan Zülqədər sağ cinaha, ustaclu sultanları və xanları, Baba İlyas Çavuşlunun oğlanları və bir başqa dəstə sol cinaha yerləşdirildi. Ordunun mərkəz hissəsi isə o həzrətin (Şah İsmayılın)

vücudu ilə bəzəndi. Əmirlər sırasında olan Seyid Məhəmməd Kəmunə, vəzir Mir Əbdülbaqi və sədr Mir Seyid Şərif o həzrətlə birlikdə mərkəzdə idilər. İki tərəfin igidləri irəli atıldılar və hərb atəşi alovlandı" (160).

Səfəvi qoşunlarının tanınmış əmirlərindən olan Sarıpirə (atlı mühafizəçilər dəstəsinin rəhbəri), Kəmax qalasının hakimi Yusif bəy Vərsaq öhdələrində olan qoşun dəstələri ilə döyüş meydanında elə yerləşdirildilər ki, onlar pərakəndə, şəraitin tələbi ilə döyüşlərə qatılsınlar və döyüşlərin ümumi gedişinə öz köməklərini göstərsinlər. Bir sıra tanınmış Səfəvi əmirləri isə bu döyüşdə iştirak etmirdilər. O cümlədən Herat hakimi Zeynal xan Şamlı, Bəlx hakimi Div Sultan Rumlu, Qayin hakimi Əmir Sultan Mosullu. Bu əmrilər sərhəd xətti boyunca yerləşən ərazilərin hakimləri idilər. Onların Çaldıran döyüşünə cəlb edilməməsi kənar təhlükələrin, xüsusilə özbək xanlarının hücum təhlükəsinin qarşısının alınması ilə bağlı idi (161).

Səfəvi qoşunlarının əsasını, tədqiqatçıların da qeyd etdiyi kimi, Azərbaycan türklərindən və türkmanlardan olan atlılar təşkil edirdilər. Bu atlı dəstələri kifayət qədər döyüş təcrübəsinə malik idilər və onlar döyüşün uğurla başa çatdırılması üçün əsas qüvvələri təşkil edirdilər (162).

Səfəvi qoşunları bütünlüklə soyuq silahlarla silahlanmışdılar. Bu silahlar Səfəvi qoşunlarının ənənəvi silahlarını təşkil edirdilər. Soyuq silahlar üzərində qurulan döyüş taktikası başlıca olaraq hər bir döyüşçünün fiziki gücünə və silah işlətmə məharətinə əsaslanırdı. Şah İsmayılın və onun əmirlərinin yuxarıdakı fikirlərindən də göründüyü kimi, Səfəvi qoşunlarında üzbəüz mərdanə döyüşə üstünlük verilir və əlbəyaxa döyüşə müharibədə mərdlik əlaməti kimi baxılırdı. Yəni, döyüşə baxışda Səfəvi əmirlərində və döyüşçülərində konkret etik norma mövcud idi. İstər Şah İsmayıl, istərsə də Səfəvi döyüşçüləri bu etik normanı aşmağı qəbul etmirdilər. Səfəvi döyüşçüləri belə bir döyüş normasını əsas tuturdular ki, meydana atılanlar öz münasibətlərini qarşılıqlı gücün tətbiqi ilə, yəni mərdi-mərdanə müəyyənləşdirsinlər. Çaldıran döyüşündə Osmanlı qoşunlarından fərqli olaraq Səfəvi qoşunlarında tüfəng və top yox idi.

Çaldıran döyüşünə cəlb edilmiş Osmanlı qoşunlarının sayı haqqında da mənbə və elmi-tarixi ədəbiyyatda müxtəlif rəqəmlər mövcuddur. Lakin bu rəqəmlər 100 min nəfərdən yuxarıdır. Bir sıra farsdilli elmi-tarixi ədəbiyyatda Osmanlı qoşunlarının 120 min nəfər olması, onlardan 80 min nəfərin atlı, 40 min nəfərin piyada olması göstərilir. Bəzi məlumatlara görə isə, bu qoşunlardan 12 min nəfəri yeniçəri idi və onlar tüfənglərlə silahlanmışdılar (163). Yeniçərilərin sayı elmi-tədqiqat əsərlərində xüsusi olaraq qeyd olunurdu. Çünki bir tərəfdən yeniçərilərin sayı Osmanlı qoşunlarında tüfənglə silahlananların sayını göstərirdi. Digər tərəfdən yeniçərilər xüsusi təlim keçmiş və döyüş hazırlığı səviyyəsi kifayət qədər yüksək olan kontingent idi. İsgəndər bəy Münşinin "Tarix-i aləmara-yi Abbasi" əsərində də yeniçərilərin sayı 12 min nəfər göstərilmişdir (164). Bu rəqəmlərlə razılaşmayanlar da vardır. Mənbələr əsasında aparılmış araşdırmaların birində Osmanlı qoşunlarında olan yeniçərilərin sayı 20

min nəfər göstərilmişdir. Həmin aradırma müəllifinin fikrincə, bu rəqəm əslində qeyri-doğru olaraq bir çox əsərlərdə 12 min nəfər göstərilmişdir (165).

Türkdilli araşdırmalarda Osmanlı qoşunlarının sayı 100 minə yaxın göstərilmişdir (166). İstər farsdilli elmi-tarixi ədəbiyyatda və istərsə də türkdilli elmi-tarixi ədəbiyyatda qarşı tərəflərin qüvvələrinin say tərkibi haqqında olan məlumatlar onu deməyə əsas verir ki, Çaldıran döyüşündə Osmanlı qoşunlarının sayı ən azı Səfəvi qoşunlarının sayından dörd dəfə çox idi. Texniki təchizat baxımından da Osmanlı qoşunları çox güclü zərbə üstünlüyünə malik idi. Başlıcası isə, Osmanlı qoşunlarında 200 ədəd topun olması bütün elmi-tədqiqat əsərlərində öz əksini tapmışdır. Hətta bəzi mənbələrdə topların sayının 500 ədəd olması haqqında da məlumat vardır. Döyüş qabağı düzülüş zamanı Osmanlı qoşunlarında mövcud olan toplar yeniçəri dəstələrinin sağ və sol cinahlarında yerləşdirilmiş və zəncir vasitəsilə bir-birinə birləşdirilmişdilər. Toplardan çox az midarda Şadi paşanın rəhbərliyi altında Osmanlı düşərgəsinin mühafizəsi üçün saxlanılmışdı. Osmanlı qoşunlarında topların istifadəsinə böyük ümidlər bağlanılırdı. Topların mövcudluğundan Səfəvi qoşunlarının vaxtında xəbər tutmaması və onların qəfil təhlükələrdən sığortalanması üçün onlar döyüş xəttində Anadolu və Rumeli əzap dəstələrinin arxasında yerləşdirilmişdi. Nəzərdə tutulmuşdu ki, döyüş başlanandan sonra əzap dəstələri sürətlə geri çəkilsin və topların sərbəst atəşlərinə meydan açılsın. Topların hamılıqla döyüşə qoşulması Səfəvi qoşunlarının sürətli həmlələrinin qarşısını almalı və onlara ciddi itkilər yetirməli idi. Topların döyüşə qoşulması və onlardan səmərəli istifadə edilməsi Osmanlı əmir və sərkərdələrinin ehtiyatlandıqları Səfəvi atlılarının hücumunun qarşısının alınması üçün də əsas vasitələrdən biri sayılırdı. Tədqiqatçıların və araşdırmaçıların qənaətinə görə, Osmanlı sultanı və əmirləri döyüşü əks-hücum taktikası üzərində qurmuşdular. Onlar əvvəlcə Səfəvi qoşunlarının hücumunun qarşısını almağı, bu qoşunların hücum planlarını alt-üst etməyi, sonra da onlar üzərinə sürətli hücum etməyi planlaşdırırdılar.

Osmanlı qoşunlarının güclü dəstələrindən olan qapıqolu dəstələri Sultan Səlimin dayandığı mərkəzdə qərar tutmuşdular və Səfəvi qoşunları üzərinə əks-hücumun səmərəli şəkildə həyata keçirilməsi üçün bu dəstələrə də böyük ümidlər bağlanlırdı.

Qapıqolu dəstələri Sultan Səlimin əsas zərbə qüvvələrindən biri idi və sonradan döyüşün gedişi də göstərdi ki, məhz qapıqolu dəstələrinin vaxtında döyüşə yeridilməsi ilə Sultan Səlim öz uğurunu möhkəmlədə bildi (167).

Türkdilli elmi-tədqiqat əsərlərində də Osmanlı qoşunlarının Səfəvi qoşunları üzərində üstünlüyünün təmin edilməsində Osmanlı qoşunlarında olan topların və tüfənglərin xüsusi rolu qeyd olunur. Bununla, əslində həm də Səfəvi qoşunlarının sayca dörd dəfə üstün olan Osmanlı qoşunlarına qarşı mərdlik və cəngavərliklə vuruşması etiraf olunmuşdur. Əslində, qənaət belədir ki, əgər Osmanlı qoşunları top və tüfənglərə malik olmasaydı bu qoşunların Səfəvi qoşunları üzərində uğur qazanacağı mümkün ola bilməzdi.




*Osmanlı qoşunlarının döyüşqabağı düzülüş forması*

Osmanlı qoşunları da döyüşdən əvvəl ənənəvi olaraq üç qrupa bölünmüşdü - mərkəz qrupu, sağ və sol qruplar. Amma qoşunları önünə təhlükəsizlik qüvvələri də çıxarılmışdı. Bu qüvvələrə Əli bəy Şahsuvaroğlu rəhbərlik edirdi. Nəzərdə tutulmuşdu ki, təhlükəsizlik qüvvələri Osmanlı qüvvələrinin döyüş meydanında bütünlüklə öz mövqelərini tutmasına qədər Səfəvi qoşunlarının qəfil hücumlarının qarşısını alsın və döyüş başlanandan sonra isə sol cinahın (qrupun) tabeçiliyinə keçsin. Türkdilli mənbələrə əsasən, Osmanlı qoşunlarının döyüş düzülüşü aşağıdakı kimi idi (168):

Sağ cinah qrupuna Anadolu bəylərbəyi Xadim Sinan paşa rəhbərlik edirdi. Bu cinahda Anadolu əyalət əsgərləri, Qaraman əyalət əsgərləri və 10 min nəfərlik Anadolu əzapları yerləşmişdilər. Bu cinahda 100 ədəd topun da olduğu bildirilirdi. Mərkəzdəki qüvvələrə Osmanlı sultanı özü rəhbərlik edirdi. Bu mövqedə sağ qariplər, sol qariplər, sağ əlufəçilər, sol əlufəçilər, silahdar bölmələri, sipahi bölmələri və yeniçərilər vəzifə almışdılar. Mərkəzdə olan qüvvələrin ön xəttini yeniçərilər təşkil edirdilər. Yeniçəriləri Səfəvi atlılarının qəfil hücumlarından qorumaq üçün onların qarşısına arabalar və dəvələr yerləşdirilmişdi. Onlar ilkin mühafizə xəttini təşkil etməli idilər. Yeniçərilərin arxasında isə Sultan və onun ətrafında da digər qüvvələr yer almışdılar. Sol cinah Rumeli bəylərbəyi Həsən paşanın rəhbərliyi altında idi. Sol cinahda Rumelinin 15 - ə qədər sancaq bəyi və onların rəhbərliyi altında olan qüvvələr (40 min nəfərə qədər), Əli bəy Şahsuvaroğlunun rəhbərliyi altında olan qoşun dəstəsi, 8 min nəfərlik Rumeli əzapları yerləşmişdilər. Bu cinahda da 100 ədəd top var idi. Bir miqdar qüvvə isə Osmanlı qoşunlarının düşərgəsinin qorunması üçün saxlanmışdı. Ehtimal edilirdi ki, böyük sürətə və döyüşkənliyə malik olan Səfəvi atlıları Osmanlı qoşunlarının cinahlarından adlamaqla arxada yerləşmiş düşərgə üzərinə hücum edə bilər. Bu təhlükənin qarşısının alınması üçün, yuxarıda qeyd edildiyi kimi, düşərgə ətrafında bir neçə top saxlanmış və əlavə qüvvələr yerləşdirilmişdi. Düşərgədə olan bütün arabalar düşərgə boyu düzülmüş və onlar bir-birinə zəncirlərlə bağlanmışdı. Bununla, düşərgə ətrafında bir müdafiə səddi yaradılmışdı. Hətta düşərgənin daxilində də çadır kəndirlərindən maneələr qurulmuşdu ki, onlar da Səfəvi atlılarının hərəkətlərini məhdudlaşdırmalı idi. Osmanlı mənbələrindən birində isə qoşunların döyüş düzülüşünün mövcud ənənələrlə bağlı olduğu bildirilirdi. Həmin ənənəyə görə, döyüşlər Anadoluda və ətrafında baş verdiyi halda Anadolu bəylərbəyi və onun tabeçiliyində olan qoşunlar sultanın sağ tərəfində, yəni sağ cinahda, Rumeli qoşunları isə sol cinahda qərar tuturdular. Döyüşlər Rumelidə (Osmanlı dövlətinin Avropada yerləşən hissəsi) baş verəndə isə Rumeli qoşunları sağ cinahda meydana atılırdılar. Bu ənənəyə uyğun olaraq Rumeli qoşunları Çaldıran düzündə qoşunların sol cinahında mövqe tutdular.

Farsdilli tarixi ədəbiyyatda Osmanlı qoşunlarının döyüşqabağı düzülüşü haqqında bəzi təfərrüatlar haqqında da məlumatlar vardır. Məsələn, bildirilir ki, Nikobi atlıları Mixayıloğlunun rəhbərliyi altında, Bolu və Qastamon atlıları İsfəndiyaroğlunun rəhbərliyi altında Osmanlı qoşunlarının irəliyə çıxarılmış

çərxçi dəstələri idilər. Mixayıloğlunun rəhbərliyi altında olan dəstənin bayrağı qırmızı rəngdə, İsfəndiyaroğlunun rəhbərliyi altında olan qoşun dəstəsinin bayrağı isə yaşıl rəngdə idi. Məlumatlarda o da bildirilir ki, yeniçərilər Osman ağa Balyeməzoğlunun rəhbərliyi altında mərkəzdə dördbucaq şəklində, ikinci xətdə yerləşdirilmişdi. İstinad olunan məlumatlara görə, yük arabaları və yük heyvanları üç tərəfdən yeniçərilərin ətrafına düzülmüş və beləliklə, onların ətrafında bir müdafiə xətti yaradılmışdı. Qoşunları cinahlarında yerləşdirilmiş topların zəncirlə bir-birinə bağlanması da əslində Səfəvi atlarına qarşı mühafizə xəttinin yaradılması kimi nəzərdə tutulmuşdu (169).

Farsdilli tarixi ədəbiyyatda Osmanlı qoşunlarına aşağıdakı sərkərdələr tərəfindən rəhbərlik edildiyi öz əksini tapmışdır:

Osmanlı qoşunlarının baş komandanı - Sultan Səlim xan Yavuz
Anadolu qoşunlarının komandanı - Sinan paşa
Rumeli qoşunlarının komandanı - Həsən paşa
Piyada qoşunlarının baş komandanı - İsgəndər paşa
Yeniçəri qoşunlarının komandanı - Osman ağa (Balyeməzoğlu)
Yüngül silahlı atlıların (akınçıların) komandanı - Qaraca Məhəmməd paşa
İrəli çıxarılmış atlı qarovul dəstələrinin komandanı - Əhməd paşa (170).

## 10. Çaldıran döyüşünün gedişi

### a) Döyüşün başlanğıc hissəsi

1514-cü il avqust ayının 22-də Çaldıran düzündə hər iki tərəfin döyüşqabağı hazırlıqları başa çatdırıldı. Bu döyüşün mərkəzinin Çaldıran düzünün hansı məkanında qərar tutması dəqiqliklə təsbit edilməmişdir. Amma ehtimal edilir ki, bu döyüş Çaldıran düzündən keçən çayların arasında baş vermişdir. Çünki çayların yaxında olması hər iki tərəfin içməli suya olan ehtiyacını aradan qaldıra bilərdi.

Döyüşün başlanma saatı haqqında da mənbələrdə və elmi-tarixi ədəbiyyatda olan məlumatlar fərqlidir. Məsələn, türkdilli mənbələrə istinad edən tarixi ədəbiyyatda Çaldıran döyüşünün 1514-cü il avqust ayının 23-də (hicri tarixlə 920-ci il Rəcəb ayının 2-də), çərşənbə günü səhər saat 04.00-da başladığı bildirilir (171). Farsdilli elmi-tarixi ədəbiyyatda döyüşün, əsasən, səhər tezdən baş verməsi haqqında məlumatlar verilmişdir. Amma bəzi məlumatlar Çaldıran döyüşünün günorta başladığını və qürubda sona çatdığını bildirirlər. Bəzi məlumatlarda isə döyüşün 09.30-da başladığı və 15.00-da başa çatdığı bildirilir. Döyüşün səhər erkən başlayaraq ilkindi namazına qədər davam etməsi haqqında da məlumatlar mövcudur (172).

Döyüşün səhər saat 04-də başlana bilməsi bir qədər inandırıcı görünmür. Çünki gecə vaxtı döyüşçülərin hərəkətləri kifayət qədər məhdudlanmış ola bilərdi. Amma qoşunların səhər saat 04-də oyanaraq döyüşə hazırlaşmaları daha

çox inandırıcı görünə bilər. Bütünlükdə isə aydındır ki, havaların işıqlanması ilə döyüş başlamış və axşam qürubuna yaxın vaxtlara qədər davam etmişdi.

İsgəndər bəy Münşi "Tarix-i aləmara-yi Abbasi" əsərində "Tarix-e cahan ara"ya və camaat arasında yayılmış söhbətlərə istinad etməklə döyüşdən qabaq Şah İsmayılın bildirçin ovu ilə məşğul olması haqqında ehtimalların mövcudluğunu yazırdı. Belə bir məlumat "Rövzətüs Səfəviyyə" əsərində də mövcuddur (173). Müəllif bu məlumatı bir hökm şəklində irəli sürməmişdir və o özü də bu məlumatın doğruluğuna ehtiyatla yanaşmışdır. Müəllifi bəlli olmayana "Cahanqoşa-ye xaqan" əsərində də Şah İsmayılın döyüşdən qabaq bildirçin ovu ilə məşğul olması göstərilmişdir. Bu mənbədə hətta onun qorçulardan bir dəstənin də bu ova cəlb edildiyi bildirilirdi (174). Bəzi məlumatlarda isə Şah İsmayıl tərəfindən 1000 nəfər qorçunun bildirçin ovuna cəlb edildiyi və bununla, bu dəstənin döyüş hazırlığından kənarlaşdırılması irad kimi bəyan edilir (175). Başqa sözlə, Çaldıran döyüşünün təşkilinə Şah İsmayılın laqeydliklə yanaşdığı diqqətə çatdırılır. Şah İsmayılın bu döyüşə hazırlıqlarda müəyyən arxayınçılığa yol verməsi məlumdur. Lakin döyüşdən qabaq Şah İsmayılın bildirçin ovuna baş qatması və qoşun döyüşçülərinin xeyli hissəsini də bu işə cəlb etməsi haqqında söylənilərlər daha çox Şah İsmayılın arxayınçılığı haqqında yol verilmiş mübaliğəni andırır. "Aləmara-yi Şah İsmayıl"da Səfəvi qoşunlarının Çaldıran düzünə Osmanlı qoşunlarından gec çatdığı bildirilir (176). Məlumdur ki, Osmanlı qoşunları istirahətə dayanmadan səhəri gün döyüşə başladılar. Səfəvi qoşunları isə Çaldıran düzünə daha gec çatandan sonra qoşun başçılarının və əmirlərinin toplantısı keçirildi və buna yəqin ki, xeyli vaxt ayrıldı. Bundan sonra isə qoşunların döyüşqabağı qruplaşdırılması aparıldı. Əslində, Şah İsmayılın həmin gün ovla məşğul olması üçün heç vaxt qalmırdı. Xeyli sayda adamın iştirakı ilə həyata keçiriləcək ov isə yəqin ki, beş-on dəqiqəlik bir tədbir olmazdı. Bu mənada ov söhbətinin ortaya atılması heç də inandırıcı görünmür. Digər tərəfdən min nəfərin iştirakı ilə 100 min nəfərlik düşmən qoşunu yaxınlığında ovla məşğul olmaq özü də kifayət qədər təhlükəli bir iş ola bilərdi.

Bəzi məlumatlara görə, Şah İsmayıl Çaldıran düzünə çatdıqdan sonra da Osmanlı qoşunlarının həmin məntəqəyə gəlməsinə öz təəccübünü gizlətmədi. O, Sultan Səlimin öz məmləkətinin sərhədlərini aşaraq yad ərazilərdə döyüş aparmaq cəsarətinə inanmırdı. Ona görə də Şah İsmayıl, Sultan Səlimin qoşunları ilə maraqlandı, Osmanlı qoşunlarından götürülmüş əsirdən qoşun haqqında məlumat aldı (177). Yəni, bu məlumatın özü də döyüş ərəfəsində Şah İsmayılın, Osmanlı qüvvələri ilə qarşılaşmaya tamamilə laqeyd qalmadığını göstərir. Yəni, ən azı Çaldıran düzündə Şah İsmayılın hansı təhlükə ilə üz-üzə gəldiyinin fərqində olmaması elə də inandırıcı görünmür.

Çaldıran döyüşündə Səfəvi qoşunlarının uğursuzluğunun subyektiv səbəblərlə əlaqələndirilməsi üçün başqa bəhanələrə əl atılması ilə də elmi-tarixi ədəbiyyatda rastlaşmaq mümkündür. Məsələn, belə əsərlərdən birində bildirilir ki, döyüşdən əvvəlki gecə Səfəvi qoşunları içki məclisinə oturmuşdular. Guya, içkili vəziyyətdə olmaları Səfəvi döyüşçülərində əlavə cəsarət görüntüsü yara-

dırdı, Səfəvi döyüşçüləri məst halda döyüş meydanına atılırdılar. Guya məst olmaq Səfəvi döyüşçülərində qorxu və ürkünü qovurdu. Amma bu fikirləri tarixi faktlar kimi ortaya atan müəllif özü də etiraf etməli olurdu ki, Səfəvi döyüşçüləri xüsusi məharət və qorxmazlıqla döyüşürdülər və Osmanlı qoşunlarının yalnız çoxlu sayda topa və tüfəngə malik olması onların üstünlüyünü təmin etdi (178). Səfəvi qoşunlarının əksəriyyətini etiqad sahiblərinin təşkil etməsi məlumdur. Belə bir vəziyyətdə bu qoşunlar içərisində içkiyə aludəçiliyin kütləvi hal alması yəqin ki, doğru olmazdı. Digər tərəfdən qoşunların kütləvi şəkildə məst olub döyüş meydanına atılması barədə məlumatın elmi dövriyyəyə çıxarılması Şah İsmayıl haqqında subyektiv mülahizələrin qabardılmasına daha çox xidmət edir. Çünki yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıl döyqşqabağı kiminsə şərab içməsinə qarşı barışmaz münasibət göstərirdi.

Türkdilli qaynaqlarda belə bir məlumata da rast gəlmək mümkündür ki, guya Çaldıran döyüşündən əvvəl Şah İsmayıl ilə Sultan Səlim arasında baş verəcək qarşılaşmada top və odlu silahlardan istifadə olunmaması haqqında razılığa gəlinmişdi. Guya Şah İsmayıl da bunun əvəzində müttəfiqi olduğu Misir sultanlığının qüvvələri ilə Zülqədərli qüvvələrinin heç zaman Osmanlıya qarşı istifadə etməyəcəyini öhdəsinə götürübmüş. Bildirildiyinə görə, əvvəlcə Şah İsmayıl bu vədələşməni pozmuş və Misir sultanlığının qüvvələri ilə zülqədərli qüvvələrini Osmanlı qoşunlarına qarşı döyüşə cəlb etmişdi. Sultan Səlim də bundan xəbərdar olunca, “bir gün biz də Şaha verdiyimiz vəfanı pozarıq” – demiş və odlu silahları Səfəvi qoşunlarına qarşı döyüşə cəlb etmişdi. Amma elə bu rəvayət xarakterli məlumata münasibət bildirən tədqiqatçılar da onun doğru olmadığını təsdiq edirlər. Çünki Osmanlı qoşunların qarşı döyüşə istər Misir sultanlığının qüvvələri, istərsə də Zülqədərli qüvvələri cəlb edilməmişdilər (179).

Çaldıran döyüşünə başlamaq ərəfəsində Şah İsmayılın psixoloji durumuna mənfi təsir göstərən bəzi hadisələrin baş verməsi haqqında rəvayətlər də mənbələrdə və elmi-tarixi ədəbiyyatda yer tapmışdır. Bu rəvayətlərdən biri belədir ki, döyüşdən qabaq "Humayun quşu" adlı şahin quşu uçurdulsa da ov etməmiş və uçub gedərək bir daha geri qayıtmamışdı. Şah İsmayıl da bu quşun geri qayıtmamasını yaxşı əlamət kimi qəbul etməmişdi. Bildirilir ki, çox sevdiyi quşun geri qayıtmamasından Şah İsmayıl üzüntü keçirmiş və tələb etmişdi ki, ona bir qədəh şərab versinlər. Şərab içmək də ona qismət olmamış və qədəh əlindən düşərək parça-parça olmuşdu. Həmin rəvayətə görə, guya Şah İsmayıl döyüşə girməzdən əvvəl sərxoş imiş və qılıncını əlinə almazdan əvvəl carçıdan tələb etmişdi ki, döyüşçülər arasında "bu gün xuda ali-Osmanı şahımıza şikar göndərmişdir" deyə qışqırsın. Carçı isə həyacanlandığından şahın sözlərini səhv salmış və demişdi ki, "qazilər bilmiş olun ki, bu gün haqq-təala şahımızı osmanlılara şikar qıldı". Amma bu rəvayətləri xatırladan tədqiqatçılar onların da doğruluğunu qəbul etmirlər (180).

Çoxlu sayda topun mövcudluğu Osmanlı qoşunlarının çevikliyini müəyyən qədər məhdudlaşırırdı və qoşun dəstələrinin toplardan uzaqlaşması Sultan Səlimin döyüş üçün seçdiyi taktikaya uyğun deyildi. Sultan Səlim onun mara-

ğında idi ki, Səfəvi qoşunları döyüşə başlasınlar, Osmanlı qoşunlarına yaxınlaşsınlar və bu zaman Osmanlı topları və tüfəngləri işə salınsın. Osmanlı toplarının vurma uzaqlığının da yaxın olması Səfəvi qoşunlarının yaxınlaşmasını tələb edirdi. Yalnız bu zaman topların fəaliyyəti səmərəli ola və Səfəvi qoşunlarına daha ciddi itkilər yetirilə bilərdi.

Həm "Aləmara-yi Səfəvi" və həm də "Aləmara-yi Şah İsmayıl" əsərində olan bir məlumata görə, Çaldıran döyüşü başlamazdan əvvəl Sultan Səlim öz elçisini Şah İsmayılın yanına göndərdi. Dürüstlüyü məntiqi baxımdan şübhə doğuran bu məlumata görə, Sultan Səlim, Səfəvi hüdudlarına daxil olandan sonra Şah İsmayılın kifayət qədər cəsur bir hökmdar olduğuna vardı və döyüşün necə aparılması ilə bağlı onunla şərtləşməyə çalışdı. Sultan Səlim öz elçisi vasitəsilə Şah İsmayıla bu sözləri çatdırdı: "Belə güman edirdim ki, mən hələ İran ölkəsinə daxil olmamışdan əvvəl sən İraqa tərəf qaçacaqsan. Bərəkallah. Mərhəba olsun ki, qarşımızda dayanmısan. İndi buyurun ki, biz sizinlə hansı üsulla müharibə edək. Hansı üsulla desən elə də müharibə edək" (181).

"Aləmara-yi Şah İsmayıl"a görə isə, Sultan Səlim Səfəvi şahına belə bir xəbər göndərdi: "Biz humayunun Sizin əməlləriniz haqqında eşitdiklərimiz doğru imiş. Həqiqətən də Siz mərdi-mərdanə və şir-i fərzanəsiniz. Biz belə güman edirdik ki, Siz böyük bir qoşun toplamısınız və bizimlə müharibə edəcəksiniz. İndi qoşunlarınızı müşahidə etdikdən sonra bildik ki, Sizin gücünüz yalnız qoşunda deyil, bəlkə Allah-təalanın tövfiqindədir. Hər halda biz humayun Sizi qoşununuzla tərk edirik və İran vilayətini Sizə bağışlayırıq. Biz İstanbula tərəf geri qayıdırıq. Əlvida" (182).

"Aləmara-yi Şah İsmayıl"a görə, Şah İsmayıl elçi vasitəsilə Sultan Səlimə belə cavab verdi ki, əvvəlcə Səfəvi məmləkətini işğal edin, sonra isə onu kimə isə bağışlayın. Yəni, Şah İsmayıl Osmanlı sultanının sözlərini istehza ilə qarşılayırdı ki, hələ işğal etmədiyin bir məmləkəti başqasına necə bağışlaya bilərsən? Ona görə də Şah İsmayıl təklif edirdi ki, indi qılınclar çəkilməli, mərdlə namərdin yeri bilinməlidir. Bu sözlərdən sonra Sultan Səlim döyüşə girmək əzmini ortaya qoydu və öz elçisini yenidən Şah İsmayılın yanına göndərdi. Ona çatdırdı ki, döyüşə girməyə hazırdır və sonra da əlavə etdi ki, həm də Şah İsmayıl tərəfindən döyüşün hansı üsulunun seçilməsinə də razıdır. Guya, Şah İsmayıl da belə bir təklif irəli sürdü ki, Osmanlı qoşunları toplardan istifadə etməsin. Döyüş meydanında hər kəs öz gücünü nümayiş etdirsin. Bildirilir ki, Sultan Səlim də bu təklifi qəbul etdi və and içdi ki, döyüşdə toplardan istifadə olunmasın. "Aləmara-yi Səfəvi"yə görə isə, Şah İsmayıl 18 min nəfərlik qoşunu ilə çoxsaylı Osmanlı qoşunları qarşısında qərar tutduğunu söyləyərək toplardan istifadə olunmamasını təklif etdi. Şah İsmayıl Sultan Səlimə çatdırdı ki, aləmin mərdliyindən səndə bir nişanə varsa toplardan istifadə olunmasına qadağa qoy və bundan sonra döyüş meydanında mərd də namərddən fərqlənə bilsin (183).

Yuxarıda deyildiyi kimi, elçilər vasitəsilə döyüş meydanında belə bir təmasın və ünsiyyətin qurulması inandırıcı görünmür. Sultan Səlim çox uzun məsafəni çox böyük çətinliklər və məhrumiyyətlərlə ona görə gəlməmişdi ki,

ona sərf etməyən döyüş üsulları və taktikası barədə qarşı tərəflə sözləşsin və döyüşü necə aparmaq barədə qarşı tərəfin şərtlərini qəbul etsin.

Qeyd etmək lazımdır ki, istər mənbələrdə, istərsə də elmi-tarixi ədəbiyyatda Çaldıran döyüşünün gedişi haqqında müfəssəl məlumat yoxdur və bu döyüşün gedişinin bütöv mənzərəsini yaratmaq hələlik mümkün deyildir. Bir sıra məlumatlar isə bir-birindən fərqli mənzərəni ortaya qoyurlar. Bununla belə, hər halda ilkin qənaət belədir ki, döyüş meydanına ilkin olaraq Səfəvi qoşun dəstələri atıldılar.

Hələ döyüş başlamazdan əvvəl Şah İsmayıl, Osmanlı sultanının topların fəaliyyətinə dayaqlanan taktikanı tətbiq edəcəyindən xəbərdar idi. Ona görə də o qərara aldı ki, ilk hücumu mərkəzdən deyil cinahlardan başlasın. Şah İsmayıl nəzərdə tutmuşdu ki, cinahlardan sürətli hücum həyata keçirməklə Osmanlı qüvvələrini əhatələsin, sultanın ətrafındakı qüvvələrə cinahlardan zərbələr endirsin və hətta sultanın xüsusi qarovul və mühafizə qüvvələrini yenməklə yeniçərilərin arxasına çıxsın və onları da mühasirəyə alsın. Bu taktikanın həyata keçirilməsi qarşı tərəfin canlı qüvvəsinə güclü zərbə vurmaqla bərabər, Osmanlı toplarının zərbə gücünü də kifayət qədər məhdudlaşdıra bilərdi (184).

Şah İsmayıl Çaldıran düzünün şimal-şərqindəki təpəliklərin üstündə qərar tutmuşdu və oradan döyüş meydanını yaxşı müşahidə edə bilirdi. Onun göstərişinə əsasən, döyüşün başlanması üçün çərxçi təyin edilmiş Sarıpirə Ustaclı səhərin açılması ilə irəli atıldı və Osmanlı qoşunlarının sağ cinahında irəli çıxarılmış dəstələri zərbəyə məruz qoydu. Yusif bəy Vərsağın da qatıldığı çərxçi dəstəsi sürətli hücum həyata keçirdi və ilkin müvəffəqiyyəti əldə etməyə nail oldu. Osmanlı qüvvələrinə müəyyən itkilər də yetirildi. Amma bu uğuru davam etdirmək mümkün olmadı. Onda Səfəvi dəstəsi geri çəkilməyə başladı və qoşunların mərkəzindəki qüvvələrə birləşdi (185).

Osmanlı mənbələrinə görə, Saripirə Ustaclınn başladığı sürətli hücumun qarşısını Osmanlı əmiri Məcaloğlunun rəhbərliyi altında olan dəstə aldı və həmin dəstə Səfəvi dəstəsini geri çəkilməyə məcbur etdi (186).

Mövcud olan bir məlumata görə isə Sarıpirə Ustaclı öz dəstəsi ilə geri çəkilməmiş Şah İsmayıl da döyüşə qoşuldu. Bildirilir ki, Sarıpirə Ustaclı sürətlə irəli hərəkət etməyə müvəffəq oldu. Onun arxasınca sol cinahdan Həsən bəy Lələnin və Əmir Əbdülbaqinin rəhbərliyi altında olan qoşun dəstələri də hücuma qoşuldular və onlar da sürətlə irəli getməyə müvəffəq oldular. Amma Şah İsmayıl bu irəliləyişin Osmanlı qoşunlarının taktikasından irəli gəldiyini və bununla, məqsədin Səfəvi qüvvələrinin topların atəş məsafəsinə cəlb edilməsi olduğunu anladı. Qısa zamandan sonra onun gümanları öz təsdiqini tapdı. Belə ki, Qarapirə Ustaclı fədakarcasına döyüşsə də qarşı tərəfdən atılan oxa hədəf oldu və həmin ox onun çiyninə sancıldı. İlk həmlənin gedişində əmir Əbdülbaqi də yaralandı. Bununla belə, Səfəvi dəstəsinin cəsarətli döyüşü, bütün qüvvələrini döyüşün gedişinə səfərbər etməsi Osmanlı dəstəsinin geri çəkilməsinə səbəb oldu. Əslində, bu geriləmə həm də taktiki məqsəd daşıyırdı və bununla, Osmanlı dəstəsi Səfəvi dəstəsini topların atəş məsafəsinə çəkmək istəyirdi. Belə

də oldu və topların işə salınması ilə Səfəvi dəstəsinə böyük itki yetirildi. Bildirilir ki, bundan sonra Şah İsmayıl döyüş meydanına atıldı (187).

"Cahanqoşa-ye xaqan"ın anonim müəllifi bildirir ki, Sarıpirə Ustaclının rəhbərlik etdiyi çərxçilər dəstəsinin uğursuzluğa düçar olması Şah İsmayıla ovda (şikargahda) olarkən çatdırıldı. Guya, bu xəbər onu çox qəzəbləndirdi və o da bu xəbərdən sonra düşmənlərə tərəf üz tutdu (188). Bu məlumat bəzi müəlliflər tərəfindən elmi-tarixi ədəbiyyata gətirilərək Şah İsmayılın Çaldıran döyüşünə sonsuz etinasızlığının təsdiqi kimi təsvir olunmuşdur. Amma bu məlumatın doğruluğuna inanmaq çətindir. Əvvəla, ona görə ki, Şah İsmayıl qoşunların baş komandanı olduğu halda döyüşün gedişində döyüşdən kənarda ola bilməzdi. Digər mənbələr və məlumatlar da onu göstərir ki, Şah İsmayıl döyüş meydanında idi, döyüş onun göstərişi ilə başlamışdı və ilk anlardan da döyüşün gedişini müşahidə edirdi. Digər tərəfdən də əgər döyüş səhər erkən başlamışdısa, onda belə çıxır ki, Şah İsmayıl bildirçin ovuna gecə getmişdi və hələ hava qaranlıq ikən bildirçin ovu ilə məşğul idi.

### b) Şah İsmayılın sağ cinahda döyüşə qoşulması

Digər məlumatlara görə isə, çərxçilər dəstəsi döyüşü başlayandan sonra Şah İsmayıl da döyüşə qoşuldu. O, Məhəmməd xan Ustaclıya da göstəriş verdi ki, sol cinahdan Osmanlı qüvvələri üzərinə hücuma keçsin. Özü isə sağ cinaha meylləndi və sağ cinahdan Osmanlı qüvvələrinin sol cinahı üzərinə hücuma başladı. Şah İsmayıl bu həmləsini elə bir sürətlə həyata keçirdi ki, Osmanlı qoşunlarının sol cinahında yerləşdirilmiş topların qarşısını kəsmiş əzap dəstələri vaxtında geri çəkilməyə imkan tapa bilmədilər. Onları kənara çəkilməməsi topların da işə salınmasına mane oldu. Topların qarısında yerləşdirilmiş əzaplar məcbur olub Səfəvi atlıları ilə döyüşə girdilər. Şah İsmayıl bu hücum zamanı da ona xas olan sürət, qətiyyət, əzmkarlıq, fədakarlıq, mübarizlik və digər döyüş keyfiyyətlərini nümayiş etdirdi. Bununla o öz döyüşçülərini də fədakar mübarizəyə səfərbər edə bildi. Səfəvi əmirləri öz rəhbərlərinin və mürşidi-kamillərinin ardınca "Allah, şah" kəlmələrini qışqıraraq sayca çox olan Osmanlı qüvvələrinə güclü zərbə endirdilər və Osmanlı qoşunlarının sol cinahını çətin vəziyyətə saldılar. Mövcud olan məlumata görə, Şah İsmayılın döyüş məharəti və şəxsi cəsarəti Osmanlı qoşunlarına çoxlu itkilər gətirdi.

Şah İsmayılın bu döyüş zamanı son dərəcə böyük şücaət göstərməsini Osmanlı mənbələri də təsdiq edirdilər. Onların məlumatına görə, Şah İsmayıl elə bir sürət və qətiyyətlə döyüşürdü ki, hətta mindiyi atlar da onun döyüşkənliyinin gərginliyinə taqət gətirə bilmirdilər. Bunun nəticəsi idi ki, bütünlükdə Çaldıran döyüşünün gedişində Şah İsmayıl yeddi dəfə öz atını yenisi ilə əvəzləməli olmuşdu. Onun əzmkarlığı nəticəsində Osmanlı qoşunlarının sol cinahında hərbi təşəbbüsü də ələ almaq mümkün oldu. Osmanlı qoşunlarının sol cinahının rəhbəri Rumeli bəylərbəyi Həsən paşanın bu döyüşün gedişində həyatını itirməsi də Səfəvi qüvvələrinin hansı qətiyyətlə vuruşmasının təsdiqi

idi. Osmanlı qüvvələrinin geri çəkilməsi əvvəldən nəzərdə tutulmuş planın, yəni Osmanlı qüvvələrinin əhatə edilməsi və yeniçəri dəstələrinə arxadan zərbə vurulması planının icrasına mane olsa da, bütünlükdə Şah İsmayıl sağ cinahda ciddi uğur əldə etməyə nail oldu (189).

Şah İsmayılın rəhbərliyi altında Səfəvi qoşunlarının Osmanlı qoşunlarının sol cinahında Rumelidən olan qoşun dəstəsinə qarşı uğurlu döyüş aparması Osmanlı qaynaqları tərəfindən də təsdiq olunur. Yuxarıdakı məlumatlardan da məlumdur ki, Osmanlı qoşunlarının sol cinahında 50 min nəfərə yaxın bir qoşun dəstəsi var idi. Yəni, bu cinahda olan qoşun dəstəsi Səfəvi qoşunlarının ümumi sayından iki dəfə çox idi. Şah İsmayılın rəhbərliyi altında dəstə isə yəqin ki, Səfəvi qoşunlarının ümumi sayının üçdə birindən çox olmazdı. Bu da 6-7 min nəfəri təşkil edə bilərdi. Qüvvələr nisbətindəki belə fərq bir daha Şah İsmayılın hansı fədakarlıqla döyüşməsindən və öz qoşun dəstəsinin döyüşünə də necə rəhbərlik etməsindən xəbər verir.

Osmanlı qaynaqlarına əsaslanan türkdilli araşdırmalarda bildirilir ki, Şah İsmayıl tabeliyində olan 50 min nəfərlik qoşun dəstəsi ilə Osmanlı qoşunlarının sol cinahı üzərinə hücuma keçdi. Sonra da qeyd olunur ki, bu qoşun dəstəsinin 10 min nəfəri ağır silahlarla silahlanmış atlı döyüşçülər idi. Qalan 40 min nəfəri isə ən seçilmiş döyüşçülərdən təşkil olunmuşdu. Amma məlumdur ki, bu rəqəmlər doğru deyildir və Şah İsmayılın sərəncamında bu qədər qüvvə yox idi. Göstərilən bu rəqəmlər bir tərəfdən Osmanlı qoşunlarının sol cinahının uğursuzluğunun pərdələnməsinə xidmət edirdisə, bir tərəfdən də Şah İsmayılın sonsuz fədakarlığının pərdələnməsinə xidmət edirdi. Türkdilli tarixi ədəbiyyatda o da etiraf olunur ki, əzap dəstələri vaxtında topların qarşısından çəkilə bilməmişdilər və bunun nəticəsində də toplardan Səfəvi qoşunlarına qarşı atəş açmaq mümkün olmadı. Bu isə Səfəvi qoşunlarının hücumunun uğurunu şərtləndirdi. Şah İsmayılın sürətli hücumu topların qarşısında yerləşdirilmiş Rumeli əzaplarının böyük bir hissəsini məhvi ilə də nəticələndi. Bütünlükdə isə sol cinahda bir vahimə, ruh düşkünlüyü yarandı. Türkdilli tarixi ədəbiyyatda daha sonra bildirilir ki, Şah İsmayıl ilk uğurdan sonra öz diqqətini Osmanlı qoşunlarının sol cinahının kənarlarına və arxasına istiqamətləndirdi və Osmanlı qoşunlarının sol cinahının əhatə edilməsinə cəhd göstərildi. Şah İsmayılın güclü və öldürücü hücumunun qarşısının alınması üçün Əli bəy Məlqucoğlu və onun qardaşı Turəli bəyin rəhbərliyi altında olan qoşun dəstəsi çıxarıldı. Adları çəkilən qoşun başçıları elə bir taktika həyata keçirməyə çalışırdılar ki, qəfil və sürətli həmlə həyata keçirməyə müvəfəq olsunlar və bununla Səfəvi dəstəsini çaş-baş salsınlar. Amma Şah İsmayıl bu taktikanın mahiyyətini vaxtında aşkarladı və Osmanlı əmirlərinə fürsət verməyərək özü ilkin olaraq həmin dəstənin üzərinə hücuma keçdi. Nəticədə, Şah İsmayıl tərəfindən rəhbərlik edilən qoşun dəstəsi həm adları çəkilən əmirləri, həm də onların rəhbərlik etdiyi qoşun dəstəsini bütünlüklə məhv etdi. Bundan sonra Şah İsmayıl qarşı tərəfin sol cinahının əsas qüvvələri üzərinə hücum çəkdi. Baxmayaraq ki, qarşı tərəf sayca Səfəvi qoşunlarından xeyli dərəcədə çox idi, həmin say üstünlüyü Şah İsmayılın iradəsini

sarsıtmadı. Əksinə, onun əzmkarlığı, döyüşü təşkil etmək məharəti və şəxsi cəngavərliyi ilkin hərbi uğurun daha da genişləndirməsinə yol açdı. Böyük sayda olan Osmanlı qoşunları, bu qoşunlara rəhbərlik edən adlı-sanlı və təcrübəli paşalar və əmirlər göstərdikləri bütün cəhdlərə baxmayaraq Şah İsmayılın müzəffər yürüşünün qarşısını ala bilmədilər. Bir-birinin ardınca Osmanlı mövqeləri səfəvilərin əlinə keçdi və Rumeli bəylərbəyi Həsən paşanın qərar tutduğu mövqe Şah İsmayılın hücum obyektinə çevrildi. 50 min nəfərlik Osmanlı qoşun dəstəsi Şah İsmayılın əzmkarlığı qarşısında duruş gətirməyərək heç Həsən paşanın mühafizəsini də təmin edə bilmədi. Həsən paşa bu döyüşün gedişində ağır yara aldı və sonra da dünyasını dəyişdi. Rumeli bəylərbəyindən başqa on nəfərə qədə o cümlədən Rumeli sancaq bəyi də Şah İsmayılın hücumu qarşısında duruş gətirə bilməyərək həyatlarını itirməli oldular. Qətlə yetirilən Osmanlı əmirləri arasında Sofiya sancaq bəyi Əli bəy, Silistr liva hakimi Turəli bəy, Mora sancaq bəyi Həsən ağa, Prizrən bəyi Süleyman bəy, Məhəmməd bəy Yorquc oğlu, Anadolu əmirlərindən Ayaz bəy, Niğde bəy, İsgəndər bəy Yorqucoğlu, Bəyşəhir hakimi Sinan bəy Qarlıoğlu, Qeysəri bəyi Üveys bəy, Qarasi hakimi Mehmet bəy və digərləri də var idi. Bu qədər sayda tanınmış əmirlərin və vəzifəli mənsubların öz həyatlarını itirməsi də Şah İsmayılın hücumunun hansı nəticələr verdiyini təsəvvür etməyə əsas ola bilər. Səfəvi qoşun dəstəsinin uğurlu hücumundan sonra osmanlı qoşunlarının sol cinahı demək olar ki, məhv oldu. Osmanlı mənbələrinin bildirdiyi kimi, "bu böyük döyüşdə Rumeli qolu şəhid oldu". Bu cinahda salamat qalan qüvvələrin bir qismi qoşunların mərkəzinə, bir qismi isə geridə olan düşərgəyə çəkilməli oldu. Şah İsmayıl bununla heç də arxayınçılığa varmadı və hücumunu davam etdirdi (190).

Çox böyük sayda olan qoşun dəstəsinin, yəni Osmanlı qoşunlarının sol cinahının məhv edilməsi ilə, əslində, Şah İsmayıl döyüşqabağı arxayınçılığının nə ilə bağlı olduğunu da nümayiş etdirdi. Bu döyüşlə Şah İsmayıl bir daha sübut etdi ki, o yalnız böyük bir dövlətin hökmdarı deyil, o eyni zamanda dövrünün ən məharətli döyüşçülərindən biridir və kiçik bir dəstə ilə böyük sayda olan qoşunları diz çökdürməyə qadirdir. Onun bu hünərinin döyüş meydanının digər istiqamətlərində təkrarlanacağı təqdirdə Sultan Səlimin qürrəli iddialarına da tezliklə son qoyula bilərdi.

Şah İsmayılın Osmanlı qoşunlarının sol cinahı üzərinə hücum zamanı Osmanlı əmiri Əli bəy Məlqucoğlu (bəzi mənbələrdə Malkaçoğlu adlandırılmışdır) ilə qarşılaşması "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində ayrıca və geniş şəkildə təsvir olunmuşdur ("Aləmara-yi Şah İsmayıl" əsərində o, Ətəkoğlu adlandırılmışdır).

"Aləmara-yi Səfəvi" əsərindəki məlumata görə, Məlqucoğlu Osmanlı qoşunlarının tanınmış sərkərdələrindən biri idi və Sultan Səlim də onun döyüş təcrübəsinə böyük ümidlər bağlayırdı. Onun göstərişi əsasında Məlqucoğlu qoşunların ön sırasında yerləşdirilmişdi. Bildirilir ki, Şah İsmayıl döyüşə başlayanda Sultan Səlim də Məlqucğoluna irəli çıxmaq göstərişi verdi və sonra özü də bir yüksəkliyin üzərinə qalxdı ki, onların döyüşünü izləsin. Amma həmin

mənbədə olan məlumata görə, Şah İsmayıl ilə döyüşə başlamazdan əvvəl Məlqucoğlu həmin döyüşə hazırlaşdırılmışdı. Sultan Səlim sərəncam vermişdi ki, onun babası Fateh Sultan Mehmetə aid olan sandıq açılsın və həmin sandıqda saxlanılan Sultan Mehmetə aid döyüş paltarı Məlqucoğluna verilsin. Bu paltarlar zirehli paltarlar idi və məlumata görə, Məlqucoğlu elə bir böyük bədənə malik imiş ki, Sultan Fatehin paltarı da ona dar gəlmişdi. Bununla belə, Məlqucoğlu bu paltarı geyinmiş və sonra da Sultan Səlimin verdiyi atı minmişdi. Ona verilən at da xüsusi bir at idi və onun tayı-bərabəri bütün Osmanlı qoşunlarında yox idi. Məlqucoğlu atı da mindikdən sonra özünü döyüş meydanına atdı və nərə çəkərək Şah İsmayılı döyüşə səslədi. Bildirdi ki, o yalnız Şah İsmayıl ilə döyüşmək üçün meydana çıxmışdır və Şah İsmayıldan başqa kimsə ilə döyüşməyəcəkdir. Məlqucoğlu əlavə etdi ki, Sultan Səlim də bu döyüşü izləyənlər arasındadır və əgər Şeyxoğlu (Şah İsmayıl) mərddirsə meydana gəlsin və özünü namərd kimi tanıtmasın. Məlqucoğlu qışqırıqlarla meydanda haray çəkəndən sonra Səfəvi qoşunlarının bir döyüşçüsü zirehli geyimdə, əlində qılınc və üzündə niqab onun qarşısına çıxdı. Məlqucoğlu bu zireh geyimli Səfəvi döyüşçüsünün davranışından onun Şah İsmayıl olmadığını hiss etdi və yenidən Şah İsmayılı meydana səsləməkdə davam etdi. Üzü niqabla örtülü olan döyüşçünün Şah İsmayılın göstərişi ilə, yoxsa öz istəyi ilə meydana çıxması haqqında mənbədə məlumat yoxdur. Amma onlar arasında döyüş başlamamış Şah İsmayıl meydana çıxdı və niqablı döyüşçüyə geri çəkilməsi barədə göstəriş verdi. Məlqucoğlu onun qarşısında dayanan Şah İsmayıl olduğuna şübhə etmədi. Lakin Şah İsmayılın mərdanə və cəsur görünüşü onda Səfəvi şahına qarşı rəğbət hissləri yaratdı. Ona görə də Məlqucoğlu əvvəlcə döyüşü qarşılıqlı razılaşma ilə başa çatdırmağı təklif etdi. Məlqucoğlu döyüşdən əvvəl Şah İsmayıla müraciət etdi, onu öz canına qəsd etməməyə, dinc şəkildə Sultan Səlimə tabe olmağa çağırdı. Məlqucoğlu təkbətək döyüşdə uğur qacanacağına o qədər əmin idi ki, öz təklifini Şah İsmayıla göstərdiyi mərhəmət kimi qələmə verməyə çalışdı. Məlqucoğlu dedi ki, Şah İsmayıla üstün gəlməsi ilə o, İranın, Turanın, Rumun və Firəngin sipəhsaları vəzifəsinə sahib olacaqdır. Amma Şah İsmayılın həyatına qıymadığını da bildirdi.

Bunun üçün onu Osmanlı hakimiyyətini qəbul etməyə və ildə Osmanlı sarayına müəyyən miqdarda xərac göndərməyə razı olmağa çağırdı. Yalnız bu halda Şah İsmayıl öz həyatını qoruyub saxlaya bilərdi (191).

Şah İsmayıl isə onun bu təkliflərini təbəssümlə qarşıladı və ona öz təkliflərini etdi. Məlqucoğlu kimi bir döyüşçünün mənasız ölümünə razı olmadığı üçün ona belə müraciət etdi: "Ey Məlqucoğlu, sən məni gördün, mənə qarşı məhəbbət göstərdin, mənə qarşı mehribanlıq edib nəsihətlər verdin. İndi mürvətsizlik olmasın, mən də səni gördüm və səni mərd insan kimi bəyəndim. Ürəkli adam olduğun üçün gəl, Qeysərə (Osmanlı sultanına) xidmət etməkdən əl çək və mənim xidmətimə gəl". Bunun əvəzində Şah İsmayıl Üsküdardan



*Çaldıran döyüşündən bir səhnə.*

İstanbula qədər olan ərazilərinin hakimliyini ona tapşıracağını vəd etdi. Məlqucoğlu bu təklifi qəbul etmədi və Şah İsmayıl ilə təkbətək döyüşə girişdi. Hətta onu da bildirdi ki, Şah İsmayılı və onun ardıcıllarını etiqad etdikləri məzhəbdən çəkindirmək istəyir. Beləliklə, onların arasında baş verən dialoq bir nəticə vermədi və Şah İsmayıl ilə Məlqucoğlu əvvəlcə nizəyə əl atdılar. Hər iki tərəfin qoşunları və əmirləri tərəfindən müşahidə olunun bu döyüş zamanı Şah İsmayıl nizəsi ilə Məlqucoğlunun nizəsini vurub parçaladı. Bu zərbədən vahiməyə düşən Məlqucoğlu tez əlini qılıncına atdı və döyüşü qılıncla davam etdirdi. Şah İsmayıl da əlini qılınca atdı və Məlqucoğlunun başına güclü bir zərbə endirdi. Mənbədəki məlumata görə, Şah İsmayılın qılıncının zərbəsi elə güclü idi ki, Məlqucoğlunun başından qurşaq yerinə qədər bədəni iki yerə bölündü. Bunu görəndə Osmanlı döyüşçüləri və qoşun başçıları yerlərində quruyub qaldılar. Şah İsmayıl isə qürurla geri dönüb qoşunların qarşısında yenidən öz yerini tutdu (192).

Şah İsmayılın Osmanlı qoşunlarının sol cinahına hücum etməsi, bu cinahı məhv etməsi və o cümlədən Məlqucoğlunu güclü bir zərbə ilə qətlə yetirməsi məlumdur və bu məsələ həm farsdilli, həm də türkdilli mənbələrdə birmənalı şəkildə təsdiq olunur. Amma Şah İsmayılın Məlqucoğlu ilə ayrıca təkbətək vuruşması, yəni döyüşü saxlayaraq ayrıca bu iki cəngavərə meydan verilməsi və bütün qoşunların da dayanaraq onları müşahidə etməsi də inandırıcı görünmür. Burada mənbə müəllifləri çox güman ki, bu qarşılaşmanın qabardılması üçün belə təsvirə əl atmışlar. Belə təkbətək qarşılaşma dövrün hərbi təcrübəsinə də artıq xas deyildi. "Tarix-i aləmara-yi Abbasi" əsərində Şah İsmayılın Məlquçoğlu ilə döyüşməsi belə təsvir olunmuşdur: "Vuruşma əsnasında o alçaq və yaramaz şəxs (Məlqucoğlu) Süleyman şanlı xaqanla döyüşmək istəyərək, bir dəstə döyüşkən şücaətli rumilərlə ordudan ayrılıb, şah [ordusunun] «qol»una doğru atıldı və o həzrəti döyüşə çağırdı. O başıbəlalı alçağın belə ali rütbəli padşahla mübarizə etməyə layiq olmadığına baxmayaraq, o həzrət qeyrətinin çoxluğu üzündən, sədaqətli əmirlərin razılığı və qoşunun köməyi olmadan, öz igidlik atını onunla çarpışmağa çapdı. [Şah İsmayıl] zülfüqar nişanəli Heydəri qılıncı çəkərək, elə qəzəb və kinlə o bədbəxtin üzərinə hücum etdi ki, [Məlqucoğlu] padşahın həmləsinin təsirindən özünü itirib, hərəkət etməyə [belə] macal tapmadı.

O cəsarət meşəsinin aslanı (Şah İsmayıl) Heydəri qolunun gücü ilə ona elə zərbə endirdi ki, onun zirehini və poladdan olan xəftanını parça-parça etdi və onun alçaq vücudunu ölüm torpağına atdı. Hər iki ordudan fəryad qopdu, göyün mələikələri o qola və qoldakı gücə afərin qışqırdılar. Sözün qısası, hər iki tərəfin igidləri bir-birinin üzərinə töküldülər. Toz-torpağın qopmasından havalar qaraldı. O qorxunc mərəkədə Süleyman şanlı xaqan şəxsən döyüşə girib elə vuruşdu ki, Sam və İsfəndiyar dastanını puç etdi. Rumilərin arasında yayılmışdır ki, o döyüşdə ali rütbəli şah dəfələrlə səadətli atını top arabalarının («ərradə»lərin) yanına qədər çapıb, onların [zəncirlərini] bir-birindən qırıb ayırırdı" (193).



*Çaldıran döyüşündə Şah İsmayılın Osmanlı sərkərdəsi Məlqacoğlu ilə qarşılaşması*

"Xolde bərin" əsərində də Şah İsmayıl ilə Məlqucoğlunun qarşılaşmasına yer ayrılmışdır. Bu əsərdəki məlumatda da diqqəti cəld edən əsas məqam Şah İsmayılın qılınc zərbinin gücü idi. Həmin məlumata görə, Şah İsmayıl Məlqucoğluna qılıncla elə bir zərbə vurmuşdu ki, bu zərbə onu müşahidə edən bütün Osmanlı döyüşçülərini heyrətə gətirdi. Məlqucoğlunun parçalanmış bədənini görəndə Sultan Səlim də heyrətini gizlədə bilmədi, təəccüblə əllərini üzünə çəkdi və etiraf etdi ki, heç bir canlı belə bir gücə malik ola bilməz. "Rövzətüs-Səfəviyyə" əsərində olan məlumata görə isə, Məlqucoğlunu Şah İsmayılın qılınc zərbəsi ilə parçalanmış top zəncirinə bağlayıb Sultan Səlimin yanına apardılar. Sultan Səlim də baş verəni seyr etdikdən sonra dedi ki, Xeybər gücünə malik qolu olan adamdan başqa kimsənin belə zərbə vurmağa qüdrəti çatmaz (194).

**c) Səfəvi qoşunlarının sol cinahında döyüşün gedişi**

Şah İsmayılın sağ cinahdan uğurlu hücumu o zaman gözlənilən nəticəyə gətirib çıxara bilərdi ki, qoşunların sol cinahının hücumu da eyni uğurla başa çatsın. Gözlənilirdi ki, Məhəmməd xan Ustaclı bu cinahdan sürətli hücumu həyata keçirməklə Osmanlı qoşunlarının sağ cinahına güclü zərbə vursun, sonra Osmanlı qoşunlarının mühasirəsi davam etdirilsin və cinahlardan vurulan zərbələrlə Osmanlı qoşunlarının müqaviməti qırılsın. Osmanlı qoşunlarının sağ cinahına təcrübəli sərkərdə olan Anadolu bəylərbəyi Xadim Sinan paşa rəhbərlik edirdi. O, kifayət qədər həm ehtiyatlı, həm də düşünülmüş qərarlar qəbul etdi və anladı ki, onun rəhbərlik etdiyi cinahda baş verən döyüş bütünlükdə Çaldıran döyüşünün taleyini həll edə bilər. Bunu Sultan Səlim də anlayırdı. Ona görə Sultan Səlim ətrafında olan ehtiyat qüvvələri güclü zərbə almış sol cinahın köməyinə göndərmədi və gözlədi ki, sağ cinahda hadisələr necə cərəyan edəcək (195).

Şah İsmayılın Osmanlı qoşunlarının sol cinahında əldə etdiyi uğurun başlıca şərtlərindən biri onun tərəfindən hücumun çox böyük sürət və çevikliklə həyata keçirməsi idi. Bununla o, Osmanlı qüvvələrinin planlarının alt-üst elədi və onları mürəkkəb bir vəziyyətə saldı. Məhəmməd xan Ustaclı Səfəvi qoşunlarının sol cinahında bu sürətə nail ola bilmədi. Çox güman ki, onun heç böyük sürətli hücumu həyata keçirmək təcrübəsi də yox idi. Ona görə də Osmanlı qoşunlarının sağ cinahında qoşun başçıları, o cümlədən Xadim Sinan paşa səmərəli qərarlar qəbul etmək imkanı əldə etdilər və sonra da qoşunları bu qərarların icrasına səfərbər etdilər. Xadim Sinan paşanın bu qaşılaşmada başlıca üstünlüyü onda oldu ki, o, ixtiyarında olan toplardan hərtərəfli şəkildə istifadə etmək imkanı əldə etdi. Məhəmməd xan Ustaclının rəhbərliyi altında olan qoşun dəstəsi yaxınlaşanda Xadim Sinan paşanın göstərişi ilə topların qarşısında sıralanmış olan əzap dəstələri kənara çəkildilər və topların sərbəst fəaliyyəti üçün şərait yaratdılar. Topçular da dərhal topları döyüş vəziyyətinə gətirərək yaxınlaşmaqda olan Səfəvi atlılarını atəşə tutdular. Bu atəşlər öz səmərəsini verdi və Səfəvi qoşunlarına çox ciddi tələfat yetirildi. Atlıları Osmanlı səngərləri üzərinə aparmağa çalışarkən Məhəmməd xan Ustaclı da top mərmilərinin qəlpəsindən

ağır yara aldı və sonra da elə bu yaradan dünyasını dəyişdi. Qoşun başçısının itirilməsi isə qoşunlar daxilində müəyyən çaşqınlığa yol açdı. Xadim Sinan paşa da bundan məharətlə istifadə etdi. Onun da ixtiyarında, yuxarıda qeyd edildiyi kimi, 50 min nəfərə yaxın olan qoşun var idi və Məhəmməd xan Ustaclı qarşısında çox böyük say üstünlüyünə malik idi. Top atəşlərinin səmərəli fəaliyyətinin ardınca Xadim Sinan paşa çoxsaylı qoşunlarını irəli buraxdı və onlar əldə edilmiş hərbi təşəbbüsü daha da genişləndirdilər. Nəticədə, Səfəvi qoşunlarının sol cinahı demək olar ki, məhv edildi. Bu cinahda ortaya çıxan nəticə, bütünlükdə, Çaldıran döyüşünün dönüş nöqtəsinə çevrildi. Xadim Sinan paşa rəhbəri olduğu cinahda əldə etdiyi uğurla kifayətlənmədi. O, yeni yaranmış vəziyyəti dəqiqliklə dəyərləndirdi və Məhəmməd xan Ustaclının üzərində qələbə əldə etdikdən sonra qoşunları Səfəvi qoşunlarının ehtiyat qüvvələri üzərinə istiqamətləndirdi. Çoxsaylı Osmanlı qoşunlarının sürətli hücumu Səfəvi qoşunlarının azsaylı ehtiyat qüvvələrinə heç bir şans yeri qoymadı və bu qüvvələr də ağır zərbə alıb geri çəkildilər (196).

Sultan Səlim sağ cinahda baş verənləri izlədikdən sonra onda döyüşün qələbə ilə başa çatdırılmasına bir ümid yarandı. Bundan sonra o, yeniçərilərin döyüşə qoşulması tapşırığını verdi. Onun göstərişi ilə yeniçəri dəstələrinin ətrafına düzülmüş və zəncirlə bir-birinə bağlanmış arabalar sırası iki yerdən yarıldı və yeniçərilərin irəli hərəkəti üçün yol açıldı. İrəli çıxan yeniçərilər tüfənglərini işə saldılar və artıq nizamını itirməkdə olan Səfəvi qüvvələrini tüfəng atəşinə tutdular. Səfəvi atlıları güllə yağışı ilə üzbəüz qaldılar. Bu da onlara əlavə itkilər gətirdi.

Bununla belə, Səfəvi qoşunları döyüşü fədakarlıqla davam etdirirdilər. Amma getdikcə onların qüvvəsi tükənməyə və sıraları da seyrəlməyə başladı. Sultan Səlim də son zərbənin vurulması üçün ətrafında olan ehtiyat qüvvələri döyüşə atdı və bu qüvvələr döyüş meydanında Osmanlı qüvvələrinin gücünü daha da artırdılar. Belə bir gərgin anlarda da Şah İsmayıl döyüş meydanında hünər göstərməkdən yorulmurdu. O həm özü sürət və çevikliyi, iradə və əzmkarlığı ilə mübarizə aparır, həm də öz döyüşçülərini fədakarlığa ilhamlandırmağa çalışırdı. Topların fəaliyyətinin qarşısını almaq üçün Şah İsmayıl şəxsən özü onların yerləşdiyi mövqelərə hücum çəkdi. Bu zaman Şah İsmayıl elə bir sürət və çeviklik nümayiş etdirdi ki, qarşı tərəfinin sonsuz heyrətinə səbəb oldu. Bu sürətli hücum zamanı Şah İsmayıl çoxlu sayda Osmanlı topçusunu qətlə yetirdi və bir çox topu da sıradan çıxara bildi. Yalnız böyük sayda Osmanlı qoşunları topçuların köməyinə gələndə Şah İsmayıl yenə böyük sürətlə sağ-salamat həmin mövqedən uzaqlaşa bildi (197).

Şah İsmayılın Osmanlı topçuları və yeniçəriləri üzərinə heyrət doğuran hücumu haqqında mənbələrdə və tarixi ədəbiyyatda maraqlı məlumatlar mövcuddur. Bu məlumatlara görə, Şah İsmayıl əlindəki qılıncla Osmanlı toplarını bir-birinə bağlayan zəncirləri bir neçə yerdən vurub parçalaya bildi. Həmin məlumatlara görə, Şah İsmayıl yeddi dəfə topların yerləşdiyi mövqelərə hücum etdi və hər hücumda da çoxlu sayda Osmanlı topçusunun və yeniçərisinin həya-

tına son qoydu. Bu hücumların birində Şah İsmayıl əlindəki təbərzinlə yaxınlıqdakı topa elə bir zərbə vurdu ki, topun lüləsi dörd barmaq enində parçalandı. Elmi-tarixi ədəbiyyatda olan məlumata görə, insan zəkasını heyrətə gətirəcək bir əməl kimi, Şah İsmayılın təbərzin zərbəsindən lüləsi parçalanmış top uzun müddət Tiflis meydanlarından birində yerli əhalinin tamaşasına qoyulmuşdu (198).

Məhəmməd xan Ustaclının şəhid olmasını "Tarix-i aləmara-yi Abbasi" belə nəql edirdi:

"Qızılbaş ordusunun dilavərləri arabalara yaxınlaşaraq, üç yüz nəfər yeniçərini arabaların arxasında qılınc zərbəsi ilə tikə-tikə etdilər. Yeniçərilər və topçular döyüş odunu qızışdırmaqla məşğul idilər. Top, zərbzən və tüfəng tüstüsünün çoxluğundan işıqlı aləm qaranlığa çökdü. Qızılbaş ordusunun igidlərindən bir çoxusu qorxu və vahimə bilmədən, özlərini od dəryasına ataraq, tüfəng [atəşindən] həlak oldular və onların həyat xırmanları yandı. Çərxçi Xan Məhəmməd Ustacluya top dəydi və o, ustaclu tayfasından bir dəstə ilə həmin mərəkədə tələf oldu" (199).

Osmanlı mənbələrinə əsaslanan türkdilli elimi-tarixi ədəbiyyatda da Səfəvi qoşunlarının sol cinahında baş verənlər haqqında farsdilli mənbə və elmi-tarixi ədəbiyyatda yazılanlar demək olar ki, təsdiq edilir. Xadim Sinan paşanın soyuqqanlı rəhbərliyinin, Səfəvi qoşunlarına qarşı toplardan vaxtında və səmərəli istifadə edə bilməsinin Səfəvi qoşunlarının sol cinahına ciddi tələfat gətirməsi bu ədəbiyyatda da öz əksini tapmışdır. Osmanlı mənbələrinə əsasən, Səfəvi qoşunlarına qarşı uğurlu top hazırlığı aparıldıqdan sonra Osmanlı atlıları döyüş meydanına atılmış və Səfəvi qoşunlarına vurulan zərbə daha da gücləndirilmişdi. Nəticədə, Səfəvi qüvvələri sol qanadda ciddi zərbə aldıqlarından Osmanlı qoşunlarının sağ cinahının əhatələnməsi və arxadan zərbə vurulması planı həyata keçməmiş qalmışdı. Osmanlı mənbələrində mövcud olan məlumatlardan belə bir qənaətə gəlmək olar ki, sol cinahda gedən ağır və gərgin döyüş zamanı əvvəlcə Məhəmməd xan Ustaclının övladları şəhid olmuşdular. Bundan halı pərişan olan Məhəmməd xan Ustaclı dərhal Osmanlı döyüşçülərinin üstünə atılmış və bu zaman da top mərmisinin qəlpələrindən şəhid olmuşdu. Bir məlumata görə isə, Məhəmməd xan Ustaclı bildirmişdi ki, övlad acısı çəkərək sağ qalmaqdansa ölmək daha yaxşıdır - deyib Osmanlı döyüşçüləri üzərinə şığımışdı (200).

### ç) Səfəvi qoşunlarının uğursuzluğu

Səfəvi qüvvələrinin sol qanadında vəziyyət böhranlı hal alanda mərkəzdə yerləşən qüvvələr Mir Əbdülbaqinin rəhbərliyi altında bu cinaha kömək göstərmək üçün yollandı. Çox güman ki, Mir Əbdülbaqi həmin istiqamətə Şah İsmayılın tapşırığı əsasında yollanmışdı. Amma həmin istiqamətdə Osmanlı qüvvələrinin xeyli çoxluğu, habelə topların və tüfənglərin işə salınması Səfəvi qoşunlarının vəziyyətinin yaxşılaşdırılmasını mümkünsüz etdi (201).

Osmanlı mənbələrinə görə, Şah İsmayıl qoşunların sağ cinahında uğur əldə etdikdən sonra Sultan Səlimin qərar tutduğu mövqeyə və onun ətrafında olan ehtiyat qüvvələrə zərbə vurmağa cəhd göstərdi. Amma yeniçərilər onlara qarşı istiqamətlənmiş təhlükədən vaxtında xəbər tuta bildilər və çevik şəkildə münasib cəbhə tutaraq Səfəvi qüvvələrini tüfəng atəşləri ilə qarşıladılar. Belə bir məlumat da var ki, yeniçərilər təbilləri və neyləri çalaraq bu döyüşə atıldılar. Bu zaman yeniçərilərin, silahdarların və sipahilərin açdığı atəşlər Səfəvi atlılarının müqavimətini qırdı və onlar böyük itki verərək geri çəkilməyə başladılar. Yəni, Osmanlı qoşunlarının mərkəzinə zərbə endirmək cəhdi bir nəticə vermədi və Səfəvi qoşunlarının sol cinahında əldə edilmiş uğur Osmanlı qoşunları tərəfindən mərkəzdə də davam etdirildi. Bununla, hərbi təşəbbüs bütünlüklə Osmanlı qoşunlarının əlinə keçdi. Osmanlı qaynaqlarına görə, hətta bundan sonra da Şah İsmayıl öz əzmkarlığlndan əl çəkmədi. O, ətrafındakı qoşun dəstəsi ilə Osmanlı qoşunlarının mərkəzinə hücumu dayandıraraq bu qoşunların arxada qalmış düşərgəsinə sürətli zərbə vurmaq qərarına gəldi. Yuxarıda qeyd edildiyi kimi, Osmanlı düşərgəsinin mühafizəsi üçün Sədi paşanın rəhbərliyi altında ayrıca bir dəstə təşkil edilmişdi. Bundan başqa həm arabaların düşərgə ətrafına düzülməsi ilə müdafiə xətti qurulmuş, həm də düşərgə daxilində yer boyu çadır kəndirləri çəkilməklə atların hərəkəti üçün maniələr yaradılmışdı. Həm düşərgə ətrafına düzülmüş arabalar, həm də düşərgə daxilində yer boyu çəkilmiş kəndirlər doğrudan da Səfəvi atlarının hərəkətlərini xeyli çətinləşdirdi. Bir neçə dəfə düşərgə üzərinə hücum cəhdi göstərilsə də bir nəticə əldə olunmadı. Bundan əlavə yeniçərilərin, xüsusi mühafizə atlılarının, Rumeli yerli sipahilərinin bir dəstəsi də düşərgənin mühafizəsinə gəldi ki, bu da Səfəvi qüvvələrinin hücumunun qarşısını bütünlüklə almağa imkan verdi. Osmanlı qoşunlarının mühafizəsini nəinki təmin etmək mümkün oldu, eyni zamanda köməyə gəlmiş əlavə qüvvələrin vasitəsi ilə Səfəvi atlı dəstəsinin əhatə edilməsinə və ona arxadan zərbə vurulmasına cəhd göstərildi. Bu cəhd Şah İsmayılın özünün də olduğu Səfəvi dəstəsini ağır vəziyyətə saldı və hətta bu dəstənin bütünlüklə məhv edilməsi təhlükəsi yarandı. Amma dəstənin mühasirə dairəsi qapanmazdan əvvəl Şah İsmayıl oradan uzaqlaşmağa müvəffəq oldu (202).

Səfəvi qoşunlarının durumunun ağırlaşmasına baxmayaraq, Şah İsmayılın yenidən Osmanlı qoşunlarına zərbə vurmağa çalışsa da, döyüş meydanında yeni vəziyyətin formaşalması, Osmanlı toplarından və tüfənglərindən istifadə üçün münasib şəraitin yaranması Şah İsmayılın bu cəhdini nəticəsiz qoydu. Topların və tüfənglərin atəşləri Şah İsmayılın ətrafında olanlara yeni itkilər gətirdi. Buna baxmayaraq, Şah İsmayıl qılıncını yerə qoymadı, malik olduğu əzmkarlığını nümayiş etdirdi, mahir döyüşçü olduğunu bir daha ortaya qoydu. Döyüşün gedişində Şah İsmayıl ayağından və çiynindən yara aldı. Belə olanda ətrafındakı əmirlər Şah İsmayıldan döyüşü dayandırmağı xahiş etdilər. Şah İsmayılın əzmkarlığı onun ya əsir düşməsi, ya da şəhid olması ilə nəticələnə bilərdi. Bu isə yalnız dövlət rəhbərinin deyil, həm də mürşidi-kamilin itirilməsi demək idi. Ona görə onlar təkidlə Şah İsmayıldan geri çəkilmək əmrinin verilməsini istədilər.

Səfəvi əmirləri onu da əlavə etdilər ki, Osmanlı qoşunlarına qalib gəlmək üçün ilk növbədə Şah İsmayıl sağ qalmalıdır. Çünki yalnız onun rəhbərliyi altında gələcəkdə yeni qoşun dəstələri toplayıb Osmanlı qoşunlarını məmləkətdən kənara çıxarmaq mümkün ola bilərdi. Şah İsmayıl da yaranmış vəziyyətdə ciddi dəyişiklik yaratmağın mümkün olmayacağını görüncə şeypurları əsələndirmək və geri çəkilmək üçün əmr verdi (203).

Amma Şah İsmayılın və onun ətrafındakı Səfəvi dəstəsinin geri çəkilməsi heç də təhlükəsiz ötüşmədi. 300 nəfərlik bir dəstə ilə geri çəkilərkən Şah İsmayılın atının ayaqları bataqlığa batdı. Bunu görən Osmanlı atlıları dərhal ona tərəf istiqamət götürdülər. Şah İsmayıl sədaqətli döyüşçülərinin fədakarlığı nəticəsində real təhlükədən nicat tapdı. Onun Xızır ağa Ustaclı adlı mehtəri öz atını ona verdi və onun osmanlıların təqibindən yaxa qurtarmasına imkan yaratdı. Digər tərəfdən Şah İsmayılın bataqlıqda yaxalanmasına yol verməmək üçün onun Sultanəli Mirzə Əfşar adlı əmirlərindən biri Osmanlı atlılarının qarşısına çıxdı, onlara Şah İsmayıl olduğunu dedi və onu Sultan Səlimin hüzuruna aparmağı xahiş etdi. Sultanəli Əfşarın Şah İsmayıla müəyyən xarici oxşarlığı da var imiş və Osmanlı atlıları da onun sözlərinə inandılar. Güman edildi ki, Səfəvi şahı artıq ələ keçirilib və ona görə də Şah İsmayılın da olduğu dəstənin təqibinə son qoyuldu. Sultanəli Əfşar isə Sultan Səlimin yanına gətirildi və onun Şah İsmayıl olmadığı aşkar oldu. Sultan Səlim xeyli qəzəbləndi və onun edam edilməsinə göstəriş verdi (204).

Şah İsmayılın ətrafında necə gərgin döyüş getməsi və mühasirədən necə çıxması "Tarixi aləmara-yi Abbasi" əsərində belə təsvir edilmişdir: "Rumilərə məlum olmuşdu ki, ali rütbəli padşah [ordunun] mərkəzində yoxdur. [Buna görə də] o tərəfə hücum etdilər. Döyüşün qızışıb alovlanmasından, saysız top və zərbzən atəşindən mərkəzdəki qoşun bir-birinə qarışdı. Seyid Məhəmməd Kəmunə, Mir Əbdülbaqi və sədr Mir Seyid Şərif - hər üçü mərkəzdə şəhidlik şərəfinə çatdılar. Böyük əmirlərdən Sarı Pirə Qorçubaşı Ustaclu, Hüseyn bəy Lələ, Xan Məhəmməd, Baba İlyas Çavuşlunun oğlanları və başqaları bu müharibədə öldürüldülər. Sultanəli Əfşar da rumilərin əlinə düşdü. Rumilər onu Süleyman şanlı xaqan hesab edərək, Sultan Səlimin yanına apardılar. O, öz adını dedikdə oradaca qətl edildi. Süleyman şanlı xaqan, düşmənin çoxluğunu, ordunun bir-birinə qarışdığını və mərkəzin dağıldığını müşahidə etdikdə əmr verdi ki, gərənay çalınsın. Üç yüz nəfər o həzrətin başına yığıldı. Çarəsizlikdən, sədaqətli adamların təkid və israrı ilə [şah] mərəkədən üz çevirdi. Qızılbaş ordusunun mərkəzini dağıdıb qayıdan Rum dəstəsinə rast gələn [şah] onların cərgələrini yararaq getdi. Süleyman şanlı xaqanın atı bataqlığa düşdü. Xızır ağa Ustaclu atından endi. O həzrət onun atına mindi, [Xızır ağa] özü isə o həzrətin atını çıxararaq, onun dalınca getdi və Dərcəzində [şahın] xidmətinə yetişərək, nəvaziş gördü" (205).

"Rövzətüs-Səfəviyyə" əsərinin müəllifinin fikrincə, Şah İsmayıl qəsdən geri çəkilmişdi. O, belə fikirləşirdi ki, Şeybək xana qarşı tətbiq etdiyi taktikanı orada da tətbiq etsin. Yəni, geri çəkilməklə Osmanlı qoşunlarını öz ardınca

apara bilsin və bununla onları toplardan və düşərgədən ayıra bilsin (206). Amma sonradan müəllif bu fikrini davam etdirmir və bu ideyanın nə qədər doğru olması haqqında sübut və dəlillərini ortaya qoymur. Bununla belə, məlumdur ki, Sultan Səlim də geri çəkilən Səfəvi dəstələrinin təqib edilməsini lazım bilmədi. Çünki o ehtiyat edirdi ki, Səfəvi qüvvələrinin geri çəkilməsi planlı şəkildə ola bilər və bununla Osmanlı qoşunları tələyə düşə bilərlər. Hətta Səfəvi qoşunları döyüş meydanını tərk edəndən sonra da Osmanlı qoşunları qüruba kimi qərar tutduqları məkanda döyüşə hazır vəziyyətdə qaldılar. Ehtiyat edilirdi ki, Səfəvi qoşunları geri qayıda bilələr. Yalnız onların geri qayıtmayacağı əminliklə aydın olandan sonra "döyüşə son" əmri verildi, Osmanlı qüvvələri Səfəvi qoşunlarının düşərgəsini və onlardan qalmış əmlakı talan etməyə başladılar (207).

Osmanlı qüvvələrinin və o cümlədən Sultan Səlimin qürub düşənə qədər döyüş meydanını tərk etməməsi və döyüşə hazır vəziyyətdə qalması Osmanlı mənbələri tərəfindən də təsdiqlənməkdədir. Bildirilir ki, Sultan Səlim saat 19.30-a qədər at belindən enməmişdi və səfəvilərin hücumuna müntəzir vəziyyətdə idi. Yalnız həmin vaxtdan sonra Sultan Səlim atından enmiş və çadırına çəkilmişdi. Amma Osmanlı mənbələrinə əsaslanan məlumatlarda o da bildirilir ki, Sultan Səlim döyüş meydanından uzaqlaşmaqda olan Şah İsmayılın təqib edilməsinə göstəriş vermişdi. Bununla bağlı, Osmanlı sultanı Əli bəy Şahsuvaroğluna və Mehmet bəy Mihaloğluna tapşırıq vermişdi. Lakin Şah İsmayılı ələ keçirmək onlara müyəssər olmamışdı (208).

"Aləmara-yi Şah İsmayıl" və "Aləmara-yi Səfəvi" əsərlərinə görə, Şah İsmayılın əsir düşməsi təhlükəsi onun Osmanlı topları mövqelərinə hücumu zamanı yaranmışdı. Bildirilir ki, top mövqeləri ətrafında Şah İsmayıl yenidən ciddi bir döyüşə girdi və burada çoxlu sayda Osmanlı döyüşçüsünün mühasirəsinə düşdü. Şah İsmayıl topların onu və onun ətrafındakıları hədəf ala biləcəyindən ehtiyatlanaraq müəyyən məsafəyə çəkilməyi lazım bildi. Onda Osmanlı döyüşçüləri onu təqib etməyə başladılar. Bunu görən Sultanəli Mirzə Əfşar irəli çıxdı ki, Şah İsmayılı təqib etmək istəyən osmanlıların qarısını kəssin. Lakin sayca çox olan osmanlıların qarşısını kəsə bilmədi və özü də əsir düşdü. Osmanlılar onu qətl etmək istəyəndə Sultanəli Əfşar bəyan etdi ki, o, Səfəvi şahıdır. Bununla o, həm öz həyatını xilas etmək, həm də Şah İsmayılı təqibdən qurtarmaq istədi. Sultanəli Əfşar bildirdi ki, əgər onu Sultan Səlimin hüzuruna aparsalar ondan qiymətli hədiyyə ala bilərlər. Osmanlılar onun sözlərinə inandılar və hədiyyə almaq həvəsi ilə onu Sultan Səlimin yanına apardılar. Bununla, Şah İsmayılın təqibinə də son qoyuldu. Sultan Səlim əvvəlcə Sultanəli Əfşarın sözlərinə şübhə ilə yanaşdı. O, Qazi Çələbi adlı birisini yanına çağırtdırdı və Sultanəli Əfşarın doğrudan da Şah İsmayıl olub-olmamasını ondan soruşdu. Qazi Çələbi də onun Şah İsmayıl olmasını təsdiq etdi. Sultan Səlim bu xəbərdən xeyli razı qaldı. "Aləmara-yi Səfəvi"yə Sultan Səlim, Səfəvi şahını ələ keçirməsindən o qədər razı idi ki, hətta dərisinə də sığmırdı (209).

Qarşısında dayanın Şah İsmayıl olmasını güman edən Sultan Səlim ona belə müraciət etdi: "Bilirsən ki, özünü necə də yuxarıdan aparırdın. İndi ruzgar

səni qolları bağlı Qeysərin qarşısına gətirmişdir. Şeybək xanın başını atamın dərgahına göndərdin, onun qolunu isə Mazandaran padşahı Ağa Rüstəmə göndərdin. Bu məğrurluğun, özünü yuxarıda tutmağın və padşahları saya saymamağın nəticəsi nə oldu? İndi mən səni qəfəsə salacağam, bütün Rum ölkəsini və bütün Rum limanlarını gəzdirəcəyəm. Qoy insanlar görsünlər ki, əldən yuxarı başqa əllər vardır" (210).

Mənbə məlumatına görə, Sultanəli Əfşar bu sözləri eşidincə özlüyündə gülməyə başladı. Sultan Səlim bunu hiss edəndə qəzəbləndi və yenə iddialı şəkildə Sultanəli Əfşara müraciət etdi: "Şeyxoğlu, indi gülürsən? Əgər sən bilsəydin ki, mən sənin başına nələr gətirəcəyəm, öz halına ağlamalı olardın". Bu zaman Osmanlı əmirlərindən biri yaxınlaşıb sultan qarşısında dayanın Şah İsmayıl olmasına şübhə etdiyini bildirdi. "Aləmara-yi Səfəvi"yə görə, Sultan Səlim bu zaman Şah İsmayılı görmüş olan Qazi Çələbini yanına çağırdı və onun fikrini soruşdu. Qazi Çələbi də sultan hüzurunda dayanın Şah İsmayıl olduğunu təsdiq etdi. Amma döyüş meydanını izlədikdən sonra Sultan Səlimə bəlli oldu ki, onun qarşısındakı heç də Şah İsmayıl deyil (211).

Adları çəkilən mənbələrin təsvirinə görə, Sultanəli Əfşar osmanlılar tərəfindən əsir götürüldükdən sonra Şah İsmayıl döyüşü davam etdirdi. Şah İsmayıl elə bu vaxtlarda Durmuş xanın osmanlıların mühasirəsində olduğunu müşahidə etdi və dərhal da onun köməyinə yollandı. Baxmayaraq ki, Durmuş xanın əhatəsində çoxlu sayda Osmanlı döyüşçüsü var idi, Şah İsmayıl onu bu mühasirədən azad edə bildi və həyatını təhlükədən uzaqlaşdırdı. Ondan sonra Şah İsmayıl digər bir Səfəvi əmiri olan Qaraxanı da təhlükəli vəziyyətdən kənarlaşdıra bildi. Təhlükəli anların çoxaldığına görə, Şah İsmayıl bu zaman bəyan etdi ki, məsum həzrətlər bu gün səfəvilərin dadına yetməmişlər. Bundan sonra o, döyüş meydanının tərk edilməsi haqqında göstəriş verdi. Mənbələrin məlumatına görə, Şah İsmayıl salamat qalmış qoşunların yarısını mürəxxəs elədi. Qalan qoşunla döyüş meydanının müşahidəsini apardı ki, Səfəvi döyüşçülərindən kimsə orada qalmamış olsun. Bu zaman niqablı bir döyüşçünün döyüş meydanında olduğu müşahidə edildi. Verilən məlumata görə, bu döyüşçü Şah İsmayılın xanımı Taclı bəyim idi. O, Şah İsmayılın əsir düşməsi xəbərini alınca özünü döyüş meydanına atmışdı ki, həyat yoldaşını bu əsirlikdən azad etsin. Niqablı döyüşçünün ələ keçirilməsi üçün Osmanlı döyüşçüləri döyüş meydanına atılmışdılar. Amma həmin niqablı döyüşçünü əsir etmək onlara nəsib olmadı. Şah İsmayıl ona daha tez yetişdi və təhlükədən xilas etdi. Bundan sonra Şah İsmayıl hamılıqla geri çəkilmək barədə əmr verdi. Bu zaman onun atı bataqlığa batdı. Bildirilir ki, əvvəlcə Xəlil xan Zülqədər adlı bir Səfəvi əmiri Şah İsmayılın atı ilə birlikdə bataqlıq tərəfindən sovrulduğunu gördükdə, ona yaxınlaşmaqdan ehtiyat etdi və oradan uzaqlaşdı. Köməksiz qala biləcəyini hiss edəndə Şah İsmayıl təvəkkülünü həzrət Əliyə bağladı və onun şəninə qəsidə deməyə başladı. 35 beyt söyləyəndən sonra mehtər Xızırın ona yaxınlaşdığını gördü. Mənbələrin məlumatına görə, mehtər Xızır təsadüfən axşamçağı döyüş meydanına çıxmış və Şah İsmayılın çətin vəziyyətdə olması ilə qarşılaşmışdı (212).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərindən alınmış yuxarıdakı məlumatlar rəvayət məzmununa malikdir və əslində, müəlliflər tərəfindən də həmin məlumatlar rəvayət kimi təqdim olunurlar.

Şah İsmayılın 300 nəfər döyüşçünün əhatəsində döyüş meydanını tərk etməsi ilə Çaldıran döyüşü başa çatdı. Onun döyüş meydanını tərk etməsindən sonra müxtəlif mövqelərdə olan Səfəvi qoşun dəstələri də döyüş meydanını tərk etdilər. Bəzi tarixi ədəbiyyatda Çaldıran döyüşünün iki gün davam etməsi haqqında məlumatlara rast gəlinsə də, döyüşün başladığı gün də qürub çağı başa çatması məlumdur.

**e) Çaldıran döyüşünün nəticələri**

Farsdilli mənbə və tarixi ədəbiyyatda Çaldıran döyüşünün itkilərinin 5 min nəfər olduğu bildirilməkdədir. Onlardan da 2 min nəfərinin Səfəvi döyüşçüsü, 3 min nəfəri isə Osmanlı döyüşçüsü olması ehtimal edilir (213). Amma bu rəqəm də şübhəli görünür. Çünki məlumdur ki, Şah İsmayılın məhv etdiyi Osmanlı qoşunlarının sol cinahında 50 min nəfərə yaxın bir qoşun dəstəsi var idi. İstər bu sayın, istərsə də bu cinahın Şah İsmayıl tərəfindən məhv edilməsi Osmanlı mənbələrinə əsaslanan türkdilli araşdırmalar tərəfindən də təsdiq edilir (214). Bundan başqa, digər cinahlarda da və mövqelərdə də osmanlıların itkilər verməsi şübhəsizdir. Belə olan təqdirdə Osmanlı qoşunlarından cəmi 3 min nəfər itki verilməsi inandırıcı görünmür. Eyni fikri elə Səfəvi qoşunlarına da aid etmək olar. "Rövzətüs Səfəviyyə" əsərində bildirilir ki, Osmanlı qoşunlarında odlu silahlardan hər atəşdə 5-6 min tüfəng güllə saçırdı (215). Tüfəng atəşləri həm də top atəşləri ilə müşayiət olunurdu. Belə bir zərbə qüvvəsinin gətirə biləcəyi itkilər yuxarıda göstərilən rəqəmdən xeyli çox da ola bilərdi. Bundan başqa məlumdur ki, Məhəmməd xan Ustaclının rəhbərlik etdiyi sol cinah mürəkkəb vəziyyətlə qarşılaşmış və Osmanlı qoşunları qarşısında yenilmişdi. Osmanlı qoşunları bu cinahda Səfəvi qüvvələrinə vurduqları güclü zərbədən sonra bütünlükdə döyüşün gedişində əsaslı dönüş yaratmağa müvəffəq olmuşdular. Bu da sözsüz ki, Məhəmməd xan Ustaclının rəhbərlik etdiyi qoşun dəstəsinə ağır itkilər yetirilməklə mümkün olmuşdu. Məhəmməd xan Ustaclının rəhbərlik etdiyi qoşun dəstəsinə vurulan ağır zərbədən sonra Osmanlı qoşunları Səfəvi qoşunlarının mərkəzindəki qüvvələrə də ağır zərbə vurdular və bu da sözsüz ki, itkisiz ötüşmədi.

Yəqin elə buna görədir ki, bəzi araşdırmalarda Çaldıran döyüşünün itkiləri haqqında fərqli rəqəmlər yer tapmaqdadır. Məsələn, türkdilli araşdırmalardan birində Osmanlı qoşunlarının Çaldıran döyüşündəki itkiləri 30-40 min nəfər, Səfəvi qoşunlarının itkiləri isə ondan iki dəfə artıq göstərilmişdir. O da bildirilir ki, əgər Osmanlı qoşunları döyüşün əvvəlində Səfəvi qoşunları kimi hücumda olsaydılar, onda onların itkiləri daha çox ola bilərdi (216). Yuxarıdakı rəqəmlərin, xüsusilə də Səfəvi qoşunları ilə bağlı sayın doğruluğunu birmənalı şəkildə qəbul etmək mümkün deyildir. Amma

Çaldıran kimi ağır və gərgin bir döyüşün itkilərinin kifayət qədər böyük olması şübhə doğurmamalıdır.

Şah İsmayıl elə həmin gün Təbrizə çəkildi və nə baş verdiyini orada götür-qoy etməyə başladı. Əslində, Şah İsmayılın Çaldıran döyüşündən sonra hara getməsi haqqında da həm mənbələrdə, həm də araşdırmalarda fərqli məlumatlar mövcuddur. Yuxarıda "Tarixi aləmara-yi Abbasi"dən verilmiş bir parçada Şah İsmayılın Çaldıran döyüşündən sonra birbaşa Dərzəcinə yollandığı bildirilmişdir. Bəzi tədqiqatçılar Şah İsmayılın Təbrizə deyil Dərzəcinə yollanmasını onun Təbriz əhalisindən ehtiyat etməsi kimi qələmə vermişlər. İddia edilir ki, Təbriz əhalisinin zorla şiələşdirilməsi şəhər əhalisi arasında Şah İsmayıldan narazıların sayını artırmışdı. Ona görə də Şah İsmayıl birbaşa Təbrizə yollanmaqdan ehtiyatlanaraq Dərzəcinə istiqamət götürmüşdü (217). Bu məsələ hətta bir qədər də qabardılaraq bununla Şah İsmayıla qarşı əlavə bir irad da irəli sürülür.

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərləri Şah İsmayılın Cəmcəmə bataqlığından nicat tapdıqdan sonra Təbrizə yollandığını bildirirlər. "Aləmara-yi Səfəvi"də o da bildirilir ki, Şah İsmayıl gecə vaxtı Təbrizə gəlib yetişdi. Təbrizdə onu saray əyanlarından olan Bədiüzzaman qarşıladı. Şah İsmayıl ona baş verənlər haqqında danışarkən bildirdi ki, fələyin qəzasından uğursuzluğa düçar olduq. Gəlmişik ki, inşallah qoşun toplayıb geri qayıdaq. "Aləmara-yi Şah İsmayıl" əsərində isə deyilir ki, Təbriz əhalisi Şah İsmayılı qarşılamaq üçün yollara çıxdılar və şükürlər oxumaqla onu qarşıladılar. Bu mənbənin məlumatına görə, Şah İsmayıl bir gecə Təbrizdə qaldıqdan sonra Səraba yollandı (218). "Rövzətüs Səfəviyyə" əsərinə görə isə, Şah İsmayıl Çaldıran döyüşündən birbaşa Təbrizə gəldi və yalnız sonra Dərzəcinə yollandı (219).

Sultan Səlim isə döyüşün başa çatmasına əmin olduqdan sonra, yuxarıda deyildiyi kimi, qoşunlara Səfəvi qoşunlarının düşərgəsinin və əmlakının talanması iznini verdi.

Şah İsmayılın Təbrizə dönən kimi gördüyü işlərdən biri Fars vilayətinin hakimi Xəlil Sultan Zülqədərin cəzalandırılması oldu. Mənbələrdəki məlumata görə, Xəlil Sultanın ixtiyarında 1500 nəfərlik bir dəstə var idi və bu dəstə döyüşə girməkdən qorxaraq geriyə üz tutdu. Fars vilayətindən olan dəstə yeganə dəstə idi ki, məmləkətin müdafiəsindən üz döndərdi və döyüş meydanından fərarilik etdi. Mənbə məlumatlarına görə, Şah İsmayıl gərgin döyüşlərin gedişində Xəlil Sultanın döyüşdən kənarda qalmasını müşahidə etdi və qorçular dan bir nəfəri onun yanına göndərdi ki, o da dəstəsi ilə döyüşə qoşulsun. Amma Xəlil Sultan bu göstərişi qəbul etmədi. Şah İsmayıl yenidən onun yanına adam göndərdi. Amma Fars dəstəsi qorxaqlıq göstərdi, məmləkət şahının və mürşidi-kamilin göstərişini yerinə yetirməkdən boyun qaçırdı və Səfəvi döyüşçülərinə xas olmayan bir keyfiyyət nümayiş etdirərək yoldaşlarını da döyüş meydanında atıb qaçdı. Şah İsmayıl isə Xəlil Sultanın bu qorxaqlığını bağışlamadı və onun qətlinə fərman verdi. Şah İsmayıl bu fərmanın icra olunmasını Süleyman bəy adlı əmirlərindən birinə tapşırdı. Süleyman bəy əvvəlcə etirazını bildirmək istədi ki, mürəkkəb və təhlükəli anlarda Şah İsmayılı tərk edib getməyi özünə rəva



*Şah İsmayıla Çaldıran düzündə qoyulmuş abidə*

bilmədi. Belə bir addım atmağı o, sufilikdən də kənar bir əməl kimi dəyərləndirdi. Şah İsmayıl isə tələb etdi ki, sufinin vəzifəsi mürşidi-kamilin sözlərinə qulaq asmaqdır. Beləliklə, Süleyman bəy Şiraza yola düşdü və heç bir müqavimətlə rastlaşmadan Xəlil Sultanı qətlə yetirdi (220).

Sultan Səlim isə Çaldıran döyüşünün səhəri günü, yəni 1514-cü il avqust ayının 24-də döyüş meydanında əldə etdiyi böyük uğuru bayram etdi. Sultan Səlim bütün əyanlarını, əmirlərini, qoşun başçılarını toplayaraq onlara öz zəfər təbriklərini çatdırdı və eyni zamanda, onların da təbriklərini qəbul etdi. Osmanlı sultanı bu bayramı təntənəli şəkildə keçirməklə əldə etdiyi zəfərin də əzəmətini yüksəltməyə cəhd göstərdi. Döyüşdə fərqlənənlərə sultan tərəfindən hədiyyələr və xələtlər verildi. Bəzi məlumatlara görə, Sultan Səlim, Şah İsmayılın əsir düşmüş xanımı Bəhruzə xanımın çadırına baş çəkdi, onunla mülayimcəsinə davrandı. Sultan Səlim elə həmin gün Anadolu bəylərbəyi Xadim Sinan paşanı Rumeli bəylərbəyi vəzifəsinə, Qaraman bəyləbəyi Zeynal paşanı Anadolu bəylərbəyi vəzifəsinə, Fərhad bəyi isə Qaraman bəylərbəyi vəzifəsinə təyin etdi. Sonra Sultan Səlim döyüş meydanını gəzdi, itkiləri gözdən keçirdi. Onun tapşırığı əsasında həyatını itirmiş bütün döyüşçülər torpağa tapşırıldılar. Osmanlı ənənələrinə görə, döyüşdə həyatını itirmiş qoşun başçıları ilə döyüşçülər ayrı-ayrılıqda dəfn edilirdilər. Döyüş meydanında qalmış Səfəvi döyüşçüləri də toplanaraq dəfn edildilər. Əsir götürülmüş Səfəvi döyüşçüləri isə onun əmri ilə edam edildilər(221).

### 11.Sultan Səlimim Təbrizə daxil olması

Avqustun 24-nü də Sultan Səlim Çaldıran düzündə keçirdi və ayın 25-də Çaldırandan Təbrizə doğru hərəkətə başladı. Avqust ayının 25-də Sultan Səlim və Osmanlı qoşunları Sökmənobaya yetişdi və sonra Xoya doğru hərəkətini davam etdirdi. Osmanlı sultanı avqustun 26-27-də Xoyda oldu. Burada olarkən o, Çaldıran döyüşündə əldə etdiyi uğurla bağlı oğlu Sultan Süleymana və ətraf bölgələrin hakimlərinə fəthnamələr göndərdi. Sultan Səlimin oğlu Sultan Süleymana göndərdiyi fəthnamənin mətni belə idi: "Oğlum Süleyman şah! Ömrün uzun olsun, hər iki dünyada arzularına çatıb uca zirvələr fəth edəsən! Əsas məsələyə gəlincə xəbərin olsun ki, Ərdəbil oğlu deyilən [Şah İsmayıl] fitnəkarlıqda, allahsızlıqda, kafirlikdə, fitnə-fəsadı şüar etməkdə, kafirlik və dinsizlik libası geyməkdə, bəndələrə əziyyət verməklə öyünməkdə və məmləkətləri viran qoymaqda zəmanəsinin bəzəyi idi. Məhz iki səbəbdən dərdlilərə imdad, məzlumlara yardım, dini mərasimləri canlandırmaq və açıq-aşkar ilahi hökmləri yerinə yetirmək üçün haqq və pak olan Allah-təalaya təvəkkül və kainatın ağasının, - Allahın salamı ona olsun, - mübarək möcüzələrinə təvəssül edərək düşmən ovlamağa hazır ordum ilə onunla döyüşmək üçün Şərq məmləkətlərinə doğru çıxmışdım. Dənizdən keçdiyim günlərdə mübarək hökm (məktub) göndərib mübarək məzmununda "İslama qarşı hörmətsizliyin sübuta yetdiyini, bütün alim və şeyxlərin [Şah İsmayılın] kafir olmasına hökm edib, qətlinə fitva verdiklərini əsas gətirib [onun]

natəmiz vücudunu qələbə xəncəri və iti qılıncla tarix səhnəsindən silməyi şahlıq məqamımız və padşahlıq məsuliyyətimiz üçün vacib və zəruri olduğunu" yazmışdıq. Lakin qılıncdan öncə İslamın təklifi Mustafanın, - salam olsun ona, - Şəriətinin hökmü olduğu üçün bu əzəmətli kitabı (yazanı, məktubu) sənə göndərməklə xəbərdar edirəm: "Əgər indiyə qədər etdiyin çirkin işlərə görə səmimi-qəlbdən peşman olub "sünni" [məzhəb] müsəlman olsan, əvvəllər atımız ayaq basdıqları bölgələri və əraziləri Osmanlı himayəsində olan məmləkətlərə qatsan (əlavə etsən), güclü dövlətimiz tərəfindən sevgi və mərhəmətdən başqa bir şey görməzsən. Əgər xoşagəlməz əxlaqdan əl çəkməyib çirkin əməllərinə israr etsən, Allahın yardımı ilə, qalib ordum məmləkətində düşərgə salacaqdır. Ərsənsə (igidsənsə) meydana çıx, Allahın iradəsi nədirsə o da gerçəkləşmiş olsun - deyə buyurmuşdum. Səadət və xoşbəxtlik ilə Azərbaycan diyarı fəth bayrağımın dalğalanması şərəfinə nail olacaqdır. İki dəfə məktub göndərərək döyüşə dəvət olunsa da, vəziyyətə münasib heç bir qarşılıq vermədi. Nəhayət, ta qədim zamanlardan Əcəm (qeyri-ərəb) sultanlarının tabeliyində olan Təbriz şəhəri döyüşçülərin düşərgə salacağı məskən kimi nəzərdə tutulmuşdur. İşarə etdiyimiz şəhərə yaxın ərazidə əzəmətli eniş (düşərgə salmaq) olacaqdır. Mübarək rəcəb ayının ilk günü çərşənbə axşamı sübh çağı Çaldıran adlı çöllükdə şanlı ordumuza müqavimət göstərməyə gəldi. Özündə qüdrətin (cəsarətin) olmadığına əmin olub bütün qoşunu başdan ayağa dəmir və polada qərq etmişdir. Bir hissəsinə Ustaclı Məhəmmədi rəhbər təyin edib sağ cinahımıza hücuma göndərdi. Özü qalan qoşun ilə sol cinaha hücuma keçdi. Döyüş başladı. Dərya kimi coşqun və döyüş meydanının pələngi Anadolu bəylərbəyi Sinan paşa, Ustaclı Məhəmmədin dəstəsini bir göz qırpımında yer ilə yeksan etdi, özünün isə (Ustaclı Məhəmmədin) başını kəsdilər. Sol cinahdan hücum edən İsmayılın birinci həmləsi Rumeli sərkərdələri və qəhrəmanları tərəfindən geri otuzdurulduqdan sonra yenidən hücuma keçdi. [Tərəflər arasında] son dərəcə şiddətli döyüş və qətllər başladı. Uzun müddət tərəflərin [bir-biri ilə] mübarizəsi [nəticəsində] hər iki tərəfdən çoxlu sayda bəylərdən, kimisi yaralandı və kimisi də öldürüldü. Əmirlərin ən şərafətlisi Rumeli valisi Həsən paşa ağır yaralandı. Düşmən tərəfindən dirəniş görcək, əvvəl cinahda olan əlufəçilər bölüyünü qəriblər birliklərini onlara yardım etməyə göndərdik. Yeniçəri qullarım top, tüfəng və oxlarla din və dövlətin düşmənlərinə həmlə etdilər. Bu vəziyyəti görən əxlaqsız düşmən ayrı bir qərar verməyə macal tapmayıb qaçmağa üz qoydu. Qalib ordum onları təqib edib bayraqlarını endirdilər, sərkərdələri əsir götürüb qılıncdan keçirdilər. Özünün (Şah İsmayılın) isə yaralandığı məlum oldu. Hazırda izzətli Allahın izni ilə fəthi tamamlamaq məqsədi ilə Təbrizə doğru hərəkət halındayıq. 920-ci ilin mübarək Rəcəb ayında Xoy vilayətində yazıldı" (222).

Göründüyü kimi, Sultan Səlim qoşunlarının sol cinahı üzərinə Şah İsmayılın müzəffər yürüşü haqqında ötəri məlumat vermiş və sol cinahın Şah İsmayıl tərəfindən məhv edilməsinə toxunmamışdır. Bu da təəccüblü deyil. Çünki Sultan Səlim fəthnaməsində daha çox öz uğurlarını vəsf etməyə çalışmışdır. Sultan Süleyman atasının fəthnaməsini alandan sonra ona cavab yazdı, Osmanlı

qoşunlarının qələbəsi və Səfəvi qoşunları üzərində uğur əldə edilməsi münasibətilə şükürlərini və təbriklərini çatdırdı. Şahzadə Süleymanın Sultan Səlimin fəthnaməsinə verdiyi cavab belə idi: "Böyük zəfərlərin yaradıcısı və qələbələrin sahibinə miskin qulu tərəfindən ərz olunur ki, nəticəni müjdə vermək üçün göndərdiyin fəth məktubu gəlib çatmışdır. Ərdəbil oğlu deyilən dinsiz İsmayıllın Çaldıran adlanan yerdə səadət bayrağının daşıyıcısı (Sultan Səlim) ilə qarşılşaraq [onu] öldürməyi cəhd etməsi, yardım edən Allahın yardımı ilə müsəlman və allahpərəstlərdən [ibarət bizim] qoşunun həmin kafir və yolunu azmışların ordusu ilə bu ilin ortaları [yəni] müqəddəs rəcəb ayının ilk günü - çərşənbə günü döyüşə atılmaları, cəhənnəmlik düşmənlərin sağ cinahında olan Ustaclı Məhəmmədin məğlub olub öldürüldüyü, dinsiz İsmayılın qoşunun sol cinahında olan Rumeli bəylərbəyi Həsən paşaya hücum edərək üstünlüyü ələ aldığı zaman [ordunun] cəsur döyüşçülərinin yardıma gələrək bir göz qırpımında vəziyyəti dəyişməsi, [Şah İsmayılın] çarəsiz, əlacsız, yaralı və əzilmiş halda qaçaraq gözdən itməsi, bütün qoşun, mal-dövlət, sürü və ilxının yağmalanaraq qarət edilməsi və arxasınca Təbrizə üz tutmağınızı yazdığınız qələbədən xəbər verən mübarək fəthnaməni, itaəti vacib olan fərman sahibi, sadiq və böyüklərin rəhbəri hesab edilən ləläm Sinan gətirib şahidlərin gözü qarşısında oxuyan kimi uğura görə layiqincə nəzir və sədəqə payladım. Cah-cəlalınızın artması istəyi ilə Allaha şükr etdim. Bütün əhali adəti üzrə bir həftə müddətində ölkə və bazarları bəzəyib [şadyanalıq etdi]" (223).

Sultan Səlimin Çaldıran düzündə əldə etdiyi qələbə ilə bağlı yazdığı fətnamələrdən biri də Luristan hakimi Şah Rüstəmə ünvanlanmışdı. Bu məktubda Sultan Səlimin qələbə sevincindən başqa, həm də Səfəvi əsirlərinə qarşı necə qəddarcasına davranması ilə də rastlaşmaq mümkündür. "...şöhrəti böyük, hörmətli əmir və uca olan Allahın yardımı ilə qüvvətlənmiş, Şah Rüstəm bəy, - şərəfi əbədi olsun, - bilsin ki, məlunların rəhbəri, şeytan ordusunun qoşun başçısı və dinsiz İsmayıl, mübarək Rəcəb ayının birinci çərşənbə günündə Çaldıran düzündə günortadan sonra bizim himayəmizdə olan qoşunlarla qarşılaşdı. Bütün səyləri nəticəsiz qaldı. Nəhayət, hamı və hər şeydən üstün olan İlahiyə müti olan küləyin qələbə və fəth mehi bizim bayrağı hərəkətə gətirmək və dalğalanmaqla zəfər müjdəsi verdi. Mürşidin (rəhbərin) qələbə ordusunun iti qılıncından əlacsız qalan İsmayıl qaçmağa üz qoydu. Ordu bahadırları arxasınca getdilər, bayraqları endirildi və aşırıldı, qoşun başçıları əsir və həbs edilərək döyüşdə yardım etmiş bayraqların yanında şikara çevrildilər. Əsirlərin hamısı oxların hədəfi olub qılıncdan keçirildi" (224).

Bu məktubda diqqəti cəld edə biləcək bir məqam da Çaldıran döyüşünün başlanması vaxtı ilə bağlıdır. Sultan Səlim bu döyüşün günortadan sonra başlamasına işarə edir. Halbuki oğlu Sultan Süleymana göndərdiyi fəthnamədə onun sübh çağı başlamasını yazmışdı. Məlum olan da odur ki, Çaldıran döyüşü sübh çağı başlamışdı. Təbriz yolunda olduğu zaman Sultan Səlimin müxtəlif ünvanlara yazmış olduğu fəthnamə və məktublardan görmək mümkündür ki, Çaldıran düzündəki qələbə sevinc ilə bərabər, Şah İsmayılın ona qarşı müqavimət təşkil

etməsi ehtimalından da müəyyən narahatçılıq keçirirdi. Məsələn, şərq əmirlərinə və kürd tayfalarına göndərdiyi məktubunda Sultan Səlim konkret olaraq Şah İsmayılın harada olması haqqında ona məlumat verilməsi tələbini qoymuşdu: "Alimlərin sahibi və hər şeyi bilən Allahın lütfünə nail olmuş hörmətli əmirlərin fəxr etdikləri və nəcabətli rəhbərlərin ən alicənabları olan, şərq bəyləri, - xoşbəxtliyini əbədi olsun, arzularınıza xeyir calansın, - və digər kürd əmirləri, qəbilə və tayfa başçıları olan pak vücudlu mücahidlər, məliklər, kəndxudalar və fədakar casuslar! Allah sizin etibarınızı ucaltsın! Padşahın uca məktubu [sizə] çatdıqda hər birinizə məlum olsun ki, bu mübarək rəcəb ayının ikinci günü, cərşənbə günü səhər vaxtı Ərdəbil oğlu deyilən dinsiz, əxlaqsız, kafir İsmayıl mənimlə müharibə zamanı Allahın lütfü və köməyi ilə bir göz qırpımında məğlub olub geri çəkilərək qaçmağa başladı. Hansı tərəfə getdiyi məlum olmadığına görə pak əqidə ilə sizlərin səltənətimə olan ixlas və itaət nümayiş etdirmək fürsətini qaçırmadığınız üçün bütün dünyanın itaət etməsi vacib olan bu fərmanımı hamıya şamil olacaq tərzdə (ümumi qaydada) göndərdim ki, bu fərmanım hansınızın əlinə çatsa mübarək surətini bir çox vərəqə yazıb bir-birinizə çatdırasınız və qeyd etdiyim qızılbaşın haraya getdiyini, əvvəlki vəziyyəti necəykən hazırda necə olduğunu, sağlıq durumunu, neçə yerdən yaralandığını, öldüyünü və ya yaşadığını müfəsəl yazıb bildiməklə lütf və səxavətimi əldə etməyə nail və layiq olasınız. Bunu belə biləsiniz" (225).

Sultan Səlimin Xoyda olarkən yazmış olduğu məktublardan biri də Ağqoyunlu Murada ünvanlanmışdı. Ağqoyunlu Murad Çaldıran yürüşü zamanı Osmanlı qoşunlarına qoşulmuş və Səfəvi hüdudlarına yaxınlaşanda ayrılaraq Diyarbəkrin fəthinə yollanmışdı. Sultan Səlim səbəbini açıqlamasa da Muraddan tələb etdi ki, məktubu alan kimi dərhal onun hüzuruna gəlsin. "...Fərman gəlib sizə çatan kimi yük və qiymətli əşyalara diqqət yetirmədən dərhal və təcili olaraq hüzuruma gəl. Tez tərpənmək, tələsmək və sürətli [olmaq məsələsində] mümkün qədər səy göstərib ciddi cəhdlə çalış" (226).

Tədqiqatçılarn fikrincə, Sultan Səlimin bu məktubda gizli qalan mətləbi Murad Mirzənin Təbriz taxtına oturdulması idi. Osmanlı sultanı bilirdi ki, uzun müddət Təbrizdə qala bilməz. Azərbaycanın isə Osmanlı hakimiyyəti altında saxlanması üçün Təbrizdə ona sədaqətli ola biləcək bir şəxsi taxta çıxartmaq lazım idi. Belə bir adam kimi isə Murad Mirzə nəzərdə tutulmuşdu. Sultan Səlim güman edirdi ki, onun köməyi ilə Murad Mirzə ətrafa səpələnmiş olan Ağqoyunlu qüvvələrini yanına toplayaraq Şah İsmayıla ciddi müqavimət göstərə biləcək və onun yenidən hakimiyyətə qayıtmasının qarşısını alacaqdır (227).

Osmanlı mənbələrindəki məlumatlara görə, Sultan Səlim və onu müşayiət edən qoşunlar 1514-cü il avqustun 28-də Yağdıra kəndi adlanan məntəqədə, ayın 29-da isə Kərniyəoğlu məntəqəsində olmuşdu. Avqustun 29-da Sultan Səlim 500 yeniçərinin müşayiət etdiyi bir heyəti öncədən Təbrizə yola saldı. Bu heyətin tərkibinə vəzir Əhməd paşa Dukakinoğlu, dəftərdar Piri Çələbi, Əli bəy Şahsuvaroğlu və Mövlana İdris Bitlisi daxil idi. Bu heyətə tapşırılmışdı ki, Təbrizin açarlarını təhvil alsın, yerli əhalinin malına və mülkünə toxunulmayacağı

haqqında vəd verilsin, Təbrizdəki xəzinə və qiymətli əşyaların mühafizəsi təşkil edilsin, şəhərdə asayiş təmin edilsin və Sultan Səlimin qarşılanması üçün lazımi işlər görülsün. Sultan Səlim eyni zamanda Təbriz sakinlərinə üç məktub göndərdi. Bu məktubların məzmunu onu deməyə əsas verir ki, Səfəvi qoşunlarının uğursuzluğundan istifadə edən bəzi kürd əmirləri Təbriz əhalisinə qarşı xoşagəlməz əməllərə əl atmışdılar. Şəhər əhalisi də bundan qəzəblənərək Sultan Səlimə müraciət etmişdi. Sultan Səlim isə Təbriz əhalisinə ünvanladığı müxtəsər məktubunda şəhər əhalisinin məktubunu aldığını bildirir və əhaliyə qarşı qəddarlıq göstərilməsinin qarşısını alacağını vəd edirdi. Həmin məktubun mətni belə idi: "Yaradanın əmanəti, şahanə mərhəmət və lütfə nail olan rəiyyət bilməlidir ki, belə vahiməli [bir vaxtda] sizin xahişiniz (və ya təklifiniz) saraya (ali padşahın taxtına, padşaha) gəlib çatdı. Məzmunu məlumdur, şahzadələrin fikri (düşüncəsi, rəyi, əqidəsi, iradəsi) qələbə çaldı. Kürd əmirlərinin fəxri Zahid bəyə fərman göndərildi ki, sizi incitməsin və siz də [şəhəri] müdafiə etməkdə iradəli olun. Əziz [olan] Allahın istəyi ilə, ali dərgahın qullarından olan başçı tezliklə gəlib çıxacaqdır" (228).

Təbrizdə əmin-amanlığın bərqərar edilməsi və orada şəhər sakinlərinin incidilməsinin qarşısının alınması üçün Sultan Səlim bu şəhərə hakim təyin etməyi qərara aldı və həmin vəzifəyə vəzir Əhməd paşa (Dukakinoğlu) təyin edildi. Sultan Səlimin Təbriz əhalisinə ünvanladığı məktublardan biri də bu barədə idi. Osmanlı sultanı Təbriz əhalisindən tələb edirdi ki, Əhməd paşaya itaət etsinlər və onun bütün əmrləri sultan əmri kimi qəbul edilsin. Həmin məktubda deyilirdi: "Şahanə mərhəmət və lütfə nail olmuş Təbriz şəhərində məskunlaşan əyanlar, alimlər (böyüklər) və xüsusilə də peyğəmbər övladlarının fəxri Mir Əbdülvahab, - ruzusi bol olsun, - bilsinlər ki, ürəklərin şad olmasında, millət və səltənətin mənafeyinin davam etməsində, din və dövlət münasibətlərinin tənzimlənməsində olan mehribanlıq və şəfqət əvvəlkindən daha çoxdur. Uca olan Allaha, sizləri belə bir qəddar zalımın (Şah İsmayılın) əlindən qurtardığı və bizim xoşbəxtlik bəxş edən ədalətimizin kölgəsini sizin başınızın üstünə gətirdiyi üçün hər kəsin şükr etməsi vacibdir. İndi uğur əldə etmiş qoşunun əzəməti düşməndən öncə ədalət və insafa yardım, zülm və haqsızlığı (doğru yoldan sapınmanı) aradan qaldırmaq üçün alicənab müşavir, əzəmətli vəzir, şöhrətli böyük (alicənab), daha mükəmməl qüdrət sahibi, xeyirxah çalışqan, nəcabətli və səxavətli, ümmətlər arasında doğru fikir yürütməklə (qərar verməklə) işləri idarə edə bilən, aləmin nizamül-mülkü (səltənətin hamisi), həzrət Sultana yaxın, xaqan (şahənşah) dövlətinin məsləhətçisi, qüdrətli səltənətin yüksək mərhəmətinə nail olmuş, din və dünya mübarizi olan Əhmədi, - şərəfi əbədi olsun, -sizə tərəf göndərdim.

Sözügedən [Əhməd] paşa Təbriz şəhərinə gələn kimi müxtəlif növ təzim, ehtiram, əzizləmə və hörmət göstərməklə onun pişvazına çıxın, bizim tərəfimizdən verildiyini hesab edərək onun bütün əmr və qadağaları ilə razılaşıb tabe olun. Səmimi qəlbdən və canla-başla itaətdə durun. Bunu sizin barənizdə lütf və himayə kimi qəbul edin.

920-ci ilin mübarək Rəcəb ayının 2-də yazılıb" (229).

Sultan Səlimin üçüncü məktubu isə bütünlükdə Təbriz əhalisinə ünvanlanmışdı. Osmanlı sultanı Çaldıran döyüşündə qələbəsini xatırlatmaqla bütün şəhər əhalisini itaətə çağırırdı. O tələb edirdi ki, böyükdən kiçiyə kimsə Osmanlı hakimiyyəti altında olmağa etiraz etməsin, əksinə əmr və göstərişlərə tabe olsun. Əks təqdirdə, belələrini ağır cəza gözləməli idi: "Şahanə mərhəmət və lütfə nail olan Təbriz şəhərinin əyan və böyükləri (alimləri), xüsusən də müsəlman qazilərinin ən üstünü, Allahpərəst valilərin ən layiqlisi, elm (bilik) və yəqinlik mənbəyi olan Şəmsədin Qazi Əhməd, - fəzilətləri əbədi olsun, - bilsinlər ki, məlunların rəhbəri, şeytan ordusunun başçısı, dinsiz İsmayıl mübarək Rəcəb ayının birinci çərşənbə günündə Çaldıran düzündə günortadan öncə bizim dərya kimi təlatümlü zireh geyinmiş ordumuzla qarşılaşdı. Bütün səyləri nəticəsiz qaldı. Nəhayət, hamı və hər şeydən uca Tanrıya müti olan küləyin qələbə və fəth mehi İslam qoşununun bayrağını hərəkətə gətirmək və dalğalandırmaqla zəfər müjdəsi verdi. Çarəsiz və köməksiz qalan, nə edəcəyini bilməyən İsmayıl özünü düşünərək şikar qənimi olan saysız amansız qoşunun qabağından qaçdı. Biz isə onun arxasınca hərəkət etməyi dayandırmaqdan sərfi-nəzər edərək vaz keçdik (yəni onu təqib etməyə davam edirik). Əgər uca olan Allah istəsə bir neçə gün Təbriz şəhərinin meydanı qalib ordunun dördayaqlılarının dırnağını öpmək şərəfinə nail olacaqdır. Bizim alicənab həzrətin (Sultan Səlim özünü nəzərdə tutur - M.S.), Allahın əmanəti olan ümumi rəiyyət barəsində şəfqət və mehribanlığı həddən artıqdır. Böyüklər və kiçiklərdən kimsə etiraz etməsin, hamı fədakarlıq və xidmət etməkdə sabitqədəm və möhkəm olsun ki, səadətin pənahı və kölgəsində ruzigarın xoşagəlməz hadisələrindən sona qədər daldalansınlar.

Padşahlıq hökmlərinin əmr və qadağalarına tabe olmayanın qanı (günahı) öz boynuna olacaq və bizim qalib səltənətin şiddətli hücumundan xilas ola bilməyəcəkdir. Bütün rəiyyət və seçilmişlər əvvəlki kimi yerində sakit bərqərar olsunlar və tam rahatlıqla bizim xanədanın əbədi dövlətinin davam etməsinə dua etməkdə israrlı (diqətli, həmişə məşğul) və sabitqədəm olsunlar. Belə hesab etsinlər, fateh və cahangir tuğrasına etimad göstərib inansınlar. 920-ci ilin mübarək Rəcəb ayının əvvəllərində Xoy yurdunda yazlıb" (230).

Amma mövcud olan faktların təhlili göstərir ki, Sultan Səlim Təbriz əhalisi tərəfindən heç də gözlədiyi şəkildə qəbul edilmədi, Təbriz əhalisinin xüsusi hörmət və ehtiramı ilə qarşılanmadı. Doğrudur, Təbriz əhalisi tərəfindən Sultan Səlimin Təbrizə daxil olması ilə bağlı bəzi hazırlıqlar görülmüşdü. Lakin bunlar daha çox müharibədə qələbə əldə etmiş sultanın Təbrizdə törədə biləcəyi talanların qarşısının alınması üçün edilmişdi. Yuxarıdakı yazışmalardan da bunu görmək mümkündür ki, Təbriz əhalisi Osmanlı qoşunlarının törədə biləcəyi talanlardan xeyli narahat idi. Əslində, Sultan Səlim də yaxşı anlayırdı ki, Təbrizdə və bütünlükdə Azərbaycanda möhkəmlənmək üçün əhali ilə mülayim dolanmaq lazımdır və bununla bağlı hələ Təbrizə daxil olmazdan əvvəl müvafiq göstərişlər də verdi.

Sultan Səlim və onu müşayiət edən qoşunlar sentyabr ayının 1-də Mərənd yaxınlığındakı Quşçuçeşmə kəndinə, sentyabrın 2-də Yam Gədiyi məntəqəsinə, sentyabrın 4-də Sahəlan kəndinə və sentyabrın 5-də isə Acısu (Sərab ətrafında) adlanan məntəqəyə yetişdi (231). Bəzi məlumatlara görə, Sultan Səlimin Təbrizə doğru hərəkəti Şah İsmayılın nəzarəti altında idi və o, Osmanlı sultanının qətlə yetirilməsi üçün müəyyən planlar da hazırlamışdı. Bu məlumatların doğruluğu qəbul olunarsa, onda Şah İsmayılın döyüşdən sonra ağır mənəvi durumda olması, onun yalnız canını xilas etməyə çalışaraq Təbrizi tərk etməsi kimi fikirlərə birmənalı şəkildə yanaşılması düzgün olmazdı. Bildirilir ki, Şah İsmayıl öz niyyətinin həyata keçirilməsi üçün ayrı-ayrılıqda iki dəstə hazırlamış və onları Təbrizə doğru irəliləməkdə olan Sultan Səlimin qətlinə göndərmişdi. 50 nəfər silahlıdan ibarət olan birinci dəstəyə Hacı Rüstəm adlı birisi rəhbərlk edirdi. Həmin dəstə sentyabr ayının 1-də Osmanlı qoşunlarına yetişdi və Səfəvi qoşunlarından qaçaraq Osmanlı qoşunlarına sığınmaq niyyətində olduğunu bildirdi. Sultan Səlim bu dəstəni qəbul etdi. Lakin sonradan aparılan araşdırmalar bu dəstənin xüsusi tapşırıqla göndərildiyini aydınlaşdırdı. Belə olanda Sultan Səlimin göstərişi ilə Hacı Rüstəmin bütün dəstəsi edam edildi (232).

Sentyabr ayının 5-də başqa bir dəstə Sultan Səlimin qətlinə göndərildi. Xalid bəy adlı qızılbaş əmiri tərəfindən rəhbərlik edilən həmin dəstənin də Şah İsmayılın göstərişi əsasında göndərildiyi bildirilirdi. Həmin dəstə üzvləri də Səfəvi qoşunlarından qaçdığını və Osmanlı qoşunlarına sığınmaq istədiyini bildirdilər. Sultan Səlim bu dəstəyə sığınacaq verilməsi ilə razılaşdı. Məlumatlara görə, sonrakı araşdırmalar bu dəstənin də xüsusi tapşırıqla göndərildiyini aşkarladı və ona görə Sultan Səlimin göstərişi əsasında bu dəstədə olan 150 nəfərin hamısı edam edildi. O da bildirilir ki, 150 nəfərin hamısı qonaqlıq verilməsi adı ilə bir çadıra cəmləşdirildi və sonrda da hamılıqla elə oradaca qətlə yetirildi (233).

Sentyabrın 5-də şəhər yaxınlığında olarkən Təbrizin əyanları, üləmaları, ağsaqqalları, zahidləri, fazil insanları Sultan Səlimin yanına gələrək ona öz ehtiramlarını və itaətlərini bildirdilər. Təbrizin bir fərsəngliyindən şəhərin daxilinə aparan yol xalça-palazla döşəndi, çoxlu sayda hədiyyələr gətirildi. Sultan Səlimin göstərişinə əsasən, qoşunların əsas hissəsi şəhərə daxil olmadı və şəhər ətrafında onlar üçün düşərgə salındı. Bununla, qoşunların yarada biləcəyi narahatçılıq da aradan qaldırılmış oldu. Sultan Səlim Təbrizə çərşənbə günü daxil oldu və cümə günü isə şəhərin Sahibabad meydanının şimal hissəsində yerləşən və Uzun Həsən tərəfindən tikilmiş olan Həsən məscidinə yollandı və orada cümə namazı qıldı. Namaza Osmanlı əmirlərindən, əyanlarından başqa, həm də şəhər əhalisinin nümayəndələri toplaşmışdılar. Cümə namazının xətibi burada Sultan Səlimin adına da xütbə oxumalı idi. Xütbəsində Sultan Səlimin adının çəkiməli olduğu yerə çatanda xətib onun deyil, Şah İsmayılın adını çəkdi və belə dedi: "Əs-soltan bin soltan Əbülmüzəffər Şah İsmayıl". Namaza toplaşanlar güman edirdilər ki, Sultan Səlim xütbədə onun adının yerinə Şah İsmayılına adının çəkilməsindən qəzəblənərək xətibin qətlinə fərman verəcəkdir. Amma Sultan Səlim bu hadisəni kifayət qədər soyuqqanlıqla qarşıladı və dedi ki, xətib Şah

İsmayılın adını çəkməyə adət etdiyi üçün indi də bu adətini təkrarlamalı olub. Sultan Səlim dedi: "Əvvəla, dili öyrəşib və günahı yoxdur. Sonrası isə insafdan kənar olardı, mən şahın (Şah İsmayıl nəzərdə tutulur - M.S.) qüvvət və qüdrətini bu müharibədə müşahidə etdim, Vallah, əgər eşitsəydim, inanmazdım" (234).

Təbrizə daxil olduğu ilk günlərdən Sultan Səlim əmirlərinə Səfəvi xəzinəsinin ələ keçirilməsini tapşırdı. İstər Çaldıran düzündə, istərsə də Təbrizdə son dərəcə böyük miqdarda var-dövlət ələ keçirildi. Əslində, talan edilmiş bu var-dövlətin həcmini və miqdarını müəyyənləşdirmək də mümkün deyildi. Təbriz talanlarını Çaldırandakı talanların davamı saymaq mümkündür. Amma Çaldıranda Səfəvi qoşunlarının düşərgəsinin talan edilməsi zamanı ələ keçirilənlərin böyük hissəsi qoşunların istifadəsinə verildisə, Təbrizdə başlıca diqqət dövlət xəzinəsinin talanmasına və onun sultan xəzinəsinə qatılmasına yetirildi. Osmanlı mənbələrində Çaldıran düzündə Səfəvi qoşunlarından talan edilmiş var-dövlət belə təsvir olunurdu: "Orada çoxlu əşyalar qarət olundu. Nəticədə düşmən bir tikə çörəyə möhtac edildi. Teştlər qızıl və digər qiyməyli daşlarla dolu idi. Çadırların, otaqların, ximələrin, kölgəliklərin sayı yox idi və onlar hamısı cənnətə layiq idilər. Hər yerə qiymətli xalçalar sərilmişdi. Xəzinələr və qızıllar uzunqulaqlara yüklənmişdi. Xəzinələr o qədər çox idi ki, hətta yerdə qalmışdı. Xələtlər, cövşənlər, zirehlər və papaqlar çoxlu sayda qarət olundu. Çaldıran fəqirləri varlıya çevrildilər" (235).

Başqa bir mənbədə isə Çaldıran düzündəki talan belə təsvir olunurdu: "Həmin o məsud gecə qazilər yatmadılar və qənimət toplanması ilə məşğul oldular. Onlar çoxlu sayda qiymətli parçalar, mallar və əşyalar əldə etdilər. Qızıl və gümüş qalxanlarda bölüşdürülürdü. Hamıya onlardan pay düşdü. Müxtəlif qızıl və gümüşləri toplayıb qarət etdilər və düşməni çörəyə möhtac etdilər. Bahalı daşlarla bəzədilmiş xəncər və qılınclar, qiymətli yəhərlər, əşyalar, çadırlar, otaqlar, xalçalar, keçələr qazilərin əlinə keçdi. Çox qiymətli xəzinə, şahlara layiq qiymətli əşyalar, sultan xəzinəsinə aparıldı və kitablarda siyahılaşdırıldı" (236). Mənbə sonra onu da çatdırırdı ki, ələ keçirilmiş qiymətli əşyaları görəndə adamın ağlı başından qaçırdı. Bunları görənlər öz heyrətlərini gizlədə bilmirdilər.

Yəni, Sultan Səlim Çaldıranda sadəcə hərbi qələbə əldə etmədi, həm də miqyasının hesablanması mümkün olmayacaq həcmdə var-dövlət də ələ keçirdi. Bu talanlar Təbrizdə də davam etdirildi. Təbrizdə var-dövlətin toplanması və ələ keçirilməsi işi Əhməd bəy Qapıçıbaşıya həvalə olundu. Bir daha qeyd olunmalıdır ki, Sultan Səlim qoşunların şəhərə daxil olmasına və Təbriz daxilində talanlarla məşğul olmasına qadağa qoydu. O çalışırdı ki, Şah İsmayıla məxsus olan xəzinəni ələ keçirsin və onu bütünüklə sultan xəzinəsinə qatsın. Ehtimal edilirdi ki, Şah İsmayılın qiymətli xəzinısi vardır. Çünki bu xəzinə bölgənin hökmdarları olan Cahanşah, Əbu Səid, Uzun Həsən, Sultan Yaqub tərəfindən toplanaraq Şah İsmayıla keçmiş xəzinə idi. Bəzi məlumatlara görə, Şah İsmayıl xəzinəsinin bir hissəsini Çaldırana da aparmışdı və həmin xəzinə Osmanlı qoşunlarının əlinə keçmişdi. Təbrizdə qalan xəzinənin mühafizəsi isə Şah İsmayıl tərəfindən Təbriz hakiminə tapşırılmışdı. Ona görə Sultan Səlim narahat

idi ki, sürətli tədbirlər həyata keçirməsə Təbrizdəki Səfəvi xəzinəsi şəhərdən çıxarıla bilər. Şah İsmayılın Təbrizdə qalmış xəzinəsi Həşt Beheşt sarayında saxlanılırdı. Bu saray Təbriz şəhərindən çay vasitəsilə ayrılan bir bağın içərisində yerləşirdi (237).

Bəzi məlumatlara görə, Təbriz hakimi şəhərdə saxlanılan xəzinəni çıxararaq Qəzvinə aparmış və orada gizlətmişdi. Bəzi məlumatlar hətta Şah İsmayılın xanımı Taclı bəyimin də şah xəzinəsinin Təbrizdən çıxarılmasında iştirak etdiyini bildirirlər. Bununla belə, məlumdur ki, şah xəzinəsi Təbrizdən bütünlüklə aparılmamışdı və onun müəyyən hissəsi Osmanlı sultanının əlinə keçmişdi. Təbrizdə ələ keçirilmiş qiymətli əşyaların siyahısı tutulmuş və sultan xəzinəsinə təhvil verilmişdir. Türkdilli araşdırmalarda Təbrizdə ələ keçirilmiş qiymətli əşyaların bəzi siyahıları işıq üzü görmüşdür (238). Elə bu siyahıların özü də göstərir ki, Osmanlı qoşunları Təbrizdə çox böyük var-dövlət ələ keçirməyə müvəffəq olmuşdular.

Şah xəzinəsinin talan edilməsi yalnız Sultan xəzinəsinin ehtiyatlarının artırılması üçün deyildi. Sultan Səlim Təbrizə yetişənə qədər böyük maliyyə xərcləri ilə üzləşmışdı və həmin xərclər hələ də davam etməkdə idi. Şah xəzinəsindən ələ keçirilmiş qiymətli əşyalarla bu xərclərin müəyyən hissəsini qarşılamaq mümkün ola bilərdi. Təbrizdə olduğu vaxt Sultan Səlim bölgənin böyük sayda sənətkarlarının, ustalarının, söz sahiblərinin toplanıb İstanbula göndərilməsi haqqında göstəriş verdi (239). Bu da əslində, Təbrizin və bütünlükdə Azərbaycanın talanmasının bir forması idi. Nəticədə, çoxlu sayda sənətkarlar İstanbula getmək məcburiyyəti qarşısında qaldılar.

## 12. Sultan Səlimin Təbrizdə möhkəmlənə bilməməsinin səbəbləri

Sultan Səlim özlüyündə belə planlaşdırmışdı ki, 1514-cü ilin qışını Təbrizdə keçirsin və havaların isinməsi ilə Səfəvi ərazilərinin fəthini davam etdirsin. Amma məlumdur ki, Sultan Səlim Təbrizdə cəmi 8 gün qala bildi. 8 gündən sonra Sultan Səlim qoşunları ilə birlikdə Təbrizi tərk etdi və İstanbula doğru istiqamət götürdü. Sözsüz ki, Sultan Səlim könüllü şəkildə və xoşluqla Təbrizi tərk etmək seçimini etməmişdi. Təbrizin tərk edilməsi Çaldıran düzündə əldə edilmiş üstünlüyün itirilməsi demək idi. Osmanlı sərhədi boyunca olan bəzi ərazilər istisna olmaqla Osmanlı qoşunları Səfəvi dövlətinə öz iradəsini qəbul etdirə bilmədən geri qayıtmaq məcburiyyəti ilə üzləşdi. Belə bir qərar qəbul edilməsinin bir sıra səbəbləri mövcud idi. Doğrudur, Osmanlı sultanının belə bir qərar qəbul etməsinin bir sıra səbəbləri elmi-tarixi ədəbiyyata çıxarılmışdır. Amma o da qeyd olunmalıdır ki, Səfəvi dövlətinə qarşı müharibəyə başlanmasında və onun aparılmasında Sultan Səlim də strateji ehtiyatsızlığa yol vermişdi. Çox güman ki, Sultan Səlim bir əsas döyüşlə Səfəvi dövlətinin taleyinin həll olunacağını güman edirdi. Əsas döyüşün təşkili və aparılması dövrün hərb sənətinin mühüm elementi olaraq qalmaqda idi. Amma Şah İsmayıl bu təcrübənin müharibə aparılmasında həlledici amil olmadığını ortaya qoydu. Çaldıran dö-

yüşünün uduzulması Şah İsmayıl üçün müharibənin uduzulması olmadı. Yaralı olmasına baxmayaraq, Şah İsmayıl Çaldıran döyüşündən sonra kifayət qədər fəal müdafiə siyasəti həyata keçirdi və bu da tezliklə öz nəticəsini verdi. Sultan Səlim isə əksinə, Səfəvi dövlətinin bütün potensialını dəqiqliklə qiymətləndirə və öz strategiyasını da buna uyğun olaraq qura bilmədi.

Osmanlı qoşunlarının Təbrizi və sonradan bütünlükdə Səfəvi hüdudlarının tərk etməsinin mühüm səbəblərindən biri ərzaq qıtlığının mövcudluğu ilə bağlıdır. Əsas döyüşün qələbə ilə başa çatdırılmasından sonra qoşunların fəaliyyəti üçün zəruri olan ehtiyacların da aradan qaldırılacağına bağlanan ümidlər özünü doğrultmadı. Çünki, Təbriz və onun ətrafında həm şəhər əhalisinə, həm də çoxsaylı Osmanlı qoşunlarına yetərli olacaq miqdarda ərzaq ehtiyatları yox idi. Bəzi müəlliflərə görə, Şah İsmayılın göstərişi əsasında Təbrizdə və onun ətrafında olan bütün ərzaq ehtiyatları məhv edilmişdi. İstənilən halda Təbrizdə ərzaq qıtlığı var idi və çox tezliklə yerli əhali də bu qıtlıqdan çətinlik çəkməyə başladı. Hətta yerli əhali ərzaq qıtlığının aradan qaldırılması üçün Osmanlı sultanı qarşısında məsələ qaldırmağa başladı. Osmanlı sultanı bu məsələni həll etmək imkanında deyildi. Çünki onun nəzarəti altında olan Səfəvi ərazilərində yeni ərzaq ehtiyatları tapmaq mümkün deyildi və qışın yaxınlaşmaqda olması da bu işi çətinləşdirirdi. Digər tərəfdən, qoşunlar Osmanlı ərazisindən xeyli uzaqlaşmışdılar və ərzaq ehtiyaclarının Osmanlı ehtiyatları hesabına aradan qaldırılması da mümkün deyildi. Bu da Sultan Səlimi məcbur etdi ki, Osmanlı qoşunları üçün daha fəlakətli günlər başlamamış Təbrizdən uzaqlaşsın və ərzaq ehtiyatları çox olan məntəqələrə yaxınlaşsın.

Mənbələrdə və tarixi ədəbiyyatda Osmanlı qoşunlarının Təbrizi tərk etməsinin səbəblərindən biri də Şah İsmayılın fəal müdafiə siyasəti həyata keçirməsi ilə bağlanılır. Şah İsmayıl Çaldıranda ağır zərbə alsa da, özünün çoxlu sayda əmirini və sərkərdələrini itirsə də, iradəsini sındırmadı, Çaldıran döyüşünün yaratdığı ağır mənəvi durumu üstələyə bildi. Şah İsmayıl həm özü toparlandı, həm də müridlərini toparlaya, onları məmləkətin müdafiəsinə səfərbər edə bildi. Şah İsmayıl Təbrizdən çox da uzaqlaşmadı. Bununla, o, bir tərəfdən Osmanlı qoşunlarını diqqətdən kənarda qoymadı, bir tərəfdən də Osmanlı qoşunlarına və o cümlədən də, Sultan Səlimə psixoloji təzyiqi dayandırmadı. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl"ın verdiyi məlumata görə, Şah İsmayıl Sərabda idi və Sultan Səlimin Təbrizdə olduğu bir həftə ərzində Şah İsmayıl ətrafına 7 min nəfərlik yeni bir dəstə toplaya bildi. Sonra da Şah İsmayıl bu dəstə ilə Təbrizə doğru istiqamət götürdü. Sultan Səlim də bundan qorxuya düşdü və Təbrizi tərk etmək qərarına gəldi (240).

"Tarix-i aləmara-yi Abbasi" əsərində isə Şah İsmayılın Osmanlı qoşunlarına qarşı müqavimətı dayandırmaması belə təsvir olunmuşdur: "Müxtəsər, yaxınlarının bir dəstəsi ilə [şah] o mərəkədən çıxıb, Dərcəzinə gəldi ki, müzəffər əsgərlərini toplayıb, bir daha qüdrətli bir şəkildə rumilərlə müharibə etsin. Sultan Səlim iftixar və fərəhlə Təbriz şəhərinə gəldi, lakin altı gündən artıq orada qala bilmədi. [Sultan Səlim] qızılbaşlarla müharibənin şiddətindən və Süleyman şanlı xa-

qanın inadkarlıq və igidliyindən əndişə edib, özünün nümayiş etdirdiyi cürət və cəsarətdən peşman oldu və öz diyarına qayıtmağı qərara aldı" (241).

"Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, Sultan Səlim, əslində, Şah İsmayılın ciddi müqaviməti ilə qarşılaşacağına şübhə etmirdi və özü də bəyan edirdi ki, Çaldıran düzündə etdiklərinin qisasını Şah İsmayıl alacaqdır (242). Sultan Səlim onu da yaxşı bilirdi ki, Şah İsmayılın geri qayıtması Osmanlı qoşunları üçün çox ağır nəticələrlə başa çata bilər. Çünki Şah İsmayıl nəyə qadir olduğunu Çaldıran düzündə nümayiş etdirmişdi və yorğun durumda olan Osmanlı qüvvələrinin Şah İsmayılın yeni təzyiqlərinin qarşısında duruş gətirə biləcəyinə artıq Sultan Səlim ehtiyatla yanaşırdı. Ona görə də Sultan Səlim yeni döyüşün ağır nəticələri ilə qarşılaşmamaq üçün Təbrizi tərk etməyi daha doğru seçim kimi qəbul etdi.

Sultan Səlim Təbrizə daxil olmaqla, əslində, hərbi təşəbbüsü də Şah İsmayıla vermiş oldu. Osmanlı sultanı Təbriz daxilində əli-qolu bağlı vəziyyətə düşdü, yorğun-arğın vəziyyətdə olan qoşunlarının durumunu yaxşılaşdıra bilmədi, onlarn başını talanlara və qənimət toplanmasına qarışdırmaqla Şah İsmayılın müharibə fəallıqları qarşısında hərəkətsiz qaldı. Sultan Səlimin Təbriz əhalisinin dəstəyini və rəğbətini qazanması barəsində də mənbələrdə ciddi məlumatlarla rastlaşmaq mümkün deyil. Bu da sözsüz ki, Osmanlı qüvvələrinin müqavimət gücünə əks təsir götərirdi. Ona görə də Sultan Səlim Təbriz daxilində və ya ətrafında Şah İsmayıla qarşı müqavimət göstərmək üçün heç bir cəhd göstərmədi və yaranmış vəziyyətdə geri çəkilməyi daha düzgün qərar hesab etdi. Real vəziyyət də əslində bunu tələb edirdi. Havaların soyumağa doğru getdiyi bir vaxtda Səfəvi qoşunlarına qarşı yeni bir döyüşün keçirilməsi Osmanlı qoşunları üçün çox ağır nəticələrlə başa çata bilərdi.

Şah İsmayıl təhlükəsini Sultan Səlimin vəzirləri və əyanları da yaxşı başa düşürdülər və ona görə onların iştirakı ilə keçirilən toplantılardan birində Osmanlı qoşunlarının geriyə dönməsnin məqsədəuyğunluğu haqqında qərar qəbul edildi (243).

Sultan Səlim nəinki əmrilri və vəzirləri, hətta döyüşçüləri arasında da fikir yekdilliyini təmin edə bilməmişdi. Onun Təbrizi tərk etməsinin səbəblərindən biri kimi də, mənbələrdə və tarixi ədəbiyyatda yeniçərilərin yenidən Sultan Səlimə qarşı mövqe tutması göstərilir. Yəni, Sultan Səlim qoşunların ali baş komandanı kimi öz iradəsini bütün qoşunlara qəbul etdirmək qabiliyyətinə malik deyildi və müəyyən mənada hələ də yeniçərilərin istəyi ilə hesablaşmaq məcburiyyətində idi. Bu mənada Şah İsmayıl daha üstün duruma malik idi. Şah İsmayıl qoşunların rəhbəri olmaqdan əlavə, həm də təriqət rəhbəri, mürşidi-kamil idi. Qoşun əhli daxilində Şah İsmayıla qarşı sonsuz etiqad, inam və sədaqət var idi. Hətta bəzi ədəbiyyatda Şah İsmayılın qoşunlar tərəfindən müqəddəsləşdirilməsinin (244) Çaldıran döyüşündə məğlubiyyətin səbəblərindən biri kimi qələmə verilir. Şah İsmayılın iradəsi qoşunlar üçün yalnız göstəriş deyildi, həm də doğruluğuna şübhə edilməyən mürşid buyuruğu idi. Sultan Səlim isə bu keyfiyyətin sahibi deyildi və ona görə də Təbrizdən geri çəkilmək barədə yeniçərilərin tələbi ilə razılaşmalı oldu.

Məlumdur ki, hələ Çaldıran döyüşü ərəfəsində yeniçərilər Sultan Səlimə qarşı üsyan qaldırmışdılar və onlar Səfəvi qoşunlarına qarşı hərbi yürüşü dayandırmağı tələb edirdilər. Sultan Səlimin o zaman göstərdiyi qətiyyət nəticəsində yeniçərilər öz tələblərindən əl çəkmək məcburiyyətində qalmışdılar. Lakin Təbrizə yetişəndən sonra yeniçərilər bir daha Səfəvi qoşunlarına qarşı müharibə aparılmasının düzgün olmadığı qənaətinə gəldilər. Xüsusilə, müsəlmanların bir-biri üzərinə qılınc çəkməsini və böyük sayda müsəlmanın qırğın qurbanı olmasını onlar doğru saymırdılar. Dindaş qırğınına son qoyulmasını yeniçərilər ciddi bir tələb kimi irəli sürdülər və son nəticədə də onlar Sultan Səlimi bu tələblə razılaşmağa sövq edə bildilər.

Osmanlı qoşunlarının Təbrizə yetişməsinin ikinci günü yeniçərilər öz narazılıqlarını açıq şəkildə bildirməyə başladılar. Çox güman ki, Sultan Səlim onların arasında narazılığın mövcudluğundan xəbəri var idi və ona görə də Təbrizə daxil olan kimi yeniçərilərin üç aylıq maaşı əvvəldən verilmişdi. Amma bu addım heç də yeniçərilərin narazılıqlarını aradan qaldırmadı və onlar iaşə üçün verilən şorbanı qəbul etməkdən imtina etdilər. Bu barədə məlumat alanda Sultan Səlim yeniçərilərin rəhbərini yanına çağırtdırdı, yeniçərilər arasında özünü göstərən narazılığın səbəbini ondan soruşdu. Sultan Səlim bildirdi ki, yeniçərilərin razı salınması üçün əldə edilmiş qənimətlərin böyük bir hissəsi yeniçərilərə verildi, yeniçərilərə verilən qələbə mükafatı başqalarına nisbətən iki dəfə çox idi. Bütün bunlardan sonra yeniçərilərin narazılığını Sultan Səlim təəccüblə qarşılayırdı. Sultan Səlimin tələbinə yeniçərilərin rəhbəri və əmirləri belə cavab verdilər ki, yeniçərilər əldə edilmiş qələbə ilə, qənimətlərlə, sərvətlərlə kifayətlənməyi və vaxt itirmədən geri dönməyi istəyirlər. Sultan Səlim bir daha yeniçərilərin geri dönmək istəyinin səbəbi ilə maraqlandıqda onların rəhbəri və əmirləri ətraflı cavab üçün bir gün vaxt verilməsini xahiş etdilər. Səhəri gün yeniçərilərin geri qayıtmaq istəyinin səbəbləri yazılı şəkildə Sultan Səlimə təqdim edildi (245).

Yeniçərilən Sultan Səlimə ünvanlanmış məktubun mətni fars dilində elmi dövriyyədə mövcudur. Həmin məktubda şiə məzhəbinə mənsub insanlar arasında baş verən qırğınlara işarə edilməklə deyilirdi ki, Osmanlı ərazisində 40 min nəfər və Səfəvi ərazisində də 20 min nəfər qətlə yetirilmişdir. Bunun günahını yeniçərilər həm də islam üləmasında görürdülər və bildirirdilər ki, məzhəb ixtilafının mahiyyətini üləma əhli açmamış və hətta Osmanlı sultanında da məzhəb ixtilafı ilə bağlı yanlış təsəvvür yaratmışdılar. Nəticədə də çoxlu sayda günahsız insanın qanı axıdılmışdı. Məktublarında yeniçərilər Sultan Səlimdən sual edirdilər ki, Səfəvi məmləkətində yaşayanlar sünni məzhəbinə mənsub insanlar kimi beş dəfə əzan səsləndirirdilərsə, dəstəmaz alıb namaz qılırdılarsa, oruc tuturdularsa, Quran oxuyurdularsa, həccə gedirdilərsə, hər zaman dillərində "La ilahə illəllah, Məhəmməd rəsul Allah" səsləndirirdilərsə hansı şəriət qanunu əsasında qətlə yetirilirdilər? Yeniçərilər sonra da sual edirdilər ki, əgər kəlmeyi-şəhadətdə "Əli vəliullah" deyilməsi şəriət baxımından doğru deyilsə, onda nə üçün şafeilər namazı bəzi vaxtı qolları bağlı, bəzi vaxt da qolları açıq şəkildə

qılırlar? Yeniçərilər sonra bildirirdilər ki, biz hamımız Əlinin Allahın vəlisi olmasını bilirik və bizim müəzzinlər də səhər azanlarında "Əli xeyrül əməl" deyirlər. Sonra da yeniçərilər əlavə edirdilər ki, biz iranlılarla din adından dava etməyəcəyik. O da bildirilirdi ki, ərazi işğalı adı altında da müharibənin aparılmasına ehtiyac yoxdur. Çünki viran günə qoyulmuş ərazilər tökülən qanları əvəz edə bilməzdi" (246).

Təbrizdə möhkəmlənməyə imkan tapmamış yeniçərilərin yenidən üsyan qaldırması və Səfəvi ərazilərinin işğalı ilə bərabər, məzhəb adı altında müharibə aparmağı düzgün saymadılar. Yeniçərilərin belə bir mövqe tutması Sultan Səlimin, əslində, mürəkkəb olan vəziyyətini daha da mürəkkəbləşdirdi və o, yeniçərilərə qarşı əvvəlki qətiyyətini nümayiş etdirə bilmədi. Bu dəfə də Sultan Səlim Səfəvi dövlətinə qarşı müharibəyə haqq qazandırmaq üçün üləmaların köməyinə arxalanmağa çalışdı. Yaranmış vəziyyətdə üləmaların dəstəyini almaq Sultan Səlim üçün heç də çətin deyildi. Bir tərəfdən üləmaların yeniçərilərə xas olan gücü yox idi. Digər tərəfdən, sünni üləmaları sözsüz ki, sünnilikdən fərqli bir yol tutan məzhəbi qəbul etmirdilər. Osmanlı daxilində şiəliyin genişlənməsi istər-istəməz sünni üləmalarının nüfuzunu da məhdudlaşdırırdı və bu da onlar tərəfdən heç də xoşluqla qarşılanmırdı. Ona görə onlar Sultan Səlimə dəstək verdilər və Osmanlı sultanı yanında toplanmış iclasda üləmalar yenidən şiəliyin şəriətə uyğun olmaması haqqında fitva verdilər. Mövcud olan məlumata görə, Sultan Səlim sünni üləmasını yanına topladıqdan sonra onlara belə bir sual verdi: "Aya, sufioğlu (Şah İsmayıl nəzərdə tutulur - M.S.) tərəfindən İranda yayılmış olan məzhəb haqqdır, yoxsa batildir?". Üləma əhli də fikirləşdikdən sonra belə bir fitva verdi: "Sünnət əhlinin və camaatının məzhəb üləmaları yanında bu məzhəb (yəni şiəlik - M.S.) Qurana, sünnətə və camaata zidd olduğundan batildir və İslama ziddir. Müsəlmanlardan kimsə bu yolu tutsa və bu yol ilə getsə, o, mürtəddir. İslam padşahına da vacibdir ki, mürtədləri cəzasına çatdırsın və imkan verməsin ki, islam məmləkətlərində bu haqsız məzhəb yayılsın və rəvac tapsın". Üləmanın fitvasında sonra deyilirdi ki, Quran - Allah kəlamı olsa da şiələr onu təhrif edirlər və onun müqəddəs mənalarını yanlış anlayırlar. Müxtəlif şəriət məsələlərində də onlar sünnilərə qarşı mövqe tuturlar və sünnilərə qarşı ziddiyyətdə olmağı vacib bilirlər. Sonra fitvada islam xəlifələrinin şiəlik tərəfindən qəbul olunmaması, şiə məzhəb tərəfdarlarının həzrət Aişə haqqında iftiralar söyləməsi barəsində də fikirlər var idi. Hətta onlara qarşı lənətlər yağıdırıldığı da qeyd olunurdu. Üləmaların fikrincə, şiələr sünniləri kafirdən də pis qəbul edirdilər, müsəlmanların (yəni sünnilərin) malını, canını özlərinə halal bilirdilər. Fitvanın sonunda üləma bir daha qeyd edirdi ki, şiələr haramı halala çeviriblər və Quran ehkamlarını da dəyişdiriblər. Bütün bunlara görə, sünni üləması şiələrə qarşı müharibəni haqq işi kimi qəbul edirdilər (247).

Sünni üləmalarının Sultan Səlimin mövqeyini əks etdirən fitva verməsi Osmanlı sultanının ürəyincə olsa da, amma ortaya çıxmış problemi heç də həll edə bilmədi. Üləmaların fitvası qoşun əhli arasında oxundu, onun mənası Osmanlı döyüşçülərinə çatdırıldı. Bununla belə, yeniçərilərin narazılığını aradan

qaldırmaq mümkün olmadı və Sultan Səlim onların tələbini nəzərə almaq məcburiyyətində qaldı. Sultan Səlim Təbrizi tərk etmək barədə seçim etdi.

Amma bir daha qeyd edilməlidir ki, Təbrizin tərk edilməsində başlıca səbəb Sultan Səlimin öz strategiyasında yol verdiyi yanlışlıq idi. Osmanlı sultanı Səfəvi dövlətinə üstün gəlmək potensialına malik deyildi və məntiqi olaraq Səfəvi dövlətinin və onun hökmdarı Şah İsmayılın potensialı da reallıqla dəyərləndirilməmişdi. Nəzərə alınsa ki, Şah İsmayıl heç də bir gizlinə çəkilib Sultan Səlimin nə zaman insafa gələcəyini gözləmirdi. Şah İsmayıl Təbrizdən kənarda olduğu günlər ərzində ətrafına qoşun toplamaqla məşğul idi və havaların soyumağa doğru getdiyi bir vaxtda Şah İsmayılın Sultan Səlimi üstələmək şansı daha da artırdı. Şah İsmayıl hətta Osmanlı qoşunlarını əldən salmaq taktikasını seçəcəyi halda belə Sultan Səlimin vəziyyəti daha da çətinləşə bilərdi və onun nicat yolu Səfəvi hüdudlarını tərk etməkdə idi. Sonda elə belə bir qərara da gəldi.

Təbrizin tərk edilib-edilməməsi yalnız yeniçərilərin tələbi ilə bağlı olsaydı, Sultan Səlimin bu məsələni həll etməyə yəqin ki, gücü çatardı. Çünki bununla bağlı onun artıq təcrübəsi var idi və bilirdi ki, yeniçəriləri müharibə aparmağa necə məcbur etmək olar.

Təbrizin tərk edilməsi, əslində, Səfəvilərə qarşı baçlanan müharibənin qarşıya qoyulan planların həllinə nail olmadan başa çatması demək idi. Əgər Sultan Səlim qələbəsinə və səfəvilər üzərində üstünlüyünə əmin olsaydı, geri çəkilməzdən əvvəl Təbrizə öz hakimini təyin edər və bununla, Təbriz və onun ətrafında öz hakimiyyətini qorumağa çalışardı. Sultan Səlim isə nəinki, Təbrizə, hətta Səfəvi hüdudlarının qərbində olan məntəqələrə də öz hakimlərini təyin edə bilmədi.

## 13. Osmanlı qoşunlarının Təbrizi tərk etməsi. Şah İsmayılın Sultan Səlimə məktubu

1514-cü il sentyabr ayının 14-də Sultan Səlim Təbriz şəhərini tərk etdi. O, cəmi 8 gün Təbrizdə qala bildi. Osmanlı sultanı şəhəri tərk etməmişdən əvvəl Əhməd bəy Qapıçıbaşıya göstəriş verdi ki, Təbrizdə ələ keçirilmiş xəzinəni, var-dövləti şəhərdən çıxarsın və qoşun daxilinə aparsın. Eyni zamanda, yuxarıda qeyd edildiyi kimi, çoxlu sayda sənətkarlar da Təbrizdən çıxarıldı və qoşunlarla birlikdə İstanbula aparıldı.

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl"ın verdiyi məlumata görə, Sultan Səlim Təbrizi tərk edəndə şəhərdə bir miqdar Osmanlı qoşunu qalmışdı. Həmin məlumata görə, Şah İsmayılın geri qayıtması ilə şəhər əhalisi həmin qoşun dəstəsi üzərinə hücum çəkdi və onu məhv etdi (248).

Sultan Səlim geri qayıdanda Təbrizə gəldiyi marşrutla hərəkət etməyi məqsədəuyğun saymadı və Naxçıvana doğru istiqamət götürdü. O, Naxçıvandan keçməklə Osmanlı daxilinə irəliləməyi qərarlaşdırmışdı. Bu marşrutu seçməsinin başlıca səbəblərindən biri qoşunların ərzaq təminatı üçün ehtiyatların tapılması idi. Güman

edilirdi ki, Naxçıvandan keçən marşrut üzərində yerləşən məntəqələrdə daha çox ərzaq ehtiyatı tapmaq mümkün olar. Bəzi tarixi ədəbiyyatda olan məlumatlara görə, Sultan Səlimin hətta Qarabağda qışlamaq fikri də mövcud idi. Lakin əmir və əyanlar bu plandan da imtina edilməsini Sultan Səlimə məsləhət bildilər. Çünki bu plan da təhlükəli bir plan idi.

Sentyabr ayının 14-də Sultan Səlim və Osmanlı qoşunları Salahanda, sentyabrın 15-də Sufiyanda, sentyabrın 16-da Mərənd həndəvərində, sentyabrın 17-də Zənus çayı yaxınlığında, sentyabrın 18-də Gərgərdə, sentyabrın 19-da Culfada oldu. Bu zaman Araz çayında su kifayət qədər çox idi və ona görə qoşunlar çayı çətinliklə adlaya bildilər. Çayda suyun səviyyəsi və sürəti elə böyük idi ki, Osmanlı qoşunlarından bir miqdar döyüşçü və heyvan bu selin qurbanı oldu (249).

Osmanlı mənbələrinə əsaslanan türkdilli araşdırmalarda olan məlumatlara görə, Araz çayı ətrafına yetişəndə Osmanlı qoşunları daxilində yenidən müharibənin davam etdirilməsinə qarşı müəyyən narazılıqlar özünü göstərməyə başladı. Həmin məlumatlara görə, üsyan səviyyəsinə qalxan bu narazılıqlarda bir sıra dövlət adamları da iştirak edirdilər. Onların bəziləri açıq şəkildə öz narazılıqlarını bildirməsələr də, qapıqolu əsgərlərini, sipahilər və yeniçəriləri bu üsyana təhrik edirdilər. Üsyan üçün başlıca səbəb kimi, qoşunların təchizat çətinliklərinin olması, müharibənin dayandırılması və tezliklə geri dönüş istəyi göstərilirdi. Yeniçərilər cırılmış ayaqqabılarını, geyimlərini nizələrin ucuna taxaraq havaya qaldırır və bununla da öz narazılıqlarını açıq şəkildə ifadə edirdilər. Məlumata görə, Sultan Səlim də artıq vəzirlərinin və əyanlarının narazı döyüşçülərlə həmfikir olduğunu bilirdi və ona görə də ləngimədən geri dönüşün zəruriliyi ilə barışırdı (250).

Bununla belə, Sultan Səlim qoşunların hərəkət yolu üzərində olan məntəqələrin talan edilməsi fürsətindən də əl çəkmirdi. Bu zaman məzhəb mənsubiyyəti də Osmanlı qoşunları üçün heç bir əhəmiyyət kəsb etmirdi. Məsələn, Naxçıvan əhalisinin çoxu sünniliyə mənsubluğunu saxladıqlarını bildirməklə, qoşunların talanlarından canlarını qurtarmağa çalışdılar. Amma Sultan Səlim Naxçıvan əhalisinin xahişlərini nəzərə almadı və şəhərin talanmasına göstəriş verdi. Çox güman ki, belə bir əmələ əl atılması həm də qoşunlar daxilində olan narazılıqların müəyyən dərəcədə söndürülməsi istəyi ilə bağlı idi. Naxçıvan şəhəri Osmanlı qoşunları tərəfindən çox böyük talanlara məruz qaldı. Naxçıvandan sonra İrəvan şəhəri də Osmanlı qoşunlarının talanlarına məruz qaldı. Naxçıvan şəhəri talan edildikdən sonra Osmanlı qoşunları sentyabr ayının 21-də Qarabağ hüdudlarında, sentyabrın 22-də Əhmədbəy obası daxilində, sentyabrın 23-də Sədərəkdə, sentyabrın 25-də isə Çuxursəədin Hacılələ məntəqəsində olmuş və sentyabrın 25-də İrəvana yetişmişdi (251). Müvafiq elmi-tarixi ədəbiyyatda adları çəkilən məntəqələrin Osmanlı qoşunları tərəfindən talanlara məruz qalması haqqında məlumat olmasa da, belə əmələ əl atılması heç də istisna deyildir. Naxçıvanla İrəvanı talamaq icazəsi almış qoşun yəqin ki, bu iki böyük şəhər arasındakı yaşayış məntəqələrinin talanmasından da yan keçməzdilər.

Hətta İrəvandan sonra digər məntəqələrin də talan edilməsi belə bir qənaətə gəlməyə əsas verir.

İrəvan ətrafında olarkən Sultan Səlim ona qarşı qaldırılan üsyanda iştirak edən əyanlarını, konkret olaraq vəzir Mustafa paşanı cəzalandırmağı qərarlaşdırdı. Bunun üçün o özünəməxsus bir addım atdı. Onun göstərişi ilə sentyabr ayının 25-də xidmətçilərindən biri Mustafa paşanın atının yalını qırxdı. Belə olanda Mustafa paşa həmin atdan imtina etmək məcburiyyətində qaldı. Ətrafdakılar da bunu görüb gülüşməyə başladılar. Gülünc vəziyyətdə qalması, əslində, Mustafa paşanın təhqir edilməsi idi. Sultan Səlim isə Mustafa paşanın gülünc vəziyyətə düşməsini onun qoşunlar arasında hörmətinin itməsi kimi bəhanə etdi və onu vəzirlikdən azad etdi (252). Yəni, bununla Sultan Səlim ona qarşı üsyanın qalxmasında iştirak etmiş vəzirini cəzalandırdı.

Sentyabr ayının 27-də Osmanlı qoşunları İrəvan ətrafından hərəkətə başladılar. Həmin gün qoşunlar Üçkilsədən adlayaraq Heş adlanan məntəqəyə, sentyabrın 28-də Əruç kəndinə, sentyabrın 29-da isə Talın qalasına çatdılar. Bu qalanın əhalisi Osmanlı qoşunlarına boyun əymək istəmədi. Belə olanda Sultan Səlim göstəriş verdi ki, toplar işə salınsın və qala darvazaları dağıdılsın. Yalnız topların işə salınması ilə Talın qalası alındı və əhalisi də qılıncdan keçirildi. Evlər isə bütünlüklə talan edildi. Sentyabr aynın 30-da Osmanlı qoşunları hərəkətlərini davam etdirdilər. Həmin gün qoşunlar Göyçə dağı ətəklərinə yetişdilər. Bir gün sonra, yəni oktyabr ayının 1-də Osmanlı qoşunları artıq Qars qalası ətrafında idilər. Oktyabrın 2-də qoşunlar istirahət etdilər. Elə həmin gün Gürcüstan hakiminə xəbər göndərildi ki, Osmanlı qoşunlarına ərzaq köməkliyi göstərsin. Gürcü hakimi bu təklif qarşısında tərəddüd keçirdi və Şah İsmayıl ilə münasibətlərin pisləşə biləcəyindən Osmanlı qoşunlarına ərzaq göndərilib-göndərilməməsi üzərində düşündü. Belə olanda Sultan Səlim gürcü hakimi üzərinə qoşun dəstəsi göndərməyi qərarlaşdırdı. Bu qoşun dətəsi hərəkətə gətirildi. Oktyabrın 4-də gürcü hakimi üstünə Osmanlı qoşun dəstəsi gəlməsindən xəbər tutdu. Yalnız bundan sonra osmanlılara 3 min baş qoyun göndərilməsi haqqında qərar verildi və Osmanlı qoşun dəstəsi də geri qayıtdı (253).

Geriyə hərəkəti zamanı Sultan Səlim bir neçə digər qalanı da nəzarət altına aldı. Səfəvi dövlətinə qarşı başladığı kampaniyanın bütünlüklə nəticəsiz qalmasından qaçmaq üçün Sultan Səlim heç olmasa Səfəvi dövlətinin qərbində olan bəzi ərazilərin, şəhər və qalaların ələ keçirilməsinə nail olmağa çalışdı. Bu məqsədlə Sultan Səlim Ərzincan, Baybud, Kəmax kimi qalaların ələ keçirilməsinə cəhd göstərdi və əslində buna nail oldu da.

1514-cü il noyavr ayının 23-də Amasiyaya yetişən Sultan Səlim qışı orada keçirməyi qərarlaşdırdı. Qoşunlarının təchizatının müəyyən hissəsi, o cümlədən toplar burada saxlandı. Güman edilir ki, Sultan Səlim yenidən Şah İsmayıl üzərinə qoşun çəkmək niyyətində idi və ona görə də topları Səfəvi sərhədlərinə yaxın olan ərazidə saxlamağı məqsədəuyğun sayırdı.

Sultan Səlim Amasiyada olarkən onun yanına Şah İsmayılın elçiliyi gəldi. Bu elçiliyin tərkibinə Mir Nurəddin Əbdülvahab, qazi İshaq, molla Şükrulla

Muğani və Həmzə xəlifə daxil idilər. Mövcud olan məlumatlara görə, Şah İsmayıl bu elçiliyə rəhbərliyi xüsusi olaraq Mir Əbdülvahaba tapşırdı. Mir Əbdülvahab Təbrizin hörmətli və nüfuzlu fəqihlərindən biri idi və hətta Sultan Səlim də Çaldıran döyüşündən sonra Təbriz şəhərinə hakim təyin edilməsi ilə bağlı bu şəhərin əhalisinə ünvanladığı məktubda Mir Əbdülvahabın adını çəkmişdi. Yəni Sultan Səlim də onun nüfiuzlu və hörmətli bir insan olduğunu etiraf edirdi. Çox güman ki, Şah İsmayıl da belə bir adamın Sultan Səlim tərəfindən hörmətlə qarşılanacağını güman edirdi və ona görə də elçiliyə rəhbərliyi ona tapşırmışdı. Mir Əbdülvahab özü ilə Şah İsmayılın məktubunu və çoxlu sayda qiymətli hədiyyə də aparırdı. Bu heyətin göndərilməsinin məqsədi ilə bağlı elmi-tarixi ədəbiyyatda müxtəlif fikirlər vardır. Bir tərəfdən bu elçiliyin göndərilməsində məqsədin Şah İsmayılın əsir düşmüş xanımı Bəhruzə xanımın azad ediməsinə nail olmaq idi. Eyni zamanda bu elçiliyin göndərilməsi ilə Şah İsmayılın Sultan Səlimlə münasibətlərin yaxşılaşdırılmasına çalışdığı da elmi-tarixi ədəbiyyatda öz əksini tapmışdır. Mir Əbdülvahabın Bəhruzə xanımın əsirlikdən azad edilməsi ilə bağlı elçiliyi bir nəticə vermədi. Şah İsmayılın gümanlarının əksinə olaraq, Sultan Səlim nəinki Mir Əbdülvahaba ehtiram göstərmədi, əksinə, onu və onu müşayiət edən adamları həbs etdirdi. Mir Əbdülvahab bir də Sultan Səlimin vəfatından sonra zindandan azad edildi və çox çəkmədi ki, dünyasını dəyişdi (254). Tarixçilərin qənaəti belədir ki, Sultan Səlim aldığı məktuba cavab yazmadı. Lakin Şah İsmayıla bəzi fikirlərini çatdırmağı lazım bildi. Sultan Səlim bildirdi ki, Bəhruzə xanımı ərə vermişdir və bunu nə üçün etdiyini də açıqladı (bu barədə aşağıda danışılacaqdır).

Amma bəzi mənbələrdə Şah İsmayılın Mir Əbdülvahab tərəfindən göndərilən məktubuna Sultan Səlim tərəfindən cavab verildiyi bildirilir və hətta bu məktubun mətni də xatırlanırdı. Həmin mətn bəzi araşdırmaçılar tərəfindən də təhlilə cəlb olunmuş, amma onun doğruluğu şübhə altına alınmışdır. Adı çəkilən cavab məktubunda Sultan Səlim bir daha islam dünyasının parçalanmasına özünün barışmaz münasibətini ifadə edir və bu parçalanmanın qarşısının alınması üçün ən qətiyyətli tədbirlərə əl atmağa hazır olduğunu bəyan edirdi. Sonra məktubda Şah İsmayıl tərəfindən mədrəsələrin dağıdılmasına toxunulur və bildirilirdi ki, bu əməllərin qarşısını almaq üçün Sultan Səlim silaha əl atmaq məcburiyyətində qalmış və Şah İsmayıl üzərinə qoşun çəkmişdi. Sultan Səlim bəyan edirdi ki, Çaldıran döyüşünə heç də qoşunlarının hamısını gətirməmişdi. Onun sözlərinə görə, 50 min nəfərlik qoşun dəstəsinə geri qayıtmaq əmri vermişdi (yuxarıdak məlumatlara görə isə 40 min nəfərlik qoşun dəstəsini Səfəvi hüdudlarına yollanan əsas qoşunlardan ayırmışdı). Sultan Səlimə aid edilən məktubun sonunda Şah İsmayıla bir neçə təklif də verilirdi. Şah İsmayıl bu təklifləri qəbul edəcəyi təqdirdə onun vəziyyətinin daha da yaxşılaçacağı güman edilirdi. Sultan Səlim təklif edirdi ki, Şah İsmayıl qürur və küdurətdən əl çəksin, şeyxlər qarşısında tövbə eləsin, xütbələr zamanı islamın dörd xəlifəsinin adları çəkilsin. Sultan Səlim onu da təklif edirdi ki, iki dövlət arasında sərhəd xətti Ərzrum yaxınlığında olsun və bu xətt tanınsın. Bu şərtlərin qəbul olunacağı təqdirdə Sultan Səlim, Səfəvi şahı ilə qardaş münasi-

bətində olacağını bildirirdi. Əks tədirdə, Sultan Səlim münasibətlərin yenidən qoşunların tətbiqi ilə müəyyənləşəcəyini bildirirdi (255). Bir daha qeyd edilməlidir ki, belə bir cavab məktubunun Sultan Səlim tərəfindən yazılması tədqiqatçılar tərəfindən şübhə ilə qarşılanır. Şah İsmayılın sonradan Sultan Səlimə göndərdiyi məktubunun məzmunundan da görünür ki, Mir Əbdülvahab elçilikdən geri qayıtmadığı kimi, onun apardığı məktuba da Sultan Səlim tərəfindən cavab verilməmişdi.

Qars qalasından başqa Ərzincan və Bayburd qalası da Sultan Səlim tərəfindən nəzarət altına alındı və Osmanlı hüdudlarına qatıldı. 1514-cü il oktyabr ayının sonlarında Osmanlı qoşunları Qarahisara yaxınlaşdı və orada məlum oldu ki, Təbrizdən Qarahisara kimi geriya başlanan hərəkət zamanı 1000 nəfər Osmanlı döyüşçüsü və 10 min baş atla dəvə aclıqdan və yorğunluqdan tələf olmuşdur (256). Yəni, Osmanlı qoşunlarının geri hərəkəti də böyük itkilərlə müşayiət olundu.

Amasiyada olarkən yeniçərilər yenidən Sultan Səlimə qarşı üsyan qaldırdılar. Yeniçərilər ciddi şəkildə Səfəvi dövlətinə qarşı müharibə aparılmasına etiraz edirdilər. Onlarda belə bir məlumat var idi ki, Sultan Səlim Səfəvilər dövlətinin qərb sərhəd xətti boyunca yerləşən qala və şəhərlər üzərinə hücuma hazırlaşır. Sultan Səlimin doğrudan da belə bir planı var idi və bununla ən azı Səfəvilərə qarşı başlanan kampaniyada hansısa bir məntəqəni qoparmağı özünə qənimət bilirdi. Yeniçərilər o qədər qəzəblənmişdilər ki, hətta sultan vəzirlərindən birinin və sultanın xocası Həlimi Çələbinin evlərini da talan etmişdilər. Yeniçərilərin yenidən üsyan qaldırmasından son dərəcə qəzəblənən Sultan Səlim bu hadisənin baş vermə səbəblərini araşdırarkən vəziri-əzəm Əhməd paşa Dokakinzadənin bu üsyanda əli olduğunu aşkara çıxarmışdı. Yeniçərilərin bu üsyanı 1515-ci il fevral ayının sonlarında alovlanmışdı. Həmin ilin mart ayının 4-də Sultan Səlim yeniçəri üsyanının alovlanmasında əli olan Əhməd paşa Dokakinzadəni yanına çağırdı və xəncəri ilə şəxsən onu yaraladı. Sonra da xidmətçilərinə onu qətlə yetirməyi tapşırdı (257).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Sultan Səlimin Ərzincandan sonra Yusif xan Varsağa məxsus Kəmax qalasını tutması haqqında məlumat vardır. Kəmax qalası Səfəvi hüdudlarının qərbində, Osmanlı dövlətinin sərhədi yaxınlığında yerləşməklə bölgənin çox möhkəm qalalarından biri idi. Malik olduğu mövqeyə görə Kəmax qalasını həm Səfəvi hüdudlarının və həm də Anadolunun qapısı kimi xarakterizə etmək olardı və bu qala ətraf bölgənin nəzarət altında saxlanması üçün strateji əhəmiyyətə malik idi. Sivasla Ərzincan arasında yerləşən bu qalanın müdafiə imkanları o qədər böyük idi ki, Çaldıran düzünə tərəf irəliləyərkən Sultan Səlim həmin qalanın nəzarət altına alınmasından yan keçmişdi. Osmanlı sultanı bilirdi ki, Kəmax qalasının fəthinə çox vaxt sərf etməli olacaqdı. Bu isə Səfəvi dövlətinə qarşı başladığı kampaniyanın vaxtını uzatmaqla yanaşı qoşunlar daxilində də narqazılıqları gücləndirə bilərdi. Ona görə də Kəmax qalasının alınması təxirə salınmışdı. Təbrizdən geri qayıdanda isə Sultan Səlim Kəmax qalasını ələ keçirmək fürsətini əldən vermək istəmədi

və yazın açılması ilə, yəni 1515-ci il aprel ayının 16-da qoşunla Kəmax qalasına tərəf istiqamət götürdü (258).

Həmin məlumatda deyilir: "Sultan Səlim Ərzincana gedib, Yusif sultan Varsağa məxsus Kəmax qalasını mühasirəyə adlı. Yusif sultan qalanı öz qardaşına və varsaq [tayfasından] olan üç yüz nəfər qaziyə tapşıraraq, özü əşrəfin xidmətinə gəlmişdi. Sultan Səlim varsaq qazilərinə aman veriləcəyi haqqında məktub («amannamə») göndərib, onları itaətkarlığa dəvət etdi. Varsaq qaziləri dedilər ki, [Çaldıran] döyüşündə bizim mürşidimizə və vəlinemətimizə azacıq zərər dəymiş olsa da belə, biz o həzrətin rəiyyəti olmaq hüququndan heç zaman imtina etmərik və canımız bədənimizdə olduğu müddət ərzində o həzrətin düşmənlərinə qarşı döyüşəcəyik. Bu sözlərdən sonra rumilər qalaya hücum etdilər və qalanı tutdular. Qazilər came məscidinə pənah apardılar və onların hamısı din və dövlət yolunda şəhidlik şərbətini içdilər. Sultan Səlim Kəmaxı ələ keçirib, Əlaüddövlənin üzərinə getdi" (259).

Mənbələrdə və elmi-tarixi ədəbiyyatda olan məlumatlara görə, Osmanlı qoşunları Kəmax qalası üzərinə hücum edəndə Yusif xan Varsağ qalada deyildi. O, Çaldıran döyüşündə iştirak etmək üçün Səfəvi qoşunlarına qatılmışdı və qüvvələrinin çoxunu da özü ilə aparmışdı. Ona görə Kəmax qalasında 300 nəfərlik bir qoşun dəstəsi qalmışdı. Qala daxilində olan qoşun dəstəsinin azlığı Osmanlı əmirlərində hücumun tezliklə və uğurla başa çatacağı ümidini artırmışdı. Qalanın müdafiəsinə Məhəmməd bəy Varsağ adlı bir əmir rəhbrlik edirdi. Sultan Səlim qala üzərinə hücuma başlamazdan əvvəl Məhəmməd bəyə xəbər göndərdi və onu təslim olmağa çağırdı. Məhəmməd bəy isə bu çağırışa mənfi cavab verdi. Baxmayaraq ki, Məhəmməd bəyin Təbrizlə heç bir əlaqəsi yox idi və Təbrizdən bir kömək gələcəyinə də bir ümid yox idi, qala müdafiəçiləri müdafiə yolunu tutdular. Ona görə də Osmanlı qoşunlarının həmlələri nəticəsiz qaldı. Belə olanda Sultan Səlim topların işə salınması barədə göstəriş verdi. Davamlı top atəşlərindən sonra qala divarlarında yaranan uçuqlardan adlayan Osmanlı qüvvələri şəhərə daxil oldular. Kəmax müdafiəçiləri elə bir fədakarlıqla müdafiə olunurdular ki, qala ələ keçiriləndən sonra Sultan Səlim onun bütün müdafiəçilərinin edam edilməsinə qərar verdi (260).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Osmanlı qoşun dəstəsinin Varsağ qalası üzərinə hücumu daha geniş təsvir olunmuşdur. Həmin əsərlərin məlumatına görə, bu qalaya üş qardaş hakimlik edirdi. Böyük qardaş Yusif Varsağ adında idi və qalanın sultanı da o idi. Onun digər qardaşları isə Qasım xəlifə və Həsən xəlifə adlanırdılar. Varsağ qalası da Osmanlı qoşunlarının geri çəkilmə marşrutu üzərində yerləşirdi. Həmin qalaya yetişəndə Sultan Səlimə çatdırıldı ki, onun daxilidə böyük miqdarda ərzaq ehtiyatları mövcuddur və onun ələ keçirilməsi yaxşı olardı. Sultan Səlim bu təkilfi qəbul etdi və qalanın ələ keçirilməsi üçün əvvəlcə Yusif xəlifəyə məktub yazdı. Həmin məktubda deyilirdi: "Mən Şah İsmayılı aradan götürdüm və Təbrizi də aldım. İndi gəl mənim xidmətimə və mənə xidmət elə. Mən də bu qalanı bütün ətrafı ilə sənə verərəm". Yusif xəlifə bu təklifi qəbul etmədi və əvəzində belə bir cavab yazdı:

"Əgər doğru deyirsənsə və geri qaçmamısınızsa siz işinizdə olun. Bizə başqa xəbər çatsa, Təbrizin sizin əlinizdə olması aşkarlansa və həzrət Şah İsmayıl öz ölkəsini sənin əlindən ala bilməyibsə onda mənim adamım sənin xidmətinə gələcək, xalat və qala hakimliyinin hökmünü sənə gətirəcək. Biz də sənə xidmət yolunu tutacağıq. Amma əgər siz yalan deyirsinizsə və bizim mürşidi-kamilimiz zülfüqara oxşar qılıncı ilə, sipər və kamanı ilə bir daha günəş kimi dövlət üfüqündən parlasa, mən yenə də həmin ocağın bəndəsi və qulamı olacağam" (261).

Bu cavabı alandan sonra Sultan Səlim vəzirlərini və əyanlarını toplayıb onlarla müşavirə keçirdi və həmin müşavirədə nə etməyin lazım olduğu barədə məsləhətləşdi. Adları çəkilən mənbələrin məlumatına görə, Yusif xəlifənin 300 nəfərlik qoşun dəstəsi var idi və Varsağ qalası da çox möhkəm bir qala idi. Qalanın kifayət qədər möhkəm olması Sultan Səlimi sual qarşısında qoymuşdu. Vəzirlər və əyanlar da qalanın möhkəm olmasından xəbərdar idilər. Lakin qoşunların ərzağının qurtarması onları məcbur edirdi ki, Varsağ qalası alınsın və orada mövcud olan ərzaq ehtiyatlarından istifadə olunsun. Bundan başqa Varsağ qalası Təbrizə məsafəcə yaxın idi və bu baxımdan hərbi əhəmiyyət kəsb edirdi. Ona görə Sultan Səlim qalanın ələ keçirilməsi əmrini verdi və onun işarəsi ilə Varsağ qalası mühasirəyə alındı. Bu mühasirənin bir nəticəsi olmadı. Onda Sultan Səlim topların işə salınması göstərişini verdi (262).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində sonradan Yusif Varsağın və onun qardaşlarının gecə ikən Osmanlı qoşunları düşərgəsinə girməsi, onların hətta maneəsiz şəkildə Sultan Səlimin çadırına girməsi, qala daxilində vəziyyət mürəkkəbləşəndə Şah İsmayılın köməyə gəlməsi və qalanın müdafiə olunması haqqında məlumatlar vardır ki, bu məlumatların obyektivliyi müəyyən şübhə doğurur. "Aləmara-yi Səfəvi" əsərində hətta Şah İsmayılın Kəmax qalasından Sultan Səlimin elçi vasitəsilə xəbər göndərməsi bildirilmiş və həmin xəbərin mətni də verilmişdir.

Yaxşı məlumdur ki, Kəmax qalası Osmanlı qoşunları tərəfindən işğal olunmuşdu və hətta bu qalanın işğal olunması münasibətilə Sultan Səlim Misir hakimi Qansu Quriyə məktub da göndərmişdi. Həmin məktubda Sultan Səlim yazırdı: "...Bu ilin iki ayında baş vermiş iki fəthdən, yəni əcəmin (qeyri-ərəb məmləkətlərinin) fəthindən sonra şəhərlərimizin ən böyüklərindən olan Amasiyaya qayıdaraq orada qışa qədər qaldıqdan sonra yaz fəslində rəbiül-əvvəl ayının beşi, cümə axşamı müzəffər ordumuzla ilk olaraq dinsiz rafizlərin (şiələrin), - Allah onlara lənət eləsin, - əlində olan Kəmax qalasına yönəldik. Rəbiül-axır ayının 5-i şənbə günü alaya hücum etdik. Güclü qapı döyənlər və qüvvətli mancanaqlarla qalanı dağıtmağa başladıq və çoxlu sayda ordu ilə qalanı mühasirəyə aldıq. Günorta vaxtı gəlib çatanda döyüşçülərimizin bəzisi qala qüllələrinə çıxaraq fəth bayraqlarımızı əzəmətli qüllələrə sancdılar. Qala divaralrının əksəriyyəti məhv edildi və əsgərlərimiz dəstə-dəstə içəri daxil oldu və evlərin qapılarını açaraq param-parça etdilər. İnsanları gizləndikləri yerlərdən çıxardılar, ataları oğullardan və qızlardan ayırdılar. Mal-mülklərini aldılar və boyunlarını

vurdular. [Daha sonra] qalanın divarlarını əvvəlkindən də gözəl şəkildə inşa etdik. Oranı ehtiyac olan qida və başqa hər şeylə tam şəkildə təmin edib vali təyin etdikdən sonra Sivasa döndük" (263).

Sultan Səlim özü də etiraf edirdi ki, Kəmax qalasının sakinlərinə qarşı amansızlıq göstərildi, əhalinin var-dövləti talan edildikdən sonra qətlə yetirildilər.

"Tarix-i aləmara-yi Abbasi" əsərindən yuxarıda gətirilmiş iqtibasda bildirilirdi ki, Kəmax qalasını ələ keçirdikdən sonra Sultan Səlim Əlaüddövlə Zülqədərin üzərinə qoşun çəkdi. Əlaüddövlə Zülqədərin hakim olduğu dövlət Osmanlı, Misir və Səfəvi dövlətlərinin arasında yerləşirdi. Bu dövlətlərin hər biri güclü dövlətlər idi və ona görə də Əlaüddövlə Zülqədər hər vasitə ilə bu dövlətlərlə münasib əlaqələr saxlamağa çalışırdı. Osmanlı sultanları çalışsalar da Əlaüddövlə Zülqədəri bütünlüklə öz tərəflərinə çəkə bilmədilər. Səfəvi dövləti üzərinə hərbi yürüşü başlayarkən Sultan Səlim bölgədəki mövqelərinin daha da möhkəmləndirilməsi üçün Əlaüddövləyə də qoşunları ilə ona qoşulmağa və Şah İsmayıla qarşı müttəfiq olmağa çağırdı. Bununla Sultan Səlim bir tərəfdən öz qüvvələrini möhkəmləndirməyə çalışırdısa, digər tərəfdən də Əlaüddövlənin arxada qalmasından ehtiyat edirdi. Səfəvi hüdudlarına daxil olandan sonra Əlaüddövlənin Osmanlı sultanlığına qarşı hər hansı bir fəallığa başlaması Osmanlı qoşunlarını çətin vəziyyətə sala bilərdi. Əlaüddövlənin isə Şah İsmayıl ilə müəyyən normal münasibətləri mövcud idi və ona görə ona qarşı müharibədə iştirak etməkdən imtina etdi. O öz mövqeyini Sultan Səlimə açıq şəkildə bildirməsə də, yaşının çoxluğuna görə Səfəvi dövlətinə qarşı hərbi yürüşdə iştirak etmək imkanında olmadığını bəyan etdi. Çaldıran döyüşündən sonra Əlaüddövlə ilə Şah İsmayıl arasındakı münasibətlər daha da yaxşılaşdı. Hətta Əlaüddövlə Osmanlı sərhədi boyunca, Osmanlı hüdudlarında Osmanlı qoşunları üçün ərzaq toplanmış anbarlara hücum etdi və bununla, Şah İsmayıla qarşı daha ılıq münasibətdə olduğunu ortaya qoydu. Güman edilir ki, Əlaüddövlə qoşunlarının Osmanlı hərbi anbarları üzərinə hücumu Şah İsmayılın xahişi ilə baş vermişdi. Bununla, Şah İsmayıl Osmanlı qoşunlarının təchizat vəziyyətini daha da zəiflətmək istəyirdi. Yəni mövcud olan münasibətlər Sultan Səlimi məcbur etdi ki, Əlaüddövlə üzərinə qoşun çəksin və onun ərazilərini də Osmanlı hüdudlarına qatsın (264).

Əlaüddövlə Zülqədərin qorxulu fəaliyyətinə birdəfəlik son qoyulması üçün 1515-ci ilin iyun ayının əvvəllərində onun üzərinə böyük bir Osmanlı qoşun dəstəsi göndərildi. Bu qoşun dəstəsinə Çaldıran döyüşündə fəal şəkildə iştirak etmiş Sinan paşa rəhbərlik edirdi. Əlaüddövlə üzərinə hücumda onun qardaşı oğlu Əli bəy Şahsuvaroğlu da iştirak edirdi. Əli bəy də, onun atası Şahsuvar bəy də Əlaüddövlə ilə müxalifətdə idilər və Əlaüddövləyə qarşı mübarizə aparmaq üçün Osmanlı sarayına sığınmışdılar. Osmanlı dövləti ilə yaxşı münasibətlərdə olduğu üçün Şahsuvar bəy Misir hakimi tərəfindən edam olunmuşdu. Bundan sonra Əli bəy bütünlüklə Osmanlı sultanlarına xidməti qəbul etmişdi. Çaldıran döyüşündə Əli bəy Şahsuvaroğlu da iştirak edirdi və fəallığı ilə Sultan Səlimin rəğbətini də qazanmışdı. Çaldıran döyüşündən sonra Sultan Səlim onu

Əlaüddövlənin sərhədləri boyunca yerləşən Qeysərinin hakimi təyin etmişdi. Sinan paşa 40 min nəfərlik qoşun dəstəsi ilə Əlaüddövlə Zülqədərin üstünə hücum çəkəndə Əli bəy Şahsuvaroğlu da öz dəstəsi ilə ona qoşuldu. 1515-ci il iyun ayının 16-da Göysu adlanan yerdə Osmanlı qoşunları ilə Əlaüddölə qoşunları arasında döyüş baş verdi. Bir tərəfdən yaşı 90-nı ötmüş Əlaüddövlənin kifayət qədər ləng hərəkəti, digər tərəfdən də Osmanlı qoşunlarının sayca çoxluğu və onların daha güclü olması döyüşün gedişinə həlledici təsir göstərdi. Əlaüddövlə məğlub oldu. Onun başı kəsilərək Misir hakimi Qansu Quriyə göndərildi, hakim olduğu ərazilər isə qardaşı oğlu Əli bəy Şahsuvaroğlunun hakimiyyəti altına verildi. Bəzi məlumatlara görə, Əlaüddövlə bu döyüşü uğurla başa çatdırmaq üçün Şah İsmayıldan kömək istəmişdi. Amma Şah İsmayıl ona kömək göndərmədi. Çünki Şah İsmayıl hələ də Mir Əbdülvahabın rəhbərliyi altında Sultan Səlimin yanına göndərdiyi elçiliyin gətirəcəyi xəbəri gözləyirdi. Güman edilir ki, Şah İsmayıl Osmanlı sultanı ilə yeni münasibətlərin qurulacağına ümid edirdi və ona görə də ondan xəbər almamış yenidən ona qarşı cəbhə tutmasına ehtiyat edirdi (265).

Əlaüddövlə üzərində əldə edilmiş uğur barəsində Sultan Səlim Misir hakimi Qansu Quriyə göndərdiyi məktubunda belə yazırdı: "...Qeyd olunan məmləkətə çatdıqdan sonra bu dəfə Zülqədəriyyə məmləkətinə tərəf yola çıxmaq qərarına gəldik. Bu zaman ordunun rəhbəri Rumeli vilayəti əmirlərinin ən böyüyü və hazırda vəzirim olan Sinan paşa oldu. O, ötən ayın 22-də çərşənbə axşamı hərəkət etdi və qeyd olunan ayın axırlarında düşmənə (düşmən elinə) çatmış oldu. Onlarla müharibəyə başladı və onları ağır məğlubiyyətə düçar etdi. Cəmadiəl-əvvəl ayının əvvəllərində çərşənbə günü o məmləkətin kənarında yerləşən və müharibənin baş verdiyi yerin yaxınlığındakı məşhur liman Kuzguna yaxınlaşdıqda [Sinan paşa] tərəfindən bir müjdə verən (elçi) gələrək arzuların həyata keçdiyi və şərəfsiz düşmənin məğlub olduğu xəbərini verdi və o tayfanın başçısı Əlaüdövlənin və əlliyə yaxın övlad və əmirlərin başlarını gətirdi. Biz də sırf sevincdən və ifrat dərəcədə şadlıqdan məğlub (zəlil) olmuş əmirin başını sizin də sevincinizə və şadlığınıza səbəb olması üçün Qahirə divanına göndərdik.

Sizin gözəl əxlaqınızın gözəlliyindən arzumuz budur ki, bu açıq-aşkar fəthi müvəhhidlər (Allahın birliyinə inananlar) ölkəsinin bütün bölgələrində və şəhərlərində elan edəsiniz. Yüksək xidmətlərinizə məlum olsun ki, artıq Qüstəntiniyyəyə (İstanbula) geri döndük və gələn il Şərq məmləkətlərini idarəçilik altına almaq və rafizi (dindən çıxmış) qızılbaşların, - Allah onların kökünü kəsib məhv etsin, - geri qalan qılınclarının təhlükələrinin qarşısını almaq qərarına gəldik" (266).

Bu məktubda Sultan Səlim bir daha onun iradəsini qəbul etməyənlərə qarşı amansız olmasını etiraf etməklə Səfəvi kampaniyasını başa vuraraq İstanbula qayıtmasını, həm də yenidən Səfəvi dövləti üzərinə hücum edəcəyini bəyan edirdi. Onun bu qərarından Şah İsmayılın xəbərdar olmasını söyləmək çətindir. Bununla belə, Şah İsmayıl məmləkətin qərb sərhədləri boyunca baş verənləri izləyirdi, Sultan Səlimin sərhəd xətti boyu işğalçılığını müşahidə

edirdi. Lakin Sultan Səlimə qarşı qətiyyətli tədbirlər həyata keçirmirdi. Əksinə, Şah İsmayıl Osmanlı sultanı ilə barış yaradılması və iki dövlət arasında yeni münasibətlər göstərilməsi üçün bir daha cəhd göstərdi. Sultan Səlim İstanbula yetişəndən sonra Şah İsmayıl onun yanına növbəti elçiliyini göndərdi. Bu elçiliyə Kəmaləddin Hüseyn bəy və Bayram ağa daxil idilər. Onlar Sultan Səlimə Şah İsmayılın məktubu ilə bərabər, həm də çoxlu sayda qiymətli hədiyyələr apardılar (267).

Şah İsmayılın məktubunun əvvəlində Sultan Səlimin şəninə uzun-uzadı təriflər yazılmışdı. İki dövlət arasında müharibənin yenicə tamamlandığı bir vaxtda Sultan Səlimin təriflənməsi ifrat görünə bilər. Amma Şah İsmayıl dövrün ənənələrinə uyğun olaraq məktubunu belə başlamışdı. Səfəvi şahı Sultan Səlimə göndərdiyi məktubda onun atası Sultan Bəyazidlə yaxşı münasibətlərə toxunur və həmin münasibətlərin iki dövlət arasında dostluq səviyyəsinə qalxmasına səbəb ola biləcəyinə ümidlə yanaşdığını bildirirdi. Şah İsmayılın məktubunda iki dövlət arasında dostluq münasibətlərinin yaradılması əsas fikir kimi ortaya qoyulmuşdu. O, Qurandan da iqtibaslar gətirməklə sülhün daha xeyirli olması fikrini qarşı tərəfə çatdırmağa çalışırdı. Məktubda həmçinin Mir Əbdülvahabın rəhbərliyi altında Səfəvi elçiliyinin Sultan Səlimin yanına göndərildiyi və bu elçiliyin uğurla başa çatacağı ümidləri də öz əksini tapmışdı. Lakin Şah İsmayıl bu elçiliyin geri qayıtmadığını və nətəcədə iki dövlət arasında dostluq münasibətlərinin bərqərar olmadığını təəssüflə qeyd edirdi.

Çaldıran döyüşündən sonra Şah İsmayılın Sultan Səlimə göndərdiyi məktubun mətni belə idi: "Uca məqamın, yüksək ləyaqətin ağası, səltənətin sığınacağı, ədalətin tutacaq yeri, ucalığın günəşi, Cəmşid [kimi] məqam [sahibi], Firudin kimi şanlı, İsgəndər kimi fateh, məmləkətləri bəzəyən Dara, Zöhrə ulduzu kimi faydalı, Bərcis kimi uca, ən böyük sultanların iftixarı, ən əzəmətli xaqanların yardımçısı, din və dünya bayraqlarının daşıyıcısı, İslam və müsəlmanların himayədarı, ədalətli fərmanları üfüqlərə yayılmış, ləyaqət üfüqlərində mürüvvət müjdələri görünən, dünyaların sahibi olan Allah tərəfindən yardım olunmuş, səltənətin, ədalətin, əzəmətin, qüdrətin və səadətin yardımçısı olan Sultan Səlim şah!

Allah hakimiyyətinin və səltənətinin bərəkətini əbədi və öz mükəmməl lütfü və ehsanı ilə [sənə] yardım etsin! Günlərinin təravəti və gül bağçalarının yaşıllığının, həqiqət və səmimiyət əhlinin düşüncələrinə səfa verən, sədaqət və dostluq əhinin ürəklərini ruhlandıran, ürəyə yatan mehinin ruhu canlandıran və fəth qapılarının açarı olan və "Həqiqətən Rəbbinizin zəmanənizin bəzi günlərində (qəlblərinizi rahatlayacaq) əsintiləri var" [hədisində qeyd edilən] nurlardan (mənəvi anlardan) iqtibas edilmiş məhəbbət dolu gözəl duaların ən şərafətlisi, sevgi dolu xoş niyyətli xeyir-duaların ən gözəlləri sizə itfah olunaraq hədiyyə göndərilir. Nurlu daxilimdən gələn məhəbbətin nuru bundan ibarətdir ki, mərdlik və igidlik əlaqəsinin vəziyyətini tamamlayan və ata-oğul münasibətinin təsirlərinin tələbindən doğan məhəbbət və səmimiyyətin davamlılığı, dostluq və sevgi qaydalarının möhkəmliyi, keçmiş zamanlarda ən mükəmməl [surətdə idi]və cənnətməkan atan, - Allah onun günahlarını bağışlasın, -

tərəfindən doğru şəkildə həyata keçirilməsi o dərəcədə qorunur və icra olunurdu ki, hər zaman dünya sultanlarının həsəd aparmasına və ölkələrin xanlarını qibtə etməsinə səbəb olurdu. Bu dost, uca təbiəti və əsalətli fitrətinin tələbinə uyğun olaraq, şübhə əhli və düşmənlərlə mübarizə edərək onları geri oturdar, üsyan edənlər və zalımların kökünü kəsmək və məhv etməklə məşğul olardı. Heç bir halda onun tərəfindən müxalifətçilik ehtimalı və düşmənçilik nişanələri təsəvvür olunmamış və düşünülməmişdir. Əksinə, həmişə miras qalmış səmimi məhəbbət ayinlərinin ehyası və sultanlar nəslinin izzətli övladları arasındakı yəqin üzərinə qurulmuş qədimi dostluq bayraqlarını ucaltmaq, cənnət məkan xilafət məqamlı (II Bəyazidin) bu dosta (Şah İsmayıla) münasibətində özünü göstərir, günəşin parlaq şüaları da düşüncə və qəlb aynasına onun [vasitəsilə işıq] saçrdı. Düşüncələr və fikirlərimizin arxasında gizlənən anlayışın mənası bu idi ki, əgər səltənət və məmləkətlə əlaqədar əhəmiyyətli işlər o həzrətin (atanızın) ədalət və insafı sayəsində həyata keçirilərək tənzimlənərsə, "ataların dostluğu övladların yaxınlığıdır (övladların yaxın olmasına səbəb olar)" kəlamına əsasən gücləndirilməsi hər iki tərəfin dövlət və millət işlərində, dini və dünyəvi məsələlərdə müvafiq yardım vəzifələri və yardım üçün həmrəylik vasitələri aşkara çıxarmaqla sübuta yetsin. Necə ki, dostlara [qarşı] düşmənçilik və başqlarının işinə müdaxilə etmə düşüncəsi, təəssüb və mübarizə təsəvvür etmək qəribədir. [Halbuki] ixtilafın səbəbi fitnə-fəsad əhlini fitnəkarlığından, kin-küdurət və düşmənçilik hissi bəsləyənlərin təhrikindən başqa bir şey deyildir. Yalan danışanların batil sözləri, qorxusuz və qərəzli faydasızların uydurmaları qeybi nurların saçdığı eybsiz düşüncə aynanızı ləkələmişdir. Miras qalmış və möhkəmlənmiş saflıq və vəfalı olmaq düşüncəsinin mənasını özündə əks etdirən parlaq şəxsiyyətinizə baxmayaraq, kəramətli təbiətiniz və qədim dostluqdan təəccüb doğuracaq şəkildə tam üz döndərdiniz. Təsis olunmuş möhkəm sütunlara malik qaydalara və tənzimlənmiş qüvvətli ayaqlar üzərinə qurulmuş qanunlara baxmayaraq, [uydurulmuş] sözlərin təsirinə düşmək və düşüncələrin dəyişilməsi mümkün imiş. Buna görə də haqqınızda bu məmləkətdə nə qədər dostluğa zidd və insafsız xəbərləri eşidilsə də, qəti şəkildə etimad edilmir və görməzdən gəlinirdi. Bu sözün doğru olduğunun nümunəsi budur ki, sizin də eşitdiyiniz kimi o vaxt ətraf bölgələrdən əsgər toplanmadı, (aldığımız) o xəbərlərin həqiqi olduğunu anladıqdan sonra bir dəstə süvari əsgər və Diyarbəkr ətrafından toplanan az sayda insanla təcili qarşılaşmaq üçün yola çıxdıq. Qəza və qədərə əsasən qeybi səhifələr üzərinə yazımış olanlar maddi aləm səhnələrində həyata keçmiş oldu. Riyaddan qayıdan zaman onların hal-əhvalından xeyirxahlıq nəsimini qoxulamaq və islah etmənin xoş ətrini duyduğum üçün bütün fəaliyyət və niyyətimizi ölkələrin təhlükəsizliyi və (Allah) bəndələrinin rahatçılığına sərf və həsr etdik. İslam hüdudlarını qorumaq, düşüncə və niyyət xəzinəmizdə əsas yer tuturdu. Dindar sultanlar arasında ixtilaf, din və iman düşüncəsinin zədə almasına küfr və günah əhlinin cürət və cəsarətlənməsinə səbəb olur. "İki qardaşdan sülhə nail olmaq üçün keçən, cənnətə daxil olmaqda da önə keçər" gerçəyinin tələbinə görə, qardaşlıq hüquqları və məhəbbət əsaslarını qorumaq naminə dostluq

şüarları göndərmək və razılaşma nümunələri hədiyyə etməklə ilk addımı ataraq "sülh daha xeyirlidir" ["ən-Nisa" surəsi, 158-ci ayə], "əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın" ["əl-Hucurat" surəsi, 9-cu ayə] və "fitnə-fəsad törədələrin yolu ilə getmə" ["əl-Əraf" surəsi, 142-ci ayə] ayələrinin hidayətedici xoşbəxt məzmununa [uyğun olaraq] birlik əsaslarını təsis etmək, ədavət və düşmənçiliyi aradan qaldırmaq məqsədi ilə səltənətə xeyir və fayda verən, himayə edici rəhbər və sərdar, xəbərdarlıq edən rəhbər, diqqət yetirməyin səbəbi, ağalıq və dinin nuru olan əmir Əbdülvəhhabı sizin yanınıza göndərməyə layiq hesab etmişdik. İntizarımız bu idi ki, bütün xalqın və İslam əhlinin mənafeyinin tənzimatçısı olan adı çəkilən şərəf hamisini tezliklə geri göndərib keçmişdə olduğu kimi layiqli formada zati (fitrətimizdə olan) birlik xüsusiyyətlərini izhar edəcəksiniz indi həmin hadisədən bir müddət keçsə də, lakin dostluqdan bir əsər görünmür. Ağlımızdan belə bir fikir keçdi ki, bu əsnada hər iki tərəfin sərhədlərinə hücum edib, bəzi hərəkət etmələri həmin alicənabın yanlış anlaşılmasına və [nəticə etibarı ilə] sizin onu ləngitməyinizə və saxlamağınıza səbəb olmuşdur.

Buna əsasən baş verənlər haqqında təfsilatı ilə xəbərdar olan, xanədanımıza sadiq olanlar cərgəsində yer almış etimad edilən uca əmir və yüksək zənginlik sahibi Kəmaləddin Hüseyn bəyə və insanların dirəyi Bayram ağaya fürsət düşdükcə [baş verənləri] diqqətinizə çatdırmaq həvalə edildi.

Yəqin ki, bütün canlıların məsləhətləri və İslam əhlinin işlərinin tənzimlənməsini göz önünə gətirib səmimiyyət qapılarının açılması və dostluq əsaslarının yayılması üçün (lazımi) vəsait və məktublar göndərəcək, qafilə və karvanların hərəkətinə icazə verəcəksiniz. Elçilər göndərmək, məktublar yazmaq, yazışma və müzakirələri artırmaqla həqiqi niyyətimiz bütün canlıların və bütün rəiyyətlərin təhlükəsizliyini düşünməkdən başqa bir şey olmayıb və olmayacaqdır da. Allahın sonsuz inayətinə inanmaq və təmənnasız kəraminə etimad etmək təsəvvür olunacaq digər düşüncələrdən daha yüksəkdir. Əbədi və sonsuz dua və salavat Məhəmməd və onun övladlarının olsun. Təbriz yurdu" (268).

Çaldıran döyüçündən əvvəl Sultan Səlimin göndərdiyi məktublara qarşı biganəlik nümayiş etdirən Şah İsmayılın Çaldıran döyüşündən sonra Osmanlı sultnına bir-birinin ardınca iki elçilik və iki məktub göndərməsi özlüyündə sual və maraq doğura biləcək bir hadisədir. Bu dəfə yazışmalara qarşı biganəliyi Sultan Səlim göstərdi. Həmin biganəliyin Sultan Səlimin Səfəvi kampaniyası ilə bağlı gözləntilərinin həyata keçməməsi ilə bağlı olduğunu və ya Şah İsmayıla qarşı dümənçiliyin ifadə forması olmasını söyləmək çətindir. Şah İsmayılın isə davamlı şəkildə Osmanlı sultanına məktub göndərməsinin və həmin məktublarda da sülhün və dostluğun bərqərar edilməsinə təkid göstərməsinin arxasında yeni müharibənin qarşısının alınması olduğunu da birmənalı şəkildə söyləmək çətin olardı. Çünki Şah İsmayıla yaxşı məlum idi ki, Sultan Səlim, Səfəvi dövlətini çökdürmək potensialına malik deyildir və Sultan Səlimin yenidən Səfəvi dövlətinin dərinliklərinə doğru irəliləmək cəhdi onun özü üçün çox ağır nəticələrə gətirib çıxara bilər. Əslində, Sultan Səlim də bunu bilirdi və ona görə

sonradan bir daha Səfəvi hüdudlarının dərinliklərinə doğru istiqamət götürmədi. Digər tərəfdən Sultan Səlim qoşunları və əyanları arasında Səfəvi dövlətinə qarşı müharibə aparılması məsələsində fikir və əməl yekdilliyini təmin etməkdə çətinlik çəkirdi. Belə olduğu halda Şah İsmayılın təkidlə Sultan Səlimə sülh təklifi etməsi çox güman ki, ya qərb sərhəd xətti boyunca olan məntəqələrin işğalının qarşısının alınması istəyi ola bilərdi, ya da əsir düşmüş xanımının azad edilməsinə nail olmaq istəyi.

Sultan Səlim isə təkidlə Şah İsmayıla qarşı düşmənçilik mövqeyindən əl çəkmək istəmirdi. Yuxarıda qeyd edildiyi kimi, Sultan Səlim, Səfəvi dövləti ilə bağlı öz iddialarını təmin edə bilməmişdi ki, bu da onun qürurundan yan keçə bilməzdi. Çaldıran döyüşünə qədər, Çaldıran döyüşünün gedişində və Çaldıran döyüşündən sonra verdiyi çox böyük itkilərin qarşısında Sultan Səlimin əldə etdiyi yalnız Şah İsmayılın talan olunmuş xəzinəsi idi. Bir də sonradan sərhəd xətti boyunca ələ keçirə bildiyi bir neçə məntəqə. Həmin məntəqələrin ələ keçirilməsi üçün də Sultan Səlim Səfəvi qoşunları ilə yox, yalnız yerli və azsaylı qoşun dəstələri ilə qarşılaşmalı olmuşdu.

Şah İsmayılın növbəti elçiliyi də Osmanlı sarayında yaxşı qarşılanmadı. Sultan Səlim Səfəvi elçisi ilə görüşməkdən imtina etdi. Əvəzində Osmanlı sarayında ali divan çağırıldı. Bu divanda Osmanlı dövlətinin vəzirləri, əyanları və tanınmış sərkərdələri iştirak edirdilər. Divana Kəmaləddin Hüseyn bəy dəvət olundu. Bayram ağa isə divana buraxılmadı. Divan Kəmaləddin Hüseyn bəyi dinlədi və yəqin ki, sonra Sultan Səlimə məlumat verildi. Sultan Səlim divan toplanmasından iki gün sonra Səfəvi elçilərinin həbs oluması barəsində göstəriş verdi. Dövrün diplomatik normalarının ziddinə olaraq belə bir addım atmaqla Sultan Səlim bir daha Şah İsmayıla qarşı düşmən münasibətini ortaya qoydu. Özü də onlar İstanbulda deyil, kənarda, fərqli məkanlarda həbs edildilər. Şah İsmayılın məktubuna isə yenə də cavab verilmədi. Osmanlı mənbələrində Sultan Səlimin Şah İsmayıla qarşı cavab verməməsinin və düşmənçilik mövqeyində dayanmasının səbəbi Anadoluda yaşayan şiə məzhəb əhalinin hələ də Səfəvilər tərəfindən Osmanlı dövlətinə qarşı təhrik edilməsi ilə bağlanılır. Amma tədqiqatçalır belə bir qənaətə gəlirlər ki, Çaldıran döyüşündən sonra Şah İsmayıl Anadolu şiələrinin təhrik edilməsinə diqqət ayırmamışdı (269). Ümumən, Səfəvi elçiliklərinin Osmanlı ərazisində olduğu vaxtlarda Şah İsmayıl hər hansı bir təhrikedici hərəkətə əl atmadı və bununla da Sultan Səlimin əlinə əlavə bir bəhanə vermədi.

## 14.Osmanlı qoşunlarının Səfəvi dövlətinin qərb əyalətləri üzərinə hücumu

Sultan Səlim isə Əlaüddövlə Zülqədərlə döyüşdən sonra Diyarbəkrin işğalına qərar verdi. Diyarbəkrin Osmanlı qoşunları tərəfindən işğal edilməsi "Tarixi aləmara-yi Abbasi" əsərində belə təsvir olumuşdur: "Çaldıran hadisəsindən sonra [Şah İsmayıl] Diyarbəkr hakimliyini Xan Məhəmməd Ustaclunun qardaşı Qaraxana verib, onu o tərəfə göndərdi. O, Mardində qərar tutdu. Qarahəmid adı

ilə tanınan Amid şəhərinin əhalisi xaincəsinə rumiləri çağıraraq, Qəhəri onlara verdi. Qaraxan Mardindən çıxıb, rumilərin gəlişini dəf etməyə getdi. Onun qarşısına beş min adam göndərdilər. O, həmin dəstə ilə vuruşub qalib gəldi. Belə ki, rumilərin əksəriyyəti qətl edildi. [Diyarbəkr] şəhərinin kənarına çatdıqda əhalinin rumilərlə müttəfiq olduğunu gördü. Qalanı almaqdan ümidsiz oldu. Məmləkət rumilərin əlində idi. Onun hakimliyinin ikinci ili olan 922-ci (1516) ildə rumilər iyirmi min piyada və süvari ilə onunla döyüşə gəldilər. O, Qudurmuş sultan Qacarl birlikdə onlarla müharibəyə hazırlaşdı. Mardinin Üləngi-Qoruq [adlı] yerində iki tərəf arasında vuruşma baş verdi. Qaraxan o böyük qoşuna qalib gəldi. [Amma düşməni] təqib edən zaman bədbəxtlikdən ona bir tüfəng gülləsi dəydi, atdan düşərək can verdi. Bu haldan qızılbaşlar pərişan oldular, rumilər [isə] açıq-aşkar basılma və məğlubiyyətdən sonra qələbə çaldılar. [Onlar] xondgardan yardım alaraq, Diyarbəkr [vilayətini] ələ keçirdilər. Qızılbaşların əli o vilayətdən üzüldü. Bu xəbərlər Süleyman çanlı xaqana çatdıqda Qaraxana yardım üçün bir dəstə təyin etmişdi. Lakin o öldürüldükdən sonra bundan vaz keçdi" (270).

Səfəvi sərhədi boyunca yuxarıda adları çəkilən məntəqələrin işğalından sonra Diyarbəkrin işğalı da Osmanlı sarayı üçün strateji əhəmiyyət kəsb edirdi. Çünki Diyarbəkr işğal edilmədən Osmanlı sarayı üçün bölgənin etibarlı təhlükəsizliyinin təmin edilməsi çətin ola bilərdi. Diyarbəkr və onun ətrafı Səfəvi dövləti üçün də satrateji əhəmiyyət kəsb edirdi. Bu bölgənin əldə saxlanması Səfəvi dövlətinin təhlükəsizliyi üçün də əhəmiyyətə malik idi. Şah İsmayıl Diyarbəkr və onun ətrafında toplanan qoşun qüvvələrini də Çaldıran döyüşünə cəlb etmiş, Diyarbəkr hakimi Məhəmməd xan Ustaclı isə Çaldıran döyüşündə qoşunların sol cinahının rəhbəri təyin edilmişdi. Məhəmməd xan Ustaclı bu döyüşdə şəhid olandan sonra onun qardaşı Qaraxan bəy Diyarbəkr hakimi təyin edildi. Məhəmməd xan Ustaclı məlum olduğu kimi, Şah İsmayılın bacısı ilə evlənmişdi. Məhəmməd xanın şəhid düşməsindən sonra Şah İsmayıl onun yerinə təyin etdiyi Qaraxan bəyə həm xan məqamı verdi, həm də dul qalmış bacısını özünə kəbin etdirməyə icazə verdi. Qaraxan xan da Çaldıran döyüşündən sonra Diyarbəkrə doğru hərəkətə başladı.

Türkdilli mənbələrdə olan məlumatlar da Diyarbəkr ətrafındakı döyüşlərin Qaraxanın hərbi üstünlüyü ilə başlamasını təsdiq edirlər. Sultan Səlim İstanbula çəkilsə də bölgədəki hadisələrin necə cərəyan etməsini və Şah İsmayılın bu hadisələrlə bağlı fəaliyyətini nəzarət altında saxlamağa çalşırdı. Bunun üçün xeyli sayda casuslar təyin edilmişdilər ki, Şah İsmayılın hansı qərar qəbul etməsi və ya hansı tədbirlərə əl atması barəsində sultan sarayında vaxtında xəbər tutulsun. Diyarbəkrin kürdlərlə məskunlaşması və onların sünni məzhəb olması Osmanlı maraqlarına müəyyən dərəcədə cavab verirdi. Güman edilirdi ki, bu əhali Osmanlı maraqlarının qorunmasında öz köməklərini əsirgəməyəcəklər.

Bununla belə, Amid şəhərinin (qalasının) əhalisi heç də dərhal Şah İsmayıla qarşı cəbhə tutmadı. Şəhər əhalisi öz nümayəndələrini Şah İsmayılın yanına göndərdi ki, Səfəvi dövlətinə sədaqətlərini saxlamaqdadırlar. Amma Şah İsma-

yıldan xahiş olundu ki, Qaraxanın yerinə Diyarbəkrə başqa bir adam hakim təyin edilsin. Çünki Diyarbəkr əhalisi Qaraxanla silahlı qarşıdurmada olmuşdu və onun Diyarbəkr əhalisinə qarşı sərt tədbirlər həyata keçirəcəyindən ehtiyat edirdilər. Şah İsmayılın bu xahişə necə cavab verməsi barədə mənbələrdə və tarixi ədəbiyyatda hər hansı bir məlumata rast gəlmək mümkün deyil. Çox tezliklə Qaraxanla Osmanlı qoşunları arasında döyüş başlamasından belə ehtimal etmək olar ki, ya bu xahiş Şah İsmayıla geç çatdı, ya da Şah İsmayıl təklifi qəbul etmədi və Qaraxanın yerinə başqa birisini Diyarbəkr hakimi təyin etmədi. Hər halda Qaraxan Səfəvi şahına yaxın olan bir adam idi və həm də kifayət qədər cəsur bir insan idi.

Qaraxanın 5 min nəfərik qoşun dəstəsi ilə Diyarbəkr ətrafına gəlməsi haqqında məlumat alan kimi Sultan Səlim Bığlı Məhəmməd kimi tanınan Məhəmməd paşanın rəhbərliyi altında bölgəyə qoşun dəstəsi göndərdi. Osmanlı sultanı eyni zamanda Əli bəy Şahsuvaroğluna da göstəriş verdi ki, sərəncamında olan qoşun dəstəsi ilə bölgəyə yollansın və Bığlı Məhəmmədlə birlikdə Qaraxana qarşı döyüşdə iştirak etsin. Osmanlı sultanına sədaqət nümayiş etdirən bəzi kürd tayfa başçılar da öz dəstələri ilə birlikdə Osmanlı qoşunlarına qoşuldular. Bütün bunlara baxmayaraq, Osmanlı qoşunları Səfəvi qoşun dəstəsinə üstün gələ bilmədi. Amid şəhəri ətrafında baş verən döyüşdə Osmanlı qoşunları ciddi zərbə aldılar və geri çəkilmək məcburiyyəti qarşısında qaldılar. Bığlı Məhəmməd Amid qalasına pənah apararaq yerli əhalinin köməyi ilə Qaraxanın təhlükəsindən nicat tapa bildi (271).

Bu döyüşün gedişi həm də onu göstərdi ki, yerli əhalinin Qaraxana qarşı etimadsız yanaşması doğru imiş. Belə olmasaydı Bığlı Məhəmməd də Amid qalasına və onun əhalisinə sığınmazdı. Çox güman ki, Diyarbəkr əhalisi həm də Osmanlı qoşunlarının üstün gələcəyinə şübhə etmirdi və ona görə də Osmanlı qoşunlarını dəstəkləməyi məqsədəuyğun sayırdı. Əslində, Sultan Səlim də göndərdiyi qoşun dəstəsinin Qaraxanın qoşun dəstəsinə üstün gələcəyinə şübhə etmirdi. Onun gümanında Səfəvi qoşunlarına artıq ciddi zərbə vurulmuşdu və bu qoşunların yaxın zamanlarda dirçələcəyi mümkün deyildi. Amma eşidəndə ki, Diyarbəkr ətrafına göndərilən qoşun dəstəsi azsaylı Səfəvi qoşun dəstəsi qarşısında uğursuzluğa düçar olub Sultan Səlim son dərəcə qəzəbləndi. Osmanlı mənbələrinin məlumatına görə, Sultan Səlim hətta qəzəbindən sədr-əzəm Hersoqzadənin yaxasından yapışıb ona bir neçə yumruq vurdu, onun yaxasındakı lentləri qoparıb yerə atdı. Sonra da Hersoqzadə və eləcə də saray əyanlarından olan Piri paşanın əlləri bağlanaraq zindana atıldı (272).

Osmanlı qoşun dəstəsinin Diyarbəkr ətrafında Qaraxan tərəfindən məğlubiyyətə uğradılması Osmanlı sədr-əzəminin həbsi və həm də vəzifədən azad edilməsi ilə başa çatdı. Sonradan onun yerinə Yunis paşa təyin edildi və qısa müddətdən sonra Sinan paşanın rəhbərliyi altında Diyarbəkrə daha böyük bir qoşun dəstəsi göndərildi. Bu qoşun dəstəsi kifayət qədər böyük qoşun dəstəsi idi və onun tərkibinə Rumeli, Anadolu və Qaraman bəylərbəyliklərinin qoşun dəstələri, 3000 nəfərdən ibarət olan yeniçəri dəstəsi, habelə digər dəstələr daxil

idilər. Yeniçərilər tüfənglə silahlanmışdılar. Qaraxan belə böyük və təchiz olunmuş qoşun dəstəsinə qarşı cəbhə tutmalı idi. Şah İsmayıl böyük sayda qoşun dəstəsinin Diyarbəkrə tərəf göndərilməsindən məlumat alanda Qaraxana xəbər göndərdi ki, döyüşə girməyə tələsməsin və əlavə qoşun dəstələrinin gəlib çatmasını gözləsin. Bu qoşun dəstəsinin yetişməsi Qaraxanın gücünü xeyli artıra bilərdi. Amma ilk uğurdan ilhamlanmış olan Qaraxan Osmanlı qoşun dəstəsi yetişən kimi ona qarşı döyüşə atıldı və daha Şah İsmayıl tərəfindən göndərilmiş qoşun dəstəsinin yetişməsini gözləmədi. Həmin döyüş Mardin şəhəri yaxınlığındakı Qoç hasarı adlanan məntəqədə baş verdi. Qaraxan həm özü, həm də rəhbərlik etdiyi qoşun dəstəsi bu döyüşdə də Səfəvi qoşunlarına xas olan hünər və şücaət nümayiş etdirdi. Osmanlı qoşunlarının say və təchizat üstünlüyünə baxmayaraq, Qaraxan döyüşün gedişində təşəbbüsü ələ keçirməyi bacardı. Bu döyüşdə onun yenicə nikah etdiyi xanımı, yəni Şah İsmayılın bacısı da iştirak edirdi. Amma Qaraxanın döyüşün gedişində tüfəng gülləsinə tuş gəlməsi və həyatını itirməsi onun rəhbərliyi altında olan qoşun dəstəsində bir çaxnaşma yaratdı. Bu isə son nəhayətdə Səfəvi dəstəsinin geri çəkilməsi və döyüşü uduzması ilə nəticələndi. Qaraxan şəhid olandan sonra onun xanımı bir neçə Səfəvi döyüşçüsünün müşayiəti ilə döyüş meydanından uzaqlaşmağa müvəffəq oldu (273).

Mövcud olan başqa bir məlumata görə, Osmanlı sultanı hələ Diyarbəkr ətrafında döyüşlərə başlamazdan əvvəl əslən kürd olan İdris adlı bir nəfəri kürdlər yaşayan məntəqələrə göndərdi. İdris, Osmanlı sarayı ilə yaxın münasibətlərə malik idi və Sultan Səlim güman edirdi ki, Diyarbəkr ətrafındakı kürd tayfalarının Şah İsmayıla qarşı qaldırılmasında İdris əhəmiyyətli rol oynaya bilər. İdris də dərhal bölgəyə yollandı və bölgə kürdlərinin Osmanlı sarayına sədaqət ətrafında səfərbər edilməsi üçün müəyyən işlər gördü. Diyarbəkrin yeni hakimi təyin edilmiş Qaraxanın bölgəyə gəlməsi də kürdlər arasında Səfəvi dövlətinə qarşı təbliğat işlərinin apardığı vaxta təsadüf edirdi. Məlumata görə, Qaraxan əvvlcə Diyarbəkri mühasirə etdi. Lakin bu mühasirəni başa çatdıra bilmədi. Çünki Diyabəkir əhalisi Osmanlı sultanından kömək istədi və Osmanlı qoşun dəstələrinin yetişməsi ilə Qaraxan da Diyarbəkrin mühasirəsindən əl çəkmək məcburiyyətində qaldı. İstinad olunan məlumata görə, bir müddətdən sonra Qaraxan yenidən Diyarbəkri mühasirəyə aldı. Bu dəfə də yerli əhali Səfəvi qoşunlarının hücumunun qarşısının alınması üçün Osmanlı sarayına müraciət etdi. Bu dəfə də Osmanlı sultanı Diyarbəkr əhalisinin xahişi əsasında hərbi qüvvə göndərdi. Yeni Osmanlı qüvvələri bölgəyə yetişəndən sonra Qaraxanın müqaviməti qırıldı və Səfəvi qoşun dəstəsi geri çəkilməli oldu. Sonra Osmanlı qoşunları Mardin şəhərini mühasirəyə aldılar. Mardin şəhəri kifayət qədər güclü müdafiə imkanlarına malik idi və ona görə də onun alınması Osmanlı qoşunları üçün ciddi çətinlik yaradırdı. Amma bildirilir ki, Mardin sakinləri də İdris vasitəsilə Osmanlı qoşunları ilə əlaqə yaratdılar və onların şəhərə daxil olması üçün zəruri köməklikləri göstərdilər. Bununla, Mardin şəhəri də Osmanlı qoşunlarının işğalı altına düşdü (274).

Bir başqa məlumatda isə bildirlir ki, böyük sayda Osmanlı qoşun dəstəsi yetişəndən sonra Qaraxan Mardin ətrafından geri çəkilmək məcburiyyətində qaldı və ona görə də Mardin Osmanlı qüvvələrinin nəzarəti altına düşdü. Məlumatlara görə,, Mardin şəhəri nəzarət altına alınandan sonra Osmanlı paşaları arxayınlaşaraq qoşun dəstələri ilə geri çəkildilər. Bundan dərhal istifadə edən Qaraxan Mardin qalasını yenidən mühasirəyə aldı və qalanı ələ keçirdi. Mardinin yenidən Qara xan tərəfindən nəzarət altına alınması xəbəri Sultan Səlimə yetişəndə o daha böyük bir qoşun dəstəsini bölgəyə göndərmək qərarına gəldi. 20 min nəfərdən ibarət olan bu qoşunlara Qaraman hakimi Xosrov paşanın, Kemax qalasının hakimi Əhməd paşa Qaraçinoğlunun, Sinan paşanın və Bali ağanın rəhbərliyi altında olan qoşun dəstələri daxil oldular. Bu qoşuna min nəfərlik tüfəngçilər dəstəsi də əlavə edildi. Bütün bu qoşun Diyarbəkrə doğru istiqamət götürdü. Bildirilir ki, Şah İsmayıl da Qaraxana kömək göndərə bildi. Amma bu kömək 600 nəfərlik bir dəstədən ibarət idi. Qaraxan böyük sayda olan Osmanlı qoşunlarının qarşısını saxlamağa qadir olmayacağnı gördükdə Mardini tərk edib Kemax qalasına tərəf geri çəkilməyə başladı. Qaraxan yolda ikən onun dəstəsinin təqibinə girişmiş 2 min nəfərlik Osmanlı qoşun dəstəsinə ağır zərbə vurdu və həmin dəstənin üzvlərinin demək olar ki, hamısını qətlə yetirdi. Bu barədə xəbər alınandan sonra Qaraxanın qarşısına Mustafa paşanın rəhbərliyi altında olan daha böyük bir Osmanlı dəstəsi çıxarıldı. Qaraxan və onun dəstəsi bu döyüşü mərdliklə qarşılasalar da uğursuzluğa düçar oldular. Qaraxan özü də bu döyüşün gedişində yaralandı və həyatını itirdi. Qaraxanın şəhid olması bütünlükdə bölgədə hərbi təşəbbüsün Osmanlı qüvvələrinin əlinə keçməsi ilə nəticələndi və çox tezliklə bütün Diyarbəkr əyaləti Osmanlı dövlətinin nəzarəti altına düşdü (275).

Diyarbəkrin Osmanlı qoşunlarının nəzarəti altına düşməsi xəbərindən Sultan Səlim o qədər sevindi ki, qoşun dəstələrindən birinin rəhbəri olan Əli bəy Şahsuvaroğluna 10 min ədəd qızıl sikkə göndərdi. Bundan başqa, Sultan Səlim imzaladığı və möhrünü vurduğu 30 ədəd məktub kağızını hər hansı bir mətn yazmadan Bığlı Məhəmmədə göndərdi ki, o özü bildiyi adamlara bu məktubları göndərsin. Bığlı Məhəmməd bölgədə Osmanlı hakimiyyətinin möhkəmləndirilməsi üçün kürd tayfa başçılarına və nüfuzlu adamlara Osmanlı sultanı adından məktub göndərməklə onları öz tərəfinə çəkməli və ya onların Osmanlı sarayına olan bağlılığını gücləndirməli idi. Bu məqsədinə nail olmaq üçün məktubun mətni də onun tərəfindən yazılmalı idi. Qaraxanın dəstəsi üzərində qələbə Sultan Səlimi o qədər sevindirdi ki, onun başını bədənindən ayıraraq məktubla birlikdə Misir hakimi Qansu Quriyə göndərdi (276).

Qansu Quriyə göndərilmiş məktub əslində bir təhdid məktubu idi və bununla Sultan Səlim onu Osmanlı dövlətinə qarşı hər hansı bir mövqe tutmaqdan çəkindirməyə çalışırdı. Sultan Səlimin Misir hakiminə göndərdiyi məktubunda deyilirdi: "...Kemax qalasından geri döndüyümüz zaman qış fəsli gəlib çatdı və havalar soyudu. [Öz-özümüzə] "bu qışı istirahət edək" - dedik. Bu qərarımızı təsdiqlədikdən sonra səltənətimizin mərkəzinə (İstanbula) geri dön-

dük və yaz gələnə qədər orada iqamət etdik. Müvəhiddlərin kəlməsini (Allah nidasını) ucaltmaq iradəmizin tələbinə uyğun olaraq iti oxlarımızı hazırlayaraq bayraqlarımızı qaldırıb Şərq məmləkətinə doğru yönəldik. Ağ şəhərə gəldikdə nadir hadisələrdən biri baş verdi. Diyarbəkrin baş əmiri Məhəmməd tərəfindən bir müjdəçi gələrək xəbər gətirdi ki, "Şah İsmayıl güclü qorunan Amid, Xarput və digər qalaları və dağları fəth edəndən sonra çoxlu sayda, 20 min və ya daha çox insan toplayaraq onlardan bir hissəsinə Qaraxan kimi tanınan əmiri başçı təyin edib. O (Qaraxan), qohumlarının ən üstünü və əsgərlərinin ən öndə gələnidir. Onunla Bağdad, Həmədan, Hillə, Sultaniyyə, Kəlhor, Səid, Kaşan və Qəzvinin əmirləri də birlikdə göndərib. Adı keçən əmirimiz (Diyarbəkrin hakimi Məhəmməd) bəzi əmirlərlə birlikdə qartalın kiçik quşların üzərinə şığıması kimi onların üzərinə şığıyaraq güclənmələrinin və yayılmalarının qarşısını alıb. Qeyd olunan dəstə onları gördükdə ordunu tənzimləyib və şiddətli döyüş başlayıb. Bu zaman açıq-aşkar fəthin nəsim yeli əsib. Qeyd olunan əzəmətli əmirlər (onları) ağır məğlubiyyətə (həzimətə) uğratmaq qərarına gəliblər...

Qeyd olunan əmirlərin rəhbərləri vasitəsilə həyata keçirilmiş bu ardıcıl baş verən fəthlər və hədsiz xoşbəxtlik xəbərləri [bizə gəlib] çatdıqda sizin uca məclisinizə, məclis üzvlərinin könülləri xoş olsun deyə müjdə göndərməyi zəruri hesab etdik. Bu məqsədlə seçilmiş yaxınlarımızdan olan uca əmir ali-cənabımız Həsəni, Qaraxanın başı ilə birlikdə göndərdik və gül qoxusundan daha gözəl olan salamları (sizə çatdırmaq üçün) ona yüklədik" (277).

Diyarbəkrin və Mardinin işğalı ilə Səfəvi dövlətinin qərb ərazilərinin işğalı başa çatdırıldı. Bu işğal nəticəsində Həsən Keyf, Səncar, Ərğənə, Bircik, Cermik məntəqələri də Səfəvi dövlətindən qoparıldı. Həmin şəhərlərin ələ keçirilməsi ilə İkiçayarası ərazilərin kürdlər yaşayan böyük bir hissəsi Səfəvi dövlətindən qoparıldı və Osmanlı dövlətinin hüdudlarına daxil edildi. Bundan sonra Osmanlı dövləti ilə Səfəvi dövləti arasndakı sərhəd xətti təxminən Urmiya gölü ətrafından başlayaraq Malatiyaya kimi uzanırdı (278).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Qaraxan xanın Diyarbəkrə qoşun çəkməsi haqqında daha geniş məlumatlar vardır. Amma bu məlumatlarda bir sıa təfərrüatlar olsa da, yuxarıdakı məlumatlarla səsləşməyən məqamlar da vardır. Bununla belə, həmin məlumatlar da Səfəvilərin tarixinin öyrənilməsi baxımından elmi-tarixi əhəmiyyət kəsb edə bilər.

Adları çəkilən mənbələrdəki məlumatlara görə, Diyarbəkr ətrafında Osmanlı və Səfəvi qoşunlarının üzbəüz gəlməsi Sultan Səlimin Təbrizdən qayıtması zamanı baş vermişdi və Osmanlı sultanı özü də Diyarbəkr ətrafındakı döyüşlərdə iştirak etmişdi. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əvvəlcə Qaraxanın rəhbərliyi altında olan dəstənin Həsən paşanın qoşun dəstəsi ilə qarşılaşması haqqında məlumat verirlər. Qeyd edildiyi kimi, Məhəmməd xan Ustaclının şəhid olmasından sonra Şah İsmayıl onun yerinə Qaraxan bəyi təyin etdi və ona xan titulu verdi. Qaraxan xan istinad olunan mənbələrin məlumatına görə, 4 min nəfərlik qoşun dəstəsi ilə Diyarbəkrə yollandı. Məlumata görə, Qaraxan, Osmanlı qoşunlarının Təbrizi tərk etməsindən dərhal sonra Diyarbəkrə

doğru hərəkətə başladı. Sultan Səlim Diyarbəkr əyalətinin ələ keçirilməsi üçün əyalətin kürd rəhbərlərindən səmərəli şəkildə istifadə etməyə çalışırdı. Çaldıran döyüşündəki qələbədən sonra Sultan Səlim hətta kürd əmirlərinə fəthnamə də göndərmişdi. Osmanlı sultanı şübhə etmirdi ki, Qaraxanın rəhbərliyi altında olan 4 min nəfərlik qoşun dəstəsi ilə Diyarbəkr qalasına daxil olsa, sonradan bu qalanı ələ keçirmək xeyli çətinləşəcəkdir. Ona görə də qoşun başçılarından olan Həsən paşaya tapşırıq verdi ki, 10 min nəfərlik qoşun dəstəsi ilə Diyarbəkrə yollansın və Qaraxanın Diyarbəkr qalasına daxil olmasının qarşısını alsın. Qaraxan bundan vaxtında xəbər tutdu və hələ Diyarbəkrə çatmamış Osmanlı qoşunları ilə qarşılaşmağı qərara aldı. Bu məqsədlə Diyarbəkrə aparan yol üzərindəki dağ keçidinin uzun dərələrindən birində tələ qurdu, dəstəsini gizlin yerlərdə yerləşdirdi. Osmanlı dəstəsi həmin yerdən keçəndə Səfəvi döyüşçüləri Qaraxanın göstərişi əsasında dərənin girişini də, çıxışını da tutdular və bununla, Osmanlı qoşun dəstəsini mühasirəyə aldılar. Osmanlı qoşun dəstəsi göstərdiyi bütün səylərə baxmayaraq bu mühasirədən çıxa bilmədi və qoşun dəstəsinin döyüçüləri demək olar ki, bütünlüklə məhv edildilər. Bildirilir ki, Qaraxan qətlə yetirilmiş Osmanlı döyüşçülərinin başlarını bədənlərindən ayıraraq onlarda minarələr düzəltdirdi. Osmanlı dəstəsindən ələ keçirilmiş atlar və təchizat isə Səfəvi dəstəsinin gücünü daha da artrdı (279).

Bu hadisə Qaraxanın Diyarbəkrə yetişməsindən əvvəl baş vermişdi. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində daha sonra Məhəmməd xan Ustaclının xanımı olmuş Şah İsmayılın bacısı Pəri bəyim və Diyarbəkrin Qaraxan tərəfindən ələ keçirilməsində onun iştirakı haqqında məlumat verirlər. Bu əsərlərin təsvirinə görə, Məhəmməd xan Ustaclı Çaldıran döyüşünə yollananda Əhməd Çələbi adlı birisini müvəqqəti olaraq öz yerinə təyin etmişdi. O, kifayət qədər yaşlı bir adam idi və Çaldıran döyüşünün nəticələri haqqında xəbər tutanda vəziyyətə uyğun olaraq hərəkət etməyi qərara aldı. Başqa sözlə, Əhməd Çələbi yeni şəraitdə Osmanlı sarayına sığınmağı daha məqsədəuyğun saydı. O, şübhə etmirdi ki, Çaldıran döyüşündən sonra ətraf ərazilər Osmanlı nəzarəti altına düşəcəkdir. Bundan başqa, Əhməd Çələbinin məzhəb baxımından da Osmanlılara yaxınlaşmağa üstünlük verdiyi bildirilir. Çaldıran döyüşünün Səfəvi qoşunlarının uğursuzluğu və ərinin şəhid düşməsi ilə başa çatmasından xəbər tutan Məhəmməd xan Ustaclının xanımı Pəri bəyim dərhal Əhməd Çələbinin yanına adam göndərdi və ondan Təbrizə doğru hərəkət etməyə kömək göstərilməsini istədi. Şah İsmayılın bacısı özünün əsir düşə bilmək ehtimalından ehtiyat edirdi və ona görə Şah namusunun Osmanlı qoşunlarının ayaqları altına düşməsinə yol verməmək üçün Diyarbəkri tərk edib Təbrizə yollanmağı lazım bilirdi. Əhməd Çələbi isə ona kömək göstərməkdən imtina etdi və bildirdi ki, yeni şəraitdə artıq Osmanlı sultanının iradəsi ilə hesablaşmaq lazımdır. Əhməd Çələbi açıq şəkildə söylədi ki, Osmanlı sultanının razılığı olmasa artıq Məhəmməd xan Ustaclının xanımının qalanı tərk etməsinə də icazə verə bilməz və xanımın taleyinə yalnız Osmanlı sultanının Diyarbəkrə gəlməsindən sonra aydınlıq gətirilə bilər. Belə olanda Mahəmməd xanın xanımı Şah İsmayıla məktub yazdı

və bu məktubu adamlarından biri vasitəsilə ona göndərdi. Xanım elçisinə tapşırdı ki, əgər Şah İsmayıl sağdırsa məktubu ona çatdırmaqla yaranmış vəziyyət barəsində ona məlumat versin, Pəri bəyim adından ona söyləsin ki, tez-liklə bölgəyə yetişib onu düşdüyü ağır vəziyyətdən xilas etsin. Şah İsmayıla eyni zamanda Əhməd Çələbinin satqınlığı barəsində də məlumat verilməli idi. Elçiyə tapşırılmışdı ki, Şah İsmayılın şəhid olduğu təqdirdə məktubu qızılbaş əmirlərinə çatdırsın və qızılbaş əmirlərindən xahiş olunsun ki, yaranmış və-ziyyətlə bağlı lazımi tədbirlər həyata keçirsinlər. Pəri bəyim qızılbaş əmirlə-rindən xahiş edirdi ki, əvvəlcə onun vəziyyəti barəsində düşünsünlər və özlərini ona yetirsinlər (280).

Bundan sonra elçi Təbrizə doğru hərəkətə başladı və iki gün yol gedəndən sonra yolda Qaraxanla rastlaşdı. Elçi Diyarbəkrdə yaranmış vəziyyəti və eləcə də Məhəmməd xan Ustaclının xanımının narahatçılığı ilə bağlı məlumatları Qaraxana çatdırdı. Pəri bəyim artıq Qaraxanın xanımı olmalı idi və ona görə də Qaraxan bu xanımın narahatçılığını, əslində, öz ailəsinin narahatçılığı kimi qarşıladı. Elçiyə tapşırdı ki, tez-tələsik geriyə qayıtsın və qala qapılarının onun üzünə açılmasına yardımçı olsun. Elçi də geri qayıdaraq Qaraxanla rastlaşmasını və onun tapşırığını bəyimə çatdırdı. Pəri bəyim elçini yenidən Qaraxanın yanına göndərdi. Qala darvazaları Əhməd Çələbiyə sədaqətli olan qüvvələr tərəfindən yaxşıca qorunurdu və Qaraxanın dəstəsinin bu darvazalardan qalaya daxil olması çətin ola bilərdi. Ona görə də Pəri bəyim qərara aldı ki, xan evinin yerləşdiyi yerdən qala divarları sökülsün və Qaraxanın dəstəsi də gecə ikən hə-min yerdən qala daxilinə buraxılsın. Elçi bu xəbəri Qaraxana çatdırmalı idi. Qa-raxan darvazalardan qalaya daxil olmağın çətin olacağını bilirdi. Ona görə hələ qalaya yetişməmiş qoşunları gizli bir yerdə yerləşdirdi və özü bir neçə nəfərlə qala ətrafının kəşfiyyatını aparmağa yollandı. Elə bu vaxt elçi ona yetişdi və təklif olunan planı onun nəzərinə çatdırdı. Qaraxan bu planı qəbul etdi. Gecə ikən o, bir dəstə ilə qala divarlarının sökülmüş yerindən qala daxilinə yollandı və həmin dəstə ilə daxildən qala darvazalarının açılmasına nail oldu. Bundan sonra onun dəstəsinin əsas hissəsi də qalaya daxil oldu (281).

Adları çəkilən mənbələdə Sultan Səlimin də, sonradan Şah İsmayılın da qoşun dəstələri ilə Diyarbəkrə gəlmələri təsvir olunur ki, bu fakt digər mən-bələrdə təsdiq olunmur. Məlum olan odur ki, Osmanlı qoşunları yuxarıda adları çəkilən əraziləri, o cümlədən Diyarbəkri işğal etdi və bu əraziləri öz hüdudlarına daxil etdi.

### 15. Çaldıran döyüşü və Şah İsmayıl

Elmi-tarixi ədəbiyyatda bəzən Səfəvi dövlətinin qərb ərazilərinin Osmanlı nəzarəti altına düşməsi Çaldıran döyüşünün nəticəsi kimi dəyərləndirilmişdir. Bu qənaətin birmənalı şəkildə qəbul edilməsi doğru olmazdı. Məlumdur ki, dövrün hərb və döyüş ənənələrində iki dövlət arasında aparlan müharibənin taleyinin bir əsas döyüşdə həll edilməsi və ya bu müharibənin taleyinə aydınlıq

gətirilməsi təcrübəsi var idi. Əksər hallarda müharibə edən tərəflərin qoşunları əsas döyüşə çıxarılır və bu döyüşdən sonra məğlub tərəfin süqutu qaçılmaz bir fakta çevrilirdi. Amma Çaldıran döyüşü Səfəvi dövlətinin taleyini həll etmədi. Doğrudur, bu döyüşün Səfəvi dövlətinin gücünün zəiflədilməsinə təsiri inkar edilməzdir. Bununla belə, Çaldıran döyüşü Səfəvi dövlətini süquta uğratmadı. Sultan Səlim Təbriz şəhərinə daxil olsa da Səfəvi dövlətinin ərazilərinə hakim ola bilmədi. Sultan Səlim hətta Təbirzə gələrkən arxada qalan Səfəvi ərazilərinə də öz hakimliyini təmin edə bilmədi. Osmanlı sultanı Səfəvi dövlətinin qərb sərhədində yerləşən qalaları və əraziləri Çaldıran döyüşündəki qələbənin nəticəsi kimi deyil, ayrı-ayrı döyüşlərin nəticəsi kimi işğal edə bildi. Bu ərazilərin işğalı hətta Osmanlı dövləti üçün çox çətinliklə həyata keçdi. Yalnız Səfəvi qoşunlarından əlavə köməyin gəlməməsi və eləcə də Şah İsmayılın sülh istəyində olması Osmanlı qoşunlarına şərq sərhədləri boyunca işğalçılığı davam etdirməyə imkan verdi. Qaraxan xanın rəhbərliyi altında olan qoşun dəstəsindən ağır zərbə alınmasını isə Osmanlı sultanı çox böyük narahatçılıqla yaşadı və yenidən Səfəvi qoşunlarının şücaəti ilə rastlaşmasını o son dərəcə böyük təşvişlə yaşadı. Bir sözlə, Səfəvi dövlətinin qərb sərhədi boyunca olan bir sıra məntəqələrin işğal edilməsi Çaldıran döyüşünün nəticəsi deyildi, Səfəvi dövlətinə qarşı aparılan müharibənin davamının nəticəsi idi. Çaldıran döyüşü Osmanlı sutanının Səfəvi kampaniyasının bir dövrü sayıla bilərdisə, sərhəd xətti boyunca bir sıra məntəqələrin ələ keçirilməsi isə bu kampaniyanın sonrakı dövrü kimi dəyərləndirilə bilər. Həmin kampaniya iki dövlətin sərhədində yeni bir şərait yaratdı. Sultan Səlimin əldə etdiyi ərazilər uzun zaman Osmanlı dövlətinin şərq sərhədinin dəyişməz qalmasına yol açdı (282).

Dövrün müşahidəçilərinin və müəlliflərinin fikrincə, Çaldıran döyüşünün keçirildiyi ərəfədə Şah İsmayılın hərbi gücü hətta Əmir Teymurun hərbi gücündən də yüksək idi və ona görə Çaldıran döyüşündə Səfəvi qoşunlarının uğursuzluğu həmin müşahidəçilər tərəfindən müəyyən təəccüblə qarşılanırdı. Amma müşahidəçilər və müəlliflər Osmanlı qoşunlarının Səfəvi dövlətinə qarşı hərbi yürüşündəki uğuruna da birmənalı yanaşmırlar. Onlar şübhə etmirlər ki, Səfəvi qoşunları ilə bu ağır döyüş olmasaydı, onda bütün Avropa dövlətləri Osmanlı sarayının nəzarəti altına düşəcəkdi (283). Yəni, Səfəvi kampaniyası Osmanlı qoşunlarının gücünə istər-istəməz təsir göstərmişdi və bu da Avropa dövlətləri ilə bağlı Osmanlı sarayının hərbi panlarının həyata keçməsinə müəyyən əks-təsir göstərdi. Yəni, Səfəvi dövlətinə qarşı başlanan müharibə Osmanlı sultanına da ümidində olduğu nəticəni bütünlüklə vermədi və ona görə idi ki, qərb dövlətlərinin təmsilçiləri Çaldıran döyüşünün nəticələrini razılıqla qarşılayırdılar.

Çaldıran döyüşü istər Şah İsmayılın həyatında və hakimiyyətində, istərsə də Səfəvi təriqətinin tarixində bir dönüş nöqtəsi sayıla bilər. Təriqət və dövlət həyatına təsirsiz ötüşməyən bu döyüşün tarixi, xüsusilə, Səfəvi qoşunlarının uğursuzluğu davamlı şəkildə araşdırmaçıların tədqiqat obyekti olmuş və bu gün də tədqiqat obyekti olaraq qalmaqdadır. Müxtəlif prizmalardan qiymətlən-

dirilməklə bu döyüşün Şah İsmayıl üçün uğursuzluqla nəticələnməsinin ən müxtəlif səbəbləri ortaya qoyulmuş və onlar haqqında mövqe və münasibətlər müəyyənləşdirilmişdir. Bu döyüşün uğursuzluqla başa çatdırılmasının elə məqamları vardır ki, hələ də tədqiqatçıların təəccübünü və suallarını doğurmaqdadır və ona görə də təkrar-təkrar bu mövzunun üzərinə qayıdılır. Şübhə yoxdur ki, hələ gələcəkdə də Çaldıran döyüşünün gedişi və onun nəticələri yeni-yeni tədqiqatların mövzusu olacaqdır. Çünki döyüş və hərb sənətinin inkişafı ilə bağlı Çaldıran döyüşünün dəyərləndirilməsinə yeni meyarlardan yanaşılması istisna deyildir.

Bundan başqa Çaldıran döyüşü dünya hərb sənətinin və döyüş məharətinin nadir nümunələrindən biridir. Xüsusilə, Şah İsmayılın bu döyüşün gedişində nümayiş etdirdiyi məharət insan gücünün və məharətinin hüdudsuzluğunun təsdiqi sayıla bilər. Səfəvi şahı öz fiziki imkanları ilə bu gün də insan zəkasının təəccübünə səbəb olacaq bir məharət, şücaət, enerji və döyüşkənlik ortaya qoydu, anlaşılması ənənəvi normalardan və təcrübi qənaətlərdən kənara çıxan bir bacarıqla qəhrəmanlıq göstərdi, çox böyük say üstünlüyünə malik olan qarşı tərəfin qüvvələrini parça-parça edib sağ-salamat döyüşdən çıxa bildi. Qolunun gücündən qaynaq alan qılıncının zərbi ilə Şah İsmayıl yalnız zireh geyimdə olan döyüşçüləri deyil, top zəncirlərini də iki parça etməyə qadir oldu və dünya döyüş məharəti tarixində özünə məxsus olan bir səhifə açdı. Məhz buna görə, Çaldıran döyüşü təkrar-təkrar elmi araşdırmaya cəlb edilir və onun nəticələri ilə bağlı yeni-yeni fikirlər ortaya qoyulur.

Çaldıran döyüşündə Səfəvi qounlarının uğursuzluğuna yol açan bir sıra konkret səbəblər və məsələlər haqqında yuxarıda müəyyən fikirlər söylənilmişdir. Amma istər həmin fikirlər, istərsə də elmi-tarixi ədəbiyyatda olan fikirlər ümumiləşdirlərsə bir-sıra elmi-tarixi qənaətlərə gəlmək mümkündür.

Bu qənaətlərdən biri Şah İsmayılın qoşunların maddi-texniki təchizatına, xüsusilə, odlu silahların istifadəyə qəbul olunmasına qarşı mühafizəkarlığın qalması idi. Doğrudur, Şah İsmayıl Çaldıran döyüşü ərəfəsində qərb ölkələrindən odlu silah almağa cəhd göstərmişdi. Amma bu cəhdlər bir nəticəyə çatmamışdı. Bununla belə, Səfəvi qoşunlarında odlu silaha qarşı mühafizəkarlıq qalmaqda idi. Həmin mühafizəkarlıq da son nəticədə Səfəvi qoşunlarını Osmanlı qoşunları qarşısında ağır vəziyyətə saldı və məhz topların imkanlarından istifadə edilməsi Osmanlı qoşunlarına bu döyüşdə uğur gətidi. Şah İsmayılın topların bir silah kimi mövcudluğundan, onun zərbə gücündən bixəbər olmasın iddia etmək doğru olmazdı. Məlumdur ki, həlı 1503-cü ildə Ağqoyunlu Murada qarşı döyüş zamanı Səfəvi qüvvələri qarşı tərəfdə mövcud olan topların bir hissəsini qənimət götürmüşdülər. Həmin toplar Ağqoyunlu Muradın dəstəsinə Osmanlı dövləti tərəfindən verilmişdi və onların istifadəsi də Osmanlı mütəxəsislərinin rəhbərliyi altında həyata keçirilirdi. Topların Azərbaycan ərazisində istifadəsinə isə hələ Ağqoyunlu hakimiyyəti dövründə başlanmışdı. Ağqoyunlu qoşunlarında topların mövcudluğu və istifadəsi haqqında məlumatlar mövcuddur. Əvvəlki fəsillərdə yazılanlardan da aydındır ki, hələ Uzun Həsən Osmanlı dövlətinə qarşı

müharibə aparmaq istəyəndə ona Avropadan toplar göndərilmişdi. Amma həmin toplar 1471-ci ildə Osmanlı qüvvələrinin əlinə keçmişdi. 1473-cü ildə Osmanlı qoşunları qarşısında məğlubiyyətə düçar olan Uzun Həsən topların hansı döyüş gücünə malik olmasını əyani olaraq müşahidə etmişdi. Ona görə Uzun Həsən sonradan avropalılardan ona top verilməsini xahiş etdi və bu xahişin nəticəsi kimi yüz nəfərə yaxın top mütəxəssisi 1478-ci ildə Ağqoyunlu sarayına göndərildi. XV əsrin sonlarından bölgədə toplardan istifdə edilməsi daha geniş xarakter aldı. Mənbələrn məlumatna görə, hətta Şah İsmayılın atası Şeyx Heydər də 1488-ci ildə Şirvanşah qoşunlarına qarşı Gülüstan qalası ətrafında baş vermiş döyüşdə toplardan istifadə etmişdi (284). Yəni, Çaldıran döyüşündən təxminən 26 il əvvəl səfəvilər topların döyüş imkanları ilə tanış idilər, belə bir silahın mövcudluğundan xəbərdar idilər və hətta Çaldıran döyüşünə qədər Səfəvi qoşunlarında toplar da mövcud idi. Əvvəlki fəsillərdə təhlilə cəlb edilmiş faktlara əsasən, Çaldıran döyüşü ərəfəsində hətta Səfəvi qoşunlarında müəyyən miqdarda odlu silah ehtiyatının olması qənaətinə də gəlmək mümkündür. Belə olan halda Şah İsmayılın toplardan istifadə etməməsi haqlı olaraq sual doğurmaqdadır. Tədqiqatçılar bunu topların istifadəsinə Şah İsmayılın barışmaz münasibəti ilə bağlayırlar. Başqa sözlə, irəli sürülən fikirlərə görə, Şah İsmayıl toplardan istifadəni mərdlik əlaməti saymırdı, döyüşün aparılmasında ənənəvi təcrübəni, döyüşçülərin qarşı-qarşıya gələrək öz güclərini müəyyənləşdirməyi üstün bilirdi. Bəzi fikirlərə görə isə, Şah İsmayıl toplardan istifadəni həm məzhəb baxımından, həm də təriqət baxımından günah sayırdı (285). Səfəvi şahının belə bir əqidədə olması özü bir sirr olaraq qalmaqdadır. Şah İsmayılın atası Şeyx Heydər də təriqət rəhbəri idi. Amma topdan istifadə edirdi və bunu günah saymırdı. Şeyx Heydər üçün top da döyüş silahı idi və digər silahlardan fərqi onda idi ki, onun zərbə gücü daha böyük idi. Şah İsmayıl isə atasından fərqli olaraq qoşunlarında toplara yer vermədi. Onun toplardan istifadə etməməsini Səfəvi qoşunlarında topların olmaması ilə izah edilməsi də düzgün olmazdı. Topların bölgədə istifadəsi ilə bağlı böyük və uzun bir təcrübənin olmasına baxmayaraq, Şah İsmayıl bu silahın imkanlarına qarşı mühafizəkar münasibət göstərməsi çox güman ki, fiziki gücə daha böyük arxayınçılıq göstərməsi və bir də ilahi qədərə olan inamı ilə bağlı idi. Fiziki güc deyəndə, yalnız Şah İsmayılın şəxsi fiziki gücü deyil, onun çevikliyi, enerjisi, döyüşmək məharəti və vərdişləri, soyuq silahların istifadəsinə əsaslanan yüksək texnikası və taktikası, soyuq silahlarla silahlanmış qoşun dəstəsinin döyüşünü idarə etmək bacarığı və s. nəzərdə tutulmalıdır. Çaldıran döyüşündə də Şah İsmayıl soyuq silahın istifadəsinə əsaslanan məharətin misilsiz nümunəsini ortaya qoydu. Lakin qarşıya qoyduğu məqsədə nail ola bilmədi. Şah İsmayıl sonsuz şücaət nümayiş etdirsə də Çaldıran döyüşünün nəticəsi göstərdi ki, reallıqla barışmaq, silah və texnikann inkişafının açdığı imkan üstünlüklərini nəzərə almaq zəruridir. Müharibələrin dünya praktikası da bunu göstərir ki, tarixin istənilən dövründə döyüş sənətindən şəxsi fiziki gücün əhəmiyyəti istisna edilməsə də, hərb məharətinin başlıca meyarı silah və hərbi texnikadır və döyüşlərin bütün

texnikası da, əsasən, silah və hərbi texnikanın imkanları üzərində qurulur. Silah və texnikanın inkişafında yeni bir mərhələ olan odlu silahlardan istifadə edilməməsi Səfəvi qoşunlarının Çaldıran döyüşündə uğrusuzluğunun mühüm səbəblərindən birinə çevrildi.

Səfəvi qoşunlarında mövcud olan odlu silahlardan Çaldıran döyüşündə istifadə edilməməsinə gəlincə isə, bu silahların sayı çox az idi və çox güman ki,onların sayı az olduğu üçün bu döyüşə cəlb edilməmişdi.

İstər mənbələrdə olan məlumatlar, istərsə də elmi-tarixi ədəbiyyatda olan qənaətlər onu deməyə əsas verir ki, Çaldıran döyüşü ərəfəsində Şah İsmayılda böyük arxayınçılığa aparan mühüm səbəblərdən biri yalnız onun öz fiziki gücünə olan inamı deyil, həm də ilahi qədərə olan inamı idi. Bu məsələ kifayət qədər həssas və həm də döyüş təcrübəsi üçün ənənəvi olmayan bir məqam olmaqla Şah İsmayılın müharibələr tarixində xüsusi bir xətt kimi keçməkdədir.

Məlumdur ki, müharibələrin aparılmasının öz qanunauyğunluqları vardır. Mahiyyətcə obyektiv olan bu qanunauyğunluqların təsir gücünü müharibələr tarixində, eləcə də Şah İsmayılın hərb tarixində də müşahidə etmək çətin deyil. Şah İsmayılın hakimiyyəti illərində müharibələrin qanunauyğunluqları elmi qənaət və ümumiləşdirmələr kimi məlum olmasa da, həmin qanunayuğunluqlara dayaqlanan əməli təcrübə mövcud idi. Həmin təcrübə də ənənvi olaraq tarixin böyük sərkərdələri və hökmdarları tərəfindən izlənilir və riayət olunurdu. Bu ənənəvi təcrübə obyektiv reallıqlara əsaslanırdı və o sərkərdələr tarixdə ad qoymuşdular ki, onlar bu obyektiv reallıqlara istinad edirdilər. İslam dünyasının böyük sərkərdələri də tanrı hökmünə inamlarını saxlamaqla bərabər, özlərinin döyüş taktikasını əsasən ilahi qədərə olan inam üzərində deyil, ənənəvi döyüş təcrübəsinin obyektiv reallıqları üzərində qururdular. Məsələn, Şərqin böyük sərkərdələri olan Əmir Teymur da və Şah İsmayıldan sonra yaşamış Nadir şah da böyük etiqad sahibləri idilər, döyüşün ən çətin anlarında yaradandan kömək diləyirdilər. Bununla belə, onların döyüş taktikası ənənəvi obyektiv döyüş təcrübəsi üzərində qurulmuşdu. Adları çəkilən sərkərdələr bu ənənəvi döyüş təcrübəsini öz təcrübələri və əməli yanaşmaları ilə də kifayət qədər zənginləşdirmişdilər. Şah İsmayıl da sözsüz ki, mövcud olan döyüş təcrübəsindən yan keçə bilməzdi. Amma Şah İsmayılın döyüş təcrübəsində ilahi qədərə olan inam xüsusi bir yer tuturdu. Tədqiqatçıların da qeyd etdiyi kimi, Şah İsmayıl əmin idi ki, yeni bir nizam yaratmaq üçün hərəkata başlamaqla "ilahi bir vəzifə daşıyır" (286) və onun bu ilahi vəzifəni icra etməsi imamlar və müqəddəslər tərəfindən də əməldə müdafiə olunur. Şah İsmayıl şübhə etmirdi ki, Allah, peyğəmbər və imamlar tərəfindən müqəddəs işlərin icrasına vəzifələnirilmişdir, bu müqəddəs işlərin icrası üçün yaradan tərəfindən hifz olunur və iman yolunda mübarizə apardığı üçün heç zaman məğlubiyyətlə rastlaşmayacaq, hər zaman qələbə ilə üzləşəcəkdir.

Təriqət rəhbəri kimi isə Şah İsmayıl bu ilahi vəzifəni həyata keçirmək üçün özünü məsuliyyətli bilirdi. Ona görə Şah İsmayılın şəxsində ilahi inancla döyüş təcrübəsi bir vəhdət təşkil edirdi. Belə bir qənaət hasil olur ki, Şah İsmayıl onun üçün müəyyənləşdirilmiş olan ilahi vəzifənin icrasına özünü borclu bilirdi və

həmin vəzifənin icrasını da ilahi qədərlə və müqəddəslərin kəraməti ilə uğurla başa çatacağına şübhə etmirdi.

Şah İsmayılın əcdadlarının ilahi kəramətə malik olduqları məlumdur. Əslində, Şeyx Səfi ocağı müqəddəs bir ocaq kimi tanınırdı. İstər Şah İsmayılın sağlığında, istərsə də ondan qabaq Şeyx Səfi xanəgahı zəvvarların üz tutduğu müqəddəs məkanlardan biri idi. Şah İsmayıl da özünü bu ocağın davamçısı və bu ocağa verilmiş ilahi kəramətin təmsilçisi kimi bilirdi. Bu məqam Şah İsmayılın sağlığında da Şeyx Səfi ocağının müqəddəsliyinə inanan bütün təriqət tərəfdarları tərəfindən qəbul edilirdi. Şah İsmayılın özündə də belə bir əminlik var idi. Ağır hərbi tapşırıqların, hərbi yürüşlərin öhdəsindən uğurla gəlməsini də Şah İsmayıl yalnız döyüş məharətinin nəticəsi yox, həm də yaradan tərəfindən ona əta olunmuş kəramətin nümayişi kimi qəbul edirdi. Çaldıran döyüşünə qədərki bütün döyüşlərə Şah İsmayıl qarşı tərəflə müqayisədə daha az olan qoşunla çıxmış və bu döyüşlərin uğurla başa çatdırmışdı. Həmin döyüşlərin uğurla başa çatdırılmasını da Şah İsmayıl həm ilahi vəzifənin icrası, həm də ilahi kəramətin göstəricisi kimi dəyərləndirirdi. Şah İsmayılın ətrafına toplaşmış qoşun əhli də Şah İsmayılın kəramət sahibi olmasına sonsuz bir inamla yanaşırdılar. Bütün qoşun əhli tərəfindən Şah İsmayıl Mürşidi-kamil kimi qəbul olunurdu və onun qərarları, göstərişləri ilə ilahi qədər arasında sıx bağlılıq olmasına kimsə şübhə etmirdi. Bu cəhət sözsüz ki, Səfəvi qoşunlarının Şah İsmayıl ətrafında sıx birləşməsinin, Şah İsmayılın göstərişlərinə dərin etiqad və sədaqət göstərilməsinin, Səfəvi qoşunlarında yüksək döyüş və mənəvi əhval-ruhiyyənin olmasının mühüm səbəbi idi. Bu etiqadın və sədaqətin nəticəsi idi ki, elə Çaldıran döyüşünün ərəfəsində və sonra Osmanlı qoşunları daxilində bir neçə dəfə yeniçərilərin hakimiyyətə qarşı üsyanı baş versə də, ağır sınaqlarla üzbəüz olacaqlarını bilən Səfəvi qoşunları arasında (Fars hakiminin döyüş zamanı qorxaqlıq nümayiş etdirməsi istisna olmaqla) sıx yekdillik özünü göstərdi.

Mövcud olan faktlar və məlumatlar onu da deməyə əsas verir ki, qızılbaş döyüşçüləri Şah İsmayıla sadəcə sədaqət göstərmirdilər, onu hətta ilahi varlıq səviyyəsinə qaldırmışdılar. Səfəvi döyüşçülərinin Şah İsmayıla olan münasibətini şəxsən izləmiş və müşahidə etmiş olan Venesiyalı səyyahlardan bəziləri gördükləri haqqında maraqlı qeydlər etmişlər. Bu qeydlər hər şeydən əvvəl Şah İsmayılın qızılbaşlar arasında necə böyük nüfuza malik olmasından xəbər verir. Artıq məlumdur ki, qızılbaşlar Şah İsmayılı kəramət sahibi kimi qəbul edirdilər və onların Şah İsmayıla olan sədaqətinin əsasını da məhz bu məqam təşkil edirdi. Mənbələr də xəbər verirlər ki, Şah İsmayılın kəraməti hərbi yürüşlərin uğuruna yol açmışdı. Ona görə qızılbaş döyüşçüləri əmin idilər ki, Şah İsmayıl öz kəraməti ilə hərbi yürüşün uğurla başa çatmasına zamin olacaqdır. Bu inam bəzi qızılbaş döyüşçülərinin hətta zirehsiz şəkildə döyüşə atılmasına səbəb olurdu. Venesiyalı səyyah da öz qeydlərində bu məqama işarə edirdi və buna öz təəccübünü də gizlətmirdi. Bu səyyahın qeydlərinə görə, qızılbaşlar çətinliklə qarşılaşanda da Şah İsmayılın kəramətinə tapınırdılar. Onun yazdıqlarına görə, qızılbaşlar hətta kəlmeyi-şəhadət yerinə də "La ilahə illəllah, İsmayıl vəli-ullah"



*Şeyx Səfi türbəsi kənarında Çaldıran şəhidlərinin dəfn edildiyi Şəhidgah*



*Şeyx Səfi Şəhidgahının hazırkı vəziyyəti*

deyirdilər. Amma Venesiyalı səyyah onu da əlavə edirdi ki, eşitdiyinə görə Şah İsmayıl onun müqəddəsləşdirilməsi fikirləri ilə heç də razı deyildir (287).

Xarici müəllifin bu müşahidələridən də göründüyü kimi, Şah İsmayıl onun bütləşdirilməsindən heç də razı deyildi. Amma insanlar onun kəramətinə inanırdılar. Bu da heç şübhəsiz ki, əcdadlarında olduğu kimi, Şah İsmayılın özündə də müəyyən kəramət əlamətlərinin təzahür etməsi idi.

Başqa bir Venesiyalı müəllifin xatirələrində isə Şah İsmayıl belə xatırlanırdı: "Bu şaha, xüsusilə, onun döyüşçüləri pərəstiş edirlər. Onların çoxu çövşənsiz və zirehsiz döyüşürlər və öz sərvərləri yolunda dünyanı tərk etməkdən çox məmnundurlar. (Döyüşçülər) sinəsi açıq müharibəyə gedirlər və "Şeyx, Şeyx" deyə fəryad çəkirlər ki, fars dilində mənası "xuda, xuda" deməkdir. Digərləri isə onu Allahın peyğəmbəri hesab edirlər. Hətta məlumdur ki, çoxları onun ölməyəcəyinə inanırlar" (288).

Çaldıran döyüşü ərəfəsində və gedişində də Şah İsmayıl ona əta olunmuş ilahi kəramətə şübhə etmirdi. O əmin idi ki, Osmanlı qoşunlarına qarşı döyüş həm ilahi qədərdir, həm də bu döyüş ilahi vəzifənin icrası üçün onun qarşısına çıxarılmış növbəti sınaqdır. Şah İsmayıl həm də onun qismətinə çıxmış ilahi kəramətlə bu döyüşdən də uğurla çıxacağına şübhə etmirdi. O əmin idi ki, malik olduğu kəramətlə məğlubedilməzdir. Yəni, ilahi kəramətə arxayınçılıq onda döyüşdən uğurla çıxacağına da bir əminlik yaratmışdı. Şah İsmayıl ilahi kəramətə olan etiqadını və arxayınçılığını müharibələrin aparılmasının obyektiv təcrübəsi və tələbləri ilə əlaqələndirməyə etinasızlıqla yanaşdı. Halbuki ilahi etiqad özü də bunu istisna etmirdi. Bütün bu deyilənlərdən belə bir qənaətə gəlmək mümkündür ki, Şah İsmayıl ilahi kəramətə arxayın olaraq qarşı tərəfin gücünü və qüvvəsini reallıqla qiymətləndirmədi və bu da döyüşün təşkilində və idarə edilməsində özünü göstərdi.

Mənbələr və mənbə məlumatlarına əsaslanan tədqiqatçılar Şah İsmayılın Çaldıran döyüşündə uğursuzluğunu da ilahi qəzavü-qədərin dəyişə bilməyəcək bir hökmü, əvvəldən müəyyən edilmiş bir əcəli sayırdılar. Yəni Şah İsmayıla kəramət bəxş edən ilahi qüvvə artıq döyüşdən əvvəl onun qismətini müəyyənləşdirmişdi. Çünki Şah İsmayıl və onun ətrafındakılar bu kəramətin savabını və fəzilətini qiymətləndirməkdə sapınmalara varmışdılar, yaradanın müəyyənləşdirdiyi imandan uzaqlaşmaq meyli özünü göstərməkdə idi və belə bir qismətin göndərilməsi ilə bir növ bu sapınmanın qarşısı da alındı. Məsələn, "Tarix-i aləmara-yi Abbasi" əsərində belə qeydlər vardır: "Elə bil ki, Allahın mükəmməl hikmətinin zərurəti nəticəsində o həzrətə (Şah İsmayıla) göz dəymiş və o, belə bir məğlubiyyətə düçar olmuşdu. Çünki əgər bu [Çaldıran] döyüşündə də o həzrət zəfər qazansaydı, onda belə bir təhlükə vardı ki, qızılbaş tayfalarının sadəlövhlərinin o həzrətin şanı barəsindəki əqidəsi və inancı elə bir həddə çatardı ki, onların etiqad ayağı dinin və imanın doğru yolundan azıb, onları səhv gümanlara doğru aparardı" (289).

Yəni, ona işarə edilirdi ki, Şah İsmayıl Çaldıran döyüşündə də qalib gəlsəydi onun kəramətinə qızılbaşların etiqadı daha da artacaqdı və onun bütləşdirilməsi və bununla haqq yolundan sapınma daha da güclənəcəkdi. Çaldıran

döyüşünün nəticələri isə qızılbaşların haqq yolundan sürətlə aralanmasının qarşısını aldı (290).

Çaldıran müharibəsinin nəticələrinin qızavü-qədərlə əvvəldən müəyyənləşdirilməsi haqqında mövcud olan fikirlər bir sıra mənbələr və müəlliflər tərəfindən əsaslı dəlil kimi ortaya qoyulsa da, müharibənin qanunları çərçivəsində həmin fikrin birmənalı şəkildə qəbul edilməsi müəyyən mübahisələr doğura bilər. Amma mənbələrdə olan məlumatlara görə, Şah İsmayıl özü də Çaldıran döyüşünün uduzulmasının qəzavü-qədərdən irəli gəlməsinə inanmışdı. Məsələn, mənbə məlumatlarına görə, Şah İsmayıl Çaldıran döyüşünün uğursuzluğa doğru getdiyini görəndə ətrafındakılara dedi ki, bu gün müqəddəs məsumlar bizim köməyimizə gəlməmişlər və ona görə də daha bir iş görə bilməyəcəyik (291). Bu sözlərdən sonra isə Şah İsmayıl döyüşdən çıxmağı qərarlaşdırdı.

Şah İsmayılın ilahi qədərə və kəramətə olan etiqadı Çaldıran döyüşünün uğursuzluğuna zəmin yaradan digər strateji məsələlərdə də qırmızı bir xətt kimi özünü göstərməkdədir. Bu məsələlərdən biri müharibə ilə bağlı strateji qərarın qəbulunda və onun icrasında həddən artıq səbirlilik nümayiş etdirilməsi idi. Müharibələr tarixi əyani şəkildə nümayiş etdirir ki, düzgün strateji qərarın qəbul edilməsi və onun icrasının düzgün təşkili müharibənin səmərəli şəkildə aparılmasının tərkib hissələridir. Strateji qərar düzgün və vaxtında qəbul edilmədiyi halda onun icrası üçün hansı sayda və miqyasda qüvvə cəlb edilməsindən asılı olmayaraq son nəhayətdə uğursuzluğa məhkumdur. Bu həqiqətin acı nəticəsi Çaldıran döyüşünün gedişində də özünü açıq şəkildə biruzə verdi. Şah İsmayıl həm qarşı tərəfin qüvvələrinin reallıqla qiymətləndirilməsində, müharibənin məqsədəuyğunluğu ilə bağlı qərarın qəbul edilməsində, müharibəyə cəlb ediləcək qüvvələrin dəqiqliklə müəyyənləşdirilməsində, qoşun dəstələrinə rəhbərliyin aydınlaşdırılmasında, döyüşün təşkilində və qoşun dəstələri arasında əlaqələrin tənzimlənməsində arxayınçılığa vardı. Osmanlı dövlətinə qarşı müharibəyə başlanmasında Şah İsmayıl uzun müddət tərəddüd etdi, zəruri olan müharibə hazırlıqları da onun arxayınçılığı kölgəsində qaldı. Sultan Səlim təkrar-təkrar məktub göndərməsinə və müharibə elan etməsinə baxmayaraq Şah İsmayıl ona qarşı etinasızlıq nümayiş etdirdi və Osmanlı sultanının 3-cü məktubundan sonra ona qarşı müharibə qərarı verilsə də müharibə hazırlığına zəruri diqqət ayrılmadı. Kəramətə ifrat etiqad və arxayınçılıq müharibənin aparılması üsulu ilə bağlı irəli sürülən təkliflər barəsində də düzgün qərarlar çıxarılmasına mane oldu. Məhəmməd xan Ustaclı tərəfindən səsləndirilən həmin təkliflərdən biri Osmanlı qoşunları ilə açıq döyüşə girməyin qeyri-məqsədəuyğun olması idi. Şah İsmayılın müharibə hazırlıqları fonunda bu təklif kifayət qədər real bir təklif idi və bu təklifə strateji dəyər verilsəydi Osmanlı qoşunlarını ölkənin içərilərinə çəkməklə onları süquta düçar etmək mümkün idi. Şah İsmayılın belə bir strateji qərar qəbul edəcəyi təqdirdə Osmanlı qoşunlarında təchizat böhranı təhlükəli bir hal alacağı kimi, qoşunlar daxilində itaətsizlik və parçalanma da dönməz xarakter alacaqdı. Çünki yeniçərilər açıq şəkildə Səfəvi qoşunları ilə müharibəyə girməkdən imtina etməkdə idilər.

Müharibənin aparılmasının zaman və məkan məsələlərində də strateji üstünlük təmin edilmədi, qarşı tərəfin çətin məqamda haqlanması və ona strateji zərbə vurulması ilə bağlı səmərəli görünə biləcək taktikadan imtina edildi. As sayda olmasına baxmayaraq, Səfəvi qoşunlarının Osmanlı qoşunları üzərində hərbi üstünlüyü qəfil zərbə ilə əldə etmək imkanından istifadə edilməməsi uğursuzluğa yol açan yanlışlıqlardan biri oldu. Belə bir real imkan isə mövcud idi və əmirləri tərəfindən Şah İsmayıla bununla bağlı təklif də verilmişdi. Uzun və üzücü hərbi yürüşdən sonra əldən düşmüş Osmanlı qoşunları üzərinə hücum üçün Çalıdıran düzünə yetişməzdən əvvəl real imkan mövcud olsa da, bu imkandan istifadə edilmədi və istifadə edilməsi də Səfəvi döyüş ənənələrinə və təcrübəsinə uyğun bilinmədi. Yəni, bu dəfə də hərb məharətini ortaya qoya biləcəyi imkanlar kəramət arxayınçılığının kölgəsində qaldı.

Döyüşün gedişində də zaman amilindən düzgün istifadə edilməməsi uğursuzluğa yol açan ciddi səbəblərdən biri oldu. Bu amilin nəzərə alınması üstün qüvvələrə malik olan qarşı tərəf üzərində qələbənin təmin edilməsinin səmərəli yollarından biridir. Şah İsmayılın rəhbərliyi altında olan sağ cinahın zaman amilindən səmərəli şəkildə bəhrələnməsi, böyük sürət və çeviklik ilə döyüşü aparması Osmanlı qoşunlarını hansı hala salması artıq məlumdur. Onun nümayiş etdirdiyi sürət və çeviklik döyüşdə həlledici amilə çevrildi və cinahların birində Səfəvi qoşunlarının üstünlüyünü təmin etdi. Amma bu sürət və çeviklik Səfəvi qoşunlarının digər cinahında təmin edilmədi. Qoşunların sol cinahında süstlük, lənglik nümayiş etdirilməsi Məhəmməd xan Ustaclının rəhbərlik etdiyi qoşun dəstəsinin məhvinə, döyüşün isə uğursuzluğuna yol açdı.

Məkan amilinin lazımınca nəzərə alınmaması da Osmanlı qoşunlarına qarşı həyata keçirilən döyüşdə ağır nəticələrə yol açan səbəblərdən birinə çevrildi. Bu baxımdan da Səfəvi qoşunları qarşı tərəflə müqayisədə öz üstünlüklərini təmin edə bilərdi. Çünki bir tərəfdən Səfəvi qoşunları öz ərazilərində döyüşə girmişdilər və bu qoşunların imkanı var idi ki, Osmanlı qoşunları Səfəvi əraziləri ilə irəilədikcə ona ağır zərbə vursunlar. Əslində, bu məsələ də Şah İsmayıla təklif olunmuşdu. Osmanlı qoşunlarının təqib edilməsi və bu qoşunlara qarşı kəşfiyyat xarakterli həmlələrin həyata keçirilməsi onsuz da yorğun və ağır durumda olan Osmanlı qoşunlarını əlavə sınaqlarla da qarşılaşdıra bilərdi. Lakin bu məsələyə döyüş taktikası kimi yox, qeyri-bəşəri norma kimi yanaşıldı, ərazinin xüsusiyyətlərindən istifadə etməklə qarşı tərəfin qoşunları üzərinə qəfil hücumlar təşkil edilməsi quldur dəstələrinin karvan vurması ilə bir səviyyədə dəyərləndirildi. Döyüş meydanının seçilməsində də Səfəvi əmirləri və qoşun rəhbərləri öz iradələrini qarşı tərəfə qəbul etdirə bilmədilər. Döyüşün keçirilməsi üçün seçilmiş Çaldıran düzü geniş fəaliyyət üçün Osmanlı qoşunlarına daha əlverişli imkanlar təmin etdi. Çünki bu düzdə Osmanlı qoşunları toplardan daha səmərəli istifadə etmək üçün əlverişli imkanlar əldə etdilər. Bundan başqa, Səfəvi qoşunlarının əsas zərbə qüvvəsi olan atlı dəstələrinin fəaliyyətini də burada tam nəzarət altına götürmək mümkün oldu. Halbuki Osmanlı qoşunlarının döyüş imkanlarını məhdudlaşdıra bilən başqa bir ərazinin də seçilməsi mümkün

idi. Xüsusilə, Osmanlı toplarının fəaliyyətinin məhdudlanması üçün dağlıq və təpəlik ərazi Səfəvi qoşunlarının, o cümlədən, Səfəvi atlı dəstələrinin daha səmərəli fəaliyyətini təmin edə bilərdi.

Strateji məsələlərdə dəqiq və daha səmərəli qərarların qəbul edimməsi taktiki məsələlərin həllində də yanlışlıqlarla müşayiət olundu. Bura kəşfiyyatın lazımi səviyyədə aparılmaması, döyüşün idarəsində səmərəliliyə nail olunmaması, qoşun dəstələri arasında əlaqələrin yaradılmaması, ehtiyat qüvvələrin düzgün bölüşdürülməməsi və s. Bununla belə, bir daha qeyd edilməlidir ki, Şah İsmayıl şəxsi fiziki və hərbi keyfiyyətləri ilə qoşunların sağ cinahında strateji səviyədə yol verilmiş ehtiyatsızlıqların bir çoxunu kompensasiya etməyə, bu ehtiyatsızlıqların təsirini aradan qaldırmağa müvəffəq oldu. Əgər onun döyüş məharəti digər cinahda da təkrar olunsaydı, onda yol verilmiş bütün strateji və taktiki yanlıqşıqlara rəğmən qələbəni təmin etmək mümkün olardı.

## 16.İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Mehdəvi Ə. Tarix-e rəvabet-e xareci-ye İran. Tehran, 1369, s. 9
2.Türk Silahlı Kuvvetleri tarihi. III ncü cilt, 2 nci kısım eki. Osmanlı-İran savaşı.
Çaldıran meydan müharibesi. 1514. Ankara, 1979, s. 29
3. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Elektron variant. Ankara, 2015, s. 197
4. Dedeyev B. Safevi tarikatı və Osmanlı devleti ilişkileri. Uluslararası Sosyal Arastırmalar Dergisi. The Journal of International Social Research.Volume 1/5 Fall 2008 s.217-218; Xünci Ə. Tarix-e Şah İsmayıl Səfəvi. Elektron variant, s. 119
5. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.229
6. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.90
7. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s.196
8. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s.148-149
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.100-101
9. Xünci Ə. Tarix-e Şah İsmayıl Səfəvi. Elektron variant, s. 119
10. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s.21-23
11. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s.20-23
Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s.216-219
12. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s.241
13. Yenə orada, s. 242-243
14. Yenə orada, s. 244-245
15. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 397
16. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s. 41-42
17. Yenə orada, s. 43

18. Yenə orada, s. 43-44
19. Yenə orada, s. 16
20. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s.233
21. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s. 10
22. Yenə orada
23. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 455
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.500-501
24. Aləmara-yi Şah İsmayıl, s.501-502
25. Aləmara-yi Səfəvi, s.457
26. Hakyemez C. Osmanlı-İran ilişkileri ve sünni-şii ittifakı. İstanbul, 2014, s.36
27. Akbarinoshad M. Şah İsmayıl və Osmanlı ilişkileri. Yüksek lisans tezi. Ankara, 2011, elektron variant, s. 102, 106
28. Yenə orada, s.104
29. Yenə orada, s. 105
30. Şah Kulu isyanı. https://alevikutuphanesi.wordpress.com/tag/sah-kulu-isyani1511/
Şahkulu isyanı. http://www.osmanlipadisahlari.org/sahkulu-isyani/
31. Şah-ismailin-turk-siyaseti-ve-kulturel-yeri.
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri
Alevi-Sünni sürtüşməsinin içyüzü.
http://www.angelfire.com/al4/haydar/Alev5.sk.html
32. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s.257
33. Alevi-Sünni sürtüşməsinin içyüzü.
http://www.angelfire.com/al4/haydar/Alev5.sk.html
34. Şahkulu isyanı ve Karagöz Ahmet Paşa
http://vadetamam.com/2015/04/sahkulu-isyan-ve-karagoz-ahmet-pasa.html
Anadolu'da Şahkulu İsyanı. http://tarih.tumders.com/anadoluda-sahkulu-isyani.html
35. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.373
36. Erenler S. Şahkulu ayaklanması. Elektron variant
37. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 23
38. Erenler S. Şahkulu ayaklanması. Elektron variant
39. Yavuz Sultan Selim han ve Şahkulu isyanı.
http://gercektarihimiz.blogcu.com/yavuz-sultan-selim-han-ve-sah-kulu-isyani- 1511/4457250
Şahkulu isyanı ve Karagöz Ahmet Paşa
http://vadetamam.com/2015/04/sahkulu-isyan-ve-karagoz-ahmet-pasa.html
40. Yavuz Sultan Selim han ve Şahkulu isyanı.
http://gercektarihimiz.blogcu.com/yavuz-sultan-selim-han-ve-sah-kulu-isyani- 1511/4457250
41. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.206
Şahkulu isyanı ve Karagöz Ahmet Paşa
http://vadetamam.com/2015/04/sahkulu-isyan-ve-karagoz-ahmet-pasa.html

42. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.207
43. Şahkulu isyanı ve Karagöz Ahmet Paşa
http://vadetamam.com/2015/04/sahkulu-isyan-ve-karagoz-ahmet-pasa.html
44. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.207
45. Karaca B.Safevi devletinin ortaya çıkışı ve II Beyazid dönemi Osmanlı-Sefevi ilişkileri. https://www.tarihtarih.com/?Syf=26&Syz=381741
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 374
46. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s.159
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.109
47. Anadolu'da Şahkulu İsyanı. http://tarih.tumders.com/anadoluda-sahkulu-isyani.html
48. Solakzadə M. Tarix. Bakı, 1992, s.23-24
49. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 29-30
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 377
50. Söylemez F. Yavuz Sultan Selimin taht mücadilesi. Sosyal Bilimler Enstitüsü Dergisi Sayı: 33 Yıl:2012/2, s.64
51. Yenə orada, s.66
52. Sultan II. Bayezid.
https://historianyavuz.files.wordpress.com/2013/11/osmanlc4b1-tarihi-1-4-cilt- ismail-hakkc4b1- uzunc3a7arc59fc4b1lc4b1.pdf
53. Söylemez F. Yavuz Sultan Selimin taht mücadilesi. Sosyal Bilimler Enstitüsü Dergisi. Sayı: 33 Yıl: 2012/2, s.67
54. Yenə orada, s. 68-70
55. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 34-39
56. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 163
Ercan Y.Yavuz Sultan Selim ve dönemi.
https://www.tarihtarih.com/?Syf=26&Syz=381744&/Yavuz-Sultan-Selim-Dönemi -/-Prof.-Dr.-Yavuz-Ercan-
57. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 459
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 504
58. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 460
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 504
59. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 461
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 505
60. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 461
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 505
61. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 462
62. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 510
63. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 467-469
64. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 511-512
65. Yenə orada, s. 512-513
66. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s.265

67. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s. 14
68. Şah İsmayılın türk siyasəti və kulturel yeri. S.81
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri
69. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.243
70. Yenə orada, s. 239-240
71. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s.14
72. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s.14
Şükürov Q. Sefevi devletinin kuruluşu ve Şah İsmayıl devri. Yüksek lisans tezi. İstanbul, 2006, s.138
Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s.265-266
Şah İsmayılın türk siyaseti və kulturel yeri, s.81
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri
73. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1360, s. 32-33
Raznəhan H. Zəmineha-ye voqu-e cəng-e Çaldran və dəlayel-e şekəst-e səfəviyan ba təkye bər əsnad. //Fəsilname-ye rəvayət-e tarix. N.3, 1395, s. 3-4
Xünci Ə. Tarix-e Şah İsmayıl Səfəvi. Elektron variant, s.127
74. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 389-390
75. Şah İsmayılın türk siyaseti və kulturel yeri, s.83
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri
76. Raznəhan H. Zəmineha-ye voqu-e cəng-e Çaldran və dəlayel-e şekəst-e səfəviyan ba təkye bər əsnad. //Fəsilname-ye rəvayət-e tarix. N.3, 1395, s. 5-6
Hüseyni S.Əvamel-e siyasi-ictimai-ye təneş miyan-e səfəviyye və osmani. Süxən-e tarix. N-9, 1389, s. 28-29
77. Akbarinoshad M. Şah İsmayıl və Osmanlı ili ilişkileri. Yüksek lisans tezi. Ankara, 2011, elektron variant, s. 112
78. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s. 55
Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s.165
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 394
79. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 395
80. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s. 14
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 392-393
Həsən Rumlu. Əhsənüt təvarix (tərcüməsi O.Əfəndiyevə və N.Musalıya məxsusdur). Kastamonı, 2017, s. 423
81. Şükürov Q. Sefevi devletinin kuruluşu ve Şah İsmayıl devri. Yüksek lisans tezi. İstanbul, 2006, s. 141
Azimli D. Safevi-Osmanlı ilişkilerinde Doğu Anadolu meselesi (Ekonomik yönden) //Uşak universitesi Sosial Bilimler Dergisi, N-2/3, 2010, s. 105
82. Akbarinoshad M. Şah İsmayıl və Osmanlı ilişkileri. Yüksek lisans tezi. Ankara, 2011, elektron variant, s. 114

83. İbadi M. Bohran-e məşruiyyət-e səltənət-e Səlim-e əvvəl və ertebat-e an ba voqu-e cəng-e Çaldran// Tarix-e təməddon-e İslami. N-19, 1393, s. 150
84. Yenə orada
85. İbadi M. Bohran-e məşruiyyət-e səltənət-e Səlim-e əvvəl..., s. 153
86. Şükürov Q. Sefevi devletinin kuruluşu ve Şah İsmayıl devri..., s.147
87. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s. 59-66
88. Yenə orada, s.67-71
89. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.400
90. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s.92-93
91. Yenə orada, s. 93-94
92. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 76
93. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1360, s. 43-44
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s. 118-119
Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.199-200
94. Yenə orada, s. 44-45
95. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s. 21
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.119-120
Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 76
Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.201
96. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 82
97. Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.201
Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1360, s. 45
98. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 82
99. Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.202
Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1360, s. 46
100. Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.202-203
Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1360, s. 46-47
101. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 85
102. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s. 309
103. İbadi M. Bohran-e məşruiyyət-e səltənət-e Səlim-e əvvəl..., s. 150-151
Akbarinoshad M. Şah İsmayıl və Osmanlı ilişkileri..., s. 116-117
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.403
104. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 89
105. Yenə orada
106. Yenə orada, s. 94
107. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s. 74-77
108. Şah İsmayılın türk siyasəti və kulturel yeri , s.109
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri
109. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 406

110. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 95
111. Yenə orada, s. 96-97
112. Yenə orada, s. 97
113. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 234
114. Xünci Ə. Tarix-e Şah İsmayıl Səfəvi. Elektron variant, s. 130
115. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 98
Şah İsmayılın türk siyasəti və kulturel yeri, s. 91
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri
116. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s.78-81
117. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s. 64
118. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 410
119. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 438
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.308
120. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s. 64
121. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s. 64
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 410
Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 100
122. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 101
123. Yenə orada, s. 102
124. Yenə orada
125. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 410-411
126. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s.82-83
127. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s.335
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s. 154
128. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s.83-85
129. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 415
130. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s. 77
131. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s.85-86
132. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 190
133. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 102
Şah İsmayılın türk siyasəti və kulturel yeri , s. 92
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri
134. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 104
135. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 234
136. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.94 (Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxsusdur ).
137. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s. 346
138. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 105
139. Yenə orada, s. 107
140. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 107
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 418
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 309

141. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, s. 94
142. Aləmara-yi Şah İsmayıl, s.520
143. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 108
144. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 57-58
Çaldıran. http://seeiran.ir/wp-content/uploads/2014/04/1-چالدران.jpg
145. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s.108-109
146. Aləmara-yi Səfəvi, s.484
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 287
147. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.235
148. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 95
149. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 484
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.520
150. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s.113
Tacbəxş Ə. Tarix-e Səfəviyyə. Şiraz, 1372, s. 108
151. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s.114
152. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.420
153. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.94
154. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 484
Aləmara-yi Şah İsmayıl, Tehran, 1384, s. 520
155. Raznəhan H., Dərikundi R., Belucnəhi İ., Biranvənd H. Zəmineha-ye voqu-e cəng-e Çaldıran və dəlayel-e şekəst-e səfəviyan ba təkye be əsnad/Fəsilname-ye rəvayət-e tarix. 1395, N-3, s.12
Akbarinoshad M. Şah İsmayıl və Osmanlı ilişkileri. Yüksek lisans tezi. Ankara, 2011, elektron variant, s. 97
156. Aləmara-yi Şah İsmayıl, Tehran, 1384, s. 520
157. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 420
M ücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 194
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s. 161
Mehdəvi Ə. Tarix-e rəvabet-e xareci-ye İran. Tehran, 1369, s.20
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 99
Hicazifər H. Şah İsmayıl-e əvvəl və cəng-e Çaldıran. Tehran, 1374, s.105
Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s. 45
158. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 114
159. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.236
Aləmara-yi Səfəvi. Tehran, 1350, s.485
Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1360, s. 90
Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 199
160. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 95
161. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 101
162. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s.113
163. Mehdəvi Ə. Tarix-e rəvabet-e xareci-ye İran. Tehran, 1369, s.20
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 420

164. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.94
165. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 101
166. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s.111
167. Yenə orada, s. 110
168. Solakzadə M. Tarix. Bakı, 1992, s. 30
Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 111-112
169. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1360, s. 88-89
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s. 164
Hicazifər H. Şah İsmayıl-e əvvəl və cəng-e Çaldıran. Tehran, 1374, s.102
170. Hicazifər H. Şah İsmayıl-e əvvəl və cəng-e Çaldıran. Tehran, 1374, s. 104
171. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 115
172. Raznəhan H., Dərikundi R., Belucnəhi İ., Biranvənd H. Zəmineha-ye voqu-e cəng-e Çaldıran və dəlayel-e şekəst-e səfəviyan ba təkye be əsnad/Fəsilname-ye rəvayət-e tarix. 1395, N-3, s.14-15
173. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 95
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 288
174. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 495
175. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 427
176. Aləmara-yi Şah İsmayıl, s.520
177. Şah-ismailin-turk-siyaseti-ve-kulturel-yeri.
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri
178. Xünci Ə. Tarix-e Şah İsmayıl Səfəvi. Elektron variant, s. 136
179. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s. 363
180. Yenə orada, s. 97
181. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 489
182. Aləmara-yi Şah İsmayıl, Tehran, 1384, s. 522
183. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 489
Aləmara-yi Şah İsmayıl, Tehran, 1384, s.523
184. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s. 169
185. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.427
Hicazifər H. Şah İsmayıl-e əvvəl və cəng-e Çaldıran. Tehran, 1374, s. 113
186. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 102
187. Hicazifər H. Şah İsmayıl-e əvvəl və cəng-e Çaldıran. Tehran, 1374, s. 113
188. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 497
189. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s. 51
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.428
190. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 116-117
Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s. 365
Solakzadə M. Tarix. Bakı, 1992, s. 32
191. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 487-488
192. Yenə orada, s.488-489

193. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 95-96
194. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.236
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 289
195. Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.221
196. Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.222-223
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 428
197. Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.222-223
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 428
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.310-311
198. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.240
Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.223
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 445
199. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.96
200. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 115
201. Yenə orada, s.116
202. Yenə orada, s.117
203. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.241
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 432
Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.223
204. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.241
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 432
Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.223
205. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 96
206. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 290
207. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 432
208. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 119
209. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 492
Aləmara-yi Şah İsmayıl, Tehran, 1384, s.527
210. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 492
211. Yenə orada
212. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 494-495
Aləmara-yi Şah İsmayıl, Tehran, 1384, s.528
213. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.242
Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s.226
Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s.98
214. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 112, 116
215. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 288
216. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s.99
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s. 175
217. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 482

218. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 501
Aləmara-yi Şah İsmayıl, Tehran, 1384, s.529
219. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 290
220. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 499-500
Aləmara-yi Şah İsmayıl, Tehran, 1384, s.531-532
221. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s.120
Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri... s. 368
Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s. 107
222. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 95-97
223. Yenə orada, s. 97-98
224. Yenə orada, s.99
225. Yenə orada, s. 107
226. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s.101
Şah İsmayıl Səfəvi (Əsnad və məkatebat-e tarixi həmrah ba yaddaştha-ye təfsili) be ehtemam-e doktor Əbdülhüseyn Nəvayi. Tehran, 1347, s.181
227. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 483
228. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s.104
Şah İsmayıl Səfəvi (Əsnad və məkatebat-e tarixi həmrah ba yaddaştha-ye təfsili) be ehtemam-e doktor Əbdülhüseyn Nəvayi. Tehran, 1347, s.189
229. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 105-106
Şah İsmayıl Səfəvi (Əsnad və məkatebat-e tarixi həmrah ba yaddaştha-ye təfsili) be ehtemam-e doktor Əbdülhüseyn Nəvayi. Tehran, 1347, s.193-194
230. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. s. 102-103
Şah İsmayıl Səfəvi (Əsnad və məkatebat-e tarixi həmrah ba yaddaştha-ye təfsili) be ehtemam-e doktor Əbdülhüseyn Nəvayi. Tehran, 1347, s.185-186
231. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 121
232. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 482
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.311
233. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 482
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.311
234. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s.206-207
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.182
235. Vural G. Əz kax-e həşt beheşt ta kax-e topqapı. "Peyam-e Baharıstan" jurnalı, N- 12, 1390, s.12
236. Yenə orada
237. Yenə orada. s. 14
238. Yenə orada, s. 18-30
239. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 207
240. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 503

Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 535
241. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 96-97
242. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 534
243. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 122
244. Şah İsmayılın türk siyasəti və kulturel yeri ,s.102
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri
245. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s. 64
246. Yenə orada, s. 75
247. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s. 65
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s. 184
248. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 503
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 534
249. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 122
Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s.207
250. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 122
251. Yenə orada, s. 123
252. Yenə orada
253. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 124
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.312
254. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s.67
Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 207
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 514
255. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 515-516
256. Türk Silahlı Kuvvetleri tarihi. Çaldıran meydan müharibesi... , s. 126
257. Yenə orada, s. 128
258. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 518
259. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 97
260. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 518-519
261. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 505
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 534
262. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 505
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 534
263. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s. 112
264. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 313
Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 211
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 521-522
265. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 314
Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 211
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 522
266. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s. 112-113
267. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 211

268. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s.87-91
Şah İsmayıl Səfəvi (Əsnad və məkatebat-e tarixi həmrah ba yaddaştha-ye təfsili) be ehtemam-e doktor Əbdülhüseyn Nəvayi. Tehran, 1347, s.235-238
269. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 527
270. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 98
271. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.528
272. Yenə orada, s. 528-529
273. Yenə orada, s. 531
274. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 214-215
275. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.107-108
276. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.530
277. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s. 115
278. Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 216
279. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 514
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.538
280. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 514
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.539
281. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 515
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.539
282. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.191
283. Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s. 229
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.191
284. Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353, s. 229
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.190
285. Xəlili N. Mürmid-i kamil dər cəng-e Çaldıran.
http:// m-hoseyni.ir. مرشد کامل رد جنگ چالدران
286. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Elektron variant. Ankara, 2015, s. 369
287. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 454
288. Yenə orada, s. 455
289. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s. 97
290. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 339
291. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 527

# V FƏSİL

# ŞAH İSMAYILIN ÇALDIRAN DÖYÜŞÜNDƏN SONRAKI HƏRBİ-SİYASİ FƏALİYYƏTİ

## 1.Səltənət daxilində hərbi-siyasi sabitliyin təmin edilməsi

Çaldıran döyüşü və onun nəticələri Şah İsmayılın dövlətçilik, hərbi və ictimai-siyasi həyatında yeni bir səhifənin başlanğıcı oldu. Heç bir halda uğursuzluqla sona çatacağı ehtimal edilməyən bu döyüşün nəticələri ilk növbədə Şah İsmayılda fərqli bir mənəvi durum yaratdı, zehniyyatında, dünyaya baxışlarında təmkinliliyə meyli xeyli gücləndirdi. 12-13 yaşında ikən Gilandan başlanan və Səfəvilər dövlətinin qurulması ilə başa çatan və sonra da şərqdə, qərbdə, cənubda bu dövlətin ərazilərinin xeyli genişləndirilməsi ilə tamamlanan hərəkatında Şah İsmayıl ilk dəfə olaraq Çaldıranda uğursuzluqla qarşılaşdı. Bu uğuruzluq onun özünə olan ifrat arxayınçılığına yenidən baxmağa vadar etdi və bir-birinin ardınca sıralanan hərbi qələbələrdən sonra belə bir sınaqla qarşılaşması ağır bir mənəvi yük kimi onun üzərinə düşdü. Çaldıran döyüşündən sonra Şah İsmayıl qara geyindi, başına qara papaq qoydu, hər yerdə qara bayraqlar asdırdı, bu bayraqların üzərinə ağ hərflərlə "qisas" sözünü yazdırdı, məmləkətin hər yerində Çaldıran şəhidlərinə yas saxlanılmasını əmr etdi. Mövcud olan məlumatlara görə, Çaldıran döyüşündən sonra dünyaya gəlmiş övladını da bu döyüşün nəticələrinin yaratdığı təəssüratların ifadəsi kimi Elqas Mirzə adlandırdı. Bildirilir ki, Çaldıran döyüşündən sonra Şah İsmayılın məzhəb baxışlarında da bir yumşalma baş verdi və şiəliyin təbliğində kəskinlikdən əl götürdü (1).

Şah İsmayıl Çaldıranda özünün tanınmış sərkərdələrini və sirdaşlarını, çoxlu sayda igid döyüşçülərini itirdi. Səfəvi şahı onların ruhuna böyük ehtiramla yanaşdı və onların xeyli hissəsinin nəşini Ərdəbilə gətizdirərək Şeyx Səfi türbəsinin kənarındakı məzarlıqda dəfn etdirdi. Bu məzarlıq indi də qalmaqdadır.

Şah İsmayıl Çaldıran döyüşündən sonra ömrünün sonunadək bir də qoşunların hərbi yürüşlərinə və döyüşlərinə müstəqimən rəhbərlik etmədi, diqqətini daha çox dövlətin möhkəmləndirilməsinə, xarici əlaqələrin qurulmasına, məmləkətin ictimai-mədəni həyatına istiqamətləndirdi. Dövlətini sərhədlərinin genişləndirilməsi sahəsində də Şah İsmayıl əvvəlki fəal siyasətinin davam etdirilməsini məqsəduyğun saymadı və hərbi qüvvənin tətbiqini də başlıca olaraq mövcud sərhədlərin qorunması və məmləkət daxilində ictimai-siyasi sabitliyin yaradılması ilə bağladı.

Osmanlı dövləti ilə aparılan müharibənin dövlət nizamına vurduğu zərbələrin, meydana gəlmiş boşluqların tezliklə aradan qaldırılması da Şah İsmayılın diqqət mərkəzində olan məsələlərdən birinə çevrildi. Döyüşün gedişində bəzi

vəzirlər və əyanlar dünyasını dəyişmiş, bəziləri isə vəzifələrini lazımınca icra edə bilməmişdilər. Bunlardan doğan boşluğun aradan qaldırılması üçün Çaldıran döyüşündən dərhal sonra Şah İsmayıl bir sıra dövlət vəzifələrinə yeni təyinatlar apardı. O cümlədən saray vəkili olmuş və Osmanlı sarayına elçilikdən geri qayıtmamış Nizaməddin Əbdülbağinin yerinə onun müavini Mirzə şah Hüseyn İsfahani təyin edildi. Digər mühüm bir təyinat isə dini işlərə rəhbərlik edən sədarət vəzifəsinə aparıldı. Bu vəzifəyə Azərbaycanın tanınmış fazillərindən olan Əmir Şəhabəddin Abdulla təyin olunmuşdu. Əmir Şəhabəddin dövrünün tanınmış və nüfuzlu alimlərindən biri idi. Lakin sədarət vəzifəsində dini işlərə rəhbərliyi lazımi səviyyədə deyildi. Ona görə Şah İsmayıl onun yerinə Əmir Cəlaləddini təyin etdi. Əmir Cəlaləddin də çox tezliklə məmləkət daxilində dini işlərini nizama sala bildi. Məhəmməd xan Ustaclının yerinə onun qardaşı Qaraxanın Diyarbəkr hakimiliyinə təyin edilməsi və Şah İsmayılın bacısı (şəhid olmuş Məhəmməd xan Ustaclının xanımı) Pəri bəyimin ona nikah edilməsi də həmin dövrə təsadüf edir (2).

Adları çəkilən bu iki adamdan biri dövlət idarəçiliyinə rəhbərliyi, digəri isə dini işlərə rəhbərliyi öz üzərinə götürdü. Dövlətin yüksək vəzifələrinə əlavə təyinatlar haqqında mənbələrdə elə də geniş məlumatlar yoxdur. Çox güman ki, bu təyinatlar dövlət həyatının bütün sahələrini əhatə etmişdi. Şah İsmayıl yalnız dövlət strukturlarının işinin təkmilləşdirilməsi ilə məşğul olmadı. O eyni zamanda Osmanlı dövləti ilə müharibənin gedişində məmləkət əhalisinə dəymiş ziyanların, ölkəyə yetirilmiş dağıntıların aradan qaldırılmasına xüsusi diqqət ayırdı, insanların ağrılarını yumşaltmağa çalışmaqla, baş verən dağıntıların bərpa olması istiqamətində də lazımi addımlar atdı (3).

Sultan Səlim Osmanlı qoşunları ilə Təbrizi tərk edəndən sonra Şah İsmayıl Təbrizə döndü və 1515-ci ilin qışını orada keçirdi. Havalar qızmağa başlayandan sonra isə həmin ilin yazında Şah İsmayıl əvvəlcə Ucan çəməninə gəldi və bir müddət də orada məskən saldı. Sonra isə Şah İsmayıl əcdadlarının məzarını ziyarət etmək üçün Ərdəbilə yollandı. Şah İsmayıl Şeyx Səfi türbəsində oldu, Şeyx Səfini və digər əcdadlarını ziyarət etdi, bu türbənin xadimlərinə nəvaziş göstərdi. Bu ziyarətdən sonra isə Şah İsmayıl Səhənd yaylağına getdi. 1515-ci ilin yayını və payızını Şah İsmayıl Səhənd yaylağında keçirdi. Elə həmin aylarda da Şah İsmayılın Elqas Mirzə adlandırılan oğlu dünyaya gəldi. Əvvəlki fəsildə qeyd edilmişdi ki, Çaldıran döyüşündə Fars hakimi Xəlil Sultan qorxaqlıq nümayiş etdirərək döyüşə girməkdən imtina etmişdi. Şah İsmayıl Səhənd yaylağında olarkən onu cəzalandırmağa qərar verdi və bunun üçün Kor Süleymanın rəhbərliyi altında Şiraza qoşun dəstəsi göndərdi. Bu dəstə də Şiraza yollanaraq Xəlil Sultanı qətlə yetirdi. Qərb sərhədlərində Osmanlı qoşunlarına qarşı müəyyən müqavimət ocaqları istisna olmaqla 1515-ci il ərzində məmləkət daxilində Şah İsmayıl tərəfindən qoşunların istifadəsi yalnız Xəlil Sultanın cəzalandırılması ilə bağlı baş verdi. 1515-ci ilin sonlarında Şah İsmayıl yenidən Təbrizə döndü və qışı orada keçirdi (4).

Səfəvi tarixinə aid olan mənbələrdə 1514-1515-ci illərdə Xorasan vilayətində baş verən kütləvi aclıq və Məhəmməd Zaman Mirzənin rəhbərliyi altın-

da Səfəvi dövlətinə qarşı üsyan qaldırılması halları da öz əksini tapmışdı. Bu hadisələrin hər ikisi bu və ya digər şəkildə Səfəvi dövlətinin tarixində müəyyən izlər buraxmışdı.

Mənbələrin məlumatına görə, Xorasan vilayətində kütləvi aclıq hallarının baş verməsi özbək silahlı dəstələrinin və qoşunlarının həmin illərdə davamlı olaraq talançı yürüşlər etməsi ilə bağlı idi. Xüsusən, Xorasanda Səfəvi hakimiyyətinin bərqərar olması ərəfəsində həyata keçirilən talançı yürüşlər əyaləti vartoxdan çıxarmaqla bərabər, təsərrüfatın inkişafına da güclü zərbə vururdu. Bu da ona gətirib çıxardı ki, bölgədə təsərrüfat böhranlı hala düşdü və nəticədə qıtlıq və aclıq kütləvi hal aldı. Mənbələrin göstərdiyinə görə, aclıq elə bir dəhşətli hal almışdı ki, səhərdən axşama kimi vilayətin yaşayış məntəqələrində acların ahzarını eşitmək mümkün idi. Xorasan daxilində arpa və buğda tapılması, ümumiyyətlə, mümkün deyildi. Aclığın qarşısının alınması üçün əyalət daxilində ev heyvanları da qalmamış və hamısı kəsilmişdi. Bununla da aclığı aradan qaldırmaq mümkün olmayanda insanlar itlərin və pişiklərin kəsilməsinə başlamışdılar. Havaların isti olduğu vaxtlar göyərti və meyvələr aclığın aradan qaldırılmasına müəyyən köməklik etsə də, qış aylarında vəziyyət yenidən kəskin hal alırdı. Mövcud olan məlumata görə, Xorasanın bəzi məntəqələrində yaşayan tayfalar rastlarına keçən insanların ətlərinin yeyilməsinə başlamışdılar. Doğrudur, vilayətin rəsmi məqamları bu hadisənin qarşısını almağa çalışrdılar (5). Bununla belə, aclığın və qıtlığın davam etməsi hakimiyyət nümayəndələrini də ağır duruma salmışdı.

Çaldıran döyüşündən sonra məmləkətin şimal-şərqində baş verən narahatedici hadisələrdən biri də Məhəmməd Zaman Mirzənin rəhbərliyi altında dövlətə qarşı kütləvi itaətsizlik hadisəsinin baş verməsi idi. Məhəmməd Zaman Mirzə teymurilər nəslindən idi. Onun atası Bədüzzəman Osmanlı dövləti ilə əməkdaşlığı qəbul etmişdi. Məhəmməd Zaman Mirzə isə Şah İsmayılın xidmətində idi. Çaldıran döyüşündə Şah İsmayılın uğursuzluğundan xəbər tutandan sonra Məhəmməd Zaman xan belə güman etdi ki, artıq Səfəvi dövləti süquta uğramaq ərəfəsindədir. Ona görə də mövcud şəraiti özünə fürsət bilib hakimlik iddiasına düşdü və bu niyyətlə də Astrabada yollandı. O burada yerli türkmən tayfasından ətrafına bir dəstə toplayıb Astrabad hakimliyinə olan iddiasını ortaya qoydu. Bu şəhərin hakimi Pirqeyb xan biləndə ki, Məhəmməd Zaman Mirzə ətrafına böyük bir dəstə toplayıb və həmin dəstənin öhdəsindən gəlmək ona çətin olacaq, onda müqavimət göstərmədən şəhəri tərk etdi. Bununla, Məhəmməd Zaman Mirzə elə bir çətinlik çəkmədən Astrabad hakimliyini ələ keçirdi. Həmin məlumat Şah İsmayıla çatanda bu itaətsizliyin aradan qaldırılmasına göstəriş verdi. Bu tapşırığın həyata keçirlməsi üçün Esfəreyn hakimi Sultan Təkaluya və onunla birlikdə Xacə Müzəffər Betəkçiyə göstəriş verildi. Adları çəkilən şəxslər Astrabad üzərinə hərəkət edəndə Osmanlı-Səfəvi müharibəsinin necə qurtarması və Şah İsmayılın harada olması barəsində məlumata malik deyildilər. Ona görə də onlar Astrabada doğru aramla irəliləyir və tezliklə Təbrizdən xəbər alacaqlarına ümid edirdilər. Onlar tezliklə belə bir xəbəri ala

bildilər. Təbrizdən xəbər gətirildi ki, Osmanlı sultanı Təbrizə daxil olsa da bu şəhərdə dayana bilməyib və Şah İsmayıl yenidən Təbrizə dönərək hakimiyyət başındadır. Bu məlumatı alandan sonra Sultan Təkalu ilə Xacə Müzəffər Betəkçi Astrabada doğru hərəkətlərini xeyli sürətləndirdilər. Cürcan yaxınlığında Səfəvi əmirlərinin rəhbərlik etdiyi qoşun dəstəsi ilə Məhəmməd Zaman Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsi arasında döyüş baş verdi. Məhəmməd Zaman Mirzə bu döyüşdə məğlub oldu və o, Ğərcistana qaçaraq oranın hakimi Əmir Orduşaha ("Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Əmir Ərdovan adlandırılmışdır) sığındı (6). Amma Məhəmməd Zaman Mirzənin Səfəvi dövlətinə qarşı asiliyi bununla tamamlanmadı və bir müddətdən sonra o, yenidən dövlətə qarşı üsyan qaldırmağa cəhd göstərdi.

Məhəmməd Zaman Mirzənin dövlətə qarşı asilik etməsi və Şah İsmayıla sədaqətsizlik göstərməsi "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində daha geniş və təfərrüatlı şəkildə verilmişdir. Bu əsərlərdəki məlumata görə də, Çaldıran döyüşündə baş verən uğursuzluğu Məhəmməd Zaman Mirzə Səfəvi şahının zəifləməsi kimi qəbul etdi və belə bir fikrə düşdü ki, bu məqamdan istifadə etməklə Xorasanın hakimliyini ələ keçirə bilər. Bu niyyətlə gizli şəkildə o, Şah İsmayıla xidmətdən qaçaraq Astrabadda məskunlaşmış Yəğə türkmanların arasına gəldi. Məhəmməd Zaman Mirzə orada Şah İsmayılın Çaldıran döyüşündə öldürülməsi xəbərini yaydı və sonra da onlardan bölgədə hakimyyəti ələ keçirmək üçün kömək istədi. Məhəmməd Zaman Mirzə onlara vəd etdi ki, əgər onun hakimiyyətə gəlməsinə köməklik göstərilsə, onda türkmanların bütün arzularının həyata keçməsinə çalışacaqdır. Yəğə türkmanlarının rəhbəri olan Qazi xan onu dəstəkləməyi qərara aldı və Məhəmməd Zaman Mirzəni də yanına alıb qoşun dəstəsi ilə Astrabad hakimi Pirğeyb xanın üstünə hücum çəkdi. Pirğeyb xan onun üstünə gələn qoşun dəstəsi qarşısında müqavimət göstərməyin çətin olduğunu bilib geri çəkildi və Astrabadı tərk edib Damğana yollandı. Mənəmməd Zaman Mirzənin qiyam qaldırması və Astrabadı ələ keçirməsi xəbəri tezliklə Şah İsmayıla çatdırıldı. Şah İsmayıl bu xəbəri ciddi bir narahatçılqıla qarşıladı. Onun gümanınca, Astrabadın Səfəvi dövlətinə tabeçilikdən boyun qaçırması qonşu bölgələrdə də oxşar proseslərin təkrarlanmasına yol aça bilərdi. O, xüsusilə özbək xanlarının yenidən qoşun toplayıb Xorasanı öz nəzarəti altına ala bilməsindən ehtiyat edirdi. Məhəmməd Zama Mirzənin asiliyi xəbəri alınandan sonra Şah İsmayıl Təbrizdən Sultaniyyəyə yollandı. Burada o, Bülənd bəy ("Aləmara-yi Şah İsmayıl" əsərində Pəsənd bəy kimi göstərilmişdir) adlı yüzbaşıya 700 nəfərlik bir dəstə həvalə edərək Astrabada göndərdi. Şah İsmayılın tapşırığına əsasən, Bülənd bəy Astrabada göndərilməsi nəzərdə tutulan qüvvələrin ön dəstəsi kimi nəzərdə tutulmuşdu. Şah İsmayıl ona bildirdi ki, ardınca ya özü və ya da təyin etdiyi bir adam daha böyük qoşun dəstəsi ilə Astrabada gələcəkdir. Bülənd bəy yolunu Damğan və semnandan salmalı, Astrabad hakimi Pirğeyb xanı yanına almalı və sonra da Firuzkuha yollanmalı idi. Bu dəstə Firuzkuhda dayanmalı və arxadan əsas dəstənin gəlməsini gözləməli idi (7).

Bülənd bəy də bu tapşırığı alan kimi dərhal hərəkətə başladı və Xar adlı bir dağın ətəklərinə çatanda silahlı bir adamın hərəkət etməsini müşahidə etdi. Həmin adam qızılbaşlardan olmadığı üçün onun ələ keçirilməsi barədə göstəriş verildi. Sorğu-sual zamanı əsir götürülmüş silahlı Məhəmməd Zaman Mirzənin casusu oduğunu etiraf etdi. Məhəmməd Zaman Mirzə onun vasitəsilə İstanbulda Osmanlı sultanının xidmətində olan atası Bədiüzzamana məktub göndərirmiş. O, atasından necə hərəkət etməli olduğu barədə məsləhət istəyirdi və məktubu aparan adam da Bədiüzzəmandan aldığı cavabı geri gətirməli idi. Adları çəkilən mənbələrdə bu məktublar fərqli redaktə ilə verilmişdir. "Aləm Araye Səfəvi" əsərində həmin məktubun mətni belə idi: "Nə üçün siz Xorasanı almağa iradə göstərmirsiniz. Mən Astrabadı aldım. Əgər siz 50 min nəfərlə Şirvan tərəfdən gəlsəniz bütün Şirvanı tuta bilərsiniz. Oradan isə Gilan yolu ilə Astrabada gəlin və bütün Xorasanı tutaq. Həzrət sultan Azərbaycanda Şeyxoğlunun qarşısını kəssin. İki tərəfdən hərəkət edək və bu xis yumruğu qarşımızdan götürək" (8).

Bu məktubun "Aləmara-yi Şah İsmayıl" əsərindəki variantında deyilir ki, iki tərəfdən qoşunların hərəkəti nəticəsindən bütün İranı ələ keçirmək mümkündür. Sonra da Məhəmməd Zaman Mirzə əlavə edirdi ki, Xorasan vilayəti bizim əcdadlarımıza mənsub olduğu üçün İran alınandan sonra bu vilayət bizə şəfqət olunar (9).

Bülənd bəy əsir götürdüyü silahlını Məhəmməd Zaman Mirzənin məktubu ilə birlikdə Şah İsmayılın sərəncamına göndərdi. Özü isə hərəkətini davam etdirdi. Şah İsmayıl əsirin apardığı məktubla tanış olduqdan sonra Bülənd bəyə göstərdiyi huşyarlığa görə bahalı hədiyyə göndərdi. Bu hədiyyə həm Bülənd bəyi, həm də Pirğeyb xanı çox sevindirdi. Onların fikrincə, bir casusun tutulmasına görə onlar bahalı hədiyyə almışdılarsa, daha böyük uğura görə Şah İsmayılın daha böyük səxavəti ilə qarşılaşa bilərdilər. Ona görə onlar qərara aldılar ki, arxadan əsas qüvvələrin gəlməsini gözləmədən Astrabada hərəkət etsinlər və yerli əhaliyə arxalanmaqla bu şəhəri Məhəmməd Zaman Mirzədən azad etsinlər. Pirğeyb xan və Bülənd bəy Firuzkuhda 2 min 700 nəfərlik qoşun dəstəsi toplaya bildilər. Onlar bilirdilər ki, Məhəmməd Zaman Mirzənin sərəncamında 6 min nəfərlik ("Aləmara-yi Şah İsmayıl" əsərində görə isə 4 min nəfərlik) qoşun dəstəsi vardır. Bununla belə, onlar qarşı tərəfin say üstünlüyündən çəkinmədilər və qərara aldılar ki, qəfil hücum həyata keçirməklə Məhəmməd Zaman Mirzənin dəstəsini çaş-baş salsınlar və məqsədlərinə nail olsunlar. Belə də oldu. Onların qoşun dəstəsi yürüşə hazır olan kimi Astrabad üzərinə hücum etdilər. Astrabada yaxınlaşanda Bülənd bəylə Pirğeyb xan kərənayın səsləndirilməsi haqqında göstəriş verdilər. Hər hansı bir təhlükənin yaxınlaşmasını gözləməyən türkman qoşun dəstəsi bu zaman silahlarını kənara ataraq vaxtlarını istirahətdə keçirirdilər. Gecə vaxtı həyata keçirilən bu hücumla Səfəvi qoşun dəstəsi qısa zaman ərzində yerli əhalinin köməyi ilə Astrabadı ələ keçirdi. Bu hücum elə bir sürətlə həyata keçirildi ki, Məhəmməd Zaman Mirzə və onun sərəncamında olan qüvvələr toparlanıb müqavimət göstərə bilmədilər. Məhəmməd Zaman Mirzənin də qaçmaqdan başqa çarəsi qalmadı. Ətrafına aldığı min nəfərlik bir dəstə ilə o,

Herata getmək istəyirdi. Bundan xəbər tutulanda Xacə Müzəffərin rəhbərliyi altında min nəfərlik Səfəvi qoşun dəstəsi onları izləməyə başladı. Səfəvi dəstəsi tezliklə türkman dəstəsinə yetişə bildi. Bu dəstələr arasında qızışan döyüşdə də Səfəvi qoşun dəstəsi üstün gəldi. Bülənd bəy də sonradan dəstəsi ilə özünü bu döyüşə yetirdi və türkman dəstəsi bütünlüklə məhv edildi. Amma Məhəmməd Zaman Mirzə iki atlının müşayiəti ilə canını salamat qurtararaq qaçmağa müvəffəq oldu (10).

Bir neçə gün Astrabadda qaldıqdan sonra Bülənd bəy görülən işlər barəsində məlumat vermək üçün Şah İsmayılın hüzuruna yollandı. Bülənd bəyin Pirğeyb xanla birlikdə Astrabadın alınması üçün göstərdikləri şücaət Şah İsmayılı çox sevindirdi. Bu barədə məlumat alandan sonra Şah İsmayıl mükafat olaraq Bülənd bəyə sultan məqamı əta elədi və bundan sonra o, Bülənd sultan adlandırıldı. Onun yüzbaşılıq məqamı isə qardaşına verildi. Pirğeyb xan da göstərdiyi şücaət qarşılığında mükafatsız qalmadı. Ona isə Məşhədin bəylərbəyliyi vəzifəsi verildi (11).

Məhəmməd Zaman Mirzə Xorsanı adlayaraq Herata yollanmaq istəyirdi. Lakin yol boyu yerli əhalinin on olan düşmən münasibətinin şahidi oldu və hətta özünün kim olduğunu söyləməkdən də ehtiyatlanmağa başladı. Belə olanda yolunu Ğərcistan hakimi Əmir Ərdovanın yanına saldı. Əmir Ərdovan əslən Firuzkuhdan idi. Şah İsmayıl Firuzkuhu nəzarət altına alanda və Hüseyn Çilaviyə qarşı döyüş keçirəndə Əmir Ərdovan Səfəvi hakimiyyətini tanımaqdan imtina etdi. Belə olanda o, bütün tayfasını Firuzkuhdan köçürdü və Ğərcistan yaxınlığındakı dağlarda məskən saldı. Məhəmməd Zaman Mirzənin Astrabaddan qaçması ərəfəsində Məlik Nizaməddin dövlət qoşunları tərəfindən qətlə yetirilmiş və Ğərcistan hakimsiz qalmışdı. Ğərcistan hakimliyini ələ keçrdiyi üçün Əmir Ərdovan hətta özünə "şah" ləqəbi də qəbul etmişdi. Mənbələrin məlumatına görə, Əmir Ərdovanın hakimlik təcrübəsi və qabiliyyəti yox idi və ona görə Məhəmməd Zaman Mirzənin bölgəyə gəlməsi onun da sevincinə səbəb oldu. Məhəmməd Zaman Mirzə, əslində, Herata yollanmaq və sonra da Kabulda Babur padşahın xidmətinə getmək niyyətindən əl çəkməmişdi. Ğərcistana yetişəndə Əmir Ərdovan onu bu niyyətindən çəkindirdi. Əmir Ərdovan bildirdi ki, hazırda onun sərəncamında 7 min nəfərlik bir qoşun dəstəsi var. Gələcəkdə bu qoşun dəstəsinin sayını artırmaqla əvvəlcə Heratı nəzarət altına almaq və sonra da hakimiyyəti ətrafa genişləndirmək mümkündür. Məhəmməd Zaman Mirzə də bununla razılaşdı və Ğərcistanda qalaraq qoşun dəstəsinin toplanması ilə məşğul olmağa başladı (12).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Çaldıran döyüşündən sonra özbək xanlarının Xorasana hücum etməsi haqqında da məlumat vardır. Həmin əsərlərdəki məlumatlar hətta özbək xanlarının Xorasana hücumunun Təhmasib Mirzənin bu bölgəyə gəlməsindən əvvəl baş verdiyini bildirirlər. İstər Məhəmməd Zaman Mirzənin yalan təbliğatından, istərsə də ayrı-ayrı yoxlanılmamış məlumatlardan bölgədə belə bir şayiə yayılmışdı ki, Çaldıran döyüşü Osmanlı qoşunlarının uğuru ilə başa çatıb və Şah İsmayıl da bu döyüşdə

öldürülüb. Bildirilir ki, özbək xanları Şah İsmayılın öldürülməsini Xorasana və Türküstana hakim olmaq üçün yaranmış bir şans kimi qiymətləndirdilər və ona görə də dərhal hərəkətə keçmək qərarına gəldilər. Əvvəlcə Ətrar hakimi Canı bəy 20 min nəfərlik qoşun dəstəsi ("Aləmara-yi Şah İsmayıl" əsərinə görə isə 30 min nəfərlik qoşun dəstəsi ilə) toplayaraq Bəlxin işğal edilməsinə yollandı. Cani bəy hərəkətə gəlmək haqqında digər özbək xanlarına da xəbər göndərdi. O, Übeydulla xana göndərdiyi məktubunda belə yazmışdı: "Şeyxoğlunun başına belə bir iş gəlmişdir. Mən gedirəm Bəlxi almağa. Nə deyirsən. Əgər Xorasanı almaq iradən varsa yaxşı olar" (13).

Bu məlumatı alandan sonra Übeydulla xan da hərəkətə gəldi və 30 min nəfərlik qoşun dəstəsi ilə Xorasanın işğal edilməsinə yollandı. Übeydulla xan eyni zamanda Səmərqənd hakimi Məhəmməd Teymur xana xəbər göndərdi və onu da Xorasanın, Bəlxin və Heratın tutulmasında iştirak etməyə çağırdı. Məhəmməd Teymur xan isə Nəqşbəndi təriqətinin Səmərqənddə tanınmış nümayəndəsi olan Xacə Əbdülrəhimlə hərbi yürüşə çıxıb-çıxmamağın məqsəduyğunluğu barəsində məsləhətləşdi. Xacə Əbdülrəhim isə birmənalı şəkildə Səfəvi dövlətinə qarşı çıxmağın düzgün olmadığını bildirdi. Məsləhət gördü ki, tələskənliyə yol verilməsin, Məhəmməd Teymur xan dözümlü olsun, səbr edərək Şah İsmayılın vəziyyəti haqqında doğru məlumatlar əldə etsin və sonra qərara gəlinsin. Məhəmməd Teymur xan bu məsləhətə qulaq asdı və Xorasana qoşun çəkməkdən imtina etdi (14).

Canı bəy və Übeydulla xan sərəncamlarında olan qoşun dəstələri ilə Bəlxə doğru istiqamət götürdülər. Onlar əvvəlcə yolları üstündə olan Hisari-Şadman qalasını ələ keçirməyi qərarlaşdırdılar. Bu qala kifayət qədər möhkəm qala olsa da, özbək qoşunlarının sayca xeyli çox olmasından ehtiyatlanan qala hakimi Mehdi Atalıq xan Mirzə Bəlx hakimi Div Sultandan kömək istədi. Onun göndərdiyi elçiyə Div Sultan bildirdi ki, on gün qalanın müdafiəsinə cəhd göstərilsin və bu müddət ərzində qoşun dəstəsi ilə özünü ora yetirəcəkdir. Div Sultan Hisari-Şadman qalasının özbək qoşunları tərəfindən işğalına yol verməmək üçün dərhal da 3 min nəfərlik qoşun dəstəsi ilə ora yollandı. Adları çəkilən mənbnələin verdiyi məlumatlara görə, Hisari-Şadman qalasına ilkin olaraq Canı bəyin qoşun dəstəsi yetişmişdi. Canı bəy öz adamları vasitəsilə həm də Div Sultanın hərəkətlərini nəzarət altında saxlayırdı. Div Sultanın qoşun dəstəsi ilə Hisari-Şadmana doğru hərəkətə başlaması haqqında məlumat alan kimi, Canı bəy dərhal Übeydulla xanın yanına adam göndərdi və onun köməyə gəlməsini xahiş etdi. Übeydulla xan o vaxt qala ətrafına yetişdi ki, Div Sultan öz qoun dəstəsi ilə ora yetişmişdi və həm Div Sultan, həm də Canı bəy döyüşə hazır vəziyyət almışdılar.

Übeydulla xanın qoşun dəstəsi ilə yetişməsi özbək qoşunlarının say üstünlüyünü daha da artırdı. 50 min nəfərdən artıq bir qoşun dəstəsinə qarşı Div Sultanın kiçik bir qoşun dəstəsi döyüşə atılmalı idi. O, döyüşə girməzdən əvvəl Übeydulla xana məktub göndərdi və ona Şah İsmayıla qarşı qoşun çəkmək barəsində verdiyi sözü xatırlatdı. Div Sultanın məktubunda deyilirdi: "Sizin

hamınızın arvadlarınız talaqdan düşdü. Çünki siz şəhriyara (Şah İsmayıl nəzərdə tutulur - M.S.) and içmişdiniz ki, qızılbaşlarla müharibə etmək üçün bir də Ceyhun çayını adlamayasınız. Doğrudan da sizin heç birinizin etibarı, iqrarı və məzhəbi yoxdur". Bu məktubu gətirən elçi vasitəsilə Übeydulla xan Div Sultana belə bir cavab göndərdi: "Biz öz andımızdan və əhdimizdən dönməmişik. Bz and içmişdik ki, Şah İsmayıl sağ olduğu vaxt Bəlxin tutulması üçün bu tərəfə gəlməyək. Amma şah Rum qeysəri ilə Çaldıran müharibəsində öldürüldüyü üçün biz də fürsət tapıb gəldik. Sabah Rum qoşunları gəlib bütün Xorasanı tutacaqlarsa, onda nə üçün biz bu gün bizə məxsus olan mülkü tutmayaq?" (15).

Div Sultan bu xəbəri alandan sonra bir də öz nümayəndəsini Übeydulla xanın yanına göndərdi və onu bir daha öz əməlindən çəkindirməyə çalışdı: "Bu sözlər yanlış və yalandır. Bizim bu söhbətlərdən xəbərimiz yoxdur. Əgər Allah eləməmiş belə bir hadisə baş versəydi, qızılbaş əmirlərindən kimsə bizim yanımıza gəlmiş olardı. Necə ola bilər ki, bu xəbər biz çatmamışdan əvvəl sizə çatmışdır. Nə üçün onda bu, fitnə-fəsada səbəb olsun və bir dəstə də bizim aramızda öldürülsün. Ona görə səbr edin, əgər bu məlumat doğru olsa, biz sizinlə müharibə etməyəcəyik, bu vilayəti sizin ixtiyarınıza verib gedəcəyik" (16).

Übeydulla xan bu təkliflə də razılaşmadı. Aldığı məktubun cavabında bildirdi ki, onun qərarı birdir - ya vilayət ona təhvil verilməlidir, ya da tərəflər arasında döyüş başlamalıdır. Beləliklə, istinad olunan mənbələrin məlumatına görə, Übeydulla xan öz israrından əl çəkmədi. Belə olanda, Div Sultan əvvəlcə bir dəstəni çərxçi kimi döyüşə atdı və sonra isə özü qoşun dəstəsi ilə döyüşə qoşuldu. Mənbələrdəki məlumatlara görə, Div Sultan bu döyüşdə sonsuz şücaət göstərdi və hətta onun bu şücaəti Übeydulla xanı da təəccübə saldı. O özlüyündə belə bir qənaətə gəldi ki, əgər qızılbaş döyüşçüləri kimi 10 min nəfərlik bir qoşuna sahib olsaydı, onda bütün dünyanı fəth edə bilərdi. Div Sultan isə qoşun dəstəsi ilə özbək qoşunlarını pərən-pərən salaraq özünü Canı bəyin ələminə yetirə bildi. Həmin ələmi ələ keçirməyə az qalmışdı ki, özbək qoşunları onu ox yağışına tutdular. Məlumata görə, Div Sultan hətta Übeydulla xanın da ələmini ələ keçirmək cəhdi göstərmişdi. Übeydulla xanın göstərişi ilə özbək qoşunları yenidən qruplaşdılar və Div Sultanı əhatəyə aldılar ki, onu yenidən ox yağışına tutsunlar. Div Sultan bir neçə ox yarası aldı və bütün cəhdlərinə baxmayaraq özbək qoşunlarının müqavimətini qıra bilmədi. Div Sultanın dəstəsinə də xeyli itki yetirildi. Sonda o, min nəfərlik dəstəsi ilə mühasirəni yarmağa və döyüş meydanından uzaqlaşmağa müvəffəq oldu. Div Sultan döyüşçülərinin əksəriyyəti yaralı olan dəstəsi ilə Faryaba yollandı. Onun damadı Məhəmməd xan, Faryab hakimi idi. Burada onun zirehinə, geyiminə, bədəninə, papağına, atına, atın yəhər və yüyəninə sancılmış oxları bir-bir çıxardırlar və mənbə məlumatlarına görə, onların sayı yüzdən artıq idi. Amma bu oxlar Div Sultana ciddi xəsarət yetirə bilməmişdilər. Yalnız bir ox Div Sultanın dizinə dəyərək onu yaralaya bilmişdi. Div Sultan ona dəymiş bütün oxları toplayıb bir qaba yığdı və sonra da Şah İsmayıln hüzuruna yola düşdü. O istəyirdi ki, ona dəymiş bütün oxları Şah İsmayıla göstərsin. Faryabda qalanlara isə çatdırdı ki, Bəlx

bölgədə çox mühüm strateji əhəmiyyət kəsb edir, bu qala kimin əlindədirsə, ətraf bölgə də onun nəzarəti altında olacaqdır. Ona görə Div Sultan onları Bəlxin müdafiəsinə tələsməyi çağırdı və özü isə Təbrizə yola düşdü (17).

Div Sultan Faryabdan Təbrizə doğru hərəkətə başlayanda Məhəmməd Zaman Mirzə də Əmir Ərdovanla birlikdə 10 min nəfərlik qoşun dəstəsi ilə Heratı ələ keçirmək üçün yola düşmüşdü. Herat hakimi Zeynal xan bu təhlükədən nicat tapmaq üçün qala daxilində müdafiə olunmağı məqsədəuyğun saydı və qala darvazlarını bağlatdırdı. Məhəmməd Zaman Mirzə sərəncamında olan qoşun dəstəsi ilə Herat qalasını mühasirəyə aldı və göstərdiyi bütün cəhdlərə baxmayaraq, bu qalanı ələ keçirə bilmədi. Elə həmin günlərdə Div Sultan da Herat yaxınlıqlarına yetişmişdi. O, Zeynal xanın qala daxilinə sığınaraq müdafiə olunmasını eşidəndə təəccüb etdi və ona belə bir xəbər göndərdi: "Məgər bu 10 min nəfərdən qorxdun ki, qala darvazalarını möhkəmlətmisən? Hər halda qala darvazalarını aç və 700-800 nəfərlik dəstə ilə bayıra gəl və inşallah ki, onları məğlub edəcəyik". Bu sözlərdən də göründüyü kimi, Div Sultan da Zeynal xana kömək etmək istəyirdi ki, birlikdə Məhəmməd Zaman Mirzənin dəstəsini məğlubiyyətə uğratsınlar. Amma Zeynal xan bu təkliflə razılaşmadı və cavab göndərdi ki, Div Sultan getdiyi yolla getsin və bizim onun köməyinə ehtiyacımız yoxdur. Belə olanda Div Sultan orada dayanmağı lazım bilməyib yoluna davam etdi və bir müddətdən sonra Şah İsmayılın hüzurunda oldu. O, Şah İsmayıla həm özünün döyüşü haqqında, ona sancılmış oxlar haqqında, həm də Übeydulla  xanla Canı bəyin Herat üzərinə hücumu haqqında məlumat verdi. Ona dəymiş bütün oxları da Şah İsmayıla göstərdi. Şah İsmayıl onu göstərdiyi şücaəyə görə təqdir etdi və ona dəymiş hər bir oxun əvəzində mükafat ayırdı. Div Sultan eyni zamanda Şah İsmayıldan əlavə kömək istədi ki, yenidən geri yollansın və həm Bəlxin, həm də Heratın müdafiəsini təmin etsin. Şah İsmayıl isə onun yenidən Bəlxə dönməyinə razı olmadı, onu sipəhsalar vəzifəsi verməklə həm də Diyarbəkrin bəylərbəyi təyin etdi. Durna çayından başlayaraq Xoy və Səlmasa qədər olan ərazilər onun hakimiyyəti altında olmalı idi. Ona görə də Div Sultan ona əta ounmuş hədiyyələri alaraq Diyarbəkr istiqamətinə yollanmalı oldu (18).

Bəlx üzərinə qoşun çəkmiş Übeydulla  xanla Canı bəy həmin günlərdə öz casuslarını Təbriz istiqamətində göndrdilər ki, onlar Şah İsmayılın vəziyyəti haqqında doğru-dürüst məlumat gətirsinlər. Həmin casuslar da məmləkətin içərilərinə doğru hərəkət edib məlumat topladılar və onlara aydın oldu ki, Şah İsmayıl sağ və salamatdır və özü də Təbriz sarayındadır. Onlar bu xəbəri Übeydulla  xanla Canı bəyə çatdırdılar. Özbək xanları Şah İsmayılın sağ-salamat olması xəbərini eşidəndə Bəlxdə dayanmağın təhlükələli ola biləcəyini istisna etmədilər və ona görə də oranı tərk edərək öz yurdlarına qayıtmağı qərara aldılar. Bu xanlar qoşunlarını çəkib dərhal da geriyə üz tutdular. Amma Ceyhun çayını adlayandan sonra Übeydulla  xan məlumat aldı ki, Məhəmməd Zaman Mirzə Herat üzərinə hücum edibdir. Bu xəbər Übeydulla  xanda bir daha hakimlik sövdasına meydan verdi və o öz dəstəsini çəkərək yenidən geri qayıtdı və Herata doğru istiqamət götürdü. Übeydulla  xanın da öz qoşun dəstəsi ilə gəlməsi

xəbərini alanda Herat hakimi Zeynal xan müqaviməti davam etdirməyi mənasız saydı. Şəhər daxilində ərzaq da tükənmək üzrə idi. O, ətrafının adamlarını toplayaraq Heratı tərk etdi və Azərbaycana doğru istiqamət götürdü (19).

Məhəmməd Zaman Mirzə isə Herat ətrafında çox da dayanmayaraq Bəlx istiqamətinədə yola düşdü. Div Sultanın Bəlxi tərk etməsi onda bu qala-şəhərin istilasına ümidlər yaratmışdı. Digər tərəfdən çox güman ki, Məhəmməd Zaman Mirzə Bəlxdə müəyyən qüvvələrlə əlaqə yarada bilmişdi. Çünki Bəlx qalası bəzi qüvvələrin satqınlığı nəticəsində müqavimətsiz Məhəmməd Zaman Mirzəyə təslim oldu. Qalanın müdafiəsini öz üzərinə götürmüş Məhəmmədi xan isə şəhər daxilindəki Narın qalaya çəkilərək iki ay ərzində Məhəmməd Zaman Mirzəyə təslim olmadı. İki aydan sonra Məhəmmədi xan Bəlxi nəzarət altına almış Məhəmməd Zaman Mirzənin yanına adam göndərdi ki, onların şəhəri tərk etməsinə imkan versin. Məhəmməd Zaman Mirzə bu xahişi bir şərtlə qəbul etdi ki, Səfəvi əyanlarına məxsus olan bütün var-dövlət təhvil verilməlidir. Məhəmmədi xana belə bir xəbər göndərildi ki, o yalnız Səfəvi namusunu götürüb özü ilə apara bilər. Məhəmmədi xan da bununla razılaşdı. O, Səfəvi əyanlarına məxsus bütün var-dövləti təhvil verdi və yalnız bu əyanların, o cümlədən də Div Sultanın ailəsini götürüb Bəlxi tərk etdi. Amma Məhəmmədi xan Azərbaycan istiqamətində hərkət edə bilmədi. Çünki özbək qoşunları artıq Xorasana və səltənətin içərilərinə aparan yolları nəzarət altına almışdılar. Ona görə də, Məhəmmədi xan Kabula doğru hərəkət etmək məcburiyyətində qaldı. Babur padşah Kabulda onu çox yaxşı qarşıladı. Onun tərəfindən həm Məhəmmədi xana, həm də Səfəvi əyanlarının ailə üzvlərinə böyük hörmət göstərildi. Məhəmmədi xanın atası da Babur padşahın yanında xidmət edirdi və ona görə Babur padşahla Məhəmmədi xan arasında xoş bir münasibət formalaşdı. Babur padşah bu münasibətin nəticəsi kimi, Məhəmmədi xanı yanından buraxmadı və onu sarayında saxladı. Məhəmmədi xanın müşayiət etdiyi Səfəvi əyanlarının, o cümlədən Div Sultanın ailə üzvlərinə isə, bir heçə günlük istirahədtən sonra Babur padşah onları öz yurdlarına yol saldı (20).

Səfəvi qüvvələrinin Bəlx şəhərini tərk etməsi xəbərini eşidəndən sonra Babur padşahda da bu şəhəri ələ keçirmək həvəsi oyandı. O yaxşı bilirdi ki, Məhəmməd Zaman Mirzə bu şəhərə daxil olsa da Übeydulla xanla Canı bəyin qoşunları qarşısında davam gətirə bilməyəcəkdir. Babur padşah böyük bir qoşun dəstəsi toplayaraq Bəlxə doğru istiqamət götürdü. Məhəmməd Zaman Mirzə isə ona müqavimət göstərmək qərarına gəldi və göstəriş verdi ki, qala darvazaları bağlansın və müdafiəyə hazırlıq görülsün. Amma onun müttəfiqi olan Əmir Ərdovan şəhəri mühasirəyə almış qüvvələrə qarşı müqavimət göstərməyin çətin olacağına şübhə etmirdi və ona görə də Məhəmməd Zaman Mirzəyə təklif etdi ki, Babur padşahla danışıqlara başlasın. Əmir Ərdovan güman edirdi ki, dinc yolla qala təhvil verilsə, onda onların yenidən Bəlxdə qalmaq və bu şəhərə hakimlik etmək imkanı da ola bilər. Məhəmməd Zaman Mirzə bu təklifi qəbul etmədi. Onun fikrincə, əgər Əmir Ərdovan belə bir təklifi irəli sürüdüsə, deməli, gizli şəkildə Babur padşahla əlaqə də yarada bilərdi. Buna yol verməmək üçün

Məhəmməd Zaman Mirzə göstəriş verdi ki, Əmri Ərdovanı qətlə yetirsinlər. Amma Məhəmməd Zaman Mirzə bununla da ehtimal etdiyi təhlükədən nicat tapa bilmədi. Əmir Ərdovan qətlə yetirildikdən sonra onun qardaşı Əmir Arslan gizli şəkildə Babur padşahla əlaqə yaratdı və gecə ikən qala darvazalarını açıb Babur padşahın qoşun dəstəsini şəhər daxilinə buraxdı. Məhəmməd Zaman Mirzənin şəhəri tərk edib qaçmaqdan başqa çarəsi qalmadı. Amma Babur padşahın arxadan göndərdiyi qoşun dəstəsi onun dəstəsini haqladı və bu dəstələr arasında döyüş baş verdi. Məhəmməd Zaman Mirzə bu döyüşdə uğursuzluğa düçar oldu və əsir götürüldü. Babur padşah onun miskin vəziyyətini gördükdə ürəyi rəhmə gəldi, onu qətl etdirmədi. Ona and içdirdi ki, gələcəkdə bir daha əlinə qılınc götürüb itaətsizlik yolunu tutmasa onu bağışlamağa, qızını da ona verərək Bəlx hakimi etməyə hazırdır. Məhəmməd Zaman Mirzə də söz verdi və bunun qarşılığında Bəlx hakimi təyin edildi (21).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərinin məlumatına görə, Übeydulla xan Heratı tutduqdan sonra Məşhədə doğru irəlilədi. O bu şəhəri də nəzarət altına aldı və sonra qoşunları ilə qərbə doğru hərəkət etdi və Nişapurdan keçərək Puli-Körpüyə qədər irəlilədi. Bildirilir ki, Übeydulla xan bu məntəqəyə qədər olan əraziləri nəzarət altına aldı və bütün məntəqələrə öz hakimlərini təyin etdi (22).

Amma bu məlumat mənbələrə əsaslanan elmi-tarixi ədəbiyyatda öz təsdiqini tapmamışdır. Mövcud olan məlumatlar onu deməyə əsas verir ki, Çaldıran döyüşündən sonra da özbək xanı Übeydulla xan Osmanlı sultanı Səlim tərəfindən Xorasan vilayətinə hücuma təhrik edilmişdi. Məlumdur ki, Sultan Səlim Çaldıran döyüşündən əvvəl də Übeydulla xanla yazışmalar aparmış və onu Şah İsmayıla qarşı birgə mübarizəyə çağırmışdı. Übeydulla xan, əslində, Şah İsmayılın zəifləməsini və Xorasanın yenidən özbək xanlarının hakimiyyəti altına gətirilməsini istəyirdi. Lakin Übeydulla xan yazdığı cavab məktubunda Sultan Səlimə xoş arzularını bildirsə də, Şah İsmayıla qarşı ittifaqa girmək barəsində konkret fikir söyləmədi. Çaldıran döyüşündən sonra Sultan Səlimlə Übeydulla xan arasında yazışmalar yenidən davam etdi. Übeydulla xan özünün Seyid Məhəmməd adlı elçisi vasitəsilə Sultan Səlimə məktub göndərdi. Həmin məktubda Sultan Səlimə Übeydulla xanın xoş arzuları çatdırıldı. Sultan Səlim həmin məktubu Səfəvi dövlətinin qərbindəki qalaların və məntəqələrin işğalının həyata keçirldiyi günlərdə aldı. Cavab məktubunda da Sultan Səlim Səfəvi sərhədləri boyunca ələ kçeirdiyi məntəqələrdən məlumat verir və bildirirdi ki, Diyarbəkr və Kürdüstan bütün qalaları ilə birlikdə artıq Osmanlı hakimiyyəti altına gətirilmişdir. Sultan Səlim məktubunda həmçinin Şah İsmayıla qarşı birgə mübarizə aparılmasının zəruriliyinə və əhəmiyyətinə də toxunurdu. Onun yazdıqlarına görə, Şah İsmayıl Osmanlı dövləti ilə özbək xanlığı arasında qərar tutmuşdu və onların yaxın əlaqələr qurmasına mane olurdu. Başqa sözlə, Sultan Səlim özbək xanını onların arasında yerləşmiş Səfəvi dövlətini dolayısı yolla parçalamağa çağırırdı. Öz çağırışının əsaslandırılması üçün Sultan Səlim yenə də niyyətlərini din pərdəsi altında gizlətməyə çalışırdı. Sultan Səlim başqa məz-

həbə qarşı mübarizə aparılmasını islam dövlətlərinin borcu kimi qələmə verir və fəsad və fitnə mənbəyi kimi dəyərləndirdiyi şiəliyin məhv edilməsini bütün müsəlmanlar üçün borc bilirdi. Übeydulla xana ünvünladığı məktubunda Sultan Səlim daha onra Səfəvi şahı tərəfindən məktublar aldığına da toxunurdu. Amma özbək xanına göndərdiyi məktubun məzmunu belə bir qənaətə gəlməyə əsas verir ki, Sultan Səlim həmin məktublara qəsdən cavab verməmişdi və Şah İsmayıla qarşı düşmənçilikdən əl çəkmək fikrində deyildi. O, Übeydulla xanı və bölgə xanlarını da birləşərək Şah İsmayıla qarşı birgə mübarizəyə səsləyirdi. Lakin Sultan Səlimin təhrikçi çağırışlarına baxamayaraq Übeydulla xan dərhal Səfəvi hüdudlarına hücum etmək üçün özündə cəsarət tapmadı. Übeydulla xan bir də sultan Səlimin dünyasını dəyişməsindən sonra belə bir cəsarəti özündə tapa bildi (23).

Çaldıran döyüşündən sonra Übeydulla xanın Xorasan üzərinə hücum etməməsi heç də bu vilayətdə mövcud olan vəziyyətin yaxşılaşmasına yol açmadı. Davam etməkdə olan aclıq və səfalət Xorasan vilayətində dağıntıları da xeyli artırmış, vilayətin bütün həyatına güclü bir zərbə vurmuşdu. Xorasanda aclıq və qıtlıq arzuolunmaz nəticələrlə müşayiət olunduğu üçün Bəlx hakimi Div Sultan, Herat hakimi Zeynal xan və Qain hakimi Əmir Sultan Təbrizə gəldilər və bu şəhərdə qışı keçirən Şah İsmayıl ilə görüşdülər. Adları çəkilən adamlar həm Xorasanda tüğyan edən aclıq haqqında, həm də Məhəmməd Zaman Mirzənin və Ğərcistan-Çəxçəran hakimi Əmir Orduşahın dövlətə qarşı itaətsizlik etməsi barəsində Şah İsmayıla məlumat verdilər. İstər aclıq halının, istərsə də dövlətə qarşı itaətsizlik halının qarşısının alınması üçün Şah İsmayıl qətiyyətli tədbirlər həyata keçirilməsini məqsədəuyğun saydı. Onun qərarı ilə Xorasan hakimliyinə oğlu Təhmasib Mirzə təyin edildi. Təhmasib Mirzənin yaşı az olduğu üçün Sarayın nüfuzlu və təcrübəli əmirləri ondən olan Əmir Sultan Mosullu onun lələsi təyin edildi. Əmir Sultan Mosulluya xan məqamı da əta olundu. Vilayətin məhkəmə və ədliyyə işlərinə rəhbərlik də ona həvalə olundu və ona Təhmasib Mirzə ilə birlikdə vilayətə yollanmaq tapşırığı verildi. Vilayətin dini işlərinə rəhbərlik isə Əmir Qiyasəddin Məhəmmədə tapşırıldı. Əslində, vilayətin idarəçiliyi bu iki nəfər tərəfindən həyata keçirilməli idi. Əmir xan Mosulluya göstəriş verildi ki, o, Təhmasib Mirzədən əvvəl vilayətə yollansın, həm Təhmasib Mirzənin vilayət hakimi təyin edilməsi barəsində şah fərmanını vilayətə çatdırsın, həm də aclıqdan əziyyət çəkən əhaliyə mümkün köməkliyi göstərsin. Əmir xan Mosullu isə özündən əvvəl qardaşı İbrahim Sultanı Herata yola saldı. İbrahim Sultan da Əmir xan Mosullunun və onun ardınca da vilayət hakiminin vilayətə gəlişi üçün hazırlıq işləri görməli idi. İbrahim Sultanın Herata yola düşməsi 1515-ci ilə təsadüf edir. O, Herata yetişən kimi aclıqla üzləşmiş əhaliyə əməli yardım göstərilməsinə başladı və bununla bağlı öz fəaliyyətini genişləndirməyə çalışdı. İbrahim Sultan Herata gələndən sonra şəhər hakimi Zeynal xan qala darvazalarının açarlarını və şəhər idarəçiliyini ona təhvil verdi və Təbrizə döndü. Təhmasib Mirzə və Əmir xan Mosullu gələnə kimi Heratın idarəçiliyini İbrahim Sultan həyata keçirdi(24).

Başqa bir məlumata görə isə Bəlx hakimi Div Sultan Təbrizə gəlib ayrıca Şah İsmayıl ilə görüşəndə Herat hakimi Zeynal xanın dövlət maraqlarının qorunmasında etinasızlıq göstərməsi haqında Şah İsmayıla məlumat verdi. Bundan sonra Şah İsmayıl Xorasanda hakimiyyəti gücləndirilməsi və oğlu Təhmasib Mirzənin Xorasan hakimi təyin edilməsi haqqında qərar verdi (25).

Mənbələr xəbər verirlər ki, İbrahim Sultanın Herata gəlməsindən sonra şəhər daxilində və eləcə də vilayətdə müəyyən dəyişikliklər baş verməyə başladı. Yazın əvvəlində, yəni 1516-cı ilin aprelində Təhmasib Mirzə Herata daxil oldu (26). Təhmasib Mirzənin heç bir müqavimət olmadan Herata daxil olması da bu şəhərin Übeydulla xan tərəfindən işğal edilməsi barəsində "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərinin verdiyi məlumatların doğruluğuna bir şübhə yaradır. Təhmasib Mirzənin qarşılanması üçün Heratda xüsusi tədbirlər həyata keçirildi, mümkün imkanlar daxilində şəhər başdan-başa bəzədildi. Təhmasib Mirzədən öncə Əmir Qiyasəddin Herata daxil oldu və onun tərəfindən xeyli sayda adama hədiyyələr bağışlandı. Şəhər əhlinə hədiyyələr paylanması Təhmasib Mirzənin qarşılanmasından sonra da davam etdi. Mənbələrdə Təhmasib Mirzənin gəlişindən sonra Xorasanın Əmir xan Mosullu və Əmir Qiysəddin tərəfindən ədalətlə idarə olunması haqqında da məlumat vardır. Onların həyata keçirdiyi tədbirlər vilayıtin dirçəldilməsi üçün əlverişli zəmin yaratdı və vilayət tədricən böhranlı vəziyyətdən çıxmağa başladı (27).

**2.Osmanlı qoşunlarının Misir üzərinə hücumu**

Çaldıran döyüşünün nəticələrindən çıxarılan dərslərindən biri də bu idi ki, Osmanlı dövlətinə qarşı uyğun və fəal xarici siyasətin izlənməsi döyüş meydanında ciddi əhəmiyyət kəsb edən məsələlərdən biri ola bilərdi. Belə bir siyasətin həyata keçirilməsi ilə qarşı tərəfin müqavimətinin qırılması üçün əlavə qüvvələr əldə edilə bilərdi. Amma Şah İsmayıl buna getmədi və hətta yaxşı münasibətlərdə olduğu Misir hakimini də Osmanlı qoşunlarına qarşı mübarizəyə cəlb etmədi. Misir hakiminin yaxşı münasibətlərdə olduğu Şah İsmayıla hansısa səviyyədə əməli yardım göstərməsinin nə demək olduğunu Sultan Səlim də yaxşı anlayırdı. Ona görə Çaldıran döyüşü ərəfəsində Sultan Səlim çalışırdı ki, Misir hakimini qıcıqlandıracaq bir hərəkət etməsin və bununla da onu Şah İsmayıla əməli yardım göstərməyə təhrik etməsin.

Şah İsmayıl ilə Misir hakimi Əl-mülk Əşrəf Qansu Quri arasında xoş münasibətlər hələ Sultan Səlimin hakimiyyətə gəlməsindən əvvəl bərqərar olmuşdu. Həm Şah İsmayıl, həm də Qansu Quri bu münasibətlərin formalaşmasını öz maraqlarına uyğun hesab edirdilər. Qansu Quri Osmanlı sarayında dəyişikliklər baş verəndən sonra da Şah İsmayıl ilə xoş münasibətlərin davam etdirilməsinə tərəfdar idi. Çünki Sultan Səlimin öz qonşularına qarşı kəskin mövqedə dayanması Qansu Quriyə də yaxşı məlum idi və istisna etmirdi ki, Sultan Səlimin izlədiyi siyasət bir zamanlar Misir sultanlığına qarşı da çevrilə bilər. Bu iki dövlətin həmsərhəd olması da Qansu Quridən ehtiyatlı olmağı tələb edirdi və

Şah İsmayıl ilə xoş münasibətlər ehtimal olunan Osmanlı təhlükəsindən qorunmaq üçün məqsədəuyğun hesab edilirdi.

Mövcud olan məlumatlara görə, Çaldıran döyüşündən sonra Şah İsmayıl öz elçisini məktub və qiymətli hədiyyələrlə Qansu Qurinin yanına göndərdi. Bununla, Şah İsmayıl bir daha Misir sultanı ilə xoş münasibətlər saxlamaq əzmində olduğunu nümayiş etdirdi. Qansu Quri də bu münasibətlərin davam etdirilməsini lazım bildi (28). Xüsusilə, Çaldıran döyüşündə əldə etdiyi uğurdan sonra Sultan Səlimin qonşularına qarşı daha kəskin siyasət yeritməsi ehtimalı onu bu münasibətlərin qorunmasına sövq edirdi. Bu iki hakim arasında olan xoş münasibətlər Sultan Səlimin nəzərindən heç də qaçmamışdı. Sultan Səlim sadəcə olaraq Misir sultanlığına qarşı qoşun çıxarmaq üçün münasib an gözləyirdi. Belə bir zaman isə Çaldıran döyüşündən sonra Səfəvi dövlətinin qərb ərazilərinin işğal altna alınması ilə yarandı. Sultan Səlim Diyarbəkr ətrafında bir neçə qala və şəhəri nəzarət altına almaqla yalnız yeni ərazilər əldə etmədi. Bu ərazilərin əldə edilməsi eyni zamanda Osmanlı dövlətinin geostrateji mövqeyinin möhkəmlənməsinə yol açdı. Həmin ərazilərin ələ keşirilməsi ilə bir tərəfdən Səfəvi dövlətini qərblə və Avropa dövlətləri ilə bağlayan əsas ticarət marşrutları, bir tərəfdən də Misir dövləti ilə əsas təmas yolları nəzarət altına götürülmüş oldu.

Bununla, Misir sultanlığının üzərinə hücum edilməsi və Səfəvi dövlətinin bu müttəfiqinin də fəth edilməsi üçün münasib şərait yaranmış oldu. Kemax qalası və Əlaüddövlə üzərində qələbədən sonra Sultan Səlim, yuxarıda qeyd edildiyi kimi, Misir sultanı Qansu Quriyə məktub, habelə Əlaüddövlənin kəsilmiş başını göndərdi. Bütünlükdə, Qansu Quriyə 50 döyüşçünün kəsilmiş başı göndərilmişdi. Bu məktub ilk baxışdan məlumat xarakterli bir məktub olsa da, əslində, Qansu Quriyə xəbərdarlıq məqsədilə göndərilmişdi və Sultan Səlim onun nəzərinə çatdırmaq istəyirdi ki, Osmanlı dövlətinə qarşı münasibətini dəyişməyəcəyi halda onu da belə bir aqibət gözləyir.

Sultan Səlim Misir sultanına göndərdiyi məktubund onu da bildirirdi ki, növbəti ildə yenidən Səfəvi hüdudlarına hücum çəkmək niyyətindədir. Ona görə Osmanlı sultanı ümid etdiyini bildirirdi ki, Misir sultanı Səfəvi dövlətindən gələ biləcək xahişləri qəbul etməyəcək və Şah İsmayıl ilə birlikdə Osmanlı dövlətinə qarşı möqe tutmayacaqdır (29).

Misir sultanı Osmanlı sultanının təklifini qəbul etmədi. O, istər Sultan Səlimin yenidən Səfəvi dövlətinə qarşı qoşun çəkmək istəməsi ilə, istərsə də Səfəvi dövləti ilə münasibətlərə son qoyulması təklifi ilə razılaşmadı və bunu Sultan Səlimə göndərdiyi məktubunda da bəyan etdi. Qansu Quri bildirirdi ki, Sultan Səlimdən aldığı məktubu "...tam ciddiyətlə oxuyub, buradakı salam və dualardan agah olduq. Məzmunundan Şərq məmləkətinə üz tutaraq kafir qızılbaşları aradan qaldıracağınızı öyrəndik. Qahirədəki divan əmirlərimiz ilə məsləhətləşdik. Onlar əsgər və qullarımızla o bölgəyə yönəlməyimiz üçün hamılıqla dəqiq düşüncə və qətiyyətli fikirlər irəli sürdülər. Beləliklə, biz də Hələb və Şama doğru hərəkət edib yola düşmək qərarına gəldik. Gözəl əxlaqınızdan və

hamıya şamil olan lütfkarlığınızdan ricamız budur ki, o vilayətə doğru irəliləməyə tələsməyəsiniz" (30).

Göründüyü kimi, Qansu Quri Osmanlı sultanını Səfəvi dövlətinə qarşı yeni müharibədən çəkindirməy çalışdığı kimi, həm də ona öz xəbərdarlığını çatdırırdı. Bu xəbərdarlıq ondan ibarət idi ki, Sutan Səlim yenidən Şah İsmayıla qarşı qoşun çəkəcəyi halda o da öz qoşunlarının Hələb və Şama doğru hərəkət etdirəcəkdir.

Qansu Quridən aldığı məktubdan sonra Sultan Səlim, Səfəvi dövləti ilə Misir sultanlığı arasında ciddi müttəfiqliyin olduğuna əmin oldu və bu ittifaqın aradan qaldırılmasına ciddi diqqət ayırmağa başladı. Sultan Səlim özlüyündə Səfəvi dövlətinə qarşı yeni hərbi kampaniya başlanmasını kənara qoydu və Misir üzərinə hücuma başlamağı məqsədəuyğun saydı. Elmi-tarixi ədəbiyyatda belə bir fikir vardır ki, Misir sultanlığına qarşı müharibə başlamaqla Sultan Səlim yeni Səfəvi kampaniyası başlamazdan əvvəl arxadan onun qoşunlarına qarşı istiqamətlənə biləcək təhlükədən qorunmaq istəyirdi. Belə bir fikrin mövcudluğunu qəbul etmək əlbəttə ki, mümkündür. Amma məlumdur ki, Misir üzərinə hücum etsə də, Sultan Səlim səfəvilərə qarşı yeni bir kampaniyanı başlamadı. Onu da istisna etmək olmaz ki, Sultan Səlim səfəvilərə qarşı yeni bir kampaniya başlamağın təhlükəli nəticələrlə sona çata biləcəyindən ehtiyat edirdi. Ona görə də o, növbəti kampaniyanı "fitnə-fəsad" saydığı şiələrə qarşı deyil, həmməzhəbi olduğu Misir sultanlığına qarşı başladı. Yəni Səfəvi dövləti ilə düşmənçilikdə Sultan Səlimin hələlik əldə edə biləcəyi Misir sultanlığı ola bilərdi ki, Sultan Səlim də bu məsələdə öz bəxtini sınamaqdan çəkinmədi.

Amma Misir dövlətinə qarşı müharibə başlanması üçün müctəhidlərin və din alimlərinin fitvasını da almaq lazım idi. Əgər Şah İsmayıla qarşı belə bir fitvanı almaq çətinlik törətməmişdisə, Misir dövlətinə qarşı belə bir fitvanın alınması müəyyən çətinliklərlə qarşılaşa bilərdi. Hər şeydən əvvəl ona görə ki, Misir dövləti Səfəvi dövlətindən fərqli olaraq sünni dövləti idi. Səfəvi dövlətini şiəlikdə, islam şəriətindən sapınmaqda günahlandırmaq mümkün idisə, həmin ittihamları Misir dövlətinə qarşı irəli sürmək mümkün deyildi. Digər tərəfdən, Misir hakimi islamın müqəddəs məkanlarının xadimi sayılırdı və bu baxımdan bütün müsəlmanlar üçün müqəddəs bir məqam idi. Ona görə də Sultan Səlim müctəhidlərin Misir üzərinə hücumuna fitvasını almaq üçün yollar aramalı oldu və bu dəfə də Şah İsmayıl bir bəhanə kimi ortaya atıldı. Sultan Səlim din müctəhidləri qarşısında belə bir sual qoydu - əgər sünni dövləti mülhədlər üzərinə (yəni Şah İsmayılın ardıcılları üzərinə - M.S.) hücum etməyə mane olursa, onda bu sünni dövlətinə qarşı müharibə aparmaq olarmı? Müctəhidlər bu suala müsbət cavab verdilər və bundan sonra Misir üzərinə hücumun fitvasına razılıq verdilər (31).

Müctəhidlərin fitvasını alan kimi Sultan Səlim yürüşə hazırlıq əmri verdi və tez bir zamanda da hərəkətə başladı. Tucan Dərə Boğazı adlanan bir yerə çatandan sonra Sultan Səlim Misir hakimindən aldığı məktuba da cavab verməyi lazım bildi. Sultan Səlim bu məktubda Qansu Qurinin yazdıqlarına öz qəzəbini

belə ifadə etdi: "Dünyanın itaət etdiyi ali fərman və yerinə yetirilməsi vacib olan şərii hökm sizə gəlib çatdıqda məlumunuz olsun ki, hazırda hiylə, kələk və fırıldaqçılıq edərək namərdlik yolunu seçib bəzi şəxslərlə iş birliyinə girib [mənə məktub] göndərmisən. Allahın köməyi ilə qəsd etdiyin bütün fitnə-fəsad aydın və aşkar olsun. Acizlərə, namərdlərə və ağılsızlara məxsus olan bu ağlasığmaz vəziyyət ərlik həvəsində və igidlik sevdasında olub ağıldan dəm vuranların işi deyildir. İndi o şəxslər ələ keçib vəziyyətləri (düşüncələri) bütünlüklə məlum olduqdan sonra yenə də sənə tərəf göndərildi ki, sənin yanına gələrək burada araşdırıb tədqiq etdiyi vəziyyət və durum haqqında əldə etdiklərini sənə olduğu kimi və həqiqi şəkildə çatdırsınlar. Çünki bizim Allahın qullarına yaxınlığımıza görə heç kimin hiylə və məkrindən qorxumuz və heç kimdən gizlədiləcək bir halımız yoxdur. Mənim uca məqsədli qərarım pak şəriətin ehtiyacı üçün Şərq diyarına yönəldiyi halda səndən o dinsiz kafir və pis əxlaqlı fasiqə kömək etmək məqsədi ilə bəzi xoşagəlməz hərəkətlər zahir olmuşdur. Sən onlardan daha təhlükəli olduğun üçün mübarək diqqətim sənin üzərində cəmlənmişdir. Çoxsaylı əsgərlərim dünyaya sığmır və silah-sursatımızın toqquşmasından hava sıxılmışdır. Sənin üzərinə çoxlu sayda əsgərlər və zəfər əlamətli fəth bayraqları ilə mənzillər aşıb, mərhələlər qət edib, himayən altında olan məmləkətinə girib ...bu gün, yəni Rəcəb ayının 11-ci günü xoşbəxt bir halda Tucan Dərə Boğazı kimi... yerə daxil olmuşam. Əgər səndə qeyrət, kişilikdə payın və comərdlikdə nəsibin varsa və ya daxilində zərrə qədər işıltısı varsa, o zaman qorxu və həyəcandan künc-bucaqda gizlənməyin, bütün dostlarınızı və köməkçilərinizi də xəbərdar edib ox və balta yarışından başınızı gizlətməyin" (32).

Göründüyü kimi, son məktubunu Qansu Quriyə göndərəndə Sultan Səlim öz qoşunu ilə hərəkətə gəlmişdi. Bu qoşun dəstəsi Hələb yaxınlığındakı Davud peyğəmbərin məzarı adlanan məntəqədə düşərgə saldı və burada da Misir qoşunları ilə döyüşə girdi. Bəzi mənbələrin məlumatına görə, Sultan Səlimi tez bir zamanda Misir sultanı ilə müharibəyə sövq edən səbəblərdən biri də Misir sultanlığına aid olan Hələb şəhərinin hakimi Xeyir bəy (Xeyrəddin) adlı birisinin Sultan Səlimə məktub göndəməsi və Hələbi ona təslim etməyə hazır olması idi. Xeyir bəy vəd etmidi ki, yalnız Hələbin yox, bütün Misirin işğal edilməsi üçün Sultan Səlimə kömək etsin. Sultan Səlim də dərhal bu təklifdən faydalanmaq qərarına gəldi və göstəriş verdi ki, Avropa sərhədindən başlayaraq Amasiyaya kimi olan vilayətlərdən çoxlu sayda qoşun toplansın. Həmin qoşunlara çoxlu sayda top da əlavə edildi və bu qoşun hərəkətə gətirildi (33).

Misir hakimi Qansu Quri də bu döyüşə müəyyən hazırlıq görmüşdü. Məlumatlara görə, onun qoşunlarının zərbə qüvvəsinin əsasını çərkəslərdən ibarət dəstələr təşkil edirdilər. Qansu Quri də kifayət qədər yaşlı olmasına baxmayaraq, bu döyüşdə iştirak edirdi. Döyüşdən qabaq Misir qoşunları məqsədəuyğun bilindiyi kimi qruplaşdırıldı, sağ və sol cinahlar müəyyənləşdi, qüvvələrin müəyyən hissəsi də mərkəzdə yerləşdirildi. Döyüş də Misir qoşunlarının üstünlüyü ilə başladı. Sultan Səlim gözləmədiyi halda döyüşün başlanğıcında

Misir qoşunlarından ciddi zərbə aldı və hətta belə bir görüntü yaranmışdı ki, Misir qoşunları döyüşü qazanmaq üzrədirlər. Bu zaman təsadüfi bir hadisə Qansu Qurinin ölümü və bundan sonra yaranan çaxnaşma nəticəsində Misir qoşunlarının məğlubiyyəti ilə nəticələndi. Osmanlı toplarından atılan mərmilərin biri Qansu Qurinin çox yaxınlığından ötüb keçdi və bu mərminin dalğası Misir hakiminin qulaq pərdəsini dağıtdı. Misir hakimi özünü at üstündə saxlaya bilməyib uğursuz şəkildə yerə yıxıldı. Bu zaman aldığı ağır zərbədən Qansu Quri dünyasını dəyişməli oldu. Gözlənilmədən baş vermiş həmin hadisədən sonra Misir qoşunları arasında çaxnaşma düşdü və qoşunlar idarə olunmaz bir hala gəldi. Qoşunları yenidən toparlamaq mümkün olmadı. Onda Misir qoşunları geri çəkilərək Hələb qalasına sığınmaq istədi. Sultan Səlimlə sövdələşməyə girmiş Hələb hakimi Xeyir bəy şəhər darvazalarını açmadı və qoşunları şəhərə buraxmadı. Sultan Səlim əvvəlcə Hələbi, sonra isə Dəməşq və Həmas şəhərlərini ələ keçirdi. Misir qoşunları isə Şama çəkildilər və orada Qansu Qurinin qardaşı oğlu Tumanbay Misir hakimi elan edildi. Tumanbay kifayət qədər mərd və cəsur bir sərkərdə idi və Misir hakimliyi onun üzərinə qoyulandan sonra Osmanlı qoşunlarına qarşı daha səmərəli döyüş planı hazırladı. Amma bu dəfə də Misir qoşunları xəyanətlə qarşılaşdı. Misir qoşunlarının Canverdi Qəzali adlı başqa bir sərkərdəsi də xəyanət yolunu tutdu və Tumanbayın planı haqqında Osmanlı qoşunlarına məlumat verdi. 1517-ci ilin iyul ayının 24-də Qahirə yaxınlığında Osmanlı qoşunları ilə Misir qoşunları arasında növbəti döyüş baş verdi. Bu döyüşdə Tumanbay Çaldıran döyüşündə Şah İsmayılın istifadə etdiyi taktikanı tətbiq etməyə çalışdı. Bu taktikanın tətbiqi zamanı başlıca diqqət sürətə və gözlənilməzliyə verildi və nəzərdə tutulmuşdu ki, bu sürət nəticəsində Osmanlı qoşunlarına zərbə vurulsun və topların işə salınmasına fürsət verilməsin. Misir qoşunlarının qruplaşdırılması da bu taktika əsasında aparılmışdı. Amma bu taktikanın detalları Sultan Səlimə bəlli olduğu üçün o da öz planını həmin taktikanın qarşısının alınmasına yönəltdi. Ona görə də Misir qoşunları göstərdikləri bütün cəhdlərə baxmayaraq, döyüşdə uğur qazana bilmədilər. Hətta bəzi sərkərdələrin xəyanətkarlığı Misir qoşunlarında olan toplardan da səmərəli istifadə edilməsinə imkan vermədi. Misir qoşunları məğlub oldular və Osmanlı qoşunları Qahirəyə daxil oldular. Bununla, Şah İsmayıl özünün bölgədəki müttəfiqini itirmiş oldu və çox böyük ərazilər Osmanlı sultanlığının nəzarəti altına düşdü (34).

Sultan Səlim isə Misir qoşunlarına qarşı döyüşün gedişini belə təsvir edirdi: "...Rəcəb ayının 25-də Hələb yaxınlığında Mərc-Dbiq adı ilə tanınan və Davud peyğəmbərin, - salam olsun ona, - məqamına bitişik olan yerdə müzəffər ordumuz düşmən qoşunu ilə qarşılaşdı. Haqq ilə batil və doğru yolda olan sultanlar ilə yanlış yolda olanlar qarşılaşdı. Tərəflər arasında döyüş və ölüm alovu səmaya yüksəldi. Döyüş əsnasında ölüm o zəlalətə düçar olmuşların yaxasından yapışdı. Döyüş meydanının şirlərinin nəriltisi, top-tüfəngin gurultulu səsi mavi səmanın ənginliklərinə qədər gedib çıxırdı. Həmin ərəfədə qorxunun son dərəcə qələbə çalması və ordunun ürəkləri titrədən həmləsindən Qansu Quri özünü itirərək huşdan getdi. Biixtiyar minikdən yerə düşərək həlak oldu. ...Hə-

ləb ölkəsində yüksək qalalar və ətraf bölgələrin istehkamları ələ keçdikdən sonra bizə xəbər verdilər ki, zəmanənin üz döndərdiyi qoşunun qalıqları olan bəzi çərkəzlər Dəməşq [şəhərinə] çatıblar. Hələ də sultanlıq qanunlarını bərpa və şeytanlıq ayininin qaydalarını dirçəltmək fikrində olduqlarından özlərindən ayrı düşənin sözü ilə digər bir qulamı sultan edib Misir və Şamda qeyri-qanuni səltənət yaratmaq istəyirlər. Müqəddəs yerlərin sakinləri, imkansızlar və rəiyyətlərini öz zülmkar üslubları ilə tabe etdirib məzlumların əmlakına haqsız yerə sahib çıxmaq istəyirlər. Məcbur qalıb müsəlmanların vəziyyətinə yardım etmək və zülmkarları məhv etmək üçün şahanə iradəmizi o istiqamətə yönəltdik. İlahi yardım və lütf ilə növbəti [dəfə] bənatun-nəşin nəhs ulduzlarına bənzəyən məğlub çərkəz ordusu pərişan oldular. Şam qalası və o cənnət kimi yerlər ruzigarın oğullarının əqlinin heyran olduğu formada xidmətçilərimiz tərəfindən ələ keçirildi" (35).

Farsdilli mənbələrdə və elmi-tarixi ədəbiyyatda Osmanlı qoşunları ilə Misir qoşunları arasında baş verən döyüşə, onun detallarına, döyüşün Osmanlı qoşunları tərəfindən qazanılmasının səbəblərinə kifayət qədər yer ayrılmışdır. Çünki bu iki dövlət arasında baş verən müharibə Səfəviu dövləti və eləcə də Şah İsmayıl üçün böyük əhəmiyyət kəsb edirdi. Misir sultanlığının süquta uğrması ilə Şah İsmayıl bölgədəki dayağını və köməyini itirmiş oldu və onun geosiyasi mövqeləri zəiflədi. Osmanlı sultanı isə həm Şah İsmayılın müttəfiqini aradan qaldırdı, həm geosiyasi mövqeyini möhkəmləndirdi, həm də Misir kimi böyük bir dövlətin potensialından bəhrələnmək imkanı əldə etdi. İttifaqda olmalarına baxmayaraq, Şah İsmayıl Misir sultanına Osmanlı qoşunlarına qarşı döyüşdə əməli yardım göstərmədi. Ümumiyyətlə, Osmanlı qoşunlarının Çaldıran döyüşündən sonra Səfəvi dövlətinin qərb ərazilərinə hücumları və Misirlə müharibəsi zamanı Şah İsmayılın bölgəyə ciddi əməli müdaxiləsi Qaraxanın rəhbərliyi altında Diyarbəkr ətrafına qüvvə göndərməsi oldu. Bunun da hansı nəticə verdiyi yuxarıda yazılanlardan məlumdur. Şah İsmayıl, ümumiyyətlə, həyatının sonuna qədər bu bölgədə daha hərbi fəallıq nümayiş etdirmədi. Sultan Səlim isə Şah İsmayılın bölgədəki müttəfiqini sıradan çıxarsa da Səfəvi dövlətinə qarşı yeni bir kampaniya başlamağa cəsarət etmədi.

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Sultan Səlimin Şah İsmayılın müttəfiqi Qansu Quri ilə qarşılaşmasının fərqli detalları da öz əksini tapmışdır. Bu əsərlərdəki məlumatlardan belə bir qənaət hasil olur ki, Sultan Səlim ilə Hələb hakimi Xeyrəddin paşa (adları çəkilən əsərlərdə belə təqdim olunur) arasında əvvəlcədən hər hansı bir sövdələşmə olmamışdı və Hələb şəhəri Osmanlı qoşunları tərəfindən mühasirə olunanda Misir hakimlərinin bundan hələ xəbəri yox idi. Bildirilir ki, Osmanlı qoşunları Hələb şəhərini mühasirəyə alanda Xeyrəddin paşa (Xeyir bəy) qala ətrafındakı xəndəkləri su ilə doldurdu və qalanın müdafiəsini təşkil etdi. Eyni zamanda Misir hakiminin yanına adam göndərdi ki, Osmanlı qoşunlarının gəlməsindən onu xəbərdar etsin. Adları çəkilən əsərlərdə Xeyrəddinin Misir hakiminə xəyanət etməsi münəccimlərin ona verdiyi məsləhətlərlə bağlanılır. Belə ki, Osmanlı qoşunları

ilə döyüşə girməzdən əvvəl Xeyrəddin münəccimlərini yanına çağırdı və onlardan döyüşün gələcək taleyi barəsində məlumat istədi. Münəccimlər isə öz işlərini gördükdən sonra Xeyrəddinə Osmanlı sultanı ilə döyüşə girməməyi məsləhət gördülər. Bu xəbəri alandan sonra Xeyrəddin gizlicə Sultan Səlimin yanına adam göndərdi, onunla əməkdaşlığa və qalanı ona təslim etməyə hazır olduğunu bildirdi. Məlumatlara görə, Sultan Səlim Hələb qalasının müdafiə imkanlarını nəzərdən keçirdikdən sonra bu qala üzərinə qoşun çəkdiyinə görə peşiman oldu və hətta belə bir fikrə düşdü ki, Misir qoşunları ilə sülh bağlayıb geri qayıtsın. Belə bir vaxtda Hələb hakiminin təklifləri onu çox sevindirdi və bundan sonra geri qayıtmaq fikrindən daşındı. Xeyrəddin, Osmanlı sultanına onu da vəd etdi ki, qalanı təslim edəndən sonra Misir hakimini də aldadaraq qala ətrafına cəlb edəcək və onun qala ətrafında öldürülməsi üçün şərait yaradacaqdır. Səhəri gün Sultan Səlim qala üzərinə hücum çəkdi. Xeyrəddin şəhər darvazalarının birindən çıxaraq Misir hakiminin yanına yollandı. Hələb isə Osmanlıların əlinə keçdi (36).

Misir hakimi Xeyrəddindən Osmanlı qoşunlarının Hələbi tutması haqqında məlumat alandan sonra özü də Hələb istiqamətində hərəkətə başladı. Bu şəhərə beş mənzillik yol qalanda Misir hakimi dayandı və Qəzalinin rəhbərliyi altında ərəb qoşunlarının gəlib yetişməsini gözlədi. Həmin qoşunlar yetişəndən sonra Hələbə doğru hərəkət davam etdirildi. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Misir hakimi Qansu Qurinin öldürülməsi də Xeyrəddinin adı ilə bağlanmışdır. Guya döyüşün gedişində Xeyrəddin özünü Qansu Quriyə yetirmiş və qılıncı ilə onun başını bədənindən ayırmışdı. Misir hakimliyinə gətirilmiş Tumani bəy isə adları çəkilən əsərlərdə Səmani bəy kimi təqdim edilmişdir. Səmani bəyin həm də Misir hakiminin bacısı oğlu olması göstərilirdi. Adları çəkilən əsərlərdə Xeyrəddinin də öldürüldüyü göstərilmişdir. Bildirilir ki, Xeyrəddin xəyanətkarlığına görə ərəb sərkərdəsi Qəzali tərəfindən qətlə yetirildi (37).

### 3.Sultan Səlimin Şah İsmayıla qarşı ittifaq yaratmaq cəhdləri

Sultan Səlimin Misir yürüşü xeyli uzandı və o bir də 1518-ci ilin iyul ayında İstanbula döndü. Osmanlı sultanı sözsüz ki, bu uğurunu böyük məmnunluqla qarşıladı və bu qələbəsi münasibətilə ətraf bölgələrin hakimlərinə, o cümlədən Şirvanşaha, Gilan və Mazandaran hakimlərinə məktublar göndərdi. Bu məktublardan alınan ümumi qənaət belədir ki, Sultan Səlim Misir kampaniyasına Şah İsmayıl üzərinə növbəti hücumun ərəfəsi və mühüm elementi kimi baxırdı. Bu qələbə ona həm yeni ehtiytlardan istifadə imkanı vermişdi, həm də bölgədə nüfuzunu müəyyən qədər artırmışdı. Onun məktub göndərdiyi hakimlər də Sultan Səlimlə əməkdaşlığa meylli olduğunu bidirdilər. Bu meyllilik sözsüz ki, yalnız onların Şah İsmayıla qarşı düşmən münasibətindən irəli gəlmirdi.

Sultan Səlim vilayət hakimlərinə göndərdiyi məktubunda Misir qoşunları üzərində qələbəsi haqqında ağızdolusu söhbət açır və həmin hakimləri Şah

İsmayıla qarşı mövqe tutmağa çağırırdı. Məsələn, onun Gilan hakiminə yazdığı məktubunda Şah İsmayıla qarşı birgə mübarizəyə hazır olmaq haqqında belə bir çağırış var idi: "...Sizin dini qeyrətiniz və tərəddüdsüz mürüvvətiniz üçün vacib və zəruridir ki, o yerlərin ətrafında yaşayan din qardaşlarınız və yəqin əhli (dostlarınız) ilə həmrəy və həmfikir olub bu xəzinələri fəth etməyə hamiləliyin [son] gecələrində [uşağını] doğmağa hazır qalan [insanlar kimi] gözləyin. Hazırda pisliklər mənbəyi olan o sərdar [haqqında] siz ali cənabın duyduğu və eşitdikləri haqqında fəzilətlərin rəhbəri, -məqamı uca olsun, - vasitəsilə xəbər göndərib agah edin" (38).

Başqa sözlə, Sultan Səlim Gilan hakimindən tələb edirdi ki, Şah İsmayılın fəaliyyətini izləsin və bununla bağlı, Osmanlı sultanını davamlı şəkildə məlumatlandırsın. Gilan hakimi həm də Şah İsmayıla qarşı birgə mübarizəyə hazır olmalı idi.

Mazandaran hakiminə göndərdiyi məktubunda isə Sultan Səlim Misir yürüşündən sonra Şah İsmayıl üzərinə yürüş etmək niyyətində olduğunu bəyan edir və tələb edirdi ki, Osmanlı əsgərlərinin ehtiyaclarının ödənməsi üçün ərzaq, heyvanlar üçün yem toplansın. Sultan Səlim vəd ediridi ki, Şah İsmaıla qarşı mübarizədə göstərdiyi xidmətlərin qarşısında Mazandaran hakimi onun tərəfindən səxavətlə mükafatlandırılacaqdır: "...Orada dayanmadan və yubanmadan ali iradə və əzmimizi zəmanənin kafirini və dinsizini zərərsizləşdirmək və onların yolunu azan şahını məğlub etmək üçün şərq diyarına tərəf yola düşdük. Elə isə cənabınızın misilsiz iradəsi üçün münasib, uyğun və bəlkə də lazım və vacibdir ki, bizim uğurlu qədəmimizin izinin intizarında olasınız. Keçmiş günlər və illərdən xilafətin ünvanı olan bu sülaləyə cənabınızın tam ixlas və sadiqliyinə görə mübarək dövlətin mənafe və işlərinin həyata keçməsində ciddi cəhdlə çalışaraq süstlük etməyəcəksiniz. Müzəffər əsgərlərimizin güzəran və dolanışığının yaxşılaşması üçün apra, ot, un, bal və qoyun yağı, o cümlədən əsgər üçün məsləhətli və vacib olan zəruri yeməklərdən hər bir mühasib, ehtiyat tədarükü görüb hazırlamalıdır. Uca olan Allahın yardımı ilə fateh ordu həmin bölgədə düşərgə salacaqdır. Həmin ehtiyatı toplayan hər kəs öz ehtiyatını düşərgəmizə gətirib özlərinin ticari durumunu və qalib əsgərlərimizin məişət güzəranını yaxşılaşdırmaq üçün günün məzənnəsi ilə al-ver etsinlər. Nəticə etibarilə [bizə] yaxın olan cənabınızın təbii sevgisi, yaxın olması, səmimiyyət və sədaqətinin çox olmasına görə gözəl dövlətə qədərki olan, mənafeyinin tamamlanması yeyinti azuqəsinin hazırlanması və tədarükündə müxtəlif fəaliyyət və çalışmaları bağışlasınlar. Davamlı olaraq ömrü uzun olan uca dərgahımıza o rüsvayçı [Şah İsmayıl] haqqında xəbər və məlumatlar göndərməkdən qafil olma. Allahın köməyi ilə həmin əraziləri fəth etmək bizə qismət olduqdan sonra ədalətin ünvanı olan cənabınız müxtəlif şahanə lütfə nail olacaq və bizim səltənətin ehtiram və hörmətindən faydalanacaqdır" (39).

Şirvanşah hakiminə göndərdiyi məktubunda da Sultan Səlim onu Şah İsmayıla qarşı birgə mübarizəyə səfərbər etmək istəyirdi. Məlumdur ki, Səfəvi təriqət rəhbərləri ilə şirvanşahlar arasında bir qarşıdurma mövcud idi. Şah İsmayılın atası da, babası da Şirvanşah qoşunları ilə döyüşlərdə dünyalarını

dəyişmişdilər. Ona görə Sultan Səlim güman edirdi ki, Şirvanşah onun təklifini qəbul etməyə meylli olacaqdır. O, Şirvanşaha göndərdiyi məktubunda yazırdı: "...Amma həqiqətdə ümumi məqsəd bütün Əcəm şahlarına və xüsusən də cənabınızın əziz sülaləsinə nisbət arzuedilməz hadisələr və pis vəziyyətlərin səbəbkarı olan o zəlalətə düçar olmuş tayfalardan intiqam almaqdır. Şahlar və hakimiyyətin ən qabaqcılı və İslam məmləkətlərinin ən dindarlarından olan cənabınıza hakimiyyət sahibi olmaq məqamı layiqdir. Cənablarınızın hökmranlıq məqamına [deyəcəyim] budur ki, bundan sonra Allahın yardımı ilə padşahın iradəsi o ölkə və bəndələrin xeyir və səlahına yönəldiyi üçün həmişə o dinsiz tayfa ilə cihad və döyüşməyin zərurətində hökm vermək vəzifələrini icra edəcəyinizə ümidvarıq. Gündən-günə həmin istiqamətdə din və dövlət xeyrindən, millət və mülkün tərtibatında mülahizə etdiklərini xəbər verməyə cəhd etsin. Elçi və məktubların gəlib getməsi, məsələ və mövzuların ərz edilməsi davamlı olsun. Çünki həmin istiqamətlərdə mühitin əksər mənafelərindən xəbərdardır. O, zəruri məsələləri bir-birinin arxasınca qeyd etməkdə səhlənkarlığa icazə verilmir. Əsas məqsəd isə sevgi dayaqlarını hazırlamaq və məhəbbətini təkrar ifadə etmək olduğu üçün ədalət və bayraq səhifələri üzərində müxtəlif məzmunlu ifadələr bundan artıq yer verilmədi" (40).

Məktublaşmada Şirvanşah hakiminin kim olması göstərilməmişdir. Amma tarixdən məlumdur ki, həmin dövrdə Şirvan hakimi II İbrahim Şeyxşah idi (41). Şeyx İbrahim cavab məktubunda Sultan Səlimi Misir kampaniyasında əldə etdiyi qələbə münasibətilə təbrik edir və bu qələbənin Şirvan əhli tərəfindən də böyük sevinclə qarşılandığını bildirirdi. O yazırdı ki, Osmanlı sultanın qələbə məktubu Gülüstan qalasında minbərlərdən oxundu, Şirvan, Şəki, Qumıx, Qaytaq vilayətlərinin əhalisi tərəfindən bayram edilmişdi. Şirvanşah məktubunda Osmanlı qoşunlarının Çaldıran döyüşündə qələbə qazanmasına da sevindiyini gizlətmirdi, Amasiyadan Malatiyaya qədər olan əraziləri ələ keçirməsini məmnunluqla qarşıladığını bildirirdi. Şirvanşah hətta Sultan Səlim tərəfindən Misirin fəth edilməsini Makedoniyalı İsgəndərin zəfərləri ilə müqayisə edirdi. Bununla Şirvanşah Osmanlı sultanına rəğbətli münasibət bəslədiyini və onunla birgə mübarizəyə hazır olduğunu bəyan edirdi. Şirvanşah onu da bildirirdi ki, Osmanlı sultanından məktub alması barəsində Şah İsmayıl xəbər tutmuş və Osmanlı sultanı ilə münasibətlərin yaxşılaşdıırlması üçün Şirvanşahın vasitəçilik etməsini xahiş etmişdir. Şivanşah isə bu təklifi qəbul etməmişdi. Şirvanşahın yazdıqlarına görə, Şah İsmayıl münasibətlərin yaxşılaşdırılması üçün Osmanlı sarayına elçi göndərməyə və həmin elçinin nəticəsiz geri qaytarılacağına ehtiyat edirdi və ona görə də Şirvanşahdan vasitəçi olmasını xahiş etmişdi. Şirvanşah məktubunda yazırdı: "...Bu cəsarəti izah etməkdən məqsəd budur ki, əcəmin sahibi alicənab padşah Şah İsmayıl Səfəvi, sultanlıq tərəfinizdən göndərilmiş olan sevimli məktubunuzun gəlməsindən xəbərdar olmuş və bildirmişdir ki, bu xoşbəxtlik tərəfdarı olan qulunuz tərəflər arasında sülhə vasitəçilik etsin. Xoşbəxtlik talibi [olan mən, yəni sizin] qulunuz bu təklifi qəbul etməkdən çəkindim. Şübhəsiz ki, onların işarəsindən (əlamətlərindən) səmimiyyət və itaətçilik

(bəndəçilik) bildirmək üçün elçi göndərmək hazırlığında olduqlarını anladım. Nə vaxtsa onların elçisi ətəyinizi öpmək üçün dizə çökərsə və əgər əfv diləmək və bəxşişlə üzrləri qəbul edilməzsə, şübhəsiz ki, bu bəndələri minnətçi salmasını üstündən atarsa böyük bir hay-küyə səbəb olar və əgər etiraf edərsə sizin (onların üzrlərini) qəbul etməyəcəyinizdən və hamının yanında xəcalətli olmaqdan qorxur.

Bu məsələdə Allahın sonsuz inayətlərini öz dayağım kimi təsəvvür edib, rədd və ya qəbul olmasını diqqətə almadan sonsuz yalvarışlar edir, habelə itaətçilik məktubunu gətirən Allahın Beytül-haramını (Kəbəni) ziyarət etmiş və tərəfimizdən də çox etibarlı hesab edilən Xacə Məhəmməd Bakuiyə aləmlərin pənahı olan seçilmiş dərgahınıza bir neçə cümlə ərz etməsini tapşırmışam ki, hansı şəkildə müjdə dolu xəbər gələrsə, həmin surətdə əməl olunsun. Bu qulunuzu özünə yaxın və əsgər hesab edib itaət edən və pənah gətirənlərdən biləsiniz. Əlavə nə deyim, hakim sizsiniz" (42).

Sultan Səlim bu məktuba cavab yazdı. Məktubun məzmunundan görmək mümkündür ki, Osmanlı sultanı Şirvanşahın ona sədaqət nümayiş etdirməsindən çox məmnun qalmışdır. Amma məktubun əsas mövzusu Şah İsmayıl ilə bağlı idi. Sultan Səlim də təsdiq edirdi ki, Şah İsmayıl onun yanına öz elçisini göndərmişdir. Osmanlı sultanı qarşılıqlı münasibətlərin yaxşılaşdırılması üçün Şah İsmayılın təkliflərinə rəğbətli münasibət bəsləmədiyini də bildirirdi. Əksinə, onu vurğulayırdı ki, şiəliyi aradan qaldırmaq üçün qətiyyətli hərəkətlər etmək niyyətindədir. Osmanlı sultanı yenə də fitnə-fəsad mənbəyi kimi dəyərləndirdiyi şiəliyin qılınc gücü ilə aradan qaldırılmasına Şirvanşahın da kömək edəcəyinə ümidvar olduğunu bildirirdi: "...Hazırda nankor qızılbaş (düçar olduğu) miskinlik səbəbi ilə ard-arda elçilər göndərib növbənöv yalvarışlar, yaltaqlıqlar və cürbəcür zəlillik və rüsvayçılıqla özünü alçaldaraq hansı yol ilə itərsiniz, o yolla sülh edək deyib. Lakin onun pis xasiyyəti (vərdişləri) aradan getməyib. Əvvəlki vəziyyətində israr edib, küfr və zəlalət üzrə möhkəm dayanmağa davam edir. "Halbuki onlar yaxşı işlər gördüklərini (və bunun müqabilində mükafata nail olacaqlarını) zənn edirlər" [Əl-Kəhf surəsi, 108-ci ayə] məzmununun bariz nümunəsinə çevrilib. "[O kəslər ki,] Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır (mömünlərlə dostluğu, qohum-əqrəba ilə əlaqələri kəsir) və yer üzündə fitnə-fəsad törədirlər. Məhz belələri (dünyada və axirətdə) ziyana uğrayırlar" [Əl-Bəqərə surəsi, 27-ci ayəsində buyurulanları] onların adət-ənənələrinə çevrildiyi şərafətli düşüncəmə aydın olmuşdur. Digər bölgələrdəki [xoşagəlməz] hallar da şərafətli iradəmə əsasən aradan qaldırıldığına görə, uca padşahlıq məqamıma vacib və lazım olmuşdur ki, o pis əxlaqlı tayfaların xəstə vücudlarını iti qılınclar vasitəsilə dünya səhifəsi üzərindən silib, dünyanı onun şər və pisliklərindən xilas edim. Buna görə də o istiqamətdə səfərə çıxmaq və o bölgəyə hərəkət etmək fikri istisna edilmir. Allahın inayəti və gözəl yardımları ilə yer üzündən bütün vücudları tamamilə məhv ediləcək və dünya səhifəsində izləri qalmayacaq. Sizlərə də lazımdır ki, dostluq yolunu izləməyi üstün tutub ətrafda

olan hörmətli əmirlərlə məktublaşaraq və xeyirli elçilər göndərərək fitnə-fəsadı aradan qaldırmaqda və kökünü kəsməkdə iştirak edəsiniz" (43).

Şirvanşahın yazdığı məktubdan görmək mümkündür ki, o, Sultan Səlimə öz sədaqətini bəyan etsə də, Osmanlı qoşunlarının bölgəyə yürüş etməsini böyük narahatçılqla qarşılamışdı. Xüsusən, Sultan Səlimin ondan Osmanlı qoşunları üçün ərzaq ehtiyatları yaratmağı tələb etməsi Şirvanşahı ciddi sual qarşısında qoymuşdu. Şirvanşahdan Osmanlı qoşunları üçün ərzaq ehtiyatları yaradılması barəsində Osmanlı sultanının məktubunda hər hansı bir işarə yoxdur. Çox güman ki, Sultan Səlim elçi vasitəsilə belə bir tələbi Şirvanşaha çatdırmışdı. Şirvanda isə çoxsaylı Osmanlı qoşunlarını təmin etməyə yetəcək ərzaq ehtiyatları yox idi. Ona görə Şirvanşah növbəti məktubunda Osmanlı sultanı qarşısında belə bir məsələ qaldırdı ki, nə etmək gərəkdir: "...Yönəltmə və hərəkət etmə (Şah İsmayılı aradan götürmək üçün şərqə doğru yönəlmək) barəsində dedikləriniz tamamilə məlum və aydın oldu. Lakin zəfərlər yaradan əsgərlərin çox olması və ərzağın isə azlığı barəsində əndişələnərək bir dil ilə (sətiraltı mənalarla) işarə edilənə təyin olunan bəxşişi sərf etməyimi bildirmisiniz. ...Digər əhvalımızı soruşsanız, məlum şəxs qorxu və həyəcanın çoxluğundan sülh ümidi ilə öz vilayəti ətrafında son dərəcə şəkk-şübhə içərisindədir. Onun qasidini ümidsizliklə geri qaytarsanız (sizin hakimiyyətinizə qarşı) səmimi olanların (tabe olanların) aqibəti necə olacaq? Bunu bəyan etməkdən məqsədimiz qorxu və həyəcanı çatdırmaq seyil, əksinə bütün insanların aqibətidir.

...İslamın pənahı! Bütün dünyanın aqibəti, günün günorta çağındakı günəş kimi ilham mənbəyi olan düşüncənizə aydın və aşkardır. Bəs aqibətimiz necə olacaq? Əksəriyyəti itaətkar və tabeçilik edən Gilaneynin hakimləri, Mazandaran və Kuhistan hakimi, Sicistan hakimləri, kürd əmirləri və gürcü knyazlarının əksəriyyəti sizin çoxsaylı qoşunlarınızdan, əzəmətli ordunuzdan, dayanmadan və sürətlə ölkələri fəth etmək niyyətinizdəki israrınızdan qorxu içindədirlər" (44).

Şirvanşahın bu məktubunda, bütünlükdə, Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə gözlənilən hücumu ilə bağlı ciddi bir həyəcan vardı. Şeyx İbrahim Osmanlı qoşunlarının Səfəvi hüdudlarına yeni hücumunu heç də dəstəkləmədiyini biruzə verirdi. Belə bir hücumun baş verə biləcəyi halda Səfəvi məmləkəti daxilində yaşayan insanların taleyinin necə olacağını narahatçılıqla soruşurdu. Şirvanşah eyni zamanda Gilanda, Mazandaranda, Kuhistanda, Gürcüstanda, Sicistanda da Osmanlı qoşunlarının gözlənilən hücumunun böyük narahatçılıqlara yol açdığını bəyan edirdi. Başqa sözlə, istər Şirvanda, istərsə də adları çəkilən vilayətlərdə Osmanlı qoşunlarının hərbi yürüşünün arzuedilməz olduğu Sultan Səlimin nəzərinə çatdırılırdı. Çox güman ki, bu məktubda yazılanlar Sultan Səlimi Səfəvi dövləti hüdudlarına hücum etməsi barəsində bir daha düşünməyə vadar etdi. Çünki bu məktubda Səfəvi hüdudlarına daxil olan və Səfəvi dövlətinin tərkibinə qatılmış olan vilayətlərin hakimlırinin və əhalisinin də Osmanlı yürüşlərini gözləmədiyi aydın şəkildə ifadə olunmuşdu. Bu məqam da Osmanlı qoşunlarının Səfəvi hüdudlarına yeni bir hücum çəkməsinin qarşısnı almış məqamlardan biri ola bilərdi. Yəqin ki, Sultan Səlim də Səfəvi hüdudlarına yeni

hərbi yürüş üçün Şah İsmayıla rəğbətli olmayan hakimlərə arxalanmağın səmərəsiz olduğunu anladı və ona görə də Şirvanşaha cavab məktubunda qaldırılan məsələ ilə bağlı konkret bir cavab vermədi. Sultan Səlimin Şirvanşaha son məkubunda onun bölgə hakimərinə göndərmiş olduğu əvvəlki məktublarda olan kəskinliyi artıq müşahidə etmək mümkün deyildir. Sultan Səlim yazırdı: "...Mətləbə gəlincə məlumunuz olsun ki, bu əsnada sadə [sözlərin] gözəlliyi və mürəkkəb [sözlərin] düzülüşündən mükəmməllik, ədalət, səmimi niyyət, inam və məhəbbət üslublarının aşkar və bəlli olduğu səmimiyyət şüarlı məktubunuz, bizə əziz və doğma olan xitabınız, seyid Mahmud, - ruzisi halal olsun, - vasitəsilə ən yaxşı vaxtlarda və ən gözəl əhval ilə çatdı. Dostluq səması məhəbbət məzmunlu ulduzlar ilə bəzədildi. İfadələrin üfüqündən səmimiyyət sübhünün müjdəsi, sətirlərinin oxunuşundan dindarlıq və müqavimətin tələb etdiyi ulduzların işığı açıq-aşkar parlamağa başladı. Peyğəmbərin şərafətli şəriətinə riayət etmək zərurəti və Məhəmmədin dininin tələb etdiyi, sədaqətli məzmunundan bəlli idi. Həqiqətən bu məna əbədi ülfət və məhəbbət silsiləsinin hərəkətə gəlməsi və əzəli dostluğun xatırlanmasına səbəb oldu. Bəxtiyar [insanın] ətir saçan nəzərindən gizli deyil ki, həmişə niyyətimizdə fitnə-fəsadın aradan qaldırılması və iradəmizdə isə dürüst insanların qəlbinin rahat olması özünə yer etmişdir. Hər halda intizarımız budur ki, əbədilik olaraq o kafir, dinsiz və bədəxlaq fitnə-fəsadçının əməllərinin nəticələrini və düşüncə əsaslarını əzəmət himayəçisinin hüzuruna [deyilə biləcək həddə] yüksəldək və sətirləri dostluq gülüstanı ilə zinətləndirək. Tərəflər arasında gündən-günə dostluq bağları möhkəmlənir və saatbasaat məhəbbət dayaqları möhkəmlənmiş olur. Bəndələrin Rəbbi xatrinə dövlətiniz əbədi, yüksəlişiniz daimi və həmişəlik olsun" (45).

Sultan Səlimin məktubu bundan ibarət idi. Həmin məktubda Şirvanşahın qaldırdığı məsələlərə hər hansı bir cavab yox idi. Çox güman ki, bu cavab həm də Şirvanşah İbrahim Şeyxşahı istər Osmanlı dövləti ilə, istərsə də Səfəvi dövləti ilə münasibətlərinə yenidən baxmağa sövq etdi. Bu da sonradan Şirvanşahın yenidən Səfəvi asılılığını qəbul etməyə yol açdı.

### 4. Şah İsmayılın Naxçıvan səfəri

1516-1517-ci ilin qışını Şah İsmayıl Təbrizdə keçirdi. Çaldıran döyüşündən başlayaraq Sultan Səlimin dünyasını dəyişdiyi 1520-ci ilə qədər Şah İsmayıl səltənət ərazisini tərk etmədi və Təbrizdən çox da uzaqlaşmadı. Onun Təbrizdən uzaqlaşmağı daha çox yaylaq və qışlaq məsələləri ilə bağlı idi. Elmi-tarixi ədəbiyyatda olan məlumatlara görə, Sultan Səlimin dünyasını dəyişdiyi tarixə qədər (1520) Şah İsmayıl səltənətin qərb sərhədlərini ciddi diqqət altında saxladı. Bildirilir ki, həmin müddət ərzində Şah İsmayıl Osmanlı sərhədləri boyunca yerləşmiş qoşun dəstələrini də döyüşə hazır vəziyyətdə saxladı (46). Doğrudur, Sultan Səlim də davamlı olaraq Səfəvi hüdudlarına yeni hərbi yürüş təşkil edəcəyini bildirirdi. Amma bu istiqamətdə məlumdur ki, ciddi bir addım atılmadı.

Amma onu da qeyd etmək lazımdır ki, Çaldıran döyüşündən sonrakı bir neçə il ərzində Şah İsmayıl tərəfindən hərbi sahədə əvvəlki fəallıqlar müşahidə edilməsə də, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın inkişaf etdirilməsi xüsusi diqqət altında idi. Mövcud olan məlumatlara görə, Şah İsmayıl ticarət islahatları həyata keçirdi, iqtisadiyyatın inkişafı üçün çoxlu sayda istehsal müəssisələrinin açılmasına təkan verdi. Onun qayğısı altında İsfahanda, Həmədanda, Rəştdə və bir sıra digər şəhərlərdə dəri və dəri məhsulları, xalça, şal və parça və digər sahələr üzrə istehsal müəssisələri açıldılar. Bu müəssisələrin bəziləri Şah İsmayılın vəsaiti hesabına, digərləri isə tacirlərin vəsaitləri hesabına açılmışdı (47).

1517-ci ilin sonlarında Şah İsmayıl qışlaq üçün Naxçıvana yollandı. Şah İsmayıl Naxçıvana doğru hərəkət edərkən bir həftənin ərzində üç oğlan övladı dünyaya gəldi və mənbələrdə olan məlumatlara görə, Şah İsmayıl bu övladlarının doğulmasını çox böyük sevinc və şadyanalıqla qarşıladı. Bu üç övladdan birincisi Şah İsmayıl Marağada olarkən, 1517-ci il sentyabr ayının 8-də dünyaya gəldi və onun adını Sam Mirzə qoydular. Şah İsmayıl, Sam Mirzənin anadan olmasına görə böyük miqdarda nəzir-niyaz payladı və Durmuş xan onun lələsi təyin edildi. Sam Mirzənin təvəllüdündən üç gün sonra, sentyabr ayının 11-də Rüstəm Mirzə dünyaya gəldi. Sentyab ayının 15-də isə Bəhram Mirzə həyata göz açdı. Bütün bu övladların dünyaya gəlişi neçə gün ərzində şadyanalıqla müşayiət olundu (48).

Naxçıvanda olarkən Şah İsmayıl ətraf bölgələrlə bağlı bir sıra mühüm məsələlərin həllinə nail oldu. Bu məsələlərdən biri Gürcüstanın Səfəvi hakimiyyəti altına gətirilməsi idi. Gürcüstanın sərhəd xəttinə yaxın bir bölgə olması Şah İsmayıl üçün müəyyən əhəmiyyət kəsb edirdi. Amma bu dövlətin işğal edilməsi məsələsində xüsusi bir çeviklik nümayiş etdirilmədi. Güman etmək olar ki, belə bir mövqe Çaldıran döyüşünün nəticələrindən sonra Şah İsmayılın xarici siyasətində yeni baxşların ortaya çıxması ilə bağlı idi. Naxşıvana gəldikdən sonra isə Şah İsmayıl bu məsələdə qətiyyətli addım atmaq qərarına gəldi. Bu qərar bir tərəfdən Osmanlı dövlətinin də Gürcüstana maraq göstərməsi ilə əlaqədar ola bilərdi. Çünki Gürcüstanın Osmanlı dövləti tərəfindən işğalı Səfəvi dövlətinin şimal sərhədləri və əyalətləri üçün təhlükə mənbəyi ola bilərdi. Digər tərəfdən hərbi qüvvələrin hərbi yürüşlərə cəlb edilməməsi, yəni qoşunların hərbi qənimətlərdən uzaq düşməsinin aradan qaldırılması da bu yürüşün təşkilinə rəvac verə bilərdi.

Gürcüstan üzərinə hərbi yürüş təşkil edilməsinin səbəblərinin Gürcüstanın daxilində gedən proseslərlə bağlı olması da istisna edilməməlidir. Belə ki, Səfəvi qoşunlarının Gürcüstana hücumu ərəfəsində Gürcüstan ərazisində yaranmış Kartli və İmeretiya dövlətlərinin hakimləri bir-birinə qarşı müharibəyə başlamışdılar. O zaman İmeretiya hakimi Mənuçehr, Kartli hakimi isə IV Kvarkvare (Qürqürə) idi. Bu silahlı qarşıdurmada İmeretiya hakimi Mənuçehr üstün gəldi və belə olanda Kvarkvare Şah İsmayıla pənah apardı və onda hərbi yardım istədi. Səfəvi şah bu xahişə müsbət cavab verdi və bir müddətdən sonra Div

Sultanın rəhbərliyi altında Gürcüstana qoşun dəstəsi göndərdi. Səfəvi qoşunlarının Gürcüstan üzərinə hücum etməsi Osmanlı qoşunlarının Misir ərazisində olduğu vaxtlara tədadüf edirdi. Səfəvi qoşunlarının Gürcüstan istiqamətində hərəkətə başlaması daha çox Gürcüstan ərazisində yaranmış vəziyyətdən irəli gəlirdi. Amma bu yürüşün Osmanlı qoşunlarının bölgədə olmadığı bir vaxtda həyata keçirilməsi də yəqin ki, düşünülmüş bir qərar idi.

Kartli hakiminin Səfəvi sarayından sığınacaq istəməsi Şah İsmayılın Gürcüstana yürüşlə bağlı qərarını qətiləşdirdi. Onun göstərişinə uyğun olaraq Div Sultanın rəhbərliyi altında Gürcüstana qoçun dəstəsi göndərildi. Şah İsmaıl özü bu kampaniyada iştirak etmədi. Div Sultanın rəhərliyi altında olan 15 min nəfərlik qoşun dəstəsi 1516-cı ildə Gürcüstan üzərinə yürüş etdi və bu yürüş zamanı onu tanınmış Səfəvi əmirlərindən Həsən bəy Təkalu, Narın bəy Qacar, Qazan bəy Rumlu, Həsən bəy Cutə və başqaları müşayiət edirdilər. Osmanlı qoşun dəstəsi Şuragöldən keçməklə Gürcüstan ərazisinə doğru istiqamət götürdü və gözlənilməz şəkildə Mənuçehri yaxaladı. Mənuçehr Osmanlı qoşun dəstəsinə müqavimət göstərməyin mümkün olmayacağını gördükdə dinc şəkildə razılığa gəlməyə cəhd göstərdi və bunun üçün öz elçilərini Div Sultanın yanına göndərdi. Amma Div Sultan onun təkliflərini qəbul etmədi və göndərdiyi elçiləri də qətlə yetirdi. Belə olanda Mənuçehrin Gürcüstanı tərk edib qaçmaqdan başqa çarəsi qalmadı. Bundan xəbər alınanda Mənuçehrin arxasınca Səfəvi dəstəsi göndərildi. Mənuçehr təqibdən yaxa qurtarmaq üçün hündür dağ yüksəkliklərində tikilmiş Tumək qalasına pənah apardı. Səfəvi dəstəsi 4 gün ərzində bu qalanı mühasirədə saxlayıb onun fəth edilməsinə cəhd göstərdi. Mənuçehr görəndə ki, bu qalada da mühafizə oluna bilməyəcək, onda oranı tərk edib Osmanlı hüdudlarına doğru yola düşdü. Tumək qalasının nümayəndələri isə hədiyyələrlə Səfəvi qoşun dəstəsinin rəhbərlərinin yanına gələrək onların bağışlanmasını xahiş etdilər. Bu xahiş qəbul olundu və Kvarkvare (Qürqürə) Gürcüstanın hakimi təyin edildikdən sonra Div Sultan çoxlu qənimətlərlə geri qayıtdı (49).

Amma Kvarkvarenin Gürcüstan üzərindəki sakit hakimliyi çox da uzun sürmədi. 1517-ci ildə Osmanlı sarayına sığınmış Mənuçehr Osmanlı qoşun dəstəsi ilə Gürcüstan hakimliyini yenidən öz əlinə almaq üçün hərbi yürüşə başladı. Kvarkvare bu dəfə də Şah İsmayıldan hərbi kömək istədi. Bu dəfə də Şah İsmayıl ona kömək etdi və Div Sultanın rəhbərliyi altında olan qoşun dəstəsini Gürcüstana istiqamətləndirdi. Mənbələrdə olan məlumata görə, Div Sultanın qoşun dəstəsi ilə Osmanlı dəstəsi Qaraca Ərdəhan adlanan məntəqədə qarşı-qarşıya gəldilər. Div Sultanın bacarığı və şücaəti nəticəsində Osmanlı sarayı tərəfindən göndərilmiş qoşun dəstəsinə üstün gəlmək mümkün oldu. Bu qarşılaşma zamanı Osmanlı qoşun dəstəsinin rəhbəri qətlə yetirildi. Div Sultan ona tapşırılmış vəzifəni uğurla yerinə yetirib Çuxusəəddən keçməklə Naxçıvana qayıtdı, burada Şah İsmayıla Gürcüstan yürüşünün nəticələri barəsində məlumat verdi (50).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərindəki məlumata görə, Gürcüstan üzərinə hərbi yürüş həyata keçirlməsinin səbəbi yalnız Gürcüstan daxilində cərəyan edən hadisələrlə bağlı deyildi. Bildirilir ki,

Gürcüstan ərazisində mövcud olan dövlətlərin - İmeretiya, Kartli və Kaxetiyanın hakimləri Mənuşehr, Kvarkvare (Qürqürə) və Ləvənd xan (Levond) birlikdə Şah İsmayılın Xorasanda olmasından istifadə edərək (bu məlumat digər mənbələr tərəfindən təsdiq olunmur - M.S.) Qarabağa talançı yürüş etdilər və vilayətə çox böyük ziyanlar yetirdilər. Məlumata görə, gürcü hakimləri hətta Qarabağdan Ərdəbil istiqamətinə hərəkət etmək niyyətinə də düşmüşdülər. Amma eşidəndə ki, Şah İsmayıl geri qayıdır və artıq Ərdəbilə yetişmişdir, onda geri qayıtmalı oldular və Gürcüstana qayıtdılar. Şah İsmayıl bu hadisədən xəbərdar olanda Div Sultanın rəhbərliyi altında Gürcüstana 15 min nəfərlik qoşun dəstəsi göndərdi ki, gürcü hakimlərinə lazımi dərs versin. Div Sultanın rəhbərliyi altında qoşun dəstəsinin Gürcüstana doğru istiqamət götürməsi xəbərini alanda üç gürcü hakimi bir yerə toplaşıb yaxınlaşmaqda olan təhlükənin qarşısının alınması yolları bardə məsləhətləşmələr apardılar. Onlarda belə bir güman yaranmışdı ki, Səfəvi qoşun dəstəsini asanlıqla məğlub edəcəklər və hətta Div Sultanın kimin öldürəcəyi barəsində onların arasında bir mübahisə də yarandı. Div Sultan dəstəsi ilə yaxınlaşanda gürcü qoşunlarının qəfil hücumuna məruz qaldı. Bununla belə, Div Sultan çox tezliklə toparlanıb döyüşə girdi. Gürcü hakimlərinin bütün cəhdlərinə baxmayaraq, Səfəvi qoşun dəstəsinin müqavimətini qırmaq mümkün olmadı və onların niyyəti həyata keçmədi. Div Sultan döyüşün gedişində özünü Mənuçehr xana yetirərək qılıncının zərbəsi ilə onu atdan yerə sala bildi və döyüşçülərinə tapşırdı ki, onu əsir götürsünlər. Digər gürcü hakimləri isə güclə təhlükədən canlarını qurtara bildilər və döyüş meydanını tərk edərək qaçmağa üz tutdular. Səfəvi qoşun dəstəsi gürcü qoşunları üzərində tam qələbə əldə etdi. Div Sultan döyüşün gedişi, Mənuçehr xanın əsir götürülməsi və digər hakimlərin isə döyüş meydanından qaçmaları barəsində Şah İsmayıla məktub göndərdi (51).

Adları çəkilən mənbələr Şah İsmayıl ilə gürcü hakimləri arasındakı münasibətlərin yuxarıda söylənilənlərdən fərqli şəkildə formalaşdığını bəyan edirlər. Bu mənbələr gürcü hakimlərindən kiminsə Osmanlı sarayına pənah aparmasını və Osmanlı qoşun dəstəsinin Gürcüstan ərazisinə gələrək Div Sultanın qoşun dəstəsi ilə döyüş keçirməsini göstərmirlər. Məlumatlara görə, əsir götürülmüş Mənuçehr xan görüşləri zamanı Div Sultanın ona qarşı mehriban münasibətini, xoş davranışını gördükdən sonra islam dinini qəbul etmək qərarına gəlir. Səfəvi dövlətinə sədaqətini bəyan edəndən sonra o, yenidən gürcü hakimi vəzifəsində saxlanılır. Buna qısqanclıqla yanaşan Əlvənd xan plan quraraq Mənuçehr xanı əsir götürür və hətta onu öldürmək də istəyir. Amma ətrafındakıların məsləhəti ilə bu qərarından əl çəkir. Lakin Mənuçehr xanı əsirlikdən də azad etmir. Bunu eşidəndə Şah İsmayıl yenidən Div Sultanı Gürcüstan ərazisinə göndərdi. Onun qarşısına belə bir vəzifə qoyulmuşdu ki, Əlvənd xana zərbə vursun və Mənuçehr xanı əsirlikdən azad etsin. Div Sultan bu vəzifənin də öhdəsindən gəlir və Mənuçehr xanı azad etməklə Əlvənd xanı əsir götürür və Şah İsmayılın hüzuruna gətirir. Şah İsmayıl da onun bütün hərəkətlərinə başxmayaraq günahlarından keçir və onu da hakim vəzifəsində saxlayır. Sonradan Qürqürə xan da Şah İsmayılın belə bir şəfqəti ilə qarşılaşır (52) və bununla, Gürcüstan məsələsinə

bir aydınlıq gətirilmiş olur. Bir daha qeyd edilməlidir ki, bu məlumatlar istinad edilmiş digər mənbələrdə öz təsdiqini tapmamışdır.

Şah İsmayılın Naxçıvanda olarkən həllinə nail olduğu məsələlərdən biri də Şirvanşahla olan münasibələrə aydınlıq gətirilməsi idi. Şirvan hakimi II İbrahim Şeyxşahın Osmanlı sultanı ilə olan münasibətləri haqqında yuxarıda danışılmışdı. Onların qarşılıqlı məktublaşmaları belə bir qənaətə gəlməyə əsas verir ki, Şeyxşah öz maraqlarının qorunmasına nail olmaqla Səfəvi dövləti ilə olan bağlılıqdan qurtarmağa və Osmanlı dövləti ilə əlaqələr qurmağa çalışırdı. Lakin Şeyxşah reallığı təhlil etdikdən sonra Osmanlı dövləti ilə marağında olduğu münasibətlərin mümkün olmadığını anladı və Səfəvi dövlətinin hakimiyyətinin qəbul edilməsinə qərar verdi. Şirvanşah Səfəvi dövlətinin asılığından qurtarmağa meyl göstərirdi və bunun üçün yollar da axtarırdı. Lakin Osmanlı dövlətinə bağlanan ümidlər özünü doğrultmadı. Çox güman ki, Səfəvi qoşunlarının Gürcüstan üzərinə hücumu və Gürcüstanın nəzarət altına alınması da Şirvanşahı Səfəvi dövləti ilə münasibətlərin aydınlaşdırılmasına sövq etdi.

Şirvanşah II İbrahim Şeyxşah Səfəvi dövləti ilə münasibətləri qaydasına salmağa və Səfəvi hakimiyyətinə qarşı qədaqət göstərməyə qərar verəndən sonra öz elçilərini çoxlu sayda qiymətli hədiyyələrlə birlikdə Naxçıvana, Şah İsmayılın yanına göndərdi, bu elçilər vasitəsilə yenidən Səfəvi dövlətinin xidmətində dayanmağa hazır olduğunu bildirdi. Şah İsmayıl bu elçiləri qonaqpərvərliklə qarşıladı, onlara Şirvanşahın xətalarını bağışladığını və xoş münasibətlərin davam etdirilməsinə tərəfdar olduğunu bildirdi. Şah İsmayıl Şirvanşaha yenidən etimad və inamla yanaşdığını nümayiş etdirmək, Şirvanşaha qarşı hər hansı bir tədbirin həyata keçirlməyəcəyini nümayiş etdirmək üçün sarayının iki nüfuzlu əyanını onun yanına göndərdi. Bu əyanlardan biri vəkil üs-səltənə Mirzəşah Hüseyn İsfahani, o biri isə seyid ül-mürsəlin əmir Camaləddin Məhəmməd Sədr idi. Onlar da Şah İsmayılın sözlərini və vədlərini Şeyxşaha çatdırmalı idilər. Şeyxşah bu elçiləri böyük təntənə ilə qarşıladı, onlara xüsusi ehtiram və hörmət göstərdi. Bununla, o da Səfəvi dövlətinə qarşı sədaqətli qalacağını nümayiş etdirdi. Şah İsmayılın adları çəkilən elçiləri qiymətli hədiyyələrlə geri döndülər. Onlarla birlikdə Şeyxşahın daha bir elçisi çoxlu sayda bahalı hədiyyələrlə Şah İsmayılın hüzuruna gəldi və həmin elçi vasitəsilə Şirvanşah bir daha Səfəvi dövlətinə qarşı xoş münasibətlərdə olacağını bəyan etdi. Şirvanşahın Səfəvi dövləti ilə münasibətlərin bərqərar edilməsinə belə ehtiyatla və təkidlə yanaşması heç də təsadüfi deyildi. Məlum idi ki, Şah İsmayılın həm atası, həm də babası Şirvanşah qoşunları ilə döyüşdə həyatlarını itirmişdilər. Güman edilirdi ki, bu hadisələr Şah İsmayılda Şirvanşaha qarşı qisasçılıq hisslərinin canlı qalmasına səbəb ola bilər. Amma Şah İsmayıl əsaslı şəkildə Şirvanşaha çatdırdı ki, münasibətlərin qisasçılıqdan uzaq şəkildə qurulmasında təkidlidir. Qarşılıqlı münasibətlər yenidən hər ikli tərəfin marağını təmiun edəcək səviyyədə qurulduqdan sonra Şeyxşah elçiləri vasitəsilə Şah İsmayıla çatdırdı ki, əgər onun Səfəvi dövlətinə olan sədaqətini səmimi şəkildə qəbul edirsə, onda Şirvanşahın oğlunu kürəkənliyə qəbul etsin. Yəni Şah İsmayıl öz qızını Şirvanşahın oğluna

versin. Şah İsmayıl bu təklifi də qəbul etdi və qızını Şirvanşahın böyük oğlu Sultan Xəlilə nikah etdirdi. Eyni zamanda qarşılıqlı şəkildə razılığa gəlindi ki, Şirvanşahın qızı da Şah İsmayıla nikah edilsin (53).

Naxçıvanda olduğu müddətdə Şah İsmayılın gördüyü maraqlı işlərdən biri də Sultan Səlimin yanına növbəti elçini göndərmək oldu. Çaldıran döyüşündən sonra Şah İsmayıl Osmanlı dövləti ilə normal münasibətlər qurmağın yollarını aramaqda idi. İki elçiliyin ardınca Şah İsmayıl cəhd göstərdi ki, Şirvanşahı da iki dövlət arasındakı münasibətlərin normallaşdırılması üçün vasitəçiliyə cəlb etsin. Amma Şirvanşah Osmanlı və Səfəvi dövlətləri arasında vasitəçilik etmək-dən çəkindi. Bunu o, yuxarıda istinad edilmiş məktubunda da etiraf edirdi. Həmin məktubda Şirvanşah həm də Şah İsmayılın Osmanlı sultanı yanına növbəti elçi göndərmək niyyətində olduğunu da yazmışdı. Görünür, Şirvanşahın bu məsələdən lazımınca xəbəri var idi və Naxçıvanda olduğu zaman, yəni 1518-ci ilin fevral ayında Şah İsmayılın Çaldıran döyüşündən sonra üçüncü elçiliyi Sultan Səlimin hüzuruna yollandı (54).

Misir işğal edəndən sonra Osmanlı dövlətinin bölgədəki mövqeləri daha da möhkəmlənmişdi və Osmanlı sultanı da islam xəlifəsi adını öz üzərinə götürmüşdü. Yəni Sultan Səlim yeni imkanlar, yeni nüfuz əldə etmişdi. Misir kimi böyük bir dövlətin işğal edilməsindən sonra onun Səfəvi dövləti üzərinə yeni bir hücumu ehtimal edilən idi. Bunu Sultan Səlim gizlətmirdi də. Çaldıran döyüşü ilə Şah İsmayılın süquta uğradılması istəyinin həyata keçməməsi Sultan Səlimi Səfəvi dövləti üzərinə yeni bir müharibəyə sövq edirdi. Amma Şah İsmayıl bu müharibəni istəmirdi və ona görə Sultan Səlimi də belə təcavüzkar siyasətdən çəkindirməyə çalışırdı. Bu məqsədlə Şah İsmayıl yeni elçiliyini Osmanlı sarayına yolladı. Bu elçiliyə Sarı Şeyx adlı birisi rəhbərlik edirdi. Şah İsmayılın elçisi Şirvanşahın Osmanlı sarayına göndərdiyi elçi ilə birlikdə hərəkət edirdi. Şah İsmayılın elçisi özü ilə Sultan Səlimə məktub və qiymətli hədiyyələr aparırdı. Bu hədiyyələrə çox bahalı firuzə daşları, ləl, lacivərd və kitablar daxil idi. Şah İsmayıl eyni zamanda Sultan Səlimin anasına, Sinan paşaya və Yunis paşaya da məktublar və qiymətli hədiyyələr göndərmişdi. Adları çəkilən paşalar artıq həyatda yox idilər və yəqin ki, Şah İsmayıl bu barədə hələ məlumat almamışdı. Sutan Səlim isə hələ də Səfəvi dövləti üzərinə yeni bir hücum arzularından əl çəkməmişdi və ona görə də Şah İsmayılın dostluq təkliflərini yenə qəbul etmədi. Şah İsmayıl məktubunda Misiri işğal edə bildiyi üçün Sultan Səlimə öz təbriklərini də göndərmişdi. Amma Sultan Səlim bu dəfə də Şah İsmayılın elçisini həbs etdirdi və bununla da o, Səfəvi dövlətinə qarşı hansı münasibətdə olduğunu nümayiş etdirdi (55).

### 5.Mazandaranda və Gilanda sabitliyin bərqərar edilməsi

Şah İsmayıl 1518-ci ilin Novruz bayramına kimi Naxçıvada qaldı və bayramı orada qeyd etdikdən sonra Surluğ yaylağına doğru istiqamət götürdü. Orada da dayanmayıb Təlvar çayına tərəf hərəkət etdi. Səfəvi şahı istər Naxçı-

vanda olanda, istərsə də Surluğ və Surluğ ətrafında olarkən boş vaxtlarında ova çıxmağı xoşlayırdı. Təlvar çayında balığın bol olması Şah İsmayılı balıq ovuna da sövq etdi. Sonra isə bir müddət Bisütun dağı ətrafında məskən saldı. Mənbə məlumatlarına görə, burada geniş ov imkanları var idi. O, yayı adları çəkilən məntəqələrdə keçirdi və 1518-ci ilin sentyabrında qışı keçirmək üçün Quma gəldi. Burada olduğu zaman Şah İsmayıl məlumat aldı ki, Mazandaran hakimi Səfəvi xəzinəsinə illik vergiləri verməkdən imtina etmişdir. Həmin ilin ramazan bayramı Şah İsmayılın Qumda olduğu dövrə təsadüf edirdi. Səfəvi şahı bu bayramın da təntənəli və yaddaqalan şəkildə qeyd edilməsi üçün lazım olan tədbirləri həyata keçridi və bundan sonra Səfvi dövlətinə qarşı asilik yoluna qədəm qoymuş Mazandaran və Rüstəmdar hakimləri barəsində ciddi addımlar atılması üçün əməli işlər gördü. Şah İsmayıl birmənalı şəkildə səltənət daxilində qiyamçılığın aradan qaldırılması yolunu tutdu və bu istiqamətdə qətiyyətli hərəkətlərə əl atdı.

Yuxarıda yazılanlardan məlumdur ki, Şah İsmayıl özbək xanları üzərinə hücum çəkəndə ləngiməmək üçün Mazandaranda vaxt itirməyi lazım biməmişdi. Şah İsmayılın qalib gəldiyi Şeybək xanın qolunu Mazandaran hakimi Ağa Rüstəmə göndərməsi onun dərin psixoloji sarsıntı keçirməsinə və bununla da həyatına son qoyulmasına gətirib çıxarmışdı. Mazandaranın bir hissəsi Ağa Rüstəmin oğlu Ağa Məhəmmədin, bir hissəsi isə Əmir Əbdülkərimin hakimliyi altında idi. Şah İsmayıl Xorasan vilayətini fəth edib geri qayıdarkən Ağa Məhəmmədlə Əmir Əbdülkərim onun hüzuruna gəldilər, ona itaətini bəyan etdilər. Şah İsmayıl da onların itaətini qəbul edib hakimi olduqları ərazilərin hakimliyində saxladı. Adları çəkilən əmirlərdən başqa Mazandaranda bir sıra kiçik ərazilərin də əmirləri var idi. Onlar əlçatmaz dağlıq bölgələrdəki kiçik ərazilərin hakimləri idi. Çaldıran döyüşündən sonra bu hakimlərin hamısı Səfəvi dövlətinə itaətdən üz döndərdilər (56). Bir tərəfdən Osmanlı sultanı ilə olan əlaqələr onlarda Şah İsmayıldan müdafiə olunacaqlarına dair bir arxayınçılıq yaratdı, bir tərfdən də özbək xanlarının təhriki onları asilik yoluna yönəltdi. Sultan Səlim də Mazandaran əmirlərinin Şah İsmayıla qarşı asilik yolunu tutmasında maraqlı idi. Məlum olduğu kimi, Sultan Səlim Misir kampaniyasından sonra Mazandaran və Gilan hakimlərinə məktub göndərmiş və onları Şah İsmayıla qarşı birgə mübarizəyə səsləmişdi.

Şah İsmayıl Mazandaran hakimləinin itaətsizliyinin aradan qaldırılması üçün Durmuş xanın və Zeynal xanın rəhbərliyi altında qoşun dəstəsi təşkil etdi və bu qoşun dəstəsini bölgəyə göndərdi. Dumuş xan əvvəlcə diqqətini Ağa Məhəmmədin ələ keçirilməsi üzərində cəmlədi. Ağa Məhəmməd isə böyük sayda Səfəvi qoşun dəstəsinin gəlməsindən xəbər tutanda Övlad qalasında gizləndi. Bu qala kifayət qədər möhkəm bir qala idi və Ağa Məhəmməd həmin qalada müqavimət göstərə biləcəyinə ümid edirdi. Bölgədə Kilis qalası adlanan başqa bir möhkəm qala da var idi. Həmin qalaya isə Ağa Məhəmmədin yaxın ətarfı pənah apardı. Durmuş xan bölgəyə yetişən kimi əvvəlcə Kilis qalasını mühasirəyə aldı. Həmin qalanı üç gün ərzində mühasirədə saxladı. Bu günlər ərzin-

də tərəflər arasında kifayət qədər gərgin bir döyüş keçdi. Mazandaran hakiminin qüvvələri qalanın qorunması üçün bütün güclərini ortaya qoydular. Çünki Övlad qalasının taleyi də, əslində, bu qalanın taleyindən asılı idi. Kilis qalası qorunacağı təqdirdə Övlad qalasını da qorumaq mümkün ola bilərdi. Qalanın ətrafında xəndəklər də mövcud idi ki, bu da müdafiə imkanlarını artırırdı. Digər tərəfdən də qala müdafiəçiləri qala divarları üzərindən Durmuş xanın dəstəsini ox yağışına tutmuşdu. Durmuş xan da sərəncamında olan bütün silahlardan istifadə etməklə qala müdafiəçilərinin müqavimətini qırmağa çalışırdı. Mənbələrdəki məlumatlara görə, Durmuş xanın döyüşçüləri tüfənglərlə də silahlanmışdılar və bu tüfənglərdən də səmərəli istifadə edilməsi qala müdafiəçilərinə ağır zərbə vurulmasına imkan verdi. Kilis qalası üç gün mühasirədə saxlandı və üç gündən sonra bu qalanı ələ keçirmək mümkün oldu. Durmuş xan bu qalada mövcud olan xəzinəni, habelə digər ehtiyatları ələ keçirdi. Bundan sonra Durmuş xan Övlad qalasını mühasirəyə aldı. Ağa Məhəmməd anladı ki, Səfəvi qoşun dəstəsi qarşısında müqavimət göstərmək gücündə deyil. Ona görə də öz nümayəndələrini Durmuş xanın yanına göndərdi və ondan aman dilədi. Bundan sonra Durmuş xan qalanın mühasirəsini dayandırmağa razı oldu. O, Əhməd bəy və Qazi Cahan adlı əmirlərini qala daxilinə göndərdi, mühasirəni dayandırmaq haqqındakı qərarını Ağa Məhəmmədə çatdırdı. Ağa Məhəmməd bu xəbəri alandan sonra özü də Durmuş xa-nın yanına gəldi və neçə illər ərzində toplamış olduğu xəzinəsinin açarlarını ona təqdim etdi (57).

Ağa Məhəmməd bağışlansa da Durmuş xan onu yanından buraxmadı. Övlad qalası da nəzarət altına alınandan sonra Əmir Əbdülkərimin islah edilməsi üçün Sari şəhərinə doğru istiqamət götürüldü. Ağa Məhəmmədin taleyi artıq Əmir Əbdülkərimə bəlli idi və o da anladı ki, Səfəvi qoşun dəstəsinə qarşı müqavimət göstərmək gücündə deyil. Ona görə o da barışıq yolunu tutdu. Əmir Əbdülkərim oğlu Mahmud Sultanı vasitəçilik üçün Durmuş xanın yanına göndərdi. Mahmud Sultan özü ilə 2 min tümən pul və xeyli sayda qiymətli hədiyyələr də gətirmişdi. Həmin hədiyyələr təqdim edilməklə Durmuş xana bəyan edildi ki, Əmir Əbdülkərim Səfəvi dövlətinə itaətə hazırdır və bundan sonra vaxtlı-vaxtında illik vergiləri Səfəvi xəzinəsinə ödəyəcəkdir. Əmir Əbdülkərim eyni zamanda layiqli hədiyyələr hazırlanandan sonra özünün Şah İsmayılın hüzuruna yollanacağını bildirdi. Durmuş xan bu təklifləri də qəbul etdi və bir neçə hədiyyə təqdim etdikdən sonra Mahmud Sultanın geri qayıtmasına icazə verdi. Ağa Məhəmmədin və Əmir Əbdülkərimin ardınca bölgənin kiçik əmriləri olan Mir Hüseyn Hezarciribi, Məlik Kavus, Məlik Bəhmən müxtəlif hədiyyələrlə Durmuş xanın yanına gəldilər və Şah İsmayıla itaətlərini bəyan etdilər. Bununla, Durmuş xan ona tapşırılmış vəzifəni həyata keçirdi. O, ələ keçirdiyi xəzinə, hədiyyələr və Ağa Məhəmməd xanla İsfahana Şah İsmayılın hüzuruna yollandı. Şah İsmayıl həmin vaxt artıq Qumu tərk edərək İsfahana gəlmişdi (58).

Durmuş xanla Zeynal xan qoşun dəstəsi ilə Mazandarana yola düşəndən sonra Şah İsmayıl da bütün ətrafı ilə birlikdə İsfahana yola düşdü. Reyə çatanda Şah İsmayıl özünü halsız hiss etdi və onda ciddi xəstəlik olması özünü göstərdi. Şah İsmayıl ilk dəfə idi ki, belə ciddi xəstəliklə qarşılaşırdı. Həmin xəstəlik bir

neçə gün ərzində davam etdi. Şah İsmayılın həkimi olan şirazlı Mövlana Əlaəddin Məhəmməd ibn Sədrəddinin səyləri ilə onun bu xəstəliyini müalicə etmək mümkün oldu. Mövlanə Əlaəddin təcrübəli təbib olmaqla yanaşı, həm də Şah İsmayıla yaxınlığı ilə seçilən bir şəxs idi. Şah İsmayılın xəstəliyinin müalicəsinə nail olması da onun böyük təcrübəyə malik olmasının nişanəsi idi. Amma çox keçmədi ki, Mövlana Əlaəddin Məhəmməd özü həmin xəstəliyə (zat əl-sədr) tutuldu. Mövlanə özünü bu xəstəlikdən müalicə edə bilmədi və İsfahana yetişmək ərəfəsində həyatını dəyişməli oldu. Şah İsmayıl bu xəbəri son dərəcə kədərlə qarşıladı. Çünki Mövlanə Əlaəddinin şəxsində Şah İsmayıl həm təcrübəli bir təbibi, həm də ona yaxın olan bir adamı itirmişdi. Ona görə də, Şah İsmayıl uzun müddət Mövlana Əlaəddinin yasını saxladı (59).

Yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıl İsfahana yetişəndən sonra Durmuş xan Mazandaran hakimi Ağa Məhəmmədlə və bölgədə ələ keçirdiyi xəzinələrlə onun hüzuruna yetişdi. Həmin günlərdə Mazandaranın digər hakimi olan Əmir Əbdülkərim də qiymətli hədiyyələrlə Şah İsmayılın hüzuruna yetişdi və ona itaətini bildirdi. Şah İsmayıl bu əmirlərin hər ikisi ilə görüşdü, onların peşmançılığını qəbul etdi. Belə bir qərar qəbul edildi ki, Əmir Əbdülkərim 4 min tümən, Ağa Məhəmməd 3 min tümən, Mir Hüseyn Hezarciribi isə bir min tümən illik vergi versin. Bu vergilər iki yerə bölünməklə ödənə bilərdi. Bu qərardan sonra Əmir Əbdülkərimin geri qayıtmasına icazə verildi. Ağa Məhəmməd isə yenə də Şah İsmayılın düşərgəsində saxlanıldı. Vergilərin vaxtında ödənməsi üçün Ağa Məhəmməd öz yaxınlarına xəbər göndərdi. Lakin onun tərəfindən toplanan vergi Səfəvi xəzinəsinə yetişməmiş Ağa Məhəmməd gizli şəkildə Şah İsmayılın düşərgəsini tərk elədi və öz yurduna qaçdı. Onu belə bir hərəkət etməyə vadar edən səbəblərdən biri onunla Əmir Əbdülkərim arasında ərazi mübahisəsinin olması idi. Şah İsmayılın qərarı ilə əvvəllər Ağa Məhəmmədə məxsus olan ərazilərin bir hissəsi alınaraq Əmir Əbdülkərimin nəzarəti altına verilmişdi. Ağa Məhəmməd isə bununla razı deyildi və Şah İsmayılın düşərgəsindən qaçdıqdan sonra bu mübahisəni həll etməyə çalışdı. Həmin mübahisənin həll edilməsi üçün Ağa Məhəmməd qoşun dəstəsi ilə Əmir Əbdülkərimin üstünə hərəkət etdi və ona üstün gəldi. Şah İsmayıl bu vəziyyətlə heç də razılaşmadı və Ağa Məhəmmədin yeni qiyamçılığına son qoymaq üçün İraq və Kürdüstandan olan qoşun dəstəsini bölgəyə göndərdi. Bu qoşun dəstəsi Ağa Məhəmmədi ələ keçirdi və onu Şah İsmayılın hüzuruna gətirdi. Şah İsmayıl ona qarşı ciddi cəza tədbiri tətbiq etməsə də hakimlikdən uzaqlaşdırdı. Onun göstərişi əsasında Mazandaranın hər iki hissəsi Əmir Əbdülkərimin hakimliyi altına verildi. Hər iki hissəyə aid olan 7 min tümən vergi də Əmir Əbdülkərim tərəfindən toplanaraq dövlət xəzinəsinə təhvil verilməli idi. Mövcud məlumata görə, Ağa Məhəmməd isə Şah İsmayılın həyatının sonuna kimi Səfəvi sarayında (düşərgəsində) saxlanıldı (60).

Şah İsmayıl İsfahan ətrafında olarkən Lahican hakimi Sultan Əhməd və Şirvanşah II İbrahim Şeyxşah da onunla görüşmək imkanı tapdılar (61). Bu görüşlər barəsində mənbələr geniş məlumat verilmir. Heç şübhəsiz ki, həmin

görüşlərin hər ikisi Şah İsmayıla olan itaətkarlığın və sədaqətin təsdiqi üçün həyata keçirilmişdi.

1518-ci ilin sonlarına doğru Şah İsmayıl yenidən qışı keçirmək üçün Quma doğru istiqamət götürdü. Mənbələrin verdiyi məlumata görə, Şah İsmayıl orada oğlu Sam Mirzənin başının qırxdırılması mərasimini keçirdi. Dövrün adətlərinə görə, uşağın başının ilk dəfə qırxdırılması xüsusi mərasim və şadyanalıqla müşayiət olunurdu. Şah İsmayıl isə bu mərasimə xüsusi bir görkəm verdi və Sam Mirzənin başı qırxıldıqdan sonra bir neçə gün bu hadisə ilə bağlı şadyanalıq məclisləri quruldu. Şah İsmayıl 1519-cu ilin Novruzuna qədər Qumda qaldı və Novruz bayramını da orada qarşıladı. 1519-cu ilin yazında Şah İsmayıl bütün ətrafındakılarla birlikdə Savə istiqamətində hərəkətə başladı. Mənbələrdəki məlumatlara görə, Şah İsmayılı bu bölgəyə getməyə sövq edən səbəblərdən biri də orada ov heyvanlarının çox olması idi. Bir müddətdən sonra isə Şah İsmayıl Ələnk Xərqan adlanan məntəqəyə yollandı. Şah İsmayıl həmin məntəqədə olduğu günlərdə Mazandaran hakimi Əmir Əbdülkərim onun görüşünə gəldi və bir daha ona öz sədaqətini bəyan etdi (62).

Həmin məntəqədə olarkən Şah İsmayıl Gilan hakimi Əmirə Dibacın itaətsizlik yolunu tutması barəsində məlumat aldı. O, yenidən Durmuş xanla Zeynal xanı bu itaətsizliyin aradan qaldırılması üçün qoşun dəstəsi ilə Rəştə göndərdi. Məlumatlara görə, Mazandaran və Rüstəmdar hakimi Əmir Əbdülkərim, habelə Lahican hakimi Sultan Əhməd də Durmuş xan və Zeynal xanla birlikdə Rəştə göndərildilər. Şah İsmayıl özü isə Tarom və Fumən yolu ilə Rəştə doğru irəliləməli idi. Bununla nəzərdə tutulurdu ki, Əmirə Dibacın bütün yolları kəsilsin və onun qaçıb gizlənmək imkanı olmasın (63).

Çaldıran döyüşündən sonra Səfəvi qoşunlarının heç bir yürüşündə Şah İsmayıl iştirak etməmişdi. Amma Rəşt itaətsizliyinin aradan qaldırılmasında Şah İsmayıl özü də iştirak etmək qərarına gəldi. Doğrudur, əsas tapşırıq Durmuş xanla Zeynal xanın üzərində idi. Hər halda Şah İsmayıl da bu hadisədən kənarda qalmadı və onun şəxsən bu hadisənin qarşısını almaqda iştirak etməsi ola bilsin ki, Rəşt itaətsizliyinin daha təhlükəli ola bilməsi ilə bağlı idi. Bununla belə, Rəşt itaətsizliyini də çətinlik çəkmədən aradan qaldırmaq mümkün oldu. Əmirə Dibac Durmuş xanın rəhbərliyi altında Səfəvi qoşun dəstəsinin bölgəyə gəlməsi xəbərini eşidən kimi əməlindən peşman oldu. O, dərhal bölgənin ağsaqqallarının bir neçəsini toplayaraq çoxlu hədiyyələrlə Şah İsmayılın hüzuruna göndərdi. Şah İsmayıl Sultaniyyədə olarkən Rəşt hakiminin elçiləri onun görüşünə nail ola bildilər. Bu nümayəndələr 5 min tümən nağd pul və çoxlu hədiyyə təqdim etməklə Pəşt hakimi tərəfindən vaxtlı-vaxtında illik vergilərin ödənəcəyini bildirdilər. Rəşt hakimi eyni zamanda Lahican hakimi Sultan Əhməddən onun Şah İsmayıl qarşısında vasitəçiliyini etməyi xahiş etdi. Sultan Əhməd də belə bir vasitəçiliklə Şah İsmayıldan onun bağışlanmasını xahiş etdi. Bu xahişlərdən sonra Şah İsmayıl Rəşt hakimini də bağışladı və onu öz vəzifəsində saxladı (64).

Sonradan Şah İsmayıl ilə Əmirə Dibacın aralarında bir yaxınlaşma da baş verdi. Bir müddət Ələnk Xərqanda qaldıqdan sonra Şah İsmayıl Həmədana

doğru hərəkət etdi. 1519-cu ildə Şah İsmayıl Həmədanda olarkən Əmirə Dibac özü də Şah İsmayılın hüzuruna gəldi, onunla görüşdü və ona sədaqətli olacağını bir daha bildirdi. Şah İsmayıl isə qızını ona nikah etdirdi, onu öz kürəkəninə çevirdi və ona Müzəffər sultan ləqəbi verdi. Əmirə Dibac bir müddət Şah İsmayıl ilə birlikdə ovlarda da iştirak etdi və sonradan Şah İsmayılın icazəsi ilə yenidən Rəştə döndü (65).

Şah İsmayıl Həmədanda da uzun müddət dayanmadı. Sonra o, hərəkətini Sultaniyyəyə doğru davam etdirdi. Şah İsmayıl burada olarkən belə bir məlumat aldı ki, böyük sayda olan Osmanlı qoşunları Bağdad şəhərinə doğru irəliləyirlər və bu şəhəri işğal etmək niyyətindədir. Şah İsmayıla gizli deyildi ki, Bağdad şəhər-qalasında olan qarnizonla çoxsaylı Osmanlı qoşunlarına müqavimət göstərmək mümkün olmayacaqdır. Ona görə də bu şəhərə kömək göndərmək qərarına gəldi. Bununla bağlı, xüsusi bir dəstə təşkil edildi və həmin dəstəyə rəhbərlik yenə də Durmuş xanla Zeynal xana tapşırıldı. Kürdüstan hakimi Cuci Sultana da göstəriş verildi ki, öz qoşun dəstəsi ilə Durmuş xanla Zeynal xana qoşulsun və Bağdad hakimi - Əvəz Sultan ləqəbi almış Əli bəyə köməyə yollansın. Bu dəstə dərhal Bağdada doğru istiqamət götürdü (66).

Şah İsmayıl bu dəfə də Səfəvi qoşun dəstəsinin hərbi yürüşündə iştirak etmədi və qoşunlarla birlikdə Bağdad istiqamətinə yollanmadı. Durmuş xanın və Zeynal xanın rəhbərliyi altında olan qoşun dəstəsi Bağdada doğru hərəkətə başladıqdan sonra Şah İsmayıl Bisütun dağı ətrafına yollandı və bir müddət orada qaldı. Bisütun dağı istiqamətində hərəkətə başlamazdan əvvəl isə Şah İsmayıl vəkil üs-səltənə Mirzəşah Hüseynini Quma göndərdi. Vəkil üs-səltənə Mirzəşah Hüseyni dövlətdə ikinci şəxs idi və onun Quma göndərilməsi çox güman ki, dövlət işlərinin nəzarət altında saxlanması ilə bağlı idi. Bisütun səfərini başa vurduqdan sonra Şah İsmayıl da Quma qayıtdı və bir müddət həmin şəhərdə qaldı. Sonra isə Şah İsmayıl bütün ətrafı ilə birlikdə Kaşana səfər etdi. Mənbələrdə göstərilir ki, vəkil üs-səltənə Mirzəşah Hüseyni həm də Kaşan hakimi idi. Ona görə də Şah İsmayıl Kaşanda olduğu müddətdə Mirzəşah Hüseyni ona xüsusi xidmət və qayğı göstərdi. Kaşan şəhərində təşkil olunmuş şadyanalıq mərasimləri və tədbirlər haqqında mənbələrdə geniş məılumatlar vardır. 1519-1520-ci ilin qışını keçirmək üçün Şah İsmayıl İsfahana yollandı və qışı orada qaldı (67).

Şah İsmayıl İsfahanda olarkən vəkil üs-səltənə Mirzəşah Hüseyni Rəştə göndərdi ki, həmin vilayətdən xəzinəyə ödənməli olan verginin toplanıb göndərilməsi ilə məşğul olsun. Mənbə məlumatlarına görə, Mirzəşah Hüseyninin uzaqda olmasından istifadə edən bir sıra saray əyanları ona olan qısqanclıqlarını açıq şəkildə ifadə etdilər və ondan Şah İsmayıla şikayət etdilər. Həmin şikayətdə bidirilirdi ki, Mirzəşah Hüseyni ona olan şah etibarından sui-istifadə etmiş və saray xəzinəsindən 5 min tümən pulu gizli yolla mənimsəmişdir. Şah İsmayıl bu məlumatları təəccüb və qəzəblə qarşıladı. Onun Mirzəşah Hüseyniyə böyük hörməti var idi. Mirzəşah Hüseyni həm iş qabiliyyəti, bacarığı, tədbirliliyi, həm də Şah İsmayıla sədaqəti ilə bu hörməti qazanmışdı. Onun qısqanclığını çəkən

saray əyanlarına Şah İsmayıl bildirdi ki, Allah belə bir adamı bizə inayət edibdir. Əgər Mirzəşah Hüseyni xəzinədən hətta 50 min tümən ("Rövzətüs Səfəviyyə" əsərində 100 min tümən göstərilmişdir) ələ keçirsə belə onun haqqı vardır. Bu sözləri dedikdən sonra Şah İsmayıl başındakı tacını, belindəki bahalı kəmərini açıb onların Mirzəşah Hüseyniyə hədiyyə göndərilməsi barəsində göstəriş verdi. Bununla da Şah İsmayıl öz vəzirinə hansı hörməti bəslədiyini nümayiş etdirdi (68).

Qışı İsfahanda keçirdikdən sonra Şah İsmayıl yenidən Quma yollandı və 1520-ci ilin Novruzunu da orada qarşıladı. Şah İsmayıl Novruz bayramının təntənəli keçirilməsinə böyük diqqət yetirirdi və burada da bu bayramın yaddaqalan olması üçün bayram mərasimləri təşkil olundu. Noruz bayramının qeyd edilməsindən sonra Şah İsmayıl və ətrafı ov mərasimlərində iştirak etmək üçün Qumdan Savəyə tərəf istiqamət götürdülər. Şah İsmayıl Savə ətrafında olarkən Bağdada göndərilmiş olan Durmuş xanla Zeynal xan geri qayıdıb şah düşərgəsinə qoşuldular (69).

### 6."Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərləri Şah İsmayılın Osmanlı qoşunlarına qarşı yeni hərbi yürüşü haqqında

Yuxarıda qeyd edildiyi kimi, 1519-cu ildə Şah İsmayıl Osmanlı qoşunlarının Bağdad üzərinə ehtimal olunan hərbi yürüşü haqqında məlumat alan kimi, Durmuş xanın və Zeynal xanın rəhbərliyi altında kömək üçün Bağdada qoşun dəstəsi göndərdi. İstinad olunan mənbələr Şah İsmayılın bu yürüşdə iştirak etmədiyini göstərməklə, Durmuş xanla Zeynal xanın rəhbərliyi altında olan qoşun dəstəsinin Bağdad istiqamətində Osmanlı qoşunları ilə hər hansı bir döyüşə girmələri barəsində də məlumat yoxdur. Çox güman ki, bu qoşun dəstəsi hər hansı bir ciddi döyüşdə iştirak etməmişdi. Əks təqdirdə, istinad olunan mənbələrdə bu barədə bir məlumat ola bilərdi. Qeyd edilməlidir ki, elmi-taixi ədəbiyyatda da Şah İsmayılın məmləkətin qərb sərhədlərinə yola düşməsi və Sultan Səlim qoşunlarına qarşı döyüşlərdə iştirak etməsi məsələsi təsdiqlənmir.

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərləri isə bu barədə fərqli məlumat vermişlər. Həmin məlumatlardan belə bir qənaət hasil olur ki, Sultan Səlimin həyatının son illərində Səfəvi dövlətinin qərb sərhədləri boyunca iki dövlətin qoşunları arasında döyüşlər getmiş və Şah İsmayıl da bu döyüşlərdə iştirak etmişdir. Göstərilən faktların mübahisəli olmasına baxmayaraq aşağıda həmin məlumatların xülasəsi verilmişdir.

Adları çəkilən mənbələrə görə, Sultan Səlim Misir yürüşünü uğurla başa vurduqdan sonra Avropa istiqamətində hərbi yürüş etmişdi. Amma Səfəvi dövləti üzərinə yeni bir hücum edilməsi planı onu rahat buraxmırdı. Sultan Səlim istəyirdi ki, Misir yürüşü zamanı Misir hakiminə xəyanət edərək Osmanlı dövləti ilə əməkdaşlığ etməyə razı olan və Osmanlı qoşunları ilə birlikdə İstanbula qayıdan ərəb sərkərdəsi Qəzalidən Şah İsmayılın qoşunlarına qarşı döyüşdə istifadə etsin. Saray məclislərinin birində Sultan Səlim öz planları

haqqında söhbət açdı və Qəzalidən də Şah İsmayıl haqqında nə düşündüyünü soruşdu. Qəzali bildirdi ki, Şah İsmayıl Allah-təalanın tövfiqi ilə öz hərəkatını başlamışdır və onun haqında deyiləcək söz ola bilsin ki, onun iqbalını əks etdirə bilməsin. Sultan Səlim bu sözlərdən qəzəblənmədi və bildirdi ki, insafla söylənilmiş sözlər də mərdanəlik əlamətidir. Bununla belə, Sultan Səlim Səfəvi qoşunları üzərinə Osmanlı qoşun dəstəsini göndərməyi qərara aldı. Onun göstərişi əsasında oğlu Sultan Süleyman bu qoşun dəstəsinin rəhbəri təyin edildi. Qəzali də bu qoşun dəstəsinə qoşulmalı idi. Sultan Səlim bildirdi ki, bu qoşun dəstəsi ilə Səfəvi sərhədlərində Nurəli xəlifə nin rəhbərliyi altında olan Səfəvi qoşun dəstəsinə üstün gəlmək mümkün olarsa, onda Şeyxoğlunu da tezliklə məğlub etmək mümkün olar. Qəzalinin bu yürüşdə iştirak etməkdən başqa çarəsi qalmadı. Amma Sultan Səlimdən xahiş etdi ki, öz sərkərdələrindən bir neçə nəfər bu dəstəyə verilsin. Sultan Səlim göstəriş verdi ki, Fərhad paşa Səfəvi qoşunlarına qarşı yürüşdə iştirak etsin. Sultan Səlim bildirdi ki, Avropa dövlətləri tərəfindən hücum baş verməsindən narahatdır. Yoxsa, o özü də bu yürüşdə iştirak edərdi (70).

Beləliklə, Osmanlı qoşun dəstəsi hazır olandan sonra Azərbaycan istiqamətində hərəkətə başladı. Nurəli xəlifə də bu barədə məlumat aldı və qoşun dəstəsinə hazırlıq əmri verdi. Amma döyüşə yollanmamışdan əvvəl xəlifələrindən birini öz müavini təyin etdi, qızını ona nişanladığını bildirdi və vəsiyyət etdi ki, döyüşdə şəhid olarsa onun yerini tutsun. Nurəli xəlifə doğrudan da döyüşdə şəhid oldu. Amma mənbələrin verdiyi məlumata görə, Nurəli xəlifə bu döyüşdə misilsiz bir şücaət göstərdi və hətta Qəzali də Səfəvi əmirinin belə bir şücaət göstərə bilməsinə öz təəccübünü gizlədə bilmədi. Nurəli xəlifənin şəhid olması və Osmanlı qoşunlarının döyüşdə uğur qazanması Sultan Səlimin də böyük sevincinə səbəb oldu. Onun gümanınca, bu qələbə Səfəvi dövləti üzərində tam qələbənin başlanğıcı idi. Osmanlı sultanı Sultan Süleymanla Qəzaliyə 50 min nəfərlik qoşun dəstəsi Diyarbəkr istiqamətinə hərəkət etmək tapşırığı verdi və bəyan etdi ki, o özü də bu qoşun dəstəsinin ardınca Diyarbəkrə yollanacaqdır (71) .

Mənbələrdəki məlumatlara görə, Sultan Səlimin Misir səfəri və Osmanlı qoşunlarının məmləkətin qərb sərhədləri boyuncə hərəkətləri Şah İsmayıl tərəfindən diqqətlə izlənilirdi. Misirin Osmanlı qoşunları tərəfindən fəthi və Qəzalinin Osmanlı dövləti tərəfinə keçməsi xəbərini eşidəndən sonra Şah İsmayıl öz göstərişi ilə Div Sultanı sipəhsalar və Diyarbəkr bəylərbəyi vəzifəsinə təyin etdi. Div Sultan da bu vəzifəyə təyin olunandan sonra Diyarbəkrə yola düşdü. O, Sultan Süleymanın və Qəzalinin böyük bir qoşun dəstəsi ilə Diyarbəkr üzərinə hərəkət etməsi xəbərini alanda Şah İsmayıla məktub göndərdi və onu yaxınlaşmaqda olan təhlükədən xəbərdar etdi. Şah İsmayıl da ona cavab göndərdi və tapşırdı ki, Osmanlı qoşunları Diyarbəkrə yaxınlaşanda Div Sultan döyüşə girməsin və Şah İsmayılın qoşun dəstəsi ilə ora gəlib çıxmasını gözləsin. Məktubu göndərəndən sonra Şah İsmayıl yanında hazır vəziyyətdə olan 18 min nəfərlik qoşun dəstəsi ilə Diyarbəkrə tərəf hərəkət etməyə başladı. Azərbaycan istiqamətində Osmanlı

qoşunlarına məğlub olmuş qoşun qüvvəlrəi də Diyarbəkrə doğru üz tutdular. Osmanlı qoşunları isə Diyarbəkrə doğru hərəkətləri zamanı Xarput (Fərtut) qalası ilə rastlaşdılar. Şah İsmayılın Osmanlı qoşunlarına müqavimət göstərilməməsi barəsində göstəriş alındığı üçün bu qalanın müdafiəçiləri də qalanı tərk edib Diyarbəkrə üz tutdular. Osmanlı qoşunları Qaraəhmədə yaxınlaşanda bu qalanın hakimi Əhməd Sultan öz nümayəndəsini Div Sultanın yanına göndərdi və Osmanlı qoşunları ilə döyüşə girmək üçün ondan icazə istədi. Div Sultan isə xəbər göndərdi, Osmanlı qoşunlarına qarşı döyüşə girməmək Şah İsmayılın göstərişidir. Div Sultan onu da əlavə etdi ki, bu göstəriş həm də mürşidi-kamilin göstərişidir və əgər ona əməl etmək istəmirsizinsə, bu artıq sizin öz seçiminizdir. Belə olanda Əhməd Sultan məcburiyyət qarşısında qalıb Qaraəhməd qalasını tərk etdi və Diyarbəkrə yollandı. Bu yolla Qaraəhməd qalası da Osmanlı qoşunlarının nəzarəti altına düşdü. İstinad olunan mənbələr bildirirlər ki, bu yolla bölgədə Səfəvi qüvvələrinin nəzarəti altında olan 42 qala döyüşsüz Osmanlı qüvvələrinin nəzarəti altına düşdü (72).

Səfəvi qüvvələrinin bir-birinin ardınca qalaları təslim etməsi Qəzalinin təəccübünə səbəb oldu. O inanmırdı ki, bu, Səfəvi qoşunlarının döyüşdən çəkinməsi ilə bağlı ola bilər. Ona görə də o öz adamlarını Diyarbəkrə göndərdi ki, Səfəvi qoşunları daxilində nə baş verməsi barəsində məlumat toplasın. Həmin adamlar da Diyarbəkrə yollanaraq vəziyyətin nə yerdə olduğunu aydınlaşdırdılar və Qəzaliyə məlumat çatdırdılar ki, Səfəvi qoşunlarının döyüşə girməməsi Şah İsmayıldan gəlmiş göstərişlə bağlıdır. Qəzali bu məlumatı alandan sonra məsələnin nə yerdə olmasından xəbər tutsa da, hərəkətini davam etdirdi və Osmanlı qoşun dəstəsi Diyarbəkrin yaxınlığında düşərgə saldı. Div Sultan da Osmanlı qoşunlarının yaxınlaşması xəbərini alandan sonra qoşun dəstəsi ilə qalanı tərk etdi və Osmanlı qoşunlarının yaxınlığında düşərgə saldı. Bu qoşunlar bir-birinə o qədər yaxın idilər ki, qarşı tərəfi asanlıqla müşahidə etmək mümkün idi. Səfəvi qoşunlarının müşahidə edilməsi üçün Qəzali özü ətrafdakı yüksəkliklərdən biri üzərinə qalxdı. O, Səfəvi qoşunlarını müşahidə etməklə onu da gördü ki, Səfəvi əmirləri də bir yüksəkliyin üzərindən Osmanlı qoşunlarını müşahidə edirlər. Mənbələrdəki məlumata görə, Qəzali bu zaman Səfəvi əmirlərinin qərar tutduğu yüksəkliyə doğru hərəkət etməyə başladı. Qarşı tərəfdəki yüksəklik üzərində müşahidə aparanlar doğrudan da Səfəvi əmirləri idi və Div Sultan da onların arasında idi. Qəzalinin gəlməsini görüncə Div Sultan onun qoşun rəhbərlərindən biri olmasına şübhə etdi və o da piyada şəkildə Qəzalinin qarşısına yollandı. İlk ünsiyyətdən sonra onların kim olmasına aydınlıq gəldi və onlar qarşılıqlı şəkildə razılığa gəldilər ki, bir həftə qoşunlar hərəkətə gətirilməsin və döyüş başlamasın (73).

Bir həftədən sonra Qəzali döyüş təbillərinin ehtizaza gətirilməsi haqqında göstəriş verdi. Bu zaman Şah İsmayıldan hələ də bir xəbər yox idi. Ona görə dərin narahatçılıq içərisində olduğu zaman Div Sultana müjdə gətirildi ki, Şah İsmayıl artıq yaxınlaşmaq üzrədir. Həmin xəbərdən sevinən Div Sultan da döyüş təbillərinin səsləndirilməsi barədə göstəriş verdi və bununla qarşı tərəfə

döyüşə hazır olduğunu çatdırdı. Sabahı gün hər iki qoşun qarşı-qarşıya mövqe tutdular. Qəzali Osmanlı qoşunlarının ön xəttinə çıxdı ki, Div Sultanı təkbətək döyüşə cəlb etsin. Div Sultan bu döyüşü qəbul etdi və o, döyüşə atılmazdan əvvəl Şah İsmayılın qoşun dəstəsi də döyüş meydanına yetişdi. Mənbələrdə bildirilir ki, Şah İsmayılın üzərində "Nəsri min allah və fəthi qərib" (Səf surəsinin 13-cü ayəsi - Allahdan kömək olarsa qələbə yaxındadır) ayəsi yazılmış bayrağını görəndə Səfəvi qoşunlarını sevinc hissləri bürüdü. Div Sultan heç Şah İsmayıl ilə görüşməmiş döyüş meydanına atılmalı oldu. Amma Qəzali ilə döyüşdə uğur əldə etmək ona nəsib olmadı. Qəzali əlindəki nizəsi ilə Div Sultana ağır bir zərbə endirib atdan yerə saldı. Div Sultanın atdan yerə yıxıldığını görəndə Şah İsmayıl irəli hərəkət etdi və Qəzalinin qarşısına çıxdı. Mənbələrdəki məlumata görə, Səfəvi təriqət müridlərindən olan Qəzali ilə Şah İsmayıl arasında döyüşdən qabaq kiçik bir dialoq oldu. Şah İsmayılı yaxınlaşanda Qəzali bildi ki, qarşısındakı mürşidi-kamildir. Başını aşağı salıb ondan soruşdu ki, döyüşmək üçün, yoxsa məsləhət vermək üçün gəlmisiniz? Şah İsmayıl da bildirdi ki, əvvəlcə məsləhət verəcəyəm, əgər qəbul etməsəniz onda döyüşümüzü görəcəksiniz. Şah İsmayılın Qəzaliyə hansı məsləhət verməsi barəsində mənbələrdə məlumat yoxdur. Onun dediklərinə qulaq asandan sonra Qəzali özlüyündə düşündü ki, Şeyx oğlu doğrudan da həzrət Əmir əl-mömünin övladıdır. Təriqət sufisi olsa da Qəzalidə döyüşmək və öz hünərini nümayiş etdirmək arzusu yarandı və o, Şah İsmayıla çatdırdı ki, onunla nizə döyüşünə girmək istəyir. Şah İsmayıl bu təklifi qəbul etdi və onlar əllərində nizə döyüş meydanına atıldılar. Şah İsmayıl fürsət tapıb nizəsini Qəzalinin kəmərinin zəncirinə keçirdi və güc gəlib onu atın yəhərindən yuxarı qaldıraraq yerə vurdu. Sonra da Div Sultana əmr etdi ki, Qəzalinin əllərini bağlasın. Div Sutan onun qollarını arxadan bağlamaq istədi. Şah İsmayıl razı olmadı və bildirdi ki, Qəzali Səfəvi sufilərindən biri olduğu üçün onun qollarını qarşıdan bağla. Şah İsmayıl sonra onu da tapşırdı ki, Qəzalini çadıra aparsınlar və ona hörmət göstərsinlər. Özü isə Sultan Süleymanla döyüşün davam etdirilməsinə yollanmaq istədi. Qəzali hay çəkərək Şah İsmayıldan Osmanlı qoşunları ilə döyüşün dayandırılmasını xahiş etdi. Qəzali bildirdi ki, onun eşitdiyinə görə, mürşidi-kamil heç zaman məğlub olmuş qoşunla döyüşmür. Qəzali onu da dedi ki, Osmanlı qoşunları onun rəhbərliyinə verilmişdi. Özünün məğlub olduğu üçün Qəzali Osmanlı qoşunlarını da məğlub durumda sayırdı və Osmanlı qoşunlarının və eləcə də bu qoşunlarda olan sultan Süleymanın onun xahişinə görə bağışlanmasını rica etdi (74).

Şah İsmayıl döyüşü davam etdirmək niyyətində olsa da, bu xahişdən sonra fikrindən döndü. Qəzalini onun hüzuruna gətirəndə Şah İsmayıl onun bir sufi olaraq nə üçün belə hərəkət etdiyini soruşdu. O əlavə etdi ki, Qəzalinin sufiliyini o vaxt qəbul edəcək ki, Qəzali öz əməllərindən peşman olsun və günahını boynuna alsın. Qəzali tövbə edib tutduğu yoldan çəkindiyini bildirdi. Mənbələrdəki məlumata görə, Qəzalinin tövbəsini eşidəndən sonra Şah İsmayıl başındakı tacını çıxarıb onun başına qoydu və ona padşahlara layiq mükafatlar verdi (75).

Əlavə olaraq Qəzaliyə qiymətli kəmər, xəncər, qılınc və digər bahalı əşyalar hədiyyə olundu. Məlumata görə, Şah İsmayıl ona həm də əlavə ərazilərin hakimliyini bağışladı. Bu ərazilər Şüştər, Həvizə, Dizful, Kuhkələviyyə də daxil olmaqla Bəndər-Abbasa kimi uzanırdı. Qəzali də bütün bu hədiyyələri məmnunluqla qarşıladı və adları çəkilən ərazilərə hakimlik etməyə yollandı. Qəzalinin Şah İsmayıl ilə anlaşması və Osmanlı dövlətindən uzaqlaşması onunla birlikdə bölgəyə qoşun çəkmiş Sultan Süleyman tərəfindən məyusluqla qarşılandı və qoşunları çəkərək Amasiyaya tərəf yollandı. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərləri bildirirlər ki, Sultan Süleymanın geri çəkilməsindən sonra bölgədə ələ keçirilmiş bütün şəhərlər və qalalar yenidən Səfəvi hakimiyyəti altına düşdü və həmin qalalara və şəhərlərə Səfəvi hakimləri təyin edildilər. Sultan Səlim də Qəzalinin Səfəvi şahı ilə anlaşmasını ciddi narahatçılıqla qarşıladı və o, bu hadisəyə münasibətini belə bildirdi - bu nə iqbaldır ki, Haqq-təali Şeyxoğluna belə bir kəramət verib. Bölgədəki qalaların da Səfəvilərin nəzarəti altına düşdüyünü eşidəndə Qəzalinin oğluna məktub göndərdi və ona bildirdi ki, atası Osmanlı taxtına bivəfalıq edərək Səfəvi dövlətinin xidmətinə keçmişdir. Sultan Səlim sonra Qəzalinin oğlunu İstanbula dəvət etdi ki, atasının vəzifəsini ona həvalə etsin. Amma Qəzalinin oğlu bu dəvəti qəbul etmədi. Çünki Qəzalinin oğlu da Səfəvi təriqətinə rəğbətlə yanaşan birisi idi. O, Sultan Səlimin elçisinə bildirdi ki, atası mürşidi-kamilin xidmətində olduğu halda Osmanlı sultanına necə xidmət edə bilər? Qəzali isə oğluna məktub yazaraq Şah İsmayılın xidmətində olmaqdan məmnunluğunu çatdırdı. Qəzali oğluna bildirirdi ki, rəzalət yolundan xilas olaraq mürşidi-kamilin diqqəti nəticəsində əhli-beyt yolunu tutmağa müvəffəq olmuşdur. Qəzali sonra da yazırdı ki, onun oğlu bütün ailə üzvlərini, yaxınlarını, uzaqlarını, ərəbləri götürüb həzrət Əmir əl-mömünin övladının xidmətinə gəlsin. Belə bir məktub Şah İsmatıl tərəfidən də ona ünvanlandı (76).

Qəzalinin oğlu atasından və Şah İsmayıldan aldığı məktublarla tayfasının ağsaqqallarını tanış etdi. Ərəb ağsaqqalları bu məktubları mənunluqla qarşıladılar və irəli sürülən təklifləri qəbul etməyə hazır olduqlarını bəyan etdilər. Tayfa ağsaqqallarının bu mövqeyi Qəzalinin oğlunun təəccübü ilə qarşılandı və ərəblərin Səfəvi təriqətinə və Şah İsmayıla belə bağlılıq onun marağına səbəb oldu. Ərəblər bildirdilər ki, hələ İldırım Bəyazidin vaxtında Əmir Teymurla aparılan müharibə zamanı onların əcdadlarından və qohumlarından çoxlu sayda əsir düşənlər olmuşdu. Bu əsirlər o zamankı Səfəvi təriqət rəhbəri Xacə Əlinin xahişindən sonrs Əmir Teymur tərəfindən azad edilmişdi. Ona görə də ərəblər Səfəvi xanəgahına xüsusi hörmətlə yanaşırdılar. Sonra ərəblər bildirdilər ki, Diyarbəkrə səfər etməyə hazırdırlar. Çünki bu vilayət artıq yenidən Səfəvi hakimiyyəti altına düşmüşdü. Sultan Səlim yenicə nəzarət altına aldığı ərəblərin Səfəvi dövlətinin xidmətinə yollanmasının qarşısını almaq üçün sərhəd hakimlərinə müvafiq göstəriş verdi. Ərəblər geri qayıtmayacağı halda onlara qarşı döyüş başlanmalı idi. Qəzalinin oğlu Osmanlı qoşunlarına daha yaxşı müqavimət göstərilməsi üçün ərəblərə məsləhət gördü ki, özləri ilə apardıqları yük-

lərin bir hissəsini tərk etsinlər. Qəzalinin oğlu 12 min ərəb ailəsini özü ilə Səfəfi dövləti hüdudlarına aparmaqda idi. Hələbə yaxınlaşanda Omanlı əmirlərindən olan Xeyrəddin paşa (İkinci Xeyrəddin) 30 min nəfərlik qoşun dəstəsi ilə ərəblərin qarşısına çıxdı və Sultan Səlimin məktubunu Qəzalinin oğluna gösərdi. Qəzalinin oğlu əvvəlcə dinc yolla məsələni həll etməyə çalışdı, müşayiət etdiyi köçlə birlikdə atasının yanına yollandığını bildirdi. O, məsələnin dinc yolla həll olunmadığı halda döyüşə girməyə hazır olduğunu da söylədi. Qarşılıqlı anlaşma əldə edilmədikdə tərəflər arasında döyüş baş verdi və bu döyüş ərəblərin dəstəsinin qələbəsi ilə başa çatdı (77).

Xeyrəddin paşa bu uğursuzluqdan sonra Misirin Osmanlı tərəfindən təyin edilmiş hakiminə məktub yazdı və Qəzalinin oğlunun dəstəsinə qarşı döyüşmək və bu dəstənin Səfəvi hüdudlarına keçməsinin qarşısını almaq üçün hərbi kömək istədi. Misirin hakimi də böyük bir dəstə ilə onun köməyinə gəldi. Lakin bu dəfə də Qəzalinin oğlunun dəstəsinə üstün gəlmək mümkün olmadı. Nəhayət, Qəzalinin oğlunun müşayiət etdiyi dəstəyə qarşı baş verən döyüşlərin uğursuzluğu haqqında xəbərlər Sultan Səlimə də çatdı. Bu dəfə o, Amasiya hakimi Zülfüqar paşaya göstəriş verdi ki, böyük bir qoşun dəstəsi ilə Qəzalioğlunun ardınca getin, harada olsa onu tapsın və əsir edərək Osmanlı sarayına göndərsin. Səfəvi qoşunlarının mövqelərinin möhkəmlənməsinin qarşısını almaq üçün isə Sultan Səlim bölgəyə Fərhad paşa ilə Şahsuvar paşanın rəhbərliyi altında əlavə qoşun qüvvələri göndərdi. Zülfüqar paşa da öz qoşun dəstəsi ilə ərəblər tərəfindən ələ keçirilmiş Zəmat qalası ətarfına gəldi və göndərdiyi məktubla Qəzalioğlunun Osmanlı sarayına qarşı itaətsizlik yolunu tutmasının səbəblərini öyrənməyə çalışdı. Qəzalinin oğlu isə məktuba cavab vermədən qoşun dəstəsi ilə qaladan kənara çıxdı və Zülfüqar paşanın qoşun dəstəsinin üstünə hücum çəkdi. Mənbələr bu döyüşün də ərəblərin üstünlüyü ilə başa çatmasını yazırlar. Bir müddətdən sonra Şahsuvar paşa ilə Fərhad paşanın qoşun dəstəsi də Zəmat qalası ətrafına yetişdi. Qəzalinin oğlu yenə də qoşun dəstəsi ilə qala kənarında döyüşə girmək istədi. Amma ərəblərin ağsaqqalları onu qaladan kənara çıxmaqdan çəkindirdilər. Onlar bildirilər ki, Osmanlı qoşunlarının sayı çoxdur və onlarla açıq döyüşə girməyə hələlik ehtiyac yoxdur. Məsləhət bilindi ki, qala daxilində ərzaq ehtiyatları çox olduğu üçün müdafiə döyüşü seçilsin və Osmanlı qoşunları qala ətrafında əldən düşəndən sonra onların üzərinə hücum təşkil edilsin. Qəzalinin oğlu da bu təklifi qəbul etdi və qala daxilində müdafiə olunmağa qərar verdi (78).

Fərhad paşa ilə Şahsuvar paşanın rəhbərliyi altında olan qoşun dəstəsi Zəmat qalasını üç ay mühasirədə saxladılar. Bu müddət ərzində Osmanlı qoşunlarının ərzaq ehtiyatları xeyli tükəndi və onlar ərzaq tələbatının ödənməsi üçün qoşun daxilində olan atların və dəvələrin kəsilməsinə başladılar. Qarşıya çıxan çətinliklərin daha da genişlənməsinə yol verməmək üçün Osmanlı paşaları qəti hücuma başlamağı məqsədəuyğun saydılar. Qəzalioğlu bu döyüşü qəbul etdi. O öz qüvvələrinin bir hissəsini qala daxilində saxladı və bir hissəsini də qaladan kənara çıxardı. Baxmayaraq ki, Qəzalioğlu öz dəstəsi ilə əvvəlki kimi fədakarlıqla döyüşdü, amma çoxlu sayda itki verərək qalaya çəkilməli oldu.

İkinci gün Qəzalioğlu əvvəlcə qala divarları üzərindən Osmanlı qoşunlarına qarşı müqavimət göstərdi. Sonra isə o, döyüşü qala divarları kənarında davam etdirdi. Osmanlı qoşunları da bu döyüşlərdə əldən düşdü və üç gündən sonra qala ətrafını tərk edərək geri çəkilməyə başladı. Qəzalioğlunun fikrincə, Səfəvi hüdudlarına daxil olmağa çalışan ərəblərin bu dəfə də uğur qazanması Şeyxoğluna verilmiş kəramətin və Əmir əl-mömünin ocağının kəramətinin nümayişi idi. Qəzalioğlu nicat tapmalarına görə yaradana şükürlərini bildirdi və bir həftə də həmin qalada qaldıqdan sonra Səfəvi hüdudlarına doğru hərəkətini davam etdirdi. Qaraəhməd qalasının hakimi Əhməd Sultan ərəblərin dəstəsinin yaxınlaşması xəbərini eşidəndə onların qarşılanmasına yollandı və Qəzalioğlunun müşayiət etdiyi dəstəni Qaraəhməd qalasına gətirdi. Qəzalioğlu bir müddət Qarağhməd qalasında qaldıqdan sonra Diyarbəkrə doğru hərəkətini davam etdirdi. Nəhayət ki, bir neçə gündən sonra Qəzalioğlu öz dəstəsi ilə Diyarbəkrə yetişdi. Buradan da Qəzalioğlu Səfəvi hüdudlarına daxil olması barəsində atasına və Şah İsmayıla məktub göndərdi (79).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə, Şah İsmayılın bu zaman 80 min nəfərlik qoşun dəstəsi əmirlər və əyanlarla birlikdə Çaldıran düzündə idi və orada Sultan Səlimin qoşunla yenidən Səfəvi hüdudları üzərinə hücum çəkməsinin intizarında idi. Şah İsmayıl onun qaşılanması üçün Div Sultana göstəriş verdi. Div Sultan böyük bir qoşun dəstəsi götürərək Diyarbəkrə yollanmalı və Diyarbəkr hakimi ilə birlikdə Qəzalioğlunu və onun müşayiət etdiyi dəstəni qarşılamalı idi. Div Sultan bəyan etdi ki, o, dövlətin sipəhsaları olduğu halda Qəzalioğlu kimi adi bir əmirin qarşılanmasına yollanması nə dərəcədə doğrudur? Şah İsmayıl bəyan etdi ki, Qəzalioğlu onu görmədən onun mürşidi-kamil olmasına qəbul etmişdi və əslində, Şah İsmayıl özü onun qarşılanmasına yola düşməli idi. Amma vəziyyətə görə Şah İsmayıl bu işin Div Sultana tapşırıldığını bildirdi. Bundan sonra Div Sultan etiraz etmədi və Diyarbəkrə yollandı. Diyarbəkrdə ərəb dəstəsi Div Sultan tərəfindən qarşılandıqdan sonra bütün dəstə Şah İsmayılın düşərgəsinə doğru hərəkətə başladı. Çaldıran düzünə yaxınlaşanda Div Sultan məktub yazıb Şah İsmayılın hüzuruna göndərdi. Məlumatlara görə, Şah İsmayıl bütün qoşunları Qəzalioğlunun qarşılanmasına göndərdi və ona belə böyük bir ehtiram göstərdi. Ərəb dəstəsi düşərgəyə yetişəndə Şah İsmayıl ova yollanmışdı və Qəzali də onun yanında idi. Baxmayaraq ki, ərəblərin düşərgədə dincəlməsi məqsədəuyğun bilinmişdi, amma bütün ərəblər Şah İsmayılın ov etdiyi əraziyə yolandılar və onun ziyarətini böyük məmnunluqla icra etdilər (80).

Şah İsmayıl bir müddət Çaldıranda dayanıb Sultan Səlimin hücumunu gözləsə də bu baş vermədi. Onda Şah İsmayıl öz adamlarını Osmanlı daxilinə göndərdi ki, Sultan Səlimin harada olması və Səfəvi hüdudlarına hücumla əlaqədar hər hansı bir hazırlıq görüb-görməməsi barəsində məlumatlar toplasınlar. Şah İsmayıl belə fikirləşirdi ki, əgər Sultan Səlim öz qoşunu ilə Amasiyada olsa, onda o da qoşunla Azərbaycanda gözləsin. Əks təqdirdə qoşunların Azərbaycanda saxlanmasına hər hansı bir lüzum görülmürdü. Göndərilən adamlar xəbər

gətirdilər ki, Sultan Səlim Amasiyada yox, İstanbuldadır. Amma bir müddətdən sonra Sultan Səlimin böyük qoşun dəstəsi ilə İstanbulu tərk etməsi və Amasiyaya doğru hərəkətə başlaması barəsində xəbər alındı. Bildirilirdi ki, qoşunları hərəkətə gətirməkdə Sultan Səlimin məqsədi yenidən Səfəvi dövləti üzərinə hücum etmək idi. Amasiyada qısa müddətli istirahətdən sonra Osmanlı qoşunları şərqə doğru hərəkətlərini davam etdirdilər. Sərhəd xəttinə iki günlük məsafə qalanda Osmanlı qoşunları çox mənzərəli və səfalı bir əraziyə yetişdilər. Bu ərazi Sultan Səlimim o qədər xoşuna gəldi ki, bir neçə gün orada istirahət etməyi qərara aldı. Amma Sultan Süleymanı çərxçi təyin edib onun rəhbərliyi altında olan qoşun dəstəsinin Səfəvi hüdudlarına doğru hərəkəti davam etdirməsinə göstəriş verdi.

Sultan Səlim bu səfalı yerlərdə olarkən dünyasını dəyişdi. Adları çəkilən mənbələr onun dünyasını dəyişməsini Səfəvi ocağına olan düşmən münasibətin nəticəsi kimi qələmə verməyə çalışmışlar. Bu əsərlərin məlumatına görə, Səfəvi ocağının kəraməti bu ocağı dağıtmaq niyyətinə düşmüş Sultan Səlimin həyatına son qoydu. Adları çəkilən mənbələrdə bildirilir ki, Sultan Süleyman 5 min nəfərlik dəstəsi ilə irəli göndəriləndən sonra Sultan Səlim ova yollandı. Ov etmək fikrində olduğu zaman Sultan Səlimin xəyalından Səfəvi xanəgahının dağıdılması fikirləri keçdi. Elə həmin anlarda da heç nə olmadan huşunu itirdi və yüksəkliklərin birindən aşağı yuvarlanaraq dünyasını dəyişdi. Osmanlı əyanları dərhal Sultan Süleymanın arxasınca adam göndərdilər. Sultan Süleyman səfərdən dönüncə Osmanlı taxtına oturduldu. Bundan sonra Səfəvi hüduduna doğru irəliləmək niyyətindən əl çəkildi və qoşunlar Sultan Səlimin nəşini götürərək İstanbula dönmək yolunu tutdular (81).

Bir daha qeyd edilməlidir ki, istər Qəzalioğlunun bir neçə dəfə Osmanlı qoşunlarına qarşı döyüşməsi, istər onun Səfəvi xidmətinə keçməsi, istər Sultan Səlimin ov zamanı huşunu itirərək dünyasını dəyişməsi digər mənbələrdə təsdiqlənmir.

Qəzali ilə bağlı mənbələrdə və elmi tarixi ədəbiyyatda olan məlumatlara görə, o, Sultan Səlim tərəfindən Şam hakimi təyin edilmişdi və Sultan Səlimin sağlığında ona itaətini saxlamışdı. Amma mövcud olan məlumatlar onu da deməyə əsas verir ki, Qəzali ilə Osmanlı sultanlığı arasında münasibətlər heç də birmənalı deyildi və Qəzali Osmanlı hakimiyyətindən nicat tapmaq üçün yollar üzərində fikirləşirdi. Bəzi məlumatlara görə, Osmanlı hakimiyyətinin zəiflədilməsi məqsədilə Qəzali həmin zamanlarda Osmanlı ərazisində baş qaldırmış Cəlali üsyanını dəstəkləmişdi. Bu üsyan Sultan Səlimin dünyasını dəyişməsi ərəfəsində qalxmışdı və ona Tokat bölgəsindən olan Cəlal adlı birisi rəhbərlik edirdi. Cəlalın rəhbərliyi altında 20 min nəfərlik bir üsyançı dəstəsi toplaşmışdı. Üsyanın qarşısının alınması üçün Sultan Səlim tərəfindən Fərhad paşa ilə Əli bəy Şahsuvaroğlunun rəhbərliyi altında böyük bir qoşun dəstəsi göndərilmişdi. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl"a istinadən verilən yuxarıdakı məlumatlarda Fərhad paşa ilə Şahsuvar paşanın adları çəkilmişdir. Mümkündür ki, onların adları həmin məlumatlarda təsadüfən çəkilməmişdir və həmin məlumatların adı çəkilən üsyanla

hansısa bir bağlılığı vardır. Tədqiqatçılar bu üsyanın baş verməsində Şah İsmayılın bu və ya digər şəkildə iştirakını ehtimal edirlər (82). Amma bununla bağlı hələlik elmi-tarixi dövriyyədə ciddi məlumatlar mövcud deyildir .

Mövcud olan mötəbər məlumatlar isə Şah İsmayılın Şam hakimi Conberdi Qəzali ilə əlaqələrdə olmasını nümayiş etdirir. Daha doğrusu, Converdi Qəzali Bağdad valisi vasitəsilə Şah İsmayıl ilə əlaqə saxlamış və ondan Şamın və bütünlükdə Misirin Osmanlı hakimiyyətindən azad edilməsi üçün kömək istəmişdi. Bu barədə bölgənin digər hakimləri xəbər tutmuş və yazılı şəkildə Sultan Səlimə məlumat vermişdilər. Lakin Sultan Səlim Qəzali ilə Şah İsmayılın əməkdaşlıq etməsinin qarşısının alınması üçün hər hansı bir kəskin tədbirə əl atması haqqında məlumat mövcud deyildir (83). Eləcə də Şah İsmayılın Qəzali ilə münasibətlərin qurulması haqqında konkret addımlar atıb-atmaması haqqında məlumatlar yoxdur.

### 7. Şah İsmayılın həyatının son illəri

1520-ci ilin avqust-sentyabr aylarına təsadüf edən Ramazan ayını Şah İsmayıl Marağada keçirdi. Şah İsmayıl burada olarkən Gilanda vəziyyətin sabitləşdirilməsinə göndərilmiş Div Sultan geri qayıdıb şah düşərgəsinə qoşuldu. Ramazan bayramı da Şah İsmayıl tərəfindən böyük təntənə ilə qeyd edildi. Saray əyanları və əmirləri ilə birlikdə bayram namazını qıldıqdan sonra Şah İsmayıl Qum hakimi vəzifəsində olan Durmuş xanın həmin şəhərə yollanmasına icazə verdi. Özü isə həmin ilin qışını keçirmək üçün İsfahana yollanmaq hazırlıqlarının görülməsinə tapşırıq verdi. Bununla belə, Şah İsmayıl Osmanlı sultanının Səfəvi hüdudlarına hücum etməklə bağlı fəaliyyətini nəzarət altıda saxlayırdı. Mövcud məlumatlardan belə bir qənaət hasil olur ki, ömrünün sonunda Sultan Səlim nəhayət ki, Səfəvi hüdudlarına yenidən hücum etmək barəsində qərara gəlibmiş. Bildirilir ki, Sultan Səlim 1519-cu ildə Macarıstan üzərinə hərbi yürüşə başlamaq niyyətində idi. Bu yürüşə Macarıstan imperatorunun dünyasını dəyişməsindən sonra qərar verilmişdi. Həmin hadisə Avropa daxilində siyasi vəziyyəti müəyyən qədər gərginləşdirmişdi. Bundan Sultan Səlim istifadə edib Rodos üzərinə hücum hazırlıqlarına başladı. Rodos üzərinə hücum üçün hətta əlavə toplar tökülməsi haqqında da qərar verilmişdi. Bu hazırlıq işləri o vaxt aparılırdı ki, Osmanlı dövlətinin şərqində, Tokat ətrafında Cəlali üsyanı alovlanmağa başladı. Bu üsyan kifayət qədər təhlükəli bir miqyas aldığından Osmanlı saray əyanları və üləmaları saray məclisində Rodos üzərinə hücumu təxirə salmaq və Cəlali üsyanın yatırılması haqqında fitva çıxardılar. Bu fitvanın bir tələbi də ondan ibarət idi ki, Şah İsmayıl üzərinə yenidən hücum təşkil edilsin və ona zərbə vurmaqla onun tərəfindən Osmanlı əleyhinə baş verən üsyanların dəstəklənməsinə son qoyulsun (84).

Sultan Səlimin hansı hazırlıqlar görməsi haqqında geniş məlumat mövcud deyildir. Səfəvi dövləti üzərinə hücum kifayət qədər geniş hazırlıqların görülməsini tələb edirdi. Bundan başqa, Sultan Səlimin qarşısına qoyduğu məqsədin

detalları barəsində də geniş məlumat mövcud deyil. Onun Çaldıran təcrübəsini təkrar edəcəyi və ya hərbi yürüşün Səfəvi dövlətinin içərilərinə doğru davam etdiriləcəyi haqqında da onun nə qərar gəlməsi haqqında fikir söyləmək çətindir. Sultan Səlimə artıq yaxşı məlum idi ki, bir əsas döyüşlə (əməliyyatla) Səfəvi dövlətini süquta uğratmaq mümkün deyil. Belə olduğu halda Səfəvi dövlətinin içərilərinə doğru irəliləmək üçün onun yetərli potensiala malik olub-olmamasını söyləmək də çətindir. Çox güman ki, Sultan Səlimi Səfəvi dövləti üzərinə növbəti yürüşə təşviq edən amillərdən biri Şirvanşahın, Gilan və Mazandaran hakimlərinin onunla birgə fəaliyyət göstərmək ümidi ola bilərdi. Adları çəkilən vilayətlərin hakimləri ilə Sultan Səlimin yazışmada olması haqqında yuxarıda danışılmışdı. Amma Sultan Səlimin yürüşünün başlanmasına qədər həmin vilayətlərin Səfəvi dövlətinə itaəti təmin edilmişdi. Sultan Səlim sözsüz ki, bunlardan xəbər tutmuş ola bilərdi. Doğrudur, Çaldıran döyüşündən artıq 6 illik bir vaxt ötmüşdü və həmin vaxt ərzində Osmanlı dövləti yeni imkanlar əldə etmişdi. Xüsusilə, Misirin işğalı Osmanlı dövlətinin geosiyasi mövqeyini möhkəmləndirməklə bərabər, hərbi potensialını da artırmışdı. Amma Səfəvi dövlətinin Misirlə müqayisə edilə bilməyəcək bir üstün potensialı var idi və böyük ehtiyatlara malik olmadan bu dövlətə üstün gəlmək elə də asan olmazdı. Çox güman ki, Osmanlı dövlətinin şərq sərhədi boyunca cərəyan edən hərbi-siyasi proseslər təhlükəli xarakter və miqyas almışdı. Həmin proseslərə Səfəvi dəstəyinin güclənəcəyi təqdirdə isə Osmanlı dövləti çox böyük sınaq qarşısında qala bilərdi. Yəqin elə ona görə də Osmanlı dövləti yeni bir hərbi yürüş təşkil etmək qərarını verməli oldu. Səfəvi dövlətinə güclü bir zərbə endirilməsi ən azı Osmanlı dövlətinin şərq sərhədlərinin möhkəmlənməsini təmin edə bilərdi.

Osmanlı qoşunlarının Səfəvi sərhədlərinə doğru hərəkətə başlaması xəbəri 1520-ci ilin ramazan bayramının qeyd edilməsindən sonra alındı. Şah İsmayıl bu xəbəri alandan sonra Osmanlı qoşunlarından müdafiə üçün ilkin hazırlıq işlərinə başladı. Əvvəla, Durmuş xan geri çağırıldı. Sonra da Şah İsmayıl saray əyanlarının, əmirlərinin, qızılbaş ağsaqqallarının məclisini çağırdı, bu məclisdə hərbi hazırlıqlarının gücləndirilməsi yolları müzakirə olundu, müəyyən vəzifələr müəyyənləşdirildi. Amma elə bu zamanlarda Sultan Səlimin dünyasını dəyişməsi xəbəri alındı (85).

Sultan Səlim cəmi 8 il Osmanlı dövlətinə rəhbərlik edə bildi. Tarixi ədəbiyyatda onun adı qəddar hökmdarladan biri kimi tanınmaqdadır. Həyatını dəyişəndə onun 54 yaşı var idi. Səfəvi hüdudlarına yürüş ərəfəsində onun sinəsində böyük bir çiban yarası meydana gəldi. Belə çiban yarası şir pəncəsi və ya aslan pəncəsi kimi də tanınırdı. Bəzi məlumatlara görə isə Sultan Səlimin həyatına son qoyan bu çiban Səfəvi hüdudlarına doğru hərəkətə başlamasından sonra çıxmışdı. Məlumatlara görə, iki ay bu yaranın müalicəsi aparıldı. Amma yaranın ağrıları günü-gündən şiddətləndi və təbiblərin bütün cəhdlərinə baxmayaraq, 1520-ci il sentyabr ayının 20-dən 21-nə keçən gecə Sultan Səlim dünyasını dəyişdi. Bu zaman Sultan Səlim qoşun dəstəsi ilə birlikdə Ədirnə şəhərinə

yetişmişdi. Tarixçilərinin verdiyi məlumata görə, Sultan Səlim bir vaxtlar atası II Bəyazidin qoşunlarına qarşı çıxdığı məntəqədə dünyasını dəyişdi (86).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərindən Sultan Səlimin ölümü barəsində yuxarında verilmiş məlumatda bu hadisənin Səfəvi xanəgahının kəraməti ilə bağlı olduğuna işarə edilmişdir. Mövcud olan bəzi məlumatlar da Sultan Səlimin doğrudan da belə bir fikirdə olması ehtimalını yaradır. Məlumdur ki, Sultan Səlim, Səfəvi şahı tərəfindən göndərilmiş sonuncu elşi Sarı Şeyxi də həbs edərək zindana atmışdı. Sarı Şeyx həm Səfəvi xanəgahının xəlifələrindən biri idi, həm də alim şeyxlərdən biri idi. Sultan Səlimdə belə güman yaranmışdı ki, Sarı Şeyx zindanda dua və əfsunlar oxuyaraq onun səhhətinin pisləşməsinə səbəb olmuşdur. Sinəsində çıxmış yarasının ağrıları çoxalanda Sultan Səlim qərara aldı ki, Sarı Şeyxi həbsdən azad etsin. Sarı Şeyx doğrudan da həbsdən azad edildi və İstanbula göndərildi. Sultan Səlim belə bir göstəriş də verdi ki, Sarı Şeyx daim nəzarət altında olsun və onun dua və əfsunlarla məşğul olmasına imkan verilməsin. Amma bu bir nəticə vermədi və Sultan Səlimin həyatını xilas etmək mümkün olmadı (87).

Sultan Səlimin yalnız bir oğlan övladı var idi - Sultan Süleyman. Ona görə o elə bir çətinliklə rastlaşmadan Osmanlı hakimiyyətinə yiyələndi. Sultan Süleymanın hakimiyyəti dönəmində Osmanlı-Səfəvi münasibətlərində əvvəllər mövcud olan sərt qarşıdurma aradan qalxdı, Osmanlı sarayının əsas diqqəti şərq sərhədlərinə deyil, Avropa səmtinə yönəldi. Yuxarıda qeyd edildiyi kimi, Səfəvi hüdudlarına doğru istiqamət götürməzdən əvvəl Sultan Səlim Rodos adasını işğal etmək istəyirdi.Amma bu plan təxirə salınmışdı. Sultan Süleyman isə həmin planı yenidən ortaya gətirdi və hakimiyyətə gəlməsindən az sonra Rodos adası üzərinə hücum edərək onu işğal etdi. Bu hadisə artıq 1522-ci ilin sonlarına təsadüf edirdi. Şah İsmayıl yalnız bundan sonra Sultan Süleymana məktub yazdı, həm atası Sultan Səlimin dünyasını dəyişməsi münasibətilə ona başsağlğı verdi, həm də əldə etdiyi qələbələr münasibətilə onu təbrik etdi. Şah İsmayılın yazdığı məktubun çatdırılması üçün Osmanlı sarayına elçilik də göndərildi. Bu elçiliyə Tacəddin Həsən xəlifə rəhbərlik edirdi. Məktubunun əvvəlində Şah İsmayıl yeni Osmanlı sultanının şəninə çox təriflər yazaraq onu "Cəmşid kimi xaqan, İsgəndər kimi təmkinli, Süleyman kimi (uca) məqam (sahibi), Dara kimi qanun (sahibi), Kəsra (Xosrov) kimi mücahidlərin öncülü, səltənət sahibi kralların sütunu" kimi vəsf edirdi (88).

Şah İsmayıl öz məktubunda Sultan Səlimin dünyasını dəyişməsi ilə bağlı təsliyyətini və Sultan Səlimin əldə etdiyi qələbələr münasibətilə təbrikini belə bəyan edirdi: "...cənnətin ən ali pilləsində məkan qurmuş ali cənab xaqanın dünyadan köçməsi qəm-qüssəyə batanların düşüncələrində iz buraxdı (özünə yer edirdi). Bu nüsxəni (məktubu) Quran bayramından daha üstün və bəşər övladının sevincindən daha dəyərli hesab edib saf sevgiyə təkid etmək, güvən və etimadımızın doğruluğunu təsdiqləmək məqsədi ilə böyük fəthləri təbrik etmək üçün bu ailənin çoxdan etimad etdiyi dost, böyük alimlərin ən önəmlisi və xoşbəxtlik ünvanı olan Tacəddin Həsən xəlifəni xoşbəxtlik qibləsi, arzu və əmin-

amanlıq Kəbəsinin ziyarətinə göndərdik. Qiyamət gününə qədər əbədi dualar sizinlə olsun" (89).

Syultan Süleyman bu məktubu cavabsız qoymadı. Doğrudur, cavab məktubu xeyli gec yazıldı. Bununla belə, Sultan Süleyman atasından fərqli olaraq Səfəvi elçisini həbs etdirmədi və onun məktubunu da cavabsız qoymadı. Sultan Süleyman öz məktubunda bildirdi ki, göndərilən salamların cavabını vermək vacib əməllərdən biridir. Məktubunda Sultan Süleyman xüsusi bir mətləbə toxunmadı. Amma bu məktubun göndərilməsi üçün ayrıca bir elçilik təyin etmədi. Sultan Səlimin məktubu Şah İsmayıla çatdırılması üçün Səfəvi elçisinə təqdim olundu (90).

Sultan Süleymanın Səfəvi elçisinə hörmət və ehtiram göstərməsi və Şah İsmayılın məktubuna cavab yazması heç də Osmanlı sarayının Səfəvi dövləti ilə qarşıdurmasına son qoyulması demək deyildi. Səfəvi dövlətinin kifayət qədər güclü olması və bu dövlət daxilində şiəliyin hakim məzhəb statusunda olması Sultan Süleymanın da təşviş və narahatçılığına səbəb olurdu. Şah İsmayılın vəfatından sonra Sultan Süleymanın Gilan hakiminə yazdığı məktubunda da bunu görmək mümkündür. O, Şah İsmayılı "Ərdəbil oğlunun faydasız vücudu" adlandırır və İranı Şah İsmayılın "tərəfdar və ardıcıllarının vücudunun çürüntülərindən" təmizləməyi mühüm vəzifə hesab edirdi. Sultan Süleyman eyni zamanda Gilan hakimini də səfəvilərə qarşı birgə mübarizəyə dəvət edirdi. Həmin məktubda deyilirdi: "...Saysız salam və hədsiz-hesabsız dualar səltənətin nur saçan lütfündən aşkara çıxır. Həqiqətdə müşahidə aynasının kinayə olduğu nurlu aləminiz və düşüncənizin araşdırılmasından məlum oldu ki, ötən əyyam və zamandan etibarən açıq-aşkar İslam dinini gücləndirmək və məxluqatın ağasının, - salam və dualar olsun, - şərafətli dinini qaydasına salmaq istiqamətində zəlalətə düçar olmuş Ərdəbil oğlunun faydasız vücudunu qələbə və zəfər qılıncı ilə varlıq aləmindən qoparıb atmaq [sizin] şahanə xoşətirli diqqət və nəzərinizdə imiş. Əlbəttə, şahlığın keçmişini qorumaq niyyəti və padşahlığımızın gələcəyi üçün çalışmaq tələbinə uyğun olaraq gözəl və yaxşılıq mənbəyi olan izzətli Allaha təvəkkül və kainatın ağasının ən fəzilətli dualar onun olsun, - möcüzələrinə təvəssül edib himməti ali olan cənabı səadət, xoşbəxtlik, izzət, şan-şöhrət, cahcalallı (şəkildə) və dərya kimi təlatümlü, zəfərlər qazanan əsgərlərlə o hiyləgər kafirlərin başçısını, şər və dinsizlərin rəhbərini aradan götürmək və yox etmək üçün şərq diyarına getmək kimi uca məqsədli qərarından daşındırmış və geri döndərmişdik.

İndi isə qulağımıza, - Allah hər zaman müjdələr eşitdirsin, - daim güvəndiyimiz insanlar və [o tərəfdən gələn] yolçular tərəfindən mütəmadi olaraq gələn çoxsaylı xəbərlərə əsasən [bizim üçün] yəqinlik dərəcəsinə gəlib çatmışdır ki, "hər kəs zülm qılıncını siyirsə onunla da öldürülər" [ifadəsindəki] həqiqətin məzmununa uyğun olaraq o fitnə azğınlıq mənbəyi, zəlaət və fəsad məskəni, Allahın qəzəbinə düçar olmuş və öz xəbis canını cəhənnəm mələklərinə həvalə etmişdir. Keçmişdən bu günə qədər dostumuz və yaxınımız olan cənabınızın sədaqət və səmimiyyətli olmasının isbatı, məhəbbət və səmimiliyin yüksək keyfiyyəti, bizim xilafət və

səltənətimizə nisbət əqidəsinin saflığı və niyyətinin sadiqliyi, dini qorumaq yolunda mərdliyi, peyğəmbər ümmətinin düşmənlərinə qarşı çıxması [cənabınızın] etimad ediləsi və inanılası sadiq insan [olması] dəfələrlə ali vəkillərin (işlərin tapşırdığı şəxslərin, şahzadələrin) nurlu nəzərinə və rəhbərliyin diqqətinə çatdırmışdır. Bizim bu sədaqətli cənaba nisbət şahanə gözəl iradəmizin və səltənətimizin ali lütfünün diqqət və qayğısı artmışdır. O [bizdən ayrı və uzaq olsa da] qalib dövlətin dayaqlarına bəxşiş verərkən o da lütfümüzə şamil edilmiş və [hüzurumuzda] olmamasını olması hesab etmişik. Ona görə də hazırda qovulmuş və qəzəbə düçar olmuş şeytanın (Şah İsmayılın) tərəfdar və ardıcıllarınn vücudunun çürüntülərindən İran məmləkətlərini təmizləyərək sahmana salmalı və müsəlmanın dini hökmlərini bərpa etmək istiqamətində İlahi iradə həmin tərəfə yönəldildiyi üçün dindarlığın ünvanı olan cənabınızın misilisiz iradəsi üçün münasib, əlverişli və hətta lazım və vacibdir ki, bütün formalarda bizim uğurlu qədəmimizə ümidvar olub fürsətin gətirdiyi müjdə məzmununa əsasən yay yağışı və fürsətin yaranmasını qənimət hesab etsinlər. Əgər şücaət və sərkərdəlik işinə, tərif və hörmətə layiq olarsa, o zaman günbəgün aşkara çıxarıb "kafir və münafiqlərlə vuruşun" [Ət-Tövbə surəsinin 74-cü ayəsində] qeyd edildiyi kimi, mümkün həddə səy göstərib çalışsınlar. Bacardıqları və layiq bildikləri şəkildə o kafir və dinzisin yolunu azmış dostları və adamlarını həlak etməkdə, mal-mülkünə ziyan vurmaqda əllərindən gələni əsirgəməsinlər. Ruzəfzunun əbədiyaşar dövlətinin mühüm işləri və mənafelərinin yerinə yetirilməsində bütün qüvvənizi sərf edərək bir dəqiqə belə sükut etməyin. Mümkün olan hər vasitə ilə [habelə] məktub və məktubların göndərilməsi ilə davamlı olaraq mövzu və məsələlər haqqında məlumat verin. Əgər əziz olan allah istəsə, həmin yerlərdə şahanə zəfər bayraqları və sancaqları günəş kimi parlasa, hörmətə layiq olan möhtərəm zati-aliniz səltənətin gözəl lütfünə [nail olanlar] cərgəsində görünəcək və şahənşahın möhtəşəm ehtiramından faydalanacaqdır. Din və dünyanın yüksək pillələrində böyük rütbələr və ali mətləblərlə mükafatlandırılacaqdır. Cah-cəlalını ata-babanın dərəcəsindən iki dəfə artıq izzət və məqam səmasına yüksəldəcəyik" (91).

Sultan Süleymanın Səfəvi dövləti ilə qarşıdurmadan əl çəkməməsini onun Şah İsmayılın vəfatından sonra bir neçə dəfə Səfəvi hüdudlarına hücum etməsi də nümayiş etdirir. Amma Şah İsmayılın sağlığında Sultan Süleyman, Səfəvi hüdudlarına hücum etməkdən çəkindi.

Şah İsmayılın həyatının son illərində səltənətin qərb sərhədləri boyunca və ətrafında da kifayət qədər dəyişkən bir hərbi-siyasi proseslər baş verirdi. Səfəfi dövləti ilə xoş münasibətlərdə olan Kabul hakimi Məhəmməd Babur 1520-ci ildə Qəndəhar üzərinə qoşun çəkdi və bu şəhər-qalanı mühasirəyə aldı. Bu şəhərin hakimi olan Şüca bəy çoxsaylı qoşunların mühasirəsindən qurtarmağın çətin olacağını gördükdə Səfəvi dövlətinin köməyinə arxalanmağı qərara aldı. Bu məqsədlə Şüca bəy o zaman Xorasanın hakimliyi həvalə olunmuş şahzadə Təhmasib Mirzənin lələsi (atabəy) və əslində isə Xorasanın idarəçiliyini həyata keçirən Əmir xan Mosullunun yanına adamlarını göndərdi və ondan kömək istədi. Əmir xan Mosullu bu

müraciətdən sonra öz nümayəndələrini Məhəmməd Baburun yanına göndərdi və ondan xahiş etdi ki, Qəndəhar qalasının mühasirəsini dayandırsın və qoşunlarını geri çəksin. Məhəmməd Babur bu xahişi qəbul etmədi və bildirdi ki, Qəndəharın tutulması onun üçün namus məsələsidir. Babur onu da əlavə etdi ki, Qəndəhar qalası alınandan sonra Şüca bəy və qala darvazalarının açarları Təhmasib Mirzənin hüzuruna göndəriləcəkdir və o da kimə istəsə bu vilayətin idarəçiliyini inayət etsin. Əmir xan Mosullunun nüamyəndələri geri göndərilən kimi Məhəmməd Babur sərəncamında olan bütün qüvvələrlə Qəndəhar qalasının üzərinə hücum etdi. Kənardan bir köməyin gəlməsinin mümkün olmadığını görüncə Şüca bəy qala sakinlərinin köməyi ilə şəhərin müdafiəsini təşkil etdi. Özü də Şüca bəy şəhərin müdafiəsini kifayət qədər uğurla təşkil etdi və bunun nəticəsi kimi Məhəmməd Babur üç il ərzində Qəndəharı ala bilmədi. Həmin müddət ərzində Əmir xan Mosulludan da hər hansı bir kömək gəlmədi. Qəndəhar qalasının taleyinə bir də Əmir xan Mosullunun yerinə Durmuş xan təyin edildikdən sonra aydınlıq gətirildi. Durmuş xan Herata gəldikdən sonra Məhəmməd Baburun yanına öz adamlarını göndərdi və ondan Qəndəhar qalasının mühasirəsinin dayandırılmasını xahiş etdi. Qüvvəsi artıq tükənməkdə olan Məhəmməd Babur da bu xahişi qəbul etdi və Qəndəharın mühasirəsini dayandırmağı qərara aldı (92).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində Məhəmməd Baburun Qəndəhar üzərinə hücumu özbəklərin Xorasan üzərinə hücumu ilə bağlanılmışdır. Bu əsərlərdə bildirilir ki, Şah İsmayıl 1520-ci ildə Osmanlı sultanının dünyasını dəyişməsi xəbərini alan kimi Şah İsmayıl səltənətin qərb sərhədlərindən xatircəm oldu və ona görə Xorsan istiqamətinə hərəkət etmək qərarına gəldi. Bidirilir ki, bu zaman artıq iki il idi ki, Xorasan özbək xanlarının nəzarəti altında idi (bu məlumat həqiqətdən uzaqdır. Çünki həmin zaman Təhmasib Mirzə Xorasan hakimi idi və o, lələsi Əmir xan Mosullu ilə birlikdə Heratda olmaqla Xorasanı idarə edirdilər). Adları çəkilən mənbələrin məlumatına görə, Məşhəd Übeydulla xan tərəfindən, Herat isə Məhəmməd Teymur xan tərəfindən idarə olunurdu. Şah İsmayılın bölgəyə gəlməsi xəbəri alınanda bu hakimlərin ikisi də Xorasanı tərk edərək Türküstana çəkildilər. Şah İsmayıl bölgəyə gəlməzdən əvvəl isə Məhəmməd Babur Qəndəhar üzərinə qoşun çəkdi. Onun gümanında Şah İsmayılın bölgədən uzaqda idi və onun başı Osmanlı qoşunları ilə müharibəyə qarışmışdı. Ona görə o da yaranmış fürsətdən istifadə edərək Qəndəharı öz hakimiyyəti altına gətirmək qərarına gəldi. Adları çəkilən mənbələrə görə, Qəndəharın hakimliyi Şüca bəyə Şah İsmayıl tərəfindən həvalə edilmişdi. Şüca bəy də qala daxilində müdafiə olunmağa başladı. Bildirilir ki, qalanın mühasirəsinə başlanmasından iki il sonra Şah İsmayıl Xorasana gəldi və onun gəlməsi xəbərini eşidincə Məhəmməd Babur qalanın mühasirəsini dayandırıb Kabula çəkildi. Qalanın mühasirəsi dayandırıldıqdan sonra Şüca xan şəhərin bir neçə ağsaqqalı və nüfuzlu adamları ilə birlikdə Şah İsmayıln hüzuruna yollandılar. Qalanın müdafiəsini isə Şüca bəy şəhər əyanlarından olan Məhəmməd Baği xan adlı birisinə tapşırdı. Məhəmməd Baği xan da Məhəmməd Babura xəbər göndərdi ki, Qəndəharın müdafiəsi başsız qalmışdır və şəhəri ona

təslim etməyə hazırdır. Məhəmməd Babur da dərhal qüvvə göndərərək Qəndəhar şəhərini və qalasını ələ keçirdi. Şüca bəy Səfəvi şahının qərar tutduğu Herata yetişməzdən əvvəl Qəndəharın işğalı xəbərini aldı və Şah İsmayılın hüzurunda olarkən bu brədə ona məlumat verdi. Şah İsmayıl da bundan xeyli qəzəbləndi və Etimadüddövlə Mirzə şaha tapşırıq verdi ki, o öz adından Məhəmməd Babura məktub yazsın və onu etdiyi əməllərin qarşılığında çox sərt şəkildə cəzalandırılacağı ilə hədələsin (93).

Mirzə şah da öz adından Məhəmməd Babura belə bir məktub yazdı: "Bu nə ədəbsizlikdir ki, etmişsən və edirsən? Bəzən Bəlx üzərinə gedərək onu alıb aliməqamın (Şah İsmayıl nəzərdə tutulur) düşməni olan Məhəmməd Zaman Mirzəyə verirsən, bəzən də qoşunu götürüb Qəndəhar üzərinə gedirsən. İndi də Şüca bəy yolda olarkən kimləri isə göndərib Qəndəharı işğal edirsən. Şüca bəy istəyirdi ki, bu məsələni Şah İsmayılın xidmətinə ərz eləsin. Biz mane olduq və imkan vermədik ki, Şah İsmayıl bundan xəbər tutsun və sizə görə kədərlənsin. İndi dostluq yolu budur ki, Qəndəhar vilayətini Şücanın xidmətçilərinə təhvil verib cahanın pənahının hüzuruna gələsiniz, keçmiş əməllərinizə görə üzr istəyib geri qayıdasınız" (94).

Məhəmməd Babur bu məktubdan qorxu və həyəcan içərisinə düşdü və yaxınları ilə məsləhətləşdikdən sonra Şah İsmayılın hüzuruna yollanmaq qərarına gəldi. Şah İsmayıl ilə görüşündə Məhəmməd Babur günahlarının bağışlanmasını xahiş etdi. Şah İsmayıl da onun günahlarını bağışladı. Adları çəkilən mənbələrdə bildirilir ki, Məhəmməd Baburla münasibətlərə də aydınlıq gətiriləndən sonra Şah İsmayıl Xorasanın bəylərbəyliyini və Təhmasib Mirzəyə ləlliyi Əmir xana tapşırdı və özü geri döndü (95).

1521-ci ildə Osmanlı ərazisində Səfəvi tarixi üçün əhəmiyyət kəsb edən bir hadisə baş verdi. Bu hadisə Canverdi Qəzalinin rəhbərliyi altında Osmanlı dövləti əleyhinə üsyanın baş verməsi idi. Canverdi Qəzalinin Osmanlı dövlətinə olan münasibətinin birmənalı olmadığı yuxarıda da qeyd edilmişdi. Bu barədə hətta Sultan Səlimə də məlumat verilmişdi. Amma nə qədər ki, Sultan Səlim sağ idi Canverdi Qəzali Osmanlı dövlətinə qarşı ciddi əməli fəaliyyətə keçə bilmirdi. Sultan Səlim dünyasını dəyişməsindən dərhal sonra Canveri Qəzali də hərəkətə keçdi və dövlətə qarşı qiyam qaldırdı. Bu qiyam 1520-ci ilin sonlarında başlasa da, onun əsas prosesləri 1521-ci ilə təsadüf edir. Şam hakimi olan Qəzali ətrafına 15 min nəfərlik bir qoşun dəstəsi toplamışdı. Məqsədi də o idi ki, Şamda üsyan bayrağını qaldırandan sonra Hələbi, sonra da bütün Misiri Osmanlı qoşunlarından təmizləsin və bu əraziləri öz hakimiyyəti altına gətirsin. O öz fəaliyyətini də elə Hələbin mühasirə altına alınmasından başladı. Osmanlı sultanı tərəfindən Hələb hakimi təyin edilmiş Qaraca paşa şəhərin müdafiəsini təşkil etdi. O, Sultan Süleymana kömək göndərməsi barəsində məktub yazmaqla Canverdi Qəzalinin bir aylıq mühasirəsinə davam gətirdi. Bu müddət ərzində Osmanlı qüvvələri kifayət qədər fəal döyüşlər keçirdilər və şəhərin təslim olmasının qarşısını ala bildilər. Sultan Süleyman isə Canverdi Qəzalinin üsyanı xəbərini alanda dərhal onun qarşısına böyük qoşun dəstəsi göndərdi. 50 min

nəfərdən ibarət olan bu qoşun dəstəsinə Fərhad paşa ilə Əli bəy Şahsuvaroğlu rəhbərlik edirdilər. Farsdilli mənbələrin məlumatına görə, həmin qoşun dəstəsi Hələb ətrafına yetişməzdən əvvəl Canverdi Qəzalinin qoşun dəstəsi oranı tərk edib Dəməşq tərəfə hərəkət etdi. Osmanlı mənbələrinə görə isə, Sultan Süleymanın göndərdiyi qoşun dəstəsi yetişəndən sonra Canverdi Qəzali qoşun dəstəsi ilə Hələb ətrafından çəkilmiş və Şam yaxınlığındakı bir yüksəklik ətrafında döyüşə cəlb edilmişdi. 1521-ci ildə Şam yaxınlığında Canverdi Qəzali ilə Fərhad paşanın rəhbərlik etdiyi qoşun dəstəsi arasında gərgin bir döyüş baş verdi. Amma Osmanlı qoşunlarının say üstünlüyü bu döyüşün taleyini həll etdi. Canverdi Qəzali isə bu döyüşdə həyatını itirdi (96).

Bu üsyanın baş verməsinin farsdilli mənbələrdə və eləcə də Osmanlı mənbələrdə öz əksini tapmasının bir səbəbi də Qəzali ilə Şah İsmayıl arasında mövcud olan münasibətlərdən irəli gəlirdi. Şah İsmayıl açıq şəkildə olmasa da Qəzalinin hərəkatını dəstəkləyirdi. Bu hərəkatın qalib gəlməsi Səfəvi dövlətinin müttəfiqi olan Misir dövlətinin bərqərar olması demək idi. Bu isə Səfəvi dövlətinin maraqlarına cavab verməklə bərabər, həm də Osmanlı dövlətinin zəifləməsi demək idi. Konkret olaraq bu üsyanın gedişində Şah İsmayılın Qəzaliyə hər hansı bir konkret yardım göstərməsini söyləmək isə çətindir.

1521-ci ilin yayında Şah İsmayıl Marağada ikən Şirvanşah II İbrahim onun görüşünə gəldi və bir müddət onun qonağı oldu. Şirvanşahın Marağada olduğu günlərə həmin ilin Ramazan bayramı da təsadüf edirdi. Hər zaman olduğu kimi bu Ramazan bayramı da böyük təntənə ilə qeyd edildi, şadyanalıq məclisləri quruldu, at və dəvə yarışları təşkil edildi. Bayramın qeyd edilməsindən bir neçə gün sonra Şirvanşah öz yurduna geri döndü (97).

1521-ci ilin sonlarına yaxın Şah İsmayıl Təbrizə döndü və həmin ilin qışını bu şəhərdə keçirdi. Sonrakı, 1522-ci ilin mühüm hərbi-siyasi hadisələrindən biri yenidən Xorasanda vəziyyətin mürəkkəbləşməsi oldu. Bu vəziyyətin mürəkkəbləşməsinə həm daxili amil, həm də xarici amil səbəb oldu. Vəziyyətin mürəkkəbləşməsinin daxili amili Xorasan hakimi təyin edilmiş Təhmasib Mirzənin lələsi Əmir xan Mosullunun adı ilə bağlı idi. Əmir xan Mosullu həqiqətdə Xorasanın hakimi idi və bu vilayətin idarəçiliyi onun ixtiyarında idi. Mənbələrdə olan məlumatlara görə, Əmir xan Mosullunun bir kökü Uzun Həsənlə bağlı idi və Xorasanın hakimliyi kimi bir vəzifənin öhdəsindən ilk iki ili çox bacarıqla gəldi. Vilayətin idarəçiliyinin yaxşı həyata keçirilməsi üçün Şeyx Mücəddədin Kermani adlı birisini özünə vəzir təyin etdi. Bir tərəfdən Əmir xanın özünün tapşırılan vəzifəyə məsuliyyətlə yanaşması, bir tərəfdən də Şeyx Mücəddədin Kermaninin təcrübəli bir adam olması və onların hər ikisinin idarəçilikdə ədalət prinsipini gözləməyə çalışması vilayət daxilində böyük razılıqla qarşılandı. Bunun nəticəsində təsərrüfat inkişaf etdi, yaşayış məskənləri daha da abad oldular. Amma iki ildən sonra (bəzi mənbələrə görə isə üç ildən sonra) Əmir xanın eyş-işrətə qurşanması, dövlət işlərindən uzaq düşməsi və ətrafında məkrli insanların toplanması getdikcə vilayət daxilində vəziyyətin dəyişməsinə səbəb oldu. Əmir xan Mosullunun ətrafına toplaşmış olan bəzi adamlar hətta

Şeyx Mücəddədin Kermanini də vəzirik mənsəbindən uzaqlaşdırmağa nail oldular. Onun yerinə Xacə Molla (Mövlana) Əmir Səmərqəndini vəzir təyin edildi. Əmir xan Mosullu öz qardaşı Sultan İbrahimi isə özünə müavin vəzifəsinə götürdü və ona vilayət daxilində böyük səlahiyyətlər verdi. Xacə Molla (Mövlana) Səmərqəndi vilayət daxilindəki idarəçilik zamanı daha çox öz maraqlarını təmin etməyə çalışırdı. Buna görə idi ki, o, vilayətin varlı adamlarının vardövlətini müxtəlif bəhanələrlə əlindən alır və onları dövlətdən narazı salırdı. Bu isə öz növbəsində vilayət daxilində narazılıqların artmasına yol açırdı (98).

Əmir xan Mosullu yeni vəziri ilə də uzun müddət birgə işləməyi lazım bilmədi və iki ildən sonra onu da vəzifəsindən kənarlaşdırdı və onun qətlinə nail oldu. Bundan sonra Əlican Kerehrudi adlı birisi Xorasanın vəziri vəzifəsinə gətirildi. Bununla belə, Əmir xan Mosullu vilayətin idarəçiliyində öz iradəsini yeritməyə çalışmaqdan çəkinmədi. Əslində, Əmir xanın Herata gəlməsindən təxminən bir il sonra onun Səfəvi dövlətinə sədaqətsizliyi barəsində Şah İsmayıla bəzi məlumatlar çatmışdı. 1517-ci ildə səltənət daxilində Osmanlı ordusu üçün casusluq edən birisi ələ keçirilmişdi və sorğu-sual əsnasında o bildirmişdi ki, Əmir xan Mosullu Osmanlı dövləti ilə əməkdaşlıq edir və casusun Səfəvi hüdudlarına daxil olmasından məqsəd də Əmir xan Mosullunun Osmanlı dövlətinə qarşı münasibətinin dəqiqləşdirilməsindən ibarətdir. Bu məlumatdan sonra Şah İsmayıl alınan xəbərin dəqiqləşdirilməsi üçün Əmir xan Mosullunu Təbrizə çağırtdırdı. Onun Təbrizə gətirilməsi üçün Tayqur (Bayqur) Mirzə adlı qorçu Herata göndərildi. O, Herata yetişən kimi Şah İsmayıln göstərişini Əmir xana çatdırdı. Amma Əmir xan Təbrizə yollanmaqdan yayına bildi. Bunun üçün bəhanə də tapdı və bildirdi ki, baharda özbək xanlarının Xorasan üzərinə hücumu gözlənilir və belə bir vaxtda Xorasandan ayrılmaq düzgün olmazdı. Özbək qoşunlarının Xorasan üzərinə hücum təhlükəsi həmişə olmuşdu və Əmir xanın Təbrizə yollanmaqdan yayınmasının yalnız bu ehtimalla bağlı olmasını söyləmək çətindir. Əvəzində Əmir xan vilayətin sədri, yəni dini idarəçilik məsuliyyətin öz üzərinə götürmüş Əmir Qiyasəddindən və Xacə Seyfəddin Müzəffər Bətəkçidən Təbrizə yollanmalarını xahiş etdi. Onlar bu xahişi qəbul edərək Təbrizə yolandılar, Şah İsmayılın hüzurunda oldular, Xorasanın vəziyyəti və Xorasan ətrafında cərəyan edən proseslər barəsindən ona məlumat verdilər. Bu nümayəndələr Əmir xanın gələ bilməməsi səbəbini də Şah İsmayıla çatdırdılar. Onlar eyni zamanda Əmir xanın öz vəzifəsində saxlanmasını Şah İsmayıldan xahiş etdilər. Mənbələrdə Əmir Qiyasəddinin Səfəvi şahı ilə görüşü zamanı yüksək davranış və müdriklik nümayiş etdirməsi haqqında yazırlar. Şah İsmayıl da onun bu keyfiyyətlərini lazımınca qiymətləndirdi. Əvvəla, Əmir xanın onun hüzuruna gəlməməsinin üzrü qəbul edildi, ona olan etimad saxlanıldı. Sonrası isə Əmir Qiyasəddinin şəxsiyyəti qiymətləndirildi və Şah İsmayıl tərəfindən Əmir xana göstəriş verildi ki, Xorasan vilayətinin idarəçiliyini Əmir Qiyasəddinlə məsləhətləşərək həyata keçirsin. Şah mükafatı kimi Əmir Qiyasəddinə bayraq və təbil də verildi. Bayraq və təbilin verilməsi Əmir Qiyasəddinin məqamının və nüfuzunun yüksəlməsi demək idi. Bundan başqa mülki, maliyyə

və sair işlər Əmir xan tərəfindən ona həvalə olunmalı idi. Eyni zamanda Heratrud bölgəsi iqta olaraq ona verilirdi. Bununla bərabər, Semnandan başlayaraq Təxaristana kimi olan ərazilərin vəqf pulları da Əmir Qiyasəddinə çatmalı idi. Xacə Seyfəddin Bətəkçi də şah iltifatına layiq görüldü və ona "sultan" ləqəbi verildi. Bundan sonra o, bir müddət şah düşərgəsində qalmalı oldu. (99).

1518-ci ilin sentyabrında Əmir Qiyasəddin Xorasana qayıtdı və yerli əhali onu böyük sevinc və ehtiramla qarşıladı. Əmir Qiyasəddinin Şah İsmayıl tərəfindən yüksək səviyyədə qarşılanması və ona böyük dəyər verilməsi Əmir xan Mosullunun heç də xoşuna gəlmədi. Xüsusən, vilayətin idarəçiliyində onunla məsləhətləşmək tələbi heç də Əmir xanın ürəyindən deyildi. Bir müddətdən sonra Əmir xan qardaşı Sultan İbrahimi Şah İsmayılın hüzuruna göndərdi ki, bir sıra mətləblər haqqında ona məlumat versin Bununla, Əmir xan Mosullu vilayət daxilində və şah hüzurunda əvvəlki nüfuzunu möhkəmləndirməyə cəhd göstərdi. Vəzir Xacə Mövlana Səmərqəndinin vəzifəsindən uzaqlaşdırılması və qətlə yetirilməsi də həmin vaxta təsadüf edirdi. Sultan İbrahim isə Şah İsmayılın hüzurunda olarkən onun Əmir xan Mosulluya olan etimadının artmasına nail oldu. Sultan İbrahim istər Xorasandakı vəziyyətlə bağlı, istərsə vilayətin müdafiəsi və idarəçiliyi ilə bağlı Əmir xanın gördüyü işlər haqqında Şah İsmayılda xoş təəsürat yarada bildi. Hətta Sultan İbrahim bu görüşdən sonra "sultan" ləqəbinə də layiq görüldü. Şah yanında nüfuzunun və etibarının artması Əmir xanın düz və qanunçuluq yolundan daha çox yayınmasına təkan verdi (100).

Bir müddət sonra Əmir xan Mosullu qardaşı Sultan İbrahimi Şah İsmayılın hüzuruna göndərdi. Sultan İbrahim də şahla görüşərkən Xorasandakı vəziyyət haqqında, vilayətin idarəçiliyi haqqında ona ətraflı məlumat verdi. Onun da davranışı, şah qarşısında özünü aparması, təcrübəsi və qabiliyyəti Şah İsmayılın rəğbətini qazandı və o da şah mükafatına layiq görüldü. Sultan İbrahim şahın tövsiyələrini aldıqdan sonra Herata qayıtdı. Amma Əmir xan Mosullu bu tövsiyələrə də qulaq asmadı, qardaşının şah sarayında yaxşı qarşılanması onun iddialarını daha da kəskinləşdirdi. Əmir xan Mosullu əlində olan imkanlardan istifadə etməklə Əmir Qiyasəddinin səlahiyyətlərini məhdudlaşdırdı, onun üçün müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində fəaliyyət göstərməsinə imkan vermədi. Onun icazəsi və göstərişi əsasında vəziri Xacə Əli xan, yerli əyanlardan Pirəhməd bəy, Hidayət bəy və Qasım bəy vilayət daxilində qanunsuz əməlləri zülm və haqsızlıqları xeyli genişləndirdilər. Vilayət sakinlərinin bu qanunsuz əməllərə və hərəkətlərə görə ah-fəqanı göylərə yüksəldi və onların dadına kimsə çata bilmədi. Buna görə vilayət sakinlərini qorxu və təşviş bürüdü və baş verən haqsızlıqlardan xilas olmaq üçün onlar yollar düşünməyə başladılar. Bu haqsızlıqlar o dərəcə artdı ki, Əmir Qiyasəddindən başqa Sultan İbrahim də Əmir xanı düz yola döndərməyə çalışdı. Əmir xan Mosullu isə onların məsləhət və nəsihətlərinə qulaq asmırdı. Əksinə, onun adamlarının haqsız əməlləri günügündən daha da şiddətlənirdi. İş o yerə gəlib çatdı ki, Sultan İbrahim qardaşının bu haqsızlıqlarına dözməyərək vilayəti tərk etdi və yenidən Şah İsmayılın sarayına yollandı. O, sonrakı xidmətini burada davam etdirdi və saray daxilində

yüksək vəzifəyə, saray möhrdarı vəzifəsinə təyin edildi. Baxmayaraq ki, qardaşı Əmir xanın fəaliyyəti haqqında xoşagəlməz söz-söhbətlər mövcud idi, Sultan İbrahim sədaqətli xidməti ilə tezliklə böyük nüfuz qazandı və bir müddətdən sonra Şah İsmayıl ona hətta xan ləqəbi də verdi (101).

Amma Əmir Qiyasəddinin geniş səlahiyyətlər alması Əmir xanın ciddi narahatçılığına səbəb olurdu və onu nüfuzdan salmaq üçün ən müxtəlif bəhanələrdən bəhrələnməyə çalışırdı. Əmir xan Mosullu vilayət daxilində şayiə yaydırırdı ki, Əmir Qiyasəddinin işi yalnız vəqf mallarının toplanmasından ibarətdir. Əmir xan hətta Təhmasib Mirzənin müəllimi olan Mövlana Nizaməddin Təbəsi ilə yaxın münasibətlərindən də istifadə etməklə onun da yanında Əmir Qiyasəddin haqqında söhbətlər aparır və onun barəsində yanlış təsəvvür yaratmağa çalışırdı. Bu söhbətlər şah dərgahına da çatdırıldı və Əmir Qiyasəddinin yersiz və qanunsuz təzyiqlərdən qorunması üçün onun haqqında yenidən şah iradəsi bəyan edildi. Bir daha Əmir xanın nəzərinə çatdırıldı ki, vilayət daxilində heç bir ciddi qərar Əmir Qiyasəddinlə razılaşdırılmadan qəbul edilməsin. Mövlana Nizaməddin Təbəsinin öz vəzifəsinə laqeydlik göstərərək Əmir xanla daha möhkəm münasibətlər qurmaq cəhdi də şah sarayının nəzərindən kənarda qalmadı və Şah İsmayılın göstərişi ilə o, Təhmasib Mirzənin müəllimi vəzifəsindən kənarlaşdırıldı. Sonradan Təhmasib Mirzəyə müəllimlik də Əmir Qiyasəddinə həvalə olundu. Şah sarayının bu yeni qərarlarının Əmir xana çatdırılması üçün Mövlana Əbu Səid Herata göndərildi. Mövlana Əbu Səid Herata gəlib çatandan sonra həm Əmir xanla, həm də Əmir Qiyasəddinlə görüşdü, onlara Şah İsmayılın həm qiymətli mükafatlarını, həm də onun göstərişini çatdırdı (102).

Əmir Qiyasəddinə verilmiş səlahiyyətlər vilayətin idarəçiliyində Əmir xan Mosullunun səlahiyyətlərini xeyli məhdudlaşdırırdı və ona görə də Mövlana Əbu Səidin şah sarayının yeni göstərişlərini elan etməsindən sonra da Əmir xan Mosullunun Əmir Qiyasəddinə qarşı kinli münasibətinə son qoyulmadı. Doğrudur, Mövlana Əbu Səid Heratda olduğu müddət ərzində Əmir xan vilayət daxilində haqsız və qanunsuz əməllərin qarşısını almağa cəhd göstərdi, Mövlana Əbu Səidin hörmətini qazanmağa çalışdı. Lakin Əbu Səid vilayəti tərk edən kimi, Əmir xan öz əvvəlki haqsız əməllərinə yenidən rəvac verdi və şah sarayından verilmiş göstərişlərin icrasından boyun qaçırdı. Əmir xan xüsusilə, Əmir Qiyasəddinin səlahiyyətlərinin məhdudlaşdırılması və onun nüfuzdan salınması üçün fürsət arayırdı. Onların arasında olan ziddiyət hətta özbək qoşunlarının Herat üzərinə hücumu zamanı da aradan qalxmadı (103).

Bu hücum 1521-ci ilin yazında baş vermişdi. Übeydulla xan heç bir vəchlə Xorasan üzərində hakimiyyəti ələ keçirmək planlarından əl çəkmək istəmirdi. Çox güman ki, o da Xorasan vilayətində baş verənlərdən, habelə Məhəmməd Baburun Qəndəhar üzərinə hücumundan xəbərdar idi və mövcud olan hərbi-siyasi şəraiti Xorasan üzərinə uğurlu yürüş üçün bir fürsət kimi qəbul etdi. Ona görə də 30 min nəfərlik bir qoşun dəstəsi hazırladı və Səmərqənd hakimi Kuç Küncünün icazəsi ilə Amu Dərya çayından adlamaqla Herata doğru istiqamət

götürdü. Kuç Küncü Səmərqənd hakimliyinə Məhəmməd Teymur xanın dünyasını dəyişməsindən sonra sahib olmuşdu. Übeydulla xan qoşun dəstəsi ilə Sərəxsə yaxınlaşanda bu əyalətin Səfəvi sarayı tərəfindən təyin edilmiş hakimi Sunduq bəy dərhal Herata atlı göndərdi və özbək qoşunlarının hücumu barəsində Əmir xan Mosullunu məlumatlandırdı. Bu xəbər istər Əmir xan tərəfindən, istərsə də şəhərin digər əyanları tərəfindən böyük təşvişlə qarşılandı. Çünki qala daxilində müdafiəyə çəkilmək və uzun müddət müdafiədə dayanmaq imkanı yox idi. Xüsusilə, ərzaq ehtiyatlarının olmaması buna imkan vermirdi. Yazın başlanğıcı olduğu üçün əvvəlki ilin ərzaq ehtiyatları tükənmiş, yeni ilin məhsulları isə hələ yetişməmişdi. Şəhər daxilində və silahlanmış insanlar arasında da bir dağınıqlıq mövcud idi. Əmir xan Mosullu şəhərin müdafiəsinin təşkilinin çətin olduğunu görəndə əyanları və əmirləri Təhmasib Mirzənin yanına topladı və qala divarlarının müdafiəsinin təşkilinə onların da cəlb edilməsinin zəruriliyini anlatdı. Onun təklifi ilə qala divarlarının müdafiəsi dəvət olunmuş əyanlar və əmirlər arasında bölündü. Əmir Qiyasəddin də qala divarlarının müdafiəsinin təşkili işində yaxından iştirak etdi. Ona qala divarlarının Mülk darvazasından başlayaraq İraq darvazasının şimal bürcünə qədər olan hissəsi tapşırıldı. İraq darvazasının müdafiəsinin təşkili Piri sultana və xəlifə sufilərinə tapşırıldı. Şəhər divarlarının digər hissələri isə Pir Əhməd bəyə, Hidayət bəyə, Qasım bəyə və digərlərinə tapşırıldı. Şəhərin müdafiəsinə ümumi rəhbərliyi Əmir xan Mosullu öz üzərinə götürdü. O, şəhər bağında yerləşməklə yanında 500 nəfər əli silahlı saxladı və bəyan etdi ki, hansı istiqamətdə ağır vəziyyət yaransa yanında saxladığı dəstədən həmin istiqamətə kömək göndərəcəkdir. Çeheldoxtəran adlı məntəqədə yaşayan Abdulla adlı birinə tapşırıldı ki, özbək qoşunlarının yaxınlaşması müşahidə olunan kimi dərhal şəhərə xəbər çatdırsın. Mənbədə olan məlumatlara görə, bu məntəqə Heratdan ən azı bir günlük məsafədə idi. Abdulla özbək qoşunlarının gəlməsi xəbərini çatdırandan sonra ətrafına topladığı dəstə ilə şəhər kənarına çıxdı və Bağ-e zağan (Qarğalar bağı) adlanan ərazidə mövqe tutdu. Bir gündən sonra Özbək qoşunları Dubəradəran dərəsindən keçməklə şəhərə yaxınlaşmağa başladılar. Übeydulla xanın göstərişi ilə Herata müəyyən məsafə qalmış özbək qoşunları dayandılar və orada düşərgə saldılar. Bu qoşunlar əvvəlcə ətrafda olan tarlalara od vurdular, taxıl zəmilərini yandırmağa başladılar. Tarlaların yandırılması ətrafda olan əhalinin ah-naləsi ilə qarşılaşdı. Çünki bu tarlaların yandırılması vilayət əhalisinin güzəranının son dərəcə ağırlaşmasına yol aça bilərdi. Özbəklər də bunu yaxşı bilirdilər və ona görə əlləri çatan ərazilərdəki tarlalara od vurdular. Tarlaların yandırılması elə Herat sakinlərinin də yaşayışının ağır vəziyyətə salınması demək idi. Ona görə Əmir xan Mosullu əyanlarla, o cümlədən Əmir Qiyasəddinlə məsləhətləşdikdən sonra şəhər sakinlərinə göstəriş verdi ki, qala xaricinə çıxaraq tarlalardan mümkün qədər sünbül toplayıb evlərinə gətirilsinlər. Özü də icazə verildi ki, bu sünbüllər kimin mülkiyyəti olmasından asılı olmayaraq istənilən sahədən toplana bilər. Bunun üçün kimsə məsuliyyət daşımayacaqdı. Yaranmış şəraitdə bu da əhali üçün bir qənimət hesab edilirdi. Eyni zamanda

qoşun üzvləri, döyüşçülər və qazilərə də belə bir göstəriş verildi ki, mümkün olan qədər ərzaq toplayıb şəhər daxilinə gətirsinlər. Nəticədə, şəhər əhli və qoşunlar özlərini tarlalara atdılar və kimin nə qədər imkanı var idisə taxıl toplayıb gətirdi. Bu da imkan verdi ki, qısa müddət üçün olsa da şəhər daxilində müəyyən ərzaq və heyvanlar üçün yem ehtiyatı yaradılsın. Übeydulla xanın öz düşərgəsində bir neçə gün dayanması isə ərzaq və yem toplanması sahəsində müəyyən işlər görülməsinə imkan verdi (104).

Übeydulla xan Herat yaxınlığındakı düşərgəsində bir neçə gün istirahət etdikdən və ətrafdakı tarlalara od vurduqdan sonra şəhər üzərinə hücum əmri verdi. O öz qoşun dəstəsini iki qrupa bölərək iki istiqamətdən şəhər üzərin hücum etdi. Bu dəstələrdən biri Sultan mədrəsələri adlanan yerdən şəhər üzərinə hücum çəkdi ki, bu istiqamətdə Əmir Qiyasəddinin xidmətçilərindən olan Əmir Hüseyn Əli sərəncamında olan silahlıl dəsdə ilə müdafiədə dayanmışdı. Onun dəstəsində olan döyüşçülər ənənəvi soyuq silahla və tüfənglərlə silahlanmışdılar. Əmir Hüseyn Əli öz dəstəsi ilə birlikdə özbək qoşunlarını fədakarlıqla qarşıladı və onlara qarşı şücaətlə mübarizə apardı. "Həbib üs-siyər" əsərindəki məlumata görə, Əmir Hüseyn Əli dəstəsi ilə qala divarlarından kənara çıxdı və düşməni qala xaricində qarşıladı. Amma özbək qoşunlarının sayı xeyli çox olduğu üçün onların qarşısını saxlamaq heç də asan deyildi. İstənilən halda həmin istiqamətdə müqavimətin daha da gücləndirilməsi üçün Əmir Qiyasəddin öz adamlarını Əmir xan Mosullunun yanına göndərdi və ondan kömək istədi. Əmir xan Mosullu isə ona nəinki kömək göndərmədi, hətta onun adamlarını da kobud sözlərlə geri qaytardı. Belə cavab alması Əmir Qiyasəddində Əmir xan Mosullunun fəaliyyətinə və mövqeyinə qarşı ciddi bir nigarançılıq yaratdı. Əmir xan Mosullunun şəhərin müdafisinə qarşı belə laqeyd münasibəti Əmir Qiyasəddinin təşviş və narahatçılığı ilə qarşılaşdı və özlüyündə belə qərara gəldi ki, əgər Heratı özbək qoşunlarından qorumaq mümkün olarsa, sonradan Şah İsmayılın yanına yollansın, Əmir xan Mosullunun Heratın müdafiəsi üçün göstərdiyi laqeydlik barəsində, onun günahı üzündən vilayətin ağır vəziyyətə düşməsi barəsində məlumat versin. Həmin gün Əmir Qiyasəddinə tapşırılmış dəstə ilə özbək qoşun dəstəsi arasında baş verən döyüşdə hər iki tərəfdən neçə-neçə döyüşçü yaralandı. Bununla belə, özbək qoşun dəstəsi qarşısına qoyduğu məqsədə çatmayaraq geri dönməli oldu. Şəhərin İraq darvazası ətrafında da gərgin döyüş getdi. Bu istiqamətdə də göstərilən bütün cəhdlərə baxmayaraq, özbək qoşunları hər hansı bir ciddi nəticəyə nail ola bilmədilər və geri çəkilmək məcburiyyətində qaldılar. Bütünlükdə, özbək qoşunları şəhər müdafiəçilərinin müqavimətini qıra bilmədilr. Mənbələrdəki bir məlumata görə 10 gün, digər bir məlumata görə isə 12 gün ərzində özbək qoşunları Herat şəhərini mühasirədə saxladılar. Bununla belə, Übeydulla xan başa düşdü ki, Heratı mühasirədə saxlamaqla onu ələ keçirə bilməyəcəkdir. Ona görə də o, Herat ətrafından geri çəkilmək barəsində göstəriş verdi. Şəhəri ələ keçirə bilməyən özbək qoşunları geri çəkilərkən öz qəzəblərini yenə əkin sahələrinə od vurmaqla soyutmağa çalışdılar (105).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində olan məlumata görə, Xorasan üzərinə Übeydulla xandan başqa Canı bəy də hücum etmişdi. Əvvəlcə, Canı bəy öz qoşun dəstəsi ilə Bəlx qalası üzərinə hərəkət etdi. Bu qalanı Kəpək Sultan adlı Səfəvi əmiri müdafiə edirdi. Canı bəyin sərəncamında 20 min nəfərlik qoşun dəstəsi, Kəpək Sultanın sərəncamında isə 6 min nəfərlik qoşun dəstəsi var idi. Amma bu fərq Kəpək Sultanı qorxutmadı və o hətta özbək qoşunlarını qala xaricində qarşılamağı qərara aldı. Kəpək Sultan Ceyhun çayının kənarına qədər irəlilədi və Canı bəyin dəstəsi ilə də orada qarşılaşdı. Kəpək Sultan bu döyüşdə nəyə qadir olduğunu nümayiş etdirdi və özbək qoşunlarına güclü zərbə vurdu. Sayca xeyli üstün olmasına baxmayaraq, özbək qoşunları Kəpək Sultanın və onun qoşun dəstəsinin qarşısında aciz qaldı və məğlubiyyət acısını öz üzərinə götürərək geri çəkilməli oldu. Kəpək Sultan isə mövcud təhlükəni aradan qaldıraraq arxayn şəkildə Bəlxə qayıtdı (106).

Adları çəkilən mənbələrin məlumatına görə, Canı bəyin Bəlx üzərinə hücumu Übeydulla xanda da Xorasan üzərinə hücum üçün həvəs yaratdı və o da öz qoşun dəstəsi ilə Herat ətrafına gəldi. Bu mənbələrdə də Herat divarlarının müdafiəsinə məsuliyyətin şəhər əyanları və əmirləri arasında bölüşdürülməsi və Əmir Qiyasəddinin də divarın müəyyən hissisinin müdafiəsi üçün öz üzərinə məsuliyyət götürməsi təsdiq olunmuşdur. Əmir Qiyasəddin döyüşçü deyildi. O din xadimi idi və döyüşmək təcrübəsi də yox idi. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində olan məlumatlardan aydın olur ki, döyüş təcrübəsinin olmaması Əmir Qiyasəddində müəyyən bir narahatçılığa səbəb olmuşdu. Amma yaranmış şəraitdə məcburiyyət qarşısında qalıb şəhərin bir sıra kətxudalarını öz yanına topladı və şəhər divarlarının müdafiəsinin təşkili üçün onlardan da kömək istədi. Bildirilir ki, Əmir Qiyasəddinin qala darvazalarının birinin müdafiəsinə məsuliyyət daşımasından Übeydulla xan da xəbər tutdu. O da bilirdi ki, din xadimi Əmir Qiyasəddinin döyüş təcrübəsi yoxdur və ona görə də əsas zərbəni də məhz onun dayandığı istiqamətə yönəltdi. Bu isə Əmir Qiyasəddinin vəziyyətini mürəkkəbləşdirdi. Sayca xeyli üstün olan özbək qoşunlarının qarşısının alınması üçün onun kifayət qədər qüvvəsi yox idi. Əmir Qiyasəddinin yeganə ümidi ətrafına toplaşmış olan döyüşçülərinə idi və onları da hər vasitə ilə bu döyüşün aparılmasına səfərbər etməyə çalışdı. Bir də əllərini qaldırıb dua etdi ki, bu döyüşü uğurla başa çatdırsın. Əmir Qiyasəddin qalanın müdafiəsinin təşkilində Əmir xan Mosullunun fədakarlıq göstərəcəyinə etibar etmirdi və son zamanlar baş verən hadisələr də onun sədaqətinə bir şübhə yaradırdı. Başlıcası isə Əmir Qiyasəddin qalanın süqut edəcəyi halda Təhmasib Mirzənin taleyinə görə narahat idi. Özbək qoşunları Heratı işğal etsəydilər, onların Təhmasib Mirzənin qətl edəcəkləri şübhəsiz idi. Bu isə Əmir Qiyasəddinin xüsusi narahatçılığına səbəb olurdu. Şah İsmayıl qarşısında məruz qalacaqları məğlubiyyətin xəcalətini çəkməmək üçün Əmir Qiyasəddin məsuliyyət daşıdığı sahədə müdafiənin kəsərliliyinə nail ola bildi. Özbək qoşunlarının göstərdikləri davamlı cəhdlərə baxmayaraq, Əmir Qiyasəddin mühafizə etdiyi darvazanın qorunmasına müvəffəq oldu (107).

Əmir Qiyasəddinin uğuru isə Əmir xan Mosullunu heç də sevindirmədi. O istəyirdi ki, Əmir Qiyasəddin ona tapşırılan vəzifənin icrasının öhdəsindən gələ bilməsin və bununla onun nüfuzdan salınması üçün bir fürsət əldə edilsin. "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində bildirilir ki, Əmir xan Mosullu öz məqsədinə nail olmaq üçün fitnəyə əl atdı. Onun göstərişi əsasında Əmir Qiyasəddin adından Übeydulla xana məktub hazırlandı. Guya ki, Əmir Qiyasəddin satqınlıq etmiş və Heratın təslim edilməsi üçün Übeydulla xanla əlaqə qurmuşdu. Tərtib edilən məktubun yazısı Əmir Qiyasəddinin yazısının oxşarı idi və məktuba onun möhrünə oxşayan bir möhür də vurulmuşdu. Məktubda Əmir Qiyasəddin adından Übeyulla xana yazılmışdı ki, filan tarixdə darvazanı açacaq və onu qalaya buraxacaqdır. Übeydulla xan adından isə cavabında Əmir Qiyasəddinə təşəkkür bildirilir və ona hörmət və ehtiram ifadə olunurdu. Təşkil edilmiş bu məktub sonradan Əmir Qiyasəddinə göstərildi və o, xəyanətkarlıqda ittihamlandırılaraq həbs edildi. Gecə isə həbsxanada onu boğaraq öldürdülər (108).

Digər mənbələrdə Əmir Qiyasəddinin öldürülməsi başqa bir şəkildə təsvir edilmişdir. Özbək qoşunları Herat ətrafından geri çəkiləndən sonra Əmir Qiyasəddinin Şah İsmayılın yanına yollanmaq istəyi Əmir xan Mosulluya da bəlli oldu və bu da onun Əmir Qiyasəddinə qarşı əlavə qəzəbinə səbəb oldu. Əmir Qiyasəddinin yenidən Şah İsmayıl ilə görüşməsinə imkan verməmək üçün Əmir xan Mosullu onun həbsinə qərar verdi. Bu qərarın icrası üçün onun yaxınlarından olan Pirəhməd bəy, Qasım bəy və İshaq bəy lazımi tapşırıq aldılar. Adları çəkilən bəylər dərhal Əmir Qiyasəddinin qərar tutduğu dövlətxanaya yollandılar və onu həbs edərək zindana atdılar. Əmir Qiyasəddin həbs edildikdən sonra onun evləri, varı və mülkü bütünlüklə Əmir xan Mosullunun adamları tərəfindən talan edildi, mülklərinə od vuruldu. Əmir Qiyasəddinin qohum əqrəbasının və tanışlarının mal-mülkü də beləcə talan edildi, onun rəhbərliyi altında çalışanların əksəriyyəti isə həbsə məruz qaldı. Əmir Qiyasəddini həbsdən və ona verilən işgəncələrdən xilas etmək üçün Heratın nüfuzlu adamları Əmir xan Mosullunun yanına xahişə yollandılar. Amma Əmir xan Mosullu bu xahişi qəbul etmədi və baxmayaraq ki, Əmir Qiyasəddinə Şah İsmayılın xüsusi ehtirtamı var idi və ona qarşı haqsız hərəkətlər Şah İsmayılın sonsuz qəzəbini oyada bilərdi, bununla belə, həbsinin üçüncü günü Əmir Qiyasəddinin qətl edilməsi haqqında göstəriş verildi. Əmir xanın bu qanlı göstərişi Qasım bəy tərəfindən icra olundu (109).

Əmir Qiyasıddin qətlə yetirildikdən sonra şəhər əhli toplaşaraq onu həbsdə olduğu İxtiyarəddin qalasından şəhərə gətirdilər və böyük hörmət və izdihamla onun dəfn mərasimini təşkil etdilər. Əmir xan Mosullu isə belə bir qanlı qərara əl atsa da, sonradan anladı ki, çox böyük səhvə yol veribdir. O şübhə etmədi ki, Şah İsmayıl bu hadisədən xəbər tutunca sonsuz dərəcədə qəzəblənəcək və onun qəzəbini soyutmaq heç də asan olmayacaqdır. Əmir Qiyasəddinin qətlindən sonra yaranmış gərginliyin aradan qaldırılması üçün Əmir xan Mosullu onun sağ qalmış qohum qardaşlarını yanına çağırdı, hər

vasitə ilə onların ürəyini ələ almağa çalışdı. Əmir Qiyasəddindən qalmış bəzi kitabları Əmir xan onun qohumlarına qaytardı. Bundan sonra Əmir xan şəhər əhaisi arasında belə bir şayiə yaydırdı ki, guya Əmir Qiyasəddin Heratın təslim edilməsi üçün Məhəmməd Baburla əlaqəyə giribmiş və bu xəyanətinin qarşısında öz həyatı ilə vidalaşmalı olmuşdu. Sonra da Əmir xan Mosullu bu şayiənin şah sarayına çatıdırlması fikrinə düşdü. Bununla bağlı, o, Şahqulu adlı qorçulardan birini təlimatlandıraraq şah sarayına göndərdi. Bu şayiənin doğruluğu görüntüsü yaratmaq üçün Əmir xan Mosullu sərəncamında olan qoşun dəstəsini hərəkətə gətirərək Qəndəhar istiqamətində yola düşdü. O, Heratdan bir qədər aralanaraq Ələng Kuhdastan adlanan məntəqədə düşərgə saldı. Əmir xan Mosullu həmin məntəqədə Şahqulunun nə xəbər gətirəcəyini gözlədi. Bir müddətdən sonra Şahqulu səfərindən geri qayıtdı və Əmir Qiyasəddinin qətlinin Şah İsmayılın sonsuz qəzəbinə səbəb olması xəbərini onun nəzərinə çatdırdı. Bu xəbəri alandan sonra Əmir xan Mosullu da, onun ətrafındakılar da Xorasana hakimliyin onların əllərindən çıxacaqlarına şübhə yerləri qalmadı. Ona görə fürsətdən istifadə edərək onlar vilayət daxilində talan və soyğunçulaqları daha da genişləndirdilər. Amma şah qəzəbindən xilas olmaq üçün Əmir xan Mosullu Qəndəharı mühasirədə saxlayan Məhəmməd Baburla mübarizə aparmaq adı ilə həmin istiqamətdə yenidən hərəkət etməyə başladı və Təhmasib Mirzəni də özü ilə bu səfərə apardı (110).

"Həbib üs-siyər" əsərindəki məlumata görə, Şahqulu hələ Əmir xan Mosullu Heratı tərk etməzdən əvvəl geri dönmüş və Şah İsmayılın qəzəbini ona çatdırmışdı. Adı çəkilən mənbədəki məlumata görə, Əmir xan Mosullu qoşun dəstəsi ilə Kuhdastan və Pulimalandan keçməklə Ələnkneşin adlanan məntəqəyə gəldi və bir həftə orada dayandı. Sonradan yenidən Herata döndü. Əmir xan Mosullu geri döndüyündə Astrabad və Əsfəreynin nüfuzlu məqamlarından olan Zeynəddin sultanla Burun sultanın Təhmasib Mirəzəyə baş çəkməyə gəldiklərini gördü. Onların burada olması da Əmir xan Mosulluda əlavə təşvişə səbəb oldu. Mövcud olan vəziyyət haqqında söz-söhbətin geniş yayılmaması üçün Əmir xan onları geri yola saldı. Adları çəkilən sultanların gəlib-getməsi Əmir xanın təşvişlərini daha da artırdı və onun ətrafında formalaşan şübhələrin dağıdılması üçün Təhmasib Mirzəni də yanına alıb yenidən Qəndəhar istiqamətində hərəkətə başladı (111).

Əmir xan Mosullunun Xorasan vilayətinin idarəçiliyində yol verdiyi haqsızlıqlar, vilayətin vəziyyətinin kifayət qədər ağırlaşması, insanların yaşayışının dözülməz hala çatması, habelə Əmir Qiyasəddinin qətlə yetirilməsi barəsindəki xəbərləri alandan sonra Şah İsmayıl yaranmış vəziyyətlə bağlı ciddi qərar qəbul edilməsini məqsədəuyğun saydı. Xüsusilə, Əmir Qiyasəddinin qətlə yetirilməsi Şah İsmayılda ağır təəssürat yaratmışdı. Dövrünün böyük alimlərindən və ariflərindən biri olan Əmir Qiyasəddin haqqında Şah İsmayıl yüksək fikirdə idi və ona görə də onun qətlinə böyük təəssüf hissi keçirdi. Xorasan vilayətinin vəziyyətinin yenidən düzəldilməsi üçün Şah İsmayıl əyan və əmirlərlə də məsləhətləşdi və belə bir qərara gəlindi ki, Əmir xan Mosullu vilayətin hakimli-

yindən alınsın və Təhmasib Mirzə geri çağırılsın. Hətta Şah İsmayıla məsləhət bilindi ki, Əmir Qiyasəddinin qətlə yetirilməsi məsələsi də araşdırılsın və əgər onun qətlinin səbəbləri barəsində yayılan söhbətlər doğru çıxarsa məsələ bağlansın. Yox, əgər Əmir Qiyasəddin haqsız yerə Əmir xan tərəfindən qətlə yetirilibsə onda Əmir Xan həbs edilərək Əmir Qiyasəddinin övladlarının sərəncamına verilsin və onlar da öz qisaslarını ondan ala bilsinlər. Əyanların fikrincə, belə bir iş görülməsi gələcəkdə oxşar hadisələrin baş verməməsi üçün digərlərinə də dərs ola bilərdi. Eyni zamanda təklif olundu ki, Herat hakimliyi təcrübəli və iş bilən bir adama həvalə olunsun. Əyanların məsləhətləşməsindən sonra belə bir təcrübəli adam kimi Durmuş xan seçildi və Şah İsmayıl da bu seçimlə razılaşdı (112).

Şah İsmayıl qərara aldı ki, Təhmasib Mirzənin yerinə onun digər oğlu Sam Mirzə Xorasan vilayətinin hakimi təyin edilsin və Durmuş xan da onun lələsi olsun. Semnan sərhədindən başlayaraq Təxarestan sərhədinə qədər olan ərazilər Əbülnəsr Sam Mirzənin idarəçiliyi altına verilirdi. Bu qərarın çıxarıldığı zaman Durmuş xan Uləng Xərqan adlanan məntəqədə idi və Sam Mirzəyə lələ təyin edilməsi barəsində ona məktub göndərildi. Vilayət işlərinin yoluna qoyulması üçün Zeynal xana da Durmuş xanla birlikdə Xorasana yola düşmək tapşırıldı. Şah sarayından göndərilən məktubu alan kimi, Durmuş xan dərhal Xorasan vilayətinə yola düşməli idi. Durmuş xan bu qərara itaət etdi və dərhal da onun icrası üçün Zeynal xanla birlikdə Xorasan istiqamətində hərəkətə başladı. Amma onlar anlayırdılar ki, əgər Əmir xan Mosullu Xorasan hakimliyindən (daha doğrusu Təhmasib Mirzəyə lələlikdən) azad olunduğundan xəbər tutsa, onda o, itaətsizlik göstərə, dövlətə qarşı asilik edə bilər. Buna yol verməmək üçün Durmuş xanla Zeynal xan hələ Herata yetişməzdən əvvəl Əmir xan Mosulluya məktub yazdılar və bu məktubun məzmunu onun şübhəyə düşməsinin qarşısını almağa xidmət etməli idi. Məktubda Durmuş xanla Zeynal xan bildirdilər ki, Əmir xan Mosulluya kömək göstərilməsi üçün Xorasana gəlirlər. Bununla, Durmuş xanla Zeynal xan onu bir daha əmin etmək istəyirdilər ki, o, Xorasan hakimidir və onların gəlməsindən narahat olmaya bilər. Həmin məktub Hüseyn bəy, İshaq bəy və Şeyx Bünyad bəy vasitəsilə Herata göndərildi. Bu məktub Əmir xana Heratı tərk etməzdən əvvəl təqdim olunmuşdu. Bununla belə, Durmuş xandan və Zeynal xandan aldığı məktub da Əmir xan Mosullunun təşvişlərinə son qoymadı və məktubun alınmasından bir neçə gün sonra o, Təhmasib Mirzəni də yanına alıb Qəndəhar istiqamətində hərəkətə başladı. Əmir xan Mosullu Qəndəhar istiqamətində olan Səbzəvarda (bəzi mənbələrə görə isə Əsfəzarda) düşərgə saldı və orada gözləmək qərarına gəldi (113).

Durmuş xanla Zeynal xan Herata yetişəndə Əmir xan Mosullu artıq şəhərdə yox idi. Adları çəkilən xanlar şəhərdə yerləşərək bir müddət şəhərin və vilayətin abadlaşdırılması, idarəçiliyin öz yoluna qoyulması ilə məşğul oldular. Onlar əməli işləri ilə həm şəhər, həm də vilayət əhalisinə çatdırdılar ki, əvvəlki vəziyyətə son qoyulacaq və insanların yaşayışında dəyişikliklər baş verəcəkdir. Amma bir müddətdən sonra Durmuş xana aydın oldu ki, Əmir xan Mosullu heç

də geri dönmək fikrində deyil. Belə olanda o qərarlaşdırdı ki, Səbzəvara yollansın, Təhmasib Mirzənin ziyarətində olsun, sonra da Əmir xanı hər hansı bir təqib gözləmədiyinə inandıraraq onu qaytarsın. Herata döndükdən sonra Əmir xan Mosullu ilə bağlı istənilən qərarı artıq yerinə yetirmək çətin olmazdı. Ona görə də Durmuş xan bir dəstə atlı ilə Səbzəvara yollandı. Durmuş xanın gəlməsini eşidəndə Əmir xan Mosullu onun qarşılanması üçün mərasim təşkil etdi və onların arasında ilk baxışdan hər hansı bir şübhədən kənar bir ünsiyyət yarandı. Durmuş xan ona yaxınlıq göstərdi, söylədiklərinin doğruluğuna inandırmaq üçün onunla şərab məclislərinə də oturdu, bu məclisdə Durmuş xan tərəfindən Əmir xan Mosullunun ünvanına çoxlu təriflər söyləndi. Bu ünsiyyət və söhbətlərdən sonra Əmir xan Mosullu şübhə etmədi ki, o hələ də Xorasan hakimi olaraq qalmaqdadır və Durmuş xanın bölgəyə gəlməsindən onun üçün hər hansı bir təhlükə yoxdur. Bundan sonra o, Herata qayıtmaq qərarına gəldi. Amma onlar geri hərəkətə başlamazdan əvvəl Durmuş xan tanınmış din və dövlət xadimlərindən olan Seyfəddin Müzəffər bəyi məktubla birlikdə Məhəmməd Baburun yanına göndərdi. Durmuş xan məktubunda Qəndəharın mühasirəyə alınmasına narahatçılğını bildirməklə Əmir xan Mosullunun və Təhmasib Mirzənin rəhbərliyi altında qoşun dəstəsinin Qəndəhara tərəf irəliləməsini çatdırdı. Durmuş xan yazırdı ki, Məhəmməd Babura olan hörməti üzündən Təhmasib Mirzəni qoşunu ilə geri qayıtmağa razı sala bilmişdir. Məktubda ümid edildiyi bildirilirdi ki, bundan sonra Məhəmməd Babur da Qəndəhar ətrafından çəkiləcək və şəhərin mühasirəsinə son qoyulacaqdır. Durmuş xan və Əmir xan Mosullunun dəstəsi bir neçə gündən sonra Herata yetişdilər. Əmir xan Mosullu əvvəlki kimi yenə də öz sarayına yollandı. Onun öz sarayına yollanmasına kimsənin mane olmaması da Əmir xan Mosulluda onunla bağlı hər hansı bir planın olmamasına inandırdı (114).

Elə həmin günlərdə Durmuş xanın vəziri olan xacə Həbullahın göndərmiş olduğu Xızır bəy adlı birisi Herata yetişdi və onun məktubunu Durmuş xana çatdırdı. Həmin məktubda Əmir Qiyasəddinin qətlində Əmir xan Mosullu günahkar olduğu bildirilir və tələb olunurdu ki, Əmir xan Mosullu həbs olunaraq şah sarayına göndərilsin. Digər mənbələrdəki məlumata görə isə həmin məktubda Xorasan vilayətinin hakimliyinin Sam Mirzəyə həvalə edilməsi haqqında şah fərmanı var idi. Bu fərmana əsasən, Durmuş xan da onun lələsi olmalı idi. Həmin xəbər eyni zamanda Əmir xan Mosulluya da çatdı. Vilayət hakimi vəzifəsinə Sam Mirzənin təyin edilməsi xəbərini eşidəndən sonra Əmir xan Mosullu hər hansı bir müqavimət göstərilməsini mənasız saydı və qərara aldı ki, özü Azərbaycana, şah sarayına yollansın və yol verdiyi əməllərə görə şahın iltifatına sığınsın. Ona görə Təhmasib Mirzə ilə birlikdə Təbrizə yola düşdü (115).

Əmir xan hələ yolda ikən ağır xəstəliyə tutuldu və bir müddətdən sonra o, Təhmasib Mirzə və onları müşayiət edən əyanlar və əmirlər Təbrizə yetişdilər. Bu dəstənin Təbrizə yetişməsi 1521-ci ilin yayına təsadüf edir. Əmir xanın xəstəliyi o dərəcədə güclənmişdi ki, o, at belinə də qərar tuta bilmirdi və buna görə də onların Təbrizə doğru irəliləməsi çox ləng başa çatdı. Təhmasib Mir-

zənin Təbrizə dönməsi Şah İsmayılın sonsuz sevincinə səbəb oldu. Qərara alındı ki, Təhmasib Mirzə Təbriz yaxınlığındakı yaylaqlardan birində yerləşsin. Bir neçə gün sonra Şah İsmayıl da onun görüşünə yollandı və Təhmasib Mirzənin dönüşü münasibətilə bir neçə gün şadyanalıq məclisləri quruldu. Əmir xan Mosullu ilə bağlı isə Təbrizdə təhqiqat işlərinə başlandı. Bu təhqiqat işlərinə Herata göndərilmiş nümayəndələr cəlb edildilər. Şah İsmayıl Yeni Ucandakı düşərgəsində bu təhqiqatlarınn gedişi ilə yaxından maraqlandı. Əmir xan Mosullunun xəstəliyi isə o dərəcədə şiddətlənmişdi ki, onu sorğu-suala cəlb etmək mümkün deyildi. Əvəzində onun xidmətində olan və onun buyruqlarını yerinə yetirən adamlar, o cümlədən Pirəhməd bəy, Hidayət bəy, Xacə Əlican və digərləri təhqiqatlara cəlb edildilər. Əmir xan Mosullu və onun ətrafındakılar Əmir Qiyasəddinin öldürülməsində, Heratda talanlara yol verilməsində günahkar bilindilər. Təhqiqata cəlb edilmiş adamlar həbs edildilər və Şah İsmayıl hökm çıxardı ki, insanlardan talanmış olan əmlak geri qaytarılsın. Əmir xan Mosulunu isə həbs etmək mümkün olmadı. Çünki o, xəstəliyinin şiddətindən dünyasını dəyişməli oldu (116).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində olan məlumatlara görə isə, Durmuş xan və Zeynal xan şahzadə Təhmasib xanla birlikdə Qəndəhar yürüşündən Herata dönən kimi, Şah İsmayıldan alınan fərmanla tanış oldular və bu fərmanı Əmir xana da bəyan etdilər. Durmuş xan şah fərmanını bəyan edəndən dərhal sonra Əmir xanı həbs etdi və onu Zeynal xana tapşırdı. Zeynal xan da Əmir xanı nəzarət altına alaraq Təhmasib Mirzənin dəstəsi ilə birlikdə Təbriz istiqamətində hərəkətə başladı. Təhmasib Mirzəni müşayiət edən dəstə Savucbulaqda Şah İsmayıl ilə qarşılaşdı. Burada Şah İsmayıla həbsə alınmış Əmir xanın gətirilməsi barəsində də məlumat verildi. Şah İsmayıl isə onunla görüşmək istəmədiyini bildirdi və bəyan etdi ki, Əmir Qiyasəddinin qisasını almaq üçün onu qətl etdirəcəkdir. Onun göstərişi əsasında Əmir xanı Qəzvinə aparıb orada həbsxanaya saldılar. Bir müddətdən sonra Şah İsmayıl Savucbulqadan geri qayıdıb Qəzvində düşərgə saldı və üç ay orada qaldı. Həmin müddət ərzində Əmir xan Mosullu fürsət tapıb onunla görüşə bildi və Əmir Qiyasəddinin qətlində günahkar olmadığını bildirdi. Bəhanə kimi də Əmir Qiyasəddinlə Übeydulla xan arasında gizli əlaqə olunduğu ortaya atıldı. Əmir xan hətta quraşdırılmış məktubu da Şah İsmayıla göstərdi. Şah İsmayılda ona qarşı bir rəhm yarandı. Saray əmirləri və əyanları Şah İsmayılın razılığı ilə Əmir Qiyasəddin adından yazılmış məktubun doğruluğunun araşdırılmasına başladılar. Bu araşdırmaların gedişində Əmir xanın xəstəliyinin gücləndiyi bildirilirdi. Onun xəstəliyi o dərəcədə güclənmişdi ki, ağrıdan sorğu-suala da cavab verə bilmədi və çox çəkmədi ki dünyasını dəyişdi (117).

1521-ci ilin sonuna doğru Şah İsmayıl Təbrizə döndü və qışı orada keçirdi.

Şah İsmayılın həyatının sonuncu iki ili haqqında mənbələrdə elə də geniş məlumat yoxdur. Bu da onunla bağlıdır ki, həmin dövrdə səltənətin hərbi-siyasi həyatında elə bir ciddi dəyişiklik baş verməmişdi. Çünki mənbələrdə də əsasən

hərbi-siyasi hadisələr daha geniş işıqlandırılmışdır. Əslində, Şah İsmayılın həyatının sonlarına yaxın istər məmləkətin daxilində, istərsə də onun sərhədləri boyu ciddi proseslər baş vermədi. Başqa sözlə, Şah İsmayıl istər səltənət daxilində, istərsə də səltənətin sərhədləri boyunca müəyyən hərbi-siyasi sabitliyə nail olmuşdu. Daha çox həyəcan və narahatçılıq doğura biləcək şərq və qərb sərhədləri sabitliyi ilə seçilirdi. Şah İsmayılın həyatının sonlarına yaxın özbək xanları Xorasan vilayəti üzərinə hücum etməyə cəhd göstərdilər. Amma özbək xanları özləri Səfəvi dövləti qarşısındakı gücsüzlüklərini hiss edərək çəkilib getməli oldular. Osmanlı dövləti ilə münasibətlər də hələlik sabit olaraq qalmaqda idi. Sultan Süleymanın diqqəti daha çox Avropa istiqamətinə yönəldiyindən Səfəvi dövlətinə qarşı fəal hərbi hazırlıqlar özünü göstərmirdi.

Şah İsmayıl həyatının son dövrü ilə bağlı olan mənbələrdə öz əksini tapmış hadisələrdən biri vəkil üs-səltənə və etimad üd-dövlə Mirzəşah Hüseyni İsfahaninin qətli ilə bağlıdır. Yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıl ona həm böyük hörmət göstərirdi, həm də böyük etibarı var idi. Mirzəşah Hüseyni böyük təcrübəyə malik bir əyan idi və ona Şah İsmayıl tərəfindən böyük etimad göstərilməsi bir çox saray əyanları tərəfindən qısqanclıqla qarşılanırdı. Mirzəşah Hüseyni isə dövlət xidmətində göstərdiyi qətiyyətliliyin qurbanı oldu. Şah xəzinəsinə borclu olan insanlardan borcun geri qaytarılması tələbini irəli sürəndə o, şahın Şahqulu adlı mehtəri tərəfindən qətlə yetirildi. Bu hadisə 1523-cü ildə baş vermişdi. Şah İsmayıl dövlətdə ikinci adam sayılan səltənət vəkilinin qətlə yetirilməsini böyük təəssüflə qarşıladı. Mirzəşah Hüseyniyə olan ehtiramının əlaməti kimi Şah İsmayıl onun nəşini dəfn üçün Kərbalaya göndərdi. Şah İsmayıl eyni zamanda mehtər Şahqulunun tutulması üçün göstəriş verdi. Məlum olanda ki, Şahqulu Diyarbəkrə tərəf qaçıb. Şah İsmayılın göstərişi ilə onun arxasında atlı dəstə göndərildi. Şahqulu tutulacağını hiss edəndə üzünü Şirvana tərəf çevirdi. Belə qərara gəldi ki, Şirvanşaha pənah aparsın və ona sığınsın. Amma Şirvanşah onu qəbul etsə də, ona sığınacaq vermədi, onu Şah İsmayıla təhvil verdi. Şah İsmayılın əmrinə əsasən, Şahquludan qisas alınması üçün onu Mirzəşah Hüseyninin ailə üzvlərinə təhvil verdilər. Onlar da onu tikə-tikə etdilər və həyatına son qoydular (118).

Başqa bir mənbədə isə deyilir ki, Səfəvi sarayının türk (qızılbaş) əyanları Mirzəşah Hüseyninin saray daxili nüfuzundan çox narazı idilər. Mirzəşah Hüseyni fars idi. O, İsfahanda doğulmuşdu və böyük idarəçilik və dövlətçilik təcrübəsinə görə Şah İsmayıl tərəfindən vəkil üs-səltənə vəzifəsinə təyin edilmişdi. Mənbədəki məlumatdan belə bir qənaət hasil olur ki, sarayın türk əyanları ilə onun arasında hansısa bir gərginlik mövcud idi və hətta onun öldürülməsi üçün münasib məqam gözlənilirdi. Bildirilir ki, Mirzəşahın öldürüldüyü gün Şah İsmayıl istirahət məclisi təşkil etmişdi. Qonaqları ilə birlikdə musiqiyə qulaq asır, oynayanlara tamaşa edir və yeyib-içməklə məşğul olurdu. Həmin gün Mirzəşah da Təbrizdəki Həşt bihişt (Səkkiz cənnət) sarayında özü üçün bir istirahət məclisi təşkil edibmiş. Həmin anlarda Şahqulu gələrək Mirzəşahın Şah İsmayıl tərəfindən çağırıldığını ona çatdırdı. İçdiyi meydən sərxoş vəziyyətdə

olan Mirzəşah Şahqulunu gətirdiyi xəbərə qulaq asmadı. Əksinə, xidmətçilərinə göstəriş verdi ki, Şahquluya bir neçə yumruq vursunlar. Şahqulu geri qayıdaraq vəziyyəti Şah İsmayıla ərz elədi. Şah İsmayıl özü də xoş əhval-ruhiyyədə idi və Şahqulunun ərzini eşidəndən sonra ona dedi ki, bəyəm sənin əlim yox idi ki, onun cavabını verəsən? Əslində, Şah İsmayıl bu sözləri zarafatyana tərzdə ifadə etmişdi. Amma həm Şahquluya, həm də şahın yanında olan qorçulara və əyanlara elə gəldi ki, Şah İsmayıl bununla Mirzəşahın hökmünü verdi. Mənbədəki məlumata görə, Şah İsmayılın bu sözü guya sarayın türk əyanlarına bir bəhanə verdi və onlar öz qılınclarını çəkərək Mirzəşahın üstünə hücum etdilər. Mənbədə o da bildirilir ki, Təhmasib Mirzə bu hadisənin şahidi olmuşdu və o da Mirzəşahın qətlə yetirildiyi məclisdə olubmuş. Sonradan Təhmasib Mirzə danışırmış ki, həmin gün o, Mirzəşahın yanında oturubmuş. Türk əyanları əllərində qılınc Mirzəşahın üstünə hücum çəkəndə aləm bir-birinə qarışdı və Əsəd bəy Qəzvini onu qucağına alaraq məclisdən çıxartdı. Mirzəşah qılıncla parça-parça edildi və bu hadisədən sonra Şahqulu məsuliyyətdən yaxa qurtarmaq üçün Naxçıvana tərəf qaçdı. Şah İsmayıl bu hadisə haqqında məlumatı eşidəndə Mirzəşahın qətlindən çox kədərləndi və göstəriş verdi ki, Şahqulu tapılsın. Saray qorçuları axtardıqdan sonra onu Şirvanda tapıb Təbrizə gətirdilər və burada onu qətlə yetirdilər (119).

Mirzəşah Hüseyninin dünyasını dəyişməsindən sonra onun yerinə kimin təyin edilməsi üzərində Şah İsmayıl ciddi fikirləşməli oldu və sonradan belə qərara gəldi ki, dövlət idarəçiliyinin gücləndirilməsi üçün bu vəzifənin öhdəsindən yalnız Xacə Cəlaləddin Məhəmməd Təbrizi gələ bilər. Ona görə də Şah İsmayıl ona qiymətli hədiyyələr verməklə səltənət vəkili vəzifəsinə təyin etdi. Bununla, bir növ sarayın türk əyanları da öz arzularına çatdılar. Xacə Cəlaləddin Məhəmməd də fədakarlıqla bu vəzifənin icrasına başladı. O, səltənət vəkili vəzifəsinə təyin edildikdən sonra Şah İsmayıl tərəfindən elçilik məqsədilə Şirvanşahın yanına göndərildi. Şirvanşah razılıq vermişdi ki, qızlarından birini Şah İsmayılın nikahına verəcəkdir. Şirvanşah II İbrahim də sözünün üstündə dayandı və onun qızının nikah edilməsi mərasimi Şirvanda başladı və sonra da Təbrizdə davam etdirildi. Şirvanşahın qızı 1523-cü ilin noyabrında böyük təntənə ilə Təbrizə gətirildi (120).

1523-cü ilin sonlarında qışı keçirmək üçün Şah İsmayıl Naxçıvana yollandı. 1524-cü ilin yazında isə Şah İsmayıl Təbrizi tərk edib Şirvana doğru üz tutdu. Bu səfərin məqsədinin nə olması haqqında mənbələrdə aydın bir məlumat yoxdur. Bəzi məlumatlar onun bu səfərinin ov mərasimi ilə bağlı olduğunu bildirirlər. Kür çayı sahillərinə yetişəndə Şah İsmayıl məlumat aldı ki, Şirvanşah II İbrahim dünyasını dəyişmişdir. Şah İsmayıl Şeyx şahın oğlu Sultan Xəlili (Xəlilullah) Şirvan hakimi təyin etdi. Sonradan o, Şəkiyə doğru hərəkət etmək istədi. Şəki hakimi Həsən bəylə Səfəvi sarayı arasında əlaqələr artıq 1519-cu ildən etibarən daha da möhkəmlənmişdi. Həmin il Şirvan, Rəşt və Mazandaran hakimləri ilə birlikdə Şəki hakimi Həsən bəy də Təbrizə gələrək Şah İsmayılın görüşündə olmuş və ona öz itaətini bildirmişdi. Həmin vaxtdan sonra Şah İs-

mayıl ilə Şəki hakimi arasında hər hansı bir gərginliyin olması haqqında mənbələrdə məlumat yoxdur. Həyatının sonuna yaxın Şah İsmayılın Şəkiyə səfəri isə daha çox səyahət və həmin bölgədəki ov mərasiminə qatılmaq məqsədi olmuşdu. Şah İsmayılın qarşılanması üçün Şəki hakimi Həsən bəy və Şəkinin nüfuzlu adamları tərəfindən böyük bir mərasim təşkil edilmişdi. Bəzi məlumatlara görə, Şirvanşah da Şah İsmayılı Şəkidə qarşılayanlar arasında olmuşdu. Həmin dövrdə Şəki ərazisində çoxlu sayda vəhşi atlar var imiş. Burada təşkil edilən ov da əsasən bu atların ovlanması ilə bağlı idi. Bunun üçün vəhşi atlar hər tərəfdən təyin edilmiş məntəqəyə qovulmuş və orada da ov həyata keçirilmişdi. Başqa bir məlumata görə, Şah İsmayıl Şəkidən uzaqlaşan kimi Kaxetiya hakimi Levand Şəki üzərinə hücum etdi və Şəki hakimi Həsən bəyi qətlə yetirdi. Şah İsmayıl bu xəbəri eşidəndən sonra qərara almışdı ki, gürcü hakimini ciddi şəkildə cəzalandırsın. Lakin həyatının tezliklə sona çatması bu qərarın həyata keçməsinə imkan vermədi (121).

## 8.İstifadə olunmuş mənbə və ədəbiyyat


1.Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.192
2. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 292
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 364
3. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 363
4. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. s. 550-551
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 293
5.Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. s. 552
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.245
6. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.244-245
7. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 531
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.551
8. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 532
9. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.551
10. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 533
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.552
11. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 534
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.552
12. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.553
13. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 528
14. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.548
15. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 529
16. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.549
17. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 530
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.550
18. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 536

Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.554
19. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 536
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.555
20. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 537
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.556
21. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.557
22.Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 538
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.557
23. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 582
24. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 551
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 296
25. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 246
26. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s.110
27. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 296-297
28. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.204
29. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.375
30. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. s. 118
Şah İsmayıl Səfəvi (Əsnad və məkatebat-e tarixi həmrah ba yaddaştha-ye təfsili) be ehtemam-e doktor Əbdülhüseyn Nəvayi. Tehran, 1347, s.260
31. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 539
32. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 120
Şah İsmayıl Səfəvi (Əsnad və məkatebat-e tarixi həmrah ba yaddaştha-ye təfsili) be ehtemam-e doktor Əbdülhüseyn Nəvayi. Tehran, 1347, s.267-268
33. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.256
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 540
34. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.256-261
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 540-544
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.382-383
Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s.204-206
35. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 132-134
36. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 544
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.564
37.Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 544
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.564-570
38. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 127
39. Yenə orad, s. 154
40. Yenə orada, s. 142
41. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 143
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 270

42. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 146
43. Yenə orada, s.147-148
44. Yenə orada, s. 149
45. Yenə orada, s.150-151
46. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s. 407
47. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 390
48. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 299-300
Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.556
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 111
49. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 262
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 581
50. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 263
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 581
51. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 582
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.605
52. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 583-587
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.606-608
53. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.557
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.268
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 301
Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 541
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.579
54. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.556
55. Yenə orada, s. 556-557
56. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 394
57. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.560
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.269
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 304
58.Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.560-561
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.270
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 304-305
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 576
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.394
59. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 306
Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.561
Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.395
60. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 576
61. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.270
62. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s. 563
63. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 399
64. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 309
Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.563

Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s.399
65. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 577
66. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 311
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 275
67. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 312
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 275
68. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 312
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 276
69. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 314
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 276
70. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 553
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.573
71. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 554-555
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.574-575
72. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 556
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.576
73. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 557-558
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.578
74. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 559-560
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.580
75. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 560
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.580
76. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 561
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.582
77.Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 563
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.584
78. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 565-566
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.586
79. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 567-569
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.590-591
80. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 569-570
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.591-593
81. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 575-576
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.597-598
82. Şükürov G. Safevi devletinin kuruluşu ve I. Şah İsmail devri (907-930/1501-1524). Yüksək lisans tezi. İstanbul, 2006, s.185
83. Yenə orada, s. 186
84. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 277
Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Elektron variant. Ankara, 2015, s. 483
85. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 402
86. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 402

Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Elektron variant. Ankara, 2015, s. 483-484
87. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 402
88. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 155
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.562
89. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 157
90. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 562
91. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 164-166
92. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 278
93. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 578-579
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.599-600
94. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.600
95. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 580-581
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.602-603
96. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 280-281
Şükürov G. Safevi devletinin kuruluşu ve I. Şah İsmail devri (907-930/1501-1524). Yüksək lisans tezi. İstanbul, 2006, s.178
97. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 283
98. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.284
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 322, 329
99. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.576
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.285
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 330
100. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.578
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.287
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 332
101. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.287-288
102. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.578
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.287
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 332
103. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 288
104. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.580
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 336
105. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.580-581
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 336-337
106. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 589
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.612
107. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 590
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.613
108. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 591
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.614
109. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 288

110. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 290-291
111. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.585
112. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.585
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 343
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 291
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.615
113.Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.586
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 343
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 292
114. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.587
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 344
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 292-293
115. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.587
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 345
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 293
116.Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.594
Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 351-352
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 294
117. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 593-594
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.616-617
118. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 356
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 298
119. Xurşah ibn Qubad Əlhüseyni. Tarix-e elçi nizam şah. Tehran, 1379, s.77
120. Xandəmir. Tarix-e həbib-üs siyər. Tehran, c. IV, 1380, s.599-600
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 119
121. Şükürov G. Safevi devletinin kuruluşu ve I. Şah İsmail devri (907-930/1501-1524). Yüksək lisans tezi. İstanbul, 2006, s.185, 188

# VI FƏSİL

# ŞAH İSMAYILIN DÖVLƏTÇİLİK TƏCRÜBƏSİ

## 1. Dövlət idarəçiliyi

### a) Səfəvi dövlətinin mənşəyi

1501-ci ildə Ağqoyunlu qoşunları üzərində əldə etdiyi böyük qələbədən sonra Şah İsmayıl Təbrizə daxil olaraq yeni bir dövlətin əsasını qoydu. Bu şəhərə daxil olmaqla Şah İsmayıl Ağqoyunlu dövlətinə sahib çıxdı və Azərbaycan xalqının dövlətçilik ənənələrini yeni bir səviyyəyə qaldırdı. Amma Səfəvi dövlətinin təşkilinin Təbriz şəhərində elan olunması heç də həmin şəhərin yalnız Ağqoyunlu dövlətinin paytaxtı olması ilə və əvvəlki dövlətin idarəçilik orqanlarının ələ keçirilməsi ilə bağlı deyildi. Bu dövrdə Təbrizin Azərbaycan türklərinin ictimai, siyasi, iqtisadi, mənəvi və etnik həyatında mühüm rolu olmaqla Azərbaycanın mərkəzi şəhəri idi. Azərbaycanın vahid bir dövlətçilik ətrafında birləşdirilməsi üçün bu şəhərin böyük əhəmiyyəti var idi və ona görə Şah İsmayıl bu şəhərdə özünün şahlığını elan etməklə, həm də bu şəhəri yeni dövlətin paytaxtına çevirdi. Şah İsmayıl tərəfindən əsası qoyulan yeni dövlət mənbələrdə Qızılbaş və ya Səfəvi dövləti kimi xatırlanmışdır. Bəzi tədqiqatçılar Şah İsmayılın hakimiyyəti illərində bu dövlətin tərkibinə Azərbaycanın Kür çayına qədər olan ərazilərin, Kürdüstanın, Anadolunun bir hissəsinin, ərəb İraqının, İranın (Xorasanla birlikdə) və Əfqanıstanın bir hissəsinin daxil olduğunu bildirirlər (1).

Elmi-tarixi ədəbiyyatda Şah İsmayılın əsasını qoyduğu dövlətin İran dövləti kimi adlandırılmasına da rast gəlmək mümkünür. Mənbələrdə də İran adına rast gəlmək mümkündür. Amma Səfəvi tarixinə aid olan mənbələrin əksəriyyətində "İran" sözü daha çox coğrafi anlamda işlədilmişdir. Məsələn, "Xolde bərin" əsərində "İran məmləkətləri" (2) ifadəsinə rast gəlmək mümkündür. "Aləmara-yi Şah İsmayıl" əsərində "İran" anlayışı dəfələrlə mülk, vilayət, vilayətlər mənasında işlədilmişdir(3). Bu əsərdə "İran zəmin" (İran məkanı) ifadəsinə də rast gəlmək mümkündür (4).

Şah İsmayılın sonradan İran şahənşahı ləqəbinin öz üzərinə götürməsi də heç şübhəsiz ki, Səfəvi dövlətinin ərazilərinin böyük hissəsini İran məkanında olan ərazilərin təşkil etməsindən irəli gələ bilərdi. Əslində, Səfəvi dövlətinin tərkibinə yalnız İran daxil deyildi. Eyni zamanda bu dövlətin tərkibinə İran məkanından kənarda olan və əhalisi də iranlılardan ibarət olmayan ərazilər də daxil idi. Şah İsmayılın dövründə Səfəvi səltənətinin mərkəzi Təbriz şəhəri idi. Təbriz adi bir paytaxt şəhəri deyildi. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki,

Təbriz və bütünlükdə Azərbaycanın bu bölgəsi Səfəvi dövləti ilə bağlı cərəyan edən bütün ictimai, siyasi, iqtisadi və mədəni proseslərin mərkəzində dayanırdı (5).

Amma Səfəvi dövləti yalnız Azərbaycanla hüdudlanmadı və çox qısa zamandan sonra bu dövlət çox böyük əraziləri və çoxlu sayda xalqları özündə birləşdirdi. Qeyd edilməlidir ki, tarixin müxtəlif dövrlərində bu xalqların Səfəvi dövlətinin ictimai-siyasi, hərbi həyatında iştirakı və fəallıqları da müxtəlif olmuşdur. Bu isə öz növbəsində Səfəvi tarixşünaslığında bu dövlətin mənşəyi ilə bağlı fikir müxtəlifliyinin ortaya çıxmasına zəmin yaratmışdır.

Səfəvi dövləti çox xalqlı bir dövlət idi və Səfəvi dövlətinin təxminən iki əsr yarımlıq tarixində bu xalqların özünəməxsus yerini qeyd etməmək doğru olmazdı. Bundan başqa məlumdur ki, öz tarixində Səfəvi dövləti siyasi transformasiyaya da uğramış və onun siyasi həyatında fars amili xeyli güclənmişdi. Bununla belə, onu da nəzərə almamaq mümkün deyil ki, Şah İsmayıl tərəfindən Azərbaycan ərazisində Səfəvi dövlətinin əsası qoyulanda onun aparıcı qüvvəsi kimi məhz Azərbaycan türkləri çıxış edirdilər. Səfəvi dövləti Azərbaycan ərazisində formalaşdıqdan və təşkilatlandıqdan sonra qonşu əraziləri özünə birləşdirməyə başladı. Səfəvi dövləti təsis ediləndə bugünkü İranın mərkəzi və cənub hissəsində başqa bir dövlət (Ağqoyunlu dövlətinin Sultan Muradın hakimiyyəti altında olan cənub hissəsi) mövcud idi. Şah İsmayıl da Səfəvi dövlətinin rəhbəri kimi, bu dövləti süquta uğradaraq onun ərazilərini öz dövlətinin tərkibinə daxil etdi.

Nəinki Şah İsmayıl tərəfindən əsası qoyulmuş Səfəvi dövlətini, heç Səfəvi dövlətinin ideya-təşkilati bazası olan Səfəvi təriqətini də Azərbaycan ərazisindən, Azərbaycan həyatından qoparmaq mümkün deyil. Birinci fəsildə danışıldığı kimi, Şeyx Səfinin Gilanda qalmaq və öz ustadının məktəbinə rəhbərlik etmək imkanı olsa da, o, yenidən Azərbaycan həyatına döndü, burada öz təriqətinin əsasını qoydu, Azərbaycan mühitində kəramət sahibi oldu. Şeyx Səfidən Şah İsmayıla kimi iki əsr yarımlıq bir fasilə vardır. Həmin müddət ərzində Səfəvi təriqətinin canlı saxlanması da məhz Azərbaycan mühiti ilə bağlıdır. Sözsüz ki, Azərbaycan türkləri öz vətənlərində təcrid olunmuş halda yaşamırdılar. Bununla belə, Azərbaycan daxilində dini, ictimai və siyasi həyatın formalaşmasında Azərbaycan türkləri aparıcı rola malik idilər.

Şeyx Səfinin Gilanda böyük nüfuz sahibi olmasına baxmayaraq, Ərdəbilə dönməsi və təriqətin əsasını burada qoymasını da yəqin ki, təsadüfi saymaq olmaz. Çox güman ki, bu, yalnız Şeyx Səfinin doğma mühitdə olması istəyi ilə yox, həm də Azərbaycan türkləri arasında təşkilatlanma təcrübəsinin daha güclü olması ilə bağlı idi.

Şah Abbasın dövründən başlayaraq Səfəvi dövlətinin siyasi transformasiyaya uğraması faktı tarixdə inkar edilmədiyi kimi, bu dövlətin Şah İsmayılın dövrünün Azərbaycan həyatından qoparılması da obyektiv sayılmamalıdır. Baxmayaraq ki, bu istiqamətdə də müəyyən cəhdlər göstərilir. Amma bu zaman ortaya qoyulan faktlar elmi və tarixi köklərə bağlanmayaraq daha çox siyasi və fərdi niyyətlərdən qaynaqlanır.

Səfəvi dövlətinin Azərbaycan mənşəyinin şübhə altına alınması üçün bir neçə versiya ortaya qoyulub və həmin versiyaların təkrar-təkrar qabardılmasına elmi-tarixi ədəbiyyatda rast gəlmək mümkündür. Bunlardan biri Səfəvi xanədanının əcdadlarının və nümayəndəlrinin etnik Azərbaycan türkü olmasının inkar edilməsidir. Səfəvi xanədanının malik olduğu kəramətin köklərinin əsaslandırılması üçün daha çox Şeyx Səfinin həyatından bəhs edən «Səfvətüs-səfa» əsərinə müraciət edilir . Məlumdur ki, bu əsər Şeyx Səfinin oğlu Şeyx Sədrəddinin sifarişi əsasında İbn Bəzzaz adlanan dərviş Təvəkkülü tərəfindən yazılmışdır. Yuxarıda qeyd edildiyi kimi, İbn Bəzzaz öz əsərində Şeyx Səfinin nəsil şəcərəsini belə vermişdir: "Şeyx Səfidəddin ibn (oğlu) Şeyx Əminəddin Cəbrayıl ibn Qütbəddin ibn Səlahəddin ibn Məhəmməd əl-Hafiz ibn Əvəz ibn Firuzşah Zərrin Kolah ibn Məhəmməd ibn Şərəfşah ibn Məhəmməd ibn Həsən ibn Seyid Məhəmməd ibn İbrahim ibn Seyid Cəfər ibn Seyid Məhəmməd ibn Seyid İsmayıl ibn Seyid Məhəmməd ibn Seyid Əhməd Ərabi ibn Seyid Qasım ibn Seyid Əbülqasım Həmzə ibn Musa əl-Kazım ibn Cəfər əs-Sadiq ibn Məhəmməd Bağır ibn Zeynalabdin ibn Hüseyn ibn Əli ibn Əbi Talib" (6).

Bu məlumat digər mənbələrdə də təkrarlanır və şübhə yoxdur ki, sonrakı dövrə aid olan mənbələr bu məlumatı «Səfvətüs-səfa» əsərindən götürmüşlər. Göründüyü kimi, İbn Bəzzazdan başlayaraq bir sıra mənbə müəllifləri Şeyx Səfinin kökünü imamlara bağlamışlar ki, onlar da ərəb ailələrinə mənsubdurlar. Məntiqi olaraq belə bir qənaət ortaya qoyulur ki, əgər Şeyx Səfinin kökü ərəblərə gedib çıxırsa, deməli onda Şah İsmayıl da qeyri-azərbaycanlıdır və ona görə də onun əsasını qoyduğu dövlət də Azərbaycan dövləti sayılmamalıdır.

Səfəvi xanədanının etnik mənsubiyyətinin ərəblərə bağlanmasının doğru olmaması haqqında artıq kifayət qədər araşdırmalar aparılmışdır. Bu araşdırmalar içərisində Əhməd Kəsrəvi Təbrizinin "Şeyx Səfi və nəsli" adlı araşdırması xüsusi ilə diqqətə layiqdir. Doğrudur, bu araşdırmada məqsəd Şeyx Səfinin etnik mənsubiyyətinin deyil, onun seyid olub-olmamasının (yəni nəsil şəcərəsinin imamlara və daha sonra da Məhəmməd peyğəmbərə bağlı olub-olmamasının) araşdırılmasıdır. Amma müəllifin əldə etdiyi bəzi qənaətlər Şeyx Səfinin etnik mənsubiyyətini də aydınlaşdırmağa əsas verir.

Əhməd Kəsrəvi qətiyyətli şəkildə bəyan edir ki, Şeyx Səfi öz zamanında seyid kimi tanınmamışdı. Onun seyidləşdirilməsi (yəni nəsil şəcərəsinin imamlara bağlanması) oğlu Şeyx Sədrəddinin dövründə baş vermişdir. İddia olunur ki, Şeyx Səfinin bioqrafiyasını yazdırarkən Şeyx Sədrəddin «Səfvətüs-səfa» əsərində onun seyidlərə bağlanmasına nail olmuşdu. Müəllifə görə, hətta Şeyx Heydərə qədər Səfəvi xanədanından heç kəs seyid olmaq niyyətində olmamışdı və ona görə də onların adlarının qarşısına seyid ləqəbi və ya seyidliyin ifadəsi olan digər ləqəblər artırılmamışdı. Bundan başqa Əhməd Kəsrəvi «Səfvətüs-səfa» əsərindən bir neçə nümunəyə istinad edərək onların əsasında Səfəvi xanədanının seyidliyə bağlanmasının doğru olmadığını göstərmişdir (7).

Əgər doğrudan da Şeyx Sədrəddin onun nəsil şəcərəsinin seyidliyə bağlanmasını «Səfvətüs-səfa» əsərinə saldırmışdısa yəqin ki, buna adi bir insani

istəyin həyata keçirilməsi kimi yanaşmaq da doğru olmazdı. İstər «Səfvətüs-səfa» əsəri, istərsə də Səfəvi tarixi ilə bağlı olan əsərlər həm Şeyx Səfinin, həm də Şeyx Sədrəddinin böyük kəramət sahibləri olduğunu bəyan edirlər. Hətta avropalı müəlliflər də Şeyx Səfinin böyük kəramət sahibi olmasını və insanlar arasında həm kəramət sahibi kimi, həm də ədalətli, fəzilətli, haqsevər bir insan olmasını böyük səxavətlə qeyd edirlər. Məsələn, Mişel Mezavi adlı bir müəllif onun haqqında öz əsərində belə yazırdı: "Böyük və kiçikliyindən asılı olmayaraq hər bir şəhərdə bir nəfər sufi müqəddəsi var idi və onun möcüzələri və kəraməti göz qabağında idi. Bu, adi insanlar üçün təəccüb doğurucu bir hal idi. Bu müqəddəs insanlar adi insanların real islam və məzhəb çətinliklərini və məsələlərini aradan qaldırır, görüşlər, toplantılar, birgə namazlar, milli ahənglər və hətta toplu həyacanlarla insanların və kütlələrin ürəyini böyük şövqlə xudavəndə bağlayırdılar" (8).

Şeyx Səfi yalnız dövrünün deyil, bütünlükdə islam tarixinin böyük fəzilət və kəramət sahibi idi. Məhz onun fəziləti və kəraməti Yaxın Şərqin az qala bütün ölkələrini bürümüş böyük bir təriqətin yaranmasına yol açmışdı. Ola bilsin ki, həm də bu kəramətin köklərinin araşdırılması Şeyx Sədrəddində belə bir qənaət yaratmış və bu qənaət onun mühiti tərəfindən də qəbul edilmişdir.

Bəzən elmi-tarixi ədəbiyyatda belə bir fikrə rast gəlmək mümkündür ki, Şeyx Səfinin seyidliyə bağlanması ideoloji və siyasi məqsədlərdən doğmuşdur (9). Doğrudur, tarixin müəyyən dövrlərində bu məsələdən ideoloji və siyasi məqsədlər üçün istifadə edilməsi mümkündür. Amma istər Şeyx Səfinin, istərsə də Şeyx (Xacə) Sədrəddinin sağlığında onların rəhbərlik etdiyi təriqət daxilində islam və şəriət dəyərləri və onların əsas tutulması son dərəcə güclü idi. Ona görə də, Şeyx Səfinin seyidliyə bağlanması çox güman ki, Səfəvi təriqət rəhbərinin kəramətinin köklərinin axtarılması istəyindən irəli gəlirdi.

Ə.Kəsrəvi öz tədqiqatında aşağıdakı nəticələrə gəlmişdir: 1) Şeyx Səfi seyid olmamışdır və bu nəslin seyidləşməsi sonrakı dövrlərdə baş vermişdir. 2)Şeyx Səfi sünni olmuş, onun nəslinin davamçısı sünnilərə qarşı olmuşdur. 3) Şeyx Səfi farsdilli olmuş və onun davamçıları Azəri dilini qəbul etmişdilər (10).

Bu qənaətlərdən sonuncusu da elmi-tarixi mübahisə obyektidir və mövzuya müəyyən aidiyyatı olduğu üçün onun haqqında da aşağıda fikir bildiriləcəkdir.

Səfəvi xanədanının və eləcə də Səfəvi dövlətinin Azərbaycan mənşəyindən qoparılması üçün ortaya atılan fikirlərdən biri də bu xanədanın kürd əsilli olmasının iddia edilməsidir. Bir sıra tədqiqatçılar belə bir fikir ortaya atırlar ki, Şeyx Səfinin yazılı mənbələrdə haqqında məlumat verilən ilk əcdadı - Firuzşah əslən kürd kökənlidir. Əslində, bu məsələ ətrafında artıq kifayət qədər araşdırmalar aparılıb və Firuzşahın kürd olmaması haqqında ciddi arqumentlər ortaya qoyulubdur (11).

Belə bir iddianın qondarma olması elə Səfəvi xanədanının tarixinin ötəri şəkildə öyrənilməsi də təsdiq edə bilər. Amma vaxtaşırı bu məsələnin qabardılmasına da müxtəlif müəlliflər tərəfindən müəyyən cəhdlər göstərilməkdədir. Belə

müəlliflər üçün istinad edilən əsas arqument guya «Səfvətüs-səfa» əsərində Firuzşahın kürd əsilli olmasının təsdiq edilməsidir. Doğrudan da, "Səffətül səfə" əsərinin fars dilində olan nüsxəsinin birinci fəslinin "Şeyx Qüddüs Sərruhun nəsəbinin zikri haqqında" paraqrafında Firuzşahdan söhbət açılanda kürd məsələsi ortala atılmışdır. İstinad olunan nüsxədə bu məsələ aşağıdakı kimi verilmişdir: "Hekayət. Piruzun nəsəbinin kürdə bağlanmasına gəlincə, bu məsələ belə olmuşdur ki, Tərizə ərbabı İbrahim Ədhəm rəhmətulla övladlarından olan padşah kürd qoşunu ilə Səncar tərəfdən hərəkət edib bütün Azərbaycanı tutdular, Muğan əyalətinin bütün sakinləri moğlar idilər, Aranın, Əlivanın və Darbumun əhalisinin hamısı kafir idilər bu ərazilər əsgərəssalamın istilası altına düşdü. Həmin ərazidə islam dini təlim etdilər və (hamısını) müsəlmanlığı gətirdilər.

Nəzm:
Din və rayət bayrağı peyda oldu
Aləm onun zinətindən gözəl oldu

Bu bölgənin ələ keçirilməsinə nail olunandan sonra Ərdəbil vilayəti və ona tabe olan ərazilər Piruza verildi (bu Piruz Zərrinkolah kimi məşhur idi). Bu Piruz varlı və dövlət sahibi idi" (12).

Bu mətndə Firuzşahın kürd olması haqqında açıq bir fikir söylənməmişdir. İstinad olunan bu mətnin ilk cümləsi, yəni, "Hekayət. Piruzun nəsəbinin kürdə bağlanmasına gəlincə..." «Səfvətüs-səfa» əsərinin digər nüsxələrində başqa cür verilmiş və həmin nüsxələrdə "kürd" sözü, ümumiyyətlə, atılmışdır. Məsələn, bu əsərin mötəbər nüsxələrindən sayılan Hindistan və Sankt-Peterburq nüsxələri buna misal ola bilər (13).

"Səfvətüs-səfa"nın XVI əsrə aid olan Azərbaycan dilindəki tərcüməsində də "kürd" sözünə rast gəlmək mümkün deyildir. Həmin mətn belədir: "[Hekayət]. Və çün Seyyid Firuzşahın nisbəti nəsəbün zikrində deyildi, surəti böylə idi kim, ol vəqt kim, bir padşah Sultan İbrahim Ədhəmün fərzəndlərindən Səncar qolundan çıxıb, ləşkəri Adərbaycana çəkdi və ol yerləri qanu müsəxxər qıldı və Arran ilə Əlivan və Darbumun sakinləri qamu kafir idilər.

Çün islam ləşkəri ol məmləkətləri aldılar, andakılar müsəlman olub, dinin ərkanü ədabı təlim aldılar.

Nəzm:
Çün dinün ələmi rayəti peyda oldı
Dini-Həqq, milləti-islam hüveyda oldı.

Həman kim, o vilayəti müsəxxər qıldılar, Ərdəbil ilə çevrələrinin hökuməti Seyyid Firizşaha müqərrər eylədi. Və bu Piruzşah bir bay kimi idi və malı ilə qul-qaravaşı və davar ilə əkin-biçini igən çox idi" (14).

Şah İsmayılın kürd mənsubiyyətini ortaya atanların Firzşahın kürd olması ilə bağlı iddiaları doğru olsa belə, Firzşahla Şah İsmayı arasında neçə nəsil

dəyişmişdi və bu zaman Şah İsmayılın kürd mənsubiyyətindən artıq əsər-əlamət qalmazdı. Bununla belə, yuxarıda istinad olunan mətnlər də onun kürd əsilli olmasını bir mənalı şəkildə ortaya qoymur. Yuxarıdakı cümlələr Firuzşahın doğrudan da İbrahim Ədhəmin oğlunun qoşunu ilə Səncardan gəlməsini də birmənalı şəkildə təsdiq etmir. Əksinə, var-dövlət sahibi olması, onun Ərdəbil kökənli olmsına bir yəqinlik ola bilər.

"Aləmara-ye İsmayıl" və "Aləmara-ye Səfəvi" əsərlərində isə çox aydın şəkildə Firuzşahın əslən Ərdəbilli olması təsdiq olunmuşdur. Bu əsərlərdə deyilir ki, vətəni Ərdəbil olan Firuzşah Haqq-təalanın səxavətindən müvəffəq və imkanlı bir insana çevrilmişdi. Onun haqında xəbərlər ətrafa yayılanda Sultan Ədhəm onun görüşünə yollanmaq qərarına gəlir. Sultan Ədhəm dövrün İran padşahlarından bir kimi təqdim olunmuşdur. Yəni, Firuzşah Ərdəbildə elə bir nüfuz sahibinə çevrilmişdi ki, Sultan Ədhəm onun görüşünə yollanmışdı. Sonra bildirilir ki, Sultan Ədhəm Ərdəbil yaxınlığında Firuzşahla görüşə bildi. Mənbədəki məlumatlardan aydın olur ki, Ərdəbildə Firuzşahın çoxlu sayda müridləri də var imiş və Sultan Ədhəm onun evinə yollanır və onun qonağı olur. Hətta belə söhbətlər də yayılıbmış ki, Firuzşahın ətrafında müridlərinin çoxalması və onun nüfuzunun artması bütün İrana hakimliyin onun əlində toplanmasına gətirib çıxara bilər. Amma Sultan Ədhəm bu söhbətlərə ciddi fikir vermədən onu Ərdəbil hakimi təyin edir (15). Bu iki sultan arasında sonradan nə baş verməsinə birinci fəsildə toxunulmuşdur. Burada diqqəti cəlb edən məsələ odur ki, Firuzşahın ərdəbilli olması barəsində ortaya atılan iddiaların ciddi elmi-tarixi əsası yoxdur. Yəni, Firuzşah əslən Ərdəbildən idi və onun Ərdəbildən olması kürdlüyə bağlanması haqqında iddiaları aradan qaldıra bilər.

Səfəvi xanədanının etnik mənsubiyyətinin kürdlüyə bağlanmasında Əhməd Kəsrəviyə də istinad olunur (16). Amma Əhməd Kəsrəvi başqa bir əsərində isə Şeyx Səfinin və onun əcdadlarının Ərdəbildən olmasını və onların dilinin də Azərbaycan dili olmasını birmənalı şəkildə təsdiq etmişdir (17).

Şeyx Səfiəddinin türk (Azərbaycan türkü) olması haqqında mənbələrdə başqa məlumatlar da mövcuddur. Məsələn, «Səfvətüs-səfa» əsərinin müxtəlif yerlərində "Piri türk" kimi xatırlanmışdır. Bundan başqa məlumdur ki, Şeyx Səfi öz elmi biliklərini genişləndirmək üçün Şiraza yollanmışdı. O, burada bir çox fəzilət sahibləri ilə görüşmüşdü. Şirazda məşhur din xadimi və ürfan sahibi Əmir Abdulla ilə görüşəndə o, Şeyx Səfiyə belə müraciət etdi: " Ey gənc türk! Mücahidlik, zahidlik və yüksək əhvali-ruhiyyə sayəsində sənin üçün hasil olan [şeylər] mənim bəsirət gözümə çatmayıb. Sənin qarşında böyük bir alış-veriş durur..." (18).

Yəni Şirazda Şeyx Səfiyə "türk" deyə müraciət edilməsi də onun bir türk kimi tanınmasının təsdiqi idi.

Səfəvi xanədanının və o cümlədən də Şah İsmayılın qeyri-azərbaycanlı mənşəyinin irəli sürülməsi türkdilli elmi-tarixi ədəbiyyatda da geniş müzakirə olunan mövzulardan birinə çevrilmişdir. Bəzi müəlliflər, o cümlədən Səfəvi tarixi ilə bağlı araşdırmalar aparmış Faruq Sümər ciddi cəhdlə Şah İsmayılın

şəcərəsinin kürdlərə bağlanması zəruriliyi üzərində təkid edir. O da daha çox Əhməd Kəsrəviyə istinad etməklə qeyd edirdi ki, "bu xanədanın Sincardan Firuzşah adlı bir kürdə bağlanması şəksiz qəbul olunmalıdır" (19).

Faruq Sümər o müəlliflərdəndir ki, o da qətiyyətlə Səfəvi dövlətini və onun mənşəyini Azərbaycan həyatından qoparmağa çalışır və bu istəyini əsaslandırmaq üçün müxtəlif faktları da öz istəyinə əsasən şərh etməyə çalışmışdır. Qeyd edilməlidir ki, bu iddia heç Türkiyə elmi və ictimai fikrində də birmənalı şəkildə qəbul olunmur. Bəzi müəlliflərin fikrincə, sünnilikdən kənar hər hansı bir islamı qəbul etməyən Faruq Sümərin bu fikri ciddi qəbul edilməməlidir (20). Əslində, Faruq Sümər də öz iddiasını əsaslandırmaq üçün mötəbər faktları ortaya qoya biməmişdir.

İctimai fikrə təqdim olunan araşdırmalarda Faruq Sümərin Şah İsmayılın kürdlüyə bağlanmasını təkzib edən arqumentlər də ortaya qoyulmuşdur. Bu arqumentlərə Şah İsmayılın öz əsərlərində özünü türk adlandırması, Şah İsmayılın kürd dilində əsərləri və yazışmalarının olmaması, Çaldıran döyüşündə kürd tayfalarının Şah İsmayılı deyil, Sultan Səlimi dəstəkləməsi belə arqumentlərdəndir (21).

Faruq Sümərin Səfəvi dövlətinin Azərbaycan həyatından qoparması üçün ortaya atdığı iddialardan biri də bu dövlətin Anadoludan gəlmiş türk tayfaları tərəfindən təşkil edilməsi fikridir. Yəni, onun iddiasından belə bir qənaət hasil olunur ki, Anadolu türkləri Azərbaycana (Cənubi Azərbaycan nəzərdə tutulur) gələrək burada Şah İsmayılın rəhbərliyi altında Səfəvi dövlətinin əsasını qoymuşdular. Bu iddia Səfəvi tarixi ətrafında araşdırmalar aparan bir sıra tədqiqatçılar tərəfindən də dəstəklənmiş və hətta bəzi tədqiqatçılar bu fikri mütləqləşdirmişlər.

Türk tayfaları olan Ustaclı, Şamlı, Təkalu, Baharlı, Zülqədər, Əfşar, Qacar tayfalarının Səfəvi dövlətinin formalaşmasındakı rolu heç bir vəchlə inkar olunmamalıdır. Əksinə, Səfəvi dövləti Azərbaycan ərazisində bir türk dövləti kimi formalaşmışdı və adları çəkilən türk tayfalarının bu dövlətin formalaşmasında və bütünlükdə, Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri vardır. Lakin bunu ortaya atanlar Anatolu türk tayfaları ilə Azərbaycan ərazisində məskunlaşmış türk tayfaları arasında ciddi bir sərhəd qoyurlar, adları çəkilən türk tayfalarını Azərbaycan arealından tamamilə qoparırlar, Azərbaycan əhalisinin Səfəvi dövlətinin yaradılmasındakı rolunu görməməzliyə alırlar. Bununla da Səfəvi dövlətinin Azərbaycan ərazisinə qondarılması görüntüsünün yaradılmasına cəhd göstərilməkdədir. Bu anlaşılmaz konsepsiya Səfəvi dövlətinin mənşəyini qəbul etmək istəməyən müəlliflər və ideoloji qüvvələr tərəfindən bu gün də ciddi bir arqument kimi irəli sürməkdədirlər.

Anadoluda məskunlaşmış türk tayfalarının Azərbaycan arealındakı türk tayfalarından qoparılması heç bir halda düzgün deyildir və bu tayfaların yalnız Anadoluda məskunlaşmasını iddia etmək də həqiqətdən uzaqdır. Türk tayfalarının bölgəyə yayılması qədim köçlərin nəticələri idi və bu köçlər nəticəsində eyni tayfanın və qohum tayfaların sakinləri böyük bir əraziyə səpələnmişdilər. Bu tayfalar Anadoluda da məskunlaşmışdılar, köç yollarının üzərində olan Azərbaycan ərazisində də məskunlaşmışdılar və digər ərazilərə də səpələn-

mişdilər. Ona görə Anadoluda məskunlaşmış türk tayfalarının Azərbaycan ərazisində məskunlaşmış oxşar və qohum türk tayfalarından təcrid olunmuş şəkildə hərbi-siyasi həyata atılmalarının iddia edilməsi məntiqdən uzaqdır.

Məsələn, Səfəvi dövlətinin əsasını təşkil edən tayfalardan biri kimi, əfşar tayfaları haqqında aparılan tədqiqatların nəticələri onu deməyə əsas verir ki, bu tayfa hələ Səfəvi dövlətinin meydana gəlməsindən çox-çox əvvəl Azərbaycanda, indiki İran ərazisində, Xəzər dənizinin qərbində və Qafqazda məskunlaşmışdılar. Mövcud olan bəzi fikirlərə görə, əfşar tayfası əvvəlcə məhz Azərbaycanda məskunlaşmış və sonra da Yaxın Şərqin digər məntəqələrinə yayılmışdılar (22).

Əfşarlar haqqında aparılmış maraqlı tədqiqatlardan birinin müəllifi Azərbaycanda, Xorasanda, Şirazda və digər yerlərdə məskunlaşmış əfşarların eyni qandan olduğunu, eyni kökdən inkişaf etdiyini vurğulayırdı (23).

Əfşarlar tarixi haqqında mötəbər mənbələrdən sayılan "Tarix-e cahanqoşaye Naderi" əsərinin müəllifi Mirzə Mehdi xan Astrabadi əfşar tayfasını türkman tayfaları ilə əlaqələndirməklə bu tayfanın monqol yürüşləri zamanı Türküstandan Azərbaycana gəlməsini və burada məskunlaşmasını yazırdı. Bu fikir sonradan A.Bakıxanov, L.Lokkart kimi tarixçilər tərəfindən də təkrar olunmuşdur. L.Lokkart da yazırdı ki, əfşarlar monqol hücumlarının başlanması ilə Mərkəzi Asiyadan Azərbaycana köçmüş və sonra da buradan İran ərazisinə və Şərqi Anadoluya səpələnmişdilər (24).

İran tədqiqatçısı Səid Nəfisi apardığı araşdırmalarda əfşar boyunun türkmən tayfaları ilə əlaqələndirilməsini və onların Türküstanda yaşaması fikrini qəbul etmirdi. O bütünlükdə bəzi türk tayfalarının türk-monqol əsilli olması, onların həm türklərlə, həm də monqollarla əlaqələndirilməsi barəsində deyilənlərlə barışmırdı. Bir sıra tədqiqatçılar kimi, o da türklərin monqollarla əlaqələndirilməməsinə tərəfdar çıxırdı. Səid Nəfisi türk tayfalarının İrana gəlməsinin monqol tayfalarının hücumlarının başlaması vaxtına təsadüf etməsini də qəbul etmir və bildirirdi ki, türk tayfaları indiki İran ərazisində monqollardan 9 yüz il əvvəl meydana çıxmışdılar. Müəllif qeyd edirdi ki, miladi tarixi ilə V əsrin əvvəlində indiki İran ərazisi iki istiqamətdən iki irqin axını ilə qarşılaşdı. Bu axın həm şimali-şərqdən, həm də şimali-qərbdən baş verdi. Şimal-qərbdən gələn tayfaları iranlılar xəzərlər adlandırırdılar və onlar da türk tayfaları idilər. S.Nəfisinin fikrincə, o zamanlar türklər Xəzərin üç tərəfində yaşayırdılar və müxtəlif tayfalara bölünmüşdülər: xərləx, qəz, xərxiz (qırğız), başqırd, qazax, qaraqalpaq, səlcuq, türkmən, kalmık və s. türk tayfaları şimal-şərqdə, qarapapaq, qoymaq, becənək, salur, bayandur, əfşar, beqdeli, bayat, xəzər və s. tayfalar isə şimal-qərbdə yaşayırdılar. S.Nəfisinin qənaəti belədir ki, miladın 5-ci əsrindən əfşarlar Cənubi Qafqazda məskunlaşmışdılar. VIII əsrdə isə onlar Cənubi Qafqazdan mühacirət edərək Şama tərəf yollanmışdılar. Onların bu miqrasiyasının monqolların hücumu ilə heç bir əlaqəsi yox idi. Əfşarlar qərb türkləri üçün xas olan türk dilində danışırdılar və onların dili şərq türklərinin dilindən xeyli fərqlənirdi. Türk tayfalarının dilinə gəlincə isə o əlavə edirdi ki, şərq türkləri olan özbəklər və türklər bir-birinə yaxındırlar. Bu yaxınlıq iki böyük dəstəyə

bölünmüş qərb türkləri arasında da mövcuddur. Həmin dəstələrdən biri Qafqaz və İran türkləridir. Ikincisi isə osmanlı türkləridir. Yəni, Azərbaycan türkcəsi ilə osmanlı türkcəsi arasında belə bir yaxınlıq mövcuddur. Bununla, müəllif bir daha belə bir qənaətə gəlirdi ki, əfşarlar qərb türklərindəndir və onlar özbək və türkmənlərdən fərqlənirlər (25).

A.Bakıxanovun əsərlərində Qacar tayfasının mənşəyi və bölgədə məskunlaşması haqqında da müəyyən məlumatlar vardır. Müəllif şərq mənbələrinə istinad edərək yazırdı ki, Hülaki xanın hakimiyyəti illərində 200 min qacar ailəsi indiki İran ərazisinə köçürüldü. Onun fikrincə, qacarlar sonradan Suriya və Anadoluya səpələnmişdilər. A.Bakıxanov onun da əlavə edirdi ki, Əmir Teymur bölgəyə hücum edəndə 80 min qacar ailəsini Suriya və Anadoludan geri qaytararaq İrəvan, Gəncə və Qarabağda yerləşdirmişdi (26).

İran alimi Nasir Nəcminin yazdığına görə isə, qacarlar bölgədə məskunlaşmazdan əvvəl Qafqazda yaşayırdılar. Onun fikrincə, monqollar Rusiya ərazilərini tərk edib öz yurdlarına dönməyə başlayandan sonra slav tayfaları şimaldan cənuba doğru irəliləməyə başladılar. Onların cənuba doğru axını qərb türklərinin sıxışdırılması ilə nəticələndi. N.Nəcmiyə görə bu zaman qacarlar da məskunlaşdıqları Qafqazı tərk etməli oldular. Onların bir hissəsi Qafqaz keçidindən adlayaraq Aran və Azərbaycana axışdılar. Sonra isə onlar Krıma və Türkiyə ərazisinə də yol tapdılar. Müəllif qeyd edirdi ki, qacarlar uzun müddət Muğan düzündə çadırlarda yaşamışdılar. Sonradan onların buradan Şam istiqamətində köçü başladı və xeyli sayda qacar Şam ətrafında və Aralıq dənizi sahillərində məskunlaşdı (27).

Türk tayfalarının Azərbaycan ərazisində ən qədim zamanlardan yaşaması haqqında digər mənbələrdə də məlumatlar mövcuddur. Məsələn, qızılbaşların tarixi haqqında XVII əsrdə yazılmış bir mənbədə bayat, əfşar və qacar tayfalarının ən qədim zamanlardan bölgədə və Azərbaycan ərazisində məskunlaşdığı göstərilmişdir (28).

Bu toxunulan fikirlər də bir daha onu deməyə əsas verir ki, Anadoluya da səpələnmiş olan Ustaclı, Şamlı, Təkalu, Baharlı, Zülqədər, Əfşar, Qacar tayfaları bəzi müəlliflərin yaratmaq istədiyi görüntülərin əksinə olaraq, Azərbaycandan təcrid edilərək Anadolu daxilində hüdudlanmış tayfalar deyildilər. Anadolu bu tayfaların məskunlaşmış olduğu bölgələrdən biri idi və onların Azərbaycanda eyni adlı, oxşar və qohum türk tayfalarından ayrı salınması məntiqdən uzaqdır. Adları çəkilən tayfalardan toplanmış qoşun bölmələrinin Səfəvi yürüşlərində və bu dövlətin əsasının qoyulmasındakı rolu inkar edilməsə də, Azərbaycan ərazisində məskunlaşmış tayfaların və əhalinin fəal iştirakı olmasaydı Şah İsmayıl öz hərəkatını uğurla başa çatdıra bilməzdi. Yəni Səfəvi dövlətinin yaranması Şah İsmayılın rəhbərliyi altında Azərbaycan xalqının təşkilatlanmasının, dini-siyasi məqsəd ətrafında səfərbər olmasının məntiqi nəticəsidir. Sözsüz ki, bu hərəkatda bölgədə yaşayan digər etnik qrupların nümayəndələrinin iştirakını da kənara qoymaq olmaz. Amma Səfəvi hərəkatının əsas hərəkətverici qüvvəsi Azərbaycan ərazisində təşkilatlanmış qüvvələr idi. Anadoluda yaşayan eyni adlı

və qohum tayfaların bu hərəkata qoşulması isə həmin hərəkatın gücünü daha da artırdı.

Səfəvi təriqəti konkret zaman kəsiyində insanların narahatçılığını özündə əks etdirən, insanların intizarında olduğu suallara cavab verə bilən və canlı bir dini hərəkat kimi Ərdəbildən çox-çox uzaqlara, o cümlədən Anadoluya da yayılmışdı. Amma bu təriqətin kökləri və gücü Azərbaycanla bağlı idi, bu təriqət Azərbaycanda meydana gəlib burada kök atmış və sonra da öz şaxələrini ətrafa yaymışdı. Günü-gündən genişlənən təriqət şəbəkəsinin bağlandığı mərkəz də Azərbaycanda idi. Səfəvi təriqətinin dini-siyasi hərəkata çevrilməsi də Azərbaycanda baş vermişdi. Ona görə də bu hərəkatın Azərbaycanda uğur qazanması Azərbaycanda yaşayan əhalinin dəstəyi olmadan mümkün ola bilməzdi.

Səfəvi təriqətinin Azərbaycanda formalaşması və Azərbaycan daxilində xeyli sayda tərəfdarlar toplaması haqqında isə müstəqim və qeyri-müstəqim sübutlar kifayət qədər çoxdur. Qeyri-müstəqim sübutlar deyəndə Şeyx Səfidən başlayaraq Səfəvi təriqətinin digər rəhbərlərinin Ərdəbildə və ətrafında necə böyük nüfuza malik olması göstərilə bilər. Əgər Səfəvilər Ərdəbildə və onun ətrafında özünə kifayət qədər tərəfdar toplaya bilməsəydilər Şah İsmayılın əcdadları mürşidi-kamil kimi nüfuz və ehtiram sahibi ola bilməzdilər. Hətta dövrün yerli hakimləri də Səfəvi xanəgahının yerli əhali arasındakı nüfuzundan ehtiyat edirdilər.

Bəzi məlumatlara görə, hələ Şeyx Səfiəddinin sağlığında dövrün hakimlərindən olan Əmir Çoban Sulduz onun təriqət tərəfdarlarının sayının nə qədər olması ilə maraqlanmışdı. Şeyx Səfiəddin də bildirmişdi ki, Əmirin qoşunlarının hər nəfərinə qarşı 100 nəfər təriqət tərəfdarı toplamaq mümkündür (29).

Qaraqoyunlu Cahanşahın hakimiyyətə gəldiyi illərdə isə Səfəvi təriqəti ətrafında toplanan insanların sayı daha da artmışdı. Cahanşah ehtiyat edirdi ki, Sultan Cüneyd öz müridlərinin çoxalmasından istifadə etməklə siyasi hakimiyyət uğrunda mübarizəyə qalxar və bununla, onun hakimiyyətinə son qoyar. Cahanşah Qaraqoyunlu onun təşvişinə səbəb olmuş Sultan Cüneydin aradan qaldırılmasını da mümkün sayırdı. Amma o, Sultan Cüneydin ətrafında böyük bir qüvvə formalaşdığından onun qətlinə əl atmaqdan ehtiyatlanırdı. Qaraqoyunlu sarayının əyanları da təkidlə belə bir əmələ əl atmağın tərəfdarı deyildilər. Çünki Səfəvi xanəgahına qarşı təzyiq Səfəvi təriqətinin geniş yayıldığı yerli əhalinin Qaraqaoyunlu dövlətinə qarşı ciddi etirazları ilə qarşılana bilərdi. Ona görə də Cahanşah rəqibi saydığı Sultan Cüneydi başqa yollarla Ərdəbildən uzaqlaşdırmağa müvəffəq oldu. Birinci fəsildə qeyd edildiyi kimi, Cahanşah ona belə bir məktub göndərdi: "Mənim məktubum sənə çatdıqda gərəkdir ki, xalqı özündən və öz söhbətlərindən uzaq edəsən, yanında olan müridləri pərakəndə edəsən və sakit dolanasan ki, mən sənin sufilərindən xatircəm deyiləm. Məbada ki, qalmaqallı cahillərə uyub qiyamətdən dəm vurasan, ürəyində səltənət arzusu yer tapsın, asan gedən işlər müşkülə düşsün və hər iki tərəfdən neçə min nəfərin qanı axmış olsun. Əgər mənim sözümü eşitməsən və bu hədyanlarına son qoymasan yəqin ki, sənin və müridlərinin dəf edilməsi bizim üçün fərz olacaqdır" (30).

Bu zaman Anadoludan türk tayfalarının silahlanmış dəstələrinin Azərbaycana gəlməsi barədə söhbətlər getmirdi. Belə olduğu təqdirdə, Cahanşahın işarə etdiyi müridlər heç şübhəsiz ki, Azərbaycanda, Ərdəbil ətrafında mövcud olan müridlər idi. Yəni, hələ Anadoludan kömək gəlməzdən əvvəl də Ərdəbil ətrafında Cahanşahı narahat edəcək sayda silahlı müridlər mövcud idi.Vaxt ötdükcə Səfəvi qoşunlarının əsasını da məhz bu müridlər təşkil etdilər.

Məlumdur ki, Sultan Cüneyd Ərdəbili tərk edəndən sonra Suriyaya, sonra Diyarbəkrə yollandı, burada Uzun Həsənlə yaxınlaşa bildi. Həmin bölgədə olarkən Sultan Cüneyd təriqət tərəfdarları arasından böyük sayda qoşun dəstəsi təşkil etdi və hətta Trabzon üzərinə də hücum etdi. Bir müddətdən sonra isə Sultan Cüneyd Ərdəbilə qayıtmaq qərarına gəldi. Mənbələrdə Sultan Cüneyd geri qayıdarkən Diyarbəkr ətrafında formalaşdıra bildiyi qoşun bölmələrinin özü ilə gətirib-gətirməməsi haqqında məlumat yoxdur və əslində, onun Diyarbəkr ətrafında topladığı qoşun dəstəsi ilə Ərdəbilə qayıtması real görünmür. Çünki Sultan Cüneyd Qaraqoyunlu Cahanşah tərəfindən ciddi şəkildə təqib olunurdu və özünə təhlükə saydığı Sultan Cüneydin qoşun dəstəsi ilə Ərdəbilə gəlməsinə imkan verməzdi. Mənbələrdə belə bir məqam aydın şəkildə vurğulanır ki, Sultan Cüneyd Ərdəbilə döndükdən sonra yeni qoşun dəstəsinin toplanması haqqında göstəriş verdi. Bu qoşun dəstəsi Azərbaycandan və onun ətrafından toplandı. Mənbədə qısa müddət ərzində Sultan Cüneydin 10 min nəfərlik qoşun dəstəsi topladığı bildirilir (31). Burada da qoşun dəstəsinə Anadoludakı türk tayfalarının qoşulması haqqında bir məlumat yoxdur. Ola bilsin ki, Anadoludan olan müridlər arasından bu qoşun dəstəsinə qatılanlar var idi. Bir daha qeyd edilməlidir ki, Qaraqoyunlu dövləti kifayət qədər güclü bir dövlət idi və bu şəraitdə Qaraqoyunlu ərazisində çoxsaylı düşmən qoşun dəstəsini hərəkət etdirmək mümkün deyildi. Amma sözsüz ki, həmin qoşun dəstəsinin əsasını Azərbaycandan və yaxın bölgələrdən toplanan dəstələr təşkil edirdi. Çünki qısa müddət ərzində Anadoluda qoşun dəstəsi toplayıb onu Ərdəbilə yetirmək də mümkün olmazdı.

Sultan Heydərin təriqət rəhbərliyi dövründə də Azərbaycandan qoşun dəstələrinin toplanması davam etdirildi. Sultan Heydər tərəfindən qızılbaş papaqlarının tətbiqinə də Azərbaycanda başlanmışdı. Uzun Həsən bu papaqlara böyük maraq göstərdiyi üçün Sultan Heydərə xəbər göndərmiş və onun vasitəsilə həmin papaqları əldə etmişdi. Bu papaqlar ona Ərdəbildən gətirilmişdi və Azərbaycan bu papaqların ilkin yayıldığı məkan idi. Sultan Heydər Dağıstan istiqamətində hərbi yürüşə başlayanda onun ətrafında toplanan 10 minlik qoşun dəstəsinin əsasını Azərbaycandan toplanan silahlı müridlər təşkil edirdilər. Anadolu türk tayfalarının Şah İsmayıla dəstək verməsi açıq şəkildə mənbələrdə öz əksini tapsa da, Sultan Heydərin qoşun dəstəsində Anadoludakı türk tayfalarının iştirakı haqqında məlumat yoxdur. Bu da Sultan Heydərin gücünün məhz Azərbaycanda təşkilatlandığını göstərməkdədir. Sultan Heydər Dağıstan istiqamətinə həyata keçirdiyi hərbi yürüş zamanı ələ keçirdiyi qənimətləri və əsirləri də Ərdəbilə gətirərək buradakı müridlər və əhali arasında paylaşdırdı (32).

Mənbələrdə olan məlumatlara görə, Sultan Heydərin Şirvan üzərinə sonuncu hücumu zamanı qızılbaş qoşunlarında mancanaqlar da var idi və həmin mancanaqlardan Dərbənd qalası üzərinə hücum zamanı istifadə olunmuşdu (33). Başqa sözlə, qızılbaş qoşunlarının zəruri texniki təchizatı var idi və bu texniki təchizatı da Azərbaycan ərazisində hazırlamaq mümkün ola bilərdi. Bütün bunlar onların göstəricisidir ki, Səfəvi hərəkatının hərbi gücünün formalaşmasında Azərbaycan daxilində də ciddi işlər görülürdü. Bu işlər Sultan Əlinin mürşidliyi dövründə də davam etdirildi. Onun da ətrafında böyük sayda qoşun dəstəsi toplanmışdı. Sultan Əlinin şəhid olmasından sonra bu qoşunlar başsız qalsalar da, şübhəsiz onlar Şah İsmayıl qoşunlarının da mühüm bazasını təşkil etmişdilər. Mütəxəssislər də qeyd edirlər ki, Şah İsmayıl öz hərəkatına başlayanda iki ildən də az bir müddət ərzində onun ətrafında Azərbaycandan, Qarabağdan və Rumdan atasının müridləri və özünün tərəfdarları toplandılar (34).

Azərbaycanlı tədqiqatçıların araşdırmaları da Şah İsmayılın hərəkatının başlanğıcında onun qoşunlarının əsasını Azərbaycan ərazisindən toplanmış müridlərin təşkil etdiyini göstərir. Məlumdur ki, öz hərəkatının başlanğıcında Şah İsmayıl Ərzincana doğru hərəkət etmək və orada toplanmış silahlı müridləri öz qoşun dəstəsinə qatmaq istəyirdi. Bu məqsədlə Şah İsmayıl Ərcivandan əvvəl Göyçə gölünün ətrafına yollandı və burada onun dəstəsinin əsasını ərəşli və zülqədərli tayfalarının üzvləri təşkil edirdilər. Mütəxəssislər belə bir qənaətə gəlmişlər ki, hələ Kiçik Asiyaya daxil olmazdan əvvəl Şah İsmayılın (İsmayıl Mirzənin) qoşunları Qaradağ, Əhər və Talış sufilərindən, habelə Azərbaycan ərazisində yerləşmiş şamlı, rumlu, ərəşli, zülqədər tayfalarının silahlı müridlərindən təşkil olunmuşdular. Şah İsmayılın ətrafına ilkin toplanmış 1500 nəfərlik qoşun dəstəsinin əsasını Azərbaycandan (o cümlədən Gilandan) toplanmış silahlılar təşkil edirdilər. Azərbaycan daxilində hərəkətə başlayanda isə Xalxalda, Ərcivanda və digər məntəqələrdə də Şah İsmayıla xeyli sayda könüllü qoşuldu. Ona görə də güman edilir ki, Anadoluya yetişməzdən əvvəl Şah İsmayılın ətrafında toplanmış olan qoşun dəstəsinin sayı artıq bir neçə min nəfərə çatmışdı (35).

Mənbələrdə və elmi-tədiqiqat əsərlərində aydın şəkildə göstərilir ki, İsmayıl Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsinə tərkibinə Anadoludakı türk tayfalarından toplanmış qoşun dəstələri Çuxursəəddə və Ərzincan ətrafında olarkən qatıldılar (36). Deməli, bu məntəqələrə yetişənə kimi İsmayıl Mirzə ətrafına toplanmış olan qoşun dəstəsi Azərbaycandan yığılmışdı. Bu bir tərəfdən məntiqə uyğundur. Çünki istər Qaraqoyunlu dövlətinin, istərsə də Ağqoyunlu dövlətinin Səfəvi xanədanına qarşı barışmaz münasibətinin olduğu halda Anadoludan böyük qoşun dəstələrinin Ərdəbil ətrafına gəlməsi mümkün deyildi. Digər tərəfdən belə bir nəticə çıxarmaq olar ki, Sultan Cüneydin və Sultan Heydərin ətrafına toplanmış böyük sayda qoşun dəstəsi də Azərbaycanda toplanmış qoşun dəstəsi idi. Şübhəsiz ki, Ağqoyunlu dövlətinin süqutundan sonra bu dövlətin qoşunlarının müəyyən hissəsi də Şah İsmayıl qoşunlarına qatılmışdı.

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Anadoluda və Azərbaycanda məskunlaşmış eyni adlı və qohum türk tayfalarını bir-birindən ayırmaq olmaz. Bu tayfaların məskunlaşma arealı Anadolu və Azərbaycan da daxil olmaqla hətta daha geniş əraziləri əhatə edirdi. Ona görə də Şah İsmayıl qoşunlarının tərkibindəki türk tayfalarından söhbət açarkən onların yalnız Anadoludan olduğu ehtimal edilməməlidir. Digər tərəfdən də qızılbaş qoşunlarının təşkilində Anadoludakı türk tayfalarının iştirakını Azərbaycan ərazisində məskunlaşmış türk tayfalarının iştirakından ayırmaq olmaz. İstər hərəkatın başlanğıcında, istərsə də sonrakı dövrlərdə qızılbaş (Səfəvi) qoşunlarının formalaşmasında Azərbaycan vilayətlərinin əhalisi fəal şəkildə iştirak etmişdilər.

Səfəvi dövlətinin Azərbaycan həyatından qoparılması üçün elmi-tarixi dövriyyəyə çıxarılmış fikirlərdən biri də Şah İsmayılın etnik mənsubiyyətinin təhrif edilməsi, Azərbaycan dilinin türk dilləri qrupundan ayrılması, Səfəvi sarayında Azərbaycan dilinə yabançı münasibətin bəslənilməsi və bu kimi məqamlardır. Burada izlənilən niyyət ondan ibarətdir ki, əgər Azərbaycan dili türk dili deyilsə, deməli, Şah İsmayıl da türk deyil və onun qurduğu dövlət də Azərbaycan türklərinin qurduğu dövlət kimi qəbul edilə bilməz. Eyni zamanda belə fikirlər də səsləndirilir ki, Səfəvi sarayında dövlət dili kimi fars dili qəbul edilibsə, deməli Şah İsmayılın qurduğu dövlət Azərbaycan dövləti sayıla bilməz.

Bu fikirlərin tərəfdarı olan tədqiqatçılar belə bir iddia irəli sürürlər ki, bu gün Azərbaycan xalqının istifadə etdiyi dili azəri dili adlandırmaq düzgün deyildir. Bildirilir ki, azəri dili vaxtilə Azərbaycan (Cənubi Azərbaycan) ərazisində yaşamış midiyalılara məxsus olan Midiya dilinin bir ləhcəsi olmuşdur. Bununla belə, bir fikir ortaya qoyulur ki, Azərbaycan (Cənubi) əhalisi mənşəcə türk yox, əslən Midiya əsilli xalqlardan biridir və türk dilini isə bu xalq tarixin sonrakı dövründə qəbul etmişdir (37).

Təbrizli tədqiqatçı Əhməd Kəsrəvi də Azərbaycan dili ilə bağlı buna oxşar bir fikrə malikdir. O, Şeyx Səfinin və onun əcdadlarının dilinin azəri dili olmasından danışarkən qeyd edirdi ki, Şah İsmayılın şer yazdığı türk dilini Səfəvi xanədanı sonradan qəbul etmişdi. Ə.Kəsrəvi hətta Şeyx Səfini farsdilli də adlandırırdı. Müəllif öz araşdırmasında yazırdı ki, tək Şah İsmayılın əcdadlarının deyil, bütün Azərbaycanın dili azəri dili idi və yalnız sonralar Azərbaycanda türk dili rəvac tapmışdı (38).

Səfəvi tarixinin tanınmış tədqiqatçılarından olan Parsadust da Şah İsmayıl haqqında apardığı araşdırmasında eyni ilə bu fikri təkrar edirdi. Bir sıra tədqiqatçılara istinad etməklə o da bəyan edirdi ki, azəri dili Azərbaycan türklərinin bugünkü dilinə yaxın olmayan bir dil idi. İddia olunur ki, azəri dili İsfahan, Həmədan, Rey sakinlərinin danışdığı dil ilə oxşar dil olmuşdur. M.Parsadust belə bir fikirlə də razılaşırdı ki, tat dili əslində azəri dilinin oxşarıdır. Bu fikirlərdən sonra müəllif belə bir qənaətə gəlir ki, səfəvilərin əcdadları ari nəslinə mənsubdurlar (39). Yəni bu nəsil türkdilli nəsil deyildir.

Bəzi iddialara görə isə Azərbaycan ərazisində türk dilinin bərqərar olması Səfəvilərin güclü təsiri nəticəsində olmuşdu. Bu iddialara görə, Səfəvi şahlarının

təsiri və təzyiqi nəticəsində fars dili bütünlüklə türk dili ilə əvəzlənmişdi. Güman edilir ki, ümumən Azərbaycan ərazisində fars dilinin türk dili ilə əvəzlənməsinə səlcuqların bu bölgəyə gəlməsindən sonra başlanmışdı. Bu fikirlərin sahiblərinin ümumi baxışı belədir ki, Azərbaycan ərazisində türk dilinin işlədilməsinin qabardılmasının səbəbi pantürkistlərin göstərdiyi fəallıqlarla bağlıdır. Ona görə də türk dili həvəskarlarına belə bir məsləhət də verilir ki, bu məsələdə xüsusi fəallıq göstərməsinlər. Çünki onlar bilmirlər ki, onların kökləri əslində türklərə deyil, Azərbaycan ərazisində məskunlaşmış qeyri-türklərə gedib çıxır. Bütünlüklə, belə əsərlərdə cənubi Azərbaycan arealı fars arealı kimi və bu ərazilərin qədim dilinin də qeyri-türk dili olması fikirləri irəli sürülür. Türk dilinin Azərbaycanda (Cənubi) rəvac tapması isə türk tayfalarının bura gəlməsi ilə əlaqələndirilir və türk tayfalarının bölgəyə gəlişi isə XI-XII əsrlərdən sonrakı dövrə aid edilir (40).

Azərbaycan ərazisinə köç axınları ilə əlaqədar dilin transformasiyaya uğrayıb-uğramaması hazırkı tədqiqatın obyekti olmasa da, qeyd edilməlidir ki, elmi-tarixi ədəbiyyatda yuxarıda toxunulan fikirlərə əks olan fikirlər də mövcuddur. Məsələn, tədqiqatçılar Strabonun əsərlərinə istinad edərək bildirirlər ki, Araz çayı vadisində Az(a)ların ölkəsi yerləşibmiş. Ehtimal edilir ki, Azərbaycan və Araz sözləri də, əslində, bu sözdən meydana gəlmişdir (41).

Azərbaycan arealına türk tayfalarının axının tarixinin xeyli qədim olması çoxsaylı tədqiqatların obyektidir və bu gün də bu istiqamətdə tədqiqatlar aparılmaqdadır. Nəzərə alınsa ki, Azərbaycan dili yalnız Cənubi Azərbaycan ərazisində deyil, Şimali Azərbaycan, o cümlədən də hazırda Azərbaycana qonşu olan ölkələrin ərazilərində yayılmışdır və bu dildə mövcud olan yazılı ədəbiyyatın kifayət qədər qədim tarixi vardır, onda yuxarıda söylənilən fikirlərə ciddi yanaşılması təbii bir hal kimi ortaya çıxacaqdır. Çox hallarda isə Səfəvi xanədanının türk kökünün inkar edilməsi elmi əsaslandırmalardan daha çox, bəzi müəlliflərin millətçi-ideoloji iddialarına xidmət edir və ona görə də bu iddialar ciddi elmi qənaətlər kimi formalaşdırıla bilmir.

Amma bütün tədiqiqatçılar sözsüz ki, bu qənaətləri bölüşmürlər. Yuxarıda qeyd edildiyi kimi, bu gün Səfəvi xanədanının türklüyə mənsubluğu şübhə doğurmadığı kimi, bu xanədanın dilinin də Azərbaycan türkcəsinin olması şübhə doğurmamalıdır. Səfəvi sarayında və bütünlükdə Səfəvi dövləti hüdudlarında türk dilinin geniş rəvac tapması haqqında İ.Petruşevski belə yazırdı: "Səfəvilərin sarayında və qoşunlarında uzun müddət (həm XVI, həm də XVII əsrlərdə) o zaman ön Asiyanın bütün türk tayfaları üçün anlaşıqlı olan türk dili, yəni Azərbaycan dili qəbul edilmişdi. O zaman bu dilin ədəbi dil kimi yayılması Azərbaycanın hüdudlarından xeyli kənara çıxırdı. Doğrudur, rəsmi sənədlərdə, əksinə olaraq, fars dili işlədilirdi. Amma mənasız yerə biz bunda İran elementinin təsirinin güclənməsi kimi yeni bir hadisəni görmək istərdik. Bu, hələ səlcuqlar zamanından yalnız İran ərazisində deyil, həm də Kiçik Asiyada, Zaqafqaziyada, Orta Asiyada, müsəlman Hindistanında möhəmlənmiş feodal dövlətçiliyinin qədim ənənəsi idi. Bu

dövlətlərdə fars dili milli dil kimi deyil, feodal dövlətçiliyi və mədəniyyətinin beynəlxalq sinfi dili kimi qəbul edilirdi" (42).

Səfəvilər tarixinin tanınmış tədqiqatçılarından olan H.Fəlsəfi isə öz əsərlərinin birində Şah İsmayılın hakimiyyəti illərində türkdilli (Azərbaycan) etnosun və türk-azəri dilinin səltənət daxilində geniş rəvac tapması haqqında öz fikirlərini belə bildirirdi: "Şah İsmayıl özünü seyid, Əli nəsli sayır və bu nəsil şəcərəsi ilə fəxr edirdi. Ana tərəfdən isə o, Türkmən Həsən bəy Ağqoyunlunun nəvəsi idi və o haqlı olaraq özünü bu sülalənin qanuni varisi hesab edirdi... Dövrün bütün tarixlərindən məlum olduğu kimi, onun tərəfdarları da əsasən türkmən və tatar tayfalarından olanlar idi. Hətta taxta çıxdıqdan sonra belə, o, İran mənşəyinə və dilinə - millətin iki başlıca əsasına - xor baxırdı. O, İranın yerli əhalisini tabe etmiş və onları mənşəcə türkmən olan qızılbaş tayfalarının hakimiyyəti altına salmışdı. Şirin fars dili Osmanlı imperiyasında və Hindistanda siyasət və ədəbiyyat dili olduğu bir dördə o, türk dilini İran sarayının rəsmi dili etmişdi. Hətta o özü də yalnız türk dilində şerlər yazırdı. Nəticədə bu yad dil Səfəvilər sarayında geniş yayıldı ki, bu sülalənin hakimiyyətinin sonunadək o, hətta onun hakimiyyətindən sonra da sarayın rəsmi dili olaraq qaldı. Buna görə də, türk siyasi qurumlarını yıxan və vahid dövlət yaradan I Şah İsmayıl İranın milli və siyasi birliyini bərpa etməyi qarşısına məqsəd qoymaması şübhəsizdir". Fikrini davam etdirən müəllif sonra yazırdı: "Şah İsmayıl hər bir vilayəti tutduqdan sonra ələ keçirilmiş qənimətləri, əsirləri və torpaqları qızılbaş sərkərdələri arasında bölüşdürürdü. Beləliklə, mənşəyi və dili etibarilə türk olan tayfalar İranın hər yerində yerli farsdilli iranlılar üzərində ağalıq etməyə başladılar. İranda imtiyazlı və qüdrətli zümrə əmələ gəldi və bütün hərbi və mülki mövqeləri, vəzifələri ələ keçirərək İran xalqını tam ixtiyarla və əzəmətlə idarə etdi. Buna görə də Səfəvilər dövründə şahı İran şahənşahı adlandırdıqlarına baxmayraq, İran ölkəsinə Qızılbaş dövləti (Məmləkəti Qızılbaş) adını verdilər. İran sarayında türk dilində danışırdılar. Şah İsmayıl türk dilində şerlər yazırdı. Qızılbaşlar özlərini türk mənşələrinə, əsil-nəcabət və adsanlarına görə İranın yerli əhalisindən yüksəkdə tutur, onları həqatərlə tatlar və taciklər adlandırırdılar" (43).

Şah Abbasın hakimiyyəti illərində Səfəvi dövlətinə səfər etmiş fransalı səyyah Jan Şarden ölkə həyatında Azərbaycan dilinin necə rəvac tapması haqqında belə yazırdı: "Türk dili sarayın və qoşunların dilidir. Xanımlar və kişilər, xüsusilə də vəzifəlilərin ailələri yalnız türk dilində danışırlar. Bunun səbəbi odur ki, Səfəvi xanədanı türkdilli ərazilərdən, ana dili türk dili olan yerlərdən çıxmışlar" (44).

Şah İsmayılın özü də, onun əcdadları da türkdilli idilər və bütünlüklə türk (Azərbaycan) həyatına bağlı idilər. Səfəvi dövlətinin təşkilindən sonra isə Şah İsmayıl türklüyünü nəinki hakimiyyət oyunlarına qurban vermədi, əksinə, özü türklüyün canlandırılmasının nümunəsi oldu, Azərbaycan dilində ədəbi fəaliyyətlə məşğul olmaqla Azərbaycan türkcəsinin inkişafına bir təkan verdi. Bu dil, qeyd edildiyi kimi, sarayın, qoşunların rəsmi dilinə, insanların öz məişət həyatlarında isə sərbəst şəkildə istifadə edəbiləcəyi bir dilə çevrildi.

Şah İsmayılın rəhbərliyi altında Səfəvi dövlətinin əsasının qoyulması ilə bölgədə Azərbaycan dilinin inkişafının yeni bir dövrünün başlandığını qəbul etmək olar. Azərbaycan dili ədəbiyyat və yaradıcılıq dili kimi hələ Səfəvi dövlətinin əsasının qoyulmasından əvvəl də artıq özünü təsdiq etmişdi. Bunun nəticəsi kimi istər yazılı ədəbiyyatda, istərsə də şifahi ədəbiyyatda bu gün də ədəbi və tarixi əhəmiyyətini itirməyən əsərlər yaranmışdı. Hətta Şah İsmayılın ulu əcdadı olan Şeyx Səfiəddin də fars və gilək dillərindən başqa Azərbaycan dilində həm ədəbi, həm də elmi əsərlər yazmışdı. Şeyx Səfiəddin tərəfindən Azərbaycan dilində yazılmış ədəbi əsərlər yeddi əsrdən çox keçməsinə baxmayaraq bu gün də çox anlaşıqlı bir dildədir.

Azərbaycan ədəbi dilinin inkişaf etdirilməsi, əslində, Şah İsmayılın əcdadlarından miras qalmış bir ənənənin davam etdirilməsi və mənsub olduğu xalqın dəyərlərinin yaşadılması istəkləri ilə bağlı idi. Bu dilin inkişaf etdirilməsi və onun inkişafına təkan verməsi Şah İsmayılın Azərbaycan dilinə bağlılığının göstəricisidir.

Şah İsmayıl saray daxilində Azərbaycan dilini rəsmiləşdirdi, qoşunlar daxilində və bütünlükdə səltənət daxilində Azərbaycan dilini ünsiyyət dilinə çevirdi. Doğrudur, Şah İsmayıl dövründə də rəsmi yazışmalarda fars dilindən istifadə olunurdu. Həmin dövrdə dini risalələrin, elmi əsərlərin ərəb dilində yazılması ilə də rastlaşmaq mümkündür. İ.Petruşevskinin yuxarıda xatırlanan fikrinə istinad edərək qeyd etmək lazımdır ki, bu, heç də Şah İsmayılın və onun əsasını qoyduğu Səfəvilər dövlətinin milli köklərdən uzaqlaşması demək deyildi. Əvvəlki fəsillərdən göründüyü kimi, Osmanlı sultanı Sultan Səlim, özbək xanı Şeybək xan, Misir hakimi Qansu Quri öz yazışmalarında fars dilindən istifadə etmişdilər. Bu, heç də həmin dövlətlərdə və saraylarda fars təsirinin güclü olmasından və ya həmin dövlətlərin fars dilinə bağlılığından irəli gəlmirdi.

Şah İsmayılın azərbaycanca ifadə dili xalq dilinə son dərəcə yaxındır. Onun istifadə etdiyi Azərbaycan ədəbi dili XV-XVI əsrdə Azərbaycan dilində yaradılmış ədəbi nümunələr içərisində öz təmizliyinə və saflığına görə meyar sayıla bilər. Bu da daha çox Şah İsmayılın xalq dilinə yaxınlığından, xalq həyatına bağlılığından irəli gələ bilərdi. Şah İsmayıl özündən əvvəl Nəsimi ilə kifayət qədər zənginləşmiş Azərbaycan ədəbi dilini yeni bir səviyyəyə qaldırdı və Azərbaycan ədəbiyyatının çox gözəl nümunələrini yaratdı. Təsadüfi deyil ki, Azərbaycanın XX əsr ictimai-siyasi xadimləri tərəfindən də Səfəvi sarayı Azərbaycan ədəbiyyatının yaradıcılıq akademiyası kimi dəyərləndirilirdi (45).

Şah İsmayılın Azərbaycan dilində ədəbi yaradıcılığı da, əslində, şah (dövlət) sarayının Azərbaycan dilinə olan münasibətinin ifadəsi idi. Bu isə öz növbəsində yazılı ədəbiyyatın, həm də aşıq ədəbiyyatının inkişafına müsbət zəmin yaratdı. Qurbani, Tüfeyli, Həbibi, Miskin Abdal kimi şairlər və aşıqlar bu dövrdə Azərbaycan dilində çox dəyərli əsərlər yaratmağa müvəffəq oldular. Azərbaycan lirik poeziyasının zirvələrindən sayılan Məhəmməd Füzulinin ilkin qələm təcrübələri də Şah İsmayılın hakimiyyəti illərinə təsadüf edir. Məhəmməd Füzuli hətta Şah İsmayıla olan ehtiramının

əlaməti kimi "Bəngü-Badə" adlı əsərini ona həsr etmişdi. Şah İsmayılın dövründə mədəniyyətin və incəsənətin çiçəklənməsi də Səfəvi dövlətinin milliliyini təsdiqi idi (46).

### b) Səfəvi dövlətinin hüdudları və idarəçilik sistemi

Səfəvi dövləti Ağqoyunlular dövlətinin üzərində təşkil edilsə də, hələ Şah İsmayılın hakimiyyəti illərində bu dövlətin sərhədləri Ağqoyunlu dövlətinin sərhədləri ilə müqayisədə xeyli genişləndi. Təxminən 10 illik hakimiyyəti dövründə Şah İsmayıl səltənətin sərhədlərini Cənubi Qafqazdan Fars körfəzinə, Xorasandan İraqa qədər genişləndirdi. Qeyd etmək lazımdır ki, bu istiqamətdə Şah İsmayıl çox uğurlu bir siyasət apardı və uğurlu hərbi yürüşləri nəticəsində səltənətinin hüdudlarını xeyli genişləndirə bildi.

Şah İsmayılın dövründə Şirvan əvvəlcə Səfəvi sarayından asılı vəziyyətdə idi. Amma sonradan Şirvan da Səfəvi dövlətinin əyalətlərindən birinə çevrildi. Səfəvi dövlətinin tərkibində aşağıdakı əyalətlər var idi: Qarabağ (Gəncə), Çuxursəəd (İrəvan), Azərbaycan (Təbriz), Diyarbəkr (Qaraaməd), Ərzincan, Əlişəkər (Həmədan), İraqi əcəm, Kermanşah, İraqi ərəb (Bağdad), Fars (Şiraz), Kerman, Mərv, Məşhəd, Herat, Astrabad, Şirvan (Şamaxı), Xuzistan (47).

Məlumdur ki, Şah İsmayıl öz hərəkatını Azərbaycandan başladı və hələ Təbrizə daxil olmazdan əvvəl Qarabağı, Şirvanı, Çuxursəədi öz nəzarəti altına aldı. Ağqoyunlu dövlətini süquta uğradandan sonra Əlvənd Mirzənin hakimiyyəti altında olan Ağqoyunlu dövlətinin şimal hissəsi, Kəmax, Ərzincandan başlayaraq Diyarbəkrə kimi olan ərazilər Səfəvi dövlətinin hüdudlarına daxil oldu.

Təşkili elan olunduqda Səfəvi dövlətinin ərazilərinin əsasını Azərbaycan torpaqları təşkil edirdi. Bu ərazilərdə möhkəmləndikdən sonra Şah İsmayıl cənuba doğru uğurlu yürüşlərini davam etdirdi və Ağqoyunlu Sultan Muradın qoşunlarına da üstün gəldikdən sonra Fars vilayətini, Fars körfəzinə qədər olan əraziləri və ərəb İraqını Səfəvi dövlətinin tərkibinə daxil etdi.

Səfəvi dövlətinin təşkili ərəfəsində iki yerə parçalanmış olan Ağqoyunlu dövlətləri Kür çayından başlayaraq Fars körfəzinə qədər uzanırdı. Şah İsmayıl iki yerə parçalanmış bu dövləti tutmaqla həmin əraziləri nəzarət altına aldı. Sonra isə Şah İsmayıl Xəzər dənizinin cənub sahilləri boyunca yerləşən nisbətən kiçik inzibati vahidləri öz hakimiyyəti altına gətirdi. Onun irimiqyaslı fatehlik yürüşləri Xorasan vilayətinin səltənət hüdudlarına daxil edilməsi ilə nəticələndi. Bu zaman indiki İran sərhədlərindən kənarda qalmış Herat, Mərv kimi şəhərlər və onların ətrafındakı ərazilər də Səfəvi dövlətinin tərkibinə daxil edildi. Səfəvi dövlətinin genişlənmiş səltənət hüdudlarının təmin edilməsi üçün həyata keçirilən hərbi yürüşlərə Şah İsmayıl özü rəhbərlik edirdi. Buna görə də Səfəvi dövlətinin səltənət hüdudlarının təmin edilməsi Şah İsmayılın fatehlik məharətinin nəticəsi idi. Çaldıran döyüşünə qədər Səfəvi dövləti özünün ən böyük ərazi hüdudlarına malik oldu. Çaldıran döyüşündən sonra Osmanlı qoşunları Təbrizə

daxil olsalar da Azərbaycan ərazisində dayana bilmədilər. Başqa sözlə, Osmanlı qoşunları Azərbaycan ərazisini Səfəvi dövlətindən qopara bilmədilər.

Çaldıran döyüşündən sonra Osmanlı qoşunları Səfəvi dövlətinin qərbində, Araz çayı hövzəsindən başlayaraq Diyarbəkr istiqamətində irəliləməklə bu əraziləri ələ keçirdilər. Bununla, Şah İsmayılın hakimiyyəti illərində Səfəvi dövləti özünün ilk ərazi itkiləri ilə qarşılaşdı.

Şah İsmayılın yaratdığı dövlət idarəçilik sistemi özündən əvvəl mövcud olmuş təcrübəyə dayanmaqla, əslində, fərqli bir sistem idi və bu sistem məlumdur ki, təxminən iki əsr yarım ərzində Azərbaycanda və İran ərazisində mövcud oldu. Bu idarəçilik sisteminin fərqləndirici və tarixi əhəmiyyət kəsb edən məqamlarından biri o idi ki, Şah İsmayıl Azərbaycanın bütün torpaqlarını bir dövlət daxilində birləşdirdi və Azərbaycanın ictimai-siyasi qüvvələrinə dayaqlanmaqla güclü bir idarəçilik sistemi yaratdı. Şirvan, Qarabağ, Çuxursəəd və Azərbaycan vilayətləri vahid bir dövlət idarəçiliyi altına gətirildi və bununla Azərbaycanın sürətli inkişafına da münbit bir zəmin yaradıldı. Bəzi tədqiqatçılar belə bir fikir irəli sürürlər ki, Şah İsmayıl qızılbaşların köməyi ilə hakimiyyətə yiyələndi (48). Hətta daha ifrat fikirlərlə də qarşılaşmaq mümkündür. Məsələn, bəzi tədqiqatçılar belə güman edirlər ki, qızılbaş əmirləri uşaq yaşlarından Şah İsmayılı (İsmayıl Mirzəni) İranın işğal edilməsi üçün hazırlayırdılar (49). Əslində, bu fikirlər yarımçıq və qərəzli mövqedən başqa bir şey deyildir. Bununla qarşıya qoyulan məqsəd də heç şübhəsiz ki, Şah İsmayılın şəxsiyyətini, tarixi fəaliyyətini, onun dövlətçilik əzəmətini kiçiltməkdir. Baxmayaraq ki, Şah İsmayıl hələ yetkinlik yaşına da çatmamışdı, amma çox böyük bir təriqət məktəbinin rəhbəri və mürşidi-kamili idi. Onun ətrafında çox böyük sayda sufi müridləri birləşmişdilər və İsmayıl Mirzə hələ uşaq yaşlarından istənilən vaxt hərbi-siyasi qüvvəyə çevrilə biləcək sufi müridlərinin mərkəzində idi. Söszüz ki, Şah İsmayıl qızılbaş qüvvələrinə arxalanırdı. Amma bu tərəflərin qarşılıqlı əlaqəsində Şah İsmayıl aparıcı rol oynayırdı və məhz qızılbaş qüvvələri Şah İsmayılın rəhbərliyi altında yeni bir dövləti qurmağa müvəffəq oldular.

Şah İsmayıl ona qədərki Azərbaycan ərazisində mövcud olmuş Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin idarəçilik sistemindən fərqli olaraq üç əsas funksiyanı özündə birləşdirirdi. O, dövlətin rəhbəri idi, dövlətin qoşunlarının ali baş komandanı idi və nəhayət o həm də dini rəhbər idi. Yəni Səfəvi dövləti dünyəvi və dini sahələri özündə birləşdirirdi və buna görə də o, mürşidi-kamil kimi həm də təriqət rəhbəri idi.

Şah İsmayıl hakimiyyətə gələndə "dövlət" anlayışı bir siyasi anlayış kimi dövriyyədə yox idi. Bu anlayış Səfəvi dövlətinin tarixinin sonrakı dövrlərində siyasi anlayış kimi işlədilməyə başladı. "Dövlət" sözü bu zamanlar ilkin mənasında, yəni var, sərvət mənasında işlədilirdi. Səfəvilər dövrünə aid olan bir sıra mənbələrdə "mülk-e İran", "məmalik-e İran" və ya "İran" ifadələrinə rast gəlmək mümkündür. Lakin bu ifadələr də mütəxəssislərin qeyd etdiyi ki, dövlətin adını ifadə etmirdi. Həmin ifadələr daha çox coğrafi anlamda işlədilirdi. Dövlət anlayışının hakimiyyət mənasında istifadəsinə Şah Abbasın dövründə başlan-

mışdı. Səfəvilər dövrünə aid olan bəzi tarixi mənbələrdə Səfəvi dövləti "Məmaliki məhrusə" (yaradanın nəzəri altında olan məmləkət) adlandırılmışdır. Bəzi tədqiqatçılar da ilkin dövründə Səfəvi dövlətinin məhz bu ad altında tanındığını bildirirlər. Qeyd olunur ki, dövlətin ilk vaxtlar bu ad altında tanınması dünyəvi və dini dövlətçiliyin birləşdirilməsindən irəli gəlirdi(50).

Qeyd edilməlidir ki, Səfəvi dövlətinin İran dövləti kimi adlandırılması hallarına elmi-tarixi ədəbiyyatda çox tez-tez rast gəlmək mümkündür. Burada daha çox ənənəvi yanaşma özünü göstərir və bununla, Səfəvi dövlətinin mahiyyəti haqqında bir elmi-tarixi qarışıqlıq da yaradılır. Məlum olduğu kimi, Şah İsmayılın əsasını qoyduğu dövlət tarixi mənbələrdə Səfəvi dövləti və ya Qızılbaş dövləti kimi xatırlanmaqdadır (51).

Farsdilli elmi-tarixi ədəbiyyatda belə bir fikir də mövcuddur ki, guya Şah İsmayıl öz dövlət idarəçiliyini yaradanda İran təcrübəsi ilə türk tayfa ənənəçiliyinin təsiri altında qalmışdı. İran təcrübəsinin Şah İsmayılın dövlət idarəçilik sisteminə təsirinə misal olaraq Şah İsmayıl tərəfindən "Şahənşah" titulunu qəbul etməsi göstərilir və bildirilir ki, bu titul Sasanilər dövrünün təcrübəsinə aid idi (52). Amma bu fikir elmi-tarixi ədəbiyyatda birmənalı şəkildə qəbul edilmir. Məsələn, tanınmış tədqiqatçı İ.Petruşevski yazırdı ki, "şahənşah" titulu Şərqdə və Orta Asiyada, o cümlədən də orta əsrlər Avropasında daha çox mütləq monarxiyanın ifadəsi kimi qəbul edilirdi. Ona görə İ.Petruşevski "şahənşah" titulunun sırf İran arealı ilə bağlı olmasını qəbul etmirdi.

Farsdilli elmi-tarixi ədəbiyyatda mövcud olan başqa bir fikir isə ondan ibarətdir ki, Şah İsmayıl əvvəlki idarəçilik sistemini tamamilə məhv etdi və yeni bir idarəçilik sistemi yaratdı. Bildirilir ki, əvvəlki idarəçilik sistemi lazımi tələblərə cavab vermirdi, fitnə və fəsad mənbəyi idi və Şah İsmayıl elə bir idarəçilik sistemi yaratdı ki, bu idarəçilik sistemi insaf və ədaləti təmin etdi, səltənətin əzəmətini və xalqın rifahını qaldırdı (53).

Mövcud olan başqa bir fikrə görə isə, Şah İsmayıl öz dövlət idarəçilik sistemini yaradanda Teymurilər və türkmanların idarəçilik sistemini əsas götürmüşdü. O da əlavə olunurdu ki, Şah İsmayılın tətbiq etdiyi ilkin idarəçilik sistemi Çaldıran döyüşünə qədər dəyişiklik olmadan istifadə edilmişdi (54).

Bu fikir məntiqə daha uyğundur. Çünki ərəb işğallarına son qoyulduqdan sonra bir neçə əsr ərzində bölgədə, o cümlədən də Azərbaycanda türk idarəçilik sistemi bərqərar olmuşdu. Bu idarəçilik sistemi müəyyən dəyişikliyə uğrasa da öz mahiyyətini saxlamaqda idi və Şah İsmayıl hakimiyyət başına gələndə bölgədə Sasani idarəçilik sisteminin təcrübəsi yox, Teymurilər və Qaraqoyunlu və Ağqoyunlu idarəçilik sistemi canlı idi. Şah İsmayılın əsasını qoyduğu yeni dövlət bir sıra xüsusiyyətləri ilə əvvəlki dövlətlərdən fərqlənsə də sözsüz ki, əvvəlki dövlətin idarəçilik sistemi küll halında məhv edilə bilməzdi. Səfəvi dövləti Ağqoyunulularla davam edən Azərbaycan dövlətçiliyinin yeni bir səviyyəsi idi və dövlətin idarəçilik sistemi də Ağqoyunlu dövlətinin idarəçilik sistemi üzərində qurularaq təkmilləşdirildi. Baxmayaraq ki, bəzi tədqiqatçılar Şah İsmayılın hakimiyyəti illərində Ağqoyunlu dövlət idarəçilik sisteminin heç bir dəyişikliyə

uğramadığını iddia edirlər (55), əslində, bu fikri də mütləq şəkildə qəbul etmək mümkün deyildir. Çünki ən azı dünyəvi hakimiyyətdən əlavə, dini hakimiyyəti də özündə birləşdirməsi Səfəvi dövlət idarəçilik sistemində müəyyən dəyilikləri ehtiva edirdi.

Şah İsmayıl tərəfindən Ağqoyunlu dövlətinin vəziri olmuş Mirzə Zəkəryə Keçəçini öz dövlətinin vəziri təyin edilməsi də Ağqoyunlu dövlət idarəçilik təcrübəsinin Səfəvi dövləti daxilində davam etdirilməsinə bir nümunədir. Hakimiyyətə gələndə Şah İsmayılın yaxın ətrafı daxilində kifayət qədər idarəçilik təcrübəsi mövcud deyildi. Bunu nəzərə alaraq Şah İsmayıl adı çəkilən əmiri öz sarayına dəvət etdi.

Şah İsmayıl öz dövlətini Təbrizdə yaratdı, idarəçilik sistemini burada formalaşdırdı və sonra da öz səltənətinin hüdudlarını genişləndirməyə başladı. Yəni Səfəvi dövlət idarəçilik sistemi formalaşdırılarkən Şah İsmayıl yalnız türk idarəçilik təcrübəsinin təsiri altında idi və onun dövlət idarəçilik sistemi formalaşdıqdan sonra Şah İsmayıl öz hakimiyyətini İran və İrandan kənar ərazilərə də yaymağa başladı.

Əslində, Səfəvi dövlətinin idarəçilik sisteminin müəyyən elementlərinin formalaşması hələ Şah İsmayılın hakimiyyətə gəlməsindən əvvəl başlamışdı. Bunun bariz nümunəsi Şah İsmayılın dini hakimiyyəti öz əlində toplaması idi. Şah İsmayıldan əvvəlki dövlətlərdə mövcud olan tayfa hakimiyyət üsulu elementləri də Şah İsmayıl hərəkatında formalaşmağa başlamış və sonra da bu elementlər rəsmi statusunu almışdı. Belə ki, Şah İsmayıl hərəkatına qoşulmuş tayfaların rəhbərliyi sonradan yerli hakimiyyət orqanlarına təyinat aldılar. Şah İsmayılın yaxın silahdaşları olan əmirlər hələ hərəkat zamanı müəyyən məsuliyyətli vəzifələri öz üzərlərinə götürmüşdülər. Sonradan isə həmin əmirlər Səfəvi dövlətinin idarəçilik sistemində yüksək vəzifələri tutdular.

Şah İsmayılın dövlət idarəçilik sisteminin mühüm xarakterik cəhətlərindən biri onun mürşidi-kamilə olan dərin sədaqət və inamın üzərində qurulması idi. Dövlət idarəçilik sistemində yüksək və məsuliyyətli vəzifələrə sufi müridlər, Şah İsmayılın silahdaşları təyin edilirdilər. Bu vəzifəli adamlar tərəfindən Şah İsmayıla itaət və sadiqlik dövlət idarəçiliyində də özünü göstərdi və ona görə də bu kateqoriya adamların idarəçilyi dövründə siyasi sabitlik kifayət qədər güclü idi. Səltənətin hüdudları genişləndikcə nəzarət altına alınan bir sıra vilayət və əyalətlərdə əvvəlki hakimlər Şah İsmayıla öz sədaqətlərini bəyan etdilər və onlar öz vəzifələrində saxlandılar. Şah İsmayılın hakimiyyəti illərində hakimiyyətə qarşı bəzi itaətsizlik halları da, əsasən, bu hakimlər tərəfindən göstərilmişdi.

Şah İsmayılın dövlət idarəçilik sisteminin başqa bir xarakterik cəhəti onun, əsasən, Azərbaycan-türk elementləri üzərində qurulması idi. Türk tayfaları, Azərbaycan xalqı səfəvilər hərəkatının formalaşmasınını və aparıcı qüvvəsini təşkil etdiyi kimi, dövlət idarəetmə kontingentinin də əsasını təşkil edirdi. Azərbaycan-türk əmirləri, əyanları həm qoşunlarda, həm də dövlət idarəetmə aparatında rəhbər rola malik idilər. Bu da öz növbəsində, yuxarıda qeyd edildiyi kimi, sarayda və qoşunlarda Azərbaycan dilinin rəsmi dil statusunu daha da gücləndirdi.

Səfəvi dövlət idarəçilik sisteminin başqa bir xüsusiyyəti onun hərbi gücə arxalanması idi. Şah İsmayılın mürşidi-kamil olduğu Səfəvi təriqəti bölgədə güclü dini-ideoloji cərəyan kimi formalaşsa da, bu cərəyanın siyasi hərəkata çevrilməsi hərbi gücün nəticəsində baş verdi. Dövrün tarixi ənənələrinin nümunəsi olaraq Səfəvi dövləti də özünün təsdiqini və davamını güclü hərbi qüvvəyə arxalanmaqda tapdı. Dövlətin idarəçilik sistemində rəhbər vəzifələrə də bir qayda olaraq hərbi aristokratiya təyin edilirdi. Bir tərəfdən bu aristokratiyaya etibar edilirdi. Digər tərəfdən də bu təbəqə sərəncamlarında olan hərbi qüvvələrlə səltənətin ictimai-siyasi həyatına təsir edə bilirdilər.

Səfəvi dövləti monarxiya idi və bu dövlət daxilində hakimiyyət irsi olaraq keçirdi. Bu dövlətçilik forması dövrün hakimiyyətləri üçün xarakterik olan bir təcrübə idi. Hakimiyyətə gəlməyin başqa bir yolu yalnız silahlı qüvvələrin tətbiqi ilə mövcud hakimiyyətin zorla devrilməsi idi. Dövlətin bütün idarəçilik sistemi də bu üsul-idarənin üzərində qurulurdu. Şah İsmayıl Səfəvi dövlətinin ilk nümayəndəsi idi və Səfəvi monarxiyasının tarixi də ondan başlayırdı. Monarxiya ənənəsinə uyğun olaraq hakimiyyət ailənin böyük oğluna keçməli idi. Ya da şahın (monarxın) qərarı ilə hakimiyyət ailənin digər övladlarına verilə bilərdi. Bu üsul-idarə müəyyən hallarda ailənin övladları arasında hakimiyyət uğrunda münaqişələrə səbəb olurdu. Ailənin digər övladları isə öz iddialarını çox hallarda silah gücünə həyata keçirmək məcburiyyətində qalırdılar.

Səfəvi dövlətinə münasibətdə nəsil keçiciliyi yalnız dünyəvi hakimiyyətə deyil, həm də dini hakimiyyətə aid idi. Şah İsmayıla qədər Səfəvi sufi təriqətinə rəhbərliyin nəsil ənənəçiliyi yaranmışdı. Şah İsmayıl hakimiyyət sülaləsinin başlanğıcını qoymaqla bərabər, həm də təriqət rəhbərliyini özündən sonra böyük oğluna ötürdü. Şah İsmayılın vaxtında mürşidi-kamil məqamı hələ də güclü və canlı olaraq qalmaqda idi və bu məqamın malik olduğu səlahiyyətlər Səfəvi dövlət idarəçiliyinin tərkib hissəsi idi.

Şah İsmayıl dünyasını dəyişəndə onun övladları kiçik yaşlarında idi və onlar bu yaşlarında hakimiyyət iddiasını ortaya qoya bilməzdilər. Amma saray daxilində Şah İsmayılın böyük oğlu Təhmasib Mirzənin hakimiyyət haqqı bütünlüklə tanınırdı. Ona görə, Şah İsmayılın vəfatından xeyli sonra belə ailə daxilində hakimiyyətə müxalifət əhval-ruhiyyəsi özünü göstərmədi. Bu məsələdə sözsüz ki, mürşidi-kamil məqamının canlı olması da öz sözünü deyirdi. Şah İsmayılın mürşidi-kamil olması onun hakimiyyətinin möhkəmliyinə müsbət təsir edirdi. Çünki onun hakimiyyəti islam müqəddəsləri tərəfindən himayə olunan bir hakimiyyət kimi qəbul olunur və Şah İsmayılın şəxsində isə müqəddəslərin iradəsinin ifadə olunduğu şübhə doğurmurdu.

Şah İsmayıl dövlətin rəhbəri kimi hüdudsuz səlahiyyətlərə malik idi. Əslində, o, Səfəvi səltənətinə daxil olan bütün ərazilərin, bu ərazilərdə yaşayan insanların, dövlət idarəçilik sisteminin, qoşunların, dövlətin və səltənətinin bütün həyatının rəhbəri idi. İstər mövcud olan və istifadə edilən dövlətçilik ənənələri, istərsə hər hansı bir hüquqi sənəd onun hakimiyyətini məhdudlaşdırmaq imkanında deyildi. Yalnız şəriət normaları şah hakimiyyətini məhdudlaşdırıcı səlahiy-

yətlərə malik idi. Şah İsmayıl tarixi mənbələrdə Allahın yerdəki kölgəsi kimi təqdim edilmişdir. O da özünü müqəddəslərin iradəsinin davam etdirilməsinə borclu sayırdı. Şəriətdən və müqəddəslərin buyurduqlarından irəli gələn müqəddəs vəzifələrin nəzərə alınması isə Şah İsmayıldan şəriət normaları ilə hesablaşmağa tələb edirdi.

Şah İsmayıl öz dövrünün və eləcə də özündən əvvəlki hakimiyyət başçılarından daha geniş səlahiyyətlərə malik idi. Çünki qeyd edildiyi kimi, o həm də dini hakimiyyəti özündə birləşdirirdi və sufi müridləri tərəfindən onun dilindən səslənən hökmlər yalnız dövlət başçısının hökmü kimi deyil, həm də müqəddəslərin iradəsi kimi qəbul edilirdi.

Şah İsmayıl eyni zamanda icra hakimiyyətini, qanunverici və məhkəmə hakimiyyətini özündə birləşdirirdi. Bu hakimiyyətlərin tətbiqi zamanı başlıca meyar Şah İsmayılın iradəsi idi. Dövlət idarəçilik sisteminin müəyyənləşdirilməsində, təkmilləşdirilməsində, idarəetmə mənsublarının müəyyənləşdirilməsində, mərkəzi dövlət idarəçiliyi ilə məhəlli idarəçilik arasında əlaqələrin yaradılmasında, xarici əlaqələrin qurulmasında, qoşunların idarə edilməsində, müharibələrin elan edilməsində, aparılmasında, sülhün əldə edilməsində, səltənət idarəçiliyində konkret normaların müəyyən edilməsində, insanların əməllərində cinayət tərkibinin və müxtəlif cinayətlərə görə cəzaların müəyyənləşdirilməsində və s. bu kimi əsaslı məsələlərdə Şah İsmayıl hüdudsuz səlahiyyətlərə malik idi. Bir daha qeyd edilməlidir ki, dini rəhbər kimi Şah İsmayıl müəyyən birgəyaşayış normalarının müəyyənləşdirilməsində şəriət normalarını istisna edə bilməzdi. Bununla belə, onun bu sahədəki iradəsini nəzarət altına ala biləcək hər hansı bir səlahiyyətli şəxs və ya qurum yox idi. Doğurdur, Səfəvi sarayında məşvərət şurası mövcud idi. Dövlət idarəçiliyi ilə bağlı olan mühüm məsələləri Şah İsmayıl bu şuranın müzakirələrinə çıxarırdı. Buna baxmayaraq, istənilən müzakirədən sonra Şah İsmayılın iradəsi əsas götürülürdü. Buna misal olaraq Çaldıran döyüşündən əvvəl Şah İsmayılın öz əyanları və əmirləri ilə keçirdiyi müşavirənin nəticələrini göstərmək olar. Əvvəlki, fəsillərdən məlumdur ki, Şah İsmayılın ən yaxın və etibarlı əmirləri və əyanları Çaldıran döyüşünün aparılması ilə bağlı fərqli təkliflər irəli sürdülər. Həmin təkliflərin qəbul edilməsi Çaldıran döyüşünün fərqli nəticələrlə başa çatmasına yol aça bilərdi. Lakin Şah İsmayıl öz iradəsini ortaya qoydu və onun verdiyi qərar əsas götürüldü.

Şah İsmayıl tarixi mənbələrdə ən müxtəlif ləqəb və titullarla xatırlanmışdır. Bu ləqəblər və titullar onun əzəmətini, nüfuzunu, kəramətini, şöhrətini və ona xas olan digər cəhətləri ifadə etmək üçün istifadə olunmuşdur. Onların içərisində aşağıdakıları göstərmək mümkündür. Bu ləqəb və titullar Şah İsmayılın adından sonra əlavə olunmuşdur: Bahadır xan, Səfəvi əl Musəvi, Padşahi Cəm Cah, Padşahi din mobin, Padşahi aləm pənah, Həzrət Əşrəf əqdəs, Həzrət xaqani, Həzrət Zillullah, Xaqan-e İsgəndər şan (İsgəndər şanlı xaqan), Xaqan-e Süleyman şah, Xaqan-e gitistan, Xosrov zaman, İraq daruğəsi, şah-e aləm pənah, Şeyxoğlu, Zillullah, Mürşidi-kamil, Nəvvab-e əşrəf, Nəvvab-e ali, Nəvvab-e cahanbani, Nəvvab-e xaqan-e Süleyman şan, Nəvvab-e xaqani, Nəvvab-e

Zillulahi, Nəvvab-e adil, Nəvvab-e gitipənah, Nəvvab-e gitistan, Nəvvab-e gitistani, Nəvvabe mürşidi-kamil, Nəvvab-e hümayun, Nəvvab-e hümayuni-ye Zillullahi, Vəlinemət, Vəli-nemət-e aləmiyan, I Şah İsmayıl, Əbülmüzəffər İsmayıl Bahadır, Ərdəbil oğlu, Şeyx Heydər oğlu İsmayıl, İsmayıl ibn Heydər ibn Cüneyd əl-Səfəvi, İsmayıl məxzul, Şeyx İsmayıl, Şeyxoğlu(56).

Bütün bu ləqəblərin və titulların nəzərdə tutduğu nüfuz, səlahiyyət, ehtiram, etibar hamısı xalq tərəfindən qəbul edilirdi. Dövlət idarəçiliyinin isə lazımi səviyyədə həyata keçirilməsi üçün Şah İsmayıl işlək bir idarəçilik aparatı formalaşdırmağa müvəffəq olmuşdu. Belə bir aparatın formalaşdırılması idarəçilik təcrübəsizliyinin aradan qaldırılması baxımından da xüsusi əhəmiyyət kəsb edirdi. Doğrudur, Şah İsmayılın hərəkatının ilk günlərindən onun yanında olan sədaqətli əmirlər və əyanlar dövlət aparatında yüksək vəzifələri tuturdular. Bununla belə, Şah İsmayıl dövlət idarəçilik sisteminin düzgün, davamlı və səmərəli işləməsi üçün idarəçilik təcrübəsi olan adamları da mərkəzi idarəetmə aparatına dəvət edirdi. Mütəxəssislərin də qeyd etdiyi kimi, bu zaman yüksək vəzifəyə təyinat alan adamın həm sədaqəti, həm də işgüzar keyfiyyətləri nəzərə alınırdı. Müxtəlif vəzifələr, o cümlədən mərkəzi dövlət idarəçilik sisteminə aid olan vəzifələrə təyinat zamanı varislik prinsipi də nəzərə alınırdı. İdarəçilik vəzifələrinin bir çoxuna namizədlərin axtarışı zamanı adətən varislərin namizədliyinə üstünlük verilirdi. Mövcud olan məlumatlara görə, bu vəzifələrə təyinat zamanı rüşvət verilməsi halları rəvac deyildi. Çünki məsul vəzifələrə təyinat zamanı əyanların və əmirlərin idarəçilik və təşkilatçılıq təcrübəsi əsas götürülürdü. Hətta varislik üzrə vəzifəyə təyin olunanlar da bilirdilər ki, təyin olunduqları vəzifələrdə təşkilatçılıq və işgüzarlıq nümayiş etdirməsələr onda tutduqları vəzifə ilə tezliklə vidalaşmalı olacaqlar. Ona görə də vəzifə təyinatı alanlar vəzifə nərdivanı üzrə irəliləmək üçün bütün bacarıqlarını nümayiş etdirməyə çalışırdılar. Araşdırmalar onu da göstərir ki, hətta əmir və əyan nəslindən olmayan insanlar da bacarıqlarına görə məsul vəzifələrə təyinat ala və sonra da iş qabiliyyətlərinə görə daha yüksək vəzifələrə irəli çəkilə bilərdilər. Hətta cəmiyyətdə tanınmayan bir insanın müəyyən müddətdən sonra ən yüksək vəzifələrə qədər irəliləmək şansı da var idi. Yəni şah hakimiyyətindən fərqli olaraq, istər saray vəzifələri, istərsə əyalət vəzifələri irsi xarakter daşımırdı və bu vəzifələrə idarəçilik bacarığı olan şəxslər təyin ediliirdilər (57).

Əvvəlki fəsillərdən də məlumdur ki, daha işlək idarəçilik sisteminin formalaşdırılması üçün Şah İsmayıl vaxtaşırı olaraq məsul vəzifə sahiblərini dəyişdirirdi. Belə dəyişikliklərə onun ən yaxın əyanları və əmirləri də məruz qalırdılar.

Mənbələrə əsaslanan bəzi tədqiqatçılar Səfəvi dövlətində hakimiyyət perpendikulyarını belə sıralamışlar: şah, mirzələr, xan, sultan, möhrdar, dəftərdar, qazi, müctəhid və xəlifə (58). Əslində, burada bir qarışıqlıq vardır. Göstərilən bu perendikulyarda vəzifələrlə titullar bir-biri ilə qarışdırılmışdır. İstənilən halda məlumdur ki, ölkənin şahı bütün perpendikulyarların zirvəsində dayanırdı. Qeyd edildiyi kimi, şah bütün səlahiyyətləri öz əlində toplamışdı. Yuxarıdakı sıra-

lanmada şahdan sonra qərar tutan mirzələr şahın oğlan övladlarını nəzərdə tutur. Şahın övladları hər hansı vəzifə tutmadan belə şahdan sonra səltənət daxilində bütün vəzifəli məmurlardan da yüksək səlahiyyətlərə malik idilər. Şahzadə kimi onların həm gələcək səltənət başçısı olmaq şansı var idi, həm də müəyyən hallarda onlar şah adından fərmanlar və sərəncamlar verə bilirdilər. Şah İsmayılın övladlarından ikisi - Təhmasib Mirzə ilə Sam Mirzə Xorasan hakimi vəzifəsinə təyin edilmişdilər. Amma kiçik yaşlarında olduqları üçün onların hər ikisinə lələ təyin edilmişdi və əslində vilayətin idarəçiliyi də həmin lələlərin əlində cəmləşmişdi. Təhmasib Mirzənin lələsi Əmir xan Mosullu, Sam Mirzənin lələsi isə Durmuş xan təyin edilmişdilər. Herat ətrafında vəziyyətin mürəkkəbləşməsi ilə əlaqədar Təhmasib Mirzə bu vəzifədən geri çağırıldı və onun yerinə Sam Mirzə təyin edildi. Şah İsmayıl dünyasını dəyişəndə Sam Mirzə hələ Xorasan hakimi idi.

Yuxarıdakı sıralanmada mirzələrdən sonra göstərilən xan və sultan titullardır. Yəqin ki, bununla vəzifə perpendikulyarında yer tutan vəzifəli məmurların bu titullara malik olmalarına işarə edilmişdir.

Ümumən, titulların işlədilməsinə gəlincə, Səfəvi hakimiyyətinin ilk illərində titul kimi yalnız "bəy" anlayışından istifadə olunurdu. Bəy titulu ikili anlamda işlədilirdi. Bu söz həm müəyyən vəzifə sahiblərini nəzərdə tuturdu, həm də bu ad fəxri titul və ya ləqəb mənasında işlədilirdi. Bir müddətdən sonra isə verilən məlumatlara görə, Şah İsmayıl özbəklərin təcrübəsindən "xan" və "sultan" titullarını əxz etməyi qərara aldı. Bildirilirdi ki, "xan" titulu Osmanlı təcrübəsində mövcud olan "paşa" tituluna, "sultan" isə "sancaq bəyi" tituluna bərabər tutulmalı idi (59).

Başqa tədqiqatçıların fikrincə isə Səfəvi dövlətində idarəçilik sisteminin perpendikulyarı belə idi: şah, vəkil, əmir ül-ümərа, sədr (sədr-əzəm), vəzir. Vəzirlərin sayı çox ola bilərdi. Bu əyanların səlahiyyəti bütün səltənətə yayılırdı. Saray daxilində isə daha iki vəzifə kifayət qədər nüfuzlu vəzifə sayılırdı. Onlardan biri eşikağası (protokol və ya təşrifat rəisi), digəri isə möhürdar (möhürün saxlanmasına və işlədilməsinə məsul olan vəzifə sahibi) idi (60).

Bəzi müəlliflər isə saray daxilində mühüm əhəmiyyət kəsb edən vəzifələrin sayının dördə çatdığını göstərirlər. Bütünlükdə, saray xaricində və saray daxilində dövlət əhəmiyyəti kəsb edən vəzifələr ayrıca qruplaşdırılmışdılar. Saraydan kənarda olan məsul vəzifə sahibləri sərhəd əmirləri adlandırılırdılar. Saray daxilindəki mühüm vəzifələr isə "Ümərа də dövlətxana-ye mübarəkə" adlanırdılar. Saray daxili vəzifə sahiblərini bəzən "Ərkani dövlət-e qahirə" də adlandırırdılar. Bu vəzifələrə aid idilər: qorçubaşı, qullarağası, eşikağası və tüfəngçibaşı (61).

Yüksək vəzifə sahibləri saray məşvərət şurasının üzvləri idilər. Mənbələrə bu məşvərət şurasının Şah İsmayılın hakimiyyəti illərində rəsmi orqan olması barəsində məlumatlara rast gəlmək çətindir. Məlumdur ki, sonradan saraydakı məşvərət şurası – “Divani ali” adı almışdı və onun fəaliyyəti və saray əyanlarının bu şuradakı yeri və səlahiyyətləri də dəqiqliklə müəyyənləşdirilmişdi. Yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıl da məşvərətlər aparılması təcrübəsin-

dən istifadə edirdi. Çaldıran döyüşü qabağı aparılan məşvərət buna misal ola bilər. Təhmasib Mirzənin Xorasan hakimi vəzifəsinə təyin edilməsi və onun geri çağırılması da məşvərət toplantılarının məsləhəti ilə baş vermişdi. Şah İsmayılın dövründə məşvərət şurasının işi barəsində mənbələrdə məlumatlar qalmamışdır. Amma onun oğlu, I Şah Təhmasibin hakimiyyəti illərində məşvərət şurasının (Divani alinin) işinin necə qurulması barəsində mənbələrdə müəyyən məlumatlar qalmışdır. Həmin məlumatlara əsasın, Şah İsmayıl dövrünün məşvərət şuralarının işinin necə qurulması barəsində də təsəvvür əldə etmək mümkündür. Avropalı səyyahların verdiyi məlumata görə, I Şah Təhmasibin Divani alisi 12 nəfər sultandan ibarət idi. Bu Divan şahın rəhbərliyi altında iclas qururdu. Divan təşkil ediləndə şah "yerdən çox da hündür olmayan taxtda oturur və oğulları saraydadırlarsa onun arxasında əyləşirlər. Xüsusən kralın (şah nəzərdə tutulur - M.S.) müavini, Sultan Heydər Mirzə onun diqqət dairəsindən kənarda qalmır. Vitse-krallar adlanan dörd müşavir onunla üzbəüz əyləşir. Şah suallar qoyur, onların barəsində danışır. Sultanların fikrini soruşur və onlardan hər biri öz fikrini söyləyərkən ayağa durur, şaha yaxınlaşaraq həmkarlarının onu eşidə bilməsi üçün ucadan danışır. Əgər müzakirə zamanı şah maraqlı bir fikir eşidirsə, bu (onun göstərişi ilə) yüksək müşavirlər tərəfindən qeydə alınır. O, çox vaxt bunu şəxsən qeyd edir. Beləliklə, hər kəs növbə üzrə, kralın xahişi ilə öz fikrini söyləyir. Məsələnin mahiyyətinə kralın şübhəsi qalmırsa, həmin məsələ ilk şurada həll edilir. Əgər onun şübhəsi qalırsa, bütün şuranın fikrini dinləyir. Sonra isə məsələni şəxsən nəzərdən keçirir və həll edir" (62).

Səfəvi dövlətinin idarəçilik sisteminin vəzifə sıralanmasında şahdan sonra ikinci yeri vəkil tuturdu. Vəkil şahdan sonra ən yüksək vəzifəyə malik olmaqla, əslində, şahın müavini sayılırdı və onun göstərişləri digər vəzifə sahibləri üçün məcburi xarakter daşıyırdı. Vəkil vəzifəsi Ağqoyunlu dövləti təcrübəsindən alınmışdı. Ağqoyunlu dövləti iki yerə parçalananda həm Əlvənd Mirzə, həm də Sultan Murad yaşca kiçik idilər. Dövlət idarəçiliyinin həyata keçirilməsi üçün onlara vəkil təyin edilmişdi. Həmin vəkillər də səltənət rəhbəri adından ölkəni idarə edirdilər. Şah İsmayıl isə hakimiyyətə gələndə artıq idarəçilik imkanlarına malik idi və ona görə vəkil vəzifəsinə elə də xüsusi bir ehtiyacı yox idi. Bununla belə, bu vəzifə saxlanıldı və onun sahibinə səltənətin ikinci şəxsi olmaq səlahiyyəti verildi (63).

Səltənət vəkili tarixi mənbələrdə "Vəkili nəfs-e nəfisi Hümayun" (Humayunun (şah nəzərdə tutulur) şəxsi müavini) adlanırdı. Mövcud olan məlumatlara görə, vəkil yalnız dünyəvi işlər üzrə deyil, həm də dini işlər üzrə şahın müavini vəzifəsini icra edirdi. Əslində, Səfəvi dövlətində vəkil institutu formalaşdırılmışdı. Vəkil yalnız şah yanında təyin edilmirdi. Eyni zamanda vilayət hakimləri yanında da vəkillər təyin edilirdi. Vilayət hakimlərinin vəkilləri şah tərəfindən təyin edilirdi. Müəyyən hallarda vilayət vəkilləri vilayət hakimlərinin lələsi vəzifəsini də icra edirdilər. Bundan başqa bəzi yüksək vəzifəli əyanların yanında da vəkil vəzifəsi olurdu və onlar da müavin vəzifəsini yerinə yetirirdilər. Vəkillərin vəzifələri bir qayda olaraq şahın iradəsi ilə müəyyənləşirdi. Onların hüquq

və səlahiyyətlərinin müəyyənləşdirilməsi üçün yazılı fərmanların olmaması və ya mənbələrdə dəqiq fikirlərin öz əksini tapmaması bu barədə fərqli fikirlərin də ortaya çıxmasına səbəb olmuşdur. Məsələn, belə bir fikir vardır ki, şah məşğul olmaq istəmədiyi işləri vəkilə tapşırırdı (64).

Mənbələrdə olan məlumatlar onu deməyə əsas verir ki, vəkil səltənət daxilində bütün idarəçilik işləri ilə bərabr, qoşunların idarəçiliyi məsələlərinə də cəlb edilirdi. Belə ki, vəkilə ayrılıqda qoşun dəstəsinin həvalə edilməsi və ayrıca döyüş tapşırığının verilməsi mümkün idi. Məsələn, Əmir Nəcm Saninin qoşun dəstəsi ilə özbək xanlarına qarşı döyüşə göndərilməsi buna misal ola bilər. Əmir Nəcm Saninin döyüş tapşırığı ilə vilayətə göndərilməsi həm də ondan xəbər verir ki, vəkil vəzifəsi yalnız saray məmuru kimi nəzərdə tutulmamışdı. Ona səltənətin məsul vəzifəli və etibarlı bir adamı kimi səltənət həyatında mühüm əhəmiyyət kəsb edən konkret vəzifələrin icrası da həvalə oluna bilərdi.

Vəkil şahın ən yaxın silahdaşı və etibar edə biləcəyi adam olmaqla səltənət daxilində dini və dünyəvi işlərin nizamlanmasına məsuliyyət daşıyırdı. Hakimiyyət başına gəldikdən sonra Şah İsmayıl bu vəzifəyə "İxtisas əhli üzvü" olan Hüseyn bəy (Lələ) Şamlını təyin etdi. İxtisas əhli üzvləri Şah İsmayılın hələ kiçik yaşlarından Gilana mühacirəti zamanı onu müşayiət edən azsaylı etibarlı silahdaşları idilər. Hüseyn bəy Lələ də Səfəvi təriqətinin müridlərindən biri idi və o öz Mürşidi-kamilinə böyük sədaqəti ilə seçilirdi. Hüseyn bəy Lələ, Səfəvi təriqət hərəkatının və Səfəvi dövlətçiliyinin tarixində böyük xidmətləri olmuş bir qızılbaş əyanı idi və vəkil vəzifəsinin öhdəsindən də bacarıqla gələ bildi. Hüseyn bəy Lələ bu vəzifəni 6 il müddətində icra etdi. 1508-ci ildə Səfəvi şahının vəkili vəzifəsinə Şah İsmayılın daha bir silahdaşı Əmir Nəcməddin Məsud Gilani təyin edildi. Əmir Nəcməddin Rəşt zərgəri idi və Şah İsmayıl Gilanda gizlənərkən onun xidmətində dayanmışdı. Ona görə Əmir Nəcməddin tarixi ədəbiyyatda həm də Əmir Nəcməddin Zərgəri kimi təqdim olunmuşdur. Əmir Nəcməddinə şah tərəfindən böyük səlahiyyətlər verilmişdi. Mülki və iqtisadi məsələlərin həllində Əmir Nəcməddin söz sahibi idi və heç bir əmirin onun işlərinə müdaxilə etmək haqqı yox idi (65).

Əmir Nəcməddin Zərgərinin şah vəkili vəzifəsinə təyin edilməsi bəzi müəlliflər tərəfindən Şah İsmayılın saray daxilində qızılbaş təsirinin və nüfuzunun azaldılması istəyindən irəli gəlməsi kimi qiymətləndirilir (66). Bu fikir, əslində, ehtimallardan başqa bir şey deyildir. Çünki mənbələrdə Hüseyn bəy Lələnin vəkil vəzifəsindən kənarlaşdırılması səbəbləri haqqında konkret məlumat yoxdur ki, bu da ehtimalların meydana gəlməsinə səbəb olmuşdur. Həmin ehtimallar isə elmi dövriyyəyə bir qayda olaraq farsdilli ədəbiyyatdan gətirilməkdədir. Heç şübhə yoxdur ki, Şah İsmayıl dövlət hakimiyyətinin və idarəçiliyinin möhkəmləndirilməsi ilə əlaqədar olaraq bu qərarı qəbul etmişdi. Şah İsmayılın uzun-uzadı hərbi yürüşlərdə olması da dövlət idarəçiliyinin möhkəmləndirilməsini zəruri edə bilərdi. Vəkil vəzifəsinə yeni təyinat edəndə Mazandaran daxilindəki ərazilər və Xorasan hələ hakimiyyət altına gətirilməmişdi. Mümkündür ki, bu istiqamətlərdə hərbi yürüşlərə başlamazdan əvvəl Şah

İsmayıl idarəetmə aparatının möhkəmləndirilməsini lazım bilmişdi. Hüseyn bəy Lələnin vəkil vəzifəsindən kənarlaşdırılması onun yaşı ilə də bağlı ola bilərdi. Əmir Nəcməddinin vəkil vəzifəsinə təyin edilməsi üçün isə başlıca şərt heç də onun etnik mənsubiyyəti deyil, ilk növbədə onun Şah İsmayıla sədaqəti və bir də onun işgüzarlıq keyfiyyətləri ola bilərdi.

Mənbələr xəbər verirlər ki, Əmir Nəcməddin bu vəzifəyə təyin edil-məzdən əvvəl şah yanında olan etibarı və nüfuzu daha da artdı. Şah İsmayılın hələ Gilan dövründən Əmir Nəcməddin ona qarşı sədaqət nümayiş etdirirdi. Hakimiyyət illərində isə Əmir Nəcməddin işləri, qabiliyyəti, davranışı ilə Səfəvi dövlətçiliyinin möhkəmlənməsi üçün daha böyük xidmətlər göstərdi. Amma onun vəkil təyin edilməsindən sonra Hüseyn bəy Lələ heç də Səfəvi sarayından uzaqlaşdırılmadı. O, şahın yaxın ətrafına daxil olan adamlardan biri kimi sarayda öz xidmətini davam etdirirdi. Əmir Nəcməddinin bu vəzifədə olması çox da uzun sürmədi və 1509-cu ildə o dünyasını dəyişdi. Ondan sonra bu vəzifə Əmir Yarməhəmməd Xuzani adlı bir əmirə həvalə olundu. Əmir Yarməhəmməd də Lahicandan idi və ona həvalə olunmuş vəzifənin icrasına böyük məsuliyyətlə yanaşdı. Şah İsmayıl onun da sədaqətinə və işgüzarlığına böyük hörmət göstərirdi və Əmir Nəcməddinin xatirəsinə ehtiram əlaməti olaraq onu Əmir Nəcmi Sani (İkinci Əmir Nəcmi) adlandırırdı. Səltənət idarəçiliyində əldə etdiyi nüfuza görə Əmir Nəcmi Sani saray adamları tərəfindən vəkili-mütləq, vəkili külli-ixtiyar, vəkilüssəltənə ləqəblərini qazanmışdı. Sonradan bu vəzifəyə təyinat alan digər əmirlər və əyanlar da vəkilüssəltənə adlandırılmağa başlandılar. Əmir Nəcmi Sani səltənət vəkili vəzifəsində olduğu zaman böyük nüfuz qazanmaqla yanaşı, həm də böyük var-dövlət sahibi oldu. Əvvəlki fəsillərdə deyildiyi kimi, onun yalnız xidmətçilərinin sayı 5 min nəfərə çatmışdı. Bu xidmətçilərin yalnız nahar yeməyinin təşkili üçün 100 baş qoyun kəsilir və digər ərzaqlar istifadə olunurdu. Amma onun da həyatı faciəli şəkildə başa çatdı. 1512-ci ildə Şah İsmayıl özbək xanlarına qarşı göndərdiyi qoşun dəstəsinin rəhbərliyinə Əmir Nəcmi Sanini təyin etdi. Gözlənilirdi ki, Əmir Nəcmi Sani ona tapşırılan vəzifənin öhdəsindən bacarıqla gələ biləcəkdir. Lakin Əmir Nəcmi Sani özbək qoşunları ilə qarşılaşmada vəziyyəti reallıqla qiymətləndirə bilmədi və bu da onun həyatının sonuna gətirib çıxardı (67).

Tədqiqatçılar şübhə etmirlər ki, istər özbək xanları ilə münasibətlərin gərginləşdirilməsi, istərsə də özbək qoşunlarına qarşı döyüşün uğursuz aparılması və böyük itkilərə yol verilməsi Əmir Nəcmi Saninin hərbi sahədəki qabiliyyətsizliyinin nəticəsi idi. Əvvəlki fəsillərdə yazılanlardan məlumdur ki, Əmir Nəcmi Sani bu yürüş zamanı yerli əhali arasında kütləvi qırğınlara rəvac verdi, Übeydulla xanla keçirdiyi döyüşdə özü əsir düşməklə rəhbərliyi altında olan qoşun dəstəsinin də məhvinə səbəb oldu (68).

Vəkil vəzifəsinin kifayət qədər böyük səlahiyyətlərə malik olması bu vəzifə sahibinin tezliklə böyük var-dövlət sahibi olmasına yol açırdı. Həmin vəzifəni tutan adamlar da bundan istifadə etməyə çalışırdılar. Onların arasında Əmir

Nəcmi Sani mənbələrdə xüsusi ilə qeyd olunur və onun qısa müddət ərzində belə var-dövlət sahibinə çevrilməsi qabarıq şəkildə nəzərə çatdırılırdı.

Əmir Nəcmi Saniyə qədər onun tutduğu vəzifənin adı mənbələrdə "vəkil-e nəfs-e nəfise hümayun" adlanırdısa, ondan sonra bu vəzifə qısaca olaraq vəkil adlanmağa başladı. Vəkilüssəltənə sözünün rəvac tapması da bu dövrə aid edilir. Əmir Nəcmi Sani özbək qoşunlarına qarşı döyüşdə öldürüldükdən sonra onun müavini olan Əmir Nizaməddin Əbdülbaqi həmin vəzifəyə təyin edildi. Əmir Nizaməddin Əbdülbaqi ondan əvvəl səltənət daxilində dini işlərə rəhbərlik edən sədr vəzifəsini icra edirdi. Çox güman ki, o da özünü işgüzar və sadiq bir əyan kimi nümayiş etdirə bilmişdi və bu cəhət də onun vəkil vəzifəsinə təyin edilməsi üçün əsas olmuşdu. Əmir Əbdülbaqi Çaldıran döyüşünə qədər bu vəzifədə qaldı. O, Çaldıran döyüşündə iştirak edirdi və bu döyüşün gedişində dünyasını dəyişməli oldu (69).

Əmir Əbdülbaqidən sonra vəkil vəzifəsinə yenə də etnik mənsubiyyəti fars olan Mirzəşah Hüseyni İsfahani təyin edildi. Onun bu vəzifəyə təyinat almasının başlıca səbəbi də kifayət qədər təcrübəli olması və dövlət idarəçiliyində təşkilatçılığı ilə seçilməsi idi. Əslən İsfahandan olan Mirzəşah Hüseyni ilk idarəçilik təcrübəsini vilayət daxilində almışdı. Bu vilayətin hakimi təyin edilmiş Durmuş xan onun qabiliyyətini və bacarığını nəzərə alaraq əvvəlcə özünün eşikağasıbaşı vəzifəsinə təyin etdi. Sonradan isə Durmuş xan onu özünün vəziri vəzifəsinə irəli çəkdi. Durmuş xan Səfəvi dövlətinin təcrübəli sərkərdələrindən biri kimi çox zaman Şah İsmayıl ilə birlikdə hərbi yürüşlərdə olurdu. Bu zaman İsfahan vilayətinin idarəçiliyini Mirzəşah Hüseyni öz üzərinə götürürdü. Görünür, o bu işi bacarıqla yerinə yetirirmiş və ona görə Şah İsmayılın da diqqətini cəlb edibmiş. Mirzəşah Hüseyni doğrudan da özünü bacarıqlı, işgüzar və Səfəvi sarayına sədaqətli bir əyan kimi göstərə bilmişdi. Yəqin elə bunun nəticəsi idi ki, səltənətin növbəti vəkili olmaq ona qismət oldu. Şah İsmayılın fərmanı ilə Çaldıran döyüşündən sonra Mirzəşah Hüseyni İsfahani vəkil vəzifəsinə təyinat aldı (70).

Şah İsmayıl səltənətin idarəçilik işlərinə çox ciddi yanaşırdı. O şübhə etmirdi ki, onun fatehlik yürüşlərinin uğuru da ilk növbədə səltənət daxilində işlərin yaxşı getməsindən asılıdır. Ona görə də vəkil vəzifəsinə təyinat zamanı Şah İsmayıl seçim edilən şəxsin yalnız sədaqətinə deyil, həm də iş qabiliyyətinə xüsusi diqqət yetirirdi. Bunun nəticəsi kimi də o, kifayət qədər işlək bir idarəçilik aparatı yarada bilmişdi.

Çaldıran döyüşündən sonra vəkil vəzifəsinə aid olan səlahiyyətlərdə müəyyən dəyişikliklərə yol verildi. Bu, çox güman ki, bir neçə illik təcrübədən sonra həmin vəzifə sahibinin fəaliyyətinin səmərəliliyinin artırılması üçün Şah İsmayıl tərəfindən həyata keçirilmiş tədbirlər idi. Şah İsmayılın qərarı ilə səltənət vəkilinin dini və dünyəvi işlərdə şaha müavinlik səlahiyyətləri azaldıldı və daha çox dövlət idarəçiliyi aparatı üzərində onun nəzarəti gücləndirildi. Mirzəşah Hüseyni bu vəzifədə vəkilüssəltənə və ya etimadüddövlə adlandırılırdı. Yeni şəraitdə ona Divani alinin nəzarətçisi, Divan nəzarətçisi səlahiyyətləri də həvalə

olundu. Şah İsmayılın fərmanı ilə ona bütün dövlət orqanlarına, səltənət idarəçiliyinə, bütün vəzirlərə, əyanlara rəhbərlik etmək səlahiyyəti verildi. Başqa sözlə, dövlət idarəçilik aparatına, bu aparata daxil olan bütün əyanların fəaliyyətinə rəhbərlik ona tapşırıldı (71).

Şah İsmayıl səltənət idarəçiliyində Mirzəşah Hüseyniyə geniş səlahiyyətlər verdi və onun səmərəli fəaliyyətinə münasib şərait yaratdı. Bütünlükdə, Şah İsmayıl onu etibarlı əyanlarından biri kimi dəyərləndirirdi və səltənətə rəhbərlik məsələsində onun fəaliyyətini təqdir edirdi. Şah İsmayıl şübhə etmirdi ki, Mirzəşah Hüseyni öz fəaliyyəti ilə Səfəvi dövlətinin möhkəmləndirilməsinə çalışır və bu istiqamətdə məqsədyönlü və səmərəli fəaliyyət göstərir. Mirzəşah Hüseyni isə yeni vəzifəsində də bütün əməlləri ilə səltənətə sadiq olduğunu və səltənətin daha da möhkəmləndirilməsi üçün idarəçilik keyfiyyətlərinə malik olduğunu nümayiş etdirirdi.

Malik olduğu səlahiyyətlərdən istifadə etməklə Mirzəşah Hüseyni də böyük var-dövlət sahibi oldu və dövrünün zəngin adamlarından birinə çevrildi. Mənbələrdə və elmi-tarixi ədəbiyyatda olan məlumatlara görə, Mirzəşah Hüseyninin belə böyük səlahiyyət və maliyyə imkanlarına malik olması onun qətlinə yol açdı. Əvvəlki fəsillərdən aydın olduğu kimi, Mirzəşah Hüseyni 1523-cü ildə şah mehtəri Şahqulu tərəfindən qətlə yetirildi. Onun qətlə yetirilməsi Şah İsmayıl tərəfindən böyük kədərlə qarşılandı və onun tapşırığına əsasən şah mehtəri tapılaraq cəzalandırıldı.

Mirzəşah Hüseyninin qətlindən sonra vəkil vəzifəsi yenidən qızılbaş əmirlərinin əlinə keçdi və Şah İsmayılın fərmanı ilə saray vəziri olan Xacə Cəlaləddin Məhəmməd Təbrizi bu vəzifəyə təyin edildi.

Dövlət idarəçilik sistemində yüksək vəzifələrdən biri vəzir idi. Bu vəzifə Səfəvi dövlətinin mülki idarəçilik perpendikulyarında vəkildən sonrakı yeri tuturdu. Daha doğrusu, vəkil vəzifəsi vəzir vəzifəsinə nisbətən daha geniş səlahiyyətlərə malik idi və Səfəvi dövlətinin təşkilinin ilkin aylarında belə bir vəzifə, ümumiyyətlə, mövcud deyildi. Amma sonradan onun da təsis edilməsinə ehtiyac yarandı. Vəzir bir növ icraedici orqanların rəhbəri idi və şah tərəfindən müəyyyənləşdirilən vəzifələrin icrasına öz səlahiyyətləri daxilində nəzarət edirdi. O həm də bu sahədə təşkilati işləri öz üzərinə götürə bilərdi. Dini və qoşun işləri vəzirin səlahiyyətlərindən kənar idi. Çünki həmin sahələrə başqa əyanlar rəhbərlik edirdilər. Vəzirin səlahiyyətinə aid olan sahələrə əsasən şahın verdiyi tapşırıqların icrasına nəzarət, bütün dövlət vəzifələrinə aparılan təyinatlara nəzarət, maliyyə işlərinə, maliyyələrin toplanmalarına nəzarət, icraedici aparatın fəaliyyətinin təşkili kimi məsələlər aid idi. İcraedici orqanlarda çalışan bütün əyanlar və əmirlər vəzirin tapşırıqlarını yerinə yetirməyə borclu idilər. Həmin orqanların fəaliyyəti də bütünlükdə vəzir tərəfindən nizamlanırdı (72).

Səltənət idarəçilik sisteminin icraedici orqanlarının fəaliyyətinin tənzimlənməsində və təşkil edilməsində vəzirin fəaliyyətinin böyük əhəmiyyəti olduğu üçün həmin vəzifəyə Şah İsmayıl tərəfindən bu sahədə kifayət qədər təcrübəsi olan Əmir Şəmsəddin Zəkərya Keçəçi Təbrizi təyin edilmişdi. Nəzərə alınmışdı

ki, Əmir Şəmsəddin Zəkəriya hələ Ağqoyunlu sarayında vəzir vəzifəsində olmuş və orada böyük təcrübə əldə etmişdi. 1504-cü ildə Şah İsmayıl tərəfindən bu vəzifəyə əlavə olaraq başqa birisi də təyin edildi. Bu adam da Ağqoyunlu sarayında xidmət etmiş və müəyyən idarəçilik təcrübəsi qazanmış Mahmud xan (Mahmud can) Deyləmi Qəzvini idi. Mövcud olan məlumatlara görə, Şah İsmayılın həyatının son illərində vəzir vəzifəsini Xacə Cəlaləddin Məhəmməd Təbrizi və Qazi Cahan Qəzvini icra edirdilər. Səltənət vəkili Əmir Mirzəşah Hüseyni İsfahani qətlə yetirildikdən sonra Xacə Cəlaləddin Məhəmməd Təbrizi onun yerinə təyin edildi. Onun yerinə vəzir vəzifəsinə başqa bir adamın təyin edilib-edilməməsi haqqında məlumat yoxdur. Qazi Cahan Qəzvini isə bu vəzifədə qalmaqda idi.

Mövcud olan məlumatlara görə, Səfəvi dövlətinin ilkin dövründə vəzir bir sıra mühüm vəzifə tutmuş saray əyanlarının təsiri altında idi və vəzir öz fəaliyyətində həmin əyanlarla hesablaşmalı idi. Bu əyanlar Biyutat naziri (nəzarətçisi), şah dəftərxanasının rəhbəri, müstöfiyül məmalik, qoşun rəhbərləri, hərəmxana rəhbərləri, şaha yaxın olan digər bir neçə vəzifəli əyanlar idilər. Burada dəftərxana dedikdə yazışmaların aparılmasına məsul olan qurum deyil, vergilərin qeydiyyatı və toplanması ilə məşğul olan bir orqan nəzərdə tutulurdu. Amma şahın vəzirə qarşı xüsusi münasibəti olduğu halda onun fəaliyyətini kimsə məhdudlaşdıra bilməzdi və belə olanda vəzir hətta digər saray əyanları qarşısında nüfuz üstünlüyü əldə edə bilirdi (73).

Maliyyə məsələlərinin və bütünlükdə maliyyə siyasətinin həyata keçirilməsi dövlətin daxili həyatında mühüm rol oynayırdı və ona görə də vəzirin nəzarəti altında bu işlərlə məşğul olan xüsusi vəzifəli şəxslər var idi. Sonradan bu vəzifələr ayrıca bir aparat şəklində formalaşaraq Dəftərxana adını almışdı. Dəftərxanaya bir neçə əyan daxil idi. Onlar bəzi hallarda vəzir də adlandırılırdı: 1) Müstövfiyül məmalik - maliyyə işlərin rəhbərlik edən əyan idi; 2) Müstövfiye xassə - səltənətin xass (xüsusi) gəlirlərinə və xərclərinə məsul olan əyan idi. Bu xüsusi gəlirlərə və çıxarlara idxal və ixracatdan gələn vergilər də aid idi. Ticarət fəaliyyəti bu və ya digər dərəcədə müstövfiye xassənin nəzarəti altında olduğu üçün bəzən onun müstövfiyül məmalikdən də üstün vəzifə tutduğu güman edilirdi. Səfəvi dövlətinin ilkin dövründən belə bir vəzifə mövcud idi və Şah İsmayılın ilk divanbəyi olan Bayram bəy həm də bu vəzifəni icra edirdi; 3) Dəftər darğası - maliyyə gəlirlərinin və xərclərinin qeydiyyata alındığı dəftərlərin (sənədlərin) mühafizi idi; 4) Xass (xüsusi) vəzir - şah xanədanının gəlir və xərclərinin hesabını və qeydiyyatını aparan şəxs. Dəftərxanaya ümumi rəhbərlik müstövfiyül məmalik tərəfindən edilirdi. O həm bütün səltənətin maliyyə işlərinə rəhbərlik edirdi, həm də vilayətlərin maliyyə işlərini nəzarət altında saxlayırdı. Şah İsmayılın hakimiyyəti dövründə bu vəzifəyə Mövlana Şəmsəddin İsfahani, Yar Məhəmməd Xuzani İsfahani, Əhməd sultan, Əmir Seyid Şərif Şəhristani, Əmir Məsud Gülpayqani təyinat almışdılar. Mənbələrin verdiyi məlumatlara görə, yuxarıda adları çəkilən vəzifə sahiblərinin xidmətində də çoxlu sayda xidmətçilər var idi (74).

Yuxarıda qeyd edildiyi kimi, səltənətin dövlət idarəçilik sistemində "Ərkani dövlət-e qahirə" adlanan bir neçə digər vəzifə sahibləri də var idi. Bu vəzifə sahiblərindən biri - eşikağasıbaşı mülki idarəçiliyə aid idi. Eşikağasıbaşı sarayın protokol rəisi (təşrifat rəisi) idi. Bu vəzifə sahibinin vəzifəsi şah hüzurunda aparılan görüşlərin, qəbulların təşkil edilməsi və tənzimləməsi idi. Saray daxilində nizamın yaradılması, şah qəbuluna düşmək istəyənlərin istəklərinin həyata keçirilməsi və təşkili eşikağasıbaşı tərəfindən icra olunurdu. Eşikağasıbaşı - adından da göründüyü kimi eşik ağalarının və ya eşik xidmətçilərinin rəhbəri idi. Başqa sözlə, onun tabeliyində eşik yasovulları, eşik qapıçıları, divan ağaları, carçılar və digər xidmətçilər var idi. Şah hüzurunda tərtib olunan məclislərdə hansı əyanın harada əyləşməsi, onların sırasının müəyyənləşdirilməsi, kimlərin ayaq üstündə dayanması, şah hüzurunda onların necə davranması, şaha necə müraciət etmələri, protokol mənsubunun maaşlarının müəyyənləşdirilməsi, onlara aid olan məsələlərin həll edilməsi də eşikağasıbaşının vəzifələrinə aid idi. Saray daxilində təşkil edilən ziyafətlərin hansı səviyyədə keçirilməsi də eçikağasıbaşının vəzifə səlahiyyətlrəinə daxil idi (75).

Dövlət idarəçilik sistemində saray katibliyi də xüsusi yer tuturdu. Bu katiblikdə iki vəzifəli əyan mövcud idi. Onlardan biri - münşiülməmalik, digəri isə möhürdar idi. Saray daxilində, saray adından aparılan bütün yazışmalar, şah fərmanlarının, sərəncamlarının, məktublarının hazırlanması Darül-inşa adlanan bu katibliyin öhdəsində idi. Məlumdur ki, dövrün yazışmalarında müəyyən bir üslub formalaşmış və yazışmalara qarşı müəyyən tələblər mövcud idi. Yazışmalarla məşğul olmaq üçün həm fars dilinə lazımi səviyyədə bələd olmaq lazım idi, həm də Quran kitabına kifayət qədər yaxşı bələd olmaq lazım idi. Yazışmalar eyni zamanda ərəb dili biliklərini də tələb edirdi. Çünki bir qayda olaraq məktublarda çoxlu sayda Quran ayələrinə istinad olunurdu və sənədin məzmunu həmin ayələrin məzmunu ilə əlaqələndirilirdi. Şəriət məsələlərinə bələd olmayan adam üçün yazışmanın məzmununa uyğun olaraq ayələrin seçilməsi və onlara istinad edilməsi çətin ola bilərdi. Buna görə sarayda yazışma ilə məşğul ola biləcək mirzələr dəstəsi yetişmiş və toplanmışdı. Rəsmi yazışmaların aparılmasının özünün də xüsusi bir üslubu və normaları var idi və saray protokolu da həmin üsluba riayət edilməsini tələb edirdi. Bu yazışmalar şahın ləqəb və titullarının sadalanması, onun tərifi ilə başlanır və sonra da konkret ayələrə istinad edilməklə mətləb açıqlanırdı. Şah fərmanlarının yazılmasında isə başqa bir üslub istifadə olunurdu. Doğrudur, dövrün yazışma üslubuna riayət edilməsi məktubun və ya müvafiq sənədin mətnini xeyli qəlizləşdirirdi. Lakin mövcud üsluba müəyyən çərçivədə əməl olunmasının da gözlənilməsi lazım bilinirdi. Müvafiq vəzifəli əyanlar nəzarət edirdilər ki, yazışmalar kifayət qədər qəliz olmasın, yazı üslubiyyatının qəlizləşdirilməsi ilə mətləbin başa düşülməsi çətinləşdirilməsin. Mövcud olan məlumatlardan bəllidir ki, bu tələbə riayət etməyən mirzələrin cəzalandırılması da baş verirdi. Belə halların aradan qaldırılması üçün katiblərə xüsusi hazırlıq da keçilirdi (76).

Mövcud olan məlumatlara görə, Şah İsmayılın hakimiyyəti dövründə Xacə Ətiqəli, Əmir Məhəmməd Hadi Şirazi, Əmir Münşi Hüseyni Qumi, Səfəvi sarayının münşiülməmaliki olmuşdular (77).

Saray katibliyinin mühüm vəzifələrindən biri də, qeyd edildiyi kimi, möhürdar idi. Bu vəzifə sahibinin kifayət qədər böyük nüfuzu var idi və dövlət idarəçilik sisteminin böyük əhəmiyyət kəsb edən təmsilçilərindən biri idi. Yəni, möhürdar şah hüzurunda ayrıca bir nüfuza malik idi.

Şah adından yazılan bütün sənədlərin rəsmiləşməsi üçün onun möhürlənməsinə ehtiyac var idi. Möhürdarın vəzifəsi də şah möhürünü mühafizə edilməsi və şah adından hazırlanan yazışmaların möhürlə rəsmiləşdirilməsi idi. Möhürdarın belə böyük nüfuz sahibi olmasının əsas səbəblərindən biri onun icra etdiyi vəzifə baxımından şahla çox yaxın olması idi. Bu yaxınlıq ona əlavə nüfuz sahibi olmasına imkan verirdi. Ona görə möhürdar vəzifəsinə adətən şaha yaxın və sədaqətli olan adamlar təyin edilirdilər. Həmin vəzifəyə həm də əsasən qızılbaşlar (türklər) təyin edilirdilər ki, bu da möhürdarın şah yanında xüsusi nüfuza malik olmasından xəbər verirdi. Çünki icraedici vəzifələrə qeyri-türklərin təyin edilməsi halları çox olsa da, möhürdar vəzifəsi bu baxımdan istisna təşkil edirdi. Şah İsmayılın hakimiyyəti illərində möhürdar vəzifəsinə Sarıəli Təkəli, Əmir xan Mosullu, Şahrux Sultan Möhürdar Əfşar, İbrahim Sultan, Qaytmış bəy və Qasım bəy Möhürdar təyin edilmişdilər (78).

Səfəvi dövlətinin idarəçilik sisteminin formalaşdırılmasında həm bu dövlətə miras qalmış təcrübədən istifadə olunurdu, həm də yeni-yeni vəzifələr təsis edilirdi. Bununla dövlət idarəçilik sistemində həm də yeni bir ənənə formalaşdırılırdı. Vaxt ötdükcə bu ənənə həm möhkəmlənir, həm də zənginləşirdi. Bunun nəticəsi idi ki, dövlət idarəçilik sisteminin böyük bir bürokratik aparatı yaranmışdı. Bu aparata çoxlu sayda vəzifələr daxil idi. Həmin vəzifələrin hamısının təhlilə cəlb edilməsi ayrıca və əhatəli bir tədqiqatı tələb edir. Amma kifayət qədər böyük olmasına baxmayaraq, Şah İsmayıl bu aparatın işləkliyinə nail ola bilmişdi.

Səfəvi dövlət idarəçilik sistemində əyalət idarəçiliyi də müəyyən təcrübəyə və ənənəçiliyə malik olan bəndlərdən biri idi. Əslində, əyalət idarəçiliyinin tənzimlənməsi dövlət idarəçilik sisteminin əsas dayaqlarından birini təşkil edirdi. Çünki belə bir idarəçilik formalaşdırılmasaydı əyalətlərin mərkəzə bağlılığının təmin edilməsi də mürəkkəbləşə bilərdi. Yəni, əslində vilayətlər daxilində idarəçiliyinin qurulması səltənətin dövlət maraqlarına cavab verməklə, həm də təhlükəsizlik məsələləri ilə sıx bağlı idi. Vilayətlərin idarəçiliyi xüsusi əhəmiyyət kəsb etdiyi üçün şah ailəsinin üzvləri, şahzadələr öz idarəçilik təcrübəsini ilk növbədə vilayətlərdə alırdılar. Məsələn, Şah İsmayılın hakimiyyəti illərində onun övladları - Təhmasib Mirzə və Sam Mirzə ayrı-ayrılıqda Xorasan vilayətinin hakimi təyin olunmuşdular. Doğrudur, onlar yaşca kiçik idilər və onların yanına lələlər də təyin edilmişdilər. Bununla belə, şah övladlarının vilayət hakimliyinə təyin edilməsi vilayət hakimliyinə ayrılan diqqətin əhəmiyyətindən xəbər verirdi. Eyn zamanda şahzadələr də yaşa dolduqca vilayət idarəçiliyində zəruri idarəçilik vərdişlərini əldə edirdilər.

Əyalət idarəçiliyinin özünəməxsus müəyyən xüsusiyyətləri var idi. Bu xüsusiyyətlərdən biri onun nisbi müstəqilliyə malik olması idi. Əyaləti mərkəzə bağlayan müəyyən bəndlər var idi. Bunlardan biri sözsüz ki, əyalət hakimlərinin şaha sədaqəti idi. Ona görə əyalət hakimliyi vəzifələrinə şaha sədaqətli olan adamlar təyin edilirdi. Bu məsələdə də qızılbaş əmirlərinə daha böyük üstünlük verilirdi. Əyalətləri mərkəzə bağlayan bəndlərdən biri də vergilərin vaxtlı-vaxtında toplanıb ödənməsi idi. Vergilərin vaxtlı-vaxtında toplanıb dövlət xəzinəsinə ödənməsi həm yerli hakimlərin saraya sədaqətinin nümayişi idi, həm də yerli idarəçiliyin düzgün qurulmasının əlaməti idi. Əyalət hakimlərinin mərkəzə bağlayan mühüm bəndlərdən biri də müharibə dövründə vilayət imkanlarının mərkəzi hakimiyyətin xidmətinə səfərbər edilməsi idi. Müharibə aparılarkən əyalət hakimləri mərkəzin müəyyənləşdirdiyi sayda qoşun toplanmasına, təchizat ehtiyatlarının toplanmasına və mərkəzin xidmətinə təhvil verilməsinə məsuliyyət daşıyırdılar. Qalan bütün işlərdə vilayət hakimləri müstəqilliyə malik idilər. Onlar vilayətlərin idarəçiliyini müstəqil şəkildə həll edirdilər. Vilayət daxili vəzifələr təyinatlar, idarəçiliyin necə qurulması, idarəçilik normalarına riayət etməyənlərin necə cəzalandırılması, əhali ilə necə rəftar edilməsi yerli hakimlərin səlahiyyətində idi. Yerli hakimlərin tabeliyində vilayət daxilindən toplanmış qoşun dəstəsi də var idi. Bu qoşun dəstəsi vilayət daxilində sabitliyin təmin edilməsinə, vilayət hakiminin müvafiq göstərişlərinin icrasına məsuliyyət daşıyırdı.

Əyalət idarəçiliyinin başqa bir xüsusiyyəti bəzi əyalətlər daxilində mərkəzdənqaçma qüvvələrinin güclü olması idi. Bu məqam dövlət idarəçilik perpendikulyarının normal və davamlı fəaliyyətini mümkünsüz edirdi. Xüsusilə, sərhəd bölgələrində yerləşən vilayətlərdə mərkəzdənqaçma qüvvələri daha güclü olurdu. Şah İsmayıl fəth etdiyi ərazilərin hakimlərini bir qayda olaraq öz vəzifəsində saxlayırdı. Həmin hakimlər mərkəzi dövlətə sadiq olacaqlarına vəd verməlürinə baxmayaraq müəyyən güc topladıqdan sonra və ya da mərkəzi hakimiyyət müəyyən çətinliklərlə üzləşəndə bəzi vilayətlərdə separatçılıq meylləri xeyli güclənirdi.

Səfəvi dövlətinin tərkibinə daxil olan ərazilər mənsubiyyətinə görə iki yerə bölünmüşdü: 1) məmaliki dövləti və 2) məmaliki xassə. Məmaliki xassəyə aid olan torpaqlar şaha, səltənət xanədanına mənsub idi. Buraya şah tərəfindən müsadirə edilmiş, hərbi yürüşlər zamanı ələ keçirilmiş ərazilər daxil idi və bu ərazilər şaha məxsus idi. Bu ərazilərdən toplanan vergilər də şaha çatırdı. Şah da həmin maliyyə vəsaitlərini öz qərarına uyğun olaraq xərcləyirdi. Şah İsmayılın hakimiyyəti illərində xassə mülklər şahzadələrin tabeliyinə verilir, çox hallarda isə bu ərazilər saray vəzirləri tərəfindən idarə olunurdu. Mövcud olan məlumatlara görə, Şah İsmayılın hakimiyyəti illərində Təbriz, Qəzvin, İsfahan, Kaşan xassə mülklərə aid idi. Xassə mülklərindən toplanan maliyyə vəsaitlərinin düzgün idarə edilməsi üçün Xassə təşkilatı adlı bir orqan da yaradılmışdı. Xasə torpaqları təşkil edən vilayətlər vali tərəfindən idarə olunurdu. Bu vəzifəyə əksər hallarda saray vəzirləri təyin edilirdilər. Həmin vəzirlər vilayət daxilində olmayanda vilayət darğa tərəfindən idarə olunurdu. Darğalar vilayətlərin idarəçiliyində ge-

niş səlahiyyətlərə malik idilər. Lakin onlar idarəçilik işlərini vilayətə vali təyin edilmiş vəzirlərin nəzarəti altında həyata keçirirdilər (79).

Məmaliki dövlətiyə (dövlət mülklərinə) aid olan ərazilər xassə mülklərinə aid olmayan ərazilər daxil idilər. Bu mülkləri təşkil edən ərazilər şahın təyin etdiyi hakimlər tərəfindən idarə olunurdu. Səfəvi hakimiyyətinin ilk illərində tanınmış qızılbaş əmirləri bu vilayətlərin hakimliyinə təyin olunurdular. Fəth edilmiş və ya Səfəvi sarayına itaətini bəyan etmiş vilayətlər də dövlət mülklərinə daxil idilər. İstər fəth edilmiş, istərsə də itaətini bəyan edilmiş vilayətlərdə bir qayda olaraq yerli hakimlər öz vəzifələrində saxlanılırdı. Belə olmaya da bilərdi. Elmi-tarixi ədəbiyyatda bu mülklər tiyul torpaqları kimi də təqdim olunmuşdur. Tiyul torpaqlarının sahibləri isə tiyuldarlar adlandırılırdılar. Tiyuldarlar öz mülklərindən topladıqları vergilərin bir hissəsini vilayətin idarəçiliyinə, bir hissəsini qoşun dəstələrinin saxlanmasına məsrəf edirdilər. Bu qoşun dəstələrinə həm vilayət hakiminin tabeliyində olan qoşun dəstəsi daxil idi, həm də mərkəzi hakimiyyətin göstərişi ilə xüsusi vəzifələrin icrası üçün əlavə olaraq toplanmış qoşun dəstələri də daxil idilər. Vilayət hakimliyinə təyin olunmuş əyanlara vali, əmir, ağa, vəzir, darğa titulları verilirdi (80).

Vilayətlərdə yaradılmış olan idarəçilik aparatı mərkəzi idarəçilik aparatının kiçildilmiş və oxşar variantı idi. Mərkəzi hakimiyyətin əsas vəzifələri vilayətlərdə də təsis edilmişdi. Müəyyən hallarda vilayətlərin idarəçilik aparatının fəaliyyətinin səmərəliliyi mərkəzi idarəçilik apartının fəaliyyətinin səmərəliliyi ilə birbaşa bağlı idi.

Yerlərdə dövlət idarəçiliyi sisteminə rəhbərlik edən adamlardan biri vali idi. Vali ona həvalə olunmuş vilayətin hakimi idi. Səfəvi dövlətçiliyinin sonrakı dövrü üçün şahzadələrin müxtəlif vilayətlərin valisi təyin edilməsi təcrübəsi geniş yayılmışdı. Şah İsmayıl hakimiyyəti illərində məlumdur ki, Təhmasib Mirzə ilə Sam Mirzə Xorasan hakimi təyin edilmişdilər. Lakin onların vəzifəsi mənbələrdə vali adlandırılmamışdır. Vali təyin olunan vilayətlər daha çox sərhəd xətti boyunca yerləşirdilər. Əhalisinin əksəriyyətini qeyri-müsəlmanlar təşkil edən vilayətlərin hakimləri də vali adlanırdı. "Aləmara-yi İsmayıl" əsərində bildirilir ki, Şah İsmayıl gürcü Mənuşehr xanı qəbul etdikdən sonra bütün Gürcüstanın valiliyini ona tapşırdı (81).

Buradan belə bir qənaətə gəlmək mümkündür ki, vilayət hakimi kimi vali institutundan Şah İsmayılın hakimiyyəti illərində də istifadə olunurdu. Vali vəzifələrinin tətbiqi zamanı müvafiq vilayətlərdə əhalinin böyük əksəriyyətinin fərqli məzhəbə, fərqli dilə, fərqli həyat tərzinə malik olması nəzərə alınırdı. Bununla bir növ həmin vilayətlərə geniş muxtariyyət imkanları verilirdi və vilayət valiləri də yarım müstəqil statusa malik olurdular.

Elmi-tarixi ədəbiyyatda olan məlumatlara görə, Şah İsmayılın hakimiyyəti dövründə Gürcüstandan başqa Luristanda, Ərəbistanda, Kürdüstanda, Dağıstanda, Şirvanda, Gilanda, Sistanda, Mazandaranda da idarəçilik sisteminə valilər rəhbərlik edirdilər (82). Bu vilayətlərin hər biri Şah İsmayıla öz itaətini bəyan etmiş, yarımmüstəqil şəkildə Səfəvi dövlətinin tərkibinə daxil olmuşdular.

Mərkəzi hakimiyyət arşısındakı öhdəliklərinə riayət etməklə valilər vilayət daxilindəki idarəçiliyi müstəqil şəkildə müəyyənləşdirirdilər.

Valilər ayrıca olaraq öz vilayətlərindən toplanmış vergilərin mərkəzi dövlət xəzinəsinə ödənməsinə məsuliyyət daşımırdılar. Valilər yalnız hədiyyələr və ya peşkəşlər şəklində şaha müəyyən maliyyə vəsaitləri xərcləyirdilər. Amma valilər həm vilayət qoşun dəstəsini saxlamağa, təchiz etməyə, həm də zərurət yarandığı zaman mərkəzi qoşunların təchizatına və təminatına yardım göstərməyə borclu idilər. Elmi dövriyyədə olan məlumatlara görə, Səfəvi dövlətinin bütün tarixi boyu dörd mühüm vali mövcud olmuşdu ki, onlar Xuzistanın, Luristanın, Kürdüstanın və Gürcüstanın valiləri idilər. Bu valiliklərin əsası da Şah İsmayılın hakimiyyəti illərində qoyulmuşdu (83).

Vilayət hakimliyi həvalə olunan yerli idarəçilik sisteminə rəhbərlik edən vəzifə sahiblərindən biri də bəylərbəyi idi. Bəylərbəyi təyin olunan vilayətlər öz coğrafi və geosiyasi əhəmiyyətinə görə fərqlənməklə səltənət həyatında mühüm yerə malik idilər. Bu vilayətlər həm də böyük ərazi vahidləri idilər və həmin əraziləri də vilayət daxilində müxtəlif ərazi-inzibati vahidlərinə bölmək mümkün idi. Vilayət daxilində kiçik ərazi vahidlərinə hakimlərin təyin edilməsi bəylərbəyi tərəfindən həyata keçirilirdi. Buradan belə bir qənaət hasil olur ki, bəylərbəyinə həvalə olunan vilayətlər daha böyük ərazi sahəsinə malik ola bilərdilər. Səfəvilər tarixində mövcud olmuş bəylərbəyliklərinin demək olar ki hamısı Şah İsmayılın vaxtında Səfəvi dövlətinin tərkibinə qatılmışdılar. Onlardan bəziləri Şah İsmayılın vaxtında bəylərbəyi adlandırıldı, bəziləri isə bu statusu sonradan qazandı. "Aləmara-yi Şah İsmayıl" əsərində Bəlx, Diyarbəkr, Qarabağ, Herat bəylərbəyliklərinin adları çəkilmişdir (84). Şah İsmayılın hakimiyyəti illərində Səfəvi dövləti tərkibinə qatılmış Azərbaycan (Cənubi), Çuxursəəd, Qarabağ, Şirvan, Məşhəd və Herat, Astrabad, Kerman, Kuhgiləviyyə, Həmədan vilayətlərində də bəylərbəylikləri yaradılmışdı. Adları çəkilən vilayətlərdən başqa Ərzincanda da bəylərbəyliyin olduğu ehtimal edilirdi (85).

Əyalətlərdə formalaşan idarəçilik sisteminin bəndlərindən birini də əmirlər təşkil edirdilər. Əmir sözü özlüyündə bir neçə mənanı ifadə edirdi. Həm hansısa bir ərazi vahidinin hakiminə əmir deyilirdi, həm saray əyanlarına əmir deyilirdi, həm də qoşun başçılarına əmir deyilə bilərdi. Əmirlərin hakim vəzifəsinə təyin edilməsi həm şah tərəfindən, həm də böyük vilayətlərin hakimləri tərəfindən həyata keçirilə bilərdi. Yuxarıda qeyd edildiyi kimi, böyük vilayətlərin yaxşı idarə edilməsi üçün onlar kiçik ərazi vahidlərinə bölünür və həmin ərazi vahidlərinə vali tərəfindən hakimlər təyin olunurdu. Müstəqil ərazi vahidlərinə və şəhərlərə isə əmirlər şah tərəfindən təyin edilirdi.

Şah İsmayıl hərəkatının başlanğıcında və hakimiyyəti illərində öz fədakarlıqları ilə fərqlənmiş olan qızılbaş əyanlarına, eləcə də digərlərinə müəyyən ərazi sahələrini iqta və tiyul olaraq bağışlayırdı və həmin əyanları da bu ərazilərin əmiri təyin edirdi. Həmin ərazilər dövlət mülkündən ayrılırdı və əmirlər də həmin əraziləri şah adından və şahın xeyrinə idarə edirdilər. Əmirlər hakimlik etdiyi ərazilərin imkanlarına görə müəyyən sayda qoşun dəstəsi yaratmalı və

zərurət yarananda onlar da əlavə qoşun dəstəsi də toplamaqla mərkəzi dövlətin qoşunlarına qatılmalı idilər. Əmirlərin vəzifə statuslarının təsdiqi üçün onlara bayraq və təbil də verilirdi (86).

Əyalət idarəçilik sistemində ciddi səlahiyyətlərə malik olan vəzifə sahiblərindən biri də vilayət vəkili və ya vəziri vəzifəsi idi. Dövlət idarəçilik sisteminə bu vəzifə də Qaraqoyunlu və Ağqoyunlu idarəçilik təcrübəsindən gətirilmişdi. Yuxarıda qeyd edildiyi kimi, əyalətdə vəkil və ya vəzir vəzifəsinin təsis edilməsi idarəçiliyin təşkilində əyalət hakiminə kömək göstərilməsi idi. Bir tərəfdən əyalət hakimlərinin çox vaxt hərbi yürüşlərdə olması, digər tərəfdən də əyalət idarəçiliyi işlərinin çoxluğu belə bir vəzifənin təsis edilməsini zəruri sayırdı. Bu vəzifələrə təyinat şah tərəfindən aparılırdı. Amma əyalət vəzirləri saray vəziri qarşısında hər hansı bir məsuliyyət daşımırdı. Əyalət vəzirlərinə böyük səlahiyyətlər də verilmişdi. Onlar müəyyən vaxtlarda vilayətləri vilayət hakimləri adından idarə edirdilər. Vilayət hakimləri öz yerlərində olduqları zaman isə vilayət daxilində həyata keçirilən ciddi tədbirlər onun razılığı əsasında baş tuturdu. Öz vəzifələrini böyük işgüzarlıqla və mərkəzi hakimiyyətə sədaqətlə həyata keçirən əyalət vəzirlərinin fəaliyyəti mərkəzi hakimiyyət tərəfindən layiqincə qiymətləndirilirdi. Yuxarıda yazılanlardan artıq məlumdur ki, Səfəvi dövlətinin vəkili vəzifəsini uzun müddət İsfahanda vilayət vəziri olmuş Mirzəşah Hüseyni İsfahani icra etmişdi. Şah İsmayıl məhz idarəçilik qabiliyyətini nəzərə alaraq Mirzəşah Hüseynini dövlətin ikinci adamı etmişdi və Şah İsmayılın hakimiyyəti dövründə bu vəzifəni ən uzun müddətə icra edən də o olmuşdu.

**c) dövlət və din**

Səfəvi dövləti dini və dünyəvi dövlət idi və bu iki məqam dövlət idarəçiliyində qarşılıqlı şəkildə çulğaşmışdı. Şah İsmayıl Azərbaycan hüdudlarda yaradılmış olan Səfəvi dövlətinin yalnız siyasi rəhbəri yox, həm də bu dövlətin məzhəb rəhbəri idi və dövlət idarəçiliyində də bu iki amilə dayaqlanırdı. Dövlətə sədaqət Şah İsmayılın rəhbəri olduğu təriqətə sədaqət kimi özünü göstərdiyi kimi, mürşidi-kamilə inam və etiqad da onun siyasi rəhbəri olduğu dövlətə sədaqət kimi başa düşülürdü. Başqa sözlə məzhəbə olan dərin etiqad, dövlət və onun şahına olan vəfadarlıq iman meyarı kimi qəbul edilirdi. Şah yolunda həyatından keçmək isə dünyəvi və axirət səadəti kimi dəyərləndirilirdi (87). Belə bir əqidənin cəmiyyətdə üstünlük təşkil etməsi isə Şah İsmayıl dövlətinin möhkəmlənməsini şərtləndirirdi.

Təriqət hərəkatının siyasi hərəkata transformasiyası hələ Şah İsmayıldan əvvəl başlamışdı. Baxmayaraq ki, istər Sultan Cüneydin, istərsə də Sultan Heydərin şəhid olmasından sonra bu hərəkatın zəifləməsi baş vermişdi. Lakin Şah İsmayıl (İsmayıl Mirzə) din və dünyəviliyin vəhdəti kimi ictimai gücə çevrilən bu hərəkata yeni bir təkan verə bildi və hakimiyyətə gələndən sonra da din və dün-

yəviliyin vəhdətini uğurla əlaqələndirə bildi. Konkret tarixi şəraitdə bu əlaqənin qurulması Səfəvi dövlət idarəçiliyinin daha da güclənməsinə yol açdı.

Səfəvi təriqət hərəkatı meydana gəldiyi ilk vaxtlardan daxili idarəçiliyin müəyyən bir strukturu formalaşmışdı. Elə o vaxtlardan da bu hərəkatın siyasi hərəkata çevrilməsi, bu hərəkat rəhbərlərinin siyasi iqtidara yol tapa biləcəyi haqqında müəyyən ehtimallar yayılmağa başlamışdı. Bu mənada ilahiyyatçılar da, tədqiqatçılar da Şeyx Səfiəddinin bir yuxusunun yozumuna istinad edirlər. Şeyx Səfi hələ Gilandan Ərdəbilə dönmək ərəfəsində yuxusunda görübmüş ki, belindən qılınc asılıbdır. Həyatını bütünlüklə ibadətə, təriqətə bağlamaq əzmində olmuş Şeyx Səfi üçün belinə bağlanmış silahı öz əqidəsinə yad hesab edirdi. Mənbələrdə olan məlumata görə, Şeyx Səfi yuxusunda gördü ki, onun belində uzun bir qılınc və başında da samur dərisindən papaq vardır. Yuxuda o bu qılıncı özündən uzaqlaşdırmağa çalışsa da, buna nail ola bilmədi. Bu zaman başı üzərindən günəş çıxır və nuru ilə bütün aləmə işıq salır. Həmin yuxunun mənasını soruşduqda mürşidi Şeyx Zahid ona bildirir ki, Şeyx Səfinin belindən asılmış qılınc dünyəvi hakimiyyətin nişanəsidir. Günəşin çıxması və bütün aləmi də öz nuruna boyaması isə o deməkdir ki, Şeyx Səfinin nəslindən kimsə padşahlıq taxtına sahib olaraq əməlləri ilə məşriqdən məğribə bütün aləmi öz ədaləti ilə bəzəyəcəkdir (88).

Bununla, mənbələr Səfəvi təriqət hərəkatının siyasi transformasiyasına bir növ haqq qazandırırlar və dünyəvi hakimiyyətlə dini hakimiyyətin vəhdətinin mümkünlüyü haqqında fikir ortaya qoyurlar. Şeyx Səfinin gördüyü yuxularının yozmaları belə bir qənaətə də yol açır ki, Şah İsmayılda öz ifadəsini tapan dini və siyasi hakimiyyətin vəhdəti haqqın iradəsi idi və bu iradə Şah İsmayılın şəxsində öz təcəssümünü tapmışdı. Əslində, Şah İsmayıl özü də belə düşünürdü. Şah İsmayıla mürşidi-kamil kimi bütün həyatları ilə bağlanan müridlər də belə düşünürdülər ki, Şah İsmayıl (İsmayıl Mirzə) Allah rəsalətinin (buyuruğunun) icraçısıdır və onlar bu yolda fədakarlıqlar göstərməyi özlərinin etiqad borcu hesab edirdilər.

Səfəvi dövrünün salnaməçiləri və müəllifləri Şah İsmayıl hakimiyyətini dini dəyərlərin əsas götürüldüyü mənəvi hakimiyyət kimi qiymətləndirməyə üstünlük verirlər (89). Bu, əslində, elə Şah İsmayılın özündən gələn bir baxış idi. Mürşidi-kamil kimi Şah İsmayıl öz səltənəti daxilində və xaricində şiəliyin daha geniş yayılması üçün mümkün imkanlarını səfərbər etdi, şiəliyi səltənətinin rəsmi dini elan etdi, onu səltənət daxilində vəhdətin və birliyin ideologiyasına çevirdi. Şah İsmayıl yaratdığı yeni dövləti İmam Mehdinin zühuru ilə yer üzündə haqqın və ədalətin timsalına çevriləcək dövlətinin müqəddiməsi kimi qəbul edirdi (90).

Buna görə idi ki, Şah İsmayılın hakimiyyəti illərində din siyasətə xidmət etdiyi kimi, siyasət də dinə xidmət edirdi. Ona görə dövlət idarəçilik sistemində dini qurumlara xüsusi yer verildi və bu qurumlar dövlət idarəçiliyinin tərkib hissəsinə çevrildilər. Çünki bir tərəfdən hakimiyyətin siyasi-ideoloji bazasını təşkil edən şiəliyin yayılması üçün davamlı işlər görülməsinə, digər tərəfdən də dini cəmiyyətin idarə edilməsi üçün müvafiq strukturların təsis edilməsinə ehtiyac var idi.

Dini-ideoloji baza kimi şiəliyin geniş yayılması və bu məzhəbin əqidəyə çevrilməsi üçün səltənət daxilində dini-elmi mərkəzlərin, təşkilatların yaradılması da aktual bir vəzifə kimi qarşıya qoyulmuşdu. Belə elmi hövzələr və mərkəzlərin olmadığı təqdirdə məzhəbin və eləcə də təriqətin əsaslı əqidəyə çevrilməsi davamlı ola bilməzdi. Səfəvi dövlətinin əsasının qoyulduğu dövrdə səltənətin ayrı-ayrı şəhərlərində, Qumda, Şirazda, Kaşanda, Səbzəvarda şiə mədrəsələri mövcud olsa da, həmin şəhərlər heç də bu məzhəbin mərkəzi kimi qəbul olumurdular. Ona görə Səfəvi hakimiyyətinin bərqərar olduğu zaman səltənət daxilində dini-ideoloji bazanı təşkil edə biləcək elmi mərkəzlər mövcud deyildi. Bunun nəticəsi idi ki, yeni dini-ideoloji bazanın elmi əsasını təşkil edəcək ciddi əsərlər də mövcud deyildi. Şiəliyin mahiyyətinin elmi dəyərləndirilməsinə həsr edilmiş əsərlərin olmaması isə bu məzhəbin geniş tədrisinə və təliminə çətinliklər yaradırdı (91). Bu məsələlərin həllinə dövlət səviyyəsində nail olunması üçün Şah İsmayıl tərəfindən dini vəzifələr təsis edildi. Şah İsmayılın dövlət idarəçilik sistemində mövcud olan əsas dini vəzifələr bunlar idi - sədr, qazı və qazı əsgər (92).

Yuxarıda toxunulan məsələlərdən başqa məhkəmə işlərinin həyata keçirilməsi üçün də ayrıca bir aparata ehtiyac var idi. Məlumdur ki, Səfəvi şahı məhkəmə hakimiyyətini də özündə birləşdirmişdi. Lakin bu hakimiyyətin əməli fəaliyyətinə nail olunması müvafiq aparatın təsis edilməsini tələb edirdi. Dini strukturların yaradılması ilə bu işlərin də yoluna qoyulması nəzərdə tutulurdu.

Sədr - Səfəvi dövlət idarəçilik sistemində ali dini vəzifə idi. Belə bir vəzifə hələ teymurilər dövründə təsis edilmişdi və xüsusilə, Əmir Teymurun oğlu Şahruxun hakimiyyəti illərində bu vəzifə öz təsdiqini tapmışdı. Bu vəzifənin Qaraqoyunlu və Ağqoyunlu dövlətləri dövründə olmasını da ehtimal etmək olar (93). Amma Səfəvi dövlətinə qədərki dövrlərdə sədr daha çox hakimiyyətlə din xadimləri arasında əlaqə yarada biləcək bir vəzifə kimi nəzərdə tutulmuşdu. Baxmayaraq ki, əvvəlki dövlətlərin dövründə sədr vəzifəsi sünni məzhəbinə aid olan bir vəzifə idi, bununla belə, Şah İsmayıl həmin təcrübəni qəbul etdi, bu vəzifəyə yeni bir məzmun verdi və onu şiə təriqətinin xidmətinə istiqamətləndirdi. Sədr-Səfəvi dövlət idarəçilik sistemində ali ruhani vəzifə idi. O, dini işlər sahəsində mürşidi-kamilin iradəsini həyata keçirir, məzhəbin təbliğinə, dini strukturların fəaliyyətinə, məhkəmə işlərinə rəhbərlik edirdi.

Sədr vəzifəsinə təyin olunan ruhani sədrülsodur adlanırdı. Mütəxəssislərin fikrincə, Səfəvi hakimiyyətinin ilk illərində sədrin qarşısında dayanan başlıca vəzifə şiə məzhəbinin təbliği və maarifçiliyi ilə cəmiyyət daxilində vəhdətin ələ edilməsi idi. Bunun üçün sərt tədbirlərə əl atılması da istisna edilmirdi. Məlumdur ki, Səfəvi hakimiyyətinin bərqərar olmasından sonra bir sıra din xadimləri şiəliyi qəbul etdilər və bu məzhəbin rəsmi statusu ilə barışdılar. Başqa sözlə, aparılan işlər nəticəsində sünni məzhəbinə mənsub bir sıra din xadimlərini Səfəvi dövlətinin xidmətinə gətirmək mümkün olmadı. Amma dini strukturların rəhbərliyi altında bu istiqamətdə aparılan işlər hər zaman gözlənilən nəticəni verməyəndə şiəliyi qəbul etməyən sünni din xadimlərinə qarşı sərt cəzaların həyata keçirilməsinə başlandı. Belə din xadimlrəindən bəziləri qətlə yetirildi, bəziləri isə

Səfəvi səltənətini tərk edərək Osmanlı sultanlığına, Hindistana və digər məkanlara yollandılar.

Mənbələrdə olan məlumatlara görə isə, sədr vəzifədə olduğu müddətdə bu işləri görməli idi: "onlar seyidlərə və əmmaməlilərə himayə göstərməli və onların işlərində nümayəndələr kimi fəaliyyət göstərməlidirlər (yəni, onların mənafeyini müdafiə etməlidirlər), vəqfləri (övqaf) idarə etməli və şəriət məqsədləri (maarif) üçün pul verməlidirlər" (94).

Sədr vəzifəsi Səfəvi hakimiyyətinin ilk illərində digər hakimiyyət strukturları ilə kifayət qədər çulğaşmışdılar. Bu vəzifə sahibi və onun tabeliyində olan digər din xadimləri dövlətin xidmətində idilər və dövlətin işlərində yaxından iştirak edirdilər. Din xadimləri hətta döyüşlərdə də iştirak edirdilər. Məlumdur ki, sədr vəzifəsində olan Əmir Əbdülbaqi Çaldıran döyüşündə iştirak etmiş və bu döyüşdə şəhid olmuşdu (95). Əmir Əbdülbaqi isə sədr vəzifəsindən səltənət vəkili vəzifəsinə təyin edilmişdi (96). Bu faktlar da onu göstərir ki, sədr vəzifəsi dini işlərin rəhbəri olsa da dövlət həyatında yaxından iştirak edir və dövlət vəzifələrinə təyinat da alırdılar. Çaldıran döyüşünə qədər sədrlərin dövlət və hərbi işlərə yaxından cəlb edilməsi davam etdi. Çaldıran döyüşündən sonra isə sədrlərin fəaliyyətində dini işlər üstünlük təşkil etdi və onlar tədricən hərbi və dünyəvi işlərdən uzaqlaşdırıldı. Çaldıran döyüşündən sonra, ümumiyyətlə, dövlət daxilində hərbi fəallıqlar müəyyən dərəcədə səngidi və qiyamların qarşısının alınması, sərhəd hövzələrin möhkəmləndirilməsi istisna olmaqla fatehlik yürüşləri keçirilmədi. Yəni, Şah İsmayılın siyasətində müəyyən dəyişikliklər baş verdi ki, sədr vəzifəsi də bu dəyişikliklərdən kənarda qalmadı.

Sədr vəzifəsinə bir qayda olaraq səltənət daxilində böyük nüfuza malik olan və Şah İsmayılın etibarını qazanan ruhanilər təyin edilirdilər. Sədr vəzifəsinə elə ilk təyinat da bunu göstərirdi. Həmin vəzifəyə ilkin olaraq Mövlana Şəmsəddin Gilani təyin edildi. Bu nüfuzlu və bilikli din xadimi Şah İsmayılın Gilan mühacirəti zamanı onun tərbiyəçisi olmuşdu. Mövlana Şəmsəddin Gilanda olduğu illərdə Şah İsmayıla həm dini biliklər verdi, həm də ona fars və ərəb dillərini öyrətdi. Şah İsmayıl da onun savadını, etiqadını və sədaqətini təqdir edirdi və ona görə də sədr kimi yüksək bir vəzifəni ona həvalə etmişdi (97). Mövlana Şəmsəddin Gilani dövrünün sayılıb-seçilən şəxslərindən biri olmaqlla yanaşı, Səfəvi sarayının da nüfuzlu adamlarından biri idi.

Səfəvi dövlətinin ikinci sədri Qazi Məhəmməd Kaşani oldu. Qazi Məhəmməd Kaşaninin sədrliyi dövründə səltənət vəkili Əmir Nəcmədinlə onun arasında ixtilaflar yaranmağa başladı. Bu vəzifələrin hər ikisi çox yüksək dövlət vəzifələri idi və nüfuz uğrunda mübarizə onlar arasındakı ixtilafı münaqişə səviyyəsinə qaldırdı. Səltənət vəkili tərəfindən Qazi Məhəmməd Kaşaniyə qarşı bir sıra ittihamlar irəli sürüldü. Mənbələrdə olan məlumatlara görə, səltənət sədri günahsız insanların qətlə yetirilməsində və qeyri-qanuni işlərin görülməsində ittihamlandırıldı və həmin ittihamlar əsasında da qətlə yetirildi. Qazi Məhəmməd Kaşaninin qətlindən sonra yeni sədr təyinatı zamanı Əmir Nəcməddin öz namizədini irəli sürdü. Başqa sözlə, o, sədrə nisbətən daha yüksək

mövqeyə və nüfuza malik olmasını nümayiş etdirdi. Onun təklifi əsasında Əmir Seyid Şərifəddin Əli Şirazi səltənət sədri vəzifəsinə təyin edildi. Əmir Seyid Şərifəddinin isə vəkil Əmir Nəcmi Sani ilə ixtilafı yarandı. Bu ixtilafın xeyirlə bitməyəcəyini gördüyü üçün Əmir Seyid Şərifəddin səltənət vəkili ilə olan qarşıdurmadan geri çəkilməyi məqsədəuyğun saydı. Ona görə də Əmir Seyid Şərifəddin şah qarşısında məsələ qaldırdı ki, müqəddəs məkanlar olan Nəcəfin, Kərbalanın ziyarətinə yollanmasına icazə verilsin. Xahişi qəbul olunandan sonra Əmir Seyid Şərifəddin Əli Şirazi şah sarayını tərk etdi. Sonradan bu vəzifəyə Əmir Nizamədin Əbdülbaqi Yəzdi təyin edildi. Görünür ki, Əmir Əbdülbaqi Yəzdinin sədr vəzifəsindəki fəaliyyəti Şah İsmayılı çox razı salmışdı. Çünki, yuxarıda qeyd edildiyi kimi, Əmir Əbdülbaqi sonradan vəkil vəzifəsinə irəli çəkildi. Amma Əmir Əbdülbaqi sədr vəzifəsinin də icrasını davam etdirdi. Çaldıran döyüşündə şəhid olandan sonra sədr və vəkil vəzifələri yenidən ayrı-ayrı adamlara həvalə olundu. Müqəddəs məkanlara ziyarətdən geri qayıtmış olan Əmir Seyid Şərifəddin yenidən sədr vəzifəsinə təyin olundu. Mövcud məlumatlara görə, Əmir Seyid Şərifəddindən sonra çox qısa müddət ərzində sədr vəzifəsi Azərbaycan Seyidi olan Seyid Abdullaya tapşırıldı. Lakin o bu vəzifənin icrasının öhdəsindən gələ bilmədi və onun yerinə Əmir Camaləddin Astrabadi təyin edildi. O, Şah İsmayılın hakimiyyəti dövründə təyin edilmiş sonuncu sədr idi və Şah İsmayılın dəfn mərasiminə rəhbərliyi də o etmişdi (98).

Qazı vəzifəsinin qarşısında dayanan başlıca vəzifə ədalət məhkəmələrinin işinin istiqamətləndirilməsi idi. İnsanlar arasında baş verən bütün həllolunmaz mübahisələrin çözülməsi, haqlının müəyyənləşdirilməsi qazılar tərəfindən baş verirdi.

Dini işlərlə bağlı dövlət idarəçilik sistemində mövcud olan vəzifələrdən biri də qazıəsgər idi. Qeyd edildiyi kimi, qazıəsgərlər qoşun daxilində şəriət və hüquq məsələlərinin həlli ilə məşğul olurdular. Qazıəsgərlər ayrıca bir vəzifə kimi mövcud olmayan ərazilərdə onun vəzifəsi qazılar tərəfindən icra olunurdu (99).

Bir daha qeyd edilməlidir ki, Səfəvi dövlətinin idarəçilik sistemində digər çoxlu sayda vəzifələr də mövcud idi. Bu vəzifələrin əksəriyyətinin ənənələrdən qaynaqlanan konkret məsuliyyət sahələri var idi və həmin vəzifə sahibləri gördükləri işlərin müqabilində dövlət xəzinəsindən maaş alırdılar. Hakimiyyəti illərində Şah İsmayıl dövlət idarəçilik sisteminin ahəngdar və səmərəli fəaliyyətinə ümumən nail ola bilmişdi və bu da hakimiyyətin möhkəmləndirilməsinə müsbət təsirini göstərirdi.

## 2.Səfəvi qoşunları

### a) qoşunların təşkilatlanması

Şah İsmayıl hərəkatının uğurla başa çatmasını şərtləndirən iki mühüm amil var idi. Bu amillərdən biri etiqad idisə, digəri də Səfəvi qoşunları idi. Əslində, onları birini digərindən ayırmaq da doğru olmazdı. Çünki təriqət etiqadı və bunun nəticəsi kimi Şah İsmayıla olan inam olmasaydı, Səfəvi qoşunlarının

formalaşması da mümkün olmazdı. Səfəvi qoşunları isə təriqət etiqadı olmasaydı döyüşkən və güclü bir qüvvəyə çevrilə bilməzdi.

Səfəvi tarixinin mötəbər tədqiqatçıları Səfəvi dövlətini türklərin İran ərazisində dövlətçiliyinin və hökmranlığının üçüncü mərhələsi adlandırırlar. Bu mənada Səfəvi qoşunları da Qaraqaoyunlu və Ağqoyunlu qoşunlarının yeni mərhələdə davamı kimi, türkdilli qoşunların formalaşmasının yeni bir mərhələsi kimi qəbul olunur (100). Səfəvi dövləti ilə İranın qarşılıqlı əlaqəsi məsələsinə yuxarıda toxunuldu. Bir daha qeyd edilməlidir ki, Səfəvi dövləti Azərbaycan torpaqlarında bərqərar olundu və sonra öz ərazilərini İran (coğrafi anlamda) əraziləri hesabına genişləndirdi və hətta İran hüdudlarından kənarda olan xeyli ərazini də öz tərkibinə daxil etdi. Səfəvi qoşunlarının bir növ Qaraqoyunlu və Ağqoyunlu qoşunlarının varisi olmasına, bu dövlətlərdə olan qoşun quruculuğu təcrübəsi üzərində formalaşaraq daha da inkişaf etməsi haqqında deyilənlə bağlı isə bu fikrin elmi-tarixi baxımdan qəbul edilməsi, ümumən, mümkündür. Lakin Səfəvi qoşunlarının formalaşmasının özünəməxsus xüsusiyyətləri də istisna edilməməlidir. Həmin özünəməxsusluq Səfəvi təriqət hərəkatının mahiyyətindən irəli gəlirdi. Hər iki halda, yəni Qaraqoyunlu və Ağqoyunulu dövlətlərində, həm də Səfəvi dövlətlərində qoşunların əsasını türk tayfaları təşkil etmişdi. Amma adları çəkilən dövlətlərin qoşunlarının canlı bazasını döyüş üçün hazırlanmış və hərbi məqsədlər üçün toplanmış kontingent təşkil edirdisə, Səfəvi qoşunlarının əsasını əqidə uğrunda əlinə qılınc götürməyə hazır olan müridlər təşkil edirdilər. Bu kontingentin formalaşması isə hələ Şeyx Səfiəddinin mürşidliyi dövründən başlamış və Şah İsmayılın dövrünə və ondan sonrakı dövrə qədər davam etmişdi.

Məlumdur ki, Şeyx Səfi öz dövrünün son dərəcə böyük, nüfuzlu, mötəbər etiqad sahiblərindən biri idi və onun müridlərinin sayı yalnız Azərbaycan daxilində deyil, hətta Azərbaycanın hüdudlarından kənarda da xeyli artmışdı. Bu proses onun varislərinin mürşidliyi dövründə də davam etdi və Səfəvi xanəgahı bölgə insanlarının mənəvi istinadgah mərkəzinə, inanc yerinə çevrildi. Mürşidi-kamilə dərin inam, sonsuz bağlılıq və sədaqət Səfəvi müridlərini xarakterizə edən ən başlıca xüsusiyyət idi. Həmin inam və etiqad isə çoxlu sayda müridlərin mürşidi-kamilin çağırışı ilə silaha sarılmasına, mürşidi-kamilin yolunda həyatlarından belə keçməsinə gətirib çıxardı. Məhz mürşidi-kamilə sadiq olan müridlər Səfəvi (qızılbaş) qoşunlarının canlı qüvvələrinin ilkin bazasını təşkil etdilər.

Səfəvi təriqət hərəkatının dini-ideoloji müstəvidən dini-siyasi cərəyana transformasiyası Sultan Cüneydin mürşidliyi dövrünə təsadüf edir. Səfəvi müridlərinin qoşun dəstələri tərkibində birləşməsi və silahlanması da əsasən Sultan Cüneydin dövrünə təsadüf edir. Mövcud məlumatlar onu deməyə əsas verir ki, dövrün hərc-mərcliyi, hakimiyyət uğrunda daxili mübarizələrin kəskinləşməsi və onların əhali üçün ağır nəticələrə yol açması Səfəvi mürşidini və onun tərəfdarlarını daha ciddi şəkildə dünyəvi işlərə qoşulmaq məcburiyyəti qarşısında qoyurdu. Mənbələrə görə, Sultan Cüneyd davamlı olaraq insanların qarşılaşdığı zülmün kökünün kəsilməsi və müsəlmanlarının rifahı haqqında fikirləşirdi. Çox tezliklə Sultan Cüneydin cahangirlik keyfiyyətləri də özünü

göstərməyə başladı və buna görə də onun ətrafında birləşənlərin sayı da xeyli dərəcədə artdı (101).

Mənbələrin məlumatına görə, Sultan Cüneyd Ərdəbildə Qaraqoyunlu Cahanşahın təqiblərindən yaxa qurtarmaq üçün Diyarbəkrə yollanmazdan əvvəl 20 min atlını öz ətrafına toplamaq imkanına malik idi (102). Burada silahlı atlılar nəzərdə tutulurdu. Yəni Sultan Cüneydin hələ hərbi-siyasi mübarizəsini başlamazdan əvvəl artıq 20 min nəfərlik qoşun dəstəsi toplamaq imkanı var idi.

Hələlik Sultan Cüneydin zamanında 20 min sufi müridinin qoşun dəstəsinin tərkibində birləşməsi üçün necə hazırlaşdırılması haqqında müfəssəl məlumatlar mövcud deyil. Çox ehtimal ki, Səfəvi müridlərinin silahlı mübarizəyə hazırlaşdırılması məsələsinə Sultan Cüneyddən əvvəl başlanmış və onun dövründə bu proses davamlı və geniş xarakter almışdı. Səfəvi müridlərinin necə silahlandırılması, bu silahların haradan toplanması, müridlər arasında silah istehsalının mənimsənilib-mənimsənilməməsi haqqında da yetərli məlumat yoxdur. Dövrün xüsusiyyətlərini nəzərə alaraq belə güman etmək olar ki, müəyyən silahların istehsalı Səfəvi xanəgahının maliyyə ehtiyatları hesabına ola bilərdi. Silahların fərdi yolla əldə edilməsi də mümkün ola bilərdi. Çünki Səfəvi müridlərinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil edirdilər və onların da əksəriyyəti öz həyat tərzlərinə uyğun olaraq silahla bağlı idilər.

Diyarbəkrdə üç il qaldıqdan sonra Sultan Cüneyd yenidən Ərdəbilə qayıtdı. Bu dəfə mənbələrdə bildirilir ki, Sultan Cüneyd müridlərini götürüb Diyarbəkrdən geri qayıtdı. Amma bu müridlərin kimlər olduğu, yəni onların silahlı olub-olmadığı mənbələrdə göstərilməmişdir. Onun qayıdışı Qaraqoyunlu Cahanşahın qəzəbi ilə qarşılaşanda Sultan Cüneyd 20 minlik qoşun dəstəsi ilə Şirvana hərbi yürüş etdi. "Aləmara-yi Şah İsmayıl"da göstərilir ki, Sultan Cüneyd sufilərdən və müridlərdən 20 min nəfər götürüb Şirvan ölkəsinin işğalına yollandı (103). Digər mənbələrdə fərqli rəqəmlərə də rast gəlmək mümkündür. İstənilən halda, hələ Sultan Cüneydin mürşidliyi dövründə Səfəvi qoşunlarının təşkilatlanması artıq özünü göstərməkdə idi.

Burada maraq doğuran ilk məsələ 20 min nəfərlik qoşun dəstəsinin haradan toplanmasıdır. Yuxarıda qeyd edildiyi kimi, Sultan Cüneyd Diyarbəkrə yollanmazdan əvvəl 20 min nəfərlik qoşun dəstəsi toplaya bilirdisə, onda onun Şirvana yürüş edən 20 min nəfərlik qoşun dəstəsinin tərkibində Diyarbəkrdən gəlmiş sufilərin olub-olması aydın deyil. Əslində, Diyarbəkrdən Sultan Cüneydlə gələn sufilərin və müridlərin silahlı olması da mənbədə göstərilməmişdir. Özü də Sultan Cüneydin Qaraqoyunlu Cahanşah tərəfindən təqib olunduğu bir vaxtda Sultan Cüneydin silahlı dəstə ilə Qaraqoyunlu ərazisindən keçməklə Ərdəbilə gəlməsi də heç də asan olmazdı. Ola bilsin ki, Sultan Cüneydi müəyyən sayda silahlı müşayiət etmişdi. Amma Şirvana yürüş edən silahlı dəstənin Ərdəbildə və onun ətrafında toplanmasını da şübhə altına ala biləcək hər hansı bir məlumat mövcud deyil. 20 minlik qoşun dəstəsinin atlı və piyada olması da mənbədə göstərilməmişdir. Çox güman ki, bu qoşun dəstəsi əsasən atlılardan təşkil olunmuşdur. Digər tərəfdən bu qoşun dəstəsinin necə qruplaşdırılması, struktur

vahidlərinə bölüşdürülməsi haqqında da məlumat mövcud deyil. Dəstə üzvlərinin necə silahlanması haqqında da konkret bir fikir söyləmək çətindir. Hər halda Sultan Cüneyd 20 minlik qoşun dəstəsi ilə Şirvanşahın və onun müttəfiqlərinin birləşmiş qoşun dəstəsinə qarşı ağır döyüşə girə bildi. Məlum olduğu kimi, Sultan Cüneyd bu döyüşdə də həyatını itirməli oldu.

Bu deyilənlər belə bir qənaəti ortaya qoyur ki, Şah İsmayıl öz hərəkatına başlamazdan hələ xeyli əvvəl Səfəvi qoşunlarının təşkilatlanmasının müəyyən bir təcrübəsi mövcud idi və bu təcrübə Sultan Cüneydin oğlu Sultan Heydərin mürşidliyi dövründə daha da möhkəmləndi. Sultan Heydərin dövründə də Səfəvi təriqət hərəkatının siyasi məqsədlər uğrunda mübarizəsi daha da genişlənməklə davam etdi. Eyni zamanda Səfəvi müridlərindən ibarət qoşun dəstələrinin təşkilatlanması daha da təkmilləşdi. Sultan Heydər öz müridləri və qoşun dəstəsi üçün yeni geyim formasının, xüsusilə qızılbaş papaqlarının tətbiqinə başladı. Sonra da öz müridlərindən qoşun dəstəsi təşkil edərək atasının qisasını almaq üçün Şirvana yürüş etdi .

Şirvan yürüşündə Sultan Heydərin 10 min nəfərlik qoşun dəstəsi var idi (104). Bu say özü də kifayət qədər böyük say idi və Sultan Heydər istədiyi halda bu sayı daha da artıra bilərdi. Mənbə məlumatlarından görünür ki, qızılbaş qoşunlarının döyüş hazırlığı da xeyli artmışdı və bu qoşunlarda dövrün hərb məharəti təcrübəsindən ustalıqla istifadə olunurdu. Məsələn, Sultan Heydər Şirvanşahın topladığı qoşun dəstəsinə qarşı döyüşə başlayanda öz qoşunlarının döyüşqabağı düzülüşünü müəyyənləşdirdi, onların vəzifələrini dəqiqləşdirdi. Sultan Heydər qoşunların mərkəz qüvvələrini, sol və sağ cinahlarını təyin etdi. Özü qoşunların mərkəzində dayanmaqla sol və sağ cinahları öz əmirlərinə həvalə etdi. Bu özü də artıq maraq doğura biləcək məsələ idi ki, qızılbaş qoşunlarında müəyyən sayda əmirlər və sərkərdələr də yetişməkdə idi. Əvvəlki fəsillərdən aydın olduğu kimi, Sultan Heydər bu döyüşdə şəhid oldu. Onun böyük oğlu Sultan Əlinin mürşidliyi dövründə də qızılbaş hərbi qüvvələrinin təşkilatlanması davam etdi. Mənbələrdə göstərilir ki, onun da rəhbərliyi altında 30 min nəfər sufi (qoşun) var idi (105). Sultan Əli də döyüşlərdə iştirak etdi və o da elə döyüşlərdə şəhid oldu. O da iştirak etdiyi döyüşlərdə qızılbaş qoşunlarına rəhbərlik etməklə bərabər, həm də kifayət qədər yetkin bir döyüş hazırlığı nümayiş etdirdi.

Sultan Əlinin şəhid olmasından Şah İsmayılın (İsmayıl Mirzənin) öz hərəkatına başlamasına qədər 5-6 illik bir fasilə vardır. Həmin müddət ərzində qızılbaşlar arasında qoşun tərkibində təşkilatlanma meyli heç də səngimədi. Yəni, Sultan Cüneydin dövründən qoşun toplanması üçün mövcud olan baza heç də itmədi və Şah İsmayılın hərəkata başlamasından az sonra bu baza yenidən hərəkətə gətirildi. Bir daha qeyd edilməlidir ki, türk tayfalarının daxilində bu potensial mövcud idi və həmin tayfalar arasında Səfəvi müridliyinin geniş yayılması isə bu bazanın davamlı olaraq canlı qalmasını şərtləndirirdi. Ona görədir ki, Şah İsmayıl qısa müddət ərzində böyük sayda qoşun dəstəsi toplaya bildi.Top-

lanan qoşunlar da öz silahları və atları ilə mürşidi-kamilin hərbi tapşırıqlarının yerinə yetirilməsinə hazır olduqlarını bəyan etdilər.

Mövcud məlumatlar belə bir qənaətə gəlməyə əsas verir ki, Şah İsmayılın öz hərəkatını başladığı zaman topladığı qoşunlar öz təchizatı və döyüş imkanları baxımından bölgədəki dövlətlərin, o cümlədən Ağqoyunlu və Şirvanşah dövlətlərinin qoşunlarından heç də geri qalmırdı. Əksinə, döyüş təcrübəsi olmayan qoşunlarla Şah İsmayıl uğurlu fatehlik yürüşlərinə başladı və bir-birinin ardınca hərbi qələbələr əldə etdi.

Qızılbaş qoşunlarının hansı əlamətlər üzrə təşkilatlanması, hansı struktur vahidlərə bölünməsi, onların idarəçiliyinin necə qurulması haqqında mənbələrdə ciddi məlumatlara rast gəlmək mümkün deyil. Heç şübhəsiz ki, bu qoşunlar təşkilatlandırılarkən dövrün mövcud təcrübəsi əsas götürülmüşdü. Bu mənada Səfəvi qoşunlarının ilkin dövrü haqqında müəyyən təsəvvürü həm də Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin təcrübəsini nəzərdən keçirməklə də əldə etmək mümkündür. Tədqiqatçılar da haqlı olaraq bildirirlər ki, Şah İsmayılın qoşunları öz quruluşuna və təşkilatlanma xüsusiyyətlərinə görə, Ağqoyunlu Əlvənd Mirzənin qoşunlarının eyni idi (106).

Bütün türk tayfalarında olduğu kimi Qaraqoyunlu və Ağqoyunlu tayfalarında da güclü qoşun ənənələri qalmaqda idi. Əslində, bu tayfa ittifaqlarına daxil olan tayfaların hər bir sağlam kişi üzvü potensial döyüşçü idi. Onlar at üstündə böyüyürdülər, qılınc vurub, ox atmağı hələ kiçik yaşlarından öyrənirdilər. Tayfaların köçəri və ya yarımköçəri həyat tərzi bunu onlardan tələb edirdi. Bu baxımdan Qaraqoyunlu və Ağqoyunlu tayfalarında xalq-qoşun ənənəsi heç də öz əhəmiyyətini itirməmişdi. Yəni, tayfaların sağlam və uyğun yaşda olan əhalisinin hamısı zərurət yarananda qoşun sıralarına qoşula bilirdilər və buna hazır idilər.

Bu təcrübənin Səfəvi qoşunlarının ilkin dövründə bütünlüklə təkrarlandığını söyləmək yəqin ki, doğru olmazdı. Çünki ilk vaxtlar qoşunların toplanması əsasən müridlər arasında baş verirdi. Amma heç şübhəsiz ki, vaxt ötdükcə türk tayfaları daxilindəki ənənələr və təcrübə daha geniş şəkildə Səfəvi qoşunlarına sirayət etdi. Qaraqoyunlu və Ağqoyunlu qoşunlarında olduğu kimi Səfəvi qoşunlarının da başlıca olaraq türk tayfalarına istinad etməsi bu qoşunların mühüm xarakterik xüsusiyyətləridnən biri idi. Uzun müddət də bu qoşunlar türk tərkibli qoşunlar olaraq qalmışdılar. Qaraqoyunlu və Ağqoyunlu qoşunları kimi Səfəvi qoşunları da müvafiq dövlətin meydana gəlməsindən əvvəl təşkilatlanmışdı. Qoşunların tərkibi tayfa ittifaqlarına daxil olan tayfaların üzvlərindən ibarət idi. İlkin vaxtlarda Qaraqoyunlu və Ağqoyunlu qoşunlarının tərkibində olduğu kimi, Səfəvi qoşunlarında da həmin tayfa ittifaqlarının məskunlaşdığı bölgədəki digər xalqların nümayəndələrinin olması istisna deyildir. Lakin qoşunların əsasını türk etnik tərkibi təşkil edirdi. Səfəvi dövləti Azərbaycan hüdudlarını aşdıqda digər vilayətlərdən də qoşunlar toplanmağa başladı. Qoşunların təşkili kütləviləşdi, dövlətə daxil olan bütün etnik toplumlar bu işə cəlb edildi. Qoşunların rəhbər heyətinin əsasını isə sufi müridləri olan türk hərbi elitası təşkil edirdi.

Səfəvi qoşunlarının digər bir xarakterik xüsusiyyəti isə onların tərkibində sufi müridlərinin əksəriyyət təşkil etməsi idi. Bu qoşunlar ilk vaxtlar sadəcə olaraq yalnız etnik mənsubiyyətinə görə fərqlənmirdilər. Onlar Səfəvi təriqətinə dərin inamı, bağlılığı və etiqadı olan, mürşidi-kamil yolunda həyatlarından keçməyə hazır olan müridlərdən toplanmışdılar. Yəni, Səfəvi qoşunlarını ilk növbədə təriqət etiqadı, dərin mənəvi bağlılıq birləşdirirdi və bunun nəticəsi idi ki, Səfəvi döyüşçüləri böyük fədakarlıq və qorxmazlıqla qarşı tərəfin qoşunlarının üzərinə atılırdılar. Səfəvi qoşunlarının başqa bir xarakterik cəhəti isə Qaraqoyunlu və Ağqoyunlu qoşunlarında olduğu kimi türk döyüş sənətinin və hərb məharətinin üzərində formalaşması idi. Doğrudur, bu qoşunların dövrün hərb təcrübəsindən faydalanmasını istisna etmək olmaz. Amma bu təcrübəsnin əsasını da əslində türk hərb sənəti təşkil edirdi. Baxmayaraq ki, qızılbaş döyüşçüləri mürşidi-kamilə sədaqət nümunəsi kimi hər cürə fədakarlıqlar göstərməyə hazır idilər. Bununla belə, onların da müəyyən döyüş təcrübəsi var idi və bu təcrübə türk döyüş ənənələrinə istinad edirdi. Səfəvi qoşunlarının döyüş təcrübəsi ilk növbədə məhz türk tayfalarının döyüş sənətinin ifadəsi və canlandırılması idi. Bütünlükdə, bu qoşunlarda köçəri-tayfa formalaşma normaları özünü güclü şəkildə nümayiş etdirməkdə idi. Yəni, sonrakı dövrlərdə, xüsusilə, Şah İsmayıl Səfəvidən sonrakı dövrlərdə qoşunların təşkilində özünü daha qabarıq şəkildə nümayiş etdirən saray ənənəçiliyi Səfəvi qoşunlarının ilkin dövründə hələ yaranmamışdı. Bu qoşunların təşkilində köçəri-tayfa elementləri, hərbi elitanın aşağılardan çıxması, köçəri-tayfa idarəetmə normalarının tətbiqi daha güclü şəkildə mövcud olmuşdur.

Şah İsmayılın öz hərəkatını başlamasına qədər və eləcə də Şah İsmayıl hərəkatının ilkin dövründə qoşunların toplanması könüllülük prinsipinə əsaslanırdı. Sufi müridləri könüllü olaraq Səfəvi-qızılbaş qoşunlarında birləşir və mürşidi-kamilin buyurduqlarının silahlı icrasına da hazır olduqlarını bəyan edirdilər. Mənbələrdən də məlumdur ki, İsmayıl Mirzə Şirvan üzərinə yürüşdən əvvəl Anadoludakı türk tayfalarından çoxlu sayda könüllülər gəlib ona qoşuldular. Bu könüllülər mənsub olduqları tayfaların ağsaqqallarının rəhbərliyi altında qızılbaş qoşunlarının tərkibinə qatıldılar. Həmin könüllülər başlıca olaraq Ustaclı, Şamlı, Təkəli, Rumlu, Zülqədər, Əfşar, Qacar, Varsağ tayfalarının nümayəndələri idilər. Bu tayfaların könüllü dəstələrinin qoşulmasından sonra Səfəvi-qızılbaş qoşunlarının sayının 12 min nəfərə çatdığı bildirilirdi (107).

Ümumən, adları çəkilən tayfalar Səfəvi-qızılbaş qoşunlarının təşkilatlanmasında mühüm rol oynamışdılar. Könüllülük prinsipi Səfəvi qoşunlarının təşkilinin əsas prinsipi idi və uzun müddət də bu prinsip vahid prinsip olaraq qüvvədə qaldı. Səfəvi dövlətinin formalaşmasının yetkin çağlarında qoşunların toplanması üçün məcburiyyət prinsipinin tətbiqini də istisna etmək olmaz. Çünki qoşun toplanması üçün vilayət hakimlərinə verilən tapşırıqların icrası zamanı məcburiyyət prinsipinin tətbiqi də mümkün ola bilərdi. Əks təqdirdə, yetərli sayda qoşun toplanması da mümkün olmazdı.

Səfəvi-qızılbaş qoşunları dövrün mənbələrində "qoşun (108), ləşgər, sepah (109)" adları ilə adlandırılmışlar. Bu sözlərin hər üçü mənbələrdə eyni mənada işlədilmişdir və onlar qoşun mənasını verir. Birinci ifadə türk dilində olduğu halda, sonrakı ifadələr fars dilindədir. Nəzərə alınsa ki, Şah İsmayılın hakimiyyəti illərində və ondan sonrakı illərdə qoşunlarda və sarayda danışıq dili türk dili idi, onda əminliklə demək olar ki, qoşun sözünün işlədilməsi daha geniş yayılmışdı. Bu sözlər həm bütünlüklə dövlətin qoşunlarını ifadə etmək üçün, həm də ayrılıqda hansısa bir vilayətin, ərazinin qoşun dəstəsinin ifadə edilməsi üçün işlədilmişdir. İstənilən halda bu sözlər istər dövlət daxilində, istərsə də vilayət çərçivəsində toplanmış olan bütün silahlı qüvvələri, habelə onların yardımçı qüvvələrini bir təşkilat halında nəzərdə tuturdu.

Bu mənada elmi-tarixi ədəbiyyatda Səfəvi qoşunlarının ifadəsi üçün bəzi terminlərin dəqiqləşdirilməsinə ehtiyac vardır. Məsələn, bir çox tədqiqat əsərlərində Səfəvi dövlətinin hərbi qüvvələri "ordu" kimi təqdim edilmişdir. Həmin terminin "qoşun" termini ilə əvəz edilməsi daha doğru olardı. Bu terminlərin ifadə etdiyi hərbi qüvvələr öz komplektləşdirmə, təminat-təchizat, idarəetmə, təşklatlanma üsullarına görə bir-birindən fərqlənirlər. Səfəvi dövrünün və bütünlüklə orta əsrlərin hərbi qüvvələri "qoşun" termininin ifadə etdiyi mənanı özündə daha çox əks etdirir.

Bəzi tədqiqatçıların fikrincə, Səfəvi dövlərinin hərbi qüvvələri daimi (sabit) qoşundan və yardımçı qüvvlərdən ibarət idi. Həmin tədqiqatçılar sonra da əlavə edirlər ki, daimi qoşun "sepah" və ya "ləşgər" adlanırdı (110). Bu iddianı da birmənalı şəkildə qəbul etmək mümkün deyildir. Çünki əgər mənbələrə diqqət yetirilərsə, "qoşun" termini də, "sepah" və "ləşgər" terminləri də dövlətin və ya vilayətin bütün qoşunlarını, ya da döyüşün aparılmasına cəlb edilmiş bütün qüvvələri ifadə edirdi. Daimi qüvvələr isə bu qoşunun və ya ləşgərin müəyyən bir hissəsini təşkil edə bilərdi. Səfəvi-qızılbaş qoşunlarının təşkilatlanmasının ilkin dövründə mühafizəçilər dəstəsi istisna olmaqla, ümumiyyətlə, daimi qoşun dəstələrinin mövcudluğunu təsdiq etmək çətindir. Daimi qoşun dəstələrinin təşkilatlanması və genişlənməsi Səfəvi dövlətinin bərqərar olduğu və möhkəmləndiyi dövrə aiddir. Daimi qoşun dəstəsinin dövlətin bütün qoşunlarının kiçik bir hissəsini təşkil edə bilərdi. Böyük sayda qoşun dəstəsinin daimi qoşun kimi saxlanması çox baha başa gələrdi. İstər mərkəzi hakimiyyətin nəzdində, istərsə də vilayət hakimlərinin nəzdində təhlükəsizlik məsələlərinin daimi həllinə hazır olan müəyyən sayda qoşun dəstəsi saxlanılırdı. Böyük sayda qoşun dəstəsi isə bir qayda olaraq hərbi yürüşlər ərəfəsində toplanırdı. Bununla bağlı, vilayət rəhbərlərinə və tayfa başçılarına müvafiq göstəriş verilirdi.

Yerlərdə böyük sayda qoşun dəstələri, qeyd edildiyi kimi, tayfa başçılarının rəhbərliyi altında toplanırdı. Həmin tayfanın ağsaqqalı, kəlantəri, başçısı "bəy" olaraq öz hesabına topladığı dəstəni təşkilatlandırırdı. Amma bu dəstənin toplanması daha çox könüllü xarakter daşıyırdı. Döyüşçü azad surətdə qoşun dəstəsinə daxil olmaqla, azad şəkildə də qoşun dəstəsini tərk etmək səlahiy-

yətinə malik idi. Bu isə müəyyən vaxtlarda dəstənin say tərkibinin dəyişməsinə yol aça bilərdi.

Şah İsmayılın qoşunları dövrün qoşunları ilə müqayisədə kütləviliyi ilə seçilmirdi. Doğrudur, bəzi tədqiqatçılar Şah İsmayıl dövrünün qızılbaş qoşunlarının sayının 60 min nəfər olduğunu göstərirlər (111). Amma bu rəqəmi də birmənalı şəkildə qəbul etmək mümkün deyildir. Bütünlükdə, Səfəvi-qızılbaş qoşunlarının say tərkibinin müəyyənləşdirilməsi üçün ciddi bir statistika yoxdur. Məlumdur ki, Səfəvi qoşunlarının tərkibində qoşunnevislər (qoşun mirzələri) mövcud idi və onların vəzifəsi də qoşunların tərkibində xidmət edənlərin və qoşuna yazılanların siyahılarının tutulması idi. Bununla belə, dövriyyədə olan mənbələrdə Şah İsmayıl dövrünün qoşunlarının sayı barəsində düzgün təsəvvür yaradacaq məlumat mövcud deyil. Hər tayfa rəhbəri toplaya biləcəyi sayda qoşun dəstəsi toplayırdı. Onların sayı isə elə də çox olmurdu.

Şah İsmayılın vəfatından 6 il sonra Şah Təhmasibin hakimiyyəti illərinə aid olan bir məlumatda Səfəvi qoşunlarının ümumi sayı 100 min nəfərdən artıq göstərilmişdir. Bu məlumatın nə dərəcədə doğru olmasına toxunmadan qeyd edilməlidir ki, Səfəvi qoşunlarının tərkibinə daxil olan türk tayfa qoşun dəstələrindən ən böyüyünün sayı 15-16 min nəfər göstərilmişdir (112). Şah İsmayıl isə, bir qayda olaraq, böyük sayda qoşunların toplanmasına meylli deyildi. Onun həyat yolundan da göründüyü kimi, Şah İsmayıl keçirdiyi böyük döyüşlərin heç birində qüvvə üstünlüyünə malik olmamışdı. Şah İsmayıl döyüşlərdə qüvvə üstünlüyünə deyil, hərb məharətinə xüsusi diqqət yetirirdi və uğurlarının çoxunu da məhz bu yolla əldə edirdi. Hətta Çaldıran döyüşü kimi ciddi bir döyüşə də Şah İsmayıl 25-27 min nəfərlik bir qüvvə ilə yollanmışdı. Əvvəlki fəsillərdən məlumdur ki, türkdilli mənbə və elmi-tarixi ədəbiyyatda Çaldıran döyüşü zamanı Şah İsmayılın sərəncamında 40 min nəfərlik qoşun dəstəsinin olduğu göstərilmişdir. Bu rəqəm ciddi mənbə bazasına malik deyil və etibar doğurmur. Bununla belə, bu dəqiqləşdirilməmiş say Şah İsmayılın qoşunlarının sayı haqqında ən böyük rəqəmdir. Yəni, Şah İsmayıl qoşunlarının sayı Osmanlı qoşunları ilə müqayisədə elə də çox deyildi. Əgər vilayət hakimlərinin yanında təşkil edilmiş qoşun dəstələri ilə mərkəzi hakimiyyətin tabeçiliyində olan qoşunlar bir yerə toplansaydı, onda yuxarıda göstərilən 60 min rəqəmini əldə etmək mümkün ola bilərdi.

Vilayət qoşunlarının mərkəzi hakimiyyətə tabe olan qoşunlara qoşulması üçün Şah İsmayıl (İsmayıl Mirzə) tərəfindən xüsusi göstərişlər yazılır və həmin göstərişlər yerlərə göndərilirdi. Məsələn, Şah İsmayıl ərəb İraqında olarkən Ağqoyunlu Əlvənd Mirzə tərəfindən Səfəvi qoşunlarına qarşı yeni planlar həyata keçirməyə çalışması haqqında məlumat aldı. Şah İsmayıl bu təhlükənin qarşısının alınması üçün əlavə qoşun dəstələrinin toplanmasına ehtiyac duydu və bununla əlaqədar, Ustaclı və Şamlı oymaqlarına, habelə Gəncə, Qarabağ və Şirvan hakimlərinə göstəriş yazıb göndərdi. Az sonra həmin vilayət və oymaqlardan toplanmış 15 min nəfərlik qoşun dəstəsi Şah İsmayılın sərəncamına yetişdi (113).

Mənbələrdə olan məlumatlara görə, Xorasan yürüşünün gedişində də Şah İsmayıl vilayətlərdən əlavə qoşun qüvvələrinin toplanması haqqında göstəriş verdi. Konkret olaraq, Şeybək xanla döyüşün qaçılmaz olduğunu görəndə bu döyüşdə uğur qazanılmasını şərtləndirəcək sayd qoşun toplanmasını lazım bildi. Bunun üçün vilayətlərə xəbər göndərdi. Qoşun toplanması və hərbi məzmunlu digər göstərişlərin vilayət hakimlərinə çatdırılması üçün qoşun tərkibində xüsusi adamlar var idi. Onlar təvaçi adlanırdılar. Şeybək xanla döyüş ərəfəsində əlavə qüvvələrin toplanması xəbərini də yerlərə təvaçilər çatdırdılar. Şah İsmayılın fərmanına əsasən, əcəm və ərəb İraqlarında, Farsda, Kermanda, Kürdüstanda, Luristanda, Diyarbəkrdə, Aran və Azərbaycanda xeyli sayda qoşun toplandı və bu qoşunlar yerli hakimlərin rəhbərliyi altında ümumi qoşunlara qatıldılar (114).

Tədqiqatçılar da qeyd edirlər ki, Şah İsmayılın qoşunlarının sayı o qədər də çox deyildi və onun qoşunlarının çoxluğu barəsində göstərilən rəqəmlər də doğru deyildir. Çünki bir tərəfdən Şah İsmayılın qoşunlarını təşkil edən tayfa əhli uzun müddət öz yaşayışlarından, öz həyatlarından ayrıla bilmirdilər. Belə olanda onların təsərrüfatı nəzarətsiz qala bilərdi ki, bu da onların yaşayışına mənfi təsir göstərə bilərdi. Digər tərəfdən böyük sayda qoşunların saxlanması üçün böyük ərzaq və heyvanlar üçün yem ehtiyatlarına malik olmaq lazım idi ki, bu da həlli mürəkkəb olan məsələlərdən biri idi. Bu çətinliklər xüsusi ilə Şah İsmayılın hərəkatının ilk illərinə aid idi (115).

Mövcud məlumatlara görə, vilayətlərdə saxlanılan qoşun dəstələrinin sayı adətən 1000-3000 nəfərdən çox olmurdu. Bundan artıq qoşun dəstəsinin vilayətlərdə saxlanmasına həm ehtiyac yox idi, həm də maliyyə imkanı yox idi. Ona görə, vilayət qoşun dəstələrinin sayı barədə göstərilən artırılmış rəqəmlərin birmənalı şəkildə qəbul edilməsi doğru deyildir. İstər vilayət qoşunlarının, istərsə də mərkəzi hakimiyyətə tabe olan qoşunların sayının çox olmasını tədqiqatçılar bir çox hallarda qoşunlarının əsas qüvvələri ilə onun yardımçı qüvvələrinin bir yerdə göstərilməsi ilə əlaqələndirirlər. Məsələn, məlumdur ki, qoşunlar hərbi yürüşə çıxanda döyüşçülər öz ailə üzvlərini, xidmətçilərini də özləri ilə aparırdılar. Hər bir döyüşçünün hərbi yürüş zamanı qidalanması, əsasən, ayrıca təşkil olunurdu və bu məsələ xidmətçilər vasitəsilə həll olunurdu. Şahın mühafizəsini təşkil edən silahlı personalın, daimi qoşun bölmələrinin qidalanması istisna təşkil edə bilərdi. Döyüşçülərin xidmət personalının sayı isə çox ola bilərdi. Bundan başqa, hərbi yürüşlər zamanı qoşunlara ordu-bazar da qoşulurdu. Ordu-bazar qoşunların təminatında, təchizatında, qoşun əhlinin zərurət duyduğu malların müştərilərə çatdırılmasında böyük rol oynayırdılar. Ordubazarı təşkil edən kontingent də say tərkibinə görə böyük idi. Amma onların sayının döyüşən qoşunların sayına əlavə edilməsi doğru deyildir. Bununla belə, ordubazarın personalının da qoşun personalı kimi göstərilməsi və buna görə də bəzi hallarda Şah İsmayıln qoşunlarının sayı ilə bağlı şişirdilmiş rəqəmin alınması heç də istisna deyildir (116).

Ağqoyunlu dövrünə aid olan məlumatlarda göstərilir ki, qoşunlarda xidmətçi və köməkçi heyət döyüşçü heyətindən xeyli çox idi. Mövcud olan

məlumatlara görə, 35 min nəfərlik döyüş tərkibi olan qoşunun hərbi yürüş zamanı ümumi tərkibi 100 minə çatırdı (117). Başqa sözlə, xidmətçi və köməkçi heyət döyüş tərkibinin sayından təxminən üç qat artıq idi.

Qeyd edilməlidir ki, vəzifəli və imkanlı adamların özlərinin ayrıca silahlı dəstəsi olması faktı da mənbələrdə yer almışdır. Məsələn, yuxarıda qeyd edildiyi kimi, səltənət vəkili Əmir Nəcminin şəxsi vəsaiti hesabına saxladığı 5 min nəfərlik qoşun dəstəsi var idi. Bu qoşun dəstəsi də zərurət yarananda Səfəvi qoşunlarının tərkibinə əlavə eidlirdi.

Şah İsmayıl qoşunlarının əsasını türk tayfaları təşkil edirdilər. Amma qeyri-türk döyüşçülərin Səfəvi qoşunlarında mövcudluğu da istisna deyildi. Hələ hərakatının əvvəlində Şah İsmayıla (İsmayıl Mirzəyə) Gilandan, talışlardan və kürdlərdən qoşulanlar da var idi. İran vilayətləri hakimiyyət altına gətirildikdən sonra həmin vilayətlərdən də qoşunlar toplanırdı və hərbi yürüşlər zamanı farsdilli vilayətlərdən toplanmış qoşun dəstələri də Şah İsmayılın rəhbərliyi altında olan qoşun dəstəsinə qoşulurdu.

Şah İsmayılın qoşunlarının əsasını atlılar təşkil edirdilər. Bunun bir sıra səbəbləri var idi. Bir tərəfdən atlı qoşunlarının əksəriyyət təşkil etməsi dövrün hərb məharəti təcrübəsindən və dövrün ənənələrindən irəli gəlirdi. Çünki atlı qoşunlar döyüşçülərin sürətli və çevik hərəkətini təmin edir, qoşunların qısa zaman ərzində bir məntəqədən başqa bir məntəqəyə atılmasına imkan verir, zərbə gücünü artırmağa yol açırdı. Nəzərə alınmalıdır ki, Şah İsmayılın hakimiyyəti illərində Səfəvi qoşunlarında odlu silahların geniş tətbiqinə başlanmamışdı. Məhz odlu silahlara keçid piyada qoşunların sırasının genişlənməsinə əlavə zərurət yaratdı. Şah İsmayıl isə soyuq silahlara dayaqlanan ənənəvi döyüş üsuluna daha böyük üstünlük verirdi və onun hakimiyyəti illərində atlı qoşunların böyük üstünlüyü saxlanmaqda idi.

Səfəvi qoşunlarında atlı qüvvələrin böyük əksəriyyət təşkil etməsi, onu deməyə əsas verir ki, səltənət daxilində və bölgədə atçılığın inkişafına böyük diqqət yetirilirdi. Əks təqdirdə, böyük sayda olan qoşun dəstələrini atla təmin etmək çətin olardı. Böyük at ehtiyatlarının olması döyüş itkilərinin aradan qaldırılması və zərurət yaranan vaxtlarda qoşunların sayının artırılması üçün də zəruri idi. Ümumən, hərbi yürüşlər zamanı ehtiyat atların mövcudluğu ciddi bir tələb kimi irəli sürülürdü. Bəzi vaxtlarda, Şah İsmayıl tələb edirdi ki, hərbi yürüşə yollanan döyüşçü üç baş ata malik olsun (118).

Səfəvi qoşunlarının əksəriyyətinin atlı olması həm də türk tayfalarının həyat tərzindən irəli gəlirdi. Türk tayfalarının həyatı atla sıx bağlı idi və əslində, hər bir tayfa üzvünün həyatı at belində keçidi. Onlar atdan məharətlə istifadə etməyi də bacarırdılar. Bu isə onlara imkan verirdi ki, döyüşdə daha çox çeviklik və məharət nümayiş etdirsinlər.

At həm də hərbi yürüşlərdə nəqliyyat vasitəsi rolunu oynayırdı. Döyüşçülərin və eləcə də onların xidmət personalının bir məntəqədən başqa bir məntəqəyə yollanması atlar üzərində baş verirdi.

Səfəvi qoşunlarında piyada qüvvələri də var idi. Onları sayı atlı qoşunlara nisbətən az idi. Mənbələrdə onlar haqqında geniş məlumat yoxdur. Bununla belə, mövcud faktlar piyadalaırn sıralarında nəqəbçilərin, belçilərin, təbərdarların (baltaçılar) və digərlərin olmasından xəbər verirlər. Şah İsmayılın apardığı döyüşlərin hamısının taleyi atlı qüvvələr tərəfindən həll edilmişdi. Bu döyüşlərdə piyada döyüş qüvvələrinin iştirakı görünmür. Yalnız köməkçi piyada qüvvələrinin fəaliyyəti haqqında mənbələrdə müxtəsər məlumatlarla rastlaşmaq mümkündür. Xüsusi ilə, nəqəbçilər (lağım atanlar) qala döyüşlərinin aparılmasında müəyyən xidmətlər göstərməli olurdular. Məsələn, 1510-cu ildə Dərbənd şəhəri üzərinə hücum zamanı nəqəbçilərin xidmətindən geniş istifadə olundu. Qala divarlarını hücumla almaq mümkün olmayanda Şah İsmayıl divarlar altından lağım atılması barəsində göstəriş verdi. Bunun nəticəsi kimi Dərbəndin qala divarları altından 12 yerdən lağım atıldı. Bu faktın özü göstərir ki, Şah İsmayılın qoşunlarında olan nəqəbçilər kifayət qədər təcrübəli adamlar idilər. Çünki möhkəmliyi ilə seçilən Dərbənd divarları altından 12 yerdən lağım atılmasını yalnız təcrübəli lağımçılar bacarardılar.

Qərşi qalasının ələ keçirilməsi zamanı da nəqəbçilərin xidmətindən istifadə edildi. Qalanın fəth edilməsi üçün göstərilən bütün cəhdlər baş tutmadıqda qala divarları altından lağım atılması qərara alındı və həmin lağımlardan adlamaqla qalanı da ələ keçirmək mümkün oldu.

Mənbələrdəki məlumatlara görə, Səfəvi qoşunlarında qala divarlarını vuran mancanaqlar və digər dəzgahlar var idi (119). Bu dəzgahların istifadəsi üçün isə heç şübhəsiz ki, onları işlətməyi bacaran xüsusi heyətlər mövcud idi. Onlar da piyada qüvvələrinin tərkib hissəsi ola bilərdi. Piyada qüvvələrindən qala divarlarının mühafizəsi, sarayların, xidməti sahələrin mühafizəsi zamanı istifadə olunması da istisna deyildir. Amma aparılan təhlillər belə bir qənaətə gəlməyə əsas verir ki, köməkçi qüvvələr kimi istifadə olunan nəqəbçilər və digərləri də hərbi yürüşlər zamanı piyada deyil at belində hərəkət edirdilər. Yəni, Səfəvi qoşunlarına daxil olan bütün qüvvələr, bütün xidmət sahələri at belinə qaldırılmışdılar.

Xidmət müddətinə görə, Səfəvi qoşunları daimi və qeyri-daimi kontingentdən ibarət idi. Qoşunların böyük hissəsi qeyri-daimi qoşunlar idilər. Bu kontingent, bir qayda olaraq, döyüşlərin və hərbi yürüşlərin həyata keçirilməsi üçün toplanırdılar. Bununla əlaqədar, bölgələrə təvaçilər göndərilir və onların vasitəsilə şah fərmanları yerlərə çatdırılırdı. Yerlərdə toplanan qoşunların da əsasını qeyri-daimi qoşunlar təşkil edirdilər. Qoşunların toplanmasının daimi və qeyri-daimi üsulu, əslində, dövrün təcrübəsindən irəli gəlirdi. Döyüşlər və hərbi əməliyyatlar keçirilməyəndə böyük sayda qoşunun saxlanmasına hər hansı bir ehtiyac yox idi. Həmin qoşunların saxlanması da böyük həcmdə maliyyə ehtiyatları tələb edirdi. Daimi kontingentə aid olmayan qoşun qüvvələri döyüşlərin aparılmadığı vaxtlar və ya hərbi təhlükə olmadığı vaxtlar evlərinə buraxılırdılar. Nəzərə alınsa ki, döyüşlər adətən havaların quraqlıq dövründə keçirilirdi, onda qışda toplanmış qoşunların saxlanması məqsədəuyğun sayılmırdı. Qeyri-daimi qoşunların məvacibi bu qoşunları toplayan hakimlər tərəfindən ödənilirdi. Mərkəzi hakimiyyət tərəfin-

dən toplanan qüvvələrin məvacibi isə ayrılmış torpaq sahələri ilə, xəzinədən ayrılan pul ilə, müharibə qənimətlərinin bölüşdürülməsi ilə həyata keçirilirdi. İstisna deyil ki, vilayətlərdə qoşunlara cəlb edilməsi üçün xüsusi bir kontingent mövcud idi. Şah göstərişi veriləndən sonra vilayətlərdən qoşunların tez bir zamanda toplanması bununla da bağlı ola bilərdi.

Səfəvi qoşunlarının başqa bir hissəsini isə daimi qoşunlar təşkil edirdilər. Onlar qoşunların az hissəsi idilər və daha çox qeyri-döyüş vəzifələrinin icrası ilə məşğul olurdular. Daimi qoşun qüvvələrinin döyüşə cəlb edilməsi istisna deyildi. Bununla belə, bu qüvvələr daha çox onlar üçün ayrılmış xüsusi vəzifələrin icrası ilə məşğul idilər. Daimi qoşun qüvvələri o qüvvələr idilər ki, onlar ilin bütün fəsillərində, daimi əsasda xidmətdə olur və şah xəzinəsindən məvacib alırdılar. Ona görə bu qüvvələrin seçiminə də xüsusi fikir verilir və onların döyüş hazırlığı səviyyəsi də nəzarət altında saxlanılırdı. Daimi qoşunlar şahın mühafizəsinə məsuliyyət daşıyırdılar. Səltənət daxilində əmin-amanlığın qorunması üçün də həm şah sarayı nəzdində, həm də vilayətlər daxilində daimi qoşun dəstələri saxlanılırdı. Qalaların mühafizəsi, şahın ailə üzvlərinin və şah xəzinəsinin mühafizəsi daimi qoşun qüvvələrinə tapşırıla bilərdi. Daimi qoşun qüvvələrindən, qeyd edildiyi kimi, döyüşlərin aparılmasında da istifadə olunurdu. Belə qüvvələr bir qayda olaraq şahın, onun düşərgəsinin və bayrağının ətrafında mövqe tuturdular. Həmin qüvvələr şahla birlikdə döyüşlərə qoşulurdular.

Daimi qoşunların xüsusi dəstələrindən birini qorçular təşkil edirdilər. Qorçular Şah İsmayıl qoşunlarının xüsusi dəstələri idilər və onlar Şah İsmayılın özü tərəfindən formalaşdırılmışdılar. Bəzi məlumatlara görə, Şah İsmayıl qızılbaş qoşunları arasında xüsusi təcrübəsi olan döyüşçüləri, atlıları qorçu adlandırmaqla onları ayrıca bir strukturda birləşdirmişdi (120).

Qorçu sözünün etimalogiyası bəzi tədqiqatçılar tərəfindən monqol dili ilə əlaqələndirilsə də, bu söz türk mənşəli qoruqçu sözündən götürülmüşdür. Onun ifadə etdiyi məna da "qorumaq" anlamındadır və qorçular da əsasən qoruqçu, mühafizəçi vəzifələrini icra edirdilər. Qorçu sözünün ifadə etdiyi silahlılar Osmanlı və Ağqoyunlu qoşunlarında, hətta Səfəvi dövlətinin təşkilindən əvvəl Səfəvi xanəgahında mövcud olmuşdu. Səfəvi qoşunlarına bu termin çox güman ki, Ağqoyunlu qoşunlarından keçmişdi. Çünki Ağqoyunlu qoşun təcrübəsi Səfəvi qoşunlarının təşkilində geniş şəkildə istifadə edilmişdir. Türk hərbi terminologiyasının bir nümunəsi kimi, qorçu sözü eyni ilə fars dilinə də yol tapmışdı. Sonralar qorçu bölmələrinə yalnız qızılbaşlar deyil, həm də fars əyanlarının uşaqları cəlb edilirdilər və qorçu dəstələri özlüyündə səltənətin elit dəstələri hesab edilirdilər. Mənbələrdəki məlumatlara görə, Səfəvi-qızılbaş qoşunlarındakı qorçu dəstələrindən ilk dəfə Bakı qalasının alınması zamanı istifadə edilmişdi. Sonradan bu dəstələrin tərkibi daha da genişləndirildi və şaha sədaqətli olan döyüşçülər cəlb edilməyə başladılar. Başqa sözlə, qorçu dəstələrinə məqsədyönlü şəkildə seçim aparılırdı. Bu seçim zamanı döyüşçülərin şaha və səltənətə sadaqəti və həm də onların döyüş keyfiyyətləri nəzərə alınırdı. Qorçuların əksəriyyətini qızılbaşlar, türk tayfalarının nümayəndələri təşkil edirdilər.

Hətta türk tayfalarından olan qorçular öz tayfalarının adları ilə də tanınmışdılar. Məsələn, Zülqədər qorçuları, Ustaclı qorçuları və s. Bəzi məlumatlara görə, hətta türk tayfaları daxlində qorçu dəstələri adlı strukturlar təşkil olunanda bu strukturlara tayfaların ağsaqqalları rəhbərlik edirdilər. Qorçulara həvalə olunan əsas vəzifələr - şahın və sarayın mühafizəsi, şahın tapşırıqlarının əyalətlərə çatdırılması və onların icrasının təmin edilməsi, şahla birlikdə hərbi yürüşlərə yollanması və şahla birlikdə döyüşlərdə iştirak etməsi, şahın tapşırığı əsasında şahın iştirakı olmadan hərbi yürüşlərdə iştirak etməsi və konkret döyüş tapşırıqlarını icra etməsi və s. idi (121).

Qorçuların özlərinin başqa döyüşçülərdən fərqlənən geyimləri var idi və qoşunlara sıra baxışalrı keçirilərkən də onlar müəyyənləşdirilmiş yerdə qərar tuturdular. Məsələn, 1510-cu ildə özbək xanı Şeybək xana qarşı döyüşə yola düşməzdən əvvəl Şah İsmayıl Sultaniyyədə qoşunlara sıra baxışı keçirdi və onların qarşısında dayanan vəzifələri müəyyənləşdirdi. Bu sıra baxışı zamanı qorçular dəstəsi Şah İsmayılın qərar tutduğu məkanın arxasında iki tərəfdə düzülmüşdülər. O da bildirilirdi ki, qorçular bu baxış zamanı gözoxşayan geyimlərə malik idilər və bu geyimlər onların görünüşünü daha da əzəmətli edirdi.

Səfəvi qoşunlarında qorçuların əsası Şah İsmayıl tərəfindən qoyuldu, onun hakimiyyəti illərində qorçular elit dəstələr kimi böyük nüfuz əldə etdilər. Şah İsmayılın hakimiyyətindən sonra bu dəstələrə diqqət daha da artırıldı. Şah İsmayılın hakimiyyəti dövrünə və ondan sonrakı dövrə aid olan mənbə məlumatlarını araşdırmaqla qorçuların strukturunun bütünlükdə dörd elementdən ibarət olduğunu görmək mümkündür. 1) qorçular dəstəsinin rəhbərliyi - qorçubaşı; 2) mülazim qorçuları - şahın şəxsi xidmətində olan qorçular; 3) yaraq qorçuları - şahın silahlanma işlərinə məsuliyyət daşıyan qorçular; 4) adi qorçular (xidmət qorçuları). İlkin mənasında qorçubaşı - qorçular dəstəsinə başçılıq (rəhbərlik) edən adam kimi nəzərdə tutulurdu. Qorçular dəstəsi səltənətin elit dəstəsi olduğu üçün və bu dəstə birbaşa şahın rəhbərliyi altında olduğu üçün qorçubaşı şah sarayında ən nüfuzlu vəzifələrdən biri sayılırdı. Ona görə bu vəzifə sahibinin seçiminə ciddi şəkildə yanaşılırdı. Səfəvi mənbələrində qorçubaşı termininə ilk dəfə 1505-1506-cı illərə aid olan məlumatlarda rast gəlinmişdir. Həmin məlumatda da görünür ki, qorçubaşı Şah İsmayılın yaxın ətrafına daxil olmaqla onun etibar etdiyi adamlardan biri olmuşdur. İlk vaxtlar qorçular bütünlüklə qızılbaşlardan seçilirdi və ona görə qorçu deyiləndə həm də qızılbaşlar nəzərdə tutulurdu. Qorçubaşılar adətən qorçuların özlərindən seçilirdilər. Qorçuların qorçu olmayan adamların rəhbərliyi altında fəaliyyət göstərməsi halları da mövcuddur. Amma belə bir ənənə yaranmışdı ki, qorçuları onların özlərindən olan birisi daha yaxşı başa düşə bilər və ona görə şah tərəfindən qorçubaşı təyin ediləndə bu cəhət nəzərə alınırdı. Bu da qorçuların daha yaxşı təkilatlanmasına və idarə edilməsinə zəmin yaradırdı (122).

Mövcud mənbələrə əsasən, Şah İsmayılın hakimiyyəti dövründə qorçubaşı vəzifəsinə təyin edilmiş adamların siyahısını müəyyənləşdirmək də mümkündür. Bu siyahıdan görünür ki, ilk qorçubaşı heç də qızılbaş deyildir. Həmin vəzifəyə

1506-cı ildə təyin edilmiş Əbdüləli bəy Dədə Lahican sufilərindən idi. Heç şübhəsiz ki, Şah İsmayıl onu bu vəzifəyə sədaqətini nəzərə alaraq təyin etmişdi. Bütünlükdə isə, Şah İsmayılın hakimiyyəti illərində bu adamlar qorçubaşı vəzifəsinə təyinat almışdılar: Əbdüləli bəy Dədə (1506), Yakan bəy Təkəli (1509-1510), Sarıpirə Ustaclı (1512), Məntəş Sultan Ustaclı (1513), Yaraş bəy Ustaclı (1514), Əli Sultan Çiçəkli (1518), Nadir bəy (1524). Göründüyü kimi, qorçubaşıların əksəriyyəti qızılbaşlara mənsub idi (123).

Qorçuların strukturunda yer alan digər dəstə mülazim qorçularıdır. Bu qorçular birbaşa şahla təmasda olan və ona müxtəlif məsələlərdə kömək göstərən adamlar idi. Belə qorçulardan rükab qorçularının adları çəkilir. Rükab qorçuları şahın ata minməsinə, atdan düşməsinə kömək edən adamlar idi. Çox güman ki, şahın bu və ya digər yerə hərəkəti zamanı atın seçilməsi və şah hüzuruna gətirilməsi, şahın ata minməsinə kömək göstərilməsi, şahın atdan düşməsinə yardım göstərilməsi rükab qorçularına aid olan məsələ idi. Ehtimal edilir ki, şahın istirahətinin təşkil edilməsi, şah düşərgəsinin yaradılması, şahın iaşə məsələlərinə nəzarət də mülazim qorçularının nəzarəti altında idi. Çünki bu məsələlərin hər biri ayrı-ayrılıqda məsuliyyətli işlər idi və onların icrasına da şaha sədaqətli olan insanlar cəlb edilə bilərdilər.

Qorçuların başqa bir dəstəsi isə yaraq (silah) qorçuları idi. Bu qorçular şahın silahlarının, təchizatının, geyiminin daşınmasına, şaha çatdırılmasına və onların mühafizəsinə məsuliyyət daşıyırdılar. Yaraq qorçuları şahla olan təmaslarının xarakterinə görə iki qrupa bölünürdülər. Birinci qrup qorçular şaha yaxın olan qorçular, o biri qrup isə şaha yaxın olmayan qorçular kimi tanınırdılar. Şaha yaxın olan qorçular şahın döyüş silahlarını gəzdirirdilər. Bu silahlar soyuq silahlardan ibarət idilər - qılınc, ox qabı, kaman, şişpər (altı qulaqlı gürz), xəncər, zireh, sipər, nacağ və digərləri. Hərbi yürüşlər zamanı bu silahlar qorçuların mühafizəsində olurdular. Qorçular onların daşınmasına, mühafizəsinə, seçimdən asılı olaraq onların şaha çatdırılmasına məsuliyyət daşıyırdılar. Şübhəsiz ki, qorçular hərbi yürüşlər başlananda bu silahların hər birindən çoxlu sayda öz ehtiyatlarında saxlayır və şahı davamlı olaraq onlarla təmin edirdilər. Yaraq qorçularının ikinci qrupunu isə şaha yaxın sayılmayan qorçular təşkil edirdilər. Bu qrup qorçular şahın qeyri-döyüş geyiminə, təchizatına məsuliyyət daşıyırdılar. Həmin geyim və təchizatın arasında şahın libası, ayaqqabısı, qəlyanı, səndəlisi, çadırı, çovqan oynamaq və ov etmək üçün zəruri olan silah və əşyaları və s. var idi (124).

Qorçuların digər dəstəsini isə xidmət (adi) qorçular təşkil edirdilər. Onlar sayca daha çox olmaqla şahın, onun ailə üzvlərinin, sarayın, şah düşərgələrinin mühafizəsinə məsuliyyət daşıyırdılar. Qorçular növbə ilə öz vəzifələrini icra edirdilər və güman edilir ki, qorçulara xüsusi hazırlıq keçilirdi. Çünki şahın mühafizəsinin etibarlı şəkildə həyata keçirilməsi üçün onlar silah işlətmək, at çapmaq, düşmən hücumlarından müdafiə olunmaq vərdişlərinə malik olmalı idilər. Mövcud məlumatlara görə, qorçuların vilayətlərdə də dəstələri mövcud idi. Bu dəstələr həm mərkəzə tabe olan dəstələr idi, həm də yerli hakimlərə tabe

olan dəstələr idi. Birbaşa saray qorçubaşısına tabe olan vilayət dəstələri yəqin ki, şahın fərmanlarının və xüsusi göstərişlərinin icrasının təşkilinə məsuliyyət daşıyırdılar. Müxtəlif vilayətlərdə onların sayı müxtəlif ola bilərdi. Eyni zamanda vilayət hakimləri də öz mühafizələrinin təmin edilməsi üçün yanlarında qorçu dəstəsi saxlayırdılar. Vilayət hakimləri tərəfindən maliyyələşən bu dəstələrin hər birinin də özünün qorçubaşısı var idi. Onlar vilayət hakimləri tərəfindən təyin edilirdi (125).

Şah İsmayılın hakimiyyəti illərində qorçuların sayının nə qədər olduğunu söyləmək çətindir. Amma saray həyatının tənzimlənməsi və idarə edilməsi üçün qorçuların rolu günü-gündən gücləndiyindən Şah İsmayılın hakimiyyətindən sonra onların sayı daha da artdı.

Şah İsmayılın hakimiyyəti dövründə daimi qoşunların tərkibinə daxil olan dəstələrdən biri də qulamlar dəstəsi idi. 1510-cu ildə Şeybək xanla döyüşə yollanmazdan əvvəl Şah İsmayılın öz qoşunlarına Sultaniyyədə sıra baxışı keçirdiyi zaman qulamlar da xüsusi libaslarda və qızıldan olan gürzləri ilə onlar üçün ayrılmış yerlərdə qərar tutmuşdular. Qulamlar da şahın xidmətində dayanan bir dəstə idi. Bu dəstə həm mülki, həm də hərbi məzmunlu xidmət işlərini yerinə yetirirdi. Bu dəstəyə daha çox qeyri-müsəlman gənclər cəlb edilirdilər. Onların arasında gürcülər, çərkəslər və digərləri də var idi. Qulamlar da şaha sədaqətli və şaha yaxın olan xidmət personalı idilər və onlara qullarağası adlanan birisi rəhbərlik edirdi. Əslində, qullar da şahın bütün fərmanlarını sözsüz icra etməyə hazır olan kontingent idi və ona görə onların da saray həyatında mühüm yeri var idi.

### b) qoşunların idarə edilməsi və təchizatı

Səfəvi qoşunlarının təşkilatlandırılması zamanı dövrün, xüsusi ilə də Ağqoyunlu dövlətinin qoşunlarının təcrübəsindən geniş şəkildə istifadə edildiyi üçün qoşunların idarə edilməsinin nizamlanmasında da həmin təcrübəyə istinad edilmişdi. Qoşunlarda tayfa idarəçiliyinin qorunması, qoşunların struktur bölgüsündə tayfa əlamətlərinin saxlanması həmin təcrübədən irəli gəlirdi. Səfəvi dövlətinin təşkilindən əvvəl də qızılbaş qoşunlarında tayfa əlamətinə görə hərbi vahidlərin təşkili təcrübəsi mövcud olmuşdu. Amma qoşun strukturlarının qarışıq şəkildə təşkil edilməsi təcrübəsi də istisna edilməməlidir.

Qoşunların idarəçilik piramidasının zirvəsində heç şübhəsiz ki, şah dayanırdı. Səfəvi dövlətinin təşkilindən əvvəl isə bu piramidanın zirvəsində mürşidi-kamil dayanırdı. Səfəvi dövləti qurulduqdan sonra Şah İsmayıl dövlət rəhbərliyi ilə təriqət rəhbərliyini özündə birləşdirdi. Bununla, Şah İsmayıl həm dövlət rəhbəri kimi, həm də təriqət rəhbəri kimi Səfəvi qoşunlarının idarəçiliyini öz əlində cəmləşdirdi. İlkin dövrlərdə qoşunların əsasını sufi müridləri təşkil edirdilər. Onların idarə edilməsi sufi xəlifələri olan tayfa başçıları tərəfindən həyata keçirilirdi. Qoşunların təchizatı da yerlərdə həll olunurdu. Bu barədə

kifayət qədər məlumat olmasa da, istisna deyil ki, təchizat məsələlərinin həllində fərdi işlər əsas yeri tuturdu.

Dövlətin idarəedilməsində olduğu kimi, qoşunların idarəçiliyində də hökmdarlar hakimi-mütləq idilər. Səfəvi şahı Səfəvi qoşunlarının ali baş komandanı idi. Qoşunlarla bağlı olan hər şey məhz onun iradəsi əsasında müəyyənləşirdi. Sözsüz ki, Şah İsmayıl öz qərarlarını qəbul edəndə müəyyən amilləri nəzərə alırdılar. Məsələn, səfərbərlik imkanları, təchizat imkanları, qarşıya qoyulan vəzifələrin miqyası, qarşı tərəfin hərbi imkanları və s. Çünki bu məqamları nəzərə almaqla daha real qərarlar qəbul etmək mümkün idi. Əks təqdirdə, qəbul edilmiş qərarlar qeyri-real olar və onların icrası da qeyri-mümkün ola bilərdi. Qoşunların istər toplanmasında, istər onların döyüş vəzifələrinin həllinə cəlb edilməsində qoşun əhlinin təriqət etiqadına xüsusi diqqət yetirilirdi. Səfəvi dövlətinin təşkilindən əvvəl və eləcə də Səfəvi dövlətinin ilk illərində Səfəvi-qızılbaş qoşunlarını, əslində, elə təriqət qoşunları kimi də dəyərləndirmək mümkündür. Çünki istər qoşunların toplanmasında, istər onların idarə edilməsində, istərsə də xidmət və fəaliyyət birliyinin yaradılmasında mürşid-mürid münasibətləri və müridlik etiqadı təsirli rola malik idi.

Qoşunların sayı, onların tərkibi, təchizi, ehtiyatları, idarəetmə strukturu və məqamları, döyüş hazırlığı məsələləri, yerləşdirilməsi, vəzifələri, fəaliyyəti şah tərəfindən müəyyənləşdirilirdi. Onun iradəsi, bütünlükdə, dövlətin hərb işinin mahiyyətini, məzmununu və səviyyəsini müəyyənləşdirirdi. Dövlətə hansı sayda qoşunun zəruri olması şah tərəfindən müəyyən edilirdi. Onun əmri əsasında həm mərkəzdə, həm də vilayətlərdə qoşun dəstələri təşkil edilirdi. Vilayətlərdə təşkil edilən qoşun dəstələri vilayət hakimlərinin rəhbərliyi altında olsalar da, onların da idarəçiliyi şahın iradəsi ilə həyata keçirilirdi. Şahın fərmanı olunca vilayət qoşunları dərhal onun birbaşa idarəçiliyi altına keçirdi. Vilayətlərdə təşkil edilmiş qoşun dəstələri, əslində, şahın hakimiyyətinin vilayətlərdə təmin edilməsi vəzifəsini icra edirdilər. Yerlərdə sabitliyin təmin edilməsi də bu qoşun dəstələrinin üzərində idi. Amma hərbi yürüşlər başlananda vilayət qoşunları vilayət hakimlərinin rəhbərliyi altında dövlətin ümumi qoşunlarına qatılırdılar. Vilayətlərdən nə qədər qoşun toplanması isə yenə şahın iradəsinə bağlı idi.

Müharibə və sülh məsələsi də şahın müstəsna səlahiyyəti idi. Xarici dövlətlərlə hərbi-siyasi münasibətlərin qurulması da Səfəvi şahının iradəsi ilə həyata keçirdi. Şah İsmayıl səltənət ərazilərinin genişləndirilməsi və ya kənar hərbi təhlükələrin qarşısının alınması üçün qonşu hökmdarlarla fəal hərbi-siyasi münasibətlərdə olmuşdu. Qonşu dövlətlər ya itaət altına gətirilir, ya da onlarla ittifaq münasibətləri qurulurdu. Hərbi yürüşlər zamanı müttəfiq dövlətlərin yardımından istifadə edilməsi də istisna edilmirdi. Şah İsmayılın döyüş təcrübəsindən də istifadə edilməsi mümkün idi. Doğrudur, Şah İsmayıl fatehlik yürüşlərində, əsasən, müridlərindən təşkil etdiyi qoşuna arxalanırdı. Bununla belə, onun Misir dövləti ilə müttəfiqlik əlaqələrini qorumağa çalışması da baş vermişdi.

Döyüşlərin planlaşdırılması, təşkili və idarə edilməsi də bir qayda olaraq şah tərəfindən müəyyən edilirdi. Çox nadir hallarda dövlət adından aparılan

müharibələrdə şahın iştirakı baş verməyə bilərdi. Xüsusilə, Çaldıran döyüşündən sonra hərbi yürüşlərə Səfəvi əmirləri rəhbərlik etməyə başladılar. Bu zaman döyüşün aparılması şahın etibar etdiyi adama, daha çox isə şahzadələrdən birinə həvalə olunurdu. Bununla belə, döyüşün qarşısında dayanan məqsəd və vəzifələr, bu döyüşün nə zaman başlanması və tamamlanması da yenə şah tərəfindən müəyyənləşdirlirdi.

Müəyyən məsələlərin həlli zaman şah məşvərətlərin aparılmasını lazım bilirdi. Yuxarıda qeyd edildiyi kimi, Çaldıran döyüşü ərəfəsində Şah İsmayıl yaxın əmirləri və əyanları ilə belə məşvərət aparmışdı. Həyatının sonlarına yaxın Xorasan vilayətində vəziyyətin mürəkkəbləşdiyi zaman həmin vilayətin hakimi təyin edilmiş Təhmasib Mirzənin geri çağırılması da Şah İsmayılın əmir və əyanlarının məsləhəti ilə baş vermişdi. Şah sarayında böyük vəzifə tutan vəkilin, vəzirin, qorçubaşının əmir ül-üməranın qoşun və hərb məsələləri ilə bağlı şaha məsləhət və təkliflər verməsi də istisna edilməməlidir.

Səfəvi qoşunlarının idarəetmə piramidasında şahdan sonra ikinci yeri əmir ül-ümərа (əmirlər əmiri) tuturdu. Doğrudur, səltənətin ikinci adamı kimi vəkil də qoşun və hərb işlərinə müdaxilə edə bilərdi. Bununla belə, qoşunlara daimi rəhbərlik əmir ül-ümaranın üzərində idi. O, şah adından qoşunları idarə edirdi və şahın iradəsini həyata keçirirdi.

Məlumdur ki, qızılbaş qoşunları tayfa qoşunlarından ibarət idi və tayfa qoşun dəstələrinin hər birinə də həmin tayfanın əmiri rəhbərlik edirdi. Tayfa əmirlərinin fəaliyyətinin əlaqələndirilməsi və nizamlanması üçün isə əmirlər əmiri (əmir ül-ümərа) vəzifəsi təsis edilmişdi və şahın ən etibarlı adamlarından biri bu vəzifəyə təyin edilirdi.

Dövrünün digər dövlətləri kimi, Səfəvi dövləti də, əslində, qoşunlara dayaqlanan bir dövlət idi. Yetərli hərbi gücə malik olmadığı təqdirdə bu dövlətin mövcudluğu da uzun müddət davam edə bilməzdi. Yəni, qoşunların dövlətin mövcudluğunda böyük yeri olduğu kimi, əmir ül-ümaranın da saray daxilində böyük nüfuzu var idi. Çünki səltənətin zamini olacaq güclü qoşunların təşkilatlandırılması və onların fəaliyyətinin nizamlanmasında əmir ül-ümaranın rolu böyük idi. Hətta Şah İsmayılın hakimiyyətinin ilk illərində əmir ül-ümərа vəzifəsi ilə vəkil vəzifəsinin bir adamda birləşdirilməsi də baş vermişdi və Hüseyn bəy Lələ həmin vəzifələrə təyin edilmişdi. Sonradan bu vəzifələr ayrılmışdı. Elmi-tarixi ədəbiyyatda əmir ül-ümərа vəzifəsini tutan adamın sipəhsalar adlandırılması ilə də rastlaşmaq mümkündür. Şah İsmayılın hakimiyyəti illərində bu əmirlər əmir ül-ümərа vəzifəsinə təyinat almışdılar (126): Hüseyn bəy Lələ Şamlı (1501), Əmir Nəcmi Zərgər Gilani (1509), Əmir Yarəhməd Xuzani (Nəcm Sani - 1509-1510), Əmir Mir Əbdülbaqi Nemətullahi (1513-1514), Məhəmməd bəy Süfrəçi Ustaclı (1514-1515), Bayazid Sultan Ustaclı (1523-1524), Div Sultan Rumlu (1523-1524) və Mustafa Sultan (Kəpək Sultan) Ustaclı (1524).

Qoşunların idarəçilik piramidasında sonrakı bənd tayfa əmirlərinə məxsus idi. Tayfaların üzvlərindən təşkil edilmiş qoşun dəstələri nisbi bir struktur kimi

mövcud idilər. Sayından asılı olmayaraq tayfa əlamətinə görə təşkil edilmiş qoşun dəstələri bir qayda olaraq hərbi yürüşlərə öz tayfa əmirlərinin rəhbərliyi altında qoşulurdular. Tayfa əmirləri tayfa üzvlərindən təşkil edilmiş qoşun dəstələrinin formalaşıdırlmasında, onların təchizində və idarəçiliyində müəyyən müstəqilliyə malik idilər və həm də bu işlərə məsuliyyət daşıyırdılar. Döyüş tapşırıqlarının icrası zamanı da bu qoşun dəstələri öz tayfa əmirlərinin rəhbərliyi altında fəaliyyət göstərirdilər. Bir qayda olaraq qoşun dəstələri cəbhənin ya mərkəzində, ya sağ və ya da sol cinahında yerləşdirilir və qoşun dəstəsi həmin cinahın ümumi rəhbərinin komandanlığı altında döyüş tapşırığı icra edirdi. Tayfa qoşun dəstələrinin şahın göstərişi əsasında ayrıca tapşırıqların icrasına cəlb edilməsi də mümkün idi. Nəzərə alınmalıdır ki, tayfa əmirləri qoşun dəstələrinə rəhbərlik etdikləri zaman tayfa rəhbərləri kimi deyil, qoşun əmirləri kimi çıxış edirdilər. Onlar bu zaman ən böyük hərbi vahidlərin rəhbəri olduqları üçün idarəetmə piramidasında əmir ül-üməradan sonrakı məqamı tuturdular.

İstər Qaraqoyunlu və Ağqoyunlu qoşunlarında, istərsə də Səfəvi qoşunlarında Əmir Teymur qoşunlarında olan strukturlaşma hələ tamamilə öz həllini tapmamışdı. Mənbələrdə də qoşunların struktur bölgüsü haqqında məlumatlarla rastlaşmaq mümkün deyil. Məsələn, məlumdur ki, Teymuri qoşunlarında 10, 100 və 1000 nəfərlik hərbi vahidlər mövcud idi. Bu hərbi vahidlərə müvafiq olaraq onbaşı, yüzbaşı və minbaşılar rəhbərlik edirdilər. Qoşunların idarəçiliyində kifayət qədər çevik və səmərəli olan bu struktur bölgüsünün Qaraqoyunlu və Ağqoyunlu qoşunlarında tətbiqi haqqında mənbələrdə hər hansı bir məlumatın olmaması həmin təcrübənin hələ tam şəkildə qoşunlarda özünə yer tapmaması qənaətini verir. Mənbələrdə Qaraqoyunlu və Ağqoyunlu qoşunlarında tətbiq olunan struktur vahidləri kimi qoşun, tip, fövc və tümənə rast gəlmək mümkündür. Məlumatlara görə, qoşun deyəndə 50-100 nəfərlik dəstə nəzərdə tutulurdu. Fövclər 100-500 nəfərdən, tiplər 1000-5000 nəfərdən, tümən isə 10 min nəfərdən ibarət olurdu (127). Qoşunlar əsasən tümənlərin bazasında formalaşdırılırdı. Vilayətlərdə və ya tayfa daxilində tümənlərin sayı çox olduqda onların bazasında qoşun dəstəsi formalaşdırılırdı.

Səfəvi qoşunlarında da, yuxarıda qeyd edildiyi kimi, ümumi anlamda qoşun, ləşgər və sepah bölgüləri ilə, həmçinin fövc və firqə anlayışları ilə rastlaşmaq mümkündür. Bu anlayışların hansı sayda qoşun dəstəsini özündə ifadə etdiyini dəqiqliklə söyləmək çətindir. Amma mənbə mətninin məzmunundan anlaşılan budur ki, fövc qoşunların daha kiçik bir vahidini ifadə edirdi. Məsələn, mənbələrin birində bildirilir ki, qoşunlardan bir fövc ayrıldı və başqa bir vəzifənin icrasına istiqamətləndirilidi (128). Başqa bir mənbədə də fövc sepahın (qoşunun) bir dəstəsi kimi verilmişdir (129). Bundan başqa, mənbələrdə tip terminini ilə də rastlaşmaq mümkündür. Mənbələrin birində bildirilir ki, qoşunların bir cinıhını 5 tip təşkil edirdi (130). Doğrudur, mənbədə "tip" termini Ağqoyunlu Muradın qoşunlarına aid olan bir hərbi vahidi ifadə edirdi. Amma Şah İsmayılın həyatı və fəaliyyəti ilə bağlı olan bir mənbədə bu termindən istifadə edilməsi bu terminin ifadə etdiyi qoşun vahidinin Səfəvi qoşunlarında

olması qənaətini də verə bilər. Məzmundan hasil olunan qənaətə görə, tip bir hərbi vahid kimi fövcdən daha böyük olan vahiddir. Ona görə də güman etmək olar ki, Ağqoyunlu qoşunlarında olduğu kimi Səfəvi qoşunlarında da fövc 100-500 nəfərdən, tip isə 1000-5000 nəfərdən ibarət ola bilərdi. Bir daha qeyd edilməlidir ki, tədqiqata cəlb edilmiş mənbələrdə və elmi-tədqiqat əsərlərində Şah İsmayılın hakimiyyəti illərində fövcün və tipin şəxsi heyətinin sayının konkret olaraq neçə nəfərdən ibarət olması barəsində məlumata rast gəlinməmişdir.

Mənbələrdə Səfəvi qoşunlarında 1000 nəfərlik vahidlərin mövcudluğu haqqında da məlumatlar vardır. Bu vahidlər konkret adla adlandırılmasalar da, məlum olur ki, 1000 nəfərlik vahidlərin hər birinin özünün bayrağı var idi və bu vahidlər hərəkətdə olarkən bayraqlar havaya qaldırılırdı (131). Min nəfərlik dəstələr döyüşlərə də öz bayraqları ilə gedirdilər. Buradan da belə bir qənaətə gəlmək olar ki, 1000 nəfərlik dəstələr qoşunların əsas taktiki vahidi idi və böyük qoşun dəstələri də sözsüz ki, 1000 nəfərlik dəstələrdən təşkil edilmişdilər.

Mənbələrdə yüzbaşı sözü ilə də rastlaşmaq mümkündür (132). Doğrudur, yüzbaşının 100 nəfərdən ibarət qoşun dəstəsinə rəhbərlik edib-etmədiyi haqqında da lazımi məlumatı mənbələrdən əldə etmək mümkün deyil. Amma qoşunlarda belə bir bölgünün olması heç də istisna edilməməlidir. Məsələn, məlumatların birində bildirilirdi ki, Şərqi Anadoluda döyüş tapşırıqların icrası xüsusi fədakarlıq götərmiş minbaşılar və yüzbaşılar Şah İsmayılın qiymətli hədiyyələri ilə mükafatlandırıldılar (133).

Səfəvi-qızılbaş qoşunlarında Qaraqounulu və Ağqoyunlu qoşunlarında olduğu kimi həm mükəmməl hücum, həm də mükəmməl müdafizə silahları və təchizatı olmuşdur. Hücum silahlarına qılıncı, nizəni, mizrağı, baltanı, süngünü, toppuzu, şişpəri, təbərzini, xəncəri, ox-kamanı, müdafiə silahlarına isə dəbilqəni, qalxanı, zireh geyimi və s. aid etmək olar. Zireh geyimılər adətən bütün bədəni müdafiə edirdi və bununla bağlı zirehli geyim istehsalının ən qabaqcıl texnologiyası mənimsənilmişdi. Zirehli geyim həm də atlara geyindirilirdi. Atların mühafizə edilməsi üçün onların bədənlərinin bütün hissələrini qoruyan geyim nümunələri hazırlanmışdı.

Təbriz şəhəri həm Səfəvi dövlətinin, həm də bölgənin silah və təchizat istehsal edən mərkəzlərdən biri idi. Mənbə məlumatlarından bəllidir ki, hələ Sultan Heydər dönəmində qızılbaş qoşunlarının təchiz və təmin edilməsi üçün Təbrizlə əlaqələr yaradılmasına və oradan silah əldə edilməsinə cəhd göstərilirdi (134). Sonradan isə Səfəvi dövlətinin digər şəhərlərində silah və təchizat istehsalı rövnəq tapmağa başladı. Bunun üçün Azərbaycan ərazisində, eləcə də Səfəvi dövlətinin digər ərazilərində kifayət qədər xammal və istehsal təcrübəsi var idi. Bütün bunların nəticəsi idi ki, Səfəvi qoşunlarının soyuq silah baxımından cidi çatışmazlıqlarla qarşılaşması haqqında məlumatlarla rastlaşmaq mümkün deyil.

Xəncər və nizə Səfəvi döyüşçülərinin, o cümlədən Şah İsmayılın istifadə etdiyi əsas silahlar idilər. Bu silahlar hücum silahları olmaqla Şah İsmayılın

təkbətək döyüşlərində öz məharətini nümayiş etdirə bildiyi silahlar idi. Təkbətək döyüşlərdə nizədən istifadəyə xüsusi diqqət yetirilirdi. Bu da onu deməyə əsas verirdi ki, nizə istehsalı sahəsində kifayət qədər ciddi təcrübə əldə edilmişdi.

Şah İsmayılın işlətdiyi qılınc haqqında isə əfsanələr dolaşmaqdadır. Əvvəlki fəsillərdə qeyd edilmişdi ki, Şah İsmayıl Çaldıran döyüşü zamanı qılıncı ilə topları bir-birinə bağlayan zəncirləri qıra bilmişdi. Bir rəvayətə görə isə Şah İsmayıl qılıncı ilə hətta Osmanlı topunun lüləsini iki yerə bölə bilmişdi. Bununla bağlı yazılı ədəbiyatda da öz əksini tapan rəvayətlrdən biri belədir: "Osmanlı sultanı Şah İsmayıl Səfəvidən xahiş edir ki, Çaldıran savaşı çağında top lüləsini ikiyə böldüyü qılıncı ona göndərsin. Şah İsmayıl bu diləyi yerinə yetirib, qılıncı Osmanlı Darül-xülafəsinə (paytaxtına) göndərir. Sultan qılıncı götürüb, öz saray adamlarının gözü qarşısında top lüləsi üzərində sınayır. Ancaq istənilən nəticə alınmır. Buna görə də Sultan, Səfəvi hökmdarına giley-küzü məktubu yazıb bildirir: "...görünür Qızılbaş şahı bir qılıncı "qardaşından" qızırqalanıb və vermək istəməyib". Şah İsmayıl az sonra belə bir cavab məktubu göndərir: "Qılınc həmin qılıncdır, qol həmin qol deyil" (135).

Səfəvi qoşunlarının silah təchizatından danışarkən tədqiqatçıların diqqət mərkəzində olan mühüm məsələlərdən biri bu qoşunların odlu silaha malik olub-olmaması məsələsidir. Xüsusilə, Çaldıran döyüşünün nəticələrinin araşdırılması əsnasında Şah İsmayılın nə üçün odlu silahdan istifadə etməməsi elə indinin özündə də təəccüb və təəssüf doğurmaqdadır. Çünki odlu silahdan istifadə edilməməsi Şah İsmayıl üçün, onun qoşunları üçün ağır nəticələrə və bu nəticələrin məntiqi davamı kimi sonradan səltənətin qərb ərazilərinin itirilmsinə yol açdı.

Çaldıran döyüşünün təhlili götərdi ki, Şah İsmayıl bu döyüşün aparılması üçün odlu silahdan, xüsusi ilə də toplardan istifadə etmədi. Hətta o, Osmanlı qüvvələri üzərinə qəfil hücum edilməsini, bu qoşunlara qarşı manevrlər həyata keçirilməsini də düzgün, mərdlik ənənələrinə uyğun olmadığını bildirdi. Onun nəzərində məhz fiziki gücün daha çox üstünlük təşkil etdiyi döyüşlər mərdlik ənənlərinə uyğun idi və özü də bu ənənlərin gözlənilməsini döyüş aparılması üçün mühüm şərt sayırdı. Bununla da, əslində, Şah İsmayıl taktiki yanlışlığa yol verdi.

Odlu silahlarn meydana gəlməsi, ümumən, hərb işi tarixində yeni bir mərhələnin, daha üstün və dağıdıcı mərhələnin başlanğıcını qoyulması demək idi. Bu silahın tətbiqi özü ilə yeni imkanlar açırdı, döyüşün təşkilinə yeni bir məzmun verirdi. Ola bilsin ki, Şah İsmayılın dövründə odlu silahın bütün imkanları mənimsənilməmişdi. Bununla belə, onlardan istifadə edilməsi döyüş gücünü xeyli artırırdı. Belə bir fikir də mövcuddur ki, hərb işinin bu yeni nailiyyətinin Şah İsmayıl tərəfindən ehtiyatla qarşılanması onun klassik döyüş ənənələrinə daha çox bağlılıqdan irəli gəlirdi.



*Səfəvilər dövrünə aid zirehli geyim*

Bu fikrin mümkünlüyünü istisna etmədən, qeyd etmək lazımdır ki, Çaldıran döyüşü ərəfəsində Səfəvi qoşunları lazımi miqdarda odlu silah ehtiyatlarına da malik deyildi.

Çaldıran döyüşündə Səfəvi qoşunlarına toplardan və odlu silahdan istifadə edilməməsi heç də Şah İsmayılın və Səfəvi qoşunlarının odlu silahdan xəbəsiz olmasından irəli gəlmirdi. Mənbələrdə olan çoxsaylı faktlar onu deməyə əsas verir ki, Şah İsmayıl odlu silahla tanış olduğu kimi, Səfəvi cəbbəxanalarında hansısa sayda odlu silah mövcud idi. Bu mənada elmi-tarixi ədəbiyyatda Şah İsmayı qoşunlarında odlu silahın ümumiyyətlə olmamasının iddia edilməsi (136) tarixi həqiqətlərdən uzaqdır. Hətta Çaldıran döyüşünə qədər bu silahlardan çoxlu sayda istifadə edilməsi faktları da mövcuddur.

Şah İsmayıl qoşunlarının Bakı qalası üzərinə hücumuna həsr edilmiş minüatür rəsmlərindən birində tüfəngləri görmək mümkündür. Həmin tüfənglər Bakı qalasını müdafiə edən döyüşçülərin əlində göstərilsə də, sözsüz ki, Səfəvi döyüşçüləri onların nə olduğunu bilirdilər və ona qarşı müdafiə tədbirlərini də seçə bilirdilər. Hətta bəzi elmi-tarixi ədəbiyyatda Bakı döyüşü zamanı Səfəvi qoşun dəstələrinin də top və tüfənglərdən istifadə etmələri haqqında məlumat mövcudur (137). Bakı döyüşündən az sonra, Səfəvi qoşunlarının Təbriz üzərinə hücumu zamanı artıq qızılbaş döyüşçülərinin də tüfənglərdən istifadə etməsi mənbələrdə öz əksini tapmışdır (138). Mənbələrdə qulam və qorçuların bu döyüş zamanı tüfənglərdən məharətlə istifadə edilməsi göstərilmişdir.

Səfəvi qoşunlarının Ağqoyunlu Sultan Murada və ona köməyə gəlmiş Osmanlı qoşun dəstəsinə qarşı döyüşdə də toplardan istifadə olunması barəsində mənbələrdə məlumat vardır. Həmin məlumata görə, Sultan Muradın köməyinə gəlmiş Osmanlı qoşun dəstəsindəki topların ələ keçirilməsində Şah İsmayılın qardaşı Sultan İbrahim Mirzə də iştirak etdi. Onun rəhbərliyi altında Osmanlı qoşunlarında olan toplar nəinki ələ keçirildi, hətta onlardan Ağqoyunlu qoşunlarına qarşı döyüşdə istifadə də edildi. Mənbə məlumatına görə, sonradan Şah İsmayıl da bu döyüşə qoşuldu və o, bu döyüşdə topların istifadəsinə elə bir ehtiyac olmadığını bildirdi (139).

Qeyd edildiyi kimi, mənbə məlumatına görə, Osmanlı qoşun dəstəsindən müəyyən sayda top qənimət kimi ələ keçirilmişdi. Lakin sonradan bu toplardan necə istifadə edilməsi barəsində məlumatlarla rastlaşmaq mümkün deyil. Səfəvi qoşunlarında odlu tüfəngdən istifadə haqqında və hətta top istehsalçıları haqqında mənbələrdə və elmi-tarixi ədəbiyyatda əlavə xeyli məlumatlar vardır (140).

Bütün bunlar onu göstərir ki, Səfəvi qoşunlarında odlu silahla tanışlıq var idi. Əslində, hələ Səfəvi dövlətindən əvvəl Azərbaycan ərazisində odlu silahla tanışlıq var idi. Məlumatlar istər Ağqoyunlu dövlətində, istərsə də Şirvanşahlar dövlətində odlu silahdan istifadə edilməsini təsdiq edirlər. Yuxarıda Bakı qalasının müdafiəçilərinin tüfəngdən istifadə etmələri haqqında məlumat bunun bir təsdiqidir. XV-XVI əsrlər Azərbaycanda odlu silaha keçid dövrüdür. Bu keçid dövrünü Şah İsmayılın hakimiyyəti illərində sürətləndirmək də mümkün ola bilərdi. Lakin Şah İsmayılın hakimiyyəti illərində yetərli sayda odlu silahın əldə

edilməsi imkanının olmaması istər-istəməz qoşunların döyüş gücünə öz təsirini göstərdi. Şah İsmayılın yeganə böyük hərbi uğursuzluğu həm də məhz odlu silahın vaxtında qoşunların silahlanmasına alınmamasından irəli gəldi.

Qoşun əhli müvafiq maaşla təmin olunurdu və bu maaşın vaxtında qoşunlara çatdırılması ciddi nəzarət altında saxlanılırdı. Mövcud məlumatlara görə, qoşunlara maaşlar ildə iki dəfə verilirdi və bu tələbə həmişə əməl edilirdi. Məlumatlarda bildirilir ki, Qara Yusif döyüşlər zamanı əldə etdiyi qənimətləri də bütünlüklə qoşunları arasında bölüşdürürdü və bununla qoşunları razı salırdı. Yerlərdə isə qoşunların müəyyən hissəsi öz maaşlarını tiyul vasitəsilə əldə edirdilər. Yəni, bu kontingent adamlara tiyul torpaqları paylanırdı. Onlar bu torpaqdan əldə etdikləri gəlirlə özlərini dolandırırdılar. Amma bir şərtlə ki, zərurət yarananda onlar qoşunlara qoşulmalı idilər.

Daimi qoşun dəstələrinin təchizatı şah xəzinəsi tərəfindən təmin olunurdu. Bu qoşun dəstələrinə mənsub olan qorçuların, qulamların geyimi də mərkəzləşdirilmiş şəkildə təşkil olunurdu. Onların geyimi qoşunların geyimindən fərqlənirdi.

Döyüşlər zamanı xüsusi şücaət göstərmiş əmirlər və döyüşçülər şah tərəfindən mükafatlandırılır, ona at və döyüş təchizatı verilirdi. Məsələn, döyüşlərin birində atını itirmiş döyüşçülərə Şah İsmayılın əmri ilə şah tövləsindən at verildi, silahı olmayanlar şah cəbbəxanasından silah aldılar. 1507 ci ildə Məhəmməd xan Ustaclının Əlaüddövlə Zülqədərə qarşı apardığı döyüşdəki uğuruna görə də Şah İsmayıl tərəfindən səxavətlı mükafatlandırılması haqqında mənbələrdə məlumat mövcuddur. Bu döyüşə görə yalnız Məhəmməd xan Ustaclı deyil, onun bütün döyüşçüləri şahın şəfqəti ilə qarşılaşdılar. Məhəmməd xanın özünə isə şah tərəfindən at, daş-qaşlarla bəzədilmiş kəmər, xəncər və qılınc göndərildi (141).

Zəfərlə başa çatdırılmış döyüşlər zamanı əldə edilmiş qənimətlər də qoşunların maliyyə ödənclərinin bir hissəsini təşkil edirdi. Mülki əhaliyə toxunmadan belə qənimətlərin əldə edilməsi imkanları isə mövcud idi. Qeyd edildiyi kimi, qoşunlar bir qayda olaraq hərbi yürüşə özlərinin çoxsalı məişət əşyalarını və təchizatlarını da aparırdılar. Qoşun başçılarının çadırları isə hətta döyüş şəraitində belə çox zəngin şəkildə bəzədilirdi. İstər qoşun başçısının, istərsə də döyüşçülərin çadırlarından çox qiymətli qənimətlər ələ keçirimək mümkün olurdu. Döyüşdən sonra düşmən düşərgəsində toplanmış olan qənimətlər də Şah İsmayıl tərəfindən döyüşçülər arasında paylanılırdı.

Qoşunların ərzaqla və iaşə ilə təmin edilməsində ordu-bazar təcrübəsindən istifadə edilirdi. Qoşunların hərbi yürüşü zamanı hər bir döyüşçünü, qeyd edildiyi kimi, onun xidmətçiləri də müşayiət edə bilərdilər. Xidmətçilər döyüşçülərin iaşəsinin, istirahətinin, silaha və ata xidmətin təşkilində iştirak edirdilər. Bu xidmətçilərin sayı da əlavə ediləndə qoşunların sayı adətən böyük bir rəqəm alınıdı. Böyük sayda olan qoşunun ərzaqla təmin edilməsinin qoşunların öz öhdəsinə buraxılması əlavə çətinliklərlə müşayiət oluna bilərdi. Xidmət personalı ilə birlikdə böyük sayda olan qoşun dəstəsinin yalnız bir aylıq ərzağının daşınması üçün minlərlə arabaya ehtiyac ola bilərdi və bu arabaların qoşunlara əlavə edilməsi hərəkət çevikliyini xeyli azalda bilərdi. Bu çətinliyin aradan

qaldırılması üçün qoşunların tərkibində ordu-bazar deyilən ticarət strukturu təşkil edilmişdi. Ordu-bazar da qoşunların xidmət personalı statusunda idi. Bu struktura müəyyən maliyyə imkanı olan ticarət adamları və onların xidmət personalı daxil edilirdilər. Ordu-bazar qoşunlarla birlikdə hərəkət edir və yerlərdə pul ilə əhalidən qoşunlar üçün zəruri olan ərzağı, əşyaları alır və sonra da onları qoşun əhlinə çatırdı. Qoşun əhli də artıq ərzaq ehtiyaclarını aradan qaldırmaq üçün vaxt itirmir və zəruri olan əşyaları ordu-bazardan alırdı. Ya da zəruri olan əşyaların tapılması ordu-bazara sifariş edilirdi. Mənbələrdə olan məlumatlardan belə bir qənətə gəlmək mümkündür ki, qoşunlarda ordu-bazar yalnız təchizat strukturu deyildi. Bu struktur həm də qoşun əhli üçün istirahət və əyləncə yeri idi(142).

### c) Şah İsmayılın hərb məharəti

Şah İsmayıln hərb məharəti dövrünün ənənələri və təcrübəsi üzəində formalaşsa da özünəməxsus xarakterik cəhətlərə də malikdir. Məhz bu özünəməxsus cəhətlər onun hərbi uğurlarını təmin edir, onun əzəmətli sərkərdə keyfiyyətlərini ortaya qoyurdu. Əslində, Şah İsmayılın hərb məharəti dövrün hərb məharəti tarixində yeni bir səhifə kimi dəyərləndirilə bilər. Çünki hələ kifayət qədər gənc yaşlarında çoxsaylı qoşunlara rəhbərlik etmək vəzifəsini öz üzərinə götürməklə fatehlik uğurları ilə Şah İsmayıll yeni bir qüdrətli dövlətin əsasını qoydu, bu dövləti bölgənin ən güclü dövlətlərindən birinə çevirdi.

Şah İsmaylın hərb məharətinin başlıca cəhətlərindən biri fiziki gücü öldürücü zərbə qüvvəsinə çevirmək bacarığı idi. Hələ gənc yaşlarından Şah İsmayıl bu keyfiyyəti ilə fərqlənirdi və bu keyfiyyəti ilə də bütün qoşunlara nümunə idi. Şəxsi nümunə göstərmək, qoşunları döyüşdə öz arxasınca aparmaq Şah İsmayılın hərb məharətinin digər bir cəhəti idi. O döyüşün planlaşdırılması, qüvvələrin bölüşdürülməsi, döyüşün idarə edilməsi məsuliyyətini öz üzərinə götürməklə yanaşı, həm də bir qayda olaraq döyüşün aparılması ağırlığını öz üzərinə götürürdü. İştirak etdiyi döyüşlərin demək olar ki, hamısının taleyi də məhz Şah İsmayılın döyüş bacarığı və fədakarlığı nəticəsində təmin edilmişdi. Bütün bunlar isə son nəticədə səltənət hüdudlarının Azərbaycandan xeyli kənara çıxmasına yol açmışdı.

Səfəvi dövlətinin təşkilinə qədər Şah İsmayıl (İsmayıl Mirzə) təriqət idarəçiliyi ilə qoşun idarəçiliyini həyata keçirirdisə, Səfəvi dövlətinin təşkilindən sonra həm də dövlət idarəçiliyinin icrasına başladı. Bununla, Şah İsmayıl dövlətin ali baş komandanı vəzifəsini öz üzərinə götürdü. Amma o, sadəcə ali baş komandan deyildi. O həm də dövlətin baş sərkərdəsi idi və yuxarıda deyildiyi kimi, döyüşlərin təşkilində, idarəçiliyində və aparılmasında birbaşa iştirak edirdi.

Məlum olduğu kimi, qoşunların təşkili, təchizi, yerləşdirilməsi, qoşun ehtiyatlarının yaradılması, idarə edilməsi dövlətin rəhbəri və ali baş komandanı kimi Şah İsmayılın iradəsi əsasında baş verirdi. Bütünlükdə, hərbi məsələlərlə



*Səfəvilər dövrünə aid qılınc*

bağlı səltənət siyasəti onun tərəfindən müəyyənləşdirlirdi. Məlum olduğu kimi, Şah İsmayılın hərbi məsələlər üzrə məşvərət orqanı da mövcud idi. Amma qərar qəbulunda Şah İsmayılın mövqeyi əsas idi.

Müharibə və sülh məsələsi də Şah İsmayılın müstəsna səlahiyyəti idi. Xarici dövlətlərlə hərbi-siyasi münasibətlərin qurulması da onun iradəsi ilə həyata keçirdi. Hansı dövlətlərə qarşı müharibə aparılması, bu dövlətlərlə hansı razılaşmanın əldə edilməsi, qonşu dövlətlərlə münasibətlərin xarakterinin müəyyənləşdirilməsi də səltənət hökmdarı kimi Şah İsmayılın müstəsna səlahiyyəti idi.

Səltənətin hüdudlarının genişləndirilməsi üçün hərbi gücün tətbiqi, səltənətin hüdudlarının mühafizəsi, səltənət daxilində hərbi-siyasi sabitliyin təmin edilməsinin təşkili də Şah İsmayılın nəzarətində olan məsələlər idi. Müəyyən dövlət və vilayət hakimlərinə qarşı münasibətlərin qurulmsında Şah İsmayıl hərbi-diplomatik vasitələrdən də istifadə etməyə çalışırdı. Belə hakimlər Səfəvi dövlətinə tabeçiliyi qəbul etdikdə, bir qayda olaraq, yerli hakimlər öz vəzifəsində saxlanılır və hətta onlara müəyyən köməklik də göstərilirdi. Amma hərbi-diplomatiya yolu ilə bir nəticə əldə edilmədikdə bir qayda olaraq qoşunların tətbiqinə əl atılırdı.

Müharibənin aparılmasına Şah İsmayıl, adətən, böyük qüvvə cəlb etməzdi. Bu məqam da Şah İsmayılın hərb məharətinin xarakterik tərəflərindən biri idi. Şah İsmayıl qoşun çoxluğunu, qoşunların yüksək döyüş qabiliyyəti ilə əvəz etməyə çalışırdı. Qeyd edildiyi kimi, Şah İsmayıl iştirak və rəhbərlik etdiyi döyüşlərin heç birində qüvvə üstünlüyünə malik olmamışdı. Lakin, Çaldıran döyüşü istisna olmaqla digər döyüşlərdən uğurla çıxması məhz qızılbaş döyüşçülərinin məharəti və yüksək döyüş qabiliyyəti nəticəsində baş vermişdi. Mənbələrdən birində qızılbaş qoşunlarının döyüş məharəti, döyüşə hazırlığı və onların döyüş potensialı haqqında belə bir təsvir verilmişdir: "...Xacənin gözü qızılbaş fövcünə (dəstəsinə - M.S.) sataşanda gördü ki, atlas və zərlə toxunulmuş çadırlar bir fərsəngə yaxın ərazini tutur, hər çadırın yanında 3-4 pak bədöv, ərəb və Bayat atları bağlanıb, bir qatar mayə dəvə yatıb. Hər çadırın yanında da zərli yəhərlə yəhərlənmiş bir at dayanıb ki, hansısa bir tərəfdən və ya qoşundan, gecə və ya gündüz qəfil hücum olarsa, qoşun dərhal atlansın və 12 min nəfər qızılbaş at belində hazır olsun. Bütün qoşun əhlinin başında əlvan tac var idi və onun ətrafına əla sarılmışdı. Daş-qaşla bəzədilmiş tumarlar və əbləqlər bənd etmişdilər. Onların əksəri zərbafta parçalardan və samur dərisindən paltarlar geymişdilər və hamısının qəbzəsi qıymətli daşlarla bəzədilmiş xəncər və qılıncı var idi. Hər birinin rəkibdarı rəkib boğçalarını çiyinlərindən asmış şücaətli cavan türk oğlanları idilər və əgər döyüşçülər məndillərini başlarına bağlasaydılar, onda tac və sarğını nökərlər əllərində tutardılar. Şatırlar da ömürlərinin erkən çağlarını yaşayan növrəstə cavanlar idilər. Əgər bir iş baş versəydi onlar nacağla düşmənin böyrünü yarırlar. Onların hər birinin bir, iki ya üç mehtəri var ki, onlar bir yumruğa düşmənin beynini dağıdarlar. Əsgərlər də yenicə yetişmişlərdir. Həzrət şah bahadır xanın 12 min adamı olsa da, onlar belə cavanlar idi. Hər neçə min nəfər eyni

ocaqdan olsaydılar, hamısı bir-birinin qohum-əqrəbası və əmiuşaqlarıdır, bir-birinin yolunda ölümə gedərdilər. Əgər döyüşdə kimsə onların qohumunu öldürsəydi, hamısı hərəkətə gələrdilər. Ölən şəxsin tayfadaşları onun ya oğlunu, ya qardaşını, ya da əmisi oğlunu xidmətə götürərdilər. Əgər ata tərəfdən yaxın qohumu olmasaydı, onda ana tərəfdən, yox, əgər ana tərəfdən də qohumu olmasaydı, onda arvadı tərəfdən olan qohumlarından birini. Xülasə, şah bahadır xan belə nizam-intizam yaratmışdı" (143).

Bu təsvirlərdə Şah İsmayılın döyüş taktikasının müəyyən elementləri öz əksini tapmışdır. Onun hərbi yürüşə yollanarkən döyüş ehtiyatları götürməsi, o cümlədən hər bir döyüşçünün bir neçə baş ata malik olması artıq məlumdur. Ehtiyat atların götürülməsi həm hərəkət sürətini təmin edirdi, həm də döyüş itkilərini vaxtında aradan qaldırmağa imkan verirdi. Təsvirdən göründüyü kimi, Səfəvi qoşunları daim döyüşə hazır vəziyyətdə olurdular ki, işarə anında dərhal düşmən hücumunun qarşısını almağa qadir olsunlar. Qoşunların tayfa əlamətinə və hətta tayfa daxilində də qohumluq əlaqələrinə görə toplanması konkret şərait üçün qoşunların döyüş qabiliyyətinin artırılmasına xidmət edən bir məqam idi və bu məqamdan da yerli-yerində istifadə olunurdu.

Şah İsmayılın hərb məharətinin xatakterik məqamlarından biri də döyüş taktikasının soyuq silahların imkanları üzərində qurulması idi. Əslində, Şah İsmayılın taktikası yalnız soyuq silah üzərində qurulmuş taktikanın son və ən yaxşı nümunələri idi. Bu taktika silahların döyüş imkanlarının istifadədə olan atların sürət imkanları ilə düzgün əlaqələndirilməsinin nümayişi idi. Eyni zamanda fərdi vərdişlərin, fiziki gücün və şəxsi məharətin səfərbər edilməsi Şah İsmayılın və onun rəhbərlik etdiyi qoşunların taktikasının səmərəliliyinə öz təsirini göstərirdi.

Soyuq silahlardan istifadənin səmərəliliyinin artırılması isə hər bir döyüşçüdən fiziki hazırlığın və döyüş vərdişlərinin yüksək səviyyədə olmasını tələb edirdi. Ona görə də qoşunlarda yüksək hərb məharəti göstərə biləcək döyüşçülərin formalaşdırılmasına xüsusi diqqət yetirilirdi. Məlumdur ki, döyüşçülər ilkin döyüş vərdişlərini hələ tayfa daxilində alırdılar. Onlar kiçik yaşlarından köçəri həyatının tələblərindən irəli gələn at çapmağı, soyuq silahlardan istifadə etməyi öyrənirdilər. At da, ox-kaman da, qılınc da hər bir türkün həyatının ayrılmaz elementləri idilər. Bu da onlardan tələb edirdi ki, at çapmaqda, silah işlətməkdə öz vərdişlərini təkmilləşdirsinlər. Yəni, hərb məharətinin təkmilləşdirilməsində şəxsi təşəbbüskarlıq, şəxsi təmrinlər mühüm yer tuturdu. Daimi qoşunların tərkibində döyüş vərdişlərinin təkmilləşdirilməsi üçün müxtəlif yarışların və çalışmaların keçirilməsini istisna etmək olmaz. Ov mərasimləri də döyüş keyfiyyətlərinin formalaşmasında müəyyən rola malik idi. Xüsusilə, havaların soyuq olduğu və hərbi yürüşlərin bir qayda olaraq keçirilmədiyi mövsümlərdə ov mərasimləri daha çox keçirilirdi. Hökmdarlardan, əmirlərdən başlamış döyüşçülərə qədər bütün qoşun əhli bu mərasimlərdə iştirak edir və bununla onlar həm də döyüş vərdişlərini təkmilləşdirirdilər.

Döyüşçülərin fərdi vərdişlərinin və məharətlərinin yüksək olması Şah İsmayıl tərəfindən yüksək qiymətləndirlirdi. Bununla, o öz döyüşçülərində şəxsi məharətin

artırılmasına bir maraq yaradırdı və döyüşçülər də bilirdilər ki, göstərilən şücaət mükafatsız qalmayacaqdır. Mənbələrdə də bu məqam öz əksini tapmışdır. Mənbələrin birində belə deyilirdi: "O vaxtlar qızılbaşların qaydası belə idi ki, hər kim döyüş günü daha çox hünər göstərsəydi padşahın yanında onun izzəti daha çox olacaqdı və ali mənsəbə çatacaqdı. Əsil-nəsəb söhbəti yox idi. Əgər olsaydı o da əlavə olunardı və ali mənsəbə çatardı. Əgər tövlə mehtəri döyüşdə hünər göstərsəydi sepahiyə daxil edilərdi. Daha çox igidlik göstərsəydi əyalət sahibi olardı" (144).

Qoşunların tərkibinə qəbul edilmiş döyüşçülər nökər adlanırdılar (145). Bu söz qulluqçu mənasını daşımırdı və qoşunların sıravi üzvünü özündə əks etdirirdi. Amma, əslində, Səfəvi qoşunlarında nökərlik nisbi bir anlayış idi və hər bir nökər göstərdiyi şücatə görə tezliklə daha yüksək vəzifələr irəli çəkilə bilərdilər.

Məlumdur ki, qoşun dəstələrinin başçıları bir çox hallarda tayfa başçıları və vilayət rəhbərləri təyin edilidilər. Bu da təsadüfi deyildi. Çünki onlar hərbi bacarığına görə həmin vəzifələrə yiyələnmiş adamlar idilər. Döyüşlər zamanı qoşun dəstələrinə kimlərin rəhbərlik etməsi strateji əhəmiyyət kəsb edirdi. Ona görə də Şah İsmayıl qoşun başçılarının seçilməsinə və kimlərin olmasına ciddi diqqət yetirirdi.

Səfəvi qoşunlarında hünəri və təşkilatçılığı ilə ad çıxarmış əmirlər və sərkərdələr təbəqəsi yetişmişdi və Səfəvi qoşunlarının hərb məharətinin zənginləşməsində onların da özünəməxsus rolu var idi. Xüsusilə, Şah İsmayılın hərəkatının ilk illərində təcrübəli əmirlərin qoşun dəstələrinə rəhbərlik etməsi qoşunlarda hərb məratəti təcrübəsinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdi. Onların arasında Hüseyn bəy Lələ, Məhəmməd xan Ustaclı, Bayram bəy Qaramanlı, Durmuş xan, Qaraxan bəy, Qaraca İlyas, Sultan Əfşar, Xəlifə bəy Xüləfa, Sarıpirə xan, Əbdi bəy Şamlı kimi əmirlərin və sərkərdələrin adları ilə rastlaşmaq mümkündür. Bu əmirlər və sərkərdələr Şah İsmayılın döyüş planlarının həyata keçirilməsində təşkilatçılıq və döyüşgənlik məharəti göstərməklə Səfəvi qoşunlarının hərb məharətinin parlaq nümunələrini yaratmışdılar. Şah İsmayılın hərbi məharətinin üzə çıxmasında da bu sərkərdələrin xidmətləri az deyildi.

Şah İsmayılın iştirak etdiyi bütün döyüşlərdə onun yuxarıda adları çəkilən və çəkilməyən əmir və sərkərdələri də iştirak edirdilər. Döyüş zamanı Şah İsmayıl ilə bu sərkərdə və əmirlərin fəaliyyəti bir-birini tamamlayırdı və son nəticədə uğurun əldə edilməsinə yol açırdı.

Kifayət qədər təcrübəli və səriştəli əmir və sərkərdələrinin olmasına baxmayaraq, Şah İsmayəl bir qayda olaraq döyüş meydanının ən məsuliyyətli məkanında qərar tuturdu və döyüşün ağırlığını öz üzərinə götürməklə əmir və sərkərdələrin fəaliyyətini də nəzarət altında saxlamağa çalışır və zərurət yarananda onlara kömək də göstərirdi.

Şah İsmayılın və onun qoşunlarının iştirak etdiyi döyüşlərin demək olar ki, hamısı keçiriləcəyi əvvəldən məlum olan döyüşlər idi. Burada lokal döyüşlər istisna

təşkil edə bilər. Bu da imkan verirdi ki, döyüşlərin keçirilməsinə əvvəldən hazırlıq görülsün, lazımi qüvvələr səfərbər edilsin, ehtiyatlar yaradılsın. Dövrün döyüş ənənələrinə uyğun olaraq əsas (həlledici) döyüş təcrübəsi saxlanılmaqda idi. Yəni, qarşı tərəflər öz niyyətlərinə bir əsas döyüşlə nail olmağa çalışırdılar. Davamlı və üzücü müharibə aparılması təcrübəsi aktual deyildi. Ona görə də tərəflər çalışırdılar ki, bütün qüvvə və potensiallarını əsas döyüşün aparılmasına səfərbər etsinlər.

"Aləmara-yi Şah İsmayıl" əsərində Səfəvi qoşunlarında döyüş itlərinin olmasına işarə edilmişdir. Bu əsərdə təsvir edilir ki, Məhəmməd xan Ustaclı və onun qardaşı Qaraxan bəy Ustaclının rəhbərliyi altında olan Səfəvi qoşun dəstəsi ilə Əlaüddövlə Zülqədərin qoşun dəstəsi arasında döyüş başlamazdan əvvəl döyüş itləri meydana atıldılar. İtlər arasında döyüş başa çatandan sonra qoşunları silaha əl atdılar (146).

Mənbələrdə döyüş itləri barəsində əlavə məlumata rast gəlmək mümkün deyil. Döyüş itləri haqqında yuxarıdakı məlumat özlüyündə maraq kəsb etsə də, digər döyüşlərdə belə bir təcrübəyə əl atılması haqqında məlumatlar yoxdur. Əslində, itlərin belə istifadəsinin mahiyyətini başa düşmək də çətindir. Mühafizə və qarovul xidmətində itlərdən istifadə yəqin ki, daha çox fayda verə bilərdi və çox güman ki, əgər qoşunlarda itlər mövcud olubsa onlar elə mühafizə və qarovul xidmətində istifadə edilmişlər.

Döyüşlər bir qayda olaraq yaz və yay mövsümlərində keçirilirdi. Səfəvi qoşunlarının ilin soyuq vaxtlarında da döyüşlərdə iştirak etməsi məlumdur. Yuxarıda qeyd edildiyi kimi, döyüşlərin keçirilməsi, o cümlədən də xarici qüvvələrin hücumları barəsində əvvəldən məlumat əldə etmək mümkün olurdu. Bu da imkan verirdi ki, qarşıdakı döyüşə daha yaxşı hazırlıq keçirilmiş olsun. Həmin hazırlıq daxilində qoşunlar toplanır, təchiz edilir və döyüşqabağı hazırlıq məntəqələrinə cəmləşdirilirdi. Toplanan qoşunlara əvvəlcə vilayət hakimləri və tayfa başçıları sıra baxışı keçirir, qoşunların çatışmazlıqlarını aradan qaldırırdılar. Sonra da ümumi qoşunlara hökmdarlar tərəfindən baxış keçirilirdi. Bu baxış zaman qoşunların say tərkibi müəyyənləşdirilir, vilayət qoşunlarının hazırlıq səviyyəsi, onların təchizat imkanları dəqiqləşdirilir, qoşun dəstələrinin qarşısında dayanan vəzifələr konkretləşdirilirdi. Zərurət yarandıqda qoşunların çatışmazlıqları xəzinə hesabına aradan qaldırılırdı.

Əvvəlki fəsillərdə qeyd edildiyi kimi, 1510-cu ildə Xorasan yürüşünə başlamazdan əvvəl Şah İsmayıl Sultaniyyədə qoşunlara sıra baxışı keçirdi, onların yürüşə hazırlıq səviyyəsini yoxlamaqla qarşılarında dayanan vəzifələri müəyyənləşdirdi. Bu sıra baxışının keçirilməsi haqqında mənbələrdə maraqlı məlumatlar mövcuddur. Bildirilir ki, Sultaniyyədə insanların heyranlıqla izlədiyi bir qoşun toplanmışdı və hələ heç bir zaman belə yüksək nizamda və yaraşıqda qoşun görünməmişdi. Həmin gün təcrübəli Səfəvi döyüşçüləri arasından seçilmiş qorçular dəstəsi Şah İsmayılın taxtının arxasında iki tərəfdə düzülmüşdülər. Yasavullar və xas qulamlar da qızıldan olan gürzlərlə onlar üçün ayrılmış yerlərdə dayanmışdılar. İstər qorçularım, istərsə də qulamların və yasa-

vulların çox gözoxşayan geyimləri var idi və bu geyimlər onların görünüşünü daha da əzəmətli edirdi. Sıra baxışına başlamazdan əvvəl şah sarayının protokol rəisi olan eşikağasıbaşının işarəsi əsasında mərasimdə iştirak edən vilayət hakimlərinin hər biri öz yerlərini tutdular. Sıra baxışını keçirən Şah İsmayıl mərasim iştirakçıları qarşısında çıxış etdi, hərbi yürüşə çıxmağın məqsədini toplaşanlara anlatdı. Sonra isə o, qoşun başçılarının, əmir və əyanların Xorasana hərbi yürüş başlamaq haqqında fikirləi ilə maraqlandı. Rəyi soruşulanlar da Şah İsmayılın qərarını dəstəklədilər və onunla birlikdə bu yürüşdə iştirak etməyə hazır olduqlarını bildirdilər. Şah İsmayıl bütün fikirləri dinlədikdən sonra yürüşə hazırlıq barədə son əmrlərini verdi. Amma bu yürüşə başlamazdan əvvəl Şah İsmayıl mərasimə toplaşanlar üçün böyük bir ziyafət təşkil etdi. Ziyafət məclisi başa çatdıqdan sonra isə Səfəvi əmirlərini, əyanlarını, sərkərdələrini və döyüşçülərini mükafatlandırdı, onları hərbi yürüşə təşviqləndirdi. Onun əmri ilə xəzinə qapısı açıldı, böyük miqdarda pul, qiymətli əşyalar, sikkə və qızıllar, cins atlar, zərlə işlənmiş at təchizatı, nəfis silahlar və digər əşyalar mərasim iştirakçılarına paylandı. Sıra baxışında iştirak edən qızılbaş döyüşçüləri böyük məmnunluqla məclisi tərk etdilər. Səhəri gün isə böyük təbillərin və şeypurların sədaları altında qoşunlar uzaq səfərə yola düşdülər (147).

Bir italiyalı tacir 1510-cu ildə Təbrizdə olarkən Səfəvi qoşunlarını yaxından müşahidə etmiş və bu qoşunlar haqqında öz təəssüratını belə yazmışdı: "Qaydaya uyğun olaraq qırmızı koftan geyinmiş və başlarına uzun və dairəvi əmmamə qoymuşdular. Bu əmmamələrdə 12 dilim vardır ki, onlar Əlinin (əleyhüssəlam) 12 övladı olan 12 imamın məzhəbinin nişanəsidir. Bundan başqa onlar bığlarını və saqqllarını qırxmırlar. Onların libası heç zaman dəyişməmişdir. Silahları gözəl düzəldilmişdir və onların poladdan olan zirehlərinin üzərində oyma naxışlar vardır. Onların üst zirehləri də həmin şəkildədir və onların öz papaqları Məmlüklərin (misir) papaqlarına oxşayır. Yaraqları çox möhkəmdir və onların dövrəsinə pambıq bağlanır ki, onları bəzi vaxtlar poladdan, bəzi vaxtlar isə xalis Şiraz poladından hazırlayırlar. Yaraqları qurğuşundan idi və bizim yaraqlarımıza oxşamırlar. Onlar başlarına ağır dəmir papaqlar da qoyurlar. Onların hamısı atlıdır və belə görünür ki, onların piyada əsgəri yoxdur. Onların silahı nizə, qılınc, sapand, çoxlu sayda olan kamandır" (147a).

Hərbi yürüşə başlamazdan əvvəl Şah İsmayılın (İsmayıl Mirzənin) qoşunlara çağırış etməsi, onları yürüşə hazır olmağa səsləməsi barəsində də mənbələrdə məlumatlar mövcuddur. Belə çağırışların birində deyilirdi ki, döyüş təbilləri vurulsun, atlılar və piyadalar döyüşə, hərbi yürüşə hazır olsun, qoşun əhlindən kimsə qoşundan kənar qalmasın, döyüşməkdən qorxmasın (148).

Bu çağırış Şah İsmayıl hərəkatının erkən vaxtlarına aiddir və yəqin ki, daha çox qoşun əhlinin ruhlandırılması üçün səsləndirilmişdi. Çünki ən erkən vaxtlarından qızılbaş qoşunları dərin etiqad və mürşidi-kamilə sonsuz sədaqət əsasında toplanırdılar. Ona görə mürşidi-kamilin çağırışından sonra kimsənin qoşundan kənar qalması və ya döyüşdən qorxması yəqin ki, baş verməzdi.

Qoşunların səfər yürüşünü həyata keçirməyin xüsusi bir təcrübəsi də fomalaşmışdı. Səfər yürüşündə qoşun dəstələrinin hər birinin yeri məlum idi. Qoşunlar üçün mühafizə dəstələri təyin edilirdi. Səfər düzülüşünün qarşısında xüsusi çavuşlar hərəkət edirdilər. Çavuşlar əllərində yaşıl bayraqlar tuturdular və çox yaraşıqlı və məxsusi geyimə malik idilər. Qoşunların önündə hərəkət edən çavuşlar xoş avazla dini məzmunlu havaları səsləndirirdilər. Bununla, onlar həm qoşunların əhval-ruhiyyəsini qaldırırdılar, həm də yerli əhalidə mübarizlik əhval-ruhiyyəsini artırırdılar. Qoşunların tamaşasına toplanan əhalinin sayı çox olanda çavuşlar öz nəğmələrini daha şövqlə və uca səslə oxuyurdular və bununla əhalinin qoşunlara daha güclü dəstəyini formalaşdırmağa çalışırdılar (149).

Bütünlükdə isə səfər zamanı qoşunlar iki böyük dəstəyə bölünərdilər. Bu dəstələrin birini döyüşən qoşun dəstələri, ikincisini isə xidməti dəstə təşkil edərdi. Xidməti dəstə də sayca heç də az olmazdı. Yuxarıda qeyd edildiyi kimi, əvvəla, hər bir döyüşçü öz xidmətçisini özü ilə apara bilərdi, digər tərəfdən də qoşunların təchizat bölmələri, ehtiyatları daşıyan dəstələr və nəhayət ordu-bazar böyük bir kütləni təşkil edirdi. Nəqliyyat arabalarının sayının çoxluğu səfər düzülüşünün də uzanmasına səbəb olardı. Xidmət dəstəsinin sayının çoxluğu sözsüz ki, səfər düzülüşünün hərəkət sürətini də azaldırdı. Ona görə də səfər hərəkəti günlərlə uzana bilirdi.

Səfər düzülüşünün təhlükəsiz irəliləməsini təmin etmək üçün qoşunların irəlisinə, gerisinə mühafizə dəstələri təyin edilərdi. Bəzən irəliyə avanqard dəstə göndərilərdi. Həmin dəstə həm qarşıdakı yolun təhlükəsizliyini təmin etməli, həm də ərazinin kəşfiyyatını aparmalı idi. Eyni zamanda avanqard dəstə təyin olunan yerə yetişməklə qoşunlar çatana kimi həmin ərazinin təhlükəsizliyini təmin etməli idi. Məsələn, mənbə məlumatlarından bəllidir ki, Şah İsmayıl (İsmayıl Mirzə) Şamaxı üzərinə hərbi yürüşə başlamazdan əvvəl Bayram bəy Qaramanlının rəhbərliyi altında Kür çayı hövzəsinə avanqard dəstə göndərdi. Bayram bəy Qaramanlı da dəstəsi ilə əsas qüvvələrdən bir neçə gün əvvəl Kür çayı sahilinə çatdı, orada düşərgə saldı və əsas qüvvələrin yetişməsinə kimi oranın təhlükəsizliyini təmin etdi (150).

Bütünlükdə kəşfiyyat işlərinin aparılmasına Səfəvi qoşunlarında böyük diqqət yetirilərdi. Şah İsmayıl özü qarşı tərəfin harada olması, niyyətləri, qüvvələri haqqında kəşfiyyat məlumatları toplamağı hər zaman nəzarət altında saxlayırdı. Qoşunlar hələ döyüş meydanına hərəkət etməzdən əvvəl qarşı tərəfin kəşfiyyatına başlanardı və bu iş döyüşün gedişində də davam etdirilirdi. Kəşfiyyatın aparılması üçün xüsusi hazırlıqlı adamlar var idi. Onlar casus adlandırılırdı (151). Casuslar konkret tapşırıqlarla irəliyə, ya da qarşı tərəfin nəzarəti altında olan ərazilərə göndərilirdi və lazım olan məlumatlar toplanılardı. Digər döyüşçülərdən və mülki adamlardan da kəşfiyyat məqsədi ilə istifadə edilməsi istisna deyildi. Mülki adamlar ya öz səfərləri zamanı olduqları məntəqədən mövcud vəziyyət haqqında məlumatlar gətirirdilər, ya da onlar elə məlumat toplanması məqsədilə müxtəlif adlar altında lazım olan ərazilərə göndərilirdilər (152).

Kəşfiyyat məlumatlarının dəqiqliyi üçün qarşı tərəfin döyüşçülərindən əsir götürülməsi haqqında da məlumatlar vardır. Kəşfiyyatın gücləndirilməsi məqsədilə qarşıya kəşfiyyat dəstələri də göndərilirdi. Bu dəstələr irəliyə çıxarılmış xüsusi dəstələr kimi, düşmən qüvvələrinin kəşfiyyat və ya mühafizə qüvvələri ilə döyüşə də girə bilərdilər.

Şirvan məntəqəsinə yetişməzdən əvvəl Şah İsmayıl (İsmayıl Mirzə) yaxınlarından olan və Həbəş Mirzə kimi tanınan Qulu bəy adlı birisini Şirvan sakinlərin yanına göndərdi. Qulu bəy Şirvandakı vəziyyətlə tanış olduqdan sonra əhalini sakitləşdirməli və qızılbaş qoşunlarından onlara ziyan dəyməyəcəyinə əmin etməli idi. Qulu bəy də bu tapşırığı icra etdi və yeni yaranmış vəziyyət barəsində Şah İsmayıla məlumat çatdırdı (153).

Əslində, Qulu bəyin vəzifəsi də kəşfiyyat xarakteri daşıyırdı və ona tapşırılan işi yerinə yetirə bilməyəcəyi təqdirdə Şirvandakı vəziyyət barəsində Şah İsmayıla məlumat çatdırmalı idi.

Mənbələrdə haqqında danışılan qarovul dəstələrinin də əsas vəzifəsi kəşfiyyat işlərinin aparılması idi. Məsələn, mənbələrdən birində bildirilir ki, döyüşdən əvvəl Şah İsmayıl (İsmayıl Mirzə) qoşun başçılarını yanına topladı və onlarla qarşıdakı planlar barəsində məsləhətləşmə apardı. Sonra da qərara aldı ki, təcrübəli və fədakar döyüşçülərdən bir dəstə təşkil edilsin və bu dəstə qarovul kimi irəliyə göndərilsin. Həmin qarovul dəstəsi qarşı tərəfin vəziyyəti haqqında məlumat toplayaraq Şah İsmayıla təqdim etməli idi. Qarovul dəstəsi də ona tapşırılan vəzifəni icra edərək qarşı tərəfin vəziyyəti, qoşunlarının harada olması barəsində Şah İsmayıla ətraflı məlumat çatdırdı (154) .

Döyüşlərin çoxu qalalar ətrafında aparılırdı. Qala döyüşləri dövrün döyüş ənənələrindən biri idi və hərb məharətinin müəyyənləşdirilməsində də özünəməxsus təsirə malik idi. Belə döyüşlər adətən müdafiə olunan tərəfin seçimi əsasında baş tuturdu. Hücum edən tərəfin çoxsaylı qüvvələrinin qarşısında qalaların müdafiə imkanlarından istifadə edilməsi daha etibarlı nəticəyə gətirib çıxara bilərdi. Qala döyüşləri, xüsusilə, odlu silahların tətbiqindən əvvəlki dövr üçün hərb məharətinin xarakterik elementlərindən biridir. Səfəvi dövründə də qala döyüşləri öz aktuallığını saxlamaqda idi. Şah İsmayılın hərəkatı və hakimiyyəti illərində qala döyüşləri silahlı qarşıdurmanın əsas fomalarından biri idi. Topların hələ olmadığı bir vaxtda qala daxilinə sığınmaqla hücum edən tərəfin qarşısını almaq daha etibarlı bir üsul idi. Zəruri olan ehtiyatların toplandığı halda qala daxilində uzun müddət müdafiə olunmaq mümkün idi. Şah İsmayıl da hərəkatının ilkin dövründə, eləcə də sonrakı illərdə qala döyüşləri aparmalı olmuşdu.

Orta əsr şəhərlərinin, o cümlədən də Səfəvilər dövrü şəhərlərininn demək olar ki, hamısı qala-şəhərlər idi. Ona görə qala-şəhər ətrafında döyüşlərin özünəməxsus bir təcrübəsi də formalaşmışdı. Bu məqam Şah İsmayılın hərb məharətində də müəyyən bir istiqaməti təşkil edirdi. Qala döyüşlərinin aparılmasında həm qala üzərinə həmlələrin həyata keçirilməsi taktikasından istifadə edilirdi, həm də mühasirə taktikasından istifadə olunurdu. Birinci halda qoşun dəstələri irəli atılır, qarşı tərəfin müdafiə qüvvələrinə qarşı hücum həyata keçirilir, müəy-

yən hallarda qala divarları altında lağımlar atılır və s. İkinci halda isə üzücü mühasirə davam etdirilir və bu halda qala daxilindəkilərinin ehtiyatlarının tükənməsindən sonra təslim olacaqlarına ümid bağlanılırdı. Səfəvi qoşunlarının təcrübəsində bu taktikanın hər ikisindən istifadə edilmişdi.

Qala döyüşləri ilə bağlı Şah İsmayıl (İsmayıl Mirzə) şəraitin imkanlarından irəli gələn taktika tətbiq edirdi. Məsələn, 1501-ci ildə, Səfəvi dövlətinin təsis edilməsi ərəfəsində Bakı qalasına və Gülüstan qalasına münasibətdə İsmayıl Mirzə (Şah İsmayıl) fərqli taktika seçdi. Bakı qalasının alınması İsmayıl Mirzə üçün strateji əhəmiyyət kəsb edirdi. Çünki bu qalanın alınması ilə həm Şirvan şahının qüvvəsi xeyli zəifləmiş olardı, həm də bölgəyə nəzarəti ələ keçirmək olardı. Baxmayaraq ki, Bakı qalası kifayət qədər güclü qala idi, İsmayıl Mirzə onun alınmasından yan keçmədi. Əvvəlcə, Məhəmməd bəy Ustaclı ilə İlyas bəy Ustaclının rəhbərliyi altında Bakı qalası ətrafına qoşun dəstəsi göndərildi (155). Bu əmirlər Bakı qalasını ələ keçirə bilməyəndə İsmayıl Mirzə özü Bakı qalası ətrafına gəldi və qalanın alınmasına rəhbərlik etdi. Bu qalanı divarlar altından lağım atmaqla və qızılbaş döyüşçülərini bu lağımlardan qala daxilinə adlatmaqla ələ keçirmək mümkün oldu. Bakının ələ keçirilməsi ilə İsmayıl Mirzə Şirvan ərazisində öz mövqeyini xeyli möhkəmləndirə bildi. Ona görə də, Bakı qalasından dərhal sonra mühasirəyə aldığı Gülüstan qalası ilə bağlı isə fərqli taktika seçdi. Gülüstan qalasının ələ keçirilməsi uzana biləcəyindən İsmayıl Mirzə orada dayanmağı lazım bilmədi. Çünki Ağqoyunlu qoşunlarına üstün gəlib Səfəvi dövlətini qurandan sonra Gülüstan qalasının ələ keçirilməsi xüsusi çətinlik təşkil etməyəcəkdi.

Daha böyük sayda qoşunların cəlb edilməsi ilə keçirilən döyüşlər düzlük ərazidə baş verirdi. Şah İsmayılın sərkədəlik fəaliyyətində belə döyüşlərin sayı az deyildi və Çaldıran döyüşü istisna olmaqla digər düzənlik döyüşlərində uğur əldə etmişdi. Şirvanşah qoşunlarına qarşı, Ağqoyunlu və özbək qoşunlarına qarşı və nəhayət Çaldıran döyüşü düzənlik ərazidə baş vermiş böyük döyüşlərdən idi. Şah İsmayıl da belə döyüşlərə üstünlük verirdi. O öz əmirlərinə və sərkərdələrinə də açıq meydanda mərdi-mərdanə döyüşə atılmağı və açıq döyüşdə öz gücünü nümayiş etdirməyi təlqin edirdi.

Düzənlik ərazidə döyüş keçirilməsi üçün ərazinin seçilməsi müəyyən əhəmiyyət kəsb edirdi. Döyüş meydanı seçilərkən onun coğrafi imkanları mütləq nəzərdən keçirilirdi. Çox vaxt döyüş keçiriləcək ərazini Şah İsmayıl özü müəyyənləşdirirdi. Bu zaman bir sıra məqamlar nəzərə alınırdı. Başlıca diqqət ona yetirilirdi ki, seçilmiş ərazidə bütün qoşunların cəlb edilməsi ilə döyüş keçirmək mümkün olsun. Şah İsmayıl ilk növbədə fiziki gücünü hərb məharətinə çevirməyə imkan verəcək ərazilərdə döyüş aparmağa üstünlük verirdi. Diqqət yetirilən digər bir məqam bütün qüvvələrin döyüşə qoşulmasına və onların azad fəaliyyətinə imkan verən ərazinin seçilməsi idi. Qoşunların azad və sürətli fəaliyyəti həm də atların səmərəli fəaliyyət göstərə biləcəyi ərazinin seçilməsini tələb edirdi. Atların daha yaxşı istifadəsinə nail olunması üçün, adətən, dağlıq, təpəlik, cəngəllik, bataqlıq ərazilərdən yan keçilirdi. Şah İsmayıl

onun da nəzərə alırdı ki, döyüş üçün seçilmiş ərazidə qoşunların idarə edilməsini nəzarət altında saxlaya bilsin.

Qoşunların təminat və təchizatının təşkili də döyüş meydanlarının seçilməsi ilə bağlı müəyyən tələbləri irəli sürürdü. Bu tələblərdən biri döyüş meydanının hərəkət yollarının yaxınlığında olması idi ki, bununla gediş-gəlişi və daşınmaları təşkil etmək mümkün olsun. Digər tərəfdən döyüş meydanının su mənbələrinə yaxın olması, heyvanlar üçün yem olan ərazilər olması da döyüş meydanı seçilərkən nəzərə alınırdı.

Qoşunların qruplaşdırılması adətən döyüş qabağı aparılırdı. Bu zaman bir neçə məqama diqqət yetirilirdi: qarşı tərəfin qüvvələrinin sayı və onların necə qruplaşdırılması, qarşıya qoyulan vəzifələrin xarakteri, coğrafi şərait, qoşun dəstələrinin sayı, onların döyüş təcrübəsi, zərbə imkanları və s. Qoşunların döyüş düzülüşündə dövrün klassik variantı tətbiq olunur və qoşunlar üç böyük dəstəyə bölünürdü – mərkəzdəki qüvvələr, sağ cinah (meymənə), sol cinah (meysərə). Meymənə və meysrəyə tanınmış Səfəvi əmirləri rəhbərlik edirdilər. Onların rəhbərliyi altına ayrı-ayrı qoşun dəstələri verilirdi. Sağ və sol cinahların rəhbərləri ümumi plan çərçivəsində həm cinahlardakı qüvvələrin fəaliyyətini əlaqələndirməli, həm də digər cinah və mərkəzdəki qüvvələrlə nizamlanmış və əlaqələndirilmiş şəkildə döyüşü aparmalı idilər. Bundan başqa, qoşunların avanqard dəstəsi, aryerqard dəstəsi və ehtiyat qüvvələri təyin edilirdi. Şah İsmayıl bir qayda olaraq mərkəzdəki qüvvələrin tərkibində olurdu. İstisna hallar da var idi. Məsələn, Çaldıran döyüşündə Şah İsmayıl sağ cinahda mövqe tutmuşdu. Seçdiyi mövqedə döyüşə qoşulmaqla Şah İsmayıl həm mərkəz qüvvələrinə, həm də bütünlükdə, qoşunların fəaliyyətinə rəhbərlik edirdi. Şahın idarəetmə məntəqəsi də mərkəzdə yerləşirdi. Bir qayda olaraq ehtiyat qüvvələr də şahın ətrafında qərar tururdular və onun göstərişi ilə döyüşün bu və ya digər nöqtəsinə müdaxilə edirdilər. Şah İsmayıl elə bir mövqe seçməyə çalışırdı ki, oradan bütün döyüş meydanına nəzarət edə bilsin, döyüşün necə getməsindən xəbərdar olsun və lazım gələndə vaxtında döyüşün gedişinə müdaxilə edə bilsin. İdarəetmə məntəqəsindən bütün qoşunların döyüşü müşahidə edilmədikdə döyüşün gedişin barəsində Şah İsmayıl cinahlara göndərdiyi çaparları vasitəsilə xəbər tuta bilərdi. Ya da cinahlardan göndərilmiş çaparlar ona vəziyyət haqqında, cinah rəhbərlərinin xahişləri və istəkləri haqqında məlumat çatıdırırdılar.

Qızılbaş qoşunlrının Ağqoyunlu qoşunlarına qarşı Şərurda keçirdiyi döyüşdəki düzülüşü dövrn hərb məharətinin klassik nümunəsi ola bilər. Bu döyüşdə də qoşunlar sağ, sol cinahlara və mərkəzə yerləşdirildi. Mövcud məlumatlara görə, Şah İsmayıl (İsmayıl Mirzə) döyüşdən qabaq at belində qoşunları yoxladı və qoşun dəstələrinə ən yaxşı əmirlərini rəhbər təyin etdi. Onların arasında Hüseyn bəy Lələ, Abdal bəy Dədə, Xadim bəy Xüləfa, Məhəmməd bəy Ustaclı, Bayram bəy Qaramanlı, Əbdi bəy Şamlı, Qaraca İlyas bəy Bayburdlu, Qarapiri bəy Qacar, Sarı Əli bəy Təkalu və başqaları var idi. Hüseyn bəy Lələ ilə Xadim bəy Xüləfanın qızılbaş qoşunlarının cinahlarına rəhbər təyin edilmişdilər. İsmayıl Mirzə özü isə qoşunların mərkəzində qərar tutmuşdu (156).

Ehtiyat qüvvələrin müəyyənləşdirilməsində Şah İsmayıl şəraitə uyğun olaraq qərar qəbul edirdi. Məsələn, Fərrux Yasara qarşı döyüşdən qabaq Şah İsmayıl (İsmayıl Mirzə) qoşunları iki yerə böldü və onların təxminən yarısını ehtiyatda saxladı. O cümlədən, Çülpa bəy, Qılınc bəy Qaramanlı, Allahməhəmməd Təkalu, Cüş Mirzə, Bəkir bəy Çakərli, Əli bəy Çakərli, Piri bəy Qacar, Süleyman bəy Xazan Zülqədərli, Piri bəy Pərvanəçi Əfşar, Əhməd bəy Sufioğlu Ustaclı kimi təcrübəli əmirlərin rəhbərlik etdiyi qoşun dəstələri ehtiyatda saxlanıldı (157).

Bir qayda olaraq döyüş çərxçilər dəstəsi tərəfindən başlanardı. Bu dəstə adətən qoşunların mərkəzindən hərəkət edirdi. Çərxçilik üçün xüsusi qüvvələr təyin edilirdi və həmin dəstənin rəhbəri də çərxçibaşı adlanırdı. Çərxçi dəstəsinə təcrübəli və hazırlıqlı qüvvələr təyin edildiyi kimi, ona rəhbərlik də təcrübəli əmirlərə həvalə edilirdi. Çərxçilər dəstəsinin vəzifəsi döyüşü başlamaq, qarşı tərəfin qüvvələrini döyüşə cəlb etmək idi. Bununla, çərxçilər bir tərəfdən döyüşün ilkin məsuliyyətini öz üzərinə götürür, ilk zərbə ilə qarşılaşır, ilk itkiləri verir, bir tərəfdən qoşun dəstələrini döyüşə ruhlandırır, bir tərəfdən də qarşı tərəfdən hansı qüvvələrin ilkin olaraq döyüşə atılacağı barədə müəyyən məlumatlar əldə edilirdi. Çərxçilər dəstəsi çox böyük dəstə deyildi. Ona görə də onlar ağır vəziyyətlə qarşılaşmamaq üçün vaxtında geri çəkilməli və meydanı əsas qüvvələrə verməli idi.

Çərxçi dəstəsi, adətən, düzənlik ərazilərdə keçirilən döyüşlərdə təyin edilirdi. Qala ətrafında keçirilən döyüşlərdə çərxçilərin təyin edilməsinə ehtiyac qalmırdı.

Düzənlik sahələrdə keçirilən döyüşlər zamanı Şah İsmayıl müxtəlif taktikadn istifadə edirdi. Hansı taktikanın seçilməsi isə daha çox döyüş şəraiti və qarşıda dayanan vəzifənin xarakteri ilə bağlı idi. Geniş düzənlik meydanda üzbəüz döyüş Şah İsmayılın üstünlük verdiyi taktiki seçimlərdən biri idi. Belə döyüşlərdə sürət və çeviklik Səfəvi qoşunlarına üstünlüyü təmin edirdi.Sürət və çeviklik isə Səfəvi qoşunlarının xarakterik cəhətlərindən biri idi. Məsələn, Çaldıran döyüşü buna əyani misal ola bilər. Şah İsmayıl Çaldıran düzənliyindəki döyüşdə də sürət, çeviklik və güclü zərbə qüvvəsi ilə qarşısına qoyduğu planın icrasına nail olmaq istəyirdi.

Şah İsmayıl başqa taktiki üsullardan da istifadə edirdi. Məsələn, Şərur düzündə Ağqoyunlu qoşunlarına qarşı döyüşdə İsmayıl Mirzə Ağqoyunlu mövqelərinin əhatə edilməsi tapşırığını verdi. Bu tapşırıq dərhal yerinə yetirildi və nəticədə Ağqoyunlu qoşunları həm cinahlardan, həm də arxadan qızılbaş qüvvələrinin zərbəsi altına düşdü. Bu da imkan verdi ki, İsmayıl Mirzənin mərkəzdəki hücumu daha səmərəli şəkildə həyata keçsin.

1510-cu ilin sonlarına yaxın Şah İsmayıl özbək qoşunlarına qarşı fərqli bir taktika tətbiq etdi. Özbək qoşunlarına Mərv qalası daxilində üstün gəlməyin çətin olacağını görəndə Şah İsmayıl əvvəlcə fənd işlədərək bu qoşunları qaladan düzənlik əraziyə çıxara bildi. Düzənlik ərazidə isə Səfəvi qoşunları özbək qoşunlarını fərqli düzülüşdə qarşıladılar. Şah İsmaylın əmri ilə özbək qoşunlarının

qarşılanması üçün Səfəvi qoşunları aypara şəklində döyüş mövqeləri tutdular. Döyüşqabağı düzülüş elə qurulmuşdu ki, ayparanın iti ucları öbək qoşunlarının gələcəkləri istiqamətə yönəlmişdi. Bununla belə bir plan qurulmuşdu ki, özbək qoşunları Səfəvi qoşunlarının yarımdairəsinə düşsün və üç tərəfdən əhatəyə alınsın. Şah İsmayılın tapşırığı ilə qızılbaş döyüşçüləri yatmamalı və yalnız sufi yuxusu ilə kifayətlənməli idilər. Sufi yuxusu isə ondan ibarət idi ki, döyüşçülər atın yüyənini qollarına keçirməli və sonra da başlarını qucaqladıqları dizləri üstünə dayaqlamalı idilər. Bu vəziyyətdə onlar qısa müddət ərzində mürgüləməli və yuxusuzluğun qarşısını almalı idilər. Tətbiq etdiyi bu planla Şah İsmayıl böyük sayda özbək qoşununu əhatəyə alaraq məhv edə bildi.

Şah İsmayıl döyüş meydanında qarşılaşdığı qüvvələri bütünlüklə məhv etməyə, qarşı tərəfi əsaslı şəkildə diz çökdürməyə çalışırdı. Amma döyüş meydanından qaçan qüvvələri izləməyi məqsədəuyğun saymırdı və öz əmirlərinə də buna imkan vermirdi. Burada müəyyən istisna hallarla rastlaşmaq mümkün olsa da, qaçan düşmənin təqib edilməsini Şah İsmayıl öz döyüş təfəkkürünə uyğun saymırdı.

Döyüşlərin idarə edilməsində musiqi alətlərindən də istifadə olunardı. Onların arasında təbillər, nağaralar, kərənaylar və digərləri var idi (158). Elə musiqi alətlərindən istifadə olunurdu ki, onların səsini uzaq məsafədən eşitmək mümkün olsun. Musiqi alətlərindən daha çox döyüşlərin başlanması zamanı istifadə olunurdu. Bu alətlərin səsinin eşidilməsindən sonra qoşunlar döyüşə atılardılar. Musiqi alətlərindən istifadəsi üçün xüsusi musiqiçilər dəstəsi saxlanılırdı.

Əslində, döyüş musiqisi ilə bağlı dövrün hərb işində xüsusi bir ənənə mövcud idi. Səfəvi qoşunlarında da bu ənənədən istifadə olunurdu. Musiqi sədasından qoşunların hərəkətə başlaması üçün, ya da qoşunların döyüşə girməsi üçün bir işarə kimi istifadə olunurdu. Musiqi çox hallarda müəyyən əmrin döyüş meydanına səpələnmiş qoşunlara çatdırılması üçün də istifadə olunurdu. Musiqinin səsləndirilməsi ilə qoşun rəhbərləri verilən tapşırığın icrasına başlayardılar. Musiqi həm də döyüşgən əhval-ruhiyyənin yaradılması üçün ilhamverici bir qüvvə idi və bu imkanlardan da qoşunlarda istifadə edilirdi.

Qoşunların idarə edilməsində bayraqlardan da istifadə olunurdu. Qoşun rəhbərlərinin hər birinin döyüş bayrağı var idi. Bayrağın dalğalanması qoşun rəhbərinin salamat olması və onun döyüşü davam etdirməsi anlamında idi. Bayrağın endirilməsi isə bayraq sahibinin dünyasını dəyişməsi və ya onun məğlub olması və ya da döyüşün dayandırılması anlamında idi.

Şah İsmayılın da qoşun, təriqət və dövlət rəhbəri kimi öz bayrağı var idi. Bayraq hərbi yürüşlər zamanı hər zaman onun yanında olurdu. Şah bayrağına xidmət edən xüsusi bir dəstə var idi. Həmin dəstənin rəhbəri ələmdarbaşı adlanırdı (159).

Döyüş zamanı şah bayrağı onun dayandığı məkanda dalğalanırdı. Bayrağın dalğalanması Şah İsmayılın döyüş meydanında olması demək idi. Şah İsmayıl döyüş meydanını tərk edirdisə, döyüş bayrağı da endirilirdi. Yəni, döyüş bayrağı Şah İsmayılın simvolu idi. Şah İsmayıla zərbə vurulması üçün də qarşı



*Şah İsmayılın döyüş bayrağı. Bayrağın üzərində "Ya Əli vəliullah mədəd" sözləri yazılmışdır*

tərəf onun bayrağının harada olmasını müəyyənləşdirib həmin istiqamətdə irəliləməyə çalışardı.

Şah bayrağının dalğalanması döyüşün aparılmasına həm də bir psixoloji dayanıqlıq gətirirdi. Onun enməsi şahın düşmən əlinə keçməsi, ya da şahın döyüş meydanından qaçması kimi qəbul edilirdi. Onun dalğalanmasını müşahidə etməyən döyüşçülər döyüşün uduzulduğunu və ya hökmdarın öldürüldüyünü güman edər və bundan sonra döyüşün aparılması qeyri-mümkün hesab olunardı. Bununla qoşunlar da dağılışıb döyüş meydanını tərk edərdilər.

Şah İsmayılın bayrağının (ələminin) təsviri haqqında mənbələrdə müxtəlif məlumatlarla rastlaşmaq mümkümdür. Həmin məlumatlardan əldə olunan qənaətlərdən biri budur ki, bu bayraq ağ rəngdə və üçbucaq şəklində olmuşdur. Minüatürlərdə olan təsvirlərə əsasən, bu bayrağın kənarlarının haşiyələrlə işlənməsini görmək mümkündür. Mənbələrdə Şah İsmayılın bayrağının (ələminin) üzərində şir təsvirinin olması haqqında da məlumat vardır (160), əjdəha təsvirinin olması haqqında da məlumat vardır (161). Bu məlumatlardan hansının doğru olmasını hazırkı tədqiqatla təsdiqləmək mümkün olmamışdır. Şah İsmayıl dövrünə aid olan minüatürlərin birində isə onun yanında dalğalanan bayrağının üzərində "La ilahə illəllah, Əli vəliyüllah mədəd" yazısına rast gəlmək mümkündür (162). Məntiqə görə, Şah İsmayılın bayrağının üzərində belə bir yazının olması qəbul ediləndəir. Çünki bu cümlə Şah İsmayılın hərəkatının mahiyyətindən irəli gəlirdi. Amma mənbələrdə olan digər məlumatlar Şah İsmayılın bayrağındakı təsvirin yalnız bu yazının olmasını şübhə altına alır. "Aləmara-yi Şah İsmayıl" əsərində bir neçə dəfə təkrar olunmuş məlumata görə, Şah İsmayılın bayrağında Qurani Kərimin Səf surəsinin 13-cü ayəsi olan "Nəsri min Allah və fəthi qərib" (Allahdan kömək olarsa qələbə yaxındadır) yazılmışdı (163).

Bu ayənin də Şah İsmayılın bayrağı üzərində olması qəbul ediləndir. Çünki orta əsrlər islam dünyası hökmdarlarının bayraqlarında bu ayənin yazılması ilə rastlaşmaq mümkündür. Ola bilsin ki, Şah İsmayılın bayrağının bir tərəfində bu ayə yazılmış, digər tərəfində isə yuxarıdakı kəlmeyi-şəhadət cümləsi, ya da təsvirlərdən biri olmuşdur. Çox böyük ehtimalla Şah İsmayıl bayrağında Quran ayəsinin və ya kəlmeyi-şəhadətin yazılması istisna deyildir.

Qısa müddət ərzində Səfəvi dövlətinin sərhədlərinin xeyli genişlənməsi və çox geniş hüdudları əhatə etməsi, əslində, Şah İsmayılın hərb məharətinin yüksək səviyyədə olmasının əyani nümayişi idi. Hətta Şah İsmayılın sonuncu böyük döyüşü olan və onun üçün uğursuzluqla başa çatan Çaldıran döyüşündə nümayiş etdirdiyi məharət dünya hərb məharəti tarixinin ən dəyərli nümunələrindən biridir. Çoxlu sayda topa və tüfəngə malik olan təxminən 50 minlik Osmanlı qoşun dəstəsinin heç bir odlu silaha malik olmayan 7-8 minlik Səfəvi qoşunu ilə məhv edilməsi Şah İsmaylın şəxsi məharətinin nümayişi idi. Bu zaman Şah İsmayılın göstərdiyi şəxsi məharət dünya tarixində bənzəri olmayan hadisələrdən biridir.

### ç) Şah İsmayılın hərb məharətinin etiqadla bağlılığı

Şah İsmayılın fəaliyyəti dövründə, ümumən orta əsrlərdə hərb işinin obyektiv qanunauyğunluqları elmi-nəzəri qənaətlər şəklində mövcud olmasa da, bu qanunauyğunluqlardan irəli gələn müəyyən hərbi və döyüş təcrübəsi formalaşmışdı. Həmin təcrübəyə əsaslanaraq müharibələrin necə aparılması haqqında konkret baxışlar və yanaşmalar mövcud idi. Yəni, müharibəyə əl atan tərəf bilirdi ki, bu müharibədən qalib çıxmaq üçün qüvvə üstünlüyünə malik olmalıdır. Həmin qüvvə üstünlüyü isə yalnız kəmiyyətlə deyil, həm də keyfiyyət göstəriciləri ilə əldə edilməlidir. Keyfiyyət göstəriciləri deyiləndə həm də silah və əsləhənin keyfiyyəti və imkanları, döyüş vərdişlərinin səviyyəsi, mənəvi göstəricilər və digərləri də nəzərdə tutulurdu. Bütün bunlar obyektiv tələblərdir və bu obyektiv tələblərə gözlənilmədikdə hərb işinin uğuruna əmin olmaq mümkün deyil.

Şah İsmayılın fatehlik tarixində elə məqamlar vardır ki, onların anlaşılması heç də hərb işinin obyektiv tələbləri çərçivəsində mümkün deyildir. Həmin mənbələr, eləcə də Şah İsmayılın özü şübhə etmirdilər ki, bəzən hərbin obyektiv tələbləri ilə izah edilməsi mümkün olmayan uğurların əldə edilməsinin əsas səbəbi ilahi qədərlə bağlıdır.

Şah İsmayılın siyasi hərəkatını təriqət etiqadından ayırmaq mümkün deyildir. Əksinə, belə bir qənaətə gəlmək mümkündür ki, onun siyasi hərəkatı da təriqət etiqadından doğan niyyətlərin həyata keçməsinə xidmət edirdi. Yuxarıda qeyd edildiyi kimi, Şah İsmayıl (İsmayıl Mirzə) yaradacağı (yaratdığı) dövləti İmam Mehdi nizamının kölgəsi, başlanğıcı hesab edirdi və inanırdı ki, onun hərəkatı ilahi qüvvələr tərəfindən təqdir olunub. Ona görə əmin idi ki, ilahi qüvvələr də Şah İsmayılın (sufi təriqət müridlərinin) timsalında ifadəsini tapan hərəkatın uğurunu təmin edəcəklər. Hətta az qüvvəyə malik olanda, fiziki baxımdan həll edilməsi xeyli müşkül olan məsələlərlə rastlaşanda belə Şah İsmayıl həmin məsələlərin insan gücü ilə deyil, ilahi qüvvələrin qarşısıalınmaz gücü ilə həll olunacağına əmin idi.

Bu məqam Şah İsmayılın hərb məharətinə də aid olan xarakterik cəhətdir. Başqa sözlə, Şah İsmayıl tarixinə aid olan Səfəvi mənbələrinin müəllifləri əminliklə belə bir qənaəti ortaya qoyurlar ki, Şah İsmayıl öz əcdadlarının xəttini davam etdirən bir mürşidi-kamil kimi Allahın lütfünə layiq görülmüş kəramət sahibi idi və bu kəramət hərbin çətin anlarında da Şah İsmayılın yardımına çatır və onun uğuruna yol açırdı. Şah İsmayıl da buna inanırdı, hər bir döyüşdən əvvəl onda bu döyüşün uğuruna əminlik hasil olurdu. Şah İsmayıla görə, onunla müqəddəslər arasında bir əlaqə mövcud idi və bu əlaqə daha çox yuxular vasitəsilə təmin olunurdu. Şah İsmayılda olan əminlik isə onun döyüşçülərinə sirayət edirdi. Qızılbaş döyüşçüləri bir tərəfdən Şah İsmayılın müqəddəslər tərəfindən dəstəkləndiyinə, müqəddəslər tərəfindən bir növ qarşıdakı döyüşün uğuruna zəmanət aldığına inanırdılar və onlarda uğura güclü inam əhval-ruhiyyəsi yaranırdı. Digər tərəfdən isə qızılbaş döyüşçüləri Şah İsmayılın müqəddəslərin kölgəsi altında olmasına inandıqları üçün mürşidi-kamilə bütün varlıqları ilə

sarılır və mürşidi kamil tərəfindən müəyyənləşdirilən vəzifələrin həllinə tamamilə səfərbər olunurdular. Bununla, onlar həm də insan gücünün, zəkasının, fədakarlığının sonsuzluğunu nümayiş etdirə bilirdilər.

"Aləmara-yi Şah İsmayıl" əsərinin bir yerində Şah İsmayılın sərkərdələrinin birinin dilindən bildirilir ki, "fəth və zəfər qoşunların çoxluğu ilə bağlı deyildir. Bəlkə aləmin pərvərdigarının hövlü, qüvvəti və nüsrəti ilə bağlıdır. Kafirlərin qoşunu həmişə saysız olmuş, amma islam qoşunu az qüvvə ilə savaşmış və zəfər qazanmışdır" (164).

İslam qoşununun az qüvvə ilə savaşıb qələbə qazanmasını Şah İsmayıl ilahi qüvvənin lütfi və qədəri sayrırdı, bu qədərə inanırdı və hətta arxayınlaşırdı. Çaldıran döyüşü zamanı isə onun bu arxayınçılığı ifrata vardı və bu da onun uğuruzluğuna yol açdı.

Mənbələrə görə, mürşidi-kamil kimi Şah İsmayıl ilə yaradan arasında əlaqə bəndi Əmir əl-mömünin Həzrət Əli idi. Yaradan tərəfindən qarşıdakı yürüşlərinin qədərinin necə müəyyənləşməsi çox vaxt Şah İsmayılın yuxusuna gəlmiş İmam Əli tərəfindən bəyan edilirdi. Şah İsmayıl da yuxuda aldığı buyuruqları həm özü üçün əsas götürür, həm də onları qızılbaş döyüşçülərinə çatdırırdı. O, hətta müqəddəslər tərəfindən təqdir olunan buyuruqların həyata keçirilməsini də özünün müqəddəs borcu bilirdi, özü də və ətrafındakılar da buna inanırdı.

Mənbələrdə olan məlumatlara görə, Şah İsmayılın (İsmayıl Mirzənin) müqəddəslər tərəfindən təqdir olunan buyuruqların həyata keçirilməsi üçün dünyaya göz açacağı hələ onun anadan olmasından əvvəl atası Sultan Heydərə bəyan edilmişdi. Ona da yuxuda həzrət Əmir əl-mömünin tərəfindən çatdırılmışdı ki, yer üzünün küfrdən təmizlənməsi üçün onun övladı dünyaya gələcəkdir. Məhz həmin yuxuda Sultan Heydərə məsləhət bilinmişdi ki, qızılbaş papaqlarının hazırlanmasına və istifadəsinə başlansın (165). Mənbələr bununla, əslində, Şah İsmayılın (İsmayıl Mirzənin) dünyaya gəlişini müqəddəslərin buyuruqlarının həyata keçirilməsi ilə bağlı olduğuna işarə edirdilər. Qızılbaş papaqlarının istifadəsi bütün qızılbaşların 12 imamın himayəsi altında olması anlamını verməli idi. Bu məqam da müqəddəslərin buyuruqlarının icrasına qızılbaşlarda bir məsuliyyət yaratmaqla bərabər, həm də bir inam və əminlik yaradırdı. Həmin əminlik və inam isə qızılbaşların taktika və strategiyasını öz təsiri altında saxlayırdı.

Şah İsmayılın (İsmayıl Mirzənin) Gilandan öz hərəkatına başlanması da müqəddəslərin iradəsinə bağlanmışdır. Mənbələr bildirirlər ki, Şah İsmayıl müqəddəslərin təqdirini alandan sonra öz hərəkatına başlamaq qərarına gəldi. İsmayıl Mirzənin 13 yaşında ikən öz hərəkatına başlamaq cəhdi onun ətrafındakıların nigarançılığı ilə qarşılaşanda o bildirdi ki, haqq-təala fəth və nüsrəti lütf edəcəkdir və ona görə də nigarançılığa əsas yoxdur (166). Bununla, İsmayıl Mirzənin ətrafındakılarda da belə bir qənaət və inam hasil oldu ki, mürşidi-kamilin hərəkata başlaması müqəddəslərin iradəsindən doğur və bu hərəkat müqəddəslər tərəfindən də himayə olunacaqdır. Yəni, ətraflarında böyük hərbi

qüvvə olmasa da, onlarda İsmayıl hərəkatının hərbi uğuruna inam və əminlik yarandı. Şirvan üzərinə hərbi yürüş zamanı isə həm qoşun əmirləri, həm də bütün qoşun əhli Şah İsmayılın (İsmayıl Mirzənin) kəramət sahibi olmasına və onun hərəkatının müqəddəslər tərəfindən himayə olunmasına əyani əminlik özünü göstərdi. İsmayıl Mirzənin ciddi bir çətinlik olmadam atı ilə Kür çayının sol sahilinə adlaması bütün qoşun əhlinin təəccübünə sahib oldu. Gözlənilirdi ki, qızılbaş qoşunlarının Kür çayını adlaması üçün xüsusi işlər görüləcəkdir. Qızılbaşlar İsmayıl Mirzənin mühəndis-istehkam işləri görülmədən özünü çaya vurmasını və Kür çayını xətərsiz adlamasını onun kəramət sahibi olması ilə əlaqələndirdilər.

Şah İsmayılın Ağqoyunlu Sultan Muradla döyüşdə uğur əldə etməsi də müqəddəslərin qızılbaş qoşunlarını himayə etməsi ilə əlaqələndirilməkdədir. Baxmayaraq ki, Osmanlı qoşun dəstələri tərəfindən dəstəklənən Sultan Murad qoşunları çox böyük say və təchizat üstünlüyünə malik idi, qızılbaş qoşunları öz taktikasını yenə də müqəddəslərin köməyi üzərində qurdular. Şah İsmayıl da Sultan Murada qarşı döyüşdə ciddi sınaqla qarşılaşa biləcəyini görürdü və ilk döyüşlər də bunu nümayiş etdirirdi. O, Sultan Murad qoşunlarına qarşı fiziki gücünün çatmayacağını hiss edəndə məscidə yollandı, bütün gecəni dua və ibadətdə keçirdi, yaradandan qarşıdakı döyüşdə kömək istədi. "Aləmara-yi Səfəvi" bu məqamı belə təsvir etmişdir: "Gecə olanda şah Kərbas məscidinə yollandı, göz yaşı töküb Allaha münacatlar oxudu, öz pərvərdigarından kömək və mədəd istədi. Səhər şəfəqi görünəndə onun gözlərinə yuxu gəldi və özü də bu fikirdə idi ki, görəsən sabah bu fələyin gərdişi nə oyun oynayacaqdır? Bu zaman gördü ki, yanında Əsədullahın camalının nuru parladı və dedi: Ey övlad, heç fikrinə qəm gətirmə, mənim və mənim övladımın pak nuru səninlədir. Sabah toz-torpaq tufanını görəcəksənə, həmin toz-torpaq tufanı mənim və 12 imam olan övladımın səmənd qübarının nişanəsidir. İnşaallah ki, sabah aləmin yaradıcısının iradəsi, seyid ül-mürsəlin ruhunun bərəkəti və bizim imdadımızla fəth və zəfər sənin olacaqdır və bu qoşunu bütünlüklə sənin qoşunlarının əsirinə çevirəcəyik". Bildirilir ki, bu müjdəni alandan sonra Şah İsmayıl yuxudan ayıldı və çox sevinərək həmin müjdəni qızılbaş əmirlərinə çatdırdı (167). Bununla, qoşun əhlinə qələbə əminliyi təlqin edildi və həmin döyüşdə Səfəvi qoşunları növbəti uğur əldə etdilər.

Mənbələr Sultan Murad üzərində qələbənin əldə edilməsində də müqəddəslərin himayəsinin olmasını təsvir edirlər. Yəni, belə bir təsəvvür yaradılır ki, Şah İsmayıl az qüvvəyə malik olmasına baxmayaraq, müqəddəslər öz himayəsi ilə Səfəvi qoşunlarının üstün qüvvə üzərində uğur əldə etməsini təmin etdilər. Ola bilsin ki, Şah İsmayılın yuxuda gördüyü və qızılbaş əmirlərinə çatdırdığı müjdə onların mənəvi əhval-ruhiyyəsini, əzmkarlığını, mübarizliyini sonsuz dərəcə artırmış və bu da üstün qüvvə üzərində qələbəyə yol açmışdı. Lakin mənbələrin məlumatına görə, Şah İsmayıl da, onun döyüşçüləri də qələbənin onlara müqəddəslər tərəfindən bəxş edildiyinə şübhə etmirdilər.

Şah İsmayıl özbək xanı Şeybək xana göndərdiyi məktubda Əlaüddövlə Zülqədərə qarşı apardığı döyüşdə müqəddəslərin lütfündən necə bəhrələndiyini belə təsvir edirdi: "...İmdada yet, ya Əli! Bu müqəddimə ilə demək istəyirəm ki, Nizaməddin Dədə bəy və Şücaəddin Lələ bəy kimi etibar etdiyim bəzi əmirləri əzəmətli qoşun və çoxlu döyüşçü ilə Əlaüddövlə Zülaqədəri dəf etmək üçün Qarabağdan Diyarbəkrə göndərmişdim. Həmin Əlaüddövlə onları qəfil haqlamış, hücum edərək pərən-pərən salmışdı. Təqribən 300 min döyüşçü ilə Fəratı keçmişdi. Xəbər bizə çatan kimi taleyin ondan üz döndərdiyini düşündük. Əli övladlarına qarşı çıxan məğlub olar. Belə ki, Allahın köməyi ilə çərşənbə günü sübh çağı 14 min adlı-sanlı nizə atanla qələbə miniyinə mindik. ...Bizimlə düşmən arasında 40 fərsəng məsafə var idi. "İmdada yet, ya Əli" dedik. Ertəsi gün cümə axşamı hələ nurlu günəş zülmət pəncərəsindən çölə çıxmamış Fərat çayını keçdik. Yolda ikən həmin namərdlərlə qarşılaşdıq. On iki imam eşqinə 12 min döyüşçü ayırdıq və 12 istiqamətdən hücum etdik. ...Dünya günəşi mavi sə mada görünəndən sonra düşmən ordusundan 150 min namərdi qətlə yetirdik. 150 min namərd isə suda qərq oldu. Bir nəfər də qalmadı. Bəxtiqara Əlaüddövlə 35 min namərdlə nəhayət ki, qaçmağa üz qoydu" (168).

Yəni, məktubunda Şah İsmayıl bir daha bəyan edirdi ki, Əlaüddövlə Zülqədər üzərindəki qələbə onun qoşunlarının real gücü ilə yox, müqəddəslərin göstərdiyi himayə ilə əldə edilmişdi. Bununla, Şah İsmayıl özbək xanına da çatdırmaq istəyirdi ki, yalnız sərəncamında olan qoşunlara arxalanmır və qələbə əldə edəcəyinə müqəddəslərdən zəmanət almışdır. Şah İsmayıl özbək xanını eyni zamanda xəbərdar edirdi ki, o, Səfəvi qoşunlarına qarşı planlarını bu qoşunların fiziki ölçülərinə görə qurmasın və müqəddəslərin qızılbaşlara olan himayəsini nəzərdən qaşırmasın.

Şah İsmayıl döyüş fəaliyyətində mövcud reallıqların nəzərə alınmasını tövsiyə edən əmirlərinə də çatdırırdı ki, onun planları və niyyətləri yalnız məntiqlə dəyərləndirilməməldir. O təkidlə bəyan edirdi ki, öz fəaliyyətində, niyyət və planlarında məntiqdən kənar olan bir qüvvəyə arxalanır, yalnız və yalnız yaradanın rizası ilə addım atır, öz fəaliyyətini də müqəddəslərin icazəsi üzərinə qurur. Ona görə Şah İsmayıl bir daha öz əmirlərinə tövsiyə edirdi ki, hərbi yürüşə yollanarkən reallıqlara yox, müqəddəslərin iradəsinə arxalansınlar. Başqa sözlə, döyüşlərə qələbə inamı ilə yollansınlar. Şah İsmayl fikrini belə açıqlayırdı: "Sizin dedikləriniz ağla və məntiqə əsaslanır. Amma mən elə bir padşahın qulamıyam ki, aləmlərinin rəbbinin bu şahbazının rizası olmadan su da içmirəm. İndiyə kimi nə etmişiksə, ağamın icazəsi əsasında etmişik. Siz bunu bilmirsiniz. Padşahımın və ağamın icazəsini sizə bəyan edirəm, siz də xatircəm olun və mənimlə bu müharibəyə yollanın" (169).

Şah İsamyıl Çaldıran döyüşünə də belə bir əminliklə yollandı, müqəddəslərin rizası və lütfi ilə bu döyüşdə də uğur qazanacağına şübhə etmədi. Yəni, Çaldıran döyüşünün aparılması üçün öz taktikasını yenə də müqəddəslərin lütfi üzərində qurdu və qeyd edildiyi kimi həmin taktika bu dəfə ona uğursuzluq gətirdi.

### 3. Şah İsmayılın xarici siyasəti

#### a)hind hakimləri ilə münasibətlər

Səfəvi dövləti təsis olunanda xarici əlaqələrin qurulması sahəsində Səfəvi xanədanının artıq müəyyən təcrübəsi mövcud idi. Hələ Şah İsmayıln hakimiyyətə gəlməsindən çox-çox qabaq Səfəvi sufi müridlərinin coğrafiyası Azərbaycanın hüdudlarını aşaraq qonşu dövlətləri də əhatə etmişdi. Bu müridlərlə Səfəvi xanəgahı arasında sıx bir əlaqə var idi və Azərbaycan hüdudlarından kənara səpələnmiş müridlərə xəlifələrin təyin edilməsi Səfəvi xanəgahının razılığı ilə aparılırdı. Həmin xəlifələrin Səfəvi xanəgahı ilə sıx əlaqəsi qalmaqda idi və bu xəlifələr vasitəsilə müridlərin yayılmış olduğu ərazilərin mənəvi-ideoloji mühitinə də müəyyən təsir göstərmək imkanları var idi. Xüsusilə, Sultan Cüneydin mürşidlik dövründən başlayaraq Anadoluya yayılmış sufi müridləri vasitəsilə həmin bölgənin siyasi həyatına təsir göstərmək inkanları da artdı. Sultan Cüneyd özü də xanəgah hüdudlarından kənara çıxaraq Trabzon hakimliyinin üzərinə hücum etməklə, bu xanəgahı beynəlxalq münasibətlərin subyektinə çevirdi.

Sultan Heydərin mürşidiliyi dövründə də Səfəvi xanəgahının qonşu dövlətlərlə münasibətlər formalaşdırması cəhdi davam etdi. Onun Dağıstan istiqamətində hərbi yürüş etməsi, müstəqil dövlət olan Şirvanşahlar dövləti üzərinə qoşun çəkməsi Səfəvi xanəgahının xarici siyasət sahsində kifayət qədər fəallşamasından xəbər verirdi. Sultan Heydərin mürşidliyi dövründə Səfəvi xanəgahının Anadolu daxilində nüfuzu və təsir imkanları daha da gücləndi və Osmanlı sarayı Səfəvi xanəgahına qarşı ehtiyatlı olmağa başladı.

Şah İsmayıl hərəkatının hərbi-siyasi məcraya istiqəmətlənməsi də öz ifadəsini ilk növbədə qonşu dövlətlərin ərazisində tapdı və məlum olduğu kimi, o, Şirvanşahlar dövləti üzərinə hərbi yürüş etməzdən əvvəl, Osmanlı ərazilərində oldu, həmin ərazilərdə toplanmış qoşun dəstələrini özünə biləşdirdi. Siyasi hakimiyyətin əldə edilməsi yolunda Şah İsmayıl (İsmayıl Mirzə) ilkin olaraq Şirvanşahlar dövləti ilə münasibətinə bir aydınlıq gətirməyə çalışdı və sonradan öz mübarizəsini Ağqoyunlu dövləti daxilinə yönəltdi.

Səfəvi dövləti təsis edildikdən sonra isə Şah İsmayılın xarici siyasəti rəsmi dövlət səviyyəsində öz davamını tapdı. Bu siyasət ilk vaxtlar ona istiqamətlənmişdi ki, Səfəvi dövlətinə qarşı mövcud olan xarici təhdidlər aradan qaldırılsın və bununla, eyni zamanda Səfəvi hüdudları da genişləndirilsin. Şah İsmayıl əvvəlcə şərq istiqamətində fəal hərbi-diplomatik siyasət nümayiş etdirməyə başladı və səltənətin şərq sərhədləri boyunca mövcud olan hərbi təhdidlərin aradan qaldırılması üçün həmin istiqamətdə hərbi yürüşlərə başladı. Bu da Xorasanın səltənət hüdudları daxilinə salınmasına, özbək xanlarına güclü zərbə vurulmasına və bununla, bölgədə onların təsirinin azaldılmasına yol açdı.

Məlumdur ki, özbək xanlarına qarşı hərbi yürüşlərində Şah İsmayıl qarşısına qoyduğu məqsədə daha dinc şəkildə çatmaq üçün dəfələrlə diplomatik

vasitələrə əl atdı, özbək xanları ilə təmaslar yaratdı. Özbək xanlarına qarşı hərbi yürüşlərin daha uğurla başa çatdırılması üçün Şah İsmayıl bölgə hakimlərindən biri olan Zəhirəddin Məhəmməd Baburla da müəyyən ittifaq münasibətləri qurmağa nail oldu. 1510-cu ildə Mərv şəhəri ətrafında Şeybək xanın məğlub edilməsindən sonra azad edilmiş çoxsaylı əsirlər arasında o zamanlar Kabul hakimi olan Zəhirəddin Məhəmməd Baburun bacısı da var idi. Şah İsmayıl onu böyük ehtirmla qardaşının yanına öndərdi və bu humanist addım Şah İsmayıl ilə Məhəmməd Babur arasında xoş münasibətlər yaranmasının əsasını qoydu. Bu münasibətlərin yaranması üçün Şah İsmayıl tərəfindən Məhəmməd Baburun yanına xüsusi bir nümayəndə heyəti də göndərildi (170).

Məhəmməd Babur əslən Əmir Teymurun nəslindən idi və məlumdur ki, Teymurilərlə Səfəvilər arasında xoş münasibətlərin əsası hələ Əmir Teymurun zamanında qoyulmuşdu. Bəzi məlumatlara görə, Əmir Teymur da Səfəvi təriqət müridlərindən biri idi. O, Səfəvi xanəgahına böyük hörmətlə yanaşırdı və Ankara səfərindən geri qayıdarkən Səfəvi təriqət mürşidi Xacə Əlinin xahişi ilə çoxlu sayda hərbi əsiri azad etmişdi. Əvvəlki fəsillərdən məlumdur ki, Əmir Teymur Səfəvi xanəgahına böyük torpaq sahələri də bağışlamışdı və bu xanəgahın normal mövcudluğu və fəaliyyəti üçün əlverişli şərait yaratmağa çalışmışdı.

1494-cü ildə atasının vəfatından sonra Məhəmməd Babur 11 yaşında Fərqanə hakimliyinə yiyələnmişdi. 1497-ci ildə isə Məhəmməd Babur Səmərqəndi ələ keçirdi və bununla öz hakimiyyətinin hüdudlarını bir qədər də genişləndirdi. Amma az sonra Məhəmməd Babur özbək xanlarının şəxsində ciddi düşmənlərlə üzüzə gəlməli oldu. Sürətlə güclənməkdə olan Şeybani özbək xanları ilə qarşıdurma tərəflər arasında müharibəyə gətirib çıxardı. 1505-ci ildə Şeybani xanları bu müharibədə qalib gəldilər və Məhəmməd Babur Fərnaqə ilə Səmərqənd üzərindəki hakimiyyətini itirərək Kabula geri çəkildi. Məhəmməd Babur Kabulda möhkəmlənməklə bu şəhəri öz hakimiyyəti altına gətirdi. 1507-1508-ci illərdə Məhəmməd Babur Qəndəhar şəhəri üzərinə hücum edərək bu şəhəri ələ keçirdi və bununla bölgədəki hakimiyyətini daha da gücləndirdi (171).

1510-cu ildə Şah İsmayılın Şeybək xan üzərindəki qələbəsini, o cümlədən bacısının özbək əsirliyindən azad olunmasını Məhəmməd Babur böyük sevinclə qarşıladı. Şeybək xan üzərində qələbəni təbrik etmək və qarşılıqlı dostluq münasibətlərini qurmaq üçün Məhəmməd Babur əmisi Xan Mirzəni elçi kimi Şah İsmayılın yanına göndərdi. Şah İsmayıl ilə dostluq münasibətlərinin qurulması Məhəmməd Babur üçün faydalı ola bilərdi. Çünki bu münasibətlər Məhəmməd Baburun həm bölgədə daha da möhkəmlənməsinə, həm də itirilmiş ərazilərin geri qaytarılmasına kömək edə bilərdi. Çoxlu sayda qiymətli hədiyyələri də özü ilə aparan nümayəndə heyəti Heratda Şah İsmayılın hüzurunda oldu və Məhəmməd Baburun hədiyyələri və xahişləri ona çatdırıldı. Şah İsmayıl da Məhəmməd Baburun təklifini məmnunluqla qarşıladı, onunla dostluq münasibətlərinin qurulmasını faydalı saymaqla bərabər, Məhəmməd Babura qarşı da böyük səxavət göstərdi. O, fərman verdi ki, Məhəmməd Babur gələcəkdə Mavərənnəhrdə nə qədər ərazi əl keçirə bilsə onun hakimiyyəti altına verilsin.

Şah İsmayıla görə, Məhəmməd Babur onun müttəfiqinə çevrilirdi və bu müttəfiqin öz hakimiyyət hüdudlarını genişləndirmək istəyinə təqdirlə yanaşırdı. Məhəmməd Babur da bundan çox sevindi və dərhal öz ərazilərinin genişləndirilməsi üçün əməli tədbirlər görməyə başladı. Bunun nəticəsində hazırda Əfqanıstan ərazisində yerəşən Xənlan, Bağlan, Qunduz və Hisari Şadmanı ələ keçirdi və həmin ərazilərdə də öz hakimiyyətini bərqərar etdi. Məhəmməd Babur bununla kifayələnmədi və Səmərqəndlə Buxaranın yenidən öz hakimiyyəti altına gətirmək niyyətinə düşdü. Amma görünür, Məhəmməd Babur özbək xanlarına üstün gəlməyin heç də asan olmayacağını bilirdi. Ona görə də Məhəmməd Babur kömək üçün Şah İsmayıla müraciət etdi. O, Şah İsmayıla xəbər göndərdi ki, ona əcdadlarındam miras qalmış Buxara və Səmərqənd üzərində hakimiyyətin geri qaytarılmasına köməklik göstərsə, həmin şəhərlərdə Şah İsmayılın adına həm xütbə oxutduracaq, həm də sikkə vurduracaqdır (172).

Şah İsmayıl bu təklifi qəbul etdi. Onun göstərişinə əsasən, 5 min nəfərlik Səfəvi qoşun dəstəsi adları çəkilən şəhərlərin ələ keçirilməsinə kömək göstərilməsi üçün Məhəmməd Baburun sərəncamına göndərildi. Şah İsmayılın Şahrux bəy Əfşar və Əhməd bəy Sufioğlu Ustaclı kimi əmirləri də bu qoşun dəstəsinin tərkibində idilər. Səfəvi qoşun dəstəsinin yetişməsindən sonra Məhəmməd Babur öz niyyətini həyata keçirə bildi və aparılan döyüşlərdən sonra o, həm Səmərqəndin, həm də Buxaranın öz hakimiyyəti altına gətirilməsinə müvəffəq oldu. Məhəmməd Babur söz verdiyi kimi, adları çəkilən şəhərlərdə Şah İsmayılın adına həm xütbə oxutdu, həm də sikkə vurdurdu. Sonra da Məhəmməd Babur onun köməyinə gəlmiş Səfəvi əmirlərini, qoşun başçılarını səxavətlə mükafatlandırdı. Amma Məhəmməd Babur, Səfəvi qoşun dəstəsinin onun yanında qalmasını istəmədi və bu qoşun dəstəsini geri göndərdi. Bu isə heç də onun xeyrinə olmadı. Çünki bir tərəfdən özbək xanlarının hərbi potensialı böyük idi və Səfəvi qoşun dəstəsi geri döndükdən sonra onlar yenidən Məhəmməd Babura qarşı fəallşamağa başladılar. Digər tərəfdən də Səmərqənd əhalisi heç də Məhəmməd Baburun hakimiyyətini qəbul etmək istəmirdi. Xüsusilə, Məhəmməd Baburun şiəliyi qəbul etməsi Səmərqəndin bütünlüklə sünni olam əhalisini qane etmirdi. Ona görə, Səmərqənddə Məhəmməd Babura qarşı güclü müxalifət yarandı.1512-ci ilin noyabrında Buxara yaxınlığında Məhəmməd Baburun qoşun dəstəsi Übeydulla xanın qoşunlarından güclü zərbə alaraq Səmərqəndi tərk etmək məcburiyyətində qaldı. O, əvvəlcə Hisari-Şadmana, sonradan isə Kabula çəkildi (173).

Məhəmməd Babur yalnız Səmərqəndi və Buxaranı itirmədi. Mənbə məlumatlarından aydın olur ki, o, Qəndəharı da itirmişdi. Bu şəhərin hakimliyi Səfəvi dövlətinin hakimiyyətini qəbul etmiş Şüca bəy adlı birisinin əlinə keçmişdi. Şah İsmayılın həyatının sonlarına Məhəmməd Babur ona qarşı sədaqətsizlik nümayiş etdirdi. Baxmayaraq ki, Qəndəhar hakimi ilə Səfəvi dövləti arasında xoş münasibətlər mövcud idi, Məhəmməd Babur bu şəhərin üzərinə hücum etdi və Qəndəharı mühasirəyə aldı. Şüca bu mühasirədən çıxmaq üçün Xorasan hakimi Təhmasib Mirzənin (Şah İsmayılın oğlu) lələsi Əmir xan Mosulludan

hərbi kömək istədi. Əmir xan Mosullu isə Qəndəhara hərbi qüvvə yollamazdan əvvəl, öz nümayəndəsini göndərdi və həmin nümayəndə vasitəsilə Məhəmməd Baburdan Qəndəharın mühasirəsini dayandırmağı xahiş etdi. Məhəmməd Babur isə bu xahişi qəbul etmədi və Qəndəharın yenidən öz nəzarəti altına keçirmək imkanını əldən buraxmaq istəmədi. Amma göstərdiyi səylərə baxmayaraq, öz niyyətinə nail ola bilmədi. Qəndəharın mühasirəsi üç il davam etdi. Şüca bəy Qəndəharın müdafiəsini yaxşı quraraq onun Məhəmməd Baburun əlinə keçməsinə imkan vermədi. Əvvəlki fəsillərdən məlum olduğu kimi, Əmir xan Mosullunun yerinə Durmuş xan təyin edildikdən sonra, yenidən Məhəmməd Baburun yanına elçi göndərildi və ondan bir daha Qəndəharın müdafiəsinin dayandırılması xahiş olundu. Qüvvəsi artıq tükənmək üzrə olan Məhəmməd Babur bu təklifi qəbul etmək məcburiyyətindən qaldı və Qəndəharn mühasirəsini dayandıraraq Kabula çəkildi (174).

"Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində olan məlumata görə, Qəndəhar qalasının mühasirəsi xəbəri alınanda Şah İsmayılın əyanlarından biri ona məktub göndərdi, onu tez-tez öz əqidəsindən dönməyə, Şah İsmayıla sədaqətsizlik nümayiş etdirməyə, Şah İsmayılın düşmənləri ilə əməkdaşlıq etməyə və nəhayət Qəndəhar qalasını mühasirə etməyə görə qınadı. Məktubda deyilirdi ki, Məhəmməd Babur etdiyi əməllərə görə Şah İsmayıldan bağışlanmasını istəməsə aqibəti yaxşı olmaya bilər. Bu xəbərdarlıqdan Məhəmməd Babur ciddi təşvişə düşdü. Adları çəkilən mənbələrin məlumatına görə, Məhəmməd Babur özü Şah İsmayılın görüşünə yollandı, ona bir daha öz sədaqətini bəyan etdi. Şah İsmayıl da ona qarşı kəskin qərarlar qəbul etmədi (175).

Sonrakı illərdə Şah İsmayıl ilə Məhəmməd Babur arasında münasibətlərin necə olması haqqında mənbələrdə məlumatla rastlaşmaq mümkün deyil. Çox güman ki, bu münasibətlərdə diqqəti çəkəcək bir dəyişiklik baş verməmişdi. Məlum olan isə odur ki, Şah İsmayılın vəfatından təxminən iki il sonra Məhəmməd Babur Hindistan üzərinə qoşun çəkdi 1525-ci ilin sonlarında başlanan hərbi yürüşünü uğurla başa çatdıraraq 1526-cı ildə Hindistanda öz hakimiyyətini yaratdı (176).

Şah İsmayılın hakimiyyəti illərində Hindistanın cənubunda yaranmış kiçik dövlətlərlə də diplomatik münasibətlər qurulmuşdu. Həmin dövlətlərin meydana gəlməsi XV əsrin sonlarında Hindistanın cənubunu əhatə edən dövlətin süquta uğramasının nəticəsi idi. Həmin dövlətin əvəzində, Hindistanın cənubunda İmadşahiyan, Nizamşahiyan, Bridşahiyan, Qütbşahiyan və Adilşahiyan adlanan kiçik dövlətlər yaranmışdı. Bu şahlıqların hamısının əhalisi müsəlman idi. Onların məzhəbinə gəlincə isə, İmadşahiyan və Bridşahiyan dövlətlərinin əhalisi sünni məzhəbinə, digərlərinin əhalisi isə şiə məzəbinə mənsub idilər. Əhalisi şiə məzhəbinə mənsub olan Nizamşahiyan, Qütbşahiuan və Adilşahiyan dövlətləri meydana gələn kimi dərhal Səfəvi sarayı ilə əlaqə qurdular və Səfəvi dövlətinin gücünə arxalanmağa çalışdılar. Mənbələrdəki məlumatlara görə, adları çəkilən dövlətlərlə əlaqələrin qurulmasına hələ Şah

İsmayılın dövründə başlandı və Şah İsmayıl belə əlaqələrin qurulmasına maraqla yanaşdı. Şah İsmayılın hakimiyyəti dövründə əsası qurulan bu əlaqələr onun vəfatından sonra da davam etdirildi (177).

### b) Səfəvi dövlətinin Venesiya ilə əlaqələri

Avropa ölkələrinin Səfəvi dövlətinin qərar tutduğu bölgə ilə əlaqə yaratmaq cəhdləri Səfəvi dövlətinin yaranmasından xeyli əvvələ təsadüf edirdi. Bir sıra maraq və məqsədlər belə əlaqələrin qurulmasını və inkişafını zəruri edirdi. Ticarət və iqtisadi əlaqələrin qurulması, xoş münasibətlərin bərqərar edilməsi və bununla təhlükəsizlik məsələlərinin həlli, siyasi əməkdaşlığın yaradılması, hərbi sahədə əməkdaşlıq və s. məsələlər bir çox hallarda ortaq maraqları iki qarşılıqlı əlaqələrin yaradılmasına yol açırdı. Məlumdur ki, hələ qədim dövrlərdən etibarən Çinə aparan ipək yolunun Səfəvi dövlətinin əhatə etdiyi hüdudlardan keçməsi həmin bölgə ilə əlaqələr yaradılmasına və uyğun münasibətlər qurulmasına marağı daha da gücləndirirdi. İpək yolunun birləşdirdiyi dövlətlərlə ticarət əlaqələrinin qorunması Səfəvi dövlətinin mövcudluğu zamanı da Avropa ölkələri üçün aktual olaraq qalırdı və ona görə Səfəvi dövləti ilə münasibətlər qurulması yalnız iqtisadi maraqlar çərçivəsində deyil, həm də siyasi, hərbi baxımdan Avropa üçün əhəmiyyət kəsb etməkdə idi.

Avropa ölkərlərinin şərqə maraq göstərməsində dini məqamlar da mövcud idi. Məlumdur ki,qərb missionerləri şərqə səfər etməklə bölgənin xristian əhalisi ilə əlaqə qurur, xristianlığın bölgədə inkişafı üçün müəyyən təşkilatçılıq işləri aparırdılar. Bunun nəticəsi kimi, Sultaniyyədə, Marağada, Təbrizdə və bölgənin digər şəhərlərində missioner mərkəzləri yaradılmışdı (178).

Bundan başqa qərb ölkələrinin nümayəndələri tanışlıq məqsədi ilə də bölgəyə səfər edir və müəyyən əlaqələr qurmağa çalışırdılar. Xəzəryanı bölgələrin iqtisadi-ticarət imkanları haqqında məlumat toplanması, Hindistana aparan yolların öyrənilməsi və s. məsələlər bölgəyə səfər edən qərb səyyahlarını maraqlandıran məsələlər idi (179).

Amma qərbin şərqə olan marağının mərkəzində, sözsüz ki, siyasi və iqtisadi maraqlar dayanırdı. Azərbaycan və bütünlükdə, Xəzəryanı hövzə həm iqtisadi baxımdan kifayət qədər inkişaf etmiş bölgə idi, həm də mühüm ticarət yollarının üzərində qərar tuturdu. Avropa ölkələri üçün həm bölgə ilə ticarət əlaqələrinin qurulması, həm də bölgədən keçən ticarət yollarndan istifadə edilməsi böyük əhəmiyyət kəsb edirdi. Azərbaycandan və bütünlükdə, Səfəvi dövlətinin əhatə etdiyi ərazilərdən keçməklə həm Uzaq Şərqlə, həm də Hindistanla ticarət əlaqələri qurmaq mümkün idi. Bu marşrut qərb üçün daha yaxın və daha işlək marşrut idi. Həm də təhlükəsizlik baxımından Azərbaycandan keçən ticarət yolları qərb ölkələrinin maraqlarına cavab verirdi.

Qərb ölkələri həm də Azərbaycanla, Xəzəryanı hövzə ilə ticarət etməkdə maraqlı idi. Xüsusən, ipəkçilik məhsullarının qərbə daşınması ticarətin inkişafına

bir rövnəq verirdi. Belə əlaqələrin qurulması bölgənin də maraq dairəsində idi. Çünki həmin əlaqələr bölgənin təsərrüfatının inkişafına təkan verirdi.

Konstantinopolun Osmanlı dövləti tərəfindən işğalına qədər qərb tacirləri həmin şəhərdən keçməklə bölgə ilə ticarət əlaqələri qururdular. Konstantinopoldan (İstanbuldan) keçən ticarət yolları qərb dövlətləri üçün şərqə ən yaxın yol idi. Bu şəhərdən keçən ticarət karvanları Təbrizi adlamaqla yollarını davam etdirir və ya da Təbriz ətrafında öz ticarətlərini edirdilər. Konstantinopolun Osmanlı dövləti tərəfindən ələ keçirilməsi qərb ölkələrinin ticarətinin ən yaxın yolla şərq bazarına çıxarılması və eləcə də şərq mallarının qərbə daşınması üçün müəyyən çətinliklər yaratdı. Ona görə də qərb dövlətləri bölgə ilə iqtisadi əlaqələrin saxlanması üçün başqa təmas yollarının tapılmasına başladı və yeni ticarət yolu kimi Fars körfəzi diqqət mərkəzinə gəldi. Eyni çətinliklər Azərbaycanın və bölgənin tacirləri üçün də yarandı. Əvvəlki fəsillərdən də məlumdur ki, Osmanlı dövlətinin güclənməsi və hüdudlarının genişləndirməsi bölgə tacirlərinin Osmanlı daxilində və ya Osmanlı ərazisindən keçməklə fəaliyyət göstərmələrini xeyli çətinləşdirdi. Ona görə qərblə daha asan və əlverişli ticarət əlaqələrinin qurulması Səfəvi dövlətinin də marağında idi. Səfəvi dövləti, o cümlədən Səfəvi dövlətinin xarici siyasətini müəyyənləşdirən Şah İsmayıl da qərb dövlətləri ilə inkişafda olan ticarət əlaqələrinin qurulmasına xüsusi diqqət yetirirdi. Yəni, ticarət münasibətlərinin genişləndirilməsi Səfəvi dövləti ilə qərb arasında əlaqələrin qurulmasında əsas stimullardan biri idi.

Avropa ilə Səfəvi dövləti arasında əlaqələrin qurulmasının mühüm səbəblərindən biri də hərbi-siyasi məqam idi. Xüsusilə, Osmanlı dövlətinin bölgədə sürətlə güclənməsi, onun Avropa ölkələri üçün ciddi təhlükəyə çevrilməsi qərb ölkələrinin həm Səfəvi dövləti ilə, həm onun sələfi olan Ağqoyunlu dövlət ilə hərbi-siyasi münasibətlərini gücləndirməyi zəruri edirdi. Osmanlı dövlətinin mövcudluğu, əslində, qərb dövlətləri üçün taleyüklü bir məsələyə çevrilmişdi və güclü qoşunları olan bu dövlətin Avropanın dərinliklərinə doğru irəliləmək planları qərbdə ciddi təşvişlə qarşılanırdı. Bu təşvişin qarşısının alınması və bununla qərb dövlətlərinin varlığının qorunması üçün Avropanın siyasətində Səfəvi və onun sələfi Ağqoyunlu dövləti ilə münasibətlərin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edirdi.

Qərb dövlətləri, xüsusilə də Venesiya dövləti hələ Ağqoyunlu dövlətinin mövcudluğu dövründə Osmanlı dövlətinə qarşı ittifaq yaratmağa cəhd göstərdi. Bu ittifaq konkret tarixi şəraitdə həm Venesiya dövlətinin, həm də Ağqoyunlu dövlətinin maraqlarına cavab verirdi. Çünki Osmanlı dövlətinin güclənməsi həm qərb üçün, həm də Ağqoyunlu üçün təhlükə təşkil edirdi.

Qaraqoyunlu qoşunları və sonra da Əbu Səid (Teymuri) qoşunları üzərində əldə etdiyi qələbədən sonra Uzun Həsən qonşu dövlətlərin hakimləri ilə bərabər, Venesiya sarayına da fəthnamə göndərdi. Bu zaman artıq tərəflər arasında diplomatik münasibətlərin əsası qoyulmuş, Venesiya elçisi Ağqoyunlu sarayına gəlmişdi. Uzun Həsən göndərdiyi məktubunda Venesiya sarayını əldə etdiyi qələbələr barəsində məlumatlandırmaqla yanaşı, Osmanlı dövləti ilə bağlı

öz təşvişlərini də bəyan etdi. Uzun Həsən məktubunda bildirirdi ki, bölgədə indi onun rəqibi yalnız Osmanlı dövlətidir. Bu dövlətin çökdürülməsi üçün isə o, Venesiya sarayını ittifaqa dəvət edirdi. Uzun Həsən Osmanlı dövlətinə qarşı birgə mübarizənin planını da açıqlamışdı. Bu plana görə Venesiya qüvvələri Aralıq dənizindən, Ağqoyunlu qoşunları isə qurudan hücum etməklə Osmanlı qoşunları üzərində qələbə əldə etmək mümkün idi (180).

1473-cü ildə Uzun Həsənin qoşunları ilə Osmanlı qoşunları arasında baş verən Otluqbeli döyüşü ərəfəsində Ağqoyunlu-Avropa əlaqələri xeyli fəallaşmağa başladı. Qərb ölkələri, o cümlədən Venesiya sarayı hər vasitə ilə Uzun Həsəni Osmanlı dövlətinə qarşı müharibəyə təşviq etməyə çalışırdı. Bunun üçün Uzun Həsənə böyük vədlər də verildi. Həmin vədlərin doğru olması görüntüsünü yaratmaq üçün Venesiya sarayı öz elçisini yenidən Təbrizə yolladı. Onun vasitəsi ilə Uzun Həsənə çatdırıldı ki, bir tərəfdən Uzun Həsənə Avropadan çoxlu sayda odlu silah göndəriləcək, digər tərəfdən də Venesiya qoşunları Aralıq dənizindən Osmanlı qoşunları üzərinə hücum edəcəkdir. Bu məlumatlardan sonra Uzun Həsən Osmanlı dövlətinə qarşı hərbi yürüşə hazırlığın sürətləndirilməsinə başlasa da, əslində, Avropa dövlətlərinin verdiyi vədə şübhə ilə yanaşırdı. Son nəhayətdə bu şübhə özünü doğrultdu. Uzun Həsəni müharibəyə təşviq edən qərb dövlətləri bu müharibəyə qatılmadılar. Hətta əəli kömək də göstərmədilər və nəticədə Uzun Həsən Osmanlı qoşunları ilə üzbəüz qalmalı oldu. Qərb dövlətləri tərəfindən müharibəyə təhrik edilən Uzun Həsən həmin müharibəni məğlubiyyətlə başa vurmalı oldu (181).

Otluqbeli döyüşündə Uzun Həsənin məğlubiyyətindən sonra Venesiya sarayı yenidən Ağqoyunlu dövləti ilə münasibətləri yaxşılaşdırmağa və Ağqoyunlu dövlətindən Osmanlı dövlətinə qarşı istifadə etməyə cəhd göstərdi. Bununl bağlı, Venesiya sarayının yeni bir nümayəndəsi Təbrizə göndərildi. Amma bu nümayəndə Uzun Həsənlə görüşə bilmədi. Çünki Uzun Həsənin başı hərbi yürüşlərə qarışmışdı. Venesiya isə Osmanlı dövlətinin təzyiqləri qarşısında müəyyən güzəştlərə getməklə sülh müqaviləsi imzalamağa vadar oldu. 1478-ci ildə imzalanan həmin müqaviləyə əsasən, Venesiya sarayı Albaniya ilə Mura adasının cənub hissəsini Osmanlı dövlətinə güzəştə getdi və əlavə olaraq böyük həcmdə cərimələr ödədi (182).

Osmanlı dövləti ilə müqavilə bağlanması Venesiyanı və qərb dövlətlərini məcbur etdi ki, onlar Osmanlı dövlətinə qarşı planlarının icrasını təxirə salsınlar. Çünki bir tərəfdən, Osmanlı dövləti qərb istiqamətində fəal hərbi yürüşləri dayandırmışdı, digər tərəfdən Uzun Həsəndən sonra Ağqoyunlu dövlətinin zəifləməyə doğru getməsi və hətta bu dövlətin parçalanması Osmanlı dövlətinə qarşı ittifaq yaratmaq imkanını aradan qaldırmışdı. Osmanlı dövlətinə ciddi zərbə vurulması planı isə qərb dövlətləri üçün öz aktuallığını heç də itirməmişdi. Ona görə Səfəvi dövlətinin meydana gəlməsi və onun xeyli güclənməsi qərb dövlətlərinin sevinci ilə qarşılandı. Bu dövlətin Ağqoyunlu dövləti ilə müqayisədə daha güclü olması və Osmanlı dövlətinə qarşı müharibədə bu dövlətin daha ciddi nəticələrə nail olmaq imkanları göz qabağında idi. Heç şübhəsiz ki, Os-

manlı dövləti ilə bağlı münasibətlərində Şah İsmayılın da öz maraqları və niyyətləri var idi. Bu maraqların və niyyətlərin həyata keçirilməsi üçün Şah İsmayıla qərb dövlətləri ilə ittifaq yaratmaq və Osmanlı dövlətinə qarşı birgə mübarizə aparmaq imkanlarını heç də əldən vermək istəmirdi. Osmanlı dövləti ilə Səfəvi dövləti arasında qarşılıqlı münasibətlər o dərəcədə gərginləşmişdi ki, bu münasibətlərin müharibəyə gətirib çıxaracağı artıq şübhə doğurmurdu. Xüsusilə, Sultan Səlimin hakimiyyətə gəlməsindən sonra qarşılıqlı münasibətlərin dinc yolla sahmana salınması fürsəti əldən verildi. Münasibətlərin bu dərəcədə gərginləşməsi qərb dövlətlərinin maraqlarına cavab verirdi və Osmanlı dövlətinin Səfəvi dövlətinə qarşı qarşıdurmada güclü zərbə alması qərb dövlətlərinin təhlükəsizliyinə xidmət etməklə bərabər, iki böyük və güclü müsəlman dövlətinin də zəifləməsinə yol aça bilərdi. Ona görə qərb dövlətlərinin Şah İsmayıl sarayı ilə münasibətlər qurmaq və Səfəvi dövlətinin vasitəsilə Osmanlı dövlətinə ağır zərbə vurmaq istəyi xeyli aktuallaşdı. Osmanlı dövlətinə ağır zərbə vurulması isə Şah İsmayılın konkret tarixi şəraitdə izlədiyi siyasətə uyğun idi. Əks təqdirdə, Səfəvi dövləti özü Osmanlı dövlətindən güclü zərbə ala bilərdi.

Səfəvi dövlətinin şərq sərhədləri boyunca güclü özbək qoşunları təhlükəsinin mövcudluğu da Şah İsmayıldan tələb edirdi ki, şərq-qərb təzyiqlərinin aradan qaldırılması istiqamətində ciddi addımlar atsın. Bu baxımdan Osmanlı dövlətinin təzyiqlərinin qarşısının alınması şərq sərhədi boyunca təhlükəsizliyin etibarlı şəkildə təmin edilməsinə imkan verə bilərdi. Doğrudur, Çaldıran döyüşünə qədər Şah İsmayılın qərb ölkələri ilə bağlı siyasəti öz fəallığı ilə seçilmirdi. Çox güman ki, bu məqam Şah İsmayıl hərəkatının təriqət hərəkatı ilə bağlılığından irəli gəlirdi. Şah İsmayıl və onun müridləri əmin idilər ki, başlanmış hərəkat müqəddəslərin buyuruqları və himayəsi altında rəvac tapıbdır və bu hərəkat məğlubedilməzdir. Şah İsmayıl hərəkatının ilkin dövrü və eləcə də Çaldıran döyüşünə qədər olan dövrü də bunu nümayiş etdirdi. Şah İsmayılın hətta müttəfiqi olduğu Misir Məmlük hakimi ilə qarşılıqlı münasibətlərində də xüsusi bir dinamizm müşahidə etmək çətindir. Bununla belə, hər halda Şah İsmayıl xarici əlaqələrin qurulmasından da üz çevirmirdi.

Venesiya sarayı ilkin olaraq Qaraman bəyliyinin əmirləri və əyanları vasitəsilə Səfəvi dövləti ilə əlaqələr yaratmağa cəhd göstərdi. Qaraman bəyliyi Aralıq dənizi hövzəsində yerləşən bir bəylik idi və hələ Uzun Həsən bu bəylik vasitəsilə Venesiya sarayından gələ biləcək hərbi köməyi almaq istəyirdi. Amma Venesiya saraynın öz vədinə əməl etməməsi yalnız Uzun Həsəni çətin vəziyyətə salmadı. Həm də Qaraman bəyliyi Osmanlı sultanı tərəfindən tutuldu. Venesiya diplomatlarının yazışmalarından görünür ki, Qaraman bəyliyinin bəyi, əyanları və əmirləri Osmanlı təqibindən yaxa qurtarmaq üçün Təbrziə pənah aparmışdılar və Səfəvi dövləti yaradılanda əmirlər və əyanlar hələ də Təbrizdə idilər.

XV əsrin sonu, XVI əsrin əvvəlində Venesiya sarayı tərəfindən Qaramana göndərilən səfir Konstantino Laskari tapşırıq almışdı ki, Təbrizdə Qaraman əmirləri vasitəsilə Şah İsmayıl ilə diplomatik əlaqələr yaratsın. K.Laskari də Qaramana gəldikdən sonra Təbrizdəki Qaraman əmirlərinə məktub göndərdi, sonra Qara-

man əmirləri ilə görüşdü və Qaramanın Osmanlı dövlətindən qoparılması üçün Venesiyanın kömək göstərməyə hazır olduğunu bəyan etdi. Görünür, Venesiya sarayı bu dəfə ciddi addımlar atmaq niyyətində imiş. Çünki səfir K.Laskarinin bölgədəki fəaliyyətindən sonra Qaramanda Osmanlı dövlətinə qarşı silahlı mübarizə genişlənməyə başladı. Venesiya səfiri Qaramanda başlanan mübarizənin uğurla sonuclanması üçün hətta Şah İsmayıldan da kömək almağı məqsəduyğun saydı. Bu məqsədlə Venesiya səfiri Konstantino Laskari Azərbaycana yola düşdü, burada o, Şah İsmayıl ilə görüşdü. Venesiya səfiri Şah İsmayılı Osmanlı dövlətinə qarşı mübarizəyə təşviqləndirmək üçün öz dövləti adından ona toplar və odlu silah veriləcəyini vəd etdi. Bu vəd Şah İsmayıl tərəfindən məmnunluqla qarşılandı və ona görə Venesiya səfirinin Qaramana kömək göstərmək təklifini qəbul etdi. Qaramanın Osmanlı dövlətindən qopması, əslində, Şah İsmayılın da maraqlarına uyğun idi. Çünki Qaramanın qopması Osmanlı dövlətinin zəifləməsinə yol aça bilərdi. Venesiya səfirinin xatirələrində olan məlumatlara görə, Şah İsmayıl nəinki Qaramana kömək göstərilməsinə razı oldu, hətta dərhal bu istiqamətdə əməli addım atdı. Onun açıqladığına görə, Şah İsmayıl onun yanına gəlmiş Qaraman əmirləri ilə birlikdə üç gün Osmanlı dövləti istiqamətində at sürdü. Amma məlumata görə, Şah İsmayıl sonra Qaramana birbaşa kömək göstərmək fikrindən daşınmalı oldu. Çünki Qaramana qoşun çıxarılması və bu vilayətin Osmanlı sarayının nəzarəti altından çıxarılması Osmanlı dövləti ilə müharibəyə girilməsi demək olardı. Səfəvi dövləti isə hələ kifayət qədər möhkəmlənməmişdi, Ağqoyunlu hakimlərinin və Şirvanşahın müqaviməti hələ tamamilə qırılmamaışdı. Belə bir vəziyyətdə Osmanlı dövlətinə qarşı müharibəyə başlanması adları çəkiən dövlətləri ümumi təzyiq dairəsinə sala bilərdi. Ona görə də mənbə məlumatına görə, Şah İsmayıl Ərzincandan Qaramana deyil, Şirvana yollandı (183).

Şah İsmayıl öz qoşun dəstəsi ilə Qaramana yollanmasa da, Venesiya səfiri onu və onun ətrafındakıları yaxından müşahidə edə bildi. Xüsusilə, qızılbaşların şiə məzhəbinə bağlılığı və bunun da Osmanlı sarayı ilə qarşıdurmaya yol açması Venesiya səfirində belə bri qənaət yaratdı ki, Səfəvi qüvvələrinin Osmanlı dövlətinə qarşı istifadə edilməsi mümkün olan real qüvvədir. Çünki məzhəb fərqliliyi Osmanlı ilə Səfəvi arasında təbii bir gərginliyin mənbəyi idi və bu gərginlikdən istifadə etməklə Osmanlı dövlətinə güclü zərbə vurmaq mümkün idi. K.Laskari bu qənaətlərini Venesiya sarayna da göndərdi. Venesiya sarayı da bu qənaətlərlə razılaşaraq Səfəvi sarayı ilə diplomatik əlaqələr qurmağa qərar verdi. Nəticədə, Venesiya dövləti Səfəvi dövləti ilə diplomatik əlaqə yaradan ilk Avropa dövləti oldu (184).

Şah İsmayıl özünü Təbrizdə Səfəvi şahı elan edəndə Venesiya Respubikası Osmanlı dövləti ilə müharibə vəziyyətində idi. Bu iki dövlət arasında 1499-cu ildən başlayan müharibə 1502-ci ilə qədər davam etdi. Venesiya sarayı bu müharibədən qalib çıxmaq üçün bir tərəfdən Səfəvi dövləti ilə ittifaq yaratmaq istəyirdi, digər tərəfdən də Avropa dövlətləri ilə. Bu da imkan verə bilərdi ki, Osmanlı dövlətinə həm şərqdən, həm də qərbdən və şimaldan zərbə vurulsun.

Bu ittifaqların yaradılacağı təqdirdə Osmanlı dövləti, əslində, mühasirə vəziyyətinə düşmüş olurdu. Cənubdan isə bu dövlət heç də yaxşı münasibətlərdə olmadığı Misir məmlük dövləti ilə həmsərhəd idi.

Amma Venesiya sarayı Osmanlı sarayına qarşı ittifaq formalaşdırmaq niyyətinə nail ola bilmədi. Bu itiqamətdə Venesiya sarayının əldə edə bildiyi nəticə yalnız Macarıstan və Roma papalığını Osmanlı dövlətinə qarşı ittifaqa cəlb etmək oldu. Bu ittifaq isə Venesiya respublikasının gücünü elə də artırmadı. Osmanlı dövləti qərb dövlətləri arasında fikir ayrılığının olmasından istifadə edərək Venesiyaya hərbi zərbə endirə bildi. Venesiya Aralıq dənizində də güclü zərbə aldı və bu dənizdəki nüfuzunu əldən verdi. Bütün bunlar Venesiyanın uğursuzluğuna zəmin yaratdı və 1502-ci ilin dekabrında Osmanlı Türkiyəsi ilə Venesiya arasında Osmanlı dövlətinin üstünlüyünü təsdiq edən müqavilə imzalandı. Osmanlı dövləti istər şərqdən, istərsə də cənubdan ciddi təzyiqlə qarşılaşmadığı üçün Venesiya ilə mübarizəni uğurla sonuclandıra bildi.

Venesiya sarayı qərbdə Osmanlı dövlətinə qarşı ciddi bir ittifaq yarada bilmədiyi kimi, Səfəvi dövləti ilə də səmərəli əlaqələr qura bilmədi. Ola bilsin ki, Səfəvi dövlətinə qurudan çıxış imkanlarının olmaması Venesiya sarayına bu istiqamətdə ciddi addımlar atmağa mane oldu. Belə bir şəraitdə Venesiya sarayı Osmanlı ərazisində Səfəvi dövlətinə rəğbətlə yanaşan qüvvələr vasitəsilə bu əlaqələri qura bilərdi və ya elə bu qüvvələrin özləri ilə əməkdaşlıq yarada bilərdi. Səfəvi dövlətinə rəğbətlə yanaşan qüvvələr isə Osmanlı ərazisində çox idi və vaxt ötdükcə onların sıraları da genişlənməkdə idi.

Səfəvi dövləti ilə qarşılıqlı münasibətlərdə təsirli addmlar atılmasa da qərb ölkələrinin şərqdə olan nümayəndələri Şah İsmayılın fəaliyyətini diqqətlə izləyirdilər. Onlar Şah İsmayılın əldə etdiyi hərbi uğuları təhlil etdikdən sonra belə bir qənaətə gəlirdilər ki, çox tezliklə bölgənin geniş əraziləri Səfəvi dövlətinin nəzarəti altına düşəcəkdir. Başqa sözlə, qərb nümayəndələri apardıqları təhlillərdən sonra Səfəvilər dövlətinin şərqin əzəmətli dövlətlərindən birinə çevriləcəyinə şübhə etmirdilər. Bu qənaətlər qərb dövlətlərinin rəhbərliyinin diqqətinə çatdırılmaqla, Səfəvi dövləri ilə qarşılıqlı əlaqələrin qurulmasının faydası vurğulanırdı. Qərb səyyahları, elçiləri və tacirləri hətta Şah İsmayılın özü ilə də görüşmək fürsətini qazanır və Şah İsmayıl haqqında olan fikirlərini də mənsub olduqları dövlətlərin sarayına çatdırırdılar. Həmin məlumatlara əsasən, Şah İsmayıl hələ 1502-ci ildə, yəni hakimiyyətə gəlməsinin ilk illərində qərb ölkələrindən top və digər odli silahların əldə edilməsinə maraqlı idi və bunun üçün yollar arayırdı (185).

Şah İsmayıl Avropa dövlətləri ilə əlaqələr yaratmaq üçün yalnız bölgəyə səfər etmiş qərb ölkələri nümayəndələrindən istfadə etmirdi. Eyni zamanda o özü də Avropa dövlətləri ilə yazışmalar aparırdı. Onun yazmış olduğu məktubların Avropaya çatdırılması üçün isə Suriya və Qaraman ərazilərindən istifadə edirdi. Çünki həmin ərazilərdə sufi müridləri çox yayılmışdı və orada Səfəvi təriqət təsirləri xeyli güclü idi. Bu da imkan verirdi ki, Şah İsmayıl öz elçilərini Suriya və Qaramandan keçməklə Avropaya göndərsin. Bundan başqa, Suriya-

dakı qərb elçiliklərindən də yazışmaların Avropaya çatdırılmasında istifadə olunurdu. Məsələn, 1505-ci ildə Şah İsmayılın Venesiya hakiminə yazmış olduğu məktub Venesiyanın Dəməşqdəki konsuluna çatdırılmışdı. Şah İsmayıl həmin məktubun Venesiya sarayına çatdırılmasını istəyirdi. Venesiyanın Dəməşqdəki konsulu da həmin məktubu İtalya dilinə tərcümə etdirdikdən sonra Venesiya sarayına yolladı. Şah İsmayıl bu məktubunda Osmanlı dövlətinə qarşı mübarizə aparmaq niyyətini açıqlayır və bunun üçün Venesiyanın köməyini almaq istədiyini bildirirdi. Azərbaycan tədqiqatçıları tərəfindən elmi-tarixi dövriyyəyə gətirilmiş həmin məktubun mətnində Şah İsmayıl öz fikrini belə açıqlayırdı: "Bizim sizə olan məhəbbətimizi sözlə ifadə etmək, qələmlə yazmaq və ağılla fəhm etmək mümkün deyil. Siz Əlahəzrəti biz çox görmək istəyirik. Hər şeyin başlanğıcı və sonu olan qadir Allaha pənah apararaq tezliklə sizinlə görüşəcəyimizə və səmimi dost olacağımıza əminəm. Sizə məlumat verirəm ki, mən bütün Əcəm ölkəsini fəth etmişəm. İndi bu ölkə çiçəklənməkdədir. Biz qadir Allaha pənah aparırıq və ümid edirik ki, gələcəkdə də çoxlu böyük qələbələr əldə edəcəyik. Çünki Allah böyük və mərhəmətlidir. Əminik ki, onun köməyi ilə biz düşmənlərimiz üzərində qələbə əldə edəcəyik" (186).

Venesiyanın göstərə biləcəyi kömək Səfəvi dövlətinin Osmanlı dövləti kimi güclü bir dövlətə qarşı imkanlarını daha da genişləndirə bilərdi. Çox güman ki, Şah İsmayıl Qaraman vilayətinin yenidən Osmanlı dövlətindən qoparılması planlarına da malik idi. Çünki qərbdən gələn hərbi-texniki təchizatın əldə edilməsinin ən yaxşı və ən yaxın yolu məhz Qaramandan keçən yol idi. Anadolu daxilində genişlənməkdə olan sufi-şiə hərəkatı da bu planların həyata keçməsinə münasib zəmin yarada bilərdi. Bu ehtimallar onu deməyə əsas verir ki, Şah İsmayılın Aralıq dənizinə çıxmaq planı da ola bilərdi. Belə bir planın mövcud olduğu təqdirdə onun həyata keçməsinə qərbin dəstəyi olmadan müvəffəq olmaq elə də asan olmazdı. Qərbdən, konkret olaraq Venesiya sarayından Şah İsmayılın hərbi əməkdaşlıq təklifinə ciddi bir cavab verilmədi. Tədqiqatçıların gəldiyi qənaətlər onu deməyə əsas verir ki, Şah İsmayıl Osmanlı ərazisindən keçməklə Əlaüddövlə Zülqədərə qarşı mübarizə aparmağa yollanmazdan əvvəl də Şah İsmayıl öz elçilərini Venesiya sarayına yola saldı. Əvvəlki fəsillərdən məlumdur ki, Şah İsmayıl 1508-ci ildə Əlaüddövlə Zülqədərə qarşı döyüş aparmaq üçün Osmanlı sarayından icazəsiz Osmanlı ərazisindən keçməli oldu. Doğrudur, Şah İsmayıl bu icazəsiz girişin Osmanlı sarayının ciddi narazılığı ilə qarşılaşmaması üçün Sultan Bəyazidə məktub göndərdi, məqsədini ona açıqladı və Osmanlı ərazisinə hər hansı bir ziyanın çatmayacağını vəd etdi. Bununla belə, mövcud faktlar onu deməyə əsas verir ki, Şah İsmayıl bu yürüşü zamanı Osmanlı dövləti ilə müharibə aparmalı olacağı ehtimalını da istisna etmirdi. Bu müharibədən qalib çıxmaq üçün isə o yenə qərb dövlətlərinin köməyinə ümid etdi və bu köməyin əldə edilməsi üçün öz elçilərini Venesiya sarayına göndərdi (187).

Bu dəfə də Şah İsmayıl ümid etdiyi nəticəni əldə edə bilmədi. Venesiya sarayı Şah İsmayılın arzusunda və ümidində olan köməyi təqdim edə bilmədi.

1508-ci ildə Şah İsmayıl yenidən öz elçisini Venesiya sarayına yolladı. Səfəvi elçisi Qaraman vilayətinin elçisi ilə birlikdə Venesiya sarayında oldu. Şah İsmayıl Venesiya sarayına göndərdiyi məktubunda bir daha qarşılıqlı dostluq münasibətlərinin qurulmasına tərəfdar olduğunu bəyan etdi. Səfəvi elçisi Venesiya sarayında böyük təntənə ilə qarşılandı və Venesiya hakimləri ilə görüşdə Şah İsmayılın arzu və istəkləri bir daha Venesiya sarayına çatdırıldı. Şah İsmayıl hələ də ümid edirdi ki, Osmanlı dövlətinə qarşı cəbhə açmaqda Venesiya sarayının hərbi dəstəyinə arxalana biləcəkdir. Belə bir cəbhənin açılmasının Venesiyanın da maraqlarına cavab verdiyi artıq şübhə doğurmurdu. Başlıcası isə Şah İsmayıl hələ də Venesiyadan odlu silah və top alacağına əmin idi. Onun elçisi də odlu silah və top əldə edilməsi üçün Səfəvi sarayında bəslənilən ümidləri Venesiya sarayına çatdırdı. Bundan başqa Osmanlı dövlətinə qarşı brigə mübarizə üçün Şah İsmayılın niyyətləri də Venesiya sarayına çatdırıldı. Osmanlı dövlətinin çökdürülməsi üçün belə bir plan nəzərdə tutulmuşdu ki, Venesiya Yunanıstan sahillərindən öz hərbi dəniz qüvvələrini Osmanlı dövlətinə qarşı müharibəyə çıxarsın və dənizdən bu dövlətin hərbi qüvvələrinə güclü zərbə vursun. Bu hücum Osmanlı sarayının hərbi potensialının müəyyən hissəsinin bu istiqamətə yönləndirilməsi ilə nəticələnə bilərdi. Şah İsmayıl da bu münasib şəraitdən istifadə etməklə qurudan Osmanlı dövlətinə qarşı müharibəni başlaya bilərdi. Qurudan müharibənin uğurla başa çatdırılması üçün Şah İsmayılın real imkanları var idi. Bir tərəfdən güclü Səfəvi qoşunları, digər tərəfdən isə Anadoluda şiə sufi müridlərinin Osmanlı dövlətinə qarşı genişlənməkdə və möhkəmlənməkdə olan hərəkatı Osmanlı sarayını çətin vəziyyətə sala bilərdi. Bu da Osmanlı dövlətinə qarşı başlanan müharibənin uğurla sonuclanmasına yol aça bilərdi. Amma bu dəfə də Venesiya sarayı Şah İsmayıla hərbi dəstək göstərməkdən çəkindi. Venesiya sarayı tərəfindən Səfəvi dövlətinə hərbi yardım göstərilməməsinin səbəbləri də açıqlandı. Venesiya dövləti, bütünlükdə, Osmanlı dövlətinə qarşı müharibə başlanmasına rəğbətlə yanaşırdı. Lakin Şah İsmayılın hərbi dəstək üçün müraciət etdiyi zaman Venesiya özü də çətin bir durumda idi. Bu dövlətə qarşı Avropanın böyük və güclü dövlətləri hərbi yürüşə başlamışdılar. Onların arasında Fransa, Almaniya, İspaniya kimi böyük dövlətlər, Roma katalokosluğu və digər dövlətlər var idi. Səfəvi sarayına verilən cavabda Venesiya hakimləri mövcud vəziyyəti açıqlamaqla gələcəkdə kömək göstərmək ehtimallarını da dilə gətirmişdilər. Məktubda eyni zamanda Səfəvi dövlətinin Osmanlı dövlətinə qarşı müharibə başlamaq ehtimalına rəğbət nümayiş etdirilir və bununla, Osmanlı dövlətinə qarşı müharibəyə başlanması təşviq olunurdu (188).

Özbək qoşunlarına qarşı müharibədə uğur əldə edəndən sonra Səfəvi hüdudlarına qarşı mövcud olan başlıca təhlükə Osmanlı dövləti idi. Bu təhlükənin qarısının alınması üçün Şah İsmayıl Çaldıran müharibəsi öncəsi bir daha qərb dövlətləri ilə hərbi əməkdaşlıq yaradılmasına cəhd göstərdi. Qərb dövlətlərinin hətta Avropa cəbhəsində Osmanlı dövlətinin təşvişinə səbəb olacaq fəallıqların göstərməsi, Səfəvi dövlətinə qarşı təhdidlərin zəifləməsinə zəmin

yarada bilərdi. 1510-cu ildə Şah İsmayıl yenidən Venesiya sarayına öz elçisini göndərmək qərarına gəldi. Bu dəfə elçi kimi əslən Kiprdən olan Nikolo Sorora seçildi və o, İtaliyadan gəlmiş tacirlərlə birlikdə yola salındı. Səfəvi elçisi Venesiya sarayına Şah İsmayılın məktubunu çatdırmalı idi. Məktubda bir daha Venesiya sarayından hərbi dəstək istənilirdi. Amma Şah İsmayılın bu elçisi mənzil başına yetişə bilmədi. Çünki Suriya ərazisində olarkən Səfəvi elçisi Misir dövlətinin məmurları tərəfindən ələ keçirildi və həbsxanaya atıldı. Bununla belə, Şah İsmayıl Venesiya sarayı ilə hərbi əməkdaşlığın qurulmasına nail olunması üçün 1510-cu ildə başqa bir elçisini Avropaya yola saldı. Bu dəfə elçi kimi Əli bəy adlı birisi eçildi və ona Şah İsmayılın istək və təkliflərinin Venesiya hakimlərinə çatdırılması tapşırıldı. İstər Osmanlı sarayında baş verən proseslər, hakimiyyət uğrunda saraydaxili çəkişmələrin güclənməsi, istərsə də Anadoluda Səfəvi dövlətinə rəğbətlə yanaşan şiə türk tayfalarının Osmanlı dövlətinə qarşı xeyli fəallaşması Osmanlı və Səfəvi dövlətləri arasında kəskin qarşıdurmanın uzaqda olmadığından xəbər verirdi. Görünür, elə buna görə də Şah İsmayıl bu qarşıdurmadan qalib çıxmaq üçün qərbin dəstəyini almaq fürsətindən bəhrələnməyə çalışırdı. Lakin bu dəfə də Venesiya dövləti Səfəvi dövlətini Osmanlı dövlətinə qarşı müharibəyə təşviq etməklə kifayətləndi və hər hansı bir konkret kömək göstərilmədi(189).

### c) Səfəvi-Portuqaliya müansibətləri

Şah İsmayılın qarşılıqlı əlaqələr yaratmağa çalışdığı Avropa dövlətlərindən biri də Portuqaliya idi. Bu dövlət hələ XV əsrin ortalarından başlayaraq kifayət qədər güclü dövlətə çevrilməklə bərabər, Asiya və Afrikada da möhkəmlənməyə çalışırdı. Ticarətin genişləndirilməsi baxımından Yaxın Şərq ölkələri də Portuqaliya üçün böyük əhəmiyyət kəsb edirdi və ona görə bölgədə güclü mövqe əldə edilməsi Portuqaliyanın xarisi siyasətinin istiqamətlərindən birini təşkil edirdi. Elə XV əsrin ortalarında Portuqaliyanın Asiya dövlətiləri ilə sıx ticarət əlaqələri mövcud idi və Portuqaliya bu ticarət əlaqələrinin genişləndirilməsində maraqlı idi. 1453-cü ildə Konstantinopol (İstanbul) şəhəri Osmanlı dövləti tərəfindən fəth edildikdən sonra Avropa dövlətlərinin, o cümlədən də Portuqaliyanın Yaxın Şərqə ən yaxın çıxışı bağlanmış oldu. Belə olanda Portuqaliya da həm Hindistanla, həm də Yaxın Şərq ölkələri ilə ticarət əlaqələrinin davam etdirilməsi üçün yeni dəniz yollarının axtarılmasına başladı. Qeyd edilməlidir ki, Portuqaliya XV əsrin ortalarında zəmanəsinin böyük dəniz dövlətlərindən biri idi və gəmiçilik sahəsində malik olduğu inkişaf səviyyəsi tezliklə yeni dəniz ticarət yollarının tapılmasına imkan verdi.

Portuqaliya səyyahları əvvəlcə Misir ərazisindən və Qırmızı dənizdən keçməklə Hind okeanına çıxa bildilər. İlk dəfə Pedro de Kavilham adlı bir portuqaliyalı 1482-ci ildə bu marşrutdan istifadə etməklə Hindistana qədər gedib çıxa bildi (190). Amma bu marşrut ticarət mallarının daşınması üçün dəniz gəmi-

çiliyinə müəyyən çətinliklər yaradırdı. Ona görə də başqa yolların da axtarılmasına başlandı.

1487-ci ildə Bartolomey Dias adlı başqa bir portuqal səyyah Afrika qitəsinin cənub burnunda olan keçidi aşkarladı və buradan Hind okeanına daxil oldu. Bununla, Hindistana çıxmaq üçün yeni bir dəniz yolu aşkarlanmış oldu. Amma Bartolomey Dias aşkarladığı keçiddən keçməklə Hindistana yetişə bilmədi. Portuqaliya səyyahları isə Hindistana çıxmaq yollarının axtarışını davam etdirdilər. Hələlik dəniz nəqliyyatı üçün Afrikanın cənubundan keçən yol yeganə yol olaraq qalmaqda idi. Həmin istiqamətdə aparılan axtarışlar öz nəticəsini verdi və 1498-ci ildə başqa bir portuqal səyyah – Vaska de Qama Afrikanın cənubundan keçməklə Hindistana qədər səfər edə bildi. Nəticədə, Avropa gəmiləri üçün Afrikanın cənubundan keçməklə Hindistana aparan yeni bir dəniz marşrutu istifadəyə alındı (191).

Poruqaliyalıların bölgəyə gəlməsi işğal və müstəmləkəçiliklə müşayiət olunurdu. Bölgənin vəziyyəti ilə tanışlıq onlarda şübhə yaratmırdı ki, orada möhkəmlənməklə çoxsayl ticarət mərkəzlərini və ticarət yollarını öz nəzarətləri altında saxlaya bilərlər. Ona görə də onlar o vaxta qədər bölgənin ticarətini öz əllərində cəmləşdirmiş ərəb tacirlərini sıxışdırıb öz mövqelərini möhkəmləndirməyə başladılar. Bölgəyə nəzarətin gücləndirilməsi üçün isə Portuqaliya kralı Emmanuilin əmri ilə Hindistanda güclü dəniz qüvvələrinin yaradılmasına başlandı. Eyni zamanda bölgəyə davamlı olaraq Portuqaliya hərbi-dəniz ekspedisiyaları göndərildi. Onların arasında Pyedru Kapralın, Vaska de Qamanın (ikinci dəfə), Fransişku Almeydanın, Alfonso Dalbukerkin ekspedisiyaları var idi. Bu hərbi-dəniz ekspedisiyalarının bölgəyə gəlişi ilə Afrikanın şərqində, Hindistan sahillərində, Fars körfəzində olan hərbi-strateji məntəqələrin, habelə ticarət mərkəzlərinin Porduqaliyanın nəzarəti altına düşməsi ilə nəticələndi (192).

1505-ci ildə Portuqaliya kralı tərəfindən Fransişku Almeyda adlı birisi Hindistanın nayibüssəltənəsi təyin edildi və ona göstəriş verildi ki, bölgənin bütün strateji əhəmiyyətli məntəqələri nəzarət altına alınsın. Həmin tapşırığın bütünlüklə icrası üçün Portuqaliya kralı 1506-cı ildə Hind okeanına 16 döyüş gəmisindən və 1300 nəfərdən ibarət hərbi-dəniz qüvvəsi göndərdi. Mənbəlrədə və elmi-tarixi ədəbiyyatda bu dəstə rəhbərinin müavini təyin edilmiş Alfons Dalbukerkin adı xüsusi olaraq hallanmışdır. Bu yürüş zamanı Dalbukerkə ayrıca vəzifələr həvalə olunmuşdu. Həmin vəzifələrə əsasən, Dalbukerk Qırmızı dənizdən Venesiya və Misir gəmilərinin istifadə etməsinə mane olmalı və Ədən və Ciddə şəhərlərini isə nəzarət altına almalı idi. Dalbukerk üç illik fasilədən sonra isə Fransişku Almeydanı Hindistan nayibüssəltənəsi vəzifəsindən uzaqlaşdırmalı və özü həmin vəzifəni tutmalı idi. Dalbukerk ona həvalə olunan vəzifələrin icrası çərçivəsində 1507-ci ildə Fars körfəzinin girəcəyində yerləşmiş Hörmüz adasının işğalına qərar verdi. Bu ada Fars körfəzinin girəcəyində yerləşməklə körfəzin təhlükəsizliyinin təmin edilməsi, mühüm ticarət mərkəzlərindən bir olmaq baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Bu adanı nəzarət altına almaqla Portuqaliya bölgədəki möqeyini daha da möhkəmləndirə bilərdi. Ona görə də Dalbukerk

Fars körfəzi sahillərindəki bir sıra şəhərləri ələ keçirəndən sonra öz qüvvələri ilə bu adaya yaxınlaşdı və adanın əmiri 12 yaşlı Əmir Seyfəddinə tabe olmağı və Portuqaliya xəzinəsinə illik vergi verməyə razı olmağı təklif etdi. Hörmüz əmiri bu təklifi qəbul etmədi və onun təcrübəli vəziri Xacə Əttarın (bəzi elmi-tarixi ədəbiyyatda onun adı Xacə Əta kimi verilmişdir) rəhbərliyi altında Portuqaliya qüvvələrinə qarşı müqavimət təşkil edildi. Lakin Hörmüz qüvvələrinin cəhdlərinə baxmayaraq, Portuqaliya hərbi qüvvələrinin hücumunun qarşısını saxlamaq mümkün olmadı. Portuqaliya dəstəsində olan topların və odlu silahların atəşləri qarşısında Hörmüz müdafiəçiləri gücsüz qaldılar və Dalbukerkin təkliflərini qəbul etmək məcburiyyətində qaldılar. İllik vergidən başqa Hörmüz əmiri müharibə xərclərini də ödəməyi öz üzərinə götürdü. Bundan başqa Portuqaliya tacirləri Hörmüzdə ticarət üçün xüsusi güzəştlər əldə etdilər (193).

Eyni zamanda Portuqaliya belə bir hüququ da özü üçün təsbit etdirdi ki, heç bir dövlətin ticarət və digər gəmiləri Portuqaliyanın icazəsi olmadan Fars körfəzinə daxil ola bilməz. Bu hüququn əldə edilməsi Poruqaliyaya haqq verirdi ki, həm ərəb ticarət gəmilərinin körfəz daxilindəki fəaliyyətini məhdudlaşdırsın, həm də Səfəvi tacirlərinin Fars körfəzi daxilində və Fars körfəzindən keçməklə ticarətlə məşğul olmalarının qarşısını alsın. Bu üstünlüyün qorunub saxlanması üçün bölgədə saxlanalıcaq Portuqaiya hərbi qüvvələrinin yerləşdirilməsi üçün qalaların tikilməsinə də başlandı (194).

Bununla da, XVI əsrin ilk illərindən başlayaraq Portuqaliya Fars körfəsi hövzəsində kifayət qədər güclü mövqelər əldə etdi ki, bu da heç də Səfəvi dövlətinin maraqlarına cavab vermirdi. Çünki bir tərəfdən səltənətin cənub sərhədlərində kifayət qədər güclü bir hərbi qüvvə toplanmışdı və Səfəvi sərhədləri üçün təhlükə idi. Digər tərəfdən Fars körfəzindən keçməklə rəvac tapmış ticarət işləri üçün yeni və ciddi maneələr ortaya gəlmişdi. Fars körfəzinin bağlanması Səfəvi hüdudlarından keçməklə şimaldan cənuba uzanan ticarət yollarının fəaliyyətinin məhdudlaşdırılması demək idi ki, bu da Səfəvi dövlətinin iqtisadiyyatı üçün yeni çətinliklərin ortaya çıxması idi.

Portuqaliya hərbi qüvvələrinin Fars körfəzində fəallaşdığı və istilaçı müharibələr apardığı zaman Səfəvi dövləti özünün möhkəmlənmə dövrünü yaşayırdı və Şah İsmayılın başı da səltənətin möhkəmlənirilməsi, onun hüdudlarının təhlükəsziliyinin təmin edilməsi işlərinə qarışmışdı. Ona görə də Şah İsmayıl tərəfindən Portuqaliyanın istilaçılıq fəaliyyətinə qarşı ciddi bir müqavimət göstərilmədi. Bununla belə, Şah İsmayıl Hörmüz adasını heç də Portuqaliyanın müstəmləkəsi kimi qəbul etmədi və Dalbukerk öz hərbi qüvvələri ilə Hörmüzdə olarkən Şah İsmayılın xərac toplayan elçiləri Hörmüz əmirinin yanına gəldilər. Bu hadisə 1507-ci ilə təsadüf edirdi. Hörmüz hakimi də Şah İsmayılın elçilərinə cavab verilməsini Dalbukerkə həvalə etdi. Dalbukerk Şah İsmayılın elçisinə belə bri cavab verdi: “Biz Hörmüzü güc vasitəsilə ələ keçirmişik və o, Portuqaliya padşahına məxsusdur. Hörmüz əmirinin haqqı yoxdur ki, Portuqaliya dövlətindən başqa hər hansı bir digər dövlətə bac-xərac versin. Əgər Əmir belə hərəkət etməsə, onda Hörmüzü onun əlindən alıb elə bir adama verəcəyik ki,

Şah İsmayıldan qorxu-ürküsü olmasın". Sonra da Dalbukerk bir neçə tüfəngi və top mərmisini Hörmüz elçisinə verərək belə dedi: "Get öz əmirinə de ki, xərac yerinə bunları Şah İsmayıla göndərsin. Çünki Portuqaliya padşahı bizə belə bir göstəriş verib ki, bunlardan başqa düşmənə heç nə vermə. Hörmüz qalasının tikintisi başa çatandan sonra mən Fars körfəzinə gedəcəyəm və körfəz sahili boyunca Şah İsmayılın əlində olan bütün məkanları Portuqaliya padşahı adından fəth edəcəyəm" (195).

Şah İsmayılın elçiləri əliboş geri qayıtdı. Buna baxmayaraq, Şah İsmayıl Fars körfəzində Portuqaliya ağalığına son qoymaq üçün qətiyyətli tədbirlərə əl atmadı. Çox güman ki, bu, Şah İsmayılın şərq istiqamətində ciddi döyüşlərə hazırlığı ilə bağlı idi. Eyni zamanda Dalbukerk də bəyan etdiyinin əksinə olaraq, Fars körfəzi sahili boyu Səfəvi dövlətinin nəzarəti altında olan məntəqələri işğal edə bilmədi. Çünki onun Hörmüzdə uzun müddət qalması portuqal dənizçiləri arasında ciddi narazılığa səbəb oldu və ona görə də Dalbukerk Hindistana qayıtmalı oldu. O burada hakimiyyəti ələ keçirdi, Almediyanı Hindistan nayibüssəltənəsi vəzifəsindən kənarlaşdıraraq özü onun yerini tutdu. Sonrakı illərdə isə Dalbukerkin başı Hindistan daxilində baş qaldırmış qiyamların yatırılmasına qarışdı.

Dalbukerkin Hindistan nayibüssəltənəsi təyin edilməsindən sonra onun Səfəvi dövlətinə qarşı münasibətində dəyişikliklər yaranmağa başladı. Bu dəyişikliklərin kökündə bölgədə marağı olan dövlətlərin, o cümlədən Misirin, Osmanlı dövlətinin Portuqaliyanın siyasətinə qarşı fəal mövqe tutması ilə bağlı idi. Portuqaliya gəmilərinin Qırmızı dənizi nəzarət altına almaq cəhdi istər-istəməz Misirin də ticarət işlərinə müəyyən çətinliklər yaradırdı. Nəticədə, qonşu və bölgə dövlətləri ilə, o cümlədən də Hindistanla ticarət əlaqələri xeyli zəifləmişdi. Portuqaliyanın bölgədə möhkəmlənmək planları Osmanlı dövlətinin də maraqlarına cavab vermirdi. Ona görə Portuqaliyanın siyasətinə qarşı müxalifətçiliyində Misir hökuməti Osmanlı dövlətinin köməyi ilə qarşılaşırdı. Bu dövlətlərin birgə fəaliyyəti və onlar tərəfindən Hindistan əhalisinin də Portuqaliya hakimliyinə qarşı qiyamlara təhrik edilməsi Portuqaliyanın yerli hakimlərini məcbur etdi ki, Osmanlı dövlətinə qarşı barışmaz münasibətə olan Səfəvi dövləti ilə yaxınlaşmaq yollarını arasın və Səfəvi dövlətinin köməyinə arxalansın. Belə bir yaxınlaşma, əslində, hər iki dövlətin maraqlarına cavab verirdi. Portuqaliya bu yaxınlaşma ilə bölgədəki mövqeyini möhkəmləndirə bilərdi, Səfəvi dövləti isə özünə yeni bir müttəfiq tapmaqla qoşunlarının gücləndirilməsi üçün odlu silahlar əldə edə bilərdi. Səfəvi dövləti ilə yeni münasibətlərin qurulması üçün Dalbukerk 1510-cu ilin mart ayında Rui Qomeş de Karalyoza və Ferri Joao adlı elçilərini Şah İsmayılın sarayına göndərdi (196).

Dalbukerk Şah sarayına göndərdiyi heyətin özünü necə aparması haqqında xüsusi bir təlimat hazırladı və elçilərdən də tələb etdi ki, məhz həmin təlimata uyğun olaraq Şah İsmayıl ilə danışıqlar aparsınlar. Rui Qomeş de Karalyoza təqdim olunmuş həmin təlimatda deyilirdi: "...Hər şeydən əvvəl gərək bütün səfər boyu xoşagələn və aydın davranışın olsun ki, bununla Portuqaliya padşah-

lığının baş ucalığı olasan. Sən gərək İran padşahına böyük ehtiram nümayiş etdirəsən, çünki o, böyük padşahdır. ...İrana çatandan sonra İran səfirinin və onun mənsub olduğu dövlətin istəyinə uyğun olaraq hərəkət edəsən. İrana səfər zamanı heç vaxt özünü İran səfirindən ayırma və şəhərləri, qalaları gəzməyə, ...oyunlara baxmağa təklikdə getmə. Heç bir qanuna hörmətsizlik göstərmə. Şah İsmayıl ilə görüşündə gərək Portuqaliyanın əzəməti, onun padşahlığı, sərvətinin çoxluğu, Portuqaliyada firavanlıq və nemətlərin bolluğu, şəhərlərin gözəlliyi, paytaxtı Lissabon haqqında söhbət edəsən. Şəhərlərdəki gözəl və əzəmətli saraylar, əhalinin çoxluğu, Portuqaliya dövlətinin xüsusiyyətləri haqqında bəyan edəsən və deyəsən ki, Portuqaliya padşahının çoxlu müxtəlif mədənləri, o cümlədən iki qızıl mədəni vardır. Hər il həmin mədənlərdən ona böyük həcmdə qiymətli metallar çatır. Sən gərək bizim padşahımıza məxsus olan çoxlu sayda gəmilərimiz haqqında, limanlar və ləngərgahlar haqında, hər il böyük sayda gəmilər vasitəsilə Hindistana göndərdiyimiz çoxsaylı hərbi qüvvələrimiz haqqında məlumat verəsən. ...Portuqaliyanın güclü dəniz donanması haqqında söz aç və bildir ki, bu donanmanın əsas məqsədi Osmanlı gəmilərinə və maraqlarına zərbə vurulmasıdır. İran şahı ilə görüşündə gərək bildirəsən ki, Portuqaliyanın hüdudları, əhalisinin sayı və padşahımıza məxsus olan torpaqların ərazisi nə qədər böyükdür. Ona dünyanın müxtəlif məntəqələrində Portuqaliyanın fəthləri, Portuqaliya padşahının nəzarəti altında olan əmirlər və ölkələr haqqında məlumat ver və çatdır ki, Portuqaliya padşahı sarayında həmişə müxtəlif ölkələrin səfirlərini görmək mümkündür. Sən gərək İran padşahına çatdırasan ki, o, Portuqaliya padşahının sarayına səfir göndərsin ki, iki ölkə arasında əlaqələr genişlənsin və bu əlaqələrin möhkəmlənməsinə səbəb olsun. Bu səfirin göndərilməsində məqsəd yalnız müştərək düşmənə qarşı müharibə olmasın. O gərək iki dövlət arasında ticarət məsələləri barəsində də müzakirə aparsın. Eyni zamanda gərək İran padşahına çatdırılsın ki, əgər Osmanlı əleyhinə quruda və dənizdə bizim hərbi qüvvəmizin köməyini istəyirsə, öz xahişini açıqlasın və tərəflər arasında ittifqa və əməkdaşlıq barəsində tədbir görsün" (197).

Alfonso Dalbukerk Səfəvi sarayına göndərdiyi səfiri vasitəsilə Şah İsmayıla da məktub ünvanladı. Həmin məktubda deyilirdi: "Ey İranın böyük və qüdrətli şahı olan Şah İsmayıl. Mən, Alfonso Dalbukerk, Hindistanın portuqaliyalı nayibüsəltənəsi Asiya və Afrikada çoxlu sayda müstəmləkələri, dünyada ən böyük ticarət donanmasına malik olan və dünyanın çox yerləri, o cümlədən Efiopiya, ərəb və Afrikanın şimalı ilə ticarət edən Portuqaliya padşahı adından bu məktubu Sizə gönsərirəm. Mən Qova şəhərini (Hindistandadır) fəth elədim və ardınca Sizin səfirinizlə görüşdüm. Mən Sizin səfirinizə çox böyük ehtiram göstərdim, onu qarşıladım. Çünki bilirdim ki, o, qüdrətli bir padşahın nümayəndəsi kimi mənim görüşümə gəlibdir. Mən onunla elə rəftar elədim ki, sanki o mənim padşahım I Emanuilin sarayında qəbul olunurdu. Ey böyük padşah, mən Sizə məlumat verirəm ki, Portuqaliya padşahı ikitərəfli münasibətlərin genişlənməsindən çox razı qalmışdır və bunu gələcək razılaşmaların əldə edilməsi üçün bir addım hesab edir. Mənim padşahım tərəflərimiz arasında maraq kəsb edən

məsələlər üzrə fikir birliyinin əldə edilməsini və əlaqələrin genişlənəsini istəyir. Ona görə mən də səfir vasitəsilə Sizə hədiyyələr göndərdim. Ey böyük padşah, xahiş edirəm ki, mən Sizin səfirinizə göstərdiyim ehtiramı Siz də Portualiya padşahının xətrinə və mənim xətrimə mənim tərəfimdən göndərilmiş səfirə göstərəsiniz. Portuqaliya səfiri Portuqaliya padşahnın xidmətində dayanan bir əyandır və hərbi işlər üzrə mütəxəssisdir. Onun Portuqaliya ordusunda böyük təcrübəsi vardır. O, layiqli səfirdir və ona görə də onu Sizin yanınıza göndərdim. Səfir Sizə məlumat verəcəkdir ki, mən qanlı döyüş olmadan və dincliklə Hörmüzü fəth etdim və onu Portuqaliya padşahı üçün ələ keçirdim. O zamandan başlayaraq mən Sizin səltənətiniz haqqında, qüdrətiniz və ali sərkərdəliyiniz haqqında çoxlu məlumatlar əldə etmişəm. Mən istədim Sizə məlumat çatdırım ki, əgər Hörmüzlə Sizin ölkəniz arasında ticarət indiyə kimi olmayıbsa, Sizin köməyiniz və əməkdaşlığınız sayəsində bu ticarət yenidən rövnəq tapa bilər. ...Mən ümid edirəm ki, dövlətlərimiz arasında əlaqələr genişlənəcək, köməyə və təmirə ehtiyacı olan Portuqaliya gəmiləri Sizin limanlarınıza lövbər salacaq və lazımi köməyi alacaqlar. Hazırda Portuqaliya gəmiləri Hindistanın Dyu limanındadırlar. Bu donanma oranın hakiminə üstün gəlib onun gəmilərini məhv etdi. Bizim müqəddəs məqsədlərimiz xətrinə xahiş edirəm ki, tərəflərimiz arasında əlaqələrin genişləndirilməsi üçün mənim məktubuma cavabla birlikdə yeni səfirinizi də göndərəsiniz Əgər Siz padşah, düşmənlərinizə qarşı Portuqaliya gəmilərinin köməyini istəyirsinizsə, bunu açıqlayın və biz də imkanlmız daxilində Sizə kömək edək" (198).

Dabukerkin Səfəvi sarayına təyin etdiyi elçilər öz yollarını Hörmüz adasından salmalı oldular. Həmin adaya yetişəndən sonra elçi Rui Qomes orada dünyasını dəyişdi. Bu xəbər Şah İsmayıla yetişəndə elçinin dünyasını dəyişməsinə baş sağlığı verilməsi üçün Mir Əbuishaq adlı birisinin rəhbərliyi altında Dalbukerkin yanına nümayəndə heyəti göndərdi. Həmin heyət Dalbukerkin Hindistanda özünə qərargah yaratdığı Qova şəhərinə yola düşdü və 1510-cu ilin oktyabrında həmin şəhərə yetişdi. Mir Əbülishaq da Səfəvi sarayının baş sağlığını çatdırmaqla bərabər, Səfəvi sarayına Dalbukerk tərəfindən yeni bir elçinin göndərilməsinin məqsədəuyğunluğunu açıqladı. Bu təklif, ümumən, Dalbukerk tərəfindən müsbət qarşılandı. Lakin həmin dövrdə Hindistan daxilində Portuqaliyaya qarşı üsyanlar alovlanmaqda idi. Bütün diqqət bu üsyanların yatırılmasına yönəldiyindən Dalbukerk dərhal Səfəvi sarayına yeni bir səfir göndərə bilmədi. Hindistan daxilində nisbətən sabit şərait 1513-cü ildə bərqərar oldu və bundan sonra Dalbukerk tərəfindən Səfəvi sarayına səfir göndərilməsi məsələsi yenidən gündəliyə gəldi. Ona görə də 1513-cü ilin dekabr ayında Dalbukerk tərəfindən elçilik heyəti təşkil edildi, Miquel Fereyra adlı birisi bu elçiliyin rəhbəri təyin edildi və ona Səfəvi sarayına yola düşmək tapşırığı verildi. Portuqaliya səfiri özü ilə Portuqaliya kralı I Emanuilin Şah İsmayıla ünvanladığı dostluq məktubunu da aparmalı idi. Miquel Fereyranın rəhbərlik etdiyi elçilik heyəti Təbrizə Çaldıran döyüşünün başa çatmasından sonra yetişə bildi. Bu elçilik heyəti Səfəvi sarayı tərəfindən çox böyük ehtiramla qarşılandı. Mövcud məlumata görə, Portuqaliya

elçisi xidmətçiləri tərəfindən zəhərlənmişdi və Təbrizə çatanda onun səhhəti heç də yaxşı deyildi. Ona görə də Şah İsmayıl ilə ilk görüşündə elçi yalnız öz etibarnaməsini təqdim etməklə kifayətləndi. Şah İsmayıl isə dərhal saray həkimlərinə onun müalicəsi ilə məşğul olmağı tapşırdı. Bir müddətdən sonra Portuqaliya səfirinin səhhəti bir qədər normallaşdı və o, yenidən Şah İsmayılın hüzuruna yollandı. Səfəvi şahı onu yenidən ehtiramla qarşıladı və Portuqaliya ilə bağlı çoxlu suallarına elçidən cavab almağa çalışdı. Bu görüş zamanı Şah İsmayıl Portuqaliya ilə əlaqələr qurulmasına maraq nümayiş etdirdi və ehtiramla qarşıladığı elçini çoxlu qiymətli hədiyyələrlə yola saldı (199). Bununla, Səfəvi dövləti ilə Portuqaliya arasında xoş münasibətlərin yaradılması üçün siyasi iradə ortaya qoyuldu və Şah İsmayıl bu münasibətlərin yaradılmasına əməli marağını nümayiş etdirdi.

Miquel Fereyranın elçilik heyəti hələ Təbrizə yetişməmiş Şah İsmayıl yeni bir elçilik heyəti təşkil etdirdi və onu Xacə Əli adlı birisinin rəhbərliyi altında Qovaya yola saldı. Həmin heyət 1514-cü il sentyabr ayının 28-də Qovaya yetişdi və bir neçə gündən sonra elçi Dalbukerklə görüşmək imkanı əldə etdi və Şah İsmayılın məktubunu ona təqdim etdi. Şah İsmayıl bu məktubunda da həm iki dövlət arasında xoş münasibətlərin qurulması, həm də Osmanlı dövlətinə qarşı iki dövlət arasında ittifaq yaradılması istəyini Dalbukerkə çatdırdı. Şah İsmayıl məktubunda Dalbukerkdən onu xahiş etdi ki, bir neçə nəfər top mütəxəssisini Təbrizə ezam etsin. Səfəvi şahı eyni zamanda Portuqaliya kralı I Emanuilə də məktub yazmışdı. Həmin məktubun məzmunu da iki dövlət arasında xoş münasibətlərin qurulması istəyindən ibarət idi. Səfəvi elçisi bu məktubu Dalbukerkə təqdim etdi ki, onu Portuqaliya kralına çatdırsın. Xacə Əli ilə təmsil olunan Səfəvi elçiliyi Dalbukerk tərəfindən yenidən ehtiramla qarşılandı və tərəflərin marağında olduğu məsələlər bir daha müzakirə obyektinə çevrildi (200).

Bəzi məlumatlara görə, Şah İsmayılın elçisinə Dalbukerk tərəfindən konkret cavab verilmədi (201). Bununla belə, Şah İsmayıl Portuqaliya ilə yaratmaq istədiyi münasibətlərin heç də Səfəvi maraqlarının güzəşt edilməsi bahasına başa gəlməsini istəmirdi. Ona görə də tərəflər arasında səfirlər mübadiləsinin davam etdiyi bir vaxtda Şah İsmayıl həm Hörmüz adası üzərində, həm də Fars körfəzində Səfəvi nüfuzunun bərpasına cəhd göstərdi. Bu məqsədlə Şah İsmayıl yenidən Hörmüz əmirləri ilə təmas qurdu, onlara öz himayəsini bəyan etdi və Hörmüz əmirləri ilə razılığa gəldi ki, illik vergilər Portuqaliya xəzinəsinə yox, Səfəvi xəzinəsinə ödənilsin. Başqa bir məlumata görə isə, Şah İsmayıl Hörmüz adasının əmiri ilə yalnız qarşılıqlı münasibət yaratmaqla kifayətlənmək istəmirdi və onun niyyəti, əslində, Hörmüz adasını ələ keçirmək idi. Hörmüz adası ətrafında vəziyyətin belə dəyişməsi Dalbukerkin ciddi narazılığı ilə qarşılaşdı və bu ada üzərində yenidən Portuqaliya nəzarətini təmin etmək üçün bir daha silaha əl atdı. O, qardaşı oğlu Pyero Dalbukerkin rəhbərliyi altında 4 ədəd döyüş gəmisini Qova limanından Hörmüzə yola saldı. Doğrudur, Piero Dalbukerk Hörmüz əmirindən illik xəracı almağa müvəffəq oldu. Lakin müzakirələr zamanı Hörmüz əmiri Səfəvi hakimiyyətini qəbul etdiyini və ondan imtna etmək fik-

rində olmadığını bildirdi. Bununla da, Pyero Dalbukerk ona tapşırılmış vəzifənin öhdəsindən bütünlüklə gələ bilməyərək geri dönməli oldu (202).

Hörmüzün əldən çıxarılması Portuqaliyanın Fars körfəzi hövzəsini nəzarət altında saxlamaq planlarını alt-üst edə bilərdi. Ona görə itirilmiş mövqelərin geri qaytarılması üçün Alfonsi Dalbukerk özü daha böyük qüvvələrlə Hörmüz adası üzərinə hücum etmək qərarına gəldi. 1515-ci ilin əvvəllərində A.Dalbukerk 2200 silahlı döyüşçünün yükləndiyi 26 döyüş gəmisi ilə Fars körfəzinə doğru istiqamət götürdü. Hələ Hörmüz adasına çatmazdan əvvəl A.Dalbukerk məlumat aldı ki, Məsqət şəhərinin Səfəvi sarayı tərəfindən təyin edilmiş hakimi Rəis Əhməd Hörmüz üzərinə hücum edərək bu adanın hakimini həbs etdirmiş və adanı öz nəzarəti altına götürmüşdür. Bu xəbər də Dalbukerkdə ciddi nigarançılıq yaratdı və böyük bir qətiyyətlə Hörmüz üzərinə hücuma getdi. Dalbukerkin əmri ilə gəmi toplarından Hörmüz qalası güclü atəşə tutuldu. Rəis Əhməd bu atəşlərin qarşısında davam gətirməyin mümkün olmayacağını gördükdə Hörmüzün həbsdə olan əmirini azad etdi və şəhəri təslim edərək adanı tərk etdi. Dalbukerk isə adaya yenidən sahib olaraq Portuqaliya bayrağını qala divarları üzərində havaya qaldırdı (203).

Şah İsmayıl tərəfindən Hörmüz adası ilə bərabər, Fars körfəzi üzərinə Portuqaliyanın yenidən nəzarətinin bərqərar olmasına qarşı qətiyyətli bir tədbir həyata keçirmədi. Çox güman ki, Osmanlı dövlətinə qarşı Portuqaliya ilə ittifaq yaradılması məsələsi Şah İsmayılın strateji niyyətlərinə daha çox cavab verirdi və bu niyyətlərə nail olunması üçün Fars körfəzinin Portuqaiyanın nəzarəti altında olması ilə müvəqqəti olaraq razılaşmalı olmuşdu (204). Ona görə də Şah İsmayıl qətiyyətli tədbirlərə əl atmaq əvəzinə, Dalbukerkin yanına elçilik göndərməyi və Portuqaliyanın hərbi köməyini almaq məqsədilə yenidən müzakirələr aparılmasını məqsəduyğun saydı. Bu məqsədlə yaratdığı elçilik heyətini Səfəvi sarayına gəlmiş Portuqaliya elçisi Miquel Fereyra ilə birlikdə Dalbukerkin yanına göndərdi. Qeyd edilməlidir ki, Çaldıran döyüşünün nəticələri Portuqaliya dövlətini Səfəvi sarayının təkliflərinə daha yaxından yanaşmasına sövq etdi. Çünki Çaldıran döyüşündən uğurla çıxması Osmanlı dövlətinin bölgədəki nüfuzunu və gücünü daha da artıra bilərdi. Bu isə məlum olduğu kimi, Portuqaliyanın müstəmləkəçilik siyasətinə cavab vermirdi. Osmanlı dövlətinin güclənməsinin qarşısının alınması yollarından biri isə məhz Səfəvi dövləti ilə ittifaq müansibətlərinin yaradılması və Osmanlı dövləti qarşısında Səfəvi dövlətinin gücləndirilməsi idi. Ona görə də nəhayət ki, Dalbukerk ikitərəfli müzakirələrə daha ciddi yanaşmağa başladı. Həmin müzakirələrin aparılması üçün Şah İsmayıl 1515-ci ilin avqustunda öz nümayəndə heyətini Hömüz adasına göndərdi. Burada Səfəvi heyəti ilə Dalbukerk arasında danışıqlar başlandı. Dalbukerk yalnız Səfəvi elçiləri ilə danışıqlar aparmadı. Eyni zamanda onun tapşırığı əsasında Səfəvi elçiləri Hörmüz adasında gəzdirilidi və Hörmüz adasında yenidən tikilmiş müdafiə mövqeləri, topların yerləşdirilmiş olduğu mövqelər və bütünlükdə Portuqaliyanın adadakı hərbi potensialı Səfəvi elçilərinə nümayiş etdirildi. Bununla belə bir təsəvvür yaradılmasına cəhd göstərilirdi ki, Səfəvi dövləti daha Hörmüz adasını portuqallıların

əlindən ala bilməz. Şah İsmayıl bununla, əslində, müvəqqəti olaraq razılaşmışdı və elçilərin də əsas diqqəti məhz hərbi sahədə əməkdaşlığın qəbul edilməsinə yönəldilmişdi. İkitərəfli müzakirələrin nəticəsi olaraq aşağıdakı məsələlər üzrə qarşılıqlı razılığa gəlindi:

1. Səfəvi şahının Bəhreynə və Qətifə qoşun çıxarmasına Portuqaliyanın hərbi gəmiləri kömək göstərsin;

2. Mekran və Belucistanda özünü göstərən qiyamların yatırılmasında Portuqaliyanın hərbi dəniz qüvvələri Səfəvi sarayına kömək göstərsin;

3. Osmanlı dövlətinə qarşı mübarizə aparılmasında Səfəvi dövləti ilə Portuqaliya ittifaq yaratsınlar;

4. Səfəvi dövləti Hörmüzə olan iddialarından əl çəksin və Portuqaliya kralı Emanuil adanın əmiri Turanşahı yenidən bu adaya əmir təyin etsin (205).

Əldə edilmiş bu razılaşma hər iki tərəfin maraqlarını təmin edirdi. Şah İsmayıl müəyyən güzəştlərə getmək məcburiyyətində qaldısa da, amma Osmanlı dövlətinə qarşı mübarizə aparılmasında, Səfəvi qoşunlarının odlu silahla təchiz edilməsində Portuqaliya dövlətinin kömək vədini aldı.

Elmi-tarixi ədəbiyyatda olan məlumata görə, Dalbukerk qarşılıqlı razılaşmanın əldə edilməsindən razı qaldı və Şah İsmayılın yanına yenidən öz elçilərini göndərdi. O, elçilərə tapşırdı ki, Şah İsmayıla bunları çatdırsınlar: "Mənim adımdan Şah İsmayıla deyəcəksiniz ki, mən onun əzəmətli məqamı, şöhrəti xatirinə və saysız-hesabsız səylərinə görə bu elçilər heyətini onun görüşünə göndərirəm. Şah İsmayılın Osmanlılarla müharibəyə aid təklifi haqqında: Portuqaliya hökuməti bir qədər hərbi gəmi, əsgər və artilleriya göndərməklə ona kömək edir və bizim məzhəb firqəmizdən olub sizin sarayınızda yaşayan məsihilər bizim vasitəçilərimiz olacaqlar" (206).

Dalbukerkin Səfəvi sarayına göndərdiyi elçilik missiyasına Fernao Qomes de Lemos rəhbərlik edirdi. Ona çoxlu sayda qiymətli hədiyyələr də verilmişdi ki, Şah İsmayıla çatdırsın və bununla, Portuqaliyanın Səfəvi dövləti ilə əldə edilmiş razılaşmadan məmnunluğu ifadə olunsun. Hədiyyələr içərisində az sayda olsa da silah və əsləhə, o cümlədən 6 ədəd tüfəng, 2 ədəd top, mancanaq və digərləri var idi. Bu elçilik heyəti Səfəvi sarayında Şah İsmayı ilə görüşə bildi. Lakin Portuqaliya elçiliyinə əvvəlki xoş münasibət göstərilmədi. Çünki Hörmüzün, Fars körfəzi sahilləri boyu məntəqələrin işğal edilməsi Şah İsmayılı heç də qane etmirdi. Bu da elçilik heyətinə münasibətdə özünü göstərdi (207).

İki dövlət arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında razılaşma əldə ediləndən sonra müəyyən addımlar atılsa da, ikitərəfli münasibətlərdə xüsusi bir fəallaşma özünü göstəmədi. Xüsusilə, 1515-ci ilin dekabrında Hindistan nayibüssəltənəsi Alfonso Dalbukerkin dünyasını dəyişməsindən sonra qarşılıqlı münasibətlərdə bir süstlük özünü göstərməyə başladı. Doğrudur, bəzi Portuqal mənbələrində Şah İsmayıla toplar və tüfənglər verilməsi haqqında məlumatlar vardır. Farsdilli mənbələrdə isə bu deyilənlərin təsdiqini görmək mümkün deyil. Məsələn, 1515-ci il aprel ayının 29-da Venesiyanın Kiprdəki canişini Zuan Paolo Qradeniqə adlı birisi öz hökumətinə belə bri məlumat göndərmişdi:

"Təsdiq edilər ki, sinyor Sufi 100 min nəfərdən artıq qoşun toplayıb və çoxlu sayda top əldə edib... Onu da deyirlər ki, Sufi Türkiyə sərhədlərinə yaxınlaşacaq və türklər geri çəkiləcəklər. Allah eləsin ki, bu xəbər doğru olsun. Çünki bu məsihilərin xeyrinə olardı" (208).

1518-ci ilə aid olan bir məlumatda da Şah İsmayıl qoşunlarının portuqaliyalılar tərəfindən odlu silahla təchiz etməsi haqqında bəzi xəbərlər vardır. Həmin məlumat da venesiyalılar tərəfindən hazırlanmışdı: "Rəsmi məlumat alınmışdır ki, Sufi 70 min nəfərlik qoşun dəstəsi ilə Təbrizdədir. Onların arasında Portuqaliya kralının göndərmiş olduğu silahlı əsgərlər və topçular da vardır. Portuqaliya kralı ora öz səfirlərini də göndərib. Sufi bu səfirləri böyük ehtiram və qiymətli hədiyyələrlə qarşılamışdır. O həm də portuqallılara Hind okeanında böyük olmayan, lakin çox rahat olan ada da bağışlamışdır" (209).

Birinci məlumat, göründüyü kimi, şayiələrə əsaslanıb və ona görə də mötəbər sayıla bilməz. İkinci məlumatın doğruluğu da şübhə yaradır. Çünki bu məlumat digər mənbələrlə, o cümlədən də Səfəvi mənbələri ilə təsdiqlənmir. Şah İsmayıl iştirak etdiyi döyüşlərdə heç zaman bu sayda qoşuna rəhbərlik etməmişdi. Səltənət daxilində yerli qoşunların nəzərə alınması ilə bu sayda qoşun dəstəsinin toplanması mümkün ola bilərdi. Amma Şah İsmayılın hərbi təcrübəsi bu sayda qoşunun toplanması zəruriliyini istisna edir. O cümlədən də, qeyd edildiyi kimi, Şah İsmayıl qoşunlarında çoxlu sayda topun və tüfəngin olması iddiası da birmənalı şəkildə qəbul edilən deyil.

Mövcud məlumatlara görə, Portuqaliya elçisi Fernao Qomes Səfəvi sarayında olarkən Şah İsmayıl əldə edilmiş razılaşmaya əsasən, hərbi kömək göndərilməsinə başlanması məsələsini qaldırdı. Konkret olaraq səltənət vəkili Mirzəşah Hüseyni İsfahani tərəfindən belə bir məsələ qaldırıldı ki, Səfəvi sarayı Bəhreyn və Qətifin ələ keçirilməsi üçün 12 min nəfərlik qoşun dəstəsi hazırlanmışdır və qarşılıqlı razılaşmaya əsasən Portuqaliya gəmiləri bu qoşun dəstəsinin daşınmasına kömək göstərməlidir. Fernao Qomes bu təklifin icrasından boyun qaçırdı və bildirdi ki, bu xahişin dərhal yerinə yetirilməsi mümkün deyil. Çünki Dalbukerk artıq Hörmüzü tərk edib Hindistana yola düşmüşdü. Onun əvəzində Hörmüzdə qalmış portuqaliyalı hakim isə belə məsələləri həll etmək səlahiyyətində deyil. Osmanlı qoşunlarına qarşı döyüş aparmaq üçün Portuqaliyanın əsgər, döyüş gəmiləri və toplarla kömək göstərməsi vədinin müzakirəsi zamanı da Səfəvi sarayını razı sala biləcək bir nəticə əldə edilmədi. Şah İsmayılı razı salmayan başqa bir məqam isə Fars körfəzi sahilləri boyunca yerləşən bəzi liman şəhərləinin, o cümlədən Qəmburan (Bəndər-Abbas), Soxar və Qətif şəhərlərinin Portuqaliya qoşunları tərəfindən işğal edilməsi idi. Razılaşmaya əsasən bu şəhərlərin Səfəvi dövlətinin hakimiyyəti altında olmasına Portuqaliya tərəfi kömək göstərməli idi. Bu məqamlar da bütünlükdə Şah İsmayılın narazılğı ilə qarşılaşdı və ona görə də Portuqaliya elçisinə gözlənilən ehtiram göstərilmədi. 1516-cı il ilin yanvar ayında Fernao Qomes elçilik missiyasını başa çatdırdı və Şah İsmayıldan aldığı çoxlu hədiyyələrlə birlikdə geri qayitmaq məcburiyyətində qaldı. Şah İsmayıl isə Portuqaliya ilə münasibətlərdən konkret



*Şah İsmayıl qonaqları qəbul edir*

nəticələrin əldə edilməsinə nail olmaq üçün öz elçisini də F.Qoçes ilə birlikdə Hörmüzə göndərdi (210).

Lakin bu cəhd də gözlənilən nəticəni vermədi. Şah İsmayılın gözləntilərinin əksinə olaraq portuqaliyalı amirlər Fars körfəzi daxilində öz mövqelərini möhkəmləndirməkdə davam edirdilər. Bölgədə xüsusi bir müqavimətlə rast gəlməmələri isə portuqaliyalıların azğınlaşmasına, bölgənin təsərrüfat həyatının sıxışdırılmasına yol açırdı. Bu da ona gətirib çıxardı ki, Hörmüzdə, Bəhreyndə, Məsqətdə və başqa şəhərlərdə Portuqaliyanın bölgədəki siyasəti əleyhinə üsyanlar baş verdi. Həmin üsyanlarda bir sıra Portuqaliya hərbçiləri və amirləri qətlə yetirildilər. Müstəmləkə siyasətinə qarşı narazılıqların qarşısının alınması üçün Portuqaliya amirləri tərəfindən əlavə hərbi qüvvələr cəlb edildi və yalnız bundan sonra Portuqaliyanın bölgədəki əvvəlki nəzarətini bərpa etmək mümkün oldu (211).

Bununla belə, bölgədə gərginlik qalmaqda davam edirdi. Şah İsmayılın Portuqaliya dövlətinin öz vədləri üzərində dayanmamasından narazı qalması da bu gərginliyi artırmaqda idi. Portuqaliyanın bölgədəki hakimləri də bunu müşahidə edirdilər və yaxşı anlayırdılar ki, əldə edilmiş razılaşmaların icrası istiqamətində ciddi addımlar atmasalar onların bölgədəki mövqeyi xeyli zəifləyə bilər. Buna yol verməmərk üçün Portuqaliyanın Hindistandakı yeni nayibüssəltənəsi 1523-cü ilin sentyabrında Şah İsmayılın yanına yeni bir elçilik heyəti göndərdi. İyirmi nəfərdən ibarət olan bu elçilik heyətinə Portuqaliyanın kral ailəsindən olan Baltazar de Pessao adlı birisi rəhbərlik edirdi. Bu heyət Hindistanın Qova limanından hərəkət edərək Qəmburan (Bəndər-Abbas) liman şəhərinə gəldi və sonra da quru yolu ilə Şiraz, İsfahan, Kaşan, Qum və Sultaniyyədən keçməklə Təbrizə yetişdi. Şah İsmayıl bu zaman Təbrizdə yox idi. Məlumdur ki, Şah İsmayıl həyatının sonlarına yaxın Şirvan və Şəkiyə səfər etmişdi və Portuqaliyanın elçilik heyətini də o, Xəzər dənizi yaxınlığında qəbul edə bildi. Yəqin ki, bu görüş Şah İsmayılın Şəkidən geri qayıtdığı vaxt baş vermişdi. Çünki Şəkidən Ərdəbilə yollanan Şah İsmayıl Portuqaliyanın elçilik heyətini də özü ilə Ərdəbilə aparmışdı. Şah İsmayıl bu dəfə Portuqaliya elçilik heyətini hörmət və ehtiramla qarşıladı. Elçilik heyətini özü ilə Ərdəbilə aparması da Şah İsmayılın bu heyətə göstərdiyi ehtiramın nişanəsi idi. Elçilik heyətinin üzvü olan Antonio Tenreironun yazdığına görə, Ərdəbildə olarkən elçilik heyəti Şah İsmayılın ağır xəstə olması haqqında məlumat aldı. Elçilik heyətinin üzvləri belə bir qərara gəldilr ki, tezliklə Ərdəbili tərk etsinlər. Onların fikrincə, Şah İsmayılın dünyasını dəyişəcəyi təqdirdə hakimiyyət uğrunda çəkişmə başlaya bilərdi və bu da xoşagəlməz nəticələrə yol aça bilərdi. Ona görə də Portuqaliyanın elçilik heyəti Ərdəbili tərk edib Təbrizə qayıtdı. Bu heyət Təbrizdə olarkən Şah İsmayılın dünyasını dəyişməsi barəsində məlumat alındı. Beləliklə, Şah İsmayılın həyatı dövründə Portuqaliya ilə nəzərdə tutulan sahələrdə ciddi əməkdaşlığın başlanmasına nail olunmadı. Yalnız Şah Təhmasibin hakimiyyəti dövründə Portuqaliya ilə səmərəli əməkdaşlıq sahəsində müəyyən əməli addımlar atmaq mümkün oldu (212).

### ç) Şah İsmayılın digər Avropa dövlətləri ilə əlaqələri

Şah İsmayılın hakimiyyəti illərində Avropanın bir sıra digər dövlətləri ilə də əlaqələrin qurulması istiqamətində müəyyən addmlar atılmışdı. Xüsusilə, Çaldıran döyüşündən sonra Səfəvi qoşunlarının gücünün artırılması və təchizatının yaxşılaşdırılması il bağlı xarici siyasətdə yaranmış olan fəallşama Avropanın inkişaf etmiş dövlətlərini də əhatə etməkdə idi. Səfəvi dövləti ilə qarşılıqlı münasibətlərin qurulması, əslində, Avropanın böyük dövlətləri üçün strateji əhəmiyyət kəsb edirdi. Çünki bu dövlətlər də Avropada artmaqda olan Osmanlı fəthlərinin qarşısının alınması yollarından birini məhz Səfəvi dövlətinin möhkəmləndirilməsində və bu dövlətin gücləndirilmiş qoşunlarının Osmanlı qoşunlarına qarşı çıxarılmasında görürdülər. Venesiya və Portuqaliya dövlətləri ilə münasibətlərdə olduğu kimi, digər Avropa dövlətləri ilə münasibətlərdə də Şah İsmayıl səmərəli bir dəstək əldə edə bilmədi. Bununla belə, Səfəvi dövlətinin Avropanın böyük dövlətləri ilə əlaqələrinin əsası Şah İsmayılın dövründə qoyuldu və bu ilkin baza sonralar Avropa dövlətləri ilə əlaqələrin genişlənməsinə faydalı bir zəmin oldu.

1515-ci ildə Şah İsmayıl Aralıq dənizində yerləşən Rodos hakimləri ilə əlaqə yaratmağa təşəbbüs göstərdi. Bununla bağlı o, Səfəvi sarayının Əli bəy adlı əyanlarından birini Rodos hakiminin yanına göndərdi. Şah İsmayıl 1515-ci il oktyabr ayının 1-də imzaladığı məktubu ilə Rodos hakiminə müraciət etdi və onu Osmanlı dövlətinə qarşı birgə mübarizəyə səslədi. Osmanlı dövlətinin bölgədə güclənməsi Rodosun da maraqlarına cavab vermirdi və ona görə Şah İsmayılın çağırışı Rodos hakimi tərəfindən maraqla qarşılandı. Şah İsmayıl ona göndərdiyi məktubunda yazmışdı: "Biz ən yaxşı niyyətlərimizi, ən yaxşı arzularımızı bildirməklə Siz Əlahəzrətə müraciət edirik ki, Siz də bizim ümumi düşmənimiz olan türklərə qarşı müharibəyə qalxasınız. ...Əgər Sizin hökumətiniz bizim bu xahişimizin qəbul edilməsini mümkün saysa, onda bizim dostluğumuz daha da genişlənəcək və möhkəmlənəcəkdir" (213).

Rodosun Osmanlı dövlətinə qarşı müharibəyə başlaması bölgənin hərbi-siyasi şəraitinə müəyyən təsir göstərə bilərdi. Şah İsmayılın da yeni müharibəyə başlayacağı halda Osmanlı dövləti qərbdən və şərqdən istiqamətlənmiş iki zərbənin arasında qala bilərdi. 1515-ci ildə Osmanlı dövləti həm Səfəvi dövlətinin qərb sərhədi boyunca, həm də Misir dövlətinə qarşı kifayət qədər fəal hərbi yürüşlər apardı və məlumdur ki, Şah İsmayıl səltənətin qərb sərhədləri boyunca bir sıra qala-şəhərləri əldən verməli oldu. Rodosun müharibəyə başlaması Osmanlı dövlətinin şərqə olan diqqətinin də müəyyən dərəcədə zəifləməsinə yol aça bilərdi. Amma Rodos tərəfindən Osmanlı dövlətinə qarşı fəal bir siyasət özünü göstərmədi. Məlumdur ki, 1522-ci ildə Rodos adası Osmanlı hücumuna məruz qaldı və bu ada Osmanlı hakimiyyətinin nəzarəti altına alındı.

Rodosun Osmanlı hakimiyyətinin nəzarəti altına alınması 1520-ci ildə Sultan Süleymanın Osmanlı taxt-tacına yiyələnməsindən sonra onun qərb istiqamətində

apardığı fəal hərbi yürüşlərin nəticəsi idi. Sultan Süleyman əvvəlcə Belqrad şəhərini ələ keçirdi və sonra da qoşunların istiqamətini Rodosa tərəf çevirdi. Osmanlı dövlətinin Avropa cəbhəsində belə fəallaşması qərb ölkələrinin təşvişini yenidən artırdı və Osmanlı təhlükəsindən sığortalanmaq üçün Səfəvi dövləti ilə yeni münasibətlər qurulması yenidən aktuallaşmağa başladı. Bu dövlətlərdən biri də Macarıstan dövləti idi. Macarıstan kralı II Lüdoviq güman edirdi ki, Osmanlı dövlətinin Avropada genişlənən hərbi yürüşləri onun dövlətini də əhatə edə bilər. O da Osmanlı təhlükəsinin qarşısının alınması üçün Şah İsmayıl ilə əlaqələr qurulmasını məqsədəuyğun saydı. Ona görə də II Lüdoviq 1522-ci ildə Petros adlı bir rahibin rəhbərliyi altında Şah İsmayılın yanına elçilik heyəti göndərdi. Rahib Petros öz ilə Macarıstan kralının Şah İsmayıla məktubunu da aparırdı. Həmin məktubda II Lüdoviq qarşılıqlı dostluq münasibətlərinin yaradılmasına razı olduğunu bildirməklə təklif etdi ki, Macarıstan qərbdən və Şah İsmayıl da şərqdən Osmanlı dövlətinə qarşı müharibəyə başlasın. II Lüdoviq şübhə etmirdi ki, bu yolla Osmanlı dövlətini çökdürmək mümkün ola bilər. Şah İsmayıl həm Macarıstanın elçilik heyətinin gəlməsinə, həm də Macarıstan kralının təklifinə öz razılığını bildirdi. Bu razılığını Şah İsmayıl Macarıstanın kralına yazdığı məktubunda da bəyan etdi. Macarıstan kralından başqa Şah İsmayıl həm də Almaniya imperatoru Şarlkona (V Karla ) da məktub yazdı və onu da rahib Petros vasitəsilə göndərdi. Həmin məktubun yazılmasının təşəbbüskarı rahib Petros oldu. O, Almaniyanın və İspaniyanın imkanlarından, qüdrətindən söz açmaqla Şah İsmayıla öz qoşunlarının gücləndirilməsi və ittifaq münasibətlərinin yaradılması üçün bu dövlətlərlə də əlaqələr qurulmasını təklif etdi. Beləliklə, rahib Petros 1523-cü ildə vətənə qayıdarkən özü ilə Şah İsmayılın həm II Lüdoviqə, həm də Almaniya imperatoru V Karla yazmış olduğu məktubları aparırdı. Şah İsmayılın V Karla yazdığı məktubun mətni aşağıdakı kimi idi:

"Əgər Allahin izni ilə bu məktub sənə gəlib çatarsa məlumunuz olsun ki, Feratr Petros Macarıstan padşahının məktubunu mənə gətirdi və biz də o padşahın məktubunu fərəhlə oxuduq. İndi isə Feratr Petrosu bu məktubla yola salırıq. Bu məktubun göndərilməsinə şad olacağınıza ümid edirəm. Sizdən mənim deyəcəklərimi diqqətlə oxumanızı təvəqqe edirəm. Biz aprel ayında iki istiqamətdən öz müştərək düşmənimiz [olan] Osmanlı sultanına həmlə etməliyik. Bir müddət əvvə Təbriz yolu ilə İsveçrə padşahı tərəfindən hüzurumuza bir səfir gəlmişdi. Biz onun vasitəsilə həmin padşaha bir məktub göndərsək də, indiyə qədər cavab almamışıq. Osmanlı rəiyyətlərindən eşitdiyimə görə, xristian hökmdarlar bir-biri ilə döyüşməkdədir ki, bu da təəccüblüdür. Çünki onların bir-biri ilə mübarizəsi düşmənin cəsarətini artırır. Elə buna görə də Macarıstan padşahına Avropa hökmdarları ilə döyüşə girməkdən çəkinməsini yazdım. Çünki bilirik ki, [Osmanlı padşahı] həmin alicənabla döyüşmək üçün qoşun hazırlamış, elçi və məktub göndərməklə bu işdə mənimlə müttəfiq olmaq istəyir. Amma mən həmişə onun istəyini rədd etmişəm. Çünki sizin də dediyiniz kimi, yaxşı və pis günümüzdə sizin dostunuz olmaq istəyirəm və hər kim öz müttəfiqini tənha

qoyub ona xəyanət etsə, qüdrətli və qalib Allah tərəfindən cəzalanar. Buna görə də dərhal qoşun hazırlamağa başlayın. Ümid edirəm ki, sizi təhrik etmək üçün yeni bir məktub yazmağa ehtiyac qalmayacaq. Çünki məsafə uzaq və məktub göndərmək çətindir. Xüsusilə də Osmanlı sultanları dənizlərə nəzarət etdiyi üçün bu səfirdən başqa digər səfirlər göndərmək bizim üçün mümkün deyildir. Əlbəttə Osmanlı sultanına etimadımız vardır. Sultan elə bir şəxsdir ki, ittifaq, and və vəfadarlığa etina etməz və sizi məhv etmək yolunda əlindən gələni əsirgəməz. Bu əcdad düşməni elə əhd-peyman sındırır ki, qətiyyətlə Almaniya ölkəsində padşah olan böyük şahənşahla yola getməyəcəkdir" (214).

Şah İsmaylın bu məktubunda bəzi qənaətləri çıxarmağa imkan verən maraqlı faktlar mövcuddur. Onun yazdığından belə məlum olur ki, Osmanlı sultanı Macarıstan üzərinə hücum etmək üçün Şah İsmayılı da birgə mübarizəyə çağırmışdır. Həmin vaxt hakimiyyətdə olan Osmanlı sultanı Sultan Süleyman Şah İsmayılın dövründə Səfəvi dövlətinə qarşı fəal hərbi siyasət yetirmirdi. Çox güman ki, bu, onun Avropa dövlətləri ilə bağlı olan planlarından irəli gəlirdi. Sultan Süleymanın Şah İsmayılı qərbə qarşı birgə mübarizəyə çağırması heç şübhəsiz ki, Osmanlı sarayının Səfəvi dövlətinə qarşı münasibətinin dəyişməsindən irəli gəlmirdi. Şah İsmayılın dünyasını dəyişməsindən sonra Sultan Süleymanın Səfəvi dövləti üzərinə hərbi yürüşləri də bunun təsdiqi ola bilər. Yəqin elə buna görə də Şah İsmayıl Avropa dövlətlərinə qarşı Sultan Süleymanın birgə yürüş planını qəbul etməmişdi. Görünür, Səfəvi dövlətinə qarşı Osmanlı təhlükəsi də bir dəfəlik aradan qalxmadığı üçün idi ki, Şah İsmayıl qərb dövlətlərini Osmanlı dövlətinə qarşı birgə mübarizəyə səsləyirdi. Şah İsmayıl hətta bu mübarizənin başlanması üçün konkret tarix də təklif edirdi. Məktubda həmin mübarizənin aprel ayında başlanması məqsədəuyğun sayılmışdır. Ehtimal oluna bilər ki, Şah İsmayıl 1524-cü ilin aprel ayını nəzərdə tutmuşdur. Bu mübarizənin təsirliliyini artırmaq üçün Şah İsmayıl qərb dövlətlərinin rəhbərlərini öz aralarında apardıqları müharibələrə son qoymağa da çağırırdı.

Bununla belə, 1524-cü ilin yazında qərb dövlətləri ilə Səfəvi dövləti arasında birgə fəaliyyət haqqında hər hansı məlumat mövcud deyildir. Doğrudur, Şah İsmayıl 1524-cü ilin mayında dünyasını dəyişdi. Lakin Şah İsmayıln təklifinin qəbul olunacağı təqdirdə yəqin ki, Osmanlı dövləti üzərinə birgə mübarizə hazırlığı hələ xeyli əvvəldən başlamalı idi. Belə hazırlıqlar başlamış olsaydı, onda Şah İsmayıl 1524-cü ilin yazında Şirvana və Şəkiyə ova yollanmazdı. Digər tərəfdən çox güman ki, Şah İsmayıl dünyasını dəyişənə qədər istər Almaniya imperatorunun, istərsə də Avropanın digər dövlətlərinin Şah İsmayılın təklifindən xəbərləri yox idi. Çünki Şah İsmayılın məktubu ünvününa çox gec çatmışdı və Almaniya imperatoru Şah İsmayılın məktunbuna cavab yazanda Şah İsmayıl artıq dünyasını dəyişmişdi. V Karl da məktubunda buna işarə edirdi ki, Şah İsmayılın məktubu ona çox gec çatmışdır. Bundan başqa, Şah İsmayılın məktubu möhürlənmədiyindən Almaniya sarayında onun etibarlı olub-olmaması suallar doğurmuşdu. Amma Almaniya imperatoru məktubunda

Şah İsmayılı "ən yaxşı dostumuz və qardaşımız" adlandırır və ona öz ehtiramını ifadə edirdi.

Həmin məktubun mətni belədir: "Bizim ən yaxşı dostumuz və qardaşımız [olan] İran şahənşahı, qüvvətli və alicənab əmir, Şah İsmayıl Səfəviyə...

İlahi lütfi sayəsində Rum, xristian dünyası və Almaniyanın imperatoru, İspaniya məmləkətləri, Siciliya yurdunun hər iki hissəsi, Navar, Qranada, Balear adaları, Səid və Hind adası, yeni qızıl ölkəsinin (cənubi Amerika) padşahı, Almaniya və Fransa əmirlikləri və Afrikanın əldən-ayaqdan uzaq yurdlarının əmiri olan əsli-nəcabətli şahzadə Karl, pəhrizkar və xoşbəxt padşah olan bizim dostumuz və qardaşımız İran şahı İsmayıl Səfəvi üçün bir Tanrı olan (ata, oğul, müqəddəs ruh) aləmlərin qadir Allahından xoşbəxtlik və müvəffəqiyyət arzulayır.

Ey aliməqam padşah və ey sevimli qardaş, ötən il Livan dağının Maruni keşişlərindən olan Petros adlı bir şəxs sizdən bizə bir məktub gətirdi. O əzəmət sahibi ötən aprel ayında ittifaq yaradaq deyə müştərək düşmənimiz Osmanlı sultanı ilə döyüşə atılmağa bizi dəvət edirdi. Bədbəxtlikdən məktub, əlahəzrətin təyin etdiyi vaxtda hələ bizə gəlib çatmadığı üçün hər hansı bir qərar verə bilmədik. Habelə həmin məktubun, - padşahların məktublarında qeyd edildiyi kimi, - möhür və imzası olmadığı üçün çaşqınlıq içərisində qaldıq. Ümumiyyətlə, sizdən nə gizlədim ki, bir müddət məktuba və onu gətirənə etimad edib-etməməkdə tərəddüd içərisində qaldıq. Amma tərəflər arasında olan dostluq və rəğbəti nəzərə alıb xüsusi şövqlə qasidi və məktubu qəbul etdik. Cavabın gecikməsinin səbəbi hər gün yeni bir məktub göndərəcəyinizə ümid etməyimiz idi. Belə bir təhlükəli məsələdə təklifimizin müəyyənləşməsini gözlədik. Amma bu müddətdə heç bir xəbər gəlmədi. Hətta o həzrətə xətər toxunduğunu və bu dünyadan köçdüyünü eşitdik. Ümidvarıq ki, bu xəbərlər həqiqi deyildir. Hələ ki, bizim nigarançılığımız çoxdur, çünki Osmanlı sultanı ilə döyüşmək üçün qoşun toplamaq problem yarada bilər. Bununla yanaşı, bir neçə ay idi ki, möhkəm xəstələmişdim. Bundan əlavə, Fransa padşahı bizi döyüşə məcbur etdi. Bizimlə onun arasında baş verən ağır döyüşdə dəfələrlə məğlub oldu. Nəhayət, haradasa bütün qoşunu həlak olduqdan sonra özü bizim sərkərdələrimizə əsir düşdü. İndi Allahın yardımı ilə belə bir qələbə qazanmışıq. Həmişə xristian dünyasında sülh və asayiş tərəfdarı olmuşuq. Artıq ümidvaram ki, müştərək istək və meyl ilə Osmanlı türklərinə qarşı döyüşməkdən savayı bir iş qalmayıbdır. Bu məqsədlə yenə həmin qasidi bizim döyüş haqqında fikirlərimizi çatdırmaq üçün o əlahəzrətin yanına göndərdim. Siz də öz niyyətinizi tam etimad etdiyiniz şəxslər vasitəsilə bizə çatdırın. Bu işdə nə qədər cəld hərəkət etsəniz yaxşıdır. Çünki biz öz qüvvəmiz və siz əlahəzrətin qoşunu ilə həqiqətən həyasız və utanmaz olan bu düşmənlə döyüşməyə tamamilə hazırıq. Ümid edirəm ki, uca olan Allah zati-alinizə sağlıq, salamatlıq əta edib bütün istəklərinizi qəbul etsin" (215).

Bir daha qeyd edilməlidir ki, bu məktub yazılanda Şah İsmayıl artıq dünyasını dəyişmişdi. Bununla belə, həmin məktubun Səfəvi sarayına çatması

və ona hansı cavab verilməsi haqqında məlumat mövcud deyildir. Məlum olan odur ki, V Karl sonradan Şah İsmayılın adına bir də məktub göndərdi. Həmin məktubu göndərəndə də onun Şah İsmayılın dünyasını dəyişməsindən xəbəri yox idi. Bu məktubun sonrakı taleyi haqqında da mənbələrdə və elmi-tarixi ədəbiyyatda lazımi məlumat mövcud deyildir.

Çaldıran döyüşündən sonrakı dövrdə Avropanın öz daxilində kifayət qədər mürəkkəb hərbi-siyasi şərait yaranması Avropa dövlətlərinin daha sakit şəraitdə Şah İsmayıl ilə əlaqələr yaradılması imkanını aradan qadırdı. Bununla, Şah İsmayıl dövründə Avropa ölkələri ilə Səfəvi qoşunlarının odlu silahla lazımi səviyyədə təchiz edilməsinə zəmin yaradacaq səmərəli əlaqələri qurmaq mümkün olmadı.

## 4. İstifadə olunmuş mənbə və ədəbiyyat

1.Петрушевский И.П. Азербайджан в XV-XVII веках, с. 244/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298
2. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.78
3. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.22, 95, 211, 471, 512,
4. Yenə orda, s.2
5. Петрушевский И.П. Азербайджан в XV-XVII веках, с. 245
6. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s. 46
7. Kəsrəvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535, s. 4,36, 37
Xəlili N.Tarix-e Səfəviyye. Tehran, 1387, s.17
8. Xəlili N.Tarix-e Səfəviyye. Tehran, 1387, s.19-20
9. Мехтиев Р. Шах Исмаил Сефеви. Портрет правителя и воина. Баку, 2014, s. 66
Аббаслы М. К вопросу о происхождении Сефевидов. "Известия Академии Наук Азербайджанской ССР. Серия литературы, языка и искусства". 1973, N- 2,стр.36
10. Kəsrəvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535, s. 4
11. Мехтиев Р. Шах Исмаил Сефеви. Портрет правителя и воина. Баку, 2014, 71
Mehdiyev R. Şah İsmayıl ali məramlı tarixi şəxsiyyət kimi, "Azərbaycan" qəzeti, 05 dekabr 2012-ci il
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.88
Nəcəfli T. Səfəvilərin etnik mənsubiyyətinin mənşəyi müasir Türkiyə tarixşünaslığında. http://www.strategiya.az/chap.php?id=9600
Cəlaloğlu S. Azərbaycan tarixinə məzhəbçi baxış http://turaninfo/org/azrbaycan-tarixin-m'zhbci-baxis/html-0
12. İbn Bəzzaz Ərdəbili. Səffətül səfa. Təbriz, 1373, s.72
13. Yenə orada. Bax: Səhifənin aşağısındakı şərh
14. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s. 48

15. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 4
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.1-2
16. Faruq Sümər. Nəqş-e türkan-e Anatoli dər təşkil və tousəə-ye dövlət-e Səfəvi Tehran, 1371, s.5
17. Kəsrəvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535, s. 4
18. Tacbəxş Ə. Tarix-e Səfəviyyə". Şiraz 1372, s.11
Nəcəfli T. Səfəvilərin etnik mənsubiyyətinin mənşəyi müasir Türkiyə tarixşünaslığında. http://www.strategiya.az/chap.php?id=9600
19. Faruq Sümər. Nəqş-e türkan-e Anatoli dər təşkil və tousəə-ye dövlət-e Səfəvi Tehran, 1371, s.5
20. Şakir Keçeli Baba. Katletmediğimiz Şah İsmail Safevî Kalmıştı!.. www.refikengin.com/upload/files/.../744REHAÇAMUR.doc
21. Etnik kökən tartışmalarının sarmalındaki Şah İsmayıl.
22. Nader şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384, s. 201
23. Əlirza Əfşar Cem. Şiri ba şəmşir. Tehran, 1383, s.24
24. Astrabadi Mirzə Mehdixan. Tarix-e cahanqoşa-ye Naderi. Tehran, 1368, s. 36;
Бакиханов А.Гюлистани Ирам. Баку, 1991, с.137;
Локкарт Л. Надир шах. Баку, 2004, с. 23
25. Nəfisi S. Tarix-e ictimai və siyasi-ye İran dər doure-ye moaser. C.I, Tehran, 1376, s. 13-15
26. Бакиханов А.Гюлистани Ирам. Баку, 1991, с.172
27. Nəcmi Nasir. Abbas Mirzə. Tehran, 1374, s.13-15
28. Kızılbaşlar tarihi. İstanbu, 2015, s. 47,84, 91
29. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 121
30. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.51. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 23; Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.98
31. Mirzə bəy Xonabadi. "Rövzətüs Səfəviyyə", Tehran, 1378, s.94
32.Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 269
33. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.107
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 153
34. Fəlsəfi N. Şah Abbas-e əvvəl. I cild. Tehran, 1358, s.4
35. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 39-40
36. Yenə orada, s.40
37. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 54
38. Kəsrəvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535, s. 4
39. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 190-191
40. Yəhya Zəka Təbrizi. Çequnegi-ye rah yaftən zəban türki be Azərbaycan. http://www.iranboom.ir/iranshahr/tireh-ha/2125-chegonegi-rah-yaftan.html
Səfəviyan, təsbit konəndeqan-e zəban-e türkü dər Azərbaycan

http://daneshjooqom.4kia.ir/info/272727/i/?getppsid=25343
41. Ağasıoğlu F. İrəvan əhalisinin qədim əhalisi, s. 111/ Deportasiya. Bakı, 1998, s.110- 114
42. Петрушевский И.П. Азербайджан в XV-XVII веках, с. 245/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298
43. Fəlsəfi N. Şah Abbas-e əvvəl. I cild. Tehran, 1358, s.4-6
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 31-32
44. Hökumət-e Səfəviyan. http://hakhair.blogfa.com/post/17
45. Мехтиев Р. Шах Исмаил Сефеви. Портрет правителя и воина. Баку, 2014, 226
46. Yenə orada, s.228-232
47. Braun R. Nizam-e əyalət dər doure-ye Səfəviyyə. Tehran, 1349, s.2
48. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s.600
49. Əmir Hüseyn Xüncü. Tarix-e Şah İsmayıl Səfəvi (Ərməğan avəran təşəyyo). Elektrona variant
50. Tarix-e İran. Dövre-ye Səfəvi (Kembric tarixi). Tehran,1388, s.162
Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1375, s.174
Seyvori R. Neqahi be nezam-e idari-ye əyaləti dər əvayel-e hökumət-e Səfəvi, s.224/ Fəsilname-ye Fərhəng , 1375, N-19, s. 223-246
Minorski. Sazman-e edari -ye hökumət-e Səfəvi. Tehran, 1334, s. 39
51. Петрушевский И.П. Азербайджан в XV-XVII веках, с. 244/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298
52. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s.600
53. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 338
54. Valser S.Ş. İran əz didqah-e səfərnameha-ye Avropaiyan. Tehran, 1364, s. 27
55. Nəvidi d. Təğyirat-e İctimai-iqtisadi dər İran-e əsr-e Səfəvi. Tehran, 1386, s. 54
56. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 665-666
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 880
57. Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1375, s.180
Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı, 2015, s. 77
58. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.19
59. Veliyeva Zülfiye. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007, s. 154
60. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 127
61. Arimi M.İ. Tarix-e təməddon və fərhəng-e Səfəvi. S. 8-9
62. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 224
63. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.20
64. Yenə orada, s. 21-22
65. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 225
Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 106

Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı, 2015, s. 86
66. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 603-604
67. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 611-612
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.24
68. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 226
69. Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 108-109
70. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 128
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 614
71. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 614
Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 108
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 226
72. Minorski. Sazman-e edari -ye hökumət-e Səfəvi. Tehran, 1334, s. 81-83
73. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.43
74. Yenə orada, s. 63- 70
Minorski. Sazman-e edari -ye hökumət-e Səfəvi. Tehran, 1334, s. 98-99
75. Minorski. Sazman-e edari -ye hökumət-e Səfəvi. Tehran, 1334, s. 120
Veliyeva Zülfiye. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007, s. 203-204
76. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.75-76
77. Yenə orada, s. 78
78. Yenə orada, s. 97-101
79. Sadiqi Z. Tarix-e İran dər əsr-e Səfəvi. Tehran, 1392, s. 181
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.111-112
80. Sadiqi Z. Tarix-e İran dər əsr-e Səfəvi. Tehran, 1392, s. 181
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.112
81. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.606
82. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s. 117-124
83. Qodyani A. Tarix-e fərhəng və təməddon dər İran dər əsr-e Səfəviyye. Tehran, 1384, s. 127
84. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 660
85. Qodyani A. Tarix-e fərhəng və təməddon dər İran dər əsr-e Səfəviyye. Tehran, 1384, s. 128-132
86. Sadiqi Z. Tarix-e İran dər əsr-e Səfəvi. Tehran, 1392, s. 182
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.125
87. Ağacəri S.H. Müqəddəme-i bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s.62
88. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 25
Əhmədi N. Röya və siyasət dər əsr-e Səfəvi. Tehran, 1388, s. 19-20
89. Ağacəri S.H. Müqəddəme-i bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s.62

90. Tehrani Şəfəq Ə. Əmiran-e dərbar. Şərh-e hal-e xanədan-e sil-e sepur. Tehran, 1385, s.111
91. Ağacəri S.H. Müqəddəme-i bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s.79
92. Qodyani A. Tarix-e fərhəng və təməddon dər İran dər əsr-e Səfəviyye. Tehran, 1384, s. 124
93. Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 112
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 231
94. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 231
95.Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 117
96. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.27
97. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 231
Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 118
98. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 231
Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 118
99. Veliyeva Zülfiye. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007, s. 411
Qodyani A. Tarix-e fərhəng və təməddon dər İran dər əsr-e Səfəviyye. Tehran, 1384, s. 125
100.Minorski. Sazman-e edari -ye hökumət-e Səfəvi. Tehran, 1334, s. 49-50
101. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.37
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.47
102. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.24
103. Yenə orada, s. 25
104. Fəzlullah ibn Ruzbeh Xonci İsfahani. Aləmara-yi Əmini, s. 243
105. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.29
106. Minorski. Sazman-e edari -ye hökumət-e Səfəvi. Tehran, 1334, s. 50
107. Cahanbəxş Səvaqeb, Foruğ Bazgir. Nəqş-e şamlu-ha dər təsis və tədavom-e dövlət- e Səfəviyye. S.26/ Pejuheşha-ye tarixi. 1394, N-1, s. 19-48
108. Minorski. Sazman-e edari -ye hökumət-e Səfəvi. Tehran, 1334, s. 50
Cahanbəxş Səvaqeb, Foruğ Bazgir. Nəqş-e şamlu-ha dər təsis və tədavom-e dövlət- e Səfəviyye. S.26/ Pejuheşha-ye tarixi. 1394, N-1, s. 25
109. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s 77, 681
110. Sadiqi Z. Tarix-e İran dər əsr-e Səfəvi. Tehran, 1392, s. 190
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.165
111. Hümayun N.T. Təhəvolat-e qoşun dər tarix-e müasir-e İran. Cild I. Şekl gereftən-e niruha-ye nizami dər ağaz-e dövre-ye Qacariyye. Tehran, 1376, s. 15
112. Braun R. Nizam-e əyalət dər doure-ye Səfəviyyə. Tehran, 1349, s. 71-72
113. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s 66
114. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 318
115. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.176
116.Yenə orada, s. 177

117. Петрушевский И.П. Государства Азербайджана в XV в./ Сборник статей по истории Азербайджана. Баку, 1949, с. 200
118. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.177
119. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 75
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 238
120. Erdoğan E. Safevi ordusunda bir birlik - kurçiler/Ankara universitesi Dil ve Tarih- Coğrafiya Fakultesi Dergisi. N.2, 2015, s. 77
121. Erdoğan E. Safevi ordusunda bir birlik - kurçiler/Ankara universitesi Dil ve Tarih- Coğrafiya Fakultesi Dergisi. N.2, 2015, s. 76-77
Braun R. Nizam-e əyalət dər doure-ye Səfəviyyə. Tehran, 1349, s. 74-75
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.183-184
122. Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 114
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.185
123. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.187
124. Yenə orada, s.192
125. Yenə orada, s.195-196
126. Yenə orada, s. 38
127. İlhan Erdem. Akkoyunlu və Karakoyunlu ordularına genel bir bakış, Elektron variant, s.62
128. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.146
129. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 131
130. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 76
131. Yenə orada, s. 333
132. Yenə orada, s. 451
133. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 330
134. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.146
135. Bax: Abbaslı M. Şah İsmayıl Xətayinin ömür yolu miniatürlərdə. Bakı, 1981, s.36-37
136. Bəyani X. Tarix-e nizami-ye İran. Tehran, 1353, s. 57
137. Abbaslı M. Şah İsmayıl Xətayinin ömür yolu miniatürlərdə. Bakı, 1981, s.59
Onullahi S. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi oçerk), Bakı, 1982, s.105
138. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 64
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 334
139. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 71, 73, 75, 76
140. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.216
Mirzə bəy Xonabadi. "Rövzətüs Səfəviyyə", Tehran, 1378, s. 304
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 138
Onullahi S. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi oçerk), Bakı, 1982, s.105

Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 334
141. Mirzə bəy Xonabadi. "Rövzətüs Səfəviyyə", Tehran, 1378, s. 202
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 76
142. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 358, 421
143. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 197-198
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 340-341
144. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.229
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 341
145. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 229
146. Yenə orada, s. 228
147. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 186
Хусейништрази С. Военно-политические отношения Мавераннехра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, (электрон. вариант), с.53
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 226
147a. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 127
148. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.128
149. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 228
150. Mirzə bəy Xonabdi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.126
Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib üs-siyər, IV cild, səh. 455
151. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 231
152. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 100
153. Yenə orada, s. 101
154. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.127
155. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.69
156. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s.148
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.117-118
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.45
157. Əmir Sədrəddin İbrahim Əmini Herəvi. Fotuhat-e şahi. Tehran, 1383, s.131-132
158. Aləm Ara-ye Şah İsmayıl. Tehran, 1384, s. 101, 228
159. Yenə orada, s.351
160. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 234
161. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 78, 162
162. Abbaslı M. Şah İsmayıl Xətayinin ömür yolu miniatürlərdə. Bakı, 1981, s.36
163. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 162, 365, 391
164. Yenə orada, s. 227
165. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.26

Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 30
Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 52
166. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.44
167. Yenə orada, s.80
168. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlərin toplusu. Bakı, 2014, s. 47-48
169. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 291-292
170. Səfakeş Ə. Səfəviyan dər qözərqah-e tarix. Tehran, 1390, s.
171. Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.197
Sadeqi Z. Tarix-e İran dər əsr-e Səfəvi. Tehran, 1391, s. 133
172.Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.200
173. Yenə orada, s. 201
174. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 278
175. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 579-581
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.599-603
176. Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.201
177. Yenə orada, s. 222-224
178. Tarix-e İran. Doure-ye Səfəviyan (Kembric Universitetinin araşdırması). Tehran, 1380, 182
179. Yenə orada, s. 183
180. Махмудов Я. Взаимоотношения государств Аккойунлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991, с.85
181. Махмудов Я. Взаимоотношения государств Аккойунлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991, с. 89-90
Rəmzi Kılıc. Fatih devri (1451-1481) Osmanlı-Akkoyunlu ilişkileri. Sosial Bilimlər Enstitüsü dergisi. 2003, N-1, s.105
182. Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, s. 222
183. Махмудов Я. Взаимоотношения государств Аккойунлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991, с.122
184. Yenə orada, s. 125
185. Yenə orada, s. 131
186. Yenə orada, s.131
187. Yenə orada, s. 133
188. Yenə orada, s. 134-135
189. Yenə orada, s. 136-137
190. Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, s. 224
191. Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 645

Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, s. 224
192. Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 645-646
Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, s. 225
Махмудов Я. Взаимоотношения государств Аккойунлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991, c. 137
193. Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.294-295
Valser S.Ş. İran əz didqah-e səfərnameha-ye Avropaiyan. Tehran, 1364, s. 80
Tacbəxş Ə. İran dər zaman-e Səfəviyye. Tehran, 1340, s.84
Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 648
194. Махмудов Я. Взаимоотношения государств Аккойунлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991, c. 138
195. Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 649
Tarix-e İran. Doure-ye Səfəviyan (Kembric Universitetinin araşdırması). Tehran, 1380, 188
196. Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 650
Tarix-e İran. Doure-ye Səfəviyan (Kembric Universitetinin araşdırması). Tehran, 1380, 188
Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, s. 235
197. Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.297
198. Yenə orada, s. 297-298
199. Valser S.Ş. İran əz didqah-e səfərnameha-ye Avropaiyan. Tehran, 1364, s. 82
Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.299
200. Valser S.Ş. İran əz didqah-e səfərnameha-ye Avropaiyan. Tehran, 1364, s. 82
Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.299-300
201. Mehdəvi Ə.H. Tarix-e rəvabet-e xareci-ye İran əz ebteda-ye dövran-e Səfəviyye ta payan-e cəng-e dovvom-e cahani. Tehran, 1369, s. 22
202. Mehdəvi Ə.H. Tarix-e rəvabet-e xareci-ye İran əz ebteda-ye dövran-e Səfəviyye ta payan-e cəng-e dovvom-e cahani. Tehran, 1369, s. 22
Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.300
203. Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 650
Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, s. 238

204. Махмудов Я. Взаимоотношения государств Аккойунлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991, с.149
205. Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 650
Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, s. 238
206. Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, s. 239
207. Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 651
Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998, s. 239
208. Махмудов Я. Взаимоотношения государств Аккойунлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991, с.149
209. Yenə orada
210. Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.303
211. Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.304
Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 651
212. Bərazeş Ə. Rəvabet-e siyasi – diplomatik-e İran dər əhd-e Səfəviyye. Tehran, 1392, s.305
Parsadust M. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 652
213. Махмудов Я. Взаимоотношения государств Аккойунлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991, с.151
214. Şah İsmayıl Səfəvi. Tarixi-diplomtik sənədlər toplusu. Bakı, 2014, s. 160-161
215. Yenə orada, s. 161-162

# VII FƏSİL

# ŞAH İSMAYIL TARİXİN SINAĞINDA

## 1.Şah İsmayıl şəxsiyyətinə fərqli baxışlar

Şah İsmayılın həyatınn və xidmət yolunun öyrənilmsinə hələ onun hakimiyyəti dövründə başlanmışdı. Böyük bir imperiyanın yaradıcısı, şərqin, islam aləminin və bütünlükdə, dünyanın tarixində silzinməz izlər buraxmış Səfəvilər şah nəsilinin banisi kimi Şah İsmayıl təxminən beş əsrdir ki, ən müxtəlif salnamələrin, tədqiqatların, araşdırmaların, elmi və bədii əsərlərin mövzusu olmuş və bu gün də olmaqdadır. Çünki Şah İsmayıl geniş fəaliyyət meydadına qədəm qoymaqla bölgənin hərbi, siyasi, dini tarixində tamamilə yeni bir səhifənin başlanğıcını qoydu. Onun dühasının yaratdığı tarixin ümumi mənzərəsinin işıqlandırılması, mahiyyətinin dərk edilməsi yalnız elm və bilik adamları üçün deyil elə xalq kütlələrinin özü üçün də hər zaman maraq kəsb etmişdir. Şah İsmayılın adına dastanlar qoşulması, onun haqqında çoxlu sayda xalq yaradıcılıq nümunələrinin meydana gəlməsi, həyat yolu ilə bağlı çoxlu sayda məxəzlər yaradılması da həmin maraqdan irəli gəlmişdir.

Şah İsmayılın 12-13 yaşlarında ətrafına toplanmış bir neçə məsləkdaşı ilə sonda Səfəvi dövlətinin yaradılmasına gətirib çıxarmış böyük siyasi, hərbi və dini hərəkata başlaması dünya tarixində nadir hadisə idi və elə bu gün də nadir hadisə olaraq qalmaqdadır. Konkret tarixi şəraitin sərt sınaqları qarşısında belə böyük bir hərəkatın başlanması, onun təşkilatlandırılması və bölgənin siyasi və tarixi mənzərəsində köklü dəyişikllər yaradan bir prosesə çevrilməsi Şah İsmayılın şəxsiyyətinin böyüklüyünü nümayiş etdirən bir hadisə idi. O, çox böyük sayda insanları öz ətrafında səfərbər edərək təxminən iki əsr yarım mövcud olmuş böyük bir dövlətin əsasını qoydu, yeni bir dövlətçilik təfəkkürü formalaşdırdı. Şah İsmayılın həyatı və fəaliyyət dövrü hərb işinin və hərb məharətinin tarixində də yeni bir dövrün başlanğıcıdır. O, qısa müddət ərzində yalnız güclü, yekdil, intizamlı və sədaqətli bir qoşun yaratmadı, həm də öz qəhrəmanlığı, şücaəti ilə bu qoşunun simvoluna çevrildi. Fiziki gücün hərb məharətinə çevrilməsi sahəsində də Şah İsmayıl dünya hərb tarixinin nadir nümunələrindən biridir və onun bu məharəti elə indinin özündə də heyrət və təəccüb doğurmaqda davam edir. Hələ gənc yaşlarında əldə etdiyi əzəmətli hərbi uğurları ilə Şah İsmayıl dünya fatehləri arasında ən yüksəkdə dayanan bənzərsiz cahangirlərdən biridir.

Şah İsmayıl dünyanın tək-tək şəxsiyyətlərindəndir ki, siyasi hakimiyyətlə ədəbi yaradıcılığı ən yüksək sənətkarlıq səviyyəsində əlaqələndirə bilmişdi. O, həm Azərbaycan dövlətçiliyinin, həm də Azərbaycan dilinin, mədəniyyətinin, ədəbiyyatının inkişafında heç zaman tarixi əhəmiyyətini itirməyəcək bir mirasa

malikdir. Bu qiymətli irsin öyrənilməsi sahəsində istər Azərbaycanda, istərsə Şah İsmayılın tarixini bölüşən bölgə ölkələrində, istərsə də dünya miqyasında çox dəyərli işlər görülsə də bu mirasa diqqət bu gün də qalmaqdadır. Çünki Şah İsmayıl irsinə yeni yanaşma bu tarixi şəxsiyyətin həyat və fəaliyyətinin daha əhatəli araşdırılmasına, Şah İsmayıl şəxsiyyətinin yeni-yeni məqamlarnın açılıb ortaya qoyulmasına zəmin yaradır.

Şah İsmayılın qəzəllərinin birində özü haqqında yazdığı belə bir beyt vardır:

Mənim tək gövhəri, nadan nə bilsin
Məni bilməgə danalər (biliklilər – M.S.) gərəkdir (1).

Şah İsmayıl bununla ona işarə edirdi ki, onun zəngin fəaliyyətinin mahiyyətinə varmaq, ondan düzgün və müfəssəl nəticə çıxarmaq elə də asan deyildir. Əslində, tarix də bunu sübut edir. Neçə əsrdir ki, Şah İsmayılın həyat yolu öyrənilir, bu həyatın gizlinlərinə nüfuz edilməsinə cəhd göstərilir. Bununla belə, yenə də bir-birindən fərqli olan müxtəlif nəticələr və elmi-tarixi qənaətlər ortaya qoyulur. Çünki Şah İsmayılın həyat və fəaliyyətin müraciət edən müəlliflərin hər birinin öz bilik və təfəkkür səviyyəsi var, onların hər biri öz qarşısına fərqli məqsədlər qoyurlar, hər birinin dünyabaxışı, həyat mövqeyi, dini-milli mənsubiyyəti, əqidəsi, dəyərləri, məlumatlılıq səviyyəsi eyni deyildir. Bu da müəyyən hallarda hətta obyektivlikdən və reallıqdan kənar olan qənaətlərə də yol açır, Şah İsmayılın həyat və fəaliyyəti haqqında təhrif olunmuş bir mənzərə yaradır.

Son onilliklərdə Şah İsmayılın həyat və fəaliyyətinin öyrənilməsində belə bir meylin müəyyən qədər qabarıqlaşdığını da müşahidə etmək mümkündür. Belə bir təsəvvür yaranır ki, müəyyən bir konsepsiya daxilində Şah İsmayılın tarixi xidmətlərinin ört-basdır edilməsi, onun nüfuzdan salınması bir cərəyan kimi formalaşmaqdadır. Həmin konsepsiyanın ayrı-ayrı elementlərinin gözdən keçirilməsi, irəli sürülən iddiaların araşdırılması isə onu deməyə əsas verir ki, bu konsepsiyanın ardıcıllarının qarşılarına qoyduqları məqsədlərdən biri heç şübhəsiz ki, Şah İsmayılın Azərbaycan həyatından qoparılması, Şah İsmayıl hərəkatının mahiyyətinin təhrif edilməsidir.

### a) Şah İsmayıl hərəkatının mahiyyətinin təhrif edilməsi cəhdləri

Şah İsmayıl hərəkatının dini-ideoloji əsaslarının dərin kökləri vardı. Məlumdur ki, bu hərəkatın dini kökləri Şah İsmayılın ulu əcdadı Şeyx Səfiəddinə gedib çıxırdı. Hələ Şeyx Səfiəddinin sağlığında onun əsasını qoyduğu Səfəvi təriqəti çox geniş coğrafiyaya yayılmaqla, ümumən islam tarixinin ən kütləvi hərəkatlarından birinə çevrildi. Dərin etiqad və davamlı ibadət bu təriqətin ayrılmaz tərəflərindən idi və Şeyx Səfiəddin də əsasən elə bu keyfiyyətləri ilə ona müridliyə hazır olan insanlar arasında hörmət və ehtiram qazanmışdı.

Şeyx Səfiəddin təmənnasız bir ömür sürməklə bütün həyatını yaradana ibadətdə keçirmişdi. Onun çoxsaylı müridləri də bu yolu özlərinin həyat yolu seçərək mürşidləri ətrafında toplanmışdılar. Şeyx Səfiəddin tək olan Allahın öz peyğəmbəri vasitəsilə insanlara göndərdiyi dəyərlərin düzgün başa düşülməsi üçün seçdiyi və təlim etdiyi yolu daha doğru və daha anlaşıqlı bir yol hesab edirdi. Bu yol ibadət və etiqad yolunda qərar tutmaq istəyən çoxlu sayda insanın mənəvi tələbatı ilə səsləşdiyi üçün insanlar tərəfindən də kütləvi surətdə qəbul edilirdi. Ona görə idi ki, Şeyx Səfiəddinin müridlərinin sayı günü-gündən təsəvvür edilməz dərəcədə artırdı.

Şah İsmayıl hərəkatının mahiyyətinin təhrif edilməsi üçün bəzi tədqiqatçılar Səfəvi təriqəti haqqında da reallıqdan kənar olan fikirlər ortaya qoymağa çalışırlar və belə bir təsəvvür yaradılmasına cəhd göstərirlər ki, Səfəvi xanəgahının yaradılmasında əsas məqsədlərdən biri var-dövlət toplanması, Səfəvi şeyxlərinin zənginləşmək arzuları olmuşdur. Amma bunun əksini qəbul edən fikirlər elmi-tarixi ədəbiyyatda daha çoxdur və buna nümunə kimi tədqiqatçılardan birinin aşağıdakı fikirlərini göstərmək olar: "O əsrin təsəvvüfünün müxtəlif təriqətləri arasında Səfəvi təriqətindən daha bəyənilmişi və tələblərə cavab verəni yox idi. O xanəgahdan daha əzəmətlisi və o xanəgahın mürşidindən daha kamili və şeyxlərindən daha məşhuru və sevimlisi yox idi. Monqol padşahları, əksər monqollar və yeni müsəlman olmuş türklər Səfəviyyəyə münasibətdə ehtiram göstərirdilər. Qətiyyətlə hər kəs həmin xanəgahın ardıcıllarının sırasında yer tutur və onlara məxsus xüsusi libasları geyinirdilər. Bununla onlar dövlət məmurlarının zülm və sitəmindən nicat tapırdılar. İnsanların Səfəvi şeyxlərinə diqqətləri günü-gündən artdı. Məsələn, məlumdur ki, bəzi günlər minlərlə kişi və qadın bu xanəgaha baş vururdular. Şeyx Səfiədinin Gərmruda və həmçinin Urmiyə vilayətinə gəlişini hekayət edərkən «Səfvətüs-səfa» yazırdı ki, dağlarda və səhralarda insanlar o qədər toplaşmışdılar ki, Şeyx məcbur oldu ki, evlərdən birinin damına çıxsın. Dövlət qoşununun əmir və sərkərdələrindən bir qrupu çalışırdı ki, insanların hücumunun qarşısını alısınlar. Amma müvəffəq olmurdular. Axırda damın üstündə kəndirlərdən istifadə etdilər. Kəndirin bir ucunu Şeyx və onunla birlikdə dam üstündə olan yaxınları əllərinə aldılar, bir ucunu isə aşağı atdılar. Adamlar əllərini ondan tutdular. Sonra da kəndirin ucuna başqalarını bağladılar. Belə ki, hər kəndir dəstindən 2-3 min nəfər tuta bilirdi. Bu yolla adamlar Şeyxə beyət etdilər, tövbə və təlqinə vardılar. Şeyx tövbə kəlməsini oxuyanda insan seli arasında cərgə-cərgə düzülmüş xəlifələr həmin kəlmələri təkrar edirdilər ki, insanlar da onları dilə gətirə bilsinlər.

Şeyxin şöhrəti və nüfuzu ətrafda o qədər yayılmışdı ki, həcc səfərinin yerinə yetirilməsi üçün Hicaza səfər edərkən Bağdada yaxınlaşanda o şəhərin bütün əhalisi onun istiqbalına yollandı. Ona görə aydındır ki, Şeyx dünyasını dəyişəndə Azərbaycan və Qafqaz əhalisinin əksəriyyəti Şeyxə etiqad edirdi. Ərdəbil vilayətinin əhalisi barəsində isə demək olar ki, onlardan ən azı 90 faizi özlərini Şeyxə həsr etmişdilər. Bundan əlavə, Bağdad, Suriya, Fələstin, Şərqi Türküstan müsəlmanları arasında da dəstə-dəstə insanlar özlərini Səfəvi sufuləri

hesab etməklə özlərinin xəlifə və xanəgahları var idi. Şeyx Səfiəddindən sonra onun xanəgahının nüfuzu daha da artdı. Belə ki, hər gün yaxın və uzaqlardan minlərlə mürid ziyarətə gəlir, xanəgaha daxil olur, neçə minlərlə adam isə rüxsət alaraq geri dönürdülər" (2).

Təriqətlərin və xanəgahların meydana gəlməsi islam tarixinin mühüm səhifələrindən birini təşkil edir və şübhə yoxdur ki, təriqətlərin də, xanəgahların da meydana gəlməsi ilk növbədə insanların inancları ilə bağlıdır. Səfəvi təriqətinin həyata vəsiqə almasının və onun islam aləminin ən yayılmış təriqətlərindən birinə çevrilməsinin də əsas səbəblərindən biri heç şübhəsiz ki, insanların inancları idi. Bunun qarşılığında Səfəvi təriqətinə işarə etməklə, təriqətlərin meydana gəlməsini İran və Anadoluda yaşayan zirək yarımmollaların türklərin inanclarından sui-istifadə etməklə türk hakimlərinə yaxınlaşmaq və bununla özlərinə çörək qazanmaq niyyətləri ilə əlaqələndirilməsini yəqin ki, təriqətlər haqqında, o cümlədən Səfəvi təriqəti haqqında obyektiv yanaşma kimi qəbul etmək mümkün deyildir. Bu iddianı irəli sürən müəllif sonra bəyan edirdi ki, hicrətin beşinci əsrində Qərbi Çindən və Orta Asiyadan İrana axışıb gələn türklər totemlərə inandıqlarından və qəbilə cadugərlərini müqəddəsləşdirdiklərindən islamı qəbul edəndən sonra da əvvəlki inanclarından əl çəkmədilər. Ona görə də onlar özlərinin müqəddəs olduğunu iddia edən müsəlmanları müqəddəs totem kimi qəbul edərək onların qəbri üzərində künbəzlər ucaltdlar (3).

Elmi-tarixi ədəbiyaytda dövriyyəyə çıxarılan başqa bir fikrə görə isə, Səfəvi təriqətinin genişlənməsi, onun ətrafına çoxlu sayda müridlər toplanması təriqəə aid olan zahiri əlamətlərlə şərtlənirdi. İddia edilir ki, o zamanın ənənələrinə görə, şeyxin qəbri üzərində ucaldılmış künbəz nə qədər möhtəşəm olardısa bu şeyxin təriqətinə meylli olan insanların sayı da o qədər çox olardı. Bunun nəticəsi idi ki, Şeyx Səfiəddinin qəbri üzərində möhtəşəm bir künbəz ucaldılmışdı. Belə künbəzlərin mövcudluğu həm də gəlir mənbəyi kimi təsəvvür edilirdi və güman edilirdi ki, möhtəşəmliyi ilə seçilən xanəgahlara nəzir və niyazlar da çox gətirilirdi (4). Məntiqi olaraq Səfəvi təriqətinin vaxt ötdükcə daha geniş coğrafiyaya yayılması, özünə çoxlu sayda tərəfdar tapması da Şeyx Səfi türbəsinin zahiri tərəfləri, onun möhtəşəmliyi ilə bağlanılırdı. Yəni bununla, Səfəvi təriqətinin dini-ictimai məzmunu da şübhə altına alınırdı.

Bu fikirlər isə öz növbəsində Şah İsmayıl hərəkatının ictimai və ideoloji bazası haqqında mənbələrdə ortaya qoyulan fikirlərin ziddinədir. Şeyx Səfiəddinin dünyasını dəyişməsindən Şah İsmayıl hərəkatının başlamasına kimi 165 illik bir fasilə vardır. Bu müddət ərzində Səfəvi təriqət dəyərləri nəinki zəifləməmiş, əksinə öz canlılığını qoruyub saxlamış, Sultan Cüneydin dövründə siyasi məzmunla çulğaşaraq Şah İsmayıl hərəkatının dini-ideoloji bazasına çevrilmişdi. Minlərlə insan tərəfindən Səfəvi təriqət yolunun seçilməsini yalnız Şeyx Səfi türbəsinin möhtəşəmliyi ilə əlaqələndirilməsi bir tərəfdən Şeyx Səfiəddinin hələ sağlığında ikən minlərlə insanın inandığı kəramət sahibinə çevrilməsinin diqqətdən kənarda qoyulması, bir tərəfdən də Səfəvi təriqət dəyərlərinin nəzərə alınmaması olardı. Şeyx Səfi türbəsindən xeyli uzaqlarda yaşayan insanların

Şeyx Səfi türbəsinin möhtəşəmliyini gördükdən sonra təriqət yolunu tutmasını güman etmək də yəqin ki inandırıcı olmazdı. Şah İsmayıl hərəkatının tədqiqi də onu göstərir ki, bu hərəkata qoşulanların əqidəsini onların Şeys Səfi türbəsinin möhtəşəmliyinə olan heyrətləri yox, mürşidi-kamilə olan dərin etiqadları, Səfəvi təriqət dəyərlərinə olan dərin inancları təşkil edirdi.

Ona görə Şah İsmayıl hərəkatının Səfəvi təriqət hərəkatından qoparılması və bu hərəkatın fərdi ehtiraslardan doğan iddialara bağlanması da bu hərəkatın mahiyyətinin təhrif edilməsi kimi qəbul edilə bilər. Müəlliflərdən biri Şah İsmayılı (İsmayıl Mirzəni) təhlükəli təqiblərdən xilas etmək üçün Lahicana müşayiət edən sufi xəlifələrinin adlarını sadaladıqdan sonra Səfəvi dövlətinin qurulmasında böyük xidmətləri olmuş həmin qızılbaş xəlifələri haqqında belə yazırdı: "Ümumən bunlar Anadolu içərilərindəki tatarlardan idilər. Onların ailələri və qəbilələri heç vaxt İranın içərilərində və ya sərhədləri yaxınlığında yaşamamışdılar. Təbii idi ki, onlar İran dilinə və mədəniyyətinə tamamilə bələd deyildilər. Onlar öz etnik mənsubiyyətinə görə bir dəstə halında idilər və İran haqqında tənha istəkləri o idi ki, bu ölkə varlıdır və gərək onun tarac edilməsi üçün yol tapılsın. ...Onlar Lahicanda yerləşdikdən sonra davamlı olaraq Andoludakı xəlifələri ilə əlaqədə idilər, hələ uşaqlıqdan Şah İsmayıl adlandırdıqları İsmayıla rəhbərlik üçün işlər görür və təbliğat aparırdılar. Elə o zamandan onlar İsmayıl ailəsinin düşmənlərindən qisas almaq məqsədilə hakimiyyətin ələ keçirilməsi üçün zəmin hazırlayırdılar. Onlar gələcək qiyama rəhbərlik etmək üçün İsmayılı əqidə, siyasi və hətta hərbi baxımdan tərbiyələndirib hazırlaşdırdılar. İsmayıla savad öyrətmək üçün Molla Şəms adlı bir məktəb mollasını kirayəyə götürdülər" (6).

Çox oxşar olan bu fikirlərə Şah İsmayıla həsr edilmiş başqa bir əsərdə də rastlaşmaq mümkündür. Məsələn, həmin əsərdə Şah İsmayılın (İsmayıl Mirzənin) Lahican həyatı ilə bağlı deyilir: " İsmayılı yetişdirən yeddi xəlifənin adı "ixtisas əhli" idi. Anadoluda Şah İsmayıl üçün müridlər toplama işlərini sürdürməkdəydilər. İsmayılı gələcəyin hərbi, fikri və siyasi öndəri kimi hazırlamaqdaydılar. İsmayılın təhsili üçün Molla Şəms adında bir öyrətmən tapdılar" (7).

Bu parçalarda ziddiyyət təşkil edən və sual doğuran fikirlər xeyli çoxdur. Birinci istinadda əsas diqqət Şah İsmayılın türk-Azərbaycan həyatından qoparılması təşkil edir. Müəllif yuxarıda istinad olunan fikirlərində türk tayfalarının hicrətin beşinci əsrindən (?) başlayaraq İran ərazisinə axışmasını iddia edirsə, sonrakı fikrində türk tayfalarının hətta Şah İsmayıl hərəkatının başlandığı dövrə qədər İran daxilində və yaxınlığında yaşamadığını iddia edir. Əgər İran (müəllif Azərbaycanı da İranın tərkib hissəsi kimi təqdim edir) daxilində türklər yox idisə, onda Şah İsmayılın cəddini təşkil edən şeyxlər kim idilər? Ərdəbildə və bütünlükdə Azərbaycanda türk dilində danışan, ədəbi əsərlər yaradan insanlar kim idi? Doğrudur, bəzi müəlliflər qədim Azərbaycan dilini türk dili hesab etmirlər. Bu fikrin müzakirəsini açmadan, elə XIII əsrdən (Şeyx Səfidəddinin dövründən) Azərbaycan dilində danışanların türk kimi qəbul edilməməsinin

haqlı suallar doğurması təbii sayılmalıdır. Hər iki müəllif Şah İsmayılın fəaliyyət meydanına qədəm qoymasını hakimiyyət və var-dövlət ehtiraslı qızılbaş xəlifələrinin məqsədyönlü şəkildə apardıqları işlərin nəticəsi kimi ortaya qoyurlar. Əgər bu fikrin doğruluğu qəbul edilsə, onda Şah İsmayıl hərəkatının Sultan Cüneyd hərəkatına, Sultan Heydər hərəkatına bağlılığı gərək inkar olunsun. Çünki Cüneyd və Heydər hərəkatlarının təşəbbüskarı qızılbaş xəlifələri deyildi. Əksinə, qızılbaş xəlifələrini meydana çəkən Sultan Cüneyd və Sultan Heydər idilər. Əgər Sultan Cüneyd və Sultan Heydər olmasaydı yəqin ki, heç qızılbaş hərəkatı yaranmazdı. Şah İsmayılı mühafizə edən, qoruyan və Gilanda onunla birlikdə olan qızılbaş xəlifələrinin, qeyd edildiyi kimi, Səfəvi dövlətinin qurulmasında böyük xidmətləri vardır. Lakin Şah İsmayılın bu xəlifələrin təsiri altında olması barəsində və ya onların iradəsini əsas götürməsi barəsində mənbə məlumatları ilə rastlaşmaq mümkün deyildir. İstinad olunan müəlliflər də yəqin ki, müraciət etdikləri mənbələrdə belə bir fikrin mövcudluğuna israr etməzlər. Mənbələrdə olan fikirlər belə bir qənaəti ortaya qoyurlar ki, Şah İsmayıl müqəddəslərin iradəsini həyata keçirirdi, çətinliklə rastlaşanda müqəddəslərin iradəsindən xəbər tutmağa çalışırdı və ətrafında olan xəlifələrini də həmin müqəddəslərin iradəsini icra etməyə sövq edirdi. Mənbə məlumatlarına görə, xəlifələr də şübhə etmirdilər ki, Şah İsmayıl müqəddəslərin iradəsini həyata keçirir və Şah İsmayıl müqəddəslərlə xəlifələr, müridlər arasında əlaqələndirici bənddir. Şah İsmayılın bəzi döyüşlərdən əvvəl xəlifələrinin, əmir və əyanlarının müşavirəsini keçirməsi məlumdur. Amma o da məlumdur ki, belə müşavirələrdə Şah İsmayılın iradəsi həlledici idi. Şah İsmayıl müridlərinin təsiri altında deyildi. Əksinə, müridləri onun təsiri altında idi və Şah İsmayılın ətrafında, xidmətində olan bütün xəlifələr, müridlər üçün o dərin etiqad göstərilən mürşidi-kamil idi. Xəlifələr və müridlər onun mürşidi-kamil olmasını şüurlu şəkildə qəbul etmişdilər və şüurlu şəkildə də ona əməl edirdilər. Xəlifələr və müridlər ona da şübhə etmirdilər ki, hələ Şeyx Səfiəddin dövründən Səfəvi xanəgahına lütf olunmuş kəramət Şah İsmayılın şəxsində də öz mövcudluğunu davam etdirirdi. Ona görə müridləri və xəlifələri Şah İsmayıla həm də bir kəramət sahibi kimi bağlanmışdılar. Şah İsmayıl (İsmayıl Mirzə) sözsüz ki, böyük qardaşının, atasının, babasının şəhidliyini ürək yanğısı ilə qarşılayırdı. Amma onu öz hərəkatına başlamağa sövq edən səbəbin yalnız öz əcdadlarının qısasını almaq olmasını iddia etmək də Şah İsmayıl hərəkatına birtərəfli qiymət verilməsi demək olardı. Şah İsmayıl daha böyük məqsədlər uğrunda mübarizə meydanına atılmışdı. “Aləmara-yi Şah İsmayıl” əsərinə görə o özü başladığı hərəkatın məqsədini belə açıqlayırdı: “Biz hümayun, əcdad və ata qanından keçmişik. Mən səltənət və padşahlıq iddiasında deyiləm. İstəyirəm ki, canımda can olduqca əba və əcdadların, həzrət məsumların dininə rəvac verəm, Allah, onun rəsulu və müqəddəs din yolunda qılınc çalacağam ki, haqq öz yerini tapsın” (8).

Bu sətirlər belə qənaətə gəlməyə imkan verir ki, Şah İsmayıl ədalətli və firavan dövlətin qurulmasını din yolunda qılınc çalmaqda görürdü. Onun

tərəfindən əsası qoyulan Səfəvi dövlətində dinin təsirini görməmək mümkün deyildir. Amma Şah İsmayıl dövlətində ənənəvi dünyəvi elementlər, həmçinin türklük də çox güclü idi. Şah İsmayılı Gilanda müşayiət edən xəlifələr də bu dövlətdə yüksək vəzifələr əldə etmişdilər. Lakin tapşırılan vəzifələrin öhdəsindən gəlmədikdə Şah İsmayıl onları öz vəzifələrindən azad edirdi və heç də onları nəzarətsiz buraxmamışdı. Yəni, Şah İsmayılın (İsmayıl Mirzənin) Gilanda mühacirətdə olduğu zaman xəlifələr tərəfindən idarə olunması, onun xəlifələrin hakimiyyət iddialarının həyata keçirilməsi haqqında hazırlaşdırılması məntiqdən kənardır və mövcud mənbələrlə də bu iddianı qətiyyətli şəkildə əsaslandırmaq yəqin ki, mümkün deyil. Şah İsmayıl hərəkatı Şah İsmayıl fenomeninin möcüzəsi, əcdadlarından miras qalmış arzuların gerçəkləşdirilməsi yolunda Şah İsmayıl istedadı ilə yeni həyat sorağında olan insanların ümidlərinin əməli təcəssümü idi.

Yuxarıda istinad olunan cümlələrdə müəllif Anadoluda məskunlaşmış türkləri tatarlar kimi təqdim edir. Müəllifin bu iddiasının heç bir elmi-tarixi əsası yoxdur. Onun bu yanaşmasını qərəzçilik kimi də dəyərləndirmək mümkündür. Qərəzçiliyin əsas tutulduğu bir tədqiqatdan isə düzgün elmi nəticələr gözləmək əbəsdir.

Belə bir fikrə diqqət yetirin: "İsmayıl Gilanda olduğunda Şəmsəddin Lahicidən ərəbcə və farsca öyrənir. Lahici İsmayıla, yalnızca din dərsləri, farsca və ərəbcə öyrətməmiş, dövlət qurallarını da öyrətmişdir. Bu öyrətimdən amacı nə olmuşdur? Bir çocuğu nədən dövlət adamı kimi eyitmək gərəkdi? Ismayıl taxta çıxdıqdan sonra Şəmsəddin Lahici imperatorluğun din işlərindən sorumlu şəxs və başbaxan olur. Şah İsmayıl iqtidara gəldikdən sonra Şəmsəddin Lahicini başbaxanlıq görəvinə gətirir" (9).

Müəllifi Güntay Gəncalp olan bu cümlələrdə müşahidə olunan açıq istehza da, əslində, Şah İsmayıl hərəkatının təhrif edilməsinə yol açır. Məlumdur ki, Şah İsmayıl (İsmayıl Mirzə) 7 yaşında ikən Gilana mühacirət edəndə fars və ərəb dillərini hələ bilmirdi. Yəni o öz ana dilində olan Azərbaycan türkcəsində danışırdı. Gilana gəldikdən sonra o, Şəmsəddin Lahicinin müəllimliyi ilə fars və ərəb dilini öyrənməyə başladı. Şəmsəddin Lahici din xadimi idi və Şah İsmayıl da ondan fars və ərəb dilindən başqa dini bilikləri öyrənə bilərdi. Bu din alimi heç zaman dövlət işində və ya idarəçilik işlərində çalışmamışdı. Hazırda elmi dövriyyədə olan mənbələrdə bununla bağlı hər hansı bir məlumata da rast gəlmək mümkün deyildir. Ona görə onun tərəfindən Şah İsmayıla "dövlət qurallarının" öyrədilməsinin iddia edilməsinin elmi-tarixi əsası yoxdur. Əslində, dövlətçilik işinin öyrənilməsində bir qəbahət də yoxdur. Amma burada diqqəti cəlb edən dövlətçilik bilikləri ilə bağlı ortaya qoyulan suallardır. Həmin suallarda da Şah İsmayıl hərəkatının milli və dini zəmindən qoparılması cəhdi özünü göstərməkdədir. Şah İsmayılın iqtidara gəlməsindən sonra Şəmsəddin Lahicinin başbaxanlıq görəvinə gətirilməsinə gəlincə isə, doğrudan da Şəmsəddin Lahici sədr vəzifəsinə təyin edilmişdi (10). Bəzi hallarda bu vəzifə sədr-əzəm də adlandırılmışdı. Lakin bu vəzifə dünyəvi vəzifə deyildi. Sədr - səltənətin din

işlərinə rəhbərlik edən vəzifəli şəxs idi və onun başbaxan anlamında qəbul edilməsi düzgün deyildir.

Şah İsmayıl hərəkatının mahiyyətinin təhrif edilməsi üçün hətta onun özünün mövcudluğunun da şübhə altına alınması cəhdləri ilə elmi-tarixi ədəbiyyatda rastlaşmaq mümkündür. Bunu aşağıdakı cümlələrdən də görmək mümkündür: "Şeyx Heydər soyundan olan İbrahim Mirzə kimsənin diqqətini çəkməmişdir. Bitlisi, İbrahimi İsmayılın böyük qardaşı olaraq yazır. Nədən böyük qardaşa diqqət edilməmişdir? İsgəndər bəy Türkmən, Şeyx Əlinin ölmədən öncə başındakı sülalə tacını çıxarıb İsmayılın başına keçirdiyini söylər və Şah İsmayılı vəliəhd və qaimməqam elan edər. İsmayılın varis seçilməsi və İbrahimin yoxa çıxmasının tək səbəbi bumu? İbrahimdən xəbər çıxmamışdır. Ancaq yoxa çıxan sadəcə İbrahim deyildir. "Əhsən-üt təvarix"in yazarı Həsən Rumlu İbrahimdən başqa dörd qardaşının daha İsmayılın yanında olduğunu yazar. Böyük olasılıqla İsmayılın bu dörd qardaşı Heydərin digər qadınından olmuşlar. Burada təqib edilən, sadəcə İsmayıl deyildi. Bəlkə də bu ailə yaxalansaydı çox kiçik yaşda olduğundan dolayı İsmayılla işləri olmazdı, ancaq daha yaşlıları öldürülə bilərdilər. Heydərin bütün çocuqları aranırdı. Ancaq tarixi öylə quraşdırmışlar ki, sanki bir anın içində qeybdən xəbər gəlmiş və Heydər ailəsinin içindən, ancaq İsmayılın gələcəkdə şah olacağı duyurulmuş! Bütün bunlar ortadakı bir sirrin gizlənməsi və ifşa edilməməsi üçün deyilmi? Həsən Rumlunun "Əhsən-üt təvarix" əsərinin ikinci cildinin 907-ci səhifəsində İsmayılın digər dörd qardaşları haqqında verdiyi bilgini olduğu kimi yazalım: "Bu səfərdə İsmayılı digər dörd qardaşı Seyid Həsən Mirzə, Seyid Süleyman Mirzə, Seyid Davud Mirzə, Seyid Mahmud Mirzə yanındaydılar. Bəziləri qardaşlarının Rəştdə ona qatıldıqlarını yazarlar. Bəziləri isə, bu dörd qardaşın bir yerdə Çiçəkli adlanan Ağdağda İsmayıla qatılıb Rəştə yollandıqlarını söylərlər. Bu yolçuluqda onların yanında olayı anladacaq kimsə olmamışdır. Ancaq doğru olan budur ki, İsmayıl qardaşları ilə bir yerdə Rəştdə Ağməscidə gəldilər". Daha sonra nə bu dörd qardaşdan, nə də İbrahimdən əsla xəbər çıxmamışdır. Hər bir Səfəvi soyu haqqında ayrıntılı bilgi varkən, İsmayılın beş qardaşı ilə bağlı heç bir bilgi yoxdur. Böylə bir sual ortaya çıxır: Əcəba, daha sonra Şah İsmayıl olaraq tarixə girən adam gerçəkdən Heydərin oğlu İsmayılmı, yoxsa bir başqasını "mehdi" bəkləyən qızılbaşlara sunmuşlar? Səfəvi tarixinin bu gizlin qatı böylə bir şübhə oyandırır. Əcəba, onların altısını da yox edib başqa bir adamımı tarixə Şah İsmayıl adına soxmuşlar? Nədən İsmayılın qardaşları haqqında tarixdə bilgi yoxdur? Qardaşların başına nə gəlmişsə, bu təqribən altı illik Gilan həyatında gəlmişdir. Çünki daha sonra İsmayıla aid edilən şerlərdə çox yerdə "Heydər oğluyam" ifadəsinə rastlanılacaqdır. Anlaşılan odur ki, o zaman da İsmayılın Heydər oğlu olub olmadığına şübhə varimiş" (11).

Bu istinadda kifayət qədər mübahisə doğura biləcək fikirlər mövcuddur. Ciddi bir mənbəyə əsaslanmayan bu istinadda hətta Şah İsmayılın şəxsiyyətinin mövcudluğu da şübhə altına alınmışdır. Burada yalnız Həsən Rumlunun əsərinə bir istinad verilmişdir ki, həmin istinadın özü də müəyyən şübhə doğrurur. Əvvəla, Həsən Rumlu bu istinadda Şah İsmaytılın 4 qardaşının adını çəksə də

İbrahim Mirzənin adını çəkməmişdir. İbrahim Mirzənin mövcudluğu isə Şah İsmayılın tarixinə aid olan mənəblərdə heç də şübhə altına alınmamışdır. Digər tərəfdən isə Həsən Rumlunun hazırkı tədqiqat üçün istifadə olunmuş "Əhsən-üt təvarix" əsərinin Tehran nəşri olan on birinci cildində Sultan Heydərin üç oğlan övladının olmasından söhbət açılmışdır (12).

Şah İsmayıl tarixinə həsr edilmiş bir sıra mənbələrdə Sultan Heydərin üç oğlan övladının – Sultan Əli Mirzənin, İbrahim Mirzənin və İsmayıl Mirzənin olmasından söhbət açılmışdır (13). Həmin mənbələr kifayət qədər mötəbər mənbələrdir və onların məlumatları ciddi məlumatlar kimi qəbul edilə bilər. Azərbaycanlı tədqiqatçıların əsərlərində də Şah İsmayılın adları yuxartıda sadalanan qardaşlarının adına rast gəlmək mümkün deyildir (14). N.Musalının Şah İsmayıla həsr olunmuş tədqiqatında isə Sultan Heydərin həm üç oğlan övladının, həm də dörd oğlan övladının olması göstərilmişdir. Dördüncü övlad kimi Süleyman Mirzənin adı çəkilmişdir (15).

"Aləmara-yi Şah İsmayıl" əsərində də Sutan Heydərin məlum olan üç övladının adı çəkilmişdir. Lakin bu əsərdə olan bir məqam bu məsələnin dəqiqləşdirilməsi baxımından maraq kəsb edə bilər. Bu əsərin bir yerində bildirilir ki, Ağqoyunlu hakimi Rüstəm Mirzə Aləmşah bəyimi oğlanları – Sultan Əli Mirzə, İbrahim Mirzə və İsmayıl Mirzə ilə Kelat qalasında həbs etməyi tapşırdı (16). Deyilənin doğruluğu nəzərə alınarsa, onda belə bir qənaətə gəlmək mümkündür ki, Sultan Əli Mirzə, İbrahim Mirzə və İsmayıl Mirzə eyni anadan, yəni Aləmşah bəyimdən doğulmuşlar.

Yuxarıda istinad olunan fikrin müəllifi Şah İsmayılın qardaşı haqqında mənbələrdə məlumatların olmamasını az qala Şah İsmayılın şəxsiyyətinin şübhə altına alınmasına bir əsas və sübut kimi qəbul etmişdir. Bu məqamla bağlı da onu demək olar ki, əslində, Şah İsmayılın qardaşları haqqında ayrıntılı (müfəssəl) məlumatın mənbələrdə yer tapmamasını təbii qəbul etmək olar. Şərq salnaməçiliyi üçün bu, normal bir haldır. Mənbələr bir qayda olaraq əsasən birinci şəxslərin həyatına həsr olunur və həmin şəxsin qardaş-bacısı, eləcə də digər qohumları kölgədə qalırdılar. Məsələn, Şeyx Sədrəddin təriqət varisi olmaqla Şeyx Səfiəddinin ikinci oğlu idi. Təriqət rəhbəri olduğu üçün o, salnaməçilərin diqqətini cəlb etmişdir. Amma onun digər qardaşları bu diqqətdən kənarda qalmışdır. Şah İsmayılın əcdadlarının hamısı haqqında müəyyən məlumatlar olsa da, onların qardaşları haqqında ciddi bir məlumatla rastlaşmaq mümkün deyildir. Şah İsmayıldan sonra da yalnız Səfəvi şahları az-çox mövzu obyekti olmuşlar. Onların qardaşları haqqında geniş və ayrıntılı məlumatlar isə yox dərəcəsindədir. Digər tərəfdən isə, Şah İsmayılın qardaşları haqqında məlumatların Gilan səhifəsi ilə tamamlandığı da doğru deyildir. Tədqiqatlar bəzi mənbələrdə Şah İsmayıl qardaşlarının Gilandan sonrakı həyatları haqqında da məlumatlar olmasını göstərir. Əvvəlki fəsillərdən məlumdur ki, Şah İsmayıl hərəkatının başlanması ərəfəsində İbrahim Mirzə anası ilə yaşamaq arzusunu bildirərək Gilandan Ərdəbilə qayıtmışdı. Şah İsmayıl və onun ətrafındakılar da İbrahim Mirzənin bu arzusuna qarşı çıxmadılar. İbrahim Mirzə diqqəti cəlb

etməmək üçün qızılbaş papağını çıxararaq tərəkəmə papağı geyindi və Ərdəbilə yola düşdü.

"Fəvayed-e Səfəviyyə" əsərində olan bir məlumata görə, İbrahim Mirzə qardaşından və onun ətrafında olanlardan icazə alaraq Ərdəbilə qayıtdı. Lakin Ərdəbildə ələ keçirilərək qətlə yetirildi (17).

Bu məlumat tədqiqata cəlb edilmiş digər mənbələrdə və elmi-tarixi ədəbiyyatda öz təsdiqini tapmamışdır. Şah İsmayılın qardaşları, konkret olaraq İbrahim Mirzə ilə bağlı məlumatın olmamasının yuxarıdakı istinadda Səfəvi tarixinin gizlini kimi təqdim edilməsi və bununla Şah İsmayıl haqqında mübahisəli fikrə bir aydınlıq gətirilməsi üçün bir sıra mənbə faktlarına əsaslanmaq mümkündür. İbrahim Mirzənin Gilandan sonrakı taleyi haqqında "Aləmara-yi Şah İsmayıl", "Aləmara-yi Səfəvi" və "Cahanqoşa-ye xaqan" əsərlərində bir sıra məlumatlar mövcuddur. Həmin məlumatlar onu deməyə əsas verir ki, iddia olunanların əksinə olaraq, İbrahim Mirzə, eləcə də Şah İsmayılın qardaşı kimi təqdim olunan Süleyman Mirzə heç də naməlum şəkildə aradan götürülməmişdilər. İbrahim Mirzə qardaşı Şah İsmayılın yaxın və etibarlı silahdaşı olaraq ən ağır döyüşlərdə iştirak etməklə kifayət qədər şücaət də nümayiş etdirmişdir. O, əsıidə, Şah İsmayılın yaxın silahdaşlarından biri idi. Onun iştirak etdiyi mühüm döyüşlərdən biri 1503-cü ildə Ağqoyunlu Sultan Murada qarşı aparılan döyüş idi. Şah İsmayılın razılığı ilə Sultan İbrahim Mirzə Ağqoyunlu-Osmanlı qoşun dəstəsinin toplarının üzərinə hücumda iştirak etmiş və müəyyən sayda topu da ələ keçirmişdi (18).

1508-ci ildə Şah İsmayılın Luristanda apardığı döyüş zamanı da xüsusi şücaət göstərmiş əmirlər arasında Sultan İbrahim Mirzənin adı ilə rastlaşmaq mümkündür (19). 1510-cu ildə Səfəvi qoşunlarının Mərv qalası ətrafında özbək qoşunlarına qarşı döyüşü ilə bağlı da İbrahim Mİrzənin adı mənbələrdə xatırlanmışdır. Məlumdur ki, Şah İsmayıl özbək qoşunlarını düzənlik əraziyə cəlb etmək üçün Təbrizdə olan qardaşı İbrahim Mirzədən məktub alması və ondan Osmanlı qoşunlarının Təbriz üzərinə hücum etməsi haqqında xəbər eşitməsi haqqında şayiə yaydırmışdı. Bundan sonra Şah İsmayıl qoşunların geri çəkilmək görüntüsü yaratmaqla özbək qoşunlarını qaladan düzənlik əraziyə çıxara bilmişdi (20). Yəni, İbrahim Mirzə bu zaman da salamat idi və Təbrizdə səltənət işlərinə rəhbərlik edirdi. "Aləmara-yi Şah İsmayıl" əsərində İbrahim Mirzə ilə bağlı başqa məlumatlarla da rastlaşmaq mümkündür (21).

«Tarix-e elçi-ye nizam şah" əsərində də İbrahim Mirzə ilə bağlı əlavə məlumatla rastlaşmaq mümkündür. Həmin məlumat 1516-cı ilə aiddir. Bu məlumatda bildirilir ki, Şah İsmayıl həmin ildə İbrahim Mirzəni Herata göndərdi (22).

Mənbələrdə Süleyman Mirzə haqqında da məlumatlar mövcuddur. Bu məlumatlar təxminən 1513-cü ilə təsadüf edir. Həmin məlumatlardan aydın olur ki, Süleyman Mirzə bu dövrdə Ərdəbildə Şeyx Səfi xanəgahının idarəçilik işlərinə rəhbərlik edirdi. Onun nə vaxtdan bu işə təyin edilməsi haqqında məlumat verilməmişdir. Çox güman ki, Şah İsmayıl onu Səfəvi xanədanının nüma-

yəndəsi kimi bu vəzifəyə təyin etmişdi. Mənbə məlumatlarına görə, Süleyman Mirzə 1513-cü ildə Şah İsmayılın Xorasan istiqamətində olan hərbi yürüşdə dünyasını dəyişməsi haqqında məlumat aldıqdan sonra hakimiyyəti əlinə keçirməyə cəhd göstərmiş və ətrafına topladığı dəstə ilə Təbriz üzərinə də hücum çəkmişdi. Lakin Şah İsmayıla sədaqətli olan qüvvələrlə qarşılaşmada həyatını itirməli olmuşdu (23).

İstər İbrahim Mirzə, istərsə də Süleyman Mirzə ilə bağlı olan məlumatlar onu göstərir ki, Şah İsmayıl qardaşlarına çox böyük sevgi və səmimiyyətlə yanaşırdı. Hətta baxmayaraq ki, Süleyman Mirzə ona qarşı qiyam qaldırmışdı, bu qiyamı yatırmağa rəhbərlik edən Səfəvi əmirləri Süleyman Mirzənin həyatını qoruya bilmədikləri üçün Şah İsmayıl tərəfindən ciddi cəzalandırılmışdı. Bu məlumatlar bir daha onu deməyə əsas verir ki, Şah İsmayılın qardaşlarının yox edilməsi və Şah İsmayıl yerinə başqa birisinin meydana çıxarılması haqqında yuxarıda iddia olunan fikirlərin əsası yoxdur.

Hətta Həsən Rumlunun istinad olunan "Əhsənüt təvarix" əsərində də ən azı iki yerdə Lahican həyatından sonra Sultan Heydərin oğlan övladlarının (Şah İsmayılın qardaşlarının) salamat olması haqqında qeydlər vardır (24). Ola bilsin ki, Şah İsmayılın qardaşlarının Lahicanda yoxa çıxarıldığını iddia edən müəllif bu faktları nəzərdən qaçırmışdır ya da sadəcə olaraq onları nəzərə almağı lazım bilməmişdir. Amma bununla faktları gizlətmək də mümkün deyildir.

Ümumiyyətlə, Şah İsmayılın şəxsiyyətinin şübhə altına alınması faktının ortaya atılması özü şübhə doğurur. İstər mənbələrdə, istərsə də elmi-tarixi ədəbiyyatda bu ehtimal haqqında hər hansı bir məlumatla rastlaşmaq çətindir. Bu fikrin müəllifi də öz fikrinin əsaslandırılması üçün hər hansı bir mənbəyə və elmi-tarixi ədəbiyyata dayaqlanmamışdır. Ciddi bir elmi-tarixi dəlilə əsaslanmadan Şah İsmayıl kimi tarixi bir şəxsiyyətin varlığının şübhə altına alınması daha çox Şah İsmayıl şəxsiyyətinin və onun başladığı hərəkatın mahiyyətinin təhrif edilməsinə xidmət etmiş olardı.

Bu iddianın müəllifi olan Güntay Gəncalp öz əsərində Şah İsmayılın şəxsiyyətini və fenomenini şübhə altına ala biləcək başqa bir qəribə fikri də qələmə almışdır. Bu fikir Şah İsmayılın Təbrizə daxil olduqdan sonra tacqoyma mərasimində söylədiyi ehtimal olunan çıxışı ilə bağlıdır. Müəllif şübhəli mənbələrə istinad etməklə Şah İsmayılın bu mərasimdə çıxış etdiyini, onun çıxışının başqası tərəfindən hazırlandığını, həmin çıxışda səslənənlərin Şah İsmayılın yaza bilməyəcəyini iddi edir: "...Başına tacqoyma mərasimində 12 cümlədən ibarət bir mətn oxudu. Bu mətni 14 yaşında çocuğun yaza bilməyəcəyi bəllidir. 14 yaşında çocuğun bu qədər tarixi bilgisi ola bilməzdi. Gilanda İsmayılın müəllimi olmuş, Təbriz işğal edilər-edilməz İsmayılın yanına qoşmuş olan Şəmsəddin Lahici bu mətni yaza bilərdi. Çünki bu 12 cümlədən ibarət olan mətn şüubiyyənin ideallarını əks etdirən manifestdir. 12 rəqəminin qızılbaşlar yanında önəmi olmuşdur. 12 imam, 12 zolaqlı qızıl papaqlar kimi. Ancaq bu mətndəki 12 cümlənin bu rəqəmlərlə heç bir əlaqəsi yoxdur. Bu 12 cümlə şüubiyyənin tarixi amacını gerçəkləşdirən sənəddir. Nə idi o tarixi amac? Zaman axışı içində

türksüz və ərəbsiz İran ölkəsi oluşdurmaq, özəlliklə türkləri fars ülküləri yolunda qullanmaq və yox etmək. Bu 12 cümləyə baxalım:

1.Mən bu gün yerə endim. 2. Sərvər və şahənşah mənəm. 3. Əmin ol ki, Heydərin oğlu mənəm. 4. Mənəm Firudin. 5. Mənəm Xosrov. 6. Mənəm Cəmşid. 7. Mənəm Zöhhak. 8. Mənəm Zaloğlu Rüstəm. 9. Mənəm İskəndər. 10. Ənəl-həqq sirri mənim bağrımda gizlidir. 11. Çünki mənəm mütləq həqiqət. 12.Həqiqət mənim sona çatdırdığım işlərdir. Bu qaynağı London muzeyindən alaraq bu dərgilərdə verdiklərini iddia etmişlər. Bu dərgiləri çıxaran da modern şüubiyyə cərəyanıdır. Qaynağın doğruluğuna şübhə edilə bilər. Ancaq daha sonrakı tarixi sürəc və indiki durum mətndəki düşüncələrin gerçəkləşməsindən başqa bir şey olmamışdır. ...Şəmsəddin Lahicinin bu zaman Təbrizdə olması bu mətni onun hazırladığına dəlalət etməzmi?" (25).

Bu iddia ilə bağlı əvvəlcə onu qeyd etmək lazımdır ki, Şah İsmayıl əgər belə bir çıxış etməli olsaydı da həmin çıxışı Şəmsəddin Lahici hazırlaya bilməzdi. Çünki müəllif özü əsərinin başqa bir yerində bəyan etmişdir ki, Şəmsəddin Lahıci bir kəlmə də türkcə bilmirdi (26). Əgər o türk dilini bilmirdisə, Şah İsmayıla necə çıxış hazırlaya bilərdi? Əslində isə, Şah İsmayılın buna heç ehtiyacı da yox idi. Bunun üçün sadəcə olaraq Şah İsmayıl fenomeninə obyektiv yanaşmaq lazımdır. Mənbələrin heç birində də kiminsə Şah İsmayılın çıxışlarının hazırlanmasına istiqamət verməsi haqqında məlumat yoxdur. Əksinə, Şah İsmayılın bütün əmirləri, əyanları, sufiləri, müridləri onu müqəddəslərlə əlaqə yaradan bir bənd hesab edirdilər və onun nə deyəcəyini hər zaman səbirsizliklə gözləyirdilər.

Bir daha qeyd edilməlidir ki, Şah İsmayıl haqqında elm aləminə məlum olan mənbələrin heç birində buna oxşar məlumat yoxdur. Şah İsmayılın tacqoyma mərasimi, Təbriz şəhərinə daxil olduqdan sonra ilk cümə günü məscidə yollanması və yerli əhali ilə necə davranması haqqında mövcud olan məlumatları nəzərdən keçirməklə belə bir qənaətə gəlmək mümkündür ki, yuxarıda iddia olunan çıxışın Şah İsmayıl tərəfindən edilməsi heç məntiqə də uyğun deyildir. Onun məsciddə yerli sünni əhali ilə necə rəftar edə biləcəyi haqqında məlumatlar vardır və bu məsələyə əvvəlki fəsillərdə toxunulmuşdur.

Mənbə məılumatlarına görə, Şah İsmayıl Təbrizə daxil olduqdan sonra Uzun Həsənin sarayına daxil oldu. Onun tacqoyma mərasimi burada baş verdi və bu mərasim zamanı onun çıxış etməsi haqqında mənbələrdə hər hansı bir təfərrüat yoxdur. Ümumiyyətlə, tacqoyma mərasimim protokolu haqqında məlumat əldə edilmədiyi üçün, bu mərasimin təfərrüatı haqqında danışmaq çətindir. Şah İsmayılın tacqoyma mərasimi zamanı çıxış etdiyini iddia edən tədqiqatçının istinad etdiyi şübhəli mənbədə verilmiş 12 cümlə isə, əslində, Şah İsmayılın 12 misralıq qəzəlindən götürülmüşdür. Çox güman ki, bu misralar Şah İsmayılın əqidəsindən irəli gələn fikirləri kimi diqqəti cəlb etmiş, bəziləri isə bu misraları onun tacqoyma mərasimindəki çıxışı kimi qəbul etmişdir. Həmin qəzəl belədir:

Bu gün gəldim cahanə, sərvərəm mən
Yəqin bilin ki, nəqdi-Heydərəm mən

Firidun, Xosrovü Cəmşidi Zöhhak
Ki, Rüstəm Zaləmü İskəndərəm mən

Ənəlhəq sirri uş könlümə gizlü
Ki, həqqi-mütləqəm, həqq söylərəm mən

Nişanımdır mənim taci-səadət
Süleyman əlinə əngüştərəm mən

Məhəmməd Nuridən, Əli sirrindən
Həqiqət bəhri içrə gövhərəm mən

Xətayiyəm, şəha, əksüklü quləm
Qapında bir kəminə kəmtərəm mən (27).

Bu qəzəl Şah İsmayılın şəxsiyyətini, onun hərəkatının mahiyyətini kifayət qədər özündə əks etdirir. Qəzəlin yanlış təfsiri isə Şah İsmayıl hərəkatının və şəxsiyyətinin mahiyyətinin təhrif edilməsinə istiqamətlənmiş bir cəhd hesab edilməlidir. İstinad olunan qəzəldə Şah İsmayıl özünü "mən Heydərəm" deyə təqdim etmişdir. Ümumiyyətlə, Şah İsmayılın qəzəllərində onun özünü "Heydər oğluyam" deməsi ilə rastlaşmaq mümkündür. Yuxarıda toxunulan fikirlərin birində belə iddia olunurdu ki, bununla, Şah İsmayıl özünü Sultan Heydərin qanuni oğlu olmasının təsdiqinə çalışırdı. Əslində isə Şah İsmayıl bu sözü iş-lətməklə yalnız atasını nəzərdə tutmurdu, həm də özünün İmam Əlinin davam-çısı olduğuna işarə edirdi.

**b) Şah İsmayılın dini etiqadını təftiş etmək cəhdi**

Qeyd edildiyi kimi, Şah İsmayılın tarixinin tədqiqinə müraciət edən və bu sahədə hətta kifayət qədər ciddi işlər görən müəlliflər arasında onun şəxsiyyətinin və fəaliyyətinin müəyyən tərəfləri ilə bağlı tənqidi mövqedə dayananlar olmuşdur. Həmin tənqidi mövqenin aydınlaşdırılması üçün elmi-tarixi əsaslara dayaqlananlar da vardır, buna ehtiyac duymayanlar da vardır. Hazırkı tədqiqatın aparılmasında istifadə olunmuş əsərlərdən ikisinin nəzərdən keçirilməsi isə belə bir qənaətə gəlməyə əsas verir ki, həmin əsərlərin müəllifləri daha çox Şah İsmayılın şəxsiyyətinin və onun fəaliyyətinin təftiş edilməsini başlıca məqsəd kimi qarşılarına qoymuşlar. Bu müəlliflər əsərlərinə yuxarıda istinad edilmiş Əmir Hüseyn Xünci və Güntay Gəncalpdır. Onların istinad edilmiş əsərlərinin hətta ötəri müşahidəsi onu deməyə əsas verir ki, bu müəlliflərdən biri digərinin fikirlərini təkrar etmişdir. Çünki bu əsərlərdə çoxlu

sayda fikirlər çox oxşar şəkildə ifadə olunmuş, bəzi hallarda isə sadəcə təkrar olunmuşdur. Hətta müəyyən fikirlərin ifadəsindən sonra onların ortaya qoyduğu əsasların da təkrarına və oxşarlığına rast gəlmək mümkündür.

Bu müəliflərin əsərlərində təkrar olunan və mahiyyətcə Şah İsmayılın dini etiqadının təhrif edilməsinə istiqamətlənən iddialardan biri də guya Şah İsmayılın özünü tanrı kimi təsəvvür etməsi fikridir. Məsələn G.Gəncalp yazır: "İsmayıl qızılbaşların Allahı durumuna gəlmişdi. Qızılbaşlar ona tapınırdılar. ...Qızılbaşların bu şəkildə davranması çocuq yaşda olan İsmayılda Tanrı olma düşüncəsini oyandırdı. ... Qızılbaşlar onu canlı Allah kimi görürdülər." (28).

Adı çəkilən digər müəllif isə öz iddiasını belə ifadə edirdi: "Şah İsmayıl hələ uşaqlıq aləmində ikən Anadolu tatarlarının (müəllif türk tayfalarını nəzərdə tutur – M.S.) ürəklərinin şahı idi. Xəlifələri ondan bir allah yaratmışdılar və ona büt kimi sitayiş edirdilər. Həqiqət belə idi ki, İsmayıl bu biyaban tatarlarının qəbilələrinin bütü yerini tutmuşdu və tam mənada xuda olmuşdu" (29).

Burada söhbət hələ Şah İsmayılın (İsmayıl Mirzənin) həyatının Gilan dövründən gedir. O, 6-7 yaşında Gilana gəlmiş və 12 yaşında isə Gilanı tərk etmişdi. Yəni 10-12 yaşında bir uşağın özünü tanrı kimi təsəvvür etməsi məntiqlə qəbul ediləsi mümkün olan bir məsələ deyil. Şah İsmayılı müşayiət edən qızılbaş əmirləri onu Səfəvi xanəgahının varisi, Səfəvi təriqət mürşidi-kamili kimi qəbul edirdilər və onlar da Şah İsmayılın kəramət sahibi olmasına şübhə etmirdilər. Bu qızılbaş əmirləri özlərini sədaqətli müridlər hesab edirdilər və təriqət müridi kimi mürşidi-kamilə sədaqət nümayiş etdirilməsi onların hər birinin mənəvi borcu hesab edilirdi. Qızılbaş əmirləri şüurlu şəkildə təriqət müridliyini qəbul etmişdilər və şüurlu şəkildə də öz dini-mənəvi borclarını həyata keçirirdilər. Onların nəzərində Şah İsmayıl təriqətin rəhbəri, təriqət xəttinin davamçısı, çox böyük sayda olan təriqət müridlərini və sufilərini birləşdirən bir rəhbər idi. Təriqət rəhbərləri kimi, Şah İsmayılın babasının, atasının və böyük qardaşının hansı aqibətlə qarşılaşdığı Şah İsmayılı Gilana müşayiət edən qızılbaş əmirlərinə məlum idi. Belə bir aqibət Şah İsmayıl üçün də istisna deyildi. Dövrün hakimləri tərəfindən güclü və davamlı şəkildə təqib olunmaları da bundan xəbər verirdi. Acı aqibət eyni zamanda Şah İsmayılı müşayiət edən qızılbaş əmirləri üçün də istisna deyildi. Buna baxmayaraq onlar mürşidi-kamilə sədaqət yolundan əl çəkmədilər. Bir daha qeyd edilməlidir ki, bunu onlar bir mürid kimi özlərinin dini-mənəvi borcu sayırdılar. Şah İsmayıl bu qızılbaş əmirləri üçün hər şeydən əvvəl Allahın, islam dəyərlərinin başa düşülməsinin yollarından biri hesab etdikləri Səfəvi təriqətinin mürşidi-kamili idi. Onların bütün niyyətləri də ondan ibarət idi ki, Şah İsmayılı mürşidi-kamil kimi qorusunlar, mühafizə etsinlər və Səfəvi müridlərinə, qızılbaşlara təqdim etsinlər ki, həm həyatlarını bağladıqları təriqət, həm də qızılbaşlıq hərəkatı başsız qalmasın. Şah İsmayıl isə mürşidi-kamilliklə bərabər, həm də böyük istedadı və misilsiz fenomeni özündə birləşdirmişdi. Bu vəhdət isə çox qısa zamandan sonra Səfəvi dövləti kimi qüdrətli bir dövlətin meydana gəlməsinə yol açdı.

Hərbi yürüşlər zamanı Şah İsmayılın nümayiş etdirdiyi kəramət və bənzərsiz şücaət isə qızılbaş döyüşçülərinin və bütünlükdə, təriqət müridlərinin ona inamını və bağlılığını daha da artırdı. Şah İsmayılın misilsiz hərbi məharəti və fiziki keyfiyyətləri də qızılbaş döyüşçüləri tərəfindən bir çox hallarda Şah İsmayıla verilmiş kəramətin nəticəsi kimi qəbul edilirdi. Ona görə də onun nüfuzu günü-gündən artmaqda idi. Bölgəyə səfər etmiş venesiyalı səyyahlardan biri öz xatirələrində Şah İsmayılın artan nüfuzu haqqında belə qeydlər etmişdi: "Bu sufini ölkəsinin adamları Allah kimi sevirlər, ona təzim edirlər. Xüsusilə, döyüşçülər ki, onların çoxu zirehsiz döyüşə girirdilər və əmin idilər ki, döyüşdə İsmayıl onları hifz edəcəkdir. Həmçinin elələri də var ki, zirehsiz və cövşənsiz döyüşə gedirlər və razıdırlar ki, öz padşahları yolunda həyatlarından keçsinlər. Ona görə də sinələri açıq şəkildə irəli atılırlar və belə qışqırırlar: "Şeyx, Şeyx". Bütün İranda Allahın adını unudaraq yalnız İsmayılın adını hafizələrdə saxlamışlar. Əgər kimsə at sürərəkən yerə yıxılsa və ya atdan düşsə Şeyxdən başqa heç bir Allahı köməyə çağırmazlar. Onun adını iki cür yad edirlər. Əvvəla, "Şeyx" Allah mənasında, sonra isə peyğəmbər mənasında yad edirlər. Müsəlmanlar "La ilahə illəllah, Məhəmməd rəsul Allah" deyirlərsə, iranlılar "La ilahə illəllah, İsmayıl vəli-ullah" deyirlər. Ona görə də bütün xalq, xüsusilə, döyüşçülər İsmayılı əbədi hesab edirlər. Amma eşitmişəm ki, İsmayıl onun Allah və ya peyğəmbər adlandırılması ilə razı deyil" (30).

Bu sətirlərin müəllifi sözsüz ki, eşitdiklərinin təsvirinə böyük səxavətlə yanaşmışdır. Bununla belə, Şah İsmayılın müridləri tərəfindən kəramət sahibi kimi tanınması buradakı qeydlərdən də görünməkdədir. Şah İsmayıl bunu qəbul edirdi. Şah İsmayıl hətta müqəddəslərlə müridləri arasında əlaqələndirici bənd olmasını özü də inkar etmirdi. Amma Şah İsmayılın özünü yaradan kimi görməkdə təqsirləndirmək doğru deyildir. Mənbələrdə olan məlumatlar da onu deməyə əsas verir ki, Şah İsmayıl özünü mürşidi-kamil, müridləri ilə müqəddəslər arasında əlaqələndirici bənd hesab edirdi və imamların yolunu davam etdirdiyinə şübhə etmirdi. Şah İsmayıl şəxsiyyətinə rəğbətlə yanaşmayan qərbin nümayəndəsi kimi yuxarıdakı istinad olunan fikrin müəllifi də Şah İsmayılın özünü Allah və ya peyğəmbər hesab etmədiyini təsdiq edirdi. Onun haqqında belə təsəvvürün fortmalaşması ilə də Şah İsmayıl razı deyildi. Şah İsmayılın Allah və ya peyğəmbər adlandırılması, əslində, onun dinin inancının şübhə altına alınması deməkdir. İslamın Allahı da, peyğəmbəri də məlumdur. Belə olan halda Şah İsmayılın özünü Allah və ya peyğəmbər adlandırması islam dininə qarşı çıxması kimi dəyərləndirilməlidir. Qədim və köklü təriqətin mürşidi-kamili kimi bunu Şah İsmayıl başqalarından daha yaxşı bilirdi. O bütün həyatı boyu "La ilahə illəllah, Əliyən vəliullah" inancının təbliği ilə məşğul idi. Bütün mübarizəsini bu şüar altında aparırdı və həyatının son anına qədər də bu inancın daha geniş əhali arasında rəvac olmasına çalışmışdı. Bu inanc isə Şah



*Şah İsmayılın Təbriz şəhərindəki abidəsi*

İsmayılın özünü yaradan və ya peyğəmbər hesab etməsi gümanlarını bütünlüklə istisna edirdi.

Mənbələr göstərirlər ki, Şah İsmayıl çətin anlarla qarşılaşanda müqəddəslərin lütfünə pənah aparırdı. Çox zaman onun yuxularına İmam Əli gələr və öz buyuruqlarını çatdırardı. Şah İsmayıl da bunu çox açıq şəkildə bəyan edirdi ki, müqəddəslərdən belə buyuruqlar almışdır. Yəni, Şah İsmayıl bununla müqəddəslərin iradəsini həyata keçirdiyini bəyan edərdi. Başqa sözlə, Şah İsmayıl onun aqibətinin müqəddəslər tərəfindən müəyyənləşdirildiyini ətrafındakılara çatdırardı. Onun özünü yaradan kimi təsəvvür etməsi və öz üzərinə yaradanların səlahiyyətini götürməsi barəsində də mənbələrdə şübhəli məlumatlarla rastlaşmaq çətindir. Əslində, Şah İsmayıl həyatının tarixçiləri də onu yalnız mürşidi-kamil və kəramət sahibi kimi qəbul etmişlər.

Şah İsmayılın dini dəyərlər yolundan sapınmasını (?) izah edərkən tədqiqatçılardan biri bu məsələni belə şərh edirdi: "İsmayıl məzhəb düşüncələrinə elə qapılmışdı ki, ən adi məsələlərə belə diqqət yetirmirdi və qəti şəkildə qəbul etmirdi. Hətta mürşidlik məqamının təhlükədə olduğunu da düşünmürdü. Hər zaman qəhrəmanların ətrafında müəyyən adamlar toplaşırlar. Belələri qəhrəman, güclü olduqca onun yanında olurlar və onun şəxsiyyətini həddindən artıq qabardaraq bu qəhrəmanın özünü yaxşı tanımasına mane olurlar. Ona görə də qəhrəmanın gerçək şəxsiyyəti ilə bərabər, onda başqa bir şəxsiyyət təsəvvürü də yaranır. Nəticədə, qəhrəman özünü tanımaqda aciz qalır və özünü tərəfdarları tərəfindən formalaşdırılan şəxsiyyət kimi tanımağa başlayır. Belə şəraitdə o, gerçək şəxsiyyətini unudaraq formalaşdırılmış şəxsiyyətin gözü ilə varlığa baxır. Bu zaman o, ətrafındakı hadisələri olduğu kimi deyil, əksinə ətrafındakıların onunla bağlı formalaşdırdıqları yersiz qürurla yaşayır və hiss edir və ona görə də gerçəkiliyi görə bilmir. Onun qüruru özü ilə birlikdə hadisələrin arxasında yer alaraq həqiqəti anlamağa mane olur. Şah İsmayılın ətrafındakıların İsmayıl ilə bağlı zərərli baxışlarından dolayı İsmayılın ağlı və gözü kor oldu. İsmayılın ətrafındakıları onun şəxsiyyətini o qədər qabartdılar ki, o, həqiqəti anlamaqdan uzaqlaşdı. ...İsmayıl tərəfdarları tərəfindən formalaşdırılmış təsəvvürə görə özünü ilahi bir vücud kimi hiss edirdi" (31).

Bu fikirlər Çaldıran savaşında Şah İsmayılın ümumi uğursuzluğunun səbəblərindən danışılarkən ortaya qoyulmuşdur. Çaldıran döyüşünün nəticələrinin səbəbləri barəsində əvvəlki fəsillərdə toxunulmuşdur. Amma unudulmamalıdır ki, Çaldıran döyüşünə qədər Şah İsmayıl böyük bir dövlət yaratmışdı, dövlətçilik və hərb tarixində dəyərli bir səhifə açmışdı. Əgər Şah İsmayıl ona təlqin edildiyi iddia olunan keyfiyyətlər üzərində formalaşmış olsaydı onda çox gənc yaşlarında minlərlə insanı öz ardınca apara bilməz, əzəmətli dövləti qura bilməz, bənzərsiz hərb məharəti göstərə bilməzdi. Bir daha qeyd edilməlidir ki, mürşid-mürid münasibətlərində Şah İsmayılın müridlərinin birmənalı təsiri altında olması və onların təlqinləri əsasında Şah İsmayılın şəxsiyyətinin ikiləşməsi və islami dəyərlərə qeyri-ciddi yanaşması haqqında irəli sürülən fikirlər heç də bütünlüklə qəbul ediləcək dərəcədə inandırıcı deyildir. Şah İsmayılın

həyatı və tarixi də bunu deməyə əsas verir. Şah İsmayıl idarəolunan deyildi, Şah İsmayıl idarəedən idi. O ətrafındakılara ona təsir göstərmək gücünə görə deyil, göstərdiyi fəaliyyətə görə dəyər verirdi. Mənbələrin öyrənilməsindən artıq məlumdur ki, ən sadə bir insan göstərdiyi şücaətə görə çox qısa zaman ərzində çox böyük mənsəblərə də yiyələnə bilirdi. Şah İsmayılın dini əqidəsinin formalaşmasında nəsildən gələn ənənələr daha böyük rol oynayırdı, nəinki onun ətrafındakıların ona göstərdiyi təsirlər. Şah İsmayıl babası Sultan Cüneydlə yeni məzmun kəsb edən və Sultan Heydərlə davam etdirilən təriqətin davamçısı idi.

Şah İsmayıl Allahını, peyğəmbərini yaxşı tanıyırdı və onlara dərin etiqadı var idi. Bunu o, hətta yazışmalarında da təkrar-təkrar vurğulayırdı. Onun bədii yaradıcılığında da Allahını, peyğəmbərini birmənalı şəkildə təsdiq etməsi haqqında çoxlu nümunələr mövcuddur. Doğrudur, Şah İsmayılı dini əqidəsi ilə bağlı onun bədii əsərlərinin təftiş edilməsinə də cəhd göstərən müəlliflər vardır. Xüsusilə, onun aşağıdakı misralarını bəzi tədqiqatçılar Şah İsmayılın öz dini əqidəsindən sapmasının təsdiqi kimi təqdim etməyə çalışırlar:

Anamdır Fatimə, atam Əlidir
On iki imamın mən dəx biriyəm (32).

Bu misralarda ifadə olunan fikrilərin hər birini onlara istinad edən tədqiqatçılar Şah İsmayılın dini əqidəsinin təhrifinin təsdiqi kimi qələmə vermişlər. Məsələn, bu beytlə bağlı belə bir fikir ifadə olunur ki, guya Şah İsmayıl özünü aşıq-aşkar Həzrət Əlinin və Həzrət Fatimənin övladı, həmçinin 12 imamdan biri sayırdı. Müəlliflərin fikrincə, Şah İsmayıl bu beyt ilə həm də onu demək istəyirmiş ki, müqəddəslərdən birinin ruhu onun bədənində əks ounub və bununla o da şiə imamlarından birinə çevrilibdir (33). Əslində isə bu beyt şairin dünyagörüşünün bədii ifadəsidir. Bu beytlə Şah İsmayıl heç də özünü həmin müqəddəslərdən biri hesab etmirdi, həmin müqəddəslərin varlığını öz varlığına köçürdüyünə, onların əməllərinə sədaqətini nümayiş etdirirdi. On iki imamdan biriyəm deməklə, Şah İsmayıl bu imamların yolunu davam etdirdiyini və bu yolda imamların özləri kimi davamlı olacağını bəyan edirdi. Yəni bu beytlə Şah İsmayıl heç də özünün müqəddəs olmasını deyil, müqəddəslərə bağlılığının bədii obrazını ortaya qoymuşdur.

Şah İsmayılın dini əqidəsinin təhrifinin təsdiqi kimi müraciət edilən şer parçasından biri də belədir:

Atamın qanını aldım Yeziddən
Yəqin bilgil ki, nəğd Heydərəm

Xızır-zində ilə İsa, Məryəməm
Zəmanə əhlinin İskəndəriyəm

Müəlliflərin fikrincə, bu qəzəl parçasının ilk misrasında Şah İsmayıl özünü İmam Hüseynin övladlarına oxşatmış və sonra bununla da kifayətlənməyərək Həzrət Əlinin ləbəqlərindən biri olan “Heydər” ləqəbini öz üzərinə götürərək və özünü zəmanənin Heydəri kimi təsəvvür etmişdir. Sonrakı beytin ilk misrasında isə, müəlliflərə görə, Şah İsmayıl özünü Xıdır-zində hesab edirdi. Yəni, ətrafındakıların təlqinlərindən sonra Şah İsmayılda belə bir inam yaranmışdı ki, o, Xıdır-zində kimi müqəddəsdir və heç zaman ölməyəcəkdir. İddia olunur ki, bununla da kifayətlənməyən Şah İsmayıl özünü həm də İsa peyğəmbər və müqdədəs Məryəm kimi təsəvvür edirdi. Sonra isə belə bir fikir irəli sürülür ki, Şah İsmayıl hər zaman fatehlik və şöhrət arzusunda olduğu üçün özünü zəmanəsinin İskəndəri də hesab etmişdi (34).

İlk baxışdan burada bir fikir dolaşıqlığı görünməkdədir. Şah İsmayıl özünü Həzrət Əli və ya peyğəmbər təsəvvür edirdisə, onda nə üçün sonda İskəndərə oxşamalı idi. Müqəddəs kimi onun adını çəkdiyi peyğəmbərlərin və imamların məqamının daha yüksək olması yəqin ki, Şah İsmayıla da bəlli idi. Bu beytlərdə də şairin yaratmaq istədiyi bədii obraz onun şəxsi iddialarının ifadəsi kimi oxuculara çatdırılmışdır. Halbuki elə Şah İsmayılın yazılı irsində bu iddianın tamamilə əksini görmək mümkündür.

Aşağıdakı şer parçası da yazılarına istinad olunan müəlliflər tərəfindən Şah İsmayılın dini düşüncələrinin islami tələblərə cavab verməməsi kimi təqdim olunmuşdur.

Mənsur ilə darda idim
Xəlil ilə narda idim
Musa ilə Turda idim
Qazilər deyən şah mənəm

Aşağıdakı beytlər də Şah İsmayılın dünyagörüşünün və islami baxışlarının qəbul edilməsinin qeyri-mümkünlüyünün təsdiqi kimi şərh edilmişdir.

Məhəmməd nurundan, Əli sirrindən
Həqiqət bəhri içrə gövhərəm mən
Ənəlhəq sirri uş könlümdə gizli
Ki həqqi-mütləqəm, həqq söylərəm mən (35).

Yuxarıdakı misralarla bağlı irad ondan ibarətdir ki, guya Şah İsmayıl özünü Musa peyğəmbərlə birlikdə Allahla kəlmələşdiyi Tur dağında olmasını iddia edir. Sonrakı beytlərdə isə qabardılan “Ənəlhəq” ifadəsidir. Belə güman olunur ki, Şah İsmayılın müxtəlif iddialarda olması onun yolundan sapınmasına gətirib çıxardı. Sonra da müəlliflər Minorskiyə istinad edərək əlavə edirlər ki, öz divanında Şah İsmayıl özünün Allah obrazını yaratmışdır. Müəlliflər Minorskinin belə bir fikrini də qabarıq şəkildə oxuculara çatdırırlar ki, Şah İsmayıl

Səfəvi, onun əcdadları hamısı özlərini Allah-təalanın canlı təcəllisi hesab etmişlər (36).

Bu məsələ ilə bağlı digər müəlliflərin əsərlərində də müəyyən məqamlara rast gəlmək mümkündür. Mahiyyət etibarilə həmin məqamlar da yuxarıda əksini tapmış fikirlərin ifadəsidir və onlar da Şah İsmayılın etiqadının özünəməxsus şərhinin davamıdır. Şah İsmayılın etiqad bağlılığının araşdırılması ayrıca bir tədqiqatın mövzusu ola bilər. O da canlı bir insan idi və o da istər etiqadında, istəsə də sözlərində və əməllərində yanlışlıqlara və xətalara yol verə bilədi. Lakin ötəri və təsadüfi hallara görə Şah İsmayılın inanclarına, etiqadına qiymət verilməsi yəqin ki, doğru olmazdı. Bədii ifadə formalarının hərfi mənada qəbul edilməsi isə etiqad kimi ciddi bir məsələnin anlaşılmasında yanaşma üsulu olmamalıdır.

Şah İsmayıl nəinki özünü ilahi varlıq saymırdı, əksinə bu cür düşünənlərə qarşı çox kəskin mövqe tuturdu. Onun Məşəşə tayfasına qarşı döyüşü buna nümunə ola bilər. Həvizə ətrafında yerləşən bu tayfanın üzvləri İmam Əlini Allah kimi qəbul edir və ona sitayiş edirdilər. Müəyyən vaxtdan sonra isə Həvizə tayfasının rəhbəri olan Məlikşah Fəyaz, sonra isə onun yerini tutanlar özləri allahlıq iddiasına düşdülər və tayfa üzvləri də onlara sitayiş edirdilər. Şah İsmayıl bu tayfanın inanclarını küfr kimi qiymətləndirdi və 1508-ci ildə bu tayfanın üzərinə qoşun çəkdi. Məlumdur ki, çətin döyüş keçirməsinə baxmayaraq, Səfəvi qoşunları bu döyüşdə qalib gəldilər və bununla əliallahlığa da son qoyuldu.

Şah İsmayılın öz Allahını, islam peyğəmbərini və imamlarını tanımasının, onlara etiqad göstərməsinin əsas sübutu sözsüz ki, onun inanclarından doğan sözləri ola bilər. Bu sözlərlə istər onun rəsmi yazışmalarında, istərsə də bədii əsərlərində rastlaşmaq mümkündür. Hüseyn Bayqaraya göndərdiyi məktubunda Şah İsmayılın islami inanclarına dəlalət edən aşağıdakı fikirləri öz əksini tapmışdır: "Bağışlayan və mehriban Allahın adı ilə... Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Allahın seçilmiş elçisi Əhmədə (Məhəmməd peyğəmbərə) salam olsun. [Ən gözəl] aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir.

…Məktubun qısa məzmunu və cavabdan əldə edilən nəticə budur ki, "[Ey Məhəmməd] Sən olmasaydın kainatı yaratmazdım" buyuruğuna əsasən yer üzünü abadlaşdırmaq və pak aləmlər yaratmağın səbəbkarı Nuri-Məhəmmədidir.

...Həqiqət budur ki, bizim pak şəriətin və hidayət imamlarının haqq məzhəbinin qanunlarının icrasından, Mustafa və Murtəzanın parlaq təriqətini yaymaqdan başqa [hər hansı] bir niyətimiz yoxdur.

...Şərqdən Qərbə bütün yer üzünün əgər imamı olmalıdırsa

Əli və onun ailəsi bizim üçün yetərlidir" (37).

Şah İsmayılın Şeybani xana yazdığı məktubundakı aşağıdakı bir neçə cümlə də onun islami inanclarının ifadəsidir. Həmin məktub bu cümlələrlə başlayır:

"Bağışlayan və mehriban Allahın adı ilə. Pak və müqəddəsdir o Allah. İmdada yet, ya Əli!

Əbülmüzəffər Şah İsmayıl Bahadur xan söylər:

Yaxşılıqlar və nemətlərin davamlılığına görə Allaha həmd olsun. İmdada yet,ya Əli!

Düşüncə pəhləvanlarının qüdrəti qarşısında heyran qaldıqları, əql və idrakına görə yüksəkliklərdə uçan qartalların ona aid olan irfan aləminin ən aşağı pilləsinə belə çata bilmədikləri və dəqiq düşünə bilənlərin hikməti qarşısında aciz qaldıqları həmin Allahın adı ilə" (38).

Şah İsmayıln bədii əsərlərində də bu böyük şəxsiyyətin islami dəyərlərə inancının mahiyyətini təhrif edənlərə tutarlı cavab olacaq çoxlu sayda fikirləri öz əksini tapmışdır. Həmin fikirlər də bir daha onu göstərir ki, Şah İsmayıl islam mühitində hər bir müsəlmanın, mürşidi-kamilin, imamın və peyğəmbərin məqamını dəqiqliklə bilirdi və bu çərçivədən də kənara çıxmırdı. Aşağıdakı bir neçə nümunə bu baxımdan xarakterik ola bilər:

Ba ismi-ilahi fərdi-yəzdan
Rəhmanü rəhimü heyyi sübhan

Hər karını, ey dil ibtida qıl
Çün əhdə bəli dedin, vəfa qıl

Ta hər bir işin yetə kəmalı
Şükr eylə cəlili-zülcəlalə

Vird eylə sənayi-Mustafanı
Zikr eylə kəmali-Murtəzanı

Ta ola işin dürüstü kamil
Əz fəzli-əimmeyi-əfazil

Yarəb, bizə bağışla tövfiq
Nə rahi-məcazi, bil ki, təhqiq

Hər qüdrətə var hezar fikrim
Hər nemətə var şükrim

Lütf eylə nişaneyi-kərimi
Görsət bizə rahi-müstəqimi

x x x

Mətlubi-ibadəty şəriət
Məzmuni-iradətü təriqət
Məqsudi-həqaiqü həqiqət

Allahü Məhəmmədü Əlidir
Şah qullarının ümidgahı
Dünya bilə üqba padşahı
Biçarə Xətayinin pənahı
Allahü Məhəmmədü Əlidir

x x x

Yəqin bilgil, xudayidir Xətayi
Məhəmməd Mustafayidir Xətai

Səfi nəsli, Cüneydi-Heydər oğlu
Əliyyəl-Mütəzayidir Xətayi

Həsən eşqinə meydanə gəlibdir
Hüseyni-Kərbəlayidir Xətayi

...Məhəmməd Mehdiyi-Sahib Zamanın
Eşigində gədayidir Xətayi

Bu nümunələrin sayını çoxaltmaq da olar. Şah İsmayılın tarixinin ötəri araşdırılması da onu göstərir ki, bu insan ona müqəddəslər tərəfindən müqəddəs vəzifələrin icrası naminə kəramət verildiyinə inanırdı. Lakin heç zaman özünü müqəddəslər səviyyəsində tutmamışdı və özünü də onların məqamında görməmişdi.

Şah İsmayılda islam dininə, təbliğ etdiyi və cəngavərinə çevrildiyi məzhəbə dərin etiqad bəsləsə də xurafat sahibi də deyildi. Bu cəhət onun dini inanclarının çox mühüm bir göstəricisini təşkil edir. O, özgörmələri, qeyri-real baxışlar üzərində qurulmuş müxtəlif proqnozları, dini inanclarda xurafata və mövhumata yol verilməsini qəbul etmirdi. Müxtəlif çətinliklərdən əvvəl Şah İsmayılın müqəddəslərin köməyini istəməsini və yuxularında müqəddəslərin tövsiyələrini almasını mənbələrdə oxumaq mümkündür. O bu yuxuları müqəddəslərin kəraməti kimi qəbul edirdi. Amma müxtəlif münəccimlərin öngörmələri Şah İsmayıl üçün qəbul edilən deyildi. Səfəvi hakimiyyətinin sonrakı dövrlərində, xüsusilə, Şah Sultan Hüseynin dövründə bir çox hallarda xurafata və təvəkkülə inamın real düşüncəni üstələməsi Səfəvi hakimiyyətinin süqutunu daha da yaxınlaşdırdı. Şah İsmayıl tarixinə aid olan, xüsusilə, hazırkı tədqiqatın aparılması üçün istifadə olunmuş mənbələrdə Şah İsmayılın dövlət aparatının fəaliyyətində münəccimlərin fəal iştirakı ilə qarşılaşmaq mümkün deyil. Şah İsmayıl xurafatı həm şəriətə zidd sayırdı, həm də öz əqidəsinə və dini dünyagörüşünə. Bu məqam da Şah İsmayılın dini etiqadının göstəricisi idi və o öz müridlərinə də bunu təlqin edirdi. İngilis yazıçısı Ceyms Daunun "Taclı arif" adlı kitabında Şah İsmayılın xurafatla bağlı maraqlı fikirləri yer almışdır. Qeyd edilməlidir ki, adı çəkilən kitab kifayət qədər sənədli bir kitabdır və onun hazırlanmasında ingilis

və digər qərb səyyahlarının xatirələrindən və yazılarından geniş istifadə edilmişdir. Həmin kitabın fars dilinə tərcüməçisi Zəbulla Mənsuri hətta bu kitabı farsdilli oxucular üçün Şah İsmayıl haqqında ilk ciddi əsərlərdən biri kimi təqdim edirdi və o da özlüyündə bu kitabın sənədliliyini təqdir edirdi.

Kitabın müəllifi də Şah İsmayılın fəaliyyətinin uğurlu olmasının bir cəhətini onun xurafata uymamasında görürdü. O, Şah İsmayılın həyatını geniş şəkildə işıqlandırmış bu kitabının bir yerində xurafatın şərq insanlarının həyatında oynadığı rola toxunurdu. Kitabda konkret olaraq bəzi hakimlərin adları da çəkilir və onlardan kimin xurafata uyduğu, kimin xurafata uymadığı göstərilirdi. Bəyan edilirdi ki, xurafata uymayan hakimlər öz işlərini reallıqla qura bilirdilər. Xurafata etiqadı olan hakimlər isə nəhs və ya namünasib sayılan günlərdə bütün işlərini dayandırırdılar və hətta atlarına yem də vermirdilər. Müəllif onu da bildirirdi ki, miladın XIV-XV əsrlərində şərq aləmində elə bir adam tapmaq olmazdı ki, xurafata inanmasın, nəhs və xeyirli günlərin müəyyənləşdirilməsində münəccimlərin tövsiyələrinə qulaq asmasın. Əksinə, münəccimlərin söylədiklərinə kiminsə inanmaması həmin dövr üçün fövqəladə bir hal sayıla bilərdi. Şah İsmayılın münəccimlərə inanmaması da kitabda belə bir fövqəladə hal kimi təsvir edilmişdir (39).

Şah İsmayılın ulduzların hökmünə inanmamasını təsvir edərkən müəllif onun Tahir Maraği adlı bir əyanla mükaliməsinə istinad edir. Şah İsmayılın fəaliyyətinin hələ ilkin dövründə Tahir Maraği fürsət tapıb ondan ulduzların hökmünə nə üçün inanmamasını soruşur. Cavabında "xanəgah mürşidi dedi: çünki bilirəm ki, ulduzların hökmü mövhumatın bir növüdür və ona görə də Xudavənd Quranda bu mövhumata inanmağı günah bimişdir.

Tahir Maraği soruşdu ki, Quranın harasında Xudavənd ulduzların hökmünə əməl etməyi günah saymışdır? Şah İsmayıl da dedi ki, Bəqərə surəsində.

Tahir Maraği izah elədi ki, Bəqərə surəsində ulduzların hökmü günah bilinməmişdir, sehr və cadu günah sayılmışdır.

Şah İsmayıl bəyan elədi ki, məgər ulduzların hökmü sehr və cadu deyildir? Məgər münəccimlər ulduzların hökmünə istinad etməklə həqiqətdə isə öz ehkamları üzərində insanların taleyini təyin etmirlər? Tahir Maraği müsbət cavab verdi. Şah İsmayıl sonra soruşdu ki, bəyəm dünya yaranandan indiyə kimi bir ulduzun dilə gəlməsi və yerdəki insanlarla söhbət etməsi baş vermişdirmi? Tahir Maraği də cavab verdi ki, yox! (40).

Sonra Şah İsmayıl münəccimliyin mövhumatı ilə bağlı öz baxışlarını belə izah etdi: "Bunlar münəccimlərin və cadugərlərin dilə gətirdiyi mövhumatdır. Əgər insan xoş və ya nəhs gündə doğulsaydı, Xudavənd Quranda bu məsələni xəbər verərdi. Əgər günlərin hansısa məsud və ya mənhus olsaydı Xudavənd Quranda həmin günləri göstərərdi. Quran insanların öyrədilməsi üçün göndərildiyindən mütləq şəkildə Xudavənd bu kitabda xoş və nəhs günləri müəyyənləşdirərdi ki, nəhs günlərdə insanlar işə əl vurmasınlar, çətinliklərə və bədbəxtliklərə düçar olmasınlar. ...Bəs nə üçün nəhs və xoş günlər Quranda yoxdur? Nə üçün Xudavənd Quranda deməyib ki, öz həyatınızda ulduzların hökmünə əməl

edin. ...Sehrin və cadunun Quranda günah sayılması ondan ötrüdür ki, insanlar mövhumatın ardınca getməsinlər və öz həyatlarında mövhumata inanmaqla günah işlətməsinlər. İnsanların öz ömrünü sehr və cadu ilə məşğul olmaqla bihudə yerə tələf etməməsi üçün Xudavənd Quranda sehr adamlarını şeytanlara bərabər tutmuşdur" (41).

**c) Qızılbaşlar insan əti yemişdilərmi?**

Şah İsmayılın şəxsiyyətinin və hərəkatının mahiyyətinin təhrif edilməsi üçün bir sıra müəlliflər tərəfindən ortaya atılan iddialardan biri də onun son dərəcə zalim və qaniçən olması, çoxlu sayda qırğınlara yol verməsi, o cümlədən qızılbaş döyüşçülərinin hətta insan əti yeməsi idi. Xüsusilə, Şah İsmayılın sünnilərə qarşı barışmaz mövqe tutması, onlara qarşı qətliamlar törətməsi, insanları qırması, dəhşətli işgəncələrə əl atması, ifrat rəhmsiz olması barədə bəzi əsərlərdə qorxunc təsvirlərlə də rastlaşmaq mümkündür. Bəzi müəlliflər isə bu iddialarının əsaslandırılması üçün şübhə və mübahisə doğuran, bir çox hallarda isə konteksdən çıxarılmış faktlara və iddialara əl atırlar, onları "səxavətlə" şişirdirlər, dövrün reallıqlarından kənar olan bir mənzərə yaradırlar. Bununla da Şah İsmayılın qaniçən, zalım obrazı yaradılmaqla onun əxlaqi keyfiyyətləri, dini inancları, yaratdığı dövlətin dünyəvi dəyərləri şübhə altına alınır və onun haqqında obyektiv olmayan bir təsəvvür yaradılır. Təəssüf ki, bəzi hallarda hətta Şah İsmayıl haqqında işıq üzü görmüş ciddi tədqiqatlarda da belə iddialar irəli sürülür, baş vermiş hadisələrə bir tərəfli münasibət nümayiş etdirilir.

Sözsüz ki, Şah İsmayıl tərəfindən yaradılmış böyük bir səltənətin həyatının zorakılıqlardan kənar olmasının iddia edilməsi də doğru olmazdı. Əslində, zəmanə, dövrün siyasi, iqtisadi, bəşəri, dini münasibətləri zorakılığın bütünlüklə istisna edilməsini qeyri-mümkün edirdi. Ölkə həyatındakı dağınıqlıqlar, hakimiyyət uğrundakı çarpışmalar, bölgədə cərəyan edən müharibələr, təsərrüfat həyatının çətinlikləri insanların həyatında müxtəlif izlər buraxırdı. Dövlət idarəçiliyinin zəifliyi isə bu çətinlikləri daha da artırır və mövcud ictimai durumu da xeyli mürəkkəbləşdirirdi. Dövlət idarəçiliyindəki zəifliyə son qoyulması, siyasi parçalanmaların, hakimiyyət çarpışmalarının aradan qaldırılması isə qətiyyətli tədbirlərin həyata keçirilməsini tələb edirdi. Şah İsmayılın qurmağa çalışdığı yeni dövlətin, yeni cəmiyyətin möhkəmləndirilməsi də onun hərəkatına qarşı müxalifətdə olan qüvvələrə qarşı qətiyyətli mübarizə aparılması ilə təmin oluna bilərdi. Əks təqdirdə bu hərəkata başlamağın bir mənası da olmazdı. Şah İsmayılın öz ətrafına güclü qoşun toplaması, bu qoşunları təchiz etməsi, hərbi yürüşlər həyata keçirməsi də bu zərurətdən irəli gəlirdi.

Şah İsmayıl tarixinə müraciət edən tarixçilərin çoxu birmənalı şəkildə təsdiq edirlər ki, o öz səltənətini qurmaqla bölgədə mərkəzləşdirilmiş bir dövlət yaratdı. Bununla da həm hakimiyyət dağınıqlığına, müxtəlif yerli hakimlər arasında davamı şəkildə aparılan və insanlar üçün bir bəlaya çevrilən müharibələrə son qoyuldu, vilayətlər arasında əlaqələr gücləndirildi, hərbi və siyasi

sabitlik bəqrərar oldu. Belə bir mərkəzləşdirilmiş dövlətin yaradılması üçün Şah İsmayıl fərqli bir ideologiyanı orataya qoydu. O, siyasi hakimiyyət uğrunda mübarizənin ideoloji əsaslarının yaradılması üçün şiəliyə müraciət etdi. Şiəlik qızılbaşlıq hərəkatı üçün yalnız bir məzhəb dəyəri olmaqdan çıxaraq, bu hərəkatın siyasi-ideoloji bazisinə çevrildi və Ağqoyunlu və Şirvanşahlar dövlətlərinə qarşı, həmçinin bölgənin yarımmüstəqil vilayətlərinə qarşı mübarizədə bu ideologiya əsas tutuldu (42).

Şah İsmayıl hərəkatında şiəliyin yalnız sünniliyə qarşı məzhəb davası kimi başa düşülməsi mütləq şəkildə doğru olmayan elmi-tarixi, siyasi və ideoloji qənaətlərə yol aça bilər. Şah İsmayılın sünnilərə qarşı dözümsüz olması haqqında fikirlərin ortaya çıxması da, əslində, belə bir mövqenin nəticəsidir. Şah İsmayıl dönəmində sünniliyə qarşı müəyyən dözümsüzlük göstərilməsi heç də siyasi müxalifətə qarşı mübarizə məzmunundan kənar tutulmamalıdır. Belə bir reallığı diqqətdən kənara qoymaq olmaz ki, qarşıya qoyulan əsas məqsədlərdən biri sünniliyin kütləvi şəkildə məhv edilərək aradan qaldırılması yox, yeni siyasi hakimiyyət üçün ictimai bazanın yaradılması idi. Bu zaman belə bir formal görüntü də mövcud idi ki, şiəliyi qəbul edənlər Səfəvi hakimiyyətinin dayağı, qəbul etməyənlər isə ona müxalifdirlər. Ona görə sünni əhaliyə qarşı zor işlədilməsi halları da mövcuddur və bu hallar Səfəvi hakimiyyətinin ilkin illərinə daha çox təsadüf edir. Amma sünnilərin yalnız məzhəb mənsubluğuna görə qətliam edilməsi iddiası obyektivlikdən kənardır. Hər şeydən əvəvl ona görə ki, istər Şah İsmayılln dövründə, istərsə də ondan sonrakı illərdə Səfəvi səltənəti ərazisində xeyli sayda sünni məzhəbinə mənsub insanlar yaşayırdılar. Bundan başqa, Səfəvi dövləti ərazisində yaşayan şiə əhalinin yalnız bir gün içərisində, Şah İsmayılın qılıncının zərbini gödükdən sonra bu məzhəbi qəbul etdiklərini düşünmək də doğru olmazdı. Sözsüz ki, bu proses müəyyən bir dövrü əhatə edirdi. Bəzi ərazilərdə, o cümlədən Türküstanda, Əfqanıstanın Səfəvi nəzarəti altında olan ərazilərində, Xəzərin bəzi cənub bölgələrində, kürdlər arasında isə sünniliyin təqib edilməsi ciddi və kütləvi bir hal almadı. Əslində, Azərbaycan ərazisində də sünniliyin bütünlüklə təqib edilməsi baş vermədi. Yoxsa, Azərbaycan ərzisində sünnilik qalmazdı.

Beləliklə, Şah İsmayıl dövründə sünniliyə qarşı dözümsüzlükdən danışanda, bu dözümsüzlüyün yalnız məzhəbə qarşı yox, daha çox müxalifətçiliyə qarşı istiqamətləndiyi unudulmamalıdır. Doğrudur, sünni arifləri, ürfan əhli, etiqad əhli arasında Səfəvi hərəkatını məzhəbə qarşı istiqamətlənmiş qəbuledilməzi bir hərəkat kimi dəyərləndirib səltənət ərasizini tərk edənlər də var idi. Amma kütləvi təqiblərin araşdırılması zamanı müxalifətçiliyə qarşı mübarizə niyyətləri heç də kənara qoyulmamalıdır.

Şah İsmayıl fenomeni elə bir tarixi hadisədir ki, onun daha əhatəli şəkildə qavranılması, təsəvvür edilməsi və başa düşülməsi üçün 500 ildən artıqdır ki, tədqiqatlar, araşdırmalar davam etməkdədir və bu gün də davam edir. 12-13 yaşlarında bir uşağın bir neçə nəfərlə siyasi meydana atılması, çox böyük sayda insanları öz ideyası ətrafında səfərbər etməsi, onlara rəhbərlik etməsi, onların

gücünü istiqamətləndirməsi, şərqin böyük imperiyalarından birini yaratması normal insan zəkasını heyrətləndirməyə bilməz.

Amma Şah İsmayıl haqqında işıq üzü görən əsərlərin hamısını da bu heyrətin mahiyyətinin açıqlanmasına istiqamətləndiyini söyləmək çətindir. Sözsüz ki, istər Azərbaycanda, istərsə də qonşu ölkələrdə Şah İsmayılın tarixinin örənilməsi sahəsində aparılmış ciddi tədqiqatların dəyərini kiçiltmək olmaz. Lakin bu böyük tarixi şəxsiyyət haqqında dəyərli əsərlər çoxaldıqca Şah İsmayıl şəxsiyyəti ilə bağlı açıq və ya gizli qısqanclığı, mübahisəli iddiaların və fikirlərin elmi-ictimai dövriyyəyə gətirilməsini özündə əks etdirən əsərlər də ortaya çıxmaqdadır.

Müxalifətdə olanlara və ya hakimlərə boyun əyməyənlərə qarşı orta əsrlər barışmazlığı haqqında Pənahi Semnani adlı müəllif özü də əsərində toxunur və konkret hal kimi Əmir Teymurun dövründə qətlə yetirilmiş insanların kəllələrindən minarələr də ucaldıldığını etiraf edirdi. Bununla belə, Şah İsmayıl dövründə onun hərəkatına və hakimiyyətinə qarşı mövqe tutanların sərt təqib olunmasını müəllif Səfəvi şahının qəbul edilməsi mümkün olmayan əməlləri kimi dəyərləndirirdi. Müəllifə görə, onun "yalançı allah" adlandırdığı Şah İsmayıl özündən əvvəlki və sonrakı hakimləri cinayətkar əməllərinə görə xeyli qabaqlaya bilmişdi. "Qətliam törədilməsi, arvadların və kişilərin, südəmər uşaqların rəhimsizcəsinə öldürülməsi, ölülərin cəsədlərinin yandırılması, canlı insanların yandırılması, daha çox nifrət doğuracaq pis bir hal kimi öz qurbanlarının ətini yemək moğolların və Teymurləngin əlaltılarının əməllərinin təkrarı idi" (43).

Sonra müəllif Şah İsmayılın "cinayətkarlıqları" haqqında qərb səyyahlarının əsərlərində daha çox məlumatların olmasına toxunur və bununla, həmin əməllərlə bağlı qərb mənbələrinə istinad edilməsini məsləhət bilir. Sözsüz ki, qərb mənbələrində dövrün tarixinin öyrənilməsi üçün maraqlı məlumatlar vardır. Amma o da nəzərə alınmalıdır ki, qərb müəllifləri mənsub olduqları dövlətlərin rəhbərləri kimi Şah İsmayıla heç də tam səmimi münasibətləri ilə seçilmirdilər. Ona görə onların şayiələr üzərində qurulmuş məlumatlarının mütləq qəbul edilməsinə də ehtiyatla yanaşılmalıdır. P. Semnani belə yazır: "Şah İsmayılın bədən quruluşunun gözəlliklərini vəsf edən o venesiyalı tacir Əlvənd Ağqoyunlu qoşunlarının, Sultan Yaqub nəslinin qadın və kişilərinin qətliam edilməsi, Təbriz sarayından 300 nəfərin öldürülməsi, Təbriz şəhərinin bütün itlərinin öldürülməsi haqqında müfəssəl şərh verərək yazırdı: Güman eləmirəm ki, Neron dövründən indiyə kimi belə bir zalım dünyaya gəlmiş olsun" (44).

P.Semnani bu fikirləri irəli sürməklə, əslində, Şah İsmayılı qədim Roma dövründən başlayaraq XVI əsrə qədər Şah İsmayılın dünyanın ən qəddar insanı hesab edilməsi ilə razılaşmış olur. Sözsüz ki, insan ölümünə haqq qazandırılması doğru sayıla bilməz. Bununla belə, tarixin Şah İsmayıla qədərki dövrünün ideallaşdırılması tarixi reallıqlara əsaslanmayan gümanların fərdi hisslərə qurban verilməsindən başqa bir şey deyildir. Elə Şah İsmayıla qədər baş vermiş müharibələrə, eləcə də İran arealına daxil olan kiçik vilayətlərin hakimlərinin bir-birinə qarşı apardıqları müharibələrə nəzər yetirmək kifayət olardı. Şah

İsmayılın Ağqoyunlu qoşunlarına qarşı qəddarlıq nümayiş etdirməsi haqqında deyilənlər haqqında müəllifin istinad etdiyi fikirlər də birtərəfli və mübahisəlidir. Bir tərəfdən Şah İsmayılın Ağqoyunlu Əlvənd Mirzəyə sülh təklif etməsi və Əlvənd Mirzənin bu təklifdən imtina etməsi nəzərdən qaçırılmamalıdır. Yeri gəlmişkən, Şah İsmayıl hətta Ağqoyunlu Murada da sülh təklif etmişdi. Məlumdur ki, Şah İsmayıl ilə Ağqoyunlu Murad arasında sülh yaradılması üçün Şah İsmayılın xalası vasitəçilik etməyə çalışmışdı (bu barədə əvvəlki fəsillərdə danışılmışdır). Şah İsmayıl xalasının xahişini yerə salmasa da, yenə də Muradın təkidi ilə bu sülh alınmadı. Sülhü qəbul etməyən Ağqoyunlu qoşununa qarşı Səfəvi qoşunlarının qətiyyətli hərəkəti isə heç də məntiqdən uzaq deyil. Şah İsmayıl Ağqoyunlular dövründə Azərbaycan ərazisindəki dağınıqlıqlara, parçalanmalara, ara müharibələrinə son qoyaraq yeni bir dövlət yaratmağı öz qarşısına məqsəd qoymuşdu və bu məqsədin həyata keçirilməsi üçün də ona qarşı duran qüvvələrə qarşı mübarizə aparırdı.

P.Semnani sünni məzhəbinə məxsus olanlara qarşı Şah İsmayıl tərəfindən amansızlıqlar göstərilməsinə ayrıca bir başlıq həsr etmişdir. Amma müəllif sonrakı fikirlərində İran ərazisində sünni icmalarının qalmaqda davam etdiyini də etiraf edirdi (45). Yəni, müəllif bununla təsdiq edirdi ki, sünnilərin təqib edilməsi total xaraktert daşımamışdı. Sünni məzhəbinə mənsub olanlara qarşı təqibin mahiyyətinin anlaşılmasına isə yuxarıda toxunulmuşdu. Şah İsmayılın qəddarlıqlarından biri kimi, müəllif ölmüşlərin qəbirlərinin açılması və onların sümüklərinin çıxarılaraq yandırılmasına da işarə olunmuşdur. Müəllif yazır ki, Şah İsmayıl Bağdada hücum edərkən Əbu Hənifənin sümüklərinin qəbirdən çıxarılıb yandırılması haqqında göstəriş verdi. Bildirilir ki, bu əməl Osmanlıda və İranda sünni toplumunun böyük qəzəbinə səbəb oldu. Sonra müəllif onu da yazır ki, Əbu Hənifənin sümüklərinin çıxarılıb yandırılması haqqında "Aləmarayi Səfəvi" əsərində məlumat olsa da, "Əhsənüt təvarix" əsərində bu barədə məlumat yoxdur (46).

Belə mübahisəli məlumatlara mənbələrdə tez-tez rast gəlmək mümkündür. Bir çox hallarda bir məbənin verdiyi bir məlumatla başqa bir mənbədə və ya mənbələrdə rastlaşmaq mümkün deyildir. Ona görə belə mübahisəli məlumatların birmənalı şəkildə qəbul edilməsi isə sözsüz ki, doğru olmazdı. Ölmüşlərin sümüklərinin çıxarılıb yandırılması haqqında olan məlumatların təkzib edilməsi üçün də artıq elm aləminə konkret faktlar məlumdur. Məsələn, "Xolde bərin" əsərinin verdiyi məlumata görə, Bakı qalası tutlandan sonra Şah İsmayılın tanınmış əmirlərindən olan Xadim bəy Xüləfanın göstərişi ilə Fərrux Yasarın atası, Şirvan hakimi olmuş Əmir Xəlilullahın Şirvanşahlar sarayındakı qəbri açılmış və onun sümükləri yandırılmışdı (47). Amma sonradan aparılan tədqiqatlar göstərmişdi ki, Əmir Xəlilullahın sümükləri yandırılmamışdı və dövrümüzə qədər sağ-salamat qalmışdı (48). Məlumdur ki, Şah İsmayılın babası Şeyx Cüneyd Şirvanşah Xəlilullahın qoşunları ilə döyüşdə şəhid olmuşdu. Güman edilir ki, Şah İsmayıl da babasının qisasını almaq üçün Əmir Xəlilullahın sümüklərini çıxardaraq onları atəşə tutmuşdu.

Əmir Xəlilullahın sümüklərini guya yandırılması haqqında olan məlumat bir sıra digər tədqiqatçılar tərəfindən də Şah İsmayılın qəddarlığının təsdiqi kimi istifadə edilmişdir. Şah İsmayıl haqqında ciddi tədqiqatın müəllifi olan M.Parsadust da Şah İsmayılın qeyri-insani hərəkətlərinin "sübutu" üçün bu məlumata müraciət etmişdir. Müəllif "Həbib-üs siyər" əsərində istinad etdiyi bu faktla bağlı şərhində bildiririd ki, ölmüşlərin sümüklərinin yandırılması, onların ruhunun təhqir edilməsi hələ ərəb xilafəti dövründə mövcud olmuş və Şah İsmayıl dövründə də davam etmişdi (49). Əslində, isə Əmir Xəlilullahın nümunəsində Şah İsmayıl tərəfindən ölmüşlərin sümüklərinin çıxarılaraq yandırılması haqqında olan məlumatların doğruluğunu şübhə altına almaq mümkündür.

Şah İsmayılın və qızılbaşların amansızlığının və qəddarlığının mövzu obyektinə çevrilməsinə M.Parsadustun tədqiqatında da rast gəlmək mümkündür. Doğrudur, adı çəkilən müəllif Şah İsmayılın tarixi xidmətlərinin obyektiv şəkildə araşdırılması istiqamətində də faydalı işlər görmüşdür. Bununla belə, Şah İsmayılın "rəhimsizliyi" də bu tədqiqatçının diqqətindən kənar qalmamışdı. Bunun səbəbini də M.Parsadust özünəməxsus şəkildə izah etməyə çalışmışdır.

M.Parsadust öz əsərində Şah İsmayılın "rəhimsizliyinin" əsas səbəblərindən birini hələ uşaq ikən atasının qətlə yetirilməsi, ata məhəbbətindən məhrum olması, Ağqoyunlu hakimlərinin düşmən rəftarı, ailəsi ilə birlikdə Ağqoyunlu hakimləri tərəfindən zindana atılması və digər hadisələrlə əlaqələndirirdi. Müəllifə görə, hələ uşaq yaşlarından bu hallarla rastlaşması, xüsusilə, atasının ona qarşı olan qüvvələr tərəfindən qətlə yetirilməsi Şah İsmayılda qisasçılıq hisslərini gücləndirmişdi. Müəllif sonra əlavə edirdi ki, Şah İsmayıl məhrumiyyət və qorxu içərisində böyüdü, kin və küdurət onun daxilində getdikcə güclənməyə başladı. Onun fikrincə, bu kin və küdurət o dərəcədə kəskinləşdi ki, Şah İsmayıl təkcə atasının sağ olan qatillərin cəzalandırmaqla kifayətlənmədi, hətta ölənlərin də cəzalandırılmasından əl çəkmədi (50).

Belə bir təsəvvür yaradılır ki, Şah İsmayılı öz hərəkatına başlamağa sövq edən başlıca amillərdən biri məhz əcdadlarının qisasının alınması idi. Belə bir təsəvvür Şah İsmayıl hərəkatının mahiyyəti haqqında tam olmayan bir ehtimaldır. Yuxarıda qeyd edildiyi ki, Şah İsmayıl hələ hərəkatının əvvəlində bəyan etmişdi ki, dövrün hakimlərindən sonsuz məhrumiyyətlər görsə də, atasının və əcdadını qanını bağışlayaraq haqqın bərqərar olması üçün Allah, onun peyğəmbəri və müqəddəs islam dini yolunda hərəkata başlamışdır (51).

Şah İsmayılın Şirvan hakimlərinə qarşı qisasçılıq hissi ilə yaşaması haqqında olan fikirlərin də birmənalı şəkildə qəbul edilməsi doğru olmazdı. Məlumdur ki, Şah İsmayıl Şirvanşahlara qarşı heç də barışmaz mövqe tutmadı, hətta sonradan o, Şirvan hakimləri ilə qohumluq əlaqələri də yaratdı. Şah İsmayılın hələ uşaq yaşlarından başlayaraq güclü qisasçılıq hissləri ilə, kin və küdurətlə böyüməsi haqqında irəli sürülən iddialarla da heç də bütün tədqiqatçılar razı deyildirlər. Bütünlükdə, Şah İsmayılın rəhimsiz və qaniçən adlandırılması barədə fikirlərə fərqli şəkildə yanaşan qərb müəlliflərinin aşağıdakı təsviri obyektiv reallığa daha yaxındır.

"Bəzi qərb tarixçiləri Şah İsmayılı qaniçən bir padşah kimi təqdim edirlər və yazırlar ki, o, bəzi adamları öz əli ilə qətlə yetirmişdir.

Şah İsmayılı qaniçən adlandıran tarixçilər nəzərə almırlar ki, 500 il bundan əvvəl yalnız şərqdə deyil, eləcə də Avropa ölkələrində də insanlar hakimlərin qəzəbdən kənar deyildilər və hökmdar tərəfindən müttəhimin mühakimə edilməmiş qətlinə fərman verilməsi adi bir hal idi. O zaman asiləri yalnız bir şey öz yerində oturda bilərdi ki, o da qorxu idi.

Şah İsmayıl öz zamanının ənənələrinə uyğun olaraq hökmranlıq edirdi və məcbur idi ki, zor tətbiq etsin. Bununla asiləri və yağıları qorxutmaq və yerində oturtmaq olardı. O iranlılara qarşı yumşaq idi. Təbəələri onu sevirdilər və ondan qorxmurdular.

Şah İsmayılın zorakılığının o dövrün üsullarına uyğun olduğunu aydınlaşdırmaq üçün bilməliyik ki, Şah İsmayıldan 150 il sonra Fransada bu ölkənin padşahı XIV Lüdovik özünü həqiqi Məsih (İsa) sayırdı və onun göstərişinə əsasən, kəlbətinlə bir qoca qadının dilini hulqumundan çəkib qopardılar və iki gözünü də yerindən çıxardılar. Yalnız ona görə ki, bu qoca qadın cürət edərək padşahı əyyaş adlandırmışdı.

Şah İsmayıldan iki yüz il sonra XV Lui adlı başqa bir Fransa padşahı Damin adlanan ümidsiz və əsəbi bir cavanın əl qollarını çapmağa hazır olan dörd ata bağladılar. Həmin atları hərəkətə gətirəndə qolları və ayaqları bədənindən qoparıldı. Bu cavanın günahı o idi ki, bir qələmyonan bıçaqla XV Lui üzərinə hücum çəkmək istəmişdi.

Əgər bu qərb padşahlarının əməlləri bir şərqli padşah kimi Şah İsmayıl hökumətinin əməlləri ilə müqayisə edilsə, deyilməlidir ki, Şah İsmayıl aram, yumşaq və ziyansız bir adam idi. Çaldıranda Şah İsmayıl ilə müharibə edən Sultan Səlim 8 illik hakimiyyəti dövründə iki milyon adamı qətl etdirmişdi. Hətta bəzi təzkirəçilər Sultan Səlim tərəfindən öldürülənlərin sayının iki milyondan artıq olduğunu yazırlar. Ona görə Şah İsmayılın davranışı Sultan Səlimin davranışı ilə müqayisə edilsə Şah İsmayıl mələk kimi görünməkdədir.

Şah İsmayıl təəssübkeş olmayan etiqad adamı idi. Şiə məzhəbinə mənsub olmasına baxmayaraq, bütün hakimiyyəti dövründə bir sünnini də incitmədi. Şah İsmayılın təbəələrinin böyük hissəsi sünni məzhəb idilər və heç vaxt bu padşah tərəfindən ziyan görməmişdilər. Hətta Sultan Səlim tərəfindən Təbriz sakinləri qətli-am edildikdən sonra da o, Osmanlı əsirlərini qətlini və ya incidilməsini lazım bilmədi. Belə bir mehribanlıq isə (beş əsr əvvəl əxlaq qaydaları heç də bugünkü kimi deyildi) Şah İsmayılın şərəfli işi sayılmalıdır.

... Şah İsmayıl müharibələr zamanı o dövrün ənənələrinin əksinə olaraq, məğlub olanın xanımına və övladlarına rəhm edirdi və onların qətli və ya əsir edilməsi haqqında düşünmürdü. O cümlədən özbək xanı olan Şeybək xanın qətlindən sonra onun xanımlarını və övladlarını incitmədi.

Özbəklərin başçısı olan Şeybək xanın öldürülməsindən sonra Şah İsmayıl onun xanımını və övladlarını incitmədi və onları azad buraxdı ki, hara istəsələr getsinlər və nə istəsələr etsinlər. Şiələrin padşahı (yəni Şah İsmayıl – M.S.) İran

sarayına pənah gətirmiş Sultan Səlimin əmisi oğlu III Bəyazidi təhvil versəydi ola bilsin ki, Sultan Səlim sakitləşərdi və İran üzərinə də qoşun çəkməzdi. Lakin Şah İsmayıl ona pənah gətirmiş adamı Osmanlı sultanına təhvil vermədi. III Bəyazid Osmanlı şahzadəsi kimi Sultan Səlim dünyasını dəyişənə kimi İranda qaldı. Bundan sonra isə vətəninə döndü. Şah İsmayıl şücaətinə və müharibə qəhrəmanlıqlarına, məskənlərin abadlaşdırılmasına olan meylinə, xüsusən də əkinçilərə və heyvandarlara göstərdiyi köməyə (belə ki, səltənətdə olduğu 24 il müddətində altı dəfə onları vergi ödəməkdən azad etdi), həmçinin təvazökarlığına və etiqadına, günah işlərdən kənar olduğuna görə Səfəvi sülaləsinin ən görkəmli şahı və doğrudan da İranın iftixarı idi" (52).

Yuxarıda aparılan müqayisə Şah İsmayılın "rəhimsizliyi" barəsində söylənilən fikirlərin birmənalı şəkildə qəbul edilməsinin doğru olmadığından xəbər verir. Osmanlı hakimi Sultan Səlimin son dərəcə qəddar olmasına, hakimiyyət uğrunda mübarizədə hətta qardaşlarına və yaxınlarına belə rəhm etməməsinə baxmayaraq, bəzi tədqiqatçılar Şah İsmayılın qaniçənliyini sübut etmək üçün Osmamlı sulıtanının ideallaşdırılmasına cəhd də göstərirlər. Məsələn, G.Gəncalp yazırdı ki, Osmanlıda bir tək çocuq öldürülməzkən, Şah İsmayıl sünni çocuqları da qətl edirdi (53).

Ə.Xünci adlı müəllifin Şah İsmayılın Təbrizi almasından və Azərbaycanda möhkəmlənməsindən sonra göstərdiyi "amansızlığı" barəsindəki fikrinə yuxarıda istinad edilmişdi. Burada həmin fikrin yenidən təkrarı çox xarakterik olardı: "Bütün qızılbaşlar, deyildiyi kimi, Anadolunun sərgərdan tatar tayfalarının ünsürləri idilər. Onlar əvvəlcə Şeyx Bədrəddinə, sonra da Cüneydə birləşdilər. Nəhayət, onlar qarətçilik məqsədilə Şah İsmayılın ətrafına toplaşdılar. Onlar heç vaxt İranda yaşamamışdılar və İran mədəniyyəti ilə heç bir tanışlıqları yox idi. Qəbilə ənənələrindən irəli gələn adətə görə, onlardan olmayan hər kəs yad və düşmən hesab edilirdi. Bu baxışla onlar bütün iranlılara (dinindən və məzhəbindən asılı olmayaraq bütün iranlılara) məhv edilmələri üçün düşmən gözü ilə baxırdılar. ...Azərbaycana və onun var-dövlətinə əlləri yetişəndə heç bir sözlə deyilməsi mümkün olmayan qarət və sitəmə başladılar, şəhərləri viran etdilər, İranın maddi mədəniyyətinin dağıdılmasına rəvac verdilər. Bu zaman onlar özlərində heç bir rəhm hiss etmədilər" (54).

Bu "həqiqətlərin" doğruluğuna əlavə bir fikir bildirməyə ehtiyac duymadan qeyd edilməlidir ki, Şah İsmayılın şəxsiyyətinə və onun hərəkatına şübhə yaradılması üçün Ə.Xünci və G.Gəncalp istinad olunan əsərlərində də hətta onların İran tarixşünaslığının nümayəndələri olmalarına baxmayaraq Sultan Səlimin Səfəvi dövləti üzərinə hücumuna müəyyən haqq qazandırmaq meyli də duyulmaqdadır. Onların əsərlərində belə bir fikir qabardılmaqdadır ki, Sultan Səlimin Səfəvi dövləti üzərinə hücuma başlamasına Şah İsmayılın təhrikedici əməlləri səbəb olmuşdu. "Sultan Səlim nəzərdə tutmamışdı ki, İran ərazilərinə və məntəqələrinə bir ziyan yetirsin. O, İrana və iranlıya ehtiram və izzət göstərirdi, dəfələrlə Firdovsinin "Şahnaməsini" oxumuşdu və İranı müqəddəs bir ölkə bilirdi. İstəyirdi ki, İran təhlükəsizlik və abadlıq içərisində müvəffəq olsun. İran

üzərinə qoşun çəkmişdisə, bunun təqsiri Şah İsmayılda və qızılbaşlarda idi və ...sonrakı hadisələr də göstərdi ki, o hətta İran torpaqlarının işğalı niyyətində deyildi" (55).

Burada belə bir məsələyə aydınlıq gətirilməsi yaxşı olardı ki, Sultan Səlimin Səfəvi dövləti üzərinə hücuma təşviq edən Şah İsmayılın əməlləri deyildi. Yaxşı məlumdur ki, Çaldıran döyüşü ərəfəsində Şah İsmayıl hər vasitə ilə Osmanlı dövləti ilə müharibə aparılmasından yayınmağa çalışdı. Sultan Səlim də bu zaman ən azı atası Sultan Bəyazid kimi Səfəvi dövlətinə qarşı dözümlü siyasət yeridə bilsəydi, bu iki dövlət arasında müharibə baş verməyə bilərdi. Sultan Səlimi daha çox narahat edən şiəliyin genişlənməsi yox, Səfəvi dövlətinin möhkəmlənməsi idi. Şah İsmayıl dövlətinin möhkəmlənməsini Sultan Səlim öz hakimiyyəti üçün real təhlükə sayırdı və ona görə də məzhəb məsələsini əlində bayraq tutaraq Səfəvi dövlətinə qarşı müharibəyə başladı. Sultan Səlimin guya İran (Səfəvi) torpaqlarının işğalı niyyətində olmaması fikri də, obyektiv tarixin təhrifindən başqa bir şey deyildir. Sultan Səlim Təbrizə işğalçı kimi gəlmişdi və əgər Şah İsmayılın strateji təfəkkürü və yeniçəri dəstələrinin Azərbaycanın işğalına etiraz olaraq üsyan qaldırmaları olmasaydı, Təbrizi tərk etməzdi. Təbrizin tərk edilməsindən sonra Səfəvi dövlətinin qərb ərazilərinin işğal edilməsi də Sultan Səlimin Səfəvi ərazilərinə qarşı hansı münasibətdə olduğunu nümayiş etdirir. O da yaddan çıxarılmamalıdır ki, Sultan Səlim yenidən Səfəvi əraziləri üzərinə hücum planları ilə yaşayırdı və dünyasını dəyişməzdən əvvəl artıq bu planın icrasına da başlamışdı.

Çaldıran döyüçünə hazırlıq çərçivəsində Sultan Səlimin Anadoluda 40 min şiə məzhəbinə mənsub olan türklərin Səfəvi dövlətinə meyllilik ittihamı ilə qətlə yetirilməsinin adları çəkilən müəlliflər tərəfindən pərdələnməsinə cəhd göstərilməsi də onları obyektivliyini şübhə altına qoyur. Ə.Xüncinin nəzərində bu qətliam adi bir "təmizləmə" aktı idi (56). Osmanlı ərazisində bir tək çocuğun belə öldürülmədiyini iddia edən G.Gəncalp isə 7 yaşından 70 yaşına qədər olan şiə türkləri əhatə edən bu qətliamın doğru olmadığını və bu qırğınların heç bir mənbə ilə təsdfiqlənmədiyini iddia edirdi. Onun yazdığına görə, "40 min qızılbaşın qətl edilməsi ilə ilgili heç bir bəlgə mövcud deyil" (57).

Şah İsmayıl tarixinin ciddi tədqiqatçılarından bir olan M.Parsadust isə həm Osmanlı, həm də qərb mənbələrinə istinad edərək hətta 40 min nəfərdən artıq Anadolu türkünün məzhəb mənsubluğuna görə qətliam edildiyini yazırdı. Onun əsaslandığı mənbədə deyilirdi ki, "Üləmaların fitvasından sonra ona (şiə məzhəbi nəzərdə tuutulur – M.S.) etiqadı olan 40 mindən artıq insan qətliam edildi və onların arvadları, yetişməmiş oğlanları və qızları qoşun arasında bölüşdürüldü" (58).

Başqa bir mənbəyə də istinad edən M.Parsadust yazırdı ki, Sultan Səlim yalnız Anadolu türklərinin qətliam edilməsi ilə kifayətlənmədi. Onun göstərişi əsasında Anadolu şiələrinin alnına dağ basıldı ki, onlar başqalarının içərisində seçilsinlər və bu cəza eyni zamanda başqalarına da dərs olsun. Bu insanlar həm də öz doğma yurdlarından didərgin salındı. Onların bir hissəsi Kiçik Asiyanın

qərbinə, böyük bir hissəsi isə Osmanlı dövlətinin Avropada yerləşən ərazilərinə köçürüldülər. Belə bir qətliamın həyata keçirilməsini Sultan Səlim özünün uğurlarından biri kimi qəbul edirdi və dövrün üləmaları da ona bu əməlinə görə hətta "adil" ləqəbi də vermişdilər. Yuxarıda adları çəkilən müəlliflər Sultan Səlimin bu qətliamını dövlətin təhlükəsizliyi naminə edildiyini, Osmanlı taxt-tacına qarşı istiqamətlənmiş sufi təhdidlərinin qarşısının alınması üçün edildiyini bildirirlər. Bu iddianın nə dərəcədə doğru olduğunun fərqinə varmadan, qeyd edilməlidir ki, Şah İsmayılın adına çıxılan qətl hadisələrində də siyasi düşmənçiliyin mövcudluğu heç də kənara qoyulmamalıdır. M.Parsadustun istinad etdiyi mənbələrdən biri isə bildirirdi ki, Anadoluda törətdiyi dəhşətli qətliamla Sultan Səlim tarixdə özünə bir ad qoymuşdu (59).

Məlumdur ki, Sultan Səlim Təbrizdə olarkən yeniçəri dəstələri yenidən ona qarşı qiyam qaldırdılar (bu barədə əvvəlki fəsillərdə geniş danışılmışdır). Yeniçərilər Sultan Səlimə qarşı bu qiyamı qaldırmağa sövq edən hadisələrdən biri də Osmanlı sultaının şiə məzhəbinə mənsub olan müsəlmanlara qarşı sonsuz amansızlığı idi. Onlar Sultan Səlimin istər Osmanlı daxilində, istərsə də Azərbaycan daxilində şiələr haqqında doğru olmayan ittihamları irəli sürməklə onların kütləvi qırğınlarına rəvac verilməsini birmənalı şəkildə qəbul etmirdilər. Yeniçərilər üçün şübhə yeri yox idi ki, Şah İsmayılı dinsizlikdə ittihamlandırmaq Sultan Səlimin Səfəvi dövləti üzərinə hücum etməsi üçün bir bəhanə idi. Yeniçərilərin Sultan Səlimə hazırladıqları məktubda bildirilirdi ki, onun göstərişinə əsasən 45 min nəfərə yaxın insan Osmanlı ərazisində, 20 min nəfərə yaxın insan isə Səfəvi ərazisində qətlə yetirilmişdi. Müsəlmanlara qarşı belə qəddarlıq göstərilməsini yeniçərilər qəbuledilməz sayırdılar. Ona görə yeniçərilər Sultan Səlimdən tələb etdilər ki, müsəlman əhaliyə qarşı müharibə dayandırılsın və Osmanlı qoşunları Azərbaycanı tərk edərək geri qayıtsın (60).

Bütün bunlar onu deməyə əsas verir ki, Şah İsmayılı mövcud reallıqları nəzərə almadan qəddarlıqda və amansızlıqda qınamaq, Şah İsmayılın tarixi xidmətlərini kölgədə qoymaqla bu məsələni bəzən ayrıca olaraq qabartmaq ortaya qoyulan tədqiqatların obyektivliyini şübhə altına alır.

Ümumiyyətlə, Şah İsmayılın bu və ya digər şəkildə ittihamlandırılması, onun şəxsiyyətinin nufuzunun kölgə altına alınması üçün müxtəlif tədqiqatlarda çoxlu sayda iddialarla rastlaşmaq mümkündür. Bir daha qeyd edilməldir ki, Şah İsmayıl dövrünün yetirməsi idi və onun fəaliyyətində dövrünün reallıqlarından, özünün təcrübəsindən, onun ideyalarının həyata keçirilməsinə məsul olan insanların dünyagörüşündən, yetkinlik səviyyəsindən irəli gələn iradların olması istisna deyildir. Lakin qərəzsiz yanaşdıqda, mənbələrdə olan faktları əhatəli şəkildə tutuşdurduqda Şah İsmayılın adına çıxılan "mənfi əməllərin" xeyli hissəsinin əsassız olmasını görmək mümkündür. Belə "mənfi əməllərdən" biri də, guya qızılbaşların insan əti yeməsi idi. Bu mövzu ətrafında elmi-tarixi ədəbiyyatda xeyli sayda ittihamlarla rastlaşmaq mümkündür. Əslində, belə bir hadisə ittihama layiq olan bir faktdır. İnsan ətinin yeyilməsi, xüsusilə, düşmənlərin diri-diri kabab edilməsi, onların ətinin yeyilməsi və buna normal hal kimi

yanaşılması insana nifrətin, insani hisslərin korşalmasının, insan zəkasının heyvani xislətlə əvəzlənməsinin ən yüksək səviyyəsi sayıla bilər. Yaradılanların əşrəfi kimi dəyərləndirilən insana münasibətdə islam dininə mənsub olanlar arasında belə bir əmələ yol verilməsi isə nə dini baxımdan, nə də insani baxımdan qəbul ediləsi bir əməl deyildir. Belə bir halın Şah İsmayılın adı ilə bağlanmasında, qızılbaş döyüşçülərinin belə əməllərdə ittihamlandırılmasında sözsüz ki, mənbələrdə olan məlumatlar da öz sözünü demişdi. Ayrı-ayrı mənbələr doğrudan da belə faktların mövcudluğu haqqında məlumatlar verirlər. Lakin müəyyən faktların tutuşdurulması, müəyyən məlumatların qeyri-düzgünlüyü, müəyyən məlumatların isə ötəri dəyərləndirilməsi, nəhayət Şah İsmayılın mürşidi-kamil kimi əqidəsi, inancları onu deməyə əsas verir ki, qızılbaşların insan əti yeməsi ilə bağlı irəli sürülən ittihamlara şübhə ilə yanaşılması üçün müəyyən əsaslar vardır.

Şah İsmayıl tarixinin tədqiqatçısı M.Parsadust öz əsərində bu barədə belə yazır: "Həsən Kiya Çəlaviyə pənah aparmış Ağqoyunlu Cahangirin oğlu Murad bəyin diri-diri ətinin kabab edilməsi ilə Şah İsmayıl adam əti yemək küfrünə yol açdı və onu Səfəvi tərəfdarları arasında rəsmiləşdirdi. Canlı insanı atəş üzərinə qoymaq, onu kabab etmək, və onun ətini yemək insanlıq məqamının həqarətamiz şəkildə meşə heyvanları səviyyəsinə qədər enməsinin nişanəsidir. Hətta etiqadın təftiş edildiyi (inkivizasiya) uzun illər ərzində də görünməmişdi ki, katolik məzhəbinin tərəfdarları protestantları yandırdıqdan sonra onların ətini yesinlər. Özünü şiə məzhəbinin təbliği və insanların nicatı üçün Allah risalətinin sahibi sayan Şah İsmayıl adamyeyənlərin rəhbəri məqamında yer tutdu və ona etiqad edən müridlərini də adamyeyən etdi" (61).

Barışmaz siyasi müxaliflərə, dövlətə qarşı qiyam rəhbərlərinə sərt cəzalar verilməsi həm şərqdə var idi, həm də qərbdə. İstər Şah İsmayıla qədər, istərsə də Şah İsmayıldan sonra dövlətə qarşı asilik edənlər üçün, dövlət daxilində parçalanmalar yaradanlar üçün, separatçılıq yolunu tutanlar üçün edam hökmünün tətbiq edilməsi adi bir hal almışdı. Belə cəzaların verilməsi bir tərəfdən dövlətə qarşı qiyam qaldıranların törətdiyi cinayətlərin qarşılığı kimi nəzərdə tutulurdu. Bir tərəfdən də belə sərt cəzaların həyata keçirilməsi ilə asilik və itaətsizlik yolunu tutmaq istəyənlərə bir xəbərdarlıq edilirdi. Şah İsmayılın sərt cəzalarına məhkum olunan adamlar da belə insanlar idilər. Elmi tarixi ədəbiyyatda bir çox müəlliflər tərəfindən belələrinə misal olaraq adətən Əmir Hüseyn Kiya ilə Əbərqu hakimi Məhəmməd Kərrənin adı çəkilir. Onların hər ikisi böyük əzabla edam olundu. Mənbələrdə Məhəmməd Kərrənin İsfahan meydanında yandırılaraq öldürülməsi haqqında məlumat vardır. Doğrudur, onun ətinin kabab edilməsi öz təsdiqini tapmır. Bununla belə, onun yandırılması da fövqəladə ağır bir cəza kimi Şah İsmayılın rəhimsizliyinə sübut kimi elmi-tarixi ədəbiyyatda hallandırılmaqdadır. Amma bu zaman bu adamların nəyə görə cəzalandırılması məsələsinə toxunulmur. İstər Əmir Hüseyn Çilavi, istərsə də Məhəmməd Kərrə Səfəvi dövlətinə qarşı qiyam qaldıraraq bu dövləti parçalamaq üçün əməli fəaliyyətə başlamışdılar. Əmir Hüseyn Çilavi hətta Səfəvi

dövlətinin parçalanması üçün Osmanlı dövləti ilə əlaqələr saxlayır, bu dövlətdən kömək alırdı. Ağqoyunlu qoşunlarının qalıqları, o cümlədən Murad bəy Cahanşahi də ona qoşulmuşdu. Qaldırılan qiyam nəticəsində Dəmavənd ətrafındakı ərazilər nəzarət altına alınmış, Əmir Hüseyn Çilavinin qoşun dəstəsi hətta Tehran ətəklərinə qədər gəlib çıxmışdı. Əmir Hüseyn onun qarşısının alınması üçün göndərilmiş İlyas bəy Xınıslının rəhbərliyi altında olan Səfəvi qoşun dəstəsini də hiylə və məkrlə məhv etmişdi. Əmir Hüseyn, əslində, Səfəvi dövlətini məhv etmək məqsədini qarşısına qoymuşdu və buna nail olacağına şübhə də etmirdi. Nəhayət, çoxlu sayda qızılbaş döyüşçüsünü, İlyas bəy Xınıslı kimi tanınmış bir əmiri qətlə yetirmiş Əmir Hüseynə qarşı qətiyyətli tədbirlər görülməsi qərara alındı. Şah İsmayılın bu qətiyyətli tədbirləri nəticəsində Əmir Hüseyn Çilavi qiyamı yatırdı. Bəzi mənəblərdəki məlumatlara görə, Əmir Hüseyn Çilavi tikanlı barmaqlıları olan dəmir qəfəsə salındı və onun içərisində işgəncə ilə öldürüldü, Murad bəy Cahanşahi isə yandırılaraq əti kabab edildi (bu barədə aşağıda danışılacaqdır).

Məhəmməd Kərrəyə gəlikdə isə, qeyd edildiyi kimi, o, Əbərqu hakimi idi. Əvvəlki fəsillərdən məlumdur ki, Ağqoyunlu hakimi Sultan Murad süquta uğradıqdan və Şah İsmayıl tərəfindən güclü zərbə aldıqdan sonra bir müddət Məhəmməd Kərrəyə də sığınmaq istədi. Məhəmməd Kərrə əvvəlcə onu qəbul etsə də, sonradan Şah İsmayıla müqavimət göstərməyin mümkün olmayacağını görüb onu həbs etdi və Səfəvi əmirlərinə təhvil verdi. Sonra da Şah İsmayılın hüzuruna yollanaraq bağışlanmasını xahiş etdi. Şah İsmayıl da onu bağışladı və Əbərqu hakimliyində saxladı (62).

Amma bir müddətdən sonra Məhəmməd Kərrə yenidən dövlətə asilik yolunu tutdu və qiyam qaldıraraq Yəzd şəhərini öz nəzarəti altına aldı. Bu yoldan çəkinmək barəsində çağırışları qəbul etməyən Məhəmməd Kərrə onun qiyamının yatırılması üçün göndərilmiş çoxlu sayda qızılbaş döyüşçüsünü qətlə yetirdi. Başlıcası isə dövlət daxilində hərc-mərcliyin yaranması üçün xoşagəlməz bir nümunəyə çevrildi. Bu nümunənin səltənət daxilində əks-səda tapmaması üçün Şah İsmayıl yenidən qətiyyətli addımların atılmasını zəruri bildi. Məhəmməd Kərrə qiyamı yatırıldı, özü isə İsfahanda atəşə atıldı (63).

Şah İsmayıl dövrünə aid olan mənbələrdə adam ətinin kabab edilməsi ilə bağlı ilk məlumat 1504-cü ilin may ayında Murad bəy Cahanşahinin adı ilə bağlıdır. O, Əmir Hüseyn Çilavi ilə birlikdə Səfəvi dövlətinə qarşı qiyamda iştirak etdiyi üçün Şah İsmayıl tərəfindən onun ətinin kabab edildiyi bildirilir. “Tarix-i aləmara-yi Abbasi” əsərində bu barədə belə bir qeyd vardır: “Murad bəy Cahanşahi qəzəb odunda yandırıldı; intiqam alan döyüşçülər onun ətini yedilər” (64). “Xolde bərin” əsərində isə deyilirdi ki, qızılbaş döyüşçüləri Murad by Cahanşahinin ətini ceyran əti yerinə yedilər və sonra da onun sümüklərini atəşdə yandırdılar (65). “Rövzətüs Səfəviyyə” əsərində də Əmir Hüseyn qiyamının yatırılmasından sonra onun dəmir qəfəsə salınması, Murad bəy Cahanşahinin isə ətinin kabab edilməsi haqqında məlumat vardır (66).

Amma qeyd edilməlidir ki, bu məlumat bir sıra mənbələrdə öz təsdiqini tapmamışdır. Məsələn, "Aləmara-yi Səfəvi" və "Fotuhat-e şahi" əsərlərində bu məsələyə heç toxunulmamışdır. "Həbib üs-siyər" əsərində isə Əmir Hüseynin dəmir qəfəsə salınaraq qətlə yetirilməsi haqqında məlumat olsa da, Murad bəy Cahanşahi, ümumiyyətlə, xatırlanmır və ümumiyyətlə, bəzi tədqiqatçılar da bu məzmunlu məlumatların doğruluğuna şübhə ilə yanaşırlar (67). "Aləmara-yi Şah İsmayıl" əsəri isə Əmir Hüseyn Çilavinin həbsindən sonra Murad bəy Cahanşahinin sağ qalmasını bildirməkdədir. Həmin mənbənin məlumatına görə, Murad bəy fürsət taparaq Xorasana qaça bilmişdi (68). Başqa sözlə, o, sağ qalmışdı və onun ətini də qızılbaşlar kabab edib yeməmişdilər.

Hətta Murad bəyin sonrakı taleyi haqqında da "Aləmara-yi Şah İsmayıl" əsərində bəzi məlumatlar mövcuddur. Həmin məlumatlar bundan ibarətdir ki, bəzi mənbələrdə Şah İsmayılın göstərişi ilə əti kabab edildiyi bildirilən Murad bəy onu gözləyən təhlükədən canını xilas edəndən sonra Təbəs şəhərinə gəlmiş və təxminən üç aya kimi həmin şəhərdə qalmışdı. Lakin Xorasan hakimi Sultan Hüseyn Mirzə biləndə ki, Murad bəy Təbəsə Şah İsamyılın təqibindən yaxa qurtarmaq üçün gəlib və Şah İsmayılın ona qarşı münasibəti heç də yaxşı deyil, onda ondan vilayəti tərk etməyi xahiş etdi. Murad bəy də Təbəsi tərk etmək məcburiyyətində qalaraq Quriyan qalasına yollandı və bu qalaya sığındı. Şah İsmayıl Xorasana doğru irəliləyərkən Murad bəyin Quriyan qalasında olması xəbərini aldı və qoşunu ilə bu qalanı mühasirə etdi. Burada aparılan döyüş zamanı Murad bəy də qətlə yetirildi, onun bütün malı və əmlakı isə qızılbaş döyüşçüləri arasında bölüşdürüldü. Yəni, bu mənbə onun ətinin qızılbaş döyüşçüləri tərəfindən kabab edilməsini təsdiqləmir (69).

Bu məlumatın mövcudluğu Murad bəyin kabab edilərək qızılbaş döyüşçüləri tərəfindən yeyilməsi haqqında bəzi mənbələrdə olan məlumatların doğruluğunu şübhə altına alır. Ona görə elmi-tarixi ədəbiyyatda qızılbaş döyüşçülərinin adam əti yeməsi haqqında mövcud olan məlumatlara birmənalı şəkildə yanaşılması doğru olmazdı və bəzi mənbələrdəki məlumatlara görə Səfəvi döyüşçülərinin adam əti yeməsində ittihamlandırılmasına da ehtiyatla yanaşılması daha doğru olardı. Mövcud olan bəzi digər məlumatlar da bunun üşün bir əsas verir. Məsələn, məlumdur ki, Şah İsmayılın həyatının sonlarına yaxın Heratda aclıq şəhəri və ətrafı bürümüşdü. İnsanlar bu bəladan yaxa qurtarmaq üçün həttə ev heyvanlarını da kəsib yemək məcburiyyətində qalmışdılar. Şəhərdə bir dəstə insan isə gecələr küşələrdə keşik çəkərək rastlaşdıqları tək adamları qətlə yetirib onların ətini yeyirdilər. Bu məsələ kifayət qədər geniş miqyas almışdı və beləliklə, şəhərdə adamyeyənlər dəstəsi formalaşmışdı. Əgər Səfəvi əmirlərinin qətiyyətli tədbirləri olmasaydı bu adamyeyənlər dəstəsi öz cinayətkar əməllərini hələ uzun zaman davam etdirəcəkdilər. Herat hakimi olan Səfəvi əmiri Zeynal bəyin qətiyyəti ilə bu adamyeyənlər dəstəsi tutularaq qətlə yetirildi (70). Yəni, Səfəvi əmirləri hansı bir şəraitdə olmasından asılı olmayaraq insan ətinin yeyilməsini qəbul etmirdilər və yaranmış şəraitdə də dərhal bunun qarşısını aldılar.

Mənbələrdə bəzi məlumatların ifadə tərzi və üsulu insanın kabab edilməsi ifadəsinin məcazi mənada işlənməsinə də əsas verir. Məsələn, İskəndər bəy Münşinin "Tarix-i Aəlara-ye Abbasi" əsərinin tərcüməsinə verilmiş şərhlərdə Azərbaycan alimləri O.Əfəndiyevlə N.Musalı da Murad bəyin kabab edilərək ətinin yeyilməsi ifadəsinin məcazi məna daşıdığını və bununla Murad bəydən alınan intiqamın şiddətinin göstərilməsi üçün belə ifadəyə əl atıldığını ehtimal etmişlər (71).

"Aləmara-yi Səfəvi" əsərində lurlara qarşı aparılan döyüşün nəticələri barəsində Şah İsmayıla məlumat verərkən Həsən bəy Halvaçıoğlu belə deyir: "Əvvəl bizi kabab elədilər və bizdən 500 nəfərin daşla vurub beynini dağıtdılar" (72). Göründüyü kimi, burada heç də söhbət insanların kabab edilməsindən getmir. Sadəcə olaraq, baş verən hadisənin şiddətinin və ya gərginliyinin çatdırılması üçün belə ifadələrdən istifadə olunmuşdur. Yəni, məcazi bir ifadə vasitəsinə əl atılmışdır. Səfəvilər tərəfindən adan ətinin kabab edilməsi və yeyilməsi ilə bağlı bəzi mənbələrdə olan məlumatlar da belə məcazi ifadə forması sayıla bilər. Bu məlumatın heç də bütün mötəbər mənbələrdə əksini tapmaması deyilənlərə bir əsas kimi qəbul edilə bilər.

Qızılbaş döyüşçülərinin adam əti yeməsinə aid daha bir fakt özbək xanı Şeybək xanın adı ilə bağlıdır. "Rövzətüs Səfəviyyə" müəllifi başqalarına istinadən xəbər verir ki, Şeybək xan öldürüldükdən sonra onun kəllə sümüyündən qədəh düzəldildi, bədəninin əti isə yemək üçün qızılbaş döyüşçülərinə verildi (73). Elmi-tarixi ədəbiyyatda bu məlumatdan da Şah İsmayılın "rəhimsizliyinin" sübutu üçün gen-boil istifadə edilməkdədir. Eşton Metz, Con Barkun "Şah-e cəng-e iraniyan dər Çaldıran və yunan" əsərlərini fars dilinə tərcümə etmiş Zəbiulla Mənsuri bu məsələyə öz münasibətini belə birlidmişdi: "Özbək xanı Şeybək xan bütün İranı tutmaq istəyirdi. Şah İsmayıl da ona qarşı müharibəyə getdi və Türküstanda olan Mərv şəhəri yaxınlığında Şah İsmayılın qoşunları ilə Şeybək xanın qoşunları arasında yeddi gün döyüş getdi. Şeybək xan Mərv şəhərinin 3 fərsəngliyində olan Mahmudi kəndində öldürüldü. Eşitmişəm ki, Şah İsmayılın yanında olan sufilər onun əmrinə əsasən və ya ondan göstəriş almadan Şeybək xan Şeybaninin cəsədini yemişlər. Lakin biz heç bir tarixdə bu məsələ ilə rastlaşmamışıq. Sözsüz ki, mənim kimi tarixçilərin əlində məhdud sayda tarix əsərləri var və bütün tarix əsərlərinə mənim əlim çatmır. Amma oxuduğumuz tarix kitablarından bildiyimə görə, Şeybək xanın qətlindən sonra onun başı kəsilmiş, onun dərisi soyulmuş, dərisinin içi samanla doldurulmuş Sultan Səlimin atası olan və Şeybək xanı dəstəkləyən Osmanlı sultanı Sultan Bəyazidə göndərilmişdir. Şeybək xanın kəllə sümüyü isə qızıla tutuldu, kasa şəklinə salındı və Şah İsmayıl həmin kasa ilə bir neçə dəfə su içdi" (74).

Göründüyü kimi, bu məsələnin doğruluğu da farsdilli tədqiqatçılar arasında şübhə ilə qarşılanmışdır. Ona görə bu faktın istifadəsi də ona ehtiyatla yanaşılmasını tələb edir.

**2) Şah İsmayılın fiziki və mənəvi keyfiyyətləri**

Fiziki və mənəvi keyfiyyətlərin bir-birini tamamlaması Şah İsmayıl şəxsiyyətinin mühüm tərəflərindən biridir. O, mürşidi-kamil kimi dərin etiqad sahibi idi və bütün müridləri üçün inam və güvənc yeri idi. Şah İsmayıl yeni bir dövlət qurulması ideologiyasının ilhamçısı idi və bu ideologiyanın ətrafına çox böyük sayda tərəfdar toplayaraq onu reallığa çevirə bilmişdi. Şah İsmayıl eyni zamanda güc-qüvvət sahibi idi, 12 yaşında ikən Gilandan başladığı hərəkatının vuran əli idi. 12 yaşında olan bir uşaq hərəkatın ilk günündən silahlı mübarizənin ön sırasında dayanaraq ətrafına topladığı silahlı döyüşçülər üçün ilham mənbəyi və döyüşkənlik meyarı idi. İnanılması çətin olsa belə 12 yaşında bir uşaq yeni bir dövlət qurulması uğrunda başlanan hərəkatın ideya rəhbəri olmasından əlavə, həm də hərbi rəhbəri idi, bu hərəkatın sərkərdəsi idi. 12 yaşından başlayaraq Təbrizdə Səfəvi dövlətinin əsasını qurduğu vaxta qədər (o zaman Şah İsmayılı 14 yaşı var idi) və hakimiyyətə gəlməsindən Çaldıran döyüşünə qədər son dərəcə ağır, məsuliyyətili döyüşlərə özü rəhbərlik etmişdi və bu döyüşlərin hamısını da qələbə ilə başa vurmuşdu. Dünya tarixi üçün 12-13 yaşında uşağın həm böyük siyasi hərəkata rəhbərlik etməsi, həm də böyük sayda qoşunlara rəhbərlik etməsi və bu qoşunların qələbəsinin əsas ağırlığını öz üzərinə götürməsi bənzərsiz bir hadisə olaraq Şah İsmayılın şəxsində təcəlli etmişdi. Elmi kommunizmin banilərindən biri olan Karl Marks vaxtilə Şah İsmayılın bu fenomeninə öz heyrətini gizlədə bilməyərək əsərlərinin birində belə yazmışdı: “Səfəvilər xanədanının banisi Şah İsmayıl fateh idi. O, on dörd illik hakimiyyəti dövründə on dörd əyaləti fəth etmişdi” (75).

Şah İsmayılın böyük sərkərdə, fateh və cahangir olması mənbələrdə də öz əksini tapmışdır. Hazırkı araşdırma üçün cəlb edilmiş mənbələrdə də Şah İsmayılın sərkərdəliyi haqqında kifayət qədər heyrətdoğurucu məlumatlarla rastlaşmaq mümkündür. “Əhsənüt təvarix” müəllifi Həsən bəy Rumlu əsərində Şah İsmayılın rəhbərliyi ilə aparılmış beş döyüşü xüsusilə qeyd edirdi. Həmin döyüşlər bunlar idi: 1500-cü ildə Cəbani ətrafında Şirvanşah Fərrux Yasara qarşı aparılmış döyüş, 1501-ci ildə Şərurda Ağqoyunlu Əlvənd Mirzəyə qarşı aparılmış döyüş, 1503-cü ildə Almaqulağı adlanan məntəqədə Ağqoyunlu Sultan Murada qarşı aparılan döyüş, 1510-cu ildə Mərv ətrafında Şeybək xana qarşı apardığı döyüş və nəhayət 1514-cü ildə baş vermiş Çaldıran döyüşü (76).

Əslində, Şah İsmayılın hərb məharətini yalnız bu döyüşlərlə məhdudlaşdırmaq olmaz. Onun bütün döyüşləri Şah İsmayılın hərbi təfəkkürü ilə bərabər, həm də fiziki gücünün göstəricisi idi.

Səfəvilər dövlətinin əsası qoyulana qədər Şah İsmayıl (İsmayıl Mirzə) Şirvanda, Şamaxı və Bakı qalaları ətrafında, Şərurda Ağqoyunlu Əlvənd Mirzənin qoşunlarına qarşı ağır və məsuliyatli döyüşlər aparmışdı. Bu yaşda belə ağır döyüşlərə atılması, həmin döyüşlərdə xüsusi şücaət göstərməsi heç şübhəsiz ki, Şah İsmayıldan güclü fiziki keyfiyyətlər tələb edirdi. Həmin keyfiyyətlər Şah İsmayılda var idi. Məsələn, qılınc işlətmək bacarığı, qılınc vuran qolun fiziki

gücü, at çapmaq məharəti, nizə işlətmək qabiliyyəti və s. Yoxsa, o bu döyüşlərdə iştirak edə bilməzdi. Bu keyfiyyətlər onda var idi və özü də bu fiziki gücün və qabiliyyətin miqyasını adi sözün təsviri ilə əhatə etmək də mümkün deyil. Fiziki gücünə görə də Şah İsmayıl bütün döyüşçülərindən, qarşı tərəfin döyüşçülərindən kəskin şəkildə fərqlənən bir sərkərdə idi. Əvvəlki fəsillərdəki məlumatlardan da məlumdur ki, Çaldıran döyüşündə Şah İsmayıl qılıncının gücü ilə Osmanlı toplarını bir-birinə bağlamış qalın zənciri vurub parçalamışdı. Onun qılıncının hədəfinə çevrilən düşmən döyüşçüsünün sağ qalması mümkün deyildi. Mənbələrdə də dəfələrlə göstərilmişdir ki, Şah İsmayılın qılıncı hətta zirehli paltara malik olan düşmən döyüşçüsünü başından kəmərinə qədər parçalayardı.

Bu fiziki keyfiyyətlərin əldə edilməsi üçün müvafiq səviyyədə hazırlıq keçilməsinə ehtiyac var idi. Amma təəssüf ki, mənbələrdə Şah İsmayılın bu fiziki keyfiyyətləri necə əldə etməsi haqqında məlumatlar mövcud deyil. Mənbələr daha çox Şah İsmayılın ideya və etiqad baxımından yetişməsinə diqqət yetirsələr də, onun fiziki formalaşmasına diqqət ayırmamışlar.

Fiziki və döyüş keyfiyyətlərinin əldə edilməsi və təkmilləşdirilməsi üçün dövrün ənənəvi üsullarından biri sözsüz ki, ov mərasimləri idi. Ov mərasimlərində hər bir adamın çevikliyi, silah işlətmək məharəti, dəqiqliyi, fiziki gücü formalaşmaqla daha da inkişaf edirdi. Böyük vəhşi heyvanlara qarşı həyata keçirilən ov mərasimləri, əslində, döyüş şəraitinə yaxınlaşdırılmış şəraitdə silah və güc işlədilməsi demək idi. Əks təqdirdə, böyük vəhşi heyvanların qurbanına çevrilmək olardı.

Şah İsmayıl (İsmayıl Mirzə) da ov mərasimlərini sevirdi. Hətta Səfəvi dövlətinin əsasını qoyduqdan sonra da Şah İsmayıl fürsət tapan kimi ov mərasimlərinə yollanardı. Onun ov mərasimlərinə xüsusi bir bağlılığı var idi. Bu mərasimlər onun üçün bir tərəfdən əyləncə idisə, bir tərəfdən də fiziki və döyüş vərdişlərinin daha da təkmilləşdirilməsi fürsəti idi. Ov mərasimində olmaq özü də hər bir insandan müəyyən fiziki keyfiyyətləri tələb edirdi. Heç şübhəsiz ki, Şah İsmayıl hələ kiçik yaşlarından sağlam bədənə, normal fiziki inkişafa malik idi. Yoxsa, ov mərasiminin fiziki gərginliklərinə tab gətirmək mümkün olmazdı. Baxmayaraq ki, Şah İsmayıl (İsmayıl Mirzə) hələ kiçik yaşlarından sonsuz fiziki məhrumiyyətlərə düçar olmuşdu, həbsxanada qalmışdı, bununla belə, fiziki baxımdan normal inkişafa malik idi. Ov mərasimindən başqa onun hansısa fiziki təmrinlərlə məşğul olması haqqında da bir məlumat söyləmək çətindir. Bəzən elmi-tarixi ədəbiyyatda Şah İsmayılın onu Gilana müşayiət edən 7 qızılbaş əmirinin və xəlifəsinin rəhbərliyi altında döyüş vərdişlərinə yiyələndiyi bildirilir. Bunu istisna etmək olmaz. Çünki onu Gilana müşayiət edən qızılbaş əmirləri doğrudan da, kifayət qədər ciddi döyüş təcrübəsinə də malik idilər.

Şah İsmayılın (İsmayıl Mirzənin) hələ Lahicanda olduğu kiçik yaşlarında ovçuluğa maraq göstərməsi haqqında bəzi məlumatlar mövcuddur. Həmin məlumatlara görə, İsmayıl Mirzə elə həyət-bacada ox atmaq təmrinləri ilə məşğul olurarmış və bu zaman həyətdəki və yaxınlıqdakı ev quşları da onun oxunun

hədəfinə çevrilərmiş. Bundan xəbər tutan xidmətçilər İsmayıl Mirzəni, onun qardaşını və onunla birlikdə olan qızılbaş xəlifələrini himayə altına almış Mirzə Əli Karkiyaya şikayət ediblərmiş. Mirzə Əli Karkiya da öz xidmətçilərinə İsmayıl Mirzəyə mane olmamağı tapşırıbmış (77).

İsmayıl Mirzənin təqiblərdən gizlənməli olduğu Lahican bölgəsinin dağlarında və meşələrində ov etmək üçün kifayət qədər ehtiyatlar var idi. Digər tərəfdən bu bölgə Xəzər dənizinin sahilində yerləşirdi və bu da imkan verirdi ki, bölgənin çaylarından başqa, həm də Xəzər dənizində balıq ovu ilə məşğul olsun. Şah İsmayılın bütün həyatı boyu ova olan bağlılığına görə heç şübhə yoxdur ki, o, Lahicanda olarkən ovla davamlı şəkildə məşğul olmuşdur. Bu da sözsüz ki, İsmayıl Mirzənin fiziki cəhətdən daha da təkmilləşməsinə kömək edirdi. Ona görə qeyd etmək olar ki, ov mərasimlərində iştirak etməsi Şah İsmayılın fiziki və döyüş keyfiyyətlərinin formalaşması üçün ilk meydan olmuşdu.

Mənbələrdə olan məlumata görə, İsmayıl Mirzə 12 yaşında olarkən ilk təhlükəli ovunu etmişdi. Qızılbaş qoşunları ilə Şirvana doğru hərəkət edərkən İsmayıl Mirzəyə yaxınlıqda ayı mağarasının olması xəbərini verirlər. İsmayıl Mirzə də qərar gəlir ki, həmin mağaradakı ayını ovlasın. Ətrafındakıların keçirdiyi həyəcana baxmayaraq, İsmayıl Mirzə onun üstünə gələn ayını hədəf götürür və iki oxla onu diz çökməyə məcbur edir (78).

Şah İsmayılın xarici görkəmi və fiziki keyfiyyətləri barəsində elmi-tarixi dövriyyədə olan məlumatlar onun Lahicanı təkr etməsindən sonrakı dövrə aiddir. Hər halda onun 12-13 yaşlarında böyük hərəkata başlaması onu deməyə əsas verir ki, bu zaman o, artıq həm də fiziki baxımdan formalaşmışdı və qılınc vurmaq iqtidarında idi. Ümumiyyətlə, şərq mənbələrində onun xarici görünüşü haqqında çox müxtəsər məlumatlar mövcuddur. Bu barədə daha geniş məlumatlara qərb səyyahlarının, xüsusilə, venesiyalı səyyahların və tacirlərin xatirələrində rast gəlmək mümkündür. Onlardan bəzisi Şah İsmayılı şəxsən görmüşdü və onunla bağlı öz təəssüratlarını da xatirələrinə köçürmüşdülər.

Şah İsmayıl haqqında elmi-tarixi dövriyyədə olan ilk xatirələrdən biri venesiyalı tacir Katerino Zenoya məxsusdur. O, Şah İsmayıl haqqında belə yazırdı: "Nəcib siması və şahanə rəftarı var idi. Bilmirəm onun gözündə və üzündə nə gizlənmişdi. Hər nə vardısa o dərəcədə valehedici və amiranə idi ki, aydın şəkildə bir gün böyük padşah olacağından xəbər verirdi. Onun əqli fəzilətləri ilə zahiri gözəlliyi heç də ziddiyyət təşkil etmirdi. Yüksək dühası və misilsiz ideyaları onun belə gənc yaşları üçün bəlkə də qeyri-adi görünürdü" (79).

Şah İsmayılı Təbrizdə görmüş və hətta onunla söhbət etmiş bir venesiyalı tacir onun zahiri və əqli kamilliyə malik olduğunu, öz ətrafındakılardan bütün cəhətlərinə görə seçildiyini bildirirdi: "Hal-hazırda Şah İsmayılın 31 yaşı var. Ahu kimi xoş siması və cazibəli çöhrəsi vardır. ... Çox gözəldir, vüqar sahibidir və orta boyludur. Yrəyəyatan surəti, möhkəm bədəni və enli kürəklrəi var. Saqqalını qırxır və bığlarını saxlayır. Zahirən gursaçlı görünür. Gözəlliyinə görə sevimlidir, gənc ahular kimi çox çevikdir. Sol əli ilə işləyir. Və bütün əmirlərindən daha güclüdür" (80).

Şah İsmayılın fiziki və əqli keyfiyyətləri haqqında başqa bir venesiyalı tacir – Ancolellonun xatirələrində də maraqlı qeydlər vardır. Şah İsmayılın bəzi keyfiyyətləri haqqında yuxarıdakı istinadlarda fikirlər Ancolellonun xatirələrində də təsdiqlənmişdir. O yazırdı: “ İsmayıl öz gözəlliyinə və davranışına görə çox sevimli idi. Kişilik həddinə çatandan sonra o, çox yaraşıqlı oldu, böyü çox da hündür deyildi, lakin yüngül və mütənasib, heç də zəif olmayan möhkəm və enlikürək bədənə malik idi. Onun saçları bir qədər kürən idi. Qızılbaş adətlərinə uyğun olaraq yalnız bığ saxlayır, saqqalını isə qırxırdı. Solaxay idi. Hələ gənclik illərində igidliyi və cəsarəti ilə heyrət yaradırdı, döyüşkən xoruzlar kimi bütün əmirlərindən güclü idi. Oxatma yarışlarında 10 almadan 7-ni o vurmuşdu” (81).

Ancolellonun bu qeydləri onu göstərir ki, Şah İsmayıl solaxay idi, onun qılınc vuran gücü sol qolunda toplanmışdı. Sol əli ilə ox atıb, nizə oynatmaq sahəsində də çox böyük vərdişlər əldə etmişdi. Bu qeydlər onu da təsdiq edir ki, Şah İsmayıl hələ gənc yaşlarından bütün əmirlərindən güclü idi. Bunu çoxsaylı mənbələrdə Şah İsmayılın apardığı döyüşlərin nəticələri də təsdiq edirdi. Sol əlin gücü ilə qalın dəmir zənciri parçalaması, dəmir zireh geymiş düşmən əmirlərini ortadan bölməsi Şah İsmayılın fenomenal və heyrətyaradıcı fiziki keyfiyyətlərinin göstəricisi idi.

İtaliyalı tacir və səyyahların xatirələrində qalmış digər qeydlər də Şah İsmayılın zahiri və fiziki kamilliyə malik olduğunu, hündür boyu, dolu bədəni olmasa da, fiziki gücü ilə digərlərindən fərqləndiyini özündə əks etdirir. Qeyd etmək lazımdır ki, Şah İsmayılın hələ çox gənc yaşlarında misilsiz fiziki keyfiyyətlərə malik olması, böyük bir dövlətin əsasını qoyması xarici səyyah və tacirlərin də heyrətinə səbəb olurdu və ona görə onun haqqında olan məlumatları öz xatirələrində əks etdirməyə çalışırdılar.

Venesiyalı tacirlərdən biri Şah İsmayıl haqqında olan xatirələrini belə bölüşürdü: “Bir ildən sonra Şah İsmayıl Təbrizə döndü və ora çatan kimi böyük bayramlar təşkil etdi. Təsadüfən mən də Təbrizdə idim. Çünki ora getmişdim ki, xain Cəmaləddinlə olan məsələlərimi aydınlaşdıram. On dörd gün ərzində Şah İsmayıl hər gün öz əmirləri ilə oxatma əyləncələri keçirdi. Meydanın ortasında bir dirək var idi, onun kəlləsinə isə alma qoyulmuşdu. Hər gün bu dirəyin başına onu qızıl və onu gümüş olmaqla 20 ədəd alma qoyulurdu. Hər kəs hərəkətdə olarkən kamandan ox atır və almanı yerə salırdılar. O alma həmin adamın olurdu. Hər dəfə alma yerə düşəndən sonra oxatanlar bir qədər istirahət edir, şərab içir və şirniyyat yeyirdi. Bu oyun zamanı iki yaraşıqlı oğlan Şah İsmayılın iki tərəfində dayanırdı. Birinin əlində zərli bardaq var idi. Digərinin əlində isə şirniyyatla dolu olan boşqablar var idi. Əmirlərin şərab və şirniyyatı isə ayrıca idi. İsmayıl istirahət edəndə o cavanlar şərab və şirniyyatla ona yaxınlaşırdılar. Almanı vura bilməyəndə şərab içir və ya şirniyyat yeyirdi” (82).

Şərq mənbələrində də Şah İsmayılın xarici görünüşü, əqli və fiziki keyfiyətləri haqqında müəyyən kəsad qeydlərlə rastlaşmaq mümkündür. Mən-

bələrin birində Şah İsmayıl (İsmayıl Mirzə) və eləcə də onun qardaşları xarici görünüşünə və yaraşığına görə Yusif Kənana oxşadılmışdı (83).

"Əhsənüt-tarix" əsərinin müəllifi Həsən Rumlu onun haqqında belə yazırdı: " Döyüş meydanında Şah İsmayıl əlində qılınc tutmuş şirə bənzəyirdi. Ziyafət salonlarında isə o, mirvari yağan buludu andırırdı (yəni, çox səxavətli idi – M.S.). O çox səxavətli idi və bahalı hədiyyələr verməyi sevirdi. Şir və bəbir ovunu dəlicəsinə sevirdi. Kim şiri təqib edib Şah İsmayıl tərəfə qova bilsəydi hədiyyə olaraq yəhərli at alırdı. Bəbiri onun tərəfə qovan isə yəhərsiz at hədiyyə alırdı" (84).

Şah İsmayılın həm səxavətliliyi, həm də ova olan bağlılığı ayrıca araşdırmanın mövzusu ola bilər. Qeyd etmək lazımdır ki, Şah İsmayılın ov mərasimləri haqqında mənbələrdə olan çoxlu sayda məlumatlar bəzi elmi-tarixi ədəbiyyatda Şah İsmayılın eyş-işrət mərasimləri kimi də şərh olunmuşdur. Burada birtərəfli dəyərləndirməyə yol verilməsi məsələyə səthi yanaşmadan başqa bir şey deyildir.

Osmanlı hakimi Sultan Səlimin casuslarından bir olan İzzət Çapin adlı birisinin kəşfiyyat məlumatları kimi Osmanlı sarayına göndərdiyi qeydlərində də Şah İsmayıl haqqında bəzi maraqlı məqamlar vardır. İzzət Çapin onun haqqında belə yazmışdı: "O qısa boylu bir adamdır, qara saçları və göy rəngə çalan gözləri vardır. Saqqalını qırxır, amma uzun bığlar saxlayır. Danışdığı zaman ağ və xırda dişləri görünür" (85). Farsdilli mənbələrdə olan məlumatlar isə daha çox onun əfsanəvi şərq qəhrəmanları, o cümlədən Makedoniyalı İskəndər kimi fiziki gücə malik olmasından xəbər verirdi. Hələ uşaq yaşlarından malik olduğu friziki keyfiyyətlərini Şah İsmayıl əvvəlcə ov mərasimlərində, idman yarışlarında, sonra isə iştirak etdiyi döyüşlərdə daha da təkmilləşdirdi və dövrünün mahir sərkərdəsi kimi formalaşdı. Şah İsmayıl dünyasını dəyişdiyi günə kimi, iştirak etdiyi bütün döyüşlərdə Səfəvi qoşunlarının vuran qolu və real lideri idi.

Fiziki güçü və keyfiyyətləri ona imkan vermişdi ki, bacarıqlı döyüşçü olmaqdan əlavə, həm də qüdrətli bir sərkərdə olsun. Dövrün tələbləri sərkərdələrdən həm fiziki və əqli keyfiyyətlərin vəhdətini tələb edirdi. Şah İsmayıl sərkərdə kimi həm qoşunlara rəhbərlik edirdi, döyüşləri təşkil edirdi, müvafiq qərarları qəbul edirdi, həm də qəbul olunmuş qərarların əməli icrasının əsas ağırlığını öz üzərinə götürürdü. Şah İsmayıl döyüş meydanında bir qayda olaraq qoşunların mərkəzində dayanırdı. Başqa sözlə, qarşı tərəfə vurulacaq zərbənin əsas ağırlığını öz üzərinə götürürdü.

Çevikliyi, qorxmazlığı, qolunun gücü ilə Şah İsmayıl bütün qoşunu da ən gərgin döyüşə ilhamlandırırdı. Şah İsmayıl fiziki keyfiyyətlərinə və döyüşkənliyinə görə də öz qoşunlarının lideri olaraq qalmaqda idi. Şah İsmayıl dövrünün tədqiqatçıları da qeyd edirlər ki, Səfəvi qoşunlarının saysız-hesabsız tarixi qələbələrində Şah İsmayılın fərdi keyfiyyətlərinin çox böyük rolu var idi. Belə ki, o, möhkəm iradəsi və cəsurluğu ilə başladığı hərəkatın uğurla sona çatdırılması üçün hər cürə çətinliyi və təhlükəni qorxmadan qarşılayırdı və onun vücudunda qorxu və ürkü yox idi.



*Şah İsmayılın Bakı şəhərindəki abidəsi*

Tədqiqatçılar tərəfindən hətta belə bir müqayisə də aparılır ki, əgər Şah İsmayılın yerinə qardaşı İbrahim Mirzə olsaydı, qızılbaş qoşunlarının bütün səylərinə və döyüşkənliyinə baxmayaraq, qarşıya qoyulmuş məqsədə çatmaq mümkün olmazdı. Bildirilir ki, Şah İsmayıl döyüşçü kimi hünərlilərin ən hünərlisi idi və bu hünəri ilə də o, qatıldığı döyüşlərdə əfsanələr yaradırdı (86).

Şah İsmayılın fiziki və döyüş keyfiyyətlərinin formalaşmasında onun etnik mənsubiyyətinin rolunu qiymətləndirməmək doğru olmazdı. Döyüşçü kimi doğulmaq və yaşamaq dövrün hər bir türkü üçün ayrılmaz mövcudluq şərti idi. Türk həyatında igidlik, döyüşkənlik ənənələri əsrlərdən bəri davam etməklə Şah İsmayılın dövründə də öz aktuallığını qoruyub saxlamaqda idi. Şah İsmayılın dövründə də, onun hərəkata başlaması ərəfəsində də Azərbaycan ərazisində türk dövlətlərinin meydana gəlməsi məhz türk tayfalarının döyüşkənliyi ilə şərtlənirdi. Normal sağlamlıq durumuna malik olan hər bir türk həyatını at belində keçirməklə bir döyüşçü kimi yaşayırdı. Bir sözlə, döyüşçü olmaq hər bir türk üçün dövrün zəruri tələbi idi və bu tələbdən kənarda qalmaq zamanın tələbləri ilə ayaqlaşmamaq kimi qəbul edilə bilərdi. Mənsub olduğu türk mühiti Şah İsmayılın babasını da, atasını da, onun qardaşlarını da və eləcə də özünü bir döyüşçü kimi formalaşdırmışdı. Təsadüfi deyil ki, Şah İsmayılın (İsmayıl Mirzənin) döyüşçü kimi formalaşmasına təsir göstərə biləcək yaxın ətrafı da türk-qızılbaş əmirləri idi.

Potensial düşmənlərin döyüş qabiliyyətinin də Şah İsmayılın fiziki keyfiyyətlərinin və döyüş vərdişlərinin formalaşmasına təsiri diqqətdən kənarda qalmamalıdır. Şah İsmayıl (İsmayıl Mirzə) bilirdi ki, hərəkatının sona çatdırılması və yeni bir dövlətin əsasının qoyulması üçün hansı qüvvələrlə qarşılaşmalı olacaqdır. Bu qüvvələr arasında Şirvanşahlar dövlətinin, Ağqoyunlu Əlvənd Mirzənin qoşunları kimi güclü qoşunlar var idi. Həmin qüvvələrin böyük potensiala malik olmasının nəticəsi idi ki, babası Şeyx Cüneyd, atası Şeyx Heydər və qardaşı Sultan Əli Mirzə həyatları ilə vidalaşmalı olmuşdular. Şah İsmayıl bu qoşunlara o zaman qalib gələ bilərdi ki, həm də fiziki baxımdan öz düşmənlərindən güclü olsun. Yəni, qarşı tərəfin döyüş potensialı Şah İsmayılı (İsmayıl Mirzəni) də məcbur edirdi ki, uyğun fiziki keyfiyyətlərə malik olsun.

Şah İsmayıl fiziki keyfiyyətlərinin kamilliyi ilə necə heyrət yaradırdısa, mənəvi keyfiyyətlərinin mükəmməlliyi ilə də o dərəcədə heyrət doğururdu. Məhz bu keyfiyyətlərin qarşılıqlı vəhdəti və dialektikası Şah İsmayılın bir fenomen kimi tarix səhnəsinə çıxmasına zəmin yaratmışdı. 12-13 yaşlarında ətrafında real qüvvə olmadan yeni dövlət yaradılması uğrunda mübarizəyə başlaması da bu fenomenin əyani nümayişi idi.

Dünya tarixində Şah İsmayıl yaşında və hətta ondan da gənc yaşlarında hakimiyyət taxt-tacına yiyələnmək halları olmuşdur. Elə Şah İsmayılın oğlu Təhmasib Mirzə 10 yaşında ikən Səfəvi taxt-tacına sahib olmuşdu. Amma Təhmasib Mirzə atasından fərqli olaraq taxt-taca hazır vəziyyətdə sahib olmuşdu. Şah İsmayıl isə əksinə, özü bayraq qaldıraraq hərəkata başlamış və bu hərəkatı

ilə yeni bir dövlətin əsasını qoymuşdu. Bu mənada Şah İsmayılın dövlətçilik nümunəsi dünya tarixində bənzəri olmayan və yəqin ki, bir daha təkrarlanmayacaq bir nümunədir. Bununla, Azərbaycan və türk dövlətçilik tarixinə də əhəmiyyəti heç zaman sönməyəcək bir səhifə yazılmışdır. Belə bir zirvənin fəth edilməsi isə fiziki keyfiyyətlərlə bərabər, Şah İsmayılın həm də yenilməz iradəyə, mübariz əqidəyə, misilsiz təşkilatçılıq istedadına malik olması ilə mümkün olmuşdu.

Şah İsmayılın mənəvi keyfiyyətlərinin formalaşmasına onun mürşidi-kamil olması, siyasi əqidəsi və etnik-milli dəyərləri xüsusi təsir göstərirdi. Hələ uşaq yaşlarından mürşidi-kamil məqamı onun üzərinə çox böyük məsuliyyətlər qoymuşdu. Bununla, o, bir tərəfdən etiqad dəyərlərinin kamilliyini ortaya qoyaraq ardınca gedənlərin etimadını itirməməli, bir tərəfdən Səfəvi xanədanının, yəni, öz əcdadlarının etiqada bağlı olan ənənələrini davam etdirərək daha da inkişaf etdirməli, digər tərəfdən də öz həyat mövqeyi ilə mürşidi-kamilliyə layiqliyini nümayiş etdirməli idi. Bir daha qeyd edilməlidir ki, müridlər üçün Səfəvi təriqəti haqqın tanınması, haqqa ibadət yolu kimi qəbul edilirdi və mürşidi-kamil də bu yolda onların dini-mənəvi rəhbəri olmalı idi. Yəni, mürşidi-kamil özündə elə keyfiyyətləri cəmləşdirməli idi ki, on minlərlə insanın inancının simvoluna çevrilməli idi. Şah İsmayıl bu keyfiyyətləri özündə formalaşdırmışdı və əcdadlarının sufi ənənələrini müridlərinə nümunə olacaq səviyyədə davam etdirirdi.

Hələ uşaq yaşlarından mürşidi-kamil məqamını öz üzərinə götürməsi onun mənəvi keyfiyyətlərinin formalaşmasına aparıcı təsir göstərmişdi. Çünki başqa halda on minlərlə müridi öz ətrafında toplaya və onları öz hərəkatına səfərbər edə bilməzdi. Ona görə idi ki, minlərlə Səfəvi müridi Şah İsmayıl hərəkatının başlanğıcında qızılbaşların sırasına qoşulmağı özlərinin dini və mənəvi borcu hesab etdilər və islam bayrağı altında yeni bir səltənətin yaradılması yolunda döyüş meydanına atıldılar. Müridləri şübhə etmirdilər ki, Şah İsmayıl öz mübarizəsi ilə müqəddəslərin iradəsini əks etdirir. Başqa sözlə, onun şəxsində müqəddəslərin iradəsindən irəli gələn keyfiyyətlər toplanıblar, onun sözü və mövqeyi haqqdır. Şah İsmayıl dini-mənəvi keyfiyyətləri ilə öz döyüşçülərinin elə inamını qazana bilmişdi ki, onların çoxu müəyyən hallarda mürşidi-kamilin kəramətinə arxalanaraq döyüş meydanına zirehsiz və təchizatsız atılırdılar. Venesiyalı tacir Ancolello bu barədə öz qeydlərində belə yazırdı: “Belə demək olar ki, hamı bu cavan şəhriyarı pərəstiş səviyyəsində sevirdilər. Xüsusilə, qoşun əhli ki, onların çoxu zireh geyinməmiş döyüş meydanına qədəm qoyurdular. Adətən, bu qrup sinələri açıq meydana daxil olurdular” (87).

Şah İsmayılın dini etiqadı və mürşidi-kamilliyi onun siyasi əqidəsinin də formalaşmasına öz təsirini göstərirdi. Ümumiyyətlə, Şah İsmayılın bütün mənəvi, dini-ideoloji keyfiyyətləri bir-biri ilə sıx qarşılıqlı təsirə malikdir və onların hər hansı birinin digərindən təcrid edilmiş halda baxılması qeyri-obyektiv qənaətlərə gətirib çıxara bilər. Onun siyasi əqidəsinə gəlincə, qeyd edilməlidir ki, Şah İsmayılın dini mövqeyi siyasi təsirlərlə çulğaşmışdısa, siyasi

əqidəsi də dini dəyərlərin təsiri altında formalaşmışdı. Şah İsmayılın hərəkatının mahiyyətində dini maraqları ilə siyasi maraqları vəhdət halında idi və bu maraqlar dövlətçilik maraqları çərçivəsində səmərəli şəkildə əlaqələndirilmişdi.

Siyasi təfəkkürü, duyumu və qabiliyyəti Şah İsmayıl fenomeninin ayrılmaz tərkib hissəsi idi. Öz hərəkatına başlamaqla Şah İsmayıl təriqət liderliyi ilə bərabər, həm də siyasi liderliyi öz üzərinə götürdü, çox böyük qüvvələri başladığı siyasi mübarizəyə səfərbər etdi və onlara rəhbərliyi də uğurla başa çatdırdı. Hələ kifayət qədər az yaşında olmasına baxmayaraq, ətrafında cərəyan edən siyasi prosesləri öz hərəkatının maraqları çərçivəsində dəqiqliklə dəyərləndirməsi, öz hərəkatına başlaması üçün münasib anın düzgün müəyyənləşdirilməsi, real siyasi məqsədlər ortaya qoyması Şah İsmayıl fenomeninin başqa bir təsdiqidir. 14 yaşında ikən öz siyasi mübarizəsini Səfəvi dövlətinin əsasının qoyulması ilə başa çatdırması isə Şah İsmayılın həm də dövlətçilik təfəkkürünün əyani nümayişi idi.

Böyük bir səltənəti qurmağa qadir olan yenilməz siyasi iradənin Şah İsmayılda necə formalaşması özü heyrət doğuracaq bir haldır. Çünki siyasi proseslərin baş verdiyi məkandan kənarda olmaqla Şah İsmayılın (İsmayıl Mirzənin) uşaqlıq əyləncələrinə daha çox vaxt ayırması daha məntiqi görünəcəyi halda, özündə bir siyasi duyum və iradə formalaşdıra, çoxlu sayda müridlərini öz ardınca bu siyasi mübarizəyə qoşa bildi və bu mübarizənin çətinliklərindən heç də çəkinmədi. Hətta babasının, atasının və qardaşının qoşulduqları bu siyasi mübarizədə öz həyatlarını itirməsi də Şah İsmayılın siyasi iradəsini qıra bilmədi. Şah İsmayıla qədər Səfəvi təriqət hərəkatının siyasiləşməsinin artıq müəyyən təcrübəsi var idi. Şah İsmayılın böyüklüyü isə onda oldu ki, uşaq yaşlarında olmasına baxmayaraq, zəifləmiş həmin hərəkata yeni bir nəfəs gətirdi, bu hərəkatın taktikasını, strategiyasını müəyyənləşdirdi, səltənət hüdudunda mövcud olan dövlətlərin daha təkmilləşmiş bir nümunəsini tarixə bəxş etdi, Səfəvi dövləti kimi əzəmətli bir dövləti qurdu.

Şah İsmayıl öz siyasi təfəkkürü ilə həm Azərbaycan torpaqlarını, həm də Azərbaycan ətrafında olan torpaqları vahid dövlət daxilində birləşdirdi, siyasi parçalanmalara, silahlı çəkişmələrə son qoydu, səltənət tərkibində olan xalqların sabit və inkifaşda olan həyatına təminat yaratdı. Bununla, Şah İsmayıl bir tərəfdən özünün siyasi liderlik keyfiyyətlərini, digər tərəfdən də dövlət idarəçiliyi keyfiyyətlərini nümayiş etdirdi.

Bir çox tədqiqatçılar Şah İsmayılı həm də İranın milli birliyinə nail olmuş dövlət xadimi kimi dəyərləndirirlər. O, doğrudan da, həm də İran arealında parçalanmalara son qoydu və hazırkı İranın sərhədlərinin müəyyənləşməsində öz tarixi rolunu oynadı. İngilis filoloqu Edvard Braun Səfəvilər xanədanının, o cümlədən də Şah İsmayılın İranın bir dövlət daxilində qurumlanmasındakı roluna münasibətini belə bildirirdi: “ Mən “İran ədəbiyyatı tarixi” kitabının (Səfəvi dövrünə aid) dördüncü cildini yazarkən çap olunmamış bir neçə nadir kitaba Şah İsmayıl və digər səfəvilər ilə bağlı olaraq müraciət etdim və həqiqətdə İranın yaradıcısı olan bu ali əsilli ailənin əhəmiyyətini az-az başa düşməyə başladım.

...Həqiqətən, belə nəzərə çarpır ki, iranlılar indiyə kimi Şah İsmayılın qədrini bilməmişlər. O, türk Sultan Mahmud Qəznəvidən, sünni təəssüblü səlcuqlardan, tatar Teymurdan mənim fikrimcə ...sitayiş və ehtirama daha layiqlidir". Müəllif sonra əlavə edirdi ki, indiyə qədər şərqdə və qərbdə çap olunan tarix kitablarının heç birində Səfəvilərin tarixi lazımi şəkildə öz əksini tapmamış və iranlılar da İranın milli ruhunun oyadılması ilə bağlı Səfəvilərin tarixinə nüfuz edə bilməmişlər. E.Braunun fikrincə, ərəb istilalarından sonra səfəvilər ilk dəfə olaraq İranı birləşdirdi və onun qədim sərhədlərini bərpa etdi (88).

Məlumdur ki, Şah İsmayıl yalnız İranı deyil, İran arealından kənarda olan əraziləri də öz səltənətində birləşdirdi və ona görə onun dövlətçilik fəaliyyətinin yalnız İran arealı ilə məhdudlaşdırılması heç də bütün tədqiqatçıların gəldiyi qənaət deyil.

Gənc yaşlarında olmasına baxmayaraq, Şah İsmayılın dövlətçilik təfəkkürünün əhatəliliyi onun şəxsiyyətinin başqa dəyərli bir tərəfidir. Dövlət idarəçilik təcrübəsindən uzaq olmasına baxmayaraq, Şah İsmayıl böyük səltənət daxilində səbatlı bir nizam bərqərar edə bilmişdi. Bunun üçün Şah İsmayıl kifayət qədər işlək və çevik bir idarəçilik sistemi yarada bildi. Hər şeydən əvvəl Şah İsmayıl özü idarəetmədə çevikliyi ilə seçilirdi. Dövrün hakimlərindən fərqli olaraq, Şah İsmayıl öz dövlət idarəçiliyini yalnız saray daxilində qurmamışdı. O, çox tez-tez yerini dəyişər, səltənətinin müxtəlif bölgələrində düşərgə salar və uzun müddət həmin düşərgədə qalardı. Yəni, Şah İsmayıl saray rahatlığı ilə qənaətlənən bir hakim deyildi və saraydan kənar kəyat keçirməkdən heç də çəkinməzdi (89). Səltənət vilayətlərində uzun müddətə düşərgə salmaqla Şah İsmayıl həm yerli idarəçiliklə yaxından tanış olur, həm də vilayətlərin vəziyyətini yaxından müşahidə edə bilirdi. Ov mərasimləri ilə bağlı vilayətlərə yollanmasını və orada müəyyən müddət vaxt keçriməsinin də Şah İsmayılın dövlət idarəçiliyi ilə bağlı olduğunu istisna etmək olmaz. Çünki onun vilayətlərə səfəri, heç şübhəsiz ki, yerli hakimləri öz vəzifələrinə daha ciddi yanaşmağa sövq edirdi.

Dövlət idarəçilik sistemində Şah İsmayıl peşəkarlığa böyük dəyər verirdi. Baxmayaraq ki, Şah İsmayıl mühüm dövlət vəzifələrinə etibar etdiyi adamların təyinatına daha çox üstünlük verirdi, bununla belə, idarəçilik təcrübəsi və məharəti təyinatlar zamanı əsas tutulurdu. Əvvəlki fəsillərdən də məlumdur ki, Şah İsmayıl vəzifəsinin öhdəsindən gələ bilməyən əmirlərini başqaları ilə əvəz edirdi. Dövlət idarəçiliyində pəşəkarlığa nail olunması üçün Şah İsmayıl Ağqoyunlu sarayında vəzir olmuş Mirzə Zəkəryə Keçəçini öz sarayına dəvət etmiş və onu vəzir vəzifəsinə təyin etmişdi. Peşəkarlığın artrılması üçün Şah İsmayılın başqa təyinatlar aparması da məlumdur. Bu təyinatlar zamanı özünü doğrultmayan əmirlər də tapılırdı. Məsələn, Şah İsmayılın oğlu Təhmasib Mirzənin ləl əsi Əmir xan Mosullu Xorasan vilayətinin idarəçiliyi zamanı ciddi nöqsanlara yol vermiş və bununla idarəçilik nizamının pozulmasına yol açmışdı. Şah İsmayıl dərhal buna öz münasibətini bildirdi, Əmir xan Mosullunu vəzifəsindən azad etdi və onun yerinə başqa bir əmiri təyin etdi.

Şah İsmayılın idarəçilik sistemində rüşvətxorluğu da görmək mümkün deyil. Doğrudur, bu bəlanın hansısa konkret hallarının olması istisna edilə

bilməz. Amma Səfəvi dövlətinin, xüsusən, səfəvilərin son dövrünə xas olan rüşvətxorluq Şah İsmayılın sarayında mövcud deyildi. Vəzifə sahibləri rüşvət əvəzində həmin vəzifələrə təyin edilmirdilər. Şah İsmayılın özündə də bu bəlaya meylliliyi görmək mümkün deyildi. Rüşvəti əvəz edə biləcək qiymətli hədiyyələrin şaha bağışlanması mərasimləri də Şah İsmayılın hakimiyyəti dövründə rəvac tapmamışdı. Yəni, Şah İsmayıl özü bu məsələdə bir nümunə idi və onun əyanları da Şah İsmayılın bu mövqeyindən xəbərdar idilər. Əyanların maddi ehtiyaclarının aradan qaldırılması üçün isə Şah İsmayıl onlara böyük torpaq sahələri bağışlayırdı. Yüksək vəzifəli əmirlərə müəyyən vilayətlərin hakimliyi həvalə edilirdi və həmin vilayətlər də əmirlərin gəlir mənbəyini təşkil edirdilər. Səfəvi və qızılbaş əmirləri yaxşı bilirdilər ki, dövlətə sədaqət və yüksək peşəkarlıq onlara yüksək vəzifələrlə bərabər, həm də vilayət hakimliyi də təmin edirdi. Bununla da onlar öz yüksək dolanışıqlarını təmin edə bilirdilər. Şah İsmayıl dövrünün əmirləri yaxşı bilirdilər ki, dövlətə sədaqət və yüksək peşkarlıq keyfiyyətləri ilə hətta saraydan kənar olan adamlar da qısa müddət ərzində ən yüksək vəzifələrə sahib ola bilərdilər. Məsələn, Mirzəşah Hüseyni İsfahaninin vəkil vəzifəsinə təyin edilməsi buna nümunə ola bilərdi. Bu adam əvvəllər İsfahan hakimi Durmuş xanın yanında çox da yüksək olmayan bir vəzifədə çalışırdı. Amma onun idarəçilik keyfiyyətləri aşkar olunandan sonra Şah İsmayıl onu sarayına gətirmiş və dövlət vəkili vəzifəsini ona həvalə etmişdi.

Doğrudur, Mirzəşah Hüseyni İsfahandan idi. Amma Şah İsmayıl dövlət idarəçilik sistemində məsul vəzifələrə türk əmirlərin təyin edilməsinə daha çox üstünlük verirdi. Bu, bir tərəfdən Şah İsmayıl hərəkatında türklərin aparıcı rolu ilə bağlı idisə, digər tərəfdən də sözsüz ki, türklərin Şah İsmayıl yanında daha böyük etimad sahibi olmasından irəli gələ bilərdi. Tədqiqatçılar da haqlı olaraq qeyd edirlər ki, qızılbaşlar Şah İsmayılın hakimiyyəti illərində səltənət daxilində yüksək təbəqəni təşkil edirdilər və cəmiyyətdə yuxarı yeri tuturdular. Bildirilir ki, qızılbaş əmirləri İran arealının əhalisini “tacik” adlandırırdılar ki, bu da yerli əhalinin qəzəbi ilə qarşılaşırdı. Tədqiqatçıların fikrincə, qızılbaş əyan və əmirləri yerli farsdilli əhalini qəsdən “tacik” adlandırırdılar və bununla, onlar özlərinin səltənət daxilində imtiyazlı təbəqə olduğunu qabartmağa çalışırdılar. O da əlavə olunurdu ki, qızılbaş (türk) əmirlərinin səltənət daxilində yüksək məqam əldə etməsi və onların farsdilli əhalidən fərqlənməyə çalışması ictimai parçalanmaya aparırdı. Amma məlumdur ki, Şah İsmayıl dövründə belə bir parçalanma yox idi və etnik mənsubiyyətinə görə əhali arasında xüsusi bir gərginlik mövcud deyildi. Yuxarıdakı fikirlərin sahibi olan müəllif özü də etiraf etmək məcburiyyətində qalırdı ki, Şah İsmayılın hakimiyyəti dövründə türk əmirləri və əyanları səltənət daxilində gərginlik yaradacaq hakimiyyət davasına girişməmiş və bununla, gərginliyə də yol açmamışdılar (90). Bu, əslində, Şah İsmayıl dövründə mümkün deyildi. Çünki Şah İsmayıl bütün əmirlər üçün həm mürşidi-kamil idi, həm də hökmdar idi və onların Şah İsmayıla bağlılığı, əsasən, etiqad üzərində qurulmuşdu. Şah İsmayıl da ətrafına o insanları toplamışdı ki, onların etiqadına əmin idi və öz mənəvi tələblərini onlara sirayət etdirə bilmişdi.

Şah İsmayıl istər əyan və əmirləri arasında, istərsə də qoşunlar və əhali arasında böyük hörmət və ehtirama malik idi. Bu hörmət və ehtiramı şərtləndirən səbəblərdən biri də onun kifayət qədər səxavətli bir insan və şah olması idi. Şah İsmayıl var-dövlət hərisi olmadığı kimi, onun toplanmasında ifratçılığı da qəbul etmirdi və onun bu keyfiyyəti ətrafındakılar tərəfindən də layiqincə qiymətləndirilirdi. Şah İsmayıl tarixinin tədqiqatçıları da, ümumən, onun bu keyfiyyətinin mövcudluğunu etiraf edir və onun təsdiq üçün çoxlu sayda faktlara da müraciət edirdilər. Tədqiqatçılardan biri hətta Şah İsmayılın bu keyfiyyətini onun şücaəti ilə müqayisə edir və yazırdı ki, Şah İsmayıl döyüş meydanında necə şücaətli idisə, insanlara münasibətində də o dərəcədə səxavətli idi. Əlavə edilirdi ki, məhz bu cəhətinə görə Şah İsmayıl ümumun sevimlisinə çevrilmişdi (91).

Şah İsmayılın səxavətliliyi həm dövlət idarəçiliyində özünü göstərirdi, həm də müharibə qənimətlərinin bölüşdürülməsində. O, səltənət əhalisinin gün-güzəranının yaxşılaşdırılması üçün vergilərin müəyyənləşdirilməsinə, onların bağışlanmasına xüsusi lütfkarlıqla yanaşırdı. Əhali üçün təyin edilmiş bir sıra vergilər var idi ki, onlar ənənəvi olaraq, hələ Şah İsmayıldan əvvəlki hakimiyyətlər dövründən başlayaraq toplanırdı. Belə vergilərin aradan qaldırılması üçün Şah İsmayıl hakimiyyətə gəlməsindən dərhal sonra fərman verdi və belə vergilərin ləğv edilməsini qərarlaşdırdı. Vergilərin bağışlanması ilə bağlı onun başqa qərarları da məlumdur (92).

Qərb müəllifləri də Şah İsmayılın əhaliyə qarşı səxavətlilik göstərməsini təqdir edirdilər: “Şiələrin padşahı vaxtını müharibələrdə keçirdiyindən ölkənin abadlaşmasına diqqət yetirirdi və 24 illik hakimiyyəti dövründə altı dəfə (yəni orta hesabla hər dörd ildə bir dəfə) bütün səltənət hüdudunda əkinçilərin vergilərini onlara bağışladı. Ona dedilər ki, əgər vergilər daxil olmasa xəzinə boşalacaqdır. Şah İsmayıl isə cavabında dedi ki, əkinci öz mövcudluğunu itirməkdənsə mənim xəzinəmin boş qalması daha yaxşıdır” (93).

Şah İsmayılın əhalinin müxtəlif vergilərdən azad edilməsi haqqında verdiyi fərmanlardan biri Azərbaycan dilində də elmi dövriyyəyə çıxarılmışdır. Həmin fərman belə idi: “Ruziləri paylaşdıran, kəramətli əxlaqı [bəndələrinə] verən əzəməti uca, qətiyyətli dəlilləri açıq-aşkar, ehsanı geniş olan uca Allah, nur saçan dövlətimiz, əzəmətli səltənətimiz və böyük xilafətimizi “Səni insanlara imam (dini rəhbər, başçı) təyin edəcəyəm” [ayəsini bizə şamil etmək vasitəsilə] zinətləndirib bizim fatehlik qabiliyyətimizi və rəhbərliyimizi “Biz səni yer üzündə xəlifə (və ya əvvəlki peyğəmbərlərə xələf) etdik” [ayəsində qeyd etdiyi kimi] aləmin bizə müti olması hökmü ilə bəzədilmiş və cilvələnmişdir. Həmişə bütün diqqət və fəaliyyətimizi mübarək hakimiyyətimiz və gündən-günə genişlənən xilafətimiz dövründə [tabeçiliyimizdə olan] tayfa və xalqların rifah və rahatlıq içində yaşamasına yönəltmişik. Xüsusilə ən ali əsil-nəcabət, mənəvi fəzilətlər və insani dəyərlərlə zinətlənmiş bir firqənin hörmətini saxlamağı özümüzə vacib və xoşbəxtlik rəmzi hesab edirik. Buna görə də mübarək və xoş ovqatda şərafətli, səadət və ucalıq mücəssəməsi, alicənabların alicənabı,

millətin, ucalığın və dinin əzəməti olan Xacə Əbülqasim əl-Cami hüzurumuza gələrək kandarımı öpmək şərəfinə nail oldu. Onun imamət və vilayət ailəsinə nisbət əqidəli olduğu və [bu əqidənin] ürəyinin dərinliyinə saldığı nurun təsiri məlum oldu (Əhli-beyt aşiqi olması məlum oldu). Padşahın lütfünü nümayiş etdirmək məqsədi ilə Ona Loy (Əjdaha) ilindən başlayaraq hər il Cam vilayətinin "malcəhət"indən soyurqal formasında on Təbriz tüməni məbləğində həmişəlik olaraq bağışladıq. Qeyd edilən məbləği hər il adı qeyd olunan Xacənin əkinçilik işlərinə nəzarət edən şəxsdən pula çevirməsini [tələb edib] az və ya çox olması yoxlanılaraq qaytarılsın. Bir şey azaldıb və ya çoxaltmasınlar. Az və ya çox olmasına tamah salmasınlar. Bu barədə səhlənkarlıq və ya ucuzluğa (süründürməçiliyə) yol verməyərək ona qarşı həmişə mehribanlıq etsinlər. Bu bəxşişi qalıcı dəftərlərdə qeyd edib yazsınlar. Həmin xacəyə, övladları və nəvələrinə nəsilbənəsil çatsın və hesabı soruşulmasın. Hər il bu barədə yeni icazə kağızı tələb etməsinlər. Habelə böyüklərin ağası xacə Cəlaləddin Məhəmmədə də mərhəmət göstərərək onun Cam vilayətində olan əkinlərinə nəzarət edən şəxsdən 5000 Təbriz dinarı məbləğində [alaraq] ona hədiyyə və soyurqal verilməsini əmr etdik.

Qeyd olunan vilayət, ona tabe və birləşən [bölgələrin] darğaları, başçıları, kələntərləri, divan işləri üzrə rəhbər və vergi yığanları, mühüm [tapşırıqları] icra edənləri, sultanın xidmətçiləri (birbaşa padşaha tabe olanlar) mübarək fərmanının həmişə hər yerə (dörd tərəfə) aidiyyəti (nufuzu, təsir qüvvəsi) olduğunu bilməlidirlər. Ümumiyyətlə, heç bir halda ondan kənara çıxmamalı və dəyişdirilməməlidir. Bu yaxşılığın davam etməsi və möhkəmlənməsi üçün çalışmalıdırlar. Geri tələb etmək və maneə yaratmadan çəkinərək müstəsna [hal hesab edib] qorusunlar. Hər il yeni sənəd tələb olunmasın, əmrə itaətsizlik edilməsin. İxracat, əvarizat, ulafa, qonalqa, bigar, tərh, səvari, peşkəş, salami, bayramlıq və novruzi, daruğegi, sərçomaği, təhmil, sərşomari, tövcihat, ittifai, piyadə və süvari vergilərinə və digər divani işlərinə görə onları narahat etməsinlər və onların evlərində nüzl etməsinlər. Onların heyvanlarınından ulağ alınmasın. Əkinçilər və onlara aid olanlara əvvəlki əmrdə [olduğu kimi] adambaşına [vergi növünə] görə əliuzunluq etməsinlər və yeni qanun qoyulmasın, bu istiqamətdə üzr qəbul edilmir (qısa qələm və addımları vardır), onlara hörmətlə yanaşmağı, izzət və ehtiram göstərməyi zəruri hesab edin. [Növbəti] ali, yüksək, şərafətli və izzətli möhürlənmiş məktub [gəlincəyə qədər] etimad edib beləcə davam etsinlər" (94).

Şah İsmayıl bununla bir daha göstərirdi ki, onun sözü ilə əməlində bir vəhdət vardır və mürşidi-kamil kimi istər müridlərinin, istərsə də adi insanların yaşayışına biganə deyildir. Yuxarıdakı fərmandan da görünür ki, əhali üzərinə çoxlu sayda vergilərin qoyulmasına və onların tələb edilməsinə Şah İsmayıl razı deyildi. İstinad olunan məlumatlar da onu göstərir ki, vergilərin əhaliyə bağışlanması davamlı xarakter daşıyırdı.

Şah İsmayılın səxavətliliyini nümayiş etdirən fərmanlardan başqa biri də Dizmar seyidlərinin vergilərdən azad edilməsi ilə bağlı imzaladığı fərman idi.

Bu fərman həm də Şah İsmayılın insanlar arasında hörmət və nüfuz sahibi olan seyidlərə necə böyük qayğı ilə yanaşdığını təsdiq edirdi. Həmin fəmanın mətni belədir:

"Mehriban və bağışlayan Allahın adı ilə.

Hökm Allahındır.

Qalibiyyət atası Şah İsmayıl Bahadur əl-Səfəvi sözümüz.

Dizmar vilayətinin divan işlərinə vəzifədar olan və ən mühüm hökmranlıq vəzifələrini həyata keçirən əmirləri, hakimləri, darğaları, amilləri və mübaşirləri bilsinlər ki, [quranda] dürr kimi düzülmüş [onlara deyin ki, sizdən, yaxın dostluqdan başqa heç bir sual etmir və heç bir mükafat istəmirik] sözünün tələb etdiyinə görə, böyük seyidləri möhkəmlətmək və himayə etmək ədalət şüarlı sultanlar və səma qüdrətli xaqanların vacibləri sırasında və zəruriyyət cümləsində olan vəzifələrindəndir. Bu məsud saatlı vaxtlarda şaha layiq sonsuz qayğı, şahlıq mərhəməti və mehribanlığı hörmət sahibləri olan əzəmətli və kəramətli seyidlərin əhvalına şamil və arzularına öhdəçi olmuşdur. Peyğəmbərin [ona salam olsun] ən yaxşı övladının [hökmranlığı] günlərində əzəmətli seyidlər və nəciblərin xəlifələri Seyyid Ziyaəddin Rza, Seyyid Məhəmməd, Seyyid Cəfər, Seyyid Amir və qardaşlarına xeyirxahlıq niyyəti buyurub, onları malucəhat və divan hüququndan düşüncəli surətdə, bütünlüklə azad etdik və bağışladıq, vergilərdən və yazılı göstərişlərdən kənar edilməyə layiq buyurduq. Lazımdır hökmə müvafiq surətdə rəftar edərək malicəhat, ixracat, xariciyyat, hökmlü və hökmsüz əvarizat adı ilə ələfə, ulufə, qonılqa, ulağ, ulam, bigar, şikar, tərh, dəstəndaz, eydi novruzi, zərpareyi pişkəş, savari, çerik, ona yardım, məlikanə, mühəssilanə, yüzə dörd, sədrlik haqqı, vəzirlik haqqı, amillərin çalışma haqqı, darğalıq haqları, yetişdirilmiş məhsulun qiymətini müəyyənləşdirmək və torpaq sahəsini müəyyən etmək haqqı verilmiş vədi yerinə yetirmək haqqı, qala və keşikçixana ixracatı, yüzə bir, yüzə iki və maluxaricə aid oluna biləsi digər divan mükəlləfiyyətləri və şahlıq tələbatından hər ad və qayda ilə olursa-olsun əziyyət verməsinlər və təcavüz etməsinlər. İstər azacıq, istərsə də çoxlu tamah və təvəqqe etməsinlər.

Hökmü dəyişmək və əvəz etmək niyyətindən mühafizə olunan və qorunan hesab etsinlər. Ötən göstəriş və davam edən qanun mövcibincə bağışlanmış və azad olunmuş bilərək heç bir həvalə və tələb etməsinlər. Qeyd olunanları əzizləməyi və hörmətləndirməyi lazım bilsinlər. Onların minnətdar və [ya] şikayətçiliyinin təsirli olmasını bilsinlər. Mübarək fərmanın tələbatından yanılmasınlar. Həmin qayda ilə rəftar etsinlər və bu mövzular üçün hər il yeni qeyd və əmr tələb etməsinlər. [Hökm] bütün dünyanın tabe olduğu yüksək şöhrətli itaət olunmalının yüksək və kəsərli möhürü ilə zinətləndikdə, aydınlaşdıqda və cilalndıqda, etimad etsinlər.

Yüksəyin əmri ilə yazıldı, yüksək allah onu yüksəltsin, nüfuzunu əbədi etsin. O yüksəyə tabeçiliyi və itaətkarlığı ötəri etməsin" (95).

Müharibə qənimətlərinin bölüşdürülməsində də Şah İsmayıl hərəkata başlamasının elə ilk günlərindən öz səxavətini nümayiş etdirdi. Bununla, bir

tərəfdən o, dünya malında gözü olmadığını nümayiş etdirirdisə, digər tərəfdən də döyüşçü zəhmətinə hörmətlə yanaşdığını göstərirdi. Səfəvi qoşunlarına qoşulan hər bir döyüşçü bilirdi ki, onun zəhməti mütləq qiymətləndiriləcək və bununla dolanışığının təmin edilməsi məsələsi onu narahat etməyəcəkdir. Baxmayaraq ki, Səfəvi döyüşçüləri ilk növbədə Şah İsmayılın müridləri kimi onun qoşunlarına qoşulmuş və yeni bir dövlətin qurulması yolunda öz həyatlarını Şah İsmayıla həsr etmişdilər. Amma onlar onu da bilirdilər ki, Şah İsmayıl döyüşçülərinin zəhmətini qiymətləndirmək üçün öz imkanlarından heç vaxt üz çevirməyəcəkdir. Farsdilli tədqiqatçılar da Şah İsmayılın bu keyfiyyətini birmənalı şəkildə təsdiq edir və onun bu keyfiyyətini dövlət rəhbəri və bir insan kimi uğurlarının mühüm cəhətlərindən biri olaraq dəyərləndirirdilər (96).

Tədqiqatçılar da etiraf edirdilər ki, hər bir hərbi yürüşdən sonra Şah İsmayıl müharibə qənimətlərini, ələ keçirilmiş torpaqları qızılbaş başçıları arasında bölüşdürürdü. Doğrudur, belə bir iddia da irəli sürülürdü ki, müharibə qənimətlərinin qızılbaş əmirləri arasında bölüşdürülməsi nəticəsində türk tayfaları farsdilli əhali üzərində hakimliyi ələ keçirmişdilər (97). Amma məlumdur ki, Şah İsmayıl müharibə qənimətlərinin bölüşdürülməsi ilə bağlı öz səxavətliliyini yalnız türk əmirlərinə deyil, bütün qoşun əhlinə göstərirdi və elə farsdilli tədqiqatçıların təsdiq etdiyi kimi, bunu bütün qoşun əhli də yaxşı bilirdi (98).

Müəlliflərdən biri Şah İsmayılın var-dövlət hərisi olmaması haqqında belə yazırdı: "Onun vücudunun gözəlliyi elə idi ki, zər-ziba ilə saysız hesabsız qum onun gözündə eyni qiymətə malik idi. Onun yüksək lütfü qarşısında xəzinə ehtiyatları və dəniz dəfinəsi bir günlük səxavəti üçün yetərli olardı. Ona görə də xəzinəsi çox vaxt boş olardı". Şah İsmayılın şahidi olmuş venesiyalı tacirlər də onun bu keyfiyyətini təsdiq edirdilər. Həmin tacirlərdən biri Şah İsmayılın səxavəti haqqında belə yazırdı: "Xəzər dənizinin adalarından birində əldə etdiyi xəzinə və böyük ehtiyatları qoşun əhli arasında bölüşdürdü. Özünə isə heç nə saxlamadı. Bu səxavətlilik böyük siyasət və tədbirlilik idi. Çünki onun nəticəsində hətta sufi olmayan adamlar da onun bayrağı ətrafında toplaşdılar ki, Şah İsmayıldan belə hədiyyələr almağa nail olsunlar" (99).

Mənbələrdə Şah İsmayılın səxavətliliyi haqqında çoxlu sayda faktlarla rastlaşmaq mümkündür. Məsələn, məlumdur ki, Şah İsmayıl (İsmayıl Mirzə) öz hərəkatının başlanğıcında, hələ Fərrux Yasarla döyüşməzdən əvvəl Sultan Hüseynlə döyüşdü, onu məğlub edərək xeyli qənimət ələ keçirdi. Həmin qənimətlər bütünlüklə Səfəvi qoşunları arasında bölüşdürüldü. Belə qənimətləri Şirvan ərazisindəki Gülüstan qalasının fəthindən sonra da ələ keçirdi. Həmin qənimətlər də Səfəvi əmirləri və döyüşçüləri arasında bölüşdürüldü və bundan sonra yürüşünü davam etdirdi (100).

Daha böyük qəniməti isə Şah İsmayıl sonradan Əlvənd Mirzəyə qarşı apardığı döyüşün nəticəsi kimi əldə etdi. Məlumdur ki, Şah İsmayıl (İsmayıl Mirzə) Təbrizə yetişməmişdən əvvəl Şərurda Əlvənd Mirzəyə qarşı ağır döyüş keçirdi. Ağqoyunlu qoşunlarının bütün səylərinə baxmayaraq, onlar bu döyüşdə ağır zərbə aldılar və böyük həcmdə var-dövləti, əmlakı Səfəvi qoşunlarına təhvil

verməli oldular. Şah İsmayıl (İsmayıl Mirzə) bu dəfə də əldə etdiyi bütün qəniməti döyüşçülər arasında bölüşdürdü. Həsən bəy Rumlu "Əhsənüt təvarix" əsərində yazırdı ki, Səfəvi qoşunlarının bu döyüş zamanı ələ keçirdiyi qənimətin onda biri şahların xəzinəsində yox idi (101).

Şah İsmayıl bu əməli ilə, əslində, dövrün şahlarına bir nümunə idi. Bununla o göstərirdi ki, varlanmaq ehtirasından daha yüksək amallar uğrunda, yeni bir dövlət qurmaq uğrunda mübarizə aparırdı. Səfəvi dövlətinin bərqərar olmasından sonra Şah İsmayılın keçirdiyi böyük döyüşlərdən biri Ağqoyunlu Sultan Murada qarşı aparılan döyüş idi. Bu döyüşdə də Səfəvi qoşunları böyük həcmdə qənimət ələ keçirdi və həmin qənimət də döyüşçülərə paylandı. Mənbələrin verdiyi məlumata görə, bu döyüşdə o qədər qənimət ələ keçirilmişdi ki, hər bir qorçu ən azı dörd dəvə yükü həcmində qiymətli əşyalara sahib olmuşdu (102).

Mənbə və elmi-tarixi ədəbiyyatda olan məlumatlara görə, Şah İsmayıl özbək xanı Şeybək xanla döyüşə yollanmazdan əvvəl də, döyüşdən sonra da əmir və əyanlara, qoşun əhlinə çoxlu sayda qiymətli hədiyyələr bağışladı. Xorasan istiqamətində hərbi yürüşə başlamazdan əvvəl Şah İsmayıl Sultaniyyədə böyük bir məclis təşkil etdi, burada ətrafındakılara şam yeməyi verdi. Məclisin sonunda isə Şah İsmayıl xəzinəsinin qapılarını açdı, bu xəzinədə olan qiymətli əşyaları demək olar ki, bütünlüklə, əmirlərə, əyanlara, qorçulara, qoşun rəhbərlərinə, döyüşçülərə də digərlərinə payladı. Mənbə məlumatlarına görə, hədiyyə verilən qiymətli əşyalar arasında daş-qaşla bəzədilmiş yəhərlər, qılınclar, qiymətli kəmərlər, dür və gövhərlərlə süslənmiş taclar, çoxlu sayda cəvahirat və digər əşyalar və qiymətli daşlar var idi. Paylanılan qiymətli hədiyyələr o qədər çox idi ki, məmurlardan birinə düşən əşyaların və qiymətli daşların ümumi qiyməti 23 min Təbriz tüməni həcmində olmuşdu (103).

1511-ci ilin Novruz bayramı günlərində səltənət vəkili təyin edilmiş Əmir Nəcməddin Sani Şah İsmayılın səxavəti hesabına malik olduğu böyük var-dövlətindən ona qiymətli hədiyyələr gətirdi. Mənbə məlumatlarında bildirilir ki, Əmir Nəcminin Şah İsmayıl üçün hazırladığı qiymətli hədiyyələrin sayı o qədər çox idi ki, onları daşımağa az qala bir min nəfər adam lazım idi. Şah İsmayıl bu hədiyyələri qəbul etdi və elə qəbul etdiyi yerdə də həmin hədiyyələri qorçuları və döyüşçüləri arasında bölüşdürdü (104).

Bununla, Şah İsmayıl ətrafındakılara bir daha anlatdı ki, onun hörmət və ehtiramını qazanmaq üçün qiymətli hədiyyələrə ehtiyacı yoxdur. Ümumən, onun dünya malında gözü yox idi. Şah İsmayıl tarixinin ciddi tədqiqatçıları da qeyd edirdilər ki, hətta vilayətlərdən toplanıb göndərilən vergilər başqalarına paylanardı. Vilayətlərdən gələn vergilərdən yalnız dolanışıq, yemək-içmək üçün lazım olan miqdarda vəsait xəzinədə saxlanardı. Qalan vəsait isə insanlara paylanardı. Şah İsmayıl o dərəcədə səxavətlilik göstərirdi ki, hətta lazım olan anda lazım olan həcmdə vəsaiti onun xəzinəsindən toplamaq mümkün olmurdu. Bir dəfə səltənət vəkili Mirzaşah Hüseyni Şah İsmayıla şikayət etmişdi ki, xəzinədən 2 min tümən vəsaiti toplamaq mümkün deyil (105).

Səxavətliliyi ilə Şah İsmayıl həm də öz döyüşçülərinin bütün gücünü tapşırılan vəzifənin icrasına səfərbər etməyə çalışırdı. Ümumən, tabeliyində olan döyüşçülərin bütünlüklə döyüşə səfərbər edilməsi və onlar arasında ciddi intizama nail olunması üçün Şah İsmayılın öz yanaşması var idi. O, döyüşçüyə qarşı zor tətbiq edilməsinin, onların nəyə isə məcbur edilməsinin əleyhinə idi. Şah İsmayıl əmin idi ki, yalnız səmimi münasibəti, qarşılıqlı ehtiramın nümayiş etdirilməsi ilə döyüşçünün ürəyini ələ almaq və onu ən mürəkkəb tapşırığın icrasına səfərbər etmək olar. Səfəvi şahı özünü döyüşçülərindən biri bilirdi, onlarla birlikdə olurdu, onların zəhmətini və çətinliklərini özü də bölüşürdü. Şah İsmayıl döyüşçüsünü düşmənə qarşı mübarizəyə göndərib özü arxaya çəkilmirdi. Döyüşün ən gərgin məkanlarına Şah İsmayıl özü yollanardı. Bunu onun döyüşçüləri də bilirdilər və çox zaman elə Şah İsmayıldan nümunə götürməyə çalışırdılar. Şah İsmayıl şübhə etmirdi ki, onun qoşun başçıları həm fiziki gücü ilə, həm də mənəvi keyfiyyətləri ilə öz döyüşçüsünə nümunə olmalıdır. O öz qoşun başçılarını və əmirlərini də həm döyüş və həm də fiziki keyfiyyətlərinə görə seçirdi və onlara etimad da göstərirdi. Onların qarşısında qoyulan başlıca tələb məhz qoşun əhlinə səmimi münasibət göstərilməsi, qoşun əhlinin bütün gücünü səfərbər etməyə imkan verəcək tələblərə əməl edilməsi idi. Etimad göstərdiyi əmirlərinə və qoşun başçılarına isə Şah İsmayıl döyüş meydanında geniş sərbəstlik verirdi. Bir şərtlə ki, onun bu sərbəstliyi qoşunların uğuruna hesablanmış olsun. Bəzi rəvayətlərə görə, Şah İsmayıl bəzi hallarda hətta öz əmirlərinin tabeliyində döyüşə atılmaqdan belə çəkinmirdi. Belə rəvayətlərdən birinə görə, Şah İsmayıl əmirlərindən birinə bildirmişdi ki, onun rəhbərliyi altında döyüşə atılacaq və onun göstərişlərini yerinə yetirəcəkdir. Şah İsmayıl bəyan etdi ki, döyüşçülərlə bir səviyyədə bu döyüşdə iştirak edəcəkdir və əmirin göstərişlərini yalnız bir halda pozacaqdır ki, həmin əmir döyüş zamanı onunla (yəni Şah İsmayıl ilə) adi döyüşçülər arasında fərq qoymuş olsun. Yəni, şahlığına görə ona qarşı döyüşçülərdən daha yumşaq tələblər irəli sürməsin və onu döyüşün təhlükəsindən xüsusi olaraq qorumağa çalışmasın (106).

Bu rəvayətin tarixi əsası yoxdur. Lakin bu rəvayətdə əks olunan keyfiyyətlər Şah İsmayılın öz döyüşçülərinə və əmirlərinə olan münasibətinin real ifadəsidir və bu keyfiyyətləri ilə Şah İsmayıl ətrafında güclü bir qoşun formalaşdıra bilmişdi. Həmin rəvayətin davamında Şah İsmayıl bildirirdi ki, döyüş meydanında şəhid olarsa, onun nəşinin çıxarılması üçün döyüşçülər təhlükə altına atılmasınlar, özlərinin həyatını onun nəşinə görə qurban verməsinlər. Şah İsmayıl döyüşçülərinin təhlükə altına düşməsindənsə onun nəşinin atların ayaqları altında parçalanıb torpağa qatışmasını daha üstün sayırdı (107).

Şah İsmayılın yuxarıda haqqında danışılan səxavətlilik keyfiyyətləri ilə tanış olduqdan sonra onun qəddar və rəhimsiz olmasını düşünmək çətindir. Şah İsmayılın dövlət əleyhinə müxalifətdə olanlara qarşı münasibəti də çox sərt idi. Yəni, Şah İsmayıl dövlətin əsaslarının möhkəmləndirilməsi, dövlət daxilində sabitliyin bərqərar edilməsi, dövlət hakimiyyətinə qarşı istiqamətlənmiş təhlükənin aradan qaldırılması üçün qətiyyətli və ciddi tədbirlərin həyata keçirilmə-

sinə tərəfdar idi. Bununla bağlı, konkret nümunələr də mövcuddur. Bu istiqamətdə Şah İsmayıl həm konkret adamlara qarşı ciddi tədbirlər həyata keçirirdi, həm də dövlət hakimiyyətinə qarşı qaldırılmış qiyamı dəstəkləyən yerli əhaliyə qarşı amansız olurdu. Konkret adamlara nümunə olaraq Əmir Hüseyn Çilavi ilə Məhəmməd Kərrəni göstərmək olar. Kütləvi cəzaların tətbiqinə gəlincə isə Luristanda qiyam qaldırmış əhaliyə qarşı həyata keçirilən tədbirləri göstərmək olar. Bir sıra digər ərazilərdə də belə qiyamlar baş vermişdi ki, onlar dərhal yatırıldı və bu qiyamın iştirakçılarına qarşı da sərt cəzalar tətbiq edildi. Bir daha qeyd edilməlidir ki, dövlətçiliyə qarşı yönəlmiş hərəkatların və onların rəhbərlərinin susdurulması məsələsində Şah İsmayıl xüsusi qətiyyətlilik nümayiş etdirirdi. Bununla o, həm də mərkəzi hakimiyyətə itaətsizlik etmək fikrinə düşənlərə bir dərs verirdi.

Dövlətin möhkəmləndirilməsi və dövlət daxilində sabitliyin qorunması üçün Şah İsmayıl cinayətkar qüvvələrə qarşı da amansız münasibət nümayiş etdirirdi. O, hətta Azərbaycan ərazisində peyda olmuş cinayətkar dəstələrdən birinin ləğv edilməsi üçün göndərilən qoşun dəstəsinə də rəhbərlik etmişdi. Səltənət daxilində əmin-amanlığı pozmağa çalışanlar da davamlı şəkildə Şah İsmayılın qətiyyətli amansızlığı ilə qarşılaşırdılar və bunun nəticəsi idi ki, səltənət daxilində kifayət qədər təhülkəsiz bir durum təmin edilmişdi. Şah İsmayıl möhtəkirlərə, insafsız tacirlərə qarşı da ciddi cəzaların verilməsini məqsədəuyğun sayırdı. Məsələn, tarixdən məlumdur ki, 1504-cü ildə İsfahanda ərzaq qıtlığı yaranmışdı və bəzi sövdəgərlər də bundan sui-istifadə edərək varlanmağa çalışırdılar. Şah İsmayıl bundan xəbərdar olanda möhtəkirliyə yol verənləri məhşər ayağına çəkdi və anbarlarda gizlədilmiş ərzağın ucuz qiymətə əhaliyə satılmasını təmin etdi (108).

Dövlətçilik əleyhinə mövqe tutmayanlara qarşı və ya bu yoldan vaxtında əl çəkib itaət göstərənlərə qarşı Şah İsmayıl kifayət qədər loyal münasibət nümayiş etdirirdi. Hətta dövlətə qarşı müxalifətdə olmayan sünni üləmalarına qarşı da Şah İsmayıl dözümlü münasibət nümayiş etdirirdi. Səfəvi hakimiyyətini qəbul edən və şiyəliyə qarşı kəskin münasibət göstərməyən sünni üləmalar səltənət daxilində öz adi həyatlarını davam etdirirdilər (109).

Böyük bir səltənətin şahı olmasına baxmayaraq, Şah İsmayıl sadə həyat keçirməyə daha çox meylli idi. Onun hakimiyyəti illərində qərbdə və şərqdə mövcud olmuş saray dəbdəbəsi və təntənəsi hələ rəvac tapmamışdı. Yuxarıda qeyd edildiyi kimi, hərbi yürüşlərdə olmadığı vaxtlar Şah İsmayıl vaxtının çoxunu səltənət vilayələrində keçirirdi. Bu zaman o, çox vaxt çöllərdə, səhralarda qurulmuş düşərgədə yaşayırdı. Geyimi ilə də çox fərqlənməyi xoşlamazdı. Səfəvilər dövlətinin sonrakı dövrlərinə aid olan zərlə, daş-qaşla bəzədilmiş taxt, tac, əlvan paltarlar Şah İsmayıl dövrü üçün rəvac deyildi. Onun sadə geyinməsi və bəzən öz geyiminə görə hətta döyüşçülərindən də fərqlənməməsi haqqında mənbələrdə məlumatlar mövcuddur. Yeməyində də Şah İsmayıl sadə bir həyat keçirirdi. Doğrudur, Şah İsmayıl böyük ziyafətlər də təşkil edirdi. Amma bu ziyafətlər daha çox əmir və əyanları, Səfəvi döyüşçüləri, qonaqları üçün təşkil

edilərdi. Özlüyündə isə Şah İsmayılı sadə yeməklərlə kifayətlənərdi və elmi-tarixi ədəbiyyat da təsdiq edir ki, yeməklərinin sadəliyinə görə Şah İsmayıl şikayətlər etməz və buna görə kimsəni də məzəmmət etməzdi. Mövcud məlumatlara görə, Şah İsmayıl Çaldıran döyüşündən əvvəl süfrəçisinə onun üçün yemək hazırlamaq tapşırığı verdi. Şah süfrəçisi də onun qarşısına bir parça çörək, bir qədər göyərti və bir parça da pendir qoydu. Şah İsmayıl da onun qarşısına qoyulanla kifayətləndi və yeməyini yedikdən sonra qarşıdakı döyüşə hazırlaşan Səfəvi qoşunlarının düşərgəsinə yollandı (110).

Şah İsmayılın sadəliyə meylliliyi heç də o demək deyildi ki, həyatının və eləcə də səltənət həyatının qeyri-rəngarənglik üzərində qurulmasını istəyirdi. O, əylənməyi də, səltənət həyatının maraqlı qurulmasını da diqqətdən kənarda saxlamırdı. Məsələn, Şah İsmayılı ov mərasimlərinə marağı artıq məlumdur. Bu mərasimlərin çoxuna Şah İsmayıl əmirləri və əyanları da cəlb edərdi və onlarla birlikdə istirahət edərdi. Şah İsmayıl Novruz bayramlarının da təntənəli keçirilməsinə, səltənət əhlinin bu bayram günlərində məmnun günlər yaşamasına diqqət yetirərdi. Novruzun qarşılanması üçün bütün səltənət hüdudunda xüsusi mərasimlər təşkil edilərdi və Şah İsmayılda bu mərasimlərin iştirakçısı olardı. Şah İsmayıl hərbi yürüşlərdən əvvəl də, sonra da ziyafətlər, məclislər təşkil edərdi. Hərbi yürüşdən əvvəl keçirilən ziyafətlərin biri haqqında yuxarıda məlumat verilmişdir. Hərbi yürüşlərdən sonra da belə təntənəli ziyafətlər təşkil edilər, qoşun əhli üçün istirahət məclisləri qurulardı. Belə mərasimlər də Şah İsmayılın qoşun əhlinə, bütünlükdə səltənət əhlinə olan qayğısının bir nümunəsinə çevrilərdi. Çünki mərasimlərin sonunda Şah İsmayıl xəzinəsinin qapılarını açar, bu xəzinədə olan qiymətli əşyaları və ya hərbi yürüş zamanı əldə edilmiş qənimətləri mərasim iştirakçılarına paylayardı. Həmin mərasimlərdə Şah İsmayıl bir daha hər bir əmirinin və döyüşçüsünün zəhmətini layiqincə qiymətləndirərdi. Bu mərasimlərdən sonra isə Şah İsmayıl yenidən öz sadə həyatına qayıdardı (111).

Şah İsmayılın idman oyunlarına da meyli var idi. Xüsusilə, kütləvi oyunların təşkilində və keçirilməsində, o cümlədən də oxatma və çövkan oyunlarında Şah İsmayıl yaxından iştirak edərdi. Bu oyunlar bir tərəfdən əyləncə xarakteri daşıyırdısa, bir tərəfdən də oyun iştirakçılarının fiziki keyfiyyətlərinin təkmilləşməsiə, döyüş vərdişlərinin artmasına kömək edərdi. Başqa kütləvi tədbirlər kimi, idman tədbirləri də çox zaman tədbir iştirakçılarının mükafatlandırılması ilə başa çatardı.

Mənbələrdə Şah İsmayılın mənəvi keyfiyyətləri haqqında kifayət qədər məlumatlar vardır. Bu məlumatlar onu göstərir ki, həmin mənbə müəllifləri də Şah İsmayılın mənəvi keyfiyyətlərinə təqdirlə yanaşırdılar. Doğrudur, mənbələrdə Şah İsmayılın şəxsiyyətinə irad tutulacaq keyfiyyətlərlə də rastlaşmaq mümkündür və bu iradlar da bəzi elmi-tarixi ədəbiyyatda xüsusi olaraq qabardılmışdır. Yəni, həmin keyfiyyətlərdən Şah İsmayılın şəxsiyyətinin nüfuzdan salınması üçün məqsədyönlü şəkildə istifadə olunur. Şah İsmayıla irad tutulan həmin keyfiyyətlər arasında onun guya şəhvət əyləncələrinə meylli olmasını, xüsusilə də şəraba bağlılığını nümunə göstərmək olar (112).

Şah İsmayılın şəhvət əyləncəlirinə meylli olması qərb mənbələrində, venesiyalı tacirlərin xatirələrində öz əksini tapmışdır. Həmin mənbələrin etibarlılığı şübhə doğursa da bir çox müəlliflər tərəfindən onlara səxavətlə istinad edilir və bununla, Şah İsmayıl haqqında da fərqli münasibət yaradılmasına cəhd göstərilir. Göstərilən mənbənin müəllifinin Səfəvi dövlətinə, onun yaradıcısı Şah İsmayıla olan münasibətinin səmimiliyin hansı səviyyədə olmasına toxunmadan, qeyd edilməlidir ki, iddia olunna faktın özü də şübhəli və məntiqdən kənardır. Məsələn, venesiyalı müəllif bildirir ki, Şah İsmayıl bir dəfə 12 oğlan uşağını yanına gətizdirdi və onlarla əyləndi. İkinci dəfə isə guya 10 uşağı yanına gətizdirmişdi. Bildirilir ki, Şah İsmayıl əyləndikdən sonra həmin uşaqları əmirlərin öhdəsinə verdi (113).

Adi insan zəkası üçün də məlumdur ki, belə bir iddia heç bir məntiqə sığışmır. Çünki 12 nəfərlə bir vaxtda əylənmək insan gücündən kənardır və belə bir iddianı yalnız kiminsə gözdən salınması üçün edilə bilərdi. Əgər belə hallar səltənətin əhatə etdiyi ərazilərdə mövcud idisə, bu heç də o demək deyildir ki, onun rəvac tapması Şah İsmayılın adı ilə bağlı idi. O cümlədən də şərabın səltənət daxilində rəvac tapması və Şah İsmayılın da şəraba bağlılığı məsələsində bəzi elmi-tarixi ədəbiyyatda ifrata varılmışdır. Ümumiyyətlə, məlumdur ki, şərab köçəri türk həyatı üçün xarakteril deyildi. Şərabın səltənət daxilində rəvac tapması İran arealının oturaq həyatı ilə bağlıdır və türk hakimlərin süfrəsinə də bu arealdan gəlmişdi. Bəzi elmi-tarixi ədəbiyyatda bu məsələyə dair yanaşmaların müşahidəsindən belə bir qənaət hasil olur ki, Şah İsmayılın məhz türk olması üçün şəraba olan meyli sərt tənqid edilir. Şah İsmayılın bu adətinə hər hansı bir rəğbət nümayiş etdirmədən qeyd edilməldir ki, Səfəvi sarayının farsdilli əyanları da şəraba kifayət qədər meylli idilər. Ona görə də şəraba bağlılığın etnik mənsubiyyətə görə qabardılması obyektivlikdən uzaqdır. Konkret nümunə kimi isə səltənət vəkili Mirzəşah Hüseyni İsfahanini göstərmək olar. O da şəraba çox bağlı idi və qətlə yetirilməsinin səbəblərindən biri də elə şərabdan məst vəziyyətdə olması idi. Şah İsmayılın şərab içməkdən məst vəziyyətə düşməsi haqqında məlumatlarla rastlaşmaq çətindir. Amma Mirzəşah Hüseyni İsfahaninin qətli ərəfəsində onun məst olması və özünə nəzarəti itirməsi mənbələrdə də öz əksini tapmışdır (114).

Şah İsmayılın şərab içməsi bəzi mənbələrdə də öz əksini tapmışdır. Onun eyş-işrətlə məşğul olması haqqında olan məlumatların heç də hamısı şərab məclislərinin təşkil edilməsindən xəbər vermirdi. “Eyş-işrət” ifadəsi mənbələrdə çox zaman əylənmək mənasında işlədilmişdir. Bu barədə də yuxarıda danışıldı və bu eyş-işrət məclisləri daha çox istirahət məqsədilə təşkil edilirdi. Lakin, Şah İsmayılın şərab içməsinin də ayrıca olaraq qabardılması haqqında məlumatlarla rastlaşmaq mümkündür. Məsələn, Çaldıran döyüşündən sonra Şah İsmayılın fəal hərbi-siyasi həyatdan kənarlaşması, ov və şərab məclislərinə meyl etməsi mənbələrlə bərabər, elə bəzi elmi-tarixi ədəbiyyatda da mövzu obyekti olmuşdur. Mənbələrdə hətta Şah İsmayılın şərab məclislərinin çoxalmasında səltənət vəkili Mirzəşah Hüseyni İsfahaninin də rolunun artması öz əksini

tapmışdır. Yuxarıda qeyd olunduğu kimi, Mirzəşah Hüsyni İsfahani doğrudan da şəraba meylli adam idi və hətta özünə nəzarəti itirincəyə qədər şərab içirdi. Amma bəzi tədqiqatçılar Şah İsmayılın çox şərab içməsi haqqında mövcud məlumatları şübhə ilə qarşılayırdılar. Xüsisilə, Şah İsmayılın müasiri olan Xandəmirin "Tarix-e həbib-üs siyər" əsərində Səfəvi şahının şəraba meylliliyi haqqında məlumat olmaması Şah İsmayılın şəraba meylliliyinin təsdiqinə şübhə kimi qəbul edilirdi (115).

"Rövzətüs Səfəviyye" əsərində də Şah İsmayılın şəraba meylliliyi haqqında qeydlər vardır. Bu əsərin müəllifi hətta Şah İsmayılın həyatına son qoyan xəstəliyin güclənməsini də onun şəraba meylliliyi ilə əlaqələndirirdi (116).

Şah İsmayılın şərab içməsini istisna etmək olmaz. Amma burada diqqət yetirilməli olan məqam odur ki, Şah İsmayılda şəraba xüsusi aludəlik yox idi. Şərab məclisləri onun üçün heç şübhəsiz ki, istirahət saatlarında təşkil edilə bilərdi. O, dövlət işlərini heç də şəraba qurban verməmişdi və bununla bağlı hər hanslı bir faktı da ortaya qoymaq mümkün deyildir. Şah İsmayılın Çaldıran döyüşündən sonra bütünlüklə özünə qapılması və bununla dövləti işlərə biganə yanaşa bilməsi haqqında deyilənlərin də heç bir tarixi əsası yoxdur. Doğrudur, Şah İsmayıl Çaldıran döyüşündən sonra böyük hərbi yürüşlər etmədi. Əslində, buna heç ehtiyac da yox idi. Şah İsmayıl Çaldıran döyüşündən sonra başlıca diqqəti səltənət hüdudlarının qorunmasına və səltənət daxilində hərbi-siyasi sabitliyin olmasına yetirirdi ki, bu sahədə də lazım olan işlər görülürdü. Səltənətin qərbində Osmanlı tərəfindən bəzi ərazilərin və qalaların ələ keçirilməsinə gəlincə isə, Şah İsmayılın bununla da bütünlüklə razılaşdığını iddia etmək olmaz. O, səltənətin qərb sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi üçün Osmanlı dövlətinə qarşı hərbi tədbirlərin həyata keçirilməsi fikrindən heç də daşınmamışdı. Lakin bunun üçün onun toplara və odlu silahlara ehtiyacı var idi. Bu silahların əldə edilməsi üçün bir sıra Avropa ölkələri ilə əməkdaşlıq qurmağa cəhd də göstərdi. Amma onun bu cəhdləri nəticəsiz qaldı.

Dövlət işlərinin nizamlı şəkildə davam etməsi, ictiami, iqtisadi, mədəni həyatın inkişaf etməsi onu deməyə əsas verir ki, Şah İsmayılın şərab içib-içməməsi onun dövlətçilik fəaliyyətinə heç də əks-təsir etməmişdi. Hətta Şah İsmayıla müxtəlif irad tutan müəlliflər də onun hakimiyyəti illərində səltənət daxilində hərbi-siyasi sabitliyin olmasını, milli vəhdətin bərqərar olmasını, təsərrüfat həyatının yüksəlişini etiraf edirlər. Səltənətin sərhədləri kifayət qədər etibarlı şəkildə qorunurdu, şəhərlər inkişafının yeni bir mərhələsini yaşayırdılar.

Hətta Səfəvi dövlətinə səfər edən venesiyalı tacirlər də Şah İsmayılın hakimiyyəti illərində şəhərlərin rövnəq tapdığını yazırdılar. Venesiyalı tacirlər Ərdəbilin, Təbrizin, Xoyun sürətli inkişafını xüsusilə qeyd edirdilər. Onlar hətta Təbriz şəhərini Venesiya ilə müqayisə edirdilər və onun gözəlliyinə öz heyranlıqlarını gizlətmirdilər (117). İsfahan şəhərinin yeni dirçəlişi haqqında da onların xatirələrində məlumat var idi. Səltənətin mədəni həyatında da bu yüksəliş və canlanma var idi. Yuxarıda xatırlananları da nəzərə almaqla belə bir qənaətə gəlmək mümkündür ki, Şah İsmayılın şərab içib-içməməsi onun fəaliyyətinə və

dövlətçilik həyatına təsir edə biləcək bir amil deyildi. Şah İsmayıl dövlət idarəçiliyini bütünlüklə əlində toplamışdı, səltənətin bütün həyatı bütünlüklə onun nəzarəti altında idi və həyatının son anına qədər də belə oldu. Bu məsələ mənbələrdə də öz əksini tapmışdı. Belə ki: "O, müxtəlif təbəqələrdən olan bütün insanlara ehtiram göstərirdi, onlarla ədalətlə və mehribanlıqla davranırdı. Bütün işlərə elə hakim kəsilmişdi ki, heç bir qızılbaş ədalətsizlik etməyə və insanlara zülm etməyə cəsarət etmirdi" (118).

Başqa bir fikir də belə idi ki, Şah İsmayılın əzəmətindən onun qoşunlarından kimsə xalqa qarşı haqsız hərəkət edə bilməzdi (119).

Şah İsmayılın sadəliyində və mehribanlığında da bir hədd var idi. Şah İsmayıl bu keyfiyyətlərə üstünlük verirdi. Amma ona razı deyildi ki, onun mehriban münasibəti başqalarının öz hərəkətlərində sui-istifadəyə yol verməsinə zəmin yaratsın. Hətta əmir və əyanlarına qarşı da Şah İsmayıl çox mehribanlıq göstərməsinə onlar da Şah İsmayılın yanında icazəsiz danışmağa cürət etməzdilər (120). Yəni, Şah İsmayılın mülayimliyi, sadəliyi onun idarəçilik qətiyyəti ilə müşayiət olunurdu və bununla, idarəçilik işlərində də kimsənin sui-istifadə hallarına yol verilmirdi.

Şah İsmayılın mənəvi dünyasının maraqlı tərəflərindən biri onun elmə, mədəniyyətə və ədəbiyyata yüksək qiymət verməsi və onların inkişafı üçün şərait yaratması idi. O, hələ uşaqlıq yaşlarından etiqad elmlərinin öyrənilməsinə maraq göstərirdi. Bir tərəfdən mürşidi–kamil olması onda dini elmlərin öyrənilməsinə təbii bir zərurət yaradırdı. Digər tərəfədn isə Şah İsmayılın (İsmayıl Mirzənin) özündə elmə, dini dəyərlərin öyrənilməsinə bir maraq var idi. Məlumdur ki, Şah İsmayıl (İsmayıl Mirzə) Lahicana getməli olanda Azərbaycan türkcəsindən başqa digər dilləri bilmirdi. O, məhz Lahicanda fars və ərəb dillərinin öyrənilməsi ilə də məşğul oldu.

Səfəvi dövlətinin əsası qoyulduqdan sonra isə Şah İsmayıl şiə məzhəbinin incəliklərinə bələd olan üləmanın toplanmasına, onların yetişdirilməsinə xüsusi maraq göstərdi. Çünki səltənət daxilində rəvac tapmış bu məzhəbin dəyərlərinin yayılması üçün bilikli üləmalarının olmasına ehtiyac var idi.

Şah İsmayıl xəttatlığın, nəqqaşlığın inkişafına da xüsusi diqqət yetirirdi və bu sahələr üzrə bir sıra tanınmış adamlar Şah İsmayılın sarayında və ya onun himayəsi altında fəaliyyət göstərirdilər. Kəmaləddin Behzad, Sultan Məhəmməd, Mani Şirazi və digər nəqqaşlar Səfəvi sarayında fəaliyyət göstərirdilər və Şah İsmayılın övladlarına nəqqaşlığı öyrədirdilər. Məlumdur ki, Təhmasib Mirzə nəqqaşlığın öyrənilməsinə böyük maraq göstərirdi və bu sahədə öz müəllimlərindən geniş bilik və təcrübə almışdı. Şah İsmayıl xüsusilə, Kəmaləddin Behzada böyük qayğı göstərir və onun yaradıcılığının rövnəq tapması üçün zəmin yaradırdı. Şah İsmayılın 1522-ci ildə imzalanmış fərmanı ilə Kəmaləddin Behzad Təbriz kitabxanasının rəhbəri təyin edildi də ömrünün sonuna qədər bu vəzifəni icra etdi (121).

Kəmaləddin Behzadın Təbriz kitabxanasının rəhbəri təyin edilməsi haqqında imzaladığı fərmanda deyilirdi: "Xeyirxahlıq nümunələrinin göründüyü

və İlahi nurların şölələnmə məkanı olan padşahın ilhamverici düşüncəsinin parıltısının bu surətdə olması münasib və layiqdir ki, xoşbəxtlik və səltənət üçün mühüm olan hər bir qiymətli və vacib işi məharət və bacarığı ilə [görə bilsin], fürsət növlərini kəşf etmək, həssas təbiətə və hər şeylə maraqlanan zehnə malik olmaqla və [habelə] işlərin idarəçiliyində ləyaqət növlərinin təşəbbüskarı [rolunu oynamaqla] varlıq taxtası üzərində [məlum olmayanları] aşkara çıxartsın, məqsəd və nəzərdə tutulan [işlər] üzərindən hicab örtüyünü qaldıra bilsin. Buna görə də, uca məqamlı, zəmanəsinin yeganəsi, rəssamların rəhbəri, qaliblərin örnəyi, üzdə təbəssüm yaradan qələmindən Maninin ruhunun xəcalət çəkdiyi, surətləri bəzəyən incə (kiçik) barmaqlarından Arzhang kitabının utandığı, icrası vacib olan fərmanları yazmaq üçün hər zaman qələm kimi əmrə müntəzir olan pərgar kimi xilafətin mühüm işlərində xidmətə müntəzir qalan ustad Kəmaləddin Behzad şahlığa layiq lütf və şahanə bəxşişlərə şamil olmağa layiq olduğu üçün tabeçiliyimizdə olan məmləkətlərdə şahın kitabxanasında işləyənlər, katiblər, rəssamlar, təzhibçilər, cədvəl hazırlayanlar, həllkarlı və zərkubluq işlərində çalışanlar, rəng təmizləyənlər və qeyd olunan işlərin həvalə edildiyi digər insanların rəhbərliyinin sizə həvalə edilməsi barədə fərman verdik.

Aydın düşüncəli əmirlər, tayı-bərabəri olmayan vəzirlər, saray vəkilləri, sarayın məsləkdaşları, səltənət işlərində müşavirlər və divan işlərində önəmli vəzifə tutan şəxslərin hamısı və xüsusilə də padşahın kitabxanasının işçiləri və qeyd edilən camaat bilməlidir ki, adı keçən ustadı qeyd-şərtsiz rəhbər (kələntər) hesab etsinlər, kitabxana işlərini onun idarəçiliyi və səlahiyyətinə versinlər, onun qeyd və möhürü ilə olan dəyərləndirmələri mötəbər hesab etsinlər. Padşahın kitabxana işləri ilə əlaqədar və qeydə alınma haqqında buyurduqlarından imtina edilməsin, qeyd edilən vəzifənin tərkib hissəsi olan işlərin ona aid olduğunu bilsinlər. İşarə olunan şəxs də parlaq düşüncə və ürəyinə əmanətdarlıq və dindarlığı hakim edərək bu işə doğru və dürüst başlasın, əyilmək və yaltaqlıqdan çəkinərək uzaq dursun, doğru yoldan kənara çıxmasın. Xırdalıqlarda da bu cür davransınlar. Padşahın bu hökmü uca və şərəfli möhür ilə birlikdə olduqda etimad edilsin" (122).

Fərmandan da göründüyü kimi, Şah İsmayıl dövründə Təbriz kitabxanası yalnız kitabların toplandığı yer deyildi. Burada çoxlu sayda sənətkarlar toplanmışdılar və onlar sənətkarlığın müxtəlif qollarının inkişafında öz hünərlərini nümayiş etdirirdilər. Şah İsmayıl dövrünün böyük rəssamı olan Kəmaləddin Behzada böyük dəyər verirdi və onun Təbriz kitabxanasının rəhbəri təyin edilməsi ilə yalnız rəssamlığın deyil, digər sənət sahələrinin də inkişafına böyük ümid bağlayırdı. Xüsusi istedad sahibi olan sənətkarlar isə onun ciddi qayğısı altında idi. Məsələn, Şah İsmayılın Kəmaləddin Behzadın və məşhur saray xəttatı Mahmud Nişapurinin qorunması ilə bağlı nigarançılığı haqqında bəzi məlumatlar da mənbələrdə yer almışdır. Həmin məlumatların birində bildirilir ki, Şah İsmayıl Çaldıran döyüşü ərəfəsində rastlaşa biləcəyi hərbi uğursuzluqdan sonra adları çəkilən sənətkarların Osmanlı qoşunlarının əsirliyinə düşməmək üçün

konkret addımlar da atmışdı: "...Sultan Səlim xan Şah İsmayıl ilə Çaldıran səhrasında yaxın bir məsafədə idi. ...Kim bilir, bəlkə müharibədə öldüm və ya məmləkətdə qarət və qarışıqlıq baş verdi – deyərək, Sultan Səlim xan Ruminin əlinə əsir düşməmək üçün əvvəl Şah Mahmud Nəjadi (saray xəttatı Mahmud Nişapuri nəzərdə tutulur – M.S.) və ikincisi məşhur ustad rəssam Behzadı bir mağarada gizlətmişdi. Və sizin hifzinizi Allaha tapşırdım deyib müharibəyə getmişdi. O zaman ki, müharibədə məğlub olub geri qayıtdı, o cümlədən əvvəl adları yuxarıda zikr olunanları tapmaq üçün həmin məhəlləyə varıb diqqətlə axtardı. Vəqtaki, onları gizlin saxladığı yerdə tapdı, Allaha şükr etdi"(123).

Şah İsmayılın hakimiyyəti illərində rəssamlıq və xəttatlıqla bərabər, aşıq sənəti, musiqi, təzkirəçilik və digər sahələrin inkişafında yeni bir dövr açıldı. Onun qayğısı altında müxtəlif sənətlər üzrə istedadlı sənətkarlar saraya dəvət olunur və onlara xüsusi qayğı göstərilirdi. Bunun nəticəsi idi ki, Şah İsmayılın hakimiyyəti illərində sənətkarlıq sahəsində çox dəyərli nümunələr meydana gəldi.

Şah İsmayılın hakimiyyəti illərində xüsusi rövnəq tapan yaradıcılıq sahələrindən biri də ədəbiyyat idi. Onun özü çox istedadlı bir şair idi və miras qoyduğu bədii əsərləri ilə Azərbaycan ədəbiyyatı tarixində çox dəyərli bir səhifə açmışdır. Xüsusilə, Şah İsmayıl Azərbaycan türkcəsində yazılan ədəbiyyatın ən görkəmli nümayəndələrindən biridir və onun əsərlərində Azərbaycan türkcəsinin geniş və axarlı bədii imkanları öz əksini tapmışdır. Şah İsmayıl həm Azərbaycan tarixində, həm də dünya tarixində qılınc və qələmi çox uğurlu şəkildə birləşdirən bənzərsiz istedad sahiblərindən biridir. XV əsrdə yazılmasına baxmayaraq onun əsərləri indinin özündə də son dərəcə anlaşıqlıdır və bu əsərlər Şah İsmayılın Azərbaycan türkcəsinin bütün incəliklərinə dərindən bələd olmasının bir sübutudur. Doğrudur, Azərbaycan türkcəsində yazmış olduğu əsərlərinin Şah İsmayıla məxsus olmadığını iddia edənlər də (124), Şah İsmayıl dövründə ədəbiyyatın inkişaf etmədiyini irəli sürənlər də vardır (125). Amma bu iddiaların elmi əsası yoxdur və konkret faktların olması da bunu nümayiş etdirir.

İngilis şərqşünası Edvard Braun nəinkli Şah İsmayılın dövründə, ümumiyyətlə bütünlükdə Səfəvi dövlətinin mövcudluğu dövründə ədəbiyyatın inkişaf etmədiyini, bir-iki şairdən başqa Səfəvilər dövrünün ədəbiyyatsız olduğunu iddia edirdi. Sonra onu da əlavə edirdi ki, Səfəvi hakimlərinin başı Osmanlı dövləti ilə müharibəyə və şiə məzhəbinin təbliğinə qarışmışdı və ona görə də ədəbiyyatın inkişafına diqqət yetirilmirdi. E.Braun diqqəti cəlb edə biləcək şairlər kimi öz əsərində Caminin, Hatefinin və Hilalinin adlarını çəkmişdir. Bu şairlər fars dilində yazan şairlər idi. İstər bu şairlərin adlarının çəkilməsi, istərsə də E.Braunun mülahizələrinin ilkin araşdırılması onu deməyə əsas verir ki, o, Səfəvilər dövrünün ədəbiyyatı haqqında danışanda yalnız farsdilli ədəbiyyatı nəzərdə tutmuşdur. Şah İsmayılın hakimiyyəti illərində isə Azərbaycan dilində yazılmış ədəbiyyat daha sürətlə inkişaf etmişdir və Şah İsmayıl da bu ədəbiyyatın çox böyük bir nümayəndəsidir.

Qedy edildiyi kimi, bir qələm əhli kimi Şah İsmayıl istedadlı şairlərin saraya toplanmasına ciddi diqqət yetirirdi. Onların arasında farsdilli şairlər olsa

da, əksəriyyətini Azərbaycan türkcəsində yazan şairlər təşkil edirdilər. Məliküşşüəra (şairlər məliyi) adı ilə şöhrət tapmış Həbibi, Şahi, Süruri, Tüfeyli, Susəni, Muradxan Fikari, Qazi Zəncani kimi şairlər Azərbaycan dilində yaranan ədəbiyyatın zənginləşdirilməsi üçün böyük işlər görmüşdülər. Səfəvilər dövrünə aid olan mənbələrdə Şah İsmayıl sarayında yaşayan və fəaliyyət göstərən istedadlı şairlərin, rəssamların və musiqişünasların adları çəkilmişdir ki, onlardan aşağıdakıları göstərmək olar: Xacə Cəlaləddin Təbrizi, Əmir Sədrəddin Təbrizi, Molla Hüseyn Ərdəbili, Mahmudxan Deyləmi, Şah Mir Deyləmi, Mirzə Kani Ordubadi, Məqsud bəy, Molla İbrahim Təbrizi, Hüseynqulu Mirzə, Yusif bəy Xəyali, Budaq bəy, Susəni bəy, Pirqulu bəy, Məhəmməd Şəmsi, Şahqulu bəy, Salehi, Kirami, Pəri Peykər, Fikari Pənahi, Hakim Bədii Təbrizi, Şərəfi Təbrizi və başqaları (126).

Şerə və ədəbiyyata, ustedadlı şairlər nəslinin yetişdirilməsinə böyük qayğı göstərməsinə baxmayaraq, Şah İsmayıl müasiri olduğu ədəbi nəslin zirvəsini təşkil edirdi. O, fars dilində də əsərlər yazmışdır. Lakin əsərlərinin əksəriyyətini Azərbaycan türkcəsində yazdığı nümunələr təşkil edirdi. Şah İsmayıl həm əruz vəznində, həm də xalq yaradıcılığından irəli gələn janrlarda özünün parlaq istedadını nümayiş etdirə bilmişdi. Onun əsərlərinin mövzusunu həm dövrünün aktual ictimai-siyasi məsələləri, həm etiqadından irəli gələn məsələlər, həm də klassik ədəbi ənənlərdən irəli gələn məsələlər təşkil etmişdir. Şah İsmayılın mövzu zənginliyi ilə seçilən əsərlərində dərin ictimai-bədii məzmun vardır. Bu əsərlərin maraqlı tərəflərindən biri də budur ki, Şah İsmayılın qələmə aldığı sətirlərin məzmununda onun mənəvi portretinin cizgilərini görmək mümkündür.

**a) Şah İsmayıl özü haqqında**

Şah İsmayılın mənəvi dünyasının bitkin mənzərəsinin yaradılması üçün ən etibarlı mənbələrdən biri heç şübhəsiz ki, onun özü haqqında söylədiyi fikirlərdir. Həmin fikirlər ondan miras qalmış rəsmi yazışmalarda və xüsusilə də ədəbi əsərlərində öz əksini tapmışdır. Doğrudur, Şah İsmayıldan miras qalmış yazılı irsdə onun həyat yolu haqqında ayrıca nümunələr yoxdur. Bununla belə, həmin irsdə maraqlı qənaətlər əldə etməyə imkan verən fikirlər də az deyil. Bu baxımdan onun bədii yaradıcılığı daha böyük elmi-tarixi əhəmiyyət kəsb edir.

Şah İsmayılın bədii yaradıcılığı onun düşüncələrinin bədii ifadəsi olmaqla kifayət qədər zəngin mövzular üzərində qurulmuşdur. Dövrün ictimai-siyasi prosesləri, hərbi-qəhrəmanlıq hadisələri, dini-ictimai baxışları, insani münasibətlərin xarakteri, insan taleyi şair kimi onun narahatlıqla izlədiyi və fikirlərini bildirməyə çalışdığı mövzular idi. Bu mövzularınm əhatə etdiyi problemlər, əslində, səltənət hökmdarı kimi onun gündəlik qarşılaşdığı və həllinə çalışdığı məsələlər idi. Bu problemlərin real dəyərini və onların həlli xüsusiyyətlərini Şah İsmayıl yaxşı bilirdi. Ona görə də, bu istiqamətdə onun siyasi həyatda qarşılaşdığı təcrübə Şah İsmayılın bədii əsərlərində də təsirsiz ötüşmürdü. Xüsusilə, insanları narahat edən və insanların marağında olan məsələlərə onun yanaşması,

baxışları, münasibəti Şah İsmayılın bədii əsərlərində və yazışmalarında bu və ya digər dərəcədə özünü göstərməkdədir. Həmin yanaşmalar, baxışlar və münasibətlər isə öz növbəsində Şah İsmayılın mənəvi portretinin yaradılması üçün dəyərli məxəzdir. Şah İsmayıl öz misralarının birində belə deyirdi:

Sən niyaz et,ey Xətayi, kimsə bilməz çün səni (127).

Şah İsmayılın yaradıcılığı, doğrudan da, sirli bir aləmdir və adi bir oxucu yanaşması ilə bu sirli aləmə varmaq elə də asan deyildir. Bu yaradıcılıq onun ictima-siyasi və dini fəaliyyətini tamamlayırdı və ona görə də Şah İsmayılın bədii yaradıcılığında ictimai-siyasi məzmun xeyli güclü və təsirlidir. Başlıcası isə bu ictimai-siyasi məsələlərə münasibət bildirərkən sətirlər arasından Şah İsmayılın bədii obrazı canlanır.

Bu gün əlimə almaz oldum sazım,
Ərşə dirək-dirək çıxar avazım,
Dörd şey vardır bir qarındaşa lazım,
Bir elim, bir kəlam, bir nəfəs, bir saz

Saz Azərbaycan xalqının həyatının bir parçasıdır və saza olan bağlılıq, əslində, xalq həyatına olan bağlılıqdır. Şah İsmayıl da həm saza bağlı idi, həm də bu saza həyat verən Azərbaycan xalqına bağlı idi. Onun mübarizəsinin və hərəkatının başlıca məqsədlərindən birini də Azərbaycan xalqının taleyi təşkil edirdi. Ona görə idi ki, hərəkatının başlanğıcında, Şirvana yürüş zamanı Şah İsmayıl Gülüstan qalası ətrafında dayanıb gözləməyi deyil, bütün Azərbaycana sahib olmağı tövsiyə edirdi. Bunun nəticəsi idi ki, bütün gücünü, ətrafına toplanmış olan qoşunların potensialını Təbrizin alınmasına istiqamətləndirdi, bu şəhəri almaqla onu mərkəzləşdirilmiş Azərbaycanın paytaxtına çevirdi. Yuxarıdakı bənddə Şah İsmayıl deyirdi ki, bir gün sazı əlinə almayanda avazı dirəkdirək olub ərşə qalxdı. Yəni, xalq həyatından kənar düşmək Şah İsmayılın avazını ərşə qaldırmışdı. Bu da belə bir qənaəti qabardır ki, Şah İsmayıl özünü xalq həyatından kənar hiss etmirdi və xalq həyatına, xalqına bağlılıq Şah İsmayılın başlıca mənəvi keyfiyyətlərindən biri idi. Əslində, bütün bədii yaradıcılığı da Şah İsmayılın xalqına bağlılığının bir ifadəsi idi. Çünki bu yaradıcılıq xalq həyatından doğurdu, xalqın yaşantılarından, həyat tərzindən, məişətindən irəi gəlirdi.

Şah İsmayıl yaradıcılığının Azərbaycan xalqının həyatına bağlılığının başlıca göstəricisi onun Azərbaycan türkcəsində olması idi. Yuxarıdakı bəndin sonuncu misrasında Şah İsmayıl qardaşına (geniş mənada xalqın bütün təmsilçilərinə) vəsiyyət etdiyi "kəlam" həm də dil kimi anlaşıla bilər. Şah İsmayıl qələmi ilə "Vətən tarixini yaradır, mili ruhun, ana dilinin keşiyində dayanırdı" (128). Azərbaycan türkcəsi bu milli ruhun daşıyıcısı idi. Şah İsmayıl bunu çox yaxşı bilirdi və ona görə də sarayı daxilində Azərbaycan türkcəsinin hakim

mövqeyini təmin etmişdi. Demək olar ki, bütün bədii yaradıcılığını Azərbaycan türkcəsi üzərində qurması Şah İsmayıl üçün həm də siyasi dəyər təşkil edirdi. Onun simasında Azərbaycan türkcəsinin belə rəvac tapması Azərbaycan türklərinin səltənət həyatında rolunun göstəricisi idi. Şah İsmayıl Azərbaycan türkcəsinə siyasi və mədəni həyatda geniş rəvac verilməsi ilə kifayətlənmirdi, həm də öz yurddaşlarına bu dili qorumağı vəsiyyət edirdi.

Şah İsmayılın Azərbaycan türkcəsində şerlər yazması mənsub olduğu xalqın dilinin bədii imkanlarını ortaya qoymaqla yanaşı, həm də əcdadı Şeyx Səfiəddinin ənənlərinin davam etdirməsi idi. Məlum olduğu kimi, Şeyx Səfiəddin də Azərbaycan türkcəsində dəyərli əsərlər miras qoymuşdu və Səfəvi təriqətinin başçısı kimi, onu düşündürən məsələlərin bədii həllinə də cəhd göstərmişdi. Şah İsmayıl isə bu ənənəni nəinki davam etdirdi, bəlkə Azərbaycan dilli ədəbiyyatın çox qiymətli bir səhifəsini yaratdı.

Qeyd edildiyi kimi, bəzi tədqiqatçılar Şah İsmayılın Azərbaycan türkcəsində şer yazmasının əhəmiyyətini kiçiltmək üçün onun adına çıxılan əsərlərin Şah İsmayıla mənsub olmadığı, əsərlərinin son dərəcə sadə və anlaşıqlı dildə yazılması kimi iddialara əl atırlar (129). Lakin bu iddialar Şah İsmayılın Azərbaycan türkcəsində yazmasının və bu yaradıcılığını mənəvi-siyasi məzmunun kölgə altına alınmasına ciddi maneələr ola bilməmişlər. Şah İsmayıl özü də onun yaradıcılığına qısqanclıqla yanaşanları bu yoldan əl götürməyə çağırırdı və deyirdi:

Bu Xətayi şerinə eyb etmə, ey nakəs həsud
Cümlə üşşaq əhlinə həmdən onun divanıdır.

Şah İsmayılın bədii əsərlərinin əksəriyyətinin son dərəcə sadə, anlaşıqlı dildə yazılmışdır. Bununla, Şah İsmayıl xalq həyatına nə qədər yaxından bələd olduğunu və bağlı olduğunu nümyiş etdirirdi. Bu, həm də Azərbaycan türkcəsinin klassik və xalq ədəbiyyatı nümunələrinin bütün incəliklərinin ifadəsi üçün şer dili kimi qəbul edilmiş fars dilindən heç də az imkanlara malik olmadığını göstərirdi. Aşağıdakı qəzəl parçası da buna nümunə ola bilər:

Yarə yar olmaq dilərsən, qeyri sən yar istəmə
Canü dildən keçməmişsən, yeri, dildar istəmə

Varü varlıq varmayınca şahə varmaz varımız
Sən özünü şahə dapşur, dəxi gəl var istəmə

Aşiqin məşuq yüzüdür qibləsi, həm Kəbəsi
Sən yüzünü şahə döndər, qiblə divar istəmə

Bu cahanın bağçasında xarsız gülmü olur
Tikənindən qorxar isən, yeri, gülzar istəmə

Ey Xətayi, yar yoluna canını etgil fəda
Keç bu dünya şöhrətindən, sən onu var istəmə

Azərbaycan türkcəsində qiymətli əsərlər yazmış Şah İsmayıl Azərbaycan türkcəsinin vurğunu idi və ona bağlı idi. Yəni, Azərbaycan türkcəsinə bağlılıq Şah İsmayılın mənəvi keyfiyyətinin başqa bir tərəfidir və bütün yaradıcılığı ilə də Şah İsmayıl bunu təsdiq edirdi.

Şah İsmayıl öz bədii yaradıcılığında və rəsmi yazışmalarında səltənət padşahı kimi hansı mənəvi keyfiyyətlərə malik olması, padşahlığa olan baxışları haqqında da maraqlı qeydlər vardır. Şah İsmayıl padşahlığı Allahın lütfü, yaradan tərəfindən müəyyənləşdirilmiş bir tale hesab edirdi. Bu əqidə onun rəsmi yazışmalarında da öz əksini tapmışdı. İmzaladığı fərmanları Şah İsmayıl, bir qayda olaraq, "hökm Allahındır" ifadəsi ilə başlayardı (130) və səltənət idarəçiliyinin Allaha bağlılığını gösətərərdi. Yəni, bu ifadə onun padşahlığa olan baxışını ifadə edirdi.

Şah İsmayıl bir şah kimi özünə də, digər şahlara da iki cahana bağlanmaqdan uzaq olmağı, başqa sözlə haqq-ədalət tərəfdarı olmağı və səltənəti də haqq-ədalətlə idarə etməyi tövsiyə edirdi. O özünün maddi dünyaya bağlı olmadığını bəyan edirdi. Şah İsmayıl bəyan edirdi ki, dünya və hakimiyyətin dəyərsiz işlərinə bağlı deyil və daha uca və pak hədəflərə malikdir. "Bizim irsi və fitri baxımdan dünya və hakimiyyətin dəyərsiz və kiçik işlərinə bağlı olmağa nifrət duyulan və uzaq durulan aləmimizdə uca və pak hədəfimiz, yüksək, seçilən və dəyərli məqsəd, fani və dəyərsiz bər-bəzəyinə meylliliyimiz, xəbis və pis tör-töküntüyə iltifat etməkdən daha yüksəkdir. ..."Şübhəsiz ki, qulların üzərində sənin heç bir hökmün yoxdur" (İbrahim surəsinin 3-cü ayəsi) tələbinə əsasən peyğəmbərliyə məxsus yol ilə [getdiyimiz üçün] iradəmiz dünya və axirətə bağlılıq və meyllənməkdən imtina etmişdir" (131).

Şah İsmayıl səltənət idarəçiliyində həm də peyğəmbər yolu ilə getidiyini bəyan edirdi. Peyğəmbər yolunun necə yol olduğunu da Şah İsmayıl öz rəsmi yazışmalarında açıqlamışdı. İslam peyğəmbərinin bir hədisinə toxunaraq Şah İsmayıl bildirirdi ki, Allahın kitabına əməl edilməsi və əhli-beytə ehtiram qoyulması onun dövlət idarəçiliyi siyasətinin mərkəzində dayanır. Şah İsmayıl bildirirdi ki, peyğəmbər yolu ilə getdiyi üçün dünya və axirətə bağlılıqdan imtina etmişdir. Lakin bu səltənət şahı kimi dünya işlərindən kənar olmadığını da inkar etmirdi. Onun fikrincə, fani dünyanın işlərinə bel bağlamaq və zahiri qanunları icra etmək məcburiyyətində qalmasının səbəbi isə məzhəb hökmlərinin yayılmasına və nicat yolunun insanlara çatdırılmasına çalışmaqdan ibarət idi. Bu məsələ ilə bağlı fikrini konkretləşdirərək Şah İsmayıl belə yazırdı: "Həqiqət budur ki, bizim pak şəriətin və hidayət imamlarının haqq məzhəbinin qanunlarının icrasından, Mustafa və Murtəzanın parlaq təriqətini yaymaqdan başqa [hər hansı] bir niyyətimiz yoxdur" (132).

Bu yol ilə irəliləməyə qarşı çıxanları isə Şah İsmayıl bidət və üsyan əhli adlandırır və onlarla mübarizə aparılmasını da şah kimi əsas vəzifələrindən bir hesab edirdi. Bir şah kimi o, aşağıdakı keyfiyyətləri özü üçün dəyərli keyfiyyətlər sayırdı: islamı dərindən bilmək, onun mərasimlərini canlandırmaq,

məscidləri abadlaşdırmaq, elm və irfan əhlinə ehtiram göstərmək, məmləkəti gözəlləşdirmək, ədavətdən uzaq olmaq, sultanlara yaraşmayan hərəkətləri kənara qoymaq, sülhü, səltənətə fayda verən əməlləri dəstəkləmək, əzəmətli əcdadların izlədikləri yolu davam etdirmək və s. Şerlərinin birində isə Şah İsmayıl səltənət padşahı kimi haqqa bağlı olmağı özünün mənəvi keyfiyyətlərindən biri sayırdı və hər bir insanın dərdinə dərman etməyi başlıca vəzifəsi hesab edirdi:

Şah Xətayi aydır: - Sənindir fərman
Olursan hər qulun dərdinə dərman.

Şah İsmayıl özünü müqəddəslərin xələfi sayır və səltənəti daxilində olanların rifahı və rahatlıq içərisində yaşaması üçün çalışmalı olduğunu bəyan edirdi. Hakimiyyətin haqdan gəldiyini qəbul etdiyi üçün Şah İsmayıl bir tərəfdən səltənət daxilindəkilərin müti olmasını insanların haqq qarşısında olan vəzifəsi hesab edirdi. Özünü isə Şah İsmayıl əsil-nəcabət sahiblərini, fəzilət insanlarını, bəşəri dəyərlərə sadiq olanları qayğı ilə əhatə etməyə borclu bilirdi. Yuxarıda toxunulmuş olan bir fəmanda Şah İsmayıl belə yazırdı: “Ruziləri paylaşdıran, kəramətli əxlaqı [bəndələrinə] verən əzəməti uca, qətiyətli dəlilləri açıq-aşkar, ehsanı geniş olan uca Allah, nur saçan dövlətimiz, əzəmətli səltənətimiz və böyük xilafətimizi “Səni insanlara imam (dini rəhbər, başçı) təyin edəcəyəm” [ayəsini bizə şamil etmək vasitəsilə] zinətləndirib bizim fatehlik qabiliyyətimizi və rəhbərliyimizi “Biz səni yer üzündə xəlifə (və ya əvvəlki peyğəmbərlərə xələf) etdik” [ayəsində qeyd etdiyi kimi] aləmin bizə müti olması hökmü ilə bəzədilmiş və cilvələnmişdir. Həmişə bütün diqqət və fəaliyyətimizi mübarək hakimiyyətimiz və gündən-günə genişlənən xilafətimiz dövründə [tabeçiliyimizdə olan] tayfa və xalqların rifah və rahatlıq içində yaşamasına yönəltmişik. Xüsusilə ən ali əsil-nəcabət, mənəvi fəzilətlər və insani dəyərlərlə zinətlənmiş bir firqənin hörmətini saxlamağı özümüzə vacib və xoşbəxtlik rəmzi hesab edirik” (133).

Şah İsmayıl hakimiyyət-rəiyyət münasibətinə belə yanaşırdı. Bu münasibətlərdə həm rəiyyətin üzərinə müəyyən vəzifələr düşürdü, həm də hakimiyyətin təmsilçisi kimi onun üzərinə müəyyən vəzifələr düşürdü. Başqa sözlə, Şah İsmayıl rəiyyətə, ürfan və fəzilət əhlinə qayğı göstərilməsi kimi, rəiyyətin də hakimiyətə mütilik göstərilməsinin təmin edilməsini hakimiyyəti qarşısında ciddi vəzifə kimi qəbul edirdi. Bu mənada Şah İsmayıl hakimiyyət əleyhinə qiyam qaldıranlara qarşı mübarizə aparılmasını da öz vəzifələrindən biri hesab edirdi.

“Şah mənəm” sonluqlu qəzəlində də Şah İsmayıl şahlıq üçün tələb olunan mənəvi keyfiyyətləri bədii dildə oxuculara çatdırmışdı. Amma bu qəzəldə Şah İsmayıl özünü yalnız səltənət şahı kimi deyil, həm də mürşidi-kamil kimi təqdim etmiş, bu iki dini və dünyəvi vəzifələri özündə necə birləşdirdiyini təsirli və inandırıcı ifadələrlə qələmə almışdır. Şah İsmayılın fikrincə, o, haqq yolunda mübarizə aparan qazilərin arzusunda olan və rəhbərliyinə layiq olan bir şahdır

və ona görə də bu qaziləri öz ətrafında birləşməyə səsləyirdi. Amma özünü heç də bu qazilərdən üstün tutmurdu və bəyan edirdi ki, o, sufilərə yoldaşdır, hər zaman sufilərin əlindən tutmağa hazırdır. Şah İsmayılı özünü sufilərdən biri hesab edirdi, onların səsinə səs verməyə, hər zaman çağırışlarına çatmağa hazır olduğunu bildirirdi. Yuxarıda deyilənlərdən də məlumdur ki, Şah İsmayıl istər mürşidi-kamil kimi, istər qoşun başçısı kimi sufilərlə, bütün qoşun əhli ilə bir olmağı, onların sevincini və çətinliklərini də bölüşməyi özünün həyat tərzi sayırdı. Məhz bunun üçün idi ki, Şah İsmayıl hərbi yürüşlərdə ləşgər (qoşun) başçısı kimi əldə etdiyi müharibə qənimətlərini qoşun əhli ilə bölüşürdü, onların zəhmətinin lazımınca qiymətləndirilməsini özünün mənəvi vəzifəsi bilirdi:

Allah, Allah den, qazilər, qazilər deyən şah mənəm
Qarşu gəlün, səcdə qılın, qazilər deyən şah mənəm

Uçmaqda tuti quşuyam, ağır ləşgərlər başıyam
Mən sufilər yoldaşıyam, qazilər deyən şah mənəm

Nerdə əkərsən bitərəm, xanda çağırsan, yetərəm
Sufilər əlin dutaram,qazilər deyən şah mənəm

Yaradıcılığının ən yaxşı nümunələrindən olan bu qəzəlində Şah İsmayılın həm də bəşəri düşüncələri, vəhdəti-vücud fəlsəfəsinin dəyərləri, kamil insan arzuları öz əksini tapmışdır. Şah İsmayıl özünün kamilləşərək Həllac Mənsur kimi "ənəlhəqq" söyləmək, Musa peyğəmbər kimi Allaha yaxın olmaq məqamına çatdığını söyləyir və bu keyfiyyətlərini Həzrət Əli yolunu davam etdirməklə qazandığını bildirirdi:

Mənsur ilə darda idim, Xəlil ilə narda idim
Musa ilə Turda idim, qazilər deyən şah mənəm

...Xətayiyəm, al atlıyam, sözü şəkərdən datlıyam
Murtəza Əli zatlıyam, qazilər deyəm şah mənəm

Bütünlükdə, Şah İsmayıl dərin etiqad adamı idi və onun bu etiqadını bütün yaradıcılığı boyu izləmək mümkündür. Şah İsmayılın bütün həyatı da bu etiqad üzərində qurulmuşdu və yaradanın haqqlığına olan inamını və əqidəsini aydın ifadələrlə öz əsərlərində də təsvir etmişdir. Səfəvi şahı şübhə etmirdi ki, onun bütün uğurları məhz yaradanın rizası ilə baş verir və ona görə də qismətini yaradanın lütfi ilə bağlayırdı. Əslində, Şah İsmayıl öz hərəkatını da yaradanın izni və rəsaləti ilə əlaqələndirirdi və yuxarıda qeyd edildiyi kimi, bu yolda qılınc çalmağı həyatının mənası sayırdı. Qəzəllərində və kiçik həcmli şer parçalarında bəzən misra daxilində Şah İsmayıl Allaha olan etiqadını ifadə edir və bununla daxili dünyası haqqında oxucuda təsəvvür yaradırdı. "Dəhnamə" və "Nəsihət-

namə" kimi böyük həcmli əsərlərində isə Allahın, onun peyğəmbərinin və şiəliyin pişvası kimi qəbul etdiyi Həzrət Əlinin tərifinə və vəsfinə ayrıca parçalar həsr etmişdi. "Nəsihətnamə" əsərində Şah İsmayıl Allaha olan etiqadını belə ifadə etmişdir:

Şəriki yoxdur onun şəriki hudur
Mübərradır xamudan şöylə hudur
Münəzzəhdir xamudan eyni-zatı
Vəli hər şeydə zahir möcüzatı
İkilikdən bəridir zati-mütləq
Kəmali-qüdrətinə söylə səddəq
Özüdür hər işə sərkarü memar
Bu rəmzi anlagil, ey əhli iqrar
Cahani tarü mar etmək əlində
Yenə bir dəmdə var etmək əlində

Şah İsmayıl Allahın son peyğəmbərinə olan etiqadını da bədii əsərlərində əbədiləşdirmişdir. Onun tərifinə həsr etdiyi misralarında Şah İsmayıl bütün cahanın Allah tərəfindən məhz Məhəmməd peyğəmbərin eşqinə yaradıldığını, dünyanın onun nuru ilə bəzəndiyini vurğulayırdı.

Həzrət Əlinin bədii obrazının yaradılmasına isə Şah İsmayılın bütün yaradıcılığı boyu rast gəlmək mümkündür. Çünki bir tərəfdən Həzrət Əli şiəliyin pişvası idi və Şah İsmayıl da öz dini-ideoloji hərəkatını da məhz Həzrət Əlinin pişvası olduğu şiəlik üzərində qurmuşdu. Həzrət Əli onun dərin etiqad bəslədiyi müqəddəslərdən biri, yaradana aparan yolun ibtidası idi. Şah İsmayıl özünün qurduğu dövləti də Həzrət Əli yolunun davamı kimi qəbul edirdi və əmin idi ki, Həzrət Əli vasitəsilə Allaha tapınmaq dünyada haqqın bərqərar edilməsinə yol açmaq mümkündür.

Həzrət Əlinin əmir-əl mömünliyinə Şah İsmayıl bütün həyatı ilə bağlı idi və başladığı hərəkatın ilhamverici qüvvəsini də onu bilirdi. Mənbələrdə də təkrar-təkrar bildirildiyi kimi, Şah İsmayıl bütün hərəkatı boyu Həzrət Əlinin qeybani göstərişlərini almış və onları icra etmişdi. Ən çətin anlarında da Şah İsmayıl ümidini Əmir əl mömünə bağlayır və onu köməyə çağırırdı.

Şah İsmayılın əsərlərində Həzrət Əlinin "şah" obrazı yaradılmış və şaha xidməti həyatının mənası kimi təqdim etmişdir. Həzrət Əli məzhəb pişvası olmaqdan əlavə, Şah İsmayıl üçün həm də öz əqidəsi uğrunda son nəfəsədək mübarizə aparan bir müqəddəs idi. Onun Düldül atı və Zülfüqar qılıncı da Şah İsmayıl üçün mübarizlik simvollarına çevrilərək əsərlərində təkrar-təkrar canlandırılmışdır.

Şah İsmayıl "Dəhnamə" əsərində Həzrət Əliyə olan etiqadını belə təsvir etmişdir:

Ol şah ki, məzhəri xudadır
Həqdən kim anı deyir cüdadır

Məqsudi-cəhan cəmii sənsən
Ey gövhəri-pak, sən nədənsən?
Adəm nə bilir həqiqətini
Bilməz çü mələk təriqətini
Gəldi süvəri-vücudə həq sən
Həq səndə zühur, eyni-həqsən
Ey sirri-hidayətü vilayət
Bu bəndənə qıl kərəm inayət
...Həqqin sağ əli sənin əlindir
Allah yolu sənin yolundur

Müqəddəslərə olan dərin etiqadını Şah İsmayıl qəzəllərinin birində belə ümumiləşdirmişdir:

Yəqin bil ki, xudayidir Xətayi
Məhəmməd Mustafayidir Xətayi

Səfi nəsli, Cüneydi-Heydər oğlu
Əliyyəl-Mürtəzayidir Xətayi

Həsən eşqinə meydanə gəlibdir
Hüseyni-Kərbəlayidir Xətayi

Əli Zeynəlibad, Baqirü Cəfər
Kazım, Musa Rizayidir Xətayi

Məhəmməd Təqidir, Əli Nəqi həm
Həsən Əsgər liqayidir Xətayi

Məhəmməd Mehdiyi-Sahib Zəmanın
Eşgində gədayidir Xətayi...

Bu qəzəl Şah İsmayılın dini ideologiyasının əsas məzmununu təşkil edir. O bu ideologiya altında mübarizə bayrağı qaldıraraq ətrafına böyük qüvvələr topladı və həmin qüvvələri Səfəvi dövlətinin yaradılması hərəkatına səfərbər edə bildi. Amma nəzərə alınmalıdır ki, bu ideologiya reallıqdan qoparılmış bir ideologiya deyildi. Şah İsmayıl bu ideologiyanı öz dövlətçilik təfəkkürü, dayaqlandığı ictimai bazanın baxışları ilə qovuşduraraq böyük bir dini-siyasi hərəkata çevirdi və xalqın tarixində yeni bir səhifə olan Səfəvilər dövlətinin əsasının qoyulmasına nail oldu.

Yuxarıdakı qəzəl parçası həm də Səfəvi təriqətinin Şah İsmayıl dövrünün dini inanclarını təşkil edirdi. Şah İsmayılın tarixi şəxsiyyət kimi fərqləndirici cəhətlərindən biri bu idi ki, o, səltənət şahı olmaqdan əlavə həm də təriqət rəhbəri idi, təriqət ardıcılları üçün mürşidi-kamil idi. Bu mürşidi-kamillik də

onun dini-mənəvi keyfiyyətinin müəyyənləşməsinə aparıcı təsir göstərirdi. Mürşidi-kamilliyə xas olan keyfiyyətləri ilə Şah İsmayıl həm də öz müridlərinin mənəvi keyfiyyətlərinin formalaşmasına təsir göstərirdi.

Mürşidi-kamillik məqamı elə Şah İsmayılın özünün də siyasi-ideoloji, mənəvi, mübarizlik keyfiyyətlərinin kamilləşməsinə öz təsirini göstərirdi. Çünki Şah İsmayılın dövlətçilik hərəkatı da bu və ya digər dərəcədə mürşidi-kamillik məqamı ilə bağlı idi. Bu məqama malik olmasaydı Şah İsmayıla dövlətçilik hərəkatına başlamaq üçün ictimai-hərbi bazanın formalaşdırılması da yəqin ki, çox çətin olardı.

Şah İsmayıl əmin idi ki, tutduğu təriqət yolu doğru yoldur, bu yolda onun piri Əlidir və öz müridlərinə də tövsiyə edirdi ki, bu yola inamı olmayanlar ona qoşulmasınlar:

Şah Xətayi aydır: - Bu doğru yoldır
Doğru yoldır, bu həm eşq məqamıdır
Əksigə qalmayan pirim Əlidir
Qəlbində şübhəsi olan gəlməsin

Şah İsmayıl ona da əmin idi ki, məqsədinə nail olmaq istəyən mürid mürşidinə tapınmalı, onun rəhbərliyini qəbul etməli, ona xidmət etməli və onun yolunu davam etdirməli idi. Mürid-mürşidlik münasibətləri son nəhayətdə haqqa aparan yol kimi qəbul edilirdi. Mürşid bu yolun öndəri idi və onu rəhbərliyinin qəbul edilməsi, yəni onun yolunun izlənilməsi haqqın dərkinə xidmət edirdi. Ona görə Şah İsmayıl bildirirdi ki, "bu yola varmaq olmaz rəhnümasız" (rahnüma-yolgöstərən).

O bu öyüdlərini həm müridlərinə ünvanlayırdı, həm də özünə. Şah İsmayıl üçün mürşid Həzrət Əli idi və onun ətəyindən tutmaqla məqsədinə çatacağına inanırdı. Müridləri üçün isə Şah İsmayıl mürşid idi və o, ümumiyyətlə, özünü bir mürşid kimi müridlərlə müqəddəslər arasında əlaqələndirici bənd hesab edirdi. Çünki müqəddəslərin buyuruqları müridlərə Şah İsmayılın yuxuları vasitəsilə çatdırılırdı. Ona görə də Şah İsmayıl təriqət yolunda mürşid-mürid münasibətlərinin düzgün qurulmasını təbliğ edirdi:

...Mürşidsiz, rəhbərsiz yollar açılmaz
Mürşid ətəgində əlin varmıdır?

...Gəl bir pirə xidmət eylə
Əmək zaye olmaz ola

Mürşid ətəgin möhkəm tut
Kimsəlindən almaz ola

Şah İsmayıl təriqət müridliyini haqqa yetişmək üçün doğru yol bilirdi və ona görə əmin idi ki, bu yola qədəm qoyan mürid həyatından keçməyə belə hazır olmalıdır

Gəl könül, pir istəyəli bu qədim ərkan ilə
Gerçək oldur həqq yoluna varə başü can ilə...

...Keçmişəm sərimdən, qorxmam ölümdən

Şah İsmayıl təriqət yolunun yolçularını həm də saf, düz yol ilə gedən, halalını haramından ayırmağı bacaran insanlar kimi qəbul edirdi və onlara belə mənəvi keyfiyyətlər arzu edirdi:

Sufi isən, alıb satma
Halalına haram qatma
Yolun əyrisini getmə
Doğru yola nəzər eylə

"Şah İsmayılın ... şerlərində mübarizlik, mühariblik ruhu mühüm yer tutur. Şair-hökmdar ...pəhlivanlar kimi öyünür, özünün qəhrəmanlığından, qorxmaz və mübariz bir şəxsiyyət olmasından tez-tez danışır, öz sərkərdələrinə döyüş meydanında necə hərəkət etmək lazım gəldiyini göstərir" (134).

Şah İsmayıl cəngavər idi, fateh idi, mübarizlik simvoluna çevrilmişdi. Bu keyfiyyətlər həm də onun əqidəsinin xarakterik cəhətləri idi və bunu öz əsərlərində də ifadə edirdi. O bəyan edirdi ki, tutduğu yolda baş verməkdən çəkinməyəcəkdir, şəhidlik və qazilik onun taleyinə yazılıbdır. Şah İsmayıl əlində tutduğu qılıncını Həzrət Əlinin əfsanəvi Zülfüqarına bənzədirdi və bu qılıncı həm də qələbələrinin rəhni hasab edirdi. Özünü isə o, mübarizə meydanında Həzrət Əliyə bənzədirdi və onun kimi haqq yolunda apardığı mübarizədən dönməyəcəyini bəyan edirdi. Şah İsmayıl bu keyfiyyətləri həm də öz müridlərinə, Səfəvi döyüşçülərinə təlqin etməyə çalışırdı:

Xətayi ölməgə can verməyib bu meydani-eşq içrə
Yezid ollam, dönərsəm Murtəzanın zülfüqarindən...

...İmam eşqinə çalıram qılıncı
Münafiq qırmağa mərdanə gəldim

Mənəm bunda Xətayi Heydər oğlu
Çü İsmail kimi qurbanə gəldim...

...Biz imam qullarıyız sadiqanə
Şəhidlik,qazilik nişanımızdır

Yolumuz incədir, incədən-incə
Bu yolda baş verək, ərkanımızdır

Şah İsmayıl şerlərində də bildirirdi ki, yalnız qalib gəlmək üçün meydana atılır:

Eşq xərmənində sovruldum
Həm ələndim, həm yoğruldum
Qazana girdim, qovruldum
Meydana yenməgə gəldim

Tarixdən də məlumdur ki, Şah İsmayıl Çaldıran döyüşü istisna olmaqla bütün döyüşlərdən qalib çıxmışdı. Həmin döyüşlərdə Şah İsmayıl mübarizliyini, qətiyyətini ortaya qoymaqla fatehliyini, sərkərdəlik istedadını nümayiş etdirə bilmişdi. Bu qələbələrin mühüm səbəblərindən biri də o idi ki, Şah İsmayıl şerlərində söz açdığı mübarizliyini öz döyüşçülərinə də təlqin edə bilmişdi. Şah İsmayılın ictimai məzmunlu şerlərində mübarizlik, dönməzlik, haqqa etiqad kimi hisslər hakimdir. Bu hisslər Şah İsmayılın daxilindən coşan hisslərdir və onu bütün həyatı boyu müşayiət etmişdi.

Amma Şah İsmayıl Çaldıran döyüşünün ağrı-acısını da yaşamışdı və bu döyüşün yaratdığı ağır təəssürat onun bəzi əsərlərində də öz əksini tapmışdı. Mütəxəssislər tərəfindən Çaldıran döyüşünün nəticələrinə həsr edildiyi bildirilən qəzəlində (135) Şah İsmayıl məğrur təbiətinin atəşi-dərdi-ələmlər tərəfindən parçalandığını bəyan edir, qəm-qüssəyə büründüyünü dilə gətirirdi. Şair-hökmdar üzləşdiyi qəm-qüssənin hətta onun sümüklərini də əritdiyini yanıqlı ifadələrlə şerində səsləndirirdi:

Diyari-eşqə sultanım, dila, mən də zəmanəmdə
Vəzirimdir qəmü qüssə, oturmuş iki yanımdə

Fəraqü atəşü dərdü ələmlər bağrımı yaxdı
İliklər qarə su oldu, əridi üstüxanimdə

Mən ol canbaz sərbazəm fələk fövqündədir darim
Necə Həllac Mənsuri yürütdüm rismanimdə

Mən ol şahbazi-kuhsərəm, baş əgməm qülleyi-Qafə
Neçə ənqa kimi yavru uçurdum amiyanimdə

Şah İsmayılı bürümüş olan kədərin içərisində də onun məğrurluğu özünü göstərməkdədir. O özünü göylərdə cövlan edən şahbaz quşlara oxşadaraq Qafqaz dağına belə baş əymədiyini bildirirdi. Şah İsmayıl bununla onu demək istəyirdi ki, qarşısındakı heç bir düşmən onu sınmağa, sarsılmağa məcbur edə bilməz.

Onun başqa bir qəzəlində olan kədər notlarına görə həmin qəzəlin də Çaldıran döyüşündən sonra yazıldığını güman etmək olar. Bu qəzəldə də Şah İsmayılın ağır

hisslərə qapılmasını görmək mümkündür. Şah İsmayıl sözsüz ki, Çaldıran döyüşündə uduzmaq istəmirdi. Lakin bu döyüşdə ən yaxşı sərkərdələrini itirməsi, öz mübariz döyüşçülərinin şəhid düşməsi, xanımının isə əsir götürülməsi onun dərd və qəmini daha da artırırdı:

Ey könül quşu, derlər bəhar imiş, mana nə?
Büsati-eyş əcəb ruzgar imiş, mana nə?

Deyirlər oldu dil Leyli zülfünə Məcnun
Dəmində ol dəxi bir biqərar imiş, mana nə?

Axıtdı yaşımı dövran, batırdı qanıma əl
Rəqib əlindəki dəsti-nigar imiş, mana nə?

Şah İsmayılın mənəvi dünyasının ayrılmaz tərəflərindən biri də könül saflığı, bəşəri məhəbbət, səmimi münasibətdir. Bu keyfiyyətlərin təbliği onun çoxlu sayda əsərlərinin ana xəttini təşkil etmişdir. İnsani sədaqət, doğruluq, dürüstlük, haqqa vəfa kimi keyfiyyətləri olan insanlar Şah İsmayılın da təqdirini alan insanlar idi. Çünki Şah İsmayılın fikrincə, haqq yolunun yolçuları da məhz belə insanlar olmalı idilər.

Bədii əsərləri Şah İsmayılın öz dünyagörüşünü, əqidəsini, inanclarını ətrafındakılara çatdırmaq üçün ən yaxşı ifadə vasitələrindən biri idi və bu vasitədən də o çox məharətlə istifadə etmişdi. Şah İsmayılın bədii yaradıcılığı son dərəcə zəngin bir bədii-mənəvi xəzinədir və bu xəzinənin bütünlüklə açılması ilə Səfəvi dövlətinin banisi olan şair-hökmdarın mənəvi dünyası haqqında daha geniş məlumat əldə etmək mümkün olardı.

### 3.Şah İsmayılın ailəsi

Şah İsmayıl dövrünə aid olan mənbə müəlliflərinin əksəriyyəti daha çox onun özü ilə bağlı olan məlumatları qələmə almışlar. Hökmdarların ətrafında olanlar və o cümlədən də onların ailə üzvləri, əsasən, mövzu kontekstində mövzu obyektinə çevrilmişlər. Şah İsmayılın ailə üzvləri də bu ənənəyə əsasən, daha çox mövzu kontekstində müəlliflərin diqqətini cəlb etmişlər. Ona görə də Şah İsmayılın ailə üzvləri ilə bağlı mükəmməl məlumatlar mövcud deyil. Belə məlumatların mövcud olmadığı üçün isə Şah İsmayılın bütün ailə üzvləri haqqında mükəmməl mənzərə yaratmaq mümkün deyil. Hətta mənbələrdə Şah İsmayılın ailə üzvləri haqqında mükəmməl məlumatların olmaması bəzi hallarda elmi-tarixi ədəbiyyatda ailə üzvləri haqqında doğru olmayan mülahizələrin ortaya çıxması ilə də nəticələnmişdir.

Konkret hal kimi, Şah İsmayılın qardaşları haqqında elmi-tarixi ədəbiyyata mübahisəli fikirlərin çıxarılması nümunə ola bilər. Yuxarıda bu məsələ ilə bağlı münasibət bildirilmişdir. Yəni, Şah İsmayılın qardaşları haqqında mənbə-

lərdə xronoloji ardıcıllığa əsaslanan ətraflı məlumat olmaması bəzi müəlliflərin mülahizələrinin xeyli dərəcədə subyektivləşməsinə yol açmışdır.

Bu baxımdam Şah İsmayılın anası Aləmşah bəyim haqqında da yetərli məlumat mövcud deyil və onun haqqında müxtəlif, bəzi hallarda isə mübahisəli fikir və mülahizələrin elmi-tarixi dövriyyəyə çıxarılması heç şübhəsiz ki, daha çox bununla bağlıdır.

Aləmşah bəyim məlum olduğu kimi, Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı idi. Onun anası Trabzonun yunan hökmdarının qızı Katrina (Despina) idi. Uzun Həsən Trabzon hakiminin qızı Katrina ilə o zaman evlənmişdi ki, Trabzon hələ Osmanlı dövlətinin nəzarəti altına düşməmişdi. Uzun Həsənlə Katrina arasında bağlanılan nikah, əslində, Ağqoyunlu dövləti ilə Trabzon krallığı arasında müttəfilqliyin rəsmiləşdirilməsi idi (136). Əvvəlki fəsillərdə deyilənlərdən aydındır ki, Katrinaa evlilikdən sonra da dinini dəyişməmişdi. Buna görə, onun qızı Martanın (Aləmşah bəyimin) da ilk vaxtlar xrisitan məzhəbinə mənsubluğu ehtimal edilir. Şeyx Heydərlə, yəni Şah İsmayılın atası ilə nikahı bağlandıqdan sonra Marta həm islam dinini qəbul etdi, həm də özünə Aləmşah bəyim adını qəbul etdi. Mənbələrdə və elmi-tarixi ədəbiyyatda Aləmşah bəyim həm də Həlimə bəyim və Məliha kimi də tanınmaqdadır (137).

Aləmşah bəyim həm ata tərəfdən, həm də ana tərəfdən hökmdarlar ailəsinə mənsub idi. Həyat yoldaşı Heydərin şəhid olmasından sonra Aləmşah bəyim çox böyük məhrumiyyətlərlə və çətinliklərlə üzləşməli oldu. Bir tərəfdən böyük oğlu Şeyx Əlinin şəhid olması, digər tərəfdən onun digər övladlarının sürgündə olması istər-istəməz Aləmşah bəyimin həyatını xeyli ağırlaşdırırdı. O öz övladlarını dərindən sevirdi və məlumdur ki, böyük oğlu Şeyx Əlinin şəhid olmasını sonsuz üzüntü ilə qarşılamış və onun dəfn işlərinin ağırlığını da öz üzərinə götürşümdü.

Bəzi elmi-tarixi ədəbiyyatda Aləmşah bəyimin xristian ruhunda böyüdüldüyü bildirilir (138). Şübhəsiz ki, Aləmşah bəyim öz dinini dəyişməmiş anası Katrina (Despina) xanıma böyük ehtiramla yanaşırdı. Lakin Aləmşah bəyim xristian mühitində böyümürdü və ətrafındakı insanlar da xristianlar deyildilər. O, Uzun Həsənin sarayında, türk mühitində böyüyürdü və onun ətrafındakılar da türklər idilər. Aləmşah bəyim övladlarını da türk dəyərləri üzərində tərbiyələndirirdi. Məhz bunun nəticəsi idi ki, Şah İsmayıl (İsmayıl Mirzə) təqiblərdən qorunmaq üçün Lahicana yollananda yalnız Azərbaycan dilində, yəni anasından öyrəndiyi dildə danışırdı. Fars və ərəb dillərinin öyrənilməsinə isə o, Lahicanda başlamışdı.

Bəzi məlumatlar görə, Aləmşah bəyim hətta Səfəvi təriqət dəyərlərini də dərindən öyrənmiş, ürfan elmlərinə yiyələnmiş və ariflərin pişvası (mürşidi) olmuşdu. Hətta onun ürfan elminə yiyələnməklə islam aləmində ciriqqə geymiş ilk xanımlardan birinin olması da göstərilir (139).

Buna görə Aləmşah bəyimin Şah İsmayılın özü tərəfindən öldürülməsi ilə bağlı bəzi hallarda elmi-tarixi ədəbiyyata çıxarılan məlumatların obyektivliyi ciddi sayıla bilməz. Çünki Şah İsmayılın öz anasına dərin ehtiramla yanaşdığı məlumdur. Şah İsmayılın öz anasının ölümünə səbəb olması barəsində şərq

mənbələrində hər hansı bir məlumat yoxdur. Bu barədə şaiyiə xarakterli məlumatlar qərb müəlliflərinin əsərlərində özünə yer tapmışdır ki, onlar da etibarlı dəlillərə əsaslanmır.

Şah İsmayıl (İsmayıl Mirzə) Lahicandan öz hərəkatına başlayanda əvvəlcə Ərdəbilə gəldi, həm əcdadlarının qəbrini, həm də anasını ziyarət etdi. Sonra isə Ərdəbili tərk etmək məcburiyyətində qaldı. İsmayıl Mirzə hələ Lahicanda olarkən qardaşı İbrahim Mirzə hərəkatdan kənarlaşaraq Ərdəbilə, anasının yanına dönmək arzusunu bildirdi. İsmayıl Mirzə bununla razılaşdı. Onun İbrahim Mirzənin xahişi ilə razılaşması həm də anasının Ərdəbildə tək qalmaması istəyi ilə bağlı idi.

Təsdiq olunmamış məlumata görə, Aləmşah bəyimin 1522-ci ildə dünyasını dəyişməsi ehtimal olunur (140). Bir daha qeyd edilməlidir ki, Şah İsmayıl tarixi ilə bağlı olan mənbələrdə Aləmşah bəyimin sonrakı taleti haqqında məlumatlar mövcud deyil. Onun göstərilən tarixdə vəfat etməsini dəqiqliklə söylənilməsinə əsas verən məlumat da mövcud deyil. Bildirilir ki, dünyasını dəyişdiyi vaxt Aləmşah bəyimin 62 yaşı var idi. Aləmşah bəyim Şeyx Səfi türbəsində dəfn edilmişdir. Onun qəbri hazırda da qalmaqdadır və Şeys Səfi türbəsinin həyətində, Şeyx Səfiəddinin dəfn edildiyi "Allah-Allah" künbəzinin divarları yaxınlığındadır.

Aləmşah bəyimin Şeyx Səfi türbəsində dəfh edilməsi ona olan ehtiramın təsdiqi ola bilər. Çünki əgər onun Şah İsamyıl tərəfindən öldürülməsi haqqında şayiələr doğsu olsaydı, onda Şah İsmayıl onun Şeyx Səfi türbəsi kimi müqəddəs bir məkanda dəfninə icazə verməzdi. Aləmşah bəyimin Şeyx Səfi türbəsində dəfn olunması həm də onun kifayət qədər möhkəm etiqad sahibi olmasından xəbər verir. Əks-təqdirdə yenə də onu Səfəvi mürşidləri ilə bir məkanda dəfn etməzdilər.

İstər mənbələrdə, istərsə də elmi-tarixi ədəbiyyatda Aləmşah bəyimin üç oğlu olduğu göstərilmişdir. Bunlar Şeyx (Sultan) Əli, İbrahim Mirzə və İsmayıl Mirzədir (Şah İsmayıl). Şeyx Əli məlum olduğu kimi, atası Şeyx Heydərin şəhid olmasından sonra Səfəvi təriqət rəhbərliyini öz üzərinə götürmüş və dünyəvi hakimiyyətin yaradılması üçün də mübarizəyə qoşulmuşdu. O bu yolda şəhid oldu və şəhidliyindən əvvəl İsmayıl Mirzəni mürşidi-kamil elan etdi. İbrahim Mirzəyə gəlincə isə onun həyat yolu ilə bağlı mənbələrdə müəyyən məlumatlat öz əksini tapmışdır. Həmin məlumatlar onu deməyə əsas verir ki, İbrahim Mirzə qardaşı Şah İsmayılın həm də yaxın silahdaşlarından biri idi. Yaxın şərqin hakimiyyət sülalərinin ailə qarşıdurmalarından fərqli olaraq İbrahim Mirzə qardaşı Şah İsmayıla çox sədaqətli idi və bunu öz fəaliyyəti ilə də nümayiş etdirirdi. İbrahim Mİrzənin nə zaman dünyasını dəyişməsi haqqında dəqiq məlumat söyləmək çətindir. Çox güman ki, o, Şah İsmayıldan sonra dünyasını dəyişmişdi. Əks təqdirdə bununla bağlı Səfəvi dövrünə aid mənbələrdə hansısa bir məlumat qala bilərdi.

Bəzi mənbələrdə və eləcə də mənbələrə əsaslanan elmi-tarixi ədəbiyyatda Şah İsmayılın üç xanımı haqqında müəyyən məlumatlar vardır. Bunlar Taclı bəyim, Bəhruzə xanım və Məhd Ülyadır. Qeyd edilməlidir ki, mənbələrdə Şah

İsmayılın xanımları haqqında da fərqli məlumatlar mövcuddur. Bu da onların həyatı və taleyi haqqında bəzi mübahisəli fikirlərin elmi-tarixi ədəbiyyata yol açmasına gətirib çıxarmışdır.

Mövcud məlumatlar Şah İsmayılın Taclı bəyimlə nikahın 1504-06-cı illər arasında kəsildiyini ehtimal etməyə əsas verir (141). Mənbələrdə Taclı xanımın mənşəyi haqqında fərqli məlumatlar vardır. Bir məlumata görə, əsil adı Şahbəyim (142) olan Taclı bəyim Mosullu tayfasından idi. Bəzi araşdırmalarda bildirilir ki, Taclı bəyim Mosullu tayfaından Həmzə bəy Bəktaşinin nəslindədir və onun Mosullu tayfasına mənsubluğu da heç bir şübhə doğurmur (143). Mənbələrdə bildirilir ki, Şah İsmayıl Ağqoyunlu qoşunlarına qarşı döyüşlər aparanda Mosullu tayfasının bəzi adamları mövcud təhlükələrdən nicat tapmaq üçün Firuzkuh hakimi Hüseyn Kiya Çəlaviyə pənah gətirdilər. Onların arasında Taclı bəyim ailəsi də var idi (144). Bu məlumata istinadən bəzi tədqiqatçılar Taclı bəyimin ailəsinin Murad bəy Cahanşahlı ilə birlikdə Hüseyn Kiya Çəlaviyə sığındığını bildirirlər (145). Murad bəy Cahanşahlı Səfəvi hakimiyyətini tanımaqdan imtina edirdi və Şah İsmayıla qarşı ciddi müqavimət göstərirdi. Firuzkuh alınandan sonra bəzi mənbələr hətta onun ətinin kabab edilərək qızılbaş döyüşçülərinə verildiyini də bildirirlər (Bu məlumatın şübhə doğurduğu haqqında yuxarıda danışılmışdır). Müqavimətin göstərildiyi Usta qalası 1503-cü ildə alınandan sonra onun daxilində sağ qalanlar əsir götürüldülər. Şah İsmayıl qalada əsir götürülənlərə baxış keçirərkən Taclı bəyimi onların arasında müşahidə etdi və onun gözəlliyinə aşiq oldu. Mənbələrdə bildirilir ki, Şah İsmayıl öz əyanlarından birinə Taclı bəyimi əsirlərdən ayırmağı tapşırdı və qanuni yaşı yetişdikdən sonra onu özünə nikah etdirdi (146). Şah İsmayıl ilə evləndikdən sonra ona Taclı bəyim (xanım) adı verildi. Bu adın ona, əslində, Şah İsmayıl tərəfindən verildiyi ehtimal edilir.

Şah İsmayılın Taclı xanımla evlənməsi haqqında fərqli məlumatlardan biri venesiyalı tacir Anciolellonun qeydlərində mövcuddur. Onun yazdığına görə, 1501-ci ildə əldə etdiyi hərbi uğurdan sonra dostları tərəfindən Şah İsmayıla evlənmək barəsində də düşünmək təklif olundu. Amma o zaman Şah İsmayılın nikah bağlaması üçün münasib bir xanım olmadığından bu təklif qəbul olunmadı. Bir müddətdən sonra Şah İsmayıla Uzun Həsənin oğlu Sultan Yaqubun qız nəvələrindən olan Taclı xanım adlı birisinin mövcudluğu haqqında xəbər verilir. Bu xəbəri alandan sonra Şah İsmayıl həmin xanımın ardınca adamlar göndərdi. Amma bu adamlara Taclı xanımın evdə olmadığı bildirildi. Şah İsmayıl tərəfindən təkidlə Taclı xanımın tapılması tələbi irəli sürüldükdə başqa bir xanımı geyindirib-bəzəndirib şah adamlarının qarşısına çıxardılar. Lakin məlum olan əlamətlər əsasında həmin xanımın Taclı xanım olmadığı bəlli oldu. Bildirilir ki, şahın adamları sonra Taclı xanımın da aralarında olduğu bir dəstə xanımı gözdən keçirdilər və Taclı xanımı tanımayaraq geri dönməli oldular. Venesiyalı tacirin məlumatına görə, sonradan Şah İsmayıl da Taclı xanımın tanınmasında iştirak etdi və diqqətlə baxdıqda onu tanıdı. Şah İsmayıl Taclı xanımı saraya alarak onunla evlənəcəyini bildirdi. Lakin onun evlilik yaşı

çatmadığı üçün əmirlərindən birinə onu yanında saxlamasını tapşırdı. Bir də üç ildən sonra Şah İsmayıl evlənmək qərarına gəldi və Taclı xanımı özünə nikah etdirdi (147).

"Aləmara-yi Şah İsmayıl" əsərində də Şah İsmayıl ilə Taclı bəyimin evliliyi haqqında fərqli məlumat öz əksini tapmışdır. Bu əsərdəki məlumata görə, Ağqoyunlu Sultan Murada qarşı döyüşdən uğurla çıxandan sonra Həmədan ətrafında olarkən əmirləri Şah İsmayıla Əbdi (Abedin) bəy Şamlının həm yaraşıqlı, həm də şücaətli bir qızının olması haqqında məlumat çatdırdılar. Verilən məlumata görə, gözəlliyinə və şücaətinə görə onunla müqayisə oluna biləcək bir xanımı tapmaq mümkün deyildi. Həmin məlumata görə, Taclı bəyim o dərəcədə güclü və cəsur idi ki, qardaşı Durmuş xanla dəfələrlə qurşaq tutmuş və hər dəfə də onun kürəyini yerə vurmuşdu. Bu məlumata görə, Taclı xanım Mosullu tayfasının deyil, Şamlı tayfasının üzvü idi. Taclı xanımın haqqında verilən məlumat Şah İsmayılda bir maraq yaratdı və bir müddətdən sonra Əbdi bəy Şamlının yanına öz elçilərini göndərdi. Əbdi bəy də cavabında bildirdi ki, mən Şah İsmayılın qulamı, qızım isə onun kənizidir və bu qızı kimə almaq istəsə Əbdi bəy üçün bir baş ucalığıdır. Bununla belə, Əbdi bəy qızının onunla şərt kəsdiyini də Şah İsmayıla çatdırdı. Taclı xanımın şərti belə imiş ki, ona evlənmək istəyən hər bir kəslə qılınc çalacaq, nizə toqquşduracaq və qurşaq tutacaqdır. Bu qarşılaşmada qalib gələn olsa həmin adam da onun əri olacaqdır. Əbdi bəy sonradan Şah İsmayıl tərəfindən elçi gəlməsini və elçilərə verdiyi cavabını qızı Taclı bəyimə də çatdırdı. Taclı bəyim elçilərə belə bir cavab verilməsindən razı qaldı. Lakin onu da etiraf etdi ki, səltənət hökmdarına belə bir cavab verilməsi doğru deyildir. Ona görə elçilərin yenidən gələcəyi təqdirdə Şah İsmayıl qarşısında başqa bir şərt qoymağı qərarlaşdırdı. Onun yeni şərti ondan ibarət idi ki, Şah İsmayıl heç vaxt onu döyüşə girməkdən çəkindirməsin, Şah İsmayıl nə zaman döyüşə yollansa icazə versin ki, o da həyat yoldaşı ilə birlikdə döyüşə yollansın (148).

Əbdi bəy özü saraya yollanaraq qızının şərtini Hüseyn bəy Lələyə açıqladı. Hüseyn bəy də bu xəbəri Şah İsmayıla çatdırdı. Şah İsmayıl bu şərtlə razılaşdı. O, islam alimlərini, o cümlədən axund Əhməd Ərdəbilini dəvət edərək ona nikah bağlanmasını tapşırdı. Şah İsmayıl ilk dəfə idi ki, Taclı bəyimi görürdü və onun doğrudan da hər cürə tərifə layiq olduğunu müşahidə edəndən sonra onu Taclı bəyim adlandırdı. Sonra da toy tədarükü görülməsi barəsində göstəriş verdi. Taclı xanımla evlənməsi münasibətilə Şah İsmayıl yenidən səxavət qapısını açdı, əmirlərinə, vəzirlərinə çox qiymətli hədiyyələr bağışladı, qorçuların, qulamların və digər xidmətçilərin maaşlarını iki dəfə artırdı, şadlıq və şadyanalıqla toy məclisi təşkil etdi (149).

Şah İsmayılın ilk övladı da Taclı xanımdan dünyaya gəldi. Bu övlad, sonradan Şah İsmayılın varisi olmuş Təhmaisib Mirzə idi. O, 1513-cü ildə İsfahan yaxınlığında dünyaya gəlmişdi (150). Bəzi mənbələrdə Təhmasib Mirzənin 1513-cü ildə və 1514-cü ildə doğulması haqqında məlumatlar vardır (151). "Tarix-i aləmara-

yi Abbasi" əsərində isə Təhmasib Mirzənin 1514-cü ildə fevral ayının 22-də İsfahan yaxınlığındakı Şahabad kəndində anadan olduğu bildirilir (152).

Mənbə məlumatlarına görə, Təhmasib Mirzə doğulama qədər Şah İsmayıl övladlarının dünyaya gəlməsinə elə də maraq göstərmirdi. Lakin Təhmasib Mirzə doğulandan sonra Şah İsmayılın övlad sevinci xeyli artdı və ona görə də övladlarının sayının artmasını istədi. Bildirilir ki, Çaldıran döyüşündən sonra Şah İsmayılın göstərişi ilə Əmir Soltan Mosullu Təhmasib Mirzənin lələsi təyin edildi və Təhmasib Mirzənin tərbiyəsi xüsusi nəzarət altına alındı (153).

"Aləmara-yi Şah İsmayıl" əsərində Taclı xanımın Təhmasib Mirzəyə olan hamiləliyi və onu dünyaya gətirməsi daha geniş və həm də fərqli şəkildə təsvir edilmişdir. Bu əsərdə deyilir ki, Taclı xanımın hamiləliyinin son günlərində yolu İsfahan tərəfə düşmüşdü. Onu müşayiət edən dəstə İsfahan yaxınlığındakı Atəşgah adlanan kəndə yaxınlaşanda Şah İsmayıl dayanmağı və Zayəndərud çayı kənarında düşərgə salmağı əmr etdi. Taclı xanımın hamiləliyinin son günləri olduğu üçün Şah İsmayıl xacəsaraylara tapşırdı ki, Taclı xanımı da götürüb öz hərəkətlərini davam etdirsinlər və tezliklə şəhərə çatsınlar. O istəmirdi ki, Taclı xanım uşağı səhrada dünyaya gətirmək məcburiyyəti ilə qarşılaşsın. Bildirilir ki, Taclı xanımı aparan dəstə yolda ikən güclü yağış və tufanla qarşılaşmalı oldu, göyün gurultusu, ildırımların çaxması Taclı xanımın vəziyyətinə təsir etdi və bu da doğuşun tez baş verməsinə yol açdı. İsfahan şəhərinə 2 fərsəx məsafədə bu dəstə öz köçünü yaxınlıqdakı bir kənddə salmalı oldu. Bu kəndin adı mənbədə "Rənan" kimi göstərilmişdir. Kəndin adamlarının çoxu evlərində olmadığından dərhal Taclı xanıma kömək edəcək bir kimsə tapılmadı. Nəhayət, kəndin rəisi Yusif adlı birisi hay-küyə gəlib dəstəyə yaxınlaşır və kəcavələrdən, insanların görünüşündən bu dəstənin yüksək mənsəbli Səfəvi əyanlarından birinə və ya elə şahın özünə mənsub olduğunu güman edir. Sonra da Taclı xanımı və onun ətrafındakıları evinə aparır. İlkin ünsiyyətdən sonra Yusif gələnlərin kim olduğundan xəbər tutur. Onun anası Taclı bəyimin doğuşuna kömək edir və həmin gecə Təhmasib Mirzə dünyaya gəlir (154).

Səhəri gün Taclı xanım başına gələnləri, oğlan uşağının dünyaya gəlməsini, qonaq olduğu ev sahibinin kömək göstərməsi haqqında məktub yazıb möhürlədi, Təhmasib Mirzənin əlini zəfəran suyuna salıb bir ağ parçanın üstünə sürtdü və onları Yusf vasitəsilə Şah İsmayılın düşərgəsinə göndərdi. Taclı xanım tapşırdı ki, Yusif onun qardaşı Durmuş xanı tapsın və məktubu ona çatdırsın. Yusuf də məktubu Durmuş xana çatdırır. Şah İsmayıl biləndə ki, Taclı xanımdan məktub gəlib Durmuş xanı da, Yusifi də hüzuruna çağırtdırdı.

Təhmasib Mirzənin dünyaya gəlməsindən çox sevinən Şah İsmayılın göstərişi ilə məktub gətirən Yusifə qiymətli hədiyyələr bağışlandı. Bundan başqa Yusifin yaşadığı ərazidə padşah əmlakı sayılan ərazilər də syurqal kimi ona verildi. Yusif sonra geri qayıdıb Şah İsmayılın onun evinə qonaq gəlməsinə hazırlaşmağa başladı. Mənbədə Şah İsmayılın qarşılanması üçün Yusif tərəfindən təmtəraqlı tədbirlər görülməsi, Şah İsmayıla çoxlu sayda qiymətli



*Şah İsmayılın oğlu Təhmasib Mirzə*

hədiyyələr hazırlanması haqqında geniş təsvir verilmişdir. Şah İsmayıl bu təmtəraqı görəndən sonra Yusifə dedi ki, səm mənim atam yaşındasan, evin abadan olsun. Şah İsmayıl Yusifin evində qonaq olub istirahət etdikdən sonra öz əyanlarına mübəccimlər vasitəsilə Təhmasib Mirzənin gələcək taleyi haqqında məlumat alınmasını tapşırdı. Mir Məhəmməd adlı seyid ona dedi ki, Kaşanda Mövlana Nəsir adlı tanınmış bir münəccim vardır və onun münəccimlik sahəsindəki təcrübəsindən faydalanmaq olar. Şah İsmayıl da Mövlana Nəsirin ardınca Kaşana adam göndərdi.

Mövlana Nəsir gəlib Şah İsmayılın hüzuruna yetişəndən sonra Şah Təhmasibin aqibəti haqqında müşahidələrini açıqladı. O bildirdi ki, Təhmasib Mirzə gələcəkdə padşah olacaq, 25 ilə yaxın islam yolunda qılınc çalacaq, Osmanlı padşahı onun qarşısında məğlub duruma düşəcək və sonra 30 il o öz qılıncını qınından çıxarmaq məcburiyyətində qalmayacaq, onun hakimiyyəti illərində ədalət hökm sürəcək və onun çoxlu sayda övladları olacaqdır. Təhmasib Mirzənin anadan olmasının yeddinci günü sevinc və şadyanalıqla qeyd olundu. Mənbə bildirir ki, elə həmin günlərdə Şah İsmayıl öz yuxusunda Həzrət Əlini gördü və onun tövsiyəsi ilə yeni dünyaya gəlmiş övladına Təhmasib adını verdi (155).

1514-cü ildə Taclı xanım həyatının ciddi bir sınağı ilə qarşılaşmalı oldu. Bu da onun Çaldıran döyüşündə iştirak etməsi idi. Həmin döyüşün sonunda müəyyən sayda Səfəvi döyüşçüsünün Osmanlı qoşunlarına əsir düşdüyü məlumdur. Osmanlı qüvvələrinin ələ keçirdikləri əsirlər arasında Səfəvi xanımlarının da olduğu bildirilir. Bəzi araşdırmalarda Səfəvi xanımlarının öz həyat yoldaşlarına mənəvi dayaq olmaları üçün döyüş meydanına gəlmələri, onların hətta kişi paltarında vuruşmaları haqqında məlumatlar vardır. Amma xanımların öz həyat yoldaşları ilə birlikdə uzun səfərlərdə yol yoldaşı olması da dövrün hərbi ənənələrindən idi. Döyüşçülər öz xanımlarını da, öz xidmətçilərini də çox zaman özləri ilə aparırdılar. Çaldıran düzündə Səfəvi xanımlarına rast gəlinməsi də istisna deyildir. Lakin onların çoxu həyat yoldaşlarının ağır anlarını onlarla bölüşdülər, əyinlərinə döyüş geyimləri geyinərək meydana atıldılar. Onların arasında şəhid olanlar da var idi. Bunu hətta xarici müşahidəçilər də təsdiq edirdilər. Məsələn, İtaliya tarixçilərindən biri də yazırdı ki, Çaldıran düzündə, Səfəvi şəhidləri arasında döyüş geyimində olan xanımların şəhidliyi ilə də rastlaşmışdılar. Tarixçinin fikrincə, belə xanımlar həyat yoldaşlarının taleyinə şərik çıxmış və vuruşmaq şərəfini öz üzərinə götürmüşdülər. Məlumata görə, Sultan Səlim Səfəvi xanımlarının döyüş meydanında şəhid olmalarını görüncə onların cürətinə, şücaətinə və vətənsevərliyinə afərin söyləmiş və onların hərbi qaydada dəfn edilməsi barəsində göstəriş vermişdi. Bəzi məlumatlar görə, Şah İsmayıl özü ilə Çaldıran düzünə 2 minə qədər cəngavər xanımlardan gətirmişdi ki, onlar da Osmanlı qoşunlarına qarşı döyüşlərdə iştirak etsinlər (156). Şübhə yox idi ki, bu xanımların çoxu türk xanımları idi və Çaldıran döyüşünün özəlliklərindən biri də bu idi ki, səfəvilərinərləri də, xanımları da məmləkətin qorunması üçün silaha sarılmışdılar.

Osmanlı qüvvələrinə əsir düşən xanımlar arasında Şah İsmayılın xanımları olan Bəhruzə xanımla Taclı xanımın da olması bildirilir. Əslində, bu məsələnin özü də kifayət qədər rəvayət xarakteri daşıyır və mövcud olan məlumatların tutuşdurulması Şah İsmayılın xanımlarının Osmanlı qüvvələrinə əsir düşməsinin birmənalı şəkildə təsdiqini çətinləşdirir. Tarixi ədəbiyyatdakı məlumatlara görə, Bəhruzə xanım rəsmi olaraq Şah İsmayılın xanımı idi, Taclı xanım (bəyim) isə onun məşuqəsi idi. Amma tarixçilərin və araşdırmaçıların heç də hamısı bu qənaətlə razı deyildirlər və Taclı xanım da Şah İsmayılın nikahlı xanımı kimi təqdim olunur. Taclı xanımın həqiqətən də Şah İsmayılın xanımı olması həm müxtəlif mənbələrdə, həm də elmi-tarixi araşdırmalarda öz əksini tapmışdır. Hətta Çaldıran döyüşündən sonra da Taclı xanım mənbələrdə Şah İsmayılın sevimli xanımı kimi təqdim olunmuşdur. Bundan başqa, Taclı xanım həm də kifayət qədər nüfuza və hörmətə malik bir xanım idi. Əvvəla, müxtəlif səfərlər zamanı Şah İsmayılın çadırına ən yaxınlıqda Taclı xanımın çadırı qurulardı. Digər tərəfdən Taclı xanım malik olduğu nüfuza görə dövlət işlərinə də müdaxilə edə, bu və ya digər adamların vəzifəyə təyinatına təsir göstərə bilirdi. Yəni, Şah İsmayıl da onun məsləhətlərini qəbul edirdi. Bu, heç də təsadüf deyil. Sözsüz ki, Taclı xanım belə bir məqama öz ağlı, zəkası və tədbirliliyi sayəsində yetişmişdi. Mövcud olan məlumatlara görə, Şah İsmayıldan sonra onun oğlu Təhmasibin şah elan olunmasında da Taclı xanım öz nüfuzundan və saray əyanlarına təsir imkanlarından istifadə etmişdi. O öz nüfuzunu Şah Təhmasibin zamanında da qoruyub saxlaya bilmişdi. Nəzərə alınsa ki, Təhmasib taxta çıxanda 10 yaşınıa yenicə keçmişdi, onda dövlətin idarə edilməsində onun da iştirakı istisna deyildi. Taclı xanımın Bəhruzə xanımla birlikdə və ya ayrı-ayrılıqda əsir düşməsi haqqında da məlumat mövcud deyil. Taclı xanımın əsirlikdən qaçması haqqında olan məlumatlar belə bir qənaətə gəlməyə əsas verir ki, onlar birlikdə olmamışdılar. Yoxsa, yəqin ki, əsirlikdən birgə xilas olmağın yollarını arayardılar. Mövcud olan məlumatlara görə, Taclı xanım Osmanlı əmirlərindən olan Məsih Paşazadə adlı birisinin əsirliyində olmuşdu. Bildirilir ki, Taclı xanım iki gün əsirlikdə qaldı və iki gündən sonra ləl ilə bəzədilmiş sırğalarını verərək əsirlikdən xilas ola bilmişdi. Məlumata görə, sırğanın hər tayında olan ləl son dərəcə böyük idi. Onların hətta ovuca sığacaq boyda olması haqqında bilgilər vardır. Taclı xanım bu qiymətli sırğaları verəndən sonra yenidən kişi paltarı geyinir və Təbrizə tərəf istiqamət götürür (157).

Bəzi elmi-tarixi ədəbiyyatda Şah İsmayılın Taclı xanım adında iki xanımının olması haqqında da məlumat vardır. Güman edilir ki, onlardan biri Şah İsmayılın yanında qalmış və digəri isə Osmanlı əsirliyində olmuşdur. Bu fikrin təsdiqi üçün müəyyən mənbələrə də istinad edilir. Qeyd edilməlidir ki, bu iddia da lazımi elmi-tarixi təsdiqini tapmamışdır və hələlik daha çox ehtimal xarakteri daşıyır.

Taclı xanımın əsirlikdən xilas olaraq Təbrizə gəlib çıxması "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində təsvir edilmişdir. Bu təsvirlər bir-birindən müəyyən fərqlərə malikdirlər. Amma onlar bu məsələ haqqında

ümumi bir təsəvvür yaradırlar. Yuxarıda qeyd edilmişdi ki, Taclı xanım Osmanlılara qarşı döyüşdə iştirak etmişdi və Osmanlı döyüşçüləri də onu tutmağa çalışırdılar. Bu onlara nəsib olmadı. Döyüşün səhəri günü Şah İsmayıl xanımının onların yanında olmadığını gördü və onun harada olması ilə maraqlandı. Əyanlar və əmirlər onun Təbrizdə olmasını ehtimal etsələr də, sonradan onun orada da olmadığı aşkar oldu. Bunu eşidəndə Şah İsmayılı kədər bürüdü və söylədi ki, xanımın Osmanlı əsirliyində olması onun namus məsələsidir. Sonra da əlavə etdi ki, əgər namus əldən getsə daha yaşamağa dəyərmi? Durmuş xan da ona bildirirdi ki, bizə nicat verən pərvərdigar namusumuzu da qoruyar. Şah İsmayıl Durmuş xana tapşırıq verir ki, 300 nəfərlik bir dəstə götürsün və Osmanlı qoşunları tərəfə hərəkət etsin, yolda-irizdə onunla qarşılaşarsa qarşılayıb saraya gətirsin. "Aləmara-yi Səfəvi"yə görə, Taclı xanım osmanlılarla döyüşdə yaralanmışdı və döyüş meydanından çıxandan sonra ata minərək oradan uzaqlaşmağa çalışırdı. Hara getdiyini bilmədiyindən iki gündən sonra bir səhraya gəlib çıxmışdı. Təsadüfən Durmuş xanın vəziri Mirzəşah Hüseyni İsfahani Heratdan Durmuş xanın yanına gələrkən həmin səhraya gəlib çıxmış və orada Taclı xanımla rastlaşmışdı. Mirzəşah Hüseyni İsfahani də onu Durmuş xanın yanına gətirir. Durmuş xan Taclı xanımı görəndə çox sevinir və dərhal Taclı xanımı özü ilə birlikdə saraya aparır. Şah İsmayıl bir tərəfdən Taclı xanımı görməyə sevinir. Digər tərəfdən də itkin düşməsindən narahat olduğunu onun nəzərinə çatdırır. O, Taclı xanıma deyir ki, əgər bir daha müharibələrdə iştirak etməyəcəyinə and içərsə ona toxunmayacaq. Yox, əgər yenidən döyüşlərə qatılmaq fikrinə düşəcəksə, onda onu edam etdirəcəkdir. Taclı bəyim də and içir ki, bir daha döyüşlərə qatılmayacaqdır və bundan sonra Şah İsmayıl da onun həyatına toxunmur (158).

Taclı xanımın əsir düşməsi məsələsinə Şah İsmayılın oğlu Sam Mirzə də öz yazılarında üstüörtülü şəkildə işarə etmişdir. O yazırdı ki, Mirzəşah Hüseyni Çaldıran döyüşündə Şah İsmayıla göstərdiyi xidmətə görə şahın xüsusi ehtiramı ilə qarşılaşdı və buna görə də vəkil vəzifəsinə təyinat aldı. Tədqiqatçılar şübhə etmirlər ki, Sam Mirzə bu sözləri ilə Taclı xanımın əsirlikdən qurtarılmasında göstərdiyi köməyə görə Mirzəşah Hüseyninin vəkil vəzifəsinə təyin edilməsini nəzərdə tutmuşdur (159).

Çaldıran döyüşündən sonra da Taclı xanım öz ağlı, fərasəti və qabiliyyəti ilə Şah İsmayılın sevimli xanımı olaraq qalmaqda idi. Ona görə də Şah İsmayıl onu hərəm xanımlarının böyüyü və bəyimi kimi də adlandırırdı. Hərəm işlərinin nizama salınması ona həvalə olunmuşdu. Şah İsmayıl onun məsləhətlərini də nəzərə alırdı. Bunu səltənət əyanları və əmirləri də bilirdilər. Ona görə bu əmirlər və əynalar hər hansı bir çətinliklə rastlaşdıqda Taclı bəyimin yanına gələr, dərdlərini ona açar və ondan kömək göstərməsini xahiş edərdilər. Taclı bəyim də elmi-tarixi ədəbiyyatda yalnız əmir və əyanlara deyil, bütünlükdə çətinliyə düşən bütün insanlara kömək göstərməyə hazır olan, imkansızlara və ehtiyacı olanlara ianə və sədəqə paylayan bir xanım kimi xarakterizə olunmuşdur. Yəni, o öz əməlləri ilə Şah İsmayıla olan hörmət və

ehtiramı daha da artıran, Səfəvi sarayının nüfuzunu yüksəldən bir xanım kimi qələmə alınmışdır (160).

Mənbə müəllifləri də bildirirlər ki, Taclı bəyim 20 il müddətində Şah İsmayılın yarı və vəfadarı oldu. Şah İsmayılın vəfatından sonra isə Taclı bəyim təxminən daha 15 il ömür sürdü və həmin müddət ərzində də Taclı bəyim əvvəlki hörmət və nüfuzunu saxladı. Şah İsmayılın vəfatından sonra Taclı bəyimin geniş xeyriyyəçilik işləri ilə məşğul olması haqqında mənbələrdə qiymətli məlumatlar qalmaqdadır. Məsələn, Andryu J. Neyman adlı bir qərb tədqiqatçısı Taclı xanımın xeyriyyəçilik işlərinə belə dəyər verirdi: "İsmayılın Mosullu tayfasından olan xanımı Taçlı Xanım, (1540-cı ildə vəfat edib) Çaldırandan sonra Səfəvilərin On iki İmam təriqətinin tanınmasında mühüm rol oynadı. 1522-ci ildə Vəramin, Qum və Qəzvin ətrafında sahib olduğu tarla, bağça və kəndləri səkkizinci imamın bacısı Fatimanın Qumdaki türbəsinə vəqf olarak bağışladı. Bununla yanaşı o, digər dini qurumların təsis edilməsini də təşviq edirdi. O, Şərqi Azərbaycan əyalətində bir körpünü yenidən bərpa etdirmiş, həyat yoldaşının hökmdarlığı ilə yanaşı Səfəvi Sufi təriqətinin lideri olduğunu ucaldaraq İsmayılın Ərdəbildə bina edilməsi düşünülən türbəsinin önəmli hissələrinin inşasına maliyyə dəstəyi vermişdir" (161).

Mariya Szuppe adlı müəllifin də Taclı bəyimin xeyriyyəçili ilə bağlı qeydləri vardır. Həmin qeydlər belədir: "I Şah İsmayılın xanımı Taclı xanımın Mərkəzi İranda müxtəlif türbələrə vəqf olaraq hədiyyə etdiyi əkin torpaqları, bağları və kəndləri vardır. O, Ərdəbildə Səfəvi şeyxlərinin məqbərəsinin süsləmə işlərini və Miyanədəki Doxtər körpüsünü yenidən inşa etdirmişdi. O, dini qurumların təsis edilməsini təşviq etməsinə görə məşhurdur" (162).

Kişvar Rizvişu adlı başqa bir müəllif isə Taclı bəyimin xeyriyyəçiliyi haqqında aşağıdakı qeydləri etmişdi: "Şah İsmayılın məqbərəsi Şeyx Səfi türbəsinə yaxın kiçik bir yerdə inşa edildi. Önəmli olan budur ki, Şah İsmayılın qəbir xərclərini onun dul xanımı Taclı xanım adı ilə tanınan Şah Bibi Bəyim çəkmişdi. Taclı xanım memarlığın ən fəal və önəmli dəstəkçilərindəndir. Vəqf sənədləri və tarixi xoronologiyalara görə, Taclı xanım Ağqoyunlu sülaləsindən olub zəngin və tərbiyəli, xeyirsevərliyi ilə tanınan bir xanımdır. Qazi Əhməd Gümmü onun öz mülklərindən böyük bir payı Qumdakı Fatimə Məsumə türbəsinə vəqf olaraq hədiyyə etdiyini yazmışdır. Bununla yanaşı, o, Şah İsmayılın Ərdəbildəki Cənnətsəra türbəsinin tikilməsi üçün də çox xərc çəkmişdir. Qısası, 1524-cü ildə Şah İsmayılın vəfatından sonra Taclı xanım İranda memarlığın əsas hamisi idi" (163)

Lakin ömrünün sonuna yaxın Taclı bəyim, Təhmasib Mirzə tərəfindən Şirazdakı İstəxr qalasına sürgün olundu və 1540-cı ildə orada da düynasını dəyişdi (164). Taclı bəyim Şirazdakı Bibi doxtəran qəbristanlığında dəfn edildi.

Çox güman ki, Taclı xanım kimi saray həyatında fəal rol oynayan və o cümlədən də Təhmasib Mirzənin də şahlığını dəstəkləyən və ona yardımçı olan bir xanımın sürgünə göndərilməsi və həbsə alınmasını onun həyatının üzüntülərini daha da artırdı və bu da onun dünyasını dəyişməsini yaxınlaşdırdı. Taclı



*Kitabın müəllifi Mehman Süleymanov Şeyx Səfi türbəsi qarşısında.17 mart 2006-cı il*

xanımın sürgünə göndərilməsinin səbəbləri barəsində isə aydın və dəqiq məlumat mövcud deyil. Mövcud məlumatlar isə onun saray adamlarından kiminsə tərəfindən zəhərlənməsi, Şah Təhmasibə qarşı sui-qəsd təşkilinə cəhddə ittihamlandırılması barəsində xəbər verir (165).

Bəzi tədqiqatçılar isə Taclı bəyimin Şiraza sürgün olunmasını onun Səfəvi sarayında artan nüfuzu və dövlət idarəçiliyinə müdaxilələri ilə əlaqələndirirlər. Bildirilir ki, onun dövlət idarəçiliyinə müdaxilələri, saray əyanları və əmirləri arasındakı yüksək nüfuzu Şah Təhmasibin xoşuna gəlməyə bilərdi və ona görə də Şah Təhmasib canını qurtarmaq üçün onu sürgünə göndərdi (166).

Bəzi müəlliflər də onun Şah Təhmasibin qızlarının təhriki ilə sürgünə göndərildiyini bildirirlər (167). Amma bu təhrikin nə ilə bağlı olduğu göstərilməmişdir.

Şah İsmayılın digər bir xanımı isə Bəhruzə xanımdır. Bəhruzə xanımın kimlərdən olması, harada, nə vaxt doğulması, Şah İsmayıl ilə onun evliliyinin necə baş tutması haqqında elmi-tarixi dövriyyədə kifayət qədər məlumat yoxdur. Bəhruzə xanımla bağlı mövcud məlumatar onun Çaldıran döyüşündə əsir düşməsi ilə bağlıdır. Məlumdur ki, Osmanlı sultanı Sutan Səlim onun əsir düşməsindən çox sevindi və bundan Şah İsmayılın cəzalandırılması üçün istifadə etdi.

Bəhruzə xanımla bağlı olan məlumatlar onun doğrudan da Osmanlı əsirliyində olmasından xəbər verir. Amma bir daha qeyd edilməlidir ki, Səfəvilər dövründə Səfəvilərin tarixi haqqında yazılmış mənbələrdə Şah İsmayılın xanımlarının əsir düşməsi haqqında məlumatlara rast gəlmək mümkün deyil. Bu məlumatlar daha çox Osmanlı mənbələrində öz əksini tapmışdır. Həmin məlumatlara görə, Bəhruzə xanımın əsir götürülməsi xəbərini eşidəndə Sultan Səlim xeyli sevindi və Bəhruzə xanımla bir əsir kimi davranmaqla Şah İsmayıla öz qəzəbini və nifrətini çatdırmağa çalışdı. Amma Sultan Səlimin ətarındakıların heç də hamısı onun kimi düşünmürdülər və qadına qarşı qəddar hərəkətlər heç də yeniçərilərin və Osmanlı üləmalarının xoşuna gəlmirdi. Bununla belə, Sultan Səlim öz qərarından dönmədi və Bəhruzə xanımı geri döndərmək deyil, onun həbsindən narazı qalanları razı salmaq barəsində yollar aramağa başladı. Bu məqsədlə Sultan Səlim tanınmış və nüfuzlu Osmanlı üləmalarından biri olan Cəfər Çələbi Taczadəni yanına çağırdı. Çələbi Taczadə əvvəllər saray katibi olmuş, sonradan isə Anadolu qaziəsgəri vəzifəsinə təyin edilmişdi. Bu vəzifə o zamanın böyük dini vəzifələrindən biri idi və Cəfər Çələbi həmin vəzifəyə sultan tərəfindən təyin edilmişdi. Sultan ondan Bəhruzə xanımın Osmanlı ərazisində ərə verilməsinin mümkünlüyü barəsində soruşdu və bunun mümkün olduğunu eşidəndə ondan bu barədə fitva verilməsini tələb etdi. Cəfər Çələbi də bu fitvanı rəsmiləşdirdi. Bundan sonra Sultan Səlim tələb etdi ki, Cəfər Çələbi onu özünə nikah etsin. Cəfər Çələbi də bu tələbdən boyun qaçıra bilmədi və Bəhruzə xanımı özünə nikah etdi. Bəhruzə xanımı din xadiminə nikah etdirməklə Sultan Səlim istəyirdi ki Şah İsmayıla daha bir psixoloji zərbə vursun. Çünki Sultan Səlim bununla demək istəyirdi ki, Şah İsmayılın xanımı əmirlərə, qoşun başçılarına yox, din xadiminə layiqdir. Bu xəbərin Şah İsmayıl tərəfindən necə

qarşılanmasını söyləmək çətindir. Lakin bəzi məlumatlara görə, Bəhruzə xanım özü Sultan Səlimdən qisasını almağa çalışdı. Belə ki, Bəhruzə xanımın nikah etdirilməsindən təxminən iki ay sonra yeniçərilər yenidən sultana qarşı üsyan qaldırdılar. Bu üsyanın mərkəzi kimi Amasiya seçilmişdi. Üsyançılar Amasiyada bir sıra vəzifəli adamların evlərini dağıtdılar. Bu üsyan yatırıldıqdan sonra onun kimlər tərəfindən təşkil və təhrik olunmasının araşdırılmasına başlandı. Həmin araşdırmalar zamanı yeniçərilərin bəzi rəhbərlərinin, o cümlədən də qaziəsgər Cəfər Çələbinin adı üsyan təşkilatçılarından biri kimi ortaya çıxdı. Sultan Səlim bu xəbəri əvvəlcə çox təəccüblə qarşıladı. Çünki Cəfər Çələbi ona sadiq olan insanlardan biri idi və bunu çətin anlarda da sübut etmişdi. Sonra Sultan Səlim anladı ki, bu məsələdə Bəhruzə xanımın əli vardır və Cəfər Çələbi də onun tərəfindən təhrik edilmişdir. Üsyanın təşkilində əli olduğu üçün Cəfər Çələbi edam edildi. Bəhruzə xanıma isə toxunulmadı. Sultan Səlim ona böyük miqdarda pul, fayton, bir neçə nəfər xidmətçi göndərdi və tələb etdi ki, İstanbuldan Ədirnəyə köçsün. Bəhruzə xanımın sonrakı həyatı haqqında artıq məlumatlar mövcud deyil (168). Osmanlı mənbələrinə əsaslanan türkdilli elmi araşdırmalarda Şah İsmayılın Bəruzə xanımı əsirlikdən azad etmək üçün cəhd göstərməsi haqqında məlumat verilmişdir. Həmin məlumata görə, Şah İsmayıl Çaldıran döyüşündən sonra barışıq əldə edilməsi üçün Mir Əbdülvahab adlı elçisini çoxlu qiymətli hədiyyələrlə Sultan Səlimin yanına göndərdi. Həmin elçi vasitəsilə Şah İsmayıl həm də hərəminin geri qaytarılması məsələsini qaldırdı. Elmi-tarixi ədəbiyyatda Şah İsmayılın konkret olaraq kimin geri qaytarılmasını xahiş etməsi barəsində məlumat olmasa da, çox güman ki, Bəhruzə xanım nəzərdə tutulurdu. Çünki Sultan Səlim cavab məktubunda Şah İsmayılın hərəminin sünni üləmalarının fitvası ilə sünniyə ərə verilməsinə toxunurdu. Mənbələrdə olan məlumata görə, Sultan Səlim cavab olaraq Şah İsmayıla aşağıdakı kimi bir məktubun yazılmasını əmr etdi: "Sufi oğluna (Şah İsmayıl nəzərdə tutulur - M.S.) yazın - həzrət xudavəndəqar [Sultan Səlim] deyir ki, əhli-sünnət üləmalarının fitvası ilə onun xanımını ərə verdim. Bununla bilsin ki, müsəlman xanımların ərlərinin gözü qarşısında qızılbaşların ixtiyarına vermək hansı təsirə malikdir. Dinsiz və dünyapərəst mollaların sözü ilə İranın sünni üləma və əyanlarını diri-diri oda atanda və müsəlman qızları kafir hərbi əsirləri kimi şəhvət atəşinə atanda bilirdimi ki, bu əməllər cəzasız qalmayacaqdır?". Sonra da məktubda deyilirdi ki, ta ki, Şah İsmayıl haqsız məzhəbi aradan qaldırmayacaq, dinsiz axundları bizim dərgahımıza göndərməyəcək şəriətə zidd olan bidətləri qadağan etməyəcək, o və onun tabeliyindəkilər kafirlərdən də pis insanlar kimi tanınacaqlar. Sonra da bildirilirdi ki, şəriətə görə zərurət olmadan kafirlərlə sülhə getmək haramdır. Sultan Səlim onu da bildirirdi ki, yazın gəlişi ilə yenidən Şah İsmayıl ilə qarşılaşmaq və yenidən bir-birini sınamaq niyyətindədir (169).

Amma qeyd edilməlidir ki, Sultan Səlim tərəfindən belə bir məktubun yazılması ehtimalı tədqiqatçılar və araşdırmaçılar tərəfindən şübhə ilə qarşılanmaqdadır. Lakin belə bir məktub olmasa da, söylənilən fikirlərin Sultan Səlim

tərəfindən səsləndirilməsi mümkündür. Çünki Bəhruzə xanımın ərə verilməsi də, əslində, bu söylənən fikirlərin təsdiqi ola bilər.

Şah İsmayın üçüncü xanımı olan Məhd Ülya haqqında da mənbələrdə kifayət qədər məlumat yoxdur. Məhd Ülya Şirvanşah Fərrux Yasarın oğlu Şeyxşahın qızı idi. Şah İsmayıl ömrünün sonlarına yaxın onunla evlənmişdi. Bu evlilik bir tərəfdən sözsüz ki, Şirvan şahları sülaləsi ilə münasibətlərin daha sıx qurulması, Şirvanın Səfəvi dövlətinə daha sıx bağlanması istəyi ilə bağlı idi. Bu nikahın bağlanması ilə Şah İsmayıl həm də Şirvanşah sarayı ilə Osmanlı sarayı arasında formalaşan münasibətlərə də öz təsirini göstərə bilərdi. Mənbələrdən məlumdur ki, Şirvanşahın qızının nikah edilməsi üçün Şah İsmayıl el adətlərinə göz yummadı və səltənət sədri (dini işlər üzrə rəhbəri) Əmir Cəmaləddin Məhəmməd və Dəmuri bəy Təvaçi qiymətli hədiyyələrlə Şirvana elçiliyə göndərildi. Şeyxşah da bu elçiliyi geri qaytarmadı və qızının Şah İsmayıl ilə nikahına razılıq verdi. Mənbələrdə o da bildirilir ki, Məhd Ülya xanım Təbrizə gətirildikdən sonra üç gün toy edildi. Həmin günlər ərzində Şah İsmayıl yenidən öz səxavətini bir daha nümayiş etdirdi və Məhd Ülya xanımı müşayiət edən Şirvanlı qonaqlara çoxlu hədiyyələr verdi. Bu toy 1523-cü ildə baş verdi. Məhd Ülya xanımın sonrakı taleyi haqqında məbələrdə və elmi-tarixi ədəbiyyatda əlavə bir məlumatla rastlaşmaq çətindir (170).

Mənbələrdə, əsasən, Şah İsmayılın dörd oğlan övladının olduğu göstərilmişdir. Həmin oğlan övladları bunlardır – Təhmasib Mirzə, Sam Mirzə, Elqas Mirzə və Bəhram Mirzə. Bununla yanaşı, "Xolde bərin" müəllifi bildirir ki, Şah İsmayılın dünyasını dəyişmiş oğlan övladları da var idi ki, onların adını çəkməyi lazım bilməmişdir. Şah İsmayılın qız övladlarının isə beş nəfər olduğu bildirilir - Xanış xanım, Pərixan xanım, Məhinbanu xanım (Məhdülya Sultani), Firəngiz xanım və Zeynəb xanım (171). Elmi-tarixi ədəbiyyatda isə Şah İsmayılın qız övladı kimi Xeyransa bəyim haqqında da məlumat verilir və hətta onun Şah İsmayılın ilk övladı olması da bildirilir (172).

Şah İsmayıl övladlarını çox sevirdi. Mənbələrdə oğlan övladlarını doğulması haqqında qeydlər qalmaqdadır. Həmin qeydlər də göstərir ki, oğlan övladlarının doğulması, onların ilk dəfə başlarının qırxılması xüsusi mərasimlərlə, şadyanalıq məclisləri ilə müşayiət olunur və bu zaman Şah İsmayıl ətrafındakılara qiymətli hədiyyələr bağışlayırdı. Şah İsmayılın oğlan övladlarından dünyasını dəyişən də olmuşdu. Tarixdən məlumdur ki, 1517-ci ildə bir neçə günün ərzində Şah İsmayılın üç oğlan övladı dünyaya gəldi – Sam Mirzə, Rüstəm Mirzə və Bəhram Mirzə. Rüstəm Mirzənin həyatı və taleyi haqqında mənbələrdə məlumata rast gəlmək çətindir. Çox güman ki, o, dünyasını vaxtsız dəyişmişdi. Mənbələrdə Şah İsmayılın dünyasını vaxtsız dəyişmiş oğlan övladı haqqında danışılanda yəqin ki, Rüstəm Mirzə nəzərdə tutulurdu. Bundan başqa, Şah İsmayılın təxminən eyni vaxtda üç övladının meydana gəlməsi həm də onu deməyə əsas verir ki, onun yuxarıda adları çəkilən xanımlarından başqa digər xanımları da olmuşdur. Yuxarıda adları çəkilən xanımlardan Bəhruzə xanım Osmanlı əsirliyində idi, Məhd Ülya isə 1523-cü ildə Şah İsmayıla nikah

edilmişdi. Sonuncu adları çəkilən üç oğlan uşağından yalnız birini Taclı xanım dünyaya gətirmiş ola bilərdi. Bu uşaqlar əkiz deyildilər. Çünki onlar hər biri aralarında bir neçə gün fasilə olmaqla doğulmuşdular. Belə olduğu təqdirdə ya Şah İsmayılın nikahında ən azı daha iki xanım var idi, ya da bu uşaqlar nikahsız xanımlardan dünyaya gəlmişdilər. Amma Sam Mirzə ilə Bəhram Mirzənin həyatı haqqında olan məlumatlar onların hər iksinin sarayda həm sevildiyini, həm də onların böyük nüfuz sahibi olmalarını göstərir. Elmi-tarixi ədəbiyyatda Şah İsmayılın 1515-ci ildə dünyaya gəlmiş ikinci oğlu Elqas Mirzənin Şah İsmayılın Xanbacı xanım adlı xanımından doğulması haqqında məlumat vardır (173). 1517-ci ildə doğulmuş üç uşaqdan birinin də Xanbacı xanımın övladı olması ehtimal edilə bilər. Amma hər halda Xanbacı xanım da görünür ki, Şah İsmayılın sonuncu xanımı deyil

Şah İsmayılın oğlan övladları doğulandan sonra onların hər birinə lələ təyin edildi və onların təlim-tərbiyəsi tanınmış Səfəvi əmirlərinin himayəsi altına alındı. Oğlan övladlarından ikisinin – Təhmasib Mirzə ilə Sam Mirzənin hələ Şah İsmayılın sağlığında göstərdikləri fəaliyyət haqqında bəzi məlumatlar mövcuddur. Təhmasib Mirzə Xorasan hakimi təyin edilərək lələsi Əmir xan Mosullunun müşayiəti ilə Herata göndərilmişdi. Təhmasib Mirzə Səfəvi vəliəhdi və Şah İsmayılın varisi elan edilmişdi. Şah İsmayıl da istəyirdi ki, Təhmasib Mirzə hələ uşaq yaşlarından idarəçilik vərdişlərinə yiyələnsin. Amma kiçik yaşlarında olduğu üçün Xorasanın idarəçiliyi lələsi Əmir xan Mosullunun əlində cəmləşmişdi. Əmir xan Mosullu isə Xorasanın idarəçiliyini tələb olunan səviyyədə təşkil edə bilmədi və ona görə də o, Təhmasib Mirzə ilə birlikdə geri çağırıldı. Təhmasib Mirzənin yerinə isə Şah İsmayıl digər oğlunu, Sam Mirzəni təyin etdi və onu lələsi Durmuş xanla birlikdə Xorasana göndərdi. Şah İsmayıl dünyasını dəyişəndə Sam Mirzə Xorasan hakimi idi.

Sam Mirzə qardaşı Təhmasib Mirzənin (Şah Təhmasibin) hakimiyyəti illərində fəal siyasətlə məşğul olmağa cəhd göstərmişdi. Müxtəlif vaxtlarda o, iki dəfə Şah Təhmasib əleyhinə qiyam qaldırmış və bu qiyamların hər ikisi də yatırılmışdı. Hər iki qiyamdan sonra da Sam Mirzə həbs edilmişdi. Lakin o, Şah Təhmasib tərəfindən öldürülməmiş, öz əcəli ilə dünyasını dəyişmişdi. Sam Mirzə ədəbi yaradıcılıqla da məşğul olmuşdu. Xüsusən, o, təzkirəçilik sahəsində maraqlı fəaliyyət göstərmiş və "Töhfe-ye Sami" adlı təzkirəsini özündən miras qoymuşdur. Həmin təzkirədə Sam Mirzə çox böyük sayda şair haqqında məlumat vermiş və onların əsərlərindən nümunələr vermişdir (174)

Sam Mirzə kimi Elqas Mirzə də Şah Təhmasibin dövründə siyasətə qoşulmuş və ətrafına kifayət qədər güclü bir qüvvə toplaya bilmişdi. Bu qüvvə ilə Elqas Mirzə həm Şirvanı, həm də Fars vilayətinin böyük bir hissəsini öz nəzarəti altına almışdı. Sonradan Şah Təhmasibə qarşı mübarizə aparmaq gücündə olmadığını anlayaraq təslim olmaq qərarına gəlmiş və həbs edilərək zindana atılmışdı. Burada da o həyatını başa vurmuşdu. Elqas Mirzə qiyamının yatırılmasında Şah İsmayılın kiçik oğlu Bəhram Mirzə qardaşı Şah Təhmasibə vasitəçilik etmişdi. Onların arasında yaxşı

münasibətlər olmuş və Bəhram Mirzə vilayət hakimliyinə təyin olunmuşdu. Lakin o, cavan yaşlarında xəstələnərək dünyasını dəyişmişdi.

### 4 .Şahİsmayılın dünyasını dəyişməsi

Şah İsmayıl həyatının sonlarına yaxın Şəkiyə getdi, bir müddət burada ovla məşğul oldu. Sonra oradan Ərdəbilə tərəf hərəkətə başladı. O istəyirdi ki, bu şəhərdə əcdadlarının qəbrini ziyarət etsin. Amma hələ Şəki ətrafında olarkən onda ağır xəstəliyin özünü göstərməsi müşahidə olundu. "Rövzətüs Səfəviyyə" əsəri Şah İsmayılın xəstəliyinin qara ciyər ilə bağlı olduğunu yazmışdır. Bu xəstəlik qısa müddətdə xeyli şiddətləndi. Şah İsmayıl elə bir hala düşdü ki, hətta yemək belə yeyə bilmədi. Onun təbibləri xəstəliyin müalicəsinə çalışsalar da onun aradan qaldırılmasına nail ola bilmədilər. Şah İsmayıl səfərini yarımçıq saxlayıb Ərdəbil yolu ilə Təbrizə üz tutdu. Ərdəbildə olarkən onun səhhəti bir qədər yaxşılaşdı. Bu da onun sağalacağına bir ümid yaratdı. Lakin Sərab yaxınlığındakı Sain Gədiyi ("Tarix-e elçi nizam şah" əsərindən bu məntəqənin adı Savalan kuh -Savalan dağı göstərilmişdir) adlanan yerdə Şah İsmayılın hərarəti birdən-birə xeyli yüksəldi və 1524-c il may ayının 23-də həmin məntəqədə dünyasını dəyişdi. Dünyasını dəyişəndə Şah İsmayılın 37 yaşı var idi. Bu ömrünün 24 ilini o, Səfəvi dövlətinin şahı olmuşdu (175).

"Aləmara-yi Şah İsmayıl" əsərinin məlumatına görə, Şah İsmayıl Şirvana yollananda onu Şeyxşah qarşıladı və onun xidmətində dayandı. Şahın gəlişindən məqsəd ova çıxmaq olduğu üçün Şirvanşahın əmri ilə bölgədə mövcudluğu bəlli olan ov heyvanları qovularaq bir məntəqəyə toplandı ki, səhəri gün həmin məntəqədə ov edilsin. Həmin gecə Şah İsmayıl yuxusunda atası Sultan Heydəri gördü. Yuxuda Sultan Heydər ona dedi ki, ey övlad, yanımıza gəl, sizin şərəfli qədəmlərinizin intizarındayıq. Şah İsmayıl yuxudan ayıldıqdan sonra ağ libas geyindi və bütün gecəni dua və minacat deməklə məşğul oldu. Səhər açılanda isə Şah İsmayıl həmin libasda xidmətçilərinin və əyanlarının qarşısına çıxdı. Əmirlər yaxınlaşıb ondan ağ libasda olmasının səbəbini soruşdular. O da cavabında yuxuda eşitditləklərini danışdı və sonra da əlavə etdi ki, son səfərin yaxında olduğu hiss olunur. Ona görə ov səfəri təxirə salındı. Sonra da Ərdəbilə yollanmaq barəsində göstəriş verdi. Mənbə məlumatına görə, Şah İsmayıl Şirvandan hərəkətə başlayanda Olumə Sultanı göndərdi ki, Herata gedib Təhmasib Mirzəni tez Təbrizə gətirsin (Amma məlumdur ki, Təhmasib Mirzə bu zaman artıq Heratdan Təbrizə qayıtmışdı. Çox güman ki, Şah İsmayıl onun Təbrizdən gətirilməsini istəmişdi). Bildirilir ki, Şah İsmayıl hələ Ərdəbilə daxil olmamışdan əvvəl Təhmasib Mirzəni onun hüzuruna yetirmək mümkün oldu (176).

"Aləmara-yi Səfəvi"də isə bu məsələ bir qədər fərqli şəkildə təsvir olunmuşdur. Gecə yuxusuna gələn atası Şah İsmayıla belə dedi: "Ey fərzənd, gəl ki, sənin qədəmlərinin intizarındayam". Şah İsmayıl yuxudan ayılandan sonra padşahlıq və cahangirlik yaraqlarını kənara qoydu və ağ libas geyindi. Əmirlər maraqlananda, Şah İsmayıl dedi: "Məni bu fani dünyadan əbədi dünyaya ça-

ğırdılar. Daha bizim ova getməyimiz aradan qalxır. Gedin o ovları da azad edin". Şirvanı tərk edəndə isə Şah İsmayıl saray əmirlərindən olan Olumə Sultana belə bir məktub yazdı: "Durmuş xan, Təhmasib şahı götürüb tez və təcili Darül-irşad Ərdəbilə yola düşsün". Şahın bu göstərişi vaxtında yerinə yetirildi və o, Ərdəbilə daxil olmamış Təhmasib Mirzə Ərdəbilə çatdırıldı (177)

Təhmasib Mirzə hüzura yetişib təzim edəndə Şah İsmayılın gözlərindən yaş axmağa başladı və onu ağuşuna alıb qucaqladı. Əmirlər bu dəfə də göz yaşlarını saxlaya bilməməsinin səbəblərini Şah İsmayıldan soruşdular. Şah İsmayıl isə bildirdi ki, o, 12 yaşında olarkən müqəddəslərin köməyinə çatmaq üçün Gilandan hərəkata başlamış, Xəta hüdudlarından Hələb hüdudlarına və Durna çayının sahilinə kimi olan əraziləri ələ keçirmiş, Əlaüddövlə Zülqədəri, Türküstanın padşahı Şeybək xanı qətlə yetirmişdi. Şah İsmayılın dediyinə görə, indi o ehtiyat edirdi ki, bu zəhmət və əziyyətlə əldə etdiklərinin hamısı zay olsun və Təhmasib Mirzə səltənət şahlığının öhdəsindən gələ bilməsin. O istisna etmirdi ki, qılıncının zərbindən qorxub dağlarda gizlənmiş hakimiyyət həvəskarları onun dünyasını dəyişməsindən sonra hərəkətə gələcək və qızılbaş qoşunlarına qarşı ədəbsizlik nümayiş etdirəcəklər. Şah İsmayıl sonra əlavə etdi ki, onun ümidləri həzrət Əmir əl-mömüninə və həzrət məsumlara bağlı olsa da, qızılbaşlar arasında elə bir adam görmür ki, onu Şah Təhmasibin vəkili etsin və bununla, din və dövlət də əldən getməsin. Bundan sonra Şah İsmayıl bir daha Şahqulu ilə bağlı öz qəzəbini ifadə etdi və bəyan etdi ki, əgər Mirzəşah Hüseyni sağ olsaydı, onda onun dərdi olmazdı. Şah İsmayıla görə, qızılbaş əyanları arasında səltənət vəkili vəzifəsinə Div Sultandan yaxşı namizəd yox idi və bu fikrini o, saray əyanlarına və əmirlərinə də açıqladı. Sonra da Div Sultana buyurdu ki, onu oğlu Təhmasib Mirzənin vəkili təyin edir. Şah İsmayılın buyuruğuna əsasən, Div Sultan 7 il vəkili-mütləq olmalı, bütün saray əmirləri, qızılbaş qoşunları, sufilər birmənalı şəkildə ona itaət etməli idilər. Amma bu şərtlə ki, gərək Div Sultan qızılbaş qoşunlarını incitməyəydi və qoşun əhlini narazı salmayaydı. Təhmasib şah 18 yaşına çatandan sonra isə dövlət idarəçiliyini bütünlüklə öz əlinə almalı idi (178).

Div Sultan bu sözləri eşidəndən sonra Şah İsmayılın qarşısında təzim etdi və bir daha itaətini bəyan etdi. Şah İsmayıl sonra qızılbaş əmirlərinə öz vəsiyyətini çatdırdı və onlara tövsiyə etdi ki, heç bir zaman öz aralarında nifaq etməsinlər. Qarşılıqlı anlaşma və ittifaqda olmağı o, sufiliyin tələblərindən bir kimi dəyərləndirdi. Şah İsmayılın fikrincə, qızılbaşlar öz aralarında ittifaqda və qarşılıqlı anlaşmada olduqları təqdirdə dörd tərəfi bürüyən düşmənlər də onlara heç nə edə bilməzdilər. Sonra Şah İsmayıl qızılbaş əyanlarına çoxlu nəsihətlər etdi və onlara bildirdi ki, nə qədər ki, aranızda ittifaq var, heç bir padşah sizin üstünüzə hücum etmək iradəsinə malik deyil. Çünki onların hamısı qızılbaşlardan qorxurdular. Həmin anlarda Şah İsmayılın hərarəti xeyli dərəcədə yüksəldi və sonrakı 2-3 gün ərzində də bu hərarət enmədi. Vəziyyəti o qədər ağırlaşdı ki, Şah İsmayıl hətta namazı da oturduğu yerdə qılmağa məcbur oldu. Ətrafına əmirlərin və əyanların toplaşdığı günlərin birində Şah İsmayıl bəyan



*Şah İsmayılın qəbri*

etdi ki, üç gündən sonra dünyanı tərk edəcəkdir. Şah İsmayıl onu da əlavə etdi ki, Əmir əl-mömünin də yuxuda ona Təhmasib Mirzəni şahlıq taxtına çıxarmağı buyurmuşdur. Çünki Şah İsmayılın övladları içərisində yalnız Təhmasib Mirzə bu qabiliyyətə malik idi (179).

Dünyasını dəyişməsi ərəfəsində Şah İsmayıl bütün böyük əmirləri, ağsaqqalları, qızılbaş qoşunları əmirlərini yanına topladı, onların yanında şahlıq tacını Təhmasib Mirzənin başına qoydu, belindəki kəmərini onun belinə bağladı, boynunu qucaqladı, əcdadlarından eşitdiyi öyüdləri onun qulağına söylədi, sonra da onun adına xütbə oxudu. Dediyi kimi, üçüncü gün onun ağrıları xeyli şiddətləndi. Həmin gün Şah İsmayıl böyük əmirlərin hər biri ilə vidalaşdı və sonra da onlardan xahiş etdi ki, çadırı tərk etsinlər və onu tənha buraxsınlar. Bütün əmirlər Şah İsmayılın olduğu çadırı tərk etdilər. Sonra Şah İsmayıl oğlu Təhmasib Mirzənin də onu tək qoymasını istədi və ona dedi: "Ey gözümün işığı oğlum, sən də çıx bayıra". Təhmasib Mirzə isə ona belə cavab verdi: "Ey möhtərəm ata, sənə qurban olum! İcazə ver, mən qalım". Təhmasib Mirzə hiss etdi ki, Şah İsmayıl nə isə demək istəyir. Qalxmaq istəsə də özündə güc tapa bilmədi. Sonra o əlini dodaqlarına aparmaq istədi. Yenə gücü çatmadı, əli yanına düşdü və Şah İsmayıl özündən getdi. Təhmasib Mirzə (mənbələrdə o artıq Şah Təhmasib kimi təqdim olunub) ona yaxınlaşıb gördü ki, Şah İsmayıl daha dünyasını dəyişib. Şah Təhmasib başındakı tacını yerə qoydu və haray çəkərək göz yaşı axıtdı. Onun səsinə digər böyük əmirlər də gəlib Şah İsmayılın keçinməsindən xəbər tutdular. Mənbə məlumatlarına görə, əmirlər və qızılbaş qoşunları arasında böyük bir qiyamət yaşandı, haray və inilti ətrafı bürüdü. Yas əlaməti olaraq heyvanların yalları və quyruqları qırxıldı (180).

Şah İsmayılın dünyasını dəyişməsi səltənət daxilində dərin bir hüzn ilə qarşılandı, şəhərlər və yaşayış məntəqələri qaraya boyandı. Bəzi məlumatlara görə, Şah İsmayılın ölüm xəbərini alan Səfəvi müridləri əyinlərinə kəfəni xatırladan ağ libas geyinib başlarını xəncərlə yaralayır və sonra da al qana boyanırdılar. Belələrindən hətta dünyasını dəyişənlər də olurdu.

Şah İsmayılın dəfn mərasiminə Astrabaddan olan dini işlər sədri Əmir Camaləddin Məhəmməd rəhbərlik edirdi. Ölkənin ən nüfuzlu, ən hörmətli din xadimləri, dövlətin əmirləri, əyanları, sufi xəlifələri və müridləri bu mərasimdə iştirak edirdilər. Əmir Camaləddinin rəhbərliyi altında Şah İsmayılın nəşi yuyulub kəfənə büküldü və dəfn namazı qılındı. Sonra da Şah İsmayılın nəşi Əmir Camaləddinin rəhbərliyi, pak sufilər dəstəsinin və qorçuların müşayiəti ilə Ərdəbilə yola salındı. O, Şeyx Səfi türbəsində ulu əcdadı Şeyx Səfiəddinin qəbri yanında dəfn edildi (181).

## 5. İstifadə olunmuş mənbə və ədəbiyyat


1.Şah İsmayıl Xətayi. Keçmə namərd körpüsündən... Əsərləri. Bakı, 1988, s. 85
2. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389, s. 72-73
3. Xünci Ə.H. Tarix-e Şah İsmayıl Səfəvi. Ərməğan avəran-e təşəyyo. S. 9
http://www.aqeedeh.com/book_files/pdf/fa/tarikh-shah-esmaeil-safavy PDF.pdf
4. Xünci Ə.H. Tarix-e Şah İsmayıl Səfəvi. Ərməğan avəran-e təşəyyo. S. 9
http://www.aqeedeh.com/book_files/pdf/fa/tarikh-shah-esmaeil-safavy-PDF.pdf
5. Gəncalp G. Səfəvilər. Bakı, 2012, s. 72
6. Xünci Ə.H. Tarix-e Şah İsmayıl Səfəvi. Ərməğan avəran-e təşəyyo. S. 59
http://www.aqeedeh.com/book_files/pdf/fa/tarikh-shah-esmaeil-safavy-PDF.pdf
7. Gəncalp G. Səfəvilər. Bakı, 2012, s. 110, 122
8. Ələmara-yi Şah İsmayıl. Tehran, 1384, s.58
9. Gəncalp G. Səfəvilər. Bakı, 2012, s. 122
10. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 231
Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 118
11. Gəncalp G. Səfəvilər. Bakı, 2012, s. 105-107
12. Rumlu H. Əhsən-üt təvarix. Tehran, 1349, s. 619
13. Xandəmir. Tarix-e həbib üs-siyər. Tehran, c. IV, 1380, s. 427
Mirzə Məhəmməd Tahir Vahid Qəzvini. Tarix-e cahan ara-ye Abbasi. Təbriz, 1383, s. 25
Məhəmməd Möhsün Mustofi. Zubdat təvarix.Tehran, 1375, s. 47
Əbülhəsən Qəzvini. Fəvayed-e səfəviyyə. Tehran, 1367, s. 6
Budaq Münşi Qəzvini. Cəvahir ül-əxbar. Tehran, 1378, s. 94
14. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 36
15. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Ələmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s. 106, 110
16. Ələmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 29
17. Əbülhəsən Qəzvini. Fəvayed-e səfəviyyə. Tehran, 1367, s. 6
18. Ələmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 71
Ələmara-yi Səfəvi. Tehran, 1350, s. 75
19. Ələmara-yi Səfəvi. Tehran, 1350, s. 133
20. Ələmara-yi Səfəvi. Tehran, 1350, s. 308-309
Ələmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 362
21. Ələmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 151-155
22. Xurşah ibn Qubad Hüseyni. Tarix-e ilçi-ye nizam şah. Tehran, 1379, s. 71
23. Ələmara-yi Səfəvi. Tehran, 1350, s. 426
Ələmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 480
Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 470

24. Həsən Rumlu. Əhsənüt təvarix (tərcüməsi O.Əfəndiyevə və N.Musalıya məxsusdur). Kastamonı, 2017, s. 356, 421
25. Gəncalp G. Səfəvilər. Bakı, 2012, s. 131-132
26. Yenə orada, s. 122
27. Şah İsmayıl Xətayi. Keçmə namərd körpüsündən... Əsərləri. Bakı, 1988, s. 145
28. Gəncalp G. Səfəvilər. Bakı, 2012, s. 110, 112
29. Xünci Ə.H. Tarix-e Şah İsmayıl Səfəvi. Ərməğan avəran-e təşəyyo. S. 60 http://www.aqeedeh.com/book_files/pdf/fa/tarikh-shah-esmaeil-safavy-PDF.pdf
30. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 454
31. Məhəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 374-375
32. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 456 Məhəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 382
33. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 456 Məhəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 382
34. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 457 Məhəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 381-382
35. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 457 Məhəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 382-383
36. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 457 Məhəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s. 383
37. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s.32-40
38. Yenə orada, s. 47
39. Daun C. Arif-e tacdar. I cild. Tehran, 1389, s. 585-586
40. Yenə orada, s. 587
41. Yenə orada, s. 588
42.Мехтиев Р. Шах Исмаил Сефеви. Портрет правителя и воина. Баку, 2014, с. 168
43. Pənahi Semnani. Şah İsmayıl. Mürşid-e sorx kolahan. Tehran, 1371, s.259
44. Yenə orada
45. Yenə orada, s. 260
46. Yenə orada, s. 260-261
47. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.110
48. Петрушевский И.П. Азербайджана в XVI-XVII веках, с. 232/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298
49. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 260, 273

50. Yenə orada, s. 759-760
51. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 58
52. Eşton Metz, Con Bark. Şah-e cəng-e iraniyan dər Çaldıran və yunan. Tehran, 1363, s. 421-423
53. Gəncalp G. Səfəvilər. Bakı, 2012, s.201
54. Xünci Ə.H. Tarix-e Şah İsmayıl Səfəvi. Ərməğan avəran-e təşəyyo. S. 77 http://www.aqeedeh.com/book_files/pdf/fa/tarikh-shah-esmaeil-safavy-PDF.pdf
55. Yenə orada, s. 133
56. Yenə orada, s. 129
57. Gəncalp G. Səfəvilər. Bakı, 2012, s.201
58. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 398
59. Yenə orada, s.398
60. Yenə orada, s.487-488
61. Yenə orada, s. 761
62. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 85
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.105
63. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 103
64. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.74
65. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s.142
66. Xonabedi M. Rövzət üs-səfəviyye. Tehran, 1378, s. 179
67. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib-ül siyər, c.IV, s.478
Bəşir Ş. Şah İsmayıl və qızılbaşan: adəmxori dər tarix-e məzhəbi sədr-e dövre-ye Səfəvi, s.204/ "Peyam-e Baharestan", N-16, 1391, s.198-221 http://www.ensani.ir/storage/Files/20131214105308-9483-142.pdf
68. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.131
69. Yenə orada, s. 142
70. Məhəmməd Yusif İsfahani. Xolde bərin. Tehran, 1372, s. 245
Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib-üs siyər, c.IV, s.552
71. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.90
72. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 132
73. Xonabedi M. Rövzət üs-səfəviyye. Tehran, 1378, s. 241
74. Eşton Metz, Con Bark. Şah-e cəng-e iraniyan dər Çaldıran və yunan. Tehran, 1363, s. 423
75. Bax: Məmmədov Ə. Şah İsmayıl Xətayi. Bakı, 1961, s. 14
76. Петрушевский И.П. Азербайджана в XVI-XVII веках, с. 243/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298
77. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 766
78. Qiyasəddin ibn Hümaməddin Hüseyni Xandəmir. Tarix-e həbib-üs siyər, c.IV, s.453

79. Петрушевский И.П. Азербайджана в XVI-XVII веках, с. 243/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 676
Fərzəliyev Ş. Qiyasıddin Xandəmir və Həsən bəy Rumlu Şah İsmayıl Xətayinin fərdi xüsusiyyətləri haqqında, s.85 /Şah İsmayıl Xətayi (Məqalələr toplusu), Bakı, 1988, s.78-87
80. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u badobəl-e xareci. Tehran, 1376, s. 53
81. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s. 53
Петрушевский И.П. Азербайджана в XVI-XVII веках, с. 243/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 677
82. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.54-55
83. Rzaqulu xan Hidayət. Tarix-e rövzə üs-səfa-ye Naseri. Cild həştom. Tehran, 1380, s. 6346
84. Петрушевский И.П. Азербайджана в XVI-XVII веках, с. 243/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298
85. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s. 53-54
86. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 687
87. Tahiri Ə. Tarix-e siyasi və ictimai-ye İran əz mərg-e Teymur ta mərg-e Şah Abbas. Tehran, 1383, s. 187.
88. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 685
89. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.54
90. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 719
91. Yenə orada, s. 770
92. Bastani Parizi (Məhəmməd İbrahimi). Siyasət və iqtisad dər əsr-e Səfəvi. Tehran, 1367, s.
93. Eşton Metz, Con Bark. Şah-e cəng-e iraniyan dər Çaldıran və yunan. Tehran, 1363, s. 423
94. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s.173-175
95. Bax: Musəvi T. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər ( XVI-XVIII əsrlər). Bakı, 1977, s.99-100
96. Pənahi Semnani. Şah İsmayıl. Mürşid-e sorx kolahan. Tehran, 1371, s. 230
Tahiri Ə. Tarix-e siyasi və ictimai-ye İran əz mərg-e Teymur ta mərg-e Şah Abbas. Tehran, 1383, s. 185.
Tehrani Şəfəq Ə. Əmiran-e Dərbar. Şərh-e hal-e xanədan-e sil-sepur (səfəviyye ta qacariyye). Tehran, 1385, 131
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 771

97. Tehrani Şəfəq Ə. Əmiran-e Dərbar. Şərh-e hal-e xanədan-e sil-sepur (səfəviyye ta qacariyye). Tehran, 1385, 131
98. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 771
Tahiri Ə. Tarix-e siyasi və ictimai-ye İran əz mərg-e Teymur ta mərg-e Şah Abbas. Tehran, 1383, s. 185.
99. Pənahi Semnani. Şah İsmayıl. Mürşid-e sorx kolahan. Tehran, 1371, s. 230
100. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.52, 54
101. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 771
102. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.79
103. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 771
104. Yenə orada, s. 772
105. Yenə orada, s. 773
106. Eşton Metz, Con Bark. Şah-e cəng-e iraniyan dər Çaldıran və yunan. Tehran, 1363, s. 318
Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.150
107. Eşton Metz, Con Bark. Şah-e cəng-e iraniyan dər Çaldıran və yunan. Tehran, 1363, s. 319
108. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.162
109. Ağacəri S.H. Müqəddəme-i bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 76
110. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.144
111. Yenə orada, s. 281-282
112. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 769, 794
113. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 794
Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.55
114. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.295
115. Yenə orada, s. 296
116. Conabedi M. Rövzər üs-Səfəviyye. Tehran, 1378, s.358
117. Tahiri Ə. Tarix-e siyasi və ictimai-ye İran əz mərg-e Teymur ta mərg-e Şah Abbas. Tehran, 1383, s. 201-202.
118. Bax: Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.138
119. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 625
از مهابت آن حضرت هیچ کس از سپاه ابواب تعدی و تقلب بر روی خلایق نمی گشود.
120. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.138
121. Yenə orada, s. 125-127

122. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s.181-182
123. Bax: Məmmədov Ə. Şah İsmayıl Xətayi. Bakı, 1961, s. 22
124. Bax: Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 750
125. Braun E. Tarix-e ədəbiyyat-e İran əz ağaz-e əhd Səfəviyye ta zaman-e hazer. Tehran, 1345, s. 18
Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1385, s. 201
126. Məmmədov Ə. Şah İsmayıl Xətayi. Bakı, 1961, s. 29-50
127. Şer nümunələri "Şah İsmayıl Xətayi. Keçmə namərd körpüsündən.." Bakı, 1988-ci il kitabından götürülmüşdür.
128. Qasımlı M. Şah İsmayıl Xətayinin poeziyası. Bakı, 2002, s.6
129. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 750
Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.64
130. Bax: Musəvi T. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər ( XVI-XVIII əsrlər). Bakı, 1977, s.98-99
131. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s.37-38
132. Yenə orada, s. 36
133. Yenə orada, s. 173
134. Araslı H. Böyük Azərbaycan şairi Füzulu. Bakı, 1958, s. 71
135. Araslı H. Böyük Azərbaycan şairi Füzulu. Bakı, 1958, s. 71
Məmmədov Ə. Şah İsmayıl Xətayi. Bakı, 1961, s. 72-73
136. Əmini H. Karkərd-e izdivacha-ye siyasi miyan-e türkmanan-e qərn-e nohom-e hicri, s. 9. http://www.ensani.ir/storage/Files/20160312161453-9900-21.pdf
137. Əmini H. Karkərd-e izdivacha-ye siyasi miyan-e türkmanan-e qərn-e nohom-e hicri, s. 12. http://www.ensani.ir/storage/Files/20160312161453-9900-21.pdf
Hal bebinim madər-e Şah İsmayıl ki bud?
http://jahanshahakyky.blogspot.com/2014/02/blog-post_18.html
Həlimə bəgim. https://fa.wikipedia.org/wiki/حلیمه_بیگم
138. Gəncalp G. Səfəvilər. Bakı, 2012, s.107
139. Daun C. Arif-e tacdar. Şah İsmayıl Səfəvi. C.II, Tehran, 1389, s. 726
140. Həlimə bəgim. https://fa.wikipedia.org/wiki/حلیمه_بیگم
141. Savory R. Taclı hanım: Çaldıran savaşında osmanlılar tərəfindən əsir alındımı, alınmadımı?
dergiparak.ulakbim.gov.tr/matad/article/view/5000148018/0
142. Cəfiyev T. Taclı xanımış hekayəti və ya Xoca Sədəddinin Osmanlı tarixlərində saldığı qarışıqlıq.
http://bao.az/categories_Tarix/subcategories_turk- xalqlar%C4%B1-tarix/product_8021587984

143. Gündüz T. Şah İsmailin eşi Taclı begüm. http://www.hbvdergisi.gazi.edu.tr/index.php/TKHBVD/article/viewFile/1095/1084
144. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye nizam şah. Tehran, 1379, s. 27-28
145. Gündüz T. Şah İsmailin eşi Taclı begüm. http://www.hbvdergisi.gazi.edu.tr/index.php/TKHBVD/article/viewFile/-1095/1084
146. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye nizam şah. Tehran, 1379, s. 28
Teklelei (Nuriyeva) M., Aliyeva F. Taclı begümün hayatı hakkında yeni olgular. http://dergipark.gov.tr/download/article-file/285807
147. Gündüz T. Şah İsmailin eşi Taclı begüm. http://www.hbvdergisi.gazi.edu.tr/index.php/TKHBVD/article/viewFile/1095/1084
148. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 80-81
149. Yenə orada, s. 82
150. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl əvvəl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.195
151. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye nizam şah. Tehran, 1379, s. 63
152. İskəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi. Bakı, 2009, s.121
153. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye nizam şah. Tehran, 1379, s. 63-64
154. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 83
155. Yenə orada, s. 95-96
156. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi. Tehran, 1375, s. 161
Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s.204
157. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1381, s.104
Mücirşeybani. Təşkil-e şahənşahi-ye Səfəviyye. Tehran, 1346, s. 204
Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s. 480
Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı, 2011, s.256
158. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 501
159. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl əvvəl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.229
160. Yenə orada
161. Bax: Teklelei (Nuriyeva) M., Aliyeva F. Taclı begümün hayatı hakkında yeni olgular http://dergipark.gov.tr/download/article-file/285807
162. Yenə orada

163. Yenə orada
164. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye nizam şah. Tehran, 1379, s. 28
Gündüz T. Şah İsmailin eşi Taclı begüm. http://www.hbvdergisi.gazi.edu.tr/index.php/TKHBVD/article/viewFile/1095/1084
165. Cəfiyev T. Taclı xanımış hekayəti və ya Xoca Sədəddinin Osmanlı tarixlərində saldığı qarışıqlıq. http://bao.az/categories_Tarix/subcategories_turk- xalqlar%C4%B1-tarix/product_8021587984
166. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl əvvəl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.231
167. Gündüz T. Şah İsmailin eşi Taclı begüm. http://www.hbvdergisi.gazi.edu.tr/index.php/TKHBVD/article/viewFile/1095/1084
168. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332, s. 70-71
169. Mənuçehr Parsadust. Şah İsmayıl əvvəl. Tehran, 1375, s.480
170. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl əvvəl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s.231-232
171. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-e elçi-ye nizam şah. Tehran, 1379, s.83
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 625
İsfahani, Məhəmməd Yusif. Xolde bərin. Tehran,1372, s. 204.
172. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl əvvəl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u ba dovəl-e xareci. Tehran, 1376, s. 209
173. Yenə orada, s. 199
174. Yenə orada, s. 204
175. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 359
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1347, s. 120
Xurşah ibn Qubad Əlhüseyni. Tarix-e elçi nizam şah. Tehran, 1379, s.79
176. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.621-622
177. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 598
178. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.623
179. Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 599-600
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.623
180.Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 600
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.624
181. Mirzə bəy Conabedi. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 360

# NƏTİCƏ

Azərbaycan xalqının dövlətçilik, ictimai-siyasi fikir və qəhrəmanlıq tarixində müstəsna xidmətlərə malik olan, hər zaman qürurla və dərin bir maraqla xatırlanan çoxlu sayda şəxsiyyətləri olmuşdur ki, onlardan biri də Şah İsmayıl Səfəvidir. O öz fenominal keyfiyyətləri ilə insan zəkasını heyrətdə saxlayan bir sima olmaqla yalnız Azərbaycan xalqının deyil, bütünlükdə bəşər tarixinin yetişdirdiyi görkəmli şəxsiyyətlərdən biri sayıla bilər. Çünki Şah İsmayıl öz həyatı və fəaliyyəti ilə nadir dövlətçilik təcrübəsini ortaya qoymuş dahilərdən biridir.

Şah İsmayılın dövlətçilik zəkası və təşkilatçılıq qabiliyyəti onun tarixi dəyərini təsdiq edə biləcək ən mühüm keyfiyyətlərdən biridir. Dünya təcrübəsində belə bir hal yoxdur ki, 12-13 yaşlarında bir uşaq ətrafındakı 7 nəfərlik hamisi ilə ayağa qalxsın və dünya mənzərəsini dəyişdirəcək yeni bir dövlət yaratmaq uğrunda hərəkata başlasın və qısa müddətdən sonra da kifayət qədər mürəkkəb və qeyri-münasib bir şəraitdə qarşısına qoyduğu nəhəng vəzifələrin həllinə nail olsun. Doğrudur, dünyü təcrübəsində daha erkən yaşlarda da hakimiyyətə yiyələnmək halları ilə rastlaşmaq mümkündür. Lakin belələri irsən və özü də hazır olan bir hakimiyyətə yiyələnmişdilər. Şah İsmayıl isə kiçik yaşlarında valideyn və ətrafındakıların qayğısına möhtac olmalı olduğu halda bölgədə fırtına qoparan bir hərəkatın lideri, ideya-siyasi ilhamvericisi, on minlərlə insanı öz ətrafında birləşdirən rəhbər olaraq mübarizə meydanına atıldı, bölgənin kifayət qədər güclü dövlətlərini qarşısında diz çökməyə məcbur etdi və Səfəvi dövləti kimi böyük bir imperiyanın əsasını qoydu. İlk baxışdan möcüzə kimi görünəcək bir nəticəyə sahib olması elə Şah İsmayılın şəxsiyyətinin möcüzəsi sayıla bilər.

Kiçik yaşlarında olmasına baxmayaraq Şah İsmayıl birmənalı şəkildə başladığı hərəkatın lideri idi. Bu hərəkatın ideya-siyasi xətti, məqsəd və vəzifələri, inkişaf dinamikası, hərəkətverici qüvvələri, strategiyası Şah İsmayıl tərəfindən müəyyənləşdirilirdi və onun rəhbərliyi altında da həyata keçirilirdi. Yəni, on minlərlə insan, təəssübkeş və tərəfdar Şah İsmayıln iradəsinin icraçısına çerilmişdilər. Özü də bu on minlərlə insan əmin idi ki, hansı yaşda olmasından asılı olmayaraq yalnız Şah İsmayılın rəhbərliyi altında başlanan hərəkatı uğurlu sonluğa çatdırmaq mümkün olacaqdır.

1501-ci ildə Şah İsmayıl Azərbaycan ərazisində Təbriz şəhəri paytaxt olmaqla mərkəzləşdirilmiş dövlət yaratdı, Azərbaycan ərazisində əvvəllər mövcud olmuş Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin üzərində dövlətçiliyi keyfiyyət baxımından yeni bir səviyyəyə qaldırdı. Azərbaycana sahib olmağı hələ hərəkatının əvvəlində bütün tərəfdarlarına bəyan edən və onların dəstəyini alan Şah İsmayıl bu məqsədə nail olandan sonra səltənətin hüdudlarının genişləndirilməsinə başladı və bütün Azərbaycanı, bütün müasir İranı, Türkiyənin, İra-

qın, Əfqanıstanın və Orta Asiyanın müəyyən hissələrini özündə birləşdirən böyük bir imperiyanı yaratdı.

Şah İsmayıl hərəkatının hərəkətverici qüvvəsini ilk növbədə Azərbaycanın yerli əhalisi, Azərbaycana və Yaxın Şərqə səpələnmiş türk tayfaları, qonşu vilayətlərin əhalisi təşkil edirdi. Şah İsmayıl hərəkatı ərəfəsində Azərbaycan ərazisində və eləcə də bölgədə mövcud olan siyasi parçalanmalar, daxili çəkişmələr, dağınıqlıq və qeyri-sabitlik nəticəsində həyat çətinlikləri ilə qarşılaşan insanlar Şah İsmayılın hərəkatında daha istiqrarlı bir həyatın işığını gördülər və onun ətrafında səfərbər oldular.

Şah İsmayıl Azərbaycan dövlətçiliyinin daha səbatlı bir təcrübəsini yaratdı və kifayət qədər işlək və səmərəli bir idarəçilik sistemi təşkilatlandırdı və özündən sonrakı nəsillərə miras qoydu. Bu dövlətçilik sistemi də Şah İsmayılın dövlətçilik təfəkkürünün əyani ifadə forması idi. Xüsusilə, Azərbaycan torpaqlarının vahid dövlət çərçivəsində birləşdirilməsi Azərbaycanın dövlətçilik tarixinin yeni bir səhifəsini təşkil edirdi.

Şah İsmayıl hərəkatı və onun ideya qaynağını təşkil edən Səfəvi təriqət hərəkatı da Azərbaycan həytının yetişdirdiyi bir hərəkat idi. Bu mənada bəzi müəlliflərin öz yazılarında istər Səfəvi təriqət hərəkatının, istərsə də Səfəvi dini-siyasi hərəkatının Azərbaycan həyatından qoparmaq cəhdinin elmi-tarixi əsasları yoxdur və bunun sübut edilməsi üçün ortaya atılan iddiaların əsaslandığı dəlillər də etibarlılığı ilə seçilmir. Səfəfi təriqət hərəkatının banisi olan Şeyx Səfiəddin də, onun sələfləri və xələfləri də Azərbaycan türkləri idilər. Şeyx Səfiəddinin Azərbaycan türkcəsində miras qoyduğu əsərlər də onun Azərbaycan həyatı ilə bağlılığının təsdiqi sayıla bilər.

Ümumən, Şeyx Səfiəddin tərəfindən əsası qoyulan Səfəvi təriqət hərəkatının Şah İsmayılın bir tarixi şəxsiyyət kimi formalaşmasına olan təsiri də diqqətdən kənarda qalmamalıdır. Səfəvi təriqət hərəkatının əsası XIII əsrdə qoyulsa da, Şah İsmayıl hərəkatının başlandığı vaxta qədər kifayət qədər canlı və kütləvi bir hərəkat olaraq qalmaqda idi. Bu hərəkat dini etiqad birliyi kimi ortaya çıxaraq bəşəriliyi ilə çox böyük coğrafiyaya yayılmış və on minlərlə insanı öz ağuşuna almışdı. Vaxt ötdükcə bu hərəkat ictimai məzmun, Sultan Cüneydin dövründə isə həm də siyasi məzmun kəsb etməyə başlamışdı. Şah İsmayıl həm də Səfəvi təriqətinin mürşidi-kamili idi. Öz hərəkatında dini və siyasi məzmunu vəhdət şəklində birləşdirə bilməsi və bu vəhdəti insanların əqidəsinə çevirə bilməsi də Şah İsmayılın liderlik keyfiyyətinin daha bir parlaq nümayişi idi. Şah İsmayıl hərəkatında dini və siyasi məzmunları bir-birindən ayırmaq mümkün deyil. Bu məzmunlar ayrı-ayrılıqda gözlənilən nəticəni verə də bilməzdi. Amma bu məzmunları bir-birinə qovuşdurmaqla qarşısına qoyduğu ali məqsədə çatmaq üçün Şah İsmayıl daha təsirli və qətiyyətli bir qüvvə və vasitə əldə etmiş oldu.

Şah İsmaıyl hərəkatına qoşulmuş olan türk tayflarının üzvləri həm də Səfəvi müridləri idilər və bir mürid kimi mürşidi-kamil olan Şah İsmayıla onlar sonsuz sədaqətlə bağlı idilər. Bu bağlılıq bəzi hallarda ifrat şəkildə də özünü göstərirdi. Doğrudur, bu ifratlığı Şah İsmayıl qəbul etmirdi. Lakin mürşid-mürid

arasındakı bu münasibətlər Şah İsmayıl hərəkatı daxilində intizamın, təşkilatçılığın əldə edilməsinin başlıca vasitələrindən biri oldu.

Kiçik yaşlarında olmasına baxmayaraq kütləvi bir təriqətin və siyasi hərəkatın ideya rəhbəri və təşkilatçısı olması da Şah İsmayılın adına yazılacaq bənzərsis bir keyfiyyətdir. Bunun nəticəsi idi ki, Şah İsmayıl qonşu dövlətlərlə müqayisədə daha sabit bir dövlət qurmağa və onun daxilində sabit həyatın təmin edilməsinə nail olmuşdu.

Şah İsmayıl yalnız təriqət və siyasi hərəkat lideri deyildi. O həm də Azərbaycan və dünya hərb tarixinin ən yaddaqalan simalarından biridir. Şah İsmayıl dünya tarixinin az-az tanınmış şəxslərindəndir ki, həm siyasi rəhbərliyi, həm hərbi rəhbərliyi, həm də döyüşçülüyü özündə birləşdirmişdi.

Şah İsmayıl soyuq silah dövrünün son böyük cəngavərlərindən biri sayıla bilər. Onda heyrət ediləcək bir fiziki güc var idi və onun döyüşkənliyi də bu fiziki gücdən qaynaqlanırdı. Hərəkatına başladığı ilk günlərdən də Şah İsmayıl bu hərəkatın vuran əli idi və sonsuz bir fədakarlıqla bütün döyüşlərin ən qaynar nöqtəsinin gərginliyini öz üzərinə götürərdi. Yəni, Şah İsmayıl hələ kiçik yaşlarından sayı on minlərlə hesablanan düşmən qoşunlarının pərən-pərən salınmasında misilsiz bir nümunə göstərirdi və bununla, bütün qoşunları da öz ardınca aparırdı. Fiziki güc baxımından Şah İsmayıl bütün Səfəvi döyüşçülərinə nümunə idi və ən güclü düşmən sərkərdələrinin qarşısına da özü çıxardı. Şah İsmayıl fiziki gücün hərbi məharətə çevrilməsinin təsəvvüredilməz bir təcrübəsini yaratmışdı. Müxtəlif taktiki fəndlərin tətbiqinə diqqət yetirilsə də, Şah İsmayıl öz döyüşlərini daha çox məhz fiziki gücün üzərində qururdu. Həmin fiziki gücün zaman amili ilə istedadla əlaqələndirilməsi isə onun qatıldığı döyüşlərin uğurunun əldə edilməsinin başlıca səbəblərindən birinə çevrilərdi. Bu baxımdan Çaldıran döyüşündə Şah İsmayılın qərar tutduğu cinahda say və təchizat baxımından Səfəvi qoşunlarından müqayisəedilməz dərəcədə fərqlənən Osmanlı qoşunlarına qarşı nümayiş etdirilən fırtına dünya hərb tarixində fiziki gücün hərb məharətinə çevrilməsinin ən yaddaqalan nümunəsi ola bilər.

Şah İsmayıl böyük fateh idi, dünya fatehləri arasında özünə layiqli bir yer tutmuş Azərbaycan türkü idi. Yaşının xeyli az olmasına baxmayaraq son dərəcə döyüşkən bir qoşun formalaşdıra bilmişdi. Əsasını Azərbaycana və Anadoluya səpələnmiş türk tayfaları təşkil edən Səfəvi qoşunları nizamı, intizamı, mübarizliyi, döyüşkənliyi, ardıcıllığı, sərkərdəsinə sonsuz sədaqəti ilə fərqlənən bir hərbi qüvvə idi. Şah İsmayılın qayğısı və tələbkarlığı bu qoşunların zərbə qüvvəsini xeyli artırmışdı. Bu qoşunların döyüş fəaliyyəti Şah İsmayıl tərəfindən planlaşdırılır və onun şəxsi rəhbərliyi altında həyata keçirilirdi. Şah İsmayıl tərəfindən rəhbərlik edilən Səfəvi qoşunları soyuq silah dövrünün ən döyüşkən qoşunlarından biri idi. Məhz bu qoşunların mübarizliyi nəticəsində Şah İsmayıl 1501-ci ildə əsası qoyulmuş Səfəvi dövlətinin sərhədlərini xeyli genişləndirə bilmişdi.

Şah İsmayılın Azərbaycan dilinin və ədəbiyyatının inkişafında son dərəcə böyük xidmətləri vardır. O, Azərbaycan dilinin saray (rəsmi) statusunu daha da

möhkəmləndirdi, Səfəvi dövlətinin rəsmi dilinə çevirdi. Bununla, Şah İsmayıl Azərbaycan dilinin inkişafına yeni bir təkan verdi, Azərbaycan dilinə yeni bir münasibət formalaşdırdı.

Şah İsmayılın hakimiyyət illəri Azərbaycan dilində yaranan ədəbiyyatın da yeni bir səhifəsi sayıla bilər. O özü Azərbaycan dilli ədəbiyyatın ən gözəl nümunələrini yaratdı və bununla Azərbaycan dilində olan ədəbiyyatın da inkişafına yeni bir təkan verdi. Özü xalq həyatınından və yaradıcılığından irəli gələn şer janrlarında son dərəcə sadə və anlaşıqlı dildə əsərlər yaratmaqla bəbarər, Şah İsmayıl çoxlu sayda şairlərin səmərəli yaradıcılığına geniş meydan açdı.

Bədii yaradıcılığında əhatə etdiyi mövzularla Şah İsmayıl ictimai fikir tarixində də dərin izlər buraxmış bir şəxsiyyətdir. Şah İsmayılın hakimiyyətə gəlməsi ilə mədəniyyətin, rəssamlığın, memarlığın inkişafında da yeni bir səhifə açıldı, xüsusi istedadı olan sənətkarlar Səfəvi sarayının qayğısı və himayəsi altına alındı.

Şah İsmayıl səmimiliyi və səxavəti ilə çoxlu sayda mənbə müəlliflərinin diqqətini özünə cəlb etmişdi. O, tək-tək səltənət sahiblərindən idi ki, dövlət xəzinəsini öz təbəələrinin xidmətinə gətirmişdi, xəzinədə toplanan vəsaitləri səltənət əhlinə paylayardı. Hətta bu sahədə də ifratlığa varırdı və səxavətliliyinin xəzinəsinin tamamilə boşalmasına gətirib çıxardığı hallar da olurdu.

Dövlətçiliyin qorunmasında isə Şah İsmayıl son dərəcə qətiyyətli idi və dövlətə qarşı çıxanlara və qiyam qaldıranlara qarşı amansızlıq nümayiş etdirməkdən çəkinmirdi. Zəmanəsinin yetirməsi kimi, Şah İsmayılın siyasətində dövrün ənənələrindən irəli gələn müəyən faktlarla da rastlaşmaq mümkündür. Baxmayaraq ki, belə faktlara istinad etməklə Şah İsmayılın şəxsiyyəti üzərinə kölgə salmaq meylində olanlar da vardır. Lakin bu faktlar Şah İsmayılın fenomenal və möcüzəvi bir düha olmasını şərtləndirən keyfiyyətlər qarşısında son dərəcə sönük, qeyri-xarakterik, ötəri hallardır. Şah İsmayılı fenomenal və möcüzəvi bir dahiyə çevirən keyfiyyətləri onun şəxsiyyətindən qoparmaq mümkün deyil və hansı zaman ötməsindən asılı olmayaraq o, zəkaları heyrətə salacaq bir insan kimi qalacaqdır.

## İstifadə olunmuş mənbə və ədəbiyyat

### Azərbaycan dilində


1. Abbaslı M. Şah İsmayıl Xətayinin ömür yolu miniatürlərdə. Bakı, 1981,
2. Ağasıoğlu F. İrəvan əhalisinin qədim əhalisi, s. 111/ Deportasiya. Bakı, 1998, s.110- 114
3. Araslı H. Böyük Azərbaycan şairi Füzulu. Bakı, 1958
4. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). I c., Bakı, 1994
6. Azərbaycan tarixi. III c. Bakı, 1999
7. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı, 2006
8. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı, 2015
9. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin etnik mənsubiyyəti, quruluşu. I yazı http://www.anl.az/down/meqale/xalqcebhesi/2016/oktyabr/508424.htm
10. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin etnik mənsubiyyəti, quruluşu. II yazı http://www.anl.az/down/meqale/xalqcebhesi/2016/oktyabr/508604.htm
11. Bayramzadə S. Azərbaycançılıq tarixindən: ideyadan ideologiyaya/Müstəqilliyimiz əbədidir. Bakı, 2016, s. 147-154
12. Bayramzadə S., Rüstəmov R. Türkiyənin "Yeni Şafak" qəzetinin baş redaktoru İbrahim Karagülə cavab. http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl/itemlist/date/2017/3/10?start=10
13. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 2007
14. Cəfiyev T. Taclı xanımış hekayəti və ya Xoca Sədəddinin Osmanlı tarixlərində saldığı qarışıqlıq. http://bao.az/categories_Tarix/subcategories_turk- xalqlar%C4%B1-tarix/product_8021587984
15. Cəlaloğlu S. Azərbaycan tarixinə məzhəbçi baxış http://turaninfo/org/azrbaycan-tarixin-m'zhbci-baxis/html-0
16. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
17. Fərzəlibəyli Şahin Fazil. Azərbaycan və Osmanlı imperiyası. Bakı, 1994
18. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakıı, 1983
19. Fərzəliyev Ş. Qiyasıddin Xandəmir və Həsən bəy Rumlu Şah İsmayıl Xətayinin fərdi xüsusiyyətləri haqqında, s.85 /Şah İsmayıl Xətayi (Məqalələr toplusu), Bakı, 1988, s.78-87
20. Fərzəliyev Ş. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, 2003
21. Gəncalp G. Səfəvilər. Bakı, 2012
22. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.
23. Qasımlı M. Şah İsmayıl Xətayinin poeziyası. Bakı, 2002

24. Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı, 2006
25. Mahmudov Y. Tarixi şəxsiyyətlərinizə sahib çıxaq. "Azərbaycan" qəzeti, 10 yanvar 2017
26. Mehdiyev R. Şah İsmayıl ali məramlı tarixi şəxsiyyət kimi, "Azərbaycan" qəzeti, 05 dekabr 2012-ci il
27. Məmmədov Ə. Şah İsmayıl Xətayi. Bakı, 1961
28. Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aəlara-yi Şah İsmayıl" əsəri əsa sında). Bakı, 2011
29. Musalı N. I Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin dövrləşdirilməsinə dair // Şah İsmayıl Xətai (elmi-praktiki konfr. materialları). Bakı: MBM, 2006, s.21-22
30. Musalı N. XVI əsrin birinci rübündə Azərbaycan Səfəvilər dövlətinin hərbi qüvvələri ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsərinin materialları əsasında) // Azərbaycan Səfəvilər dövlətinin yaranmasının 505 illiyinə həsr olunmuş elmi-praktiki konfransın materialları. Bakı: MBM, 2006, s.86-94
31. Musəvi T. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər ( XVI-XVIII əsrlər). Bakı, 1977
32. Nəcəfli T. Mərkəzləşdirilmiş Azərbaycan dövlətinin qurucusu: görkəmli dövlət xadimi Şah İsmayıl Xətai http://bao.az/categories_Tarix/subcategories_Tarixparent/product_2440742945
33. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012
34. Nəcəfli T. Səfəvilərin etnik mənsubiyyətinin mənşəyi müasir Türkiyə tarixşünaslığında. http://www.strategiya.az/chap.php?id=9600
35. Onullahi S. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi oçerk), Bakı, 1982
36. Rumlu H. Əhsənüt təvarix. Kastamonu, 2017
Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur. dokupdf.com/download/hsn-by-rumlu-hsnt-tvarix-oqtay-fndiyev-namiq-musal-5a3ce927d64ab2a614f64162_pdf
37. Solakzadə M. Tarix. Bakı, 1992
38. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlərin toplusu. Bakı, 2014
39. Şah İsmayıl Xətayi. Keçmə namərd körpüsündən... Əsərləri. Bakı, 1988
40. Şeyx Səfi təzkirəsi. Bakı, 2006
41. Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, 1998

**fars dilində**

42. Arimi M.İ. Tarix-e təməddon və fərhəng-e Səfəvi. Tehran, 1394
43. Astrabadi , Seyid Hüseyn ibn Murtuza Hüseyni. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358
44. Astrabadi Mirzə Mehdixan. Tarix-e cahanqoşa-ye Naderi. Tehran, 1368

45. Ağacəri S.H. Müqəddəme-i bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388
46. Aləmara-yi Səfəvi. Tehran, 1350
47. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384
48. Ərdəbili , İbn Bəzzaz. Səfvətüs-səfa. Təbriz, 1373
49. Əhməd Kamranifər. Təkapuha-ye nizami-ye səfəviyan dər rah-e rəsidən be qodrət (Cüneyd, Heydər, İsmayıl). www.ensani.ir/storage/Files/20120504170305-9016-3.pdf
50. Əhmədi N. Röya və siyasət dər əsr-e Səfəvi. Tehran, 1388
51. Əlirza Əfşar Cem. Şiri ba şəmşir. Tehran, 1383
52. Əmini ,Əmir Sədrəddin İbrahim. Fütuhati şahi. Tehran, 1383
53. Əmini H. Karkərd-e izdivacha-ye siyasi miyan-e türkmanan-e qərn-e nohom-e hicri, s. 9. http://www.ensani.ir/storage/Files/20160312161453-9900-21.pdf
54. Eşton Metz, Con Bark. Şah-e cəng-e iraniyan dər Çaldıran və yunan. Tehran, 1363
55. Bastani Parizi (Məhəmməd İbrahimi). Siyasət və iqtisad dər əsr-e Səfəvi. Tehran, 1367
56. Bəşir Ş. Şah İsmayıl və qızılbaşan: adəmxori dər tarix-e məzhəbi sədr-e dövre-ye Səfəvi, s.204/ "Peyam-e Baharestan", N-16, 1391, s.198-221 http://www.ensani.ir/storage/Files/20131214105308-9483-142.pdf
57. Braun R. Nizam-e əyalət dər doure-ye Səfəviyyə. Tehran, 1349
58. Braun E. Tarix-e ədəbiyyat-e İran əz ağaz-e əhd Səfəviyye ta zaman-e hazer. Tehran, 1345
59. Borazeş , Əmir Hüseyn. Rəvabet-e siyasi-diplomatik İran və cahan dər əhd-e Səfəviyye . Tehran, 1392
60. Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353
61. Bəyani X. Tarix-e nizami-ye İran. Tehran, 1353
62. Parsadust , Mənuçehr. Şah İsmayıl əvvəl. Tehran, 1375
63. Pənahi Semnani. Şah İsmayıl. Mürşid-e sorx kolahan. Tehran, 1371
64.Tahiri, Əbülqasım. Tarix-e siyasi və ictimai-ye İran. Əz mərg-e Teymur ta mərg Şah Abbas. Tehran, 1383
65. Tacbəxş Ə. Tarix-e Səfəviyyə. Şiraz, 1372
66. Tahiri , Əbülqasim. Tarix-e ictimai və siyasi-ye İran. Tehran, 1383
67. Tarix-e İran. Dövre-ye Səfəvi (Kembric tarixi). Tehran,1388
68. Tarix-e İran. Doure-ye Səfəviyan (Kembric Universitetinin araşdırması). Tehran, 1380
69. Tahiri Ə. Tarix-e siyasi və ictimai-ye İran əz mərg-e Teymur ta mərg-e Şah Abbas. Tehran, 1383
70. Təbrizi , Yəhya Zəka. Çequnegi-ye rah yaftən zəban türki be Azərbaycan. http://www.iranboom.ir/iranshahr/tireh-ha/2125-chegonegi-rah-yaftan.html
Tehrani Şəfəq Ə. Əmiran-e Dərbar. Şərh-e hal-e xanədan-e sil-sepur (səfəviyye ta qacariyye). Tehran, 1385

71. Təşkil-e şahənşahi-ye Səfəvi. Tehran, 1346
72. Cahanbəxş Səvaqeb, Foruğ Bazgir. Nəqş-e şamlu-ha dər təsis və tədavom-e dövlət- e Səfəviyye. S.26/ Pejuheşha-ye tarixi. 1394, N-1, s. 19-48
73. Cahanbəxş Səvaqib. Səfəvi şeyxləri ilə Şirvanşahlar arasında siyasi-hərbi münasibətlərin araşdırılması və təhlili (fars dilində) s. 24/ Pejuheşha-ye tarixi, N-1, 1392, s.1-34
74. Cahanqoşa-ye xaqan. İslamabad, 1986
75. Cəfərian Rəsul. Nəqş-i xanədan-e Kərəki dər təsis və tədavüm-e dövlət-e Səfəvi. Tehran, 1387
76. Cəmali , Məhəmməd Kərim Yusif . Zendeqani-ye şah İsmayıl Əvvəl. Tehran, 1376
77. Hal bebinim madər-e Şah İsmayıl ki bud? http://jahanshahakyky.blogspot.com/2014/02/blog-post_18.html
78. Həlimə bəgim. https://fa.wikipedia.org/wiki/حلیمه_بیگم
79. Hicazifər H. Şah İsmayıl-e əvvəl və cəng-e Çaldıran. Tehran, 1374
80. Hüseyni S.Əvamel-e siyasi-ictimai-ye təneş miyan-e səfəviyye və osmani. “Süxən-e tarix”. N-9, 1389, s. 28-29
81. Hümayun N.T. Təhəvolat-e qoşun dər tarix-e müasir-e İran. Cild I. Şekl gereftən-e niruha-ye nizami dər ağaz-e dövre-ye Qacariyye. Tehran, 1376
82. Hökumət-e Səfəviyan. http://hakhair.blogfa.com/post/17
83. Xəlili N. Mürmid-i kamil dər cəng-e Çaldıran. http:// m-hoseyni.ir. **مرشد کامل رد جنگ چالدران**
84. Xəlili N.Tarix-e Səfəviyye. Tehran, 1387
85. Xünci Ə.H. Tarix-e Şah İsmayıl Səfəvi. Ərməğan avəran-e təşəyyo. http://www.aqeedeh.com/book_files/pdf/fa/tarikh-shah-esmaeil-safavy-PDF.pdf
86. Xonabadi , Mirzə bəy. "Rövzətüs Səfəviyyə", Tehran, 1378
87. Xonci İsfahani , Fəzlullah ibn Ruzbeh. Aləmara-yi Əmini. Tehran, 1382
88. Xandəmir , Qiyasəddin. Tarix-e həbib-üs siyər. IV c.,Tehran, 1380
89. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379
90. Çaldıran. http://seeiran.ir/wp-content/uploads/2014/04/1-چالدران .jpg
91. Çaldıran və dəlayel-e şekəst-e səfəviyan ba təkye be əsnad/Fəsilname-ye rəvayət-e tarix. 1395, N-3
92. Daun C. Arif-e tacdar. I cild. Tehran, 1389
93. Raznəhan H., Dərikundi R., Belucnəhi İ., Biranvənd H. Zəmineha-ye voqu-e cəng-e Çaldıran və dəlayel-e şekəst-e səfəviyan ba təkye be əsnad/Fəsilname-ye rəvayət-e tarix. 1395, N-3, s.12
94. Ramazani , Abbas. Cəngha-ye tarix-e İran də əsr-e Səfəviyan. Tehran, 1391
95. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389
96. Rzaqulu xan Hidayət. Tarix-e rövzət üs-səfa-ye Naseri. Cild həştom. Tehran, 1380,
97. Rumlu, Həsən bəy. Əhsənüt təvarix. Tehran, 1349
98. Sadiqi Z. Tarix-e İran dər əsr-e Səfəvi. Tehran, 1392

99. Səfakiş , Məhəmməd Rza. Səfəviyan dər qozərqah-e tarix. Tehran, 1390
100. Səfakeş Ə. Səfəviyan dər qözərqah-e tarix. Tehran, 1390
101. Səfəviyan, təsbit konəndeqan-e zəban-e türkü dər Azərbaycan http://daneshjooqom.4kia.ir/info/272727/i/?getppsid=25343
102. Sevory R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391
103. Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1375
104. Seyvori R. Neqahi be nezam-e idari-ye əyaləti dər əvayel-e hökumət-e Səfəvi, s.224/ Fəsilname-ye Fərhəng , 1375, N-19, s. 223-246
105. Şah İsmayıl Səfəvi (Əsnad və məkatebat-e tarixi həmrah ba yaddaştha-ye təfsili) be ehtemam-e doktor Əbdülhüseyn Nəvayi. Tehran, 1347
106. Şeybani, Nizaməddin Mücir. Təşkil-e Şahənşahi-ye Səfəviyye. Tehran, 1345
107. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343
108. Faruq Sümər. Nəqş-e türkan-e Anatoli dər təşkil və tousəə-ye dövlət-e Səfəvi Tehran, 1371
109. Fəlsəfi N. Cəng-e Çaldran. Tehran,1332
110. Fəlsəfi N. Cəng-e mihəni-ye iraniyan dər Çaldran. Tehran, 1360
111. Fəlsəfi N. Şah Abbas-e əvvəl. I cild. Tehran, 1358
112. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387
113. Qəzvini , Budaq Münşi. Cəvahir əl-əxbar. Tehran, 1387
114. Qəzvini , Əbülhəsən. Fəvayed-e səfəviyyə. Tehran, 1367
115. Qəzvini , Mirzə Məhəmmədtahir Vahid. Tarix-e cahanara-ye Abbasi. Tehran, 1383
116. Qodyani A. Tarix-e fərhəng və təməddon dər İran dər əsr-e Səfəviyye. Tehran, 1384
117. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1374
118. Kəsrəvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535
119. Mehdəvi Ə. Tarix-e rəvabet-e xareci-ye İran. Tehran, 1369,
120. Məhəmməd Möhsün Mustofi. Zubdat təvarix.Tehran, 1375
121. Minorski. Sazman-e edari -ye hökumət-e Səfəvi. Tehran, 1334
122. Nader şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384
123. Nəfisi S. Tarix-e ictimai və siyasi-ye İran dər doure-ye moaser. C.I, Tehran, 1376
124. Nəcmi Nasir. Abbas Mirzə. Tehran, 1374
125. Nəvidi d. Təğyirat-e İctimai-iqtisadi dər İran-e əsr-e Səfəvi. Tehran, 1386
126. İbadi M. Bohran-e məşruiyyət-e səltənət-e Səlim-e əvvəl və ertebat-e an ba voqu-e cəng-e Çaldran// Tarix-e təməddon-e İslami. N-19, 1393
127. İsfahani , Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1372
128. Yusifcəmali M. Zendeqani-ye Şah İsmayıl ba negəreş-e cesmi, ruhi, zövqi, əxlaqi, məzhəbi və rəvabet-e u badobəl-e xareci. Tehran, 1376
129. Valser S.Ş. İran əz didqah-e səfərnameha-ye Avropaiyan. Tehran, 1364
130. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361
131.Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah İsmayıl Səfəvi.

Tehran, 1375
132. Vural G. Əz kax-e həşt beheşt ta kax-e topqapı. "Peyam-e Baharıstan" jurnalı, N- 12, 1390

**rus dilində**

133. Аббаслы М. К вопросу о происхождении Сефевидов. "Известия Академии Наук Азербайджанской ССР. Серия литературы, языка и искусства". 1973, N- 2,стр.36
134. Бакиханов А.Гюлистани Ирам. Баку, 1991
135. Локкарт Л. Надир шах. Баку, 2004
136. Махмудов Я. Взаимоотношения государств Аккойунлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991
137. Мехтиев Р. Шах Исмаил Сефеви. Портрет правителя и воина. Баку, 2014, 66
138. Петрушевский И.П. Государства Азербайджана в XV веке, с. 168/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.153-213
139. ХусейниширазиС. Военно-политические отношения Мавереннехра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014, (электрон. вариант)

**türk dilində**

140. Azimli D. Safevi-Osmanlı ilişkilerinde Doğu Anadolu meselesi (Ekonomik yönden) //Uşak universitesi Sosial Bilimler Dergisi, N-2/3, 2010 (http://bao.az/categories_Tarix/subcategories_turk-xalqlar%C4%B1-tarix/product_4391442082)
141. Akbarinoshad M. Şah İsmayıl və Osmanlı ilişkileri. Yüksek lisans tezi. Ankara, 2011 (https://dokupdf.com/queue/maryam-akbarinoshad-ah-smail-ve-osmanl-ilişkileri-yksek-lisans-tezi-ankara-2011-197-s-_5a01baf8d64ab2b9bd6a2ac2_p)
142. Alevi-Sünni sürtüşməsinin içyüzü. http://www.angelfire.com/al4/haydar/Alev5.sk.html
143. Anadolu'da Şahkulu İsyanı**.** http://tarih.tumders.com/anadoluda-sahkulu-isyani.html
144. Babek Cavanşir. İrandakı türk boyları ve boy mensubu kişiler. Doktora tezi. İstanbul, 2007. file:///C:/Users/User/Downloads/306-Safevi_Donemi-I.Shah_Tahmasb_Hakimiyetinin_Sonuna_Kadar-1576-Irandaki_Turk_Boylari_Ve_Boy_Mensubu_Kishiler(_Istanbul-2007).pdf
145. Dedeyev B. Safevi tarikatı və Osmanlı devleti ilişkileri. Uluslararası Sosyal Arastırmalar Dergisi. The Journal of International Social Research.Volume 1/5 Fall 2008

146. Ercan Y.Yavuz Sultan Selim ve dönemi.
https://www.tarihtarih.com/?Syf=26&Syz=381744&/Yavuz-Sultan-Selim-Dönemi -/-Prof.-Dr.-Yavuz-Ercan-
147. Erdoğan E. Safevi ordusunda bir birlik - kurçiler/Ankara universitesi Dil ve Tarih-Coğrafiya Fakultesi Dergisi. N.2, 2015, s.75-88
http://dergiler.ankara.edu.tr/dergiler/26/2047/21243.pdf
148. Erenler S. Şahkulu ayaklanması.
http://www.sadikerenler.com/upload/Sahkulu%20(Baba%20%20Tekeli)%20%20Ayaklanmasi.pdf
149. Etnik kökən tartışmalarının sarmalındaki Şah İsmayıl.
http://www.tarihakli.com/etnik-koken-tartismalarinin-sarmalindaki-sah-ismail-2/
150. Gündüz T. Şah İsmailin eşi Taclı begüm.
http://www.hbvdergisi.gazi.edu.tr/index.php/TKHBVD/article/viewFile/1095/1084
151. Hakyemez C. Osmanlı-İran ilişkileri ve sünni-şii ittifakı. İstanbul, 2014
152. Karaca B.Safevi devletinin ortaya çıkışı ve II Beyazid dönemi Osmanlı-Sefevi ilişkileri. https://www.tarihtarih.com/?Syf=26&Syz=381741
153. Kızılbaşlar tarihi. İstanbu, 2015
154. Məhəmmədinejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Elektron variant. Ankara, 2015.
*acikarsiv.ankara.edu.tr/browse/27592/tez.pdf*
155.Musalı N. Şah İsmail'in Annesi Alemşah Begüm: Efsaneler ve Gerçekler// Alevilik-Bektaşilik Araştırmaları Dergisi /2016 / 13, s. 35-59
156. Musalı N.Şeyh İbrahim Safevi döneminde Erdebil tekkesi//Türk kültürü Ve Hacı Bektaş Veli araştırma detgisi. Kış, 2016/sayı 80, s. 9-30
157. Rəmzi Kılıc. Fatih devri (1451-1481) Osmanlı-Akkoyunlu ilişkileri. Sosial Bilimlər Enstitüsü dergisi. 2003, N-1, s.95-118
http://sbedergi.erciyes.edu.tr/sayi_14/11_kilic.pdf
158. Savory R. Taclı hanım: Çaldıran savaşında osmanlılar tərəfindən əsir alındımı, alınmadımı?
dergiparak.ulakbim.gov.tr/matad/article/view/5000148018/0
159. Söylemez F. Yavuz Sultan Selimin taht mücadilesi. Sosyal Bilimler Enstitüsü Dergisi Sayı: 33 Yıl:2012/2, s.63-87
apbs.mersin.edu.tr/files/serdarhan/Publications_007.pdf
160. Sultan II. Bayezid.
https://historianyavuz.files.wordpress.com/2013/11/osmanlc4b1-tarihi-1-4-cilt- ismail-hakkc4b1- uzunc3a7arc59fc4b1lc4b1.pdf
161. Şah Kulu isyanı. https://alevikutuphanesi.wordpress.com/tag/sah-kulu-isyani1511/
162. Şah İsmayılın türk siyasəti və kulturel yeri.
https://turuz.com/book/title/shah-ismayilin-siyaseti-ve-kulturel-yeri

163. Şahkulu isyanı ve Karagöz Ahmet Paşa http://vadetamam.com/2015/04/sahkulu-isyan-ve-karagoz-ahmet-pasa.html
164. Şakir Keçeli Baba. Katletmediğimiz Şah İsmail Safevî Kalmıştı!.. www.refikengin.com/upload/files/.../744REHAÇAMUR.doc
165. Şükürov Q. Sefevi devletinin kuruluşu ve Şah İsmayıl devri. Yüksek lisans tezi. İstanbul, 2008
166. Teklelei (Nuriyeva) M., Aliyeva F. Taclı begümün hayatı hakkında yeni olgular. http://dergipark.gov.tr/download/article-file/285807
167. Tufan Gündüz. Son kızılbaş Şah İsmayıl. İstanbul, 2014
168. Türk Silahlı Kuvvetleri tarihi. III ncü cilt, 2 nci kısım eki. Osmanlı-İran savaşı. Çaldıran meydan müharibesi. 1514. Ankara, 1979
169. Veliyeva Zülfiye. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007 https://www.coursehero.com/file/13760238/167-Safevi-Devlet-Teshgilati-Tezkiretul- Muluke-Gore-Zulfiye-VeliyevaAnkara-2007/
170. Yavuz Sultan Selim han ve Şahkulu isyanı. http://gercektarihimiz.blogcu.com/yavuz-sultan-selim-han-ve-sah-kulu-isyani- 1511/4457250

## MÜNDƏRİCAT

**GİRİŞ ........................................................................................................ 3**

**I FƏSİL**
**ŞAH İSMAYILIN ƏCDADLARI**

1.Şah İsmayılın ulu əcdadları ........................................................ 8
2. Şeyx Səfiəddin ........................................................................ 13
3. Şeyx Sədrəddin ........................................................................ 26
4. Xacə Əli .................................................................................. 31
5.Şeyx İbrahim ............................................................................ 37
6. Şeyx Cüneyd ........................................................................... 40
a) Sultan Cüneydlə Qaraqoyunlu Cahanşah arasındakı münasibətlər ........................................................................ 41
b) Sultan Cüneydin Diyarbəkrə səfəri ..................................... 45
c) Sultan Cüneyd və Uzun Həsən münasibətləri ..................... 51
ç) Sultan Cüneydin Şirvana hücumu ....................................... 55
7) Sultan Heydər .......................................................................... 60
a) Sultan Heydərin Şirvana hücumu ........................................ 69
b) Sultan Heydərin Şirvanşah Fərrux Yasarla döyüşü ........... 73
8. Sultan Əli ................................................................................ 85
9. İstifadə olunmuş mənbə və ədəbiyyat .................................. 100

**II FƏSİL**
**SƏFƏVİ DÖVLƏTİNİN YARADILMASI**

1.İsmayıl Mirzənin anadan olması və sürgünlük həyatı ............ 109
2.İsmayıl Mirzənin Lahican həyatı ........................................... 114
3. İsmayıl Mirzənin öz hərəkatına başlaması ........................... 122
4. İsmayıl Mirzənin Ərdəbilə dönüşü ...................................... 127
5. İsmayıl Mirzənin Çuxursəəd yürüşü ................................... 135
6. Qızılbaş qoşunlarının Gürcüstan yürüşü ............................. 141
7. İsmayıl Mirzənin Şirvan yürüşü .......................................... 142
8. İsmayıl Mirzənin Bakı üzərinə hücumu ............................... 150
9. İsmayıl Mirzə ilə Ağqoyunlu Əlvənd Mirzə arasında Şərur döyüşü ....... 154
10. İsmayıl Mirzənin Təbrizə daxil olması və Səfəvi dövlətinin təsis edilməsi ................................................................................ 165
11. Şah İsmayıl ilə Əlvənd Mirzənin növbəti qarşılaşması ........ 169
12. Şah İsmayıl ilə Ağqoyunlu Sultan Murad arasında döyüş ... 173
13. İsfahan və Şirazın ələ keçirilməsi ...................................... 190
14. Dəmavənd-Rüstəmdar istiqamətində hərbi yürüş ............... 201
15. İstifadə olunmuş mənbə və ədəbiyyat ................................ 222

## III FƏSİL
## ŞAH İSMAYILIN SƏLTƏNƏT HÜDUDLARININ GENİŞLƏNDİRİLMƏSİ SAHƏSİNDƏKİ FƏALİYYƏTİ

1.Şah İsmayılın qərbə doğru hərbi yürüşləri ........ 233
2.Bağdadın ələ keçirilməsi ........ 247
3.Xuzistan və Luristan üzərinə hücum ........ 250
4.Şirvan üzərinə növbəti hücum ........ 256
5.Xorasanın fəthi ........ 258
a) Mərv döyüşü ........ 274
b)Mazandaranın ələ keçirilməsi ........ 290
c)Mərv döyüşünün nəticələri ilə bağlı Osmanlı sarayına elçilik göndərilməsi ........ 293
6. Şah İsmayılın Herata yürüşü ........ 294
7.Əmir Nəcmin rəhbərliyi altında Səfəvi qoşunlarının Türküstan yürüşü ........ 302
8.Şah İsmayılın Xorasana növbəti yürüşü ........ 323
9.İstifadə olunmuş mənbə və ədəbiyyat ........ 342

## IV FƏSİL
## ÇALDIRAN DÖYÜŞÜ

1.Sultan Bəyazidin hakimiyyəti illərində Səfəvi-Osmanlı münasibətləri .. 352
2. Anadoluda Şahqulu baba üsyanı ........ 367
3. Sultan Səlimin hakimiyyətə gəlişi və Səfəvi-Osmanlı münasibətlərinin yeni dövrü ........ 375
4. Səfəvi-Osmanlı münasibətlərinin gərginləşməsinin səbəbləri ........ 388
5. Sultan Səlimin Şah İsmayıla qarşı müharibə hazırlıqları ........ 397
a)Osmanlı qoşunları ........ 403
b)Şah İsmayıla qarşı müharibə fitvası ........ 408
6. Sultan Səlimin Şah İsmayıl üzərinə hərbi yürüşə başlaması. Sultan Səlim-Şah İsmayıl məktublaşması ........ 410
7. Osmanlı qoşunlarının rastlaşdığı çətinliklər ........ 429
8. Döyüşqabağı hərbi müşavirələr ........ 433
9. Qoşunların sayı və döyüşqabağı düzülüşü ........ 437
10. Çaldıran döyüşünün gedişi ........ 443
a) Döyüşün başlanğıc hissəsi ........ 443
b) Şah İsmayılın sağ cinahda döyüşə qoşulması ........ 448
c) Səfəvi qoşunlarının sol cinahında döyüşün gedişi ........ 455
ç) Səfəvi qoşunlarının uğursuzluğu ........ 457
e) Çaldıran döyüşünün nəticələri ........ 462
11.Sultan Səlimim Təbrizə daxil olması ........ 465
12. Sultan Səlimin Təbrizdə möhkəmlənə bilməməsinin səbəbləri ........ 473

13. Osmanlı qoşunlarının Təbrizi tərk etməsi. Şah İsmayılın Sultan Səlimə məktubu ........ 478
14.Osmanlı qoşunlarının Səfəvi dövlətinin qərb əyalətləri üzərinə hücumu ........ 490
15. Çaldıran döyüşü və Şah İsmayıl ........ 497
16.İstifadə olunmuş mənbə və ədəbiyyat ........ 508

## V FƏSİL
## ŞAH İSMAYILIN ÇALDIRAN DÖYÜNDƏN SONRAKI HƏRBİ-SİYASİ FƏALİYYƏTİ

1.Səltənət daxilində hərbi-siyasi sabitliyin təmin edilməsi ........ 520
2.Osmanlı qoşunlarının Misir üzərinə hücumu ........ 532
3.Sultan Səlimin Şah İsmayıla qarşı ittifaq yaratmaq cəhdləri ........ 538
4. Şah İsmayılın Naxçıvan səfəri ........ 543
5.Mazandaranda və Gilanda sabitliyin bərqərar edilməsi ........ 548
6."Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərləri Şah İsmayılın Osmanlı qoşunlarına qarşı yeni hərbi yürüşü haqqında .. 554
7. Şah İsmayılın həyatının son illəri ........ 562
8.İstifadə olunmuş mənbə və ədəbiyyat ........ 583

## VI FƏSİL
## ŞAH İSMAYILIN DÖVLƏTÇİLİK TƏCRÜBƏSİ

1. Dövlət idarəçiliyi ........ 589
  a) Səfəvi dövlətinin mənşəyi ........ 589
  b) Səfəvi dövlətinin hüdudları və idarəçilik sistemi ........ 605
  c) dövlət və din ........ 624
2.Səfəvi qoşunları ........ 628
  a) qoşunların təşkilatlanması ........ 628
  b) qoşunların idarə edilməsi və təchizatı ........ 642
  c) Şah İsmayılın hərb məharəti ........ 651
  ç) Şah İsmayılın hərb məharətinin etiqadla bağlılığı ........ 666
3. Şah İsmayılın xarici siyasəti ........ 670
  a) hind hakimləri ilə münasibətlər ........ 670
  b) Səfəvi dövlətinin Venesiya ilə əlaqələri ........ 674
  c)Səfəvi-Portuqaliya müansibətləri ........ 682
  ç) Şah İsmayılın digər Avropa dövlətləri ilə əlaqələri ........ 694
4. İstifadə olunmuş mənbə və ədəbiyyat ........ 698

## VII FƏSİL
## ŞAH İSMAYIL TARİXİN SINAĞINDA

1.Şah İsmayıl şəxsiyyətinə fərqli baxışlar ................................................ 708
a) Şah İsmayıl hərəkatının mahiyyətinin təhrif edilməsi cəhdləri .......... 709
b) Şah İsmayılın dini etiqadını təftiş etmək cəhdi ................................ 720
c) Qızılbaşlar insan əti yemişdilərmi? .................................................. 731
2) Şah İsmayılın fiziki və mənəvi keyfiyyətləri ........................................ 744
a)Şah İsmayıl özü haqqında ................................................................. 768
3.Şah İsmayılın ailəsi ................................................................................ 779
4 .Şah İsmayılın dünyasını dəyişməsi ...................................................... 795
5. İstifadə olunmuş mənbə və ədəbiyyat .................................................. 799

**NƏTİCƏ ........................................................................................ 807**

**İstifadə olunmuş mənbə və ədəbiyyat...................................................... 811**

“Elm və təhsil” nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədov
Texniki redaktor: Yadigar Mirbağırzadə

Çapa imzalanmış 14.03.2018
Şərti çap vərəqi 51,5. Sifariş № 45.
Kağız formatı 70x100 1/16. Tiraj 300.

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4